Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2010

I hissə

-18109-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2013

66.4(5Azə)
A 99

Redaksiya kollegiyasının sədri:

Elmar Məmmədyarov - *Xarici işlər naziri*

Redaksiya kollegiyasının üzvləri:

Əzimov Araz - *Nazir müavini*
Hüseynov Nadir - *Nazir müavini*
Xələfov Xələf - *Nazir müavini*
Məmməd-Quliyev Mahmud - *Nazir müavini*
Paşayev Hafiz - *Nazir müavini*
Əliyev Famil - *Tarix-Arxiv idarəsinin rəisi*
Həsənov Ramin - *Beynəlxalq Hüquq və Müqavilələr idarəsinin rəis müavini*
Abutalıbov Vasif - *Tarix-Arxiv idarəsinin I katibi*
Əhmədov Ruslan - *Tarix-Arxiv idarəsinin II katibi*

Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi. 2010. Birinci hissə.
Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.
Bakı, "Cool Print" MMC, 2013-cü il. - 1032 səh.

ISBN 978-9952-455-40-3



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi"nin silsilə nəşrini davam etdirir. Məcmuənin Məcmuənin növbəti buraxılışı 2010-cu ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışın böyük hissəsini AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar təşkil edir. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Kitabın ərsəyə gəlməsindəki köməklərinə görə AzərTac-ın bütün kollektivinə minnətdarlığımızı bildiririk.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilər, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

AZƏRBAYCAN İLƏ SVAZİLEND ARASINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR

Yanvarın 7-də Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyində qarşılıqlı anlaşma, əməkdaşlıq və dostluq əlaqələrini möhkəmləndirmək məqsədi ilə Azərbaycan Respublikası və Svazilend Krallığı arasında diplomatik əlaqələrin qurulması haqqında Birgə Rəsmi Sənəd imzalanmışdır.

Rəsmi sənədi Azərbaycan Respublikasının Hökuməti adından ölkəmizin BMT yanında daimi nümayəndəsi, səfir Aqşin Mehdiyev, Svazilend Krallığı Hökuməti adından Krallığın BMT yanında daimi nümayəndəsi, səfir Joel Musa Nhleko imzalamışlar.

AZƏRBAYCANIN BMT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ DAĞLIQ QARABAĞDAKI VƏZİYYƏTLƏ BAĞLI QURUMUN BAŞ KATİBİNƏ MÜRACİƏT ETMİŞDİR

Azərbaycanın BMT yanında daimi nümayəndəliyi Dağlıq Qarabağdakı vəziyyətlə bağlı qurumun baş katibi Pan Gi Muna məktub göndərmişdir.

Sənəddə Ermənistan hökumətinin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində götürdüyü öhdəliklərə əməl etməməsi xüsusi vurğulanmışdır.

Məktubda qeyd olunmuşdur ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı siyasi xətti beynəlxalq ictimaiyyəti çaşdırmaq və problemin mahiyyətini təhrif olunmuş şəkildə qəbul etdirmək təhlükəsini daşıyır. Bundan əlavə, münaqişənin həlli ilə bağlı Ermənistanın qeyri-konstruktiv mövqeyi məsələnin siyasi yolla həll olunmasına ciddi təhlükə yaradır.

Sənəddə Ermənistanın qeyri-konstruktiv mövqeyi kəskin tənqid edilərək vurğulanmışdır ki, Ermənistan hələ 1987-ci ilin sonlarında Xankəndində azərbaycanlılara qarşı hücumlara başlamış, bu da azərbaycanlı qaçqınların və məcburi köçkünlərin axınına səbəb olmuşdur. Sovet hakimiyyəti dövründə Ermənistan öz ərazilərini əsasən Azərbaycanın torpaqları hesabına genişləndirməyə müvəffəq olmuş və bununla belə, azərbaycanlıları doğma torpaqlarından qovmaq üçün bütün vasitələrdən istifadə etmişdir. Sovet hakimiyyəti dövründə Ermənistanın ərazisi 10 min kvadratkilometrdən 29 min kvadrat kilometrə qədər genişlənmişdir. Ermənistan hökuməti anlamalıdır ki, öz ərazisini bütün qeyri-ermənilərdən təmizləməklə dünyada yeganə monoetnik dövlətə çevrilmişdir. Lakin Azərbaycan bu günədək öz etnik müxtəlifliyini qoruyur. Həqiqətən də, Ermənistanın siyasi təcrübəsində irqi ayrı-seçkilik aydın şəkildə üstünlük təşkil edir.

Məktubda Ermənistana qarşı ciddi ölçü götürülməsi tələb olunur.

İRAN İLƏ AZƏRBAYCAN ARASINDA VİZA REJİMİ SADƏLƏŞDİRİLİR

İran İslam Respublikası Azərbaycan vətəndaşları üçün viza rejimini birtərəfli qaydada ləğv etməsi barədə ölkəmizin Xarici İşlər Nazirliyinə nota göndərmişdir.

Notada deyilir ki, bu il fevralın 1-dən İrana getmək istəyən Azərbaycan vətəndaşlarından viza tələb olunmayacaqdır.

AZƏRBAYCANIN XARİCDƏ BİR NEÇƏ NÜMAYƏNDƏLİYİ AÇILACAQDIR

Azərbaycan xaricdə 10-a yaxın diplomatik nümayəndəliyini açacaqdır.

Azərbaycanın xarici işlər nazirinin müavini Vaqif Sadıqov bildirmişdir ki, səfirliklər Serbiyada, Omanda, Argentinada, Tailandda, Xorvatiyada, Liviyada, Livanda və Estoniyada açılacaqdır. Batumidə isə baş konsulluq fəaliyyət göstərəcəkdir.

V.Sadıqov vurğulamışdır ki, hazırda Azərbaycanın xaricdə 65 diplomatik nümayəndəliyi vardır.

Nazir müavini demişdir: "Azərbaycanın ərəb ölkələri ilə əlaqələri genişlənir. Bu ölkələrin Azərbaycana marağı günbəgün artır. Ötən il Fələstin muxtariyyəti Azərbaycanda səfirliyini açmaq qərarına gəlmişdir".

AZƏRBAYCAN İLƏ QƏTƏR ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Dohada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yanvarın 12-də Qətər Dövlətinin Əmiri şeyx Həməd bin Xəlifə Al-Tani ilə görüşmüşdür.

E.Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin məktubunu Əmirə təqdim etmişdir. Məktubda Azərbaycan ilə Qətər arasında əməkdaşlıq əlaqələri və müştərək maraq doğuran məsələlərdən bəhs olunur.

Bundan əlavə, Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Qətərin Baş naziri və xarici işlər naziri Şeyx Həməd bin Casim bin Cabar ilə görüşmüşdür.

AZƏRBAYCAN İLƏ QƏTƏR ARASINDA DİPLOMATİK VƏ XÜSUSİ PASPORTLARA MALİK ŞƏXSLƏRİN VİZA TƏLƏBLƏRİNDƏN AZAD OLUNMASI HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Yanvarın 12-də Dohada "Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında diplomatik və xüsusi pasportlara malik şəxslərin viza tələblərindən azad olunmaları haqqında Saziş" imzalanmışdır.

Sənədi Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov, Qətər tərəfdən dövlət naziri Şeyx Məhəmməd bin Xalid Al-Tani imzalamışlar.

GÜRCÜSTANIN BATUMİ ŞƏHƏRİNDƏ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KONFRANS KEÇİRİLMİŞDİR

Yanvarın 14-də Gürcüstanın Batumi şəhərində enerji məsələləri üzrə konfrans keçirilmişdir.

Konfranda 11 ölkədən nümayəndə heyəti, Avropa Komissiyası nümayəndəliyinin rəhbəri Her Eklund iştirak etmişdir.

Azərbaycan konfransda Baş nazir Artur Rasizadənin rəhbərliyi etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Konfransdan əvvəl Baş nazir Artur Rasizadənin gürcüstanlı həmkarı Nikoloz Gilauri ilə təkbətək görüşü keçirilmişdir.

Gürcüstanın Baş naziri Nikoloz Gilauri konfransı açaraq demişdir ki, belə bir tədbirin Batumidə keçirilməsi bölgədə böyük layihələrin reallaşdırılmasında Gürcüstanın mühüm rol oynadığına sübutdur. Gürcüstan Azərbaycanın enerji ehtiyatlarının beynəlxalq bazara nəqlində etibarlı tərəfdaşdır. Bunu Gürcüstanın Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq layihələrə qoşulması təsdiq edir. Batumi konfransında bir sıra mühüm məsələlər müzakirə olunacaqdır. Əminəm ki, konfransın iştirakçılarının diskussiyalarda fəallığı səmərəli nəticə verəcəkdir. Enerji təhlükəsizliyi məsələsində Avropa İttifaqı səylərini artırmalıdır. Gürcüstan enerji təminatı ilə bağlı çətin vəziyyətdə qalanda Azərbaycan dostluq köməyini əsirgəmədi, bizi təhlükədən xilas etdi. Buna görə də Azərbaycan Respublikasının rəhbərliyinə gürcü xalqının minnətdarlığını bildiririk.

Sonra Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə çıxış edərək dövlətimizin başçısı İlham Əliyevin konfrans iştirakçılarına xoş arzularını çatdırmışdır. Konfransın dünya iqtisadiyyatının qlobal böhranla üzləşdiyi bir şəraitdə keçirildiyini bildirən A.Rasizadə böhranın sənayenin aparıcı sahələrinə, o cümlədən energetika kompleksinə də təsir göstərdiyini qeyd etmişdir.

Daha sonra Baş nazir istehsalçı, tranzit və istehlakçı ölkələrin enerji siyasətinin uzlaşdırılmasının vacibliyini qeyd etmiş, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadığını vurğulamışdır.

A.Rasizadə diqqətə çatdırmışdır ki, 2009-cu ildə Azərbaycanda 51 milyon tondan çox neft və 23,7 milyard kubmetr qaz hasil edilmişdir. 2010-cu ildə 52,5 milyon ton neft və 28,5 milyard kubmetr qaz çıxarılması nəzərdə tutulur. Azərbaycanın təbii qaz yataqlarının təsdiqlənmiş ehtiyatlarının həcmi 2 trilyon kubmetrdən çoxdur, lakin biz bu rəqəmin xeyli artıq olduğunu güman edirik. Baş nazir qeyd etmişdir ki, Azərbaycan Türkiyəyə, Gürcüstana, Rusiyaya və İrana neft və qaz ixrac edir.

Azərbaycanın çoxşaxəli nəql infrastrukturuna malik olduğunu vurğulayan A.Rasizadə demişdir ki, region və dünya bazarlarının enerji ehtiyatları ilə təchiz edilməsi sahəsində ölkəmizin təcrübəsi beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi üçün güclü potensial yaradır. Bununla əlaqədar biz Avropa ölkələri, Azərbaycan, Gürcüstan, Türkiyə, Mərkəzi Asiya və Yaxın Şərq ölkələri arasında qarşılıqlı faydalı tərəfdaşlığın təmin edilməsi üçün "Cənub dəhlizi" layihəsinin həyata keçirilməsi təşəbbüslərini və müvafiq tədbirləri yüksək qiymətləndiririk.

Baş nazir qeyd etmişdir ki, Azərbaycan öz təbii qazının Gürcüstandan keçməklə, Qara dənizin dibi ilə Bolqarıstana, Rumıniyaya, Ukraynaya, Şərqi və Mərkəzi Avropa ölkələrinə nəqli marşrutları ilə bağlı məsələləri də tərəfdaşlarla müzakirə etməyə hazırdır. Bunun üçün enerji ehtiyatlarının həmin istiqamətlər üzrə nəqlinin iqtisadi və kommersiya baxımından səmərəliliyi hərtərəfli araşdırılmalıdır.

Sonda A.Rasizadə əmin olduğunu bildirmişdir ki, konfransda səmərəli müzakirələr aparılacaq, faydalı təkliflər irəli sürüləcəkdir.

Konfransda digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri də çıxış edərək enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bildirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika və regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ RİÇARD MORNİNQSTARLA GÖRÜŞMÜŞDÜR

Yanvarın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sektorunda əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuş, həmçinin Xəzər regionunda həyata keçirilən enerji layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Qarşılıqlı maraq doğuran digər məsələlər də görüşdə müzakirə edilmişdir.

ABŞ-IN VƏ NORVEÇİN AZƏRBAYCANDAKI DİPLOMATLARI XARİCİ İŞLƏR NAZİRLİYİNƏ ÇAĞIRILARAQ, ONLARA RƏSMİ BAKININ NARAZILIĞI ÇATDIRILMIŞDIR

Yanvarın 15-də Norveç Krallığının Azərbaycandakı səfiri Yon Ramberq və ABŞ-ın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Donald Lu Xarici İşlər Nazirliyinə dəvət olunmuşlar.

Xarici işlər nazirinin müavini Vaqif Sadıqov ilə keçirilmiş görüşlərdə cari il yanvarın 12-13-də Norveç Krallığının və ABŞ-ın Azərbaycandakı səfirliklərinin diplomatlarının Naxçıvan Muxtar Respublikasına səfəri və səfərin yekunları ilə bağlı səfirliklərin yanvarın 13-də mətbuat üçün birgə açıqlaması müzakirə edilmişdir.

V.Sadıqov bu məsələ ilə bağlı araşdırmaların aparıldığını demiş, Norveç və ABŞ diplomatlarının bu səfər zamanı akkreditə olunmuş ölkədə davranış normalarına zidd və 1961-ci il "Diplomatik əlaqələr haqqında" Vyana Konvensiyasına uyğun olmayan fəaliyyətləri ilə bağlı Azərbaycan tərəfinin narazılığını bildirmişdir.

Bəzi dövlətlər tərəfindən Azərbaycanda baş verən müəyyən hadisələrin məhz insan haqlarının pozulması kimi qələmə verilməsi və belə halların siyasiləşdirilməsi cəhdləri qəbuledilməz kimi qiymətləndirilmişdir. Xarici diplomatların belə hərəkətlərinin ölkələrimiz arasında münasibətlərin səviyyəsinə uyğun olmadığı və onların inkişafına xələl gətirə biləcəyi barədə xəbərdarlıq edilmişdir.

Azərbaycanın beynəlxalq hüquq normaları çərçivəsində üzərinə götürdüyü bütün öhdəliklərin, o cümlədən ölkədə akkreditə olunmuş diplomatların təhlükəsizliyinin təmin edilməsi öhdəliyinin həyata keçirilməsinə sadiq olduğu diqqətə çatdırılmışdır.

AZƏRBAYCAN İLƏ LİTVA ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Yanvarın 18-də Azərbaycanın təhsil naziri Misir Mərdanov ölkəmizdə səfərdə olan Litvanın təhsil və elm naziri Gintaras Styaponaviçyusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Misir Mərdanov Azərbaycan ilə Litva arasında təhsil əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulamışdır.

Litvanın ali təhsil müəssisələrinin vauçer sistemi ilə fəaliyyət göstərdiyini nəzərə alaraq, bu ölkənin mövcud təcrübəsindən istifadə olunmasının vacibliyini qeyd edən nazir, Azərbaycanda da müvafiq sistemin tətbiq edilməsi məsələsindən danışmışdır.

Gintaras Styaponaviçyus Litvanın təhsil sistemində aparılan islahatlardan bəhs etmiş, müvafiq sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflərini bildirmişdir.

Sonra iki ölkənin universitetləri arasında əlaqələrin qurulması, təcrübə mübadiləsinin aparılması, müvafiq sənədlərin imzalanması, həmçinin ali məktəblərdə vauçer sisteminin tətbiqi, düstur əsasında maliyyələşmə və digər aktual məsələlərlə bağlı müzakirələr olmuşdur.

AZƏRBAYCAN VƏ VİLNÜS TEXNİKİ UNİVERSİTETLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR

Yanvarın 18-də Litva Universitetləri Rektorlar Assosiasiyasının prezidenti, Vilnüs Texniki Universitetinin rektoru, professor Romualds Qneviçus Azərbaycan Texniki Universitetində (AzTU) olmuşdur.

AzTU-nun rektoru, professor Havar Məmmədov qonağa rəhbərlik etdiyi ali təhsil ocağı haqqında ətraflı məlumat vermişdir. Rektor Azərbaycan ilə Litva arasında təhsil əlaqələrinin əhəmiyyətindən danışmış, ölkəmizin təhsil sisteminin Avropa təhsil məkanına - Bolonya prosesinə qoşulduğunu diqqətə çatdırmışdır. Rektor imzalanacaq müqavilənin iki ali məktəb arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu demişdir. Vilnüs Texniki Universitetini nüfuzlu ali məktəb kimi dəyərləndirən rektor, bu elm ocağı ilə əməkdaşlığın inkişaf istiqamətləri barədə danışmışdır.

Romualds Qneviçus hər iki ali məktəbin elm və təhsil əlaqələrinin əhəmiyyətindən bəhs etmiş, ölkələrimiz arasında dostluq münasibətlərindən söhbət açmışdır.

Sonra AzTU ilə Vilnüs Texniki Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

Qeyd olunmuşdur ki, imzalanan sənəd hər iki ali təhsil ocağı arasında əməkdaşlığı daha da inkişaf etdirəcək, birgə elmi araşdırmaların aparılmasına, tələbə və müəllim mübadiləsinə, qarşılıqlı səfərlərin təşkilinə, bakalavr və magistr proqramlarının, konfransların, nəşrlərin hazırlanmasına kömək göstərəcəkdir.

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN-LİTVA ƏMƏKDAŞLIĞI GENİŞLƏNƏCƏKDİR

Yanvarın 18-də ölkəmizdə səfərdə olan Litvanın təhsil və elm naziri Gintaras Steponaviçyusun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) olmuşdur.

Görüşdə ADİU-nin rektoru, Milli Məclisin elm və təhsil komitəsinin sədri Şəmsəddin Hacıyev ölkəmizdə təhsilə böyük əhəmiyyət verildiyini bildirmişdir. Rektor qeyd etmişdir ki, təhsilin inkişafı üçün bütün lazımi şərait, həmçinin mükəmməl qanunvericilik bazası yaradılmışdır.

Litvanın təhsil və elm naziri Gintaras Steponaviçyus təmsil etdiyi ölkənin təhsil sistemi barədə məlumat vermişdir. O, təhsilin maliyyələşdirilməsi təcrübəsindən bəhs etmişdir.

Sonra təhsilin inkişafı, iki ölkə arasında müvafiq sahədə təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Qonaqlar universitetin tədris şəraiti ilə də tanış olmuşlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da "Euronews" telekanalının müxbiri Laura Davideskuya müsahibə vermişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, aparılan danışıqların gedişi və perspektivləri, regional və digər məsələlərlə bağlı suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TƏHSİL NAZİRİ XANIM NİMET ÇUBUKÇUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Türkiyənin təhsil naziri xanım Nimet Çubukçunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Türkiyənin təhsil naziri xanım Nimet Çubukçunun ölkəmizə bu səfərinin təhsil sahəsində əlaqələrimizin inkişaf etdirilməsi baxımından faydalı olacağına ümidvar olduğunu bildirdi.

Xanım Nimet Çubukçu təhsil naziri kimi ölkəmizə ilk səfərindən məmnunluğunu vurğuladı. Ölkəmizə hər səfəri zamanı Bakıda böyük inkişafın və dəyişikliklərin baş verdiyinin şahidi olduğunu deyən Türkiyənin təhsil naziri bütün bunların məhz Prezident İlham Əliyevin rəhbərliyi sayəsində həyata keçirildiyini qeyd etdi. Xanım Nimet Çubukçu ölkələrimiz arasında təhsil sahəsində əlaqələri daha da genişləndirməyin zəruriliyini bildirdi və bunun üçün böyük potensialın olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də BP şirkətinin icraçı vitse-prezidenti Endi İnqlisi qəbul etmişdir.

BP şirkətinin icraçı vitse-prezidenti Endi İnqlis ilk dəfə 15 il bundan əvvəl Bakıya gəldiyini və ötən dövr ərzində çox böyük inkişafın şahidi olduğunu vurğuladı. "Əsrin müqaviləsi"nin imzalanmasından artıq 15 il ötdüyünü bildirən qonaq bu müddətdə ölkəmizdə qarşıya qoyulan bütün məqsədlərə nail olunduğunu və böyük uğurlar qazanıldığını dedi. Endi İnqlis BP şirkətinin ölkəmizlə əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi.

Ötən il "Əsrin müqaviləsi"nin 15 illiyi münasibətilə mərasimlər keçirildiyini qeyd edən dövlətimizin başçısı əldə olunan bütün bu nailiyyətlərin əsasında uğurlu enerji siyasətinin dayandığını dedi. Prezident İlham Əliyev bildirdi ki, əgər 15 il əvvəl başlanan enerji siyasəti həyata keçirilməsəydi, iqtisadiyyatımızın şaxələndirilməsi və sosial proqramların həyata keçirilməsi mümkün olmazdı. bp şirkəti ilə əməkdaşlığa toxunan dövlətimizin başçısı energetika sahəsində uğurlu əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

PREZİDENT İLHAM ƏLİYEV HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN-RUSİYA FORUMUNUN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun iştirakçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev qonaqları salamlayaraq dedi:

- Əziz dostlar!

Sizi görməyə çox şadam. Azərbaycanda sizi ürəkdən salamlamaq istəyirəm. Bu gün Humanitar Əməkdaşlıq üzrə Rusiya-Azərbaycan Forumu işə başlamışdır. Mən bu təşəbbüsü tamamilə dəstəkləyirəm. Eşitdiyimə görə, sizin proqramınızın birinci hissəsi çox

uğurlu olmuşdur. Ümid edirəm ki, Azərbaycanda olduğunuz bütün günlər sizin üçün həm faydalı, həm də xoş və yaddaqalan olacaqdır.

Mən burada çoxdan münasibətim olan xeyli tanışlarımı, dostlarımı, nisbətən yaxın vaxtlarda tanış olduğum adamları gördüm. Bəzilərini isə bu gün ilk dəfədir ki, görürəm. Hesab edirəm ki, bu cür format - sizin nümayəndə heyətinin tərkibində həm köhnə tanışlarımızın, həm də Azərbaycanı yaxın vaxtlarda tanımağa başlamış insanların olması, əlbəttə böyük əhəmiyyət kəsb edir. Çünki bu, ölkəmizin həyatı ilə, burada mövcud olan problemlər və nailiyyətlərlə daha yaxşı tanış olmağa imkan verəcəkdir. Bu cür ünsiyyət forması bütövlükdə çox müsbətdir, çünki ölkələrimiz arasında münasibətlər çox dinamik və səmərəli inkişaf edir. Təbii ki, ölkələrimizin ictimaiyyətinin də, - siz isə Rusiya cəmiyyətinin bütün sahələrini təmsil edirsiniz, - Rusiya ilə Azərbaycan arasında cərəyan edən müsbət proseslərə fəal qoşulmasını istərdik.

Sizin nümayəndə heyətinin tərkibində icra və qanunverici hakimiyyətlərin nümayəndələri, mətbuatın və vətəndaş cəmiyyətinin nümayəndələri vardır. Buna görə də güman edirəm ki, hamı üçün maraqlı olacaqdır.

Humanitar əməkdaşlıq sahəsində bizim fəal qarşılıqlı əlaqələrimiz vardır. Yəqin ki, bugünkü çıxışlarda, şəxsi söhbətlərdə və sabahkı proqramda bu istiqamətdə görülmüş işlərin hamısı ətraflı şərh olunacaqdır. Əlbəttə, bu çox vacibdir. Bunu bilmək və bu cür müsbət təcrübə bazasında əməkdaşlığı daha da inkişaf etdirmək lazımdır. Lakin mənim fikrimcə, ən əsası odur ki, bu Forum ölkələrimiz arasında münasibətlərin gələcək inkişafına, çoxşaxəli münasibətlərin inkişafına güclü təkan verməlidir. Ona görə ki, əməkdaşlığın potensialı çox yüksəkdir, əldə edilmiş nəticələr bizi qane edir. Lakin heç şübhəsiz, əməkdaşlığı genişləndirməli olduğumuz sahələr də çoxdur - iqtisadi sahə, qarşılıqlı siyasi əlaqələr məsələsi, vətəndaş cəmiyyəti və mətbuat səviyyəsində, yəni ictimai fikri formalaşdıran və dövlətin siyasi xəttini müəyyən dərəcədə təyin edən strukturlar səviyyəsində əlaqələr bu qəbildəndir.

Ölkələrimiz arasında çox sıx münasibətlər vardır, biz qonşuyuq, dostuq. İqtisadi münasibətlərin statistikasına nəzər salsaq görərik ki, keçənilki böhran ili istisna olmaqla həm əmtəə dövriyyəsinin həcminə, həm də onun keyfiyyətinə və strukturuna görə daim artım müşahidə olunmuşdur. Əvvəlki illərdə müzakirə prosesində olan əsas məsələlər praktiki olaraq həll edilmişdir. Biz qarşılıqlı anlaşmanı genişləndiririk. Zənnimcə, humanitar sahədə qazandığımız nailiyyətlərlə tanış olmağa imkanımız olacaqdır. Biz MDB məkanında bütün humanitar proseslərdə də fəal iştirak edirik.

Bu il hamımız İkinci Dünya müharibəsində Qələbənin 65 illiyini qeyd edəcəyik. Bu faktın qiymətləndirilməsində Rusiya ilə Azərbaycan arasında tam qarşılıqlı anlaşma mövcuddur. Rusiyada olduğu kimi, biz də veteranlara böyük qayğı ilə yanaşırıq və hesab edirəm ki, İkinci Dünya müharibəsinin tarixinin təftiş və təhrif edilməməsi üçün hamı səy göstərməlidir. Bugünkü nəslin bir qismi müharibənin bütün çətinliklərini öz üzərində hiss etmişdir, bir qismi bu barədə öz valideynlərinin söhbətlərinə əsasən məlumata malikdir. Lakin elə etmək lazımdır ki, 20 ildən və 50 ildən sonra bizim ortaq qəhrəmanlıq tariximizi təftiş etməyə hətta cüzi imkan olmasın.

Humanitar sahədə bizi birləşdirən istiqamətlər çoxdur. Əlbəttə ki, biz əlaqələrimizi bu müsbət təcrübə əsasında genişləndirməyə çalışmalıyıq. Hesab edirəm ki, ölkələrimiz

arasında qarşılıqlı siyasi fəaliyyətin, iqtisadi kooperasiyanın və müxtəlif sahələrdə əməkdaşlığın səviyyəsi ictimai şüurda tam əks olunur. Əlbəttə, burada səmərəli iş üçün geniş məkan mövcuddur. Çünki düzgün nəticə çıxarmaq üçün vəziyyətə bələd olmaq lazımdır. Vəziyyətə bələd olmaq üçün insanlar ünsiyyət saxlamalı, bir-birinin yanına gedib-gəlmək və daim ünsiyyətdə olmalıdırlar. Yadımdadır, bir neçə il bundan əvvəl biz Azərbaycanda Rusiya ili və Rusiyada Azərbaycan ili keçirirdik. Bu tədbirlər çərçivəsində daim əlaqə saxlayırdıq, nümayəndə heyəti mübadiləsi aparırdıq və əlbəttə, bütün bunlar münasibətlərimizə çox böyük dinamizm gətirmişdir. Hesab edirəm ki, sizin nümayəndə heyəti və bu Forumun keçirilməsi ölkələrimizin nümayəndələri arasında qarşılıqlı münasibətlərin daha da genişlənməsinə şərait yaradacaqdır.

Artıq qeyd etdiyim kimi, sizin nümayəndə heyətində Rusiya cəmiyyətinin bütün təbəqələri təmsil olunmuşdur. Bu insanlar həm sizin ölkənin inkişafını, həm də ictimai rəyi çox cəhətdən müəyyən edir. Əlbəttə, buna görə də biz istərdik ki, siz Azərbaycanda olduğunuz günlərdə Azərbaycanla tanış olasınız, ölkəmizin inkişafını bir daha, bəzilərniz isə ilk dəfə görəsiniz. Ölkəmiz dinamik inkişaf edir. Son vaxtlar sosial-iqtisadi inkişafın bir sıra problemləri həll edilmişdir. Hətta böhran ilində də biz yaxşı artım sürəti nümayiş etdirmişik. Ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, hər bir vətəndaş üçün sərbəstlik mövcuddur. Azərbaycanın inkişafı haqqında bu gün yəqin ki, müxtəlif məlumatlar səslənmişdir. Lakin ən yaxşı göstərici əlbəttə sizin şəxsi təəssüratınız olacaqdır. Ümid edirəm ki, sizin təkcə iclaslarda iştirak etmək deyil, sadəcə şəhərdə gəzmək, Azərbaycanın həyatı ilə tanış olmaq, ölkəmizin həyat tərzini hiss etmək üçün də imkanınız olacaqdır.

Mən bu cür, deyərdim ki, nadir bir tədbirin keçirilməsi təşəbbüsünü irəli sürənlərin hamısına ürəkdən təşəkkür etmək istəyirəm. Çünki mən indiyə qədər istər formasına, istər tərkibinə, istərsə də proqramına və başlıcası, öz ruhuna görə buna oxşar bir tədbir xatırlamıram. Biz hamımız bu tədbiri dəstəkləyirik. Lakin təbii ki, hər bir yenilik təşəbbüs qrupunun sayəsində həyata keçirilir. İndiki halda bu təşəbbüs qrupuna Azərbaycanın böyük dostları, ölkəmizi sevən və qəlblərində Azərbaycana olan bu münasibətin onların dostluq etdiyi, sevdiyi, özlərinə həmməslək saydığı adamlara da sirayət etməsini istəyən insanlar daxildir. Buna görə də mən bütün təşəbbüsçülərə, təşkilatçılara və əlbəttə, qonaqlara təşəkkür etmək istəyirəm. Mən bilirəm ki, siz hamınız çox məşhur və məşğul adamlarsınız. Hamınızın işi çoxdur və yəqin ki, bir neçə günlüyə bu işlərdən uzaqlaşmaq heç də həmişə asan olmur. Vaxt tapıb ölkəmizə gəldiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Biz bunu yüksək qiymətləndiririk. Ümid edirəm ki, siz buna təəssüflənməyəcəksiniz.

Mən öz şərhlərimi çox mühüm sözlərlə tamamlamaq istərdim. Sabah biz böyük dostumuz Mixail Solomonoviç Qusmanın yubileyini qeyd edəcəyik. Onun bütün həyatı Rusiya ilə Azərbaycan arasında münasibətlərin, dostlar arasında münasibətlərin, Vətəninə, yaxınlarına, dostlarına münasibətin parlaq nümunəsidir. Onu Moskva ilə Bakı arasında bölmək çox çətindir. Zənnimcə, bu, heç lazım da deyildir. O, hətta fiziki mənada burada olmadığı vaxtda belə permanent şəkildə burada mövcuddur. Mən sizin qarşınızda onu bu gözəl yubiley münasibətilə ürəkdən təbrik etmək istərdim.

Dövlətimizin başçısı İTAR-TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin daha da möh-

kəmləmməsinə töhfələrini yüksək qiymətləndirərək ona cansağlığı, gələcək fəaliyyətində uğurlar diləmiş və ən xoş arzularını bildirmişdir.

Prezident İlham Əliyev demişdir: Mən bu gün sizin xidmətlərinizi sizə "Dostluq" ordeni təqdim etməklə qeyd etmək istəyirəm. Siz bu ordenlə dövlətlərimiz arasında münasibətlərin inkişafına verdiyiniz böyük töhfəyə görə təltif olunursunuz. Bu, Azərbaycan dövlətinin sizə verdiyi ilk mükafat deyildir. Beş il bundan əvvəl siz "Şöhrət" ordeni ilə təltif edilmişdiniz. "Dostluq" ordeni nisbətən təzədir. Bu orden rəsmi dövlət təltifi kimi nisbətən yaxın vaxtlarda qəbul edilmişdir və bu ordenlə təltif olunan insanların sayı o qədər də çox deyildir.

Prezident İlham Əliyev İTAR-TASS-ın Baş direktorunun birinci müavini Mixail Qusmana "Dostluq" ordeni təqdim etdi.

Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirən Mixail Qusman dedi:

- Bu, mənim üçün son dərəcə dəyərli və əzizdir. Bu mükafata görə çox təşəkkür edirəm. Həqiqətən hisslərim aşıb-daşır. Mübaliğəsiz deyirəm, iş elə gətirmişdir ki, ağlım kəsəndən mənim bütün həyatım, - belə ki, mən artıq təxminən 30 ildir Moskvada yaşayıram, - qəlbimin səsi ilə, peşəmlə əlaqədar Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafına öz töhfəmi verməyə çalışıram. Bəlkə də dövlətlərarası münasibətlərin inkişafına çox cüzi töhfə vermişəm. İnformasiya əməkdaşlığının inkişafında, yəqin ki, mənim də kiçicik əməyim vardır. Lakin bir şeylə həqiqətən fəxr edə bilərəm ki, onlarca bakılı həmyerlim Moskvada özünə onlarca yeni dost tapmışdır. Onlarca Moskva ailəsində mənim bakılı dostlarımı, həmyerlilərimi əziz dost kimi qarşılayırlar. Əgər bir neçə yüz azərbaycanlı və rus ailəsinin yaxından dostlaşmasına kömək edə bilmişəmsə, bu baxımdan hesab edirəm ki, mən bu ordenə layiqəm. Çox təşəkkür edirəm.

Rusiyanın mədəniyyət naziri Aleksandr Avdeyev görüşdə çıxış etdi:

- Hörmətli İlham Heydər oğlu. Sizin dediklərinizdən sonra mənə yalnız Sizinlə razılaşmaq qalır. Çünki vətəndaş cəmiyyətlərimizin əlaqələrinin əhəmiyyəti düzgün qeyd edilmişdir. Bu əlaqələrsiz, əgər gənc, çox dinamik vətəndaş cəmiyyətləri, onların burada iştirak edən yaradıcı tərkib hissəsi öz aralarında qardaşcasına qarşılıqlı fəaliyyət göstərməsələr, iqtisadi, siyasi və digər münasibətlər səthi və formal olar. Düşünürəm ki, Sizin xatırlatdığınız kimi, şəxsi təəssüratlarımız təsdiqləyir ki, artıq bir-birimizsiz tam inkişaf edə və mədəniyyətlərimizi inkişaf etdirə bilmirik. Mən bu gün bunu hətta mədəniyyət bölməsinin görüşündə də qeyd etdim ki, Rusiya mədəniyyətinin inkişafı bizim üçün çox vacib Azərbaycan mədəniyyəti, Azərbaycan cəmiyyəti ilə yaradıcı əlaqələr, vətəndaşlıq əlaqələri olmadan tam dolğun ola bilməz. Odur ki, artıq belə anlam yaranıb ki, biz görüşməliyik. Bu çox vacibdir. Bu, bizim özümüzə lazımdır. Bu, azərbaycanlı yoldaşlarımıza lazımdır.

Lakin daha bir məsələ də vardır, bu, Mixail Solomonoviçin doğum günüdür. İndi bu tarixi görüşlərimiz gününə çevirmək olar. İstənilən halda, biz gəlişimizdən çox razıyıq. Biz dərhal qardaşlıq, dostluq, yoldaşlıq ab-havası hiss etdik. Bu əhval-ruhiyyə birlikdə, sıxılmadan mədəniyyətlərimizin, cəmiyyətlərimizin taleyi barədə düşünmək üçün şərait yaradır. Bu gün mədəniyyət haqqında çox məhrəmanə söhbət etdik. Yəqin ki, bu, bizim aramızda belə də olmalıdır. Bu görüşə görə, bu qəbula görə, Bakıda keçirilən təkrarolunmaz günlərə görə bir daha təşəkkür edirəm.

Prezident İlham Əliyev dedi:

- Sağ olun. Mən əminəm ki, bu günlər həqiqətən münasibətlərin coşqun inkişafı üçün möhkəm baza olacaqdır. Ona görə ki, ölkələrimiz arasında münasibətlər, əlbəttə, inkişaf edir. Bu münasibətlər çox cəhətdən rəhbərliyin siyasi iradəsindən asılıdır. Lakin indiki halda həmin münasibətlər həm də xalqlarımız arasında münasibətlərin çoxəsrlik tarixinə əsaslanır. Təbii ki, Rusiya ilə Azərbaycan münasibətlərinin dərin kökləri vardır. Bizim ikitərəfli münasibətləri indi necə qurmağımız, zənnimcə, bütövlükdə həm regionda, həm də daha geniş mənada nümunə ola bilər. Bizim bu münasibətləri necə qurmağımız onu göstərir ki, siyasi əzm və həqiqi arzu olduqda çox şeyə nail olmaq mümkündür. Münasibətlərimiz çox möhkəmdir, onların gələcəyini öncədən görmək mümkündür, onlar qarşılıqlı maraqlara, ortaq tarixə, ölkələrimizin sülh və təhlükəsizlik şəraitində yaşamaq, əməkdaşlığı möhkəmlətmək, öz xalqları üçün nemətlər yaratmaq və özlərinin inkişafı ilə qonşu dövlətlərin də inkişafına şərait yaratmaq istəyinə əsaslanır.

Mən hesab edirəm ki, bugünkü format ikitərəfli Rusiya-Azərbaycan münasibətlərinin çox güclü amilidir. Çünki humanitar komponent olmadan, həmin münasibətlər tamdəyərli olmayacaqdır.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərə toxunaraq siyasi, iqtisadi və başqa sahələrdə qarşılıqlı anlaşma olduğunu vurğuladı, Azərbaycanda rus dilinə diqqət göstərilməsi barədə danışdı:

- Azərbaycanda iyirmi ilə yaxın müstəqillik dövründə rus dili itirilməmişdir. O, mövcuddur və biz çalışırıq, səy göstəririk ki, vətəndaşlarımız mümkün qədər çox xarici dil bilsinlər. Bu, rus məktəblərinə də, ali məktəblərdə təhsilə də, Rusiyanın mədəni həyatına da aiddir.

Görüşdə Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail ŞVIDKOY da çıxış etdi. O dedi:

- Biz buraya dünən gəlmişik, srağagün isə Qara Yanvarın ildönümü idi. Biz bunu xatırlayırıq və Azərbaycan xalqının bu faciəsinə həmişə acıyırıq. Mənim fikrimcə, vətəndaş cəmiyyəti, vətəndaş cəmiyyətinin dialoqu çox şeylərə aydınlıq gətirməyə, çox şeyləri xalqlarımız üçün daha anlaşıqlı etməyə imkan verəcəkdir.

Burada Azərbaycanın dahi Prezidenti Heydər Əliyevlə, - bu barədə mən artıq danışmışam, - mahiyyət etibarilə ölkə tarixinin ən çətin anlarında Azərbaycan dövlətinin mövcudluğunu xilas etmiş insanla ünsiyyətdə olmaq şərəfinə nail olmuş insanlar çoxdur. Bu gün Sizin siyasi praktikanızda Heydər Əliyev ideyalarının necə inkişaf etdiyini görürük. Bütün bunlar bizim üçün çox vacibdir və zənnimcə bu cür genişmiqyaslı peşəkar ünsiyyət öz nəticəsini verəcəkdir. Təsadüfi deyil ki, bu gün KİV rəhbərləri - "Komsomolskaya pravda", "Selskaya jizn", "Rossiyskaya qazeta", "Kommersant" qəzetlərinin rəhbərləri buradadır. Bu təkcə ona görə deyil ki, Mixail Solomonoviç Rusiya jurnalistikasının görkəmli nümayəndəsidir. Burada televiziyanı və radionu təmsil edən həmkarlarım - "Exo Moskvı" radiostansiyasının baş redaktoru Aleksey Venediktov, müxtəlif televiziya kanallarından olan həmkarlarım vardır. Zənnimcə, burada da qarşılıqlı əməkdaşlıq üçün geniş meydan vardır.

Deməliyəm ki, son vaxtlar "İzvestiya" qəzetinin əlavəsi və "Baku" jurnalı da Azərbaycanın bugünkü həyatının mənzərəsini təqdim edir. Bizə belə gəlir ki, burada daha geniş imkanlar vardır. Eyni qayda ilə Rusiyanın da kifayət qədər rəngarəng olan bugünkü həyatını təqdim etmək üçün geniş imkanlar vardır. Bu həyat təkcə hansısa çalarlardan, siyasi portretlərdən ibarət deyildir.

Biz bu Forumun keçirilməsi üçün yaratdığınız imkana görə Sizə təşəkkür etmək istərdik. Biz çox gözəl başa düşürük ki, Sizin qərarınız, Sizin dəstəyiniz olmasaydı, bu Forum baş tutmazdı. Əlbəttə, indi biz bu Forumun necə inkişaf edəcəyi barədə düşünürük. Növbəti Forumun Moskvada keçirilməsi ən sadə qərardır. Bakı Forumunu hamının üzünə açıq elan etmək, onu hamının üzünə açıq olan Bakı Rusiya-Azərbaycan humanitar forumuna çevirmək, ola bilsin ki, o qədər də sadə qərar deyildir. Bu, bəlkə də daha mürəkkəb, lakin perspektivli qərardır. Təkcə ona görə yox ki, Bakıya gəlmək bizə xoşdur. Biz dəfələrlə demişik ki, Bakı Qərb ilə Şərqin üzvi şəkildə qovuşduğu məkandır, burada sivilizasiyalararası dialoq, mədəniyyətlərarası dialoq fəal inkişaf edə bilər.

Prezident İlham Əliyev dedi: Bakıda başqa ölkələr üçün də açıq olan bu cür tədbirlərin müntəzəm keçirilməsi yaxşı, konstruktiv ideyadır. Ona görə ki, həqiqətən mənim fikrimcə, Bakı elə bir yerdir ki, bu cür humanitar əməkdaşlıq tədbirləri burada keçirilməlidir. Çünki, Azərbaycan həm tarixən, həm də müstəqil inkişaf etdiyi iyirmi ilə yaxın müddətdə ölkəmizdə yaşayan bütün xalqlar arasında tolerantlıq, dözümlülük və dialoqu əvvəlki səviyyədə qoruyub saxlamışdır.

Bu gün ölkəmizin hər bir vətəndaşı dinindən və milliyyətindən asılı olmayaraq Vətənin rifahı naminə çalışır.

Əslən Bakıdan olan yazıçı Eduard Topol görüşdə çıxış etdi. O, Bakıda təhsil aldığı illəri xatırladı, Azərbaycana, doğma vətənə dərindən bağlı olduğunu, daim Azərbaycanı düşündüyünü dedi. Eduard Topol məşhur geoloq, soydaşımız Fərman Salmanovla görüşlərini də xatırlayaraq onun Rusiyanın neft-qaz sənayesinin inkişafındakı rolunu yüksək qiymətləndirdi. Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə təkliflər irəli sürərək dedi:

- Düşünürəm ki, baş aldatmaq üçün yox, qeyri-adi xarakterə malik bu insanın rolunu göstərmək üçün birgə layihə həyata keçirmək, böyük tablo yaratmaq yaxşı olardı. Mən də bakılı kimi bu işdə iştirak edərdim. Mən "Qızıl meydan" romanında ona bir neçə səhifə həsr etmişəm.

Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsi sədrinin birinci müavini Leonid Slutski Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun əhəmiyyətinə toxunaraq dedi:

- Həqiqətən, vaxtında irəli sürülmüş və şübhəsiz ki, olduqca səmərəli təşəbbüsdür. Humanitar sahənin bütün istiqamətlərini təmsil edən Azərbaycan və Rusiya ziyalılarının bu cür ünsiyyəti iz qoymaya bilməz.

Sovet İttifaqının süqutundan sonra Azərbaycan üçün daha çətin idi. Sizinlə əməkdaşlıq sayəsində mən və onlarca həmkarım əmin olduq ki, bu, həqiqətən belədir. Lakin Sizin əlaqələndirməniz sayəsində bir neçə il bundan əvvəl "güllü" inqilablar gəldikləri yerə də qaytarıldığı vaxtda Azərbaycan postsovet məkanında məhz belə mürəkkəb və ən

əsas rolu oynayırdı. Hazırda bunun sayəsində biz çiçəklənən Azərbaycanı, onun heyranlıq doğuran iqtisadi uğurlarını görürük. Lap bu yaxınlarda həmkarlarımla Azərbaycanda 2009-cu ilin yekunlarını müzakirə edirdik. Hətta burada olmadığım altı ay ərzində çox böyük uğurlar, özü də keyfiyyətli uğurlar əldə edilmişdir.

Ənənəvi neft hasilatı layihələrindən başqa, su ilə əlaqədar milli proqram - "Taxtakörpü" su anbarı layihəsi, təkcə Azərbaycan üçün deyil, digər ölkələr üçün də texnoloji cəhətdən tamamilə yeni Oğuz-Qəbələ-Bakı layihəsi həyata keçirilir. Elektroenergetika sahəsində, həqiqətən, inqilabi nailiyyətlər qazanılmışdır. 2009-cu il inqilabi il olmuşdur. Təxminən 700 milyon dollar məbləğində sərmayə yatırılmışdır. Ümumi daxili məhsul 37 milyard manatdan artıq olmuşdur. Böyük rəqəmlərdir və yalnız bir neçə il əvvəl Azərbaycanı xatırlayanlar bu uğurların, həqiqətən, nə dərəcədə inqilabi olmasından xəbər verdiyini görürlər. Bu gün təkcə postsovet məkanı üçün qeyri-adi olmayan uğurlar fonunda, dünya iqtisadi böhranı fonunda humanitar və mədəni sahələrdə əməkdaşlığı inkişaf etdirməyin əsl vaxtıdır.

Zənnimcə, 2010-cu il beynəlxalq təşkilatların Azərbaycana münasibətində də dönüş ili olacaqdır. Düşünürəm ki, Baltikyanı dövlətlər istisna olmaqla, postsovet məkanında Avropa Şurasında ölkələr üzrə monitorinqin bağlanması üçün Azərbaycanın bütün şansları vardır. Mən Bakıdan Strasburqa yola düşəcəyəm və biz Azərbaycanın dosyesinə obyektiv baxılması üçün səy göstərəcəyik. Bunun üçün orada Azərbaycana obyektiv yanaşacaq tamamilə başqa həmməruzəçilər vardır. Düşünürəm ki, bütün beynəlxalq müstəvilərdə, habelə təşəbbüs qrupunun əlaqələndirilməsi ilə yenicə açılmış Bakı Humanitar Forumunda bizim keyfiyyətcə daha da yaxınlaşmağımız üçün çox böyük imkanlar vardır.

SSRİ xalq artisti İosif Kobzon Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun mahiyyətinə və açılış mərasimində müzakirə edilən məsələlərə toxundu. Azərbaycan ilə Rusiya arasında mədəniyyət sahəsində əlaqələrin bundan sonra da genişlənməsinin əhəmiyyətini qeyd edərək dedi:

- Biz bu mentalitetdən uzaqlaşmalıyıq ki, indi heç də sovet vətəndaşları deyilik, indi biz başqa-başqa ölkələrin sakinləriyik. Düzdür, biz başqa ölkə olmuşuq. Azərbaycan da suveren ölkə olmuşdur. Biz Heydər Əliyevin mədəniyyətə və humanitar sahələrə münasibətini xatırlayırıq. Yadımdadır, Heydər Əliyev mənim konsertlərimə, eləcə də Rusiyanın Azərbaycanda təşkil etdiyi konsertlərə gələndə özümü hədsiz xoşbəxt hiss edirdim. O vaxt bu cür konsertlər Azərbaycanda Rusiya İncəsənəti Ongünlüyü adlanırdı. Rusiyada Azərbaycan ongünlükləri də keçirilirdi. Azərbaycanda rəsmən Rusiya ili, Rusiyada Azərbaycan ili elan edilməsi çox yaxşı haldır. Lakin bunlar konkret olaraq incəsənət ongünlükləri keçirilməsi demək deyildir. Azərbaycanda Ukrayna incəsənəti ongünlüyü, Rusiyada Belarus incəsənəti ongünlüyü nə deməkdir? Bu, mədəniyyətlərin qarşılıqlı zənginləşməsi, bizim qarşılıqlı zənginləşməyimiz, yaşamağımıza kömək edən qarşılıqlı anlaşma deməkdir. Vaxtilə mövcud olmuş və dəstəklənmiş bu cür gözəl tədbirlərdən nə üçün imtina etməliyik? Siz təməli Prezident Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş ənənəni davam etdirirsiniz. Siz bu ənənəni davam etdirirsiniz və buna görə biz Sizə çox minnətdarıq. Sizin dövlətin mədəniyyət və incəsənətin timsalında öz ölkəsinə, öz respublikasına - Azərbaycana göstərdiyi qayğını Polad Bülbüloğlu ilə, Azərbaycandakı həmkarlarımızla söhbətdə hiss edirik. Mənim fikrimcə, Mixail Yefimoviçin çıxı-

şında çox düzgün olaraq belə bir təklif səsləndi ki, bizim bugünkü Forum açıq forum olmalıdır.

Buraya təkcə bizim postsovet suveren ölkələrin nümayəndələri deyil, Avropanın, Amerikanın və başqa qitələrin hər hansı dövlətinin nümayəndələri də gələ bilər və gəlməlidirlər. Onlar buraya gəlməlidir. Çünki dünyada baş verən bütün mənfi hallar - terror aktları da, narkomaniya, fahişəlik, banditizm - bütün bunlar mədəniyyətin olmamasından irəli gəlir.

Biz terrorizmə qarşı mübarizəyə nə qədər pul xərclədiyimizi hesablamırıq. Amma mədəniyyət üçün nə qədər pul xərclədiyimizi hesablayırıq. Buna görə də mənə belə gəlir ki, bizim Forum dövlətlərə, ölkələrə və xalqlara belə bir müraciətlə başa çatmalıdır ki, onlar Bakı Humanitar Forumunun ruhunu və ideyasını dərindən öyrənsinlər. Bu, Sizin öz ölkənizdə, öz respublikanızda xeyir-dua verdiyiniz Forumun gözəl nəticələri olar. Diqqətinizə görə sağ olun.

Rusiya Dövlət Humanitar Universitetinin rektoru Yefim Pivovar rəhbərlik etdiyi "Rusiya-Azərbaycan" Dostluq Cəmiyyətinin fəaliyyətinə toxunaraq dedi:

- Mən demək istərdim ki, Cəmiyyət bizim intellektual mühitdə çox böyük dəstəyə malikdir. Bu Cəmiyyətdə mədəniyyət, elm, təhsil, təbabət, idman və biznes nümayəndələri təmsil olunmuşdur. Əlbəttə, o, bizim ölkələrin bütün strukturları, vətəndaş cəmiyyətləri arasında qarşılıqlı əlaqələri və mənafeləri dəstəkləməli və bu sözü deməyə çəkinmirəm, lobbiləşdirilməlidir. Biz bunun gerçəkliyə çevrilməsi üçün bizdən asılı olan hər şeyi edəcəyik. Bakı Humanitar Forumu ideyasının reallaşması üçün mən Rusiya Dövlət Humanitar Universitetinin rektoru kimi bu il aprel ayında MDB ölkələrinin humanitar universitetlərinin rektorlarının toplantısını Bakıda keçirməyi təklif etmişəm.

Bu Forumda bizim Cəmiyyətin iştirakını rəmzi şəkildə qeyd etmək üçün biz iki kiçik kitabxana hazırlamışıq. Onlardan birini bu yaxınlarda 90 yaşı tamam olmuş Bakı Dövlət Universitetinə təklif etmişik. Orada 90 kitab vardı. İkinci kitabxananı isə Heydər Əliyev Fonduna təklif etmişik. Fond həmin kitabxananı M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin burada gözəl fəaliyyət göstərən filialına verəcəkdir. Zənnimcə, bu, indiki Forumun nəticələrinə kiçik töhfəmiz olacaqdır. Sizə onu da demək istərdik ki, Rusiyada ölkələrimiz arasında dostluğun möhkəmlənməsi istiqamətində işləyən bütün vətəndaş cəmiyyətlərini Sizin dəstəkləməyiniz bizi riqqətə gətirir.

Rusiya Federasiyası Federasiya Şurasının iqtisadi siyasət, sahibkarlıq və mülkiyyət məsələləri üzrə komitəsi sədrinin müavini Andrey Xazin çıxış edərək dedi:

- Cənab Prezident, indi çoxları buradakı dostluq atmosferindən danışırdılar. Mənə elə gəlir ki, bu, əslində qohumluq atmosferidir. Bizim Azərbaycan xalqına həqiqətən qohumluq münasibətimiz vardır. Humanitar sahədə, daha geniş götürsək, siyasi sahədə baş verənlər bizi çox narahat edir.

Bilirəm ki, təxminən bir neçə gündən sonra çox ciddi görüş - yüksək səviyyədə üçtərəfli görüş keçiriləcəkdir. Biz bu prosesin, nəhayət ki, bizə dost Azərbaycan xalqını razı sala biləcək məntiqi sonluqla nəticələnməsi üçün Sizə böyük uğurlar arzulamaq istərdik. Ümidvaram ki, bunun üçün perspektivlər vardır. Düşünürəm ki, Rusiya, həqiqətən, Sizin səylərinizi, Azərbaycanı həmişə məmnuniyyətlə və sevinclə dəstəkləyəcək ölkə-

dir. Mən Sizi bir neçə gündən sonra gözləyən bu çox ciddi işdə Sizə uğurlar arzulamaq istəyirəm.

AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI ÜÇÜN KİV-İN ÜZƏRİNƏ BÖYÜK VƏZİFƏ DÜŞÜR

Yanvarın 22-də Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun televiziya bölməsinin iclası olmuşdur.

Azərbaycan Televiziyasının rəhbərliyi və Rusiyanın aparıcı televiziya kanallarının nümayəndələrinin iclasında ölkələrimizin kütləvi informasiya vasitələri arasında əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Bildirilmişdir ki, bir-birimizi daha yaxşı tanımaq üçün medianın rolu olduqca böyükdür. Ölkələrimizi ortaq tarixi dəyərlər birləşdirir. Xalqlarımız arasında əlaqələrin inkişafı, mədəniyyəti və tarixi barədə informasiyanın daha geniş məkanda işıqlandırılması üçün imkanlar mövcuddur. Tərəflər bundan mütləq faydalanmalıdır. Bu baxımdan televiziyaların üzərinə böyük məsuliyyət düşür.

Tədbirdə Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun əhəmiyyəti vurğulanmışdır.

Rusiyalı qonaqlar Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə təşəkkür etmiş, ölkələrimiz arasında əməkdaşlığa dahi rəhbər Heydər Əliyevin göstərdiyi diqqəti xüsusi vurğulamışlar. Qeyd olunmuşdur ki, bu siyasət hazırda ölkələrimizin prezidentləri tərəfindən uğurla davam etdirilir.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA RUSİYANIN TANINMIŞ TİBB XADİMLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yanvarın 22-də Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun "Tibb xadimləri" seksiyasının bir qrup nümayəndəsi ilə görüşmüşdür.

Görüşdə Mehriban Əliyeva rəhbərlik etdiyi Fondun fəaliyyəti haqqında məlumat verdi.

Fondun humanitar, xüsusilə səhiyyə sahəsində bir çox layihələr həyata keçirdiyini deyən Azərbaycanın birinci xanımı qaçqın və məcburi köçkün ailələrdən, valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin hər zaman diqqət mərkəzində saxlanıldığını söylədi. Yarandığı gündən məqsədi və məramı yalnız xalqa xidmət olan Heydər Əliyev Fondunun insanların problemlərinin həllində böyük rolu vardır.

Azərbaycanda səhiyyə sahəsinin ən yüksək standartlara cavab verməsi üçün görülən işlər haqqında söhbət açılan görüşdə bu sahənin inkişafında beynəlxalq kadr mübadiləsinə, səhiyyə ocaqlarının ən müasir avadanlıqla təmin olunmasına xüsusi diqqət yetirildiyi vurğulandı.

Heydər Əliyev Fondunun xeyirxah fəaliyyətini yüksək qiymətləndirən qonaqlar Azərbaycana səfərdən məmnun qaldıqlarını bildirərək burada gördüklərinin onlarda xoş təəssürat oyatdığını diqqətə çatdırdılar.

18/03/09
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

Yanvarın 22-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) Azərbaycana və Ermənistana səfərlərinin yekunlarına dair birgə bəyanatla çıxış etmişlər.

Bəyanatda bildirilir ki, yanvarın 20-də həmsədrlər Yerevanda Ermənistan prezidenti Serj Sarkisyanla görüşmüşlər.

Həmsədrlər təmsil etdikləri ölkələrin prezidentlərinin 2009-cu ilin iyulunda Akvilldə verdikləri göstərişlərə əsasən keçən ilin dekabrında Azərbaycana səfərləri zamanı Prezident İlham Əliyevə təqdim etdikləri Madrid sənədinin yenilənmiş variantına dair baza prinsiplərinə son redaktələrini S.Sarkisyana vermişlər.

Yanvarın 21-də həmsədrlər və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik Bakıda Prezident İlham Əliyevlə görüşmüşlər.

Müzakirələrdə Azərbaycan və Ermənistan prezidentləri həmsədrlərlə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini davam etdirmək niyyətində olduqlarını bildirmişlər.

Həmsədrlər daha sonra Qazaxıstan hökuməti ilə ATƏT-də sədrliklə bağlı məsləhətləşmələr aparmaq üçün Astanaya səfər etmişlər.

BAKIDA HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN – RUSİYA FORUMU İŞƏ BAŞLAMIŞDIR

Yanvarın 22-də Bakıda, Beynəlxalq Muğam Mərkəzində Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumu işə başlamışdır.

Forumda iştirak etmək üçün Azərbaycana gəlmiş nüfuzlu Rusiya nümayəndə heyətinin tərkibinə RF mədəniyyət naziri Aleksandr Avdeyev, Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru, Rusiya Elmlər Akademiyasının akademiki Anatoli Torkunov, Rusiya Federasiyasının MDB İşləri, Xaricdə Yaşayan Həmvətənlər və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyinin rəhbəri Farit Muxametşin, Dövlət Dumasının deputatları və Federasiya Şurasının üzvləri, alimlər, mədəniyyət və incəsənət xadimləri, Rusiyanın aparıcı KİV-lərinin rəhbərləri daxildir.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev Forumun açılışında qonaqları salamlayaraq demişdir:

- Hörmətli xanımlar və cənablar!

Dostlar!

Mən Humanitar Əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Forumunun bütün iştirakçılarını Azərbaycanın paytaxtı Bakı şəhərində ürəkdən salamlamaq istərdim. Bu cür gündəliyi olan forum ilk dəfədir ki, keçirilir. Əminəm ki, onun uğurlu işi xalqlarımız və dövlətlərimiz arasında əməkdaşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə sanballı töhfə verəcəkdir.

Forumun keçirilməsi faktının özü ölkələrimizin ali rəhbərlərinin - İlham Heydər oğlu Əliyevin və Dmitri Anatolyeviç Medvedevin müdrikliyinin və uzaqgörənliyinin təzahürüdür.

Bu forumun hazırlanmasında fəal iştirak etmiş bütün təşkilatlara və strukturlara dərin minnətdarlığımı bildirmək istərdim. Mən Rusiya Federasiyası Prezidentinin Administrasiyasının ünvanına xüsusi təşəkkürümü çatdırmaq istərdim. Administrasiyanın rəhbəri Sergey Yevgenyeviç Narışkin bu gün Bakıya gəlir və bizim forumun işinə qoşulacaqdır. Nə gizlədim, çox xoşagələn və yaxşı haldır ki, forumun işində Rusiyada tanınmış insanlar, ölkənin ictimai-siyasi ab-havasını formalaşdıran, bu gün Rusiyada elmi, ədəbiyyatı, incəsənəti, kütləvi informasiya vasitələrini, idman hərəkatını təmsil edən insanlar iştirak edir. Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun açılışında bu cür nüfuzlu, deyərdim ki, mötəbər nümayəndə heyətinin iştirak etməsi çox rəmzi haldır.

Forumda həm Dövlət Dumasından, həm də Federasiya Şurasından olan rusiyalı qanunvericilərin böyük bir qrupu təmsil olunmuşdur. Biz ölkələrimizin parlament üzvləri arasında təcrübə mübadiləsi sahəsində yaxşı ənənəyə malikik. Ümidvaram ki, onların Azərbaycan Parlamentində indiki görüşləri, seksiyalar çərçivəsində diskussiyalar, Azərbaycan torpağında müxtəlif görüşlər dövlətlərimizin qanunvericiləri arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu gün bu zalda Rusiyanın mədəniyyət naziri cənab Aleksandr Alekseyeviç Avdeyev başda olmaqla mədəniyyət xadimlərinin böyük bir qrupu iştirak edir. Sevindirici haldır, bu qrupa adlı-sanlı Böyük Teatrın direktoru başda olmaqla bu teatrın artistləri, Rusiyanın tanınmış mədəniyyət xadimləri daxildir.

Forumun işində elm və təhsil nümayəndələrinin iştirak etməsi faktını biz çox yüksək qiymətləndiririk. Əminəm ki, elm və təhsil sahəsində XX əsrdə formalaşmış çoxşaxəli əlaqələr, bizim Milli Elmlər Akademiyasının və Rusiya alimlərinin əlaqələri dövlətlərimizin möhkəmlənməsində və inkişafında elmin rolunun daha da güclənməsi üçün yeni impuls alacaqdır.

Mən Bakıya gəlmiş Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Vasilyeviç Torkunovu və Rusiya Dövlət Xidməti Akademiyasının rektoru Vladimir Konstantinoviç Yeqorovu salamlamaq istərdim.

Forumda Rusiya Dövlət Humanitar Universitetinin rektoru Yefim İosifoviç Pivovar başda olmaqla "Rusiya-Azərbaycan" Dostluq cəmiyyətinin üzvləri də geniş təmsil olunmuşdur. Fürsətdən istifadə edərək, mən onların hamısına xalqlarımız arasında dostluğun möhkəmlənməsinə verdikləri töhfəyə görə təşəkkürümüzü bildirmək istəyirəm.

Forumun işində Ümumrusiya Azərbaycanlılar Konqresinin sədri, Rusiya Tibb Elmləri Akademiyasının üzvü Məmməd Cavadoviç Əliyev başda olmaqla ÜAK üzvləri də iştirak edirlər. Konqresin bioqrafiyası o qədər də geniş deyil, lakin o, necə deyərlər, formalaşmışdır və Rusiya Prezidenti Administrasiyası ilə əlaqəli fəaliyyət göstərərək ümumi işimizin xeyrinə xidmət edir.

Mən Forumun işində səhiyyə xadimlərinin böyük bir qrupunun iştirak etməsini xüsusi vurğulamaq və onları salamlamaq istərdim. Bunu qeyd etmək xoşdur ki, bu gün bu sa-

londa bizimlə bərabər Azərbaycanda yaxşı tanınan və ehtiram göstərilən akademik Renat Süleymanoviç Akçurin də vardır.

Bizim Forumun iştirakçılarının ən çoxsaylı qrupu postsovet məkanında tanınmış kütləvi informasiya vasitələrinin rəhbərləridir. Sağlam ictimai fikrin, insanların xoş ovqatının formalaşması onlardan asılıdır. Zənnimcə, belə desəm səhv etmərəm ki, məhz onlar insanları obyektiv informasiya və doğru sözlə təmin etməklə xalqlarımız arasında dostluğun inkişafına və möhkəmlənməsinə xidmət etməlidirlər. Mən Rusiyanın kütləvi informasiya vasitələrinin Forumumuzda iştirak edən bütün rəhbərlərini ürəkdən salamlayıram. Ümid etmək olar ki, bu cür nüfuzlu jurnalist korpusunun Azərbaycana səfəri izsiz qalmayacaq, ölkəmiz haqqında həqiqət televiziya və radio kanallarında, qəzet və jurnal səhifələrində daha geniş işıqlandırılacaqdır.

Bu xadimlər qrupunda İTAR-TASS Agentliyinin Baş direktoru, bizim Forumun təşkilatçılarından biri olan Vitali Nikitiç İqnatenkonun adını xüsusi qeyd etmək istərdim. 2003-cü ildə biz Bakıda rus mətbuatı qurultayını birlikdə keçirəndə əməkdaşlığımızın bu cür miqyas alacağını və belə formalar kəsb edəcəyini təsəvvür etmək çətin idi.

Bu gün mən bu salondakı qonaqlarımız arasında xeyli tanış şəxsləri görürəm. Onlarla bizi çoxillik səmərəli əməkdaşlıq münasibətləri bağlayır. Mən məhz şəxsi təcrübəyə əsaslanaraq demək istəyirəm ki, bu Forum, əlbəttə, rəsmi görüşlər çərçivəsi ilə məhdudlaşmır. Əlbəttə, bu Forum parlamentlər səviyyəsində, mədəni və elmi sahələrdə mübadilələrin, şəxsi əlaqələrin hərtərəfli genişlənməsinə və dərinləşməsinə xidmət etməlidir. Lakin mənə belə gəlir ki, bizim əməkdaşlığın bugünkü səviyyəsini nəzərə alsaq, bunlar azdır. Bizə yeni üfüqlər, birgə işimizin perspektivlərinə yeni baxış lazımdır. Əminəm ki, bu Forum XXI əsrdə bizim əməkdaşlığın vektorunu təyin edəcək bir sıra perspektivli layihələrə start verəcəkdir.

Azərbaycan-Rusiya münasibətlərinin tarixinə humanitar əməkdaşlıq baxımından nəzər salmağa cəhd göstərsək, bu münasibətlərə hətta qısa ekskurs belə çoxillik tədqiqatlar aparılmasını tələb edərdi. Burada biz Rusiya maarifçilərini, Sankt-Peterburq və Kazan universitetlərinin professoru Mirzə Kazımbəyin fəaliyyətini, Lermontovun Azərbaycan dastanının motivləri əsasında yaratdığı gözəl "Aşıq Qərib" əsərini, Yeseninin Bakı haqqında ürəkdən gələn sətirlərini və ümumi tariximizin iki əsrdən çox dövrünə aid bir çox əlamətdar hadisələri və təzahürləri xatırlaya bilərik.

Dostluq ongünlükləri və həftələri mənim nəslimin yaddaşından hələ silinməmişdir. Onda Azərbaycan mədəniyyəti öz nailiyyətlərini Moskvada nümayiş etdirir, bizim isə Bakıda Moskva teatrlarının tamaşalarına baxmaq imkanımız yaranırdı. "Koroğlu" operasının Moskvadakı uğurlu nümayişi və Rusiya mədəniyyətinin Dmitri Dmitriyeviç Şostakoviç kimi korifeylərinin Bakıya gəlişi də ümumi tariximizin ayrılmaz hissəsinə çevrilmişdir.

Bu gün bizi tariximizin sovet dönəmi adlandırdığımız dövründən təxminən 20 il ayırır. Əslində Azərbaycan düz 20 il əvvəl, 1990-cı il yanvarın 20-də sovet totalitarizminə qəti "yox" demişdi. O faciəli gecədə Qorbaçovun əmri ilə hökumət fövqəladə vəziyyət elan etmədən Azərbaycana qoşun yeritmişdi. Bu qoşunun tərkibində Şimali Qafqazdan ehtiyatda olan erməni hərbçiləri də var idi. Bu əməliyyat dinc əhaliyə qarşı görünməmiş qəddarlıqla müşayiət olunmuşdur.

Lakin Qorbaçov 1988-1990-cı illərdə təcavüzkar əhval-ruhiyyəli ermənilərdən ibarət qruplar azərbaycanlıları əzəli torpaqlarından qovanda, evləri yandıranda və bütün bunlar çoxsaylı insanların, o cümlədən qocaların, qadınların və uşaqların qəddarcasına qətlə yetirilməsi ilə müşayiət ediləndə, vəhşiləşmiş kütlə hamilə qadınların qarnını yaranda, döşlərini kəsəndə və s. nə üçünsə Yerevana qoşun yeritmədi. Təəssüf ki, İttifaqın kütləvi informasiya vasitələri susurdu, hətta onların bəziləri Dağlıq Qarabağın Azərbaycandan ayrılmasını açıq-aydın dəstəkləyirdi.

Bu aksiya nəticəsində 147 dinc sakin, o cümlədən uşaqlar və təcili yardım həkimləri həlak olmuş, 700-dən çox adam yaralanmışdı. Bu qanlı faciə sovet ordusunun ölkəmizin dinc əhalisinə qarşı cinayəti idi. Bu insanların günahı təkcə o idi ki, onlar Mixail Qorbaçov başda olmaqla ölkənin siyasi rəhbərliyinin Dağlıq Qarabağın Azərbaycandan ayrılması planına qarşı etirazlarını bildirməyə cürət etmişdilər.

Bu il yanvarın 20-də, Yanvar hadisələrinin 20-ci ildönümü günü Azərbaycan Prezidenti İlham Əliyev bu qəhrəmanların şərəfinə ucaldılmış abidənin açılışında iştirak etmişdir. Bu abidə həm amansızcasına əzmə maşınının məhv etdiyi həmvətənlərimizə görə kədərimizin, həm də totalitarizmə qarşı çıxış etmək üçün özümüzdə qüvvə və cəsarət tapmağımıza görə iftixar hissinin təzahürüdür.

SSRİ-nin süqutunu müşayiət edən sistemli böhran bütün postsovet məkanını bürümüş silsilə siyasi, iqtisadi və sosial böhranlara transformasiya etmişdi. Bu illər ərzində biz bir çox aktual məsələləri həll etməyə çalışırdıq, gələcək inkişafımızın yeni paradiqmasını qururduq.

Bütün XX əsr boyu biz Sovet İttifaqında kommunist cəmiyyətinin qurulması yollarını tez-tez müzakirə etmişik. Lakin heç zaman postkommunizm dövrü necə olmalıdır və ya olacaqdır barədə düşünməmişdik. Yəqin ki, indi biz sizinlə həmişəkindən daha yaxşı anlayırıq ki, postkommunizmin demokratiyaya keçiddən daha böyük olması nəticəsinə gəlmiş alimlər nə qədər doğru düşünürlər. Mahiyyət etibarilə bu, həm siyasi, həm iqtisadi, həm də şəxsi və ictimai həyatın bütün cəhətlərini əhatə edən fundamental dəyişikliklər dövrüdür.

Totalitarizmdən demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar münasibətlərinə, nəhəng imperiyanın bir hissəsindən milli dövlətə tranzit bütün postsovet ölkələri üçün çox çətin olmuşdur. Azərbaycanda da bu proseslər asanlıqla cərəyan etməmişdir. Biz keçid dövrünün mürəkkəb şəraitində həm siyasi, həm iqtisadi, həm də sosial böhranları dəf etməli olmuşuq. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hərtərəfli düşünülmüş siyasəti sayəsində Azərbaycan XXI əsrə siyasi və iqtisadi cəhətdən sabit dövlət kimi qədəm qoymuşdur.

SSRİ dağılandan və ölkələrimiz müstəqillik əldə edəndən sonra münasibətlərimizin yeni mərhələsi Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana tarixi səfərindən başlanmışdır. Bu, Rusiya Prezidentinin suveren Azərbaycana ilk səfəri idi. Məhz o vaxt Prezident Putin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi barədə aşağıdakı konseptual fikri söyləmişdi: "Bizim məqsədimiz - qaliblər və məğlublar olmadan sülhün bərqərar olmasına kömək etməkdir". Bu fikir öz aktuallığını bu gün də saxlayır. Heydər Əliyevin Rusiyaya cavab səfəri, Bakı Bəyannaməsinin imzalanması, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli bizim müxtəlif səviyyələrdə münasibətlərimizə

nəzərəçarpacaq tərəqqi və dinamizm gətirmişdir.

2001-ci il oktyabrın 12-də Bakıda rus poeziyasının dahisi Aleksandr Sergeyeviç Puşkinin və 2002-ci il iyunun 9-da Sankt-Peterburqda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı əməkdaşlığımızın tamamilə yeni müstəviyə keçməsinin əlaməti olmuşdur. Bu, əslində Azərbaycan-Rusiya strateji əməkdaşlıq proqramının başlanğıcı idi.

Heydər Əliyev bu mərhələni bizim bəyanatlardan və sazişlərdən niyyətlərimizin konkret reallaşdırılması dövrünə keçid mərhələsi adlandırmışdır. Onun Sankt-Peterburqda söylədiyi nitqində Rusiyanın Qərbin və Şərqin böyük sivilizasiyalarını özündə təcəssüm etdirən və dünya siyasətində nadir rol oynayan bir ölkə olması haqqında söylədiyi fikir bizim xarici siyasətdə Rusiyanın rolunu və yerini son dərəcə aydın müəyyən edir.

Heydər Əliyev böyük rus mədəniyyətinin mənəvi qaynaqlarından danışarkən xüsusi vurğulamışdır ki, onun üçün rus ruhunun həqiqi böyüklüyünün rəmzi Leninqradın mühasirəsi dövründə Ermitajın soyuq zallarında dahi Nizaminin anadan olmasının 800 illiyinin bayram edilməsidir.

Bütün XX əsr ərzində Azərbaycan rus mədəniyyətinin bir çox inciləri ilə tanış olmaq və elə bir mədəni məkan formalaşdırmaq imkanına malik olmuşdur ki, bizim Forum da müəyyən mənada həmin məkanın qorunub saxlanmasına və genişləndirilməsinə xidmət edir. Bu gün humanitar əməkdaşlığımız bir sıra istiqamətlər üzrə, o cümlədən vahid mədəni məkanın formalaşması üçün uzunmüddətli əməkdaşlıq sahəsində uğurla inkişaf edir. Bu əməkdaşlığın həcmini və sürətini səciyyələndirmək üçün Rusiya artistlərinin Bakıya qastrol səfərlərinin afişalarına nəzər salmaq kifayətdir.

İTAR-TASS və RİA-Novosti kimi informasiya agentliklərinin Azərbaycanda müstəqil ofislər səviyyəsində fəaliyyəti göstərir ki, biz informasiya mübadiləsi sahəsində rus dilinə diqqəti azaltmırıq.

Biz haqlı olaraq fəxr edirik ki, təhsil sistemimizdə nəinki rus dilinin öyrənilməsini, hətta rus dilində təlimi də qoruyub saxlaya bilmişik. Rus dili ölkəmizdə həm rus dilində orta və ali təhsil almaq, həm də rus dilinin xarici dil kimi öyrənilməsi səviyyəsində təmsil olunmuşdur. Cəmi bir, lakin kifayət qədər sanballı rəqəm göstərmək istəyirəm: Azərbaycanın ali məktəb sektorunda 16 mindən çox tələbə rus dilində təhsil alır.

Azərbaycanda Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının açılması əyani şəkildə göstərir ki, bizim uğurlu əməkdaşlığımız üçün çox yaxşı imkanlar vardır.

Bakıda Səməd Vurğun adına Rus Dram Teatrı uğurla fəaliyyət göstərir. Bakı Slavyan Universiteti rusdilli təhsil məkanının və mədəni məkanın formalaşmasına fəal kömək edir.

Son beş ildə rus klassiklərinin - Puşkinin, Lermontovun, Tolstoyun, Çexovun, Dostoyevskinin, Bulqakovun, Blokun, Yeseninin və başqalarının əsərləri Azərbaycan dilinə tərcümədə ümumi tirajı milyon yarım nüsxə olmaqla nəşr edilmişdir. Bu humanitar layihələrin həyata keçirilməsi bizim iqtisadiyyatın dinamik inkişafı sayəsində mümkün olmuşdur. Bu Beynəlxalq Muğam Mərkəzinin salonu bu gün təhsil və mədəniyyətdə hə-

yata keçirilən dəyişikliklərin miqyasını çox gözəl nümayiş etdirir.

Ümumiyyətlə, son illərdə ölkəmizdə modernləşdirmə ruhlu qərarların bütöv bir kompleksi həyata keçirilmiş, bu qərarlar Azərbaycanı Cənubi Qafqazda özünün iqtisadi liderliyini təmin etməyə qabil olan, sabit siyasi sistemə malik bir dövlətə çevirməyə imkan vermişdir. Məsələ təkcə bununla bitmir. Milli tranzit sahəsində bizim təcrübəmizin iki əsas tərkib hissəsi - iqtisadi və siyasi komponentlər dünya maliyyə və iqtisadi böhranı dövründə özünün fəaliyyət qabiliyyətini xüsusilə parlaq şəkildə nümayiş etdirmişdir.

2009-cu ilin yekunları göstərir ki, başa çatmış ildə Azərbaycanda ümumi daxili məhsulun həcmi 9,3 faiz artmışdır. Üstəlik, nəzərdə tutulan bütün infrastruktur layihələri və sosial proqramlar reallaşdırılmışdır. Dünya iqtisadiyyatının ürək açmayan xarakteristikaları fonunda artım göstəricisinin 9,3 faiz olması faktının özü 2009-cu ilin bizim üçün nə qədər uğurlu olmasını aydın göstərir. Azərbaycan iqtisadiyyatı hələ 2008-ci ildə bütün Cənubi Qafqaz iqtisadiyyatının üçdə iki hissəsini təşkil edirdi.

Onu da vurğulamaq zəruridir ki, başa çatmış ildə inflyasiya səviyyəsi cəmi 1,5 faiz olmuş, il ərzində Azərbaycan iqtisadiyyatına 9,2 milyard dollar sərmayə qoyulmuşdur.

Biz hətta bu mürəkkəb vaxtda belə bir sıra yeni müəssisələr, o cümlədən Sumqayıt texnoparkını istifadəyə vermişik. Bu gün ölkənin valyuta ehtiyatlarının həcmi 20,4 milyard dollar təşkil edir. 2003-2008-ci illərdə ölkədə işsizliklə bağlı əsas problemlər həll edilmişdir. Keçən il daha 74 min yeni iş yeri açılmışdır.

Ölkəmizin inkişafının humanitar tərkib hissəsini səciyyələndirmək üçün xüsusi qeyd etmək istərdim ki, 2009-cu ildə Azərbaycanda 64 məktəb tikilmiş, 59 səhiyyə müəssisəsi təmir edilmiş, 5 iri olimpiya kompleksi istifadəyə verilmişdir. Ölkədə ünvanlı sosial yardım proqramının həyata keçirilməsi davam etmişdir.

2010-cu il Azərbaycanda "Ekologiya ili" elan olunmuşdur. Bütünlükdə bizdə ekoloji vəziyyət yaxşıdır. Lakin neft və qaz sənayesinin inkişafı nəticəsində neft və neft tullantıları ilə çirklənmiş Abşeron yarımadasının sağlamlaşdırılmasına ehtiyac vardır. Bu il çərçivəsində biz Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisini başa çatdırmaq, bir milyon təzə ağac əkmək, tullantıların təkrar emalının həcmini genişləndirmək və bir sıra digər layihələr həyata keçirmək niyyətindəyik.

Bu gün biz fəxrlə deyirik ki, Azərbaycan iqtisadiyyatı keçid dövrünü başa çatdıra bilmişdir. Hazırda bu, liberal, müstəqil, davamlı, öz ehtiyatlarına əsaslanan iqtisadiyyatdır. Bu nəticəyə nail olmaq üçün Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin tam şəkildə nümayiş etdirdiyi böyük siyasi iradə, uzaqgörənlik lazım idi. 2008-ci ildə Dünya Bankının Azərbaycanı bir nömrəli islahatçı ölkə elan etməsi, 2009-cu ildə Ümumdünya İqtisadi Forumunun Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə bütün MDB ölkələrindən irəli - dünyada 51-ci hesab etməsi məhz onun xidmətləridir.

İlham Əliyevin öz ehtiyatlarımızdan istifadə edilməsinə, Azərbaycanın milli maraqlarının müdafiəsinə yönəlmiş ölçülüb-biçilmiş siyasəti sayəsində biz bu çətin yolu keçə və MDB məkanında ən sürətlə inkişaf edən ölkə ola bilmişik. İlham Heydər oğlundan soruşanda ki, "Mürəkkəb böhran dövründə Azərbaycan siyasətinin uğurunun sirri nədədir?" o, adətən siyasətinin bir neçə istiqamətini qeyd edir. Bu, əlbəttə ki:

- istehlak qiymətlərinin aşağı salınmasının vacibliyi və inflyasiyaya nəzarət;

- milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə monitorinqi, kreditlərə və faiz dərəcələrinə nəzarət;
- təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi;
- sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilmiş siyasət;
- sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi;
- ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və sairdir.

Bax, belə bir şərhi asan, həyata keçirilməsi çətin mexanizm. Lakin 2009-cu ilin yekunları Prezidentin atdığı addımların səmərəliliyini nümayiş etdirdi.

2009-cu ildə Azərbaycan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə məşğul olmağı davam etdirmişdir. Bizim üçün olduqca vacib sahədə Azərbaycanın mövqeyini Forum iştirakçılarının diqqətinə çatdırmaq istərdim. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınmış, onun bərpa edilməsinin zəruriliyi müvafiq qətnamələrlə təsdiq edilmişdir. Şübhəsiz ki, o, bərpa edilməlidir.

Ötən ilin sonunda ATƏT-in xarici işlər nazirləri səviyyəsində Afinada keçirilən iclasında bu münaqişənin məhz ərazi bütövlüyü çərçivəsində həllinə dair sənəd qəbul edilmişdir. Münaqişə dövrü ərzində ilk dəfə Ermənistan bu sənədə qoşulmuş və etiraf etmişdir ki, problemin həlli yalnız ərazi bütövlüyü çərçivəsində mümkündür. Beləliklə, ərazi bütövlüyü prinsipinin xalqın öz müqəddəratını təyin etməsi problemi ilə qarşı-qarşıya qoyulduğu uzun dövr başa çatmışdır. Nəticə sadədir: öz müqəddəratını təyinetmə məsələsi ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır.

Mən Rusiyanın ziyalı elitasının burada iştirak etməsindən istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin tarixindən daha ətraflı danışmaq istərdim. Əlbəttə, bu gün Rusiyada bu münaqişə barədə çox yazılır. Şübhəsiz ki, yazılar müxtəlifdir. Onların bir hissəsi, həqiqətən, məsələnin mahiyyətini anlamağa və münaqişədən çıxış yollarını axtarmağa kömək edir. Digər hissəsi isə yalnız bir tərəfin mövqeyini bilərəkdən qərəzli şəkildə ifadə edir.

Bütün bu hadisələrin bilavasitə şahidi kimi mən jurnalistləri hadisələri daha peşəkarcasına işıqlandırmağa çağırmaq istərdim. Bəzən elə təəssürat yaranır ki, bu mövzuda yazanlar Rusiyanın İrandakı səfiri Aleksandr Qriboyedovun XIX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi barədə məşhur məktubunu oxumamış, XIX əsrin əvvəllərində Qafqazın real etnik xəritəsi barədə heç bir məlumata malik deyillər. Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra təkcə İrandan Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarına 40 mindən çox erməni köçürülmüş, İrandan və Türkiyədən Cənubi Qafqaza köçürülən ermənilərin ümumi sayı isə təxminən 200 min nəfər təşkil etmişdir. Təsadüfi deyildir ki, Aleksandr Qriboyedov yazırdı ki, azərbaycanlılar köçkün ermənilərin həmişəlik Qarabağda qalacağından qorxurlar.

1978-ci ildə Dağlıq Qarabağda ermənilərin buraya köçməsinin 150-ci ildönümünə həsr olunmuş abidənin təntənəli açılışı olmuşdur. Bütün bunlara baxmayaraq, mətbuatda bəzən indi də Dağlıq Qarabağın Azərbaycana İosif Stalin tərəfindən hədiyyə edilməsi barədə cəfəng bəyanatlar səslənir.

Stalin "hədiyyələri" barədə yalnız belə arayış verə bilərəm. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun ərazisi 114 min kvadratkilometrə bərabər idi. İndi bu rəqəm 86,6 min kvadratkilometrdir. 1937-ci il şəraitində sərhədlər elə cızılmışdı ki, 300 min azərbaycanlının yaşadığı böyük bir ərazi Ermənistan SSR-in, 500 min azərbaycanlının yaşadığı digər bir ərazi Gürcüstan SSR-in tərkibinə verilmişdi. 1948-ci ildə Stalinin bədnam fərmanları guya Vətənlərinə qayıdan ermənilər üçün torpaqların boşaldılması məqsədi ilə Azərbaycan əhalisinin böyük hissəsinin Ermənistandan Azərbaycana köçməsini nəzərdə tuturdu. Bu, yəqin ki, Stalinin Azərbaycan xalqına "hədiyyələrinin" tam siyahısı deyildir.

1918-ci ilin mayında Cənubi Qafqazda üç müstəqil dövlət - Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları yarananda Ermənistanın ərazisi təxminən 10 min kvadratkilometr idi. 1918-ci il mayın 29-da yenicə elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti bəzi dövlətlər arasında razılığa əsasən İrəvan şəhərini paytaxt kimi Ermənistana verməyə məcbur oldu. Bununla bağlı müvafiq sənədlər vardır. Ermənistan əvvəlcədən bəyan edirdi ki, İrəvan ona verilərsə, bir də heç zaman Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyəcəkdir. Sovet hakimiyyəti illərində Ermənistan ərazisi Azərbaycan ərazisi hesabına daha 19 min kvadratkilometr genişləndi və bu gün artıq 29 min kvadratkilometr təşkil edir.

Mən hələ onu demirəm ki, 1918-ci ilin martında Stepan Şaumyan silahlı daşnak dəstələri ilə birlikdə Bakıda talanlar törədərək, yüzlərlə dinc sakini qətlə yetirib Bakı şəhərini yatıb yuxusunda gördüyü Ermənistan dövlətinin paytaxtına çevirmək istəyirdi.

Lakin Azərbaycan xalqı bütün bu ağır sınaqlara davam gətirdi. Bu gün Azərbaycan sabit və çiçəklənən dövlətdir. Burada onlarca xalqın nümayəndələri tam milli sülh və həmrəylik şəraitində yaşayır. Yeri gəlmişkən, bu gün Azərbaycanda 20 min erməni yaşayır, halbuki 1979-cu ildə ümumittifaq siyahıyaalmaya görə Ermənistanda yaşayan 300 minə yaxın azərbaycanlıdan orada biri də qalmamışdır.

Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi həmişə mədəniyyətlərin daimi dialoqunu təmin etməyə qabil olan ən yüksək tolerantlıq diyarı kimi məşhur olmuşdur. Ölkəmizin tarixində heç vaxt ksenofobiyaya və düşmənçiliyə yer olmamışdır. 1988-ci ilin əvvəlində - süni şəkildə yaradılmış bu münaqişənin başlanğıc mərhələsində erməni ekstremistləri Əsgəranda 2 nəfər gənc azərbaycanlını qətlə yetirmiş, bununla da kədərli statistikanın başlanğıcı qoyulmuşdur: bu qarşıdurmada 20 min Azərbaycan vətəndaşı həlak olmuş, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

XX əsrin sonunda Azərbaycanın üzləşdiyi bu humanitar fəlakət nədənsə jurnalistlərin diqqətindən kənarda qalır, hərçənd bu rəqəmlərin hər birinin arxasında böyük bir insan faciəsi gizlənir.

Bu gün ölkə ərazisində bir dənə də olsun çadır düşərgəsi qalmamışdır. Lakin buna nail olmaq o qədər də asan deyildi. Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin ağır sosial vəziyyətini heç olmasa bir qədər yaxşılaşdırmaq üçün nə mümkündürsə edir. Lakin beynəlxalq hüququn bütün tələbləri və Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla bu münaqişə əsaslı şəkildə həll edilmədən məcburi köçkünlərin və qaçqınların doğma yerlərinə qayıtması qeyri-mümkündür. Hərçənd, etiraf etmək lazımdır ki,

bütün bu dəhşətlərin, erməni silahlı dəstələri tərəfindən törədilmiş təcavüzün və torpaqlarımızın işğal edilməsinin şahidi olmuş insanların qəlbində onilliklər boyu rahatlıq olmayacaqdır. Axı bu gün ermənilər təkcə Dağlıq Qarabağı deyil, onun ətrafındakı əhalisi sırf azərbaycanlılar olan yeddi rayonu da guya təhlükəsizlik zolağı yaratmaq məqsədi ilə işğal etmişlər.

Mən bu məsələlərə toxunaraq xüsusi vurğulamaq istərdim ki, münaqişə mövzusuna müraciət edilməsi bu hadisələri işıqlandırmaq məsuliyyətini öz üzərinə götürən insandan ən yüksək peşəkarlıq və hazırlıq səviyyəsi tələb edir. Əminəm ki, münaqişənin işıqlandırılması ilə əlaqədar vəziyyət əhəmiyyətli dərəcədə yaxşılaşdırıla bilər və yaxşılaşdırılmalıdır.

Yalnız bu münaqişə öz ədalətli həllini tapandan sonra biz regionda hərtərəfli əməkdaşlığa hazırıq.

Bizim Forumun bayram əhval-ruhiyyəsində bu mürəkkəb məsələyə bəlkə də toxunmamaq olardı. Lakin bu, Azərbaycan üçün o qədər ümdə məsələdir ki, onun barəsində susmaq sadəcə olaraq düz olmazdı.

Bir neçə gün bundan əvvəl bizim və elə Rusiyanın da bütün agentliklərinin informasiya lentlərində belə bir xəbər yayılmışdır ki, biz, nəhayət, əhalisinin sayı 9 milyon olan ölkəyə çevrilmişik. Bu, dolayı şəkildə də olsa nə qədər dinamik inkişaf etməyimizin, bizim vətəndaşların maddi rifahının artmasının göstəricisidir. Keçən il Azərbaycanda doğulmuş 152 min uşaq arasında valideynləri qaçqınlar və məcburi köçkünlər olanlar da vardır. Mən çox istərdim ki, həmin uşaqlar ən yaxın vaxtda öz atalarının və babalarının yurdlarını görə bilsinlər.

2009-cu il göstərdi ki, biz böhran ilində də uğurla inkişaf edə bilirik, iqtisadiyyatımız MDB məkanında ən rəqabətədavamlı iqtisadiyyatdır. Humanitar sahədə Azərbaycanda yeni il bizim Forumun işi ilə başlanır. Bu, əlamətdar faktdır. 2009-cu ilin sonunda baş vermiş hadisələr də bundan az əlamətdar olmamışdır. Xatırladım ki, noyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev birlikdə Ulyanovsk şəhərində Heydər Əliyevin abidəsinin və onun adını daşıyan meydanın açılış mərasimində iştirak etmişlər. Elə həmin gün ölkələrimizin prezidentləri Heydər Əliyevin hələ 1984-cü ildə planlaşdırdığı Volqa çayı üzərindən salınan yeni körpünü açmışlar.

Dərin rəmzi məna daşıyan bu hadisə göstərir ki, ölkələrimizin tarixi və bu günün reallıqları minlərlə görünən və görünməz tellərlə bağlıdır. Bugünkü Forum da bir növ körpüdür - ikitərəfli hərəkət olan körpü. Bu, xalqlarımızı birləşdirən və yaxınlaşdıran körpüdür. Bu körpü üzərində səmərəli hərəkəti təmin etmək sizin və bizim vəzifəmizdir.

Ulyanovskda Dmitri Medvedevin və İlham Əliyevin görüşü zamanı Dmitri Anatolyeviç demişdir ki, biz "təkcə paytaxtlarda, təkcə Moskvada və Bakıda, yaxud başqa iri şəhərlərdə deyil, həm də ucqar bölgələrdə görüşə bilərik". Düşünürəm ki, bizim Forum da həmin təklifdən istifadə etməli və gələcəkdə görüşlərimiz Azərbaycanın və Rusiyanın müxtəlif regionlarında təşkil edilməlidir.

Son olaraq həmin Ulyanovsk görüşü ilə əlaqədar daha bir sitat gətirmək istərdim. Volqa üzərindən körpünün açılışında İlham Heydər oğlu Əliyev demişdir: "Ölkələrimiz ara-

sında qarşılıqlı əlaqələr uğurla inkişaf edir, aramızda çox sıx münasibətlər yaranmışdır, prezidentlər səviyyəsində tez-tez əlaqə saxlayırıq. Biz bu münasibətləri strateji tərəfdaşların, mehriban qonşuların, dostların münasibətləri kimi səciyyələndiririk. Bugünkü görüş və Ulyanovska dəvət də bunu təsdiq edir. Bir müddət bundan əvvəl Dmitri Anatolyeviç mənə zəng vuranda onun məni bu tədbirə dəvət edəcəyini güman etmirdim. Bu, olduqca dəyərli dəvətdir, mən çox mütəəssir oldum. Bu, məhz xalqlarımız arasında, ölkələrimiz arasında münasibətlərin ruhuna uyğundur".

Biz də məhz həmin münasibətlərin ruhunu qoruyub saxlamalı və inkişaf etdirməliyik. Son dərəcə nəcib olan bu işdə hamımıza uğurlar diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, "TEFI" Rusiya Televiziya Akademiyasının prezidenti Mixail Şvıdkoy, Rusiyanın mədəniyyət naziri Aleksandr Avdeyev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Rusiya Federasiyasının MDB İşləri, Xaricdə Yaşayan Həmvətənlər və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyinin rəhbəri Farit Muxametşin, Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev, Rusiya Dövlət Humanitar Universitetinin rektoru, "Rusiya-Azərbaycan" Dostluq Cəmiyyətinin prezidenti Yefim Pivovar, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar cəmiyyətin müxtəlif təbəqələri, müxtəlif peşə adamları arasında humanitar əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulamışlar.

Çıxış edənlər bildirmişlər ki, sərhədləri dövlətlər çəkir, mədəni qarşılıqlı əlaqələr isə onları genişləndirir. Xalqlarımızın bir-birini daha yaxşı başa düşməsi bizim üçün çox vacibdir. Çox vacibdir ki, hər iki ölkənin ziyalıları tez-tez görüşsünlər, problemləri həll etsinlər, gələcək layihələr barədə razılığa gəlsinlər.

Əsası 1724-cü ildə, Rusiya ilk səfirini Azərbaycana göndərəndə qoyulmuş Azərbaycan-Rusiya əlaqələrinin əsas inkişaf mərhələlərindən danışan natiqlər qeyd etmişlər ki, bu tarixi dövr ərzində həm faciəli, ağır, həm də xoş və yaxşı hadisələr baş vermişdir. Azərbaycan xalqının mərd oğulları böyük müharibələr dövründə rus xalqının nümayəndələri ilə çiyin-çiyinə döyüşərək mərdlik və qəhrəmanlıq nümunələri göstərmişlər. İndi çoxları bilmir ki, Birinci Dünya müharibəsinin qəhrəmanları, Georgi silahı ilə mükafatlandırılmış səkkiz rus sərkərdəsi arasında artilleriya generalı, çoxmillətli Qafqazın yeganə nümayəndəsi, azərbaycanlı Səmədbəy Mehmandarov da vardır. Rus həmkarları azərbaycanlı Əliağa Şıxlinskini "rus artilleriyasının atası" adlandırmışdılar. Hərbi dərsliklərdə "Şıxlinski üçbucağı" terminindən geniş istifadə olunur. Böyük Vətən müharibəsi illərində qəhrəmanlıqla döyüşən 680 mindən çox Azərbaycan oğul və qızının 130-dan çoxu Sovet İttifaqı Qəhrəmanı, 14 nəfər isə Şərəf ordeninin bütün dərəcələrinə layiq görülmüşdür.

İki yüz ildən artıq Rusiya ilə Azərbaycan əvvəlcə çar Rusiyasının, sonra isə Sovet İttifaqının tərkibində bir yerdə olmuşlar. 1991-ci ildə iki müstəqil dövlət arasında bərabərhüquqlu münasibətlər qurulmuşdur.

Rusiya-Azərbaycan münasibətləri bütün sahələrdə dinamik inkişaf edir. Bu gün ölkələ-

rimiz sabitliyə, konstruktivliyə, təkcə yaxın gələcəkdə deyil, həm də ən uzunmüddətli perspektivdə mehriban qonşuluğa meyil göstərirlər. Hazırda mövcud olan böyük normativ-hüquqi baza əsasında qarşılıqlı münasibətlərimiz qurulur və birgə layihələr həyata keçirilir.

Azərbaycanın və həmçinin Rusiya-Azərbaycan münasibətlərinin inkişafından danışan natiqlər ümummilli lider Heydər Əliyevin müstəqil dövlətimizin yaranmasında və iki ölkə arasında əlaqələrin genişlənməsində misilsiz xidmətlərini vurğulamışlar.

Azərbaycan ilə Rusiya arasında münasibətlərdə humanitar əməkdaşlıq mühüm yer tutur. 2007-ci ildə Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əməkdaşlığa dair üçillik Proqram təsdiq edilmişdir. Proqramda mədəniyyət, səhiyyə, gənclər siyasəti və idman sahələrində birgə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Rusiyada çoxsaylı Azərbaycan diasporu vardır. Gənc azərbaycanlılar bu ölkədə bir çox klublar təşkil etmişlər. Bununla əlaqədar Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatını (RAGT) təsis etmək ideyası yaranmışdır. RAGT Rusiyanın müxtəlif guşələrində yaşayan, işləyən və təhsil alan, lakin tarixi Vətəni ilə sıx əlaqələr saxlamağa çalışan gənc azərbaycanlıların birliyidir.

RAGT-nin təşəbbüsü ilə Rusiyanın gənclər təşkilatlarının nümayəndələri Azərbaycana gəlir, burada yaşıdları ilə görüşür, təcrübə mübadiləsi aparır, mövcud problemləri müzakirə edir, yeni dostlar tapır və Azərbaycanın zəngin mədəniyyəti ilə tanış olurlar.

Hazırda ölkəmizdə çoxlu beynəlxalq gənclər layihələri həyata keçirilir, gənclərin görüşlərində Rusiyadan gələn nümayəndələr də iştirak edirlər. Ötən il Azərbaycanda yeniyetmələr arasında kimya, fizika və biologiya üzrə elmi olimpiada keçirilmişdir. Yarışmada Rusiya komandası birinci yeri tutmuşdur.

İki ölkə arasında idman sahəsində qarşılıqlı münasibətlər də çox yüksək səviyyədədir. Azərbaycan Gənclər və İdman Nazirliyi digər ölkələrin gənclər və idman təşkilatları ilə əlaqələrin qurulmasında maraqlıdır. Rusiya və onun subyektləri ilə qarşılıqlı münasibətlər də istisna deyildir. Azərbaycanın nazirlik və gənclər təşkilatlarının nümayəndələri Rusiyada keçirilən tədbirlərdə fəal iştirak edir, Rusiya nümayəndələri isə Azərbaycana gəlirlər. Rusiya Federasiyasının bir sıra subyektlərində müvafiq qurumlarla sıx əlaqələr yaradılmışdır.

MDB İşləri, Xaricdə Yaşayan Həmvətənlər və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyin xətti ilə keçən ilin baharında Azərbaycanda Rusiya Mədəniyyət-İnformasiya Mərkəzinin açılışı olmuşdur. Agentlik ictimai əlaqələrin və rus dilinin inkişafına fəal kömək etmək niyyətindədir. Son vaxtlar Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyəti xeyli canlanmışdır. Agentlik Rusiyadakı Azərbaycan diasporu ilə müəyyən işlər aparmağı planlaşdırır. Bu məqsədlə agentliyin mütəxəssisləri müştərək layihələrin həyata keçirilməsi məsələlərini müzakirə etmək üçün azərbaycanlı həmkarları ilə, habelə Bakı Slavyan Universitetinin, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının rəhbərliyi ilə görüşlər təşkil edirlər.

Forumda hər iki ölkənin elm xadimləri arasında əlaqələri genişləndirməyin zəruri olması fikri səslənmişdir. Hazırda Azərbaycanda iki müştərək Azərbaycan-Rusiya filminin çəkilişləri aparılır. Onlardan birinin çəkilişi başa çatmaq üzrədir. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında böyük rus bəstəkarı Pyotr Çaykovskinin "Qu gölü" baletinin tamaşası göstəriləcəkdir. Tamaşada Mariinsk Teatrının solisti çıxış edir. Azərbaycan teatrlarının repertuarına müntəzəm olaraq rus klassiklərinin əsərləri daxil edilir.

Forumda Azərbaycanın tanınmış bəstəkarlarının əsərlərinin Rusiya səhnəsində ifa edilməsi, bizim dramaturqların pyeslərinin Rusiya teatrlarında tamaşaya qoyulması, Azərbaycan teatrlarının tamaşalarına Rusiyadan rejissorlar cəlb edilməsi, habelə bizim teatr kollektivlərinin RF-yə qastrollarının təşkil olunması təklif edilmişdir.

Turizm sahəsi humanitar əməkdaşlığın genişlənməsində xüsusi rol oynayır. Azərbaycanın zəngin turizm potensialı, son illərdə turizm infrastrukturunun fəal inkişaf etməsi ölkəmizə gələn turistlərin Azərbaycanın təbiəti, xalqımızın adət və ənənələri ilə, milli mətbəximizlə daha yaxından tanış olmasına imkan verəcəkdir. Bu il Rusiyanın "Vokruq sveta" nəşriyyatı ilə birlikdə ilk dəfə "Azərbaycan üzrə sorğu kitabı" dərc edilmiş və Rusiyanın kitab ticarəti şəbəkəsində yayılmışdır. Şübhəsiz, bu tədbir Rusiya vətəndaşlarının diqqətini Azərbaycana cəlb edəcəkdir.

İlk addımlarını atan Rusiya-Azərbaycan Dostluq Cəmiyyətinin idarə heyəti keçən ilin axırlarında seçilmişdir. Cəmiyyət Heydər Əliyev Fondu və Bakı Dövlət Universiteti üçün humanitar ədəbiyyat kitabxanası yaratmışdır. Bu rəmzi addımı atmaqla cəmiyyət Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun işində iştirak etmişdir.

Çıxış edənlər vurğulamışlar ki, xalqlarımız dinc yanaşı yaşadığı dövrdə mədəniyyət sahəsində qarşılıqlı zənginləşmişlər. Azərbaycan rus ədəbiyyatına - həm nəsrə, həm də poeziyaya, habelə musiqiyə və təsviri incəsənətə xeyli gözəl nümunələr bəxş etmişdir. Rusiya da öz növbəsində müasir təfəkkür formalarını Azərbaycana təqdim etmişdir. Azərbaycan rus mədəniyyəti vasitəsilə dünya mədəniyyəti ilə tanış olmuşdur. Bugünkü forum bir daha təsdiq edir ki, bu əlaqələr kəsilmir.

Azərbaycan xalqı Rusiya ictimaiyyətindən özü üçün ən mühüm problemdə - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində onu başa düşməsini gözləyir. Azərbaycan ərazi bütövlüyü məsələsində heç bir güzəştə getməyəcəkdir. Ermənilərin Azərbaycan torpaqlarına iddiaları nəticəsində yüz minlərlə azərbaycanlı indiki Ermənistan ərazisində əsrlər boyu yaşadığı ata-baba torpaqlarından qovulmuş, ötən əsrin sonlarında isə Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, Dağlıq Qarabağda və onun ətrafındakı yeddi rayonda etnik təmizləmə aparılmış, Xocalıda soyqırımı törədilmişdir. Bu humanitar fəlakətlərin təqsirkarlarını öz adı ilə çağırmağın vaxtı çatmışdır.

Forumun açılışında çıxış edən mədəniyyət xadimlərinin yekdil fikrinə görə, mənəvi dəyərlərin qorunması problemlərini müzakirə etmək, mədəniyyəti ucuz şou-biznesin təsirindən qorumaq məsələsinə dair fikir mübadiləsi aparmaq, ölkələrimizdə müasir standartların tətbiqi zamanı bədii təhsilin yüksək keyfiyyətini qoruyub saxlamaq zəruridir. Cəmiyyətin həyatında mədəniyyətin rolu əvəzsizdir, çünki insanın təfəkküründə, onun əxlaqi keyfiyyətlərini bilavasitə formalaşdıran məhz mədəniyyətdir.

Çıxış edənlər vurğulamışlar ki, ziyalıların və vətəndaş cəmiyyətinin nümayəndələrinin, öz ölkələrinin inkişafında marağı olan insanların iştirak etdiyi Humanitar Əməkdaşlıq

üzrə Birinci Azərbaycan-Rusiya Forumu gələcəyə istiqamətlənmişdir. Əsas məqsəd qarşılıqlı əlaqələri gücləndirmək, birgə səylər əsasında hər iki ölkənin intellektual baxımdan daha da çiçəklənməsinə nail olmaqdır.

AZƏRBAYCAN-RUSİYA FORUMU ÇƏRÇİVƏSİNDƏ QHT SEKSİYASININ İCLASI OLMUŞDUR

Yanvarın 22-də Diasporla İş üzrə Dövlət Komitəsində Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumu çərçivəsində qeyri-hökumət təşkilatları (QHT) seksiyasının iclası olmuşdur.

Qonaqları salamlayan Azərbaycan Respublikası Prezidenti Administrasiyası xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Forumun ölkələrimiz və xalqlarımız arasında tarixi əlaqələrin daha da inkişafına xidmət edəcəyinə əminliyini vurğulamışdır. N.Məmmədov xalqlarımızın 200 ilə yaxın tarixi dövrdə birgə yaşadıqlarını xatırladaraq, hazırda müstəqil dövlətlərimiz arasında təkcə siyasi, iqtisadi deyil, həmçinin elmi, mədəni, humanitar və digər sahələrdə də əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, Bakıda keçirilən bu tədbir Azərbaycan ilə Rusiya arasında dostluğun və mehriban qonşuluğun daha da möhkəmlənməsinə şərait yaradacaqdır.

Rusiya Federasiyasının MDB İşləri, Xaricdə Yaşayan Həmvətənlər və Beynəlxalq Humanitar Əməkdaşlıq üzrə Federal Agentliyinin rəhbəri Farit Muxametşin bu gün Bakıda işə başlamış Forumun ölkələrimiz arasında qədim tarixi kökləri olan dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəyini söyləmişdir. F.Muxametşin təmsil etdiyi ölkədə fəaliyyət göstərən diaspor təşkilatları arasında Azərbaycan diasporunun həm böyüklüyünə, həm də gördüyü işlərin miqyasına görə fərqləndiyini məmnunluq hissi ilə diqqətə çatdırmışdır.

Forumun hər iki ölkənin qeyri-hökumət təşkilatları arasında da əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə şərait yaratdığını diqqətə çatdıran qonaq, bu sahədə əlaqələrin davamlı xarakter alması üçün münbit bazanın mövcudluğunu vurğulamışdır.

Hər iki tərəfdən müxtəlif humanitar sahələri əhatə edən qeyri-hökumət və diaspor təşkilatları rəhbərlərinin iştirak etdikləri tədbirdə əməkdaşlığı daha da inkişaf etdirməklə bağlı fikir mübadiləsi aparılmışdır.

BERNDƏ AZƏRBAYCAN VƏ İSVEÇRƏ ARASINDA TİCARƏT VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN 4-CÜ İCLASI KEÇİRİLMİŞDİR

İsveçrənin paytaxtı Bern şəhərində Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclası keçirilmişdir.

Tədbirdə Azərbaycanı komissiyanın həmsədri, iqtisadi inkişaf naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinə Xarici İşlər, Maliyyə, Ədliyyə, Vergilər, Səhiyyə, Mədəniyyət və Turizm nazirliklərinin, Mər-

kəzi Bankın, "Azərsu" və "Meliorasiya və Su Təsərrüfatı" ASC-lərinin nümayəndələri daxil idi.

İsveçrə tərəfi isə komissiyada səfir, İsveçrə Konfederasiyasının İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin idarə heyətinin üzvü xanım Monika Rühül Burzinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunmuşdur.

İclasda Azərbaycan ilə İsveçrə arasında iqtisadi əlaqələrin mövcud vəziyyəti və iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq perspektivləri müzakirə edilmiş, Hökumətlərarası Komissiyanın ötən iclasının Protokoluna uyğun olaraq, iki ölkə arasında əlaqələrin genişləndirilməsi istiqamətində görülmüş işlər barədə fikir mübadiləsi aparılmışdır.

Komissiyanın Azərbaycan tərəfdən həmsədri, iqtisadi inkişaf naziri Şahin Mustafayev iki ölkə arasındakı iqtisadi və siyasi əlaqələrin inkişafında İsveçrə Prezidenti Paskal Kuşpenin 2008-ci ilin mayında Azərbaycana, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin oktyabrında İsveçrəyə səfərlərinin xüsusi rol oynadığını vurğulamışdır. İndiyədək iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə dair zəruri hüquqi-normativ bazanın yaradıldığını qeyd edən Ş.Mustafayev hər iki ölkənin mövcud potensialından istifadə etməklə Azərbaycan və İsveçrə arasında iqtisadi-ticarət əlaqələrini daha da inkişaf etdirmək üçün real imkanların olduğunu bildirmişdir.

İclasda həmçinin Azərbaycan iqtisadiyyatı haqqında, Hökumətlərarası Komissiyanın 3-cü iclasından ötən dövrdə iki ölkə arasında əlaqələrin genişləndirilməsi istiqamətində görülmüş işlər barədə İsveçrə tərəfinə geniş məlumat verilmişdir.

Komissiyanın həmsədri, səfir, İsveçrə Konfederasiyasının İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin idarə heyətinin üzvü xanım Monika Rühül Burzi iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf dinamikasından razılığını ifadə etmiş, İsveçrə tərəfinin Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

Azərbaycan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclasının yekunlarına dair Protokol imzalanmışdır.

Protokolda iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, sənaye, kənd təsərrüfatı, maliyyə və bank, investisiya, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Səfər çərçivəsində iqtisadi inkişaf naziri Şahin Mustafayev Federal Şuranın İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin (SECO) rəhbəri Jan-Daniel Qerber ilə görüşmüşdür. Görüşdə iki ölkə arasında əməkdaşlığın inkişafında SECO-nun mühüm rol oynadığı vurğulanmışdır. Görüşdə həmçinin, makroiqtisadi siyasət, iqtisadi inkişaf və məşğulluq, özəl sektorun dəstəklənməsi, ticarət, infrastruktur sahələrində Azərbaycan və SECO arasında əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə uğurla inkişaf etdiyi vurğulandı.

Bakıda keçirilən Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun əhəmiyyətinin qeyd olunduğu görüşdə bu cür tədbirlərin Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın daha da dərinləşməsi işinə xidmət etdiyi bildirildi. Qeyd edildi ki, ölkələrimiz arasında humanitar sahədə əlaqələr möhkəm əsaslara söykənir və əlaqələrimiz beynəlxalq sahədə humanitar əməkdaşlıq üçün yaxşı nümunədir.

Azərbaycan Prezidentinin Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun iştirakçıları ilə səmərəli və məhsuldar görüşünün əhəmiyyəti vurğulandı. Görüşdə forumun növbəti ildən mütəmadi olaraq keçirilməsinin və formatının genişləndirilməsinin məqsədəuyğun olduğu bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını Soçinin "Adler" Beynəlxalq hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ OLMUŞDUR

Yanvarın 25-də Soçinin "Adler" Beynəlxalq hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

SOÇİDƏ AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

Yanvarın 25-də Soçidə işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev "Grand Polyana" mehmanxanasının "Qəbullar evi"nə gəlmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi "Qəbullar evi"nin önündə Rusiya Prezidenti Dmitri Medvedev qarşıladı.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü oldu.

Daha sonra görüş Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın iştirakı ilə davam etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olundu.

SƏFƏR BAŞA ÇATDI

Yanvarın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Soçinin "Adler" Beynəlxalq hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN VƏ KÜVEYT ARASINDA QADIN, UŞAQ VƏ AİLƏ MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ SAZİŞ İMZALANMIŞDIR

Yanvarın 25-26-da Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynovanın rəhbərliyi ilə nümayəndə heyəti Küveyt dövlətində rəsmi səfərdə olmuşdur.

Səfərin məqsədi ailə, qadın və uşaq problemləri sahəsində ölkələrarası əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

Proqram çərçivəsində nümayəndə heyəti Küveytin Qadın Məsələləri Komitəsinin sədri Sheyxa Lətifə Fahed əl Səlim əl Sabahın iştirakı ilə Əl-Küveyt şəhərində Uşaq Mərkəzinin rəsmi açılış mərasimində iştirak edərək qurumun fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Hicran Hüseynova və Sheyxa Lətifə Fahed əl Səlim əl Sabah Azərbaycan və Küveyt arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında saziş imzalamışlar. Sənəd müvafiq istiqamətlər üzrə ikitərəfli əməkdaşlığın genişləndirilməsinə xidmət edir. Sazişə əsasən hər iki ölkədə qadınların irəli çəkilməsi, qadın problemləri sahəsində mütəmadi informasiya mübadiləsinin aparılması, birgə nəşrlərin buraxılması, qadın, uşaq və ailə problemlərinin araşdırılmasına həsr olunmuş ikitərəfli fəaliyyət nəzərdə tutulur. Eyni zamanda birgə beynəlxalq tədbirlərin təşkili, tərəflərin nümayəndələri üçün qarşılıqlı əsaslarla təlim kurslarının, treninqlərin keçirilməsi və digər istiqamətlər üzrə ardıcıl tədbirlərin reallaşdırılması planlaşdırılır.

İmzalanma mərasimindən sonra Hicran Hüseynova Sheyxa Fahed əl Səlim əl Sabaha AQUPDK-nın fəxri medalını təqdim etmişdir.

Hər iki tərəf bu səfəri və imzalanan sazişi qadın, ailə və uşaq problemlərinin həlli sahə-

sində Azərbaycan və Küveyt arasında qarşılıqlı əməkdaşlığın inkişafında yeni mərhələ kimi qiymətləndirmiş və gələcəkdə birgə fəaliyyətin daha da genişləndirilməsinin zəruriliyi ortaq mövqe kimi ifadə olunmuşdur.

LONDONDA "ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN ROLU" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR

Yanvarın 27-də Londondakı "Chatham House" Kral Beynəlxalq Münasibətlər İnstitutunda Mühafizəkarlar Partiyasının Türkiyəli Dostları Qrupu (CFT) və Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) birgə təşkilatçılığı ilə "Enerji təhlükəsizliyində Azərbaycan və Türkiyənin rolu" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə Britaniya Parlamentinin üzvü, Mühafizəkarlar Partiyasının nümayəndəsi lord Hauell, ölkənin iş adamları, Azərbaycan və Türkiyəni təmsil edən şirkətlərin nümayəndələri, enerji sahəsində ixtisaslaşmış məsləhətçi şirkətlərin təmsilçiləri iştirak etmişlər.

Mərasimdə sənaye və energetika naziri Natiq Əliyev ölkəmizin iştirakı ilə həyata keçirilmiş uğurlu neft-qaz layihələrinin Avropanın enerji təchizatında xüsusi rol oynadığını diqqətə çatdırmış, eyni zamanda enerji marşrutlarının şaxələndirilməsi istiqamətində də tədbirlərin həyata keçirildiyini bildirmişdir. O, həmçinin ölkənin enerji sektorunda həyata keçirilən mühüm islahatlar, alternativ enerji vasitələrindən istifadə imkanları barədə bəhs etmişdir.

PricewaterhouseCoopers və Baker&McKenzie şirkətlərinin Bakı təmsilçiləri müzakirələrdə çıxış edərək Azərbaycanda xarici investisiyaların cəlb olunması istiqamətində həyata keçirilən tədbirlər haqqında söhbət açmış və ölkədə biznes fəaliyyəti ilə məşğul olmaq üçün münbit şəraitin yaradıldığını vurğulamışlar.

Böyük Britaniyanın Enerji və İqlim Dəyişikliyi Nazirliyinin baş direktoru Vill Kavendiş ilə nazir N.Əliyevin görüşündə isə ölkələrimiz arasında enerji sahəsində həyata keçirilən əməkdaşlığın indiki vəziyyəti və perspektivləri, eləcə də Xəzər regionunun zəngin enerji resurslarının dünya bazarlarına çıxarılması imkanları ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.

Prezident İlham Əliyev Sürixdən Davos şəhərinə yola düşdü.

PREZİDENT İLHAM ƏLİYEVİN "CHEVRON" KORPORASİYASININ VİTSE-PREZİDENTİ CEY PRİOR İLƏ GÖRÜŞÜ

Yanvarın 27-də Azərbaycan Prezidenti İlham Əliyev Davosda "Chevron" korporasiyasının vitse-prezidenti Cey Prior ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Chevron" korporasiyası

arasında ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu bildirildi, enerji məsələləri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

"EDİSSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Edisson" şirkətinin baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İtaliya arasında bütün sahələrdə, xüsusən də enerji sahəsində yaxşı əməkdaşlığın olduğu vurğulandı.

Umberto Kuadrino "Edisson" şirkətinin bu əməkdaşlıq çərçivəsində yeni bir layihənin - İtaliya hökumətinin də dəstəklədiyi Türkiyə-Yunanıstan-İtaliya qaz boru kəmərinin həyata keçirilməsində maraq göstərdiyini bildirdi və bunun üçün yaxşı perspektivlərin olduğunu dedi.

Azərbaycan tərəfinin həmin layihəni dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev bildirdi ki, bu, enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi baxımından mühüm layihədir.

PREZİDENT İLHAM ƏLİYEVİN BP ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda BP şirkətinin baş icraçı direktoru Toni Heyvord ilə görüşmüşdür.

Söhbət zamanı BP şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə davam etdirildiyi bildirildi, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Azərbaycan ilə bp arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RWE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ

Yanvarın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda RWE şirkətinin baş icraçı direktoru Yurgen Qrosman ilə görüşmüşdür.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə RWE şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyinin vurğulandığı görüşdə əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə əməkdaşlığın perspektivləri və Nabukko layihəsi ətrafında fikir mübadiləsi aparıldı.

Yurgen Qrosman Almaniya hökumətinin Nabukko layihəsinə dəstəyini vurğulayaraq, bu sahədə əməkdaşlığın uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN GÖRÜŞÜ

Yanvarın 27-də Davosda Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün görüşü olmuşdur.

Görüşdə əlaqələrimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.

Azərbaycana səfərinin təəssüratlarını məmnunluqla xatırladan Danilo Türk qeyd etdi ki, həmin səfər zamanı keçirilmiş səmərəli görüşlər müxtəlif sahələr üzrə əməkdaşlıq üçün yaxşı əsaslar yaratmışdır. Hazırda Sloveniya tərəfi həmin səfər zamanı əldə edilmiş razılaşmalar üzərində fəal işləyir. Sloveniya Azərbaycan ilə əlaqələrin daha geniş sahələri əhatə etməsində maraqlıdır.

Sloveniya Prezidenti Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində vəziyyətlə maraqlandı.

Prezident İlham Əliyev əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinə toxundu.

Danilo Türk Azərbaycan Prezidentini Sloveniyaya səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "THE WALL STREET JOURNAL"A MÜSAHİBƏ VERMİŞDİR

Yanvarın 27-də İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "The Wall Street Journal"ın müxbirlərinə müsahibə vermişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ATƏT-in Minsk qrupu həmsədrlərinin bu məsələ ilə bağlı fəaliyyəti, regional məsələlər, Azərbaycanda enerji sahəsində görülən işlər, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolu və digər mövzularda suallara cavab verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ

PREZİDENT İLHAM ƏLİYEV "BLOOMBERG" İNFORMASİYA AGENTLİYİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda "Bloomberg" informasiya agentliyinin xüsusi müxbiri Yuri Hamberə müsahibə vermişdir.

- Azərbaycan olduqca böyük neft hasilatçısıdır. Neftin qiyməti barədə nə düşünürsünüz?

- Hesab edirəm ki, hazırda qiymət ədalətlidir. Bu qiymət hasilatçıların və istehlakçıların tələbatlarına cavab verir və eyni zamanda, şirkətlərə sərmayə qoymaq imkanı yaradır. Çünki hazırkı səviyyədən aşağı olan qiymət şirkətlərə yeni işlənmə, kəşfiyyat və hasilat işlərinə sərmayə yatırmaqda çətinlik yaradır. Zənnimcə, bu qiymət tarazlıdır.

- Hazırda qiymətlər qalxmaqda davam edir, lap yüz dolları ötsün, məgər Siz bundan

məmnun olmayacaqsınızmı?

- Neftin qiymətinin kəskin şəkildə qalxması büdcəmizə əlavə vəsaitlər verdi. Lakin, eyni zamanda, bu, ölkəmizdə olduqca yüksək inflyasiya yaratdı və istehlak qiymətləri də qalxdı. Ölkənin tarazlı şəkildə inkişafını təmin etmək və əhalinin sosial vəziyyətini daha da möhkəmləndirmək məqsədi ilə əlavə imkanlar əldə etmək üçün hesab edirəm ki, qiymət təxminən 90 və ya 100 dollar səviyyəsində olmalıdır. 70 dollar da yaxşı qiymətdir.

- Bilirik ki, təbii qaz Azərbaycanın gələcək inkişafı üçün çox önəmli amildir. "Qazprom" Azərbaycan qazını almaq təklifi ilə çıxış etmişdir. Onlar bu gün nə qədər həcmdə qazı almağı təklif ediblər və ölkəniz hazırda istismar olunan boru kəmərləri şəbəkəsi ilə nə qədər qazı ixrac etmək imkanındadır?

- Biz qazımızı müxtəlif istiqamətlərdə ixrac etməkdəyik. Bu, bizim üçün çox vacibdir, çünki biz qazın nəqli sahəsində maksimal şaxələndirməyə nail olmuşuq. Bildiyiniz kimi, şaxələndirmə nəinki istehlakçılar, o cümlədən hasilatçılar üçün də çox vacibdir. Beləliklə, biz qazı qonşu ölkələrə ixrac edirik və əlbəttə, hər hansı ölkə üçün yeni bazara çıxış şübhəsiz ki, çox vacibdir. Bizim "Qazprom"la sazişdə ixracın yuxarı həddi nəzərdə tutulmayıb. Biz belə razılığa gəldik ki, hansı həcmdə qaz təklif etsək, "Qazprom" bir o qədər də alacaqdır.

- Yəni istənilən qədər?

- Bəli.

- Ümumiyyətlə, sizdə olan mövcud boru kəmərləri şəbəkəsi ilə nə qədər qaz ixrac edə bilərsiniz? Yəni, nə qədər qazınız olarsa, bir o qədər?..

- Bu məsələdə ən mühüm amil hasilatın həcmidir. Bu gün biz bu həcmi elə bir səviyyədə saxlayırıq ki, ixrac etmək imkanımız olsun. Əgər bizim yeni ixrac imkanlarımız və bazarlar olarsa, əlbəttə ki, hasilatın artırılmasına böyük sərmayələr qoyacağıq. Biz qazı satmaq imkanımız olmadan hasilatı artırmaq üçün on milyardlarla dollar sərmayə qoya bilmərik.

- Rusiya da elə bunu edir. Rusiya tərəfi təklif edə biləcəyiniz qədər həcmi almağa hazır olduğunu bildirmişdir. Bu, əlavə sərmayələrin qoyulmasına imkan yaratmırmı, yəni sizin üçün bir növ "kart blanş" deyilmi?

- Bizim böyük ehtiyatlarımız vardır. Təbii qaz ehtiyatlarımızın təsdiqlənmiş həcmi 2 trilyon kubmetrdir. Bu həcm 5 trilyon kubmetr də ola bilər. Beləliklə, bizim özümüzü və eləcə də, dünyanın müxtəlif yerlərində tərəfdaşlarımızı ən azı yüz il qazla təchiz edə bilərik. Beləliklə, bununla bağlı bütün lazımi işlər görülməlidir. Bizim "Qazprom"la münasibətlərə gəldikdə, burada üstünlük ondan ibarətdir ki, aramızda heç bir tranzit ölkə yoxdur. Biz sadəcə həmsərhədik, infrastrukturumuz da vardır.

- Sizdən ən böyük qaz yatağı haqqında soruşmaq istərdim. Söhbət "Şahdəniz"dən gedir. Hazırda Azərbaycandan uzanan boru kəmərlərinin mövcud şəbəkəsi bu ən böyük qaz yatağının işlənilməsinin məhdudlaşdırılması və ya yubadılmasına səbəb ola bilərmi?

- Bu gün buna səbəb kimi təkcə mövcud infrastrukturun nəqletmə qabiliyyəti deyil, tranzitlə və qazımızın qiyməti ilə bağlı məsələləri də göstərmək olar. "Şahdəniz" yata-

ğı dünyada ən böyük yataqlardan biridir. Bu yataq 1,2 trilyon kubmetr qaz ehtiyatına malikdir. Biz infrastrukturu genişləndirə bilərik və bunun üçün ya yeni qaz boru kəmərinin çəkilməsini, ya da mövcud boru kəməri şəbəkəsini genişləndirməyi planlaşdırırıq. Buna görə, bu gün mövcud boru kəmərləri şəbəkəsi məsələsi əsas maneə kimi qəbul edilməməlidir. Tranzit məsələsini həll etdikdən, ədalətli qiymətə nail olduqdan sonra Azərbaycan və onun tərəfdaşları olan xarici şirkətlər yeni infrastrukturun qurulması üçün milyardlarla dollar sərmayə qoyacaqlar.

- Siz tranzit və qiymət məsələlərinə toxundunuz. Siz bu amilləri Nabukko layihəsi üzrə razılaşma üçün və ya bu layihənin real bir layihəyə çevrilməsi üçün zəruri şərtlər kimi göstərirsinizmi?

- Əslində, Nabukko layihəsi "Cənub dəhlizi"nin əsas elementlərindən biridir. Bu layihə qazımızı Qərb bazarlarına çıxarmaq imkanı verə bilər. Buraya, Nabukko, TGİ (Türkiyə-Yunanıstan-İtaliya) və TAP (Transadriatik boru kəməri) layihələri daxildir.

- Yəni, Gürcüstan və Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çıxış?..

- Bəli. Buna görə tranzit məsələləri həll olunmadan infrastrukturun genişləndirilməsi haqqında danışmaq tezdir.

- Nabukko haqqında danışdıq. Siz bunu "Cənub dəhlizi" adlandırdınız, lakin mahiyyətcə bunlar eynidir. "Cənub dəhlizi" Azərbaycanda hasil olunan enerjidaşıyıcıların Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. Sizin fikrinizcə, bu, həqiqətən baş tutacaqmı? Bu haqda müəyyən müddətdə söhbətlər gedir.

- Bunu demək çətindir. Çünki sizin də qeyd etdiyiniz kimi, bu haqda artıq uzun müddətdir ki, kifayət qədər söhbətlər gedir. Bu istiqamətdə bir sıra mühüm addımlar atılıb. Birincisi, 2009-cu ilin may ayında siyasi bəyannamə imzalanıb. Azərbaycan da bu siyasi bəyannaməyə qoşulmuşdur. Bundan əlavə, Nabukko üzvləri arasında bu layihənin hansı formada irəliyə aparılması ilə bağlı razılaşma əldə edilmişdir. Bu layihəni irəli aparmaq üçün bir sıra elementlər mövcud olmalıdır. Birincisi, bunu etmək üçün güclü siyasi iradə olmalıdır. İkincisi, maliyyə vəsaiti olmalıdır. Öncə qeyd etdiyim kimi, tranzit məsələlərinin həll olunmaması ən əsas maneədir. Eyni zamanda, qazımız üçün bazar qiyməti razılaşdırılmalıdır.

- Siz qeyd etdiniz ki, əsas maneə qazın qiyməti və tranzit məsələsidir. Aydındır ki, Azərbaycan üçün tranzitlə əlaqədar ən böyük məsələ Türkiyə ilə bağlıdır. Türkiyəyə qazın satışı ilə bağlı razılaşma üzərində müəyyən müddətdir ki, iş gedir. Bu prosesi ləngidən nədir?

- Biz qazı Türkiyəyə ixrac edirik. "Şahdəniz" yatağının birinci fazasından ixrac edirik. Bu baxımdan, heç bir problemimiz yoxdur. Yeganə problem ondan ibarətdir ki, bu gün mövcud olan qiymət bazar qiymətinə uyğun deyildir və iqtisadi baxımdan bizim üçün sərfəli deyildir. Türkiyəli həmkarlarımız da qiymətin ədalətli olmadığını deyirlər. Beləliklə, qiymətlərə yenidən baxılmalıdır.

- Siz, Azərbaycanın Prezidenti kimi enerji müharibələri, alternativ enerji təchizatı marşrutları konsepsiyasından yaxşı xəbərdarsınız. Bununla bağlı Azərbaycanın siyasi mövqeyi necədir? Yəni, tutaq ki, Rusiya sizə deyir, bəli, bütün qazınızı verin, mən alı-

ram. Bu, biznesla bağlı məsələdir? Nəzəri baxımdan, əgər onlar sizin bütün qazınızı alsalar, onda sual yaranır - boru xətləri nəyə gərəkdir? Siz siyasi baxımdan Qərbi Avropa istehlakçısı üçün alternativ enerji təchizatı marşrutuna həqiqətən sadiqsinizmi, yaxsa, bu, Azərbaycanın milli maraqlarına cavab vermir?

- Bizə gəldikdə, bu, yüz faiz kommersiya xarakterli məsələdir. Mən sizə əvvəlki təcrübəmizdən söyləyə bilərəm ki, biz neft marşrutlarımızı şaxələndirəndə də, bu, kommersiya məsələsi idi, yəni bizə neftimizi Aralıq dənizinə çıxarmaq üçün əsas boru kəməri lazım idi. Bakı-Tbilisi-Ceyhan bu cür baş tutdu. Eyni zamanda, bizim iki digər boru kəmərimiz də vardır. Onlardan biri neftimizi Rusiyanın, digəri isə Gürcüstanın Qara dənizdəki sahillərinə çıxarır. Eyni vəziyyət qaz sahəsinə də aiddir. Bu, sırf kommersiya məsələsi olmalıdır. Nabukko layihəsinin problemlərindən biri ondan ibarətdir ki, məsələ həddindən artıq siyasiləşdirilir. Biz diqqətimizi kommersiya məsələlərinə cəmləşdirməliyik. Onlar cəlbedici, əsaslandırılmış və ədalətli olmalıdır. Hasilatçılar, istehlakçılar və tranzit ölkələr arasında maraqlar tarazlığı qorunmalıdır.

- Hər halda, bu gün Azərbaycanın çalışdığı qiymət məsələsi ən mühüm məsələdir?

- Bu, mühüm məsələlərdən biridir. Digər mühüm məsələ şaxələndirmədir. Biz yalnız bir marşrutdan asılılığa yol verə bilmərik.

- Sonuncu sual. Ermənistan ilə Azərbaycan arasında nə vaxt sülh olacaq?

- Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən çıxardığı andan etibarən sülh bərqərar oluna bilər.

- Çox sağ olun.

PREZİDENT İLHAM ƏLİYEV "QLOBAL ENERJİ MƏNZƏRƏSİ" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR

Yanvarın 28-də İsveçrənin Davos şəhərində 40-cı Dünya İqtisadi Forumunun "Qlobal enerji mənzərəsi" mövzusunda iclası keçirilmişdir.

Böyük əhəmiyyətə malik olan bu iclasda Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmişdir. Forumun əsas tədbirlərindən biri olan "Qlobal enerji mənzərəsi" mövzusunda iclası Kembric Enerji Tədqiqatları Assosiasiyasının sədri Daniel Yergin açaraq Prezident İlham Əliyevə və digər qonaqlara minnətdarlıq etdi.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi, ölkəmizdə energetika sahəsində görülən işlərdən və iqtisadi inkişaf proseslərindən danışdı.

APARICI: İlk sualımı Prezident Əliyevə ünvanlamaq istərdim. Qlobal enerji sistemini nəzərdən keçirdikdə enerji təhlükəsizliyi Azərbaycan üçün nə deməkdir?

Prezident İlham ƏLİYEV: İlk növbədə onu demək istərdim ki, enerji təhlükəsizliyi baxımından bizim üçün ən əsas məsələ təchizat marşrutlarının şaxələndirilməsidir. Biz buna nail ola bilmişik. Bu gün bizim təbii ehtiyatlarımızı müxtəlif istiqamətlərə nəql edən şaxələndirilmiş boru kəmərləri sistemimiz vardır. Eyni zamanda, enerji sahəsində davamlı və uzunmüddətli əməkdaşlığın həyata keçirilməsi üçün istehsalçı, tranzit və istehlakçı ölkələr arasında maraqlar balansının olması da vacibdir. Əgər maraqlar balansı

pozularsa, bu, müəyyən problemlər yarada bilər. Bizdən ötrü digər vacib məsələ isə təbii ehtiyatlarımız, xüsusilə də qaz üçün ədalətli bazar qiyməti və müqavilələri imzalayan bütün tərəflərin tam sadiqliyidir. Hesab edirəm ki, enerji təhlükəsizliyi baxımından bu elementlər bütövlükdə istehlakçı və istehsalçılar üçün daha böyük etimad yarada bilər.

APARICI: Cənab Prezident, Azərbaycanın müstəqillik dövrünün ilk on ilində daha çox diqqət neft sahəsinə ayrılırdı. İndi isə diqqət təbii qaza artır. Növbəti 5-10 il ərzində qlobal qaz bazarında Azərbaycanın rolu nədən ibarət ola bilər və bu bazara çıxışı əngəlləyən hansı maneələr vardır?

Prezident İlham ƏLİYEV: Düşünürəm ki, qlobal qaz bazarında Azərbaycanın rolu mütləq artacaqdır. Çünki, nəhəng qaz ehtiyatlarının aşkar olunması Azərbaycanın əsas qaz ixracatçılarından birinə çevrilməsinə imkan yaradacaqdır. Bildiyiniz kimi, hesablamalara görə, Azərbaycanın təsdiq olunmuş minimal qaz ehtiyatları 2 trilyon kubmetrdən artıqdır. Bu, bundan sonrakı on illər ərzində həm bizim, həm də ixracat həcmi üçün kifayətdir. Hazırda isə ən mühüm məsələ təbii qazımız üçün etibarlı və uzunmüddətli bazarın təmin edilməsidir.

Qeyd etdim ki, artıq şaxələndirilmiş qaz təchizatı sistemimiz vardır. Lakin həmin sistem yalnız bugünkü hasilat həcmini nəql edə bilər. Biz qaz hasilatını iki, üç dəfə, bəlkə də daha çox artırmağı planlaşdırırıq. Onun üçün bizim daha böyük həcmli boru kəmərləri infrastrukturumuz olmalıdır. Əlbəttə, böyük sərmayələri yeni işlənilmə və boru kəmərləri infrastrukturuna yatırmaq üçün biz aydın şəkildə bilməliyik ki, istehlakçılarımız kimlərdir. Həmin ölkələrdə bazarın tənzimlənməsi necə qurulub. Həmin bazarlar bizim üçün etibarlı və uzunmüddətlidir, ya yox. Beləliklə, əminəm ki, bütün bu məsələlər öz həllini tapandan sonra Azərbaycan neft sahəsində olduğu kimi, qaz potensialından da uğurla istifadə edəcəkdir.

APARICI: Yəqin ki, alıcılardan söhbət gedir.

Prezident İlham ƏLİYEV: Bəli, alıcılarımız vardır. Ətrafımızda da alıcılar vardır. Azərbaycan hazırda qonşu ölkələrə qaz ixrac edir. Baxmayaraq ki, bu ölkələrdən bəziləri bizdən daha çox qaz hasil edir. Lakin məqsədimiz şaxələndirməni davam etdirmək, yeni bazarlar tapmaqdır, xüsusilə də Avropada. Biz bilirik ki, Avropadan olan alıcılar da şaxələndirmə, yeni qaz təchizatı mənbələri axtarışındadırlar. Hələlik isə Xəzər dənizinin qazı, xüsusilə də Azərbaycanın mavi yanacağı Avropa üçün yeganə qaz mənbəyi ola bilər.

* * *

İclasda bp şirkətinin baş icraçı direktoru Toni Heyvord, "Saudi Aramko" şirkətinin prezidenti Xalid Al-Falih, "Royal Dutch Shell" şirkətinin idarə heyətinin sədri Peter Vozer, "The Dow Chemical" şirkətinin idarə heyətinin sədri Endrü Liveris, "Total" şirkətinin direktorlar şurasının sədri Tyerri Desmartes mövzu ilə bağlı fikirlərini bildirdilər. Onlar şirkətlərin qlobal maliyyə böhranından xilas olması üçün daha mühüm addımların atılmasının, bu istiqamətdə səmərəli tədbirlərin görülməsinin vacibliyini diqqətə çatdırdılar.

APARICI: Cənab Prezident, biz böhranın şirkətlərə təsirindən danışdıq. Gəlirlərin

artdığı və ya azaldığı bir dövrdə Siz ölkə Prezidenti kimi sabitliyi və inflyasiyanı necə qoruyub saxlaya bilirsiniz və çətinlikləri necə dəf edirsiniz?

Prezident İlham ƏLİYEV: Onu deyə bilərəm ki, son bir neçə il ərzində ölkəmizdə apardığımız islahatlar bizə dayanıqlı və şaxələndirilmiş iqtisadiyyat yaratmağa imkan verdi. İyirmi il bundan öncə Azərbaycan Sovet İttifaqının bir hissəsi idi. O zaman iqtisadiyyatımızın bazar iqtisadiyyatı seqmenti sıfıra bərabər idi. Bu gün ümumi daxili məhsulumuzun (ÜDM) 85 faizi özəl sektorun payına düşür. Biz neft və qazdan əldə etdiyimiz gəlirləri qeyri-enerji sektoruna, ilk növbədə isə sənaye istehsalına yönəltdik. Beləliklə bu gün böhranla və neftin qiymətinin dəyişməsi ilə bağlı yaranan bütün çətinlikləri minimum itkilərlə dəf etməyə nail olmuşuq.

Mən 2009-cu ildə Azərbaycanda iqtisadi inkişafı aydın şəkildə əks etdirən bəzi rəqəmləri söyləyə bilərəm. ÜDM-in artımı 9,3 faiz, sənaye istehsalının artımı 8,6 faiz, inflyasiya dərəcəsi isə yalnız 1,5 faiz olmuşdur. 2009-cu ildə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, müstəqil neft fondumuz daha çox vəsait toplaya bilmişdir. Bu rəqəmlər aydın şəkildə göstərir ki, iqtisadiyyatımız hadisələrin gözlənilməz inkişafına tab gətirə bilir. Təbii ki, biz də iqtisadi böhrandan əziyyət çəkmişik. Lakin biz bütün ehtiyatlarımızı səfərbər etməyə nail olmuşuq.

Onu da deyə bilərəm ki, 2009-cu ilin ən mühüm elementlərindən biri də odur ki, regionumuzdakı digər ölkələrdən fərqli olaraq milli valyutamız dəyərini itirmədi, sabit qaldı. Bu isə insanların sosial müdafiəsi üçün böyük bir dəstək idi. Neftin bugünkü qiymətləri isə şirkətlər, istehlakçılar və ölkələr üçün münasibdir. Bu cür qiymətlər bizə daha çox sərmayə yatırmağa, daha çox neft və qaz hasil etməyə imkan verir, eyni zamanda, bu, istehlakçılar üçün də məqbuldur. Artıq maraqlar balansı müşahidə olunmaqdadır.

Ümid edirəm ki, biz 2010-cu ildə nəzərdə tutduğumuz bütün əsas layihələri həyata keçirəcəyik. Qeyd etmək istəyirəm ki, 2009-cu ildə Azərbaycandakı sərmayələrin ümumi məbləği 10 milyard dollara yaxın olub. Bu, iqtisadiyyatımız üçün kifayət qədər böyük məbləğdir. Hesab edirəm ki, neftin tarazlaşdırılmış qiyməti bizə gələcəkdə inkişafı davam etdirməyə imkan verəcəkdir. Yeri gəlmişkən, son altı il ərzində Azərbaycan iqtisadiyyatı dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olub. Altı il ərzində iqtisadiyyatımızın ümumi artımı 300 faiz təşkil edib. Beləliklə, indiyədək nail olduqlarımız, topladığımız vəsait və neft sahəsində əldə edilmiş gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi istiqamətində gördüyümüz işlər bizə uğurlu inkişafı davam etdirməyə imkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ

Yanvarın 28-də İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Valdis Zatlersin Davosda görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafı qeyd olundu.

Azərbaycana səfərinin çox uğurla keçdiyini qeyd edən Prezident Valdis Zatlers dedi ki,

Bakıda keçirilmiş görüşlər səmərəli nəticələr vermişdir. Latviya Prezidenti ölkələrimizin iqtisadi sahədə əlaqələrinin genişlənməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

Dövlətimizin başçısı Latviya Prezidentinin Azərbaycana səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan və Latviya şirkətləri arasında əməkdaşlığın daha da genişlənməsini dəstəklədiyini bildirdi.

Görüşdə regional əməkdaşlıq, ikitərəfli münasibətlər, beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ DORİS LOYHARDIN GÖRÜŞÜ

Yanvarın 28-də Davosda Azərbaycan Prezidenti İlham Əliyevin və İsveçrə Prezidenti xanım Doris Loyhardın görüşü olmuşdur.

Xanım Doris Loyhard Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə rəsmi səfərini xatırlatdı və qeyd etdi ki, bu, çox uğurlu bir səfər olmuşdur.

İsveçrə Prezidenti ölkələrimiz arasında iqtisadi sahədə, eləcə də energetika sahəsində əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu bildirdi.

Prezident İlham Əliyev İsveçrə ilə əlaqələrimizin müxtəlif sahələrdə, həmçinin iqtisadi sahədə uğurla inkişaf etdiyini dedi.

Dövlətimizin başçısı İsveçrə şirkətlərinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayaraq gələcəkdə bu sahədə əlaqələrimizin daha da genişlənəcəyinə əminliyini bildirdi.

Görüşdə müxtəlif sahələrdə, o cümlədən iqtisadi, energetika sahələrində ikitərəfli əlaqələr, Nabukko layihəsi çərçivəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ OLMUŞDUR

Yanvarın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Davosda Polşa Prezidenti Lex Kaçinski ilə görüşmüşdür.

Görüşdə bildirildi ki, Azərbaycan ilə Polşa arasında münasibətlər müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf edir.

Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunulan görüşdə bu səfərlərin və belə görüşlərin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətli olduğu vurğulandı.

Görüşdə ikitərəfli münasibətlər və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEVİN ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞÜ

Yanvarın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Davosda Böyük Britaniyanın York hersoqu, şahzadə Endryu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu. Bu sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

Yanvarın 28-də Davosda Azərbaycan Prezidenti İlham Əliyevin İordaniya Kralı II Abdullah ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, yüksək səviyyəli səfərlərin əməkdaşlığın möhkəmlənməsində xüsusi rolu olduğu vurğulandı.

Bildirildi ki, Azərbaycan ilə İordaniya arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensial vardır. Əminlik ifadə olundu ki, bu əlaqələr gələcəkdə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ "NEFT VƏ QAZ GEOSİYASƏTİ: YENİ SƏRHƏDLƏR" MÖVZUSUNDA SAMMİTDƏ İŞTİRAK ETMİŞDİR

Yanvarın 28-də Davosda nahar əsnasında "Neft və qaz geosiyasəti: yeni sərhədlər" mövzusunda sammit keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

LONDONDA AZƏRBAYCANIN İŞTİRAKI İLƏ ƏFQANISTANA DAİR BEYNƏLXALQ KONFRANS KEÇİRİLİR

Yanvarın 28-də Londonda açılmış Əfqanıstana dair beynəlxalq konfransın əsas mövzusu əfqan barışığı planları olmuşdur.

Tədbirdə BMT-nin baş katibi Pan Gi Mun, Əfqanıstan Prezidenti Həmid Kərzai, Böyük Britaniyanın Baş naziri Qordon Braun, 70-dək ölkənin xarici işlər idarələrinin başçıları iştirak edirlər.

Konfransda Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarov təmsil edir.

Böyük Britaniyanın Baş naziri Qordon Braun forumun açılışında vurğulamışdır: "Elə bir həlledici məqam gəlib çatmışdır ki, beynəlxalq əməkdaşlıq artıq öz ölkəsini idarə və müdafiə etməkdə əfqan xalqına kömək göstərməyə qadirdir".

Onun sözlərinə görə, təhlükəsizliyə nəzarət səlahiyyətlərini rayonbarayon, əyalətbəəyalət bilavasitə Əfqanıstan Silahlı Qüvvələrinə və əfqan xalqına vermək üçün şərait yaratmaq lazımdır.

Q.Braun xatırlatmışdır ki, 2009-cu il koalisiya qüvvələri üçün son dərəcə ağır keçmişdir. Təkcə Böyük Britaniya ötən bir ildə 100-dən çox adam itirmişdir: "Bu salona toplaşanların hamısı başa düşür ki, Əfqanıstan missiyası ayrı-ayrılıqda götürülmüş hər bir ölkənin milli təhlükəsizliyi, bu mühüm regionun sabitliyi və bütövlükdə dünyamızın təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edir".

Konfrans Əfqanıstanda vətəndaş və hərbi hakimiyyətin mövqelərini möhkəmləndirməyə, korrupsiyaya qurşanmamış vətəndaş idarəçiliyi yaratmağa, "Taliban" hərəkatının zorakılıqdan əl çəkmiş tərəfdarlarını dinc həyata qaytarmağa və demokratik dövlət quruculuğu prosesinə xidmət etməlidir.

London görüşündə təhlükəsizliyə nəzarət səlahiyyətlərinin beynəlxalq qüvvələr tərəfindən Əfqanıstan hərbi qulluqçularına təhvil verilməsi üçün həmin qüvvələrin hazırlanması cədvəli tərtib olunmalıdır.

Böyük Britaniyanın xarici işlər naziri Devid Milibend bundan əvvəl bildirmişdir ki, konfransın uğur qazanması onun beynəlxalq səylərin əfqan xalqı tərəfindən müəyyən olunmuş prioritetlər üzrə səfərbərliyə alınmasına və əlaqələndirilməsinə dair öz missiyasını yerinə yetirib-yetirə bilməyəcəyindən asılıdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ LONDONDA ƏFQANISTANA DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yanvarın 28-də Londonda keçirilmiş Əfqanıstana dair beynəlxalq konfransda çıxış etmişdir.

Xarici siyasət idarəsinin rəhbəri bəyan etmişdir ki, Azərbaycan Əfqanıstanda sülhün və sabitliyin bərqərar olmasına yönəlmiş beynəlxalq səyləri birmənalı dəstəkləyir.

Azərbaycanın Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (ISAF) əməliyyatına ilk günlərdən qoşulduğunu deyən nazir E.Məmmədyarov bildirmişdir ki, 2009-cu ildə ölkəmiz Əfqanıstanda qulluq edənlərin sayını iki dəfə artırmış və hazırda Silahlı Qüvvələrimizin 90 üzvü ISAF sıralarında xidmət edir. Azərbaycanın hərbi həkimlərinin Əfqanıstanın hospitallarında çalışmalarına, əfqan tələbələrin Azərbaycan Tibb Universitetində təhsil almalarına və bu ölkənin tibbi personalının respublikamızın tədris kurslarında iştirakına dair hazırlıq işləri aparılır.

E.Məmmədyarov vurğulamışdır ki, NATO-nun tərəfdaşı olaraq Azərbaycan Əfqanıstanda sabitliyin və təhlükəsizliyin əldə edilməsi üçün ictimai diplomatiyaya daha çox dəstək verilməsinin zəruriliyini anlayır, bu məsələdə ISAF-a öz töhfəsini verməyə hazırdır.

Azərbaycanın mövcud infrastrukturundan istifadə edərək Əfqanıstana yük daşımalarının həyata keçirilməsinə şərait yaratdığını qeyd edən E.Məmmədyarov demişdir ki, Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsi Əfqanıstana sürətli və təhlükəsiz tranzit üçün daha çox imkanlar yaradacaqdır.

AZƏRBAYCAN İLƏ GÜRCÜSTAN ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI ÜZRƏ EKSPERT QRUPUNUN GÖRÜŞÜ OLACAQDIR

Yanvarın 30-da Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov Batumidə energetika məsələlərinə həsr edilmiş konfransda iştirakı çərçivəsində Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə hökumətlərarası komissiyanın Gürcüstan tərəfdən həmsədri ilə görüşmüşdür.

X.Xələfov demişdir: "Əsas məsələ bu komissiyanın öz işini davam etdirməsi idi. Biz bu nəticəyə gəldik ki, yaxın vaxtlarda, ola bilsin ki, fevralın birinci həftəsində ekspert qrupu sərhədyanı regionda görüşərək daha bir yoxlama aparsın. Ekspertlər razılaşma əldə edilməmiş sahələrdə iş aparacaq və biz buna əsasən komissiyanın həmsədrləri səviyyəsində müzakirələr keçirəcəyik. Sonra komissiyanın növbəti iclasının tarixi dəqiqləşdiriləcəkdir. Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının növbəti iclası Bakıda keçiriləcəkdir".

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN PARLAMENT İTTİFAQININ UQANDADA KEÇİRİLƏN VI KONFRANSINDA "XOCALIYA ƏDALƏT" BEYNƏLXALQ KAMPANİYASINA DƏSTƏK ÇƏRÇİVƏSİNDƏ XÜSUSİ QƏTNAMƏ QƏBUL EDİLMİŞDİR

Yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının Uqandanın Kambala şəhərində keçirilən VI konfransında Azərbaycan üçün çox mühüm hadisə baş vermişdir. 51 ölkənin parlament nümayəndələrinin iştirak etdiyi tədbirdə "Xocalıya ədalət" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul edilmişdir.

Qətnamədə deyilir: "İslam Konfransı Təşkilatı Parlament İttifaqı İslam Konfransı Gənclər Forumunun baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş və erməni hərbi birləşmələri tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı Xocalı şəhərində törədilmiş kütləvi qırğın haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına yönələn "Xocalıya ədalət" beynəlxalq kampaniyasını dəstəkləyir. Üzv dövlətlərin parlamentlərini insanlığa qarşı bu cinayəti düzgün və müvafiq şəkildə tanımağa, sözü gedən kampaniyaya milli və beynəlxalq səviyyədə tam dəstək verməyə çağırır".

BAŞ NAZİR OMAN SULTANLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ MƏSUL NAZİRİNİ QƏBUL ETMİŞDİR

Oman Azərbaycan ilə ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Bu fikri Oman Sultanlığının xarici işlər üzrə məsul naziri Yusif bin Aləvi bin Abdulla Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ilə fevralın 2-də keçirilmiş görüşdə söyləmişdir. Bununla əlaqədar iki ölkə arasında müqavilə-hüquqi bazanın genişləndirilməsi və sahibkarlıq fəaliyyətinin nizamlanmasına dair sənədlərin tezliklə ratifi-

kasiya olunması xüsusi qeyd edilmişdir.

Omanın xarici işlər üzrə məsul naziri Azərbaycan və ölkəsi arasında aviaəlaqə yaradılması barədə razılaşma əldə olunmasının əhəmiyyətini vurğulamışdır. Yusif bin Aləvi bin Abdulla 1992-ci ildə Bakıya səfərindən bəri Azərbaycanın paytaxtında baş vermiş müsbət dəyişikliklərə heyran olduğunu bildirmişdir.

Baş nazir Artur Rasizadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində beynəlxalq təşkilatlarda ölkəmizin mövqeyini müdafiə etdiyinə görə Oman Sultanlığının rəhbərliyinə təşəkkür etmişdir. A.Rasizadə əmin olduğunu bildirmişdir ki, Azərbaycanda və Omanda səfirliklərin açılması barədə qəbul edilən qərar ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə imkan yaradacaqdır.

MİLLİ MƏCLİSİN SƏDRİ İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

Fevralın 2-də Milli Məclisin sədri Oqtay Əsədov İranın xarici işlər nazirinin hüquqi və konsulluq məsələləri üzrə müavini Həsən Qaşqavinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Oqtay Əsədov ölkələrimiz arasındakı əlaqələrdən, əməkdaşlığımızın intensiv xarakterindən və inkişafından söz açmışdır. Qeyd edilmişdir ki, tarixən bir-birinə yaxın olan xalqlarımızın münasibətləri hərtərəfli xarakter daşıyır, iqtisadi, sosial, mədəni həyatın digər sahələrində əməkdaşlığın daha da dərinləşməsi üçün böyük imkanlar mövcuddur.

Milli Məclisin sədri iqtisadi-ticarət əlaqələrinin daha da inkişafı üçün bütün imkanlardan istifadə olunmasının vacibliyini qeyd etmişdir.

Bildirilmişdir ki, dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri, aparılan ikitərəfli danışıqlar və imzalanmış sənədlər bu əlaqələrə yeni impuls verir, qarşılıqlı əməkdaşlığın hüquqi bazasının möhkəmləndirilməsində xüsusi rol oynayır.

Azərbaycan ilə İran arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolundan danışan Milli Məclisin sədri hər iki parlamentdə dostluq qruplarının fəaliyyətinin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İran xarici işlər nazirinin hüquqi və konsulluq məsələləri üzrə müavini Həsən Qaşqavi Azərbaycanda olmağından məmnun qaldığını söyləmişdir. Ölkələrimiz arasındakı əlaqələrin yüksələn xətlə inkişafından danışan qonaq, tarixi köklərə söykənən münasibətlərimizin daha da dərinləşməsi üçün bu gün geniş imkanlar olduğunu diqqətə çatdırmışdır. O qeyd etmişdir ki, İran Azərbaycan ilə iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir. İranın "Saderat" bankının dəstəyi ilə Azərbaycanda 27 mərtəbəli biznes mərkəzi binasının inşasının nəzərdə tutulması bunun bariz nümunəsi hesab edilə bilər.

Qonaq İran parlamenti sədrinin ölkəsinə dəvət məktubunu Milli Məclisin sədri Oqtay Əsədova təqdim etmişdir. Dəvət məmnuniyyətlə qəbul olunmuşdur.

Görüşdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının vacibliyindən söhbət açılmış və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ OMAN SULTANLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ MƏSUL NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Oman Sultanlığının xarici işlər üzrə məsul naziri Yusuf bin Alavi bin Abdulla ilə görüşmüşdür.

Azərbaycan ilə Oman arasında sıx əlaqələrin mövcudluğunu qeyd edən nazir E.Məmmədyarov münasibətlərin inkişafı üçün geniş imkanların olduğunu vurğulamışdır.

Hər iki ölkənin bir çox beynəlxalq səviyyəli məsələlərə münasibətdə eyni mövqedən çıxış etdiyini deyən E.Məmmədyarov Oman Sultanlığının Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı ölkəmizin ədalətli mövqeyini və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlığını bildirmişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə qonağa məlumat vermişdir.

Nazir Yusuf bin Alavi bin Abdulla 1992-ci ildə Azərbaycanda olduğunu və ötən müddətdə ölkəmizin sürətlə inkişaf etdiyini, Azərbaycanın əsil XXI əsr dövlətinə çevrildiyini vurğulamışdır.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyən omanlı nazir bunun iqtisadi, mədəni və digər sahələrə şamil edilməsinin vacibliyini bildirmişdir.

Tərəflər Azərbaycan ilə Oman arasında münasibətlərin intensivləşdirilməsi üçün əlaqələri tənzimləyən hüquqi-normativ bazanın daha da gücləndirilməsi zəruriliyinə dair razılığa gəlmişlər. İki ölkənin diplomatik akademiyaları arasında əməkdaşlıq, xalqlararası əlaqələrin gücləndirilməsi məqsədi ilə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsinin səmərəliliyi də vurğulanmışdır.

Görüşdə maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

YANACAQ-ENERGETİKA SAHƏSİNDƏ AZƏRBAYCAN-RUMINİYA ƏMƏKDAŞLIĞININ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Fevralın 2-də Sənaye və Energetika Nazirliyində ölkəmizdə səfərdə olan Rumıniyanın iqtisadiyyat nazirinin müavini, enerji məsələləri üzrə dövlət katibi və enerji sahəsində Azərbaycan-Rumıniya işçi qrupunun sədri Tudor Şerbanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında yanacaq-energetika sahəsində əməkdaşlığın indiki səviyyəsi və perspektivləri müzakirə edilmişdir.

Rumıniya nümayəndə heyətinin rəhbəri T.Şerban və Azərbaycanın sənaye və energetika naziri N.Əliyev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən yanacaq-energetika sektorunda əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini söyləmiş, əlaqələri daha da genişləndirməyin vacibliyini vurğulamışlar.

Bildirilmişdir ki, hazırda dünyanı bürümüş maliyyə böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etməkdə, Avropanın enerji təhlükəsizliyinin təmin olunma-

sına özünün layiqli töhfəsini verməkdədir.

Bu gün digər dövlətlərə nümunə ola biləcək Azərbaycan-Rumıniya əməkdaşlığının yeni mərhələyə qədəm qoymasında ölkələrimizin prezidentləri İlham Əliyevin və Trayan Beseskunun qarşılıqlı səfərlərinin mühüm əhəmiyyəti vurğulanmış, dövlətlərimizin başçılarının dostluq münasibətlərinin ikitərəfli əlaqələrin daha da inkişafında əhəmiyyətli rol oynaması diqqətə çatdırılmışdır.

T.Şerban Bakıya Rumıniya hökumətinin tapşırığı ilə səfər etdiklərini, ölkəsində Azərbaycanın neft-qaz sektoruna böyük marağın olduğunu söyləmişdir. Bildirilmişdir ki, son vaxtlar Azərbaycanın qaz idxalçısından qaz ixrac edən ölkəyə çevrilməsi, o cümlədən respublikanın dörd qonşu ölkəyə təbii qaz ixrac etməsi Rumıniya tərəfinin diqqətini xüsusilə cəlb etmişdir. Rumıniya hökuməti Azərbaycan qazını alan ölkələr sırasına qoşulmaq istəyini rəsmi şəkildə çatdırmışdır.

Görüşdə ilkin mərhələdə Azərbaycan təbii qazının dost Rumıniyaya maye şəklində çatdırılacağı vurğulanmışdır. Qeyd edilmişdir ki, bunun üçün Gürcüstanda Azərbaycan təbii qazının maye halına salınması məqsədi ilə zavodun inşası, həmin müəssisədə hazırlanacaq maye qazın Batumidən tankerlər vasitəsilə Rumıniyanın Konstansa limanına çatdırılması nəzərdə tutulur. Artıq bununla bağlı Azərbaycan, Rumıniya və Gürcüstan arasında imzalanacaq üçtərəfli sazişin layihəsi üzərində iş gedir.

Tərəflər ölkələrimiz arasında enerji sektorunda yaranmış əlverişli əməkdaşlıq əlaqələrinin yaxın gələcəkdə daha yüksək templə inkişaf etdiriləcəyinə əminliklərini vurğulamışlar.

AZƏRBAYCANIN VƏ HOLLANDİYANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycanın milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov ölkəmizdə səfərdə olan Hollandiyanın Ümumi Kəşfiyyat və Təhlükəsizlik Xidmətinin baş direktoru Cerard Bauman ilə görüşmüşdür.

General-leytenant Eldar Mahmudov hollandiyalı həmkarının Azərbaycana ilk səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini bildirmişdir.

Görüşdə transmilli mütəşəkkil cinayətkarlıq, hazırda ən aktual problem olan terrorçuluqla mübarizə sahəsində görülən işlər, narkotiklərin qanunsuz dövriyyəsi, miqrasiya prosesləri və bundan irəli gələn məsələlər müzakirə olunmuş, enerji təhlükəsizliyi ilə bağlı hər iki ölkənin təcrübəsinin öyrənilməsinin əhəmiyyəti qeyd edilmiş, Azərbaycan və Hollandiya xüsusi xidmət orqanları arasında bu sahələr üzrə informasiya və ekspert mübadiləsinin intensivləşdirilməsinin vacibliyi vurğulanmışdır.

Qonaqlara Azərbaycanın təhlükəsizlik problemləri, mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, xüsusən beynəlxalq terrorçuluqla mübarizə sahəsində həyata keçirdiyi tədbirlər, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu, eləcə də onun nəticəsində yaranmış nəzarət olunmayan ərazilərin mövcudluğundan irəli gələn fəsadlar barədə ətraflı məlumat verilmişdir.

Yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə təşəkkürünü bildirən Cerard Bauman ölkələrimizin təhlükəsizlik maraqlarının təmin olunması sahəsində aktuallıq kəsb edən məsələlər ətrafında aparılan müzakirələrin nəticələrindən razı qaldığını və müvafiq strukturlar arasında münasibətlərin inkişafından məmnun olduğunu bildirmişdir. Qonaq keçirilmiş dialoqların və məlumat mübadilələrinin ölkələrimizin əlaqələrinin daha da möhkəmlənməsi üçün faydalı olacağına əminliyini ifadə etmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANDA İNDONEZİYANIN SƏFİRLİYİ AÇILACAQDIR

İndoneziya hökuməti Azərbaycan da daxil olmaqla, bir neçə ölkədə səfirlik açmaq barədə qərar qəbul etmişdir.

Bu barədə məlumatı İndoneziyanın Xarici İşlər Nazirliyi yaymışdır.

Səfirliklərin açılmasından məqsəd İndoneziyanın xarici ölkələrlə əlaqələrinin inkişaf etdirilməsi, diplomatik fəaliyyətin genişləndirilməsi, iqtisadiyyat və ticarət sahəsində əməkdaşlığın möhkəmləndirilməsidir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının kansleri Angela Merkelin dəvəti ilə fevralın 4-də Almaniyaya işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Almaniyanın dövlət bayraqlarının dalğalandığı Berlin şəhərinin "Tegel" hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı İlham Əliyevi Almaniyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ALMANİYA KANSLERİ ANGELA MERKEL NAHAR ETMİŞLƏR

Fevralın 4-də Berlində, Almaniya Federativ Respublikası kanslerinin iqamətgahında kansler xanım Angela Merkel və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nahar etmişlər.

MƏTBUATA BİRGƏ BƏYANAT

Fevralın 4-də Berlində, Almaniya Federativ Respublikası Kanslerinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Kansler xanım Angela Merkel birgə mətbuat konfransı keçirmişlər.

Dövlətimizin başçısını Federal Kansler qarşılamışdır.

Prezident İlham Əliyev və Kansler Angela Merkel mətbuat üçün birgə bəyanatla çıxış etmişlər.

KANSLER ANGELA MERKELİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Mən çox şadam ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyevi bu gün Berlində qarşılamaq imkanına malikəm.

Cənab Prezident, biz Sizinlə sonuncu dəfə təxminən üç il bundan əvvəl - 2007-ci ilin fevral ayında Berlində görüşmüşdük. O vaxtdan təxminən üç il keçibdir. Qeyd etmək istərdim ki, bizim iqtisadi münasibətlərimiz çox gözəl səviyyədədir. Əməkdaşlığımız sıxdır. Amma əməkdaşlığımızı genişləndirmək üçün potensialımız mövcuddur. Biz bundan istifadə etməliyik.

Zənnimcə, elə sahələr vardır ki, biz Almaniya hökuməti olaraq Azərbaycan hökumətinə həmin sahələrdə öz dəstəyimizi göstərə bilərik. Biz Almaniya hökuməti olaraq sizə iqtisadiyyat, o cümlədən infrastruktur sahələrində əməkdaşlığımızı təklif edirik. Biz Azərbaycan ilə iqtisadi sahədə əməkdaşlığa çox böyük maraq göstəririk.

Mənə belə gəlir ki, biz əməkdaşlığımızı "qələbə-qələbə" formulunda qura bilərik. Mən bunu deyəndə nəzərdə tuturam ki, hər iki tərəf bu əməkdaşlıqdan faydalana bilər. Biz Almaniya hökuməti olaraq texniki yeniliklərimizi təklif edirik və Azərbaycan neft-qaz ölkəsi kimi bizim üçün əlbəttə ki, çox vacib tərəfdaşlardan biridir. Neft-qaz sahəsindən danışanda, əlbəttə ki, Nabukko layihəsini qeyd etməmək mümkün deyildir. Biz bu gün görüşümüz çərçivəsində iqtisadi layihələr, həmçinin Nabukko layihəsi haqqında danışacağıq. Amma yalnız bu layihələr haqqında deyil, eyni zamanda, Azərbaycanın demokratik inkişafı, hüquqi dövlətçiliyi haqqında söhbət aparacağıq.

Cənab Prezident, Sizə bir daha ürəkdən "Xoş gəlmisiniz!" deyirəm.

PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, xanım Kansler.

İlk növbədə, məni Almaniyaya dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Siz qeyd etdiniz ki, üç il bundan əvvəl biz Sizinlə burada - Berlində görüşmüşdük. O görüşdən sonra bu günə qədər Almaniya ilə Azərbaycan arasında mövcud olan münasibətlər çox sürətlə inkişaf etmişdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. İqtisadi sahədə qarşılıqlı maraq böyüyür və bu gün 100-ə yaxın alman şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz çox istəyirik ki, iqtisadi sahədə əməkdaşlıq daha da dərinləşsin. Çünki bunu etmək üçün çox gözəl imkanlar vardır. Azərbaycan bu gün müasirləşmə dövrünü yaşayır. Əlbəttə ki, ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün bizə qabaqcıl texnologiya lazımdır. Onlar da əlbəttə ki, Almaniyada çox yüksək səviyyədədir.

Azərbaycan isə, öz növbəsində Avropanın enerji təhlükəsizliyi məsələlərinin uğurla həll edilməsi üçün töhfəsini verməyə hazırdır. Siz bu gün Nabukko layihəsi haqqında

fikirlərinizi söylədiniz. Biz bu layihəni dəstəkləyirik. Qeyd etmək istəyirəm ki, Nabukko layihəsinin müzakirəsi bu gün daha da intensiv xarakter daşıyır. Hesab edirəm ki, bu, çox müsbət amildir. Azərbaycanda əvvəlki illərdə yaradılan nəqliyyat infrastrukturu, xüsusilə qaz kəmərləri Nabukko və "Cənub dəhlizi"nin digər layihələrinin həyata keçirilməsi üçün gözəl zəmin yaradır.

Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramına qoşulub. Bu proqramın icrası nəticəsində ölkəmizdə siyasi, iqtisadi islahatlar, demokratikləşmə prosesləri daha da sürətlə gedəcəkdir.

Beləliklə, ikitərəfli münasibətlərin məzmunu çox dəyərlidir və gündəlik çox genişdir. Əminəm ki, bugünkü görüşdən sonra münasibətlərimiz daha da sürətlə inkişaf etməyə davam edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMAN-AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ

Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə Alman-Azərbaycan Forumunun üzvləri ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı istiqamətində Forumun keçirdiyi tədbirlərin əhəmiyyəti vurğulandı.

Qeyd olundu ki, Alman-Azərbaycan Forumu ölkələrimiz arasında müxtəlif sahələrə dair yeni layihələr həyata keçirmək niyyətindədir və Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı fikirləri böyük maraq doğurur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞÜ

Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu bildirildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional və digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

PREZİDENT İLHAM ƏLİYEV MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ "TƏBİİ SƏRVƏTLƏRİN TƏHLÜKƏSİZLİYİ VƏ DƏYİŞƏN QLOBAL GÜC" MÖVZUSUNDA MÜZAKİRƏLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR

Almaniyada işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev fevralın 5-də Münhen Təhlükəsizlik Konfransının "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda müzakirələrində iştirak etmişdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirin iştirakçıları arasında olmuşdur.

Münhen Təhlükəsizlik Konfransı son onilliklər ərzində dünyanın ən əsas təhlükəsizlik siyasəti tədbirinə çevrilmişdir. Hər il dünyanın aparıcı siyasi xadimlərinin iştirak etdiyi

bu konfransda intensiv olaraq indiki və gələcək təhlükəsizlik problemləri müzakirə olunur.

Dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət nümayəndələrinin, deputatların, mütəxəssislərin, KİV təmsilçilərinin iştirak etdiyi bu nüfuzlu konfransın əsas tədbirlərindən biri olan "Təbii sərvətlərin təhlükəsizliyi və dəyişən qlobal güc" mövzusunda müzakirələri açan moderator Freydrix Merz Azərbaycan Prezidenti İlham Əliyevə və digər qonaqlara minnətdarlıq bildirdi.

Prezident İlham Əliyev konfransda çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar.

Mən əvvəlcə konfrans təşkilatçılarına dəvətə görə minnətdarlığımı bildirmək istərdim. Burada olmaq və bugünkü tədbirdə iştirak etmək böyük şərəfdir.

Hazırda qlobal təhlükəsizlikdə enerji təhlükəsizliyi məsələlərinin əhəmiyyəti daha da artır. Tarixən neft hasil edən ölkə kimi Azərbaycan regionumuzda enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır.

Qeyd etmək istəyirəm ki, Azərbaycan dünyada ilk dəfə neft hasil etmiş məkandır. Buna görə, biz neft hasilatı sahəsində zəngin tarixə malikik. Uzun illər və onilliklər ərzində Azərbaycan neftindən dünya tələbatlarını təmin etməkdə istifadə olunmuşdur.

Lakin 1990-cı illərin əvvəlində ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra, neft ehtiyatlarımızın əksər hissəsi tükənmişdi. Bizə çirklənmiş ərazilər miras qalmışdı. Neft hasilatının sürətlə azalması ölkə üçün bir çox problemlər yaratdı. Biz neft işinin yeni inkişaf mərhələsini yaratmalı idik. Lakin bunu necə etməli idik? Sovet İttifaqı dağıldıqda yenicə yaranmış bütün ölkələr bir çox iqtisadi və siyasi problemlərdən əziyyət çəkdilər. Buna görə, qürurumuzu bərpa etmək üçün bizim yeganə yolumuz beynəlxalq neft şirkətlərinin Xəzərin Azərbaycan sektoruna dəvət edilməsindən ibarət idi. Beynəlxalq neft şirkətləri ilə əməkdaşlığımız bu cür başladı.

1994-cü ildə dünyada ən böyük yataqlardan biri - "Azəri-Çıraq" yatağı kəşfiyyat işləri üçün hazır idi. Elə həmin ildə, "Əsrin müqaviləsi" imzalandı və o, Azərbaycana, neft və qaz ehtiyatlarımıza bir çox milyardlıq sərmayələr üçün qapını açdı.

Həmin vaxtdan etibarən, biz uğurlu enerji strategiyamızı davam etdirməyə müvəffəq olduq. Hökumət ilə sərmayədarlarımız arasında çox yaxşı və dost münasibətləri qurduq. Münbit sərmayə mühitini yaratdıq və neft irsimizi bərpa etməyə nail olduq.

Bu gün ölkə əsas enerji mənbələri ilə tam şəkildə təmin olunub. Neft hasilatımızın həcmi bir neçə dəfə artıb və indi biz artıq hər gün bir milyon barrel neftdən söhbət aparırıq. Hasilata və infrastruktura qoyduğumuz sərmayələr bizə enerji təchizatı mənbələrini şaxələndirmək imkanını yaratdı.

Biz Azərbaycan neftini Qara və Aralıq dənizlərinə nəql edən üç boru kəməri çəkdik. Ümid edirik ki, hasilatın bugünkü həcmi gələcək onilliklər ərzində də davam edəcəkdir. Bu, bizə xeyli maliyyə vəsaitlərini toplamağa və neftdən əldə edilən gəlirləri iqtisa-

diyyatımızın qeyri-neft sektoruna - təhsil, sosial və səhiyyə sektorlarına, eləcə də infrastruktura yönəltmək imkanını yaratdı. Məhz buna görə, iqtisadi böhran və neft qiymətlərinin kəskin azalması ilə səciyyələnən 2009-cu ildə də Azərbaycan iqtisadiyyatı uğurlu inkişafını davam etdirdi və həmin ildə iqtisadiyyatımız 9 faizdən çox artmışdır.

Şaxələndirmə bizim üçün prioritetlərdən biri idi. Çünki biz yalnız bir təchizat marşrutundan asılı ola bilməzdik. Hazırda biz üç neft təchizatı marşrutuna malikik və bu, regionda tamamilə yeni vəziyyət yaratdı. Çünki dünyada ilk dəfə olaraq Xəzər dənizi, əgər belə demək olarsa, xarici şirkətlər üçün açıq elan edildi. İlk dəfə olaraq, Xəzərdə hasil edilən neft boru kəmərləri ilə beynəlxalq bazarlara çıxarılmağa başlandı. Bu gün həmin boru kəmərləri Xəzərin şərq sahillərində yerləşən digər təchizatçılar tərəfindən də istifadə edilir.

Beləliklə, ölkəmizdə görülən işlər tamamilə yeni vəziyyət yaratmışdır. Bu gün biz təbii qazın nəqli üçün "Cənub dəhlizi", Nabukko və digər layihələr haqqında danışırıq. Lakin aydındır ki, son illər ərzində Azərbaycanda qurulmuş infrastruktur olmadan bütün bu müzakirələr əsassız olardı.

Biz qapıları açdıq və çox münbit sərmayə mühiti yaratdıq. Hazırda sərmayədarlar ilə hökumət arasında çox böyük etimad olan bir vəziyyətdəyik. Qeyd etmək istədiyim digər mühüm elementlərdən biri isə ondan ibarətdir ki, bütün neft müqavilələri ölkəmizdə parlament tərəfindən ratifikasiya olunur və qanuna çevrilir ki, heç kəs heç bir sözü dəyişə bilməsin. Bu, sərmayədarlar arasında əlavə etimad yaradır. Onlar tamamilə əmindirlər ki, hökumət hətta əgər şərtləri yenidən razılaşdırmaq və güclü mövqeyindən irəli gələrək, əlavə üstünlükləri əldə etmək istəsə belə, bunu etmək hüququna malik deyildir.

Enerji şaxələndirilməsi sahəsində görülən işlər bu gün sonrakı inkişaf üçün yaxşı imkanlar yaradır. 2007-ci ildən əvvəl Azərbaycan təbii qaz idxal edirdi. Lakin bizim işlənilməsinə başladığımız böyük qaz yataqlarımız vardır. Hazırda isə, Azərbaycan nəinki öz daxili tələbatını təmin edir, o cümlədən qazı müxtəlif istiqamətlərdə ixrac edir. Ölkəmizdə qaz hasilatının həcmi artır. Ümid edirik ki, bu il qaz hasilatının həcmi 30 milyard kubmetrə yaxın olacaqdır. Daxili tələbatın həcmi isə, hasil olunacaq həcmin təxminən üçdə birinə bərabərdir.

Bu, o deməkdir ki, bizdə ixrac üçün böyük həcmdə təbii qazımız olacaqdır. Bilirik ki, Avropanın bizim təbii qaza ehtiyacı vardır. Avropa tərəfdaşlarımızla enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi məsələləri üzərində çalışırıq.

Əvvəlcə qeyd etdiyim kimi, neft və qaz üçün bizim artıq gözəl infrastrukturumuz vardır. Biz hasilatın artırılması üçün gələcəkdə istifadə oluna biləcək dəhliz yaratmışıq. Çünki hesablamalara görə, Azərbaycanda minimal qaz ehtiyatları 2 trilyon kubmetrdir. Lakin bu, 5 trilyon kubmetr də təşkil edə bilər. Bu, nəinki bizim və regional istehlakçılar üçün, o cümlədən Avropa istehlakçıları üçün ən azı yüz ilə kifayətdir. Biz bu məsələlər üzərində işləyirik və Azərbaycan hər zaman konstruktiv olub. Biz bütün şaxələndirmə təşəbbüslərini dəstəkləmişik. Bu gün biz təchizat marşrutlarımızı tam şaxələndirmişik. Bizim istənilən istiqamətə gedən üç neft və dörd qaz boru kəmərlərimiz vardır. Hər bir istiqamətə gedən boru kəməri genişləndirilə bilər. Biz sadəcə, istehlakçılar, tranzit ölkələr və hasilatçılar arasında sazişlərə aid bütün zəruri məsələlərin həllini və əlavə ola-

raq, 20 milyard kubmetr qazı hasil etmək məqsədi ilə məbləği təxminən 20 milyard dollar olacaq sərmayələrin yeni mərhələsinin başlanmasını gözləyirik.

Əlbəttə ki, bu, istehlakçılarımızın istifadəsinə veriləcəkdir. Hesab edirəm ki, daxil olmağa çalışdığımız yeni mərhələyə nail olmaq üçün biz bir sıra mühüm məsələləri həll etməliyik.

Birincisi, hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqlar tarazlığı olmalıdır. Əgər tarazlıq təmin olunmasa, bu layihələri irəliyə doğru aparmaq çətin olacaqdır.

İkinci mühüm məsələ böyük maliyyə paketinin olmasıdır. Hər hansı əlavə boru kəməri layihəsi üçün çox böyük sərmayələr qoyulmalıdır. Azərbaycan öz tərəfdaşları, xarici neft şirkətləri ilə milyardlarla dolları təbii qazımızın hasilatına yatırmağa hazırdır. Lakin onu Avropa bazarlarına çıxarmaq üçün boru kəməri infrastrukturuna böyük sərmayələr qoyulmalıdır. Biz texniki yardımı təmin edə bilərik. Təcrübəmizdən, texniki təcrübəmizdən və tranzit ölkələrlə tranzit sazişlərin razılaşdırılması təcrübəmizdən istifadə oluna bilər. Eyni zamanda, ehtiyatlarımız üçün ədalətli bazar qiyməti olmalıdır.

Bugünkü vəziyyət bizi qane edir. Çünki hazırda ölkəmizin bütün əsas maliyyə problemlərinin həllinə nail olmuşuq. Enerji təchizatı sahəsində tam şaxələndirməyə malikik. Biz iqtisadiyyatı şaxələndirə bildik. Qeyd etdiyim kimi, 2009-cu ildə iqtisadi artım 9 faizdən çox olmuşdur. Sənaye artımı 8,6 faiz, inflyasiya dərəcəsi isə 1,5 faiz olmuşdur.

Azərbaycan iqtisadi və siyasi islahatları davam etdirir. Dünya Bankı 2008-ci ildə Azərbaycanı dünyada birinci islahatçı ölkə elan etmişdir. Liberal iqtisadiyyat, bazar iqtisadiyyatı və siyasi islahatlar birlikdə ölkəmizdə çox yaxşı mühit yaratmışdır. Biz xeyli maliyyə vəsaitlərini toplaya bildik. 2009-cu ildə neftin qiymətlərinin aşağı düşməsinə baxmayaraq, maliyyə vəsaitlərimiz artmışdır. Bu gün onların həcmi 20 milyard dollardan artıqdır. Bu, doqquz milyon əhalisi olan ölkə üçün kifayətdir. Gələn onilliklər ərzində neft hasilatı göstəricisinin gündə ən azı 1 milyon barrel səviyyəsində olacağını nəzərə alsaq, bu, o deməkdir ki, gələcəkdə bizim hər hansı maliyyə yardımına ehtiyacımız olmayacaqdır.

Nəzərdə tutduğumuz bütün layihələrin həyata keçirilməsi üçün qarşılaşdığımız həlli vacib olan əsas problemlərdən biri əlbəttə ki, regionda sülhün bərqərar olmasıdır. Uzun illər ərzində Azərbaycan əraziləri Ermənistanın işğalı altında qalır. Bu işğal demək olar ki, iyirmi ildir davam edir. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Biz Ermənistan-Azərbaycan münaqişəsinin həll yolunu mümkün qədər tez tapmaq və Azərbaycanın bütün dünya, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınan ərazi bütövlüyünün bərpasını istəyirik. Beynəlxalq təşkilatların bütün qərarlarında Azərbaycanın ərazi bütövlüyünə tam dəstək verilir.

Bu məsələ regional sabitliyə və inkişafa böyük təhlükə yaradır. Əlbəttə ki, o, tammiqyaslı regional əməkdaşlığa maneədir və bütün planlarımıza xələl gətirə bilər. Biz tərəfdaşlarımızla apardığımız əməkdaşlığa tam sadiqik. Biz bütün enerji layihələrinə kommersiya nöqteyi-nəzərindən yanaşırıq. Bu layihələrdə mühüm kommersiya elementi olmalıdır. Eyni zamanda, şaxələndirməyə nail olmaq lazımdır. Çünki yalnız bir təchizat mənbəyindən asılılıq bizim üçün gələcəkdə problemlər yarada bilər.

Hesab edirəm ki, enerji təhlükəsizliyinə dünyada, xüsusən də bu konfransda yetirilən diqqət həmin məsələlərin nə dərəcədə vacib olduğunu göstərir. Bu məsələlərə böyük sadiqlik, güclü siyasi iradə ilə və regional problemləri tam şəkildə anlayaraq yanaşmaq lazımdır. Çünki bizim regionda, Qafqazda və Xəzər regionunda siyasi inkişaf və iqtisadi əməkdaşlıq məsələləri bir-biri ilə sıx bağlıdır.

Çox sağ olun.

* * *

Sonra dövlətimizin başçısı iştirakçıların suallarına cavab verdi.

SUAL: Sualım Prezident Əliyevədir. Xəzər regionunun inkişafında və onun dünyaya açılmasında Azərbaycanın rolunu etiraf edirəm. Mən Sizin iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı söylədiyiniz sözləri yüksək qiymətləndirirəm. Lakin sual onunla bağlıdır ki, Azərbaycan daxildə enerji təhlükəsizliyinin şaxələndirilməsi üçün hansı işləri görür? Sizin çox zəngin neft və qaz ehtiyatlarınız vardır. Azərbaycan külək enerjisi, bərpa olunan enerji mənbələri, hətta nüvə enerjisi sahəsində nə edir? Sağ olun.

CAVAB: Əvvəlcə qeyd etdiyim kimi, enerji strategiyamız nisbətən yaxınlarda başladı, çünki biz müstəqillik baxımından gənc ölkəyik. Buna görə, bizim üçün ən üstün prioritet enerji təhlükəsizliyimizin təmin edilməsi idi. Birincisi, biz neft hasilatını artırmalı, sonra isə xaricdən idxal edilən qazdan asılılığı azaltmalı idik.

Buna nail olundu. Bundan dərhal sonra bu gün biz özümüzü tam təmin etdiyimiz, neft və qazımızın müxtəlif istiqamətlərdə ixracına başladığımız bir vaxtda yeni prioritetimiz bərpa olunan enerji mənbələridir. Əfsuslar olsun ki, biz su ehtiyatlarına görə zəngin deyilik. Lakin bununla belə, biz Azərbaycanda su elektrik enerjisinin inkişafı üzrə böyük plan tərtib etdik. Biz ucuz başa gələn enerjini əldə etmək məqsədi ilə hər çayda kiçik elektrik stansiyası tikməyi planlaşdırırıq. Eyni zamanda, bu yaxınlarda Bərpa Olunan Enerji üzrə Dövlət Agentliyi yaradılmışdır və əsas prioritet günəş və külək enerjisi olacaqdır. Bizdə günəşli və küləkli günlər çoxdur və bu cür iqlim üstünlüklərindən niyə də istifadə etməyək. Bəzən külək çox darıxdırıcıdır, lakin fikrimcə, bu baxımdan biz üstünlük qazanmışıq. Biz enerji balansımızda bərpa olunan enerji mənbələrindən ibarət böyük seqment yaratmaq məqsədi ilə dövlət və özəl sektor tərəfindən böyük sərmayələr qoymağı planlaşdırırıq. Bu, bizə neft və qazımıza gələcək nəsillər və ixrac üçün qənaət etməyə, neftdən əldə etdiyimiz vəsaitləri bərpa olunan mənbələrə yönəltməyə imkan yaradacaqdır. Planlarımız belədir və hesab edirəm ki, bu planların həyata keçirilməsinə nail olacağıq.

SUAL: Cənab Prezident, Siz Nabukkonun çəkilməsini yubadan bəzi məsələləri Davosda qeyd etdiniz. Nabukko Sizin üçün hələ də prioritetdirmi?

CAVAB: Bir qədər əvvəl qeyd etdiyim kimi, biz böyük qaz ehtiyatları aşkar etmişik və artıq mükəmməl nəqletmə infrastrukturu yaratmışıq. Biz hazırda qazı dörd ölkəyə nəql edirik: Türkiyə, Gürcüstan, İran və Rusiya. Həmin istiqamətlərdən hər birində nəqletmə həcmini artırmaq məqsədi ilə bizim imkanlarımız və əgər lazım gələrsə, maliyyə ehtiyatlarımız vardır. Hazırda biz daxildə istifadə edəcəyimiz və sata biləcəyimiz qədər qaz hasil edirik.

Əlbəttə, istənilən digər ölkədə olduğu kimi, şaxələndirmə bizim üçün də çox vacibdir.

Buna görə də, gündəliyimizin birinci mərhələsində biz təchizatın tam şaxələndirilməsinə nail olmuşuq. Lakin hazırda biz hasilatı, ola bilsin, 40 milyard kubmetr və ya ondan da yüksək səviyyəyə artırmaq məqsədi ilə qaz yataqlarımıza 20 milyard dollara yaxın böyük sərmayələrin qoyulması ərəfəsindəyik. Buna nail olmaq üçün bizə bazarlar lazımdır. Bizə qazımızı qəbul edəcək və ədalətli satılacaq bazarlar lazımdır. Eyni zamanda, biz əmin olmalıyıq ki, bu əməkdaşlıq uzunmüddətli olacaqdır. Çünki qaz biznesi neft biznesindən fərqlənir.

Sərmayə qoymazdan əvvəl siz istehlakçılarınızın kim olduğunu, tranzit haqlarını, qazınıza qoyulan qiyməti, bazarın sizin üçün etibarlı olub-olmamasını və boru kəmərinin digər hissəsində olan tərəfdaşlarınızın nə dərəcədə ciddi və sadiq olduğunu öncədən bilməlisiniz. Başqa sözlə desək, bütün bu məsələlər həll olunmadan daha çox qaz hasil etmək üçün bu qədər böyük maliyyə sərmayələri paketini hazırlamaq bizim üçün çətin olardı.

Siz mənim Davosda Nabukko layihəsi ilə bağlı suala verdiyim şərhlərə istinad etdiniz. Biz "Cənub dəhlizi"nin bir hissəsi olan bu və digər layihələri qəti şəkildə dəstəkləyirik. Ötən ilin mayında Azərbaycan Nabukkonu dəstəkləyən siyasi bəyannaməyə qoşuldu. Biz bu variantı ciddi şəkildə nəzərdən keçirməyə hazırıq.

Lakin bunu etmək üçün biz bütün səyləri gücləndirməliyik. Biz nə vaxt maliyyə vəsaitlərinin ayrılacağını, kimin maliyyələşdirəcəyini, bu layihənin həyata keçirilməsinə aid cədvəli və əgər belə demək olarsa, kəmərin digər hissəsində olan tərəfdaşlarımızın bu layihədə nə dərəcədə ciddi olduğunu bilməliyik. Çünki hamımız bilirik ki, hazırda tikilən və ya nəzərdən keçirilən bir çox layihələr vardır. Onlar aşağıdakı kimidir: "Mavi axın", "Cənub axını", "Şimal axını" və Nabukko. Nabukko layihəsində iştirak edən ölkələr, eyni zamanda, "Cənub axını" və "Şimal axını" layihələrində də iştirak edirlər. Buna görə, həm hasilatçı və həm də sərmayələrin əsas ağırlığını öz üzərinə götürəcək bir ölkə kimi bizim üçün Nabukko cədvəlini, boru kəmərinə nə vaxt sərmayələrin qoyulacağını, vəsaitin haradan gələcəyini bilmək çox vacibdir. Bu məsələlər həll olunan kimi, əlbəttə ki, biz sərmayə qoymağa çox şad olarıq. Çünki bizim yataqlarımız mövcuddur və onlar bizim üçün yüz il və ondan artıq müddətə də kifayətdir. Biz qazımızı ehtiyac duyulan bazarlara çıxarmalıyıq.

SUAL: Cənab Prezident, Azərbaycanın etibarlı qaz və neft təchizatçısı kimi qalmasını istəyiriksə, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının zəruriliyini bizə bir daha haqlı olaraq xatırlatdınız. Dağlıq Qarabağ məsələsinin birdəfəlik həlli üçün Sizin strategiyanızı bilmək istərdim. Daha dəqiq olaraq, bilmək istərdim, Türkiyə-Ermənistan yaxınlaşması bu strategiyaya hansı şəkildə uyğun gəlir? Ermənistan bu məsələdə irəliləyişə nail olarsa və sərhədin hər iki tərəfində qarşılıqlı ticarət və mümkün iqtisadi tərəqqi məqsədi ilə sərhədlər açılarsa, bu, faydalı olardımı? Bu, Sizin Dağlıq Qarabağ strategiyanızın bir hissəsi ola bilərmi? Sizin fikrinizcə, bu, faydalı ola bilərmi?

CAVAB: Öncə qeyd etdiyim kimi, demək olar ki, artıq 20 ildir torpaqlarımız işğal altındadır. Azərbaycana qarşı həyata keçirilən təcavüz və etnik təmizləmə siyasəti humanitar faciə ilə nəticələndi. Ölkəmizdə bir milyon insan qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Nəinki Dağlıq Qarabağ, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərinin ətrafında yerləşən yeddi rayon da işğal altındadır. Bü-

tün infrastruktur dağıdılıb, bütün insanlar qovulub, hər bir şey yerlə-yeksan olunub. Bu işğal təxminən iyirmi ildir ki, davam edir. Dünyada ən yüksək beynəlxalq qurum - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası işğalçı erməni qüvvələrinin Azərbaycanın zəbt edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməmi qəbul edib. Lakin onlar yerinə yetirilməyib. ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarları Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir.

Münaqişə ölkələrin ərazi bütövlüyü və xalqların özünü idarəetmə prinsipləri əsasında həll olunmalıdır. Bu prinsiplər bir-biri ilə ziddiyyət təşkil etmir. Xalqların özünü idarəetmə prinsipi ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həyata keçirilə bilər. Biz dünyada, xüsusən də Avropada mövcud olan muxtariyyatların yaxşı nümunələrini bilirik. Biz bu münaqişəni mümkün qədər tez həll etmək istəyirik. Çünki bizim xalq bu münaqişədən əziyyət çəkir və torpaqlarımız işğal altında qalmaqda davam edir. Buna görə, Azərbaycan danışıqlar prosesinin surətləndirilməsinə qəti şəkildə sadiqdir. Ümid edirik ki, erməni tərəfi də məsələnin tezliklə həlli üçün öz səylərini göstərəcəkdir. Biz bu münaqişənin dondurulmuş vəziyyətdə qalmasına, həll prosesinin yubadılmasına və yaxud sonu olmayan danışıqlarda iştirakımıza imkan verə bilmərik. Bu gün müzakirə etdiyimiz məsələlər qərar və həll üçün ciddi əsas ola bilər. Hesab edirəm ki, biz məsələnin qeyd etdiyim prinsiplər əsasında həllini mümkün qədər tez tapmalıyıq.

Biz iki suveren ölkə arasındakı münasibətlərə heç vaxt müdaxilə etmirik və etməyi də planlaşdırmırıq. Türkiyə və Ermənistan iki suveren ölkədir və həmin iki ölkə arasındakı münasibətlər yalnız onlar tərəfindən nəzərdən keçirilməlidir. Bilirik ki, beynəlxalq səviyyədə diqqət yetirilir və şərhlər verilir ki, bu məsələlər tezliklə və ya mümkün qədər tez həll olunmalıdır. Hesab edirəm ki, gəlin Ermənistan ilə Türkiyəyə öz aralarında razılaşmaq imkanı verək və bu prosesə müdaxilə etməyək. Bu, bizim mövqeyimizdir.

Eyni zamanda, aydındır ki, Ermənistan-Azərbaycan münaqişəsi həll edilmədən regionda tammiqyaslı regional əməkdaşlığa nail oluna bilməz. Çünki bu, regionda əsas problemdir və regional sabitliyə əsas təhlükədir. Əgər biz Ermənistan ilə Türkiyə arasında sərhədin bağlandığı 1993-cü ilə qayıtsaq, görərik ki, sərhəd Azərbaycan rayonlarından birinin, yəni Kəlbəcərin işğalı səbəbindən bağlanmışdır. Türk dostlarımız həmin addımı bu səbəbdən atmışdılar. Bu addımın səbəbi hələ də göz qabağındadır, o aradan qaldırılmayıb. Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən Kəlbəcər və Azərbaycanın digər altı rayonu hələ də işğal altındadır.

Bir daha qeyd etmək istəyirəm, biz türk dostlarımızın beynəlxalq və regional əməkdaşlığın qurulmasında göstərdiyi səylərinə tam etimad göstəririk. Əgər Türkiyə-Ermənistan yaxınlaşması və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli kimi iki proses paralel şəkildə bir paket kimi həll olunarsa, biz regionda tezliklə sülhə nail ola bilərik.

* * *

Müzakirələrdə Almaniyanın RWE şirkətinin baş icraçı direktoru Yurgen Qrosman, Fransanın AREVA şirkətinin baş icraçı direktoru xanım Ann Laverjon, ABŞ dövlət katibinin birinci müavini Ceyms Steynberq, Rusiya Dövlət Duması sədrinin müavini Valeri Yazev mövzu ilə bağlı fikirlərini bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STEYNBERQ İLƏ GÖRÜŞÜ

Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Münhendə ABŞ dövlət katibinin birinci müavini Ceyms Steynberq ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, ikitərəfli münasibətlər və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİ İLƏ GÖRÜŞÜ

Almaniyada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Münhendə İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəki ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regional və digər məsələlər müzakirə edildi.

SƏFƏR BAŞA ÇATDI

Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri başa çatmışdır.

Münhenin beynəlxalq hava limanından dövlətimizin başçısını Almaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

BAKIDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏHİYYƏ NAZİRLƏRİNİN BİRİNCİ İCLASI İŞƏ KEÇİRİLMİŞDİR

Fevralın 4-də Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrin səhiyyə nazirlərinin birinci iclası keçirilmişdir.

Tədbirdə 10 ölkənin səhiyyə naziri iştirak etmişdir.

Tədbirdə giriş nitqi ilə çıxış edən Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev demişdir ki, üzv ölkələrin iştirakı ilə belə bir iclasın keçirilməsi səhiyyə sahəsində mövcud problemləri aradan qaldırmağa, habelə, ayrı-ayrı dövlətlərin və ümumiyyətlə regionun inkişafına faydalı ola bilər. O, bu gün tibb sahəsində bir sıra məsələlərin həlli üçün qüvvələrin birləşdirilməsinin vacibliyini qeyd etmişdir.

Azərbaycanda tibb sahəsində müxtəlif dövlət proqramlarının həyata keçirildiyini, büdcədən ayrılan vəsaitin həcminin ildən-ilə artırıldığını deyən nazir dövlətin bu sahəyə diqqətini xüsusi vurğulamışdır.

O.Şirəliyev Heydər Əliyev Fondunun milli səhiyyənin inkişafında böyük rolu olduğunu söyləmişdir.

Nazir səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd edərək, bu baxımdan İƏT-in fəaliyyətini yüksək qiymətləndirmişdir.

İƏT-in baş katibi Məhəmməd Yəhya Marufi isə iclasda iştirak edən ölkələr arasında iqtisadi əməkdaşlıqla yanaşı, səhiyyə sahəsində də əlaqələri möhkəmlətmək üçün böyük potensialın olduğunu bildirmişdir. O demişdir ki, biz biri-birimizin imkanlarını öyrəndikcə, bu xalqlarımızın firavan həyatı, ümumiyyətlə region dövlətləri üçün faydalı ola bilər. Deyə bilərəm ki, əməkdaşlıq üçün geniş imkanlarımız vardır.

İclasın birinci günü ekspertlərin toplantısı olmuş, İƏT regionunda səhiyyə sahəsində prioritet məqsədlər, qan xəstəlikləri ilə mübarizədə əməkdaşlıq, əczaçılıq və dərmanların analitik ekspertizası üzrə əlaqələrin qurulması və forumun yekun sənədinin müzakirəsi keçirilmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrin səhiyyə nazirlərinin iclasına fevralın 5-də Bakı Bəyannaməsinin qəbulu ilə yekun vurulmuşdur.

Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev demişdir ki, ölkələrin iqtisadiyyatının güclənməsi yalnız o halda məntiqi və mənalı olur ki, bu iqtisadi yüksəliş insanların rifahına, onların həyat səviyyəsinin yaxşılaşmasına xidmət etsin. Eyni sözləri əməkdaşlıq haqqında da demək olar. Hər bir əməkdaşlığın əsas məramını, ilk növbədə, insan həyatı, onun sağlamlığı, əmin-amanlığı təşkil etməlidir.

İƏT-in üzvü olan ölkələrin səhiyyə sahəsində əməkdaşlığının ən mühüm vəzifələrindən biri də bu istiqamətdə təcrübə mübadiləsi, hər bir ölkənin səhiyyə sistemində nailiyyətlərinin digər dövlətlərdə tətbiqidir. Hesab edirəm ki, bu sahədə Azərbaycanın da deməyə sözü, bölüşməyə müsbət təcrübəsi vardır.

Nazir vurğulamışdır ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və müstəqilliyimizin ilk illərindən başlayaraq həyata keçirilən sosialyönümlü siyasətin məramı və mahiyyəti insanlara xidmətdir. Ulu öndərin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev də ölkəmizdə vətəndaşların sosial problemlərinin həllinə mühüm əhəmiyyət verir. Təkcə onu demək kifayətdir ki, son 5 ildə dövlət büdcəsindən səhiyyə xərclərinə ayrılan vəsait 5 dəfəyədək artırılmışdır. Nəticədə səhiyyə sahəsində nəzərəçarpacaq irəliləyişə nail olunmuşdur.

O.Şirəliyev demişdir ki, səhiyyənin büdcədən ayrılan vəsaitin artırılması ilk növbədə əhalinin sağlamlığının qorunması istiqamətində çox önəmli addımlar atmağa imkan vermişdir. Hazırda dövlətimizin başçısının təşəbbüsü ilə Səhiyyə Nazirliyinin tabeliyindəki bütün müalicə-profilaktika müəssisələrində pullu tibb xidmət ləğv edilmişdir.

Bildirilmişdir ki, büdcə vəsaitlərinin artması özünü həm də yeni tibb müəssisələrinin açılmasında göstərir. Son beş ildə 300-ə yaxın tibb müəssisəsi ən müasir səviyyədə tikilərək, yaxud əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bunların arasında regional əhəmiyyətli böyük səhiyyə ocaqları, perinatal mərkəzlər, müalicə-diaqnostika mərkəzləri vardır.

Son illər ölkəmizdə səhiyyə sahəsində aparılan əsaslı islahatlardan danışan nazir diqqətə çatdırmışdır ki, regionlarda fəaliyyət göstərən tibb müəssisələrinin maddi-texniki bazasının və təchizatının yaxşılaşdırılması nəticəsində Bakıya gələn xəstələrin sayı xeyli azalmışdır.

Səhiyyə naziri demişdir ki, bütün onkoloji xəstələr indi xüsusi proqram çərçivəsində şiş əleyhinə həyati vacib preparatlarla, ciddi problem olan xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanlar, şəkərli diabetli xəstələr, irsi qan xəstəliyi olanlar iynə-dərmanlarla dövlət hesabına təmin edilirlər.

Vurğulanmışdır ki, tibb işçilərinin müasir biliklərə yiyələnmələri məqsədi ilə hazırda 100-dək həkim dövlət hesabına xarici ölkələrin ən tanınmış klinikalarında təcrübə keçir. Bu da ölkə səhiyyəsinin gələcək inkişafı üçün çox böyük əhəmiyyətə malikdir.

Oqtay Şirəliyev bildirmişdir ki, İƏT-in üzvü olan ölkələrin səhiyyə nazirlərinin birinci Bakı görüşünün nəticələri təkcə Azərbaycanda deyil, bütün üzv dövlətlərin səhiyyə sistemlərinin inkişafında böyük rol oynayacaqdır.

İclasda çıxış edən İƏT-in baş katibi Məhəmməd Yəhya Marufi vurğulamışdır ki, səhiyyə və sağlamlıq bəşəriyyətin ən dəyərli resurslarındandır və hər bir dövlət vətəndaşının sağlamlığını, səhiyyə hüququnu təmin etməlidir.

İƏT-in baş katibi Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən layihələri yüksək qiymətləndirmiş və bu istiqamətdə ölkəmizin təcrübəsinin digər dövlətlər tərəfindən öyrənilməsinin vacibliyini vurğulamışdır.

Tədbirdə İƏT-in üzvü olan ölkələrin səhiyyə nazirləri təklif və tövsiyələrlə çıxış etmişlər.

Sonra Bakı Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə səhiyyə sahəsində birgə əməkdaşlığın qurulması, əczaçılıq sahəsində iş birliyinin yaradılması, dərman vasitələrinin standartlaşdırılması, preparatların hazırlanması, daha çox ehtiyacı olan ölkələrə səhiyyə sahəsində kömək göstərilməsi və digər məsələlər öz əksini tapmışdır.

İƏT-in üzvü olan ölkələrin səhiyyə nazirlərinin növbəti iclasının Qazaxıstanda keçirilməsi təklif edilmişdir.

Sonda iştirakçılar "Azərbaycan səhiyyəsi" adlı videofilmə baxmışlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİNİN GENİŞ VERSİYASININ ŞƏRHİ

Prezident İlham Əliyev lEuronews» telekanalına müsahibə vermişdir. Azərbaycan Televiziyasının (AzTV) "Həftə" proqramı fevralın 7-də həmin müsahibənin geniş versiyasının şərhini yayımlamışdır.

Prezident İlham Əliyev lEuronews» kanalına verdiyi müsahibədə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı prosesə aydınlıq gətirmişdir. Prezident münaqişənin sülh yolu ilə həll edilməsinə böyük ümidlər olduğunu demişdir.

Prezident sülh danışıqlarının iki mühüm şərtdən asılı olduğunu bildirərək demişdir ki, bunlar:

- Ermənistanın beynəlxalq normaları əsas götürməsi;
- Ermənistan qoşunlarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən

çıxarılmasıdır.

Prezident İlham Əliyev: Bu münaqişənin həlli ilə bağlı ümidlərimiz vardır. Çünki siz qeyd etdiyiniz kimi, uzun illər ərzində davam edən proses münaqişənin sülh yolu ilə həllinə aparmalıdır. Artıq iyirmi ilə yaxındır ki, torpaqlarımız işğal altındadır. Ermənistan beynəlxalq hüququn təməl prinsiplərini pozmuşdur. Bildiyiniz kimi, BMT-nin Təhlükəsizlik Şurası erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Lakin əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilməyib. Hazırda, danışıqlar yekun mərhələdədir. Çünki danışıqların bütün dövrü ərzində müxtəlif variantların hamısı nəzərdən keçirilmiş və qəbul edilməmişdir. İndi isə, biz, necə deyərlər, nizamlanma üçün əsas ola biləcək Madrid prinsiplərini müzakirə edirik. Lakin əlbəttə ki, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən Ermənistanın öz qoşunlarını çıxararaq, beynəlxalq hüquq normalarına riayət etmək istəyindən asılı olacaqdır. Bundan sonra isə, sülh bərqərar oluna bilər. Gec və ya tez bu münaqişə bitməlidir. Vətəndaşlarımız öz doğma yurdlarına qayıtmalıdırlar. Lakin biz buna gec yox, daha tez nail olmaq istəyirik, çünki insanlarımız artıq uzun illərdir ki, bunu gözləyir.

İbrahim Məmmədov (AzTV): Prezident vasitəçilərin təkliflərinin əsaslandığı əsas prinsipin Azərbaycanın ərazi bütövlüyü olduğunu demiş və başqa prinsiplər haqqında da danışmışdır. Bunlar:

- ərazi bütövlüyü;
- güc tətbiq etməmək;
- Xalqların öz müqəddəratını təyin etməsidir.

Prezident ərazi bütövlüyü ilə müqəddəratı təyinin bir-birinə zidd olmadığını demişdir.

Prezident İlham Əliyev: Mən 2010-cu ildə dünyanın aparıcı ölkələrinin təmsil olunduğu ATƏT-in Minsk qrupunun həmsədrlərinin münaqişəni həll etmək istiqamətində fəaliyyətlərinə nikbin baxıram. Bu, nikbinliyə əsas verir. Eyni zamanda, qeyd etdiyim kimi, hazırda nəzərdən keçirdiyimiz təkliflər beynəlxalq hüququn təməl prinsiplərinə əsaslanır. Onlar ölkələrin ərazi bütövlüyü, güc tətbiq etməmək və xalqların özünü idarə etmə prinsiplərinə əsaslanır. Bu prinsiplər bir-biri ilə ziddiyyət təşkil etmir. Çünki özünü idarə etmə prinsipi ölkənin ərazi bütövlüyü çərçivəsində təmin edilə bilər. Bu baxımdan biz nikbinik. Lakin bu nikbinliyi real nəticələrə çevirmək üçün Ermənistan tərəfi realizm və konstruktivlik nümayiş etdirməli, uzun illər Azərbaycan torpaqlarını qeyri-qanuni işğal etmiş qoşunlarını ərazilərimizdən çıxarmalıdır.

İbrahim Məmmədov (AzTV): Prezident İlham Əliyev aparıcının Ermənistanın işğal olunmuş torpaqları qaytarmağa hazır olması haqda sualını cavablandırmayıb.

Sual - lEuronews»: Bəzi məlumatlar var ki, Ermənistan işğal olunmuş torpaqları qaytarmağa hazırlaşır. Görünür, Siz və prezident Sarkisyan ümumilikdə bu məsələdə razılığa gəlmisiniz. Siz bunu təsdiqləyə bilərsinizmi?

Prezident İlham Əliyev: Danışıqlarımızın prinsiplərindən biri də ondan ibarətdir ki, hər bir şey razılaşdırılmayana qədər, heç nə razılaşdırılmamış hesab olunacaqdır. Buna görə, hesab edirəm ki, danışıqlar prosesi başa çatmamış, bəzi razılaşdırılmış hesab edilə bi-

lən elementləri açıqlamaq tez olardı.

İbrahim Məmmədov (AzTV): Ancaq bununla belə Prezident vasitəçilərin nizamlama üçün etdikləri təkliflərin əsas prinsiplərini açıqlayıb:

- Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir;

- Ermənistan qoşunları işğal olunmuş ərazilərdən, o cümlədən Dağlıq Qarabağın hüdudlarından kənarda olan ərazilərdən çıxarılır;

- azərbaycanlı məcburi köçkünlər həmin torpaqlara qayıdır;

- Dağlıq Qarabağın hər iki icması üçün sülhə zəmanət verilir;

- bütün kommunikasiyalar açılır.

Prezident İlham Əliyev: Deyə bilərəm ki, vasitəçilərin verdiyi təkliflər Azərbaycanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağın inzibati hüdudlarından kənarda olan bütün işğal edilmiş torpaqlardan Ermənistan qoşunlarının çıxarılması, azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtması, bütün kommunikasiyaların açılması, Dağlıq Qarabağın hər iki icması - erməni və Azərbaycan icmaları üçün sülh zəmanəti prinsipinə əsaslanır.

İbrahim Məmmədov (AzTV): Bu prinsiplər hazırda masa üzərində olan təkliflərin əsasını təşkil edir. Prezident nizamlamanın ən mühüm məqamlarından olan dəhliz məsələsinə də aydınlıq gətirib və Azərbaycanın mövqeyini ifadə edib.

Prezident İlham Əliyev: Biz bütün kommunikasiyaların açılmasının tərəfdarıyıq. Təkcə Dağlıq Qarabağı Ermənistanla birləşdirən dəhlizin deyil, eləcə də Azərbaycanı ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirəcək dəhlizin də açılmasının tərəfdarıyıq. Burada, həmçinin iki ölkə arasında olan sərhədlərin digər yerlərində də kommunikasiyaların açılması nəzərdə tutulur. Dağlıq Qarabağ ilə Ermənistan arasında dəhlizə gəldikdə, əgər siz xəritəyə nəzər yetirsəniz görərsiniz ki, Dağlıq Qarabağın Ermənistanla heç bir sərhədi və ya quru əlaqəsi yoxdur. Buna görə, sülh razılaşmasının bir hissəsi kimi, dinc şəraitdə dəhlizin təmin edilməsi Azərbaycanın getdiyi böyük güzəştlərdən biridir. Lakin biz hesab edirik ki, gələcəkdə bu dəhliz təkcə bu gün Dağlıq Qarabağda və ya Ermənistanda yaşayan insanlar tərəfindən deyil, eləcə də hamımız tərəfindən istifadə oluna bilər. Biz bu əlaqəni Ermənistan və Azərbaycanın müxtəlif bölgələri arasında birbaşa keçid kimi də istifadə edə bilərik. Əgər nə vaxtsa sülh razılaşmasına gəlsək, əminəm ki, biz tezliklə təmasları qura bilərik, bütün kommunikasiyaları açarıq və regionda sülh bərqərar oluna bilər. Lakin buna nail olmaq üçün əsas şərt Ermənistan qoşunlarının işğal olunmuş torpaqlarımızdan çıxmasıdır.

İbrahim Məmmədov (AzTV): Bununla da Laçın dəhlizinin məntiqi davamı kimi dəhlizin Naxçıvana qədər uzanması və dəhlizin hamının maraqlarına xidmət etməsi fikri gündəlikdədir. Dağlıq Qarabağın yekun statusuna gəldikdə isə Prezident iki mühüm məsələyə toxunub və Azərbaycanın prinsipial mövqeyini səsləndirib:

- birincisi, Dağlıq Qarabağ müstəqil ola bilməz;

- və ikincisi, Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına aparıb çıxara biləcək mexanizm və prosedurlar yaradıla bilməz.

Bu ikinci məqam indi ən mühüm prinsip kimi müzakirə edilməkdədir. Ona görə ki, birinci məqam, yəni hazırda Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının artıq mümkünsüz olduğunu hamı birmənalı olaraq anlayıb. Əsas məsələ Ermənistanın Qarabağın gələcək üçün perspektivlərinin hüquqi əsaslarının yaradılmasından gedir.

Prezident İlham Əliyev: Erməni xalqının öz müqəddəratını təyin etmə məsələsinə gəldikdə, deyə bilərəm ki, ermənilər öz müqəddəratını artıq təyin ediblər. Onlar Ermənistan dövlətinə malikdirlər. Təxminən iki yüz il bundan əvvəl regionun müxtəlif yerlərindən ermənilərin Dağlıq Qarabağa köçürülməsi faktı o demək deyil ki, onlar Azərbaycanın tarixi ərazilərində ikinci erməni dövlətini yarada bilər. Əgər biz bu məntiqlə getsək, belə çıxır ki, dünyada 10 və ya ondan da artıq erməni dövləti yarana bilər. Çünki ermənilər dünyanın müxtəlif yerlərində yaşayırlar. Buna görə, ikinci erməni dövlətinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış tarixi ərazilərində yaradılmasından söhbət belə gedə bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə və ya onun Azərbaycanın tərkibindən çıxmasına apara biləcək hər hansı mexanizm və ya prosedurla heç vaxt razılaşmayacaqdır. Bu, müzakirə mövzusu deyildir.

İbrahim Məmmədov (AzTV): Göründüyü kimi Prezident status məsələsində müstəqilliyin müzakirə mövzusu kimi ortaya çıxacağını belə istisna edir və Avropadakı muxtariyyət variantlarına, yəni vahid dövlətlərin tərkibində muxtariyyət variantlarına üstünlük verməyin mümkünlüyünü deyib. Siyasi və mədəni azadlıqların ən yaxşı nümunələri Avropa təcrübəsi sayılırsa, Azərbaycan da Avropa təcrübəsini təklif edir.

Prezident İlham Əliyev: Fikrimcə, torpaqlarımızın azad edilməsindən sonra kommunikasiyaların açılması və təmasların qurulması ermənilər ilə azərbaycanlılar arasında daha çox anlaşmaya aparacaqdır. Biz qonşuyuq. Barışıq baş verərsə, onda hər şey normallaşar. Avropada yaxşı muxtariyyət təcrübəsini görürük. Vahid dövlətlərin tərkibində muxtariyyət variantları vardır. Hesab edirəm ki, bu, münasib həll yolu olmalıdır.

İbrahim Məmmədov (AzTV): İşğal olunmuş ərazilərin hərbi yolla azad edilməsi perspektivi haqda aparıcının sualına cavabında isə Prezident İlham Əliyev bu məsələyə daxili və beynəlxalq hüquqi aspektdən yanaşıb. Belə ki, Azərbaycanın öz ərazisini azad etməsi Azərbaycanın daxili işidir və beynəlxalq münaqişə kimi sayıla bilməz. Ona görə ki, əgər hərbi yol məcburiyyəti ortaya çıxarsa Azərbaycan məhz öz ərazilərində azadetmə əməliyyatı keçirəcəkdir. Azərbaycanın öz daxilində qayda-qanunu, konstitusion normaları bərpa etməsi haqda hüququ ona Azərbaycanın Konstitusiyası ilə yanaşı, həm də BMT-nin nizamnaməsi verir. Bununla da Prezident İlham Əliyev Azərbaycanın öz ərazilərini işğaldan azad etməyin mümkün hərb yolu ilə bağlı hüquqi aspektləri istər daxili, istərsə də beynəlxalq hüquq aspektindən ifadə edib.

Eyni zamanda, Prezident vurğulayıb ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır. Amma, eyni zamanda, dözümün də bir hüdudu vardır.

Prezident İlham Əliyev: Heç kəs bu regionda müharibə istəmir. Danışıqlar prosesində olmağımız və konstruktiv yanaşmamız, o cümlədən danışıqlar prosesinin yekun mərhələsində Minsk qrupu həmsədrlərinin apardığı fəaliyyətə dəstək verməyimiz faktı niyyətlərimizi nümayiş etdirir. Eyni zamanda, qeyd etdiyim kimi, müharibə hələ bitməyib. Bu gün, biz münaqişənin sülh yolu ilə həlli barədə danışıqları çox eşidirik. Artıq qeyd etdiyim kimi, biz bunun tərəfdarıyıq. Lakin, eyni zamanda, yaddan çıxarmalı deyilik ki,

Ermənistan ərazilərimizi güc yolu ilə işğal edib. Azərbaycanın isə, dünyanın istənilən ölkəsi kimi, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, özünü müdafiə etmək üçün bütün vasitələrdən qanuni istifadə etmək hüququ vardır. Bu, özünü müdafiə etmək, öz torpaqlarını işğaldan azad etmək hüququdur.

Bizim hər hansı digər ölkəyə heç bir ərazi iddiamız yoxdur. Lakin Azərbaycanın işğal olunmuş əraziləri və Dağlıq Qarabağın özü bizim beynəlxalq səviyyədə tanınmış torpaqlarımızdır. Əgər orada hər hansı hadisə baş verərsə, bu, beynəlxalq münaqişə kimi deyil, Azərbaycanın daxili işi hesab edilməlidir.

İbrahim Məmmədov (AzTV): Prezident sürətlə silahlanma ilə bağlı suala aydınlıq gətirərkən Ermənistan ilə Azərbaycan arasında bütün sahələrdə tarazlığın Azərbaycanın xeyrinə pozulduğunu deyib.

Prezident İlham Əliyev: Biz ölkəmizi müasirləşdiririk. Söhbət təkcə hərbi xərclərdən getmir. Biz təhsil, səhiyyə, infrastruktur sahələrinə də xeyli vəsait ayırırıq. Son beş il ərzində Azərbaycan öz dövlət xərclərini 12 dəfədən çox artırmışdır. Hərbi xərclər isə, bütün digər sahələrdə olan xərclərə müvafiq olaraq artır. Əgər siz bizim ümumi daxili məhsul daxilində hərbi xərclərin faiz nisbətinə baxsanız, görərsiniz ki, onlar Ermənistanla müqayisədə daha azdır. Buna görə, Azərbaycanın guya silahlanma yarışına rəvac verməsi barədə səslənən ittihamlar həqiqətə uyğun deyildir. Bu gün iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən on dəfə böyükdür. Buna görə, bizim istədiyimiz qədər vəsait xərcləməyə imkanımız vardır. Ermənistanın isə, yalnız digər ölkələrdən nə qədər yardım almaq imkanı varsa, bir o qədər vəsait xərcləmək imkanı vardır. Bu, reallıqdır. Bu gün Ermənistan ilə Azərbaycan arasında güc tarazlığı artıq mövcud deyildir.

Sual - İEuronews»: Hərbi nöqteyi-nəzərdənmi?

Prezident İlham Əliyev: Bu, istənilən sahədə belədir. Əgər iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən on dəfə artıqdırsa və büdcə xərclərimiz təxminən səkkiz dəfə çoxdursa, təbii ki, ordumuz da daha güclüdür və hərbi məqsədlərimiz və müdafiə infrastrukturu üçün çəkilən xərclərimizin həcmi də böyükdür. Bu, təbiidir. Bir daha demək istəyirəm, bu, o demək deyil ki, biz vəsaitləri yalnız hərbi məqsədlər üçün xərcləyirik. Biz bütün digər sahələrə də vəsaitlər ayırırıq.

İbrahim Məmmədov (AzTV): Türkiyə ilə Ermənistan münasibətlərinin qurulmasına gəldikdə isə Prezident bu prosesin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə paralelliyinin daha çox səmərə verə biləcəyini, artıq verməyə başladığını və məhz bu prosesin paralelliyi əsasında danışıqların yekun mərhələyə qədəm qoyduğunu deyib.

Prezident İlham Əliyev: Biz bütün region ölkələri arasında müsbət münasibətlərin olmasının tərəfdarıyıq, çünki bu, regionda daha yaxşı mühit və ab-hava yarada bilər. Lakin, əvvəlcə qeyd etdiyim kimi, biz yaddan çıxarmalı deyilik ki, regionda ən böyük problem Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalıdır. Buna görə, fikrimizcə, Türkiyənin Prezidenti və Baş naziri, eləcə də digər rəsmilərin verdiyi bəyanatlardan irəli gələrək, bu ölkənin məsələ ilə bağlı mövqeyi çox aydındır.

Bu proseslər paralel şəkildə həll olunmalıdır. Onlar bir-birini tamamlamalıdır. Bu proseslər paralel şəkildə getməli və eyni vaxtda həll olunmalıdır. Bu halda regionda hərtərəfli sülh bərqərar ola bilər. Əgər bu paralelliyə əməl olunmasa, bu, gözlənilməz nəti-

cələr verə bilər. Bir halda ki, bu sualı verdiniz, bir şərhi də əlavə edim. Hesab edirəm ki, dünyada heç bir ölkə iki suveren ölkə arasındakı münasibətlərə müdaxilə etməli deyildir. Biz heç vaxt bu prosesə müdaxilə etməmişik, baxmayaraq ki, məsələ ilə bağlı öz mövqeyimiz vardır. Bu, məlum olan mövqedir və biz bunu gizlətmirik. Lakin, zənnimcə, əgər bu proseslərə kənardan müdaxilə edilməsə və ya təzyiq göstərməyə cəhdlər edilməsə, daha yaxşı olar. İki ölkə arasında olan münasibətlər elə iki ölkə arasında olan münasibətlər kimi də qalmalıdır. Nə etmək, necə etmək və nə vaxt etmək qərarını Türkiyə ilə Ermənistan özləri verməlidirlər.

Sual - İEuronews»: Lakin Sizin Xarici İşlər Nazirliyi bu yaxınlarda bildirmişdir ki, mən sitat gətirirəm, "Ermənistan ilə Türkiyə arasında sərhədlərin açılması regionda gərginliyə səbəb ola bilər və Azərbaycanın maraqlarına ziddir". Siz bu mövqedə dayanırsınızmı?

Prezident İlham Əliyev: Bəli, çünki aydındır ki, əgər Dağlıq Qarabağ məsələsinin həllində hər hansı gözəçarpan, praktiki irəliləyişdən asılı olmayaraq, bu baş verərsə, yalnız Dağlıq Qarabağla bağlı sülh prosesində durğunluğun yaranmasına gətirib çıxaracaqdır. Fikrimizcə, beynəlxalq hüquq normalarına riayət edərək, Ermənistanı öz qoşunlarını çıxarmağa vadar etməyin əsas yollarından biri onun təcrid edilməsidir. Ermənistanın nə Azərbaycan, nə Türkiyə ilə açıq sərhədləri vardır. Eyni zamanda, Ermənistanda böyük iqtisadi problemlər yaşanır. Ötən il onların iqtisadiyyatı təxminən iyirmi faiz azalmışdır. Sərhədlərin açılması bu ölkənin iqtisadiyyatına təkan verəcəkdir. Biz narahatıq ki, əgər bu, Dağlıq Qarabağ probleminin həllində hər hansı irəliləyişdən asılı olmayaraq, baş verərsə, həmin sahədə sülh perspektivləri çox zəif olacaqdır. Sonra nə olacaq? Əgər biz görsək ki, sülh perspektivləri tükənib, onda hansı variantlar qalacaq? Oturub, növbəti on beş ili gözləməliyik və ya öz ərazi bütövlüyümüzü bərpa etmək üçün imkanlarımızdan istifadə etməliyik. Buna görə də, barışıq prosesinə kənardan kömək etməyə çalışan və hətta nə Türkiyə, nə də ki, Ermənistanla ümumi sərhədə malik olmayan ölkələrdə ola bilsin regionun tarixi və bu gün baş verən hadisələr haqqında kifayət qədər məlumat yoxdur. Yaxşı olardı ki, bu hadisənin mümkün ola biləcək mənfi nəticələri qiymətləndirilsin. Bizim fikrimizcə, bu, regionda əlavə çətinliklər yaradacaqdır. Buna görə, hesab edirəm ki, indi bəlkə də nadir fürsət yaranıb: bir tərəfdən, Türkiyə-Ermənistan prosesi gedir, digər tərəfdən isə, biz Ermənistan ilə Azərbaycan arasında danışıqların yekun mərhələsinə çatmışıq. Bu iki prosesin gücünü birləşdirmək lazımdır ki, regionun heç bir ölkəsi özünü təklənmiş və onun milli maraqlarına məhəl qoyulmadığını hiss etməsin.

İbrahim Məmmədov (AzTV): Prezident aparıcının yekun mərhələ haqda sualını da cavablandırıb. Söhbət vaxt baxımından deyil, müzakirə edilən təkliflərin mahiyyəti etibarilə yekun mərhələdən gedir.

Prezident İlham Əliyev: Yekun mərhələ dedikdə, mən vaxt çərçivəsini deyil, mahiyyəti nəzərdə tuturam, çünki on altı il ərzində və hətta ondan da çox müddət ərzində bir çox variantlar müzakirə edilib. Bir çox variantlar irəli sürülüb və qəbul edilməyib. Bəzən, Ermənistanda baş vermiş faciəli terror aktları bizi həll yolunu tapmaq imkanından məhrum etdi. 1999-cu ildə Ermənistanın bəzi liderlərinə qarşı terror aktları törədildi və bu hadisə danışıqlar prosesinin dondurulmasına gətirib çıxardı. Yekun mərhələ haqqında danışdıqda, mən məhz onu nəzərdə tuturam. Yəni, bütün variantlar artıq qiymətləndirilib.

Əgər sülh prosesinin indiki mərhələsi uğursuz olarsa, onda biz heç nə haqqında danışa bilməyəcəyik. Bu, müzakirə etdiyimiz məsələlər baxımından sonuncu şansdır. Minsk qrupunun həmsədrləri tərəfindən təqdim olunan və tərəflərin hazırda müzakirə etdiyi həll variantı yeganə mümkün həll yoludur. Əgər bu, bir nəticə verməsə, onda belə çıxır ki, danışıqlar uğursuzluğa uğrayacaqdır. Yekun mərhələ dedikdə məhz bunlar nəzərdə tutulur. Mən yekun mərhələni vaxt çərçivəsi baxımından da görmək istərdim. Hesab edirəm ki, 2010-cu il həlledici il ola bilər və Azərbaycan məsələni sülh yolu ilə həll etməkdə öz səylərini artırmağa hazırdır.

İbrahim Məmmədov (AzTV): lEuronews» telekanalının aparıcısı Prezident İlham Əliyevin enerji sahəsindəki siyasətini Qərb yönümlü və mürəkkəb mühitdə aparılan siyasət kimi xarakterizə edərək belə mühitdə işləməyin yolları haqda soruşub. Prezident enerji siyasətinin iqtisadi əsaslarla qurulduğunu və bunun siyasiləşdirilmədiyini əsas prinsiplər kimi qeyd edib.

Prezident İlham Əliyev: Bizim enerji strategiyamız kimisə kənarda qoymaq prinsipinə əsaslanmır. Ölkəmizin açıq dənizlərə və dünyanın neft bazarlarına birbaşa çıxışı yoxdur. Buna görə, bizə boru kəmərləri lazım idi. Boru kəmərlərinin çəkilməsi üçün tranzit ölkələrə ehtiyac duyurduq. Biz neft təchizatı yollarını şaxələndirmək istəyirdik. Əslində, biz on beş il öncə bu işlərə neft hasilatı ilə başladıq və buna nail olduq. Hazırda neftimizi müxtəlif istiqamətdə nəql edən üç boru kəmərimiz vardır. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Biz heç bir tranzit ölkədən asılı deyilik. Bu, ən mühüm məsələdir. Tranzit ölkələrdən asılılıq heç də təchizatçı ölkələrdən asılılıqdan az əhəmiyyətli məsələ deyildir. Eyni üsulu biz qaz yataqlarının işlənilməsi layihələrində də tətbiq etdik. Hazırda fəaliyyət göstərən boru kəmərləri qazımızı dörd ölkəyə çatdırır. Biz qazı Türkiyə, Gürcüstan, Rusiya və İrana nəql edirik. Beləliklə, neft və qaz təchizatı tam şəkildə şaxələndirilib. Biz yalnız bir marşrutdan asılı deyilik.

Hazırda hasilat və ixrac həcmi bizi qane edir. Əlbəttə ki, biz gələcəkdə hasilatın həcmini artırmağı planlaşdırırıq. Bilirik ki, Avropada alternativ qaz mənbələrinə artan tələbat vardır. Hazırda Avropada müzakirə olunan və Nabukko, TGI, TAP kimi bir neçə layihələri və digərlərini əhatə edən lCənub dəhlizi» adlandırılan layihə burada son dövrdə əldə etdiyimiz nailiyyətlərə əsaslanır.

İbrahim Məmmədov (AzTV): Nəhayət, Prezident lCənub dəhlizi»nin yalnız Azərbaycanın imkanlarına əsaslandığını, Azərbaycanın məlum olan qaz ehtiyatlarının 2 trilyon, potensialının 5 trilyon kubmetrə yaxın olduğunu deyib. Bununla da dolayısı ilə Avropanın Azərbaycana ehtiyacının miqyasını və müddətini diqqətə çatdırıb.

Prezident İlham Əliyev: lCənub dəhlizi» bizim səylərimizə əsaslanır. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməyə hazırıq.

Qazın təchizatı ilə bağlı uzunmüddətli sazişlərin bağlanılması məqsədi ilə müxtəlif ölkələrlə danışıqlar aparırıq. Bütün variantlar mümkündür. Əlbəttə, hasilatçı kimi biz ədalətli qiymətdə, ədalətli tranzit haqlarında maraqlıyıq ki, təbii sərvətlərimizdən maksimum iqtisadi faydanı götürə bilək. Ehtiyatlara gəldikdə, Azərbaycanda təsdiq olunmuş təbii qaz ehtiyatlarının minimal həcmi 2 trilyon kubmetrdir. Amma hesablamalara görə bu rəqəm hətta 5 trilyon kubmetr ola bilər. Bu həcm əsas istehlakçıları ən azı yüz il qazla təchiz etmək üçün kifayətdir.

İbrahim Məmmədov (AzTV): Prezident İlham Əliyev enerji resursları uğrunda mübarizə və rəqabət aparan tərəflərlə münasibətləri siyasiləşdirmədən sırf iqtisadi-kommersiya prinsipləri əsasında əməkdaşlığa, heç kimdən asılı olmamaq strategiyasına üstünlük verməyin enerji siyasətini uğurla yürütməyə imkan verdiyini deyib.

Prezident İlham Əliyev: Bilirsiniz, digər ölkələr arasında olan münasibətlər barədə şərh vermək istəməzdim. Öncə qeyd etdiyim kimi, enerji siyasətimiz lap əvvəlcədən siyasiləşdirilməmişdir. Bu həqiqətdir ki, beynəlxalq mətbuatda bu məsələ xüsusilə indi lazım olduğundan bir qədər artıq siyasiləşdirilir. Eyni zamanda, aydındır ki, enerjidən, xüsusilə böyük enerji resurslarına və bu resursları nəql etmək üçün artıq lazım olandan daha çox infrastruktur imkanına sahib olan və daşınma, tranzit və digər məsələlərdə Asiya və Avropa arasında körpü rolunu oynaya biləcək ən yaxşı mümkün mövqelərdən birində olan ölkədən söhbət gedəndə siyasi məsləhətləşmələr, müzakirələr və bəzən də rəqabət qaçılmazdır. Buna görə də, biz regionda daha çox əməkdaşlıq görmək istəyirik və ölkəmizin təbii ehtiyatlarımızdan faydalanmaq istəyənlər arasında rəqabət meydanına çevrilməsini istəmirik. Biz istəyirik ki, təbii ehtiyatlarımızdan ilk növbədə xalqımız bəhrələnsin. Daha sonra, enerji strategiyamızı elə qurmaq istəyirik ki, biz heç bir marşrutdan, heç bir qonşudan və heç bir istehlakçıdan asılı olmayaq. Eyni zamanda, bu resurslardan istifadə edərək, daha çox etimad və əməkdaşlıq yaratmaq istəyirik. Hesab edirəm ki, regionda marağı olan tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Azərbaycan əməli addımları ilə öz maraqlarını tam müdafiə etməyin, hətta bəzən başqalarının bunun əleyhinə olmasına baxmayaraq, boru kəmərlərini istədiyimiz istiqamətdə çəkməyin və eyni zamanda, bütün qonşularla və dostlarla yaxşı əlaqələr saxlamağın mümkün olduğunu sübut etmişdir.

İbrahim Məmmədov (AzTV): Prezident İlham Əliyev aparıcının Azərbaycanda demokratiyanın perspektivləri ilə bağlı sualını cavablandırarkən bu istiqamətdə mühüm bir məsələyə - Azərbaycanda real vəziyyətə və bəzi beynəlxalq KİV-lərin və insan haqları ilə məşğul olduqlarını elan etmiş QHT-lərin təqdimatlarına ayrılıqda baxmağı və təhlil etməyi məsləhət görüb. Ona görə ki, real vəziyyətlə adı çəkilən qurumların məlumatları bir-birindən fərqlənir. Bu fərqlənmənin siyasi səbəbləri vardır.

Prezident demokratiya şüarı ilə Azərbaycana siyasi məqsədlərlə təzyiq etməyin səmərsiz olduğunu bəyan etmişdir:

lAzərbaycanın əhəmiyyəti artdıqca dünyanın müxtəlif yerlərindən Azərbaycana təsiretmə cəhdləri də artır. Ancaq sizə deyə bilərəm ki, əgər biz müstəqil siyasətimizi müstəqilliyimizin ağır illərində qoruya bildiksə, bu gün istənilən tərəfin dırnaqarası demokratiya amilindən istifadə edərək, Azərbaycanın mövqeyini zəiflətmək və heç vaxt razı olmayacağımız məsələlərə bizi razı salmaq məqsədi daşıyan hər hansı cəhdlərinə müqavimət göstərmək bizim üçün daha asandır».

Prezident İlham Əliyev: Biz müstəqil siyasət həyata keçiririk. Ola bilsin ki, bu, kiminsə xoşuna gəlmir. Burada, Azərbaycanda Azərbaycan xalqının istədiyini edirik. Biz başqa ölkələrin yox, öz ölkəmizin milli maraqlarını qoruyuruq. Buna görə də, bəzən beynəlxalq mətbuatda və bəzi dırnaqarası beynəlxalq insan hüquqları qruplarının hesabatlarında biz çox əsassız və qərəzli tənqidlərə məruz qalırıq. Həmin insan hüquqları qrupları öz hesabatlarında bizim qonşuluqda vətəndaş hüquqları və demokratiya ilə bağlı baş ve-

rən böyük pozuntuları görmürlər. Sanki heç nə baş vermir. Ancaq Azərbaycanda kiçik bir hadisə baş verən kimi bu, şişirdilir və dərhal biz tənqid olunuruq.

Biz bunu ölkəmizə təsir göstərmək siyasəti kimi qəbul edirik. Başa düşürük ki, Azərbaycanın əhəmiyyəti artdıqca dünyanın müxtəlif yerlərindən Azərbaycana təsiretmə cəhdləri də artır. Ancaq sizə deyə bilərəm ki, əgər biz müstəqil siyasətimizi müstəqilliyimizin ağır illərində qoruya bildiksə, bu gün istənilən tərəfin dırnaqarası demokratiya amilindən istifadə edərək, Azərbaycanın mövqeyini zəiflətmək və heç vaxt razı olmayacağımız məsələlərə bizi razı salmaq məqsədi daşıyan hər hansı cəhdlərinə müqavimət göstərmək bizim üçün daha asandır. Biz Azərbaycan xalqının iradəsinə əsaslanan demokratik, suveren, müstəqil dövlət qururuq və kimin nə deməsindən asılı olmayaraq bu siyasəti davam etdirəcəyik.

İbrahim Məmmədov (AzTV): Prezident müxalifətin zəif olmasını ölkədəki sosial-iqtisadi vəziyyətlə izah edib. Belə ki, sosial rifahın yüksəlməsi müxalif fikrin daşıyıcılarını, elektoratını azaldaraq Prezidentin mövqeyini gücləndirib.

Prezident İlham Əliyev: Əgər Azərbaycanda müxalifət zəifdirsə, bu, bizim günahımız deyildir. Mən sizə deyə bilərəm nə üçün müxalifət indi bu cür ağır vəziyyətdədir. Çünki son beş il ərzində Azərbaycanın iqtisadiyyatı 2,6 dəfə artmışdır. Son beş il ərzində biz demək olar ki, işsizliyin böyük hissəsini aradan qaldırmışıq. Biz 840 min yeni iş yeri yaratmışıq. Büdcə xərcləri 12 dəfə artmış, yoxsulluq səviyyəsi 49 faizdən 11 faizə düşmüşdür. Azərbaycan xalqı getdikcə daha yaxşı yaşayır. 2009-cu ildə - böhran ilində iqtisadiyyatımız 9,3 faiz, sənaye isə 8,6 faiz artmış, inflyasiya 1,5 faiz təşkil etmiş, xarici valyuta ehtiyatları 20,4 milyard dollar olmuşdur. Əgər siz mənə dünyada 2009-cu ildə bu nəticələri əldə etmiş hər hansı başqa bir ölkə göstərə bilsəniz, sizə minnətdar olaram. Budur nəticələr.

Belə bir şəraitdə müxalifət nə təqdim edə bilər? Sadəcə tənqid edə bilərlər. Onlar bunu hər gün edirlər və biz buna etiraz etmirik. Əgər qəzetlərə baxsanız görəcəksiniz, hər gün tənqidi məqalələr, hücumlar olur - bu, demokratiyadır. Lakin xalq kiminsə söylədiyi sözlərə yox, real işlərə qiymət verir. Yeri gəlmişkən, qeyd edim ki, bu gün müxalifətdə olanlar 1990-cı illərin əvvəllərində Azərbaycanda rəhbərlikdə olan və ölkədə xaos və anarxiya yaradan, ölkəni vətəndaş müharibəsinə sürükləyən insanlardır. Xalq bunu unutmamışdır.

İbrahim Məmmədov (AzTV): Prezident Azərbaycanda 1993-cü il hadisələri və Heydər Əliyevin hakimiyyətə necə gəlməsi haqda da danışıb.

Prezident İlham Əliyev: İyirmi il bundan əvvəl sovet ordusu vəhşilik göstərərək, şəhərimizi işğal etdi, yüzlərlə günahsız insanı qətlə yetirdi və yaraladı. Bundan bir gün sonra, həmin dövrdə fəal siyasətçi yox, təqaüdçü olan Heydər Əliyev bizim Moskvadakı daimi nümayəndəliyimizə gedərək, ictimaiyyət qarşısında açıq şəkildə kommunist-sovet rəhbərliyini bu vəhşi hərəkətlərinə görə pislədi. Həmin dövrdə, Sovet İttifaqının süqutuna hələ iki il qalırdı və bu çox cəsarətli bir addım idi. Bundan sonra o, açıq şəkildə Kommunist Partiyasının üzvlüyündən çıxmasını bəyan etdi və bu da asan bir addım deyildi. Bundan dərhal sonra sovet hökuməti ona qarşı hücumlara başladı, onu Moskvada həbs etmək istədi. O, buraya - Bakıya qayıtmalı oldu. Ancaq burada, Azərbaycanın həmin dövrdəki kommunist rəhbərliyi də onu həbs etmək istəyirdi. Beləliklə, o, doğma

şəhəri olan Naxçıvana getdi. Bundan sonra heç kim ona toxuna bilmədi, çünki xalq onu dəstəkləyirdi və qoruyurdu.

Heydər Əliyev Bakıda vətəndaş müharibəsi başlayanda Azərbaycanın Prezidenti seçilmişdir. Həmin dövrdəki, belə demək mümkünsə, prezident və bütün hökumət ölkədən qaçmışdı. Çünki hərbi birləşmələr hakimiyyəti ələ keçirmək üçün Bakıya gəlirdilər. Həmin dövrdə o vaxtkı Azərbaycan Prezidenti ondan dövlətçiliyi qorumağa kömək etmək üçün Naxçıvandan Bakıya gəlməsini xahiş edirdi. Bax, bu şəraitdə o, Bakıya gəldi.

Onun və ya mənim tərəfimdən atılmış heç bir addım heç vaxt kiminsə dəstəyini qazanmaq məqsədi daşımamışdır. Bizim etdiyimiz budur - xalqın iradəsinə əsaslanan suveren Azərbaycan dövlətini qurmaq.

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV NORVEÇİN ƏDLİYYƏ VƏ POLİS NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycanın və Norveçin hüquq mühafizə orqanları arasında səmərəli əməkdaşlıq dövlətlərimizin əlaqələrinin inkişafında mühüm rol oynayır.

Bu sözləri fevralın 8-də Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycanda səfərdə olan Norveçin ədliyyə və polis naziri Knut Storbergetlə görüşdə söyləmişdir.

O.Əsədov demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün dövlətlər, eləcə də Norveç Krallığı ilə əlaqələr qurmuşdur. Bu gün bir çox sahələrdə səmərəli əməkdaşlıq edirik. Parlamentlərimiz arasında da münasibətlər inkişaf edir. Amma bu münasibətlər yetərincə deyildir. 2005-ci ildə Milli Məclisdə Norveç parlamenti ilə əməkdaşlıq üzrə işçi qrupu yaradılmışdır. İstərdik ki, qarşı tərəfdə də belə bir qrup yaradılsın.

Milli Məclisin sədri bildirmişdir ki, hüquq mühafizə orqanları arasında əlaqələrin inkişafı, birgə əməkdaşlıq, təcrübə mübadiləsi olduqca vacibdir. Parlamentimiz bunu dəstəkləyir.

Sonra Oqtay Əsədov ölkəmizdə həyata keçirilən hüquqi, demokratik, iqtisadi və siyasi islahatlar, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini və ərazi bütövlüyünü dəstəklədiyinə görə Norveç hökumətinə minnətdarlığını ifadə etmişdir.

Milli Məclisin sədri belə səfərlərin dostluq münasibətlərimizin inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Norveç Krallığının ədliyyə və polis naziri Knut Storberget göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirmiş və demişdir ki, səfərin məqsədi Azərbaycanın hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığa dair fikir mübadiləsi aparmaqdır.

Qonaq bildirmişdir ki, bu gün ölkələrimiz arasında çox səmimi, dostluq münasibətləri vardır. Norveç şirkətləri Azərbaycanın neft sektorunda uğurla çalışırlar. Bu da təkcə iqtisadi sahədə deyil, siyasi və humanitar sahələrdə də əlaqələrin inkişafına zəmin yaradır.

Sonra görüşdə parlamentlərarası əlaqələrin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ƏDLİYYƏ NAZİRİ NORVEÇİN ƏDLİYYƏ VƏ POLİS NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Avropa dövlətləri ilə hüquq sahəsində əməkdaşlığın inkişafına xüsusi önəm verir. Əməkdaşlıq çərçivəsində ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun dəvəti ilə Norveç Krallığının ədliyyə və polis naziri Knut Storbergetin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Norveçli nazir fevralın 8-də Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin məzarını, habelə Şəhidlər xiyabanını ziyarət etmişdir.

Sonra iki ölkənin müvafiq qurumlarının rəhbərləri arasında görüş keçirilmişdir.

Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdiyini deyən nazir F.Məmmədov Avropa ədliyyə nazirlərinin məişət zorakılığına qarşı mübarizəyə həsr olunmuş konfransının ötən ilin iyununda Norveçdə yüksək səviyyədə təşkil olunduğunu və bu işdə həmkarının xüsusi rolunu vurğulamışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən köklü məhkəmə-hüquq islahatları barədə məlumat verən nazir, bu sahədə xarici dövlətlərlə və nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən norveçli hüquqşünaslarla əməkdaşlığın əhəmiyyətini qeyd etmiş, müvafiq qurular arasında əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğu bildirilmişdir.

Dövlətlərimiz arasında əməkdaşlığın inkişafında maraqlı olduğunu söyləyən Norveçin ədliyyə və polis naziri Azərbaycana səfərindən məmnun qaldığını vurğulamış, məhkəmə və ədliyyə, o cümlədən penitensiar sistemdə əldə olunmuş nailiyyətləri təqdir etmişdir. Qonaq ölkəsi üçün aktual olan bir sıra məsələlərə toxunmuş, xüsusilə istintaq təcridxanalarında sıxlığın aradan qaldırılmasının, həbsin əvəzinə alternativ qətimkan tədbirlərinə üstünlük verilməsinin əhəmiyyətini vurğulayaraq, bu sahədə təcrübə mübadiləsinin səmərəsini diqqətə çatdırmışdır.

Görüşdə əməkdaşlıq məsələləri müzakirə edilmiş, məişət zorakılığına qarşı qlobal mübarizənin gücləndirilməsi, birgə tədbirlərin təşkili, insan hüquqlarının etibarlı müdafiəsi və ədliyyənin təkmilləşdirilməsi üzrə digər məsələlərə dair faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Nümayəndə heyəti Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, Azərbaycan-Norveç münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olmuş, qonaqlara Azərbaycan ədliyyəsinin müasir fəaliyyətini, habelə iki ölkə arasında əlaqələri əks etdirən xüsusi hazırlanmış jurnallar təqdim edilmişdir.

Görüşdə Norveç Krallığının Azərbaycandakı səfiri iştirak etmişdir.

Elə həmin gün norveçli nazir Knut Storberget müasir, beynəlxalq standartlara uyğun inşa olunmuş yeni Bakı istintaq təcridxanasına baş çəkmişdir.

NORVEÇ KRALLIĞININ ƏDLİYYƏ VƏ POLİS NAZİRİ AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNDƏ OLMUŞDUR

Norveç Krallığının ədliyyə və polis naziri Knut Storbergetin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində fevralın 8-də Azərbaycan Respublikasının Ali

Məhkəməsində olmuşdur.

Burada keçirilmiş görüşdə Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında məhkəmə-hüquq sistemi sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.

Ali Məhkəmənin sədri Ramiz Rzayev qonaqlara Azərbaycanın məhkəmə sistemi, hakimlərin seçki proseduru, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

R.Rzayev İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən, ölkəmizdə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının öyrənilməsindən və tətbiqindən, Avropa İttifaqının üzvü olan ölkələrlə, həmçinin Norveç Krallığı ilə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyindən danışmış, nazirliyin nümayəndə heyəti ilə ötən ilin noyabrında keçirilmiş görüşünü xatırlatmışdır.

Norveç Krallığının ədliyyə və polis naziri Knut Storberget Azərbaycanda məhkəmələrin müstəqilliyi, səlahiyyətləri ilə əlaqədar yaradılan şəraitlə, məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərlə maraqlanmış, qarşılıqlı əlaqələrin davam etdiriləcəyini vurğulamışdır.

Norveçli qonaqlar Ali Məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, məhkəmə tarixi muzeyinə baxmış, hakimlərin iş şəraiti ilə tanış olmuşlar. Nümayəndə heyətinin üzvləri bu tanışlıqdan məmnun qaldıqlarını bildirmişlər.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə orqanlarına xüsusi maraq və diqqət göstərdiklərinə görə Norveç Krallığının ədliyyə və polis naziri Knut Storbergetə və nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirmiş və onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

AZƏRBAYCAN TƏŞKİLATLARI ABŞ KONQRESMENLƏRİ İLƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ DAİR VƏZİYYƏTİ MÜZAKİRƏ ETMİŞLƏR

Azərbaycan-Amerika Şəbəkəsinin (US-Azeri Network) işlər müdiri, Azərbaycan-Amerika, Azərbaycan-Yəhudi və Türk-Amerika diaspor təşkilatlarının liderləri ABŞ senatorları və konqresmenləri ilə illik lançda iştirak etmişlər.

Nyu-Yorkun yəhudi icması ilə münasibətlərə dair Şuranın təşkil etdiyi lançda ABŞ Senatının, Konqresin Nümayəndələr Palatasının və Ağ ev administrasiyasının nümayəndələri iştirak etmişlər. Görüşdə senator Çarlz Şumer, konqresmenlər Hari Akerman, Çarlz Rengel, Eliot Engel, Adolfus Taun, Kerolayn Meloni, Nita Lauei və Ceralt Nadler çıxış etmişlər.

Senatın və Konqresin üzvlərinə Azərbaycan-Amerika birliyinin artan nüfuzu, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında strateji müttəfiqlik münasibətləri, habelə İsrail ilə çoxdankı dostluq əlaqələri, çoxetnik Azərbaycan cəmiyyəti barədə məlumat verilmişdir.

Xüsusi qeyd olunmuşdur ki, Azərbaycan dünyada antisemitizmin olmadığı azsaylı ölkələrdən biridir. Bundan əlavə, beynəlxalq və enerji təhlükəsizliyi, Azərbaycan torpaqlarının hələ də Ermənistanın işğalı altında olması və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqların gedişi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da İsrailin xarici işlər naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə ikitərəfli münasibətlər, o cümlədən iqtisadi sahədə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan israilli həmkarı Aviqdor Liberman ilə görüşmüşdür.

Aviqdor Liberman Azərbaycanda tarixən yəhudi icmasının yerli əhali ilə mehriban şəraitdə yaşamasını və ölkəmizdə yəhudilərə olan münasibəti yüksək qiymətləndirmiş, bunu Azərbaycanın yüksək tolerantlıq göstəricisi kimi xarakterizə etmişdir.

İki ölkə arasındakı əlaqələrin cari vəziyyətini xüsusi vurğulayan qonaq, dövlətlərarası münasibətləri tənzimləyən hüquqi-normativ bazanın genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

Nazir Elmar Məmmədyarov Azərbaycan və İsrail arasındakı münasibətlərin inkişafında İsraildə yaşayan həmvətənlərimizin və Azərbaycandakı yəhudi icmasının böyük rolu olduğunu bildirmişdir.

E.Məmmədyarov ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu və bunun səmərəli istifadəsinin ölkələrarası münasibətlərin dərinləşməsinə daha da təkan verəcəyini vurğulamışdır.

Ölkələrimiz arasındakı kənd təsərrüfatı, infrastruktur və digər sahələrdə həyata keçirilən birgə layihələr yüksək qiymətləndirilmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Yaxın Şərq problemi də müzakirə edilmişdir.

Dağlıq Qarabağ probleminin nizamlanması ilə bağlı danışıqlar prosesinin cari vəziyyəti haqqında məlumat verən nazir E.Məmmədyarov bildirmişdir ki, azərbaycanlı məcburi köçkünlər öz torpaqlarına qayıtmalı və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır.

Öz növbəsində, nazir A.Liberman Yaxın Şərqdə cərəyan edən hadisələr haqqında məlumat vermişdir.

Nazir E.Məmmədyarov Yaxın Şərqdə sülhün və sabitliyin təmin edilməsinin zəruriliyini vurğulayaraq, bunun qlobal təhlükəsizlik üçün vacibliyini bildirmişdir. E.Məmmədyarov Yaxın Şərq məsələsinə münasibətdə Azərbaycanın mövqeyinin dəyişməz qaldığını qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

BAKIDA İKT SAHƏSİ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN-BELARUS BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Fevralın 9-da Bakıda, informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsi üzrə birinci Azərbaycan-Belarus biznes forumu keçirilmişdir.

Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) və Belarus Yüksək Texnologiyalar Parkının (YTP) təşkilatçılığı ilə keçirilən tədbirdə iki ölkədən 170-ə yaxın iş adamı iştirak etmişdir.

Tədbirin məqsədi iqtisadiyyat sahəsində dövlətlərarası münasibətlərin genişləndirilməsi, ölkələrin İKT sahəsində inkişafa dair məlumat mübadiləsinin aparılması, əməkdaşlığa dair birgə istiqamət və layihələrin müzakirəsidir.

Biznes forumunu giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov son illər Azərbaycanın İKT sahəsindəki uğurlarından danışmışdır. Ölkədə həyata keçirilən layihələr barədə məlumat verən nazir Azərbaycanda Regional İnnovasiya Zonasının yaradıldığını, bu layihənin perspektivləri və onun icrası barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Belarus son zamanlar İKT sahəsində böyük nailiyyətlər əldə etmişdir. Bunun da əsas göstəricisi orada fəaliyyət göstərən xüsusi iqtisadi texnoloji zonalardır. Azərbaycan xüsusi texnoloji zonaların yaradılmasında Belarusun təcrübəsindən istifadə etməkdə maraqlıdır.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov forumun əhəmiyyətini vurğulamışdır.

Belarus tərəfi bu ölkədə həyata keçirilən layihələr, xüsusən də milli iqtisadiyyatın rəqabətə davamlılığının artırılmasına yönəldilən proqram təminatı, informasiya-kommunikasiya və digər yeni, yüksək texnologiyaların işlənib hazırlanması üçün yaradılmış Yüksək Texnologiyalar Parkı (YTP) barədə məlumatlar təqdim etmişdir.

Forumda YTP-nin direktoru Valeri Sepkalonun "Belarus Respublikasının innovasiyalara açıq mühiti" və RİTN-in şöbə müdiri Rəşad Nəbiyevin "Azərbaycanda Regional İnnovasiya Zonasının yaradılması perspektivləri" mövzularında məruzələri dinlənilmişdir.

Tədbirdə iki ölkənin şirkət və təşkilatları arasında sazişlər imzalanmışdır.

Biznes forumu işini bölmələrdə davam etdirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andres Herkeli və Debona Qrexi qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MALİ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Mali Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Brahima Kulibalinin etimadnaməsini qəbul etmişdir.

Brahima Kulibali fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişaf edəcəyinə əminliyini bildirdi və diplomata ölkəmizdəki səfirlik fəaliyyətində uğurlar arzuladı.

Səfir Brahima Kulibali qeyd etdi ki, onun ölkəmizdəki diplomatik fəaliyyətinin əsas məramı iki ölkə arasında mövcud münasibətlərin inkişaf etdirilməsindən ibarət olacaqdır. Səfir bu istiqamətdə bütün səylərini əsirgəməyəcəyini dedi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladimir Curgusun etimadnaməsini qəbul etmişdir.

Vladimir Curgus fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə dinamik inkişafından məmnunluq ifadə edildi, Azərbaycanın Serbiyada səfirliyinin açılması barədə qərarının önəmi vurğulandı və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KANADANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Beylinin etimadnaməsini qəbul etmişdir.

Mark Beyli fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Mark Beyli Kanadanın general-qubernatoru xanım Mişel Janın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan ilə Kanada arasında ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı. Ölkələrimizin bir-birinin imkanları ilə yaxından tanış olmaları üçün müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı İlham Əliyev bildirdi ki, iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar vardır. Azərbaycanın indiki inkişaf mərhələsində həyata keçirilən müxtəlif layihələrdə Kanadadan olan şirkətlərin də uğurla iştirak edə biləcəyini vurğulayan dövlətimizin başçısı səfir Mark Beylinin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə bu istiqamətdə əlaqələrimizin genişlənəcəyinə əminliyini bildirdi.

Kanadanın respublikamızda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Beyli ölkəsi ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsi işində bütün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Kanadanın general-qubernatoru xanım Mişel Janın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını general-qubernatora çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRİ MALİ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 10-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Malinin ölkəmizdə yeni təyin olunmuş səfiri Brahima Kulibali ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən səfir B.Kulibali Azərbaycan ilə Malinin bir sıra beynəlxalq təşkilatlar, o cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində sıx əməkdaşlıq etdiyini vurğulamış və ikitərəfli münasibətlərin inkişafı üçün çalışacağını bildirmişdir.

Kənd təsərrüfatı, enerji, təhsil və digər sahələrdə əlaqələrin intensivləşdirilməsi üçün geniş potensialın olduğunu deyən diplomat, bu istiqamətdə Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinin zəruriliyini bildirmişdir.

Nazir E.Məmmədyarov B.Kulibalini Azərbaycanda səfir təyin olunması münasibətilə təbrik etmiş, Malinin ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi istiqamətində beynəlxalq təşkilatlar çərçivəsində verdiyi dəstəyə görə öz təşəkkürünü bildirmişdir. Nazir Azərbaycanın Mali ilə bütün sahələrdə əməkdaşlığa hazır olduğunu vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ SERBİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 10-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Serbiyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Vladimir Curgus ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən səfir yeni təyinatından məmnun olduğunu və fəaliyyəti dövründə Azərbaycan ilə Serbiya arasında iqtisadi, siyasi, mədəniyyət və

digər sahələrdə münasibətlərin inkişafına və genişləndirilməsinə çalışacağını demişdir.

Azərbaycanın Serbiyanın ərazi bütövlüyünü dəstəklədiyinə görə təşəkkürünü bildirən V.Curgus ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu vurğulamışdır.

Nazir E.Məmmədyarov V.Curgusu ölkəmizdə səfir təyin olunması münasibətilə təbrik etmiş, Azərbaycanın Serbiyada səfirlik açmağı planlaşdırdığını və bu amilin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə təkan verəcəyini qeyd etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ KANADANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 10-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Kanadanın ölkəmizdə yeni təyin olunmuş səfiri Mark Bailey ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən M.Bailey Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu bildirmişdir. Ölkələrimiz arasında əməkdaşlığın bir sıra sahələrdə inkişafı üçün geniş potensialın olduğunu vurğulayan diplomat fəaliyyəti dövründə Azərbaycan-Kanada əlaqələrinin genişləndirilməsinə çalışacağını demişdir.

Səfiri yeni təyinatı münasibətilə təbrik edən nazir E.Məmmədyarov, Azərbaycan ilə Kanada arasında əlaqələrin intensivləşdirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə olunmasının məqsədəmüvafiqliyini qeyd etmişdir.

İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN ARDNŞ-İN HƏYATA KEÇİRDİYİ REGİONAL ENERJİ LAYİHƏLƏRİNİN ƏHƏMİYYƏTİNİ VURĞULAMIŞDIR

Fevralın 10-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (ARDNŞ) ölkəmizdə səfərdə olan İsrailin xarici işlər naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə şirkətin prezidenti Rövnəq Abdullayev İsrail ilə Azərbaycan arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirmişdir.

Bu fikirlə razılaşdığını diqqətə çatdıran İsrailin xarici işlər naziri Azərbaycanın son illər siyasi, iqtisadi, mədəni, sosial və digər sahələrdə ciddi uğurlar qazandığını, ölkənin böyük yüksəliş dövrü keçirdiyini söyləmişdir. O, Azərbaycanın bütün dünyada etibarlı enerji təchizatçısı imici qazandığını xüsusi vurğulamışdır. A.Liberman ARDNŞ-in həyata keçirdiyi regional enerji layihələrinin əhəmiyyətini yüksək dəyərləndirmiş və qeyd etmişdir ki, artıq şirkət beynəlxalq işgüzar dairələrdə böyük etibara malikdir.

R.Abdullayev son dövrdə Azərbaycanın enerji sektorunda həyata keçirilən irimiqyaslı layihələrdən ətraflı söz açmış, qısa müddətdə böyük potensiala malik neft və qaz ixrac kəmərləri sisteminin yaradılmasını xüsusi nəzərə çarpdırmışdır.

Aviqdor Liberman fevralın 9-da Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini və İsrailin enerji sahəsində, o cümlədən alternativ enerji məsələləri üzrə Azərbaycan ilə əməkdaşlıq etmək istəyini dövlətimizin başçısına çatdırdığını vurğulamışdır. O, həmçinin Azərbaycanın neft və qaz sənayesinin aparıcı qüvvəsini təşkil edən ARDNŞ-də olmasından istifadə edərək İsrail tərəfinin ölkəmizdə hasil olunan enerji daşıyıcılarının idxalında maraqlı olduğunu ifadə etmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA XALQ DİPLOMATİYASI YÜKSƏK SƏVİYYƏDƏDİR

İsrailin xarici işlər naziri Aviqdor Liberman ölkəmizə səfəri çərçivəsində fevralın 10-da Bakıdakı sinaqoqda Azərbaycandakı yəhudi icmalarının nümayəndələri ilə görüşmüşdür.

Tədbirdə Azərbaycandakı yəhudi icmalarının rəhbərləri çıxış edərək, İsrail və Azərbaycan xalqları arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu bildirmişlər.

Dağ Yəhudiləri İcmasının sədri Semyon İxiilov yəhudilərin Azərbaycanda daim sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını demişdir. Azərbaycanda heç vaxt antisemitizm əhval-ruhiyyəsinin olmadığını qeyd edən S.İxiilov yəhudi icmasının adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətinin inkişafı üçün ölkəmizdə hərtərəfli şəraitin yaradıldığını vurğulamışdır.

Azərbaycan Avropa Yəhudiləri İcmasının sədri Gennadi Zelmanoviç ölkəmizdə tolerantlıq mühiti və yəhudi icmasının ictimai həyatın bütün sahələrində fəal rolu barədə məlumat vermiş, yəhudilərin digər vətəndaşlar kimi bərabər hüquqlara malik olduğunu məmnunluqla qeyd etmişdir.

Quba rayonunda Qırmızı qəsəbə dağ yəhudiləri icmasının sədri Boris Simanduev bildirmişdir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müdrik siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Məhz bunun nəticəsidir ki, yəhudilər daim öz üzərlərində dövlətin diqqət və qayğısını hiss edirlər.

Digər natiqlər Azərbaycanda yəhudi icması üçün yaradılmış əlverişli şəraitə görə Prezident İlham Əliyevə təşəkkür etmişlər.

Görüşdə Aviqdor Liberman demişdir ki, Azərbaycan ilə İsrail arasında xalq diplomatiyası yüksək səviyyədədir. Xalqlarımız arasındakı yüksək səviyyəli dostluq münasibətləri tarixi əsrlər əvvələ təsadüf edir. İstər xalqlarımız, istərsə də ölkələrimiz arasındakı əlaqələrin inkişafı istiqamətində xeyli işlər görülmüşdür.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə dinamik inkişafın müşahidə olunduğunu qeyd edən İsrailin xarici siyasət idarəsinin rəhbəri respublikamızın tolerantlıq baxımından da bir çox ölkələrə örnək olduğunu vurğulamış, yəhudi icması üçün yaradılmış şəraiti bunun bariz nümunəsi hesab etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan A.Liberman ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğulamışdır.

Tədbirin sonunda israilli nazirə xatirə hədiyyələri təqdim edilmişdir.

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLUB

Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynada prezident seçkilərində qələbə qazanmış Viktor Yanukoviçə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Viktor Yanukoviçi prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etmiş, ona gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Viktor Yanukoviç təbrikə və göstərilən diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

AZƏRBAYCAN İLƏ BELARUS ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Fevralın 12-də Belarus Dövlət İnformatika və Radioelektronika Universitetinin rektoru Mixail Baturanın başçılıq etdiyi nümayəndə heyəti Təhsil Nazirliyində olmuşdur.

Görüşdə nazir Misir Mərdanov Azərbaycan ilə Belarus arasındakı təhsil əlaqələrindən danışaraq, bu sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Belarus Dövlət İnformatika və Radioelektronika Universitetinin rektoru Mixail Batura rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti barədə məlumat vermişdir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs edən M.Mərdanov azərbaycanlı gənclərin Belarus ali məktəblərində təhsil almalarının önəmli olduğunu bildirmişdir. Nazir, eyni zamanda, azərbaycanlı gənclərin Belarus universitetləri barədə ətraflı məlumata malik olmaları üçün gələcəkdə ölkəmizdə müvafiq təhsil sərgisinin keçirilməsinin əhəmiyyətini diqqətə çatdırmışdır.

Sonra iki ölkə arasında əməkdaşlığın inkişafı istiqamətləri, kadr hazırlığı və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ KANAT SAUDABAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Qazaxıstanın dövlət katibi-xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Kanat Saudabayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əvvəlcə dövlətimizin başçısının Qazaxıstanın dövlət katibi-xarici işlər naziri Kanat Saudabayev ilə görüşü oldu. Qazaxıstanın ATƏT-ə sədrliyini əlamətdar hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev bu münasibətlə təbriklərini çatdırdı. Dövlətimizin başçısı Qazaxıstanın ATƏT-ə sədrlik edəcəyi 2010-cu ildə müsbət istiqamətdə ciddi dəyişikliklər olacağına əminliyini bildirdi.

Kanat Saudabayev Qazaxıstanın ATƏT-ə sədr seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Bakıda keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Sonra görüş geniş tərkibdə davam etdirildi.

ATƏT-ə rəhbərliyin mühüm missiya olduğunu vurğulayan Prezident İlham Əliyev Qazaxıstanın sədrliyi dövründə ATƏT-in Avropada təhlükəsizliyin möhkəmlənməsi işində əsaslı və müsbət irəliləyişlərə nail olunacağına əminliyini bildirdi.

Dövlətimizin başçısı Qazaxıstanın ATƏT-ə sədrlik edən ölkə kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması işində fəal surətdə iştirak edəcəyinə inandığını bildirərək, 2010-cu ildə münaqişənin həll olunması işində ciddi irəliləyişlərə nail olunacağına ümid bəslədiyini dedi.

Prezident İlham Əliyev qeyd etdi ki, bu münaqişənin həlli və Qafqazda sülhün bərqərar olunması üçün möhkəm siyasi iradənin göstərilməsi və mühüm qərarların qəbul edilməsi vacibdir. Dövlətimizin başçısı ATƏT-in fəaliyyətdə olan sədrinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.

Kanat Saudabayev Qazaxıstanın ATƏT-ə sədrliyi dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prioritet məsələlərdən biri olacağını dedi. O, ölkəsinin sədrliyi dövründə bu mürəkkəb problemin həlli ilə bağlı münaqişənin nizamlanmasında iştirak edən bütün tərəflərin proseslərdə səylərinin sürətləndirilməsi işinə təkan vermək niyyətində olduqlarını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ YOZEF MİQAŞIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Slovakiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yozef Miqaşın etimadnaməsini qəbul etmişdir.

Yozef Miqaş fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün yaxşı potensialın olduğu bildirildi, siyasi və iqtisadi münasibətlərimizin daha da genişlənməsi üçün qarşılıqlı imkanların öyrənilməsinin zəruriliyi vurğulandı, ikitərəfli əməkdaşlığın daha da möhkəmlənəcəyinə inam ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ RAİMKUL ATTAKUROVUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Qırğızıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Raimkul Attakurovun etimadnaməsini qəbul etmişdir.

Raimkul Attakurov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Ölkələrimiz arasında əlaqələrin hazırda uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə də münasibətlərimizin möhkəmlənəcəyinə, əməkdaşlığımızın daha da intensiv xarakter daşıyacağına ümidvar olduğunu bildirdi.

Qırğızıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri Raimkul Attakurov Qırğızıstan Prezidenti Kurbanbek Bakiyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Diplomat ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə daha da möhkəmlənməsinin zəruriliyini vurğuladı.

Dövlətimizin başçısı Prezident Kurbanbek Bakiyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğızıstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ XUAN KLOS İ MATEONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də İspaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xuan Klos i Mateonun etimadnaməsini qəbul etmişdir.

Xuan Klos i Mateo fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan ilə İspaniya arasında əlaqələrin daha da möhkəmlənməsi üçün yaxşı potensialın olduğu vurğulandı, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN KEÇMİŞ BAŞ NAZİRİ EXUD OLMERTİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Qazaxıstana gedərkən yolüstü Bakıda dayanan İsrailin keçmiş Baş naziri Exud Olmerti qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İsrail arasında münasibətlərə dair fikir mübadiləsi aparılmışdır.

MİLLİ MƏCLİSİN SƏDRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avroatlantik məkana inteqrasiya edən Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən ATƏT və onun Parlament Assambleyası ilə əməkdaşlığın genişlənməsinə böyük önəm verir.

Bu sözləri Milli Məclisin sədri Oqtay Əsədov fevralın 15-də ölkəmizdə səfərdə olan ATƏT-in sədri, Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayevlə görüşdə demişdir.

Oqtay Əsədov ölkəmizdə həyata keçirilən hüquqi, demokratik islahatlar, Azərbaycanın birbaşa iştirakçısı olduğu regional layihələr barədə ATƏT sədrinə məlumat vermiş və bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi olmasaydı, Azərbaycanın müxtəlif sahələrdə qazandığı uğurlar daha çox olardı. Ümid edirik ki, Qazaxıstanın ATƏT-ə sədrliyi dövründə münaqişənin həllində mühüm irəliləyişlərə nail olunacaqdır.

Milli Məclisin sədri bildirmişdir ki, problemin həlli üçün hüquqi baza da mövcuddur. Münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 4 qətnamə, AŞPA və digər nüfuzlu beynəlxalq qurumlar çox mühüm qərarlar qəbul etmişdir. Buna baxmayaraq, problemin həllində Ermənistan xalqların öz müqəddəratını təyin etmək hüququnu ölkələrin ərazi bütövlüyü prinsipinə qarşı qoyur. Əgər xalqların öz müqəddəratını təyinetmə hüququ prizmasından yanaşsaq, onda dünyanın siyasi xəritəsi yenidən cızılmalıdır. Biz problemin beynəlxalq hüquq normaları çərçivəsində, dövlətlərin ərazi bütövlüyü prinsipi əsasında ədalətli həllinə tərəfdarıq. Azərbaycan tərəfi dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağa bu gün dünyada mövcud olan ən yüksək muxtariyyət statusunu verməyə hazırdır. Bir şərtlə ki, sərhədlərin toxunulmazlığı prinsipinə əməl olunsun.

Kanat Saudabayev Qazaxıstanın quruma sədrliyi dövründə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərin artırılacağını bildirmişdir. Cənubi Qafqaz regionuna səfərin məqsədi əlaqələrin inkişafı ilə yanaşı, münaqişələrin həlli ilə bağlı fikir mübadiləsi aparmaq, yollar axtarmaqdır.

ATƏT sədri bu səfərin münaqişənin həllinə yeni təkan verəcəyinə əmin olduğunu bildirmişdir.

Sonra görüşdə Azərbaycan ilə ATƏT və onun ayrı-ayrı strukturları arasında əməkdaşlıq, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayev ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan-ATƏT əlaqələri, regionda təhlükəsizlik və digər maraq doğuran məsələlər müzakirə olunmuşdur.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunan məsələlər haqqında məlumat vermişlər.

Nazir Elmar Məmmədyarov bildirmişdir ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə yenilənmiş baza prinsiplərini təqdir edir. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin Afinada təklif etdikləri münaqişənin nizamlanması üzrə yenilənmiş baza prinsiplərini məqbul hesab edirik. Lakin, bu prinsiplərdə

Azərbaycan tərəfini razı salmayan, həmçinin razılaşmanın və danışıqların davam etdirilməsini tələb edən elementlər vardır.

E.Məmmədyarovun sözlərinə görə, o, bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə danışmış və Rusiya rəsmisi Ermənistan tərəfinin hələ ki, yenilənmiş baza prinsiplərinə münasibət bildirmədiyini demişdir.

Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri bəyan etmişdir ki, münaqişənin nizamlanmasında mövcud status-kvo qeyri-məqbuldur.

Nazir Qazaxıstanın ATƏT-ə sədrliyini və bu ölkənin cari ildə Astanada təşkilata üzv dövlətlərin iştirakı ilə sammitin təşkil olunmasına dair təşəbbüsünü dəstəklədiyini də vurğulamışdır.

ATƏT-in sədri K.Saudabayev bildirmişdir ki, Azərbaycana səfərinin əsas məqsədi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarla əlaqədar məsələnin bütün spektrləri üzrə hər iki tərəflə müzakirələr aparmaq və gələcək addımları müəyyənləşdirməkdir.

K.Saudabayevin sözlərinə görə, ATƏT-in fəaliyyətdə olan sədri kimi rəsmi Astana ümid edir ki, tərəflər razılaşmaları davam etdirsə, 2010-cu il Dağlıq Qarabağ münaqişəsinin həllində dönüş ili ola bilər. Qazaxıstanın ATƏT-də sədrliyi dövründə əsas prioritetlərindən biri həlli uzanan münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin nizamlanmasıdır.

ATƏT-in sədri qeyd etmişdir ki, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev hələ 1991-ci ildən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində birbaşa iştirak etmişdir. K.Saudabayev indi də bu məsələnin Qazaxıstan Prezidentinin diqqət mərkəzində olduğunu vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ İSPANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İspaniyanın Azərbaycanda yeni təyin edilmiş səfiri Xuan Klos i Mateo ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən X.Klos i Mateo Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu bildirmişdir.

Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayan diplomat Azərbaycan-İspaniya əlaqələrinin genişləndirilməsi istiqamətində çalışacağını demişdir.

Səfiri yeni təyinatı münasibətilə təbrik edən nazir E.Məmmədyarov Azərbaycan ilə İspaniya arasında əlaqələrin intensivləşdirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə olunmasının məqsədəmüvafiqliyini qeyd etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Slovakiyanın ölkəmizdə yeni təyin edilmiş səfiri Yozef Miqaş ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən səfir Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu bildirmişdir. Y.Miqaş fəaliyyəti dövründə Azərbaycan ilə Slovakiya arasında iqtisadi, siyasi, mədəni və digər sahələrdə münasibətlərin inkişafına və genişləndirilməsinə çalışacağını demişdir.

Nazir E.Məmmədyarov Y.Miqaşı ölkəmizdə səfir təyin olunması münasibətilə təbrik etmiş, Azərbaycan ilə Slovakiyanın beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq etdiyini bildirmişdir.

Ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin dərinləşdirilməsi üçün geniş potensialın olduğunu deyən nazir bu imkanların səmərəli istifadəsinin məqsədəmüvafiqliyini vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ QIRĞIZISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qırğızıstanın Azərbaycanda yeni təyin edilmiş səfiri Raimkul Attakurov ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən səfir yeni təyinatından məmnunluğunu bildirmişdir. Fəaliyyəti dövründə Azərbaycan ilə Qırğızıstan arasında iqtisadi, siyasi, mədəniyyət, təhsil və digər sahələrdə münasibətlərin inkişafına və genişləndirilməsinə çalışacağını deyən diplomat bunun üçün böyük potensialın olduğunu vurğulamışdır.

Nazir E.Məmmədyarov R.Attakurovu Azərbaycanda səfir təyin olunması münasibətilə təbrik etmişdir.

Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən nazir Azərbaycan-Qırğızıstan əlaqələrinin intensivləşdirilməsi üçün mövcud imkanlardan daha səmərəli istifadə olunmasının məqsədəmüvafiqliyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ KONQRESİ APARATININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Fevralın 15-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində ABŞ Konqresi Aparatının bir qrup məsul nümayəndələri ilə görüş keçirilmişdir.

Görüş zamanı nazir E.Məmmədyarov Azərbaycanda və regionda cərəyan edən proseslər barəsində qonaqlara ətraflı məlumat vermişdir. Nazir Azərbaycanın regionun gənc demokratiyası olduğunu vurğulayaraq, ölkədə gedən demokratik inkişaf prosesi və sosial-iqtisadi nailiyyətlər barədə danışmışdır.

Regionun ən böyük probleminin - Dağlıq Qarabağ münaqişəsinin hələ də nizamlanmamış qaldığını bildirən nazir E.Məmmədyarov münaqişənin həlli prosesi barədə məlumat vermiş, bölgədə sülh və sabitliyin təmin olunması üçün işğalçı qüvvələrin ərazilərimizdən çıxarılmasının, Azərbaycanın ərazi bütövlüyünün bərpasının və doğma yurdlarından didərgin düşmüş azərbaycanlıların öz torpaqlarına qayıtmasının vacibliyini qeyd etmişdir.

Azərbaycanın Cənubi Qafqaz regionunun lideri olduğunu vurğulayan nazir E.Məmmədyarov, ölkəmizin mühüm regional və qlobal layihələrdə iştirak etdiyini və beynəlxalq arenada öz sözünü deməyə qadir olan dövlətə çevrildiyini qonaqların nəzərinə çatdırmışdır.

Beynəlxalq təhlükəsizlik sisteminin məsul iştirakçısı kimi Azərbaycanın bu prosesə mühüm töhfələr verdiyini diqqətə çatdıran nazir E.Məmmədyarov, sülhməramlılarımızın Əfqanıstanda, bundan öncə isə Kosovo və İraqda xidmət etdiyini demişdir.

ABŞ-Azərbaycan münasibətlərinə toxunan nazir E.Məmmədyarov ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərindən danışmışdır. ABŞ Konqresində Ermənistan-Azərbaycan münaqişəsi və ümumilikdə regiondakı vəziyyət barədə real və dəqiq məlumatların yayılmasının əhəmiyyətini qeyd edən nazir, konqresmenlərin bu məsələyə yanaşmalarında beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalarının vacibliyini vurğulamışdır.

Görüşün sonunda Nazir E.Məmmədyarov qonaqların suallarını cavablandırmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA PREZİDENTİNİN SƏRƏNCAMI İLƏ "ŞƏRƏF LEGİONU" ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Fransa Respublikası Prezidentinin Sərəncamı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilmişdir.

Fransa dövlətinin başçısı Nikola Sarkozi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə göndərdiyi təbrik məktubunda bu barədə məlumat verərək bildirmişdir ki, Mehriban Əliyeva bu ali mükafata Fransaya münasibətdə göstərdiyi xidmətlərinə və nümayiş etdirdiyi sadiqliyinə görə layiq görülmüşdür.

XARİCİ İŞLƏR NAZİRİ GUAM-IN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 17-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov GUAM-ın baş katibi Valeri Çeçelaşvili ilə görüşmüşdür.

Görüşdə münasibətlərin hazırkı vəziyyətinə dair fikir mübadiləsi aparılmış, GUAM-ın beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti, iqtisadi, humanitar, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Bundan əlavə, görüşdə GUAM-ın üzvü olan ölkələr arasında əməkdaşlığın inkişafının və münasibətlərin intensivləşdirilməsinin zəruriliyi müzakirə olunmuş, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ ALEKSANDR ŞÇIQLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlonun başçılıq etdiyi nümayəndə heyətini

qəbul etmişdir.

Aleksandr Şçıqlo Polşa Prezidenti Lex Kaçinskinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Görüşdə Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbərinin ölkəmizə səfərinin Azərbaycan ilə Polşa arasında uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi ilə bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət yaratdığı vurğulandı, dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin və həmçinin ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin regional əməkdaşlıq baxımından önəmi qeyd edildi.

Dövlətimizin başçısı Polşa Prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Polşa dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN VƏ POLŞANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNİR

Fevralın 18-də Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri, general-leytenant Eldar Mahmudov ölkəmizdə rəsmi səfərdə olan Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlo ilə görüşmüşdür.

Nazir Eldar Mahmudov qonağı səmimi salamlayaraq, Polşa Respublikasının Milli Təhlükəsizlik Bürosu rəhbərinin Azərbaycana ilk səfərinin hər iki ölkənin müvafiq strukturları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir.

Görüşdə transmilli mütəşəkkil cinayətkarlıq, o cümlədən terrorçuluqla mübarizə, narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və bundan irəli gələn məsələlər müzakirə olunmuş, həmçinin enerji təhlükəsizliyi ilə bağlı fikir mübadiləsi aparılmış, Azərbaycan və Polşanın xüsusi xidmət orqanları arasında bütün bu sahələr üzrə informasiya və ekspert mübadiləsinin genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Milli təhlükəsizlik naziri Eldar Mahmudov beynəlxalq terrorçuluğa və ekstremizmə qarşı mübarizə sahəsində görülən işlərdən danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar barədə ətraflı məlumat vermişdir.

Həmkarı ilə görüşdən məmnunluğunu bildirən Aleksandr Şçıqlo Polşa Respublikasının Azərbaycan ilə sıx dostluq əlaqələrinin və bütün səviyyələrdə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə xüsusi önəm verdiyini diqqətə çatdırmışdır. Qonaq Azərbaycanın beynəlxalq antiterror koalisiyasındakı fəal rolunu qeyd etmiş, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində ölkəmizin ərazi bütövlüyünün və problemin həlli üzrə beynəlxalq hüquq normalarına söykənən mövqeyinin Polşa tərəfindən dəstəkləndiyini vurğulamışdır.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Fevralın 18-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfər-

də olan Polşa Respublikası Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlo ilə görüşmüşdür.

Azərbaycana ilk səfərindən məmnunluğunu bildirən A.Şçıqlo ölkələrimiz arasında əlaqələrin cari vəziyyətini yüksək qiymətləndirmiş, bütün sahələrdə münasibətlərin daha da intensivləşdirilməsi üçün geniş imkanların olduğunu demişdir.

Polşalı qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulamışdır.

Tarixən iki xalq arasında xoş münasibətlərin olduğunu qeyd edən nazir E.Məmmədyarov iqtisadi, siyasi, humanitar, təhsil və digər sahələrdə Azərbaycan-Polşa əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini bildirmişdir.

E.Məmmədyarov Azərbaycanın Polşa ilə bir sıra beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq etdiyini, habelə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının əlaqələrin daha da dərinləşməsi üçün geniş imkanlar açdığını vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən nazir münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini qeyd etmiş və bu amilin regionda davamlı sülhə və inkişafa təkan verəcəyini demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ UİLYAM BÖRNSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Börnsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə yüksək səviyyədə tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu vurğuladı və bu münasibətlərin gələcəkdə də inkişaf edəcəyinə əminlik ifadə etdi. Prezident İlham Əliyev Uilyam Börnsin ölkəmizə səfərinin Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin inkişafı və əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Börns ölkəsinin Azərbaycan ilə münasibətlərə çox böyük əhəmiyyət verdiyini vurğuladı və ABŞ-ın bu münasibətləri daha da möhkəmləndirmək əzmində olduğunu dedi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iki ölkə arasında energetika sahəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ POLŞADA SƏFƏRDƏ OLMUŞDUR

Fevralın 15-dən 20-dək Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti Polşa tərəfinin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşdur.

Səfərdən əsas məqsəd iki ölkə arasında müdafiə sənayesi sahəsində ikitərəfli əməkdaşlıq münasibətlərinin qurulması olmuşdur. Danışıqlarda əməkdaşlığa dair müvafiq razılıq əldə edilmiş və istiqamətlər müəyyənləşdirilmişdir.

Səfər çərçivəsində nümayəndə heyəti Polşanın müdafiə sənayesi müəssisələrinin istehsal prosesi və bu sahədə maraq doğuran yeni texnologiyalarla yaxından tanış olmuşdur. Nazir Yavər Camalov Polşa Prezidenti Administrasiyasının rəhbəri, Baş nazirin müavini və iqtisadiyyat naziri ilə görüşmüşdür.

Görüşlərdə Azərbaycan ilə Polşa arasında iqtisadi və siyasi sahələrdə əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilmişdir. Tərəflər müdafiə sənayesi sahəsində əməkdaşlıq münasibətlərinin qurulmasını məqsədəuyğun hesab etmişlər.

AZƏRBAYCAN VƏ İRAN PARLAMENTLƏRİNİN SƏDRLƏRİ TEHRANDA GÖRÜŞMÜŞLƏR

Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə Tehranda səfərdə olan Azərbaycan nümayəndə heyəti fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Seyid Əli Laricani ilə görüşmüşdür.

Ə.Laricani Azərbaycan və İran əlaqələrinin inkişafında parlamentlərimizin rolundan bəhs etmişdir.

O.Əsədov bildirmişdir ki, ölkələrimiz arasında mehriban qonşuluq münasibətləri bundan sonra da davam etdiriləcəkdir. Bu istiqamətdə hər iki parlament öz səylərini artırmalıdır.

Tərəflər parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulamışlar. Qeyd olunmuşdur ki, Azərbaycan və İran parlamentlərarası dostluq qruplarının qarşılıqlı səfərləri ölkələrimiz arasında əlaqələrin sürətlənməsinə xidmət edir. Parlamentlərarası dostluq qruplarının və parlamentlərdə fəaliyyət göstərən ayrı-ayrı komitələrin arasında əməkdaşlıq münasibətlərinin inkişafı istiqamətində mövcud imkanlardan daha səmərəli istifadə olunmalıdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi barədə fikir mübadiləsi aparılmışdır. S.Ə.Laricani bildirmişdir ki, İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ İRANIN TƏHLÜKƏSİZLİK ÜZRƏ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə Tehranda səfərdə olan Azərbaycan nümayəndə heyətinin növbəti görüşü fevralın 20-də İranın Təhlükəsizlik üzrə Ali Şurasının baş katibi Səid Cəlili ilə olmuşdur.

Görüşdə regionda təhlükəsizlik məsələləri müzakirə edilmişdir. S.Cəlili bildirmişdir ki, bu sahədə əlaqələrin daha da genişləndirilməsi Azərbaycan və İran xalqlarının ümumi maraqlarını əks etdirir. Xalqlarımızın bundan sonra da əmin-amanlıq və mehriban qon-

şuluq şəraitində yaşaması üçün təhlükəsizlik sahəsində səylər davam etdirilməlidir. Cəlili xüsusi vurğulamışdır ki, Azərbaycanın təhlükəsizliyi İran üçün olduqca vacib və əhəmiyyətli məsələdir.

O.Əsədov bildirmişdir ki, Azərbaycan regionda sülhün, sabitliyin, əmin-amanlığın tərəfdarıdır və bu istiqamətdə həyata keçirdiyi siyasəti bundan sonra da davam etdirəcəkdir.

AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə Tehranda səfərdə olan Azərbaycanın parlament nümayəndə heyəti fevralın 21-də İran Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Prezident Mahmud Əhmədinejad son illər İran ilə Azəraycan arasında əlaqələrin sürətlə inkişaf etməsinin əhəmiyyətindən danışmışdır.

Oqtay Əsədov yüksək qonaqpərvərliyə və mehriban münasibətə görə nümayəndə heyəti adından təşəkkürünü bildirmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Mahmud Əhmədinejada çatdırmışdır.

Xoş sözlərə görə dərin ehtiramını ifadə edən İran Prezidenti onun da səmimi salamlarını Prezident İlham Əliyevə və dost Azərbaycan xalqına çatdırmağı xahiş etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqları, regional proseslər, Azərbaycan ilə İran arasında iqtisadi, mədəni və humanitar əlaqələrin genişləndirilməsi yolları və digər məsələlər barədə müzakirələr aparılmışdır.

Ermənistan hərbi birləşmələrinin işğal etdikləri Azərbaycan torpaqlarının azad edilməsinin regionda uzunmüddətli sülhün və sabitliyin yaranmasına təsir edən başlıca amil olduğunu diqqətə çatdıran Oqtay Əsədov qeyd etmişdir ki, münaqişə üç yolla nizamlana bilər. Birinci yol beynəlxalq təşkilatların səyi nəticəsində beynəlxalq hüquq normalarının tətbiqidir. İkinci iqtisadi təsir vasitəsidir və region dövlətləri bu sahədə geniş imkanlara malikdirlər. Sonuncu isə məsələnin güc yolu ilə həll edilməsidir. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə tərəfdardır və bu istiqamətdə səylərini davam etdirməkdədir.

FÖVQƏLADƏ HALLAR NAZİRİ YUNANISTANDA SƏFƏRDƏ OLUB

Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun başçılıq etdiyi nümayəndə heyəti Yunanıstanın vətəndaşların mühafizəsi naziri Mihalis Krisohoidisin dəvəti ilə fevralın 22-23-də bu ölkədə rəsmi səfərdə olub.

Səfər zamanı Azərbaycan FHN və Yunanıstan Vətəndaşların Mühafizəsi Nazirliyinin nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb və hər iki nazirlik arasında mövcud əlaqələrin möhkəmləndirilməsi, daha da inkişaf etdirilməsi, gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barəsində müzakirələr aparılıb.

Görüşdən sonra "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanıb.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Afinada yerləşən "Syntagma" metro stansiyasında da olub. Nümayəndə heyətinə metronun təhlükəsizlik sistemi haqqında ətraflı məlumat verilib.

Bundan başqa, Elefisina Hava Qüvvələri Bazasında, Yunanıstan Polis Əməliyyat və Yanğın Xidməti Əməliyyat mərkəzlərində görüşlər keçirilib. Görüşlərdə qeyd olunan qurumların iş fəaliyyəti haqqında nümayəndə heyətinə ətraflı məlumat verilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

AZƏRBAYCANIN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ MACARISTANDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan-Macarıstan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının üzvlərindən ibarət nüfuzlu nümayəndə heyəti fevralın 22-də və 23-də Budapeştdə səfərdə olmuşdur. Nümayəndə heyətinə komissiyanın həmsədri, ölkəmizin iqtisadi inkişaf naziri Şahin Mustafayev rəhbərlik etmişdir.

Səfərin ilk günündə nümayəndə heyətinin üzvləri Macarıstan hökumətinin nümayəndələri və bu ölkənin aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlər keçirmişlər. Fevralın 23-də isə Hökumətlərarası Komissiyanın macarıstanlı üzvləri ilə görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərinə dair fikir mübadiləsi aparılmış, əlaqələrin daha da genişləndirilməsi və dərinləşdirilməsi məsələləri müzakirə edilmişdir. Elə həmin gün komissiyanın həmsədrləri Macarıstan ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətlərini əks etdirən protokol imzalamışlar.

Protokol imzalandıqdan sonra Hökumətlərarası Komissiyanın Azərbaycandan olan həmsədri Şahin Mustafayev çıxış etmişdir. O bildirmişdir ki, Azərbaycanda Avropa İttifaqı ilə, o cümlədən Macarıstanla iqtisadi əlaqələrin genişləndirilməsinə çox böyük diqqət yetirilir. İki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri buna sübutdur. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev iki dəfə Macarıstanda olmuşdur - 2008-ci ildə rəsmi səfərdə, 2009-cu ildə isə Nabukko layihəsinə həsr edilmiş sammit çərçivəsində. Macarıstanın baş naziri də iki dəfə Azərbaycanda olmuşdur. Bu səfərlər çərçivəsində imzalanmış çoxsaylı sazişlər və müqavilələr ilk növbədə qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsi üçün möhkəm təməl yaratmışdır.

Ş.Mustafayev demişdir: "Bu gün Hökumətlərarası Komissiyanın imzaladığı protokol ölkələrimiz arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərini əks etdirən genişhəcmli bir sənəddir. Əməkdaşlığın əsas istiqamətləri energetika, kənd təsərrüfatı, informasiya texnologiyaları və alternativ enerji mənbələri ilə bağlıdır. Protokol Macarıstan ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin artmasında ifadə olunan bugünkü reallıqları əks etdirir".

Bununla bərabər, Ş.Mustafayev qeyd etmişdir ki, bugünkü göstəricilər bu sahədə mövcud potensialı tam əks etdirmir.

Azərbaycan nümayəndə heyətinin başçısı sonda demişdir: "Buna görə də biz mövcud güclü potensialı reallaşdırmaq üçün əməkdaşlığı genişləndirməliyik. İmzalanmış protokol da məhz bu məqsədə xidmət edir".

Hökumətlərarası Komissiyanın növbəti iclası gələn il olacaqdır. Həmin iclasda Macarıstan ilə Azərbaycan arasında genişlənməkdə olan iqtisadi əməkdaşlığa ilkin yekun vurulması nəzərdə tutulur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Fevralın 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu deyən nazir E.Məmmədyarov, "Şərq tərəfdaşlığı" Proqramının əhəmiyyətini vurğulamışdır.

Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələsinə, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılmasının, ölkəmizin ərazi bütövlüyünün bərpasının və məcburi köçkünlərin öz torpaqlarına qayıtmasının zəruriliyini bildirmişdir.

P.Semnebi Azərbaycan torpaqlarının işğalının davam etməsinin yolverilməz olduğunu bildirmiş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunacağına ümid etdiyini vurğulamışdır.

Görüşdə enerji və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İSLAM ÖLKƏLƏRİ ŞƏBƏKƏSİNİN ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ QƏBUL EDİLMİŞDİR

Fevralın 24-də Azərbaycan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov İslam Konfransı Təşkilatının Elm və Texnoloji Əməkdaşlıq Komitəsinin (COMSTECH) icraiyyə komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilmiş 27-ci görüşündə iştirak etmişdir.

Ə.Abbasov Azərbaycanın təşəbbüskarı olduğu və ötən ilin dekabrında BMT Baş Məclisinin 64-cü sessiyasında xüsusi qətnaməsi qəbul olunmuş Transmilli Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsi haqqında məlumat vermişdir. O, Azərbaycanda qeyri-neft sektorunda, xüsusilə informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda aparılan islahatlar, görülmüş işlər və region üçün böyük əhəmiyyət kəsb edən təşəbbüslər barədə komitə üzvlərini məlumatlandırmışdır.

Görüşdə rəyasət heyətinin təklifi ilə TASİM layihəsi komitənin iş planına daxil edilmişdir.

İclas çərçivəsində komitə üzvləri son illər ölkəmizdə İKT, yüksək texnologiyalar və süni peyk sahəsində aparılan nümunəvi işləri nəzərə alaraq, Azərbaycanı alternativ enerji mənbələri üzrə islam ölkələri şəbəkəsinin əlaqələndiricisi qəbul etmişlər. Eyni zamanda, Azərbaycanda süni peykin yaradılması üzrə işlərə yeni başlanmasına baxmayaraq, bu uğurlu təcrübənin digər üzv ölkələrlə bölüşdürülməsinin vacibliyi bildirilmişdir.

Səfər çərçivəsində Əli Abbasov İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu, COMSTECH-in baş əlaqələndiricisi Atta-ur-Rəhman, eləcə də müxtəlif ölkələrin nümayəndələri ilə görüşlər keçirmiş, birgə təşəbbüs və əməkdaşlıq planlarını müzakirə etmişdir.

BMT-NİN AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİNİN FƏALİYYƏT MÜDDƏTİ BAŞA ÇATMIŞDIR

Fevralın 25-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə fəaliyyətinin başa çatması ilə əlaqədar BMT-nin rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rəhbəri Bruno Pueza ilə görüşmüşdür.

B.Pueza fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda gedən inkişaf prosesindən məmnunluğunu bildirmişdir. Azərbaycanın regionda lider dövlətə çevrildiyini, aparılan islahatlar nəticəsində davamlı inkişaf edəcəyini vurğulamışdır.

B.Pueza ölkəmizdə işlədiyi dövrdə Azərbaycan hökuməti ilə səmərəli əməkdaşlığından söhbət açaraq, bir sıra uğurlu layihələrin həyata keçirildiyini demişdir.

E.Məmmədyarov Azərbaycanın da bu əməkdaşlığa mühüm önəm verdiyini vurğulamışdır. Nazir Azərbaycanın iqtisadi imkanlarının artması ilə hökumət tərəfindən həyata keçirilən beynəlxalq yardım siyasətinin fəallaşdığını diqqətə çatdıraraq, bu istiqamətdə BMT təcrübəsinin əhəmiyyətli olduğunu qeyd etmişdir.

Nazir E.Məmmədyarov B.Puezaya gələcək fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində (SAM) Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya bölməsinin müdiri Yohanes Reqenbrext ilə görüş olmuşdur.

Görüşdə Azərbaycan-Almaniya əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yüksək səviyyədə qarşılıqlı səfərlərin və siyasi dialoqun iki ölkə arasında əməkdaşlıq münasibətlərinə müsbət təsirini vurğulayan tərəflər, humanitar sahədə də əlaqələrin inkişaf etdirilməsinin, elm, təhsil, xüsusilə "beyin mərkəzləri" arasında elmi-tədqiqat sahəsində müxtəlif layihələrin və tədbirlərin həyata keçirilməsinin vacibliyini qeyd etmişlər. Bunun Azərbaycan və Almaniya arasında təmasların daha da genişlənməsinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunmuşdur.

Daha sonra Yohanes Reqenbrext "Regional və qlobal siyasi meyillər kontekstində Almaniyanın Cənubi Qafqaz siyasəti" mövzusunda məruzə ilə çıxış etmişdir. Məruzədə regional əməkdaşlıq məsələlərinə toxunulmuş, Almaniyanın Cənubi Qafqaz regionu ölkələri ilə əlaqələrinin inkişaf etdirilməsində maraqlı olduğu vurğulanmışdır.

Tədbirdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, Xarici İşlər Nazirliyinin məsul əməkdaşları, regional və beynəlxalq münasibətlər üzrə yerli mütəxəssislər iştirak etmişlər. Regionda və beynəlxalq aləmdə baş verən proseslər, Avropa Qonşuluq Siyasəti, "Şərq Tərəfdaşlığı" proqramı, enerji sahəsində əməkdaşlıq, beynəlxalq təhlükəsizlik və digər məsələlər müzakirələrin əsas mövzusu olmuşdur.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ UKRAYNANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ VİKTOR YANUKOVİÇİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Fevralın 25-də Azərbaycanın Baş naziri Artur Rasizadə Ukraynanın yeni seçilmiş Prezidenti Viktor Yanukoviçin andiçmə mərasimində iştirak etmişdir.

Səhər Ukrayna Ali Radasında ölkənin yeni seçilmiş Prezidentinin and içməsinə həsr olunmuş təntənəli iclas keçirilmişdir. Azərbaycan hökumətinin başçısı iclasda iştirak etmişdir.

Viktor Yanukovuç parlamentin iclas zalına fəxri qarovulun önündən keçərək gəlmişdir.

Ukrayna Milli Əməkdar Akademik Xoru ölkənin dövlət himnini ifa etmişdir. Ukrayna xalqına sədaqət andı içdikdən sonra V.Yanukoviç andın mətnini imzalamış və Konstitusiya Məhkəməsinin sədri Andrey Strijaka təqdim etmişdir.

Bundan sonra A.Strijak bildirmişdi ki, yeni seçilmiş Prezident and içmiş və Ukrayna Prezidenti vəzifəsinin icrasına başlamışdır. O, V.Yanukoviçə Prezidentlik Şəhadətnaməsini və dövlət başçısının rəsmi rəmzləri olan Ukrayna Prezidentinin Nişanını, Möhürünü və Gürzünü təqdim etmişdir.

Sonra fəxri qarovulun əsgərləri Ali Radanın binası qarşısındakı meydana dövlət bayrağını, dövlət başçısının avtomobilinə Prezident bayrağını sancmışlar.

Mərkəzi Seçki Komissiyasının sədri Vladimir Şapoval Viktor Yanukoviçə Ukrayna Prezidentinin vəsiqəsini təqdim etmişdir.

Təntənəli iclas başa çatdıqdan sonra Azərbaycanın Baş naziri Artur Rasizadə Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA İQTİSADİ ƏLAQƏLƏR İNKİŞAF EDİR

Fevralın 25-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayevin Azərbaycan-İtaliya Ticarət Palatasının prezidenti xanım Marqarita Kosta ilə işgüzar görüşü olmuşdur.

Görüşdə inkişaf etməkdə olan Azərbaycan-İtaliya iqtisadi əlaqələri müzakirə olunaraq ASK ilə Ticarət Palatası arasında əməkdaşlığın perspektivləri barədə razılıq əldə edilmişdir.

Xanım Marqarita Kosta bu iqtisadi əlaqələrin əsasən qeyri-neft sektorunun inkişafına yönəlməsini vurğulayaraq prioritet və perspektivli istiqamətlər kimi aqrar sahənin inkişaf etdirilməsi, turizm potensialından hər iki ölkə vətəndaşlarının bəhrələnməsi, birgə müəssisələrin yaradılması, seminar və forumların təşkili və keçirilməsi, Bakıda İtaliya Evinin yaradılması məsələlərini qeyd etmişdir.

Hər iki tərəfdən qarşılıqlı və səmərəli fəaliyyət aparılması zəruriyyəti göstərilmişdir. Bunun üçün müntəzəm əlaqə saxlanılması qərara alınmışdır.

AZƏRBAYCAN AVROPA ŞURASININ İNSAN ALVERİNƏ QARŞI KONVENSİYASINA QOŞULMUŞDUR

Fevralın 25-də Avropa Şurasının (AŞ) iqamətgahında Azərbaycan qurumun "İnsan alverinə qarşı fəaliyyət haqqında konvensiya"ya dair sənədini imzalamışdır.

Konvensiyanı Azərbaycan Respublikası adından ölkəmizin AŞ yanındakı daimi nümayəndəsi səfir Arif Məmmədov, AŞ adından isə təşkilatın baş katibinin müavini xanım Mod de Bur-Bukikkio imzalamışlar.

Baş katibin müavini Azərbaycanın bu təşəbbüsünü yüksək qiymətləndirmiş, bu addımı ölkəmizin AŞ dəyərlərinə bağlılığı kimi səciyyələndirərək konvensiyanın qısa zamanda ratifikasiya ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Azərbaycan AŞ-yə üzv ölkələr arasında bu konvensiyanı imzalayan 43-cü dövlətdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZANI FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da BMT-nin rezident əlaqələndiricisi Bruno Puezanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

Dövlətimizin başçısı BMT-nin rezident əlaqələndiricisi Bruno Puezanın ölkəmizdəki fəaliyyəti dövründə bir çox mühüm tədbirlərin həyata keçirildiyini, Azərbaycan ilə BMT arasında əməkdaşlığın uğurla davam etdiyini bildirdi. Prezident İlham Əliyev son bir neçə ildə Azərbaycan hökumətinin beynəlxalq təşkilatlar, o cümlədən BMT strukturları ilə birgə nəzərdə tutulan mühüm layihələri həyata keçirdiyini vurğuladı. Əməkdaşlığımızın genişləndirilməsinə göstərdiyi səyləri və verdiyi töhfəni yüksək qiymətləndirən dövlətimizin başçısı gələcək fəaliyyətində ona uğurlar arzuladı.

BMT-nin rezident əlaqələndiricisi Bruno Pueza qeyd etdi ki, Azərbaycan Prezidentinin davamlı dəstəyi olmasa idi, əldə edilən nailiyyətlərin heç biri olmazdı. Bruno Pueza ölkəmizdəki fəaliyyəti müddətində göstərilən dəstəyə görə şəxsən Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə minnətdarlığını bildirdi. Ötən dövr ərzində Azərbaycanın tarixində çox mühüm hadisələrin baş verdiyini vurğulayan qonaq bunların şahidi və iştirakçısı olmasından şərəf duyduğunu dedi.

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ MOLDOVADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullyevin rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 23-dən 27-dək Moldova Respublikası Konstitusiya Məhkəməsinin sədri D.Pulberinin dəvəti ilə həmin qurumun 15 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak etmək üçün Kişinyov şəhərində səfərdə olmuşdur.

Bir sıra ölkələrin Konstitusiya məhkəmələrinin sədrləri və hakimlərinin iştirakı ilə keçirilmiş yubiley tədbirində Konstitusiyanın aliliyinin konstitusiya nəzarəti orqanları tərəfindən təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının məhkəmələr tərəfindən müdafiə edilməsi, yüksək məhkəmə orqanlarının iş birliyi və digər hüquqi məsələlər müzakirə edilmişdir.

Konfransdan sonra qonaqları Moldova Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Mixay Qimpu qəbul etmişdir. Görüş zamanı Mixay Qimpu Moldova ilə Azərbaycan arasında mövcud əlaqələri, o cümlədən məhkəmə-hüquq əməkdaşlığını yüksək qiymətləndirmişdir.

Məhkəmədə nümayəndə heyəti tədbir zamanı bir sıra xarici konstitusiya məhkəmələrinin sədrləri və hakimləri ilə görüşmüş, qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMERBERQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammerberqi qəbul etmişdir.

Görüşdə insan haqları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa Xalq Partiyasının prezidenti Vilfred Martinsi qəbul etmişdir.

Görüşdə Avropa Xalq Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, ölkəmizin Avropaya inteqrasiyası məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XALQ PARTİYASININ PREZİDENTİ VİLFRED MARTİNSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa Xalq Partiyasının prezidenti Vilfred Martinsi qəbul etmişdir.

Görüşdə Avropa Xalq Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, ölkəmizin Avropaya inteqrasiyası məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ MİGEL ANGEL MORATİNOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinin və Avropa Komissiyası vitse-prezidentinin adından, Avropa İttifaqına növbəti sədrlik edən dövlətin - İspaniya Krallığının xarici işlər və əməkdaşlıq naziri Migel Angel Moratinosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xarici işlər naziri Migel Angel Moratinos İspaniyanın sədrliyi dövründə Avropa İttifaqının xarici əlaqələrində Azərbaycanın prioritet məsələ olduğunu dedi. Migel Angel Moratinos Avropa İttifaqının Azərbaycan ilə möhkəm münasibətlər yaratdığını vurğulayaraq, bu münasibətlərin ənənəvi ikitərəfli əlaqələrdən artıq olduğunu və strateji əhəmiyyət daşıdığını qeyd etdi. İkitərəfli münasibətlərə toxunan nazir ölkəsinin Azərbaycan ilə əlaqələri gələcəkdə daha da genişləndirmək niyyətində olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Ölkəmizlə Avropa İttifaqı arasında kifayət qədər fəal əlaqələrin olduğunu bildirən Prezident İlham Əliyev özünün Brüsselə və eləcə də Avropa İttifaqı komissarlarının ölkəmizə səfərlərinin əməkdaşlığımızın daha da möhkəmlənməsi baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı "Şərq tərəfdaşlığı" proqramının əməkdaşlıq, inteqrasiya və əlaqələr üçün yeni imkanlar açacağına ümidvar olduğunu dedi. Prezident İlham Əliyev ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığı bütün istiqamətlər üzrə konstruktiv və qarşılıqlı maraq əsasında daha sürətlə inkişaf etdirməyə hazır olduğunu dedi. Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələləri ətrafında da fikir mübadiləsi aparıldı.

XARİCİ İŞLƏR NAZİRİ İSPANİYANIN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Avropa İttifaqına növbəti sədrlik edən dövlətin - İspaniya Krallığının xarici işlər və əməkdaşlıq naziri Migel Angel Moratinos ilə görüşmüşdür. Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunan məsələlər haqqında məlumat vermişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr, xüsusilə də "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq və digər məsələlər müzakirə edilmişdir.

Nazir demişdir ki, görüşdə münaqişənin yalnız beynəlxalq hüququn prinsipləri, xüsusilə də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyü vurğulanmışdır.

Migel Angel Moratinos azərbaycanlı həmkarı ilə səmərəli müzakirələr apardığını bildirmişdir.

İspaniyalı nazir qeyd etmişdir ki, səfərinin əsas məqsədi Aİ-nin Cənubi Qafqaz ölkələri, xüsusilə də Azərbaycan ilə əməkdaşlığa verdiyi xüsusi əhəmiyyəti nümayiş etdirməkdir. Həm Aİ, həm də İspaniya Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır.

Azərbaycan ilə Aİ arasında assosiativ sazişin imzalanması məsələsinin də müzakirə olunduğunu qeyd edən nazir yaxın zamanlarda bu istiqamətdə konkret addımların atılacağını qeyd etmişdir. Aİ və Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi də gündəlikdə duran əsas məsələlərdəndir.

İspaniya xarici siyasət idarəsinin rəhbəri demişdir ki, Aİ karbohidrogen ehtiyatları ilə zəngin olan Azərbaycanla enerji sahəsində əməkdaşlığa xüsusi önəm verir.

M.Angel Moratinos Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həllinin vacibliyini vurğulamış, problemin həlli istiqamətində Aİ-nin ATƏT-in Minsk qrupuna hər cür yardım etməyə hazır olduğunu vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİLİPPİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Filippinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pedro O.Çanın etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Pedro O.Çan etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Söhbət zamanı ikitərəfli münasibətlər və əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Dövlətimizin başçısı səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRLANDİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Rasselin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Tomas Rassel etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan ilə İrlandiya arasında əlaqələrin inkişaf etdirilməsi üçün potensialın mövcud olduğu vurğulandı və səfirin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə əməkdaşlığımızın genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİVİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Liviyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saad Mustafa Mucbirin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Saad Mustafa Mucbir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Səfir Saad Mustafa Mucbir Liviya Prezidenti Müəmmər Qəzzafinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, on il bundan əvvəl müasir Azərbaycan dövlətinin yaradıcısı, ulu öndər Heydər Əliyev ilə görüşünü ehtiramla xatırladı. Saad Mustafa Mucbir ölkəsinin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu dedi. O, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətləri daha da genişləndirmək üçün bütün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Prezident İlham Əliyev Liviyanın Azərbaycanın mövqeyini beynəlxalq təşkilatlarda, İslam Konfransı Təşkilatı və Birləşmiş Millətlər Təşkilatında dəstəkləməsini yüksək qiymətləndirdi.

Ölkəmizin Liviya ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu deyən dövlətimizin başçısı əməkdaşlıq üçün yeni imkanların olduğunu bildirdi. İqtisadi sahədə əlaqələri inkişaf etdirməyin önəmini vurğulayan Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlıq üçün cəlbedici sahələrin və böyük potensialın mövcudluğunu qeyd etdi.

Dövlətimizin başçısı Liviya Prezidenti Müəmmər Qəzzafinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Liviya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Egberg Mikkelsenin etimadnaməsini qəbul etmişdir.

Səfir Prezident sarayında fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Ole Egberg Mikkelsen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirən Prezident İlham Əliyev ölkələrimizin imkanları barədə daha çox məlumatın olmasını və bunun üçün fəal əlaqələr qurmağın zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında, xüsusilə iqtisadi sahədə məhsuldar əməkdaşlığın olacağına əminliyini bildirdi.

Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Egberg Mikkelse Kraliça ülyahəzrət II Marqretenin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Danimarka arasında münasibətlərin daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı Danimarka Kraliçası ülyahəzrət II Marqretenin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Kraliçaya çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İQOR ŞUVALOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyası Baş nazirinin birinci müavini İqor Şuvalovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Görüşdə, həmçinin MDB məkanında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLANDIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ KATİBİ, NAZİRİN MÜAVİNİ ED KRONİNBURQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Niderlandın Xarici İşlər Nazirliyinin baş katibi, nazirin müavini Ed Kroninburqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Niderlandın Xarici İşlər Nazirliyinin baş katibi, nazirin müavini Ed Kroninburq ölkəsinin Azərbaycan ilə ikitərəfli münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Bu gün Niderlandın ölkəmizdə səfirliyinin açılmasına toxunan Ed Kroninburq bunu ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyətin ifadəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı ölkəmizin Niderland ilə münasibətləri inkişaf etdirməyə böyük əhəmiyyət verdiyini vurğuladı. Azərbaycanın Niderlandda səfirliyinin artıq üç ildir fəaliyyət göstərdiyini bildirən Prezident İlham Əliyev bunun ikitərəfli münasibətlərimizin sürətlə inkişaf etdirilməsi işində önəmini qeyd etdi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

BAŞ NAZİR RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın Baş naziri Artur Rasizadə Rusiya hökuməti başçısının birinci müavini və RF-nin MDB məsələləri üzrə milli əlaqələndiricisi İqor Şuvalovun başçılıq etdiyi nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür. Görüşdə MDB çərçivəsində inteqrasiya proseslərinin fəallaşdırılması məsələləri müzakirə edilmişdir.

Azərbaycan hökumətinin başçısı ümid etdiyini bildirmişdir ki, Rusiya nümayəndə heyətinin ölkəmizə səfəri ikitərəfli əlaqələrin genişləndirilməsi üçün stimul olacaqdır. O, Azərbaycan-Rusiya əməkdaşlığının perspektivlərindən bəhs edərək vurğulamışdır ki, 2009-cu ildə ticarət əməliyyatlarının həcminin bir qədər azalmasına baxmayaraq, bu il ikitərəfli əmtəə dövriyyəsinin həcminin 2 milyard dolları aşacağı nəzərdə tutulur.

Artur Rasizadə onu da vurğulamışdır ki, Azərbaycan Birlikdə inteqrasiyanın daha da intensivləşməsinin tərəfdarıdır.

Rusiya Baş nazirinin birinci müavini İqor Şuvalov MDB ölkələrinə səfəri barədə Azərbaycan hökumətinin başçısına məlumat vermiş və Birlik çərçivəsində əməkdaşlığın üstün istiqamətlərinə dair təkliflərini bölüşmüşdür. İ.Şuvalov qeyd etmişdir ki, Birliyin üzvü olan bütün ölkələr iqtisadiyyatın baza sahələri olan energetika və nəqliyyat sektorlarında əlaqələrin inkişaf etdirilməsi barədə həmrəydirlər. Bununla bərabər, enerji bazarından səmərəli, o cümlədən ekoloji cəhətdən təhlükəsiz texnologiyaların tətbiqinə diqqət yetirmək lazımdır. MDB üzvlərinin demək olar ki, hamısının əmək bazarında üzləşdiyi əməkçi miqrantlar, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi problemlərinin tənzimlənməsi müzakirə tələb edilən məsələlər sırasındadır.

BAŞ NAZİR BEYNƏLXALQ VALYUTA FONDUNUN MİSSİYA NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 3-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Beynəlxalq Valyuta Fondunun missiya nümayəndələri xanım Ratna Saha və Ninke Omes ilə görüşmüşdür.

Səmimi görüşə görə Baş nazir Artur Rasizadəyə minnətdarlıq edən qonaqlar dünyada

gedən iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatının qlobal böhranın təsirlərinə uğurla davam gətirdiyini xüsusi vurğulamışlar. Onlar 2009-cu ildə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artım tempinin dünyada ən yüksək göstəricilərdən biri olduğunu qeyd edərək, hökumətin qabaqlayıcı tədbirləri sayəsində inflyasiya səviyyəsinin kəskin azaldığını, yoxsulluq həddinin 13 faizdən 11 faizə endiyini, sosial xərclərin artırıldığını müsbət meyil kimi dəyərləndirmişlər. Bununla yanaşı, qeyri-neft sektorunda ÜDM artımının qorunub saxlandığı da nəzərə çatdırılmışdır.

Görüşdə dünya iqtisadi sisteminin strukturu, institusional və idarəetmə islahatlarındakı irəliləyişlər və perspektivlər, habelə özəl bölmənin fəaliyyəti, xüsusən qeyri-neft sektorunun inkişafının stimullaşdırılması və Neft Fondunun resurslarından səmərəli istifadə planları da müzakirə olunmuşdur.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ NİDERLANDIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ KATİBİ, NAZİRİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 3-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Niderland Krallığının Xarici İşlər Nazirliyinin baş katibi, nazir müavini Ed Kroninburq ilə görüşmüşdür.

Ölkəmizdə olmasından məmnunluğunu bildirən Ed Kroninburq Azərbaycan-Niderland münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirmişdir. Niderlandın Azərbaycanda səfirlik açdığını qeyd edən Ed Kroninburq bu amilin ölkələrimiz arasında əlaqələrin daha da intensivləşməsinə təkan verəcəyini vurğulamışdır.

Azərbaycanın Avropa İttifaqı çərçivəsində Niderland ilə sıx əməkdaşlıq etdiyini deyən nazir E.Məmmədyarov ölkələrimiz arasında iqtisadi, ekoloji, təhsil, enerji və digər sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ LİTVA SEYMİNİN XARİCİ İŞLƏR KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 3-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Litva Seyminin xarici işlər komitəsinin sədri Emanuelis Zinqeris ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında qarşılıqlı əlaqələrin hazırkı vəziyyəti və bir sıra beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Ölkəsinin Azərbaycana Avropa institutlarına inteqrasiya prosesində mümkün köməyi göstərməyə hazır olduğunu deyən E.Zinqeris bu sahədə əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Nazir E.Məmmədyarov Litva tərəfindən ölkəmizin mövqeyinin dəstəkləndiyinə görə təşəkkürünü bildirmişdir.

Ölkələrimiz arasında iqtisadi, enerji, təhsil və digər sahələrdə münasibətlərin intensiv-

ləşdirilməsinin vacibliyini vurğulayan E.Məmmədyarov bunun həm ikitərəfli əlaqələr, həm də Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində həyata keçirilməsi mümkünlüyünü demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA YUNİSEF-İN AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ MARK HERVORDLA GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva martın 3-də YUNİSEF-in Azərbaycandakı numayəndəliyinin rəhbəri Mark Hervordla görüşmüşdür.

Qonağı Fondda salamlayan Azərbaycanın birinci xanımı YUNİSEF-in ölkəmizdəki fəaliyyətini dəstəklədiyini bildirmişdir. Fondla YUNİSEF arasında sıx əlaqələrin qurulduğunu bildirən Mehriban Əliyeva bu əməkdaşlığın təsadüfi olmadığını söyləmişdir. Hər iki qurumun əsas məqsədi uşaqlara qayğı göstərməkdən ibarətdir. Uşaqların problemlərinin həll olunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətini təşkil edir.

Mehriban Əliyeva YUNİSEF ilə bir çox birgə uğurlu layihələrin həyata keçirildiyini deyərək, gələcəkdə yeni layihələrin reallaşacağına ümidvar olduğunu bildirmişdir.

YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Hervord isə Heydər Əliyev Fondu ilə təmsil etdiyi qurumun arasında bir sıra sahələr üzrə əməkdaşlıq üçün potensialın olduğunu vurğulayaraq, gələcək əməkdaşlıq üçün bir neçə layihənin nəzərdə tutulduğunu da diqqətə çatdırmışdır.

Mehriban Əliyeva YUNİSEF ilə birgə yeni layihələr həyata keçirməyə hazır olduqlarını demişdir. Heydər Əliyev Fondunun irsi qan xəstəlikləri ilə mübarizədə yeni layihələr hazırladığını diqqətə çatdıran Azərbaycanın birinci xanımı bu sahədə YUNİSEF ilə əməkdaşlığın mümkünlüyünü bildirmişdir. Fondun irsi qan xəstəlikləri ilə mübarizədə həyata keçirəcəyi ilk tədbir isə əhalinin maarifləndirilməsidir. Bununla bağlı Fond tərəfindən kitablar, əyani vəsaitlər, video çarxlar hazırlanmışdır.

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İTALİYANIN SAN RAFAELO FONDUNUN VİTSE-PREZİDENTİ MARİO KAL İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 3-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva İtaliyanın San Rafaelo Fondunun vitse-prezidenti Mario Kal ilə görüşmüşdür.

Görüşdə iki qurum arasında əməkdaşlığın perspektivləri, o cümlədən həkim, mütəxəssis mübadiləsi, birgə elmi araşdırmaların aparılması məsələləri müzakirə olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və İtaliyanın San Rafaelo Fondunun vitse-prezidenti Mario Kal gələcəkdə birgə layihələrin həyata keçirilməsi ilə

bağlı fikir mübadiləsi aparmışlar.

NİDERLANDIN AZƏRBAYCANDA SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR

Martın 3-də Niderland Krallığının Azərbaycanda səfirliyinin rəsmi açılışı münasibətilə Milli Muzey Mərkəzində tədbir keçirilmişdir.

Tədbirdə iştirak edən Niderland Krallığı Xarici İşlər Nazirliyinin baş katibi, nazirin müavini Ed Kroninburq səfirliyin açılmasını ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişafına verdiyi xüsusi əhəmiyyətin bariz nümunəsi olduğunu bildirmişdir. Ed Kroninburq demişdir: "Dünyanı bürümüş qlobal iqtisadi böhran şəraitində bir çox ölkələr xaricdəki diplomatik nümayəndəliklərini bağlamaq məcburiyyətində qalsalar da, biz Azərbaycanda səfirliyimizin açılması qərarına gəldik. Bu da ölkəmizin Azərbaycan ilə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verdiyini sübut edir".

Ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini deyən Ed Kroninburq, hollandiyalı biznesmenlərin Azərbaycan iqtisadiyyatına investisiya qoymaqda maraqlı olduqlarını vurğulamışdır. Demişdir ki, Niderland Azərbaycan ilə təkcə enerji sahəsində deyil, iqtisadiyyatın digər sahələrində də əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Azərbaycanın bir çox beynəlxalq təşkilatların üzvü olduğunu bildirən Ed Kroninburq ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq", Avropa İttifaqının isə "Şərq tərəfdaşlığı" proqramlarında iştirakının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır. Onun sözlərinə görə, yaxın zamanlarda Aİ və Azərbaycan arasında "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində assosiativ sazişin imzalanması Azərbaycanın təşkilatla əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətli hadisə olacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq ölkəsinin ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətində vasitəçilik səylərini dəstəklədiyini vurğulamışdır. O, həmçinin problemin beynəlxalq hüququn prinsipləri əsasında həllinin vacibliyini diqqətə çatdırmışdır.

Sonda Ed Kroninburq səfirliyin rəsmi açılış mərasiminə həsr olunmuş, 1872-1912-ci illərdə Dmitri Yermakov tərəfindən Azərbaycanda çəkilmiş və Niderland Krallığı hökumətinin sponsorluğu ilə bərpa olunmuş fotoşəkillərin sərgisinə baxmışdır.

XARİCİ İŞLƏR NAZİRİ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın xarici işlər nazirinin müavini Qriqori Karasin ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan-Rusiya əlaqələri, regionda təhlükəsizlik və maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRLİYİ İLƏ AVROPA ŞURASI ARASINDA SIX VƏ İŞGÜZAR ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ YARADILMIŞDIR

Martın 4-də Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Tomas Hammerberq ilə görüşmüşdür.

Daxili İşlər Nazirliyi ilə Avropa Şurası arasında sıx və işgüzar əməkdaşlıq əlaqələrinin yaradılmasından danışan Ramil Usubov qeyd etmişdir ki, bu əlaqələr çərçivəsində insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət daşıyır. Məhz bunun nəticəsidir ki, ötən əsrin 90-cı illərinin ikinci yarısında Avropanın qabaqcıl ölkələrindən olan ekspertlərin yaxından iştirakı ilə polis fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən qanunvericilik bazası təkmilləşdirilmiş, demokratik dəyərlərə söykənən bir sıra normativ aktlar və yeni qanunlar qəbul edilmişdir. Polisin fəaliyyətində insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ön plana çəkilmişdir. Bununla yanaşı, Avropa Şurası ekspertlərinin hazırladıqları DİN-in Polis Akademiyasında təhsilin təşkilinə dair "Azərbaycan Respublikasında polis kadrlarının hazırlanmasının qiymətləndirilməsi" mövzusunda məruzə-hesabatına əsasən təqdim edilmiş tövsiyələr nəzərə alınaraq, insan hüquqlarının qorunması ilə bağlı qanunvericiliyin və beynəlxalq hüquqi aktların müddəalarının daha dərindən öyrənilməsi məqsədi ilə akademiyada "İnsan hüquqları" üzrə xüsusi kurs təşkil olunmuş, eyni məqsədlə ingilis dilinin tədrisi daha da genişləndirilmişdir.

Qeyd olunmuşdur ki, Avropa Şurasının "Polis və insan hüquqları" Proqramı çərçivəsində hazırlanmış "İşgəncələrə qarşı komitə haqqında nə bilirsiniz" adlı 15 suallı əhatə edən kitabça tərcümə edilmiş, tədris prosesində ondan əyani vəsait kimi istifadə olunur. "Polis etikası haqqında" Avropa məcəlləsində təsbit olunmuş prinsiplər və Avropa Şurasının ekspertlərinin tövsiyələri əsasında və fəal iştirakı ilə "Daxili işlər orqanları əməkdaşlarının etik davranış kodeksi" hazırlanmışdır.

Nazir bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2006-cı il 28 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar insan hüquqlarının təmin olunması sahəsində beynəlxalq təşkilatlarla bir sıra zəruri işlər görülmüşdür. Bundan əlavə, 1997-ci ildən başlayaraq Avropa Şurasının "Polis və İnsan hüquqları Proqramı", "Qanunun aliliyinin möhkəmləndirilməsi üzrə Əməkdaşlıq Proqramı" və "İnsan hüquqlarına riayət edilməsi mədəniyyəti Proqramı" çərçivəsində müxtəlif mövzular üzrə seminarlar keçirilmişdir.

Ümumiyyətlə, insan hüquqlarına riayət olunması, polisin gündəlik işində demokratik dəyərlərin möhkəmləndirilməsi yollarının öyrənilməsi problemlərinə həsr edilmiş seminarlar, elmi-praktik konfranslar müntəzəm olaraq keçirilir.

R.Usubov onu da qeyd etmişdir ki, Daxili İşlər Nazirliyi eyni zamanda şəxsi heyət arasında hər cür neqativ təzahürlərə qarşı mübarizə sahəsində öz işini böyük əzmlə davam etdirir və hər belə fakt üzrə qanunla müəyyən edilmiş ən ciddi tədbirlərin görülməsində maraqlıdır.

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Tomas Hammerberq səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edərək, Azərbaycanda görülən işlərdən məmnunluq duyduğunu, Avropa Şurasının dəstəyi ilə ölkəmizdə həyata keçirilən demokratik islahatlar prosesində polis orqanlarının bundan sonra da fəal iştirak edəcəyinə əmin olduğunu bildirmişdir.

Görüşdə bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN BMT-NİN QADINLARIN VƏZİYYƏTİ ÜZRƏ KOMİSSİYASININ 54-CÜ SESSİYASINDA TƏMSİL OLUNMUŞDUR

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyasının martın 1-dən 4-dək Nyu-Yorkda keçirilmiş 54-cü sessiyasında iştirak etmişdir.

Sessiyanın builki mövzusu "Pekin Platformasının 15 illiyi və Baş Məclisin 23-cü xüsusi sessiyasının yekun sənədinin həyata keçirilməsinin icmalı"na həsr olunmuşdur.

Sessiyanın ilk günü H.Hüseynova Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsinə həsr olunmuş "dəyirmi masa"da çıxış etmişdir.

AQUPDK sədri Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün qarşıda duran məsələləri sadalamış, qaçqın və məcburi köçkünlərin qarşılaşdığı problemlərə toxunaraq Azərbaycanda onlara göstərilən dövlət dəstəyindən söz açmışdır. H.Hüseynova qaçqın və məcburi köçkün qadınların cəmiyyətə reinteqrasiya olunaraq müəyyən peşəyə yiyələnmələri üçün peşə hazırlığı, dil və kompyuter kurslarının təşkil edildiyini bildirmişdir. Bu baxımdan Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti, xüsusilə elm, səhiyyə, təhsil, mədəniyyət və ekologiya kimi sahələrdə həyata keçirdiyi mühüm layihələr və onların müsbət nəticələri barədə geniş məlumat verilmişdir.

Sessiyanın növbəti gün davam edən iclası zamanı H.Hüseynova BMT Baş Məclisinin 2000-ci ildə keçirilmiş "Qadınlar 2000-ci ildə: XXI əsrdə gender bərabərliyi, inkişaf və sülh" adlı 23-cü xüsusi sessiyasından ötən vaxt ərzində əldə edilmiş nailiyyətlər barədə məruzə etmişdir. Komitə sədri son zamanlar ölkəmizdə qanunvericilik və digər sahələrdə aparılan islahatlar barədə iştirakçılara məlumat vermiş, Azərbaycan Prezidenti İlham Əliyevin gender məsələlərinə xüsusi diqqət yetirdiyini bildirmişdir. H.Hüseynova sonuncu bələdiyyə seçkiləri zamanı bələdiyyə üzvü seçilmiş qadınların sayının əvvəlki 4 faizdən 26,5 faizə çatdığını vurğulamışdır.

İclasa müvafiq komissiyanın rəhbəri olan erməni diplomatının sədrlik etməsi Azərbaycanın haqlı mövqeyinin çatdırılması üçün müəyyən çətinlik yaratsa da, nümayəndə heyətimiz ardıcıl və qətiyyətli fəaliyyət göstərərək ölkəmizdə olan real vəziyyət, o cümlədən Ermənistanın hərbi təcavüzü nəticəsində qaçqın düşmüş qadınlarımızın problemləri haqqında iştirakçılara obyektiv və dolğun məlumat verərək bu məsələlərə diqqəti cəlb edə bilmişdir.

Sessiyada iştirakdan əlavə, H.Hüseynova bir sıra rəsmi görüşlər keçirmişdir. AQUPDK

sədri İtaliya Respublikasının Bərabər İmkanlar üzrə naziri xanım Mara Karfanya, Meksika Birləşmiş Ştatları Milli Qadın İnstitutunun prezidenti xanım Mariya del Rosso Qarsia Qaytan və Kuba Qadınlar Federasiyasının prezidenti xanım Ana Milagros Martinez Rielo ilə görüşmüşdür.

Görüşlərdə gender məsələləri sahəsində mövcud qanunvericilik üzrə məlumat mübadiləsi aparılmış və əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd edilmişdir.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLUB

Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı Azərbaycanın dövlət başçısı Amerika Birləşmiş Ştatları Konqresinin Nümayəndələr palatasının xarici əlaqələr komitəsində qəbul edilmiş qərarla bağlı öz etirazını ifadə edərək, onu qəti şəkildə pisləmişdir. Prezident İlham Əliyev bunu ədalətsiz, tarixi həqiqətləri kobudcasına təhrif edən, bölgədə gərginliyin artmasına xidmət edə biləcək bir qərar kimi xarakterizə etmişdir. O vurğulamışdır ki, Azərbaycan həmişə olduğu kimi Türkiyənin yanındadır və Türkiyəyə tam dəstək verməkdə davam edəcəkdir. Azərbaycan Prezidenti əmin olduğunu bildirmişdir ki, tarixin müxtəlif dövrlərində Türkiyə və Azərbaycan xalqına qarşı soyqırımı törətmiş ermənilərin tarixi saxtalaşdırmaq cəhdləri dünya ictimaiyyəti tərəfindən qəbul edilməyəcək və uğursuzluğa düçar olacaqdır.

Türkiyə Prezidenti öz növbəsində Azərbaycan Prezidentinin bu mövqeyini yüksək qiymətləndirərək minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı ikitərəfli münasibətlər və bölgədəki vəziyyətlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN DÖVLƏTİ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINA XÜSUSİ ÖNƏM VERİR

Azərbaycanda səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammerberq martın 5-də Milli Məclisdə parlamentin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidovla görüşmüşdür.

Səməd Seyidov Azərbaycanda həyata keçirilən islahatlar, iqtisadi inkişaf, insan hüquqlarının müdafiəsi sahəsində görülmüş işlər, ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin icra vəziyyəti barədə ətraflı məlumat vermişdir. O demişdir ki, Azərbaycan dövləti insan hüquqlarının qorunmasına çox böyük önəm verir. Amma bəzi problemlər, xüsusən də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu istiqamətdə ciddi maneə yaratmışdır. Münaqişə nəticəsində bir milyondan çox insanın hüquqları kobud surətdə pozulmuşdur.

Komitə sədri Azərbaycan dövlətinin bu məsələ ilə bağlı haqlı mövqeyini bir daha diqqətə çatdırmış, münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun

Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü vurğulamışdır.

Tomas Hammerberq Azərbaycana səfəri çərçivəsində Bakıda və Naxçıvanda keçirdiyi görüşlərdən danışmışdır. Bildirmişdir ki, görüşlərdə insan hüquqları, mətbuat azadlığı, hüquq mühafizə orqanlarının fəaliyyəti, vətəndaş cəmiyyətinin inkişafı və digər məsələlər ətrafında geniş, səmərəli fikir mübadiləsi aparılmışdır.

Komissar Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsi nəticəsində insan hüquqlarının pozulması faktını qəbul etdiyini bildirmiş və demişdir ki, qurum problemin həlli ilə bağlı səylərini artırmaq fikrindədir.

T.Hammerberq səfərin yekunlarına dair yekun hesabat hazırlanacağını bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

Martın 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) birgə bəyanat yaymışlar.

Bəyanatda bildirilir ki, həmsədrlər Parisdə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşərək, işçi sessiya keçirmişlər. Görüşdə danışıqların hazırkı mərhələsi qiymətləndirilmiş və 2009-cu ilin dekabr və 2010-cu ilin yanvar aylarında həmsədrlər tərəfindən təqdim edilmiş Madrid prinsiplərinin yenilənmiş variantına Azərbaycan və Ermənistan tərəflərinin münasibəti nəzərdən keçirmişlər.

Bəyanatda, həmçinin qeyd edilir ki, regiona səfər etməzdən öncə, müzakirələr aparmaq üçün həmsədrlər bu ayın sonunda Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanla görüşməyi planlaşdırırlar.

MƏRKƏZİ BANKIN SƏDRİ BVF MİSSİYASININ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mərkəzi Bankın sədri Elman Rüstəmov Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan üzrə missiyasının rəhbəri Nienke Oomesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə makroiqtisadi və bank sektorundakı vəziyyətlə bağlı yekun görüş keçirmişdir.

Görüşdə BVF-nin missiyasının rəhbəri səfərin nəticələri barədə danışmışdır. Demişdir ki, Azərbaycan iqtisadiyyatı qlobal maliyyə böhranının təsirlərindən yaxşı qorunmuşdur. Ölkənin rəsmi orqanları böhrana uğurlu reaksiya vermişlər.

Qonaq Mərkəzi Bankın da antiböhran fəaliyyətini müsbət qiymətləndirmişdir. Vurğulanmışdır ki, qurum mübadilə məzənnəsini sabit saxlamaqla və bank sisteminə likvidlik inyeksiya etməklə maliyyə sabitliyini uğurla qorumuşdur. Məzənnənin sabitliyi inflyasiya səviyyəsini azaltmağa, dollarlaşmadakı müvəqqəti artımı səngitməyə və ev təsərrüfatları və bankların balanslarına neqativ təsirlərin qarşısını almağa imkan vermişdir.

Görüşdə Mərkəzi Bankın sədri missiyanın rəyinə münasibət bildirərək qeyd etmişdir ki,

2009-cu ilin I rübündə ölkədə makroiqtisadi sabitliyin pozulması riskinin artdığı bir şəraitdə milli valyutanın sabitliyinin təmin edilməsi Mərkəzi Bankın antiböhran siyasətinin aparıcı elementi olmuşdur. Qlobal böhranın təsirləri və qonşu ölkələrdəki devalvasiyalarla bağlı psixoloji təzyiq şəraitində Mərkəzi Bank soyuqqanlılıq nümayiş etdirmiş və manatın sabitliyini qorumuşdur. Manatın sabitliyinin təmin edilməsi müəyyən resurslar tələb etsə də, 2009-cu ildə ölkənin strateji valyuta ehtiyatları artmaqda davam etmişdir. Tədiyə balansının müsbət saldosu manatın məzənnəsinin sabit qalmasının fundamental amili olmuşdur. Məhz tədiyə balansının profisitli olduğunu və valyuta bazarında yaranmış gərginliyin müvəqqəti xarakter daşıdığını nəzərə alaraq Mərkəzi Bank manatın devalvasiyasına yol verməməyi məqsədəuyğun hesab etmişdir. Toplanmış valyuta ehtiyatları hesabına manatın məzənnəsinin sabitliyinin təmin olunması ikinci rübdən başlayaraq valyuta bazarındakı psixoloji gərginliyi tam aradan qaldırmışdır.

Manatın məzənnəsinin sabitliyi idxalın və daxili istehsalda istifadə olunan xarici mənşəli əmtəələrin kəskin bahalaşmasının qarşısını almış, habelə əhalinin əmanətlərinin dəyərsizləşməsinin, xarici valyutada borc yükünün artmasının, manata etimadın azalmasının və iqtisadiyyatda yüksək dollarlaşmanın qarşısını almışdır. Daxili istehlak bazarında idxalın xüsusi çəkisinin əhəmiyyətli olması şəraitində yeridilmiş məzənnə siyasəti 2009-cu ildə orta illik inflyasiyanın 1,5 faiz səviyyəsinə düşməsində mühüm rol oynamışdır. Bununla belə, ötən ilin yekunu üzrə iqtisadi artım üçün məqbul sayılmayan deflyasiyaya yol verilməmişdir. İnflyasiyanın aşağı səviyyəsi və çoxtərəfli məzənnənin əlverişli olması ölkənin rəqabət qabiliyyətliliyinin qorunmasına da imkan vermiş, il ərzində qeyri-neft sektoru üzrə manatın çoxtərəfli real məzənnəsi 3,5 faiz ucuzlaşmışdır.

E.Rüstəmov diqqətə çatdırmışdır ki, xarici maliyyə mənbələrinin azalması şəraitində Mərkəzi Bankın vəzifələrindən biri iqtisadiyyatın pula olan tələbatının ödənilməsi olmuşdur. Bunun üçün qurum pul siyasətini radikal yumşaltmış, yeni qanunvericilik bazası əsasında iqtisadiyyata ümumi daxili məhsulun 5 faizi səviyyəsində birbaşa likvidlik dəstəyi göstərmişdir. Mərkəzi Bankın inyeksiyaları pul kütləsinin azalmasının qarşısını almış, bankların maliyyə dayanıqlığını və iqtisadi aktivliyini qorumuş, əhəmiyyətli iri müəssisələrin xarici borc ödənişinə və istehsal-investisiya fəaliyyətinə zəruri dəstək təmin edilmişdir.

Vurğulanmışdır ki, Mərkəzi Bankın optimal antiböhran tədbirləri qlobal maliyyə böhranının bank sektoruna təsir kanallarını məhdudlaşdırmış və sektorun yaranmış yeni şəraitə daha hazırlıqlı daxil olmasını təmin etmişdir. Böhranaqədərki dövrdə bankların kapitalizasiyası və maliyyə ehtiyatlanması, xarici borcların tənzimlənməsi və risk menecment istiqamətində xüsusi tədbirlər paketi icra olunmuşdur. Böhran dövründə isə, banklara likvidlik, aktivlərin keyfiyyətinin qorunması və digər istiqamətlərdə dəstək göstərilmişdir. Nəticədə dünyanın əksər ölkələrindən fərqli olaraq Azərbaycanın bank sektorunda hər hansı iflas və xüsusi gərginlik halı qeydə alınmamış, sektor öz ölçülərini və sabitliyini qorumuşdur.

Beləliklə, ölkə öz resursları ilə böhranın öhdəsindən gəlmiş, qlobal maliyyə böhranı və ressesiyaya baxmayaraq, Azərbaycan iqtisadiyyatının müvazinəti qorunmuş, iqtisadiyyatda sabitlik və inkişaf dinamikası davam etmişdir.

Görüşdə perspektiv siyasət hədəfləri müzakirə olunarkən BVF-nin missiyası yaxın gə-

ləcəkdə Mərkəzi Bankın məzənnəni sabit saxlamaq niyyətini dəstəklədiyini qeyd etmişdir. Bununla belə, BVF ekspertləri hesab edirlər ki, iqtisadiyyatın diversifikasiyası və beynəlxalq kapital bazarlarına inteqrasiyası artdıqda məzənnə rejiminin çevikliyi də artırılmalıdır. Görüşdə missiya üzvləri məzənnə çevikliyinin artırılmasının uyğun müddətləri və yolları barədə konstruktiv dialoqu davam etdirməyə hazır olduqlarını bildirmişlər.

BVF missiyası Mərkəzi Bank tərəfindən bank sisteminin konsolidasiyası planlarına da müsbət münasibət bildirmişdir. Belə ki, Mərkəzi Bank bank sektorunun kapital mövqeyinin daha da gücləndirilməsinə, sabitliyinin və sağlamlığının qorunmasına, həmçinin, daha keyfiyyətli və etibarlı bank xidmətlərinin təmin edilməsinə nail olunmasını qarşısına məqsəd qoymuşdur.

LİVİYA-AZƏRBAYCAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Martın 8-də Liviyanın Tripoli şəhərində Azərbaycan Respublikası Hökuməti və Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi Hökuməti arasında Müştərək Komissiyanın 2-ci iclası çərçivəsində Liviya-Azərbaycan biznes forumu keçirilmişdir.

İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Tripoli Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının təşkilatçılığı ilə keçirilmiş biznes forumda Azərbaycan tərəfdən dövlət rəsmiləri ilə yanaşı, 10-a yaxın şirkətin nümayəndəsi iştirak etmişdir. Liviyanı isə dövlət qurumlarının nümayəndələri, müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları təmsil etmişlər.

Forumda Tripoli Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının, Liviya Ticarət Palatasının nümayəndələri çıxış etmiş, AZPROMO tərəfindən Azərbaycanın biznes və investisiya imkanları barədə təqdimat keçirilmişdir. Tədbir çərçivəsində, həmçinin Azərbaycan və Liviya iş adamları arasında ikitərəfli görüşlər keçirilmiş, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

Forumdan sonra Liviyanın Mənzil və İnfrastruktur Layihələri üzrə Departamentində Azərbaycan iş adamları ilə görüş keçirilmişdir.

LONDONDA "BÖYÜK BRİTANİYA AZƏRBAYCANDA" TİCARƏT-İNVESTİSİYA FORUMU KEÇİRİLMİŞDİR

Böyük Britaniyanın biznes aləmi martın 8-də Londonda keçirilən "Böyük Britaniya Azərbaycanda" ticarət-investisiya forumu çərçivəsində Azərbaycan iqtisadiyyatının investisiya imkanları ilə tanış olmuşdur. Forum Yaxın Şərq Assosiasiyasının (MEA) və Azərbaycan Beynəlxalq Bankının (ABB) dəstəyi ilə təşkil olunmuşdur.

Yaxın Şərq Assosiasiyasının baş direktoru Maykl Tomas bildirmişdir ki, Azərbaycan regionun strateji ölkəsidir, hazırda Britaniyanın biznes aləminə məlum olan və neft və qazdan daha çox imkanlara malikdir.

M.Tomas forumun açılışında demişdir: "Britaniya biznesmenləri və sərmayədarları Azərbaycanın sənaye və kommersiya sektorlarındakı bütün imkanlar barədə məlumat əldə edəcəklər. London Sitisi maliyyə xidmətlərinin göstərilməsi sahəsində dünyada li-

derdir. Odur ki, Böyük Britaniya və Azərbaycan arasında ticarət və investisiyalara yardım məqsədi ilə bütün aparıcı bankir və iş adamlarının toplaşmaları üçün bura son dərəcə əlverişli yerdir".

Azərbaycan-Britaniya Biznes Şurasının həmsədri lord Gilford Hauelin fikrincə, bu gün Britaniya sərmayədarlarının qarşısında açılan imkanları nəzərə alsaq, ölkələrimiz arasındakı münasibətlərin gələcəyi energetika məsələləri ilə müqayisədə daha genişdir.

Azərbaycan-Britaniya Biznes Şurasının həmsədri, ABB-nin idarə heyətinin sədri Cahangir Hacıyev demişdir: "Ümidvarıq ki, ötən ilin sentyabrında Londonda yaradılmış Böyük Britaniya-Azərbaycan Biznes Şurası iki ölkənin işgüzar münasibətlərində yaranmış boşluqları aradan qaldıracaq və bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Onun sözlərinə görə, lord-merin ötən ilin iyulunda Bakıya səfəri həmin münasibətlərin inkişafına xeyli dərəcədə təsir etmişdir. C.Hacıyev demişdir: "Ümidvarıq ki, siz paytaxtımıza və regionlarımıza bir daha səfər etmək dəvətimizi qəbul edəcəksiniz". Onun sözlərinə görə, MEA-nın Azərbaycana töhfəsi və buradakı fəaliyyəti işgüzar münasibətlərin möhkəmlənməsində dönüş nöqtəsi olmuş, Londonun Azərbaycanın iqtisadi uğurlarına töhfəsi isə əhəmiyyətli və böyükdür.

C.Hacıyev demişdir: "Biz "neft azarının" "neft rifahına" çevrilməsi və regionumuzun iqtisadiyyatının bərpa olunması üçün səylər göstəririk".

Onun sözlərinə görə, iqtisadiyyatın düşünülmüş şəkildə idarə olunması və dövlətimizin başçısının yeritdiyi iqtisadiyyatın şaxələndirilməsi siyasəti sayəsində Azərbaycan maliyyə böhranından qonşu ölkələrə nisbətən daha ağrısız çıxmışdır. Çünki bütün bunlar hazırda iqtisadi inkişafın ikinci mərhələsinə keçid üçün yaxşı imkanlar, habelə həmin prosesin möhkəmlənməsi üçün iqtisadi və siyasi sabitlik yaratmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏRŞAD ÖMƏR İSMAYILI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da İraqın ölkəmizdəki səfiri Ərşad Ömər İsmayılı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Ərşad Ömər İsmayılın Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini vurğuladı. İraqda Parlament seçkilərinin uğurla keçməsi münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev əlaqələrimizin növbəti mərhələdə də daha fəal olacağına ümidvar olduğunu bildirdi. Səfirə uğurlar arzulayan dövlətimizin başçısı əminliklə qeyd etdi ki, diplomat Azərbaycan və İraq xalqları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində gələcəkdə də fəaliyyətini davam etdirəcəkdir.

İraqın ölkəmizdəki səfiri Ərşad Ömər İsmayıl Azərbaycandakı diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Azərbaycan xalqının timsalında yaxşı dost qazandığını deyən

diplomat gələcək fəaliyyəti dövründə də xalqlarımız arasında əlaqələrin inkişaf etdirilməsi işində səylərinin əsirgəməyəcəyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA PARLAMENTİNİN MÜDAFİƏ KOMİTƏSİNİN SƏDR MÜAVİNİ, NATO PARLAMENT ASSAMBLEYASININ SİYASİ KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Almaniya Parlamentinin müdafiə komitəsinin sədr müavini, NATO Parlament Assambleyasının Siyasi Komitəsinin sədri Karl Lamers ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Almaniya arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluq ifadə olunmuş, əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Azərbaycanın regiondakı rolu, Avropa və Avroatlantik institutları ilə əməkdaşlığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair aparılan danışıqlar prosesi barədə məlumat vermişdir.

XARİCİ İŞLƏR NAZİRİ ASİYADA QARŞILIQLI ƏLAQƏLƏR VƏ ETİMADYARATMA TƏDBİRLƏRİNƏ DAİR KONFRANSIN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Asiyada qarşılıqlı əlaqələr və etimadyaratma tədbirlərinə dair konfransın (Conference on interaction and confidence building measures in Asia - CİCA) icraçı direktoru, səfir Dulat Bakişev ilə görüşmüşdür.

Azərbaycanın təşkilatın yaranmasında böyük rol oynadığını və qurumun bugünkü fəaliyyətinə mühüm töhvə verdiyini deyən səfir D.Bakişev, təşkilatın fəaliyyəti və perspektivləri barədə ətraflı məlumat vermişdir.

Nazir E.Məmmədyarov CİCA-nın Asiya regionunda qarşılıqlı etimadın və əlaqələrin intensivləşməsi sahəsində gördüyü işləri yüksək qiymətləndirərək, bu xüsusda səylərin artırılmasının vacibliyini vurğulamış, habelə Azərbaycanın qurumla əməkdaşlığı məsələlərinə toxunmuşdur.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

TÜRKİYƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN SAHİL MÜHAFİZƏSİ KOMANDANININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANA SƏFƏRDİ

Azərbaycanın Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi rəisinin dəvəti ilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Sahil Mühafizəsinin komandanı, vitse-admiral İzzət Artuncun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir.

Martın 9-da türkiyəli qonaqlar Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin

Quliyevlə görüşmüşlər.

Görüşdə Azərbaycanın Dövlət Sərhəd Xidməti və Türkiyənin aidiyyəti dövlət qurumları arasında əməkdaşlığın hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparılmış, hər iki ölkənin sahil mühafizələri arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanmış, əməkdaşlığın gələcək perspektivləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN-LİVİYA MÜŞTƏRƏK KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 7-dən 9-dək Liviyanın paytaxtı Tripolidə Azərbaycan Respublikası hökuməti və Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi hökuməti arasında Müştərək Komissiyanın ikinci iclası keçirilmişdir.

İclasda ölkəmizi komissiyaya Azərbaycan tərəfdən sədrlik edən xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Liviyanın nümayəndə heyətinə isə Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi katibinin Asiya məsələləri üzrə müavini Məhəmməd Ömər əl-Barrani rəhbərlik etmişdir.

M.əl-Barrani Liviya İnqilabının rəhbəri, Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin başçısı Müəmmər əl-Qəzzafinin Azərbaycan Prezidenti İlham Əliyevə xoş arzularını və səmimi salamlarını çatdırmışdır. M.əl-Barrani Liviya dövlətinin Azərbaycan ilə əməkdaşlığına xüsusi önəm verdiyini və bu əlaqələrin xüsusilə BMT, İKT və digər beynəlxalq təşkilatlar çərçivəsində möhkəmləndiyini qeyd etmişdir. Liviyanın bir çox istiqamətlərdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayələrin təşviqi, energetika, sənaye, təhlükəsizlik, tikinti, kənd təsərrüfatı, təhsil, səhiyyə, idman, mədəniyyət və turizm sahələrində Azərbaycan ilə əməkdaşlığa hazır olduğunu bildirən M.əl-Barrani hər iki ölkənin bu əməkdaşlıqdan faydalanacağına əminliyini bildirmişdir.

Azərbaycan xarici işlər nazirinin müavini X.Xələfov Prezident İlham Əliyevin Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin başçısı Müəmmər əl-Qəzzafiyə və onun xalqına səmimi salamlarını çatdırmış, komissiyanın iclasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmişdir.

Nazir müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin haqlı mövqeyinin Liviya tərəfindən dəstəklənməsinin yüksək qiymətləndirildiyini vurğulamışdır.

X.Xələfov komissiyanın 2008-ci ilin noyabrında Bakıda təşkil olunmuş ilk iclasından sonra ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq sahəsində müəyyən addımların atıldığını, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirildiyini, habelə Liviyada fəaliyyət göstərməkdə maraqlı olan bir neçə Azərbaycan şirkətinin qeydiyyatdan keçdiyini bildirmişdir. Hər iki ölkənin ikitərəfli əməkdaşlıq potensialının mövcudluğunu qeyd edən nazir müavini komissiyanın hazırkı iclasının Azərbaycan ilə Liviya arasında əməkdaşlığın genişləndirilməsinə əhəmiyyətli töhfə verəcəyini bildirmişdir.

İclasın yekununda müzakirə olunmuş məsələləri və gələcək əməkdaşlıq istiqamətlərini əhatə edən Protokol imzalanmışdır. Bundan əlavə, həmsədrlər tərəfindən Azərbaycan

Respublikası hökuməti və Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslərin viza tələbindən azad olunması haqqında, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Böyük Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin Xarici Əlaqələr və Beynəlxalq Əməkdaşlıq məsələləri üzrə Ümumxalq Komitəsi arasında siyasi məsləhətləşmələr haqqında anlaşma memorandumları imzalanmışdır.

Müştərək Komissiyanın üçüncü iclasının 2011-ci ildə Bakıda keçirilməsi barədə razılıq əldə olunmuşdur.

X.Xələfov, həmçinin Liviyanın Baş naziri əl Bağdadi Əli əl Mahmudi ilə görüşmüşdür. Görüşdə ikitərəfli münasibətlər və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Komissiyanın iclası çərçivəsində Azərbaycan-Liviya biznes forumu keçirilmişdir.

POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Martın 9-da Polşanın Baş naziri Donald Tusk Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev adına Beynəlxalq hava limanında hörmətli qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Polşalı həmkarını Baş nazir Artur Rasizadə və digər rəsmi şəxslər qarşıladılar. Milli geyimli uşaqlar Polşanın Baş nazirinə gül-çiçək dəstəsi təqdim etdilər.

Polşanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Qarşılanma mərasimindən sonra hava limanının ali qonaqlar üçün salonunda Donald Tusk və Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.

POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK FƏXRİ XİYABANI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

Polşanın Baş naziri Donald Tuskun başçılıq etdiyi nümayəndə heyəti martın 10-da Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üstünə gül dəstələri düzülmüşdür.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə hörmət əlaməti olaraq "Əbədi məşəl" abidəsi önünə əklil qoyulmuşdur.

Qonaqlar Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etmişlər.

POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK BİBİHEYBƏT BUXTASINDA MÜHƏNDİS PAVEL POTOTSKİNİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

Martın 10-da Polşa Respublikasının Baş naziri Donald Tusk Bakının Bibiheybət buxtasında tanınmış polşalı mühəndis, Azərbaycanda dənizdə neft hasilatının banisi Pavel Pototskinin məzarını ziyarət edərək əklil qoymuşdur.

Azərbaycanda neft sənayesinin, o cümlədən dəniz yataqlarından neft hasilatının tarixi, bu işdə əhəmiyyətli rol oynamış istedadlı mühəndis Pavel Pototskinin fəaliyyəti haqqında qonağa məlumat verildi. Bildirildi ki, 1901-ci ildə dünyada çıxarılan neftin yarıdan çoxu (10,75 milyon ton), Rusiyada isə hasilatın 95 faizi Azərbaycanın payına düşürdü. Hələ 1909-cu ildə Xəzər dənizinin Bibiheybət buxtasında neft mədəni yaratmaq təşəbbüsləri olmuşdu. Müxtəlif layihələr nəzərdən keçirilmiş, lakin onların heç biri reallaşmamışdı. 1922-ci ildə bu işə yenidən başlanılır və ona rəhbərlik Pavel Pototskiyə tapşırılır. P.Pototski 1919-cu ildə görmə qabiliyyətini itirsə də, çox təcrübəli mütəxəssis idi. Onun layihəsi və rəhbərliyi ilə buxtanın 300 hektar sahəsi qurudulmuş, 1923-cü ilin aprelində ilk quyu gündə 800 ton neft hasilatı ilə istismara verilmişdir.

Pavel Pototski özünün məhz burada dəfn olunmasını vəsiyyət etmişdi.

Onun məzarüstü abidəsində polyak, Azərbaycan və ingilis dillərində bu sözlər yazılmışdır: "Polşa mühəndisi Pavel Pototski (1879-1932). Bibiheybət buxtasını qurudaraq, dünyada ilk dəfə dənizin dibindən neft çıxarılmasına nail olmuşdur".

Polşanın Baş naziri Donald Tusk yaxınlıqdakı ərazidə neft buruqlarının iş prosesini izlədi.

AZƏRBAYCAN VƏ POLŞA BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ

Polşa Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanın Avropa strukturlarına inteqrasiya etmək səylərini dəstəkləyəcəkdir. Polşanın Baş naziri Donald Tusk bu fikri martın 10-da Azərbaycan hökumətinin başçısı Artur Rasizadə ilə geniş tərkibdə görüşdə bəyan etmişdir.

Geniş tərkibdə görüşdən əvvəl hökumət başçıları təkbətək görüşmüşlər.

Azərbaycanın Baş naziri ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmiş və bildirmişdir ki, Polşa hökumətinin başçısının bu səfəri ölkələrimiz arasında əlaqələrin genişlənməsinə xidmət edəcəkdir. Artur Rasizadə demişdir ki, Azərbaycan Polşanın Avropa İttifaqı ilə əlaqələri dərinləşdirmək təcrübəsinə maraq göstərir.

İqtisadi sahədə Azərbaycan-Polşa əməkdaşlığının genişlənməsi üçün böyük potensial imkanların olduğunu bildirən A.Rasizadə demişdir ki, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın qəbul etdiyi qərarların həyata keçirilməsi bu istiqamətdə mühüm rol oynayacaqdır.

Polşa nümayəndə heyətinin üzvlərinə Azərbaycan iqtisadiyyatının uğurlu inkişafı barədə, habelə ölkəmiz üçün əsas problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verilmişdir. Azərbaycanın Baş naziri qeyd etmişdir ki, bu problemin tezliklə həll edilməsi regiondakı bütün ölkələrin, o cümlədən Azərbaycan

ərazisinin 20 faizini işğal etmiş təcavüzkar Ermənistanın da xeyrinə olar.

Donald Tusk onu Azərbaycana rəsmi səfərə dəvət etdiyinə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirmişdir. O qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı kimi, onun ölkəsinin iqtisadiyyatı da qlobal maliyyə böhranının kəskin nəticələrini hiss etməmişdir. Qonaq Azərbaycan paytaxtında müşahidə etdiyi tikinti və abadlıq işlərinin miqyasını yüksək qiymətləndirmişdir.

Polşanın Baş naziri "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanı dəstəkləməkdən söhbət açaraq bildirmişdir ki, bu, ölkəmizə, o cümlədən Aİ ölkələri ilə viza rejiminin sadələşdirilməsi sahəsində böyük səmərə verə bilər.

Görüş başa çatandan sonra Artur Rasizadə və Donald Tusk mətbuat üçün bəyanatlarla çıxış etmişlər. Azərbaycan hökumətinin başçısı Azərbaycan-Polşa əlaqələrinin tarixindən söhbət açaraq qeyd etmişdir ki, Azərbaycanda milli sənayenin, mədəniyyətin inkişafına böyük töhfə vermiş Polşa ziyalılarının nümayəndələrinin - mühəndis Pavel Pototski, memar Yuzef Ploşka və başqalarının adlarını hörmətlə yad edirlər. O, Polşanın iş adamlarını ölkəmizin qeyri-neft sektorunun inkişafı üzrə investisiya layihələrində fəal iştirak etməyə çağırmışdır.

Donald Tusk ölkələrimiz arasında əməkdaşlığın müxtəlif aspektləri barədə, Azərbaycan hökumətinin başçısı ilə aparılmış danışıqlardan məmnun olduğunu bildirmişdir.

MİLLİ MƏCLİSİN SƏDRİ POLŞANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Polşa Respublikasının Baş naziri Donald Tuskun başçılığı ilə nümayəndə heyəti martın 10-da Milli Məclisə gəlmişdir.

Polşanın Baş naziri Milli Məclisin iclas zalına baxmışdır.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Polşanın Baş naziri Donald Tusk arasında görüş olmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədov bu cür yüksək səviyyəli səfərlərin ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafına töhfə verdiyini bildirmişdir. Ölkələrimiz arasında əlaqələrin qədim tarixindən danışan O.Əsədov hələ ötən əsrdə polşalı iş adamlarının, neft mütəxəssislərinin Azərbaycanda işlədiklərini, yaşadıqlarını qeyd etmiş, müstəqilliyimizin bərpasından sonra münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirmişdir. Milli Məclisin sədri demişdir ki, münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının müstəsna xidmətləri vardır. Dövlət başçılarının qarşılıqlı səfərləri, keçirdikləri səmərəli görüşlər hər iki tərəfə fayda gətirmiş, əməkdaşlığın inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən Oqtay Əsədov demişdir ki, rəsmi Bakı problemin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Milli Məclisin sədri demişdir: "Bu gün dünyada 1500-dən çox etnik münaqişə mövcuddur. Əgər onların hər birinə dövlət yaratmağa imkan verilsə, o zaman dünyanın siyasi xəritəsi yenidən cızılmalıdır. Azərbaycan öz ərazisində ikinci bir erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir".

O.Əsədov münaqişənin həllində nümayiş etdirdiyi mövqeyə, Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyinə görə Polşa dövlətinə və hökumətinə minnətdarlıq etmiş, bu siyasətin gələcəkdə davişməyəcəyinə ümidvar olduğunu bildirmişdir.

Milli Məclisin sədri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolundan danışmış, ölkəmizin Odessa-Brodı-Plotsk-Qdansk layihəsini də dəstəklədiyini qeyd etmişdir.

Azərbaycana səfərindən məmnun qaldığını deyən Donald Tusk bildirmişdir ki, Polşa-Azərbaycan dostluğunun dərin kökləri vardır. O, dost ölkələrimiz arasında əlaqələrin inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini bildirmişdir.

Ölkəmizin Avropanın enerji təminatında mühüm rolunu vurğulayan Donald Tusk Azərbaycanın son illər əldə etdiyi uğurları yüksək qiymətləndirmişdir. Qonaq demişdir ki, Azərbaycanda əldə olunmuş bütün nailiyyətlər, qlobal maliyyə böhranının ölkəmizə çox az təsir göstərməsi həyata keçirilən düzgün siyasətin nəticəsidir.

Polşanın Baş naziri dövlətlər və xalqlar arasında parlamentlərin rolunu qeyd etmiş, qanunverici orqanların əməkdaşlığını, xüsusilə də dostluq qruplarının fəaliyyətini yüksək dəyərləndirmişdir. Baş nazir Polşa ilə Azərbaycan arasındakı əlaqələrin Avropa İttifaqı, xüsusən də, "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində inkişaf etdirilməsinin vacibliyini qeyd etmişdir. O demişdir ki, Polşa yaxın vaxtlarda Avropa İttifaqına sədrlik edəcək və bu dövrdə Azərbaycan ilə qurum arasında münasibətlərin genişlənməsinə, Azərbaycanın Avropaya inteqrasiyasına xüsusi diqqət yetiriləcəkdir.

Hörmətli qonaq sonda Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN BAŞ NAZİRİ DONALD TUSKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Polşa Respublikasının Baş naziri Donald Tuskun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev iqtisadi sahədə də əməkdaşlığın intensivləşdirilməsinin zəruriliyini qeyd etdi. Azərbaycanın Polşa ilə əlaqələri müxtəlif sahələrdə genişləndirməkdə maraqlı olduğunu deyən dövlətimizin başçısı Baş nazirin ölkəmizə səfərinin əməkdaşlıq üçün yeni sahələrin müəyyən edilməsi, birgə fəaliyyət üçün əlavə tədbirlərin müzakirəsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.

Polşa Respublikasının Baş naziri Donald Tusk ölkəmizə səfəri zamanı Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət etdiyini vurğulayaraq bu yerlərin Azərbaycanın tarixi yaddaşı üçün mühüm və önəmli olduğunu dedi. O, ölkələrimizin tarixində bizi bir-birimizlə sıx birləşdirən məqamların olduğunu da vurğuladı. Donald Tusk əmin olduğunu bildirdi ki, onun səfəri Polşa ilə Azərbaycan arasında iqtisadi sahədə konkret layihələrin müəyyənləşməsi və əlaqələrimizin daha da genişləndirilməsi baxımından səmərəli olacaq-

dır. Baş nazir ikitərəfli münasibətlərimizin Avropa İttifaqı çərçivəsində genişlənməsinin əhəmiyyətini də vurğuladı.

HÖRMƏTLİ QONAĞIN ŞƏRƏFİNƏ

Martın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Baş naziri Donald Tuska işçi nahar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da RWE şirkətinin idarə heyətinin sədri Yurgen Qrosmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Almaniyanın RWE şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında Qarşılıqlı Anlaşma Memorandumunun imzalanması münasibətilə qonağı təbrik etdi. Energetika sahəsində Azərbaycanın 15 ildən artıq beynəlxalq əməkdaşlıq təcrübəsinə malik olduğunu bildirən Prezident İlham Əliyev bu müddət ərzində bütün layihələrin uğurla icra olunduğunu qeyd etdi.

RWE şirkətinin idarə heyətinin sədri Yurgen Qrosman Azərbaycan Dövlət Neft Şirkəti ilə Qarşılıqlı Anlaşma Memorandumunun imzalanmasını gələcək əməkdaşlığın yaxşı başlanğıcı kimi qiymətləndirdi və əməkdaşlığımızın uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

XARİCİ İŞLƏR NAZİRİ İRAQIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 10-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İraqın ölkəmizdəki səfiri Ərşad Ömər İsmayıl ilə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşmüşdür.

Görüşdə Ə.Ö.İsmayıl Azərbaycanda İraqın səfiri olmasından məmnunluğunu bildirmişdir. Azərbaycanda işlədiyi dövrdə ölkələrimiz arasında iqtisadiyyat, təhsil, mədəniyyət, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin daha da genişlənməsi və inkişafı üçün fəaliyyət göstərdiyini deyən səfir bu istiqamətdə XİN ilə əməkdaşlığın faydalı olduğunu qeyd etmişdir.

Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan səfir fəaliyyəti müddətində göstərilmiş dəstəyə və diqqətə görə minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov səfir Ə.Ö.İsmayıla xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

ARDNŞ VƏ ALMANİYANIN "RWE DEA" ŞİRKƏTİ ARASINDA QARŞILIQLI ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Martın 10-da Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Almaniyanın "RWE Dea" şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Naxçıvan" perspektiv strukturunun Kəşfiyyatı, İşlənilməsi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişin əsas kommersiya prinsip və şərtlərinin razılaşdırılmasına dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır.

ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev bildirmişdir ki, memoranduma əsasən, "Naxçıvan" perspektiv strukturunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü üzrə gələcək danışıqların aparılması üçün "RWE Dea" şirkətinə müstəsna hüquq verilir. "Naxçıvan" perspektiv strukturu Xəzər dənizinin Azərbaycan sektorunda, Abşeron yarımadasından 90 kilometr cənubda, sahildən 55 kilometr aralıda, dənizin 120-750 metrə qədər dərinliklərində, Azərbaycanın zəngin təbii qaz yataqlarından olan "Bahar" və "Bulla dəniz" yataqlarının əhatəsində yerləşir. 1960-cı ildə aparılan seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmiş bu strukturda 1994-cü ildə axtarış qazmasına başlanmışdır. "RWE" şirkəti həmin strukturla bağlı müraciət etmiş və tərəflər arasında danışıqlar başlanmışdır. Aparılmış danışıqlar bugünkü sənədin imzalanmasına zəmin yaratmışdır.

R.Abdullayev qeyd etmişdir ki, "RWE Dea" şirkəti təbii qazın və xam neftin kəşfiyyatı və hasilatı sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq şirkətlərdən biridir. Müasir qazma və hasilat texnika və texnologiyasına malik olan bu şirkət uzun illərdən bəri əldə etdiyi təcrübəni öz fəaliyyətində uğurla tətbiq edir.

"RWE Dea" şirkəti idarə heyətinin sədri Yurgen Qrosman demişdir ki, imzalanmış sənəd qurumun Azərbaycanda fəaliyyət göstərməsi üçün giriş qapısı rolunu oynaya bilər. O, son illər ARDNŞ-nin bütün dünyada uğurla fəaliyyət göstərən şirkət kimi tanındığını söyləmiş, burada aparılan menecment işini yüksək qiymətləndirmişdir.

Sonda ARDNŞ-nin prezidenti Rövnəq Abdullayev və "RWE Dea" şirkəti idarə heyətinin sədri Yurgen Qrosman Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Naxçıvan" perspektiv strukturunun Kəşfiyyatı, İşlənilməsi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişin əsas kommersiya prinsip və şərtlərinin razılaşdırılmasına dair Qarşılıqlı Anlaşma Memorandumunu imzalamışlar.

AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İNDONEZİYA, SİNQAPUR VƏ MALAYZİYADA SƏFƏRDƏ OLMUŞDUR

5-10 fevral tarixlərində fövqəladə hallar naziri Kəmaləddin Heydərovun başçılıq etdiyi nümayəndə heyəti İndoneziya, Sinqapur və Malayziyada işgüzar səfərdə olmuşdur.

Səfər zamanı İndoneziya Respublikası Baş nazirinin xüsusi müşaviri Fillip Yeo, xarici işlər naziri Corc Yeo, energetika və təbii sərvətlər naziri Darvin Zahedi Saleh, daxili işlər nazirinin müavini Aqunq Mulyana, Malayziya xarici işlər nazirinin müavini Datu Lee Çi Leonq ilə görüşlər keçirilmişdir.

Görüşlərdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğu-

lanmış, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Təbii və texnogen mənşəli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində fəaliyyət göstərən bir sıra qurumların rəhbərləri, eləcə də fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı axtarış-xilasetmə işlərinin təşkili üçün zəruri olan xüsusi fərdi mühafizə və yanğın təhlükəsizliyi vasitələrinin, müxtəlif növ yanğınsöndürən və texniki avadanlıqların istehsalı ilə məşğul olan şirkətlərin nümayəndələri ilə də görüşlər keçirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYANIN TORPAQ, NƏQLİYYAT VƏ DƏNİZ İŞLƏRİ ÜZRƏ NAZİRİ ÇANQ CONQ HOANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Koreya Respublikasının torpaq, nəqliyyat və dəniz işləri üzrə naziri Çanq Conq Hoanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Koreyalı nazirin azərbaycanlı həmkarları ilə yaxşı əlaqələr yaradacağına ümidvar olduğunu bildirən dövlətimizin başçısı əməkdaşlığımızı genişləndirmək üçün görüləcək əlavə tədbirlərin müəyyənləşdirilməsi baxımından səfərin əhəmiyyətli olduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanda Koreya ilə birgə fəaliyyəti inkişaf etdirmək üçün böyük planların olduğunu vurğuladı. Artıq Koreyadan olan bir sıra şirkətlərin ölkəmizdə fəal çalışdıqlarını qeyd edən dövlətimizin başçısı onların sayının artacağına ümidvar olduğunu bildirdi.

Koreyanın torpaq, nəqliyyat və dəniz işləri üzrə naziri Çanq Conq Hoan ölkəmizə ilk dəfə səfər etdiyini və burada görülən işlərin ona xoş təsir bağışladığını dedi. Nazir Azərbaycan iqtisadiyyatının sürətli inkişafına Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olunduğunu və dövlət başçısının ölkələrimiz arasında münasibətlərin inkişafına böyük maraq göstərməsinin əhəmiyyətini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, energetika sahəsində əməkdaşlıq və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 11-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan İranın xarici işlər nazirinin müavini Mehdi Səfəri ilə görüşmüşdür.

Tərəflər Azərbaycan ilə İran arasındakı münasibətlərin cari vəziyyəti, mövcud və perspektiv layihələr ətrafında fikir mübadiləsi aparmışlar. Ölkələrimiz arasında bütün sahələrdə və istiqamətlərdə sıx əməkdaşlıq məsələlərinə toxunulmuş, münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyinin müsbət hal olduğu vurğulanmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN NƏQLİYYAT NAZİRLİYİ İLƏ KOREYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ARASINDA BAKI BUXTASI ÜZƏRİNDƏN KÖRPÜNÜN LAYİHƏLƏNDİRİLMƏSİNƏ DAİR QRANT SAZİŞİ İMZALANMIŞDIR

Martın 11-də Azərbaycan Nəqliyyat Nazirliyində Koreya Respublikasının torpaq, nəqliyyat və dəniz işləri üzrə naziri Çanq Conq Hoanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Nəqliyyat naziri Ziya Məmmədov bu səfərin Koreya Respublikası ilə Azərbaycan arasında gündən-günə genişlənən əməkdaşlıq əlaqələrinin daha da inkişafına yeni töhfə verəcəyinə əminliyini bildirmişdir. Diqqətə çatdırılmışdır ki, iki dost ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri son illər əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə şərait yaratmışdır. Bu münasibətlər nəqliyyat sektorunda da xeyli dərinləşmişdir.

Z.Məmmədov demişdir ki, görüş çərçivəsində Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Koreya Beynəlxalq Əməkdaşlıq Təşkilatı (KOICA) arasında Bakı buxtası üzərindən inşa olunacaq körpünün layihələndirilməsinə dair 1,5 milyon ABŞ dolları məbləğində qrant sazişi imzalanacaqdır. Yeni saziş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gündən-günə sürətlənməsinin əyani təzahürüdür və bu münasibətlər digər sahələrlə yanaşı, nəqliyyat sektorunun inkişafı üçün də yeni imkanlar yaradacaqdır.

Ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayan Koreya Respublikasının torpaq, nəqliyyat və dəniz işləri üzrə naziri Çanq Conq Hoan demişdir ki, biz əməkdaşlığımızı daha da dərinləşdirməklə dünya iqtisadi böhranının dövlətlərimizə təsirini azalda bilərik.

Prezident İlham Əliyevin nümayəndə heyətini qəbul etməsindən məmnunluğunu bildirən koreyalı qonaq, ölkəsinin Azərbaycanda yeni mühüm layihələr reallaşdırmaq əzmində olduğunu da diqqətə çatdırmışdır.

Sonra Azərbaycanın Nəqliyyat Nazirliyi ilə Koreya Beynəlxalq Əməkdaşlıq Təşkilatı arasında Bakı buxtası üzərindən inşa olunacaq körpünün layihələndirilməsinə dair qrant sazişi imzalanmışdır. Sənədi Azərbaycan tərəfdən nəqliyyat naziri Ziya Məmmədov və KOICA tərəfdən Koreya Respublikasının ölkəmizdəki səfiri Li Ci-Han imzalamışlar.

BAKIDA XƏZƏRDƏ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ QARŞILIQLI FƏALİYYƏT HAQQINDA SAZİŞİN LAYİHƏSİ MÜZAKİRƏ OLUNUR

Martın 11-də Bakıda "Sərhəd, gömrük xidmətləri və daxili işlər orqanlarının xətti ilə Xəzər dənizində təhlükəsizliyin təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyət haqqında" sazişin layihəsinin müzakirələrinə başlanılmışdır.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çıxışında demişdir ki, ölkəmiz həmişə Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşır. Azərbaycan tərəfi əmindir ki, Xəzər dənizində bərabər təhlükəsizlik mühitinin yaradılması onu tam şəkildə sülh məqsədləri üçün istifadə etməyə, mehriban qonşuluq, dostluq və əməkdaşlıq zonasına çevirməyə imkan yaradacaqdır. Ümummilli lider Heydər Əliyev Aşqabad Zirvə toplantısında qeyd etmişdir ki, Xəzər dənizi mehriban qonşuluq, qarşılıqlı faydalı əməkdaşlıq, dostluq, sülh və təhlükəsizlik dənizi olmalıdır.

Nazir vurğulamışdır ki, Azərbaycan Xəzər regionunda terrorçuluğa və mütəşəkkil cinayətkarlığa, narkotiklərin və silahların qeyri-qanuni dövriyyəsinə qarşı mübarizədə beynəlxalq hüququn prinsipləri və normaları çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi önəm verir.

Xəzər dənizinin bütün region üçün mühüm əhəmiyyət kəsb etdiyini deyən E.Məmmədyarov bildirmişdir ki, bu baxımdan Xəzəryanı dövlətlər etibarlı və təhlükəsiz kommunikasiyaların yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və enerji ehtiyatlarının mənimsənilməsi, o cümlədən regionda sülhün və sabitliyin yaradılması kimi ümumi maraqlara sahibdir.

Nazir demişdir ki, saziş layihəsi sərhəd, gömrük xidmətləri, daxili işlər, fövqəladə hallar, nəqliyyat orqanları və dəniz administrasiyalarının xətti ilə qarşılıqlı əlaqə məsələlərini əhatə etməlidir. Ümid edirik ki, bu görüşdə hazırkı layihə əsasında yekun mətn tərtib olunacaq və bu sənəd gələcəkdə təhlükəsizlik sahəsində Xəzəryanı dövlətlər arasında əməkdaşlığın yaradılması üçün hüquqi əsas kimi qəbul olunacaqdır.

XARİCİ İŞLƏR NAZİRİ QAZAXISTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 11-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qazaxıstan xarici işlər nazirinin müavini Nurlan Yermekbayev ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin cari vəziyyəti, əməkdaşlığın inkişaf perspektivləri, regional və digər məsələlər müzakirə olunmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə toxunan nazir E.Məmmədyarov problemin həlli ilə bağlı ölkəmizin mövqeyi barədə ətraflı məlumat vermişdir.

N.Yermekbayev Qazaxıstanın ATƏT-də sədrliyi dövründə dondurulmuş münaqişələrin tezliklə həllinə dair səylərini artıracağını qeyd edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyini vurğulamışdır.

Görüşdə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BAKIDA "DEMOKRATİK CƏMİYYƏTDƏ MEDİA: BEYNƏLXALQ VƏ MİLLİ TƏCRÜBƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR

Martın 12-də Bakıda İnsan Hüquqlarına dair Beynəlxalq Standartların Təsbiti üzrə Birgə İşçi Qrupun və Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar

Mərkəzinin birgə təşkilatçılığı ilə "Demokratik cəmiyyətdə media: beynəlxalq və milli təcrübə" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Avropa Şurası, ATƏT kimi nüfuzlu beynəlxalq təşkilatların təmsilçilərinin, ABŞ, Avropa və MDB-dən olan ekspertlərin, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin, dövlət rəsmilərinin, Milli Məclisin deputatlarının və jurnalistlərin iştirak etdikləri konfransda mətbuatın hazırkı vəziyyəti, söz azadlığı sahəsində problemlər və onların həlli yolları, eyni zamanda, milli və beynəlxalq təcrübə müzakirə olunmuşdur.

Konfransı açan İnsan Hüquqlarına dair Beynəlxalq Standartların Təsbiti üzrə Birgə İşçi Qrupun üzvü, Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan-Pol Murman tədbirin Azərbaycanda medianın inkişafı baxımından əhəmiyyətli olacağını bildirmişdir.

Konfransda Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Vüqar Əliyev "Azərbaycanın strateji, coğrafi vəziyyəti və müasir sosial, iqtisadi, mədəni inkişafı kontekstində media" mövzusunda çıxış edərək bildirmişdir ki, ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra ölkəmizdə əldə edilmiş nailiyyətlər demokratik təsisatların, xüsusilə də medianın inkişafına böyük töhfələr vermişdir. Məhz ümummilli liderin səyi nəticəsində Azərbaycanda 1998-ci ildə senzuranın ləğv edilməsi demokratiyanın, aşkarlığın inkişafına, KİV-in sərbəst fəaliyyətinə güclü təkan olmuşdur. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında", 2005-ci ildə isə "İnformasiya əldə etmək haqqında" qanunların qəbul edilməsi KİV-in hərtərəfli inkişafına təminat yaratmışdır. KİV-in kəmiyyətinə görə bu gün Azərbaycan MDB ölkələri arasında lider mövqelərdən birini tutur.

Natiq vurğulamışdır ki, ölkədə fikir, söz və məlumat azadlığının daha da inkişaf etdirilməsi məqsədi ilə 2008-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir. Konsepsiyaya uyğun olaraq, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır.

Beynəlxalq konfransda "Azərbaycanda mətbuat: problemlər və onların həlli yolları" mövzusunda çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirmişdir ki, ölkəmiz Avropa Şurasına üzv qəbul olunduqdan sonra media sahəsində də üzərinə götürdüyü öhdəlikləri uğurla yerinə yetirir. Azərbaycanda hər bir şəxs asanlıqla istənilən kütləvi informasiya vasitəsi təsis etmək və öz fikirlərini sərbəst şəkildə ictimaiyyətə çatdırmaq hüququna malikdir. Ə.Amaşov mətbuatın əsas problemi kimi onun iqtisadi dayaqlarının zəifliyini və reklam bazarının yoxluğunu göstərmişdir.

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynov "Azərbaycanda mətbuat azadlığının təkmilləşdirilməsi üzrə yeni qanunvericilik təşəbbüsləri" mövzusunda çıxış edərək demişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələri ölkədə mətbuat azadlığı sahəsində beynəlxalq standartların praktikada tətbiq edilməsinə imkan yaradır. Mətbuat azadlığı və informasiya əldə etmək hüququ ilə bağlı qanunvericilik beynəlxalq standartlara cavab verir. Natiq vurğulamışdır ki, Azərbaycan Konstitusiyasına edilmiş son əlavələr və dəyişikliklərin bir hissəsi məhz ölkəmizdə mətbuat azadlığının daha da inkişaf etdirilməsini nəzərdə tutur.

Digər çıxış edənlər - ispaniyalı senator Manuel Altava Laval, Belçikada fransızdilli RTBF kanalının proqram direktoru Roje Cerard, ABŞ-ın "Cavarocchi Ruscio Dennis" Assosiasiyasının birinci vitse-prezidenti Mark Vith təmsil etdikləri ölkələrdə medianın hazırkı durumundan və bu sahədə mövcud problemlərdən danışmışlar. Medianın inkişaf məsələsinin demokratik dövlətlərdə başlıca vəzifələrdən biri olduğunu vurğulayan natiqlər Azərbaycanda bu sahədə əldə edilmiş uğurları yüksək qiymətləndirmişlər.

Konfransın sonunda qətnamə qəbul edilmişdir.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BOLONYA PROSESİNƏ QOŞULMUŞ ÖLKƏLƏRİN YUBİLEY KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Martın 11-12-də Budapeşt və Vyanada Bolonya prosesinə qoşulmuş ölkələrin təhsil nazirlərinin konfransı keçirilmişdir.

1999-cu ildə əsası qoyulan Bolonya prosesinin 10 illik yubileyinə həsr edilmiş konfransda prosesə qoşulmuş 47 ölkənin təhsil nazirləri qatılmışlar. Konfransda Azərbaycanı təhsil naziri Misir Mərdanovun rəhbərliyi ilə Bakı Slavyan Universitetinin rektoru Kamal Abdulla, Təhsil Nazirliyinin ali və orta ixtisas təhsili şöbəsinin müdiri İlham Mustafayev, beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Azad Axundov və Bakı Slavyan Universitetinin 3-cü kurs tələbəsi Hikmət Babayevdən ibarət nümayəndə heyəti təmsil etmişdir.

İki gün davam edən konfransda Bolonya prosesinin əsas hədəfi olan Avropa Ali Təhsil Məkanı və proses çərçivəsində Avropada həyata keçirilən təhsil islahatları ətrafında fikir mübadiləsi aparılmış, çıxış və məruzələr dinlənilmişdir.

Konfransda Bolonya prosesinin şərtlərini yerinə yetirən Qazaxıstan Avropa məkanında ən nüfuzlu təhsil prosesinə yeni üzv kimi qəbul edilmişdir.

Təhsil naziri Misir Mərdanov bildirmişdir ki, 1999-cu ildə start götürən Bolonya Prosesinin əsas mahiyyəti Avropada ümumi ali təhsil məkanının yaradılmasına nail olmaqdır. Avropa Şurasının Mədəniyyət Konvensiyasını imzalayan və Bolonya prosesinin prinsiplərini öz təhsil sisteminə tətbiq etməyə hazır olan bütün ölkələr bu prosesə qoşula bilər. Avropaya inteqrasiyanı əsas hədəf götürən Azərbaycan artıq 2005-ci ildən Bolonya prosesinə qoşulmuşdur. Proses çərçivəsində Avropada ali təhsil proqramlarının yaxınlaşdırılması, yeni tədris modullarının hazırlanması, tələbə və müəllim heyətinin mobilliyinin təmin edilməsi, biliyin qiymətləndirilməsində kredit sisteminə keçid və digər məsələlər ön planda dayanır.

Təhsil Nazirliyi Bolonya prosesinin Azərbaycanda uğurla həyata keçirilməsi üçün Avropa Şurasının Mədəniyyət, Elm və Təhsil Komitəsi, YUNESKO və Avropa İttifaqının Təhsil Komissiyası ilə sıx əməkdaşlıq edir. Azərbaycan ümumavropa təhsil sisteminə inteqrasiyanın tərkib hissəsi olan Bolonya prosesində iştirakını bundan sonra da uğurla davam etdirəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Slovakiyanın xarici işlər naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Slovakiyanın xarici işlər naziri Miroslav Layçakın ölkəmizə ilk səfərinin uğurlu olacağına ümidvar olduğunu bildirdi və bu səfərin Azərbaycan ilə Slovakiya arasında bir çox sahələrdə səmərəli əməkdaşlıq üçün yaxşı perspektivlər açacağını vurğuladı. Prezident İlham Əliyev bunun üçün qarşılıqlı maraqların və yaxşı potensialın mövcud olduğunu da qeyd etdi. Dövlətimizin başçısı səfər zamanı keçirilən görüşlərin ikitərəfli münasibətlərin inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi baxımından səmərəli olacağına əminliyini ifadə etdi.

Slovakiyanın xarici işlər naziri Miroslav Layçak Azərbaycanın həm regional, həm siyasi, həm iqtisadi, həm də energetika baxımından aparıcı dövlətlərdən biri olduğunu vurğuladı. O, Azərbaycan Prezidentinin regionda gedən proseslərlə bağlı fikirlərinin Slovakiya tərəfi üçün önəmli olduğunu qeyd etdi. Daha sonra nazir bildirdi ki, səfərinin əsas məqsədi ikitərəfli münasibətlərin intensivləşdirilməsindən ibarətdir. Ölkələrimiz arasında siyasi əlaqələrin səviyyəsindən razılığını ifadə edən Miroslav Layçak Slovakiya ilə Azərbaycanın dost ölkələr olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ATƏT Parlament Assambleyasının sədri Joao Suareşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ATƏT Parlament Assambleyasının sədri Joao Suareşin ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirərək bu səfərin əməkdaşlığımızın daha da genişlənməsi və regional inkişafa dair məsələləri müzakirə etmək üçün yaxşı imkan yaratdığını dedi.

ATƏT Parlament Assambleyasının sədri Joao Suareş ölkəmizin bu qurumdakı nümayəndə heyəti ilə səmərəli müzakirələrin aparıldığını vurğuladı. Azərbaycana ötən səfərlərindən keçən dövr ərzində ölkəmizdə əldə edilən böyük inkişaf proseslərinin onda xoş təəssürat oyatdığını vurğulayan ATƏT Parlament Assambleyasının sədri Azərbaycanın öz təbii sərvətlərindən səmərəli şəkildə istifadə edilməsi işində ən nümunəvi ölkələrdən biri olduğunu qeyd etdi. O, ölkəmizdə böyük işlərin həyata keçirilməsi münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı son illər təkcə Bakının deyil, Azərbaycanın bütün regionlarının da çox sürətlə inkişaf etdiyini bildirdi. Ölkəmizdəki iri enerji layihələrindən əldə olunan gəlirlərin ədalətli şəkildə istifadə edildiyini vurğulayan Prezident İlham Əliyev regionlarda yaxşı investisiya şəraitinin yaradıldığını, biznes mühitinin yaxşılaşdırıldığını və iqtisadiyyatın bütün sahələrində uğurlu islahatların həyata keçirildiyini bildirdi. Azərbay-

canın çox sürətlə və uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ötənilki iqtisadi böhran ilində belə, ölkəmizin iqtisadiyyatının 9,3 faiz artdığını və bunun dünyada ən yüksək göstərici olduğunu qeyd etdi.

MİLLİ MƏCLİSİN SƏDRİ ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

ATƏT-in yüksək vəzifəli şəxslərinin Azərbaycana səfərləri ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayır. Bu, həm də regionda mövcud olan münaqişələrin həlli baxımından olduqca vacibdir.

Bu sözləri Milli Məclisin sədri Oqtay Əsədov martın 15-də ATƏT Parlament Assambleyasının (PA) sədri Joao Suareşin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə demişdir.

Parlamentin sədri bildirmişdir ki, Azərbaycan dünyanın nüfuzlu beynəlxalq qurumları, o cümlədən ATƏT PA ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Hazırda demokratik, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayan Azərbaycan ATƏT-in müxtəlif strukturları ilə əməkdaşlığı genişləndirir. Azərbaycan nümayəndə heyətinin üzvləri ATƏT PA-nın tədbirlərində fəal iştirak edirlər və biz bu fəaliyyəti təqdirəlayiq hesab edirik.

O.Əsədov Azərbaycanın Cənubi Qafqazdakı geosiyasi mövqeyini diqqətə çatdırmış, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolundan söz açmışdır. Milli Məclisin sədri bildirmişdir ki, regiondakı həll olunmamış münaqişələr bölgənin Avropa strukturlarına inteqrasiyasına və inkişafına mane olmaqla yanaşı, Cənubi Qafqazın təhlükəsizliyini daim təhdid edir. BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq qurumların Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum qətnamə və qərarlarına məhəl qoymayan Ermənistan işğalı davam etdirir. Erməni xalqı xarici ölkələrdəki diasporun siyasi ambisiyalarının girovuna çevrilmişdir. Bu məsələdə Avropa artıq öz seçimini etməlidir. Ya bölgədə inkişafı, tərəqqini seçməli, ya da erməni lobbisinin uydurmalarını "dinləməlidir". İyirmi ildir ki, Dağlıq Qarabağda Azərbaycana məxsus mədəniyyət abidələri, kitabxanalar yerlə yeksan edilir, dünya birliyi isə müəmmalı şəkildə bu hallara göz yumur. Problemin həlli ilə artıq 18 ildir ATƏT-in Minsk qrupunun məşğul olmasına baxmayaraq, çox təəssüf ki, real nəticə hələ də yoxdur. Biz münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdarıq.

Sədr qeyd etmişdir ki, Azərbaycan tərəfinin bu mövqeyini dəfələrlə bəyan etməsinə baxmayaraq, Ermənistan qonşu dövlətin ərazisini işğaldan azad etmək istəmir. Belə olan halda, təbii ki, rəsmi Bakı mümkün olan bütün vasitələrdən istifadə edərək ərazi bütövlüyünü təmin etmək hüququnu özündə saxlayır. Ancaq biz inanırıq ki, ATƏT-in Minsk qrupunun və beynəlxalq birliyin səyi nəticəsində problem sülh yolu ilə tezliklə öz ədalətli həllini tapacaqdır.

ATƏT-in PA-nın sədri Joao Suareş Azərbaycanda gördüyü inkişafdan və burada keçirdiyi görüşlərdən məmnun qaldığını bildirmişdir. O, qeyd etmişdir ki, təmsil etdiyi təşkilat Cənubi Qafqazda Azərbaycan ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir.

J.Suareş Azərbaycan parlament nümayəndə heyətinin ATƏT PA-dakı fəaliyyətini yüksək dəyərləndirərək qurumda Milli Məclis təmsilçilərinin böyük peşəkarlıq nümayiş etdirdiklərini vurğulamışdır.

ATƏT PA-nın sədri Cənubi Qafqaza səfər zamanı bölgədəki vəziyyətlə yaxından tanış olduğunu və regiondakı problemlərin həlli üçün qurum çərçivəsində səylərini artıracağını diqqətə çatdırmışdır. Bildirmişdir ki, mövcud münaqişələrin tezliklə həlli bölgənin təhlükəsizliyi və inkişafı baxımından günün tələbidir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

MİLLİ MƏCLİSİN SƏDRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Slovakiyanın xarici işlər naziri Miroslav Layçak martın 15-də Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşmüşdür.

O.Əsədov demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün ölkələr, o cümlədən Slovakiya ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Bu günə qədər ölkələrimiz arasında 20-dək sənəd imzalanmışdır. Bu sənədlər münasibətlərimizi daha da genişləndirmək üçün zəmin yaradır.

Milli Məclisin sədri əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün belə sənədlərin sayının artırılmasının, hökumətlərarası komissiyanın yaradılmasının vacibliyini vurğulamışdır. O qeyd etmişdir ki, Milli Məclisdə Azərbaycan-Slovakiya parlamentlərarası işçi qrupu fəaliyyət göstərir və belə bir qrupun qarşı tərəfdə də yaradılması daha məqsədəuyğundur.

Sonra O.Əsədov Azərbaycanın iqtisadi inkişafı, regionda və Avropada sülhün, enerji təhlükəsizliyinin qorunmasında rolu, inkişafa mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü, eləcə də rəsmi Bakının ədalətli mövqeyini diqqətə çatdırmışdır.

Bakıda olmasından məmnunluq duyduğunu bildirən Miroslav Layçak demişdir ki, Slovakiya Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Azərbaycanın iqtisadi inkişafı, qlobal maliyyə böhranının təsirinə çox az məruz qalması diqqət mərkəzindədir.

O, demişdir ki, Slovakiya müstəqillik qazandıqdan sonra Avropa strukturlarına inteqrasiya edir. Bu istiqamətdə Azərbaycan ilə əməkdaşlıq hər iki tərəfin maraq dairəsindədir.

Sonra görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, elm, təhsil və başqa sahələrdə əməkdaşlıq, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının sədri Joao Suareş ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi əsas müzakirə mövzusu olmuşdur. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini, beynəlxalq hüquq normalarını və prinsiplərini kobud şəkildə pozduğunu deyən nazir E.Məmmədyarov münaqişənin həlli üçün ilk növbədə işğalın nəticələrinin aradan qaldırılmasının vacibliyini bildirmişdir. Bunun üçün münaqişənin mərhələli həllinin məqsədəuyğunluğunu vurğulayan E.Məmmədyarov Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının, həmin ərazilərdə normal həyat şəraitinin yaradılmasının, kommunikasiyaların açılmasının, məcburi köçkünlərin öz torpaqlarına qayıtmasının və Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsinin zəruriliyini qeyd etmişdir.

Nazir yalnız bu nizamlanma şərtləri ilə regionda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinin mümkünlüyünü vurğulamışdır.

J.Suareş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə Azərbaycan tərəfinin yanaşması ilə razılaşdığını bildirərək, problemin həlli vaxtının yetişdiyini və bu imkandan istifadə olunmasının vacibliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Slovakiyanın xarici işlər naziri Miroslav Layçak ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunan məsələlər haqqında məlumat vermişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkələrimiz arasında əlaqələr, xüsusilə də "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq və digər məsələlər müzakirə edilmişdir.

E.Məmmədyarov vurğulamışdır ki, Azərbaycan ilə Slovakiya arasında siyasi baxımdan əlaqələr yüksək səviyyədə olsa da, iqtisadi əməkdaşlıq istənilən səviyyədə deyildir. Bunun üçün ikitərəfli əlaqələri daha da inkişaf etdirmək vacibdir.

M.Layçak Slovakiyanın Azərbaycan ilə enerji, kənd təsərrüfatı, elektrik stansiyalarının tikintisi, ətraf mühitin qorunması, inşaat və bir çox sahələrdə əməkdaşlığa böyük maraq göstərdiyini demişdir.

Azərbaycanlı həmkarı ilə görüşdə enerji təhlükəsizliyi məsələlərini müzakirə etdiyini deyən slovakiyalı nazir vurğulamışdır ki, bu məsələ Avropa İttifaqı və Slovakiya üçün çox vacibdir: "Biz bu məsələdə Azərbaycanın hansı vacib rola malik olduğunu bilirik".

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ TELEFON DANIŞIĞI OLMUŞDUR

Martın 15-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Bernar Fasyenin təşəbbüsü ilə diplomatın Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə telefon

danışığı olmuşdur.

B.Fasye son vaxtlar Ermənistan, onun ardınca isə Azərbaycan mətbuatında ona istinadən müxtəlif məlumatların yayılması ilə bağlı narahatlığını ifadə etmişdir. Diplomat demişdir ki, onun sözləri tamamilə təhrif olunmuşdur. O, həmsədr kimi, xüsusən də hərbçi kimi heç vaxt, heç bir ordunun vəziyyətinə qiymət verməyi özünə rəva görməz, belə səhvə və vasitəçi kimi bu cür bir addıma yol verə bilməz.

B.Fasye belə bir vəziyyətdən narahatlığını ifadə etmiş, mətbuatda onun sözlərinin təhrif olunmasını qəbuledilməz fakt kimi qiymətləndirmişdir.

BAKIDA AZƏRBAYCAN-SLOVAKİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Martın 15-də Bakı Biznes Mərkəzində Slovakiya Respublikasının xarici işlər naziri Miroslav Layçakın Azərbaycana rəsmi səfəri çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Slovakiyanın İnvestiya və Ticarətin İnkişafı Agentliyinin təşkilatçılığı ilə Azərbaycan-Slovakiya biznes forumu keçirilmişdir.

Tədbirdə hökumət rəsmiləri ilə yanaşı, Slovakiya tərəfdən kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, bank, tikinti, sənaye və digər sahələri təmsil edən müəssisələrdən 15, Azərbaycan tərəfdən isə müvafiq sahələrdə fəaliyyət göstərən 25-dən çox sahibkar iştirak etmişdir.

Biznes forumunun iştirakçıları əvvəlcə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafını əks etdirən sərgi ilə tanış olmuşlar. Qonaqlara ölkənin neft və qeyri-neft sektorunda istehsal edilən məhsullar barədə ətraflı məlumat verilmişdir.

İqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov tədbirin Azərbaycan və Slovakiya sahibkarları arasında ilk biznes forumunun olduğunu diqqətə çatdırmış, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda uğurla həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illərdə qazanılmış uğurlar barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, dünyanı bürümüş maliyyə böhranı şəraitində Azərbaycan iqtisadiyyatı nəinki sabit inkişaf tempini qoruyub saxlamış, hətta daha sürətlə inkişaf etmişdir. Ötən il ölkəmizdə iqtisadi artım 9,3 faiz təşkil etmişdir. Sənaye istehsalının artımı 8,6 faiz, inflyasiya isə cəmi 1,5 faiz olmuşdur. 2009-cu ildə Azərbaycan iqtisadiyyatına 9,2 milyard ABŞ dolları investisiya qoyulmuşdur ki, bunun da 7,3 milyardı daxili sərmayələrdir.

Ulu öndər Heydər Əliyevin neft strategiyasının ölkəmizə gətirdiyi uğurları xüsusi vurğulayan N.Səfərov son illər Azərbaycanın təşkilatçılığı ilə reallaşan nəhəng beynəlxalq layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin, hazırda tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin respublikamızın Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsinə xidmət etdiyini söyləmişdir.

Məlumat verilmişdir ki, Azərbaycan Avropa İttifaqının üzvü olan Slovakiya ilə iqtisadi sahədə əməkdaşlığın genişlənməsinə mühüm əhəmiyyət verir. Lakin ölkələrimiz arasında hazırda 11 milyon dollar məbləğində olan illik ticarət dövriyyəsi bu sahədə möv-

cud potensiala uyğun deyildir. İş adamlarının müntəzəm görüşləri əməkdaşlığımızın inkişafına təkan verməlidir.

Slovakiyanın xarici işlər naziri Miroslav Layçak da ölkələrimiz arasında yüksək siyasi münasibətlərin fonunda iqtisadi əlaqələrin arzuolunan səviyyədə olmadığını vurğulamışdır. Bakıya ilk dəfə 10 il bundan əvvəl səfərə gəldiyini, bu müddətdə paytaxtda baş vermiş dəyişikliklərin onu valeh etdiyini deyən nazir, sürətli inkişaf yoluna çıxan, Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayan Azərbaycan ilə əməkdaşlığın genişləşdirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Nazir Şengen ölkələri sırasına daxil olan Slovakiyanın Azərbaycan ilə viza sisteminin sadələşdirilməsinə, dövlətlərimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün uyğun hüquqi bazanın formalaşdırılmasına, xüsusilə iqtisadiyyata sərmayə qoyuluşuna etibarlı zəmin yaratmaq məqsədi ilə ikiqat vergi sisteminin ləğvinə hazırlığını nəzərə çarpdırmışdır.

M.Layçak ölkəsinin Azərbaycan ilə enerji, kənd təsərrüfatı, ətraf mühitin qorunması, inşaat və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu demişdir.

Tədbirdə Slovakiyanın Azərbaycandakı səfiri Yozef Miqaş və Azərbaycanın Slovakiyadakı səfiri Fuad İsmayılov ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün real imkanların mövcudluğunu vurğulamış, iş adamlarını bu şəraitdən yararlanmağa çağırmışlar.

Forumda AZPROMO-nun prezidenti Adil Məmmədov, Slovakiyanın İnvestisiyaların və Ticarətin İnkişafı Agentliyinin baş direktoru Aleksandr Skurla, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev təqdimatlarla çıxış etmişlər.

Tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ TOMAS MİROUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Tomas Mirounun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əlaqələrinin inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu təşkilatla bir sıra uğurlu layihələrin həyata keçirildiyini vurğuladı. Ötən il dünyada baş verən maliyyə böhranına baxmayaraq əməkdaşlığımızın davam etdiyini qeyd edən Prezident İlham Əliyev dövlət strukturları ilə yanaşı, özəl sektorda da birgə layihələrin maliyyələşdirilməsini müsbət hal kimi dəyərləndirdi. Dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Tomas Mirounun ölkəmizə səfərinin əməkdaşlığımızın gələcəkdə daha da genişlənəcəyi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Tomas Mirou Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizlə əməkdaşlığa sadiq olduğunu qeyd etdi. Ötən il Qaradağ sement zavoduna qoyulan sərmayənin özəl sektora ən böyük investisiya yatırımlarından biri olduğunu deyən Tomas Mirou rəhbərlik etdiyi

bankın, həmçinin Azərbaycanın bank sektoru ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. O, Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizin enerji sektorunda əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu da vurğuladı.

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ SİVİLİZASİYALAR ALYANSI KATİBLİYİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəvəti ilə BMT-nin Sivilizasiyalar Alyansının Katibliyinin rəhbəri Mark Şoyr martın 13-dən 16-dək Bakıda olmuşdur.

Səfərdə məqsəd "Bakı Prosesi" çərçivəsində 2011-ci ildə Bakıda "Ümumdünya Mədəniyyətlərarası dialoq Forumu"nun keçirilməsi ilə bağlı BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlıq imkanlarını müzakirə etməkdir.

Səfər çərçivəsində mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Sivilizasiyalar Alyansı Katibliyinin rəhbəri Mark Şoyrla görüşmüşdür. Görüşdə Ə.Qarayev Azərbaycanın dünyada gedən qlobal proseslər fonunda müxtəlif sivilizasiyalar arasında mədəniyyət vasitəsilə dialoq və əməkdaşlığın təşviq edilməsi və inkişaf etdirilməsi istiqamətində təşəbbüsləri barədə qonağa ətraflı məlumat verərək Avropa Şurası, YUNESKO, AŞ Şimal-Cənub Mərkəzi ilə uğurlu əməkdaşlığın qurulduğunu diqqətə çatdırmışdır. Bu prosesdə Azərbaycan tərəfi BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığın qurulmasını və "Ümumdünya Mədəniyyətlərarası dialoq Forumu"nun təşkilində Alyansı tərəfdaş kimi görmək istədiyini vurğulamışdır.

Mark Şoyr bildirmişdir ki, Sivilizasiyalar Alyansı Azərbaycanın bu fəaliyyətini maraqla izləyir və mədəniyyətlərarası dialoqun təbliği sahəsində fəal əməkdaşlıq etməyə hazırdır.

Görüşdə Ə.Qarayev cari ilin iyun ayında keçiriləcək "Bakı-Dialoq şəhəri" mərasimi və bu çərçivədə Dünya Forumuna hazırlıq məqsədi ilə 10 Avropa,10 islam dövlətinin nazirləri olmaqla İşçi qrupun iclası barədə də qonağa məlumat vermiş, onu həm bu tədbirdə, həm də may ayında Parisdə keçiriləcək Dünya Forumu işçi qrupunun 2-ci iclasında iştirak etməyə dəvət etmişdir.

DÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR

15-16 mart tarixlərində Makedoniyanın Ohrid şəhərində Dünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti rəhbərlərinin konfransı keçirilmişdir.

Tədbirdə ölkəmizi Dövlət Gömrük Komitəsinin (DGK) sədri Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Dünya Gömrük Təşkilatının (DGT) Baş katibi Kunio Mikuriya Siyasi Komissiyanın 2009-cu ilin dekabrında keçirilən sessiyasının yekunları, eləcə də qurumda aparılan hazırkı işlər barədə məlumat vermişdir.

Konfransda potensialın gücləndirilməsi üzrə Bakı regional ofisinin hazırkı vəziyyəti də müzakirə olunmuşdur. DGT sədrinin Avropa regionu üzrə müavini Alan Bellot Ofisin fəaliyyət mexanizmi barədə məlumat vermişdir.

Aydın Əliyev potensialın gücləndirilməsi üzrə Bakı regional ofisinin hazırkı vəziyyəti ilə bağlı geniş təqdimatla çıxış etmişdir. Bildirilmişdir ki, Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə DGT-nin Avropa Regional Ofisinin açılması təklifi qurumun ötən il Norveç Krallığının Bergen şəhərində keçirilən konfransında irəli sürülmüşdür. Sonralar Brüsseldə keçirilən sessiyada da yeganə regional ofisin məhz Azərbaycanda təsis edilməsi qərara alınmışdır. Ötən ilin noyabrında DGK ilə DGT arasında regional ofisin yaradılması haqqında "Anlaşma Memorandumu" imzalanmış və bu sənəd Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuşdur. Hazırda Bakının Xətai rayonu ərazisində Regional Ofisin tikintisi davam etdirilir və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ TEODOR BAKONSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Rumıniyanın xarici işlər naziri Teodor Bakonskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Rumıniya arasında güclü tərəfdaşlıq münasibətlərinin və bütün səviyyələrdə fəal diplomatik əlaqələrin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycanın və Rumıniyanın dövlət başçıları arasında münasibətlərin ikitərəfli əlaqələrimizin inkişafında mühüm rol oynadığını dedi. Teodor Bakonskinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində mühüm addım olacağını deyən dövlətimizin başçısı bu səfərin, həmçinin Avropa İttifaqı-Azərbaycan əməkdaşlığının və regional vəziyyətin müzakirə edilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu vurğuladı.

Rumıniyanın xarici işlər naziri Teodor Bakonski Prezident Troyan Beseskunun salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, Rumıniya Prezidenti Azərbaycan ilə ikitərəfli münasibətlərin daha da inkişafında maraqlıdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ildə Rumıniyaya səfərini xatırlayan nazir iki ölkənin Prezidentləri arasında şəxsi münasibətlərin strateji tərəfdaşlıq əlaqələrimizin inkişafında başlıca amil olduğunu vurğuladı.

Dövlətimizin başçısı Rumıniya Prezidenti Troyan Beseskunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumıniyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

BAŞ NAZİR RUMİNİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 18-də Azərbaycanın Baş naziri Artur Rasizadə Rumıniyanın xarici işlər naziri Teodor Bakonski başda olmaqla bu ölkənin Azərbaycanda səfərdə olan nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan hökumətinin başçısı Azərbaycan ilə Rumıniya arasında bütün sahələrdə geniş müqavilə-hüquqi bazaya əsaslanan əlaqələrin yüksək səviyyədə olmasından

məmnunluğunu bildirərək qeyd etmişdir ki, Rumıniya xarici siyasət idarəsi başçısının ölkəmizə səfəri ikitərəfli münasibətlərin genişlənməsinə xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın işinin fəallaşdırılmasının zəruri olması vurğulanmışdır.

Baş nazir Azərbaycan iqtisadiyyatının uğurları barədə qonaqlara məlumat vermiş, ölkəmizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışmışdır.

Teodor Bakonski bildirmişdir ki, Rumıniya ilə strateji tərəfdaşlığın tənzimlənmiş olduğu ölkələr çox deyil və Azərbaycan həmin ölkələrdən biridir. O, enerji təchizatı sahəsində əməkdaşlığın böyük potensiala malik olmasından söz açaraq bildirmişdir ki, aprelin 8-də Buxarestdə Rumıniya, Azərbaycan və Gürcüstanın energetika nazirlərinin görüşü keçiriləcək, həmin görüşdə Avropa bazarına Azərbaycan qazının satışına dair üçtərəfli memorandum imzalanacaqdır. Budəfəki səfərin gedişində Azərbaycan və Rumıniya ekspertləri həmin sənədin son mətnini razılaşdıracaqlar.

MİLLİ MƏCLİSİN SƏDRİ RUMİNİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər Azərbaycan ilə Rumıniya arasında əlaqələrin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır. Bunun nəticəsidir ki, ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bu sözləri Milli Məclisin sədri Oqtay Əsədov martın 18-də ölkəmizdə səfərdə olan Rumıniyanın xarici işlər naziri Teodor Bakonski ilə görüşdə söyləmişdir.

O.Əsədov əlaqələrimizin genişlənməsində parlamentlərin də rolunu qeyd etmiş və bildirmişdir ki, hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir, deputatlarımız beynəlxalq tədbirlərdə ümumi maraq kəsb edən məsələlərdə eyni mövqedən çıxış edirlər.

Milli Məclisin sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin hazırkı səviyyəsinin hər iki dövlətin potensialına uyğun olmadığını bildirmiş və bu sahəyə diqqətin artırılmasının vacibliyini vurğulamışdır.

Teodor Bakonski Azərbaycana səfərindən məmnun qaldığını bildirmiş, göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir. Rumıniya xarici siyasət idarəsinin rəhbəri demişdir ki, onun ölkəsi Cənubi Qafqazda lider dövlət olan Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Bu gün həqiqətən də ölkələrimiz arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu da bizə əlaqələrimizin iqtisadi sahədə də genişləndirməyə imkan yaradır.

Sonra görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, rəsmi Bakının bu məsələdə ədalətli mövqeyi, regionda həyata keçirilən irimiqyaslı layihələr və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 18-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Rumıniyanın xarici siyasət idarəsinin rəhbəri Teodor Bakonski ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunan məsələlər haqqında məlumat vermişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, görüşdə Azərbaycan ilə Rumıniya arasında münasibətlərin cari vəziyyəti, əməkdaşlığın inkişaf perspektivləri, regional və digər məsələlər müzakirə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə rumıniyalı qonağa məlumat verilmişdir.

T.Bakonski Rumıniyanın Azərbaycan ilə siyasi və iqtisadi əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayaraq bildirmişdir ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin hazırkı səviyyəsi hər iki dövlətin potensialına uyğun deyildir. Ona görə də Rumıniya biznes dairəsini daha da genişləndirməkdə maraqlıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan rumıniyalı nazir, ölkəsinin məsələnin sülh yolu ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu vurğulamışdır.

Rumıniyanın Qara və Xəzər dənizləri hövzəsində sabitliyin tərəfdarı olduğunu bildirən T.Bakonski demişdir ki, ölkəsi Azərbaycan ilə əməkdaşlığa mühüm əhəmiyyət verir, NATO, Avropa İttifaqı kimi təşkilatlar çərçivəsində Azərbaycanı tam dəstəkləyir.

Rumıniyanın ərazisində ABŞ-ın raket hücumundan müdafiə sisteminin yerləşdirməsi məsələsinə toxunan T.Bakonski, bu layihənin regionun təhlükəsizliyinə xidmət etdiyini vurğulamışdır. Qonaq qeyd etmişdir ki, Azərbaycanın raket əleyhinə müdafiə sistemində iştirakı onun öz suveren hüququdur.

AZƏRBAYCAN VƏ FİCİ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR

Martın 18-də ölkəmizin BMT yanında daimi nümayəndəliyində Azərbaycan Respublikası və Fici Respublikası arasında diplomatik əlaqələrin qurulması haqqında birgə rəsmi sənəd imzalanmışdır.

Azərbaycan Respublikası hökuməti adından sənədi ölkəmizin BMT yanında daimi nümayəndəsi, səfir Aqşin Mehdiyev, Fici hökuməti adından isə respublikanın BMT yanında daimi nümayəndəsi, səfir Peter Topmson imzalamışlar.

RUMİNİYA YANACAQ-ENERGETİKA SAHƏSİNDƏ AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR

Martın 18-də Sənaye və Energetika Nazirliyində ölkəmizdə səfərdə olan Rumıniyanın xarici işlər naziri Teodor Bakonskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında yanacaq-energetika sahəsində əməkdaşlığın indiki səviyyəsi və perspektivləri müzakirə edilmişdir.

Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən yanacaq-energetika sektorunda əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırmış, əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulamışdır. Bildirmişdir ki, hazırda dünyanı bürümüş iqtisadi və maliyyə böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına özünün layiqli töhfəsini verməkdədir.

Diqqətə çatdırılmışdır ki, Azərbaycan-Rumıniya əməkdaşlığının yeni mərhələyə qədəm qoymasında ölkələrimizin prezidentləri İlham Əliyevin və Trayan Beseskunun qarşılıqlı səfərlərinin mühüm əhəmiyyəti vardır. Dövlətlərimizin başçılarının dostluq münasibətləri ikitərəfli əlaqələrin daha da inkişafında əhəmiyyətli rol oynayırlar.

T.Bakonski ölkəsində Azərbaycanın neft-qaz sektoruna böyük marağın olduğunu söyləmişdir. Bildirmişdir ki, Azərbaycanın qaz idxalçısından qaz ixrac edən ölkəyə çevrilməsi, qonşu ölkələrə təbii qaz ixrac etməsi Rumıniya tərəfinin diqqətini olduqca cəlb etmişdir.

Tərəflər ölkələrimiz arasında yanacaq-energetika sahəsində yaranmış əlverişli əməkdaşlıq əlaqələrinin gələcəkdə daha sürətlə inkişaf etdiriləcəyinə əminliklərini vurğulamışlar.

BAKIDA CƏNUBİ QAFQAZDAN KEÇMƏKLƏ ƏFQANISTANA AVTOMOBİLLƏ YÜK DAŞINMASININ İNKİŞAFI ÜZRƏ İŞÇİ QRUPUNUN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 18-də Bakıda Nəqliyyat Nazirliyinin, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU) və Azərbaycan Beynəlxalq Avtomobil Daşımaları Assosiasiyasının (ABADA) birgə təşkilatçılığı ilə İRU-nun Cənubi Qafqazdan keçməklə Əfqanıstana avtomobillə yük daşınmasının inkişafı üzrə işçi qrupunun ikinci iclası keçirilmişdir.

Tədbirdə TRASEKA dəhlizində yerləşən bir sıra dövlətlərin nəqliyyat sektorlarının, beynəlxalq təşkilatların, o cümlədən Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və ABŞ-ın nümayəndələri iştirak etmişlər.

İclasda İRU baş katibinin müavini İqor Runov diqqətə çatdırmışdır ki, hazırda qurum dünyanın 180-dən artıq ölkəsinin avtomobil nəqliyyatı təşkilatlarını özündə birləşdirir. Bildirmişdir ki, indiki mərhələdə İRU-nun qarşısında duran əsas vəzifə Qərb ölkələrindən göndərilən humanitar və digər yüklərin TRASEKA marşrutu ilə Əfqanıstana çatdırılmasına nail olmaqdır. İnanırıq ki, işçi qrupunun iclası bu işin öhdəsindən layiqincə gəlməyə şərait yaradacaqdır.

Nəqliyyat naziri Ziya Məmmədov iştirakçıları Azərbaycan hökuməti adından salamlamış, tədbirin Bakıda keçirilməsini bu gün çətin vəziyyətdə olan Əfqanıstana humanitar yardımın çatdırılmasında ölkəmizin artan rolunun əyani təzahürü kimi qiymətləndirmişdir. İclasın Asiya ilə Avropa, habelə dünyanın digər regionları arasında avtomobil nəq-

liyyatı vasitəsilə yük daşınmasının invensivləşməsinə, onun səmərəliliyinin artırılmasına müsbət təsir göstərəcəyini deyən nazir, bu gün bir çox ölkələri birləşdirən tarixi "İpək Yolu"nun bərpasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətlərini vurğulamışdır. Məhz ulu öndərin təşəbbüsü və təşkilatçılığı ilə "İpək Yolu"nun bərpasına dair 1998- ildə keçirilmiş beynəlxalq Bakı konfransı Transqafqaz-Asiya avtomobil yolunun əsasını qoymuşdur. Hazırda həmin layihə uğurla reallaşdırılır.

Z.Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son illər ölkə iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən nəqliyyat sektorunda qazanılmış uğurlardan da danışmışdır. Bildirmişdir ki, təkcə ötən il ölkənin nəqliyyat sektoruna 2 milyard ABŞ dolları məbləğində sərmayə qoyulmuşdur. Azərbaycanın Avrasiya nəqliyyat dəhlizinin yaradılmasında mühüm rolunu diqqətə çatdıran nazir, iki qitəni birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xətti, bu yaxınlarda inşasına başlanılacaq yeni Bakı Beynəlxalq Dəniz Limanı, digər regional və dünya əhəmiyyətli layihələrdən söhbət açmışdır.

İclasda ABŞ-ın Azərbaycandakı səfirliyinin iqtisadiyyat şöbəsinin rəhbəri Rob Qarverik, İRU-nun baş katibi Martin Marmi, nəqliyyat nazirinin müavini Musa Pənahov geniş məruzələrlə çıxış etmişlər.

Ukrayna, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının, TRASEKA, ABADA və digər qurumların təmsilçilərinin mövzu ilə bağlı təqdimatları iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Sonda Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı arasında anlaşma memorandumu imzalanmışdır.

BAKIDA TRANSXƏZƏR SİSTEMİNİN YARADILMASI İLƏ BAĞLI MÜŞTƏRƏK İŞÇİ QRUPUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 16-dan 18-dək Bakıda Qazaxıstanla Azərbaycan arasında Transxəzər Neft Nəql Sisteminin (TXS) yaradılması layihəsi çərçivəsində ARDNŞ və KazMunayQaz tərəfindən yaradılmış müştərək işçi qrupunun növbəti iclası keçirilmişdir. Tədbirdə Qazaxıstanın "Kaşaqan" və "Tengiz" neft yataqlarında işləyən xarici neft şirkətlərinin nümayəndələri də iştirak etmişlər.

Toplantıda TXS-nin yaradılması ilə bağlı məsələlər, o cümlədən, sistemin texniki layihələndirilməsi və müvafiq işlərin icrası qrafiki nəzərdən keçirilmişdir. İclasda, həmçinin TXS layihəsinin kommersiya və hüquqi aspektləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ CORC YONQ-BUN YEONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Sinqapur arasında münasibətləri daha da inkişaf etdirmək üçün qarşılıqlı marağın və yaxşı potensialın olduğunu vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın perspektivlərini müzakirə etmək üçün Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeonun Azərbaycana səfərinin yaxşı imkan yaratdığını qeyd etdi və əminliklə bildirdi ki, bu səfər ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etdirilməsi işinə xidmət edəcək.

Azərbaycana səfər edən ilk sinqapurlu nazir olduğunu deyən Corc Yonq-Bun Yeo ölkəmizə səfərindən məmnunluğunu bildirdi. O, Sinqapur Prezidenti Sellapan Rama Natanan Azərbaycan Prezidenti İlham Əliyevi Sinqapura dövlət səfərinə dəvət edən rəsmi məktubunu dövlətimizin başçısına təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PREZİDENTİ ADMİNİSTRASİYASININ BAŞ KATİBİ MUSTAFA İSENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Türkiyə Respublikası Prezidenti Administrasiyasının baş katibi Mustafa İseni qəbul etmişdir.

Mustafa İsen Türkiyə Prezidenti Abdullah Gülün salamlarını və Novruz bayramı münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O, 1994-cü ildən başlayaraq Azərbaycana artıq dördüncü dəfə səfər etdiyini deyərək, ötən dövr ərzində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi altında Bakının və ümumilikdə Azərbaycanın böyük inkişafa nail olduğunu görməkdən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün salamlarına və Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını və bayram təbriklərini Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

BAKIDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ OLMUŞDUR

Martın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunun yaxınlığında inşa olunacaq müasir standartlara cavab verən gəmiqayırma zavodunun təməlqoyma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Zavodun eskiz layihəsi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, ötən ilin noyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ), Azərbaycan Dövlət İnvestisiya Şirkəti (ADİŞ) və Sinqapurun "Keppel Offshore&Marine" Şirkəti arasında zavodun inşasına və istismarına dair Anlaşma Memorandumu imzalanmışdır. Layihədə ARDNŞ 65 faiz, ADİŞ 25 faiz, "Keppel Offshore&Marine" şirkəti isə 10 faiz iştirak payına sahibdirlər. İlkin hesablamalara görə, layihənin dəyəri, təxminən 300-350 milyon ABŞ dolları təşkil edəcəkdir. Zavodun tikintisinin təqribən 2 ilə başa çatdırılması nəzərdə tutulur. Müəssisə işə düşəndən sonra ilkin mərhələdə burada min, 3-5 ildən sonra isə 1700-2000 nəfər işlə təmin olunacaqdır.

Zavodun ümumi torpaq sahəsi 520 min kvadratmetr, dəniz sahəsi 360 min kvadratmetr, ümumi qapalı istehsal sahəsi 75 min kvadratmetr, dalğaqıran divarının uzunluğu 1200 metr, körpülərin ümumi uzunluğu 1630 metr olacaqdır. Üzən dokun uzunluğu 250 metr, eni 50 metr nəzərdə tutulmuşdur. Gələcəkdə uzunluğu 300 metr, eni 100 metr olan quru dokun tikintisi də planlaşdırılır. Bu məqsədlə sahə ayrılmışdır. Zavodda yükgötürmə qabiliyyəti 300 ton olan əsas kran quraşdırılacaqdır.

Xəzər dənizi hövzəsində yeganə olacaq bu zavodda ildə 25 min ton metal konstruksiya hazırlamaq, 15 min ton yükgötürmə qabiliyyəti olan 4 tanker (yaxud 60-70 min ton yükgötürmə qabiliyyəti olan 2 "Caspian Max" tipli tanker) və 4 yedək-təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək mümkün olacaqdır. Gələcəkdə peşəkar işçi qüvvəsinin sayını çoxaltmaqla zavodun istehsal gücünü artırmaq da mümkündür.

Tikinti işlərini "Keppel Corporation" şirkətinin törəmə müəssisəsi olan "Keppel Offshore&Marine" həyata keçirəcəkdir.

Prezident İlham Əliyev monitorda zavodun layihə görüntülərini izlədi və maketinə baxdı.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz dostlar, bu gün çox gözəl, çox əlamətdar bir gündür. Bu gün Bakıda yeni böyük gəmiqayırma zavodunun təməl daşını qoyuruq. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. Gözəl bayram ərəfəsində Azərbaycanda nəhəng sənaye obyektinin təməl daşının qoyulması xüsusilə böyük əhəmiyyət daşıyır. Çünki bu hadisə bir də onu göstərir ki, Azərbaycan çox uğurla inkişaf edir. Azərbaycanda ölkəmizin inkişafı üçün bütün lazımi tədbirlər görülür. Baxmayaraq ki, 2009-cu il dünya tarixində böhran ili kimi qalacaqdır. 2010-cu ildə də, deyə bilərəm ki, dünyada böhranlı vəziyyət hələ tam aradan qaldırılmayıb. Bu gün Bakıda, Azərbaycanda 100 milyon dollarla ölçülən böyük investisiya layihəsi başlayır. Bu, doğrudan da böyük əhəmiyyətə malik olan hadisədir. İlk növbədə onu göstərir ki, Azərbaycanda inkişaf sürətlə davam edir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Eyni zamanda, bizim siyasətimizin nəticəsi olan bu zavodun tikintisi sənaye imkanlarımızı daha da gücləndirəcəkdir. Biz indi Azərbaycanda böyük sənayeləşmə siyasətini aparırıq. Bu proses uğurla gedir. Bakıda, digər şəhər və rayonlarımızda nəhəng infrastruktur layihələri icra edilir. Bir müddət bundan əvvəl Qaradağ rayonunda böyük sement zavodunun təməl daşı qoyulmuşdur, bu gün gəmiqayırma zavodunun təməl daşı qoyulur. Bir sözlə, bu zavod ölkəmizin iqtisadi və sənaye potensialının gücləndirilməsi üçün çox mühüm rol oynayacaqdır. Zavodun tikintisinə böyük ehtiyac vardır. Bu gün bizim tələbatımız artır.

Azərbaycanda kifayət qədər böyük donanma mövcuddur. Dövlət Neft Şirkətinin və Xəzər Dəniz Gəmiçiliyinin gəmilərinin ümumi sayı haradasa 350 təşkil edir. Onların təmirinə böyük ehtiyac vardır. Eyni zamanda, bu gün biz xaricdən gəmilər və tankerlər alırıq. Təkcə son 6 il ərzində Xəzər Dəniz Gəmiçiliyi 10 tanker, bir neçə quru yük gəmisi və bərələr almışdır. Bunu biz xaricdən almışdıq. Ona görə ki, Azərbaycanda gəmi istehsal etmək üçün imkanlar yox idi. Bundan sonra isə Azərbaycanın tələbatını ödəyə biləcək bütün növ gəmilər ölkəmizdə istehsal olunacaqdır. Eyni zamanda, ixrac potensialımızın gücləndirilməsi üçün də zavodun böyük əhəmiyyəti olacaqdır. Mən ümid edirəm ki, bax bu gün göstərilən bu təqdimatda nəzərdə tutulmuş bütün vəzifələr uğurla və vaxtında icra olunacaq, iki il ərzində zavod öz fəaliyyətinə başlayacaqdır və biz Azərbaycanda rəqabətqabiliyyətli, gözəl, müasir məhsulun istehsalına nail olacağıq. Zavodda ən qabaqcıl, ən müasir texnologiyalar tətbiq ediləcəkdir.

Zavodun tikintisi, ümumiyyətlə Azərbaycanda aparılan iqtisadi siyasətin nəticəsidir. Qeyri-neft sektorunun inkişafı bizim üçün prioritet məna daşıyır. Xarici şirkətlərlə əməkdaşlığımız uğurla davam edir. Bu əməkdaşlığın gücləndirilməsində Dövlət Neft Şirkətinin böyük rolu vardır. Çünki bizim böyük xarici şirkətlərlə əməkdaşlığımız məhz neft sənayesindən başlamışdır və bu gün bu əməkdaşlıq başqa sahələri də əhatə edir.

Zavodun tikintisi beynəlxalq əməkdaşlığın nəticəsidir. Zavodun əsas səhmdarları Azərbaycan şirkətləridir. Azərbaycan Dövlət Neft Şirkəti zavodun payının 65 faizinə malikdir. Azərbaycan Dövlət İnvestisiya Şirkətinin payı 25 faizdir və beynəlxalq şirkətin - "Keppel" şirkətinin payı 10 faizdir. Beləliklə, bu beynəlxalq əməkdaşlıq əminəm ki, Azərbaycanda yeni, gözəl, müasir sənaye obyektinin yaranmasına gətirib çıxaracaqdır. Mən "Keppel" şirkətinin fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. Bu gün bizimlə bərabər Sinqapurun xarici işlər naziri də bu mərasimdə iştirak edir. Mən onu bir daha salamlayıram.

"Keppel" şirkəti 10 ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstərir. Bu fəaliyyət çox uğurludur. Bu fəaliyyət nəticəsində Azərbaycanın neft-qaz potensialının tam şəkildə işə salınması üçün çox lazımi infrastruktur qurğuları yaradılıbdır. Bu zavodun tikintisi isə "Keppel"lə Neft Şirkəti arasında əməkdaşlığın yeni mərhələsidir. Biz çox şadıq ki, dünyanın aparıcı beynəlxalq şirkətləri Azərbaycana sərmayə qoyurlar, eyni zamanda, Azərbaycanda podratçı kimi də fəaliyyət göstərirlər. Bu, bizim imkanlarımızı daha da genişləndirəcəkdir.

Azərbaycan Dövlət Neft Şirkəti isə, öz növbəsində, artıq beynəlxalq şirkətə çevrilibdir. Şirkətin çox böyük potensialı var, böyük infrastruktura malikdir. Azərbaycanda neft-qaz hasilatı ildən-ilə artır. Neft-qaz potensialımızı tam şəkildə realizə etmək üçün bütün infrastruktur layihələri vaxtında icra edilir. Neft-qaz kəmərləri tikilibdir və bu gün Azərbaycan neft-qaz ixracatını şaxələndirilmiş formada həyata keçirir. Bu, əlbəttə ki, imkanlarımızı daha da gücləndirir. Azərbaycan Dövlət Neft Şirkəti beynəlxalq fəaliyyətdə də özünü artıq göstərib. Xaricə böyük həcmdə sərmayələrin qoyulması neft şirkətimizi beynəlxalq şirkət kimi də dünyaya təqdim edir. Bu gün dünyanın aparıcı enerji şirkətləri sırasına daxil olmuş Azərbaycan Dövlət Neft Şirkəti əminəm ki, gələcəkdə də öz imkanlarını genişləndirəcək, ölkəmiz üçün lazım olan yeni layihələri uğurla icra edəcəkdir. Əhalini təbii qazla təmin etmək üçün öz imkanlarını daha da artıracaqdır. Çünki bizim enerji təhlükəsizliyimizin mənbəyi Dövlət Neft Şirkətinin hasil etdiyi təbii resurslardır. Əlbəttə ki, bu resurslar ondan sonra elektrik enerjisinə çevrilir, ondan sonra qaz təminatı təmin olunur. Ancaq ilkin mənbə Neft Şirkətinin fəaliyyətidir və əminəm ki, Azərbaycan neftçiləri həmişə olduğu kimi, bu sahədə də öz peşəkarlığını göstərəcəklər. Bu sahə birbaşa neft-qaz əməliyyatları ilə bağlı olmasa belə, yenə də bu zavodun fəaliyyəti Azərbaycanda neft-qaz sənayesinin inkişafına böyük təkan verəcəkdir.

Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyətinə gəldikdə isə, bu şirkət nisbətən bu yaxınlarda yaradılmışdır. Şirkətin əsas məqsədi yerli və xarici investisiyaları Azərbaycan üçün vacib olan sahələrə cəlb etməkdir. Azərbaycan Dövlət İnvestisiya Şirkəti bu məqsədlə yaradılmışdır. Bu vaxta qədər şirkət tərəfindən həyata keçirilən layihələr uğurlu olmuşdur. Bu layihələr bizə lazım olan sahələrə investisiyaların cəlb olunması işində çox mühüm rol oynayır. Bu zavodun tikintisi, eyni zamanda, Azərbaycan Dövlət İnvestisiya Şirkətinin fəaliyyəti hesabına baş verir.

Çünki şirkətin əsas vəzifəsi xaricdən investisiyaları cəlb etmək, investisiya layihələrində ilkin mərhələdə səhmdar kimi iştirak etmək və eyni zamanda, yerli şirkətləri də bizim üçün lazım olan böyük layihələrə cəlb etməkdir. Tikiləcək bu zavodun timsalında biz bütün bu amilləri görürük. Bu, bir daha onu göstərir ki, Azərbaycan İnvestisiya Şirkətinin yaradılması çox düzgün və vaxtında atılmış addım idi. Bu qərar və onun icrası artıq gözəl nəticələrə gətirib çıxarır.

Bizim, ümumiyyətlə, iqtisadiyyatımızın bütün sahələri, o cümlədən nəqliyyat sektoru da inkişaf edir. Nəqliyyat sektorunda çox böyük nailiyyətlər vardır. Nəqliyyatın bütün növləri üzrə konkret layihələr, proqramlar vardır və onlar icra edilir. Bütün bölgələrdə avtomobil yolları tikilir, avtonəqliyyat sistemi yaxşılaşdırılır. Metro tikintisi Azərbaycanda son illərdə sürətlə gedir. Son illərdə ildə bir yeni stansiya istismara verilir və hazırda Bakıda bir neçə istiqamətdə işlər aparılır. Dəmir yolunun modernləşməsi istiqamətində konkret addımlar atılır. Beynəlxalq maliyyə qurumları ilə məsələlər həll olunub və dəmir yolunun modernləşməsi prosesi Azərbaycanda sürətlə gedəcəkdir. Ölkəmizdə hava nəqliyyatının inkişafı üçün kifayət qədər şərait yaradılıbdır. Son illərdə bir neçə şəhərdə müasir beynəlxalq aeroportlar tikilibdir. Yeni müasir təyyarələr, helikopterlər alınır. Dəniz nəqliyyatının inkişafı üçün praktiki işlər aparılır. Bu yaxınlarda Zığda yeni dəniz limanının açılışında iştirak edirdik. Bu, bizə imkan verəcək ki, bu sahədə də müasir standartlara çataq. Eyni zamanda, hazırda Bakının mərkəzində fəaliyyət göstərən dəniz limanı köçürüləcək, bu sahə sakinlərin sərəncamına veriləcək və Bakımız daha da gözəlləşəcəkdir.

Son illərdə dediyim kimi, 10 tanker alınıbdır. Bu gün biz Xəzərdə yükdaşıma sahəsində aparıcı ölkəyik. Bizdə, haradasa, 350-yə yaxın gəmi vardır və bu zavodun tikintisi bu sahəni daha da gücləndirəcəkdir. Bir sözlə, hər bir ölkənin inkişafı üçün vacib olan nəqliyyat infrastrukturu Azərbaycanda dünya standartlarına bəzi hallarda tam uyğundur, bəzi hallarda yaxındır. O hallarda hələ ki, yaxın deyil, biz onu da yaxınlaşdıracağıq və buna nail olacağıq.

Mən bu gözəl gündə, bayram ərəfəsində Azərbaycan iqtisadiyyatına böyük təkan verə biləcək və Azərbaycanda yeni sənaye sahəsinin açılmasına xidmət göstərəcək zavodun təməl daşının qoyulması münasibətilə bütün Azərbaycan xalqını təbrik edirəm, zavodun tikintisi zamanı işləyən bütün insanlara uğurlar arzulayıram. Arzu edirəm ki, zavod qısa müddət ərzində, vaxtında və böyük keyfiyyətlə tikilsin və Azərbaycana uzun illər bundan sonra xidmət göstərsin.

Qarşıdan gələn bayramınız mübarək olsun!

* * *

Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeo mərasimdə çıxış etdi.

SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ CORC YONQ-BUN YEONUN ÇIXIŞI

- Zati-aliləri, Prezident İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Prezident İlham Əliyevin şəxsən iştirak etdiyi ARDNŞ-"Keppel" gəmiqayırma zavodunun təməlqoyma mərasimində sizinlə birgə iştirak etməkdən şərəf hissi duyuram.

Sinqapur ilə Azərbaycan diplomatik münasibətlərini 16 il bundan əvvəl qurmuşlar. Əlaqələrimiz səmimi dostluq əlaqələridir. Rəsmilərimiz beynəlxalq forumlarda lazımi qaydada birgə çalışıblar və 2005-ci ildən etibarən 36 Azərbaycan rəsmisi Sinqapur Əməkdaşlıq Proqramı çərçivəsində Sinqapurda kurslarda iştirak etmişdir.

Mən Azərbaycana səfər edən ilk Sinqapur naziri olmaqdan son dərəcə məmnunam. Elə ötən həftə biz Prezident Əliyevin Prezident Natana ünvanladığı məktubu çatdırmaq üçün Sinqapura gəlmiş ilk Azərbaycan nazirini məmnunluqla qəbul etdik.

İkitərəfli münasibətlərimizdə yeni səhifə açılır. İqtisadi və digər əlaqələrin möhkəmləndirilməsi üçün böyük potensial vardır. Azərbaycan uzunəsrlik tarixə və zəngin mədəniyyətə malik olan ölkədir. Ölkəniz sürətlə inkişaf edir. Bu gün səhər Prezident İlham Əliyev ilə görüş zamanı o, mənə dedi ki, son 6 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 3 dəfə artmışdır. Ötən il qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı 9,3 faizlik templə sürətli artımını davam etdirdi və bu, dünyada ən yaxşı göstəricidir.

Təbii ki, neft və qaz sektoru daha geniş əməkdaşlıq sahəsidir. Baxmayaraq ki, Sinqapurda neft və qaz yoxdur, lakin bizim böyük neft və qaz şirkətlərinin fəaliyyətinə dəstək verən Sinqapurdakı bir çox şirkətlərdən ibarət kimya məhsulları və dənizdə dəstəkləyici xidmətləri təmin edən güclü imkanlarımız vardır. Əminəm ki, onlar Azərbaycandakı imkanları araşdırmaqda çox maraqlıdırlar.

Keçmiş Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın neft strategiyasının həyata keçirilməsi mühüm hadisələrlə nəticələndi. Azərbaycan bir çox beynəlxalq neft şirkətlərini cəlb etdi, bir sıra pay bölgüsü sazişləri imzalandı, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin çəkilməsini rəvan şəkildə apardı, dənizdə bir sıra işlənmə layihələrini həyata keçirdi, həmçinin Dövlət Neft Fondu yaradıldı.

Dünya miqyaslı texnologiyanı gətirmək məqsədi ilə neft strategiyasının bir hissəsi kimi "Keppel" şirkəti 1997-ci ildə Azərbaycana dəvət olundu və ARDNŞ ilə tərəfdaşlıq əsasında tezliklə Bakıda Kaspian Şipyard şirkəti yaradıldı. Bu, regionun ilk beynəlxalq qurğu tikintisi, təmiri və təkmilləşdirilməsi zavodu idi. Bu gün həmin şirkətdə 500-dən artıq azərbaycanlı çalışır. ARDNŞ-"Keppel" alyansı Xəzər dənizində tarixdə ilk dəfə olan digər bir neçə nailiyyətə imza atdı, regionda dünya miqyaslı ilk özüqalxan qazma quruğu, ilk yarımdalma qurğusu və ilk buzadavamlı üzən anbar tikib istismara verdi.

Yeni ARDNŞ-"Keppel" gəmiqayırma zavodunun tikintisi Prezident Əliyevin müəyyən etdiyi neft strategiyasına dəstəkdir. Başa çatdırıldıqdan sonra yeni ARDNŞ-"Keppel" gəmiqayırma zavodu Xəzər dənizində bu tipli ilk müəssisə olacaq və həm mülki, həm hərbi donanma gəmilərini tikmək və təmir etmək imkanına malik olacaqdır. Bu zavodda 2000-dən artıq azərbaycanlının işləyəcəyi gözlənilir.

Azərbaycandakı sinqapurlular və Sinqapurdakı azərbaycanlılar üçün neft və qazdan başqa, araşdırılmalı digər sahələr də vardır. Qloballaşma nəticəsində dünya daha yaxın və əlaqəli olur. Facebookdakı səhifəmdə azərbaycanlı dostumdan xoş təəccüblə öyrəndim ki, hazırda səkkiz azərbaycanlı tələbə yerli universitetlərimizdən birində təhsil alır.

Prezident Əliyevin göstərişləri və dəstəyi ilə mən Azərbaycan və Sinqapur arasında münasibətlərin inkişafını səmimiyyətlə arzulayıram və bütün azərbaycanlı dostlarımızın Novruz bayramını təbrik edirəm.

XARİCİ İŞLƏR NAZİRİ SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 19-da xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeo ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, görüşdə Azərbaycan ilə Sinqapur arasında münasibətlərin cari vəziyyəti, sənaye, vergi, mədəniyyət, təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, regional və digər məsələlər müzakirə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə sinqapurlu qonağa məlumat verilmişdir.

E.Məmmədyarovun sözlərinə görə, görüşdə Azərbaycan ilə Sinqapur arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi barədə məsləhətləşmələrin aparılması qərara alınmışdır.

Sinqapurlu nazir bu səfərdən sonra ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafında yeni mərhələnin açılacağını vurğulamışdır.

C.Yonq-Bun Yeo qeyd etmişdir ki, səfərinin əsas məqsədi Sinqapurun "Keppel Offshore & Marine Limited" şirkəti tərəfindən inşa ediləcək gəmiqayırma zavodunun təməlqoyma mərasimində iştirak etmək, ölkələrimiz arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və əməkdaşlığın inkişaf perspektivləri ilə bağlı müzakirələr aparmaqdır.

Bildirilmişdir ki, görüşdə Azərbaycan ilə Sinqapur arasında aviasiya sahəsində əlaqələrin yaradılması məsələsi də müzakirə olunmuşdur. Sinqapurun xarici işlər naziri hazırda ölkələrimiz arasında Dubay və Moskva şəhərləri vasitəsilə hava əlaqələrinin mövcud olduğunu demişdir. Qonaq vurğulamışdır ki, vətəninə qayıtdıqdan sonra Azərbaycan ilə Sinqapur arasında aviasiya sahəsində əlaqələrin yaradılması ilə bağlı sazişin imzalanmasının zəruriliyi barədə müzakirələr aparacaqdır.

Corc Yonq-Bun Yeo, həmçinin bildirmişdir ki, Sinqapurda Azərbaycan vətəndaşları üçün sadələşdirilmiş viza rejiminə keçid barədə məsləhətləşmələr aparılır.

OMBUDSMAN BMT-NİN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN 23-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

23-25 mart tarixlərində ombudsman Elmira Süleymanova BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının dəvəti ilə Beynəlxalq Əlaqələndirmə Komitəsinin (BƏK) Ce-

nevrədə keçirilən 23-cü sessiyasında iştirak etmişdir.

Sessiyanın gündəliyinə insan hüquqları ilə bağlı bir sıra aktual mövzular, o cümlədən ayrı-seçkiliyin aradan qaldırılması, qadın hüquqları, gender bərabərliyi, uşaq hüquqlarının müdafiəsi sahəsində milli təsisatların fəaliyyəti, uşaqlara qarşı zorakılığın aradan qaldırılması, insan hüquqları üzrə təhsil və maarifləndirmə və s. məsələlər daxil edilmişdir.

E.Süleymanova sessiyanın "Rasizm və diskriminasiya əleyhinə Durban konfransı", "Qadın hüquqları, gender bərabərliyi, uşaq hüquqlarının müdafiəsi sahəsində milli təsisatların fəaliyyəti" bölmələrində çıxışlar etmişdir.

Ombudsman azərbaycanlıların etnik təmizləməyə məruz qaldığını, Ermənistanın Azərbaycana qarşı 20 ildən çox davam edən təcavüzü nəticəsində 1 milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, insan hüquqlarının kütləvi şəkildə pozulduğunu və bu təcavüzün beynəlxalq hüquq prinsiplərinə və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə zidd olduğunu qeyd etmişdir.

Bildirilmişdir ki, ölkəmizdə ötən il elan olunmuş "Uşaq ili" çərçivəsində Ombudsman Aparatı tərəfindən mühüm tədbirlər həyata keçirilmiş, müvəkkilin uşaq hüquqları üzrə ilk ixtisaslaşmış məruzəsi hazırlanaraq nəşr etdirilmiş, uşaqların vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəlmiş təklif və tövsiyələr Milli Məclisə və digər müvafiq orqanlara göndərilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə məişət zorakılığının aradan qaldırılması və reproduktiv sağlamlığın tətbiqinə dair tədbirlərin keçirildiyi qeyd olunmuşdur.

Sessiya çərçivəsində E.Süleymanova BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı xanım N.Pillay ilə görüşmüş, onunla insan hüquqlarının müdafiəsi və ombudsmanın fəaliyyətinə dair fikir mübadiləsi aparmışdır.

Sessiya iştirakçılarına ombudsmanın illik məruzələri, Xocalı soyqırımı və 31 Mart - Azərbaycanlıların soyqırımı günü ilə bağlı bəyanatları, Ombudsman Aparatının hüquqi nəşrləri, həmçinin erməni terroru ilə bağlı disklər təqdim edilmişdir.

MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Martın 26-da Moskvada Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilmişdir.

Şuranın iclasında 20-yə yaxın məsələ, o cümlədən Qazaxıstanın ATƏT-ə sədrliyi, Avropa Təhlükəsizliyi Müqaviləsi layihəsi, Böyük Vətən Müharibəsində qələbənin 65 illiyi ilə bağlı bir sıra sənədlərin icrası, MDB çərçivəsində Xarici İşlər Nazirləri səviyyəsində məsləhətləşmələrin keçirilməsi məsələləri müzakirə olunmuşdur. Bundan əlavə, iclasda MDB-nin inkişaf konsepsiyası layihəsinin reallaşdırılması, korrupsiya ilə mübarizə sahəsində əməkdaşlıq, Birliyə üzv ölkələrdə bu il keçiriləcək seçkilərdə MDB müşahidəçilərinin iştirakı və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

MDB Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən iclasında iştirak edən Azər-

baycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiya və Ukraynadan olan həmkarları ilə görüşlər də keçirmişdir. Görüşlərdə, regionda gedən proseslər, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti müzakirə edilmişdir. Bildirilmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri gələn həftənin əvvəlində Ermənistana səfər edəcəklər. Görüşlərdə o da qeyd olunmuşdur ki, Ermənistanın yekun mövqeyi aydınlaşarsa, böyük sülh sazişi üzərində işə başlanmağa şərait yaranacaqdır.

Moskvada işgüzar səfərdə olan Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan da rusiyalı həmkarı Sergey Lavrovla keçirdiyi görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesini ətraflı müzakirə etmişlər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MOSKVADA UKRAYNALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 26-da Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası çərçivəsində Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri Elmar Məmmədyarov ukraynalı həmkarı Konstantin Qrişenko ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında siyasi, ticarət, iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunmuş, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ RUSİYA XİN BAŞÇILARI DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ YOLLARINI MÜZAKİRƏ ETMİŞLƏR

MDB Xarici İşlər Nazirləri Şurasının Moskvada keçirilən iclasında iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov martın 26-da Rusiyalı həmkarı Sergey Lavrovla görüşmüşdür.

E. Məmmədyarov bildirmişdir ki, S. Lavrovla görüşdə, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar danışıqlar ətrafında vəziyyət müzakirə olunmuşdur. Diplomat demişdir: "Biz razılığa gəldik ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin gələn həftənin əvvəllərində Yerevanda keçiriləcək görüşünədək iki ölkənin mövqelərinin yaxınlaşdırılması istiqamətində səyləri davam etdirmək lazımdır".

Azərbaycanın xarici siyasət idarəsinin başçısı vurğulamışdır ki, həmsədrlər Madrid prinsipləri əsasında yeni təkliflər irəli sürmüşlər. Azərbaycan tərəfi bu təklifləri, əsasən, qəbul etmişdir. Erməni tərəfi bəzi bəyanatlarında təklifləri qəbul etdiyini, bəzən isə onlarla razılaşmadığını bildirir. Ermənistanın mövqeyi dəqiq aydınlaşarsa, böyük sülh sazişi üzərində işə başlamaq olar.

RUSİYA XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XİN BAŞÇILARI İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 25-də və 26-da Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan və Azərbyacanın xarici işlər naziri Elmar Məmmədyarov ilə ayrı-ayrılıqda görüşmüşdür.

İkitərəfli münasibətlərə dair məsələlərdən başqa, Dağlıq Qarabağ problemi prezidentlər İlham Əliyev, Dmitri Medvedev və Serj Sarkisyanın görüşlərində müzakirəsi baxımından nəzərdən keçirilmişdir. S.Lavrov həmkarları ilə görüşlərində Rusiya rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu həmsədrlərinin səyləri çərçivəsində alternativi olmayan siyasi yolla və dinc vasitələrlə həllinə fəal kömək etmək əzmində olduğunu bildirmişdir.

Tərəflər münaqişənin Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin 2008-ci il noyabrın 2-də imzaladıqları Moskva Bəyannaməsi əsasında həllinə tərəfdar olduqlarını bildirmişlər.

XARİCİ İŞLƏR NAZİRİNİN İRANA SƏFƏRİ

Martın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyətinin İran İslam Respublikasına səfərə gəlmişdir.

Həmin gün Birləşmiş Millətlər Təşkilatı tərəfindən bu ildən etibarən Novruz bayramına beynəlxalq status verilməsi münasibəti ilə İranda təşkil olunmuş mərasimin açılışı olmuşdur.

Mərasimi giriş sözü ilə açan İranın xarici işlər naziri Manuçöhr Mottəki qədim tarixə malik Novruzun əhəmiyyətindən bəhs etmişdir.

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov mərasimdə çıxış etmişdir.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz Bayramın münasibətilə təbriklərini tədbir iştirakçılarına çatdırmışdır.

Novruzun Azərbaycanda ən sevimli bayramlardan biri olduğunu bildirən E. Məmmədyarov onun ölkəmizdə milli bayram kimi geniş şəkildə qeyd olunduğunu vurğulamışdır. Nazir bildirmişdir ki, baharın gəlişini, təbiətin oyanışını və gözəlliyini əks etdirən Novruz uzun tarix boyu öz aktuallığını qoruyub saxlamış və bəşəri irsin bir hissəsinə çevrilmişdir. 2009-cu ildə Novruzun YUNESKO-nun Bəşəriyyətin Toxunulmaz Mədəni İrsi siyahısına daxil edildiyini bildirən Elmar Məmmədyarov Azərbaycanın təşəbbüsü və Novruz bayramının qeyd olunduğu ölkələrin dəstəyi ilə 2010-cu il fevralın 18-də BMT-nin Baş Məclisində 21 martın Beynəlxalq Novruz Günü elan olunması barədə qətnamənin qəbul olunduğunu diqqətə çatdırmışdır.

Novruz şənliklərinin beynəlxalq əhəmiyyət kəsb etməsindən məmnunluğunu vurğulayan nazir ümidvar olduğunu bildirmişdir ki, beynəlxalq bayram statusunu əldə etməklə Novruz özünün dərin fəlsəfəsindən irəli gələn dəyərləri ilə bütün xalqları birləşdirəcək, mədəniyyətlər arası dialoqu və anlayışı təşviq edəcək, habelə dünyada sülhü və əmin-amanlığı gücləndirəcəkdir.

Martın 28-də xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin İran İslam Respublikasına səfəri başa çatmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

Martın 30-da ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa) və Yuri Merzlyakov (Rusiya) birgə bəyanat yaymışlar.

ATƏT-in rəsmi saytında yerləşdirilmiş bəyanatda bildirilir ki, həmsədrlər martın 26-dan 29-dək Yerevan və Dağlıq Qarabağda səfərdə olmuşlar. Martın 27-də Dağlıq Qarabağın de-fakto rəhbərliyi (Dağlıq Qarabağdakı separatçı rejimin rəhbərliyi) danışıqların hazırkı vəziyyəti barədə məlumatlandırılmış, martın 28-də isə həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasına xidmət edən Baza Prinsiplərinə Ermənistan tərəfinin şərhlərini müzakirə etmək məqsədilə Yerevanda prezident Serj Sarkisyan və xarici işlər naziri Edvard Nalbandyan ilə görüşmüşlər.

Ermənistanda olduqları müddətdə həmsədrlər ayrı-ayrılıqda bir sıra ikitərəfli görüşlər keçirmişlər. Bəyanatın yekununda həmsədrlər münaqişə tərəfləri ilə onlar arasında Paris və regionda keçirilmiş son görüşlərdən sonra tərəflərin münaqişənin Madrid Prinsipləri çərçivəsində sülh yolu ilə nizamlanmasına hazır olduğunu məmnunluqla qeyd etmişlər.

XARİCİ İŞLƏR NAZİRİ BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Martın 30-da xarici işlər naziri Elmar Məmmədyarov Belarus Respublikasının xarici işlər nazirinin müavini İqor Petrişenko ilə görüşmüşdür.

Ölkəmizdə olmasından məmnunluğunu bildirən qonaq Belarus-Azərbaycan əlaqələrinin mövcud vəziyyətini yüksək qiymətləndirmiş və münasibətlərin daha da dərinləşdirilməsi üçün geniş imkanların olduğunu qeyd etmişdir.

Nazir E.Məmmədyarov tarixən iki xalq arasında sıx münasibətlərin olduğunu, siyasi, iqtisadi, humanitar, təhsil və digər sahələrdə Azərbaycan-Belarus münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini, o cümlədən ölkə prezidentləri arasında xoş münasibətlərin hər iki ölkə arasındakı əlaqələrin daha da dərinləşməsinə təkan verdiyini qeyd etmişdir.

Tərəflər kənd təsərrüfatı, infrastruktur və digər sahələrdə həyata keçirilən birgə layihələri yüksək qiymətləndirmişlər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

AZƏRBAYCAN VƏ BELARUS XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR

Martın 30-da Azərbaycanda səfərdə olan Belarusun xarici işlər nazirinin birinci müavini, nümayəndə heyətinin rəhbəri İqor Petrişenkonun və Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərliyi ilə iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir.

Danışıqlar zamanı ikitərəfli münasibətlərin inkişafı, yüksək səviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsi, parlamentlərarası əlaqələrin intensivləşdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində ikitərəfli əməkdaşlığın əlaqələndirilməsi, Avropa İttifaqının (Aİ) "Şərq tərəfdaşlığı" təşəbbüsü çərçivəsində, eləcə də regionlararası əməkdaşlıq, konsulluq məsələləri üzrə qarşılıqlı fəaliyyət, müqavilə-hüquq bazasının möhkəmləndirilməsi, Xarici İşlər nazirlikləri arasında tematik məsləhətləşmələrin keçirilməsi və digər aktual məsələlər müzakirə olunmuşdur.

Görüşdə iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd olunmuş, iqtisadi, o cümlədən maşınqayırma, aqrosənaye kompleksi, logistika, təhsil, mədəniyyət və humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Qonaqlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat təqdim edilmiş, münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunmasının və Ermənistanın təcavüzünün ağır nəticələrinin aradan qaldırılmasının regionda davamlı sülhə nail olmağın yeganə yolu olduğu bildirilmişdir.

Qeyd edilmişdir ki, ölkələrimizin BMT, ATƏT, Aİ çərçivəsində qarşılıqlı fəaliyyəti, habelə Aİ-nin "Şərq tərəfdaşlığı" təşəbbüsü əlaqələrin daha da dərinləşməsi üçün geniş imkanlar açmışdır.

Görüşdə habelə, XİN-in Azərbaycan Diplomatik Akademiyasının yaradılması və fəaliyyəti barədə söz açılmış, diplomatik kadrların hazırlanması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq imkanları müzakirə edilmişdir.

Qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında da görüşdə fikir mübadiləsi aparılmışdır.

İ.Petrişenko səfəri çərçivəsində Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər naziri Elmar Məmmədyarov və Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovla görüşmüşdür.

Səfər çərçivəsində İ.Petrişenko Azərbaycan Diplomatik Akademiyasında olmuş, təhsil ocağının fəaliyyəti və tədris prosesi ilə yaxından tanış olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Vatikanın ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Vatikan arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 1-də BMT-nin baş katibi Pan Gi Mun Orta Asiyaya səfər edərkən Bakıda nazir Elmar Məmmədyarovla görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində görü-

lən işlər müzakirə olunmuşdur. Nazir E.Məmmədyarov baş katibə münaqişənin həlli istiqamətində aparılan danışıqların son vəziyyəti və Azərbaycanın tutduğu mövqe barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər.

BMT-nin baş katibi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasına ümid etdiyini bildirmiş, münaqişənin həllinin bütün regiona müsbət təsir edəcəyinə əminliyini diqqətə çatdırmışdır. Nyu-Yorkda Haitidə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasına həsr edilmiş donorlar konfransının yekunlarına toxunan Pan Gi Mun Azərbaycanın bu məsələdə dəstəyini xüsusi vurğulamışdır.

Görüşdə tərəflər regionda baş verən proseslər ətrafında fikir mübadiləsi də aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QILINCOYNATMA FEDERASİYASININ PREZİDENTİ ALİŞER USMANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Alişer Usmanovu qəbul etmişdir.

Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Alişer Usmanov Azərbaycanda idmana, o cümlədən Qılıncoynatma Federasiyasının fəaliyyətinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, əminliklə qeyd etdi ki, bu idman növü üzrə yaxşı ənənələrə malik olan Azərbaycanda dövlət səviyyəsində göstərilən qayğının nəticəsində idmançılarımız yeni uğurlar qazanacaqlar.

Dövlətimizin başçısı qılıncoynatma üzrə gənclər və yeniyetmələr arasında dünya çempionatının ölkəmizdə keçirilməsinin əhəmiyyətinə toxunaraq Beynəlxalq Qılıncoynatma Federasiyasının və onun prezidentinin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirdi. Azərbaycanda ümumilikdə idmanın və onun ayrı-ayrı növlərinin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev bu cür tədbirlərin keçirilməsinin Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığının daha da genişlənməsi və ölkəmizdə qılıncoynatma idman növünün sürətlə inkişafı işinə təkan verəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİN ANKARAYA SƏFƏRİ

Martın 31-də Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfərə gəlmişdir.

Ankaranın Esenboğa hava limanında nümayəndə heyətini Türkiyə Prezidenti katibliyinin baş katibi Mustafa İsen, Azərbaycanın Türkiyədəki səfiri Zakir Həşimov qarşılamışlar.

Azərbaycanın nümayəndə heyəti Anıtqəbirə gəldi. Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün mavzoleyinə əklil qoyuldu. Sonra Ramiz Mehdiyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı və Anıtqəbirdəki muzeylə tanış oldu.

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcə Türkiyə Milli Təhlükəsizlik Şurasında qurumun baş katibi Sərdar Kılıç ilə görüşdü. Görüşdə qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonra nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin sədri Murad Mərcanla görüşdü. Azərbaycandan gəlmiş hörmətli qonaqları salamlayan Murad Mərcan bildirdi ki, Türkiyədə iqtidar və müxalifətdə olmağından asılı olmayaraq, bütün deputatlar qardaş Azərbaycanın problemlərini öz problemləri kimi dəyərləndirirlər.

Ramiz Mehdiyev bildirdi ki, bu gün mən öz Vətənimə gəlmişəm və burada öz qardaşlarımla görüşürəm. Ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamının arxasında dərin mahiyyət dayanır. Bu, ilk növbədə türk xalqlarının tarixi keçmişi ilə bağlıdır. Biz həqiqətən bir millətik. Sadəcə, tarixi proseslər iki dövlətin yaranmasına səbəb olmuşdur. Bu gün dövlətlərimiz arasında əlaqələr ən yüksək zirvədədir. Burada qardaşlarımla fikir mübadiləsi aparmaq, söhbət etmək mənə çox xoşdur.

Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti daha sonra Ankaradakı Qazi Universitetinə gəldi. Universitetin rektoru Rıza Ayhan qonaqlara bu ali təhsil ocağı barədə ətraflı məlumat verdi. Universitetlə tanışlıqdan sonra Ramiz Mehdiyev konfrans zalında "Azərbaycanın müasir vəziyyəti və Azərbaycan-Türkiyə əlaqələri" mövzusunda məruzə etdi. Natiq bildirdi ki, müstəqil Azərbaycanın dövlət quruculuğu 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlamışdır. İqtisadi yüksəlişin təməlini qoyan "Əsrin müaqviləsi" imzalandıqdan sonra ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi güclənmişdir. Ulu öndərin siyasi kursunun layiqli davamçısı İlham Əliyev bütün varlığı ilə öz xalqına xidmət göstərir. Dövlətimizin başçısı bütün ölkə həyatının modernləşməsi, iqtisadi və siyasi sistemin Avropa standartları səviyyəsinə qaldırılması, rəqabətədavamlı innovasiyalı cəmiyyət quruculuğunu prioritet sahələr elan etmişdir. Azərbaycan Cənubi Qafqazın ən dinamik inkişaf edən ölkəsidir və ümumi daxili məhsulun artım həcminə görə dünyada da liderdir. Xarici siyasət isə balanslaşdırılmış təməldə aparılır. Bu siyasətdə qardaş Türkiyənin xüsusi yeri vardır. Bizim münasibətlərimizin regionda və dünyada analoqu yoxdur. Müstəqilliyinin ilk günlərindən Türkiyənin dəstəyini hiss edən Azərbaycan indi güclənmiş və Türkiyəyə də dəstək olmuşdur.

Məruzədən sonra Ramiz Mehdiyev tələbələrin suallarını cavablandırmışdır. Universitetin rəhbərliyinin adından ona xatirə hədiyyəsi təqdim olunmuşdur.

Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti Çankaya köşkünə gələrək Türkiyə Prezidenti Katibliyinin iş prinsipi ilə də tanış olmuşdur. Qonaqlar Atatürkün evini də gəzmişlər.

Sonra nümayəndə heyəti Bilkənddə Ali Doğramacı Paşa məscidinə gələrək burada Azərbaycanın böyük dostu, professor İhsan Doğramacının məzarı önünə əklil qoymuşdur. Ramiz Mehdiyev Doğramacı ailəsini də ziyarət etmiş, onlara başsağlığı vermişdir.

Aprelin 1-də - səfərin ikinci günü Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Ramiz Mehdiyevin və nümayəndə heyətinin şərəfinə ziyafət təşkil etmişdir. Türkiyə xari-

ci siyasət idarəsinin başçısı Ankaranın xarici siyasət kursundan ətraflı bəhs etmiş, Türkiyənin hər zaman qardaş Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəyini vurğulamışdır.

Səmimi qəbula görə təşəkkürünü bildirən Ramiz Mehdiyev dünyanın güclü və aparıcı ölkələrindən biri olan qardaş Türkiyənin məruz qaldığı ikili standartlara qarşı mübarizədə Azərbaycanın hər zaman onun yanında olacağını söyləmişdir.

Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti daha sonra Ankaradakı Heydər Əliyev Parkına gəlmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin burada ucaldılmış abidəsinin önünə tər çiçəklər qoyulmuşdur. Nümayəndə heyəti parkı gəzmiş, buradakı abadlıq işlərindən məmnun qalmışdır.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşmüş, Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını Türkiyə hökumətinin başçısına çatdırmışdır. Rəcəb Tayyib Ərdoğan da onun səmimi salamlarını Azərbaycan dövlətinin başçısı İlham Əliyevə çatdırmağı xahiş etmişdir.

Görüşdə qardaş ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğu, Azərbaycanın və Türkiyənin dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərlərinin bu münasibətlərin möhkəmlənməsinə töhfə verdiyi vurğulanmışdır. Tərəflər beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

Sonra Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahinlə görüşmüşdür.

Məhmət Əli Şahin bildirmişdir ki, qardaş ölkələrimizin parlamentləri arasında təkcə sədrlər səviyyəsində deyil, müxtəlif səviyyələrdə faydalı əməkdaşlıq mövcuddur. Deputatlarımız beynəlxalq konfranslarda və tədbirlərdə ölkələrimizin maraqlarını birgə müdafiə edirlər. Türkiyə parlamentinin sədri Azərbaycanın sürətli inkişafına və beynəlxalq aləmdə getdikcə güclənməsinə diqqət çəkmişdir.

Ramiz Mehdiyev bildirmişdir ki, Türkiyə dünya və bölgə siyasətində mühüm rolu olan böyük dövlətdir. Son illər qardaş dövlətimizin beynəlxalq nüfuzu getdikcə artır. Bu fikirlər Rəcəb Tayyib Ərdoğanla görüşdə də səsləndi. Bizim dövlət və hökumət nümayəndələrimiz daha tez-tez görüşməlidirlər.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri ölkəmizin işğal olunmuş torpaqları azad edilməyənə qədər Ermənistanla imzalanmış protokolların ratifikasiya olunmayacağına dair Türkiyənin parlament rəhbərliyinin bəyanatlarından məmnunluğunu ifadə etdi. Bu qəti mövqe üçün Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə rəhbərliyinə təşəkkürünü çatdırdı.

Aprelin 2-də səfər çərçivəsində Ramiz Mehdiyev İstanbuldakı "Çırağan" sarayında Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşmüşdür.

Tədbiri Türkiyə Prezidenti Katibliyinin baş katibi Mustafa İsen açaraq, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Ankarada keçirdiyi görüşlər barədə məlumat vermişdir.

Sonra Ramiz Mehdiyev çıxış edərək bildirdi ki, Türkiyəyə rəsmi səfəri çox məhsuldar olmuş və onun nəticələrindən məmnundur. Üçgünlük səfər çərçivəsində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, parlamentin sədri Məhmət Əli Şahin və digər dövlət, hökumət rəhbərləri ilə faydalı fikir mübadiləsi olmuşdur. Qazi Universitetində Azərbaycan-Türkiyə münasibətləri ilə bağlı dəyərli müzakirələr aparılmışdır.

"Hürriyyət", "Sabah", "Star" "Haber-türk" "Zaman" və digər nüfuzlu mətbuat orqanlarının Azərbaycanla bağlı suallarına cavab verən Ramiz Mehdiyev bildirmişdir ki, Azərbaycan bu gün çox sürətlə inkişaf edir və Qərb analitiklərinin rəyinə görə regionun lider dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətçiliyinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Ümummilli liderin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İndi paytaxt Bakı ilə yanaşı, regionların da dinamik inkişafı prosesi gedir. Ölkəmizdə iqtisadi vəziyyət çox yaxşıdır. Dünyanı bürümüş maliyyə və iqtisadi böhran şəraitində Azərbaycanda iqtisadi artım 9,3 faiz təşkil etmişdir. Azərbaycanda insan haqları sahəsində mühüm islahatlar həyata keçirilmişdir. Prezident İlham Əliyevin siyasəti Azərbaycanı demokratik və inkişaf etmiş ölkələr sırasına çıxarır. Azərbaycan-Türkiyə münasibətləri də ən yüksək səviyyədədir və bu əlaqələrə heç kim müdaxilə edə bilməz. Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun İlham Əliyev kimi rəhbəri vardır. Ona böyük xalq sevgisi vardır və xalqımız onun siyasətini dəstəkləyir.

Prezident Administrasiyasının rəhbəri Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyindən də ətraflı bəhs etmişdir. O vurğulamışdır ki, Türkiyə rəhbərliyinin Azərbaycan torpaqları işğaldan azad olunmayınca Ermənistanla protokolların təsdiq olunmayacağı barədə bəyanatları xalqımızı məmnun edir. Unutmaq lazım deyil ki, Ermənistan təkcə Azərbaycan torpaqlarına deyil, Türkiyənin ərazilərinə də göz dikmişdir. Rəsmi Yerevan danışıqlar prosesində qeyri-konstruktiv mövqe nümayiş etdirir və Madrid prinsipləri ilə razılaşmadığını bəyan edir. Doğrudur, bu prinsiplər Azərbaycanı qane etməsə də, biz bunu bir mərhələ kimi qiymətləndiririk. Təəssüf ki, 20 ildir münaqişənin nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupu işğalçı Ermənistandan təcavüzə son qoymağı tələb etmir. Azərbaycan indi hərbi sənayesini inkişaf etdirir və güclü ordu qurmuşdur. Biz, torpaqlarımızı işğaldan istənilən şəkildə azad etmək hüququna malikik. Eyni zamanda, Azərbaycan Türkiyə əleyhinə erməni lobbisi və onların havadarlarının fəaliyyətinə qarşı mübarizədə qardaş ölkəni dəstəkləyir. Prezident İlham Əliyev ABŞ Konqresi Xarici Əlaqələr Komitəsinin qondarma "erməni soyqırımı" qərarından sonra bəyanat verərək, qardaş Türkiyənin yanında olduğunu bildirmişdir. Son zamanlar Rusiya və Türkiyənin Dağlıq Qarabağ probleminin həlli istiqamətində səylərinin güclənməsi də Azərbaycanda məmnunluqla qarşılanır.

Ramiz Mehdiyev qardaş ölkələrimizin bəzi mətbuat nümayəndələrini bir-birinə qarşı yazılar dərc etməkdən uzaq durmağa, əsas diqqəti dövlətlərimizə və xalqlarımıza qarşı düşmən olan qüvvələrlə mübarizəyə yönəltməyə çağırmışdır.

Görüşdən sonra "Topqapı" sarayında İstanbul valisi Müəmmər Gülərin adından Azərbaycan Prezidenti Administrasiyasının nümayəndə heyətinin şərəfinə ziyafət təşkil olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ÜZVÜ, ÜMUMDÜNYA BƏRPA OLUNAN ENERJİ ŞURASININ HƏMSƏDRİ HERMANN ŞHEERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Almaniya Bundestaqının üzvü, Ümumdünya Bərpa Olunan Enerji Şurasının həmsədri Hermann Şheeri qəbul etmişdir.

Almaniya Bundestaqının üzvü, Ümumdünya Bərpa Olunan Enerji Şurasının həmsədri Hermann Şheer Azərbaycanda sürətli iqtisadi inkişafın getdiyini qeyd etdi. Ölkəmizdə energetika sahəsində böyük uğurlar əldə olunduğunu bildirən qonaq Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin bərpa olunan enerji potensialından səmərəli şəkildə istifadə edilməsinə diqqət yetirdiyini dedi. O, Azərbaycanın dünyada alternativ enerji mənbələrinə böyük önəm verən ölkələrdən biri olduğunu vurğulayaraq qeyd etdi ki, səfərinin məqsədi bu sahədə Azərbaycanda həyata keçirilən işlərin hazırkı vəziyyəti və perspektivləri ilə yaxından tanış olmaqdan ibarətdir.

Dövlətimizin başçısı ölkəmizdə iqtisadiyyatın bütün sahələrinin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda həyata keçirilən uğurlu enerji siyasəti ölkəmizin uzunmüddətli enerji təminatının möhkəm əsaslarını yaradıb. Dövlətimizin başçısı qeyd etdi ki, hazırda Azərbaycan alternativ enerji mənbələrinin yaradılmasına böyük diqqət verir və bu sahədə dünyanın qabaqcıl şirkətləri ilə əməkdaşlıq etməyə hazırdır.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYAYA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Estoniyaya dövlət səfərinə gəlmişdir.

Azərbaycanın və Estoniyanın dövlət bayraqları ilə bəzədilmiş Tallinnin Lennart Meri adına Beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Estoniyanın yüksək vəzifəli rəsmi şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar.

Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

TALLİNNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

Aprelin 7-də Estoniyada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyevin Tallinndə, Kadriorqdakı Prezident sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.

Azərbaycanın və Estoniyanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Estoniya Prezidenti Toomas Hendrik İlves və xanımı Evelin İlves Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Estoniyanın dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Estoniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycanın nümayəndə heyətinin üzvləri isə Estoniya Prezidenti Toomas Hendrik İlvesə təqdim olundu.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Estoniya Prezidenti sarayının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Sonra hədiyyələr təqdim edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 7-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi.

Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı və münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR

Aprelin 7-də Tallinndə təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Estoniya Respublikasının Prezidenti Toomas Hendrik İlves birgə Bəyannamə imzaladılar.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Aprelin 7-də Azərbaycan Prezidenti İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu səfərin ikitərəfli əlaqələrin inkişafı və gələcək əməkdaşlığımızın genişlənməsi baxımından əhəmiyyəti qeyd olundu. Azərbaycan ilə Estoniya arasında münasibətlərin, o cümlədən iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Prezidentlər ikitərəfli münasibətlərin Azərbaycan-Avropa İttifaqı əlaqələri çərçivəsində vacibliyini vurğuladılar.

DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Geniş tərkibdə görüşdən sonra prezidentlər İlham Əliyev və Toomas Hendrik İlves mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN BƏYANATI

- Mən çox şadam ki, əziz dostum, Azərbaycan Prezidenti İlham Əliyev hazırda Estoniyada səfərdədir. Bu, ötən il Bakıya etdiyimiz çox uğurlu səfərin davamıdır. Fəaliyyətim boyu görüşdüyüm insanlarla, xüsusən də Sizin kimi yüksək intellektual səviyyəyə malik şəxsiyyətlərlə hər zaman yaxşı müzakirələrimiz olub.

Təbii ki, ölkələrimiz arasında münasibətlər çox yaxşıdır. Azərbaycan Xəzər regionunun aparıcı ölkəsi kimi əsrlər boyu enerji sahəsində əsas iştirakçı olub. Biz əminliklə qeyd edə bilərik ki, Azərbaycan ilə Estoniya bir-biri ilə rəqabət aparan deyil, bir-birini tamamlayan ölkələrdir. Elə cənab Prezident də bunu belə qeyd etdi. Ölkələrimiz qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni yolları birgə müəyyən edə bilər.

Biz Avropa İttifaqının üzvü kimi istəyirik ki, Avropa İttifaqı Dünya Ticarət Təşkilatına üzvlük və digər bu kimi mühüm məsələlərdə Azərbaycanı daha dəstəkləyici mövqe ilə çıxış etsin. Avropa İttifaqının üzvü kimi Estoniya Azərbaycan ilə əlaqələri daha da sıx qurmaqda maraqlıdır. Biz bundan sonra çalışacağıq ki, bu məsələyə bacardığımız qədər töhfəmizi verək. Çünki hesab edirik ki, Azərbaycan Avropanın gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edir. Avropanın gələcəyindən asılı olmayaraq, Azərbaycan Avropanın ən mühüm tərəfdaşı və qonşularından biri olaraq qalacaqdır.

Biz bu gün burada bir çox məsələləri müzakirə etdik. Onların sırasında ikitərəfli münasibətləri, qonşu ölkələrlə əlaqələri, regional məsələləri qeyd etmək olar. Biz NATO ilə əlaqələrimizi müzakirə etdik, öz regionlarımızda təhlükəsizlik anlayışı ilə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan Prezidentinin burada olması çox mühüm tarixə təsadüf edir. Sabah Azərbaycanın eston icmasının 100 illiyi qeyd ediləcəkdir. Bir sözlə, cənab Prezident, səfəriniz çox mühüm tarixi hadisə ilə üst-üstə düşür. Yüz il əvvəl Azərbaycanın eston icması mütəşəkkil forma alıb. Düzdür, onun formalaşması həmin tarixdən də əvvələ təsadüf edir. Lakin məhz 100 il bundan öncə eston icması rəsmən qeydiyyatdan keçib. Sabah eston icmasının 100 illiyidir. Hesab edirəm ki, əlaqələrimizin 100-cü ildönümü onu göstərir ki, biz münasibətlərimizi davam etdirməliyik və yeni əməkdaşlıq ideyaları ilə çıxış etməliyik. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Cənab Prezident, əvvəlcə, gözəl ölkənizə səfər etmək məqsədi ilə dəvətinizə görə minnətdarlığımı bildirirəm.

Burada olmağımdan və Sizinlə olduqca fəal dialoqumuzu davam etdirməkdən çox şa-

dam. Bu dialoq bir il öncə Azərbaycana etdiyiniz səfər zamanı başlanmışdır. Bu, Estoniya Prezidentinin Azərbaycana ilk səfəri idi. Bu gün isə Azərbaycan Prezidentinin Estoniyaya ilk səfəridir. Münasibətlərimizin dinamikası və görüşlərimizin mütəmadi olması qarşılıqlı marağı nümayiş etdirir. Eyni zamanda, bu, onu göstərir ki, ölkələrimiz arasında geniş münasibətlərin olmasında hər iki tərəfin iradəsi vardır. Bizim çox güclü siyasi dialoqumuz mövcuddur. Ümidvaram ki, bu səfər və səfərim zamanı imzalanmış sənədlər iqtisadi münasibətlərin güclü inkişafına xidmət edəcək.

Humanitar sahədəki əlaqələr hər zaman mühüm olmuşdur. Biz ikitərəfli münasibətlərimizin bu aspektini də geniş şəkildə müzakirə etdik. İnsanlarımız bir-birini daha yaxşı tanımalıdır, - bir-biri ilə daha çox ünsiyyətdə olmalıdır. Birgə iqtisadi və sərmayə layihələrini həyata keçirməlidirlər. Başqa sözlə desək, bu münasibətlərin inkişaf etdirilməsi məqsədi ilə fikrimcə, biz bu cür qarşılıqlı, möhkəm iradənin olmasından istifadə etməliyik. Əminəm ki, ölkələrimizdəki biznes dairələri siyasi liderlərin yolunu davam etdirəcəklər və münasibətlərimizi gələcəkdə fəal şəkildə inkişaf etdirmək məqsədi ilə güclü iqtisadi əlaqələr quracaqlar.

Cənab Prezidentin qeyd etdiyi kimi, biz bu gün gündəlikdə duran bir çox ikitərəfli və beynəlxalq məsələləri geniş şəkildə müzakirə etdik. Mən Ermənistan ilə Azərbaycan arasında münaqişənin nizamlanması sahəsində baş vermiş son hadisələr barədə cənab Prezidentə məlumat verdim. Təxminən 20 il ərzində torpaqlarımızın işğal altında olması faktı onu göstərir ki, məsələnin beynəlxalq səviyyədə tanınmış normalara və BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən, sülh yolu ilə həllinə yönəlmiş bütün səylərimizə baxmayaraq, Ermənistanın hələ də qeyri-konstruktiv mövqedə olması və sülh prosesini yubatmaq siyasəti münaqişənin həllinə böyük maneə yaradır.

Prosesdə vasitəçi kimi çıxış edən tərəflər, yəni Minsk qrupunun həmsədrləri hər iki tərəfə münaqişənin həlli ilə bağlı təklif veriblər. Bu təklif beynəlxalq səviyyədə tanınmış normalara, beynəlxalq təşkilatların qətnamə və qərarlarına əsaslanır. Ümumən, həmin təklif çox kiçik istisnalarla üç ay bundan əvvəl Azərbaycan tərəfindən rəsmən və açıq şəkildə qəbul edilib. Lakin əfsuslar olsun ki, biz Ermənistan tərəfindən eyni yanaşmanı görmədik. Beləliklə, Azərbaycan həmin təkliflə irəliyə doğru getməyə hazırdır. Lakin biz Ermənistan tərəfindən adekvat cavabı görmədik. Bu, bizim şübhələrimizi daha da artırır ki, Ermənistan sadəcə status-kvonu saxlamaq fikrindədir, öz qoşunlarını işğal edilmiş ərazilərdən çıxarmaq istəmir, prosesi yubatmaq arzusundadır və müəyyən mərhələdə qaçmağı üstün tutur. Hesab edirəm ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə birbaşa məşğul olan dairələr, o cümlədən Avropa təsisatları Azərbaycana qarşı aparılmış etnik təmizləmə siyasətinin nəticələrini aradan qaldırmaq, 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma yerlərinə qayıtmağına imkan vermək və işğala son qoymaq məqsədi ilə suveren ölkənin 20 faiz ərazisini qeyri-qanuni olaraq işğal altında saxlayan Ermənistanı inandırmaq üçün səylərini artırmalıdırlar. Bundan sonra regionda sülh bərqərar oluna bilər.

Bu məsələdən başqa, biz enerji əməkdaşlığını müzakirə etdik. Bu əməkdaşlığın güclü potensialı və artıq yaxşı nəticələri vardır. Regional vəziyyəti müzakirə etdik. Deyə bilərəm ki, ölkələrimiz arasında çox yüksək qarşılıqlı anlaşma vardır. Fikrimcə, Estoniya və Azərbaycan kimi ölkələr arasındakı əməkdaşlıq Xəzər, Qara və Baltik dənizləri regionlarında da daha yaxşı anlaşmanın yaranmasına xidmət edəcəkdir.

Hesab edirəm ki, mən bu sözlərlə öz şərhlərimi yekunlaşdıra bilərəm və münasibətlərimizi irəliyə doğru aparmaqda səmimi arzularımızı bildirirəm. Cənab Prezidentlə dost münasibətlərimizi nəzərə alaraq, mən nümayəndə heyətinin bütün üzvlərindən xahiş edərdim ki, bu müsbət nümunədən istifadə etsinlər və öz aralarında yaxşı münasibətlər yaratsınlar. Eyni zamanda, Azərbaycandakı eston cəmiyyətinin 100 illiyi münasibətilə azərbaycanlıları və estonları təbrik edirəm. Bu, onu göstərir ki, xalqlarımız arasında ünsiyyətin qədim tarixi vardır. Bu gün biz inkişafın bu mərhələsində belə müsbət tarixi nümunədən istifadə etməliyik. Sağ olun!

TALLİNNDƏ MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏ ABİDƏSİNİ ZİYARƏT

Estoniyada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev aprelin 7-də Tallinndəki Vabaduze meydanına gələrək, Müstəqillik uğrunda mübarizə abidəsini ziyarət etmişdir.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestrin ifasında Azərbaycanın və Estoniyanın dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu və Estoniyanın müstəqilliyi uğrunda həlak olmuş azadlıq mübarizlərinin xatirəsini yad etdi.

TALLİNNİN RATUŞASI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 7-də Tallinnin Köhnə şəhərində yerləşən və buranın əsas yerlərindən olan Ratuşaya gəlmişdir.

Şəhərin meri Edqar Savisaar Prezident İlham Əliyevi Ratuşanın önündə qarşıladı.

Tallinnin meri Azərbaycan dövlətinin başçısını salamlayaraq vurğuladı ki, 600 il bundan əvvəl şəhərin bu tarixi abidəsi barədə çox mühüm bir qərar qəbul olunmuşdur. Qərara əsasən şəhərin yüksək səviyyəli qonaqlarını burada qarşılayırlar.

Tallinnin tarixi və bu günü haqqında ətraflı məlumat verən E.Savisaar bildirdi ki, Şimali Avropanın qədim paytaxtlarından biri olan bu şəhər Estoniyanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır. Əsrlər boyu Tallinn çoxmillətli şəhər olmuşdur. Hazırda burada 120 millətin nümayəndələri yaşayır.

Bu qədim şəhərdə 700-dək azərbaycanlının yaşadığını qeyd edən mer, həmvətənlərimizin Azərbaycan ilə Estoniya arasında ən yaxşı körpü olduğunu vurğuladı.

E.Savisaar bildirdi ki, Estoniyada yaşayan azərbaycanlılar bu ölkədə uğurla fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində birləşmişlər. Mərkəz azərbaycanlıların həmrəy olmasına, dilinin, adət-ənənələrinin qorunmasına və Azərbaycan-Estoniya münasibətlərinin inkişafına xidmət edir. Biz çox şadıq ki, Tallinndə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan Azərbaycan uşaq bağçası da fəaliyyət göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev Ratuşanın Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra Prezident İlham Əliyev Tallinnin meri Edqar Savisaarın müşayiəti ilə Ratuşanın binası ilə tanış oldu.

Bildirildi ki, XV əsrin əvvəlində mərkəzi ticarət meydanında inşa edilmiş bu tarixi abidə dövlət tərəfindən Şimali Avropanın yeganə qotik üslubda olan memarlıq incisi kimi qorunur. Estoniya paytaxtına gələn turistlərin diqqətini daha çox çəkən 600 illik tarixə malik Ratuşada əsrlər boyu magistrat üzvləri - ratmanlar şəhər həyatının mühüm məsələlərini müzakirə etmişlər. Bu gün isə burada rəsmi mərasimlər, sərgilər, konsertlər keçirilir. İkimərtəbəli tarixi binada Ratuşa, Bürqer, Magistr, Ticarət, Podval zalları və dövlət xəzinə idarəsi yerləşir.

Ratuşa ilə tanışlıq zamanı bildirildi ki, Tallinnə xüsusi yaraşıq verən bu tarixi memarlıq abidəsinin ən əsas elementlərindən biri də paytaxtın rəmzi olan və bir çox əfsanələrdə xatırlanan "Qoca Tomas" yelqovanıdır. Bu yelqovan 1530-cu ildə Ratuşanın qülləsində qurulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN BAŞ NAZİRİ ANDRUS ANSİP İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 7-də Tallinndə Estoniyanın Baş naziri Andrus Ansip ilə görüşmüşdür.

Prezident İlham Əliyev və Baş nazir Andrus Ansip şəhərin mənzərəsini seyr etdilər.

Səmimi söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, bu sahədə əlaqələrin genişlənməsi üçün yaxşı potensialın mövcudluğu vurğulandı. Azərbaycan ilə Estoniya arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev və Estoniyanın Baş naziri Andrus Ansip Elmlər Akademiyasının binasında birgə nahar etdilər.

Azərbaycan dövlətinin başçısı Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ MÜHAZİRƏ İLƏ ÇIXIŞ ETMİŞDİR

Aprelin 7-də Estoniyada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev bu ölkənin Xarici İşlər Nazirliyində mühazirə ilə çıxış etmişdir.

Dövlətimizin başçısı əvvəlcə Avropa İttifaqı Nazirlər Şurasının keçmiş baş katibi, hazırda qurumun ümumi xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Xavyer Solana və ABŞ dövlət katibinin keçmiş müavini Strob Talbotla görüşdü.

Tədbirin aparıcısı görüşü açaraq dedi:

- Zati-aliləri, xanımlar və cənablar, sizi salamlayırıq. Bu gün buraya, Estoniya Xarici Siyasət İnstitutuna gəlmiş olduqca xüsusi qonağımız, Azərbaycan Prezidenti cənab İlham Əliyevi görməkdən çox məmnunuq. Bu, Azərbaycan Prezidentinin Estoniyaya ilk dövlət səfəridir. Buna görə, hesab edirəm ki, səfər çox əhəmiyyətlidir. Cənab Prezident bu gün mühazirə söyləməyə razılıq vermişdir və mən sizin qiymətli vaxtınızı almaq istəmirəm. Beləliklə, cənab Prezident, sözü birbaşa Sizə verirəm. Buyurun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Çox sağ olun.

Hörmətli xanımlar və cənablar!

Bu gün burada olmağıma və ikitərəfli münasibətlərlə, eləcə də regional məsələlərlə bağlı fikirlərimi sizinlə bölüşməkdən çox şadam. Elə burada indicə qeyd olundu ki, bu, mənim Estoniyaya ilk dövlət və münasibətlərimizin tarixində ilk səfərimdir. Demək istəyirəm ki, ölkələrimiz arasında əlaqələrimizin uzun tarixi vardır. Bu gün Estoniya Prezidenti ilə birgə mətbuat konfransımız zamanı o qeyd etdi ki, sabah Azərbaycanda eston cəmiyyətinin yaradılmasının 100 illiyi qeyd olunacaqdır. Beləliklə, sözün əsl mənasında, bu, xalqlarımız arasında münasibətlərin qədim tarixindən xəbər verir. Biz bir ölkədə yaşayırdıq və bu səbəbdən, əlbəttə ki, xalqlar arasında əlaqələr və ünsiyyət təbii xarakter daşıyırdı. Lakin mühüm amil ondan ibarətdir ki, hazırda müstəqil dövlətlər, suveren ölkələr kimi Estoniya və Azərbaycan qarşılıqlı hörmətə, maraqlara əsaslanan əlaqələr qurmuşlar. Bu münasibətlərin çox güclü dinamikası vardır.

Ötən il tariximizdə digər mühüm hadisə baş verdi. Estoniya Prezidentinin Azərbaycana ilk rəsmi səfəri baş tutdu. Bir ildən sonra mən ölkənizə səfər edirəm. 2008-ci ildə Estoniyanın Baş naziri ölkəmizə səfər etmişdir. Beləliklə, bu səfərlər münasibətlərimizin dinamik inkişafının yaxşı göstəricisidir. Əminəm ki, bu səfər nəticəsində əlaqələrimiz daha da güclənəcəkdir. Bu gün biz Prezident və Baş nazirlə ikitərəfli münasibətlərə, regional məsələlərə, o cümlədən beynəlxalq münasibətlərə dair müxtəlif mövzuları müzakirə etdik. Biz ikitərəfli əlaqələrimizi irəliyə aparmaqda güclü mövqedə dururuq. Artıq mövcud güclü siyasi əlaqələri nəzərə alsaq, biz iqtisadi sahəyə diqqət yetirməli və hər iki ölkədə birgə iqtisadi təşəbbüslərin həyata keçirilməsi yolları haqqında düşünməliyik.

Ölkələrimiz sürətlə inkişaf edir. Estoniyada və Azərbaycanda iqtisadi göstəricilər, ölkələrimizdə həyata keçirilmiş islahatların səmərəliliyi göstərir ki, biz irəliyə doğru çox uğurla addımlayırıq. Biz ölkələrimiz arasında ikitərəfli əlaqələri gücləndirmək üçün Azərbaycanın Estoniyada səfirliyinin açılması qərarına gəldik. Ümidvaram ki, səfirlik bu yaxınlarda burada fəaliyyətə başlayacaqdır. Bu gün regional əməkdaşlıq, Baltik, Xəzər və Qara dəniz regionlarının ölkələri arasında əməkdaşlıq məsələlərinin əhəmiyyəti get-gedə artır. Çünki həyata keçirilməsi planlaşdırılan və artıq həyata keçirilən layihələrimizə güclü beynəlxalq dəstək lazımdır. Regionumuzdakı vəziyyət, əlbəttə ki, sizin regionunuzdakı vəziyyətdən fərqlənir. Lakin eyni zamanda, regional məsələlərlə bağlı çox əhatəli fikir mübadiləsi aparmaq, regionumuzda daha sabit, proqnozlaşdırılan və çiçəklənən mühitin yaradılması üzərində düşünmək kimi məsələlər xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Azərbaycan olduqca yüksək iqtisadi inkişaf səviyyəsi ilə seçilən ölkədir. Lakin müstəqilliyimizi bərpa etdiyimiz dövrdə biz ola bilsin ki, keçmiş sovet respublikaları arasında ən ağır vəziyyətdə idik. Çünki ölkədə iqtisadi böhran, siyasi qeyri-sabitlik, vətəndaş müharibəsi kimi hadisələr baş vermişdi. Eyni zamanda, Ermənistanın ölkəmizə qarşı təcavüzü və torpaqlarımızı işğal etməsi, əlbəttə ki, bizim üçün çox ciddi problemlər yaratdı. Bununla belə, siyasi və iqtisadi islahatlar sayəsində və özünü təminetmə siyasəti nəticəsində biz əsas iqtisadi və sosial problemləri aradan qaldırmağa müvəffəq olduq. Hazırda Azərbaycan sürətlə inkişaf edən ölkədir.

Mən bir sıra rəqəmləri sizin nəzərinizə çatdıra bilərəm ki, onlar Azərbaycanın cari inkişaf səviyyəsini əks etdirir. Son altı il ərzində iqtisadiyyatımız demək olar ki, üç dəfə artıb. Bizim iqtisadiyyat son bir neçə ildə dünyada ən sürətlə artan iqtisadiyyatdır. Ölkəmizdə bir sıra əsas infrastruktur layihələrini həyata keçirməyə nail olduq. İşsizliyin və yoxsulluğun azaldılması sahəsində bir çox nailiyyətləri əldə etdik. Azərbaycanda yaşayış şəraiti yaxşılaşır. Son altı ildə büdcə xərclərimiz 10 dəfədən çox artmışdır. Bu, sosial problemlərə və iqtisadiyyatın şaxələndirilməsinə daha çox vəsait sərf etməyə imkan verir.

Siyasi və iqtisadi islahatlar siyasətini həyata keçiririk. Azərbaycanın gördüyü işlər aparıcı beynəlxalq maliyyə təşkilatları tərəfindən qiymətləndirilir. 2008-ci ildə Dünya Bankı Azərbaycanı özünün "Doing Business" hesabatında ən islahatçı ölkə kimi tanımışdır. Ötən il Dünya İqtisadi Forumu iqtisadiyyatımızın rəqabətliliyi baxımından Azərbaycanı MDB ölkələri arasında birinci ölkə elan etdi.

Keçmiş sovet respublikaları arasında bizi qabaqlayan yeganə ölkə Estoniyadır. Mən sizi bu nailiyyət münasibətilə təbrik etmək istəyirəm. Lakin 20 ildən az bir müddət əvvəl bazar iqtisadiyyatı sıfır səviyyəsində olan ölkə üçün dünya miqyasında iqtisadi rəqabətlilik üzrə siyahıda 51-ci yerdə olmaq artıq yaxşı nəticədir. Biz özümüzü təmin edən ölkəyik.

Əlbəttə ki, bizim təbii sərvətlərimiz var, lakin onların əhəmiyyəti yalnız hasil edilib daşınanda göz qabağına gəlir. Ölkəmizin açıq dənizlərə çıxışı yoxdur.

Bu səbəbdən bizim boru kəmərlərinə ehtiyacımız vardır. Açıq qapı və xarici sərmayələrin təşviqi siyasəti sayəsində milyardlarla, on milyardlarla dolları ölkə iqtisadiyyatına, xüsusən də enerji sektoruna cəlb edə bildik. Eyni zamanda, neft və qaz hasilatını gözəçarpan dərəcədə artırmaq və nəinki artırmaq, o cümlədən etibarlı, şaxələndirilmiş daşıma vasitələrini də yaratmağa nail olduq.

Azərbaycan xarici sərmayələrin qanunvericilik əsasında güclü şəkildə qorunduğu ölkədir. Əminəm ki, xarici şirkətlər özlərini ölkəmizdə çox rahat hiss edirlər. İqtisadiyyatımızın enerji sektoru, əlbəttə ki, növbəti bir çox illər ərzində də əsas yeri tutacaqdır. Lakin bu, onunla bağlı deyil ki, digər sektorlarda inkişaf zəifdir. Bunun səbəbi onunla bağlıdır ki, neft və qaz hasilatı artmaqdadır. Bu il neft hasilatı 50 milyon tondan, qaz hasilatı isə 25-26 milyard kubmetrdən artıq olacaqdır. Aydındır ki, qeyri-enerji sektorunun genişləndirilməsinə yönəlmiş ciddi səylərimizə baxmayaraq, həmin iki sektor arasında balansı saxlamaq çox çətin olacaqdır. Lakin eyni zamanda, iqtisadiyyatımız özünü sabit iqtisadiyyat kimi göstərdi. Çünki 2009-cu il böhran ili idi. Bizim üçün bu, daha çətin ola bilərdi. Çünki neftin qiymətləri sürətlə aşağı düşdü. Ancaq buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı 2009-cu ildə 9,3 faiz artmışdır, sənaye istehsalındakı artım 8,4 faiz təşkil etmişdir. İnflyasiya səviyyəsi 1,5 faiz olmuşdur. Milli valyuta öz dəyərini itirmədi. Bu, onu göstərir ki, iqtisadiyyatın şaxələndirilməsi Azərbaycanda artıq reallıqdır.

Enerji sektoru, neft və qaz hasilatı, sadəcə özümüzü rahat hiss etməyə, kiminsə yardımından asılı olmamağa, özünü təmin etməyə imkanlar yaradır. Siz özünüzü təmin edən-

də və iqtisadi baxımdan müstəqil olanda, təbii ki, siyasi müstəqilliyiniz də daha güclü olacaqdır. Onilliklər, əsrlər boyu biz, əgər belə demək olarsa, digər ölkələrin tərkibində yaşamışıq. Azərbaycan digər ölkələrin hissəsi idi, müstəqil deyildi. Bu gün isə, bizim üçün, xalqımız və gələcək nəsillərimiz üçün bu, nadir şansdır. Bizdən öncəki nəsillər müstəqil olmaq məqsədi ilə yaşamışlar. Biz xoşbəxtik və bəxtimiz gətirib ki, bunun şahidiyik və nəinki şahidi, həmçinin müstəqilliyin gücləndirilməsinə, inkişaf etmiş müasir dövlətin qurulmasına töhfəmizi veririk. İqtisadi müstəqillik və özünü təminetmə hər bir ölkə üçün əhəmiyyətli olan iki elementdir.

Eyni zamanda, Azərbaycanda siyasi islahatlar olduqca düzgün istiqamətdə aparılır. Azərbaycan artıq on ildir ki, Avropa Şurasının üzvüdür. Biz bu quruma qəbul olunduğumuz dövrdə götürdüyümüz bütün öhdəlikləri yerinə yetirirdik. Həmçinin biz bu sahədə gözəçarpan tərəqqini görə bilərik. Bu gün Azərbaycanda müasir, inkişaf etmiş və intellektual səviyyəyə malik olan cəmiyyət qurulub. Cəmiyyətimiz tolerantdır. Azərbaycan cəmiyyəti olduqca dünyəvidir. Bu müsbət keyfiyyətlər bizə dövlətçiliyimizi və iqtisadi potensialımızı gücləndirməyə imkan verir.

2010-cu il üçün nəzərdə tutulan bütün planlar həyata keçirilir. Xarici sərmayələrə gəldikdə şirkətlərimiz artıq çox fəaldırlar. Biz xaricdə böyük sərmayələr yatırırıq. Digər ölkələrin nəqliyyat və enerji sektoruna yatırdığımız sərmayələr artıq 7 milyard dollar səviyyəsindədir. Biz bu siyasəti genişləndirməyi planlaşdırırıq, çünki maliyyə vəsaitlərimiz, enerji resurslarımız və artıq qeyd etdiyimiz kimi, şaxələndirilmiş boru kəmərləri sistemimiz vardır. Bizim neft və qazımızı müxtəlif istiqamətlərdə nəql etmək üçün yeddi boru kəmərimiz vardır. Biz bir marşrutdan asılı deyilik. Bizim üç neft və dörd qaz boru kəmərimiz vardır. Bunlar bizə enerji resurslarımızın xalis dəyərindən maksimal dərəcədə bəhrələnmək imkanı yaradır.

Eyni zamanda, biz enerji siyasətimizdə olduqca çevikik. Enerji siyasətimiz hər zaman çox açıq və səmimi olmuşdur. Biz hər zaman çalışmışıq ki, enerji resurslarımızdan istifadə edərək digər ölkələrlə, qonşularla apardığımız əməkdaşlığı gücləndirək. Azərbaycan qonşu ölkələrin enerji təhlükəsizliyində artıq mühüm rol oynayır. Bu gün şaxələndirmənin inkişafı ilə bağlı irəli sürülmüş yeni təkliflər üzərində düşünürük. Amma açıq desək, resurslarımızın enerji şaxələndirilməsinə gəldikdə, biz əldə oluna biləcək nailiyyətlərin maksimal həddinə nail olmuşuq. Çünki biz nefti, qazı, elektrik enerjisini bütün qonşu ölkələrə ixrac edirik. Baxmayaraq ki, həmin qonşu ölkələrdən bəziləri enerjini Azərbaycandan daha çox həcmdə istehsal edir.

Azərbaycan Avropa təsisatları ilə geniş məsələlər ətrafında çox sıx işləyir. Enerji gündəlikdə duran məsələlərdən biridir. Enerji təhlükəsizliyi məsələsi, "Cənub dəhlizi" layihəsi sahəsində biz çox səmərəli şəkildə əməkdaşlıq edirik. Eyni zamanda, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının yeni üzvü kimi Azərbaycan, həmçinin öz tərəfindən Avropa qitəsinin ümumi enerji təhlükəsizliyinə töhfə verə bilər. Biz "Şərq tərəfdaşlığı" Proqramına Avropa İttifaqından nəyisə almaq və ya müəyyən yardımı xahiş etmək məqsədi ilə qoşulmamışıq. Baxmayaraq ki, hər hansı dəstək bizim tərəfimizdən çox yüksək dəyərləndirilir. Lakin bu, bizi bir-birimizə yaxınlaşdırır, biz qonşuyuq. Əsl qonşu olmaq üçün aramızda daha çox əlaqələndirmə olmalıdır. Eyni zamanda, Avropa İttifaqının bütün müsbət təcrübəsi Azərbaycanda tətbiq edilməlidir. Çünki biz ölkəmizi

müasirləşdiririk, yüksək təhsilə, sosial müdafiəyə və iqtisadi azadlıqlara malik olan müasir dövlət qururuq. Hazırda ümumi daxili məhsulumuzun 85 faizi özəl sektorda yaradılır. Baxmayaraq ki, əsas resursumuz neft dövlət tərəfindən idarə edilir. Bu, onu göstərir ki, özəlləşdirmə proqramı və bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tam şəkildə tətbiq edilir.

Mən bunu təfərrüatlarla ona görə deyirəm ki, ölkəmizdəki real vəziyyət haqqında sizdə məlumat olsun. Eyni zamanda, biz bütün problemləri, o cümlədən sosial problemləri həll etmək istiqamətində ürəkdən çalışırıq. Burada Ermənistanın torpaqlarımıza təcavüzü və işğalı nəticəsində yaranmış qaçqın və məcburi köçkünlərin problemləri bizim üçün əsas problemdir.

Əhalimiz 9 milyondur, onun bir milyonu qaçqın və məcburi köçkündür. Bu, ola bilsin ki, adambaşına düşən ən yüksək göstəricidir. Belə ağır problemin olması ilə yanaşı, Azərbaycanda bu cür sürətli iqtisadi inkişafa nail olmaq müəyyən göstəricidir. Torpaqların işğalı təkcə Azərbaycan üçün deyil, regional sabitliyə və proqnozlaşdırmaya da problemdir. Çünki Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin iyirmi faizi demək olar ki, artıq 20 ildir Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışlar. Onlar Xocalıda soyqırımı törətmişlər. Həmin hadisədə 600-dən artıq vətəndaş, o cümlədən qadın və uşaq erməni müharibə cinayətkarları tərəfindən qətlə yetirilmişdir.

Əfsuslar olsun ki, müharibə cinayətkarları hələ də məsuliyyətə cəlb olunmayıblar. Lakin ümidvaram ki, vaxt gələcək və onlar öz əməllərinə görə mühakimə olunacaqlar. Etnik təmizləmə siyasəti nəticəsində nəinki Dağlıq Qarabağda, o cümlədən ətraf rayonlarda yaşamış azərbaycanlılar, yəni ümumi hesabla 750 mindən artıq insan həmin ərazilərdən qovulmuş, onların evləri yerlə-yeksan olunmuşdur. Həmin yerlərdə bütün tarixi abidələr, məscidlər və qəbirlər dağıdılmışdır. Bu, Ermənistanın təcavüzünün nəticəsidir.

Bu təcavüzün nəticələri hələ də aradan qaldırılmayıb. Artıq iyirmi ildir ki, biz danışıqlar prosesindəyik. Lakin hər hansı nəticə yoxdur. Hələ 1990-cı illərin əvvəlində BMT-nin Təhlükəsizlik Şurası tərəfindən erməni silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin qəbul olunması faktına baxmayaraq, Ermənistanın silahlı qüvvələri ərazilərimizdə işğalı yenə də davam etdirir. Bu, nə deməkdir? Bu, o deməkdir ki, beynəlxalq hüquq normaları işləmir. Bu, o deməkdir ki, ən yüksək səviyyədə beynəlxalq qərarları qəbul edən qurumun, yəni BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmir. Həmin beynəlxalq normaları pozan və qətnamələrə məhəl qoymayan təcavüzkar isə cəzalandırılmır. Əfsuslar olsun ki, bəzən biz hətta təcavüzkarın nəinki cəzalandırılmamasını, hətta müxtəlif güzəştli razılaşmalarla, maliyyə dəstəyi və sair vasitələrlə təqdir olunmasını görürük.

Azərbaycan ərazisinin erməni qüvvələri tərəfindən işğalı artıq 20 ildir ki, davam edir. Buna son qoyulmalıdır. Onların qoşunları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmalıdır. Hazırda Dağlıq Qarabağda yaşayanlar və birmənalı olaraq ora qayıdacaq azərbaycanlılar təhlükəsizlik zəmanəti əsasında suveren Azərbaycan dövlətinin hüdudlarında dünyada mövcud olan yüksək muxtariyyət statusu ilə birgə yaşamalıdırlar. Bu mövqe beynəlxalq hüquq normalarına tam uyğundur. Eyni zamanda, vasitəçilərin fəaliyyəti və əslində iki tərəfə irəli sürdükləri təkliflər bu mövqeni əks etdirir.

Azərbaycanın ərazi bütövlüyünün pozulmasına son qoyulmalıdır. Dağlıq Qarabağın müstəqil olması heç müzakirə predmeti belə deyildir. Vasitəçilərin təkliflərində həmin müstəqilliyin verilməsi mexanizmi yoxdur. Ermənilər bir çox hallarda öz müqəddəratını təyinetmə prinsipinə istinad edirlər. Bu, əlbəttə ki, beynəlxalq hüququn mühüm prinsipidir. Lakin ermənilər öz müqəddəratını artıq təyin ediblər. Onlar müstəqil Ermənistan dövlətinə malikdirlər. Əgər bu məntiqlə getsək, belə çıxır ki, ermənilər yaşadıqları istənilən yerdə öz müqəddəratını təyin edəcəklər?! Onda neçə erməni dövləti yaranacaq?! Çünki onlar bir çox yerlərdə yaşayırlar və xüsusən də, münaqişənin həllinə görə məsuliyyət daşıyan Minsk qrupunun həmsədr ölkələrində də yaşayırlar.

Onlar Amerika, Fransa və Rusiyada yaşayırlar. Əgər onlar həmin yerlərdə öz müqəddəratını təyin etmək fikrinə gəlsələr, onda nələr baş verər? Həmin ölkələrin reaksiyası necə olar? Ermənilər öz müqəddəratını artıq təyin ediblər. Onlar Ermənistan dövlətinə malikdirlər, baxmayaraq ki, bu dövlət də tarixi Azərbaycan torpaqlarında yaradılıb. Bu, hamıya aydındır. 1918-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra, növbəti gün Azərbaycan Demokratik Respublikası qərar qəbul etmişdir ki, İrəvan şəhəri paytaxt məqsədi ilə Ermənistana verilsin. İrəvan şəhəri azərbaycanlıların yaşadığı İrəvan xanlığının şəhəri idi.

Tarixə gəldikdə, bu belədir. Onlar artıq Azərbaycan torpaqlarında öz dövlətini yaradıblar. Bizim torpaqlarda yenidən digər erməni dövləti yaradıla bilməz. Azərbaycan bununla heç vaxt razılaşmayacaq və bu, heç vaxt baş verməyəcəkdir. Erməni tərəfi bunu nə qədər tez başa düşərsə, bu, həm onlar və həm də bizim üçün bir o qədər yaxşı olar. Beləliklə, məsələ tezliklə həll olunar. Sonra isə Qafqazda sülh qurula bilər. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli olmadan, regionda hər hansı digər təşəbbüs və ya siyasi məzmunlu layihə həyata keçirilə bilməz. Dağlıq Qarabağ münaqişəsini regionda ümumi inkişaf və ya yeni münasibətlərin yaradılması mövzusundan kənara çıxarmaq məqsədi ilə edilən bütün cəhdlər əbəsdir. Bu, baş tutmayacaqdır. Çünki bu, əsas problemdir və əsas maneə aradan qaldırılmalıdır. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməyə tam hüququ vardır.

Ümidvaram ki, vasitəçilərin fəaliyyətinin praktiki nəticələrini yaxın vaxtlarda görəcəyik. Çünki dünyanın aparıcı dövlətləri və Təhlükəsizlik Şurasının daimi üzvləri olan həmin həmsədr ölkələr üçün də artıq iyirmi il ərzində danışıqlar prosesini nəticəsiz aparmaq qeyri-məqbuldur. Xüsusən də indi növbə Ermənistanındır - vasitəçilərin son təklifini qəbul edirlər, yoxsa yox?! Əgər onlar təklifi qəbul etməsələr, onda hesab edirəm ki, danışıqlar prosesi yenidən nəzərdən keçirilməli və yeni mərhələ başlanmalıdır.

Beləliklə, vaxtınızı çox almaq istəmirəm. Bir daha istərdim qeyd edəm ki, ölkələrimiz arasında münasibətlərin səviyyəsindən məmnunam. Fikrimcə, münasib vaxtdır. Uğurlu əməkdaşlıq aparacağımız yeni sahələri müəyyən etmək üçün bütün səylərimizi göstərməliyik. Bunun üçün güclü qarşılıqlı iradəmiz, potensialımız vardır. Bu gün Estoniya Prezidenti ilə görüşüm zamanı qeyd etdiyim kimi, iqtisadiyyatlarımız rəqabət aparmır. Əksinə, biz bir-birimizə dəstək verə bilərik. İqtisadiyyatlarımız bir-birini tamamlaya bilər. Hesab edirəm ki, biz bu cür möhkəm siyasi əsaslarla və xalqlarımız arasındakı münasibətlərin böyük tarixi irsi ilə və qarşılıqlı hörmətlə, ölkələrimiz arasında çox güclü tərəfdaşlıq münasibətlərini qura bilərik. Həmin əlaqələr ölkələrimiz, regional əməkdaşlıq, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıq üçün yaxşı olacaq və vəziyyəti daha proqnozlaşdıran və sabit edəcəkdir.

Mən Xarici İşlər Nazirliyinə və sizin institutunuza burada çıxış etmək fürsətini yaratdığınıza görə minnətdarlığımı bildirmək istəyirəm. Sizə böyük uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYADA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SƏRGİ MƏRKƏZİNDƏ OLMUŞDUR

Aprelin 7-də Azərbaycan Prezidenti İlham Əliyev Tallinndə "Microlink" şirkətindəki informasiya-kommunikasiya texnologiyaları Sərgi Mərkəzində olmuşdur.

Azərbaycan dövlətinin başçısı Estoniyada İKT sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbərləri ilə görüşdü. Perspektiv texnologiyaların işlənib hazırlanması və tətbiqi ilə məşğul olan qurumların nümayəndələri Prezident İlham Əliyevə təmsil etdikləri şirkətlərin fəaliyyəti və məhsulları barədə ətraflı məlumat verdilər.

Dövlətimizin başçısı Sərgi Mərkəzində müxtəlif sahələrdə tətbiq olunan və müasir tələblərə cavab verən innovasiya layihələri ilə tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ DÖVLƏT BAŞÇISI ARNOLD RÜTEL İLƏ GÖRÜŞMÜŞDÜR

Estoniyada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyev aprelin 7-də Tallinndə Estoniyanın sabiq Prezidenti Arnold Rütel ilə görüşmüşdür.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TALLİNNDƏ "BASTİON" QADIN GEYİMLƏRİ FABRİKİNDƏ OLMUŞDUR

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva aprelin 7-də Tallinndəki qadın geyimləri istehsalı üzrə ixtisaslaşan "Bastion" fabrikində olmuşdur.

Burada Azərbaycanın birinci xanımına müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, müasir dəbə uyğun geniş çeşiddə qadın geyimləri hazırlanan bu fabrik ayrı-ayrı vaxtlarda müxtəlif mükafatlara layiq görülmüşdür. 2003-cü ildə müəssisə "Qızıl iynə" mükafatını almışdır.

Mehriban xanımın diqqətinə çatdırıldı ki, fabrikdə müasir texnologiya əsasında tikilən yüksək keyfiyyətli qadın geyimləri dünyanın bir çox ölkələrinə ixrac olunur. Burada parçaların kəsilməsi və tikilməsi kompyuter proqramları vasitəsilə əvvəlcədən tərtib olunmuş qaydada aparılır. Şirkət məhsul istehsalı üçün müxtəlif ölkələrdən parça alır. Hazırda şirkətin dizaynerləri 2011-ci ilin yaz-yay mövsümü üçün geyim modelləri üzərində çalışırlar.

Mehriban Əliyeva fabrikin tikiş sexində oldu, geyim nümunələrinin hazırlanma qaydasına baxdı.

Daha sonra Azərbaycanın birinci xanımı fabrikdə hazır geyim nümunələrinin nümayişinə tamaşa etdi.

Estoniya Prezidentinin xanımı Evelin İlves fabrik ilə tanışlıq zamanı Mehriban Əliyevanı müşayiət etmişdir.

ESTONİYA PREZİDENTİNİN XANIMININ ADINDAN AZƏRBAYCANIN BİRİNCİ XANIMININ ŞƏRƏFİNƏ NAHAR VERİLMİŞDİR

Aprelin 7-də Tallinndə Estoniyanın birinci xanımı Evelin İlvesin adından Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın şərəfinə nahar verilmişdir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI TALLİNN ŞƏHƏRİNİN QƏDİM HİSSƏSİ İLƏ TANIŞ OLMUŞDUR

Aprelin 7-də Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Estoniyanın birinci xanımı Evelin İlvesin müşayiəti ilə Tallinn şəhərinin qədim hissəsi ilə tanış olmuşdur.

Mehriban xanıma məlumat verildi ki, Estoniya paytaxtının nadir memarlıq inciləri ilə zəngin olan bu hissəsi şəhərə gələn turistlərin ən çox maraq göstərdiyi yerlərdən biridir. Tallinnin ən böyük kilsəsi olan XIV əsrə aid Olav da paytaxtın bu hissəsində yerləşir.

Azərbaycanın birinci xanımına mərkəzi meydanda yerləşən qədim binalar, digər kilsələr, ümumiyyətlə, Tallinnin tarixi barədə ətraflı məlumat verildi.

Sonra birinci xanımlar şəhər Ratuşasının yerləşdiyi meydana gəldilər.

Mehriban Əliyevaya tarixi abidələrlə zəngin olan ərazidə yerləşən və 600 illik tarixi olan Ratuşanın fəaliyyəti və onun Estoniya tarixində oynadığı rol barədə danışıldı.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ

Aprelin 7-də Tallinndə Estoniya Prezidenti Toomas Hendrik İlves və xanımı Evelin İlvesin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə dövlət ziyafəti verilmişdir.

SƏFƏR BAŞA ÇATDI

Aprelin 8-də Estoniyada dövlət səfərində olan Azərbaycan Prezidenti İlham Əliyevin Tallinndə, Kadriorqdakı Prezident sarayında rəsmi yolasalma mərasimi olmuşdur.

Azərbaycanın və Estoniyanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Estoniya Prezidenti Toomas Hendrik İlves və xanımı Evelin İlves Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Estoniyanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Estoniya Prezidenti Toomas Hendrik İlves Azərbaycan nümayəndə heyətinin üzvləri, Azərbaycan Prezidenti İlham Əliyev Estoniyanın dövlət və hökumət nümayəndələri ilə sağollaşdılar.

Estoniya Prezidenti Toomas Hendrik İlves və xanımı Evelin İlves Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı yola saldılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VYETNAMIN BAŞ NAZİRİNİN MÜAVİNİ HOANG ÇUNNG HAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoang Çunng Hayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Baş nazirin müavini Hoang Çunng Hay Vyetnam Sosialist Respublikası Prezidentinin dövlətimizin başçısının Vyetnama səfəri ilə bağlı dəvətini çatdırdı. O, 1983-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin Vyetnama səfərinin bu günədək vyetnamlıların xatirəsində qaldığını söylədi. Baş nazirin müavini vaxtilə Azərbaycanda təhsil almış vyetnamlı tələbələrin hazırda ölkəsinin inkişaf proseslərinə öz töhfələrini verdiklərini bildirdi. Ölkəsinin Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu deyən Hoang Çunng Hay ikitərəfli münasibətlərimizin genişləndirilməsi üçün qanunvericilik bazasının yaradılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Vyetnamın bu cür yüksək səviyyəli nümayəndə heyətinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin genişlənməsi baxımından əhəmiyyətini qeyd etdi və səfərin məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirdi. Əlaqələrimizin genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının, qarşılıqlı investisiyalar və konkret layihələr üzərində işlərin həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MAVRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM NAHA MİNT MUKNASSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Mavritaniya İslam Respublikasının xarici işlər naziri xanım Naha Mint Muknassın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında belə yüksək səviyyəli səfərlərin ilk dəfə həyata keçirildiyini vurğulayan Prezident İlham Əliyev bundan sonra qarşılıqlı səfərlərin davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Səfərin əlaqələrimizin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını qeyd edən dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra sürətlə inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Xarici işlər naziri xanım Naha Mint Muknass Mavritaniya İslam Respublikasının Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirməkdə çox maraqlı olduğunu bildirdi. Xanım Naha Mint Muknass Azərbaycana səfəri zamanı ölkəmizdə gedən böyük inkişafın şahidi olduğunu, sabitlik və əmin-amanlığın onda xoş təəssürat yaratdığını dedi.

Dövlətimizin başçısı Mavritaniya İslam Respublikasının Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Mavritaniya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

BAKIDA AZƏRBAYCAN-VYETNAM BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 8-də Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoanq Çunq Hayın Azərbaycana işgüzar səfəri çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Vyetnam biznes forumu keçirilmişdir.

Biznes forumda Azərbaycan və Vyetnam tərəfdən hökumət nümayəndələri ilə yanaşı, informasiya texnologiyaları, maliyyə, bank, sığorta, turizm, səhiyyə, ticarət, sənaye, tikinti, neft-kimya, daşınmaz əmlak və digər sahələrdə fəaliyyət göstərən 100-ə yaxın iş adamı iştirak etmişdir.

Tədbirdə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov və Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoanq Çunq Hay çıxış edərək ölkələrimiz arasında mövcud iqtisadi əməkdaşlıq imkanları barədə məlumat vermiş, əlaqələrin sonrakı inkişafında belə tədbirlərin, işgüzar görüşlərin əhəmiyyətini qeyd etmişlər. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində yüksək inkişaf sürətinə nail olması və nəticədə regionun lider dövlətinə çevrilməsi vurğulanmışdır. Vyetnamın isə öz növbəsində Azərbaycan üçün geniş bazara malik Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN) təşkilatına körpü olmaq istəyi qeyd olunmuşdur.

Biznes forumda, həmçinin AZPROMO-nun prezidenti Adil Məmmədov Azərbaycanın biznes imkanları və investisiya mühiti, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev rəhbərlik etdiyi qurumun fəaliyyəti və həyata keçirdiyi layihələr, Vyetnamın Sənaye və Ticarət Palatasının nümayəndəsi isə bu ölkənin iqtisadi imkanları barədə təqdimatlarla çıxış etmişlər.

Tədbir iş adamları arasında ikitərəfli görüşlərlə davam etmiş, sahibkarlar arasında əlaqələr və əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

BAKIDA ARDNŞ İLƏ "PETROVİETNAM" ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

Aprelin 8-də Bakıda Vyetnam Sosialist Respublikasının ölkəmizdə işgüzar səfərdə olan Baş nazirinin müavini Hoanq Çunq Hayın iştirakı ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Vyetnamın "Petrovietnam" Dövlət neft və qaz qrupu arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

Sənədi ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və "Petrovietnam"ın prezidenti Fun Din Tuk imzalamışlar.

Tədbirdə Rövnəq Abdullayev Vyetnamla Azərbaycanı onilliklər boyu davam edən dərin dostluq münasibətləri bağladığını söyləmiş, bu dostluğun yaranmasında və inkişafında Azərbaycan neftçilərinin böyük rol oynadığını nəzərə çarpdırmışdır. O, Vyetnamda neft sənayesinin inkişafı naminə Azərbaycan neftçilərinin göstərdiyi xidmətlərin yüksək qiymətləndirildiyindən məmnunluğunu bildirmişdir. ARDNŞ və "Petrovietnam" Dövlət neft və qaz qrupu arasında əldə olunan razılaşmaların iki ölkənin neftçiləri arasında mövcud əməkdaşlığın daha da dərinləşməsinə və genişlənməsinə mühüm təkan verəcəyini vurğulamışdır. R.Abdullayev hazırkı dövrdə ölkələrimiz arasında hərtərəfli, o cümlədən siyasi, iqtisadi, təhsil və digər sahələrdə münasibətlərin bərpa edilməsinin vacibliyindən də danışmışdır.

Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoanq Çunq Hay Bakıya bu ilk səfəri zamanı şahid olduğu qonaqpərvərlikdən məmnunluğunu ifadə edərək demişdir ki, ölkəsində Azərbaycanı yaxşı tanıyır və sevirlər. Vaxtilə Vyetnam iqtisadiyyatının mühüm sahələri, xüsusən də neft-qaz sənayesi üçün Azərbaycanda yüksək səviyyəli mütəxəssis kadrları hazırlanmışdır. Biz tarixi dostluğumuza əsaslanaraq yeni mərhələdə ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığı daha da inkişaf etdirməliyik.

Qonaq ARDNŞ-in dünya neft çıxarmasında böyük tarixə və zəngin təcrübəyə malik olduğunu vurğulamış, şirkətlə imzalanan sənədlərin ölkələr arasında dostluğun və əməkdaşlığın inkişafına xidmət edəcəyinə əminliyini bildirmişdir.

Mərasimdə ARDNŞ-in Sinqapurdakı "SOCAR Traidinq Singapore" ilə "Petrovietnam Oyl Korporeyşn" şirkətləri arasında Azərbaycan neftinin Vyetnama uzunmüddətli satışı üzrə müqavilə də imzalanmışdır. Sazişi "SOCAR Trading Singapore" şirkətinin direktoru Viktor Lim və "Petrovietnam Oil" korporasiyasının müdiri Nquen Xuan Sun imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Avropa İttifaqının genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Avropa İttifaqının komissarı Ştefan Fülenin ölkəmizə səfərinin

Azərbaycan ilə Avropa İttifaqı arasında uğurla inkişaf edən əməkdaşlığı və həyata keçirilən proqramları müzakirə etmək üçün yaxşı fürsət yaratdığını dedi. Əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın gələcəkdə daha çox sahələri əhatə edəcəyinə ümidvar olduğunu bildirdi.

Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrinə toxunanŞtefan Füle bildirdi ki, səfərinin məqsədi əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, əlaqələrimizin daha da genişləndirilərək irəli aparılması ilə bağlı məsələlərin müzakirə edilməsindən ibarətdir.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının müxtəlif sahələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, "Şərq tərəfdaşlığı" Proqramı, energetika sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ FİRUDIN SİNİRLİOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Türkiyə xarici işlər nazirinin müavini Firudin Sinirlioğlunu qəbul etmişdir.

Türkiyə xarici işlər nazirinin müavini Firudin Sinirlioğlu Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını və Türkiyə Baş nazirinin məktubunu dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların vəziyyəti barədə danışdı.

Firudin Sinirlioğlu Türkiyə-Ermənistan münasibətlərinin hazırkı durumu barədə məlumat verdi.

Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin inkişafı və perspektivlərinə dair məsələlər müzakirə edildi.

Dövlətimizin başçısı Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə və Baş nazirə çatdırmağı xahiş etdi.

BAŞ NAZİR VYETNAM NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 9-da Azərbaycanın Baş naziri Artur Rasizadə Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoang Çunng Hayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

A.Rasizadə Azərbaycan ilə Vyetnam arasında əlaqələrin böyük tarixə malik olduğunu bildirərək qeyd etmişdir ki, Vyetnam Baş naziri müavininin ölkəmizə səfəri ikitərəfli münasibətlərin genişlənməsinə xidmət edəcəkdir. İki ölkə arasında münasibətlərin sonrakı inkişafı məqsədi ilə müvafiq hüquqi bazanın və hökumətlərarası komissiyanın yaradılmasının zəruriliyi vurğulanmışdır.

Baş nazir Azərbaycan iqtisadiyyatının uğurları barədə qonaqlara məlumat vermiş, ölkəmizin əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqda danışmışdır.

Hoang Çunng Hay bildirmişdir ki, vyetnamlılar mütəxəssislərin hazırlanması sahəsində Azərbaycanın bu ölkəyə göstərdiyi köməyi çox yaxşı xatırlayır. O, Vyetnamın sürətlə inkişaf edən Azərbaycanla neft-qaz, kənd təsərrüfatı, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu vurğulamışdır. Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq uzun müddət təcavüzə məruz qalmış ölkə kimi Vyetnamın Azərbaycanın problemini başa düşdüyünü qeyd etmiş, münaqişənin sülh yolu ilə tezliklə həllini arzuladıqlarını bildirmişdir.

Vyetnamın ölkəmizlə əməkdaşlıqda maraqlı olduğunu vurğulayan Baş nazirin müavini əmin olduğunu bildirmişdir ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişafı davam etdirəcək, yeni uğurlara imza atacaqdır.

XARİCİ İŞLƏR NAZİRİ MAVRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Mavritaniya İslam Respublikasının xarici işlər naziri xanım Naha Mint Muknass ilə görüşmüşdür.

Ölkəmizdə ilk dəfə olmasından məmnunluğunu bildirən xanım N.M.Muknass Azərbaycan-Mavritaniya münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirmiş, bütün sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu demişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın və Mavritaniyanın beynəlxalq təşkilatlar çərçivəsində müxtəlif məsələlərdə birgə mövqe nümayiş etdirməsinin vacibliyini vurğulamış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinin beynəlxalq təşkilatlarda, xüsusən də BMT-də müzakirəsi zamanı Azərbaycanın beynəlxalq hüququn normalarından və prinsiplərindən irəli gələn ədalətli mövqeyinin Mavritaniya tərəfindən dəstəklənməsinin zəruriliyini bildirmişdir.

E.Məmmədyarov Azərbaycan ilə Mavritaniya arasında iqtisadi, mədəni, humanitar, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu və bunun səmərəli istifadə edilməsinin münasibətlərimizin genişləndirilməsinə təkan verəcəyini vurğulamışdır.

Görüşün sonunda "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Mavritaniya İslam Respublikasının Xarici İşlər və Əməkdaşlıq Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol" imzalanmışdır.

XARİCİ İŞLƏR NAZİRİ VYETNAMIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoang Çunng Hay ilə görüşmüşdür.

Ölkəmizdə səfərdə olmasından məmnunluğunu bildirən H.Ç.Hay tarixən xalqlarımız arasında sıx münasibətlərin olduğunu, Sovet İttifaqı dövründə Azərbaycanın müxtəlif

ali təhsil müəssisələrində təhsil almış həmvətənlərinin hazırda Vyetnamın inkişafına verdikləri töhfəni xüsusilə vurğulamışdır. Vyetnamlı qonaq ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensialın olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov bu cür səfərlərin ölkələrimiz arasında əlaqələrin intensivləşdirilməsinə təkan verdiyini, təhsil, neft-kimya, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar yaratdığını demişdir.

Görüşün sonunda Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və onun vyetnamlı həmkarı Nquen Kuok Kıonq "Azərbaycan Respublikası Hökuməti və Vyetnam Sosialist Respublikasının Hökuməti arasında diplomatik, xidməti və ya rəsmi pasportlara malik vətəndaşların vizasız gediş-gəlişi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Vyetnam Sosialist Respublikasının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq Protokolu"nu imzalamışlar.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 9-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Avropa İttifaqının (Aİ) genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle ilə görüşmüşdür.

Görüşdən sonra keçirilmiş birgə mətbuat konfransında nazir demişdir ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, "Şərq tərəfdaşlığı" Proqramı, energetika sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, komissara ölkəmizin iqtisadi inkişafı, həyata keçirilən demokratik quruculuq prosesi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair dövlətimizin mövqeyi barədə ətraflı məlumat verilmişdir.

Ş.Füle Azərbaycan ilə Aİ arasında siyasi dialoq, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, regional tərəfdaşlıq, demokratiya və insan hüquqları sahələrində əməkdaşlığı yüksək qiymətləndirmişdir.

Ölkəmizə səfərinin nəticələrini və keçirdiyi görüşləri səmərəli qiymətləndirən komissar bildirmişdir ki, Azərbaycan ilə Avropa İttifaqı arasında bir sıra mühüm layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, komissar bəyan etmişdir ki, ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyən Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həllinin tərəfdarıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ USMAN CAMMEHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammehin

başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qambiyadan nazir səviyyəsində Azərbaycana ilk dəfə səfər olduğunu vurğulayan dövlətimizin başçısı bundan sonra qarşılıqlı səfərlərin davam edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev səfərin ikitərəfli əlaqələri, o cümlədən beynəlxalq məsələləri geniş müzakirə etmək üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammeh Qambiya Prezidenti Yəhya Cammehin salamlarını dövlətimizin başçısına çatdırdı. Nazir Qambiya Prezidentinin Azərbaycan ilə əlaqələri inkişaf etdirməyə böyük önəm verdiyini vurğuladı. Bu səfərin ölkəsi üçün çox əhəmiyyətli olduğunu deyən Usman Cammeh səfəri çərçivəsində əlaqələrimizin perspektivləri ilə bağlı səmərəli müzakirələr aparılacağına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Qambiya Prezidenti Yəhya Cammehin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qambiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Polşa Respublikasının ölkəmizdəki səfirliyində olmuşdur.

Dövlətimizin başçısı Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin və xanımı Mariya Kaçinskanın, Polşa Prezidenti Administrasiyasının məsul işçilərinin, Senat və Seym üzvlərinin, Polşa ordusunun yüksək rütbəli zabitlərinin təyyarə qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.

AZƏRBAYCAN NATO İLƏ ƏMƏKDAŞLIĞA XÜSUSİ ÖNƏM VERİR

Aprelin 12-də Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan NATO Parlament Assambleyasının (PA) Siyasi Komitəsinin NATO tərəfdaşlığı üzrə Alt Komitəsinin sədri Rayner Stinnerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ziyafət Əsgərov Polşa Prezidentinin və onun xanımının, eləcə də dövlət başçısını müşayiət edən yüksək vəzifəli dövlət məmurlarının faciəli şəkildə həlak olmasından və bu səbəbdən də Polşa nümayəndələrinin bu görüşdə iştirak etməməsindən təəssüfləndiyini bildirmiş, Polşa xalqına başsağlığı vermişdir.

Ölkəmizin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərov bildirmişdir ki, Azərbaycan NATO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Bu gün əməkdaşlığımız yüksək səviyyədədir və ölkəmizin Müdafiə Nazirliyi də NATO ilə bir sıra uğurlu tədbirlər həyata keçirir.

Azərbaycanın iqtisadi inkişafı, müxtəlif sahələrdə həyata keçirilən islahatlar onun beynəlxalq nüfuzunu daha da artırır. Hazırda ölkəmiz iqtisadi inkişafına görə dünyanın öndə gedən dövlətləri sırasındadır. Lakin bununla yanaşı problemlərimiz də vardır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verən Z.Əsgərov bildirmişdir ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamə və qərarlara məhəl qoymur. Münaqişənin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olsa da, Ermənistan beynəlxalq hüquqa meydan oxumağa davam edir və belə davam edərsə, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə işğaldan azad etmək hüququndan istifadəyə məcbur olacaqdır. Bu gün dünya ölkələri işğalçı Ermənistana təzyiq etməkdənsə, Türkiyəyə təzyiqlər göstərirlər. Dünyanın müxtəlif ölkələri XX əsrin əvvəllərində baş vermiş hadisələrə "erməni soyqırımı" adı verməyə çalışır, lakin 1992-ci ildə Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımına biganə yanaşırlar. Həmin ölkələr ikili standartlardan əl çəkməli, həqiqəti qəbul etməlidirlər. Təcavüzkar isə layiq olduğu cəzanı almalıdır.

Ətraflı məlumata görə minnətdarlığını bildirən Rayner Stinner sonuncu dəfə ölkəmizdə 2004-cü ildə olduğunu və ötən 6 ildə Azərbaycanın çox sürətlə inkişaf etməsinin şahidi olduğunu diqqətə çatdırmışdır. Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə yeni məlumatlar aldığını deyən qonaq münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmişdir.

Bildirilmişdir ki, NATO PA-nın üzvü olan dövlətlər bu münaqişənin həlli üçün əllərindən gələn köməyi göstərməyə hazırdırlar.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

MİLLİ MƏCLİSİN DEPUTATLARI NATO PA ALT KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞLƏR

Aprelin 12-də Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ölkəmizdə səfərdə olan NATO Parlament Assambleyasının Siyasi Komitəsinin NATO Tərəfdaşlığı üzrə Alt Komitəsinin nümayəndələri ilə görüşmüşlər.

Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qonaqları salamladıqdan sonra Polşa Prezidentinin və dövlət başçısını səfərdə müşayiət edən yüksək vəzifəli dövlət məmurlarının faciəli şəkildə həlak olmasından təəssüfləndiyini bildirdikdən sonra faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

S.Seyidov qonaqlara parlamentin qanunvericilik bazası, Milli Məclisin beynəlxalq əlaqələri, ölkədə həyata keçirilən islahatlar barədə məlumat vermişdir. O demişdir ki, Azərbaycan beynəlxalq təşkilatlar, eləcə də NATO ilə səmərəli əməkdaşlığa böyük önəm verir.

Komitə sədrinin müavini Gültəkin Hacıbəyli bildirmişdir ki, ölkəmizin iqtisadi sahədə uğurlu layihələrə imza atmasına baxmayaraq, xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi hələ də öz həllini tapmamışdır. Bu da təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın inkişafına böyük maneə törədir. Ermənistan hələ də Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır, 1 milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün həyatı yaşayır. Amma bu ölkə BMT Təhlükəsizlik Şurasının, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamə və qərarlara

məhəl qoymur. Ermənistanın əsassız iddialarından əl çəkməyəcəyi təqdirdə xalqımızın hərb yolu ilə torpaqlarını azad etmək məcburiyyətində qalacağı vurğulanmışdır.

NATO PA nümayəndə heyətinin rəhbəri Rayner Stinner ətraflı məlumata görə təşəkkürünü bildirmişdir. Qeyd edilmişdir ki, nümayəndə heyətinin üzvləri dəfələrlə Azərbaycanda olmuşlar. Bu səfər zamanı Azərbaycanda müşahidə olunan sürətli inkişaf olduqca müsbət təəssürat yaratmışdır. Bakı həddən artıq gözəlləşmişdir.

Sonra nümayəndə heyətinin üzvləri çıxış edərək, səfər müddətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə aldıqları yeni məlumatların bir daha nəzərdən keçiriləcəyini, bundan sonra bu problemin həllində səylərin daha da gücləndiriləcəyini bildirmişlər.

XARİCİ İŞLƏR NAZİRİ QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 12-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammeh ilə görüşmüşdür.

Ölkəmizdə ilk dəfə olmasından məmnunluğunu bildirən U.Cammeh Azərbaycan-Qambiya münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirmiş və ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini qeyd etmişdir.

Nazir E.Məmmədyarov ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu, bu imkanlardan səmərəli istifadə edilməsinin ölkələrarası münasibətlərin genişləndirilməsinə müsbət təsir göstərəcəyini vurğulamışdır.

Bundan əlavə, E.Məmmədyarov Qambiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq qurumlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatı və İslam Konfransı Təşkilatı çərçivəsində keçirilmiş səsvermələrdə Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə U.Cammehə təşəkkürünü bildirmişdir.

Qambiyalı nazir ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəyini demişdir.

Görüşün sonunda Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov və onun qambiyalı həmkarı U.Cammeh "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qambiya Respublikasının Xarici İşlər, Beynəlxalq Əməkdaşlıq və Xaricdəki Qambiyalılar üzrə Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamışlar.

XARİCİ İŞLƏR NAZİRİ NATO PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 12-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov NATO Parlament Assambleyasının Siyasi Komitəsinin NATO tərəfdaşlığı üzrə Alt Komitəsinin üzvləri ilə görüşmüşdür.

Görüşdə nazir E.Məmmədyarov Azərbaycanın xarici siyasətinin prioritetləri, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı hazırkı vəziyyət, məsələnin həllinə dair ölkəmizin mövqeyi, regional məsələlər, bölgədə həyata keçirilən layihələr, qonşu dövlətlərlə münasibətlər haqqında danışmış və nümayəndə heyəti üzvlərinin suallarını cavablandırmışdır.

MÜDAFİƏ NAZİRİ NATO PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 12-də müdafiə naziri, general-polkovnik Səfər Əbiyev NATO Parlament Assambleyası Siyasi Komitəsinin NATO Tərəfdaşlığı üzrə Alt Komitəsinin sədri Rayner Stinnerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir. Nazir Səfər Əbiyev qonaqlara son illər Azərbaycanın iqtisadi, siyasi və hərbi sahədə əldə etdiyi yeniliklər barədə məlumat verərək bildirmişdir ki, ölkəmiz Avropa strukturlarına inteqrasiya və NATO ilə əməkdaşlıq məsələlərinə ciddi önəm verir. Bu istiqamətdə inkişaf getdikcə daha çox nəzərə çarpır. Müdafiə naziri bununla yanaşı, Cənubi Qafqazda mövcud olan gərgin hərbi-siyasi durumu da Assambleya üzvlərinin diqqətinə çatdırmışdır. O qeyd etmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin ləngidilməsi bölgədə vəziyyətin kəskinləşməsinə şərait yaradır.

Səfər Əbiyev vurğulamışdır ki, Azərbaycan öz torpaqlarının işğalda olması ilə heç vaxt barışmayacaqdır, bunu təcavüzkar Ermənistan dərk etməlidir. Nazir, həmçinin münaqişənin dinc şəkildə aradan qaldırılması üçün əslində beynəlxalq hüquqi bazanın mövcudluğunu və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin məsələnin həlli üçün yetərli olduğunu bildirmişdir.

Sonda nazir Səfər Əbiyev qonaqları maraqlandıran bəzi məsələlərə öz münasibətini açıqlamışdır.

XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA BUNDESTAQININ DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 13-də Azərbaycanın xarici işlər naziri Elmar Almaniya Bundestaqının deputatı, Almaniya-Azərbaycan dostluq qrupu sədrinin müavini Viola von Kramon Taubadelin ilə görüşmüşdür.

V.Taubadelin Azərbaycan ilə Almaniya arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək regionda cərəyan edən proseslərlə maraqlanmışdır.

Nazir E.Məmmədyarov ölkəmizin xarici siyasətinin başlıca prioriteti olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə almaniyalı qonağa ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, münaqişənin tezliklə həlli üçün ilk növbədə Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalı, sonra regionda bütün kommunikasiyalar açılmalı, azərbaycanlı məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalı, onların yaşayışı üçün normal həyat şəraiti yaradılmalı və sonda Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın yekun statusu müəyyənləşməlidir.

Nazir yalnız bu nizamlanma şərtləri ilə regionda davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinin mümkünlüyünü bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BUXARESTDƏ AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ RUMİNİYA ARASINDA "MAYELƏŞDİRİLMİŞ TƏBİİ QAZ VƏ ONUN NƏQLİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU" İMZALANMIŞDIR

Aprelin 13-də Buxarestdə Azərbaycan, Gürcüstan və Rumıniya arasında "Mayeləşdirilmiş təbii qaz və onun nəqli sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Sənədi Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev, Gürcüstanın energetika naziri Aleksandr Xetaquri, Rumıniyanın iqtisadiyyat, ticarət və iqtisadi mühit naziri Adrian Videanu imzalamışlar.

Memorandumda əsasən, tərəflər "Cənub dəhlizi" çərçivəsində Xəzər regionunu Avropa ilə birləşdirən enerji tranziti dəhlizinin inkişaf etdirilməsi niyyətlərini ifadə etmiş, qaz ticarəti və Rumıniyada yeraltı qaz anbarlarından istifadə olunması, enerji sahəsində fəaliyyət göstərən müvafiq qurumlar arasında əməkdaşlığın genişləndirilməsi imkanlarının araşdırılmasını qərara almışlar. Tədbirdə AGRI (Azerbaijan-Georgia-Romania Interconnector) layihəsinin texniki, texnoloji, ticarət, maliyyə və hüquqi aspektlərinin müəyyənləşdirilməsi və iqtisadi-texniki əsaslandırılmasının işlənib-hazırlanması məqsədi ilə Buxarestdə şirkətin yaradılması üzrə Rumıniya tərəfinin təklifi qəbul edilmişdir.

İmzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında A.Videanu bu layihənin nəinki üç ölkənin, eyni zamanda bütün Avropa, xüsusilə də Cənub-Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyi təminatında mühüm rol oynayacağını, Azərbaycanın karbohidrogen resurslarının təchizatçısı və Gürcüstanın tranzit ölkə kimi strateji əhəmiyyətini vurğulamışdır. O, layihənin reallaşdırılması ilə Rumıniyanın Avropanın mühüm enerji şəbəkəsi mərkəzinə çevriləcəyinə inamını ifadə etmişdir.

N.Əliyev bu layihənin Qara dənizdə ilk mayeləşdirilmiş təbii qaz nəqli layihəsi olduğunu, hər üç ölkənin enerji maraqlarına, enerji qaynaqlarının və marşrutlarının şaxələndirilməsi siyasətinə xidmət edəcəyini bildirmişdir. Mayeləşdirilmiş təbii qazın Qara dəniz vasitəsilə nəqli layihəsinin əsas təşəbbüskarlarının və müəlliflərinin Azərbaycan Prezidenti İlham Əliyev və Rumıniya Prezidenti Trayan Beseskunun olduğu və dövlət başçıları tərəfindən dəstəkləndiyi xüsusi vurğulanmışdır. Azərbaycanla Rumıniya arasında imzalanmış strateji tərəfdaşlıq sazişinə dair birgə bəyannamənin tərkib hissələrindən biri kimi, layihənin gerçəkləşdirilməsinin təkcə enerji sahəsində ikitərəfli əlaqələrin inkişafına deyil, eyni zamanda kompleks şəkildə ticarət-iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsinə ciddi təkan verəcəyi qeyd edilmişdir. Nazir AGRI layihəsinin Avropa İttifaqının enerji təhlükəsizliyinə xidmət edəcək prioritet layihələrdən biri olacağına ümid etdiyini diqqətə çatdırmışdır.

Potensial təchizatçı kimi ölkənin layihəni lazımi qaz həcmi ilə uzunmüddətli təmin et-

mək iqtidarında olub-olmaması ilə bağlı suala cavabında N.Əliyev Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatlarının 2 trilyon kubmetrdən artıq olduğunu və hazırkı hasilat həcmi əsas götürülərsə, bu ehtiyatların ölkənin 100 illik tələbatını ödəyə biləcəyini vurğulamış, əlavə qaz hasilatı mənbələrinin aşkar olunması imkanlarının da istisna edilmədiyini nəzərə çarpdırmışdır. N.Əliyev, həmçinin Azərbaycanla Rumıniya arasında gələcəkdə neft nəqli sahəsində, o cümlədən Panavropa layihəsi çərçivəsində əməkdaşlıq imkanlarının da nəzərdən keçirildiyini bildirmişdir.

A.Xetaquri Gürcüstanın Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrində mühüm rol oynadığını və AGRI layihəsinin həyata keçirilməsində də tranzit ölkə kimi etibarlı tərəfdaş olacağına əminliyini vurğulamışdır.

Layihə gələcəkdə Azərbaycanın təbii qazının boru xətləri vasitəsilə Gürcüstanın Qara dəniz sahillərinə nəql olunması, burada xüsusi terminalda mayeləşdirilərək, Qara dəniz vasitəsilə tankerlə Rumıniyanın Konstansa limanındakı terminala çatdırılması, daha sonra isə yenidən təbii qaz şəklində bu ölkədə mövcud qaz infrastrukturu şəbəkəsi vasitəsilə Rumıniyanın və digər Avropa ölkələrinin tələbatlarının ödənilməsini nəzərdə tutur.

Səfər çərçivəsində N.Əliyev Rumıniya Prezidenti Trayan Besesku, iqtisadiyyat, ticarət və iqtisadi mühit naziri, eyni zamanda Azərbaycan hökuməti və Rumıniya hökuməti arasında elmi-texniki əməkdaşlıq və ticarət-iqtisadi əlaqələr üzrə müştərək komissiyanın həmsədri A.Videanu ilə görüşmüş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışdır.

Azərbaycan nümayəndə heyəti səfəri zamanı Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin inzibati binası və fəaliyyəti ilə yaxından tanış olmuşdur. Daha sonra nümayəndə heyəti Buxarest şəhərində Tey parkındakı Heydər Əliyev xiyabanını ziyarət etmiş, Azərbaycan xalqının ümummilli liderinin buradakı abidəsi, həmçinin Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün büstü önünə tər çiçəklər qoymuş, əziz xatirələrini ehtiramla yad etmişlər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Polşanın Rumıniyadakı səfirliyində olmuş və Rusiyanın Smolensk şəhəri yaxınlığında təyyarə qəzasında Prezident Lex Kaçinskinin faciəvi ölümü ilə bağlı açılmış matəm kitabını imzalamışlar.

Rumıniyada səfərdə olan Azərbaycan nümayəndə heyətinin tərkibinə, həmçinin xarici işlər nazirinin müavini Xələf Xələfov və ARDNŞ-in vitse-prezidenti Elşad Nəsirov daxildir.

TƏHSİL NAZİRİ QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 13-də Azərbaycanın təhsil nazir Misir Mərdanov Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammehin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə M.Mərdanov ümummilli lider Heydər Əliyevin təhsilin inkişafına böyük önəm

verdiyini, ümummilli liderin siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əzmlə davam etdirildiyini vurğulamışdır.

Nazir, eyni zamanda, ölkəmizin təhsil sistemi və bu sahədə həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. O, son illərdə Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə respublikamızda 2 mindən çox məktəb binasının, ayrı-ayrı təhsil müəssisələri üçün əlavə korpusların tikildiyini, əsaslı təmir olunduğunu diqqətə çatdırmışdır.

Azərbaycanın Avropa təhsil məkanına - Bolonya prosesinə qoşulduğunu xatırladan M.Mərdanov qeyd etmişdir ki, hazırda 10 mindən çox azərbaycanlı gənc dünyanın nüfuzlu universitetlərində, 7 minədək əcnəbi tələbə isə ölkəmizin ali məktəblərində təhsil alır. Nazir "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində yüzlərlə azərbaycanlı gəncin ayrı-ayrı ölkələrin universitetlərində oxuduqlarını da nəzərə çarpdırmışdır.

M.Mərdanov Qambiya ilə Azərbaycan arasında təhsil sahəsində əlaqələrin əhəmiyyətini vurğulamışdır.

Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammeh öz ölkəsi ilə Azərbaycan arasında təhsil sahəsində əlaqələrin yaradılmasına böyük önəm verdiklərini bildirmişdir.

Ali təhsil sahəsində əməkdaşlığın qurulması istiqamətlərindən bəhs edən qonaq qambiyalı gənclərin Azərbaycan universitetlərində, xüsusilə, Azərbaycan Dövlət Neft Akademiyasında, Milli Aviasiya Akademiyasında təhsil almasında maraqlı olduqlarını vurğulamışdır.

Qambiyanın ali təhsil, tədqiqatlar, elm və texnologiyalar naziri Mamadu Tanqara təmsil etdiyi ölkənin təhsil sistemi barədə danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlunu qəbul etmişdir.

Dövlətimizin başçısı Mövlud Çavuşoğlunu Avropa Şurası Parlament Assambleyasının sədri seçilməsi münasibətilə təbrik etdi. Türkiyə nümayəndəsinin bu quruma sədr seçilməsini ədalətli qərar kimi qiymətləndirən Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Mövlud Çavuşoğlunun rəhbərlik etdiyi dövrdə Avropa Şurası Parlament Assambleyası üzərinə düşən vəzifələri uğurla icra edəcəkdir. Dövlətimizin başçısı, eyni zamanda, Mövlud Çavuşoğlunun Avropa Şurası Parlament Assambleyasının sədri kimi ilk səfərlərindən birinin Azərbaycana etməsini yüksək qiymətləndirdi və bu səfərin Parlament Assambleyası ilə Azərbaycan arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Mövlud Çavuşoğlu Avropa Şurası Parlament Assambleyasının sədri seçilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O,

AŞPA-da uzun illər Azərbaycanın parlament nümayəndə heyəti ilə uğurlu əməkdaşlıq etdiklərini vurğuladı.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.

MİLLİ MƏCLİSİN SƏDRİ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri Mövlud Çavuşoğlu aprelin 14-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

Oqtay Əsədov qonağı AŞPA-nın sədri seçilməsi münasibətilə təbrik etmiş, ona bu şərəfli işində uğurlar arzulamışdır.

Milli Məclisin sədri demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası ilə sıx əməkdaşlıq edir. Avropa Şurasına üzv olduqdan sonra ölkəmizdə Avropa dəyərlərinin mənimsənilməsi, demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının qorunması, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər sahələrdə çox böyük işlər görülmüş, müsbət nəticələr əldə edilmişdir. Biz inanırıq ki, türk vətəndaşının belə bir nüfuzlu beynəlxalq təşkilata rəhbər seçilməsi əlaqələrimizin daha da genişlənməsinə təkan verəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Oqtay Əsədov demişdir ki, BMT Təhlükəsizlik Şurası, Avropa Şurası, münaqişənin həlli ilə birbaşa məşğul olan ATƏT bu problemlə bağlı çox mühüm qətnamə və qərarlar qəbul etmişdir. Lakin təəssüflər olsun ki, təcavüzkar Ermənistan beynəlxalq birliyə meydan oxumaqda davam edir və həmin qətnamələri yerinə yetirməkdən boyun qaçırır.

Milli Məclisin sədri Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm addımlar atacağına ümidvar olduğunu bildirmişdir.

M.Çavuşoğlu AŞPA-nın sədri seçildikdən sonra ilk təbriklərini qardaş Azərbaycan Prezidentindən, Milli Məclis sədrindən və buradakı dostlarından almasından qürur duyduğunu vurğulamış və buna görə minnətdarlıq etmişdir.

O demişdir ki, Azərbaycanın Avropa Şurasına üzv olması bu ölkənin Avropa dəyərlərinə verdiyi böyük önəmdən irəli gəlir. Avropa Şurası bunu yüksək qiymətləndirir və o, əməkdaşlığımızın daha da genişlənməsi üçün əlindən gələni edəcəkdir.

M.Çavuşoğlu demişdir ki, təşkilata rəhbərliyi dövründə ikili standartların ləğvinə çalışacaqdır.

AŞPA sədri Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də mühüm işlər görüləcəyinə və önəmli nəticələrin əldə olunacağına ümidvar olduğunu bildirmişdir.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurası Parlament Assambleyasının sədri Mövlud Çavuşoğlu ilə görüşmüşdür.

Ölkəmizin AŞPA ilə sıx əməkdaşlıq etdiyini qeyd edən nazir E.Məmmədyarov bu əməkdaşlığın bir çox sahələri əhatə etdiyini və faydalı nəticələr verdiyini demişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlar prosesi barədə məlumat verən E.Məmmədyarov məsələnin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının zəruriliyini vurğulamış, bu halda regionda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasına imkan yaranacağını bildirmişdir. Dünya ictimaiyyətinin məsələyə diqqətinin artırılmasının vacibliyini vurğulayan nazir, bu xüsusda AŞPA-nın səylərinin də səmərəliyini qeyd etmişdir.

M.Çavuşoğlu AŞPA-nın ölkəmizdə gedən demokratikləşmə proseslərini yüksək qiymətləndirdiyini bildirərək təmsil etdiyi qurumun bu proseslərə öz dəstəyini verməkdə davam edəcəyini vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar AŞPA tərəfindən 2005-ci il yanvarın 25-də qəbul olunmuş 1416 saylı qətnaməni diqqətə çatdıran M.Çavuşoğlu qurumun siyasi komitəsində Dağlıq Qarabağla bağlı alt komitənin fəaliyyəti məsələsinin aktual olaraq qaldığını bildirmişdir. O, yaxın vaxtlarda alt komitənin işinin bərpa olunmasının planlaşdırıldığını və bunun da münaqişənin həllinə müsbət təsiri olacağına ümidvar olduğunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında müxtəlif istiqamətlərdə, xüsusilə energetika sahəsində səmərəli əməkdaşlığın davam etdiriləcəyinə əminliyini bildirdi. Ölkəmizin Avropa İttifaqı ilə yaxşı əməkdaşlıq təcrübəsinin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanın bu qurumla energetika sahəsində uzunmüddətli tərəfdaşlıq əlaqələri qurmaq üçün görüləcək işləri müzakirə etməyin vacibliyini qeyd etdi. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi məsələsinə toxunan dövlətimizin başçısı Azərbaycanın enerji resursları, infrastrukturu və istehsal səviyyəsi nəzərə alınmaqla bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.

Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Oettinger təmsil etdiyi qurumun Azərbaycan ilə təkcə energetika sahəsində deyil, bütün sahələrdə əlaqələrinin yüksək səviyyədə olduğunu bildirdi və energetika sahəsində sıx əməkdaşlığın bundan sonra da davam etdirilməsinin zəruriliyini vurğuladı.

Görüşdə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində əməkdaşlığın perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

BAKIDA "RUSİYA VƏ AZƏRBAYCAN: REGİONLARARASI ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK YOLU İLƏ STRATEJİ TƏRƏFDAŞLIĞI MÖHKƏMLƏNDİRMƏYƏ DOĞRU"MÖVZUSUNDA "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR

Aprelin 15-də Bakıda "Rusiya və Azərbaycan: regionlararası əməkdaşlığı genişləndirmək yolu ilə strateji tərəfdaşlığı möhkəmləndirməyə doğru" mövzusunda "dəyirmi masa" keçirilmişdir.

"Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondu tərəfindən təşkil olunmuş tədbirdə Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentləri administrasiyalarının, xarici işlər nazirliklərinin, Milli Məclisin və Dövlət Dumasının təmsilçiləri, nazirlik, dövlət komitələri və şirkətlərinin, Rusiya regionlarının nümayəndələri, iş adamları, ekspertlər iştirak etmişlər.

Tədbirin təşkilatçısı - "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun prezidenti Valeri Tursunov bildirmişdir ki, "dəyirmi masa" Rusiya və Azərbaycanın regionları arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək, ikitərəfli əlaqələri daha da genişləndirmək, ölkələrimizin vətəndaş cəmiyyətləri arasında dialoqun inkişafı məqsədini daşıyır.

"Dəyirmi masa"nın aparıcılarından biri - Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri akademik Ziyad Səmədzadə tədbirin iki ölkənin ictimai-siyasi həyatında vacibliyini qeyd etmişdir. Bildirmişdir ki, Azərbaycan-Rusiya əlaqələrinin inkişafı artıq yeni mərhələyə qədəm qoymuşdur. Komitə sədri ölkələrimiz arasındakı münasibətlərin zəngin tarixindən danışaraq son illər aparılan siyasət nəticəsində əməkdaşlığın daha da möhkəmləndiyini və inkişaf etdiyini vurğulamışdır.

Tədbirin açılışında Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, Rusiya Prezidenti Administrasiyasının xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Sergey Vinokurov, Dövlət Dumasının MDB və həmvətənlərlə əlaqələr komitəsinin sədri Aleksey Ostrovski çıxış etmiş, forumun işinə uğurlar arzulamışlar.

Əli Həsənov qonaqları Azərbaycan Prezidenti İlham Əliyevin adından salamlamış və demişdir ki, son on ilə yaxın bir müddətdə Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq istiqamətində inkişaf etməkdədir. Ümumiyyətlə, Azərbaycan xalqı ilə rus xalqını 200 ildən artıq bir müştərək tarix birləşdirir. Əcdadlarımız ötən müddətdə hansı şəraitdə, hansı dövlətin bayrağı altında yaşamasından asılı olmayaraq bir-biri ilə iqtisadi, siyasi, sosial, mədəni əlaqələr qurmuş, bir-birindən görüb-götürmüşlər.

Prezident Administrasiyasının şöbə müdiri vurğulamışdır ki, dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri əlaqələrimizin uğurlu inkişafına töhfədir. Dövlətlərarası münasibətlərin ruhu bu əlaqələrin təkcə prezidentlər və hökumətlər səviyyəsində deyil, digər sahələrdə də inkişafını tələb edir.

Sergey Vinokurov Azərbaycan ilə Rusiya arasında münasibətlərin intensiv inkişaf etdiyini və strateji tərəfdaşlıq xarakteri daşıdığını xüsusi vurğulamışdır. O, regionlararası əlaqələrin strateji tərəfdaşlığı möhkəmləndirmək istiqamətində mühüm amil kimi də-

yərləndirərək bildirmişdir ki, ölkələrimiz energetika, neft-qaz, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları sahəsində səmərəli əməkdaşlıq edir, bir sıra uğurlu investisiya layihələri həyata keçirir. Rusiyanın 70 regional subyekti Azərbaycanın regionları ilə əməkdaşlıq haqqında saziş imzalamışdır. Daha 11 subyekt isə sazişi imzalamağı planlaşdırır. Hər il Rusiyadan Azərbaycana 1,5 milyard, Azərbaycandan Rusiyaya isə 500 milyon dollarlıq məhsul göndərilir. Rusiyada Azərbaycan diasporu, Azərbaycanda isə rus icması fəaliyyət göstərir.

"Dəyirmi masa"da "Rusiya və Azərbaycanın regionlararası əlaqələrinin səmərəli inkişafına şərait yaradılmasında dövlət orqanlarının rolu", "Rusiya və Azərbaycanın təsərrüfat subyektlərinin regionlararası əməkdaşlığı - vəzifələr, problemlər və təkmilləşdirmə yolları", "Rusiya və Azərbaycanın regionlararası əməkdaşlığının inkişaf perspektivləri iki ölkənin strateji tərəfdaşlığının möhkəmləndirilməsi amili kimi" mövzularında müzakirələr aparılmışdır.

"Rusiya-Azərbaycan münasibətləri müasir mərhələdə" mövzusunda məruzə ilə çıxış edən Rusiya Federasiyasının ölkəmizdəki səfiri Vladimir Doroxin də dövlətlərimiz arasındakı münasibətlərin qarşılıqlı hörmət və etimad üzərində qurulduğunu, Azərbaycanın Rusiyanın xüsusilə Şimali Qafqazdakı subyektlərinə münasibətinin yüksək dərəcədə nəzakətli olduğunu vurğulamışdır. Diplomat tədbir iştirakçılarını regionlararası əməkdaşlıqda gənclərlə bağlı siyasətə, sərhədyanı əməkdaşlığın, bilavasitə iki ölkənin regionlarının əlaqələrinin genişləndirilməsinə daha çox diqqət yetirməyə çağırmışdır.

"Dəyirmi masa"da Azərbaycan Xarici İşlər Nazirliyi V Avropa şöbəsinin müdiri Asəf Mehdiyevin "Azərbaycan və Rusiyanın dövlət hakimiyyəti orqanları regionlararası sahədə ikitərəfli əlaqələrin inkişafının lokomotivi kimi", Moskva Vilayəti sənaye nazirinin müavini Mixail Savinin "Azərbaycan Respublikası ilə ikitərəfli regionlararası əlaqələrin möhkəmləndirilməsində Moskva vilayətinin iştirakı", Azərbaycan Ticarət və Sənaye Palatasının birinci vitse-prezidenti Niyaz Əlizadənin "Regionlararası əməkdaşlığın inkişafında Azərbaycan və Rusiya ticarət-sənaye palatalarının rolu", Rusiya Energetika Nazirliyi beynəlxalq əməkdaşlıq departamenti direktorunun müavini Mixail Plyoşkinin "Qafqazın energetikası - Xəzər regionunda Rusiya-Azərbaycan enerji layihələrinin problemləri, vəzifələri və perspektiv inkişafı" mövzularında məruzələri, ümumiyyətlə 23 məruzə dinlənilmişdir.

Müzakirələrdə ölkələrimizin regionları arasında işgüzar əlaqələrin bundan sonra da möhkəmləndirilməsi, regionlararası əlaqələr sahəsində beynəlxalq hüquqi aktların hazırlanması, Rusiya və Azərbaycanın müvafiq qanunları və aktlarının uyğunlaşdırılmasının sürətləndirilməsi, regionlararası əlaqələrin səmərəliliyinin qarşılıqlı faydalı əsasda təkmilləşdirilməsi, birgə müəssisələr yaradılması təcrübəsinin genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının əməkdaşlığının dərinləşdirilməsi, sərgi-yarmarka fəaliyyətinin gücləndirilməsi, Xəzərdə inteqrasiya proseslərinin genişləndirilməsi forması kimi Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatının (XİƏT) yaradılması məqsədəuyğun hesab edilmişdir.

İkitərəfli regionlararası məsələlərin müzakirəsi üçün mərkəzi və regional hakimiyyət orqanlarının iştirakı ilə hər il forumlar keçirilməsi qərara alınmış, hər iki ölkənin ticarət və sənaye palatalarına 2010-cu ilin ikinci yarısında Moskvada tərəflərin hakimiyyət or-

qanları, ictimai təşkilatları, işgüzar dairələri təmsilçilərinin iştirakı ilə biznes forumu təşkil etmək tövsiyə olunmuşdur.

Azərbaycan Ticarət və Sənaye Palatası ilə Stavropol diyarı, Volqoqrad, Saratov vilayətləri, Dağıstan Respublikası ticarət və sənaye palataları arasında sazişlər imzalanmışdır.

"Dəyirmi masa"nın iştirakçıları yekun bəyannamə qəbul etmişlər. Sənəddə belə bir fikir əminliklə vurğulanır ki, "Rusiya Federasiyası və Azərbaycan Respublikasının regionlararası əməkdaşlığının bundan sonrakı inkişafı bütün Cənubi Qafqaz və Xəzəryanı dövlətlər üçün yaxşı nümunə, regionlarda inteqrasiya proseslərinin katalizatoru olacaqdır. Bu proseslər regional təhlükəsizliyə və siyasi sabitliyə müsbət təsir edəcək, xalqların rifahının yüksəlməsinə yardım göstərəcəkdir".

MİLLİ MƏCLİSİN SƏDRİ ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ YIĞINCAĞININ (ÜXNY) ÇİN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 15-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağının (ÜXNY) Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Ley Minqçiunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

O.Əsədov Çində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermiş, yaralananların tezliklə sağalmasını arzulamışdır.

Sonra Milli Məclisin sədri Azərbaycan-Çin münasibətlərinin tarixindən danışmış, ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra əlaqələrimizin yeni müstəvidə inkişaf etdiyini bildirmişdir. O demişdir ki, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Çinə səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmış, münasibətlərimizin genişlənməsi üçün böyük imkanlar açmışdır.

Ölkəmizdə həyata keçirilən islahatların uğurlarından danışan O.Əsədov demişdir ki, indi Azərbaycan regionda lider dövlətdir. Amma Ermənistanın torpaqlarımızı işğal altında saxlaması regionun inkişafına ciddi manea törədir. Milli Məclisin sədri Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar nümayiş etdirdiyi mövqeyə, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə, Çin dövlətinə və hökumətinə minnətdarlıq etmişdir.

O.Əsədov ölkələrimiz arasında iqtisadi-ticarət dövriyyəsinin də artdığını bildirmiş, münasibətlərimizin genişlənməsində parlamentlərin rolunu xüsusi qeyd etmişdir.

ÜXNY-nın Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Ley Minqçiu Azərbaycanda olmasından məmnunluğunu ifadə etmiş, göstərilən diqqətə görə minnətdarlıq etmişdir. O demişdir ki, səfərin məqsədi parlamentlərimiz arasında münasibətlərin genişləndirilmsinə dair fikir mübadiləsi aparmaqdır. Qonaq ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmiş, nümayəndə heyətlərimizin beynəlxalq təşkilatlarda, eləcə də BMT-də əməkdaşlığının fayda gətirdiyini qeyd etmişdir.

O demişdir ki, Çin Azərbaycanın müstəqilliyinə və suverenliyinə hörmətlə yanaşır,

Dağlıq Qarabağ münaqişəsinin də məhz beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Bu siyasət dəyişməzdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ÇİN AZƏRBAYCAN TORPAQLARININ İŞĞALI FAKTINI QƏTİYYƏTLƏ PİSLƏYİR

Ölkəmizdə səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağının (ÜXNY) Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri aprelin 15-də Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşmüşlər.

Komitə sədrinin müavini Gültəkin Hacıbəyli Milli Məclisin fəaliyyəti, beynəlxalq əlaqələri barədə qonaqlara ətraflı məlumat vermiş, Azərbaycan parlamentinin bütün ölkələrin parlamentləri, eləcə də beynəlxalq təşkilatlar ilə əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirmişdir.

G.Hacıbəyli demişdir ki, Azərbaycan bu gün inkişafına görə, regionda lider dövlətdir. Dağlıq Qarabağ münaqişəsi bu inkişafa ciddi manea törədir. Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə tərəfdardır. Lakin Azərbaycan, Prezident İlham Əliyevin dediyi kimi, öz torpaqlarını heç kimə güzəştə getməyəcəkdir.

Nümayəndə heyətinin başçısı, Çin-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Ley Minqçiu demişdir ki, onun ölkəsi Azərbaycanda həyata keçirilən islahatları, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirir. Çin güclü inkişaf edən, regionun lider dövləti olan Azərbaycan ilə əməkdaşlığa, əlaqələrin hərtərəfli inkişafına böyük önəm verir.

Çin Azərbaycan torpaqlarının işğalı faktını da pisləyir və bunu ən yüksək tribunadan bəyan etmişdir. Rəsmi Pekin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

ÇİN DÖVLƏTİ AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR

Azərbaycanda səfərdə olan Ümumçin Xalq Nümayəndələri Yığıncağının (ÜXNY) Çin-Azərbaycan parlamentlərarası dostluq qrupu sədrinin müavini Ley Minqçiunun başçılıq etdiyi nümayəndə heyəti aprelin 15-də Milli Məclisdə Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşmüşdür.

Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Siyavuş Novruzov qonaqları salamlayaraq ölkələrimiz arasındakı münasibətlərin qədim tarixə malik olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, Çin Azərbaycanın müstəqilliyini tanıyan və onunla diplomatik əlaqələr yaradan ilk ölkələrdəndir. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin Çinə səfərindən sonra əlaqələrimizdə yeni mərhələ başlamışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci ildə Çinə səfəri zamanı imzalanmış mühüm sənədlər

ikitərəfli münasibətlərin inkişafına təkan vermişdir. S.Novruzov qarşılıqlı əlaqələrin inkişafında parlamentlərin və dostluq qruplarının rolunu xüsusi qeyd etmişdir.

Dostluq qrupunun üzvü, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva ölkələrimiz arasında elm, təhsil və humanitar sahələrdə əlaqələrin inkişaf etdiyini bildirmiş, elmi əlaqələrin daha da genişləndirilməsi üçün imkanların olduğunu qeyd etmişdir.

Sonra qonaqlara Azərbaycanın iqtisadi inkişafı, regional layihələrdəki iştirakı, ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı məlumat verilmişdir.

Çin parlament nümayəndə heyətinin başçısı Ley Minqçiu göstərilən qonaqpərvərliyə və ətraflı məlumata görə minnətdarlıq etmişdir. O demişdir ki, onun ölkəsində Azərbaycanda və regionda gedən proseslərə böyük maraq vardır. Çin dövləti qədim İpək Yolunun üzərində yerləşən Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Sonra o, Çində həyata keçirilən islahatlar, qanunvericilik bazası, beynəlxalq əlaqələr barədə ətraflı məlumat vermişdir.

Görüşdə Azərbaycan-Çin münasibətlərinin inkişaf perspektivləri, deputatlarımızın beynəlxalq təşkilatlarda qarşılıqlı maraq kəsb edən məsələlərdə birgə əməkdaşlığının əhəmiyyəti, regional münaqişələr və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 15-də ölkəmizdə səfərdə olan Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Öettinger ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri, həmçinin regional enerji layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Nazir E.Məmmədyarov Azərbaycanın enerji layihələrinin dünya bazarlarını əlavə enerji ehtiyatları ilə təchiz etməyə yönəldiyini və enerjidaşıyıcılarının çatdırılmasında şaxələndirməyə üstünlük verdiyini vurğulamışdır.

G.Öettinger Azərbaycanın Aİ-nin enerji təminatında mühüm rol oynadığını bildirmiş və bu sahədə əməkdaşlığın davam etdirilməsinin vacibliyini söyləmişdir.

Həmçinin, görüşdə qarşılıqlı maraq kəsb edən müxtəlif mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA PARLAMENTİNDƏ FİNLANDİYANIN DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 15-də Azərbaycanda səfərdə olan Avropa Parlamentində Finlandiyanın deputatı xanım Anneli Jaateemaki ilə görüşmüşdür.

Azərbaycanda ilk dəfə olduğunu vurğulayan A.Jaateemaki səfər çərçivəsində Bakıda keçiriləcək "Azərbaycanda 2010-cu il parlament seçkiləri: Daha demokratik, daha şəffaf" adlı konfransda iştirak edəcəyini demişdir. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən finlandiyalı qonaq bu münasibətlərin intensivləşdirilməsində "Şərq tərəfdaşlığı" proqramının səmərəliliyi ilə maraqlanmışdır.

Nazir E.Məmmədyarov Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlərin vəziyyətini yüksək qiymətləndirmiş, "Şərq tərəfdaşlığı" proqramının əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını vurğulamış, bu proqramı ölkəmizin Avropa strukturlarına inteqrasiyasında vacib amil kimi dəyərləndirmişdir.

Sonra tərəflər regionda baş verən digər hadisələr və bir sıra maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "AZƏRBAYCANDA 2010-CU İL PARLAMENT SEÇKİLƏRİ: DAHA DEMOKRATİK, DAHA ŞƏFFAF" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

Prezident İlham ƏLİYEV konfrans iştirakçılarını salamlayaraq dedi:

- Mən sizi bir daha salamlamaq istəyirəm. Bilirəm ki, Bakıda mühüm görüşlər keçirmisiniz. Sizin hamınızı görməkdən çox şadam. Bu, dostlarımızdan ibarət böyük bir qrupdur. Əminəm ki, ölkəmizə səfəriniz, apardığınız müzakirələr və keçirdiyiniz görüşlər Azərbaycan haqqında sizdə yeni təəssüratlar yaradacaqdır.

Burada əyləşən insanların bir çoxu ilə tanışam. Onlar əvvəllər də ölkəmizdə olublar. Eyni zamanda, bir çox nümayəndələr də var ki, Azərbaycana ilk dəfə səfər edirlər. Beləliklə, ölkəmizlə, paytaxtımızla tanış olmaq və təbii ki, Azərbaycan və onun inkişafı haqqında təəssüratlar əldə etmək üçün yaxşı fürsətdir.

Ümumiyyətlə, Azərbaycan ilə Avropa təsisatları arasında münasibətlər çox uğurla inkişaf edir. Konfrans iştirakçıları arasında Avropa Parlamenti, Avropa Şurası və ATƏT-in Parlament Assambleyalarının üzvləri vardır. Azərbaycan uzun illər ərzində bütün bu təsisatlarla uğurla əməkdaşlıq edir. Hazırda, biz Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramında iştirak edirik. Bu, çox perspektivli bir proqramdır. Bizim həmin proqramın həyata keçirilməsi ilə bağlı ideyalarımız və gözləntilərimiz çoxdur. Ümidvaram ki, həmin proqramın həyata keçirilməsinin ən böyük nəticələrindən biri Azərbaycan ilə Avropa ailəsi arasında daha sıx əməkdaşlıq olacaqdır.

Bu yaxınlarda Avropa İttifaqının iki komissarı ölkəmizdə səfərdə olmuşdur. Bu, əməkdaşlığımızın müsbət göstəricisidir. Avropa İttifaqı ilə əməkdaşlığımızın gündəliyi çox əhatəlidir. Nəzərdən keçirdiyimiz məsələlər demək olar ki, həyatımızın bir çox sahələrini əhatə edir. Burada beynəlxalq məsələləri, təhlükəsizliyi, enerji təhlükəsizliyini, si-

yasi islahatları, demokratik prosesləri, iqtisadi əməkdaşlığı qeyd etmək istərdim. Bir sözlə, əməkdaşlığımızın formatı genişdir.

Azərbaycan Avropa Şurası ilə təxminən son on il ərzində fəal şəkildə əməkdaşlıq edir. Biz bu təşkilatın üzvüyük. Həmin dövrdə, bir çox mühüm qərarlar qəbul edilmişdir və hesab edirəm ki, bu üzvlük bizə Avropa ailəsinə daha yaxın olmaq imkanını yaratdı. Həmçinin Azərbaycan ATƏT çərçivəsində müxtəlif formatlarda fəaliyyət göstərir.

Mən sizi burada görməkdən şadam. Ümidvaram ki, bu görüş, səfəriniz, konfrans və apardığımız müzakirələr planlarımıza uyğun uzunmüddətli səmərəli tərəfdaşlığımızı inkişaf etdirmək imkanını yaradacaqdır.

Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir. Biz müxtəlif siyasi və iqtisadi islahatları həyata keçiririk. Ölkənin müasirləşmə prosesi çox uğurla gedir. Biz beynəlxalq əhəmiyyətli, olduqca mühüm beynəlxalq layihələri həyata keçiririk. Eyni zamanda, Azərbaycandakı müasirləşmə, infrastrukturun inkişaf etdirilməsi və sərmayə imkanları bizə artıq güclü və şaxələndirilmiş iqtisadiyyatı qurmaq imkanını yaratmışdır. Biz beynəlxalq maliyyə böhranının ən az təsir göstərdiyi ölkə olduq. Ötən il iqtisadiyyatımız 9 faizdən çox artmışdır. İnflyasiya yalnız 1,5 faiz olmuşdur. Biz özümüzü təmin edən ölkəyik və əlbəttə ki, iqtisadiyyatımızı gücləndirən bir çox layihələri həyata keçiririk.

Eyni zamanda, iqtisadi inkişaf, siyasi islahatlar siyasətimizi davam etdirməsək kifayət olmayacaqdır. Bu baxımdan, qeyd etdiyim kimi, biz beynəlxalq qurumlar və təşkilatlarla əməkdaşlıq edirik. Azərbaycanın bu formatda üzərinə götürdüyü öhdəliklər yerinə yetirilir. Fikrimcə, siyasi sistemin gücləndirilməsi prosesi çox uğurla gedir. İyirmi ildən bir qədər az müddət öncə, ölkəmiz müstəqilliyini bərpa etdi. O zaman bizim nə siyasi sistemimiz, nə də bazar iqtisadiyyatımız var idi. Hesab edirəm ki, başa çatdırdığımız, eləcə də həyata keçirilməsini davam etdirdiyimiz islahatlar bizə inkişafımızda əsas çətinlikləri aradan qaldırmaq imkanı yaratdı. Bu gün, ümumi daxili məhsulumuzun 85 faizini özəl sektor təmin edir. Bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda çox güclüdür. Dünya İqtisadi Forumunun verdiyi qiymətə görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə MDB ölkələri arasında birinci yerdədir. Qlobal rəqabət qabiliyyəti reytinqi üzrə Azərbaycan iqtisadiyyatı 51-ci yerdədir. Bu isə, bazar iqtisadiyyatı sahəsində qısamüddətli təcrübəyə malik olan ölkə üçün mühüm göstəricidir.

Eyni zamanda, siyasi islahatlara və beynəlxalq təşkilatlarda iştirakımıza sadiq olmağımız bizim üçün əhəmiyyətlidir. Fikrimcə, siyasi və iqtisadi islahatlar bir-biri ilə yanaşı həyata keçirilməlidir. Bir islahat digərini dəstəkləməlidir. Bu, bizə uzun müddət üçün, müasir, güclü və çiçəklənən ölkəni qurmaq imkanı yaradacaqdır. Hesab edirəm ki, bunun üçün yaxşı imkanlarımız vardır. Əsas sosial və iqtisadi problemlərimiz artıq arxada qalıb. Atdığımız addımlar, yürütdüyümüz siyasət də regional vəziyyət və inkişafa müəyyən dərəcədə təsir göstərir. Azərbaycan regional məsələlərə yaxşı səviyyədə inteqrasiya edib. Xarici siyasətimiz hər zaman açıq və səmimi olmuşdur. Biz bir çox ölkələrlə yaxşı münasibətlər qurmuşuq və onların bir çoxu tərəfdaşlarımız sırasındadır.

Qeyd etməliyəm ki, sosial problemlərin həlli hər bir ölkə üçün olduqca vacibdir. Biz bu sahədə də yaxşı nailiyyətlər əldə etmişik. Bir neçə rəqəmi qeyd etmək istərdim. Altı il əvvəl Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz olmuşdur. Bu, əhalinin yarısı deməkdir. Hazırda isə, bu, on bir faiz təşkil edir.

Ölkəmiz üçün mühüm sosial problem olan işsizlik artıq mövcud deyildir. Hazırda əks proses gedir. Azərbaycana işçi qüvvəsinin miqrasiyası prosesi müşahidə olunur və biz bu prosesi beynəlxalq standartlara uyğun şəkildə tənzimləməyə çalışırıq. Biz çalışırıq ki, Avropa təsisatları ilə münasibətlərimizdə ən yaxşı nümunələrdən istifadə edək və buradakı meyarları Avropa İttifaqının inkişaf etmiş ölkələrindəki meyarlara yaxınlaşdıraq. Hesab edirəm ki, bu tərəfdaşlıq qarşılıqlı surətdə faydalıdır. Bizim bununla bağlı gözləntilərimiz çoxdur.

Eyni zamanda, Azərbaycan Avropa İttifaqının regionumuzda Şərq siyasətinin inkişaf etdirilməsinə ciddi töhfə verə bilər. Biz Avropa qitəsinin sərhədində yerləşirik. Xəzərin digər sahilində Mərkəzi Asiyadakı tərəfdaşlarımız yerləşir. Fikrimcə, Azərbaycan ilə Avropa təsisatları arasında əlaqələrin uğurlu inkişafı, həmçinin bu regional tərəfdaşlıq formatını genişləndirməyə imkan yaradacaqdır. Artıq qeyd etdiyim kimi, biz ölkəmizi müasirləşdirmək üçün əlimizdən gələni etməyə çalışırıq. Burada söhbət nəinki müasir infrastruktur və layihələrdən, həmçinin müasir həyat üslubundan gedir.

Ölkəmizin böyük tarixi, ənənələri və mədəniyyəti vardır. Azərbaycan Şərq ilə Qərbin qovuşduğu yerdə yerləşir və əlbəttə ki, bu yerləşmənin təsiri həyatımızda, keçmişimizdə öz rolunu oynamışdır. Eyni zamanda, Azərbaycan çox dünyəvi ölkədir. Burada yüksək səviyyədə dini dözümlülük vardır. Biz çoxmillətli ölkəyik. Azərbaycanda müxtəlif millətlər bir ailə kimi yaşayırlar. Bu sahədə heç vaxt problemimiz olmayıb. Azərbaycan, həmçinin çox təhlükəsiz məkandır. Vəziyyət çox sabitdir. İnsanlar burada bütün azadlıqlardan bəhrələnirlər.

Qeyd etmək istəyirəm ki, bütün siyasi qüvvələrin güclü siyasi sistemin qurulmasına töhfə verməsinə yardım etmək üçün biz demokratik təsisatların inkişafının davam etdirilməsini vacib sayırıq. Bu sahədə Avropa təsisatları ilə əməkdaşlığımız əhəmiyyətlidir. Biz sürətli iqtisadi inkişafımızı bundan sonra da davam etdirəcəyik. Bu inkişafda təkcə enerji amili öz rolunu oynamır. Bununla belə, enerji amilinin inkişafımız üçün əhəmiyyətini azaltmaq düzgün olmazdı. Biz enerji resurslarının daşınmasında şaxələndirilmiş sistemin yaradılmasına nail olmuşuq. Neft və qaza gəldikdə, əsas sərmayələr xarici şirkətlər tərəfindən yatırılmışdır. Azərbaycan xarici sərmayələr üçün təhlükəsiz yerdir. Əlbəttə ki, enerji imkanları, ehtiyatları, artıq yatırılmış sərmayələr və boru kəmərləri sistemi bizə gələcəkdə bundan faydalanmaq və təbii sərvətlərimiz hesabına əldə edilmiş gəlirləri ədalətli qaydada bölüşdürmək imkanını yaradacaqdır. Bu resursların lazımi şəkildə idarə edilməsi nümunələrindən biri, artıq qeyd etdiyim kimi, yoxsulluq şəraitində yaşayanların sayının sürətlə azalmasıdır.

Bəzən neft və qaz hasil edən ölkələrdə, varlı və yoxsul təbəqələr arasındakı fərq artır. Lakin burada görürük ki, enerji layihələrimiz və əldə etdiyimiz gəlirlər, eləcə də bu layihələrin həyata keçirilməsi sosial rifaha aparır. Suveren Dövlət Neft Fondumuz dünyada ən şəffaf suveren neft fondlarından biridir. Bu sırf bizim qiymətləndirməmiz deyil, beynəlxalq təşkilatların verdiyi qiymətdir. Bu baxımdan, BMT Neft Fondumuzu xüsusi olaraq şəffaflığa görə mükafatla təltif etmişdir. Bu, həmçinin beynəlxalq aləmdə mühüm rol oynayan çox səmərəli və şəffaf strukturdur.

Üzləşdiyimiz əsas problem və çağırışlardan biri, bildiyiniz kimi, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın davam edən işğalıdır. Bu işğal artıq iyirmi ildir ki, da-

vam edir. Hətta Sovet İttifaqının süqutundan əvvəl Azərbaycan Ermənistanın təcavüzünə məruz qalırdı. SSRİ-nin dağılmasından sonra bu təcavüzün artıq ciddi nəticələri üzə çıxdı. Ərazilərimizin demək olar ki, 20 faizi işğal altındadır. Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon erməni işğalı altındadır. Tarixən həmin yerlərdə yaşamış azərbaycanlılar oradan qovulmuşdur. Bu, etnik təmizləmə siyasəti idi. Ermənilər azərbaycanlılara qarşı müharibə cinayətləri törətmişlər. Ermənilər 1992-ci ildə Xocalıda 600-dən çox mülki şəxsi qətlə yetirərək, orada soyqırımı törətmişlər. Azərbaycanlılara, o cümlədən uşaq və qadınlara işgəncə vermişlər. Bütün bunlar sənədləşdirilib və bu, iyirminci əsrin sonunda törədilmiş ən böyük cinayətlərdən biridir. BMT-nin Təhlükəsizlik Şurası tərəfindən erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin qəbul edilməsi faktına baxmayaraq, işğal hələ bu gün də davam edir. Ermənistan ATƏT-in qərarlarına, vəziyyəti və nəyin baş verdiyini, təcavüz qurbanının kim olduğunu aydın şəkildə əks etdirən Avropa Şurasının qətnamələrinə də məhəl qoymur.

Gördüyümüz kimi, Ermənistan nəinki beynəlxalq hüququn təməl prinsiplərinə və adi insani davranışa məhəl qoymur, o cümlədən əsas beynəlxalq təşkilatların qərarlarına da riayət etmir.

Danışıqlar prosesi artıq iyirmi ildir ki, davam edir. 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır. Bu qrup artıq 18 ildir ki, fəaliyyət göstərir. Lakin görürük ki, nəticə yoxdur.

Hazırda biz danışıqların mühüm mərhələsindəyik. Hər iki tərəf vasitəçilərin hazırladıqları təkliflərə öz mövqeyini bildirməlidir. Artıq dəfələrlə qeyd edilmişdir ki, Azərbaycan, Rusiya, Fransa və Birləşmiş Ştatların bu yaxınlarda verdikləri təklifə prinsip etibarilə müsbət yanaşır. Əfsuslar olsun ki, Ermənistan tərəfi eyni yanaşmanı nümayiş etdirmir və o, sadəcə prosesi yubandırmaq, onu daimi etmək istəyir və status-kvonu mümkün olduqca uzun müddət ərzində davam etdirmək niyyətindədir. Buna görə, beynəlxalq təsisatlar və qurumlar tərəfindən Ermənistana güclü mesajlar olmadan, belə görünür ki, məsələni dinc yolla həll etmək çətin olacaqdır.

Azərbaycan məsələni sülh yolu ilə həll etmək istəyir. Belə olmasaydı, biz on səkkiz il danışıqlar aparmazdıq. Halbuki Azərbaycan öz torpaqlarını BMT-nin xartiyasına görə istənilən vasitə ilə azad etməkdə tam hüquqa malikdir. Lakin məsələnin sülh yolu ilə həllinə sadiqliyimiz Qafqazda sülh və sabitliyin mühüm amillərindən biridir. Əminəm ki, Dağlıq Qarabağ münaqişəsini həll etmədən Qafqazda sabitliyə nail olmaq mümkün olmayacaqdır. Problemi həll etmək üçün Ermənistan uzun müddət ərzində beynəlxalq ictimaiyyətin fəal səyləri ilə hazırlanmış rəylə razılaşmalı və işğalçı qüvvələrini ərazilərimizdən çıxarmağa başlamalıdır.

Sonra isə, regionda sülh bərqərar oluna bilər. Onda, bütün kommunikasiyalar açılacaq və regiondakı vəziyyət dəyişəcəkdir. Əgər bu, baş verməsə və danışıqlar raundu nəticəsiz olarsa, sonrakı addımların nə olacağını əvvəlcədən demək çox çətin olacaqdır. Çünki münaqişənin bütün mümkün həll yolları artıq əvvəlki illərdə müzakirə edilmişdir. Bugünkü təkliflər isə Minsk qrupu, onun həmsədrlərinin və münaqişə tərəflərinin son beş il ərzində apardığı fəaliyyətin məhsuludur. Təkliflər hazırda konkret praktiki forma alıbdır.

Bir daha deyirəm ki, əgər tərəflərdən biri konstruktiv yanaşmanı nümayiş etdirirsə və vasitəçilərin təklif etdiklərini qəbul edirsə, qarşı tərəf isə, bunları qəbul etmirsə, onda bu təklifləri verənlər müdaxilə etməli və prosesi necə irəliyə aparmaq üzərində ciddi düşünməlidirlər. Bir daha qeyd etmək istəyirəm ki, bu, bizim ölkə üçün bir nömrəli məsələ və problemdir. Xalqımız bundan əziyyət çəkir. Yeddi yüz min azərbaycanlı öz torpaqlarında etnik təmizləməyə məruz qalmışdır.

Həmin ərazilərdə hər şey dağıdılmışdır. Bütün tarixi, dini abidələrimiz, hər şey yerlə-yeksan olunmuşdur. Beş il öncə ATƏT Qərb diplomatlarından ibarət faktaraşdırıcı missiyanın Dağlıq Qarabağ və işğal olunmuş digər rayonlara səfərini təşkil etdi. Onlar hesabat hazırladılar və orada aydın şəkildə bildirildi ki, hər şey dağıdılmışdır. Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma siyasəti aparmışdır. Halbuki onların insan resursları məhduddur. Lakin onlar yenə də de-fakto yaşayışın olması vəziyyətini yaratmaq istəyirlər.

Buna görə, hesab edirəm ki, ATƏT üçün mühüm vaxt yetişib və biz belə bir ideya ilə çıxış edəcəyik ki, artıq beş il ötüb, digər faktaraşdırıcı missiya təşkil olunsun. Belə olsa, müxtəlif təsisatların nümayəndələri həmin yerlərə gedib nəyin baş verdiyini görə bilər.

Bizdə belə bir məlumat var ki, qanunsuz məskunlaşma davam edir. Bu, tamamilə qəbuledilməzdir. Bir ölkənin ərazilərinin digər ölkə tərəfindən işğalı qəbuledilməzdir. Biz artıq gələcək inkişafın müxtəlif variantlarını müzakirə etmişik. Lakin gözləyirik ki, Ermənistan son təkliflərə öz mövqeyini bildirsin. Bu haqda niyə çox danışdım? Çünki bu, nəinki bizim ölkə, o cümlədən regional əməkdaşlıq və sabitlik üçün əsas maneədir. Bu münaqişə həll olunmadan regional əməkdaşlıq tammiqyaslı ola bilməz. Regional sabitlik qurula bilməz. Regional problemlərin həllinə yönəlmiş hər hansı təşəbbüs çox güman ki, baş tutmayacaqdır. Çünki məhz bu, əsas problemdir.

Ümid edirik ki, biz beynəlxalq təşkilatlardan dəstəyə və daha çox anlaşmaya nail olacağıq. Əfsuslar olsun ki, bu vaxta qədər biz hələ də öz mövqeyimizi müdafiə etməli, sübuta yetirməliyik ki, təcavüzün qurbanı məhz Azərbaycandır. Biz hələ də öz hüquqlarımızı qorumalıyıq. Yeddi yüz min insanın elementar insan hüquqları on beş ildən artıqdır ki, pozulmuşdur.

Fikrimcə, konfransınızın həsr olunduğu mövzularla, o cümlədən Azərbaycan ilə Avropa təsisatları arasında münasibətlərin ümumi inkişafı mövzusu ilə yanaşı, işğal olunmuş ərazilərlə bağlı vəziyyət və bu problemin həlli yolu da hər zaman gündəliyimizdə olmalıdır. Bu məsələ diqqət mərkəzində olmalıdır.

Biz beynəlxalq hüquq normaları və həmçinin vasitəçilərin təklifləri əsasında münaqişənin həllində dostlarımızın dəstəyinə arxalanmalıyıq.

Beləliklə, mən bununla nitqimi bitirirəm və vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, çox məşğul gün keçirmisiniz. Sizin bir çox görüş və müzakirələriniz olmuşdur. Ümidvaram ki, Bakıda asudə vaxtınız da olacaqdır. Hazırda, hava da yaxşılaşır. Biz baharın ilk anlarını artıq hiss edə bilirik. Ümid edirəm ki, siz ölkəmizə səfərinizdən razı qalacaqsınız. Bura artıq səfər etmiş şəxslərin öz dostları ilə görüşmək imkanı olacaqdır. Ölkəmizə birinci dəfə səfər edənlər, ümidvaram ki, şəhərimizlə daha yaxından tanış olmaq fürsətini əldə edəcəklər. Sizi bir daha salamlayır, sizə böyük uğurlar arzulayıram. Ölkəmi-

zə gəldiyinizə və belə bir mühüm tədbirdə iştirak etdiyinizə görə minnətdaram.

* * *

ATƏT Parlament Assambleyasının nümayəndə heyəti adından çıxış edən qurumun vitse-prezidenti Volfqanq QROSRUK görüşdə çıxış edərək dedi:

- Zati-alilər, hörmətli qonaqlar, ilk növbədə iqamətgahınızda keçirilən bu görüşə dəvət etdiyiniz üçün ATƏT Parlament Assambleyası adından Sizə təşəkkür etmək mənim üçün böyük şərəfdir. Eyni zamanda, mən Azərbaycan xalqına göstərdiyi böyük və qeyri-adi qonaqpərvərliyə, ölkənizdə olduğumuz müddətdə bizə göstərilən diqqət və qayğıya görə təşəkkür etmək istəyirəm.

Yəqin bilirsiniz ki, burada iştirak edən bəzi qonaqların Azərbaycan haqqında o qədər də böyük təsəvvürü yoxdur. Ona görə də bizim sizin gözəl ölkənizdə daha çox qalmaq imkanımız vardır. Bundan öncə mən bir neçə dəfə ölkənizə səfər etmək imkanı əldə etmişəm. Hər dəfə ölkənizə səfər edərkən buradakı böyük inkişafın, böyük nailiyyətlərin şahidi oluram. Bu münasibətlə həmkarlarım adından Sizi təbrik etmək istəyirəm. Həqiqətən də bu cür inkişafı görmək məmnunluq hissi oyadır.

Sizin də qeyd etdiyiniz kimi və mən Sizinlə tam razıyam ki, seçkilərlə bağlı, xüsusilə də Azərbaycanda keçiriləcək növbəti parlament seçkiləri ərəfəsində keçirdiyimiz konfrans böyük əhəmiyyət kəsb edir. Bununla bərabər, biz bir sıra Avropa ölkələrinin seçki qanunvericiliyi ilə bağlı məsələlər barədə məlumat da verəcəyik. Ümid edirik ki, biz noyabr ayında Azərbaycanda keçiriləcək seçkiləri izləmək üçün dəvət alacağıq. Əminəm ki, seçkilər ATƏT və Avropa standartlarına uyğun, azad, ədalətli və demokratik şəkildə keçiriləcəkdir. Sizə uğurlar arzulayırıq və Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyət daşıyan bu işdə Sizə hər cür kömək edəcəyik. Sizə təşəkkür edirəm.

* * *

Avropa Parlamentinin üzvü, regional inkişaf komitəsinin vitse-sədri, xarici əlaqələr komitəsinin Cənubi Qafqaz ölkələri üzrə məruzəçisi, Avronest nümayəndə heyətinin üzvü Yevgeni KİRİLOV görüşdə çıxış edərək dedi:

- Cənab Prezident, icazə verin, ilk növbədə, mən də həmkarlarım - Avropa Parlamentinin üzvləri adından bizə ayırdığınız bu dəyərli vaxtınıza və bizə verdiyiniz bu maraqlı məlumata görə Sizə minnətdarlığımı bildirim. Qeyd etməliyəm ki, bu, bizim üçün çox faydalı məlumat idi. Çünki biz bir-birimizi daha yaxından tanımaq üçün buradayıq.

Əminəm ki, Azərbaycan deputatları da Avropa Parlamentində hansı işlərin görüldüyünə böyük maraq göstərirlər. Digər tərəfdən, Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi kimi mən demişdim ki, bu regionla bağlı Avropa İttifaqı uzun müddət ərzində yatmış gözələ bənzəyir. Lakin artıq bu gözəl oyanıbdır. Gördünüz kimi, bu yaxınlarda parlament tərəfindən seçilən iki komissar ölkənizə səfər edib. Əminəm ki, Cənubi Qafqaz ilə bağlı qəbul ediləcək hesabat irəliyə doğru atılacaq ciddi bir addım olacaqdır. Çünki bu hesabatda nəinki regiondakı yeni strategiya elementləri, həmçinin diqqətimizə çatdırdığınız, həlli vacib olan Dağlıq Qarabağ münaqişəsi baxımından bölgədəki problemlər də öz əksini tapır. Hesabatda bildirilir ki, bu status-kvo artıq uzun müddət davam edə bilməz. Hesab edirəm ki, biz hamımız bunu dərk edirik. Bu, nəinki iki ölkənin iqti-

sadiyyatına, həmçinin bölgədəki inkişafa ciddi maneədir. Deməliyəm ki, Avropa İttifaqı bu prosesə cəlb edilməyə və yardımçı olmağa hazırdır. Bu artıq yeni bir vəziyyət deməkdir. Artıq məlumatlar da vardır ki, Aİ münaqişənin həllindən sonrakı iqtisadi inkişafda iştirak edəcəkdir. Bütün ölkələr bu regionun daha da yaxşı olmasına cəlb ediləcək və təbii ki, bütün digər sahələrdə də nailiyyətlərin əldə olunmasına çalışacaqdır.

Deməliyəm ki, mən vətəndaş cəmiyyətinin inkişafı üzrə Aİ-nin Assosiasiyası tərəfindən dəvət almışam. Bu, bizim üçün böyük şərəfdir və hesab edirik ki, bu, bir daha əlavə siqnaldır. Azərbaycan bizim dəyərlərimizə, demokratik standartlarımıza daha yaxın olmaq istəyir. Bəzən bu o qədər də asan olmur. Ötən seçkilərdə mən müşahidəçi qismində iştirak etmişəm və bəzi irəliləyişin şahidi olmuşam. Biz, adətən məktəblərdə oluruq. Sevindirici haldır ki, müəllimlərlə və təhsil sahəsində çalışan insanlarla söhbət edərkən orada böyük irəliləyişin olduğunu görürük. Bu, gələcək üçün böyük bir sərmayədir. Avropa İttifaqında artıq təhsil almış və Brüsseldə mənə yaxınlaşan gənclər də vardır. Bu isə gələcək deməkdir. Əminəm ki, yeni nəsil bu işi davam etdirəcəkdir.

Növbəti seçkilərə gəldikdə isə, onu deməliyəm ki, heç kim ideal ola bilməz. Bizim istədiyimiz bu istiqamətdə irəliləyiş görməkdir. Əminəm ki, bu məsələləri müzakirə etmək üçün bizi dəvət etməyiniz, həmçinin tənqidləri dinləməyiniz müsbət bir haldır. Ötən gecə məşhur rəssam Salvador Dali ilə bağlı Fransa və İspaniya arasındakı mübahisəni televiziya vasitəsilə izləyərkən onun bir ifadəsi yadıma düşdü. Ağıllı insan idi. O demişdir: "Özünün tam mükəmməl olduğunu düşünmə, ona heç vaxt nail ola bilməzsən". İstərdim kİ, hamımız bu istiqamətdə irəliləyək. Sağ olun.

* * *

Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti, iqtisadi məsələlər və inkişaf üzrə komitənin prezidenti, AŞPA-da Belçika nümayəndə heyətinin rəhbəri Pol VİLLE çıxış edərək dedi:

- Cənab Prezident, icazə verin Avropa Şurası Parlament Assambleyasındakı bir çox həmkarlarım adından çıxış edim. Həqiqətən də, biz bu cür peşəkarcasına təşkil olunmuş görüşdə iştirak etmək üçün böyük nümayəndə heyəti ilə gəlmişik. Sizi əla əhval-ruhiyyədə və ölkənizi gözəl vəziyyətdə bir daha görməkdən məmnunuq.

Biz tam əminik ki, Siz prezident seçkiləri zamanı söylədiyiniz fikirlərdən sonra əhalidən tammiqyaslı mandatı qazandınız. Beləliklə, Azərbaycan xalqı Milli Məclisə növbəti seçkilərə hazırlaşır. Bu da Sizə və əhalinizə ölkənizin daha da yaxşı gələcəyi üçün daha çox çalışmağa imkan yaradacaqdır.

Təbii ki, biz buraya sizinlə birgə seçkilərə hazırlaşmaq məqsədi ilə gəlmişik və hər bir Avropa qurumu və digər təsisatlar dövlətinizin necə qurulmasına dair Sizin müstəqil fikrinizin olmasını qəbul etməlidir. Eyni zamanda, Sizin Avropa Şurası kimi təsisatlarla çalışmaq qərarınız bir çox dəyərləri bölüşmək istəyinizi göstərən ən doğru seçimdir. Lakin keçmişin bütün mənfi məqamları və vaxtilə beynəlxalq arenada üzləşdiyiniz ikili standartlar tədricən geridə qalmaqdadır. Bu günün faktları və rəqəmləri bu münasibəti dəyişdirir. Məhz bu səbəbdən biz burada böyük bir nümayəndə heyəti ilə yik. İnanan dostlarınız kimi Sizə növbəti ildə və qarşıdan gələn seçkilərdə uğurlar və xalqınızın maraqları naminə yaxşı nəticələr arzu edirəm. Sağ olun!

* * *

Prezident İlham ƏLİYEV görüşə yekun vuraraq dedi:

- Xoş sözlərinizə görə çox sağ olun. Əminəm ki, bu gün keçirdiyimiz bu görüş və apardığımız müzakirələr aramızda daha yaxşı anlaşmanın yaranmasına xidmət edəcəkdir. Aydındır ki, konfransın mövzusu seçkilər oldu. Lakin biz, daha əhatəli məsələləri nəzərdən keçirməliyik. Seçkilər bir prosesdir. Əminəm ki, onlar şəffaf və açıq proses formasında keçəcək və Azərbaycan xalqı bütün namizədlər üçün bərabər imkanları təmin edəcək azad mühitdə öz iradəsini ifadə edəcəkdir. Ən azı, Azərbaycan hökuməti bunu təmin etmək üçün əlindən gələni edəcəkdir. Lakin bu, prosesdir. Mühüm prosesdir. Bu, ümumi demokratik prosesin bir hissəsidir. Əminəm ki, biz digər məsələlərə də, yəni ümumi vəziyyətə, inkişafa və Avropa strukturları ilə Azərbaycan arasında güclü tərəfdaşlıq əlaqələrinə də baxmalıyıq.

Bu konfransın təşkili niyyətlərimizi aydın şəkildə nümayiş etdirir ki, biz bu məsələləri dost və səmimi mühitdə müzakirə etmək, tənqidi fikirləri dinləmək istəyirik. Biz tənqidə açığıq. Təkmilləşdirilməli sahələri hər zaman yaxşılaşdırmağa çalışırıq. Buna görə, hesab edirəm ki, bu münasibətlərin yeni inkişafı çox vədedicidir. Siz qeyd etdiyiniz kimi, bəzən biz ikili standart yanaşması ilə üzləşirik və bu, bizim üçün bəzən ağrılı məsələ olur. Lakin bu, həmçinin bizim üçün dərsdir. Çünki biz Avropa Şurasına üzv qəbul olunanda bizim üçün aydın idi ki, həmin vaxt Avropa Şurasının heç də bütün üzvləri Azərbaycanı həmin ailədə görmək istəmirdi. Lakin biz çox əzmkar idik. Bu, bizim düşünülmüş seçimimiz idi. On il əvvəl bu nailiyyət bir müstəqil ölkə kimi Azərbaycan üçün mühüm nailiyyət idi. Mən tamamilə əminəm ki, Avropa Şurası Parlament Assambleyasının keçmiş üzvü kimi bu təcrübə çox müsbət və mühüm oldu. Biz bir çox şeyləri öyrəndik və eyni zamanda, ölkəmizi tanıda bildik.

Bundan əvvəl Avropada bir çox insanlar Azərbaycan və buradakı reallıqlar haqqında heç nə bilmirdi. Bir çox müxtəlif məlumat və fikirlər var idi. Bəzən bunlar həqiqətə, bəzən isə qərəzli məlumatlara əsaslanırdı. Hər halda bu, çox faydalı təcrübə oldu və bizə əməkdaşlığın yeni mərhələsinə daxil olmaq imkanını yaratdı.

Giriş nitqimdə qeyd etdiyim kimi, biz "Şərq tərəfdaşlığı" Proqramından böyük nəticələri gözləyirik. Ümid edirik ki, bu proqram nəinki Azərbaycan və Avropa ailəsini yaxınlaşdıracaq, o cümlədən onun xalqımız və avropalılar üçün çox praktiki görünən nəticələri olacaqdır. Biz uğurla əməkdaşlıq edə bilərik. Azərbaycan, əgər belə deyə bilərəmsə, Avropaya əliboş getmir. Biz regionda təhlükəsizliyə və proqnozlaşdırılmaya, eləcə də regional əməkdaşlığa töhfə verə bilərik. Avropanın sərhədlərindən kənarda yerləşən regionda biz mövqelərimizlə töhfə verə bilərik.

Enerji təhlükəsizliyi bu əməkdaşlığın, həmçinin çox vacib elementidir. Azərbaycan və Avropa İttifaqı bu sahədə çox sıx işləyir. Biz bizdən asılı olan bütün səyləri göstərməliyik ki, "Cənub dəhlizi"nin həyata keçirilməsinə töhfə verək. Ümid edirik ki, birgə səylərimiz əməkdaşlığın yeni mərhələsi ilə nəticələnəcəkdir. Bu gün əldə etdiyimiz nailiyyətlər yaxşıdır və artıq onlar böyükdür. Nəzərə alsaq ki, "Cənub dəhlizi" layihəsi, daha doğrusu, bir neçə layihəni əhatə edən bu dəhliz son on beş il ərzində burada - Azərbaycanda enerji inkişafı sahəsində görülmüş işlərə əsaslanır.

Bir sözlə, bu, çox geniş gündəlikdir və biz bu məsələlərə tərəfdaşlar, bərabər dostlar və bir-birinə yaxın olmaq istəyən tərəflər kimi yanaşmalıyıq. Fikrimcə, biz Azərbaycan olaraq hesab edirik ki, məqsədlərimiz üst-üstə düşür. Azərbaycan güclü siyasi sistem, güclü iqtisadiyyat yaratmaq və meyarları Avropa ölkələrində olan meyarlara uyğunlaşdırmaq məqsədi ilə müasirləşir. Eyni zamanda, biz Avropa ailəsinin Azərbaycandan gözlədiyi nəticələri bilirik. Aydındır ki, Avropa ailəsi öz sərhədlərində sülh, proqnozlaşdırma, əməkdaşlıq və dost mühitini görmək istəyir. Bütün bunlar burada mövcuddur. Eyni zamanda, biz anlayırıq ki, enerji təhlükəsizliyi məsələlərinin əhəmiyyəti artır. Biz bu işi çox yaxşı bilirik və hesab edirik tələbat da artacaqdır. Azərbaycan burada nəhəng ehtiyatlar, mövcud infrastruktur, güclü siyasi iradə və sadiqliklə artıq mühüm rol oynayır. Bir sözlə, bu, ikitərəfli yoldur. Fikrimcə, hər iki istiqamət bizim üçün eyni dərəcədə vacibdir.

Əminəm ki, "Şərq tərəfdaşlığı" Proqramının yenicə elan edildiyi bu mühüm mərhələdə bizə bir çox illər ərzində bu çərçivədə olmaq imkanını yaradacaq formatın olması çox vacibdir. Mənim səfərim zamanı Brüsseldəki rəsmilərlə və bu yaxınlarda iki komissarla müzakirələrimin bir hissəsi nəinki görülmüş işlərə, nəyin ediləcəyinə, növbəti addımlara, o cümlədən ümumiyyətlə, qarşılıqlı surətdə qəbul olunacaq uzunmüddətli aydın əməkdaşlıq və tərəfdaşlığın formalaşmasına həsr edilmişdir. Bizə gəldikdə, biz mümkün qədər irəliyə doğru getməyə hazırıq.

Hesab edirəm ki, bugünkü görüş və sizin Azərbaycana səfəriniz bu əməkdaşlığın mühüm elementləridir. Ümidvaram ki, sizin və həmkarlarınızın iştirakı ilə müxtəlif formatda keçirilən belə görüşlər davam edəcək və bu, daimi proses olmalıdır. Mən ən azı istəyirəm ki, bu, mümkün qədər daimi proses olsun, çox müsbət məsələləri, eləcə də problem yaradan amilləri və onların həllini açıq şəkildə müzakirə etmək üçün aramızda çox fəal dialoq aparılsın. Biz bunu etməyə hazırıq. Bilirəm ki, həmçinin bizim Avropadakı dostlarımız bu əməkdaşlığı gücləndirmək istəyirlər. Əminəm ki, biz irəliyə doğru sürətlə gedişimizi davam etdirəcəyik. Ölkəmizə səfər etdiyinizə görə çox sağ olun.

İTALİYA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ AZƏRBAYCANIN KONSTRUKTİV MÖVQEYİNİ DƏSTƏKLƏYİR

Aprelin 16-da Milli Məclis sədrinin müavini, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova ölkəmizdə səfərdə olan İtaliyanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Rikkardo Milyori ilə görüşmüşdür.

Bahar Muradova xalqlarımız arasındakı dostluq əlaqələrinin tarixindən, oxşar mədəniyyətlərimizdən söhbət açmış, dövlətlərimizin başçılarının səyləri nəticəsində münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirmişdir. O, əlaqələrimizin inkişafında parlamentlərin xüsusi rolu olduğunu diqqətə çatdırmışdır. Milli Məclis sədrinin müavini Azərbaycanın dinamik inkişafı, regionda və dünyada oynadığı aktiv rolu, regionun inkişafına ciddi mane olan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, bu problemin həlli ilə bağlı nümayiş etdirdiyi mövqeyinə görə İtaliya dövlətinə və parlamentinə minnətdarlığını bildirmişdir.

B.Muradova Azərbaycan parlamentinin fəaliyyəti, qanunvericilik bazası, beynəlxalq təşkilatlar, eləcə də ATƏT PA çərçivəsində əməkdaşlıqdan söz açmışdır.

Ətraflı məlumat və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Rikkardo Milyori səfər proqramının zəngin və maraqlı olduğunu diqqətə çatdırmışdır. O demişdir ki, Azərbaycana ilk gəlişidir və Bakının dinamik inkişafı onların çox xoşuna gəlmişdir. Qonaq "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda Bakıda beynəlxalq konfransın təşkilini yüksək qiymətləndirmiş, bunu Azərbaycan dövlətinin və hökumətinin ölkədə şəffaf, demokratik və azad seçkilər keçirmək əzmində olmasının bariz nümunəsi kimi dəyərləndirmişdir.

Dünyada, eləcə də Cənubi Qafqazda mövcud olan münaqişələrin beynəlxalq təhlükəsizliyə ciddi təhdid olduğunu vurğulayan İtaliya parlamentinin deputatı demişdir ki, o və onun ölkəsi Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın konstruktiv mövqeyini dəstəkləyir. Rikkardo Milyori münaqişənin ədalətli həllinə nail olmaq üçün parlament diplomatiyasının inkişafının vacibliyini vurğulamışdır.

BAKIDA "AZƏRBAYCANDA 2010-CU İL PARLAMENT SEÇKİLƏRİ: DAHA DEMOKRATİK, DAHA ŞƏFFAF" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR

Aprelin 16-da Bakıda "Avropa" mehmanxanasında Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) və Fransanın "Avrasiya - Yeni Üfüqlər" qeyri-hökumət təşkilatının təşəbbüsü ilə "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Prezident Administrasiyasının məsul şəxslərinin, Milli Məclis deputatlarının, Avropa Parlamentinin, Avropa Şurasının və ATƏT-in Parlament Assambleyasının üzvlərinin, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) seçkilər üzrə ekspertlərinin, habelə siyasi partiya rəhbərlərinin, QHT və KİV-lərin nümayəndələrinin də qatıldıqları konfransda cari ilin noyabrında Azərbaycanda keçiriləcək parlament seçkilərinin təşkili, bu zaman beynəlxalq təcrübənin və beynəlxalq təşkilatların tövsiyələrinin nəzərə alınması istiqamətində müzakirələr aparılmışdır.

AVCİYA-nın vitse-prezidenti Vəli Əlibəyovun təklifi ilə təyyarə qəzasında həlak olmuş Polşa Prezidenti Lex Kaçinskinin və yüksək səviyyəli nümayəndə heyətinin xatirəsi bir dəqiqəlik sükutla anılmışdır.

V.Əlibəyov qeyd etmişdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra demokratik inkişaf yoluna qədəm qoymuş və ötən dövrdə ölkədə müxtəlif istiqamətli seçkilər keçirilmişdir. Bu seçkilərin beynəlxalq təsisatlar tərəfindən də izləndiyi, proses başa çatdıqdan sonra bu institutlar tərəfindən rəy və təkliflərin səsləndirildiyi qeyd edilmişdir. Həmin rəylərdə Azərbaycanın hər seçkidən sonra irəliyə doğru addımlar atdığı, ədalətli, demokratik və şəffaf seçkilər istiqamətində uğurları qeyd edilmişdir. O, ümid etdiyini bildirmişdir ki, qarşıdan gələn parlament seçkiləri də bu ənənələri pozmayacaq və Azərbaycan xalqı daha demokratik seçkilər keçirəcəkdir.

V.Əlibəyov qeyd etmişdir ki, konfransın təşkilində məqsəd Azərbaycanda seçkilərlə bağlı formalaşmış ictimai rəyi toplantı iştirakçılarının nəzərinə çatdırmaqdan və beynəlxalq təşkilatların ekspertlərinin məsələ ilə bağlı fikirlərini öyrənməkdən ibarətdir.

Fransanın "Avrasiya-Yeni Üfüqlər" təşkilatının və konfransın prezidenti Tyeri Mariani

yüksək səviyyəli ekspertlərin iştirakı ilə keçirilən konfransda aparılacaq müzakirələrin zəngin olacağını və gələcək fəaliyyətə müsbət təsir edəcəyinə əmin olduğunu bildirmişdir. Son illər Azərbaycanın bir sıra sahələrdə, o cümlədən seçkilərin təşkili və keçirilməsində müvəffəqiyyətlər əldə etdiyi vurğulanmışdır. T.Mariani payızda keçiriləcək parlament seçkilərinin də demokratik və ədalətli keçiriləcəyinə inandığını qeyd etmişdir.

Konfransda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov ölkənin ictimai-siyasi həyatı, siyasi sistem, idarəetmə, seçki təcrübəsi, Azərbaycanın regiondakı geosiyasi mövqeyi ilə bağlı ətraflı məlumat vermişdir. Şöbə müdiri qeyd etmişdir ki, Cənubi Qafqazın ən böyük dövləti olan Azərbaycan demokratik prinsipləri əsas tutur, parlamentdə onlarla partiya təmsil olunur, Prezident xalq səsverməsi yolu ilə seçilir və Avropa standartlarına uyğun məhkəmələr formalaşmışdır.

Əli Həsənov demişdir: "Azərbaycanda siyasi partiyalar, QHT-lər, mətbuat orqanları fəaliyyət göstərir, yerli özünü idarəetmə orqanları olan bələdiyyələr formalaşmışdır. Beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla Seçki Məcəlləsi qəbul edilmişdir. Azərbaycan demokratik səviyyədə seçki keçirməyə qadirdir. Daxili siyasi vəziyyət, ayrı-ayrı seçki institutlarının mövcudluğu, seçkilərdə iştirak edən, seçən və seçilən insanların hüquqlarının qorunması bunu deməyə əsas verir. Azərbaycanda hər bir insan özünün seçib seçilmək hüququnu reallaşdırmaq imkanına malikdir".

Şöbə müdiri vurğulamışdır ki, Azərbaycan cəmiyyəti dünya standartlarına uyğun seçki keçirməyə tam hazırdır.

Sonra konfrans işini sessiyalarda davam etdirmişdir.

"Azərbaycanda seçki praktikası" mövzusunda keçirilən konfransın birinci sessiyasında AVCİYA-nın seçki qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı, ATƏT DTİHB-nin baş məsləhətçisi Conatan Stoun Stret, Belçika Konstitusiya Məhkəməsinin hakimi Jan Pol Murman məruzələrlə çıxış etmiş, ölkədə əvvəllər keçirilmiş seçkilər zamanı müşahidə etdikləri məsələlərlə bağlı rəy və təkliflərini bildirmişlər. Məruzələr ətrafında aparılan müzakirələrdə Azərbaycanın demokratik, ədalətli və şəffaf seçkilərin təşkilində və keçirilməsində böyük təcrübə qazandığı, məruzələrdə səslənən fikir və təkliflərin ölkədə seçki prosesinin daha da təkmilləşdirilməsi baxımından əhəmiyyəti vurğulanmışdır.

Fasilədən sonra keçirilmiş növbəti sessiyada "2010-cu ilin parlament seçkilərinin təkmilləşdirilməsi: müxtəlif prizmalar" mövzusunda müzakirələr aparılmışdır. Azərbaycan Prezidenti Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev " "2010-cu ilin parlament seçkilərinin qanunverici əsasları", Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov "Seçki qanunvericiliyinin praktiki şəffaflıq resursları", Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev "Demokratik seçki mühitinin formalaşdırılması istiqamətində partiyaların fəaliyyəti", Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev "Azərbaycan Respublikasının seçki qanunvericiliyinin dinamikası" adlı məruzələrlə çıxış etmiş, müzakirələr aparılmışdır.

Konfransın üçüncü sessiyası "Müasir dünyada seçki praktikaları" mövzusuna həsr olunmuşdur. Bu sessiyada ispaniyalı senator, Parlamentlərarası İttifaqın üzvü Luis Fraqa İs-

paniyanın, Avropa Parlamentinin üzvü, bolqarıstanlı deputat Metin Kazak Bolqarıstanın, Kreyn qrupunun prezidenti Deniel Kreyn ABŞ-ın seçki modellərinin xüsusiyyətləri barədə məruzələrlə çıxış etmişlər. Müzakirələrdə hər bir ölkənin seçki sisteminin onun yerli xüsusiyyətləri nəzərə alınaraq hazırlandığı, məhz həmin ölkədə ədalətli seçkilərin təşkilinə xidmət etdiyi, aparılan təcrübə mübadiləsinin isə ümumi əhəmiyyətə malik olduğu vurğulanmışdır.

Sonda konfransın qətnaməsi qəbul edilmişdir.

AZƏRBAYCANIN DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN RƏİSİ MDB MİQRASİYA ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Arzu Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti MDB ölkələri miqrasiya orqanlarının rəhbərləri Şurasının VII iclasında iştirak etmək məqsədilə aprelin 15-16-da Rusiya Federasiyasında səfərdə olmuşdur.

İclasda Rusiya, Belarus, Ukrayna, Qazaxıstan və Tacikistanın müvafiq qurumlarının rəhbər nümayəndələri, habelə MDB İcraiyyə Komitəsi, MDB Parlamentlərarası Assambleyasının təmsilçiləri müşahidəçi qismində iştirak etmişlər.

Toplantıda MDB ölkələrində miqrasiya sahəsində vəziyyətlə bağlı məlumatlar dinlənilmiş, bir sıra qərarlar qəbul edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN MÜDAFİƏ NAZİRİNİN SİYASƏT ÜZRƏ MÜAVİNİ MİŞEL FLOURNOYUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin siyasət üzrə müavini Mişel Flournoyun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif aspektləri müzakirə olundu, iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BAKININ ORTA MƏKTƏBLƏRİNDƏ İNTERAKTİV SEMİNARLARA BAŞLAMIŞDIR

Azərbaycan Diplomatik Akademiyasının dəstəyi ilə Bakının bir sıra orta məktəblərində interaktiv seminarlar keçirilir.

Xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələrinin də iştirak etdikləri seminarların məqsədi orta məktəblərdə təhsil alan şagirdlərin dünyagörüşünü artırmaq, onlara digər dövlətlər, beynəlxalq qurumlar haqqında geniş məlumat verməkdir.

Bu dəfə seminar Suraxanı rayonundakı 2 nömrəli uşaq evində olmuşdur. Şagirdlərlə görüşə gələn Macarıstanın Azərbaycandakı səfirinin müşaviri Yolton Bac ölkəsi haqqında məlumat vermiş, dövlətlərimiz arasında əməkdaşlıq əlaqələrindən danışmışdır.

Macarıstanın bir sıra beynəlxalq qurumların üzvü olduğunu deyən diplomat, ölkəsinin təhsil sisteminin də yüksək səviyyədə inkişaf etdiyini vurğulamışdır.

Sonda Y.Bac uşaqların suallarını cavablandırmışdır.

BAŞ NAZİR POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Aprelin 18-də Polşa Prezidenti Lex Kaçınskinin Krakov şəhərində dəfn mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycanı Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Yerli vaxtla saat 14-də Krakovdakı Müqəddəs Mariya kilsəsində keçirilən dəfn mərasiminə Avropa hava məkanında yaranmış məlum problem üzündən dünyanın bir çox dövlətlərinin rəhbərləri gələ bilməmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Görüşdə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinin əhəmiyyəti qeyd olundu, ölkələrimiz arasında birliyin və əməkdaşlığın gücləndirilməsinin zəruriliyi bir daha vurğulandı.

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Türkiyə-Ermənistan əlaqələri barədə məlumat verdi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı son vəziyyət haqqında danışdı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

KÜVEYT DÖVLƏTİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ AZƏRBAYCANIN HAQLI MÖVQEYİNİ MÜDAFİƏ EDİR

Milli Məclis sədrinin müavini Bahar Muradova aprelin 19-da Azərbaycanda səfərdə olan Küveyt parlamentinin qadın deputatları ilə görüşmüşdür.

B.Muradova ölkələrimiz arasındakı əlaqələrin tarixindən danışmış, münasibətlərimizin daha da genişlənməsində dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmişdir. O

demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Küveytə səfərindən sonra münasibətlərimiz yeni müstəviyə qədəm qoymuşdur. Bu səfər çərçivəsində imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin inkişafı üçün hüquqi baza yaratmışdır.

Sonra Milli Məclis sədrinin müavini Azərbaycan parlamentinin fəaliyyəti, beynəlxalq əlaqələri, əməkdaşlığı, qanunvericilik bazasının möhkəmləndirilməsi və inkişafı sahəsindəki təcrübəsi barədə ətraflı məlumat vermişdir. Beynəlxalq əməkdaşlığın və qarşılıqlı səfərlərin təkcə parlamentlər arasında deyil, digər sahələrdə də əlaqələrin inkişafına töhfə verdiyini bildirmişdir.

B.Muradova Azərbaycanın inkişafına ciddi maneə olan Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı məlumat vermiş, problemin həllində Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiyinə, azərbaycanlı qaçqın və məcburi köçkünlərə göstərdiyi humanitar yardımlara görə Küveyt Dövlətinə və xalqına minnətdarlığını bildirmişdir.

Nümayəndə heyətinin rəhbəri Küveyt Dövləti Milli Məclisinin deputatı Məsumə Saleh əl-Mubarək dost Azərbaycana səfərlərindən məmnun qaldıqlarını vurğulamış, apardıqları müzakirələrin ikitərəfli əlaqələrin inkişafına və qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsinə yaxşı töhfə verəcəyini qeyd etmişdir. O demişdir ki, təmsil etdiyi ölkə Azərbaycan ilə əlaqələrin möhkəmlənməsinə böyük önəm verir.

Digər qonaqlar da çıxış edərək Azərbaycanda olmaqdan məmnun qaldıqlarını bildirmiş, ölkəmizdə gedən quruculuq işlərindən razılıqla danışmışlar. Bildirilmişdir ki, təcavüzə məruz qalmış Küveyt xalqı azərbaycanlı qardaşlarının problemini başa düşür və Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyini dəstəkləyirlər.

VATİKANDA AZƏRBAYCANLA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MÜZAKİRƏ OLUNMUŞDUR

Aprelin 19-da Azərbaycan Respublikası mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Vatikanda bu ölkənin kitabxana və məxfi arxivinin direktorları ilə görüşmüşdür.

Görüşdə nazir ölkəmizdə Qafqaz Albaniyasının və ona məxsus tarixi və mədəni abidələrin mövcudluğu, onların qorunması və dövlət tərəfindən qayğı göstərilməsi barədə məlumat vermişdir. Azərbaycan Milli Kitabxanası ilə Vatikan kitabxanası arasında əməkdaşlıq və məxfi arxivə giriş məsələsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Vatikanının mədəniyyət naziri ilə görüşmüş Ə.Qarayev Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, tolerant bir dövlət olması, dünyəvi dinlərə hörmətlə yanaşması, azsaylı xalqların dili və mədəniyyəti ilə yanaşı, onların dini etiqadları ilə bağlı hər cür şəraitin yaradılması, ölkəmizdə yeni katolik kilsəsinin istifadəyə verilməsi barədə həmkarına ətraflı məlumat vermişdir.

Vatikan tərəfi Azərbaycanın tolerant dövlət olmasından böyük məmnunluq duyduğunu bildirmiş, dünyəvi dinlərə göstərdiyi qayğıya görə Azərbaycan hökumətinə təşəkkür etmiş, mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı ölkəmizdə keçirilmiş beynəlxalq konfransı yüksək qiymətləndirmişdir.

Vatikanın mədəniyyət naziri Azərbaycan incəsənət ustalarını ölkəsində keçiriləcək kinofestivalda iştirak etməyə dəvət etmişdir.

BMT-NİN CİNAYƏTKARLIQLA MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ 12-Cİ KONQRESİ KEÇİRİLMİŞDİR

Bu il aprelin 12-19-da Braziliyanın Salvador şəhərində BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsinə dair 12-ci konqresi keçirilmişdir.

Dünyanın bütün ölkələrini təmsil edən 3 minə yaxın nümayəndənin, o cümlədən ədliyyə və daxili işlər nazirləri, baş prokurorlar, digər hökumət üzvləri, nüfuzlu beynəlxalq təşkilatların yüksək vəzifəli şəxslərinin iştirak etdiyi bu mötəbər forumda Azərbaycanı ədliyyə naziri Fikrət Məmmədovun rəhbərliyi ilə Baş Prokurorluğun, Ədliyyə, Milli Təhlükəsizlik, Daxili İşlər və Xarici İşlər nazirliklərinin məsul şəxslərindən ibarət nümayəndə heyəti təmsil etmişdir.

Beş ildən bir təşkil olunan və cinayətkarlığa qarşı qlobal səviyyədə mübarizə siyasətini müəyyən edən bu mötəbər tədbirin açılış mərasimində konqresin rəhbərliyi formalaşdırılmış və Braziliyanın ədliyyə naziri Luis Paulo Barretto konqresin prezidenti, Azərbaycanın ədliyyə naziri isə vitse-prezidentlərdən biri seçilmişdir.

F.Məmmədov konqresin yüksək səviyyəli sessiyasında çıxış edərək ölkəmizdə cinayətkarlığın qarşısının alınması, cinayət ədliyyəsi sisteminin və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən tədbirlərdən danışmışdır. Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə iqtisadi, sosial və digər sahələrdə əldə edilmiş yüksək nailiyyətlər, qanunvericiliyin təkmilləşdirilməsi, məhkəmə-hüquq islahatları, penitensiar sistemdə müsbət dəyişikliklər barədə ətraflı məlumat verilmişdir. Tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, torpaqlarımızın bir qisminin Ermənistan tərəfindən işğal olunmasına, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb edilmişdir.

Maraqla qarşılanmış çıxışda transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə dair təkliflər irəli sürülmüş, çıxışın ingilis və rus dillərində mətnləri tədbir iştirakçılarına paylanmışdır.

Nümayəndə heyətinin üzvləri gündəliyin əsas məsələləri, o cümlədən terrorçuluqla, kiber-cinayətkarlıqla və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə, penitensiar sistemdə islahatlar, beynəlxalq hüquqi yardımın səmərəliliyi mövzularında çıxışlar etmişlər.

Sonda cinayətkarlıqla mübarizə üzrə səylərin gücləndirilməsinə dair Salvador Bəyannaməsi qəbul edilmişdir.

Forum çərçivəsində, həmçinin Braziliyanın ədliyyə naziri ilə rəsmi görüş keçirilmişdir. Görüşdə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə maraq göstərilmiş, bu əlaqələrin genişləndirilməsi üçün perspektivlərin olduğu vurğulanmış və konkret təkliflər irəli sürülmüşdür.

F.Məmmədovun Mərakeşin ədliyyə naziri Monammed Naciri ilə görüşündə dövlətlərimiz arasında hüquqi əməkdaşlığa dair 4 sənədin tam razılaşdırıldığı məmnunluqla qeyd olunmuş və onların imzalanması üçün Mərakeş nazirinin Azərbaycana səfəri ilə bağlı məsələlər müzakirə edilmişdir.

Səfər zamanı BMT, Avropa Şurası, digər beynəlxalq təşkilatların, habelə bir sıra dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə işgüzar görüşlər keçirilmiş, əmək-

daşlığa dair faydalı fikir və təcrübə mübadiləsi aparılmışdır.

Konqres ərəfəsində ədliyyə naziri F.Məmmədov Braziliyada daha bir tədbirdə - vitse-prezidenti olduğu Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası İcraiyyə Komitəsinin iclasında iştirak etmişdir.

Toplantıda qurumun işi ilə bağlı bir sıra təşkilati məsələlərə baxılmış, o cümlədən Azərbaycan nazirinin təklifləri əsasında komitənin tərkibi genişləndirilərək yeni üzvlər seçilmiş, Assosiasiyanın fəaliyyətinin səmərəsinin artırılması üzrə tədbirlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ BORİS KLİMÇUKU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Ukraynanın ölkəmizdəki səfiri Boris Klimçuku diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Boris Klimçukun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin möhkəmləndiyini vurğulayaraq ötən dövr ərzində nəzərdə tutulan məsələlərin bir çox hissəsinin həyata keçirildiyini qeyd etdi. Səfirin Azərbaycan-Ukrayna əlaqələrinin genişlənməsi işinə öz töhfəsini verdiyini bildirən Prezident İlham Əliyev gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Boris Klimçuk ölkəmizdəki diplomatik fəaliyyəti dövründə səfirliyin işinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Diplomat ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOVU FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də ATƏT-in Minsk qrupunun Rusiyalı həmsədri Yuri Merzlyakovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Yuri Merzlyakov ATƏT-in Minsk qrupunun Rusiyadan olan yeni həmsədri İqor Popovu dövlətimizin başçısına təqdim etdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələləri müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ ROBERT BRADKENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri Robert Bradkeni qəbul

etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

İNDONEZİYA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR

Ölkəmizdə səfərdə olan İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədr müavini Pramono Anunq Vibovonun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 21-də Milli Məclisdə Azərbaycan-İndoneziya parlamentlərarası işçi qrupunun üzvləri ilə görüşmüşdür.

İşçi qrupunun rəhbəri Bəxtiyar Əliyev Azərbaycanın dövlətçilik tarixi, iqtisadi inkişafı, əldə etdiyi uğurlar, parlamentin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, müstəqilliyinin ilk illərində ölkəmizdə yoxsulluq həddi 70 faiz olduğu halda, həyata keçirilmiş məqsədyönlü siyasət nəticəsində bu rəqəm 11 faizə enmişdir. Bu gün Azərbaycan regionda lider dövlətdir. Amma Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsi bölgənin inkişafına ciddi maneə törədir. Ermənistanın etnik təmizləmə və işğalçılıq siyasəti nəticəsində 250 mindən çox soydaşımız bu ölkədəki ata-baba yurdlarından, 750 mindən çox vətəndaşımız isə Azərbaycan Respublikasının Ermənistanın işğalı altında olan ərazilərindən didərgin düşmüşlər.

Ermənistanın işğal etdiyi ərazilərdə narkotik maddələrin becərilməsi, terrorçu qrupların hazırlanması, eləcə də həmin ərazilərdə nüvə tullantıları və digər radioaktiv tullantıların basdırılması barədə faktlar vardır.

B.Əliyev Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyinə görə İndoneziya parlamentinə və dövlətinə minnətdarlıq etmişdir.

İndoneziya nümayəndə heyətinin rəhbəri Pramono Anunq Vibovo göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş və demişdir ki, səfərin məqsədi ölkələrimiz arasında əlaqələrin inkişafına, xüsusən də parlamentlərarası münasibətlərin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparmaqdır.

O demişdir ki, 240 milyon əhalisi olan İndoneziya 18 min adanı əhatə edir və ölkə əhalisinin böyük əksəriyyəti İslam dininə sitayiş edir. Əhalisinin sayına görə dünyanın ən böyük müsəlman ölkəsi olan İndoneziya Azərbaycan ilə əlaqələrin genişləndirilməsində maraqlıdır.

Qonaq onu da bildirmişdir ki, İndoneziya təcavüzdən və etnik seperatizmdən əziyyət çəkmiş ölkə kimi Azərbaycanın problemini də yaxşı başa düşür. İndoneziya Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

Sonra işçi qrupunun üzvləri Asəf Hacıyev, Çingiz Əsədullayev, Nazim Məmmədov, eləcə də qonaqlar ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı barədə fikirlərini bildirmiş, elm, təhsil, səhiyyə, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin, ticarət dövriyyəsinin artırılmasının vacibliyini vurğulamışlar. Qeyd olunmuşdur ki, deputatların qarşılıqlı səfərləri təkcə parlamentlər arasında deyil, dövlətlərimiz və xalqlarımız arasında da dostluq münasibətlərinin genişlənməsinə töhfə verir.

BEYNƏLXALQ TƏŞKİLATLARDA BİRGƏ ƏMƏKDAŞLIQ HƏR İKİ ÖLKƏNİN NÜFUZUNUN ARTMASINA XİDMƏT EDİR

Azərbaycan və İndoneziya parlamentarilərinin beynəlxalq təşkilatlarda birgə əməkdaşlığı hər iki tərəf üçün faydalıdır.

Bu sözlər ölkəmizdə səfərdə olan İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədr müavini Pramono Anunq Vibovonun rəhbərlik etdiyi nümayəndə heyətinin Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşündə səslənmişdir.

Komitənin sədri Səməd Seyidov Azərbaycan parlamentinin beynəlxalq əlaqələri, rəhbərlik etdiyi komitənin bu sahədə rolu, ölkəmizin dünyada artan nüfuzu barədə qonaqlara ətraflı məlumat vermişdir. S.Seyidov bu səfərin təkcə parlamentlərimiz arasında deyil, xalqlarımız arasında da münasibətlərin genişlənməsinə təkan verəcəyinə ümidvar olduğunu vurğulamışdır.

Komitənin üzvləri Qənirə Paşayeva, Gültəkin Hacıbəyli, Asim Mollazadə və başqaları ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində həyata keçirilən islahatlar, iqtisadi inkişaf, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermiş, bu problemin həlli ilə bağlı Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyinə görə, İndoneziya hökumətinə və xalqına minnətdarlıqlarını bildirmişlər. Deputatlarımız bir çox ölkələrin, xüsusən də İslam Konfransı Təşkilatına üzv olan bəzi dövlətlərin hələ də Ermənistanla sıx əməkdaşlıq etməsindən narazılıqlarını ifadə etmişlər.

Pramono Anunq Vibovo rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirmişdir. O demişdir ki, bu gün ölkələrimiz arasında mehriban dostluq münasibətləri vardır. İndoneziya dost Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafında maraqlıdır. Azərbaycanın üzləşdiyi problem, torpaqların işğal olunması, bir milyondan çox insanın 20 ildir ki, qaçqın və məcburi köçkün vəziyyətində yaşaması həqiqətən də dözülməzdir. İndoneziya bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinə tərəfdardır və bu mövqe dəyişməyəcəkdir.

AZƏRBAYCAN İLƏ İNDONEZİYA ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN BÖYÜK İMKANLAR VARDIR

Azərbaycan iqtisadiyyatı son illər sürətlə inkişaf etmişdir. İndi ölkəmizin təkcə neft sektoru deyil, qeyri-neft sektoruna da əsaslı sərmayə qoyulur. Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar digər ölkələr üçün də nümunə ola bilər.

Bu sözlər ölkəmizdə səfərdə olan İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədr müavini Pramono Anunq Vibovonun rəhbərlik etdiyi nümayəndə heyətinin Milli Məclisin iqtisadi siyasət komitəsinin üzvləri ilə görüşündə səslənmişdir.

Komitə sədri Ziyad Səmədzadə qonaqlara Azərbaycanda iqtisadi sahədə həyata keçirilən islahatlar, bu sahə ilə bağlı qəbul olunmuş qanunlar barədə ətraflı məlumat vermişdir. O demişdir ki, öz iqtisadi potensialına görə, dünyada öncüllər sırasına çıxan Azərbaycan regionda lider dövlətdir. Bu uğurların əsasında ölkənin müvəffəqiyyətlə həyata keçirilən neft strategiyası dayanır.

Z.Səmədzadə İndoneziyanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlərin də təqdirəlayiq olduğunu vurğulamış, ölkələrimiz arasında iqtisadi-ticarət dövriyyəsinin artırılmasının vacibliyini qeyd etmişdir.

Pramono Anunq Vibovo İndoneziyada iqtisadi sahədə həyata keçirilən islahatlar, ölkəsinin təbii ehtiyatları və bu ehtiyatlardan səmərəli istifadə edilməsi ilə bağlı ətraflı məlumat vermişdir. Qonaq ölkələrimizin oxşar iqtisadiyyata malik olduğunu bildirmiş, bu və digər sahələrdə əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət, humanitar sahələrdə əlaqələrin genişləndirilməsi, qanunvericilik sahəsində əməkdaşlıq, ticarət dövriyyəsinin artırılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızla bağlı mühüm məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın və tərəfdaşlıq əlaqələrimizin səviyyəsinin razılıq doğurduğunu dedi. Azərbaycanın Pakistan ilə birgə fəaliyyət sahələrini genişləndirmək niyyətində olduğunu qeyd edən dövlətimizin başçısı əməkdaşlıq əlaqələrini gücləndirmək üçün hərbi sahədə və müdafiə sənayesində də yaxşı imkanların olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Pakistanın İslam Konfransı Təşkilatında və BMT-nin Baş Məclisində Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı qətnamənin qəbul edilməsi zamanı səsvermədə ölkəmizin haqlı mövqeyini dəstəklədiyinə və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar Pakistan hökumətinin Ermənistanı tanımaması ilə bağlı tutduğu mövqeyə görə dost ölkənin rəhbərliyinə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Kəşmir məsələsi ilə bağlı Azərbaycan tərəfinin Pakistanın mövqeyini dəstəklədiyini bir daha vurğuladı.

Ölkəsinin Azərbaycan ilə əlaqələrinin uğurla inkişaf etdiyini bildirən Pakistanın müdafiə katibi Səyid Əthar Əli ölkələrimizin beynəlxalq forumlarda bir-birinin mövqelərini daim dəstəkləmələrinin önəmini qeyd etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin Azərbaycan üçün ən ümdə məsələ olduğunu vurğulayan qonaq məhz bununla bağlı Pakistanın Ermənistanı tanımadığını qeyd etdi.

BAŞ NAZİR PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 22-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi

nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir A.Rasizadə Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələrin çox yüksək səviyyədə olduğunu, belə qarşılıqlı səfərlərin əməkdaşlığın möhkəmləndirilməsi, əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğulamışdır. Ölkələrimizin təmsil olunduqları beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini daim dəstəklədiklərini deyən Baş nazir, dost və qardaş Pakistanın Azərbaycanın əzəli torpaqlarının 20 faizini işğal etmiş təcavüzkar Ermənistanla indiyədək heç bir sahədə əlaqə qurmamasını məmnunluqla diqqətə çatdırmışdır. Pakistanın bu istiqamətdə tutduğu mövqe və ölkəmizin haqq işini dəstəkləməsi yüksək qiymətləndirilmişdir. Azərbaycanın Pakistanla müdafiə sahəsində də əməkdaşlıqda maraqlı olduğu nəzərə çarpdırılmışdır.

Pakistanın müdafiə katibi Səyid Əthar Əli ölkəsinin Azərbaycan ilə müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sənaye sahəsində əməkdaşlığa böyük əhəmiyyət verdiyini söyləmiş, əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirmişdir. Qonaq təcavüzkar Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini qəbuledilməz fakt adlandırmış, Pakistanın daim Azərbaycanın yanında olduğunu və bundan sonra da olacağını vurğulamışdır. Bildirmişdir ki, iqtisadi və müdafiə sahələrində əməkdaşlığımız hər iki ölkənin daha da güclənməsinə, qüdrətinin artmasına xidmət edəcəkdir.

Səyid Əthar Əli Kəşmir məsələsi ilə bağlı Azərbaycanın Pakistanın mövqeyini dəstəklədiyinə, eləcə də bu ölkədə baş verən fəlakət və daşqınlar zamanı Azərbaycanın göstərdiyi yardıma görə dərin təşəkkürünü bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

MÜDAFİƏ NAZİRİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİ İLƏ GÖRÜŞMÜŞDÜR

Bakıda rəsmi səfərdə olan Pakistan İslam Respublikasının müdafiə katibi Səyid Əthar Əli aprelin 22-də Azərbaycanın müdafiə naziri general-polkovnik Səfər Əbiyevlə görüşmüşdür.

Geniştərkibli görüşdə ölkələrimizin müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq məsələlərinin inkişaf dinamikası müzakirə edilmişdir.

Nazir Səfər Əbiyev bildirmişdir ki, Pakistanla yaxın əməkdaşlıq əlaqələri bir çox sahələrdə olduğu kimi, hərbi sahədə də uğurlu nəticələri ilə nəzərə çarpır.

Görüşdə regionda hərbi-siyasi vəziyyət və işğalçı Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll edilməsinə maneçilik törətməsi məsələlərinə də toxunulmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ İNDONEZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 22-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İndoneziya Parlamenti Nümayəndələr Palatasının sədr müavini Pramono Anunq Vibovonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə P.A.Vibovo Azərbaycan ilə İndoneziya arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək regionda cərəyan edən proseslərlə maraqlanmışdır.

Nazir E.Məmmədyarov İndoneziyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daim dəstəklədiyinə görə təşəkkürünü bildirmiş və məsələnin həlli ilə əlaqədar aparılan danışıqlar prosesinin cari vəziyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir.

Azərbaycan ilə İndoneziya arasında münasibətlərin inkişafı üçün geniş potensialın olduğunu vurğulayan nazir E.Məmmədyarov, hər iki ölkənin parlamentlərinin bu istiqamətdə fəaliyyətini vacib amil kimi qiymətləndirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında müzakirələr aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ UKRAYNANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 22-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ukraynanın ölkəmizdəki səfiri Boris Klimçuk ilə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşmüşdür.

Görüşdə B.Klimçuk Azərbaycanda Ukraynanın səfiri olmasından məmnunluğunu ifadə etmişdir. Səfir Azərbaycanda fəaliyyəti müddətində ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli münasibətlərin daha da genişlənməsi və inkişafı üçün çalışdığını, xüsusilə də XİN-lə faydalı əməkdaşlıq etdiyini demişdir.

Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan diplomat, fəaliyyətinə göstərilən diqqət və dəstəyə görə minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov səfir B.Klimçuka xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ ALMANİYANIN BAVARİYA FEDERAL TORPAĞININ FEDERAL VƏ AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 22-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Almaniyanın Bavariya Federal Torpağının Federal və Avropa məsələləri üzrə Dövlət naziri xanım Emilia Müller ilə görüşmüşdür.

Azərbaycanda olmasından məmnunluğunu bildirən E.Müller Bavariya federal torpağının ölkəmizlə əlaqələrin inkişafında maraqlı olduğunu və bu istiqamətdə geniş potensialın mövcudluğunu qeyd etmişdir. Bavariya şirkətlərinin ölkəmizdə uğurlu layihələr həyata keçirdiyini və federal torpağın gələcəkdə də Azərbaycan ilə iqtisadiyyat, təhsil, tikinti, texnologiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirmişdir.

Nazir E.Məmmədyarov bu marağın qarşılıqlı olduğunu qeyd etmiş, əlaqələrin daha da dərinləşməsi üçün konkret layihələrin həyata keçirilməsinin vacibliyini vurğulamışdır.

E.Müller regionda cərəyan edən proseslərlə də maraqlanmışdır.

Cənubi Qafqaz regionunda təhlükəsizlik, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən E.Məmmədyarov Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yaranmış status-kvonun davam etməsinin qəbuledilməz olduğunu və məsələnin beynəlxalq hüququn norma və prinsipləri, dövlətimizin ərazi bütövlüyü çərçivəsində həllinin mümkünlüyünü vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

ARDNŞ VƏ BAVARİYA ŞİRKƏTLƏRİ ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Aprelin 22-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) baş ofisində Almaniyanın Bavariya Federal Torpağının Federal və Avropa məsələləri üzrə Dövlət naziri xanım Emilia Müllerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə E.Miller nümayəndə heyətinin tərkibi, Azərbaycana səfərlərinin məqsədi haqqında məlumat vermiş, səmimi qəbul üçün təşəkkürünü bildirmişdir.

ARDNŞ rəhbərliyinin nümayəndələri Azərbaycanın neft strategiyası, ölkənin neft-qaz sənayesi sahəsində son illər əldə olunan nailiyyətlər, həyata keçirilən regional layihələr və planlaşdırılan məsələlər haqqında qonaqlara ətraflı məlumat vermişlər. Ölkəmizdə qaz sənayesinin indiki vəziyyəti və inkişaf perspektivlərinə xüsusi maraq göstərən qonaqlar ilə Azərbaycan təbii qazının Avropaya nəql edilməsi məqsədi daşıyan müxtəlif marşrutlar üzrə nəzərdə tutulan layihələrlə bağlı geniş fikir mübadiləsi aparılmışdır. Bildirilmişdir ki, Azərbaycan Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcək layihələrə mühüm əhəmiyyət verir, bu məsələlərə diqqətlə yanaşır.

Görüşdə, həmçinin ARDNŞ və Bavariya şirkətləri arasında əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə edilmiş, bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş fəaliyyət imkanlarının mövcudluğu diqqətə çatdırılmışdır.

AZƏRBAYCAN İLƏ İNDONEZİYANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN MÖVCUD POTENSİALDAN İSTİFADƏ EDİLMƏLİDİR

İndoneziya Parlamenti Nümayəndələr Palatası sədrinin müavini Pramono Anunq Vibovonun başçılıq etdiyi nümayəndə heyəti aprelin 22-də Azərbaycan Dillər Universitetinin (ADU) tələbələri ilə görüşmüşdür.

Universitetin rektoru, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, professor Səməd Seyidov qonaqlara ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat vermişdir. ADU-da İndoneziya dilinin yüksək səviyyədə tədris oluduğunu deyən S.Seyidov İndoneziyada da Azərbaycan dilinin öyrədilməsinin vacibliyini vurğulamışdır. Rektor əlavə etmişdir ki, bu, İndoneziya ictimaiyyətinin Azərbaycan həqiqətləri haqqında daha geniş məlumatlandırılması baxımından əhəmiyyətlidir.

Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyən S.Seyidov təhsil sahəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün mövcud imkanlardan istifadə edilməsinin zəruriliyini vurğulamışdır.

Pramono Anunq Vibovo göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edərək demişdir ki, ölkələrimiz coğrafi baxımdan biri-birindən uzaq olsalar da, münasibətlərimiz çox yaxındır və bundan istifadə edərək əməkdaşlığımızı daha da inkişaf etdirməliyik.

Nümayəndə heyətinin rəhbəri ölkəsində Azərbaycan dilinin tədrisi ilə bağlı müvafiq qurumlar qarşısında məsələ qaldıracağını bildirmişdir. O, hər iki ölkənin ali təhsil müəssisələri arasında tələbə mübadiləsinin daha da artırılmasının zəruriliyini vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq bildirmişdir ki, İndoneziya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu mövqe dəyişməz qalacaqdır.

Sonda qonaqlar universitetdə fəaliyyət göstərən İndoneziya Mərkəzi ilə tanış olmuşlar.

SƏHİYYƏ NAZİRİ ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 22-də səhiyyə naziri Oqtay Şirəliyev Bavariya Federal Torpağının Federal və Avropa məsələləri üzrə Dövlət naziri Emilia Müllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

O.Şirəliyev Almaniya ilə ölkəmiz arasında hər sahədə, o cümlədən səhiyyədə əməkdaşlıqdan məmnunluqla danışmışdır.

Almaniya ilə səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq əlaqələri çərçivəsində Berlinin "Vivantes" Tibb Şəbəkəsi və Turingiyanın Yena Universitet klinikasında azərbaycanlı həkimlər təkmilləşmə kurslarında iştirak etmişlər.

Nazir son illər ərzində ölkədə yeni tikilmiş və ya təmir olunmuş 300-dən artıq tibb müəssisələrinin əsasən Almaniya istehsalı olan tibbi avadanlıqla təchiz edildiyini, təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin Almaniya istehsalı olan Mercedes markalı maşınlarla təmin olduğunu bildirmişdir. Həmçinin ikitərəfli əməkdaşlığın nəticəsi kimi almaniyalı mütəxəssislərin də Azərbaycanın müxtəlif klinikalarında müxtəlif cərrahi əməliyyatları həyata keçirdiklərini qeyd etmişdir.

Emilia Müller Azərbaycan səhiyyəsinə dair onu maraqlandıran bir sıra mövzulara toxunmuş və gələcəkdə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olduğunu bildirmişdir.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 23-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Pakistanın müdafiə katibi Səyid Əthar Əli ilə görüşmüşdür.

Ölkəmizdə olmasından məmnunluğunu bildirən pakistanlı qonaq Pakistan-Azərbaycan siyasi münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirmiş, iqtisadi, mədəni və

digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini bildirmişdir. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini qeyd edən S.Əli ölkəsinin Ermənistan Respublikasını tanımadığını vurğulamışdır.

Nazir müavini X.Xələfov Azərbaycan ilə Pakistan arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu və bu imkanlardan səmərəli istifadə olunmasının ölkələrarası münasibətlərin daha da genişləndirilməsinə təkan verəcəyini vurğulamışdır.

X.Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin Pakistan tərəfindən dəstəkləməsinin yüksək qiymətləndirildiyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

MÜDAFİƏ SƏNAYESİ NAZİRİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 23-də Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalov ölkəmizdə səfərdə olan

Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Yavər Camalov Azərbaycan ilə Pakistan arasında müdafiə sənayesi sahəsində də əməkdaşlıq münasibətlərinin qurulmasının əhəmiyyətindən danışmışdır. Nazir hər iki ölkənin bu sahədə geniş potensiala malik olduğunu vurğulamışdır.

Nümayəndə heyətinin başçısı Səyid Əthar Əli ölkəsinin Azərbaycanla, digər sahələrdə olduğu kimi, müdafiə sənayesi sahəsində də əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirmişdir.

Görüşdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılmış və ümumi razılıq əldə olunmuşdur.

Səmimi dostluq və mehribançılıq şəraitində keçən görüşün sonunda nümayəndə heyəti zavodun istehsal sexlərində olmuş və nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatların sərgisinə baxmışlar.

"STANDART CHARTERED BANK" ARDNŞ İLƏ NEFT-QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR

Aprelin 23-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev "Standard Chartered Bank"ın Sinqapur bölməsinin icraçı direktoru Arun Martinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Tədbirdə son illər Azərbaycanda həyata keçirilən regional əhəmiyyətli iri neft-qaz layihələrinə, ARDNŞ-in bu layihələrdə oynadığı rola, şirkətin beynəlxalq maliyyə institutları və nüfuzlu banklarla əməkdaşlığı məsələlərinin geniş spektrinə nəzər salınmışdır.

"Standard Chartered Bank"ın Sinqapur bölməsinin icraçı direktoru A.Marti təmsil etdiyi bankın dünyanın bir çox ölkələrində geniş fəaliyyət göstərdiyini və nüfuzlu neft-qaz şirkətləri ilə işgüzar əlaqələrə malik olduğunu qeyd etmiş, ARDNŞ ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırmışdır. O, ARDNŞ-in xarici ölkələrdə həyata keçirdiyi investisiya layihələrində iştirak etməyə, Asiyada və dünyanın digər bölgələrində neft-qaz sahəsində şirkətlə əməkdaşlığa hazır olduqlarını söyləmişdir.

ARDNŞ-DƏ LİVİYANIN "TAMOİL" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Aprelin 23-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (ARDNŞ) Liviyanın "Tamoil" şirkətinin icraçı direktoru İsam Zanatinin başçılığı ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş olmuşdur.

Qurumun prezidenti Rövnəq Abdullayev Liviya ilə Azərbaycan arasında yüksək səviyyəli münasibətlərin yarandığını qeyd etmiş, hökumətlərarası komissiyanın işi, həmçinin iki ölkə şirkətlərinin müntəzəm görüşləri nəticəsində bu münasibətlərin daha da genişləndiyini bildirmişdir.

Azərbaycana ilk dəfə səfər etdiklərini söyləyən İsam Zanati demişdir ki, şirkət xaricdəki layihələrdə Liviyanın maraqlarını təmsil edir. Qurumun əsasən Avropada - İtaliya, Almaniya, İsveçrə və İspaniyada uğurlu fəaliyyət göstərdiyi, həmçinin ARDNŞ ilə xam neft və neft məhsulları istiqamətlərində əməkdaşlıqda maraqlı olduğu vurğulanmışdır.

R.Abdullayev Azərbaycanın neft strategiyası çərçivəsində həyata keçirilən layihələrdən söz açmış, ölkəmizdə qısa müddətdə etibarlı ixrac-nəql kəmərləri sistemi yarandığını vurğulamışdır. O, hasil olunan neftin, qazın və istehsal edilən neft məhsullarının geniş ixrac coğrafiyası haqqında qonaqlara məlumat vermişdir. Bildirmişdir ki, hazırda Azərbaycan neftinin böyük hissəsi ARDNŞ-in İsveçrədə yaratdığı "SOCAR Trading" şirkəti və onun törəmə müəssisəsi olan "SOCAR Trading Singapore" tərəfindən həyata keçirilir. "Tamoil" şirkəti ilə ARDNŞ arasında əməkdaşlıq üçün geniş imkanların olduğu, qarşılıqlı əməkdaşlıq imkanlarının dəyərləndiriləcəyi diqqətə çatdırılmışdır.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Moskvanın və Bütün Rusiyanın patriarxı Kirilli qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı patriarx Kirilli qarşıladı.

Prezident İlham ƏLİYEV qonağı salamlayaraq dedi:

- Zati-müqəddəsləri, sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Ölkəmizə xoş gəlmisiniz.

Nisbətən qısa müddətdə bu, sizin Azərbaycana ikinci səfərinizdir. Biz bunu çox yüksək

qiymətləndiririk. Bu, sizin ölkəmizə xeyirxah münasibətinizin əyani göstəricisidir. Biz sizi Azərbaycanın böyük dostu, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına layiqli töhfə verən insan kimi tanıyırıq. Sizin Rusiyanın rifahı naminə, xalqlar arasında qlobal miqyasda əməkdaşlıq naminə fəaliyyətinizi izləyirik. Əlbəttə, ölkəmizə sizin növbəti səfəriniz geniş spektrli məsələlər barəsində fikir mübadiləsi aparmaq üçün növbəti imkandır.

Rusiya ilə Azərbaycan arasında münasibətlər çox uğurla, dinamik inkişaf edir. Hər iki tərəf bu münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi səciyyələndirir və bu ifadə bütün çoxşaxəli müştərək fəaliyyət sahəsini əhatə edir. Əlbəttə, bu münasibətlərdə xüsusən xalqlarımızın yanaşı yaşamasının, müştərək fəaliyyətinin, rus və Azərbaycan xalqları arasında ənənəvi dostluq münasibətlərinin çoxəsrlik tarixini nəzərə alsaq, xalqlar arasında münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Biz çox şadıq ki, ciddi bu ənənələr möhkəmlənir, davam edir və Sizin bu işə böyük töhfənizi bir daha qeyd etmək istərdim.

Azərbaycan dövləti bunları, eləcə də dünyada bütün konfessiyalar arasında dialoqun inkişafı işində böyük xidmətlərinizi nəzərə alaraq sizi yüksək dövlət ordeni - "Şərəf" ordeni ilə təltif etmişdir. İndi mən böyük məmnunluqla bu ordeni sizə təqdim etmək istərdim.

Prezident İlham Əliyev patriarx Kirillə "Şərəf" ordenini təqdim etdi. Rus Pravoslav kilsəsinin başçısı bu ordenə Azərbaycan və Rusiya arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə layiq görülmüşdür.

Moskvanın və Bütün Rusiyanın patriarxı KİRİLL Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirərək dedi:

- Zati-aliləri, çox hörmətli cənab Prezident!

Mənə Azərbaycanın dövlət ordenini təqdim etməklə məni layiq gördüyünüz bu yüksək şərəfə, həmişə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Lakin ən başlıcası, Azərbaycan xalqının və MDB xalqlarının rifahı naminə əməyinizə görə Sizə təşəkkür etmək istərdim.

Mən Moskvadan gəlmişəm və buna görə əlbəttə, Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinin vacibliyini xüsusi vurğulamaq istərdim. Bu sahədə Sizin töhfəniz olduqca qiymətlidir. Siz rəhmətlik valideyninizin, Rusiyanın böyük dostunun yeritdiyi xətti davam etdirirsiniz və biz bu münasibətlərin necə sürətlə inkişaf etdiyini görürük. Bu münasibətlərdə yeni dinamizm Sizin adınızla bağlıdır və mənim fikrimcə, xalqlarımız arasında tərəfdaşlıq, dostluq münasibətləri həm Qafqaz regionunda, həm də bütün dünyada sülhün qorunub saxlanması üçün çox böyük əhəmiyyət kəsb edir.

Mən dinlərarası münasibətlərdə Sizin rolunuzu xüsusi vurğulamaq istərdim. Azərbaycan dövlətində insanların əksəriyyəti islam dininə etiqad edir. Lakin burada pravoslav və yəhudi icmaları da ənənəvi olaraq mövcuddur və Azərbaycanda heç vaxt dinlərarası münaqişələr olmamışdır. Müasir terminologiyadan istifadə etsək, bu gün tolerantlığın yüksək səviyyədə olduğunu deyərdik. Əvvəllər insanlar bu cür qəliz sözlər işlətmir, daha sadə danışırdılar. Biz birgə yaşayırıq, bayramlarımızı birgə qeyd edirik, bir-birimizin sevincini və kədərini bölüşürük.

Mən Azərbaycanın pravoslav icması adından Sizin xalqınızın həyatına xas olan bu sülhsevərlik ruhuna görə, həm Azərbaycanın daxili həyatı üçün, həm də Azərbaycanın onu əhatə edən ölkələrlə, zənnimcə dünyanın bütün ölkələri ilə münasibətlərinin qurulması üçün çox böyük əhəmiyyət kəsb edən mehriban dinlərarası münasibətlərə görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Mən həm də Sizə Rus Pravoslav kilsəsi tərəfindən dərin təşəkkürümü və minnətdarlığımı bildirmək və teleqramı oxumaq istərdim.

"Xeyirxah əməl sahibi olan hər kəsə eşq olsun.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasında dinlərarası sülhün və həmrəyliyin möhkəmlənməsinə sanballı töhfə verdiyinə görə Rus Pravoslav kilsəsinin "I dərəcəli Şöhrət və Şərəf" ordeni ilə təltif edilir".

Mən ordeni Sizə təqdim edirəm.

Moskvanın və Bütün Rusiyanın patriarxı Kirill ordeni Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham ƏLİYEV: - Çox sağ olun, Zati-müqədəsləri. Bu cür yüksək ordenlə təltif edilməyim mənim üçün böyük şərəfdir. Bu ordeni şəxsən sizin əlinizdən qəbul etmək mənim üçün ikiqat xoşdur. Sizi, Azərbaycanın bütün vətəndaşlarını, ölkəmizdə yaşayan bütün millətlərin və xalqların nümayəndələrini, bütün dinlərin nümayəndələrini əmin edə bilərəm ki, mən bundan sonra da öz fəaliyyətimdə ölkəmizdə millətlərarası, konfessiyalararası dialoq işinə töhfə verməyə çalışacağam. Əminəm ki, ölkəmizdə bizim fəxr etdiyimiz dinc yanaşı yaşamaq ənənələri davam etdiriləcək, ölkəmizin bütün vətəndaşları sülh, qardaşlıq, dostluq şəraitində yaşayacaq və ümumi rifah naminə fəal işləyəcəklər. Sağ olun.

* * *

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Moskvanın və Bütün Rusiyanın patriarxı Kirilli salamladı.

Rus Pravoslav kilsəsinin başçısı Mehriban xanımı görməyə şad olduğunu dedi. O, Azərbaycanın birinci xanımına gül dəstəsi və hədiyyə təqdim etdi.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Moskvanın və Bütün Rusiyanın patriarxı Kirillin şərəfinə şam yeməyi verildi.

BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN SAMMİTİ KEÇİRİLİR

Aprelin 26-da "Gülüstan" sarayında dünya dini liderlərinin ikigünlük Bakı sammiti işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sammitin açılış mərasimində iştirak etmişlər.

Sammitdə dünyanın 33 ölkəsindən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndə iştirak edir. Həmçinin bu mötəbər tədbirə 14 nüfuzlu beynəlxalq təşkilatın, eləcə də Rusiya Federasiyasının 11 subyektinin dini rəhbərləri və nü-

mayəndələri də qatılmışlar.

Sammitin iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ sammiti açaraq dedi:

- Allahın adı ilə!

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Zati-müqəddəsləri, patriarx həzrətləri!

Möhtərəm din xadimləri!

Əziz sammit iştirakçıları!

Çox hörmətli Mehriban xanım!

Uca Yaradanımızın adı ilə dünya dini liderlərinin Bakı sammitini açıq elan edib, zati-müqəddəsləri patriarxları, müfti həzrətlərini, dini-mənəvi rəhbərləri, dəyərli qonaqları bu tarixi tədbirdə səmimi qəlbdən salamlayıram. Qoy Uca Yaradan bugünkü qardaşlıq məclisimizə uğur bəxş etsin.

Dinlərarası dialoqa dair mühüm əhəmiyyətli tədbirin Bakıda baş tutması şübhəsiz ki, Azərbaycanın müstəqillik tarixində olduqca dəyərli və unudulmaz bir hadisədir. Belə bir mühüm tədbirin Bakıda keçirilməsi Azərbaycan xalqına və dövlətimizin başçısına beynəlxalq aləmdə hörmət və etimadın ifadəsidir. Belə bir möhtəşəm tədbirin Azərbaycanda keçirilməsi ideyasına vaxtilə ilk xeyir-dua verən məhz ulu öndərimiz Heydər Əliyev həzrətləri olmuşdur.

Məclisimizə təşrif gətirmiş Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı da salamlayırıq.

Bu əhəmiyyətli gündə sammitin iştirakçıları Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev həzrətlərini dinləmək istərdi.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış etdi.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli şeyx həzrətləri!

Hörmətli zati-müqəddəsləri!

Hörmətli din xadimləri!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Dünya dini liderlərinin Bakı sammiti çox böyük əhəmiyyətə malik olan bir hadisədir. Təsadüfi deyildir ki, bu görüş məhz Bakıda keçirilir. Bakıda dünya dini liderlərinin görüşləri artıq ənənəvi xarakter almışdır. Əsrlər boyu Azərbaycanda müxtəlif millətlər, müxtəlif dinlərin nümayəndələri dostluq, qardaşlıq şəraitində, bir ailə kimi yaşamışlar. Azərbaycanda dini və milli dözümlülüyün çox böyük və şərəfli bir tarixi vardır. Biz çox şadıq ki, son vaxtlar Bakıda sivilizasiyalararası dialoqun gücləndirilməsi işinə böyük töhfə verən mötəbər beynəlxalq tədbirlər keçirilir. Biz keçən ilin noyabr ayında dini dialoqun gücləndirilməsi üçün böyük tədbir keçirmişdik. Azərbaycanın böyük dostu, zati-müqəddəsləri, Moskva və Bütün Rusiyanın patriarxı Kirill bu gün olduğu kimi, o tədbirdə də iştirak etmişdir. Bu, çox böyük və gözəl göstəricidir. Bu gün bütün dinlərin nümayəndələrinin, rəhbərlərinin Azərbaycana gəlməsi, dünən, bu gün və sabah birlikdə keçirilən və keçiriləcək müzakirələrdə iştirak etmələri böyük əhəmiyyətə malik olan bir hadisədir.

Mən şübhə etmirəm ki, bu gözəl görüşün çox gözəl nəticələri olacaq, dinlər, millətlər və ölkələr arasında daha da yaxşı anlaşmanın əldə edilməsinə xidmət göstərəcəkdir. Buna böyük ehtiyac vardır. Bir daha vurğulamaq istəyirəm ki, biz Bakının, Azərbaycanın dinlərarası dialoqun bir növ mərkəzinə çevrilməsinə də çox böyük ümidlərlə baxırıq. Bir tərəfdən, bunu Azərbaycanda dini və milli zəmində vəziyyətin çox yaxşı olmasının təzahürü kimi qiymətləndiririk. Bu, bizim üçün böyük şərəfdir. Digər tərəfdən, dinlərarası dialoqun praktiki nöqteyi-nəzərdən gücləndirilməsi işinə Azərbaycan öz töhfəsini verə bilər, verir və verməyə davam edəcəkdir.

Azərbaycan Avropa ilə Asiya arasında təbii bir körpüdür. Əsrlər boyu bu diyarda müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi yaşamışlar. Bu gün Azərbaycanın müasir həyatında da bu iki vacib amil özünü göstərir. İyirmi ilə yaxındır ki, Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür. On ilə yaxındır ki, Azərbaycan Avropa Şurasının üzvüdür. İslam bizim müqəddəs dinimizdir. Biz öz dini və milli ənənələrimizə çox sadiqik. Çalışırıq ki, gənc nəsil də vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alsın. Eyni zamanda, Azərbaycan bütün dünyaya açıq olan, bütün ölkələrlə əməkdaşlığa meyilli ölkədir.

Keçən il Bakı islam mədəniyyətinin paytaxtı seçilmişdi və bir il ərzində bununla əlaqədar çoxsaylı tədbirlər keçirilmişdir. Mən keçən dəfə də söyləmişdim, bu gün də söyləmək istəyirəm və ümid edirəm ki, gün gələcək, Bakı Avropa mədəniyyətinin də paytaxtı seçiləcəkdir. Beləliklə, Azərbaycan Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin inkişafı işinə daha da böyük töhfə verəcəkdir.

Qeyd etdiyim kimi, əsrlər boyu Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar, ölkəmizin inkişafına öz dəyərli töhfələrini vermişlər. Bu gün də bu proses uğurla davam edir. Azərbaycanda bütün azadlıqlar mövcud olduğu kimi, dini azadlıqlar da tam şəkildə təmin edilir. Azərbaycanda gündəlik fəaliyyət göstərən mindən çox məscid mövcuddur. On bir kilsə, altı sinaqoq və digər dini məbədlər fəaliyyət göstərir. Bu, bizi gücləndirir.

Ölkənin gücü təkcə onun iqtisadi imkanları ilə ölçülmür. Baxmayaraq ki, Azərbaycanda bu istiqamətdə də böyük uğurlar əldə edilmişdir. Bizim gücümüz birliyimizdədir, Azərbaycanda hökm sürən sabitliyin möhkəmlənməsindədir, dini və milli sülhün mövcudluğundadır. Bu amillər ölkəmizi gücləndirir. Bu amillər ölkəmizi gələcəkdə də hərtərəfli

inkişaf etdirmək üçün bizə kömək göstərəcəkdir.

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Biz milli dəyərlərimizə çox sadiqik. Ümumbəşəri dəyərləri bölüşürük. Eyni zamanda, əlbəttə ki, ölkədə gedən ümumi meyillər ölkənin müasirləşməsinə, modernləşməsinə xidmət göstərəcəkdir.

Bu gün Azərbaycanda işləmək və yaşamaq üçün bütün şərait mövcuddur: sabit ictimai-siyasi vəziyyət, artan iqtisadi imkanlar, bütün azadlıqların mövcudluğu, vətəndaş cəmiyyətinin formalaşması. Son 6 il ərzində ölkəmiz iqtisadi inkişaf baxımından dünyada birinciliyi saxlayır. İqtisadiyyatımız son altı ildə 2,8 dəfə, təxminən 300 faiz artmışdır. Ölkədə köklü sosial problemlər öz həllini tapmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı altı il ərzində 49 faizdən 11 faizə düşmüşdür. Bu onu göstərir ki, ölkəyə gələn maddi resurslar ədalətli şəkildə bölünür. Sosial ədalət bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə ki, ədalət, sosial ədalət hər bir dində yüksək yerə malik olan bir anlayışdır. Ədalət olmadan insanlar razı ola bilməzlər. Ən böyük faciələrdən biri də məhz ədalətsizlikdir. Ədalətsizliyin aradan qaldırılması, ölkələr, xalqlar arasında daha da yaxşı münasibətlərin qurulması üçün dini liderlərin birgə fəaliyyəti çox böyük əhəmiyyətə malik olan məsələdir. Biz Azərbaycanda istəyirik ki, bölgəmizdə sülh, əməkdaşlıq təmin olunsun, heç bir qarşıdurma, heç bir ədavət olmasın. Azərbaycan dövləti regional əməkdaşlıq baxımından öz töhfəsini verir.

Mən ümid edirəm ki, dünya dini liderlərinin birgə fəaliyyəti nəticəsində, dünən, bu gün və sabah qəbul olunmuş və qəbul olunacaq qərarların icrası nəticəsində həm xalqlararası münasibətlər daha da yüksək səviyyəyə qalxacaq, eyni zamanda, bölgəmiz və dünyamız daha da əmniyyətli olacaqdır. Biz elə etməliyik ki, bütün münaqişələr tezliklə öz həllini tapsın. Elə etməliyik ki, insanlar bir-biri ilə xoş, mehriban ünsiyyətdə olsunlar. Bu işdə təkcə siyasətçilərin fəaliyyəti kifayət ola bilməz. Cəmiyyətdə yüksək hörmətə malik olan dini liderlərin sözünə böyük ehtiyac vardır. Bu söz eşidilir. Bu gün Bakıdan səslənən sözlər, verilən bəyanatlar əlbəttə ki, dünyada da geniş əks-səda yaratmışdır.

Baxmayaraq ki, bu görüşdə müxtəlif mövzular haqqında fikir mübadiləsi aparılacaq, bu gün bütün dini konfessiyaların nümayəndələrinin bir masa arxasında oturması özlüyündə böyük bir hadisədir. Dünən mənə verilən məlumata görə, Təzəpir məscidində çox gözəl görüş keçirilmişdir. Bütün dinlərin nümayəndələri bir-birinin sözlərinə qulaq asırdılar, fikir mübadiləsi aparırdılar. Əlbəttə ki, bu gün də açıq, səmimi fikir mübadiləsi üçün çox gözəl şərait yaradılacaqdır.

Bununla bərabər, müzakirələrin mövzusunun biri də qloballaşma ilə bağlı olan məsələlərdir. Bu, əlbəttə ki, dünya üçün nisbətən yeni bir mövzudur. Ancaq çox sürətlə yayılan bir prosesdir. Əlbəttə ki, hər bir ölkə, hər bir xalq öz milli, mənəvi dəyərlərinin qorunması üçün öz tədbirlərini görməlidir.

Azərbaycan müasir, müasirləşən, dünya birliyinə sürətlə qovuşan ölkədir. Baxmayaraq ki, bizim dini, milli ənənələrimiz çox güclüdür, Azərbaycan dünyəvi dövlətdir. Təbii ki, qloballaşma prosesləri bizdən də yan keçə bilməz. Sadəcə olaraq, mən hesab edirəm, biz elə etməliyik ki, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmayaq. Biz milli dəyərlərimizə sadiq olmalıyıq. Hər bir ölkə, hər bir xalq üçün onun milli dəyərləri hər şeydən üstün olmalıdır. Bu dəyərlər, müxtəlif xalqların dəyərləri bir-biri ilə ziddiyyət təşkil etməməlidir. Ona görə biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, dostluğu nəzərdə tuturuq. Qloballaşma adı altında xalqlara zidd olan, milli mentalitetə xas olmayan dəyərlər aşılanmamalıdır. Hər halda biz buna hazır olmalıyıq ki, milli mənliyimizi qoruyaq.

Azərbaycan xalqı böyük tarixə malik olan bir xalqdır. Ancaq müstəqillik dövrümüz o qədər də uzun deyildir. Baxmayaraq ki, əvvəlki dövrlərdə Azərbaycan müstəqil ölkə kimi yaşamırdı, biz öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik. Elə etməliyik ki, qloballaşmaya qarşı bəzi dairələrdə olan şübhələr ərisin, bu şübhələr aradan götürülsün. Bunu etmək üçün, əlbəttə, bütün dünya birliyi bu məsələ ilə bağlı yəqin ki, öz fikrini bildirməlidir. Bu anlayışa müəyyən düzəlişlər edilməlidir.

Biz öz milli və dini dəyərlərimizə sadiqik. Biz gənc nəsli vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək istəyirik və bunu edirik. Eyni zamanda, biz müasirliyə doğru uğurla addımlayırıq. Təhsil sahəsində böyük islahatlar aparılır. Əminəm, bu gözəl fürsət hər bir iştirakçıya imkan verəcək ki, öz fikirlərini səmimi, açıq şəkildə bildirsin. Bu fikir mübadiləsi bizi zənginləşdirəcəkdir. Eyni zamanda, əminəm ki, açıq və səmimi fikir mübadiləsi mövcud olan problemlərin də müəyyən dərəcədə aradan qaldırılması üçün gözəl bir fürsət olacaqdır.

Mən bir daha bütün görüş iştirakçılarını səmimiyyətlə salamlayıram. Bir daha Azərbaycana "Xoş gəlmisiniz!" deyirəm. Sammitin işinə uğurlar arzulamaq istəyirəm. Ümid etmək istəyirəm ki, gələcəkdə də Bakıda, Azərbaycanda belə mötəbər, tədbirlər keçiriləcək və Bakı haqlı olaraq dünya dinlərinin dialoqu, inkişafı üçün dünya mərkəzlərindən birinə çevriləcəkdir. Diqqətinizə görə sağ olun.

* * *

Allahşükür Paşazadə bildirdi ki, sammitin ünvanına dünyanın bir çox ictimai təşkilatlarından və dini birliklərdən çoxlu təbrik məktubları daxil olmuşdur.

* * *

Rusiyanın Bakıdakı səfiri Vladimir Doroxin Prezident Dmitri Medvedevin sammit iştirakçılarına təbrik məktubunu oxudu.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ çıxış edərək dedi:

- Zati-aliləri, möhtərəm cənab Prezident!

Zati-müqəddəsləri, möhtərəm patriarxlar!

Möhtərəm din xadimləri və konfessiya rəhbərləri!

Hörmətli sammit iştirakçıları!

Əziz qonaqlar!

Bu ali məqamda - tarixi zirvə görüşündə bizləri bir araya gətirən və xoş məramlar naminə bəşəri vəhdət yoluna yönəldən uca Yaradanımıza həmd sənalar edir, hər birinizə xalqımızın qədim adəti üzrə "Xoş gəlmisiniz!" deyir və dünya dini liderlərinin Bakı sammitinin işində birgə fəaliyyətimizə uğurlar arzulayıram.

Bu gün öz tarixinin silinməz möhtəşəm səhifələrindən birini yazan müstəqil Azərbaycan hər zaman müxtəlif xalqların, millətlərin və dinlərin birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu müqəddəs məkan olmuşdur. Biz sizlərə, müxtəlif dinlərin rəhbərlərinə və təmsilçilərinə əldə etdiyimiz böyük nailiyyətləri - tolerantlığımızı, dünyaya açıqlığımızı, din-dövlət münasibətlərində qazanılmış dəyərləri və qlobal problemlərin həlli yollarında birgə əməkdaşlığımızı nümayiş etdirmək üçün Bakı sammitinə toplaşmışıq. Bu gün burada bir araya gəlməyimiz, şübhəsiz ki, dünya miqyasında dinlərarası dialoq və əməkdaşlıq sahəsində yeni mərhələ, irəliyə atılmış böyük addımdır. Ümidvaram ki, bəşəriyyətin ümumi maraqları və qlobal problemlərin - terrorizmin, dini fanatizmin, ekstremizmin və separatizmin aradan qaldırılması naminə dinlərarası və mədəniyyətlərarası münasibətlərin inkişafına yeni təkan verən bu tədbir tarixi əhəmiyyətli bir hadisəyə çevriləcəkdir.

Bildiyiniz kimi, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan Respublikasının böyük bir tarixi mərhələsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsində, dini etiqad azadlığının təminatında, dini-mənəvi dəyərlərin qorunmasında müstəsna xidmətlər göstərmiş və bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsi miras qoymuşdur. Heydər Əliyev siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev bu gün Azərbaycanın iqtisadi qüdrətinin, mədəni intibahının və beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsi üçün böyük işlər görür. Eyni zamanda, tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, xristian, yəhudi və digər dinlərə məxsus məbədlərin bərpası və təmiri, dilindən və dinindən asılı olmayaraq, ölkənin bütün vətəndaşlarının etiqad azadlığının qorunması və dini ehtiyaclarının təmin olunması - bütün bunlar Azərbaycanın dini-mənəvi mühitini əks etdirən real göstəriciləridir.

Tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni kökləri vardır. Bu gün mötəbər iştirakı ilə bizi şərəfləndirən əziz qardaşım, zati-müqəddəsləri, Moskva və Bütün Rusiyanın patriarxı möhtərəm Kirill həzrətlərini, bütün ermənilərin patriarxı katolikos II Qaregin həzrətlərini, məclisimizə təşrif gətirmiş pravoslav kilsəsinin görkəmli nümayəndələrini aramızda görməkdən böyük məmnunluq duyuruq. Roma Papası, zati-aliləri Benediktin və zati-müqəddəsləri Varfolomeyin şəxsi təmsilçilərinin Bakı sammitində iştirakı bizim son dövrlərdə möhkəmlənən əlaqələrimizin göstəricisidir.

Müsəlman dünyasının tanınmış dini liderlərinin, mənim əziz din qardaşlarımın, İslam Konfransı Təşkilatı nümayəndələrinin, İSESKO-nun baş direktoru hörmətli Əbdüləziz Tüveycri cənablarının, o cümlədən Yaxın və Uzaq Şərqin, Mərkəzi Asiyanın, Qafqazların nüfuzlu din xadimlərinin, başqa dini cərəyan nümayəndələrinin dəvətimizi qəbul edərək Bakı sammitinə təşrif gətirmələri Azərbaycanın dialoq aparmaq mədəniyyətindən, müxtəlif əqidəli insanları bir araya toplamaq istəyindən xəbər verir, ayrı-ayrı millətlər və dinlərin nümayəndələri arasındakı münasibətlərdən yaranan qürur və hörmət hissini artırır.

Möhtərəm sammit iştirakçıları!

Bu gün "qloballaşma" məfhumu altında həyatımıza daxil olan bir sıra problemlər əslin-

də bizdən - dövlət, din və elm xadimlərindən vahid ideya ətrafında birləşməyi tələb edir. Biz, din xadimləri bu problemlərin yaranma səbəblərini dünyanın ilahi qanunauyğunluqlarının pozulması ilə əlaqələndiririk və hesab edirik ki, cəmiyyətlər Uca Yaradanın mənəvi dəyərlərindən uzaqlaşdıqca, bəşəri fəlakətlərə yaxınlaşır. İndi qarşımızda duran qlobal problemlərin hər biri ilahi mənbəyə müraciətin vacibliyini bir daha təsdiqləyir: bioetika pozuntuları - süni demoqrafik artıma, istehsal sahələrinin azalması - iqtisadi böhrana, enerji resurslarının istismarı - ekoloji fəlakətlərə, mənəvi dəyərlərin ucuzlaşması isə - ailə və cəmiyyətlərin dağılmasına gətirib çıxara bilər. İnsan hüquqlarının pozulması, narkotik maddələrin və digər uyuşdurucu vasitələrin yayılması, kosmosa nəzarət, nüvə terrorizmi, kütləvi qırğın silahlarının bəşəriyyət üzərində tətbiqi hamımızı çox ciddi narahat edir. Biz din xadimləri, fövqəldövlətlərin nüvə tərk-silahı istiqamətində atdıqları addımları bəyənirik. Hesab edirik ki, əgər bu fəlakətlərə qarşı mübarizədə dini liderlər öz nüfuzlarından, elm adamları təcrübi biliklərindən, dövlət rəhbərləri ölkələrinin rifahı naminə mütərəqqi əməkdaşlıqdan istifadə etməsələr, sabah tarix və bəşəriyyət qarşısında cavab verəcəklər.

Planetimizin müxtəlif guşələrində - Fələstində, Əfqanıstanda, İraqda və bizim Qafqaz regionunda terror aktlarının baş verməsi, bu halın qlobal xarakter alması da bizi narahat etməyə bilməz. Heç bir din terror, zor və təcavüzə haqq qazandırmır. Dini şüarlardan günahsız dinc əhalinin qətlə yetirilməsi, terror və vandalizm aktları üçün istifadə edənlər Vahid Yaradanımız qarşısında ağır günah işlətmiş olurlar. Unutmaq olmaz ki, Uca Yaradanın göndərdiyi dinlər insan həyatına qəsdi bütün insanlığa qarşı qəsd kimi dəyərləndirir.

Konfessiyalararası dialoqun gücləndirilməsi, xalqlarımızın və cəmiyyətlərimizin tolerantlıq və qarşılıqlı hörmət ruhunda tərbiyə edilməsi din xadimlərinin ümdə vəzifəsi olmalıdır. Bir ali həqiqət heç zaman unudulmamalıdır ki, bizləri bəşər ailəsinin üzvləri kimi birləşdirən, bir-birimizə bağlayan dəyərlər, bizi fərqləndirən, ayıran amillərdən qat-qat möhkəm, dərin və mühümdür.

Dövlətlərin ərazi bütövlüyünə və təhlükəsizliyinə zidd olan ekstremist, radikal və separatçı qüvvələrə qarşı din xadimləri hər zaman vahid mövqedə olmalıdırlar. Biz əminik ki, fiziki və mənəvi təcavüz planlarının qarşısını yalnız dövlətlərin, ictimai və dini birliklərin birgə fəaliyyəti sayəsində almaq olar. Çox təqdirəlayiq haldır ki, bu gün bu istiqamətdə ardıcıl fəaliyyətin önündə zəmanəmizin görkəmli din xadimi, Rus Pravoslav kilsəsinin başçısı, Moskva və Bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirill həzrətləri dayanır.

Möhtərəm Kirill həzrətlərinin dini tolerantlıq və qarşılıqlı əməkdaşlıq sahəsindəki xidmətləri danılmaz tarixi həqiqətdir. 2006-cı ildə dünya din xadimlərinin Moskva sammitində qəbul olunmuş yekun qərara əsasən BMT ilə əməkdaşlıq çərçivəsində birgə işlərin görülməsi, fəaliyyətimizin əlaqələndirilməsi gündəmdədir. Hazırda BMT yanında Dini Məşvərət Şurasının yaradılması və ilkin mərhələdə YUNESKO yanında dinlərarası dialoq üzrə yüksək səviyyəli təşəbbüs qrupunun fəaliyyəti məsələləri artıq reallaşmışdır.

Bu gün bütün problemlərin fövqündə duran sülh probleminin həm qlobal, həm də lokal miqyasda həllində dövlətlərin, hökumətlərin, ictimai və dini qurumların birgə əmək-

daşlığı səmərəli nəticə verə bilər. Burada əyləşənlərin əksəriyyəti Qafqaz regionunun həllini tapmayan problemlərindən, o cümlədən Azərbaycanın Qarabağ mücadiləsindən xəbərdardır. İyirmi ildən artıqdır ki, Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır və biz Ermənistan dövləti ilə hərbi münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün səy göstəririk. Bu illər ərzində Eçmiədzinlə bizim görüşlərimizin vasitəçisi və təşkilatçısı əsasən Rus Pravoslav Kilsəsi, daha sonra Gürcü Pravoslav Patriarxiyası və Dünya Kilsələr Şurası olmuşdur. Bu görüşlərimiz müəyyən konstruktiv nəticələr versə də, bu gün yenə bu istiqamətdə yeni fəaliyyətlərə, yeni danışıqlara ehtiyac vardır. Biz öz tərəfimizdən buna razıyıq, çünki sülh Allah-taalanın bizə əmanət etdiyi elə bir nemətdir ki, onun yolunda atılan addımın özü də bir savabdır.

Mən bu gün bəzi çətinliklərə baxmayaraq, dəvətimizi qəbul edən zati-müqəddəsləri, erməni patriarxı katolikos II Qareginin sammitimizdə iştirakını sülh yolunda atılan önəmli əməl kimi dəyərləndirirəm və katolikos həzrətlərini bu istiqamətdə daha fəal münasibətə, həm birbaşa, həm də vasitəçilik yolu ilə qarşılıqlı ünsiyyətin bərpasına dəvət edirəm. Hesab edirəm ki, bu gün Qarabağın, eləcə də Qafqazın bütün münaqişə bölgələrinin problemləri ədalətli sülh yolu ilə, beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq ərazi bütövlüyü və qarşılıqlı anlaşma çərçivəsində həll oluna bilər.

Hörmətli qonaqlar, möhtərəm din xadimləri!

Tolerantlıq Azərbaycan xalqının və dövlətinin həqiqi milli mənəvi dəyəridir. Bu sammitin keçirilməsi üçün müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəz seçilməsi də dini və milli demokratiyanın ölkəmizdə bərqərar olmasının göstəricisidir. Biz əminik ki, Bakı sammiti ölkələrimizin və regionumuzun tarixində yeni bir mərhələnin başlanğıcı olacaqdır. O, millətlərarası və dinlərarası münasibətlərin davamlı inkişafına xidmət edəcəkdir.

Bir daha hamınıza təşəkkür edir, məclisimizin işinə uğurlar arzulayıram. Bu ali məclisin ərsəyə gəlməsində xüsusi diqqət və qayğısına görə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Həmçinin bizimlə birgə böyük əmək sərf etmiş, mənəvi dəstək olmuş əziz qardaşım, zati-müqəddəsləri patriarx Kirill həzrətlərinə, Bakı sammiti üçün köməyini əsirgəməyən şəxslərə təşəkkürlərimi çatdırır və bütün qonaqlarımıza xeyir-dualar diləyirəm.

* * *

Moskva və Bütün Rusiyanın patriarxı KİRİLL çıxış edərək dedi:

- Zati-aliləri, möhtərəm cənab Prezident!

Çox hörmətli şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli dini liderlər və sammitin qonaqları!

Bu ali yığıncağın iştirakçılarını salamlamağa şadam. Çıxışımın əvvəlində sammiti hər cəhətdən dəstəklədiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təşəkkürümü bildirmək istəyirəm. MDB Dinlərarası Şuranın, ilk növbədə, qonaqpərvər ev sahibi, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin sammitin təşkilində rolunu diqqətə çatdırmaq istərdim.

Bəşər sivilizasiyasının üzləşdiyi problemlərlə bağlı diskussiyalarımız artıq ənənəvi hal olur. Bu, onun hesabına mümkün olur ki, dindarlar arasında düşmənçilik toxumu səpmək cəhdlərinə baxmayaraq, dini liderlər dialoq aparılması üçün xoş məramlarını qoruyub saxlayırlar.

Budəfəki sammitimizin mövzusu "Qloballaşma, din, ənənəvi dəyərlər"dir. İndiki dövrdə dini icmalar bir sıra çox ciddi təhdidlərlə üzləşirlər. Onların arasında dindarlığı ictimai sahədən uzaqlaşdırmaq, eyni zamanda, dindarların hisslərindən qərəzli, hətta bəzən cinayətkar məqsədlərlə istifadə etmək cəhdləri də vardır.

Müasir dünyada, xüsusilə Avropada insanın Allaha üz tutmasına tərəqqiyə və inkişafa mane olan təzahür kimi baxılır, ümumi rifah naminə onu tezliklə geridə qoymağı üstün tuturlar. Dindarlıqla bərabər, ənənəvi əxlaq normaları, kişi ilə qadın arasında ittifaq sayılan nikah, insan həyatının toxunulmazlığı haqqında təsəvvürlər də inkar edilir.

Din və əxlaq bu halda şəxsi həyatda xoşa gəlməyən, lakin ictimai sahədən uzaqlaşdırılmalı fenomenlər hesab edilir. Bəzən bəhanə kimi müasir cəmiyyətin polietnik və polidini xarakterindən istifadə olunur. Bir sıra Avropa ölkələrində tez-tez belə bir komik vəziyyət yaranır ki, bəzi dairələr, məsələn, işlək dildən Milad sözünü silməyi, küçələrdən isə Milad bayramı bəzəklərini yığışdırmağı tələb edirlər. Onlar bunu "müsəlmanların xatirinə dəyməmək üçün" etdiklərini deyirlər, müsəlmanlar isə bu zaman həmin tədbirlərə qarşı çıxırlar.

Dinsiz gələcək, Allahın adı unudulduğu gələcək layihəsini həyata keçirmək mümkündürmü?

Bu layihəni irəli sürənlərin tarixi unutqanlığına heyrətlənməmək mümkün deyildir. Tanınmış publisistlərdən biri "Dünyanı dinsiz təsəvvür edin" deyir və dünyanın dinsiz daha yaxşı ola biləcəyini düşünür. Burada əyləşənlərin əksəriyyətinə belə dünyanı təsəvvür etmək lazım deyildir, çünki biz belə dünyada doğulub böyümüşük. Böyük dinsizlik eksperimenti bir dəfə qoyulmuşdur, dinin ictimai sahədən qovulduğu bir cəmiyyət qurulmuşdu. Bunun nəyin bahasına başa gəldiyini və nə ilə nəticələndiyini bilirik: XX əsrin totalitar diktaturalarının təcrübəsi bəşəriyyətə çox baha başa gəlmişdir və onu unutmaq çətindir. İspaniyanın yandırılmış kilsələrindən Moskva ətrafındakı Butovsk poliqonunadək, əsir düşərgələrinə çevrilmiş monastırlardan Kampuçiyanın "ölüm çölləri"nədək hər yerdə dinə nifrət və mənəvi reallıqları tamamilə istisna edən yeni dünya qurmaq istəyi həmişə eyni nəticələr vermişdir.

XX əsrin təcrübəsi göstərir ki, dini ictimai sahədən uğurla sıxışdırıb çıxarmaq olar, lakin bütün hüquq və azadlıqlar, rifah və elementar təhlükəsizliklə birlikdə. Qeyri-totalitar dünyada, insanların azca da olsa azadlığı olan dünyada din həmişə olacaq və öz nüfuzunu saxlayacaqdır. Artıq 200 ildir ki, dinin yox olacağını əvvəlcədən xəbər verirlər. Lakin bu, baş vermir, çünki insanlar öz mahiyyəti etibarilə ali həqiqəti, son ümidi və həyatın daimi mənasını axtaran dindar varlıqlardır. Dünyaya və onun problemlərinə istənilən realist münasibət bunu nəzərə almalıdır.

Şahidi olduğumuz qloballaşma prosesini yalnız mənfi, yaxud da yalnız müsbət çalarlarda nəzərdən keçirmək düzgün olmaz. O, həm yeni imkanlar, həm də yeni problemlər, həm şəksiz fayda, həm də təhlükə daşıyır.

Bəşəriyyət yalnız bu yaxınlarda milli və ümumbəşəri mənafelər arasında qarşılıqlı əlaqə olduğunu dərk etməyə başlamışdır. Buna bütün ölkələrə aid olan beynəlxalq terrorizm, dünya iqtisadiyyatının böhranı, yaxud ekoloji böhran kimi ümumi təhdidlər şərait yaratmış və yaratmaqdadır. Beynəlxalq hüququn nüfuzunun artması daha çox konstitusiyaların onun prioritetlərini bərqərar etməsinə gətirib çıxarmışdır. Bu, öz növbəsində, çox vaxt kiçik və ya yoxsul dövlətlərin hüquqi və siyasi sahələrini lider ölkələrdən asılı edir.

İqtisadiyyatın qloballaşmasını nəzərdən keçirərkən dəstəyin və köləliyin ikili effekti üzə çıxır. Bir tərəfdən o, dövlətlər arasında təsərrüfat sahəsində qarşılıqlı fəaliyyəti asanlaşdırır, xalqların bəşəriyyətin qabaqcıl nailiyyətlərindən istifadə etməsi üçün formal şərait yaradır, ehtiyatlardan qənaətlə istifadə olunmasını təmin edir, ticarəti stimullaşdırır. Digər tərəfdən, qloballaşma mənfi nəticələr verir: bu, "qızıl milyard"a daxil olmayan ölkələrin ehtiyatlarının itirilməsi, kiçik biznesin müflisləşməsi, rəqabətin ifrat formalarının qloballaşması, sosial bərabərsizliyin qlobal miqyasda artmasıdır.

Siyasi səviyyədə qarşılıqlı ünsiyyət, iqtisadi sahədə tərəfdaşlıq fəaliyyəti qloballaşmanın bəzi mənfi cəhətlərini əvəz edə bilər. Lakin bu prosesin bütün mənfi nəticələrinin qarşısını yalnız milli özgürlüyün formalaşmasına cavabdeh olan mədəni və dini sahələrdə xalqların azadlığını qoruyub saxlamaq şərti ilə mümkündür. Milli özgürlüyün itirilməsi qloballaşmanın mənfi nəticələrinin planet miqyasında qaçılmaz olması üçün imkan yaratmaq deməkdir.

Bütün dünya mədəniyyətlərinə yalnız bir şəklə salınması, bir ictimai quruluşun standartlarına uyğunlaşmaq tələbləri ilə yanaşmaq düzgün olmazdı. Gördüyümüz kimi, xarici təzyiq və hətta silahlı qüvvə vasitəsilə xalqlara yad sivilizasiya formalarını qəbul etdirmək cəhdləri xaos və insan əzablarının artmasından başqa heç nəyə gətirib çıxarmır. Əsl tərəqqi yalnız sivilizasiya ənənələrinin təbii davamı olduqda mümkündür.

Bibliyaya müraciət etsək görərik ki, insanı Allah xəlq etmiş və ona Özünə xas olan xüsusiyyətlər bəxş etmişdir . Məhz buna görə də iddia etmək olar ki, insan xisləti bir sıra daimi məziyyətlərə malikdir. Dinsiz etika nöqteyi-nəzərindən insan azadlığını yalnız digər insanların azadlığı məhdudlaşdıra bilər. Lakin bu, mənəvi sahədə çaşqınlığa gətirib çıxarır. "Nə qədər insan var, o qədər də rəy vardır" tezisi mütləq mənəvi norma anlayışını aradan qaldırır. Bu mövqe həm siyasətdə, həm də iqtisadiyyatda ağır nəticələrə gətirib çıxara bilər.

Bəşər sivilizasiyasının indiki inkişafı elə şərait yaratmışdır ki, planetdə həyatın özünün mövcudluğu təhlükə altına düşmüşdür. Qlobal böhran insan həyatının bütün sahələrinə sirayət etmişdir: milyonlarla insan acından və xəstəlikdən ölür, cinayətkarlıq artır, antropogen amillər ətraf mühiti insanların gələcək yaşayışı üçün yararsız vəziyyətə sala bilər.

Bəşəriyyət xroniki olaraq bu problemlərdən əziyyət çəkir, çünki onlar, ilk növbədə, etik və mənəvi xarakter daşıyırlar. Xarici aləmdə baş verən fəlakətlər müasir insanın düşüncəsində və dəyərlər sistemindəki böhranı əks etdirir.

Moskva və Bütün Rusiyanın patriarxı Kirill zamanın çağırışlarına və qlobal problemlərə layiqincə cavab vermək üçün din xadimlərinin də üzərinə böyük vəzifələr düşdüyünü

vurğuladı, onları daha fəal və konkret mövqe tutmağa çağırdı. O, bu baxımdan dinlərarası dialoqu gücləndirməyin vacibliyini bildirdi.

Kirill YUNESKO ilə də dini qurumların əlaqələrinin genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini dedi. O, BMT yanında Dini Məşvərət Şurasının yaradılması və YUNESKO yanında dinlərarası dialoq üzrə yüksək səviyyəli təşəbbüs qrupunun fəaliyyətə başlamasının da bu yöndə əsaslı tədbirlərdən olduğunu bildirdi. Moskva və Bütün Rusiyanın patriarxı Kirill ümumi amallar naminə tədbir iştirakçılarına uğurlar arzuladı və Bakı sammitinin dinlərarası dialoqa əsaslı töhfələr verəcəyinə inamını ifadə etdi.

* * *

Türkiyənin Diyanət İşləri başqanı Əli BARDAKOĞLU dünya dini liderlərinin Bakı sammitinin əhəmiyyətindən danışdı. O, bu sammitin təşkilinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi və müasir Azərbaycanın gözəl mənzərəsi ilə bağlı minnətdarlığını çatdırdı.

Əli Bardakoğlu dedi ki, indi dünyanın sülhə ehtiyacı vardır. İndi həm də dinlə bağlı dolğun məlumatların insanlara çatdırılması da vacibdir. Bu baxımdan din adamları insanların qəlbində sevgi və sayğı yaratmalıdırlar. Əli Bardakoğlu dinlərarası dialoqun genişləndirilməsinin zəruriliyindən danışaraq bildirdi ki, dinə münasibət hər bir ölkənin gələcəyidir. Onun sözlərinə görə, din azadlığı, onun doğru təlimi gələcəyin təməl prinsipi olmalıdır. Yalnız bu, birgə yaşayışın vasitəsi ola bilər.

* * *

Ermənilərin baş patriarxı katolikos II QAREGİN sammitin təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi. O, etnik münaqişələrin mövcudluğunun bir çox dini dəyərləri də təhlükə altına saldığını dedi.

Dinlərarası dialoqun bəşər mədəniyyətinin xilasına xidmət etdiyini deyən erməni katolikosu azad və dinc həyata doğru getməyin vacib olduğunu diqqətə çatdırdı. II Qaregin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Ulu Tanrıya dua etdiklərini dedi və bildirdi ki, bu yolda səylər davam etdiriləcəkdir.

* * *

YUNESKO-nun nümayəndəsi Bendev BADARÇ bildirdi ki, Bakıda keçirilən sammit dünyada bu baxımdan yeni platformaların əsasını qoyacaqdır. Yeni istiqamətlərin yaranmasında isə dünyanın dini liderlərinin böyük rolu vardır.

"Siz sülh yaradan şəxslərsiniz" deyən YUNESKO-nun nümayəndəsi təmsil etdiyi qurumun baş direktoru İrina Bokovanın təbrik məktubunu sammit iştirakçılarının diqqətinə çatdırdı.

* * *

Papa Şurasının dinlərarası dialoq üzrə nümayəndəsi, kardinal Jan Lui TARAN isə sammitin yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinin başçısına təşəkkür etdi. O, Roma papası XVI Benediktin salamlarını din xadimlərinə çatdırdı və bildirdi ki, papa da dini liderlərin bu təşəbbüsünü dəstəkləyir və sammitin işinə uğurlar arzulayır.

Jan Lui Taran dünyada dini icmalar arasında əlaqələrin sıxlaşdırılmasının vacibliyini

diqqətə çatdırdı. O qeyd etdi ki, indi dünyanın sülhə daha çox ehtiyacı vardır. Sülhün əhəmiyyəti gənc nəslə də öyrədilməlidir.

* * *

Ayətullah Məhəmməd Əli TƏSXİRİ həzrətləri islamın dinlərarası dialoqu və bu çərçivədə din xadimləri arasında dialoqu dəstəklədiyini dedi və dini liderlərin münaqişə regionlarında sülhün bərqərar olunmasına çalışmalarının vacib olduğunu diqqətə çatdırdı.

* * *

Mitropolit NİKİTAS Avropa ilə Asiya, Qərb ilə Şərq arasında körpü rolunu oynayan Azərbaycanda müxtəlif dinlərin və mədəniyyətlərin sülh şəraitində yaşadığını dedi. Bildirdi ki, indi dinlərarası münasibətlərdə dialoqun əhəmiyyətinin daha çox artdığı bir vaxtda bu sahədə çalışan insanların sayının daha çox olmasına ehtiyac vardır.

* * *

İslam Konfransı Təşkilatının nümayəndəsi səfir Sadəddin TASİB dedi ki, dünya dini liderlərinin sammitinin Bakıda keçirilməsi tarixi hadisədir və bu, məsul şəxslərin bir araya gəlməsinə və qarşılıqlı dəstəyin əldə olunmasına xidmət edir.

* * *

Çexiya və Slovakiya patriarxı XRİSTOFOR dinə və ənənəvi dəyərlərə qloballaşmanın təsirlərinin müzakirə olunması baxımından Bakı sammitinin əhəmiyyətini vurğulayaraq dedi ki, bu sahədə inkişafa müxtəlif millətlərin və xalqların bir-birilərinə xoş münasibətilə nail olmaq mümkündür.

* * *

Avropa Ravvinləri Konfransının nümayəndəsi Pinxas QOLDŞMİDT Prezident İlham Əliyevin dəstəyi ilə keçirilən bu sammitin mühüm nəticələrlə yadda qalacağına əmin olduğunu dedi.

* * *

Mitropolit GERASİM Bakı sammitinin önəmli mövzuların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıdığını dedi və bildirdi ki, bu görüş qloballaşan dünyada mövcud olan mənfi təsirlərin aradan qaldırılması baxımından əhəmiyyətli olacaqdır.

* * *

Rusiya bütpərəstləri adından çıxış edən Sanjeylama RİMPOÇET də tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi. O, dini liderlərin dünyada sülhün əldə edilməsi baxımından mühüm səylər göstərməsinin vacib olduğunu diqqətə çatdırdı.

* * *

İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman ƏL-TÜVEYCRİ dini dözümlülüyü ilə diqqət çəkən Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsinə görə təşəkkür etdi. O dedi ki, qloballaşma dövründə din və ənənəvi dəyərlər arasında münasibətlər pozulub. Həmin əlaqələrin yenidən bərpa olunmasına dini liderlər böyük töhfə verə bilərlər.

* * *

Fasilədən sonra dünya dini liderlərinin Bakı sammiti işini davam etdirdi.

Günün ikinci yarısında iştirakçılar dünya üçün vacib məsələlərin müzakirə olunduğu dini liderlərin Bakı sammitinin əhəmiyyətindən danışdılar. Bildirildi ki, Azərbaycan bu sammiti keçirməklə dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun qurulmasına öz töhfəsini verir. Din xadimləri indi dünyada baş verən mühüm çağırışlara etinasız qalmamağın və qloballaşan dünyada baş verən problemlərin həllində yaxından iştirak etməyin vacibliyini də diqqətə çatdırdılar. Onlar ənənəvi dinlər arasında mehriban münasibətlərin bərqərar olmasının dünya birliyi üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirdilər. Sammit iştirakçıları Azərbaycanda tolerantlığın yüksək səviyyədə olmasına bir daha diqqət çəkdilər. Uzun illərdir bu ölkədə müxtəlif dinlərə məxsus insanların mehriban şəraitdə yaşadıqlarını, öz dini dəyərlərini yüksək səviyyədə qoruduqlarını bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN İSLAM İŞLƏRİ VƏ VƏQF NAZİRİNİN MÜAVİNİ ADEL ABDULLA ƏL-FƏLƏHİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Küveytin islam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhi qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına Küveytin islam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhin verdiyi töhfənin önəmini vurğuladı, ölkəmizdə onun fəaliyyətinə böyük diqqət və qiymət verildiyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Küveyt Dövləti arasında dostluq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Adel Abdulla Əl-Fələhin Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzaladığını dedi və xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Adel Abdulla Əl-Fələh Küveyt Dövlətinin əmirinin salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdıraraq dedi: "Bizim doğrudan da, Azərbaycana məhəbbətimiz çox dərin və böyük məhəbbətdir. Sizin atanıza, Allah ona qəni-qəni rəhmət eləsin, xüsusi hörmətimiz və dərin məhəbbətimiz vardır. Sizin möhtərəm şəxsinizə də hörmətimiz böyükdür. Apardığınız müdrik, Azərbaycana böyük uğurlar gətirən siyasətinizi həmişə bəyənirik və yüksək qiymətləndiririk. Heç şübhəsiz ki, Sizin qərar verdiyiniz bu yüksək dövlət mükafatı fəaliyyətimdə yeni-yeni uğurlar qazanmaqda mənə kömək edəcək, bir növ təkan verəcəkdir".

Dövlətimizin başçısı Küveyt əmirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveytin əmirinə çatdırmağı xahiş etdi.

Sonra Prezident İlham Əliyev Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordenini Küveytin islam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÜTÜN ERMƏNİLƏRİN KATOLİKOSU II QAREGİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da bütün ermənilərin katolikosu II Qaregini qəbul etmişdir.

Görüşdə dünya dini liderlərinin və müxtəlif dini konfessiya rəhbərlərinin iştirak etdiyi Bakı sammitinin əhəmiyyəti qeyd olunmuş, bu tədbirin dinlərarası dialoqun möhkəmlənməsi və dini liderlər arasında təmasların genişlənməsi baxımından önəmi vurğulanmışdır.

DÜNYA DİNİ LİDERLƏRİNİN BAKI SAMMİTİNİN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNMUŞDUR

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dünya dini liderlərinin Bakı sammitinin iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

BAKIDA RUSİYA VƏ QAFQAZ DİNİ LİDERLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Aprelin 26-da Bakıda, "Gülüstan" sarayında keçirilən dünya dini liderlərinin sammiti çərçivəsində Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Moskva və Bütün Rusiyanın patriarxı Kirill və bütün ermənilərin katolikosu II Qaregin arasında görüş olmuşdur.

Sammit çərçivəsində bu görüşün xüsusi əhəmiyyətini vurğulayan patriarx Kirill bildirmişdir ki, son illər Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda xeyli irəliləyiş vardır. Patriarx bu məsələdə Azərbaycanın və Ermənistanın dövlət başçılarının səylərini, Rusiya Prezidentinin vasitəçiliyini xüsusi qeyd etmişdir.

Bildirilmişdir ki, bu cür görüşlər siyasi liderlərin səylərinə dəstək verir.

Şeyxülislam Allahşükür Paşazadə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesində üzərinə vasitəçilik missiyası götürən Rus Pravoslav kilsəsinə təşəkkür edərək, problemin ədalətli və beynəlxalq hüquq prinsipləri çərçivəsində nizamlanacağına ümidvar olduğunu vurğulamışdır.

Bütün ermənilərin katolikosu II Qaregin isə demişdir ki, biz dini liderlər Allahın qullarıyıq. Ona görə də sülhün tərəfdarıyıq. Biz dini liderlər regionda sülhün bərqərar olması üçün səylər göstərməliyik.

Vasitəçilik missiyasına görə Rus Pravoslav kilsəsinə təşəkkür edən II Qaregin demişdir ki, müharibə qəddarlıqdır, sülh lazımdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Moskva və Bütün Rusiyanın patriarxı Kirill, bütün ermənilərin katolikosu II Qaregin görüşün yekunlarına dair Bəyannamə imzalamışlar.

Sənəddə bildirilir ki, sülhə və səbrə səsləyən dinin potensialı barışıq qüvvəsi olmalıdır.

Dini liderlərin birgə səyləri millətlərarası ədavətə son qoyacaqdır. Mübahisəli məsələlərin hərbi yolla həllinə qayıtmağa yol verməmək mühüm əhəmiyyət kəsb edir. Sülhə yönəlmiş səylərimizlə insanların düşmənçiliyin aradan qaldırılmasına olan ümidlərini dəstəkləyəcəyik.

Dini liderlər münaqişənin nizamlanmasına dair beynəlxalq səyləri dəstəklədiklərini, sülh və dinc yanaşı yaşamağa nail olmaq üçün qarşılıqlı etimadın gücləndirilməsi məqsədilə ünsiyyəti genişləndirməyin vacib olduğunu qeyd etmişlər.

* * *

Görüşdən sonra mətbuat üçün açıqlama verən patriarx Kirill görüşün çox uğurlu keçdiyini, müxtəlif məsələlərin, əsasən də Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının müzakirə olunduğunu vurğulamışdır. Onun sözlərinə görə, bugünkü sammit çox düzgün və vaxtında atılmış addımdır. Patriarx Kirill sammit çərçivəsində keçirilmiş görüşün uğurla nəticələndiyini və imzalanmış Bəyannamənin buna sübut olduğunu vurğulamışdır.

Rus Pravoslav kilsəsinin başçısı demişdir ki, dini rəhbərlər siyasi hakimiyyətə malik deyillər. Onlar ordunu hər hansı bir istiqamətə yönəldə, dövlətin gücündən istifadə edə bilməzlər. Lakin onların başqa xüsusi imkanları vardır. Bu imkanlar inanclı insanlara çox yaxın olan dəyərlərə, ideyalara müraciət etməkdən ibarətdir. Üç dinin nümayəndələri görüşüb bir çox məsələlər haqqında razılaşırsa, bu, bütün inanclı insanlara vacib siqnaldır. Bu siqnal barışığa, gərginliyin azaldılmasına və ən əsası siyasi liderlərin münaqişənin həllinin bütün məsuliyyətini öz üzərlərinə götürərək razılığa gəlməsinə zəmin yarada bilər.

Moskva və Bütün Rusiyanın patriarxı Kirill vurğulamışdır ki, Bəyannamənin müddəaları çox vacibdir. Biz ümid edirik ki, bu sənədin ruhu siyasi danışıqların atmosferinə də təsir göstərəcəkdir.

BAKIDA YUNESKO YANINDA DİN XADİMLƏRİNİN MƏŞVƏRƏT QRUPUNUN İLK İCLASI KEÇİRİLMİŞDİR

Aprelin 26-da Bakıda, "Gülüstan" sarayında keçirilən dünya dini liderlərinin sammiti çərçivəsində YUNESKO yanında Din Xadimlərinin Məşvərət Qrupunun ilk iclası olmuşdur.

İclasda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Moskva və Bütün Rusiyanın patriarxı Kirill, bütün ermənilərin katolikosu II Qaregin, digər ölkələrin din xadimləri, eləcə də YUNESKO-nun regional nümayəndəsi Dendev Badarc iştirak etmişlər.

Moskva və Bütün Rusiyanın patriarxı Kirill bildirmişdir ki, dini icmaların beynəlxalq təşkilatların fəaliyyətində rolu gündəmdə olan məsələlərdəndir. Patriarx Kirill dini icmaların beynəlxalq təşkilatlarla daimi iş üçün xüsusi qrupun fəaliyyətinin vacibliyini vurğulamışdır.

Qeyd olunmuşdur ki, YUNESKO-nun keçmiş baş direktoru Koişiro Matsuura da bu qurum yanında Din Xadimlərinin Məşvərət Qrupunun yaradılması istiqamətində mühüm

səylər göstərmişdir. Qurumun yeni rəhbəri İrina Bokovanın təşəbbüsü ilə isə YUNESKO-da sülh və mədəniyyətlərin dialoqu paneli yaradılmışdır. Bu təsisat din xadimlərindən ibarət qrupun YUNESKO ilə əməkdaşlığı üçün gözəl imkan ola bilər.

İclasda YUNESKO yanında Din Xadimlərinin Məşvərət Qrupunun fəaliyyəti və nizamnaməsi ilə bağlı təkliflər irəli sürülmüşdür. Bu təkliflər YUNESKO-nun nümayəndəsinə təqdim olunmuşdur.

Təkliflərə tez bir vaxtda YUNESKO-da baxılacaq və onlara cavab veriləcəkdir.

AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN OLUNMASI İRAN İSLAM RESPUBLİKASI ÜÇÜN BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması İran İslam Respublikası üçün böyük əhəmiyyət kəsb edir və rəsmi Tehran Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır.

Bu sözləri ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisinin İran-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Seyid Kazım Musəvi aprelin 26-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşdə demişdir.

Milli Məclisin sədri Oqtay Əsədov İran parlament nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirmiş, qarşılıqlı səfərlərin ölkələrimiz arasındakı mehriban qonşuluq və dostluq münasibətlərinin inkişafında mühüm rol oynadığını bildirmişdir. O.Əsədov münasibətlərimizin yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmişdir. Bildirmişdir ki, dövlət başçılarının səfərləri zamanı 90-dan çox sənəd imzalanmışdır. Bu sənədlər əməkdaşlığımızın möhkəmlənməsi və daha da inkişafı üçün hüquqi baza yaratmışdır.

Münasibətlərimizin genişlənməsində parlamentlərin də rolundan danışan O.Əsədov, bu ilin fevralında İrana səfərini xatırlatmış və səfər çərçivəsində keçirdiyi görüşlərin, apardığı danışıqların əhəmiyyətini qeyd etmişdir.

Milli Məclisin sədri bildirmişdir ki, Azərbaycan İranla əməkdaşlıqda maraqlıdır və rəsmi Tehranın Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik səylərini qiymətləndirir. O.Əsədov İranın Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini, ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlıq etmişdir.

Seyid Kazım Musəvi göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş, İran İslam Şurası Məclisinin sədri Əli Laricaninin salamlarını Oqtay Əsədova çatdırmışdır. Qonaq demişdir ki, İran Azərbaycan ilə siyasi, iqtisadi, humanitar, mədəni, elm və təhsil sahələrində əlaqələrin inkişafında maraqlıdır. Rəsmi Tehran Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyir, regiondakı problemlərin sülh yolu ilə həllinə tərəfdardır.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ İRAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

İran-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri Seyid Kazım Musəvi və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına ikigünlük səfərə gəlmişdir.

Qonaqlar Naxçıvan şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin heykəli önünə gül dəstəsi qoymuş və muzeyə baxmışlar.

Sonra Naxçıvan MR Ali Məclisində görüş olmuşdur.

Ali Məclisin sədri Vasif Talıbov qonaqları salamlayaraq demişdir ki, Azərbaycan və İran qonşu dövlətlərdir. Ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri nəticəsində qarşılıqlı əlaqələrimiz sağlam təməl - qonşuluq prinsipləri əsasında qurulmuşdur. Ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövründə, 1992-ci ildə əsası qoyulan bu əlaqələr hazırda inkişaf edərək genişlənməkdədir. Bu gün Azərbaycan və İran prezidentlərinin səyi nəticəsində İran-Azərbaycan dostluq və əməkdaşlıq münasibətləri hər iki ölkə xalqlarının mənafeyinə və maraqlarına uyğun olaraq qurulmuşdur. Qonşu ölkələrin qarşılıqlı münasibətləri çərçivəsində Naxçıvan-İran əlaqələri də inkişaf edir. İran İslam Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında beynəlxalq statuslu iki gömrük-keçid məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrin xidmətindən il ərzində 500-600 min nəfər istifadə edir. Qarşılıqlı gediş-gəlişlərdə heç bir narazılıq, problem yoxdur. Bu ondan qaynaqlanır ki, hər iki ölkənin əhalisini birgə adətlər, coğrafi yaxınlıq, tarixi, mədəni tellər birləşdirir.

Ali Məclisin sədri muxtar respublikanın Ermənistan tərəfindən 20 ilə yaxındır ki, blokadada saxlandığını bildirmişdir. Qeyd olunmuşdur ki, blokadanın yaratdığı çətin dövrlərdə Naxçıvan həmişə İran İslam Respublikasının köməyini hiss etmiş, onun ərazisindən ölkəmizin digər regionları ilə nəqliyyat əlaqələri saxlanılmışdır. Hazırda İran ərazisindəki yoldan hər gün yüzlərlə vətəndaşımız istifadə edir. Qarşılıqlı əlaqələrin getdikcə möhkəmlənməsi üçün biz bundan sonra da lazım olan tədbirləri həyata keçirəcəyik. Azərbaycanın işğal olunmuş əraziləri haqqında İran dövləti mövqeyini birmənalı şəkildə ifadə etmişdir.

Seyid Kazım Musəvi Naxçıvana səfərindən əvvəl verdiyi müsahibəsində Dağlıq Qarabağ məsələsində Ermənistan və Azərbaycan arasında vasitəçilik etmək istədiklərini və bu zəmində işlərin başlandığını bildirmişdir.

Seyid Kazım Musəvi İran İslam Şurası Məclisi sədrinin salamını Ali Məclisin sədrinə çatdırmış, İran-Azərbaycan əlaqələrinin inkişafında parlamentlərarası əlaqələrin xüsusi çəkiyə malik olduğunu bildirərək Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin bu ilin fevralında İran İslam Respublikasına rəsmi səfər etdiyini xatırlatmış, bu səfərin yaxın qonşu, qardaş və dost ölkələrin münasibətlərində yeni mərhələyə çevrildiyini vurğulamışdır.

Seyid Kazım Musəvi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əməkdaşlığın inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olduğunu, Naxçıvanda aparılan tikinti-quruculuq, abadlıq və yaşıllaşdırma işlərinin onlarda xoş təəssürat yaratdığını bildirmiş, Ali Məclisin sədrini İran İslam Respublikasına səfərə dəvət etmişdir.

Vasif Talıbov İran-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri kimi əməkdaşlıq, dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafına dəstək verəcəyini bildirmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ FRANSANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTİNENTAL AVROPA QAFQAZ İDARƏSİNİN RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 26-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Kontinental Avropa Qafqaz İdarəsinin rəisi Roland Qalaraq ilə görüşmüşdür.

Görüş zamanı tərəflər Fransa-Azərbaycan münasibətlərinin cari vəziyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar, regionda və ölkəmizdə gerçəkləşdirilən layihələr və bu layihələrdə Fransanın iştirakı, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər.

AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ XİN-DƏ OLMUŞLAR

Aprelin 26-da Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) idarə heyətinin üzvləri Xarici İşlər Nazirliyində (XİN) nazirin müavini Mahmud Məmmədquliyevlə görüşmüşlər.

M.Məmmədquliyev bildirmişdir ki, XİN əsasən xarici siyasət məsələləri ilə məşğul olsa da, onun fəaliyyətinin mühüm hissəsi iqtisadi məsələlərlə əlaqədardır. Bu baxımdan qurum öz fəaliyyətini əsasən üç istiqamətdə qurur. Bu istiqamətlərdən birincisi Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və nümayəndəliklərinin imkanlarından istifadə edərək ölkəmizin sahibkarları üçün yeni iş potensialının yaradılmasıdır. İkinci istiqamət Azərbaycanda istehsal olunan məhsulların və xidmətlərin xarici bazarlara çıxarılmasına dəstək verilməsidir. Üçüncü məsələ Azərbaycanın müvafiq əlverişli şərtlərlə çoxtərəfli ticarət sisteminə daxil olmasını, yəni Dünya Ticarət Təşkilatına üzv olmasını təmin etməkdir.

Nazir müavini qeyd etmişdir ki, XİN bu və digər məsələlərə dair ATİB ilə yaxından əməkdaşlıq etməyə hazırdır.

ATİB-in sədri Fatimə Aslan rəhbərlik etdiyi birliyin fəaliyyəti haqqında qısa məlumat vermişdir. Bildirmişdir ki, iş adamları xarici ölkələrə səfərləri zamanı həmin ölkələrdəki səfirliklərimizin, nümayəndəliklərimizin yaxın və isti münasibətini həmişə hiss edirlər. Buna görə Xarici İşlər Nazirliyinə minnətdardırlar. ATİB sözügedən istiqamətlər üzrə fəaliyyətini daha da genişləndirməyə, XİN ilə əlaqələri daha da genişləndirməyə çalışacaqdır.

Daha sonra görüşdə müzakirələr aparılmışdır.

DÖVLƏT STATİSTİKA KOMİTƏSİNDƏ AZƏRBAYCAN, ALMANİYA VƏ BOLQARISTAN ARASINDA ÜÇTƏRƏFLİ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Aprelin 26-da Dövlət Statistika Komitəsində Avropa Birliyinə üzv dövlətlərin və benefisiar ölkələrin idarəçilik qurumları arasında əməkdaşlıq vasitəsi olan "Twinning" layihəsi çərçivəsində Azərbaycan, Almaniya və Bolqarıstan nümayəndələri görüşmüşlər.

Görüşdə Azərbaycan, Almaniya və Bolqarıstanın statistika qurumları arasında anlaşma memorandumu və əməkdaşlığa dair saziş imzalanmışdır.

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında birgə niyyət Bəyannaməsi"ni Almaniya tərəfdən Federal Statistika İdarəsinin (AFSİ) prezidenti Roderix Egeler, Azərbaycan tərəfdən Dövlət Statistika Komitəsinin (DSK) sədri Arif Vəliyev imzalamışlar.

Eyni zamanda, "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Bolqarıstan Respublikasının Milli Statistika İnstitutu arasında statistika sahəsində əməkdaşlıq Sazişi"inə uyğun olaraq, hər iki ölkənin statistika orqanları arasında 2010-2012-ci illəri əhatə edən dövr üçün tədbirlər planı imzalanmışdır. Müqaviləni Bolqarıstan Milli Statistika İnstitutu (BMSİ) adından institutun prezidenti Mariana Kotzeva, Azərbaycan tərəfdən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev imzalamışlar.

DSK sədri Arif Vəliyev çıxış edərək Avropa Qonşuluq siyasəti çərçivəsində Tvinninq layihəsi üzrə baş tutan görüşün əhəmiyyətindən danışmışdır. O, qonaqlara AFSİ, BMSİ ilə imzalanmış anlaşma memorandumu və əməkdaşlıq sazişi haqqında ətraflı məlumat vermişdir. Bildirmişdir ki, 4 bölmədən ibarət Bəyannaməyə əsasən DSK ilə AFSİ arasında bu sahə üzrə informasiya texnologiyalarının tətbiqi, müasir statistik metod və üsulların tətbiq olunması, ölkələrimizin sosial-iqtisadi inkişafına dair statistik məlumat və nəşrlərin mübadiləsi, statistik məlumatlar bazasının yaradılması və idarə olunması, statistik məlumatların toplanmasında informasiya texnologiyalarının tətbiqi və bir sıra digər sahələrdə təcrübə mübadiləsinin, habelə elmi-metodoloji tədqiqatların aparılmasında əməkdaşlıq, qarşılıqlı maraq doğuran layihələr həyata keçiriləcəkdir.

Görüşdə, həmçinin DSK ilə BMSİ arasında bağlanmış əməkdaşlıq sazişinə uyğun olaraq 2010-2012-ci illərdə həyata keçirilməsi nəzərdə tutulan birgə tədbirlər planı da qəbul edilmişdir. Tədbirlər planına əsasən iki il ərzində statistik məlumatlar, ticarət, xidmət və turizm, xarici ticarət, əmək, əhalinin həyat səviyyəsi və ev təsərrüfatı, demoqrafiya sahələrində əməkdaşlıq nəzərdə tutulur. Bu əməkdaşlıq Avropa İttifaqı ölkələrində "Gəlirlərin bölüşdürülməsi və həyat şəraiti statistikası" üzrə sorğu metodologiyasının öyrənilməsi, dünya ölkələrində prioritet məsələ olan sahibkarlar tərəfindən işçi qüvvəsinə çəkilən xərclər, onların səviyyəsi və tərkibi haqqında müşahidənin aparılması üçün BMSİ-nin təcrübəsinin öyrənilməsi, ticarət və turizm statistikası sahəsində təcrübə mübadiləsi və s. kimi 11 məsələni nəzərdə tutur.

BAKIDA AZƏRBAYCAN-İTALİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 26-da Bakıda, "Hyatt Regency-Naxçıvan" mehmanxanasında İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və İtaliyanın Xarici Ticarət Əlaqələri üzrə Milli Təşkilatının (İCE) birgə təşkilatçılığı ilə Azərbaycan-İtaliya biznes forumu keçirilmişdir.

Biznes forumda Azərbaycan və İtaliya tərəfdən dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, enerji, xidmət, maliyyə, tikinti və digər sahələrdə fəaliyyət göstə-

rən 100-ə yaxın şirkətin nümayəndələri iştirak etmişlər.

Biznes forumun açılış mərasimində çıxış edən Azərbaycanın iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov qonaqları salamlayaraq, Prezident İlham Əliyevin rəhbərliyi altında son illər ölkəmizin sosial-iqtisadi inkişafı, respublikamızın iqtisadiyyatına xarici sərmayələrin cəlb olunması istiqamətində atılmış uğurlu addımlar barədə ətraflı məlumat vermişdir.

1995-ci ildən indiyədək ölkəmizin iqtisadiyyatına 70 milyard ABŞ dolları məbləğində investisiya qoyulduğunu xatırladan N.Səfərov, bu sərmayələrin yarıdan çoxunun xarici şirkətlərin payına düşdüyünü söyləmişdir. Azərbaycanın mühüm beynəlxalq və regional layihələrin həyata keçirilməsində öncül mövqeyi barədə ətraflı məlumat verən nazir müavini bu sırada Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin mühüm rolunu vurğulamışdır.

N.Səfərov tədbir iştirakçılarının diqqətini Azərbaycanın sürətli iqtisadi inkişafına cəlb edərək bildirmişdir ki, ötən ilin yekunlarına görə ölkədə ümumu daxili məhsul 9,3 faiz, sənaye istehsalı 12,8 faiz, kənd təsərrüfatı 3,5 faiz artmışdır. İqtisadi inkişaf templəri cari ilin ilk rübündə də saxlanılmış, bu dövrdə ümumi daxili məhsul 5,4 faiz, pərakəndə əmtəə dövriyyəsi 8,3 faiz, əhalinin nominal gəlirləri 6,5 yüksəlmişdir. İtaliya şirkətlərinin Azərbaycanda öz fəaliyyətlərini daha da genişləndirmək üçün münbit şəraitin olduğunu deyən nazir müavini biznes forumun işinə uğurlar arzulamışdır.

İtaliyanın ölkəmizdəki səfiri Mario Corco Stefano Baldi də Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün son dərəcə əlverişli şəraitin mövcud olduğunu diqqətə çatdırmışdır.

İtaliya iqtisadi inkişaf nazirinin müavini Adolfo Urso ölkələrimiz arasında mövcud iqtisadi əlaqələr və əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar olduğunu bildirmişdir. Ölkələrimiz arasında illik ticarət dövriyyəsinin 4 milyard ABŞ dollarına çatdığını məmnuniyyətlə qeyd edən qonaq, İtaliyanın hazırda iqtisadi inkişaf sürətinə görə dünyanın lider dövlətləri sırasında olan Azərbaycan ilə iqtisadi əlaqələrin daha genişləndirilməsində maraqlı olduğunu, bu məqsədlə rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində ölkəmizə 25 şirkəti təmsil edən 40-a yaxın iş adamının gəldiyini, bu şirkətlərin respublikamızın kənd təsərrüfatı, sənaye, inşaat, turizm sektorlarına daha çox maraq göstərdiklərini vurğulamışdır.

AZPROMO-nun prezidenti Adil Məmmədov ölkəmizin investisiya mühiti və ixrac imkanları barədə təqdimatla çıxış etmişdir.

İCE-nin direktoru Massimo Mammberti ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında biznes forumların, işgüzar görüşlərin əhəmiyyətini vurğulamışdır.

Sonra biznes forum Azərbaycan və İtaliya şirkətləri nümayəndələri arasında çoxtərəfli və ikitərəfli işgüzar görüşlərlə davam etmişdir.

Tədbirin sonunda tərəflər arasında iqtisadi inkişafın gələcək istiqamətlərinə dair sənəd imzalanmışdır. Sənədi İtaliya iqtisadi inkişaf nazirinin müavini Adolfo Urso və Azərbaycan iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov imzalamışlar.

Sənəddə ölkələrimiz arasında ticarətin daha da inkişafı, iqtisadiyyatın müxtəlif sahələri

üzrə birgə müəssisələrin yaradılması, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu ilə İtaliyanın Xarici Ticarət Əlaqələri üzrə Milli Təşkilatı, eləcə də sahibkarlar arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı investisiyaların cəlb edilməsi və s. sahələrdə əməkdaşlığın inkişafı nəzərdə tutulur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STAVROPOL VİLAYƏTİNİN QUBERNATORU VALERİ QAYEVSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Azərbaycan ilə Stavropol vilayəti arasında əlaqələri inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu dedi. Dövlətimizin başçısı keçiriləcək Azərbaycan-Stavropol biznes forumunun bu əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Stavropol vilayətinin ölkəmizlə əməkdaşlığa böyük önəm verdiyini vurğulayan qubernator Valeri Qayevski bildirdi ki, 150 nəfər iş adamından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlməsi rəhbərlik etdiyi vilayətin ölkəmizə göstərdiyi marağın təzahürüdür. O dedi ki, başçılıq etdiyi nümayəndə heyətinin səfərinin əsas məqsədi Stavropol vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrinə dair perspektivləri müəyyənləşdirməkdən və bu istiqamətdə əməli addımlar atmaqdan ibarətdir.

DÜNYA DİNİ LİDERLƏRİNİN BAKI SAMMİTİ YEKUN BƏYANNAMƏNİN QƏBUL OLUNMASI İLƏ BAŞA ÇATMIŞDIR

Bakıda keçirilən dünya dini liderlərinin ikigünlük sammiti aprelin 27-də yekun Bəyannamənin qəbul olunması ilə başa çatmışdır.

Sammitin iştirakçıları - 33 ölkədən olan xristian, müsəlman, yəhudi, buddist və induist dinlərinin rəhbərləri və təmsilçiləri dövrümüzün aktual mövzularını, o cümlədən qloballaşmanın dinə və ənənəvi dəyərlərə təsiri məsələsini müzakirə etmək üçün Azərbaycana toplaşmışdılar.

Dini liderlər bildirmişlər ki, iqtisadiyyat, siyasət, hüquq və mədəniyyətin qloballaşması birmənalı proses deyildir. Bu, istehsalın, ticarətin, elmin, təhsilin inkişafına, təhlükəsizlik və ətraf mühitin mühafizəsi sahələrində ümumi çağırışlara cavab verilməsində heç də az praktiki səmərə verməmişdir. Beynəlxalq əlaqələr möminlərə müasir çoxmillətli və çoxdinli cəmiyyətlərdə öz hüquqlarını qorumağa imkan verir. Lakin qlobal proseslərin din sahəsinə təsiri bir çoxları tərəfindən tənqidlə qarşılanır.

Qəbul olunmuş Bəyannamədə deyilir ki, qloballaşma dövlətlərin, xalqların və fərdlərin təhlükəsizliyi üçün təhdidləri aradan qaldırmamışdır. Müasir dünyamızda ötən əsrlər-

dən miras qalan aclıq, sosial qeyri-bərabərlik, ətraf mühitin çirklənməsi, milli-dini zəmində silahlı münaqişələr kimi problemlər hələ də həllini tapmamışdır. Əksinə bu problemlərə yeniləri əlavə olunmuşdur.

Sənədi imzalayan dini liderlər hesab edirlər ki, əvvəllər ayrı-ayrı regionları təhdid edən terrorizm artıq beynəlxalq xarakter almaqdadır və onunla mübarizə xeyli çətinləşmişdir. Buna görə də bir çox ölkələrdə nasist ideyalar qadağan olunduğu kimi, dinc insanlara qarşı zorakılığa haqq qazandıran dini-siyasi doktrinalar da qadağan edilməlidir.

Sammitin iştirakçıları tərəfindən xüsusi vurğulanmışdır ki, bu gün dünya üçün ən böyük təhlükələrdən biri hər il milyonlarla insanın həyatına son qoyan narkomaniya problemidir. Terrorçuluqla olduğu kimi, narkotik maddələr ticarətinə qarşı da mübarizə ardıcıl, amansız xarakter daşımalı və bütün dünya ictimaiyyətinin gücü ilə aparılmalıdır.

Dünya dini liderləri sənəddə işğalçılıq probleminə də toxunaraq qeyd etmişlər ki, hər bir ölkənin ərazi bütövlüyü qorunmalı, eyni zamanda, hər bir xalq azad şəkildə inkişaf etməli, öz taleyi ilə bağlı bütün beynəlxalq qərarların qəbulunda iştirak etməlidir. Meydana çıxan münaqişələr ədalətli, beynəlxalq norma və prinsiplər çərçivəsində həll olunmalıdır.

XARİCİ İŞLƏR NAZİRİ İRAN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 27-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan İran-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Seyid Kazım Musəvi və digər deputatlar ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İran arasında münasibətlərin cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmış, ölkələrimiz arasında bütün sahələrdə mövcud əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Azərbaycan ilə İran arasında əlaqələrin daha da genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin vacibliyi vurğulanmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİNİN KÖMƏKÇİSİ, MDB ÖLKƏLƏRİ İLƏ TEXNİKİ ƏMƏKDAŞLIQ ÜZRƏ MİSİR FONDUNUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 27-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Misirin xarici işlər nazirinin köməkçisi, MDB ölkələri ilə texniki əməkdaşlıq üzrə Misir fondunun baş katibi Samah M.Sotouhi ilə görüşmüşdür.

Azərbaycan ilə Misir arasında münasibətlərin səviyyəsini yüksək qiymətləndirən qonaq rəhbərlik etdiyi fondun 1992-ci ildən başlayaraq ölkəmizlə sıx əməkdaşlıq etdiyini vurğulamışdır. Fondun müxtəlif sahələrə aid kurslarında Azərbaycandan olan iştirakçıların sayının ildən-ilə artdığını deyən M.Sotouhi bunu ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasının təzahürü kimi qiymətləndirmişdir.

Nazir E.Məmmədyarov Azərbaycan tərəfinin fondun təcrübəsinin öyrənilməsində maraqlı olduğunu bildirərək Diplomatik Akademiya ilə fond arasında mövcud əməkdaşlığa xüsusi önəm vermişdir. Bildirilmişdir ki, bu əməkdaşlığın genişləndirilməsi qarşılıqlı maraqlara cavab verir.

Görüşdə bir sıra maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANLI DİPLOMAT NYU-YORK UNİVERSİTETİNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI MÜHAZİRƏ OXUMUŞDUR

Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinin müşaviri Tofiq Musayev Nyu-York Universitetinin dəvəti ilə beynəlxalq hüquq və münasibətlər üzrə təhsil alan tələbələr qarşısında "Ermənistan və Azərbaycan arasında silahlı münaqişə: köklü səbəblər, nəticələr və həll üçün beynəlxalq hüquqi əsas" mövzusunda mühazirə ilə çıxış etmişdir.

Mühazirədə Cənubi Qafqazda davamlı münaqişələrin bölgə dövlətlərinin təhlükəsizliyinə, müstəqilliyinə və demokratik inkişafına mane olan, bütün regionun qeyri-sabitliyinin əsas mənbəyi kimi siyasi-tarixi, hüquqi tərəflərinə toxunulmuşdur.

Müəllim və tələbə auditoriyasının ATƏT-in Minsk qrupunun fəaliyyəti və münaqişənin tənzimlənməsində maneələr, Xocalı soyqırımı, məcburi köçkünlərin vəziyyəti, qondarma "erməni soyqırımı" və Azərbaycanın xarici siyasət kursu ilə bağlı çoxsaylı sualları cavablandırılmışdır.

Mühazirə iştirakçılarına "Qarabağ barəsində həqiqi faktlar silsiləsi"ndən olan "Azərbaycan əleyhinə müharibə - mədəni irsi hədəf alaraq" filmi nümayiş etdirilmiş və "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT sənədləri"nin toplusu, münaqişəyə həsr olunmuş digər buklet və kitablar paylanmışdır. Universitet kitabxanasına isə "Xocalı faciəsi - beynəlxalq baxış" kitabı və Ermənistanın Azərbaycana təcavüzünün nəticələrini əks etdirən xəritə hədiyyə edilmişdir.

Azərbaycan diplomatının apardığı mühazirə və onun əsasında qurulan fikir mübadiləsi müəllim və tələbə heyəti tərəfindən böyük maraqla qarşılanmış, tədbirin çox faydalı olması diqqətə çatdırılmışdır.

BAKIDA AZƏRBAYCAN-RUSİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Aprelin 27-də Rusiya Federasiyası Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin Bakıya səfəri çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Stavropol vilayəti qubernatorluğunun təşkilatçılığı ilə Azərbaycan-Rusiya biznes forumu keçirilmişdir.

Stavropol vilayəti tədbirdə dövlət qurumlarının nümayəndələri, eləcə də sənaye və energetika, kənd təsərrüfatı, turizm, inşaat, təhsil və digər sahələrdə fəaliyyət göstərən iş adamları da daxil olmaqla, 130-a yaxın nümayəndə ilə təmsil olunmuşdur. Azərbaycan tərəfdən isə biznes forumda dövlət rəsmiləri ilə yanaşı, 80-ə yaxın şirkətin nümayəndəsi iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov açılış nitqi ilə çı-

xış etmişdir. Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini xüsusi vurğulayan Baş nazirin müavini bildirmişdir ki, Azərbaycan-Rusiya strateji əməkdaşlığı özünü ticarət-iqtisadi əlaqələrin inkişafında daha qabarıq göstərir. Ötən il Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin 1 milyard 816 milyon dollar təşkil etdiyini xatırladan Ə.Həsənov bu göstəricinin ölkəmizin bütövlükdə MDB dövlətləri ilə ticarət dövriyyəsinin 60 faizinə bərabər olduğunu diqqətə çatdırmışdır.

Baş nazirin müavini əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş sürətli iqtisadi islahatlar strategiyasının hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bunun sayəsində Azərbaycanın iqtisadi inkişaf tempinə görə dünyanın lider dövlətləri sırasına çıxdığını, MDB məkanında isə birinci olduğunu konkret faktlar və rəqəmlərlə nəzərə çarpdırmışdır.

Biznes forumun işinə uğurlar diləyən Ə.Həsənov bu tədbirin Stavropol vilayətinin və Azərbaycanın iş adamları arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinə, yeni layihələrin reallaşdırılmasına təkan verəcəyinə inandığını bildirmişdir.

Stavropol vilayətinin qubernatoru Valeri Qayevski tədbirə birbaşa Prezident İlham Əliyevlə görüşdən gəldiklərini, Azərbaycanın dövlət başçısı tərəfindən səmimi və mehribanlıqla qəbul edilmələrinin onda və nümayəndə heyətinin digər üzvlərində son dərəcə xoş əhvali-ruhiyyə doğurduğunu minnətdarlıq hissi ilə qeyd etmişdir. Bildirmişdir ki, Prezident İlham Əliyev iqtisadi və təbii potensialına dərindən bələd olduğu Stavropol vilayəti ilə Azərbaycan arasında bütün sahələrdə sıx əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinin vacibliyini xüsusi vurğulamışdır. 2009-cu ildə Stavropol vilayəti ilə Azərbaycan arasında ticarət dövriyyəsinin 123 milyon dollar təşkil etdiyini xatırladan qubernator bu göstəricini qat-qat yüksəltmək, xüsusilə kənd təsərrüfatı, qida və emal sənayesi, energetika, inşaat, sanatoriya-kurort və turizm xidmətləri, təhsil və digər sahələrdə qarşılıqlı investisiya yatırımı üçün əlverişli şəraitin olduğunu, biznes forumun bu işdə mühüm rol oynayacağını vurğulamışdır.

Azərbaycanın iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov ölkəmizdə yaradılmış əlverişli biznes mühitinin dövlətlərimiz arasında mövcud iqtisadi münasibətlərin daha da genişləndirilməsi üçün geniş imkanlar açdığını diqqətə çatdırmışdır. O, bugünkü tədbirin iş adamları arasında əlaqələrin genişlənməsində əhəmiyyətli rol oynayacağına əminliyini ifadə etmişdir.

Sonra Stavropol vilayətinin ticarət-iqtisadi potensialına həsr olunmuş film-təqdimat nümayiş etdirilmişdir.

Biznes forumda AZPROMO-nun prezidenti Adil Məmmədovun Azərbaycanın biznes imkanları və investisiya mühiti, Azərbaycan İnvestisiya Şirkəti icraçı direktorunun müavini Zaur Məmmədovun qurumun fəaliyyəti və həyata keçirdiyi layihələr barədə təqdimatları qonaqlar tərəfindən maraqla qarşılanmışdır.

Stavropol vilayətinin sənaye, energetika, rabitə və nəqliyyat, qida və emal sənayesi, ticarət, kənd təsərrüfatı sahələri üzrə nazirlik və komitələrinin rəhbərləri çıxış edərək, diyarda dinamik inkişaf edən Azərbaycan iqtisadiyyatına böyük marağın olduğunu vurğulamış, uyğun sahələrdə əlaqələrin inkişafının hər iki tərəf üçün faydalı olacağını nəzərə çarpdırmışlar.

Tədbir Azərbaycanın və Stavropol vilayətinin iş adamları arasında ikitərəfli görüşlərlə davam etdirilmişdir.

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ MİSİRİN MDB ÖLKƏLƏRİ İLƏ TEXNİKİ ƏMƏKDAŞLIQ FONDUNUN SƏDRİ SAMAH SETOHİ İLƏ GÖRÜŞMÜŞDÜR

Aprelin 27-də Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan Misir Ərəb Respublikasının MDB ölkələri ilə Texniki əməkdaşlıq fondunun sədri Samah Setohi ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. Nazir Əbülfəs Qarayev Azərbaycanda kitabxana, muzey, eləcə də digər sahələrdə çalışanların Misirdə müəyyən hazırlıq keçilməsi istiqamətində əməkdaşlıq qurulmasında maraqlı olduğunu bildirmişdir.

Qonaq Samah Setohi Azərbaycanla əməkdaşlığın daha yüksək səviyyədə həyata keçirilməsinin vacibliyini vurğulamışdır. Hər iki ölkə rəsmisi bu münasibətlərin gücləndirilməsi ilə bağlı lazımi tədbirlərin həyata keçirilməsinin zəruri olduğunu vurğulamışlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ MİLLİ ASSAMBLEYASININ ÜZVÜ SANQ DİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Koreya Respublikasının Milli Assambleyasının üzvü Sanq Dikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Koreyanın Milli Assambleyasının üzvü Sanq Dikin Azərbaycana səfərinin uğurlu keçəcəyinə və əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirmişdir. Azərbaycanın Koreya ilə bundan sonra da fəal iqtisadi əlaqələr qurmasında maraqlı olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən müxtəlif layihələrdə Koreya şirkətlərinin iştirakından məmnunluğunu ifadə etmişdir.

Koreyanın Milli Assambleyasının üzvü Sanq Dik Azərbaycanda son illər əldə edilən yüksək iqtisadi inkişafın ölkəsində maraqla izlənildiyini demişdir. Qonaq Koreya şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəal iştirak etmək niyyətində olduğunu qeyd etmiş və əməkdaşlığımızın gələcəkdə daha da inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏLCƏZAİRİN DİNİ İŞLƏR VƏ VƏQFLƏR NAZİRİ BUABDULLA QULAMULLANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Əlcəzairin dini işlər və vəqflər naziri Buabdulla Qulamullanı qəbul etmişdir.

Əlcəzairin dini işlər və vəqflər naziri Buabdulla Qulamulla Azərbaycana ilk dəfə səfər etdiyini, ölkəmizdə böyük inkişaf və tərəqqi proseslərinin onda yüksək təəssürat oyatdığını demişdir. Azərbaycan ilə yaxından tanış olmaq fürsəti yaratdığına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən qonaq dünya dini liderlərinin Bakı sammitinin əhəmiyyətini yüksək qiymətləndirmiş, sammitdə səslənən fikirlərin və ideyaların reallaşmasını arzulamışdır.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətləri genişləndirməyin vacibliyini vurğulamışdır. Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu bildirən Prezident İlham Əliyev müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etmişdir. Dünya dini liderlərinin Bakı sammitinə toxunan dövlətimizin başçısı sammitin yaxşı nəticələr verəcəyinə inamını ifadə etmişdir.

BAKIDA "AITF-2010" IX AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İŞƏ BAŞLAMIŞDIR

Aprelin 28-də Bakıda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində "AITF-2010" IX Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev sərginin açılış mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına məlumat verən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bildirdi ki, bu sərginin ölkəmizdə keçirilməsi artıq ənənə halı almışdır. Sərgi Mədəniyyət və Turizm Nazirliyi, Dünya Turizm Təşkilatı, Azərbaycan Turizm Assosiasiyası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rəsmi dəstəyi ilə keçirilir.

"Sərgini ziyarət et, dünyanı kəşf et!" devizi ilə keçirilən və üç gün davam edəcək sərgidə bu il 33 turizm istiqamətini əhatə etməklə, dünyanın 24 ölkəsindən 120-dən çox şirkət iştirak edir. Sərginin ərazisi ötən illə müqayisədə 20 faiz artırılmışdır. Bu il sərgidə 14 ölkə öz milli stendləri ilə çıxış edir. Bu ölkələr arasında sərginin Azərbaycan, Yunanıstan, Gürcüstan, Malayziya, Türkiyə, Özbəkistan və Çexiya kimi daimi iştirakçıları ilə yanaşı, bu ilin debütantları olan Misir, Hindistan, İtaliya, Mavriki adaları, Birləşmiş Ərəb Əmirlikləri və Rusiya da vardır.

Prezident İlham Əliyev əvvəlcə I Ümumrespublika daxili turizm sərgisi ilə tanış oldu. Bildirildi ki, burada ilk dəfə Azərbaycanın regional turizm sektoru geniş təqdim olunmuşdur və ölkəmizin turizm üzrə ixtisaslaşan bölgələrində yaradılmış şərait haqqında bütün məlumatlar öz əksini tapmışdır. Sərgidə ölkənin istirahət zonaları, sanatoriyaları və mehmanxanaları barədə ekspozisiyalar vardır. Ziyarətçilər hər bir regionun milli koloritini duya, Azərbaycanın zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış ola bilərlər.

Vurğulandı ki, Azərbaycanda turizmin inkişafı dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin cari il aprelin 6-da imzaladığı Sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" bu sahədə mühüm irəliləyişdir. Bu proqramda turizmi qeyri-neft sektorunun inkişaf etmiş aparıcı sahələrindən birinə çevirmək əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Təsadüfi deyildir ki, son illərdə Azərbaycanda turizmin ölkə iqtisa-

diyyatının mühüm hissəsinə çevrilməsi, bu sahədə kiçik və orta sahibkarlıq üçün möhkəm bazanın yaradılması regionların infrastruktur cəhətdən də inkişafını təmin edir. Digər tərəfdən, ölkəmizin malik olduğu təbii sərvətlər, tarixi abidələr Azərbaycana turist axınını şərtləndirən mühüm amillərdir. Ölkəmizdə turizmin inkişaf etdirilməsində bu sahədə dünyanın qabaqcıl ölkələrinin təcrübəsindən istifadə edilir. Turizmin təşkili ilə bağlı müxtəlif layihələrin icrası üçün əlverişli məkan olan Azərbaycanın malik olduğu imkanlar turizmin inkişafı üçün yaxşı şərait yaradır. Nadir təbii zənginliklərə malik olan ölkəmizdə yeni, müasir mehmanxanalar şəbəkəsinin yaradılması da Azərbaycana turist axınını sürətləndirir.

Prezident İlham Əliyev Bakı, Naxçıvan, Xaçmaz, Gəncə, Lənkəran, Lerik, Şəki, Şamaxı, Quba, Qarabağ, Qusar, Masallı, İsmayıllı, Qəbələ, Zaqatala, Qazax və Qax bölgələrinin turizm imkanlarının əks olunduğu pavilyonlarla yaxından tanış oldu, həmin ərazilərdə bu sahənin dinamik inkişafının göstərildiyi lövhələrə baxdı.

Sərgidə təmsil olunan xarici ölkə şirkətlərinin pavilyonları ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ötən illərdən fərqli olaraq bu il sərgidə iştirak edən ölkələrin və şirkətlərin sayı artmışdır. Bu da Bakıda hər il keçirilən Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisinin əhəmiyyətindən xəbər verir.

Prezident İlham Əliyev sərgidə geniş pavilyonla təmsil edilən Rusiyanın Stavropol vilayətinin turizm potensialı ilə tanış oldu. Ölkəmizdə səfərdə olan Stavropol vilayətinin qubernatoru Valeri Qayevski bildirdi ki, Stavropol diyarının stendi nadir sanatoriya müalicəsi metodikaları ilə məşhur olan Yessentuki, Jeleznovodsk, Kislovodsk, Mineralnıye Vodı, Pyatiqorsk kimi kurort şəhərlərinin ekspozisiyalarını bir araya gətirmişdir. Sərgidə ilk dəfə olaraq, Rusiyanın tur-operatorları Sankt-Peterburq şəhəri üzrə ekskursiya turlarını da təklif edirlər.

Sərgiyə Azərbaycan turistlərinə təkcə Qara dənizin kurortları deyil, həm də Truskaves və digər şəhərlərin müalicə kurortlarını təklif edən Ukrayna şirkətləri də fəal qatılmışdır.

Dövlətimizin başçısına məlumat verildi ki, bu il sərgidə Türkiyə ilk dəfə olaraq tərəfdaş ölkə qismində çıxış edir. Öz turizm imkanları ilə dünyada kifayət qədər məşhur olan Türkiyə şirkətlərinin beynəlxalq sərgidə fəal təmsil olunması onların Azərbaycanın turizm bazarına marağından irəli gəlir.

Qeyd edildi ki, sərginin ilk iki günü xüsusi olaraq turizm sektorunun peşəkarları üçün müxtəlif mövzularda seminarlar keçiriləcəkdir. Sərgidə iştirak edən mütəxəssislər müxtəlif istiqamətlər üzrə turizm biznesinin aparılması ilə bağlı təcrübələrini bölüşəcək, fikir mübadiləsi aparacaqlar.

Daha bir yenilik isə sərgi ərazisində quraşdırılmış informasiya köşkləridir. Ziyarətçilər bu köşklərdən istifadə etməklə sərgi, tədbirlərin təşkilatçıları, eləcə də tədbirlərin keçirildiyi yerlərlə bağlı faydalı məlumatlar əldə edə bilərlər. Bundan başqa, ilk dəfə ziyarətçilərə sərgini tərk etmədən Azərbaycan paytaxtı ilə tanışlıq imkanı yaradılmışdır.

"AITF-2010" IX Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ilə yanaşı, "Mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar" IV Qafqaz beynəlxalq sərgisi də keçirilir. Sərgidə mehmanxanalar, restoranlar və supermarketlər üçün

kompleks təchizat, ticarət köşkləri, mətbəx avadanlığı, qəlyanaltı sistemləri və s. nümayiş olunur.

"AITF-2010" IX Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisi ölkəmizin malik olduğu iqtisadi qüdrəti və turizm potensialını nümayiş etdirmək, bu sahədə əməkdaşlıq əlaqələri yaratmaq, o cümlədən xarici tərəfdaşlarla səmərəli əlaqələr qurmaq baxımından mühüm hadisədir.

Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu, iştirakçılara uğurlar arzuladı.

ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ İLƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ YOLLARINI MÜZAKİRƏ ETMİŞDİR

Aprelin 28-də Qazaxıstanın dövlət katibi-xarici işlər naziri Kanat Saudabayevin Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Edvard Nalbadyanla telefon danışığı olmuşdur.

Telefon danışığı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuş, problemin həlli yolları barədə fikir mübadiləsi aparmışdır. K.Saudabayev bildirmişdir ki, ATƏT-in indiki sədri kimi Qazaxıstan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlıdır və bu istiqamətdə səylərin artırılmasının tərəfdarıdır. O, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin tənzimlənmə prosesində şəxsən iştirakını istisna etməmişdir.

Bundan başqa, tərəflər iyulun 16-17-də ATƏT-ə üzv olan dövlətlərin Xarici İşlər Nazirləri Şurasının Almatıda keçiriləcək qeyri-rəsmi görüşünə hazırlıq və bu görüşdə müzakirə ediləcək məsələlər, həmçinin Astanada ATƏT-in sammitinin keçirilməsi ilə bağlı məsələləri də müzakirə etmişlər.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ RUSİYA FEDERASİYASI STAVROPOL VİLAYƏTİ HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Aprelin 28-də Nazirlər Kabinetində Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyası Stavropol vilayəti hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Sənədi Azərbaycan Baş nazirinin müavini Əli Həsənov və Stavropol vilayətinin qubernatoru Valeri Qayevski imzalamışlar.

Tədbirdə Azərbaycan və Rusiyanı birləşdirən tarixi əlaqələr diqqətə çatdırılmış, imzalanan sazişin mövcud əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə əminlik vurğulanmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA PARİSDƏ YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva aprelin 28-də Parisdə YUNESKO-nun əsas iqamətgahında bu qurumun yeni seçilmiş baş direktoru İrina Bokova ilə görüşmüşdür.

YUNESKO-nun baş direktoru İrina Bokova Mehriban xanım Əliyevanı səmimiyyətlə qarşılamışdır.

Görüşdə Mehriban Əliyeva İrina Bokovanı YUNESKO-nun baş direktoru vəzifəsinə seçilməsi münasibətilə təbrik etmiş və ona fəaliyyətində uğurlar arzulamışdır.

Baş direktor İrina Bokova xoşməramlı səfir Mehriban Əliyevaya təşəkkürünü bildirərək, YUNESKO-nun Azərbaycan ilə sıx əməkdaşlıq etdiyindən məmnunluğunu bildirmişdir. YUNESKO-nun xoşməramlı səfiri kimi Mehriban Əliyevanın fəaliyyətini yüksək qiymətləndirən İrina Bokova, Azərbaycanın birinci xanımı ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulamışdır. Baş direktor əmin olduğunu bildirmişdir ki, Mehriban xanımın səyləri sayəsində Azərbaycan ilə YUNESKO-nun əlaqələri daha da inkişaf edəcəkdir.

Bu yaxınlarda təhsil sahəsində bir neçə layihənin hazırlandığını diqqətə çatdıran YUNESKO-nun baş direktoru bu layihələrdə Mehriban Əliyevanın iştirak etməsini arzulamışdır. İrina Bokova qeyd etmişdir ki, YUNESKO orta təhsil sisteminin inkişafına böyük diqqət yetirir və bununla əlaqədar bir sıra tədbirlər həyata keçirmək niyyətindədir. Layihələrin əsas məqsədi bütün dünyada, xüsusən də Afrika ölkələrində qızların orta təhsil almasına nail olmaqdır. Layihələr ilə bağlı tədbirin YUNESKO-nun iqamətgahında keçirilməsi nəzərdə tutulmuşdur. İrina Bokova ölkəmizdə təhsil sahəsində bir çox mühüm layihənin reallaşmasında böyük xidmətləri olan Mehriban Əliyevanın bu tədbirdə iştirakını arzulayaraq, Azərbaycanın birinci xanımının həmin təşəbbüsə dəstək verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Mehriban Əliyeva İrina Bokovanın maraqlı təklifini qəbul edərək, bu layihələrə dəstək verəcəyini söyləmişdir.

YUNESKO-nun baş direktoru Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda keçirilən mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa dair beynəlxalq tədbirlərin əhəmiyyətini xüsusi qeyd edərək, xoşməramlı səfirə təşəkkürünü bildirmiş, belə təşəbbüslərin davam etdirilməsini arzulamışdır.

İrina Bokova YUNESKO ilə Azərbaycan arasında sıx əlaqələrin olduğunu bir daha vurğulamış, bu sahədə Prezident İlham Əliyevin fəaliyyətini xüsusi qeyd etmişdir. YUNESKO-nun baş direktoru demişdir ki, Azərbaycan dünyada sürətlə inkişaf edən ölkələrdən biridir.

Azərbaycan ilə YUNESKO arasında sıx əlaqələrin olduğunu qeyd edən Mehriban Əliyeva demişdir ki, ölkəmiz bundan sonra da istənilən sahədə, xüsusən də təhsil və mədəniyyət sahələrində YUNESKO-nun həyata keçirdiyi hər bir tədbirdə fəal iştirak etməyə hazırdır.

Mehriban Əliyeva YUNESKO-nun baş direktorunu Azərbaycana səfərə dəvət etmişdir. İrina Bokova dəvəti məmnunluqla qəbul edərək, yaxın vaxtlarda Azərbaycana səfər edəcəyini bildirmişdir.

KOREYA RESPUBLİKASININ ŞİRKƏTLƏRİ EKOLOJİ LAYİHƏLƏR, MAYE VƏ SIXILMIŞ QAZ, NEFT-KİMYA SAHƏLƏRİNDƏ ARDNŞ İLƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIRLAR

Aprelin 28-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti, Milli Məclisin deputatı Rövnəq Abdullayev Koreya Respublikası Milli Assambleyasının üzvü Sanq Dikin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə R.Abdullayev ölkələrimiz arasında yüksək səviyyəli ikitərəfli münasibətlərdən, Koreya şirkətləri ilə ARDNŞ-in əməkdaşlıq təcrübəsindən danışmış və bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirmişdir.

Sanq Dik səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmaq şərəfinə layiq görüldüyünü vurğulamış, həmçinin, nazirlər və şirkət rəhbərləri ilə keçirdiyi səmərəli görüşlərin iki ölkə arasında yaranmış münasibətlərin gələcək inkişafına xidmət edəcəyini demişdir. Azərbaycanda genişmiqyaslı sosial-iqtisadi layihələrin həyata keçirildiyindən məmnunluq hissi ilə danışan qonaq bu işlərdə Koreya şirkətlərinin də yaxından iştirak etdiyini diqqətə çatdırmışdır.

Başçılıq etdiyi nümayəndə heyətinin üzvlərini R.Abdullayevə təqdim edən Sanq Dik görüşdə Koreya Qaz Korporasiyasının idarəedici vitse-prezidentinin iştirak etdiyini vurğulamış və bu şirkətlə ARDNŞ arasında geniş əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd etmişdir. O, Koreya şirkətlərinin kadrların hazırlanması, ekoloji layihələr, maye və sıxılmış qaz, habelə neft-kimya sahələrində ARDNŞ ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirmiş, hökumətin bunun üçün hər cür dəstək verməyə hazırlığını diqqətə çatdırmışdır.

Prezident İlham Əliyevin göstərişinə əsasən, ARDNŞ-də artıq bir neçə ildir ki, kadr hazırlığı proqramının həyata keçirildiyini nəzərə çarpdıran R.Abdullayev bu sahədə əldə olunmuş nailiyyətlər haqqında qonaqlara məlumat vermişdir. O, Azərbaycanın müasir texnologiyalarda maraqlı olduğunu da vurğulamış, bu sahə üzrə Koreya şirkətlərinin təcrübəsindən istifadə etməyin məqsədəuyğunluğunu söyləmişdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

TÜRKİYƏNİN YILDIZ TEXNİKİ UNİVERSİTETİ İLƏ BAKI DÖVLƏT UNİVERSİTETİ ARASINDA MÜQAVİLƏ İMZALANMIŞDIR

Aprelin 28-də Türkiyənin Yıldız Texniki Universitetinin rektoru, professor İsmayıl Yüksək, prorektor, professor Mehmet Ahlatçıoğlu Bakı Dövlət Universitetində (BDU) olmuş, universitetin rektoru Abel Məhərrəmovla görüşmüşlər.

Qonaqlar əvvəlcə universiteti gəzmiş, Heydər Əliyev muzeyi, müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, fənn kabinələri ilə tanış olmuşlar.

Daha sonra görüş "dəyirmi masa" arxasında davam etmişdir. Ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamını xatırladan Abel Məhərrəmov qardaş Türkiyə Respublikası ilə təhsil sahəsində əməkdaşlığın uğurlu nəticələri, gələcək perspektivləri haqqında danışmışdır.

Görüşdə təbiət elmləri sahəsində tələbə mübadiləsi məsələsi müzakirə edilmiş, BDU-nun kimya, fizika və biologiya fakültəsindən üç tələbənin Yıldız Texniki Universitetində, həmin universitetin üç tələbəsinin BDU-da təhsil alması haqqında razılıq əldə olunmuşdur.

Sonda rektorlar əməkdaşlığa dair müqavilə imzalamışlar.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İTALİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

İtaliyada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 29-da bu ölkənin xarici siyasət idarəsinin rəhbəri Franko Frattini ilə görüşmüşdür.

Görüşdə nazirlər ikitərəfli əməkdaşlığın səviyyəsindən məmnun olduqlarını bildirmiş, iqtisadi sahədə əlaqələrin inkişafının əhəmiyyətini vurğulamışlar.

F.Frattini ölkəsinin Azərbaycanın birinci ticarət tərəfdaşı olduğundan razılığını bildirərək, bunun gələcəkdə də davam edəcəyinə əmin olduğunu söyləmişdir.

Görüşdə regional təhlükəsizlik məsələlərinin müzakirəsi zamanı E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələri və danışıqlar prosesi barədə məlumat vermişdir. Nazir Azərbaycanın problemin həlli üçün yeniləşdirilmiş Madrid prinsiplərini qəbul etdiyini bildirmiş və bunun münaqişənin nizamlanması üçün uyğun əsas olduğunu vurğulamışdır.

E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsi həll olunmadan regionda sülhün və sabitliyin bərqərar olunmasının mümkünsüzlüyünü diqqətə çatdırmış, problemin həllinin regionda qarşılıqlı əməkdaşlığa, bölgənin çiçəklənməsinə şərait yaradacağını bildirmişdir.

F.Frattini azərbaycanlı həmkarı ilə razı olduğunu və ölkəsinin hazırkı danışıqlar prosesini dəstəklədiyini qeyd etmişdir.

Enerji təhlükəsizliyi də görüşdə əsas müzakirə mövzularından biri olmuşdur. Nazir F.Rattini Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu xüsusi vurğulamışdır.

E.Məmmədyarov həmkarına regionda cari və perspektiv enerji layihələri barədə məlumat vermişdir.

Bundan başqa, görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, xüsusilə də regional və Avropada təhlükəsizlik məsələləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

KOREYA RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ NƏQLİYYAT NAZİRLİYİNDƏ OLMUŞDUR

Aprelin 29-da Koreya Respublikası parlamentinin üzvü Sanq Dikin rəhbərlik etdiyi nümayəndə heyəti Nəqliyyat Nazirliyində olmuşdur.

Görüşdə nazir Ziya Məmmədov son illər respublikamızın sosial-iqtisadi inkişafı, ölkəmizin beynəlxalq əməkdaşlığının genişlənməsi, beynəlxalq aləmə inteqrasiyası istiqamətində əldə edilən irəliləyişlərdən söhbət açmışdır. Nazir demişdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində artıq ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyada lider dövlətlərdən birinə çevrilmişdir. Bu isə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən nəqliyyat-yol kompleksinin inkişafına müsbət təsir göstərir.

Tədbirdə Bakı şəhərində Nəqliyyatın İntellektual İdarəetmə Sisteminin yaradılması, avtomobil yollarının yenidən qurulması, o cümlədən Şamaxı-Quba yolu ilə bağlı perspektivlər, Bakı buxtasında görüləcək işlər, sürətli dəmir yolu xəttinin çəkilməsi və lokomotivlər alınması, Koreya Respublikasının şirkətləri ilə əlaqələrin genişləndirilməsi, avtobus parkının yeniləşdirilməsi, həmçinin kadr hazırlığı məsələləri ilə bağlı ətraflı müzakirələr aparılmışdır.

TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ TƏHSİL NAZİRLİYİNDƏ OLMUŞLAR

Ölkəmizdə səfərdə olan Türkiyənin Yıldız Texniki Universitetinin rektoru, professor İsmayıl Yüksək, Qazi Universitetinin rektoru, professor Rıza Ayxan, bu universitetlərin əməkdaşlarından ibarət nümayəndə heyəti aprelin 29-da Təhsil Nazirliyində olmuşlar.

Görüşdə çıxış edən təhsil naziri Misir Mərdanov bildirmişdir ki, Azərbaycan müstəqillik qazandıqdan sonra iki ölkə arasında dərinləşən münasibətlər, bütün sahələrdə olduğu kimi, təhsilimizə də sirayət etmişdir. Türkiyə Respublikasının ayırdığı təqaüdlər çərçivəsində ilk dəfə 1992-ci ildə azərbaycanlı tələbələr Yıldız Texniki Universitetinə və Qazi Universitetinə göndərilmişlər. Ötən illər ərzində onlarla gənc bu ali məktəblərdə təhsillərini müvəffəqiyyətlə başa vuraraq yüksək ixtisaslı kadrlar kimi vətənimizə qayıtmışlar.

Əlaqələrin uğurla davam etdiyini vurğulayan M.Mərdanov 2009/2010-cu tədris ilində Qazi Universitetində dövlət xətti ilə 40, Yıldız Texniki Universitetində isə 15 azərbaycanlı gəncin müxtəlif pillələrdə təhsil aldığını qeyd etmişdir.

Xaricdə təhsil alan 10 minə yaxın azərbaycanlı tələbənin çox hissəsinin Türkiyənin payına düşdüyünü bildirən nazir iki qardaş ölkənin təhsil proqramlarının bir-birinə uyğunlaşdırılmasının, təhsil prosesində rast gəlinən problemlərin aradan qaldırılmasının vacibliyini vurğulamışdır.

2011-ci ildə iki ölkə mütəxəssislərinin stomatologiya üzrə birgə simpoziumunun Bakıda keçiriləcəyi diqqətə çatdırılmışdır.

İsmayıl Yüksək və Rıza Ayxan səmimi görüş üçün təşəkkürlərini bildirmiş, Bakıda keçirilən görüşlərin faydalı olacağına əminliklərini ifadə etmişlər.

STAVROPOL VİLAYƏTİNİN QUBERNATORU BAKI SLAVYAN UNİVERSİTETİNDƏ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Rusiyanın Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 29-da Bakı Slavyan Universitetində (BSU) olmuşdur.

Qonaqlar əvvəlcə BSU-da fəaliyyət göstərən "Rusiya mədəniyyət mərkəzi" və muzeylə tanış olmuşlar.

Tədbirdə çıxış edən BSU-nun rektoru Kamal Abdullayev demişdir ki, bu görüş Stavropol vilayətinin təhsil müəssisələri ilə sıx əlaqələrin qurulmasına, ölkələrimiz arasında elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin genişləndirilməsinə xidmət edəcəkdir.

Rektor rəhbərlik etdiyi ali məktəbin tarixi, beynəlxalq əlaqələri barədə məlumat vermişdir. O demişdir ki, hər birimiz ümummilli lider Heydər Əliyevin müdrikliyi sayəsində yarım əsrdən çox vaxtda Azərbaycanda rus dili müəllimləri hazırlayan ali təhsil müəssisəsinin bazasında müasir, çoxixtisaslı, regionda yeganə slavistika mərkəzi olan universitet yaradılmasından qürur hissi duyuruq. Bu görüş ölkələrimiz və xalqlarımız arasında humanitar əməkdaşlıqda, elm və təhsil mərkəzləri arasında əlaqələrin inkişafında yeni imkanlar yaradacaqdır.

Qubernator Valeri Qayevski tələbə və müəllimləri salamlamış, Bakıda olduğu müddətdə burada qonaqpərvərliklə qarşılandığını vurğulamışdır. Qeyd etmişdir ki, Azərbaycan hökuməti ilə Stavropol vilayəti arasında bu günlərdə iqtisadiyyat, mədəniyyət və digər sahələri əhatə edən mühüm bir saziş imzalanmışdır. Sazişin əsas istiqaməti təhsil sahəsidir. Burada söhbət peşəyə yiyələnməkdən, elmin inkişafından gedir. Qubernator BSU-nu Qafqazda qabaqcıl universitetlərdən biri adlandırmışdır.

K.Abdullayev BSU-nun nəşr etdirdiyi "Azərbaycanda rus dili" ("Russkiy əzık v Azerbaydjane") kitabını qubernatora hədiyyə etmişdir.

Stavropol Dövlət Universitetinin rektoru, professor Vladimir Şapovalov rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Sonda BSU ilə Stavropol Dövlət Universiteti arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI TÜRKİYƏNİN APARICI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏCRÜBƏSİNİ ÖYRƏNİR

Azərbaycanın xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayevin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 26-dan 29-dək Türkiyədə səfərdə olmuşdur.

Türkiyənin aparıcı təhsil müəssisələrinin təcrübəsini öyrənmək məqsədi daşıyan səfərdə rektor H.Paşayevin ilk görüşü Orta Doğu Texniki Universitetinin rektoru, professor Əhməd Açar ilə olmuşdur.

H.Paşayevin rəhbərlik etdiyi nümayəndə heyəti universitetin beynəlxalq münasibətlər, sosial elmlər və xarici dillərin tədris üsulları ilə tanış olmuşdur.

Bundan əlavə, ADA-nın rektoru Bilkənt Universitetinin prezidenti, professor Əli Doğramacı və rektoru, professor Abdulla Atalar ilə görüşmüşdür. Azərbaycan nümayəndə heyəti Bilkənt Universitetinin dərs otaqları, laboratoriyaları, kitabxana, yataqxana və istirahət mərkəzlərində tələbələr üçün yaradılmış şəraitlə tanış olmuşdur.

Səfər çərçivəsində H.Paşayev Türkiyənin Xarici İşlər Nazirliyində olmuş, Turkiyə Diplomatik Akademiyasının rektoru, səfir Sina Baydur ilə müzakirələr aparmışdır.

H.Paşayev səfərin məqsədindən danışaraq bildirmişdir ki, Türkiyənin aparıcı universitetlərində keçirdiyimiz görüşlər və əldə etdiyimiz təcrübə Azərbaycan Diplomatik Akademiyasının fəaliyyətinə lazımi töhfəsini verəcəkdir. Biz inanırıq ki, böyük təcrübəsi, minlərlə uğurlu və bacarıqlı tələbəsi olan Orta Doğu Texniki Universiteti və Bilkənt Universiteti ilə əməkdaşlığımız Azərbaycanda beynəlxalq münasibətlərin və sosial elmlərin inkişafında xeyirli olacaq və Diplomatik Akademiyada tədrisin mükəmməlləşməsinə kömək edəcəkdir.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ BERLİNDƏ KEÇİRİLMİŞ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

Aprelin 28-dən 30-dək Berlində Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyi və Corc Marşall adına Təhlükəsizlik Tədqiqatları üzrə Avropa Mərkəzinin birgə təşkilatçılığı ilə "Avropa təhlükəsizlik dialoqu və silahlara nəzarət" mövzusunda konfrans keçirilmişdir.

Konfransda Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Nazir müavini tədbirdə "Avropa və Avroatlantik təhlükəsizliyin bölünməzliyi, fərdi və kollektiv özünümüdafiə hüququ" mövzusunda çıxış etmişdir.

Araz Əzimov səfər çərçivəsində habelə, AFR xarici işlər nazirinin müavini cənab Volf-Ruthart Born ilə görüşmüşdür. Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri və digər qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

ATƏT NÜMAYƏNDƏLƏRİ DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ OLMUŞLAR

Aprelin 30-da Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində ölkəmizdə qısamüddətli səfərdə olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) insan alverinə qarşı mübarizə üzrə baş müşaviri xanım Şivaun Skanlan və qurumun Bakı ofisi rəhbərinin müavini xanım Melissa L.Stonen ilə görüş keçirilmişdir.

Görüşdə qonaqlara xidmətin yaranması, fəaliyyəti, qarşıya qoyulan məqsədlər və qısa müddət ərzində görülmüş işlər, əldə olunmuş nəticələr barədə ətraflı məlumat verilmişdir. Qonaqlara miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində qanuni əsaslarla yaşamaları və əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurunun sadələşdirilməsi məqsədi ilə 2009-cu il iyulun 1-dən "Bir pəncərə" prinsipinin tətbiqi barədə məlumat verilmişdir. Beynəlxalq təcrübənin öyrənilməsinə böyük önəm verildiyi, bu məqsədlə xidmət əməkdaşlarının bir çox Avropa ölkələrinə ezam olunduğu qonaqların nəzərinə çatdırılmışdır.

Görüşdə, həmçinin Azərbaycan Prezidentinin 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)", onun həyata keçirilməsi ilə bağlı hazırlanmış tədbirlər planı barədə geniş məlumat verilmiş, insan alverinə qarşı mübarizədə Dövlət Miqrasiya Xidmətinin üzərinə düşən vəzifələrdən bəhs edilmişdir.

Melissa L.Stonen ətraflı məlumata görə təşəkkürünü bildirmiş, 3 il ərzində xidmət tərəfindən həyata keçirilən tədbirləri yüksək qiymətləndirmiş, ATƏT-in Bakı Ofisinin hər zaman əməkdaşlığa hazır olduğunu vurğulamışdır.

İşgüzarlıq və qarşılıqlı anlaşma şəraitində keçən görüşdə maraq doğuran bir sıra məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

BERLİNDƏ "CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR

Mayın 1-də Almaniyanın paytaxtı Berlin şəhərində Xarici Siyasət üzrə Alman Cəmiyyətinin (DGAP) və Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda yeni geosiyasi və iqtisadi əməkdaşlıq: Azərbaycandan baxış" adlı tədbir keçirilmişdir.

Azərbaycan tərəfindən tədbirin təşkilatçılarından olan Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Elxan Nuriyev və Milli Məclisin deputatı Asim Mollazadə əsas məruzəçi qismində iştirak etmişlər.

Tədbiri giriş nitqi ilə açan Azərbaycanın Almaniyadakı səfiri P.Şahbazov ölkələrimiz arasında ikitərəfli siyasi, iqtisadi, mədəni əlaqələr və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlarla bağlı son vəziyyət barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

E.Nuriyev məruzəsində Cənubi Qafqazda geosiyasi vəziyyət, Azərbaycanda uğurla həyata keçirilən balanslı xarici siyasət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda həllinin əhəmiyyəti, ölkəmizdəki tolerantlıq və s. barədə fikirlərini diqqətə çatdırmışdır.

Asim Mollazadənin məruzəsi isə əsasən Azərbaycan və Avropa, xüsusən də Avropa İttifaqı arasında əməkdaşlıq, Avropa dəyərlərinin ölkəmizdə tətbiq olunmasının vacibliyi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlardakı yenilikləri və s. əhatə etmişdir.

Azərbaycanlı qonaqlardan başqa tədbirdə Almaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya bölməsinin rəhbəri Yohannes Reqenbrext, Cənubi Qafqaz üzrə tanınmış mütəxəssis Uve Halbach və Deutsche Bankın Mərkəzi və Şərqi Avropa üzrə regional idarəetmə bölməsinin direktoru Daqmar Linder də məruzə ilə çıxış edərək, Cənubi Qafqazda geosiyasət və iqtisadi əməkdaşlıq mövzusunda öz fikirlərini bildirmişlər.

Tədbirin sonunda keçirilən müzakirələrdə məruzəçilər dinləyicilərin regionla bağlı suallarına cavab vermişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN DAXİLİ İŞLƏR NAZİRİ MUSTAFA MƏHƏMMƏD NƏCCARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də İran İslam Respublikasının daxili işlər naziri Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev İran İslam Respublikasının daxili işlər nazirinin Azərbaycana səfərinin uğurlu olacağına və bu səfərin ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərinə yeni təkan verəcəyinə əminliyini bildirdi. İran İslam Respublikası daxili işlər nazirinin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsini münasibətlərimizin yaxşı göstəricisi kimi qiymətləndirən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduğunu dedi.

İran İslam Respublikasının daxili işlər naziri Mustafa Məhəmməd Nəccar Prezident Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycana bundan əvvəlki səfərlərini məmnunluqla xatırlayan Mustafa Məhəmməd Nəccar başçılıq etdiyi nümayəndə heyətində onu İran İslam Respublikasının Azərbaycan ilə həmsərhəd olan 4 ostanının valilərinin müşayiət etməsini səfərə verilən önəmin təzahürü kimi dəyərləndirdi.

Dövlətimizin başçısı İran Prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

DAXİLİ İŞLƏR NAZİRİ İRANIN DAXİLİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov mayın 3-də İranın daxili işlər naziri Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir xalqlarımız arasında çoxəsrlik əlaqələrin olduğunu xatırlatmış, ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra təməli 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin İrana səfəri zamanı qoyulmuş möhkəm dostluq və qonşuluq münasibətlərinin iki dövlətin prezidentlərinin səyləri ilə daha da genişlənməkdə olduğunu bildirmişdir.

Ölkələrimiz arasında inteqrasiya proseslərinin nəticələri bütün sahələrdə - iqtisadiyyat, təhsil, mədəniyyət və digər sahələrdə özünü büruzə verməkdədir. Belə bir şəraitdə hüquq mühafizə orqanlarının, xüsusilə də ictimai təhlükəsizliyi təmin edən daxili işlər orqanlarının öhdəsinə böyük məsuliyyət düşür.

General-polkovnik R.Usubov belə görüşlərin transmilli mütəşəkkil cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə səylərimizin birləşdirilməsi üçün imkanlar yaratdığını qeyd edərək ümidvar olduğunu bildirmişdir ki, bu səfər ölkələrimiz arasında getdikcə möhkəmlənən əməkdaşlığın və inteqrasiya proseslərinin bundan sonra daha da genişlənməsinə xidmət edəcəkdir.

Nazir iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığı tənzimləyən müqavilələrin də mühüm əhəmiyyət kəsb etdiyini və bu sənədlərin gələcək əlaqələrin daha da genişlənməsinə və möhkəmlənməsinə şərait yaratdığını xatırlatmışdır.

Prezident İlham Əliyevin İrana müxtəlif vaxtlarda etdiyi rəsmi səfərlərin ikitərəfli əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə imkan verdiyini nəzərə çatdıran Ramil Usubov ölkələrimizin Daxili İşlər nazirlikləri səviyyəsində əməkdaşlığın genişləndirilməsində rəhbərlik etdiyi qurumun maraqlı olduğunu vurğulamışdır.

Daha sonra qonaqlara Azərbaycandakı mövcud ictimai-siyasi və kriminogen vəziyyət haqqında qısa məlumat verilmişdir. Respublikamızda dövlət müstəqilliyinin, demokratik prinsiplərin möhkəmləndirilməsi, bazar münasibətlərinin inkişafı, genişmiqyaslı iqtisadi islahatların həyata keçirilməsi, ictimai münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi sahəsində görülən işlər qeyd olunmuşdur. Vurğulanmışdır ki, hüquq mühafizə orqanları sıx qarşılıqlı əlaqədə mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə, ekstremizmə, separatizmə, silahların və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı kompleks tədbirlər həyata keçirir.

General-polkovnik Ramil Usubov nazirliklərimiz arasında əməkdaşlığın potensial imkanlarını yüksək qiymətləndirərək əmin olduğunu bildirmişdir ki, qarşılıqlı faydalı əlaqələr ölkələrimizin və xalqlarımızın mənafelərinə, beynəlxalq təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəkdir.

İranın daxili işlər naziri Mustafa Məhəmməd Nəccar səmimi qəbula və ətraflı məlumata görə Ramil Usubova təşəkkürünü bildirərək qeyd etmişdir ki, həqiqətən, belə səfərlər, görüşlər və imzalanmış sazişlərin yerinə yetirilməsi eyni dinə, oxşar mədəniyyətə və tarixi köklərə malik qardaş, dost ölkələrimizin mənafelərinə tam uyğundur və bütün sahələrdə, o cümlədən təhlükəsizlik, hərbi, iqtisadi münasibətlər və digər məsələlərdə əlaqələrin daha da inkişaf etdirilməsinə kömək göstərir.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilmiş, görüş protokolu imzalanmışdır.

MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ İRANIN DAXİLİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin ictimai əlaqələr mərkəzindən bildirmişlər ki, mayın 4-də milli təhlükəsizlik naziri general-leytenant Eldar Mahmudov ölkəmizdə səfərdə olan İranın daxili işlər naziri Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir Eldar Mahmudov ölkələrimiz arasında mehriban qonşuluq və dostluq münasibətlərinin daha da möhkəmləndirilməsinin, bütün sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinin ümumi təhlükəsizliyin təmin olunması işinə, o cümlədən cinayətkarlıqla, onun təhlükəli forma və təzahürləri ilə mübarizəyə öz töhfəsini verəcəyini bildirmişdir.

General-leytenant Eldar Mahmudov regiondakı kriminogen şərait, ona təsir göstərən amillər, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun doğur-

duğu fəsadlar, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya və digər məsələlər, habelə bununla əlaqədar görülən adekvat tədbirlər barədə məlumat vermiş, bu sahələrdə hər iki ölkənin müvafiq strukturlarının əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

Səmimi qarşılandığına və dolğun məlumata görə təşəkkürünü bildirən Mustafa Məhəmməd Nəccar, Azərbaycana səfərindən xoş təəssürat aldığını qeyd etmişdir. Qonaq bu cür görüşlərin transmilli cinayətkarlıqla, o cümlədən beynəlxalq terrorçuluqla mübarizə işində və hər iki dövlətin hüquq mühafizə qurumları arasında əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyət daşıdığını söyləmişdir. Mustafa Məhəmməd Nəccar İran və Azərbaycan münasibətlərinin indiki səviyyəsindən məmnunluq hissi duyduğunu, ölkələrimiz arasındakı mehriban qonşuluq və dostluq əlaqələrinin bundan sonra inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Görüş səmimi və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

DAŞKƏNDDƏ ASİYA İNKİŞAF BANKI DİREKTORLAR ŞURASININ 43-CÜ İLLİK İCLASININ RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Mayın 4-də Daşkənddə "Özbəkistan" forumlar sarayında Asiya İnkişaf Bankı (AİB) direktorlar Şurasının 43-cü illik iclasının rəsmi açılış mərasimi keçirilmişdir.

İclasda Azərbaycanın maliyyə naziri Samir Şərifovun rəhbərliyi ilə nümayəndə heyəti də iştirak etmişdir.

Dünyanın 90-dan artıq ölkəsindən gəlmiş 3 mindən artıq hökumət nümayəndələrinin, ekspertlərin, maliyyəçilərin qatıldığı tədbirdə Özbəkistan Prezidenti İslam Kərimov çıxış edərək müstəqillik əldə edildikdən sonra iqtisadiyyatın beş əsas prinsip üzərində qurulduğunu bildirmiş, bunun isə böyük fayda gətirdiyini söyləmişdir. Dövlət başçısı 2009-2012-ci illər üçün nəzərdə tutulmuş Antiböhran Proqramının qəbul edilməsini mühüm addım hesab etmiş, məhz belə tədbirlər nəticəsində Özbəkistanın böhrandan az zərərlə çıxdığını bildirmişdir.

Asiya İnkişaf Bankının prezidenti Xaruxiko Kuroda Özbəkistanla bank arasında həyata keçirilən layihələr haqqında məlumat vermiş, avtomobil, dəmir yolu şəbəkəsinin genişləndirilməsi, Kaşkadərya və Nəvai vilayətlərindəki layihələrdən danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS BAŞ NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-BELARUS HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ KOMİSSİYANIN HƏMSƏDRİ ANDREY KOBYOKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokovu qəbul etmişdir.

Dövlətimizin başçısı Bakıda açılan ikinci Belarus milli sərgisinin ölkəmizdə böyük maraqla qarşılandığını vurğulayaraq bu sərginin keçirilməsinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirmişdir. Belarus Respublikasına səfərlərini xatırlayan Prezident İlham Əliyev həmin səfərlər zamanı bu ölkənin iqtisadi imkanları ilə yaxından maraqlandığını vurğulayaraq iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu demişdir. Dövlətimizin başçısı iki ölkə arasında həyata keçirilən birgə layihələrin əhəmiyyətini də qeyd etmişdir.

Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokov Azərbaycan ilə Belarus arasında iqtisadi əlaqələrin genişləndirilməsi ilə bağlı hər iki dövlətin başçısının qarşıya qoyduğu vəzifələrin həlli üçün hökumətin səylə çalışdığını demişdir. Ölkələrimiz arasında ticarət-mal dövriyyəsinin həcminin 4 dəfə yüksəldiyini qeyd edən qonaq bunun yaxın gələcəkdə daha da artacağına ümidvar olduğunu söyləmişdir.

İkinci Belarus milli sərgisinin əhəmiyyətinə toxunan Andrey Kobyokov burada ölkəsinin 150 müəssisəsinin iştirak etdiyini bildirərək sərginin keçirilməsinin iqtisadi sahədə əməkdaşlığımızın perspektivlərinin müəyyənləşdirilməsi baxımından səmərəli olacağına əminliyini ifadə etmişdir.

BAKIDA İKİNCİ BELARUS MİLLİ SƏRGİSİ KEÇİRİLİR

Mayın 5-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində ikinci Belarus milli sərgisi açılmışdır.

Açılış mərasimində Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokov son illər dövlətlərimizin başçılarının müntəzəm görüşlərinin ölkələrimiz arasında ticarət və iqtisadi sahələrdə əməkdaşlığın inkişafına böyük təkan verdiyini vurğulamışdır. Bildirmişdir ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi son zamanlar 4 dəfə artaraq 130 milyon ABŞ dolları təşkil etmişdir, lakin bu göstəricinin daha yüksək olması üçün böyük potensial vardır. Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun tapşırıqlarına əsasən əmtəə dövriyyəsi yaxın zamanlarda 500 milyon dollara, gələcəkdə isə 1 milyard dollara çatdırılmalıdır. Bu, ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələsi olacaqdır.

Hazırda Bakıda açılan ikinci Belarus milli sərgisi də əlaqələrimizin daha da möhkəmləndirilməsinə xidmət edəcək tədbir olmalıdır. Belarus istehsalçıları sərgiyə öz potensiallarını nümayiş etdirmək imkanı kimi baxırlar. Sərgidə Azərbaycan istehlakçıları keyfiyyətli Belarus mallarının geniş çeşidi ilə tanış olacaqlar. Bu mallar arasında kənd təsərrüfatı, yüngül sənaye məhsulları, avtomobil, məişət, yük və yol-tikinti texnikası, tikinti materialları, son vaxtlar böyük sürətlə inkişaf edən nanotexnologiyalar və s. nümayiş etdirilir. Məqsədimiz Belarus elminin və sənayesinin nailiyyətlərini nümayiş etdirmək, yeni tərəfdaşlar tapmaq, ölkələrimiz arasında ticarət-iqtisadi əlaqələri möhkəmləndirməkdir. Sərgidə, həmçinin ölkənin ali təhsil müəssisələri də geniş təmsil olunmuşlar. Biz azərbaycanlı gəncləri Belarusda yüksəkkeyfiyyətli təhsil almağa dəvət edirik. Ümid edirik ki, sərgi çərçivəsində iş adamlarımız çoxlu tərəfdaşlıq münasibətləri quracaq, müqavilələr imzalayacaqlar.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov ümummilli li-

der Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü ərəfəsində Bakıda belə mötəbər sərginin keçirilməsindən məmnunluğunu bildirmiş, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafından danışmışdır. Dünyanı bürümüş qlobal maliyyə və iqtisadi böhrana baxmayaraq, Azərbaycanın son illər qazandığı nailiyyətlər diqqətə çatdırılmışdır. Təsadüfi deyildir ki, makroiqtisadi sabitlik, dövlət idarəetmə institutlarının və infrastrukturun səviyyəsi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının mükəmməllik səviyyəsi və s. mühüm meyarlar əsasında hesablanan "Qlobal rəqabətlilik hesabatı"nda Azərbaycan 133 ölkə arasında 18 pillə irəliləyərək 51-ci yerə yüksəlmişdir. Azərbaycan son illər ümumi daxili məhsulun artım tempinə görə nəinki MDB məkanında, ümumiyyətlə dünyada lider ölkələrdən biridir.

Vurğulanmışdır ki, Azərbaycan rəhbərliyinin ən çox diqqət yetirdiyi məsələlərdən biri də xarici və yerli iş adamları üçün əlverişli fəaliyyət şəraitinin yaradılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasıdır. Belarus iş adamlarına Azərbaycanda fəaliyyət göstərmələri üçün hər cür əlverişli şəraitin yaradılacağına əminlik nəzərə çarpdırılmışdır.

Sonra açılışı bildirən rəmzi lent kəsildikdən sonra Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Belarusun Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokov və digər qonaqlar sərgi ilə tanış olmuşlar.

Sərgidə Belarusun 150-dək aparıcı müəssisəsinin məhsulları nümayiş etdirilir.

Heydər Əliyev adına İdman-Konsert Kompleksinin qarşısındakı açıq meydançada "Minsk təkərli yedəklər zavodu", "BelAZ", "Minsk traktor zavodu" istehsalat birliklərinin, eləcə də Gəncə avtomobil zavodunun Minsk traktor və avtomobil zavodları ilə birgə istehsal etdiyi texnika diqqəti xüsusilə cəlb etmişdir.

Sərgi çərçivəsində, həmçinin seminarların, "dəyirmi masa"ların, biznes tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

MİLLİ MƏCLİSİN SƏDRİ İTALİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

İtaliya Azərbaycana maraq göstərir, ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşır və haqq işini dəstəkləyir.

Bu fikir Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə Azərbaycan parlament nümayəndə heyətinin mayın 3-dən 5-dək İtaliyaya rəsmi səfəri zamanı vurğulanmışdır.

Səfər İtaliya Deputatlar Palatası sədrinin rəsmi dəvəti əsasında həyata keçirilmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşdə İtaliya Deputatlar Palatasının sədri Cianfranko Fini demişdir: "Azərbaycan ikiqat haqsızlıqla üz-üzə qalmışdır. Həm torpaqları işğal olunmuş, həm də beynəlxalq birlik problemin ədalətli həllinə dəstək vermir".

"Bu fikir bizim üçün çox dəyərlidir və bunu dünyanın çox nüfuzlu ölkələrindən birinin rəsmisinin beynəlxalq aləmə mesajı kimi də dəyərləndirmək olar", - deyən Milli Məclisin sədri, İtaliya senatının bu ilin fevralında Cənubi Qafqazda vəziyyətlə bağlı qəbul etdiyi qətnaməyə görə İtaliya tərəfinə minnətdarlığını bildirmişdir. Qətnamədə Dağlıq

Qarabağ münaqişəsinin həllində, ümumiyyətlə Cənubi Qafqazda sülhün bərqərar olmasında ölkələrin ərazi bütövlüyü prinsipinə böyük önəm verildiyi öz əksini tapmışdır.

Görüşdə siyasi, iqtisadi, mədəni, humanitar və parlamentlərarası münasibətlərə dair fikir mübadiləsi aparılmışdır.

İtaliya Senatı Sədrinin müavini Vannino Kiti ilə görüşdə də o, ölkəsinin Azərbaycana olan marağından danışaraq ərazi bütövlüyümüzə hörmətlə yanaşdıqlarını və ölkəmizin haqq işini dəstəklədiklərini bildirmişdir. Danışıqlarda qeyd olunmuşdur ki, ölkələrimiz arasında qarşılıqlı səmimi münasibətlər mövcuddur ki, bu da anlaşmaya, dostluğa və əlaqələrin hərtərəfli inkişafına zəmin yaradır.

Milli Məclisin nümayəndə heyəti İtaliya Senatının Avropa İttifaqı Siyasəti Daimi Komissiyasının sədri, İtaliya-Azərbaycan Dostluq qrupunun rəhbəri xanım Rossana Boldi ilə də görüşmüşdür. İtaliyada xanım Rossana Boldinin şəxsində Azərbaycanın dostları ilə görüşməyindən məmnun olduğunu bildirən Milli Məclisin sədri Oqtay Əsədov bu səfərin parlamentlərarası əlaqələrimizin bundan sonra daha da dərinləşməsinə xidmət edəcəyini demişdir. O, Azərbaycan tərəfinin İtaliya ilə həm ikitərəfli, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində mövcud olan əlaqələri daha da dərinləşdirməkdə maraqlı olduğunu və bunun vacibliyini vurğulamışdır. Bildirilmişdir ki, dostluq qruplarının fəaliyyəti bir daha onu göstərir ki, dövlətlərarası münasibətlərimizin inkişaf etdirilməsində hər iki tərəfdə ciddi siyasi iradə vardır.

DAŞKƏNDDƏ KEÇİRİLƏN AİB DİREKTORLAR ŞURASININ 43-CÜ İLLİK İCLASI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANIN MALİYYƏ NAZİRİ BANKIN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 5-də Daşkənddə keçirilən Asiya İnkişaf Bankı (AİB) direktorlar Şurasının 43-cü illik iclası çərçivəsində Azərbaycanın maliyyə naziri Samir Şərifov AİB-in prezidenti Xaruxiko Kuroda ilə görüşmüşdür.

Görüşdə Azərbaycanla AİB arasında əməkdaşlığın perspektivləri haqqında geniş fikir mübadiləsi aparılmış, dünya maliyyə-iqtisadi böhranından sonrakı dövrdə ölkəmizin yüksək iqtisadi inkişafı, dövlətimizin başçısının və hökumətin böhrana çevik münasibəti, ölkəmizdə makroiqtisadi vəziyyət və digər məsələlər müzakirə edilmişdir.

Danışıqlar zamanı AİB-in Azərbaycana ayırdığı maliyyə vəsaitlərindən su təchizatının yaxşılaşdırılması, kanalizasiya və yol tikintisi sahələrinin inkişaf etdirilməsi, yüksək gərginlikli elektrik xətlərinin, yarımstansiyaların tikintisi, enerji təchizatı sistemlərinin yenidən qurulması ilə bağlı layihələrin həyata keçirilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı razılıq əldə edilmişdir.

Qeyd edilmişdir ki, bank su təchizatı sahəsinə 600 milyon, energetikanın inkişafına isə 300 milyon dollar vəsait ayırmışdır. "Cənub" Elektrik Stansiyasının maliyyələşdirilməsi üçün də müvafiq işlər görülmüşdür və iyunda müvafiq kredit sazişi imzalanacaqdır.

Görüşdən sonra Samir Şərifov bildirmişdir ki, biz AİB ilə əməkdaşlıq şəraitində işləyirik, bu əlaqələr bizi təmin edir və əminik ki, gələcəkdə münasibətlərimiz daha da inkişaf edəcəkdir.

TƏL-ƏVİVDƏ "ÖN ASİYA: KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ VƏ REGİONAL MÜNAQİŞƏLƏR" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİR

Mayın 5-də İsrailin Tel-Əviv şəhərində lÖn Asiya: kütləvi informasiya vasitələri və regional münaqişələr» mövzusunda beynəlxalq konfrans işə başlamışdır. Konfransda ABŞ, Almaniya, Gürcüstan, Ukrayna və Rusiyadan dövlət və hökumət rəsmiləri, politoloqlar, jurnalistlər və ictimai xadimlər iştirak edirlər.

Azərbaycanı bu tədbirdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun rəhbərliyi ilə geniş tərkibdə nümayəndə heyəti təmsil edir.

Konfransı Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının rəhbəri İosif Şaqal açmış, tədbirin əhəmiyyətindən danışmış, onun iştirakçı dövlətlərin mətbu orqanları arasında əlaqələrin inkişafında mühüm rol oynadığını bildirmişdir.

İsrailin Baş nazirinin dəftərxanası yanında əlaqələr üzrə büronun rəhbəri xanım Naomi Ben-Ami tədbirin əhəmiyyətindən danışmış, konfransın işinə uğurlar arzulamışdır.

Konfransda Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov çıxış edərək Azərbaycanda həyata keçirilən islahatlar, İsrail-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri, əlaqələrin dinamikasında dövlətlərimizin başçılarının rolu, Dağlıq Qarabağ münaqişəsi, İsraillə Azərbaycan arasında əlaqələrin genişlənməsində və möhkəmlənməsində diasporun rolu və digər məsələlər barədə ətraflı məlumat vermişdir.

Daha sonra çıxış edən Knessetin deputatı, "İsrail bizim evimizdir" Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Robert İlatov Azərbaycan və İsrail dövlətləri arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmiş, ölkəsinin Azərbaycan ilə əlaqələrin genişlənməsinə maraq göstərdiyini vurğulamışdır. R.İlatov regionda mövcud olan problemlərin həllində KİV-lərin rolunu qeyd etmiş, bu baxımdan konfransın mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə təşkil olunmuş tədbirin məqsədi dövlət rəsmilərinin, regiondakı prosesləri dərindən bilən politoloqların və mütəxəssislərin, habelə Azərbaycan, İsrail, ABŞ, Rusiyada fəaliyyət göstərən rusdilli kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə medianın münaqişələrin həllində roluna dair müzakirələr aparmaqdır. Konfransda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Yaxın Şərqdəki vəziyyət və digər münaqişələr müzakirə ediləcək, Azərbaycan və İsrail KİV-ləri arasında əməkdaşlığın müasir durumu və inkişaf perspektivləri, Azərbaycan və İsrail dövlətləri arasında münasibətlərin regionda sülhün və təhlükəsizliyin təmin olunmasında rolu, Azərbaycanda dini və etnik tolerantlıq, Azərbaycan və yəhudi xalqları arasında dostluq və tərəfdaşlığın inkişafının mühüm amili mövzularında və digər mövzularda məruzələr dinləniləcəkdir.

İSRAİL VƏ AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

İsraildə səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov mayın 5-də bu ölkənin Baş nazirinin dəftərxanası yanında əla-

qələr üzrə büronun rəhbəri xanım Naomi Ben-Ami ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İsrail arasında əlaqələrin hazırkı vəziyyəti, inkişaf perspektivləri, hər iki ölkənin KİV-ləri arasında münasibətlərin genişləndirilməsi və digər aktual məsələlər müzakirə olunmuşdur.

Söhbətdə İsraildə Azərbaycan haqqında daha geniş və dolğun məlumatların, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin İsrail ictimaiyyətinə çatdırılması üçün bu ölkənin KİV nümayəndələrinin Azərbaycana səfərinin təşkilinin əhəmiyyəti vurğulanmış, jurnalistlər arasında təcrübə və informasiya mübadiləsinin genişləndirilməsinin, qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti xüsusi qeyd edilmişdir. Bir sıra məsələlərdə beynəlxalq tədbirlərdə Azərbaycan və İsrail deputatlarının, diaspor təşkilatlarının eyni mövqedən çıxış etməsinin vacibliyi bildirilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

"İSRAİL BİZİM EVİMİZDİR" PARTİYASI QONDARMA "ERMƏNİ SOYQIRIMI" MƏSƏLƏSİNİN KNESSETDƏ MÜZAKİRƏ EDİLMƏSİNİN ƏLEYHİNƏDİR

İsraildə səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov mayın 6-da İsrail Knessetinin beynəlxalq münasibətlər üzrə komissiyasının sədri, "İsrail bizim evimizdir" Partiyasının parlament fraksiyasının başçısı Robert İlatovla görüşmüşdür.

Danışıqlar zamanı Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri, parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilmişdir. Tərəflər qeyd etmişlər ki, parlament üzvlərinin, jurnalistlərin qarşılıqlı səfərləri, habelə birgə konfranslar keçirilməsi ikitərəfli münasibətlərin genişlənməsində mühüm rol oynayır.

R.İlatov qondarma "erməni soyqırımı"nın İsrail Knessetində müzakirə edilməsi məsələsinə toxunaraq demişdir: "Knessetin parlament prosedurlarının həyata keçirilməsi üzrə komissiyası hazırda qondarma "erməni soyqırımı"nın tanınması məsələsinin dinlənilmək üçün parlamentin məhz hansı komissiyasına veriləcəyi məsələsini araşdırır. Çox güman ki, bu məsələ Knessetdə mənim başçılıq etdiyim xarici işlər üzrə altkomissiyanın qapalı müzakirəsinə veriləcəkdir.

Mən "İsrail bizim evimizdir" Partiyasının mövqeyini mətbuatda dəfələrlə açıqlamışam. Bu partiya tarixə yenidən baxılması istiqamətində hər hansı cəhdləri qətiyyətlə pisləyir. Knesset insan hüquqları üzrə beynəlxalq məhkəmə deyildir və onun bu məsələyə dair qərar çıxarmağa istər hüquqi, istərsə də mənəvi haqqı yoxdur. Buna görə də bizim birmənalı mövqeyimiz belədir ki, bu məsələ ümumiyyətlə müzakirədən çıxarılmalıdır.

AZƏRBAYCAN-İSRAİL ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA DİASPOR TƏŞKİLATLARI MÜHÜM ROL OYNAYIR

Azərbaycan-İsrail əlaqələrinin inkişafında diaspor təşkilatları mühüm rol oynayır. Bu fikir İsraildə səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi-

nin sədri Nazim İbrahimovun mayın 6-da İsrailin xarici işlər naziri Aviqdor Libermanla görüşündə səslənmişdir.

Nazim İbrahimov Azərbaycanın iqtisadi inkişafı, ölkəmizdə həyata keçirilən islahatlar, regionda və dünyada möhkəmlənən mövqeyi barədə ətraflı məlumat vermişdir. Dövlət Komitəsinin sədri bildirmişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasındakı dostluq münasibətləri yeni müstəviyə qədəm qoymuşdur. N.İbrahimov münasibətlərimizin yüksək səviyyəyə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etmiş, ulu öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir.

Aviqdor Liberman əlaqələrimizin inkişaf səviyyəsindən razılığını vurğulamış, münasibətlərimizin daha da genişlənməsində dövlət başçılarının rolunu xüsusi qeyd etmişdir. İsrailin xarici siyasət idarəsinin rəhbəri Azərbaycanın regionda və dünyada artan nüfuzunu yüksək qiymətləndirmişdir.

Söhbətdə ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

Dostluq münasibətlərinin inkişafında diaspor təşkilatlarının iştirakı ilə beynəlxalq tədbirlərin, "dəyirmi masa"ların, görüşlərin keçirilməsinin vacibliyi vurğulanmışdır.

İSRAİLİN HADERA ŞƏHƏRİNDƏ AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN XİYABANIN AÇILIŞI OLMUŞDUR

Mayın 6-də İsrailin Hadera şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan xiyabanın açılışı olmuşdur.

Açılış mərasimində çıxış edən Hadera şəhərinin meri Xaim Avinat demişdir ki, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev dünya tarixində ədalətli və insanpərvər dövlət başçısı kimi yaddaşlarda yaşayır. Heydər Əliyev Azərbaycanda olan millətlər arasında heç bir fərq qoymamışdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan dünyanın ən tolerant ölkəsi kimi tanınır. Haderada bu parkın yerləşdiyi küçəyə yəhudi dövlətinin əsasını qoymuş dahi insan Hertselin adı verilmişdir. Bu küçədə yəhudi xalqının yaxın dostu Heydər Əliyevin adını daşıyan parkın açılması bizim ürəyimizdədir. Biz dünya miqyaslı bir siyasi xadimin - Heydər Əliyevin adının Haderada əbədiləşdirilməsindən qürur duyuruq.

Xaim Avinat bildirmişdir ki, məhz bu küçədə Heydər Əliyev parkının yanında musiqi məktəbi açılacaq, kompleks yaradılacaqdır. Bu, həm də Azərbaycan ilə Hadera arasında dostluq körpüsünün təməlidir. Mer ulu öndər Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq etmiş, dostluq əlaqələrimizin bundan sonra da inkişaf edəcəyini bildirmişdir.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov mərasimdə çıxış etmişdir. N.İbrahimov ilk növbədə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı qərara görə Azərbaycan hökuməti adından xarici işlər naziri Aviqdor Libermana, Hadera şəhərinin meri Xaim

Avinata və bütün şəhər ictimaiyyətinə dərin minnətdarlığını ifadə etmiş və xiyabanın açılışının xalqlarımız arasındakı dostluq əlaqələrinin daha da möhkəmlənməsinə, həyatımızın bütün sahələrindəki əməkdaşlığın genişlənməsinə xidmət edəcəyinə əmin olduğunu bildirmişdir.

O demişdir ki, ulu öndər Heydər Əliyev ölkəmizdə tolerantlığın möhkəmlənməsində müstəsna xidmətlər göstərmişdir. Heydər Əliyevin diqqət və qayğısı sayəsində respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi dövlət tərəfindən daim qorunmuşdur. Məhz bu diqqət və qayğının təzahürü olaraq, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ibrani bölməsi açılmış, Azərbaycan Milli Elmlər Akademiyasının Etnoqrafiya İnstitutu isə Rusiyanın Yəhudi Mədəniyyətinin Qorunması və İnkişafı Fondu ilə birgə "Yəhudilər Azərbaycanda" kitabını hazırlamışdır.

Bu gün respublikada 7 yəhudi dini icması qeydiyyatdan keçmişdir. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın əməkdar həkimi Solomon Qusman, müharibə qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub saxlanılır.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildən sonra dövlət tərəfindən daha iki sinaqoq yəhudilərə qaytarılmışdır. Hazırda 3, Oğuz və Quba rayonlarının hərəsində isə 1 yəhudi sinaqoqu mövcuddur. 2003-cü ildə Bakı şəhərində açılmış sinaqoq hazırda Avropada yerləşən ən böyük sinaqoqdur.

Azərbaycanda yəhudi mədəniyyət mərkəzləri, dini icmalar, məktəblər fəaliyyət göstərir. 2003-cü ilin sentyabrında Bakıda ilk ümumtəhsil yəhudi məktəbi açılmışdır.

Ümummilli lider Heydər Əliyev yəhudi icmasının Azərbaycanın iqtisadi və sosial-mədəni inkişafındakı rolunu həmişə çox yüksək qiymətləndirmişdir.

Hadera şəhərinin mərkəzində Azərbaycan xalqının ümummilli liderinin adını daşıyan xiyabanın təməlqoyma mərasiminin keçirilməsi yəhudi xalqının böyük dövlət xadimi Heydər Əliyevin xatirəsinə dərin ehtiramının və Azərbaycana olan sevgisinin parlaq təzahürlərindən biridir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş tarixi ənənələri uğurla davam etdirməkdədir. Azərbaycan Prezidenti ölkəmizdə tolerantlığın qorunub saxlanılması, qarşılıqlı etimada əsaslanan vətəndaş həmrəyliyinin möhkəmləndirilməsinə istiqamətlənmiş siyasət yürüdür. Əminəm ki, bizim birgə, qarşılıqlı fəaliyyətimiz Azərbaycan və İsrail xalqları arasındakı əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

İsrail Knessetinin deputatı xanım Faina Kirşenbaum çıxışında demişdir ki, beynəlxalq aləmdə siyasi proseslərin gərgin olduğu bir vaxtda Azərbaycan-İsrail əlaqələrinin yaxınlaşması hamıya yaxşı nümunə olmalıdır. Bu gün Hadera şəhərində İsrail xalqının yaxın dostu, öz ədalətliliyi, prinsipiallığı və insanpərvərliyi ilə seçilmiş Heydər Əliyevin adının əbədiləşdirilməsi bizi daha da yaxınlaşdırır, dostluğumuzu daha da möhkəmləndirir. Biz Heydər Əliyev kimi tarixi şəxsiyyətin adının əbədiləşdirilməsindən qürur duyuruq.

Sonra xatirə lövhəsinin təməlqoyma mərasimi olmuşdur.

Tədbir Azərbaycan və İsrail mədəniyyət ustalarının konsert proqramı ilə başa çatmışdır.

İsraildə fəaliyyət göstərən Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının (Azİs) müraciəti əsasında Hadera şəhər bələdiyyəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında qərar qəbul etmişdir. Qərara əsasən, Hadera şəhərinin mərkəzində yerləşən Ahad ha-Am küçəsindəki xiyabanda ulu öndər Heydər Əliyevin xatirə lövhəsinin təməl daşı qoyulacaq və xiyaban Azərbaycanın milli liderinin adını daşıyacaqdır. Xiyabanda əsaslı yenidənqurma və abadlaşdırma işləri də aparılacaqdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bradke (ABŞ) mayın 6-da bəyanatla çıxış etmişlər.

Bəyanatda bildirilir ki, həmsədrlər mayın 5-də Vyanada Minsk qrupuna üzv olan ölkələrin təmsilçiləri üçün brifinq keçirmişlər. Brifinqdə danışıqların mövcud statusu barədə məlumat verilmiş və qrupa üzv ölkələrə həmsədrlərin səylərini dəstəklədiklərinə görə minnətdarlıq edilmişdir.

Eyni zamanda, münaqişə tərəflərinin Madrid prinsipləri və 2009-cu il iyulun 10-da Akvilldə "Səkkizlər"in sammitində həmsədr ölkələrin prezidentlərinin verdiyi birgə bəyanatda əksini tapmış prinsiplər əsasında irəliləyiş əldə etməyə hazır olduqları həmsədrlər tərəfindən vurğulanmışdır.

Yaxın günlərdə həmsədrlər Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə görüşərək, danışıqların davam etdirilməsi ilə bağlı müzakirələr aparacaqlar.

İSTANBULDA AVRASİYA DÖVLƏTLƏRİ XIII İQTİSADİ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR

Mayın 5-də İstanbul Konqres Mərkəzində dünyanın 40-dan çox ölkəsini təmsil edən nümayəndələrin iştirakı ilə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkil etdiyi Avrasiya Dövlətləri XIII İqtisadi Zirvə Toplantısı keçirilmişdir.

Əvvəlcə Avrasiya dövlətləri iqtisadi zirvə toplantılarının tarixindən bəhs edən film nümayiş olunmuşdur.

Sonra zirvə toplantısının gündəliyinə çıxarılmış məsələlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, builki toplantıda enerji, iqtisadiyyat və ekologiya problemləri müzakirə olunur.

Türkiyə Prezidenti Abdullah Gülün zirvə toplantısının iştirakçılarına təbriki oxunmuşdur.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin zirvə toplantısı iştirakçılarına təbrikini oxumuşdur.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver zirvə toplantısında iştirak edən ölkələrin dövlət və hökumət nümayəndələrini, o cümlədən Azərbaycan nümayəndə heyətini salamlamışdır. A.Suver vurğulamışdır ki, Avrasiya dövlət-

ləri iqtisadi forumlarında Azərbaycanın yeri həmişə xüsusi olmuşdur. Bu il də Azərbaycan bu tədbirdə geniş tərkibdə nümayəndə heyəti ilə təmsil olunmuşdur.

Albaniya Prezidenti Bamir Topi və Makedoniya Prezidenti Georgi İvanov qonaqlar adından çıxış etmişlər.

Sonra zirvə toplantısının enerji məsələlərinə həsr olunmuş "Cənubi Qafqaz, Orta Asiya və Yaxın Şərq marşrutları" mövzusunda iclasında çıxış edən Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Valeh Ələsgərov, sənaye və energetika naziri Natiq Əliyev, Türkiyənin enerji və təbii ehtiyatlar nazirinin müavini Dəmir Bilək, Nabukko layihəsi üzrə beynəlxalq konsorsiumun əlaqələndiricisi Reynhard Mitçek vurğulamışlar ki, uğurla həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri bu gün dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın karbohidrogen ehtiyatlarının əhəmiyyəti xüsusi qeyd edilmişdir. Natiqlərin çıxışlarında Azərbaycanın iqtisadi tərəqqisi, dərin maliyyə və iqtisadi böhran dövründə yüksək nəticələr əldə etməsi də xüsusi vurğulanmışdır.

Valeh Ələsgərov demişdir ki, enerji təhlükəsizliyində şəffaf tranzit yollarının və bazarlarının təmin olunması çox vacibdir. Dahi Heydər Əliyevin və Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəlin Bakı-Tbilisi-Ceyhan kimi nəhəng layihəni uğurla həyata keçirmələrinin səbəbi məhz şəffaf və vahid enerji sisteminin yaradılması idi. Azərbaycan bu prinsiplər əsasında əməkdaşlığa həmişə hazırdır.

Natiqlər Nabukko layihəsinin perspektivlərindən, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıqdan da ətraflı bəhs etmişlər.

Toplantıdan sonra zirvə görüşü çərçivəsində təşkil olunmuş konsertdə Azərbaycan incəsənət ustaları xalq mahnılarımızı və klassik musiqi nümunələrini ifa etmişlər.

Mayın 6-da İstanbul Konqres Mərkəzində dünyanın 40-dan çox ölkəsini təmsil edən nümayəndələrin iştirakı ilə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkil etdiyi Avrasiya Dövlətləri XIII İqtisadi Zirvə Toplantısı işini davam etdirmişdir.

Toplantıda çıxış edən Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov ölkəmizdə son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan quruculuq işlərindən, dünyada analoqu olmayan iqtisadi inkişaf göstəricilərindən danışmış, nazirliyin fəaliyyətindən bəhs etmişdir. O vurğulamışdır ki, yüksək texnika və avadanlığa, peşəkar kadrlara malik olan nazirliyin strukturları təkcə ölkəmizdə deyil, bütün bölgədə təbii fəlakətlərin və digər bədbəxt hadisələrin qarşısının alınmasında iştirak edəcək gücdədir.

Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl çıxışında dünyanı sarmış iqtisadi böhrandan yalnız daha az səhvə yol verən hökumətlərin minimum zərərlərlə çıxdığını demişdir. Onun sözlərinə görə, qloballaşan dünyada böhranlardan xilas olmaq üçün ən mühüm amil yüksək texnologiyalara əsaslanan istehsala malik olmaqdır. Yeni dünyada israfçılığa və savadsızlığa yer yoxdur. 2050-ci ildə 9,5 milyarda yüksələcək dünya əhalisini işlə, qida və təmiz su ilə təmin etmək üçün indidən tədbirlər görülməlidir.

Toplantıda çıxış edən Bolqarıstanın keçmiş prezidenti Jelyu Jelev, Estoniyanın sabiq dövlət başçısı Arnold Ryutel, Rumıniyanın keçmiş prezidenti İon İliyesku qloballaşan dünyada öz ölkələrinin sosial-iqtisadi vəziyyətindən bəhs etmişlər.

Mayın 7-də İstanbul Konqres Mərkəzində dünyanın 40-dan çox ölkəsini təmsil edən nümayəndələrin iştirakı ilə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkil etdiyi Avrasiya Dövlətləri XIII İqtisadi Zirvə Toplantısı başa çatmışdır.

Sonuncu günün ilk toplantısında İstanbuldakı müxtəlif dinlərin rəhbərləri - Türkiyə Diyanət İşləri İdarəsi sədrinin müavini İzzət Ər, yunan Ortodoks kilsəsinin patriarxı Bartolomeos, Vatikanın Ankaradakı səfiri Antonio Lusibello dinlərarası dialoqun zəruriliyini vurğulamış, dini etiqadların sülhə və sabitliyə xidmət etməsinin vacibliyindən bəhs etmişlər.

Sonra insan haqları və yoxsulluğun azaldılması mövzuları ətrafında çıxışlar olmuşdur. Milli Məclisin insan haqları komitəsinin sədri Rəbiyyət Aslanova ölkəmizdə insan haqlarının qorunması sahəsində əldə olunmuş uğurlardan bəhs etmişdir.

OMAN DİPLOMATİK İNSTİTUTUNUN BAŞ DİREKTORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞDUR

Mayın 8-də Oman Diplomatik İnstitutunun Baş direktoru Əhməd bin Səlim Baomar və birinci katibi İsa Saleh Əl Şeyba Azərbaycan Diplomatik Akademiyasında (ADA) olmuşlar. Xarici işlər nazirinin müavini rektor Hafiz Paşayev ilə görüşdə iki qurum arasında tədris sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Qonaqlar xarici işlər nazirinin müavini Xələf Xələfov, akademiyanın xarici siyasət proqramının direktoru Fariz İsmayılzadə, tələbə qəbulu departamentinin direktoru Janis Ostin, akademik və peşəkar ingilis dili proqramının direktoru Vəfa Kazdal və akademik işlər üzrə dekan müavini Anar Vəliyev ilə də görüşmüşlər.

Azərbaycana səfərinin nəticələrini yüksək qiymətləndirən Əhməd bin Səlim Baomar bildirmişdir ki, görüşlər hər iki tərəf üçün maraqlı olmuşdur. O demişdir: "Sizin xarici siyasət proqramının 6 aya qədər müddətə təşkil olunması və yüksək səviyyədə aparılması, həmçinin ADA-da ayrıca magistratura təhsilinin olması bizdə maraq oyatmışdır. Çünki Oman Diplomatik İnstitutunda kurslar daha qısadır və 3 ay davam edir. Azərbaycan tərəfi də bizim 19 illik təcrübəmizdən bəhrələnmişdir. Omanda biz xarici ölkəyə göndərilən diplomatların xanımları üçün ayrıca təlimlər keçiririk. Onlara Omanın tarixi, mədəniyyəti haqqında məlumat veririk ki, diplomatların yoldaşları ölkəni daha yaxşı təbliğ etsinlər. Bu işlərdə Azərbaycan Omanın təcrübəsindən nə isə öyrənə bilər".

TƏHSİL NAZİRİ NORVEÇİN XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ ŞÖBƏSİNİN DİREKTOR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 8-də Azərbaycanın təhsil naziri Misir Mərdanov Norveçin Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə şöbəsinin direktor müavini Bard Svendsen, bu ölkənin Azərbaycandakı səfiri Yon Ramberq ilə görüşmüşdür.

Görüşdə M.Mərdanov Azərbaycan ilə Norveç arasında təhsil əlaqələrinin inkişaf etdiyini bildirmişdir.

Yon Ramberq Azərbaycan və Norveç universitetlərinin birgə əməkdaşlığı məsələsinə toxunmuş, Azərbaycan Dillər Universiteti ilə Oslo Universiteti arasında həyata keçirilən layihənin əhəmiyyətini vurğulamışdır.

O, eyni zamanda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində azərbaycanlı tələbələrin Norveç universitetlərində təhsili, Beynəlxalq İqtisadiyyat Məktəbi (ISET) proqramının respublikamızda reallaşdırılması, Norveç Humanitar Elmlər Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasındakı əlaqələrin inkişafı məsələlərindən danışmışdır.

M.Mərdanov Azərbaycan Dillər Universiteti ilə Oslo Universiteti arasında reallaşdırılan layihəyə xüsusi önəm verdiyini söyləmiş, müzakirə olunan məsələlərin əhəmiyyətini diqqətə çatdırmışdır.

Görüşdə Azərbaycan Dillər Universitetinin rektoru, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin dəvəti ilə Böyük Vətən müharibəsində Qələbənin 65 illiyinə həsr olunmuş bayram tədbirlərində iştirak etmək üçün mayın 8-də Moskvaya işgüzar səfərlə gəlmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVADA BÖYÜK QƏLƏBƏNİN 65 İLLİYİNƏ HƏSR OLUNMUŞ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMİŞDİR

Prezident Dmitri Medvedevin dəvəti ilə Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1941-1945-ci illərin Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi münasibətilə mayın 9-da Moskvada keçirilən bayram tədbirlərində iştirak etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi Kremlin yanında Rusiya Prezidenti Dmitri Medvedev səmimiyyətlə qarşıladı.

Dövlətimizin başçısı Böyük Vətən müharibəsinin veteranları ilə görüşdü.

Yubiley şənliklərinin başlıca hadisəsi Qızıl meydanda keçirilən hərbi parad olmuşdur. Tribunalardakı fəxri qonaqlar arasında öz misilsiz şücaətləri ilə böyük Qələbəni qazanmış, dünyanı nasizm bəlasından qurtarmış İkinci Dünya müharibəsinin veteranları əyləşmişdilər.

Paradın başlanmasından əvvəl çıxış edən Prezident Dmitri Medvedev Böyük Vətən müharibəsi veteranlarını təbrik etdi. Rusiya Prezidenti dedi ki, 65 il bundan əvvəl nasizm darmadağın olundu. Bizim ölkədə və bütün Avropada sülh bərqərar edildi. Sivilizasiyaların əsaslarını dağıdan ideologiyaya son qoyuldu. Sovet İttifaqı faşistlərin əsas zərbəsini öz üzərinə götürmüşdü. Faşistlər öz qoşunlarının dörddəüç hissəsini Şərq cəbhəsinə yönəltmişdilər. Bizim ölkəni külə döndərmək istəyirdilər, amma misli görünməmiş müqavimət, qüvvə və rəşadətlə qarşılaşmışdılar.

Dmitri Medvedev bildirmişdir ki, veteranlar bizə həyat bəxş etdilər, onlar azadlığımızı qazandılar. Biz cəbhələrdə döyüşən əsgərləri, zavodlarda kişiləri əvəz etmiş qadınları, ağlasığmaz sınaqlardan keçmiş uşaqları heç vaxt unutmayacağıq. Onlar hamısı müharibə qəhrəmanlarıdır.

1945-ci ildə təkcə hərbi yox, həm də böyük mənəvi qələbə qazanıldı. Bu Qələbə uğrunda keçmiş SSRİ-nin bütün xalqları mübarizə aparmışlar.

İkinci Dünya müharibəsinin dərsləri bizi həmrəyliyə çağırır, - deyən Rusiya Prezidenti bildirdi ki, biz müasir təhlükələrə birlikdə müqavimət göstərə bilərik. Gələcək nəsillərin azad və xoşbəxt olması, ədalət və dostluq ideallarının dünyada zəfər çalması üçün qlobal təhlükəsizliyə təhdid olan problemləri yalnız mehriban qonşuluq siyasəti şəraitində həll etmək olar.

Sonra hərbi parad başlandı.

Möhtəşəm paradı tribunalardan 20-dən artıq ölkədən gəlmiş dövlət və hökumət başçıları, habelə beynəlxalq təşkilatların rəhbərləri, çoxsaylı müharibə veteranları izləyirdilər.

Qızıl meydandan 11 mindən çox hərbi qulluqçu keçdi. Meydana MDB və antihitler koalisiyası ölkələrinin hərbçiləri daxil oldu. Dəstənin önündə Azərbaycan hərbçiləri addımlayırdı. Mayor Elşad Rüstəmovun başçılığı ilə Azərbaycan sülhməramlı qüvvələrinin batalyonu Qızıl meydandan keçdi.

Tarixin ən qanlı müharibəsində Azərbaycan xalqının 600 mindən çox oğul və qızı iştirak etmişdir. Onların təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Qanlı-qadalı döyüşlərdə göstərdikləri igidliyə görə ölkəmizin 130-dək vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir.

Xalqımız arxa cəbhədə də misilsiz əmək hünərləri göstərmiş, ordunun ehtiyaclarını ödəmək üçün gecə-gündüz fədakarlıqla çalışmışdır. Böyük Qələbəyə neft Bakısının töhfəsi əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında çıxarılan neftin 70 faizini Azərbaycan verirdi. İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirilirdi. Əgər Azərbaycan nefti olmasaydı, sovet-alman cəbhəsində hərbi əməliyyatların nə ilə nəticələnəcəyini demək çətin olardı. Bütün bunlara görə İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətləri heç vaxt yaddaşlardan silinməyəcək, gənc nəslə əsl vətənpərvərlik nümunəsi olacaqdır.

Hərbi paradda Böyük Vətən müharibəsinin əfsanəvi T-34 tankı, ən müasir hücum və kəşfiyyat texnikası, zenit-raket kompleksləri, zirehli hərbi maşınlar, qırıcı, bombardmançı təyyarələr, vertolyotlar nümayiş olundu.

Yüksək pilotaj qrupları müharibədə iştirak etmiş dövlətlərin bayraqlarını və təyyarələrdən ibarət rəmzi "65" rəqəmini Moskva səmasında nümayiş etdirdilər.

Hərbi paraddan sonra dövlət və hökumət başçıları adından Kremlin divarı yanında, Aleksandr bağında Naməlum əsgərin məzarı önünə əklil və güllər qoyuldu.

Əsgərlər hərbi marş səsləri altında dövlət və hökumət başçılarının qarşısından keçdilər.

Ali qonaqlar Kremlin önündə xatirə şəkli çəkdirdilər.

Həmin gün Böyük Kreml sarayında Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin adından Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi münasibətilə təntənəli qəbul təşkil olundu.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇİN GÖRÜŞÜ

Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviçin mayın 9-da Moskvada görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın olduğu qeyd edildi. Azərbaycan ilə Xorvatiya arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, perspektivlərin müəyyənləşdirilməsinin zəruriliyi vurğulandı.

Həmçinin görüşdə humanitar sahədə əlaqələrimizin genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu. Azərbaycan ilə Xorvatiya arasında münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri mayın 9-da başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

Dövlətimizin başçısı Moskvada 9 May münasibətilə keçirilən hərbi paradın yüksək səviyyədə təşkil olunması ilə bağlı Rusiyanın müdafiə naziri Anatoli Serdyukovu təbrik etmişdir. Prezident İlham Əliyev bayram mərasimində Azərbaycan zabitlərinin iştirakını ölkələrimiz arasında dostluq münasibətlərinin rəmzi kimi qiymətləndirmişdir.

Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukov Moskvada keçirilən 9 May - Qələbə bayramının təşkili işinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlıq etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi bildirilmiş və bu səfərin hərbi əməkdaşlıq əlaqələrinin genişlənməsi baxımından əhəmiyyəti qeyd olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Amerika Birləşmiş Ştatlarının Los-Anceles dairəsinin şerifi Leroy Bakanı qəbul etmişdir.

Görüşdə Azərbaycanın Los-Anceles dairəsinin hüquq mühafizə orqanları ilə əməkdaşlığının perspektivlərinə dair məsələlər müzakirə olunmuşdur.

RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ-TEXNİKİ SAHƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycanda işgüzar səfərdə olan Rusiyanın müdafiə naziri Anatoli Serdyukov mayın 11-də müdafiə naziri, general-polkovnik Səfər Əbiyevlə görüşmüşdür.

Görüşdə Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, regionda mövcud hərbi-siyasi vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

S.Əbiyev bildirmişdir ki, ATƏT-in Minsk qrupunun münaqişənin nizamlanması istiqamətində səyləri nəticə vermir və bu sahədə fəallığı artırmaq lazımdır. Bütün səylər münaqişənin dinc yolla həll edilməsinə yönəlməlidir, əks təqdirdə, vəziyyət region üçün arzuolunmaz həddə çata bilər.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏ PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 11-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan İsveçrə-Azərbaycan dostluq qrupunun rəhbəri xanım Kristin Egerzegi-Obrist və digər deputatlar ilə görüşmüşdür.

Görüşdə E.Məmmədyarov qonaqların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regionda cərəyan edən proseslər, ölkəmizin enerji siyasəti, neftdən gələn gəlirlərin xərclənməsi, Azərbaycanda gedən iqtisadi inkişaf və digər məsələlərlə bağlı suallarını ətraflı cavablandırmışdır.

MİLLİ MƏCLİSİN SƏDRİ İSVEÇRƏ PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 11-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun sədri xanım Kristin Egerzegi-Obristin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Oqtay Əsədov Azərbaycan ilə İsveçrə arasında dostluq münasibətlərinin inkişaf etdiyini vurğulamış, əlaqələrimizin genişlənməsində dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd etmişdir. O demişdir ki, dövlət başçılarının, eləcə də parlament sədrlərinin qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar, əldə olunmuş razılaşmalar öz bəhrəsini verir. Ümid edirik ki, sizin bu səfəriniz də münasibətlərimizin inkişafına təkan verəcəkdir.

Milli Məclisin sədri İsveçrə parlamentində dostluq qrupunun yaradılmasını yüksək qiymətləndirmiş, bu qrupların təkcə parlamentlər deyil, xalqlarımız arasında da əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd etmişdir.

Ölkəmizin dinamik inkişafı, bölgədəki lider mövqeyi, regionda həyata keçirilən layihələrdəki iştirakı barədə məlumat verən O.Əsədov demişdir ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması bölgədə inkişafa ciddi maneə törədir. Dağlıq Qarabağ münaqişəsi həm regionun, həm də Avropanın təhlükəsizliyinə ciddi təhdiddir. Milli Məclisin sədri onu da qeyd etmişdir ki, Almaniya Bundestaqı və İtaliya parlamenti Cənubi Qafqazdakı vəziyyətə dair xüsusi sənədlər qəbul etmişlər və bu sənədlərdə Ermənistanın işğalçı dövlət olduğu təsdiqini tapmışdır. Hazırda İngiltərə parlamenti də belə bir sənəd hazırlayır. Biz münaqişənin həllində tutduğu mövqeyə və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə İsveçrə dövlətinə minnətdarıq. Çox istərdik ki, İsveçrə parlamenti də belə bir sənəd hazırlayaraq qəbul etsin.

Xanım Kristin Egerzegi-Obrist onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir. O demişdir ki, Azərbaycana üçüncü dəfədir ki, gəlirəm və hər gəlişimdə yüksək inkişafın şahidi oluram. Bu cür inkişaf edən Azərbaycan özünə güclü dost axtaran İsveçrə üçün çox vacibdir. İsveçrəli iş adamları Azərbaycanın dinamik inkişafını, təbii ehtiyatlarını yüksək qiymətləndirirlər və ölkəmizə sərmayə qoymaqda maraqlıdırlar. O demişdir ki, İsveçrə Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından narahatdır. Bu münaqişə həqiqətən də təkcə region üçün deyil, Avropanın özü üçün də ciddi təhlükə mənbəyidir. Odur ki, problem tezliklə öz ədalətli həllini tapmalıdır. Kristin Egerzegi-Obrist münaqişələrin həllində parlamentlərin də mühüm rol oynadıqlarını bildirmiş və bununla əlaqədar parlamentarilərimizin beynəlxalq təşkilatlarda əməkdaşlığının vacibliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

İSVEÇRƏLİ İŞ ADAMLARI AZƏRBAYCANIN ETİBARLI TƏRƏFDAŞ KİMİ TRANSADRİATİK QAZ BORU KƏMƏRİ LAYİHƏSİNDƏ İŞTİRAK ETMƏSİNDƏ MARAQLIDIRLAR

Mayın 11-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) baş ofisində respublikamızda səfərdə olan İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun üzvləri və bu ölkənin energetika sahəsində çalışan özəl şirkətlərin təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüş olmuşdur.

Qurumun prezidenti Rövnəq Abdullayev Azərbaycanla İsveçrə arasında ikitərəfli əlaqələrin inkişaf etdiyini, bu əlaqələrin genişlənməsində ARDNŞ-in Cenevrədə fəaliyyət göstərən "SOCAR Trading" şirkətinin rolunu qeyd etmişdir. Son illər Azərbaycanda energetika sahəsində həyata keçirilən qlobal və regional əhəmiyyətli layihələrdən söz açılmış, qazanılan uğurlar haqqında qonaqlara ətraflı məlumat verilmişdir. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın əhəmiyyətli ölkəyə çevrildiyi nəzərə çarpdırılmış, bu baxımdan qısa müddətdə yaradılmış etibarlı ixrac neft və qaz kəmərləri sisteminin rolu qeyd edilmişdir.

Azərbaycan neftinin ixrac coğrafiyasından danışan R.Abdullayev 2008-ci ildən başlaya-

raq "AzeriLight" markalı xam neftin İsveçrəyə ixrac olunduğunu vurğulamışdır. Hazırda Azərbaycandan 4 ölkəyə - Gürcüstan, Türkiyə, Rusiya və İrana təbii qaz nəql olunur, tezliklə "Şahdəniz" layihəsinin işlənilməsinin 2-ci fazası və digər layihələr çərçivəsində hasil olunan təbii qaz həcmləri də artacaqdır. Avropa bazarı bu həcmlərin satışı üçün əlverişlidir və hazırda ARDNŞ mütəxəssisləri tərəfindən həmin bazarın ayrı-ayrı seqmentləri diqqətlə araşdırılır.

İsveçrənin nazir müavini, enerji üzrə Federal Ofisin direktoru Volter Steynman bildirmişdir ki, heyətin tərkibində parlament üzvləri ilə yanaşı, enerji və elm sahələrini təmsil edən nümayəndələr də vardır. Görüşdə iştirak edən İsveçrə iş adamları "SOCAR Trading" şirkətinin qısa müddətdə bu ölkədə qazandığı uğurları yüksək qiymətləndirmişlər. Qonaqlar Transadriatik qaz boru kəməri layihəsinin perspektivlərindən bəhs etmiş və Azərbaycanın etibarlı tərəfdaş kimi bu layihədə iştirak etməsində maraqlı olduqlarını söyləmişlər.

R.Abdullayev şirkətin fəaliyyətinə verilən yüksək qiymətə görə təşəkkürünü bildirmiş, Transadriatik qaz boru kəməri layihəsinin uğur qazanacağına inandığını söyləmişdir. Bildirmişdir ki, Azərbaycan təbii qazın şaxələndirilmiş marşrutlarla nəqlinə tərəfdardır və qaz ixracında başlıca prinsip olaraq son nöqtəyədək qiymətin yüksək olmasını əsas götürür.

AZƏRBAYCAN İLƏ FİNLANDİYA ARASINDA GÖMRÜK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ YÜKSƏLƏN XƏTLƏ İNKİŞAF EDİR

Mayın 10-11-də DGK-nın sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Finlandiya Milli Gömrük İdarəsinin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşdur.

Səfərin ilk günündə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevlə Finlandiya Milli Gömrük İdarəsinin baş direktoru Tapani Erlinq arasında görüş keçirilmişdir.

Geniştərkibli görüşdə iki ölkənin gömrük orqanları arasında əməkdaşlığın gələcək perspektivləri müzakirə edilmişdir.

Tapani Erlinq ölkəsinin gömrük sisteminin bugünkü inkişaf istiqamətləri barədə ətraflı məlumat vermişdir.

Aydın Əliyev öz növbəsində müstəqil Azərbaycanın gömrük xidmətinin keçdiyi inkişaf yoluna qısa nəzər salmış, ölkəmizin büdcə gəlirlərinin formalaşmasında və iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, informasiya texnologiyalarının tətbiqi, qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açmışdır. Xüsusilə xalqımızın ümummilli lideri Heydər Əliyevin diqqət və qayğısı sayəsində gömrük sistemində sürətli inkişaf strategiyasının əsasının qoyulduğunu bildirən DGK sədri hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında bu istiqamətdə işlərin daha da intensivləşdirildiyini, ümumiyyətlə, respublikamızda bütün sahələr üzrə inkişafın davamlılığının təmin olunmasına xüsusi önəm verildiyini diqqətə çatdırmışdır.

Tapani Erlinq Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlamış, bu əlamətdar görüşün onda xoş təəssüratlar yaratdığını azərbaycanlı həmkarının

diqqətinə çatdırmışdır.

Aydın Əliyev, eyni zamanda, Dünya Gömrük Təşkilatının Bakı şəhərində yerləşən Regional Tədris Mərkəzinin, eləcə də Kinoloji Mərkəzin üstün imkanlarından danışmış, respublikamızın paytaxtında inşa edilən potensialın gücləndirilməsi üzrə regional ofisin hazırkı vəziyyəti barədə həmkarına məlumat vermişdir.

Azərbaycanın qonşu ölkələrin gömrük xidmətləri ilə münasibətlərindən də söz açan A.Əliyev Türkiyə, Rusiya, İran və Gürcüstanın aidiyyəti qurumları ilə əlaqələrin yüksək səviyyədə olduğunu, yalnız Azərbaycanın 20 faiz torpaqlarını işğal edən Ermənistanla əməkdaşlığın mümkünsüzlüyünü diqqətə çatdırmışdır. Gömrük Xidmətinin rəhbəri belə bir məqama da toxunmuşdur ki, bu gün Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində nəzarətsiz zona yaranmışdır. Məhz bu zonadan narkotik vasitələrin qeyri-qanuni tranzit, qaçaqmalçılıq, mədəni-tarixi sərvətlərin daşınması həyata keçirilir.

Görüşdə, həmçinin Dünya Gömrük Təşkilatında gələn ay keçiriləcək seçkilərlə bağlı məsələlər də müzakirə mövzusu olmuş, Finlandiya tərəfi Avropa regionu üzrə potensialın gücləndirilməsi direktoru vəzifəsinə Macarıstan Gömrük Xidmətinin rəhbəri Yanoş Naqinin namizədliyini dəstəkləməyi Azərbaycan tərəfindən xahiş etmişdir.

Sonra Azərbaycan nümayəndə heyəti Finlandiyanın yerli gömrük orqanları ilə tanış olmuşdur. İlk olaraq Helsinki şəhərində yerləşən Cənub regional gömrük idarəsinin "Nyu Vuosari Xarbur" dəniz gömrüyünə səfər edilmişdir. Burada Azərbaycan nümayəndə heyəti "x-rail" sistemlərinə baxış keçirmiş, eyni zamanda, Çin istehsalı olan "Nyutex" qurğuları ilə yük maşınlarına və vaqonlara nəzarətin həyata keçirilməsi qaydası nümayəndə heyətimizə ətraflı izah olunmuşdur. Həmçinin, risklərin idarə olunması istiqamətində görülən işlərdən söhbət açılmış, fikir mübadiləsi aparılmışdır.

Səfərin ikinci günü Azərbaycan Respublikası hökuməti və Finlandiya Respublikası hökuməti arasında "Gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır. Sazişi Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Finlandiya Milli Gömrük İdarəsinin baş direktoru Tapani Erlinq imzalamışlar. Finlandiya Maliyyə Nazirliyi nümayəndəsinin iştirakı ilə baş tutan imzalanma mərasimindən sonra mətbuat nümayəndələri üçün brifinq keçirilmişdir.

Daha sonra Azərbaycan nümayəndə heyəti tarixi 100 ildən artıq olan gömrük laboratoriyası ilə tanış olmuşdur. 75 nəfərin çalışdığı laboratoriya ən müasir qurğularla təchiz edilmişdir.

İkigünlük səfərin sonunda Tapani Erlinqlə daha bir görüş keçirilmiş, qonaqpərvərliyə görə minnətdarlıq ifadə olunmuşdur.

T.Erlinq narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə azərbaycanlı gömrükçülərin təcrübəsindən yararlanmağın vacibliyinə toxunmuş, bu məqsədlə finlandiyalı mütəxəssislərin Azərbaycana səfər etməsinin, təcrübə mübadiləsinin aparılmasının qarşılıqlı əməkdaşlığa töhfə olacağına əminliyini ifadə etmişdir.

A.Əliyev Finlandiyanın gömrük laboratoriyasında azərbaycanlı həmkarların təcrübə keçməsinin iki ölkənin uyğun qurumları arasında əlaqələrin daha da intensivləşdirilməsinə imkan yaradacağına ümidvar olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 12-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanov ilə görüşmüşdür.

Görüşdə ikitərəfli, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 12-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan YUNİSEF-in Mərkəzi və Şərqi Avropa, Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə regional direktoru Stiven Allen ilə görüşmüşdür.

Ölkəmizdə ilk dəfə olmasından məmnunluğunu bildirən qonaq Azərbaycan-YUNİSEF münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirmişdir.

S.Allen Azərbaycan hökumətinin səhiyyənin inkişafı, qaçqın uşaqların reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində gördüyü işləri xüsusi vurğulamışdır.

Qonağı salamlayan nazir E.Məmmədyarov Azərbaycan ilə YUNİSEF arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirmiş, bu münasibətlərin Azərbaycan hökumətinin sosial sahənin inkişafı istiqamətində aparılan siyasətə verdiyi töhfəsini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AQUPDK-DA YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU STİVEN ALLENLƏ GÖRÜŞ OLMUŞDUR

Mayın 12-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova Azərbaycanda səfərdə olan BMT-nin Uşaq Fondunun (YUNİSEF) Mərkəzi və Şərqi Avropa, Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə regional direktoru Stiven Allenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

H.Hüseynova rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir.

YUNİSEF-lə Azərbaycanın əməkdaşlığını diqqətə çatdıran komitə sədri ölkəmizdə qadın, uşaq və gənclərin hüquqlarının qorunması, onlara sosial qayğı məsələlərinin diqqət mərkəzində olduğunu qeyd etmişdir. Bildirmişdir ki, bunlara baxmayaraq Azərbaycanda uşaqların üzləşdiyi müəyyən problemlər də var. Ölkəmizdə doğma torpaqlarından qaçqın düşmüş uşaqlar vardır. Onların problemləri, hüquqlarının bərpa olunması məsələləri daim bizi düşündürür. Uşaqlarla bağlı qarşımızda duran əsas məsələ onların sağlamlıq, təhsil problemlərinin həllidir.

H.Hüseynova erkən nikahların bağlanmasının bütün dünyada, o cümlədən Azərbaycanda mövcudluğunu nəzərə çarpdırmışdır. Bunların ilbəil azalmasına baxmayaraq, problemlər qalmaqdadır. Respublikada bu hallara qarşı mübarizə istiqamətində böyük maarifləndirmə işləri aparılır. Uşaqların hüquq və azadlıqlarının qorunması, onların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, qayğı ilə əhatə olunması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir.

YUNİSEF-in Mərkəzi və Şərqi Avropa, Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə regional direktoru Stiven Allen Azərbaycanda çox sürətli inkişafın şahidi olduqlarını bildirmişdir. Qonaq vurğulamışdır ki, hazırda dünyada uşaqlarla bağlı bir sıra problemlər mövcuddur. Bu problemlərin həllinə yalnız birgə əməkdaşlıqla nail olmaq mümkündür.

MİLLİ MƏCLİS SƏDRİNİN MÜAVİNİ YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Dünya maliyyə böhranı şəraitində Azərbaycanın iqtisadi inkişaf tempini qoruyub saxlaması ölkədə həyata keçirilən düzgün siyasətin nəticəsidir. Bu imkan və resurslardan istifadə etməklə uşaqların sosial müdafiəsi sahəsində ehtiyac duyulan müəyyən işləri reallaşdırmaq mümkündür.

Bu sözləri ölkəmizdə səfərdə olan YUNİSEF-in Mərkəzi və Şərqi Avropa, MDB ölkələri üzrə regional direktoru Stiven Allen mayın 12-də Milli Məclis sədrinin müavini Valeh Ələsgərovla görüşdə demişdir.

YUNİSEF-in nümayəndəsi Azərbaycan parlamentinin qanun yaradıcılığı prosesini və qanunvericilik bazasının təkmilləşməsini, beynəlxalq konvensiyaları təsdiq etməsini yüksək qiymətləndirmiş, Milli Məclisdə duzun yodlaşdırılması, ana südü və uşaq hüquqları ilə bağlı qəbul etdiyi bəzi qanunların BMT-də və MDB-də model qanun kimi qəbul olunmasını, Yuvenal Ədliyyə ilə bağlı görülən işlərin təqdirəlayiq olduğunu bildirmişdir.

Azərbaycanda səhiyyə sahəsində həyata keçirilən islahatlardan danışarkən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın bu sahəyə böyük diqqət göstərməsinin beynəlxalq təşkilatların, xüsusilə də YUNİSEF-i bu istiqamətdə çalışmağa daha da həvəsləndirdiyini qeyd etmişdir. O demişdir ki, YUNİSEF Azərbaycan hökuməti ilə bundan son-

ra da sıx əməkdaşlıq etmək arzusundadır və bunun üçün bütün lazımi addımlar atmağa hazırdır.

Qonaq qeyd etmişdir ki, iyun ayında YUNİSEF-də ayrı-ayrı ölkələr üzrə hazırlanmış xüsusi proqramlar müzakirə olunacaqdır. Azərbaycan ilə bağlı xüsusi proqram vardır. Səfərin əsas məqsədi də Azərbaycanda görülən işləri, mövcud problemləri müzakirə etmək və müvafiq təklifləri nəzərə almaqdır.

Milli Məclisin sədr müavini Valeh Ələsgərov xeyirxah missiya ilə məşğul olan humanitar təşkilat - YUNİSEF-lə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulamışdır. O demişdir ki, Azərbaycanda qanun yaradıcılığı və icra sahəsində uşaqların sosial müdafiəsi, mükəmməl təhsil alması, hüquq və mənafelərinin qorunması üçün bütün zəruri addımlar atılır, müxtəlif dövlət proqramları həyata keçirilir. Bu sahədə Heydər Əliyev Fondunun da böyük dəstəyi vardır.

Bütün işlər isə Azərbaycan torpaqlarının 20 faizinin işğal altında olduğu, bir milyondan artıq qaçqın və məcburi köçkünün olduğu bir şəraitdə reallaşır. Əgər Azərbaycanın bu problemi olmasaydı səhiyyə, təhsil, sosial müdafiə sahəsinə ayrılan dövlət vəsaitinin həcmi daha çox ola bilərdi. Ölkənin imkanları artdıqca bu istiqamətdə ayrılan maliyyə vəsaitlərinin həcmi də çoxalacaqdır.

Görüşdə iştirak edən Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu məsələləri komitəsinin sədri Əli Hüseynov, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ayrı-ayrı sahələr üzrə hazırlanan qanun layihələri barədə məlumat vermişlər.

İSVEÇRƏ AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞIN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİNDƏ MARAQLIDIR

Mayın 12-də Sənaye və Energetika Nazirliyində ölkəmizdə səfərdə olan İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun üzvləri və bu ölkənin energetika sahəsində çalışan özəl şirkətlərinin təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüş olmuşdur.

Sənaye və energetika nazirinin müavini Natiq Abbasov qonaqlara Azərbaycan iqtisadiyyatının sürətli inkişafı, xüsusilə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, bu il Azərbaycanda neft hasilatının təxminən 50 milyon tona, qaz hasilatının isə 25-27 milyard kubmetrə çatdırılması proqnozlaşdırılır.

N.Abbasov son vaxtlar Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələrin inkişaf etdiyini xüsusi vurğulamış, bu səfərin əməkdaşlığın daha da genişləndirilməsinə müsbət təsir göstərəcəyinə əminliyini bildirmişdir.

SEN-in Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Akim Bədəlov ölkəmizin zəngin karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə edilməsinə xüsusi əhəmiyət verdiyini diqqətə çatdırmışdır. Bu sahədə İsveçrə təcrübəsinin öyrənilib tətbiq edilməsinin vacibliyi vurğulanmışdır.

Nümayəndə heyətinin başçısı, İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun rəhbəri xanım Kristin Egerzegi-Obrist ölkəmizə səfərdən məmnunluğunu ifadə etmiş, yüksək qonaqpərvərliklə qarşılandıqlarına görə minnətdarlığını bildirmişdir.

Energetika nazirinin müavini, Enerji üzrə Federal Ofisin direktoru Volter Steynman Avropanın enerji təhlükəsizliyində Azərbaycanın əhəmiyyətli rolunu nəzərə çarpdırmışdır. Qonaq İsveçrənin Azərbaycan ilə bütün sahələrdə, xüsusilə neft-qaz sektorunda əməkdaşlığın daha da inkişafında maraqlı olduğunu vurğulamışdır.

Görüşdə İsveçrənin sənaye və energetika sahəsində tanınmış şirkətlərinin rəhbərləri Transadriatik qaz boru kəməri layihəsinin perspektivlərindən bəhs etmiş və Azərbaycanın etibarlı tərəfdaş kimi bu layihədə iştirakında maraqlı olduqlarını söyləmişlər. Qonaqlar, eyni zamanda, ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində həyata keçirilmiş tədbirlər və perspektiv planlarla maraqlanmışlar.

AZƏRBAYCAN İLƏ İSVEÇRƏ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Mayın 12-də Bakı Biznes Mərkəzində İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun üzvləri, bu ölkənin energetika sahəsində fəaliyyət göstərən özəl şirkətlərinin təmsilçiləri ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycan İnvestisiya Şirkətinin nümayəndələri arasında görüş keçirilmişdir.

Tədbirdə iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov qonaqlara Azərbaycanın iqtisadiyyatı, ölkəmizdə aparılmış islahatlar və əldə edilmiş uğurlar barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, Azərbaycan Avropa ölkələri, o cümlədən İsveçrə ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrəyə, İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin Azərbaycana səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusilə mühüm əhəmiyyət kəsb etmişdir. Bildirmişdir ki, İsveçrə Azərbaycanın qeyri-neft sektoruna böyük sərmayə yatıran ölkələrdəndir. 2008-ci illə müqayisədə ötən il Azərbaycan ilə İsveçrə arasında ticarət dövriyyəsi təqribən 26 faiz artmışdır. Bununla belə, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur və bu imkanlardan istifadə etməklə əlaqələri daha da inkişaf etdirmək mümkündür. N.Səfərov çıxışının sonunda əməkdaşlığın inkişafında biznes forumların, işgüzar görüşlərin əhəmiyyətini vurğulamış, iş adamlarını qarşılıqlı əlaqələri daha da genişləndirməyə, investisiya layihələrində birgə iştiraka dəvət etmişdir.

İsveçrənin Enerji üzrə Federal ofisinin direktoru Volter Steynman Azərbaycandakı iqtisadi inkişafdan məmnunluğunu qeyd etmiş, ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Tədbirdə AZPROMO-nun prezidenti Adil Məmmədov ölkəmizin investisiya mühiti və ixrac imkanları, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev qurumun fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat vermişlər.

Görüşdə, həmçinin İsveçrənin energetika sahəsində fəaliyyət göstərən özəl şirkətlərinin nümayəndələri təmsil etdikləri qurumların fəaliyyəti barədə məlumat vermişlər.

ARDNF-DƏ İSVEÇRƏ PARLAMENTİNİN İSVEÇRƏ-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİ VƏ İŞ ADAMLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Mayın 12-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru Şahmar Mövsümov ölkəmizdə səfərdə olan İsveçrə parlamentinin İsveçrə-Azərbaycan dostluq qrupunun üzvləri və bu ölkənin energetika sahəsində çalışan özəl şirkətlərin təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Ş.Mövsümov qurumun fəaliyyəti, fond tərəfindən maliyyələşdirilən layihələr, vəsaitlərin idarə edilməsi, Suveren Fondlar, Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) Azərbaycanda tətbiqi prosesində ARDNF-in aparıcı rolu barədə qonaqlara ətraflı məlumat vermişdir.

AZƏRBAYCANLA İSVEÇRƏ ARASINDA SƏHİYYƏ SAHƏSİNDƏ TƏCRÜBƏ MÜBADİLƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR

Mayın 12-də Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev İsveçrə-Azərbaycan Dostluq qrupunun sədri Kristin Egerzegi Obristin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Oqtay Şirəliyev dövlət tərəfindən səhiyyə sahəsinə göstərilən diqqət və qayğı nəticəsində son illər Azərbaycanda bu sahədə əldə olunan nailiyyətlər haqqında danışmışdır.

Nazir iki ölkə arasında səhiyyə sahəsində təcrübə mübadiləsi, xüsusilə də əczaçılıqda müəyyən işlərin görüldüyünü və bunun davamlı olmasının tərəfdarı olduğunu qeyd etmişdir.

Qonaq ikitərəfli görüşlərin vacibliyini və İsveçrənin müxtəlif ölkələrin, həmçinin Azərbaycanın təcrübəsindən yararlanmağa üstünlük verdiyini bildirmişdir.

Görüşdə müxtəlif mövzularda fikir mübadiləsi aparılmışdır.

SERBİYA PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 12-də Serbiya Respublikasının Prezidenti Boris Tadiç Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Serbiyanın dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Serbiya Prezidentinə gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Boris Tadiç və Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Serbiya Prezidenti Boris Tadiç mayın 13-də Fəxri xiyabana gəlmişdir.

Serbiya dövlətinin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla andı, ulu öndərin məzarı önünə əklil qoydu.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycanda rəsmi səfərdə olan Serbiya Prezidenti Boris Tadiç mayın 13-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Boris Tadiç Azərbaycanın azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsini yad etdi, "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident Boris Tadiç Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 13-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Boris Tadiçin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Boris Tadiçi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Serbiya Prezidentinə raport verdi.

Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Boris Tadiçə, Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 13-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı potensial imkanların olduğu vurğulandı. İkitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Serbiya Prezidenti Boris Tadiçin Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi. İkitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Mayın 13-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Serbiya Prezidenti Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Uğurla inkişaf edən ikitərəfli münasibətlərimizə dair dünən və bu gün yaxşı müzakirələrimiz oldu. Əlbəttə, əminəm ki, Sizin ölkəmizə səfəriniz ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə və bir çox sahələri əhatə edən münasibətlərimizin genişləndirilməsinə doğru atılan mühüm addım olacaqdır. Bizim çox güclü siyasi əlaqələrimiz vardır. Ümidvaram ki, iqtisadi əməkdaşlığımız da həmin strateji xəttə uyğun olacaqdır. Serbiya ilə münasibətlər bizim üçün böyük əhəmiyyət kəsb edir. Əminəm ki, güclü ikitərəfli əlaqələrimiz Balkan və Qafqaz regionları arasında da regional əməkdaşlıq üçün yaxşı imkanlar açacaq və biz irəliyə doğru gedəcəyik.

Səfəriniz münasibətlərimizin tarixində Serbiya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Biz bunu yüksək qiymətləndiririk və dəvətimizi qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk.

Əminəm ki, bu gün apardığımız müzakirələr və imzalanacaq sənədlər ölkələrimiz arasında uzunmüddətli strateji münasibətlər üçün olduqca möhkəm zəmin yaradacaqdır.

Bir daha xoş gəlmisiniz! Əminəm ki, Azərbaycana səfərinizdən məmnun qalacaqsınız.

Serbiya Prezidenti Boris TADİÇ səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Sağ olun, cənab Prezident!

Burada olmağımdan şərəf hissi duyuram. Siz də qeyd etdiyiniz kimi, bu, Sizin ölkənizə prezident səviyyəsində bizim ilk səfərimizdir. Beləliklə, biz tarix yazırıq. Ümidvaram

ki, biz münasibətlərimizi gələcəkdə əsl dostlar kimi inkişaf etdirəcəyik. Mən yaşadığımız, inkişaf edən regionlarda - Balkan və Qafqaz arasında bir çox oxşarlıqları görürəm. Burada qarşımızda eyni çətinliklər durur.

Biz ikitərəfli münasibətlərin inkişaf etdirilməsində çox maraqlıyıq. Lakin eyni zamanda, ölkələrimizin üzləşdiyi bəzi çətinliklər və problemlərin həlli ilə bağlı bir-birimizlə fikir mübadiləsi aparırıq. Burada - Bakıda, Azərbaycanda olarkən mən bir çox oxşarlıqların şahidi oldum. Əvvəlcə onu deməliyəm ki, xalqlarımızı və ölkələrimizi birləşdirən oxşarlıqlar vardır. Fikrimcə, Siz də ölkəmizə səfər etsəniz, bunların şahidi olarsınız.

Cənab Prezident, hesab edirəm ki, ərazi bütövlüyümüzün qorunmasında ümumi maraqlarımız vardır. Biz fikirlərimizlə bölüşdük və bu cür məsələlər bizim üçün prinsipial xarakter daşıyır. Serbiya bütün dünya ölkələrinin ərazi bütövlüyünün qorunmasının tərəfdarıdır. Bu baxımdan Siz bizə arxalana bilərsiniz.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Mayın 13-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Serbiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Boris Tadiç "Azərbaycan Respublikası Prezidentinin və Serbiya Respublikası Prezidentinin Birgə Bəyannaməsi"ni imzaladılar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Serbiya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın xarici işlər naziri Vuk Yeremiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik şəxslər üçün vizanın ləğv edilməsi haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Serbiyanın xarici işlər naziri Vuk Yeremiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Konvensiya"nı Azərbaycanın vergilər naziri Fazil Məmmədov və Serbiyanın xarici işlər naziri Vuk Yeremiç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Serbiyanın Baş nazirinin birinci müavini, daxili işlər naziri İvisa Daciç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və Serbiyanın Baş nazirinin müavini, iqtisadiyyat və regionların inkişafı naziri Mladyan Dinkiç imzaladılar.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Mayın 13-də Azərbaycan-Serbiya sənədlərinin imzalanma mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Boris Tadiç mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

- Əziz dostlar!

- Cənab Prezident! İlk növbədə Sizi ölkəmizdə bir daha salamlamaq istərdim. Mən Sizin Azərbaycana ilk dəfə səfər etməyinizdən çox şadam. Bu, ikitərəfli münasibətlərimiz tarixində Serbiya Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər ikitərəfli münasibətlərimizin bundan sonra da sürətlə inkişaf etməsi üçün çox yaxşı imkanlar yaradacaqdır. Bizim münasibətlər çox uğurla inkişaf edir. Biz çox güclü siyasi dialoq qurmuşuq. Əminəm ki, bu gün ikitərəfli münasibətlərimizlə bağlı müzakirə etdiyimiz bütün məsələlər, qəbul etdiyimiz qərarlar və imzaladığımız sənədlər tezliklə icra ediləcəkdir. Bu, ölkələrimizə indikindən də daha yaxın olmağa imkan yaradacaqdır.

Bu gün biz ikitərəfli münasibətlərlə bağlı geniş əhatə dairəsi olan məsələləri, beynəlxalq münasibətlərlə və beynəlxalq vəziyyətlə bağlı məsələləri müzakirə etdik. Bir daha xatırlatmaq istərdim ki, bizim ölkələr beynəlxalq miqyasda bir-birini dəstəkləyir. Bu dəstək çox güclüdür və əminəm ki, bu, gələcəkdə də davam etdiriləcəkdir. Biz Serbiyanın ərazi bütövlüyünü tam dəstəkləyirik. Biz bir ölkənin razılığı olmadan onun sərhədlərinin dəyişdirilməsini tam yolverilməz hesab edirik və Kosovonun birtərəfli qaydada müstəqilliyini bəyan etməsi qeyri-qanuni bir addımdır. Əfsuslar olsun ki, bəzi ölkələr onu tanıyıb. Lakin mən əminəm ki, beynəlxalq hüququn norma və prinsiplərinə bütün ölkələr tərəfindən riayət edilməlidir. Biz həmin təşkilatlara beynəlxalq birliyin üzvü olmaq, bu təşkilatların norma və prinsiplərini, suveren hüquqlarımızı müdafiə etmək imkanına qadir olmaq məqsədi ilə daxil olmuşuq.

Bu gün biz, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqlar prosesini də müzakirə etdik. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış Dağlıq Qarabağ bölgəsi və Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonumuz 15 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti nəticəsində 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Torpaqlarımızın 20 faizi işğal altındadır və bu işğal uzun illərdir ki, davam edir. Uzun illərdir ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının işğal olunan ərazilərimizdən Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə əməl etmir. Bu münaqişə yalnız beynəlxalq səviyyədə qəbul edilən normalar, ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməlidir.

Millətlərin öz müqəddəratını təyin etmək məsələsinə gəldikdə isə, hər şeydən əvvəl, qeyd etmək istərdim ki, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların Ermənistan dövləti vardır və ermənilərin məntiqi ilə onlar yaşadıqları bütün yerlərdə öz

müqəddəratlarını təyin etməyə cəhd etsələr, o zaman dünyada çoxlu erməni dövləti olar. Eyni zamanda, Dağlıq Qarabağda hazırda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlı əhali üçün suveren Azərbaycan dövləti çərçivəsində özünüidarəetmə uğurla təşkil edilə bilər.

Azərbaycan müxtəlif mədəniyyətlərin qovuşduğu çoxkonfessiyalı və çoxmillətli bir ölkədir. Müxtəlif etnik qrupların nümayəndələri, müxtəlif dini köklərə malik olan insanların hamısı ölkəmizdə eyni hüquq və azadlıqlara malikdirlər.

Bu gün biz, həmçinin ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı məsələləri də müzakirə etdik. Bu əməkdaşlığı genişləndirmək və mümkün olduqca daha geniş sahələri əhatə etmək üçün qarşılıqlı istək mövcuddur. Əsas diqqət yönəltdiyimiz məsələlər sırasında enerji sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Düşünürəm ki, bu sahədə uzunmüddətli və geniş əməkdaşlığımız üçün çox yaxşı imkanlar vardır. Azərbaycanın enerji ehtiyatları, neft və qaz dünya bazarlarına şaxələndirilmiş marşrutlar üzrə nəql olunur. Biz şaxələndirmənin yeni istiqamətləri üzərində işləyirik. Azərbaycan artıq regionumuzda enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayır. Ümidvaram ki, yaxın gələcəkdə Avropanın da enerji təhlükəsizliyi məsələlərində öz rolunu oynayacaqdır. Düşünürəm ki, bu baxımdan ölkələrimiz arasında əməkdaşlıq qarşılıqlı, faydalı və çox səmərəli ola bilər.

Cənab Prezident, mən çox məmnunam ki, Sizi çoxlu iş adamları müşayiət edir və onlar ölkəmizdəki tərəfdaşları ilə görüşmək imkanı əldə edirlər. Əminəm ki, bu tərəfdaşlığın yaxşı nəticələrini yaxın zamanlarda görəcəyik. Biz Serbiyada, Azərbaycanda, ola bilər ki, digər ölkələrdə qarşılıqlı investisiya layihələrində maraqlıyıq. Biz iş adamlarımızın ölkələrimizdə, yerləşdiyimiz regionda biznes fəaliyyətləri üçün daha yaxşı imkan yaratmaqdan ötrü səylərimizi birləşdirə, yerləşdiyimiz coğrafi mövqedən istifadə edə bilərik. Bir sözlə, əminəm ki, Azərbaycan ilə Serbiya arasında olan güclü münasibətlər ölkələrimiz və xalqlarımız üçün faydalı olmaqla yanaşı, regional səviyyədə daha yaxşı anlaşmaya da xidmət edəcəkdir. Balkanlar, Xəzər dənizi, Qara dəniz, Qafqaz - biz hazırda bu coğrafi bölgələrdə daha yaxşı anlaşmanın necə əldə olunması üzərində işləyirik. Əminəm ki, Azərbaycan və Serbiya ümumi tərəfdaşlıq və dostluq işinə öz uğurlu töhfəsini verəcəkdir.

Biz daha çox sahələri müzakirə etdik. Əlbəttə ki, mədəniyyət və humanitar sahələr çox önəmli sahələrdir. Biz bir-birimizi daha yaxından tanımalı, qarşılıqlı səfərləri intensivləşdirməliyik və artıq gələcək təmaslarımızın proqramını razılaşdırmışıq.

Cənab Prezident, bir daha Sizi və Sizi müşayiət edən nümayəndə heyətini ölkəmizdə salamlamaq istərdim. Ümidvaram ki, Azərbaycana səfəriniz faydalı olacaq və bu səfərdən məmnun qalacaqsınız.

Sağ olun!

* * *

Serbiya Prezidenti Boris TADİÇ bəyanatla çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident!

Həqiqətən Serbiya hökumətinin nümayəndə heyəti ilə Bakıda - Azərbaycanda olma-

ğımdan, Sizinlə və Sizin nümayəndə heyəti ilə ikitərəfli münasibətlərimiz və tarixi imkanlarımız barədə danışıqlar aparmaqdan, üzləşdiyimiz problem və çağırışları müzakirə etməkdən şərəf hissi duyuram.

Mən görürəm ki, bizim ümumi problem və çağırışlarımız vardır. Mən ərazi bütövlüyümüzü, ölkələrimizi qorumaq məsələləri ilə yanaşı, həmçinin mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə kimi çağırışları, ümumiyyətlə, ölkələrimizin gələcək inkişafı ilə bağlı məsələləri qeyd etmək istərdim. Bunlar özləri də hər iki tərəf üçün bir çağırışdır. Siz çoxtərəfli təsisatlarda beynəlxalq hüququn prinsiplərinin müdafiə edilməsində bizə arxayın ola bilərsiniz. Bu, prinsipial məsələdir.

Biz Birləşmiş Millətlər Təşkilatına üzv olan ölkələrdə separatçılıq etmək məqsədi ilə etnik bəhanələrdən istifadə edən separatçıların tamamilə əleyhinəyik. Bu səbəbdən də biz Serbiyanın cənub əyaləti olan Kosovoya dair ölkəmizin ərazi bütövlüyü ilə bağlı maraqlarımızdan imtina etmirik.

Cənab Prezident, biz iqtisadi sahədə, enerji sektorunda əməkdaşlığımızdan, iqtisadiyyatımızın digər sahələri ilə bağlı əlaqələrimizdən danışdıq. Mən tam əminəm ki, biz iş adamlarımız, xalqlarımız və ümumiyyətlə, ölkələrimiz üçün həqiqətən də yaxşı imkanlar yarada bilərik. Qlobal enerji siyasətində Azərbaycan enerji sektorunun əsas iştirakçılarından biridir. Enerji təhlükəsizliyi baxımından Azərbaycanın rolu çox əhəmiyyətlidir. Biz Azərbaycanın enerji planlarına qoşulmaqda çox maraqlıyıq. Azərbaycan, Gürcüstan və Rumıniya marşrutu ilə sıxılmış qazın nəqlinə dair layihə və Azərbaycanın digər planları da Serbiya üçün olduqca maraqlıdır. Serbiyanın neft şirkətləri ölkənizin işgüzar dairələri ilə enerji sektorunda daha yaxşı mühitin yaradılması imkanlarını müzakirə edəcəklər.

Cənab Prezident, eyni zamanda, ölkənizin şirkətləri də Serbiya iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoya bilərlər. Biz bu haqda danışmışıq. Mən tam əminəm ki, bu səfərdən sonra biz işgüzar dairələrimiz üçün daha yaxşı imkanlar və şərait yaratmağa, ölkələrimizdə yeni iş yerlərinin açılmasına hazır olacağıq.

Cənab Prezident, danışıqlarımızın əvvəlində Siz bildirmişdiniz ki, çətinliklər və çağırışlar bir-birimizi daha yaxşı anlamaq üçün münbit şərait yaradır. Sizin də, bizim də qaçqınlarınız vardır. Hazırda Serbiyada yarım milyon məcburi köçkün yaşayır. Biz onların aqibəti üçün məsuliyyət daşıyırıq. Lakin biz prinsipial məsələlərdə öz mövqeyimizi, beynəlxalq qanunları, Helsinki Yekun Aktını, BMT Nizamnaməsini müdafiə etmək üçün səylərimizi davam etdirəcəyik. Bu məsələdə Siz bizə arxayın ola bilərsiniz.

Cənab Prezident, Bakıda - Azərbaycanda bizə göstərilən çox səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm və Sizi ölkəmizə səfərə dəvət edirəm.

Sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Serbiya Prezidenti Boris Tadiçin şərəfinə rəsmi nahar verilmişdir.

SERBİYA PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ

Mayın 13-də Serbiya Prezidenti Boris Tadiç onun üçün ayrılmış iqamətgahda Azərbaycanın Baş naziri Artur Rasizadəni qəbul etmişdir.

Prezident Boris Tadiç Bakıda keçirilən danışıqlardan razı qaldığını bildirərək qeyd etmişdir ki, Serbiya nümayəndə heyətinin tərkibində müxtəlif hökumət strukturlarının təmsilçiləri vardır. Bu, bütün istiqamətlərdə qarşılıqlı əlaqələrin genişləndirilməsinə maraq göstərilməsindən xəbər verir.

Azərbaycanın Baş naziri Artur Rasizadə demişdir ki, ölkələrimizin işgüzar dairələri arasında əlaqələrin fəallaşdırılması Azərbaycan və Serbiya xalqlarının mənafelərinə xidmət edəcəkdir.

SERBİYA PREZİDENTİ BORİS TADİÇ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Boris Tadiç mayın 13-də Milli Məclisə gəlmişdir.

Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər qarşılamışlar.

Serbiya Prezidenti Milli Məclisin iclas salonuna baxmış, parlamentin binasındakı Heydər Əliyev Xatirə zalında olmuşdur. Burada qonağa ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin, dövlət və hökumət üzvlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkə parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verilmişdir.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Serbiya Prezidenti Boris Tadiçin görüşü olmuşdur.

Oqtay Əsədov ölkələrimiz arasında əlaqələrin qədim tarixindən danışmış, müstəqilliyimizi bərpa etdikdən sonra münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirmiş və bunu müsbət dəyərləndirmişdir. Milli Məclisin sədri bildirmişdir ki, münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının müstəsna xidmətləri vardır. Dövlətlərimizin başçılarının siyasi iradəsi bütün sahələrdə əməkdaşlığımızın genişlənməsinə təkan verəcəkdir. Hesab edirik ki, parlament sədrlərinin, eləcə də digər dövlət və hökumət üzvlərinin qarşılıqlı səfərləri hər iki tərəfə fayda gətirəcəkdir. Sizin bu səfəriniz zamanı imzalanmış sənədlər də əməkdaşlığımızın hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Milli Məclisin sədri dövlətlərimiz arasındakı münasibətlərin möhkəmlənməsində parlamentlərin rolunu qeyd etmiş, hər iki ölkənin parlamentində dostluq qruplarının yaradıldığını bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Oqtay Əsədov bu məsələdə Azərbaycanın haqlı mövqeyini və ərazi bütövlüyünü dəstəklədiyinə görə Serbiyanın dövlət başçısına minnətdarlıq etmiş, həmin siyasətin dəyişməyə-

cəyinə ümidvar olduğunu bildirmişdir.

Prezident Boris Tadiç Azərbaycanda olmaqdan məmnun qaldığını vurğulamış və demişdir: "Bu, mənim Serbiya Prezidenti kimi Azərbaycana ilk səfərimdir. Bu, həm də o deməkdir ki, biz tarix yazırıq. Səfərimizin əsas məqsədi sadəcə xalqlarımızın üzləşdiyi problemləri müzakirə etmək deyil, həm də əməkdaşlığımızın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparmaqdır".

Ali qonaq bildirmişdir ki, Serbiyada və Azərbaycanda çoxlu sayda millətlər, xalqlar, dinlər və təriqətlər vardır. Biz slavyan dil qrupuna daxil olsaq da, dilimizdə çoxlu türk sözləri vardır. Bu bizi daha da yaxınlaşdırır. Serbiya Prezidenti dost ölkələrimiz arasında əlaqələrin inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini bildirmişdir.

Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq demişdir ki, Serbiya Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyəcəkdir. Bu bizim üçün prinsip məsələsidir.

Prezident Boris Tadiç parlamentlərin rolundan danışaraq qanunverici orqanlar arasında əməkdaşlığı yüksək dəyərləndirmiş, Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Serbiya Respublikasının Prezidenti Boris Tadiç mayın 13-də Heydər Əliyev Fondunda olmuşdur.

Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.

Serbiya Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış oldu.

Fondla tanışlıq zamanı Serbiya Prezidentinə məlumat verildi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, xalqımızın ümummilli lideri adını qazanmışdır. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Serbiya Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Boris Tadiç Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Serbiya Prezidentinə Fondun nəşri olan "Muğam aləmi" musiqi albomu hədiyyə edildi.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

SƏFƏR BAŞA ÇATDI

Mayın 13-də Serbiya Prezidenti Boris Tadiçin Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Serbiyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA GÜRCÜSTANIN BİRİNCİ XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 13-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs ilə görüşmüşdür.

Mehriban Əliyeva hörmətli qonağı böyük səmimiyyətlə qarşıladı, Sandra Elizabet Rulofsu yenidən Bakıda görməkdən məmnunluğunu bildirdi.

Mehriban Əliyeva Sandra Rulofsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə qonaqları Heydər Əliyev Fondunda salamlayaraq bu görüşlərin artıq ənənəvi xarakter aldığını, əməkdaşlığın getdikcə daha da genişləndiyini söylədi. Mehriban Əliyeva Heydər Əliyev Fondu ilə Gürcüstanın birinci xanımının rəhbərlik etdiyi "Soko" fondu arasında səhiyyə, təhsil sahələrində bir çox birgə layihələr həyata keçirildiyini bildirdi.

Mehriban Əliyeva Gürcüstanın birinci xanımı ilə hər görüşdən sonra yeni birgə layihələrin həyata keçirilməsinə başlanılmasını məmnunluqla qeyd etdi.

Sandra Elizabet Rulofs xoş sözlərə, hər görüşdə hiss etdiyi səmimi münasibətə görə Mehriban xanıma təşəkkür etdi.

Gürcüstanın nümayəndə heyətini təqdim edən Sandra Elizabet Rulofs "Soko" fondunun filialı olan nadir xəstəliklər üçün alyans barədə məlumat verdi. Bildirdi ki, bu qurum qan xərçəngindən əziyyət çəkən uşaqlara yardım etməklə məşğuldur. Azərbaycana səfəri çərçivəsində alyansın əməkdaşları bu sahəyə dair təcrübə mübadiləsi aparacaqlar.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ PARLAMENTLƏRİMİZ VƏ DEPUTATLARIMIZ ÜÇÜN DƏ ÖNƏMLİDİR

Azərbaycan parlamentinin deputatları müxtəlif beynəlxalq təşkilatlarda Gürcüstanla bağlı məsələlərin müzakirəsi zamanı strateji müttəfiqimiz olan rəsmi Tbilisinin mövqeyini daim dəstəkləyir. Parlamentlərimiz arasında bir çox sahələr üzrə əməkdaşlıq genişlənir.

Bu sözləri Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Qənirə Paşayeva mayın 13-də Milli Məclisdə Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofsla görüşdə söyləmişdir.

Milli Məclisin sədri Oqtay Əsədovun salamlarını Gürcüstanın birinci xanımına çatdıran Q.Paşayeva demişdir ki, Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar ölkələrimiz arasında ən möhkəm körpüdür. Biz bilirik ki, siz də Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı layihələrə dəstəyinizi əsirgəmirsiniz. Azərbaycan dövlətinin, eləcə də ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda yaşayan gürcülərin təhsil və mədəniyyət sahəsində problemlərinin həlli üçün çox böyük işlər görülmüşdür.

Qənirə Paşayeva Gürcüstan Prezidenti Mixail Saakaşviliyə və onun xanımına azərbaycanlıların problemlərinə həssas yanaşdıqlarına, eləcə də göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

İşçi qrupun rəhbəri Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə Sandra Elizabet Rulofsun birgə həyata keçirdikləri layihələrin, eləcə də ikitərəfli əməkdaşlığa dair hazırladıqları yeni layihələrin Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin inkişafına böyük dəstək olacağını qeyd etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Qənirə Paşayeva demişdir ki, Ermənistanın torpaqlarımızın 20 faizini işğal etməsi nəticəsində bir milyon insan öz yurd-yuvasından məcburi köçkün düşmüşdür. Azərbaycanda artıq çadır şəhərciyi qalmasa da, beynəlxalq təşkilatların qərarları yerinə yetirilmir, işğala son qoyulmur. Hesab edirik ki, Gürcüstan da bu cür problemdən əziyyət çəkdiyi üçün bizi yaxşı başa düşürsünüz.

Q.Paşayeva onu da vurğulamışdır ki, Azərbaycan və Gürcüstan prezidentləri və onların xanımları arasındakı dostluq münasibətləri parlamentlərimiz üçün də önəmlidir.

Sandra Elizabet Rulofs diqqətə çatdırmışdır ki, bundan əvvəl Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə görüşündə Gürcüstan ilə Azərbaycan arasında olan bəzi önəmli məsələləri müzakirə etmişlər. Görüşdə yeni əməkdaşlıq sahələrini müəyyənləşdirdiklərini deyən Gürcüstanın birinci xanımı, ölkələrimizin məktəblər və teatrlar arasında, həmçinin qan xəstəliklərinin azaldılması sahəsində də əməkdaşlığının həyata keçiriləcəyini bildirmişdir.

Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq bildirmişdir ki, ərazi bütövlüyü hamımız üçün ən həssas məsələdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

GÜRCÜSTAN PREZİDENTİNİN XANIMI SƏHİYYƏ NAZİRLİYİNDƏ OLMUŞDUR

Ölkəmizdə səfərdə olan Gürcüstan Prezidentinin xanımı, Qlobal Əməkdaşlıq Fondunun vərəm üzrə səfiri Sandra Elizabet Rulofs mayın 13-də səhiyyə naziri Oqtay Şirəliyev ilə görüşmüşdür.

O.Şirəliyev Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində səhiyyə sahəsində görülən işlər, aparılan islahatlar nəticəsində əldə olunmuş nailiyyətlər, istifadəyə verilən yeni tibb müəssisələri, habelə səhiyyənin inkişafına dair dövlət proqramları haqqında ətraflı məlumat vermişdir.

O.Şirəliyev son illər ərzində ölkədə vərəmlə mübarizə sahəsində əhəmiyyətli işlər görüldüyünü bildirmiş, Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq DOTS proqramının müvəffəqiyyətlə həyata keçirildiyini, regionlarda ixtisaslaşdırılmış kabinetlərin fəaliyyət göstərdiyini və görülən işlərin nəticəsində bu sahədə vəziyyətin kifayət qədər yaxşılaşdığını vurğulamışdır.

Sandra Elizabet Rulofs ətraflı məlumata görə minnətdarlıq etmiş, Gürcüstanın səhiyyə sistemində həyata keçirilən islahatlar, görülən işlər, əldə olunmuş uğurlar və mövcud problemlər barədə danışmışdır.

YUNİSEF-İN REGİONAL DİREKTORU OMBUDSMAN APARATINDA OLMUŞDUR

Ölkəmizdə səfərdə olan YUNİSEF-in Mərkəzi, Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru Stiven Allen mayın 13-də Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova ilə görüşmüşdür.

E.Süleymanova Ombudsman təsisatının fəaliyyəti barədə ətraflı məlumat vermiş, ölkəmizdə uşaq hüquqlarının müdafiəsinə, təminatına və təbliğinə böyük diqqət yetirildiyini, YUNİSEF-in nümayəndəliyi ilə sıx əlaqələrin qurulduğunu bildirmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Ombudsmanı Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) üzvüdür və bu beynəlxalq qurumun tədbirlərində fəal iştirak edir. Müvəkkilin təşəbbüsü və Təhsil Nazirliyi ilə razılaşma əsasında Bakının üç pilot məktəbində şagirdlərin iştirakı ilə uşaq hüquqları üzrə pilləli tədrisi həyata keçirilir.

Stiven Allen ətraflı məlumata görə minnətdarlıq etmiş, ölkəmizə səfərinin uşaq hüquqlarının təminatı vəziyyəti, uşaqların problemlərinin həlli istiqamətində dövlət orqanları və YUNİSEF-in birgə fəaliyyətini öyrənməkdən ibarət olduğunu bildirmişdir.

Bildirilmişdir ki, Ombudsman təsisatı ilə YUNİSEF-in Azərbaycan nümayəndəliyi arasında 2010-cu ildə uşaq hüquqlarının müdafiəsi üzrə birgə fəaliyyət planı imzalanmışdır.

Qonaq Ombudsmanın fəaliyyətini yüksək dəyərləndirmiş, onun bəzi təkliflərinin YUNİSEF-in qarşıdan gələn beş il üçün Azərbaycan üzrə uşaq hüquqlarına dair hazırladığı planlarında nəzərə alınacağını bildirmişdir.

TƏHSİL NAZİRLİYİ İLƏ YUNİSEF ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Mayın 13-də Azərbaycanın təhsil naziri Misir Mərdanov YUNİSEF-in Mərkəzi və Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru Stiven Allen, qurumun Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Mark Hervord və nümayəndəliyin məsul əməkdaşları ilə görüşmüşdür.

M.Mərdanov YUNİSEF-in ölkəmizdəki nümayəndəliyinin nazirliklə səmərəli əməkdaşlığına önəm verdiyini bildirərək, bu beynəlxalq qurumun ölkəmizdə təhsil sahəsi üzrə həyata keçirdiyi layihələrin əhəmiyyətini diqqətə çatdırmışdır. Nazir qeyd etmiş-

dir ki, YUNİSEF-in respublikamızdakı nümayəndəliyi ilə Təhsil Nazirliyinin birgə fəaliyyəti sayəsində fəal təlim metodlarının tətbiqi, müəllimlərin ixtisasının artırılması, məktəbəqədər təhsil, Valideyn-Müəllim Assosiasiyasının yaradılması və digər istiqamətlər üzrə uğurlu nəticələr əldə olunmuşdur.

Stiven Allen bildirmişdir ki, iyunda Azərbaycan Hökuməti ilə YUNİSEF arasında 2011-2015-ci illəri əhatə edən birgə Fəaliyyət planının müzakirə edilməsi nəzərdə tutulur.

Uşaq hüquqlarının qorunması və digər müvafiq məsələlərin əhəmiyyətini diqqətə çatdıran qonaq Valideyn-Müəllim Assosiasiyasının səmərəli rolundan da danışmışdır.

M.Mərdanov qeyd olunan Fəaliyyət planında məktəbəqədər təhsil sahəsi üzrə müvafiq işlərin aparılması, bu istiqamətdə yeni kurrikulumların işlənilməsi, vəsaitlərin hazırlanması və digər məsələlərin öz əksini tapmasını təklif etmişdir.

Sonra müzakirələr aparılmışdır.

YUNİSEF-İN REGİONAL DİREKTORU ƏDLİYYƏ NAZİRLİYİNDƏ OLMUŞDUR

Mayın 13-də YUNİSEF-in Mərkəzi və Şərqi Avropa, Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə regional direktoru Stiven Allen ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşmüşdür.

Azərbaycan ilə YUNİSEF arasında səmərəli əməkdaşlıq münasibətlərinin olduğunu vurğulayan nazir müavini dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan haqlarının, o cümlədən uşaq hüquqlarının qorunması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yuvenal ədliyyənin inkişafı üzrə görülən kompleks tədbirlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, bu günlərdə fəaliyyətə başlamasının 6 illiyi təntənəli şəkildə qeyd olunan Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafına yönəldilmiş genişmiqyaslı layihələr həyata keçirir. Ötən il Bakıda yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsi məsələlərinə həsr olunmuş beynəlxalq konfrans keçirilmiş, bu sahədə əhəmiyyətli qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş yüz minlərlə uşağın hüquqlarının kütləvi şəkildə pozulması ilə bağlı ciddi narahatlıq qonağın diqqətinə çatdırılmışdır.

YUNİSEF-in ölkəmizlə əməkdaşlığın inkişaf etdirilməsinə böyük önəm verdiyini bildirən Stiven Allen uşaq hüquqlarının qorunmasında məhkəmələrin xüsusi rolunu qeyd etmişdir. O, məhkəmə və yuvenal ədliyyə sahəsində ölkəmizin müsbət irəliləyişlər əldə etdiyini vurğulamış, Ədliyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə etmişdir. Qonaq əlaqələrin bundan sonra da davam etdirilməsində maraqlı olduğunu söyləmişdir.

Söhbət zamanı uşaq hüquqlarının müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb olunması, barələrində ədalət mühakiməsinin həyata keçirilməsi, cəzaların icrasının xüsusiyyətləri məsələləri nəzərdən keçirilmişdir. Tərəflər Ədliyyə Akademiyasının fəaliyyəti, hakimlər üçün yuvenal ədliyyə sahəsində treninqlərin keçirilməsi, bununla bağlı müvafiq mövzuların tədris proqramlarına daxil edilməsi, habelə maraq doğuran digər məsələləri müzakirə etmişlər.

ÇEXİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR

Mayın 13-də Çexiya Respublikasının Azərbaycanda səfirliyinin rəsmi açılışı münasibətilə "Kaspian plaza" biznes mərkəzində tədbir keçirilmişdir.

Azərbaycan xarici işlər nazirini müavini Araz Əzimovun da iştirak etdiyi tədbirdə əvvəlcə Çexiyanın Bakıda səfərdə olan Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohout səfirliyin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Y.Kohout diplomatik nümayəndəliyin açılmasını ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişafına verdiyi xüsusi əhəmiyyətin bariz nümunəsi olduğunu bildirmişdir. Baş nazirin müavini qeyd etmişdir ki, Çexiya dünyanı bürümüş qlobal iqtisadi böhran şəraitində xaricdəki diplomatik nümayəndəliklərin saxlanması üçün vəsait məsrəfini azaltsa da, Azərbaycanda səfirliyin açılması qərarına gəlmişdir. Bu, Çexiyanın Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini bir daha sübut edir.

Ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini deyən Y.Kohout, çexiyalı biznesmenlərin azərbaycanlı həmkarları ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulamışdır. Səfirliyin açılmasının iki ölkənin əlaqələrinin inkişafına mühüm təsir göstərəcəyini deyən Baş nazirin müavini bildirmişdir ki, Çexiya Azərbaycan ilə təkcə enerji sahəsində deyil, iqtisadiyyatın digər sahələrində də əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Qeyd olunmuşdur ki, Çexiya Respublikasının Bakıda səfirlik açmasında məqsəd Azərbaycanla siyasi, iqtisadi, mədəni, təhsil və turizm sahələrindəki ikitərəfli əlaqələri genişləndirmək və intensivləşdirməkdir.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bradtke (ABŞ) mayın 13-də Brüsseldə bəyanatla çıxış etmişlər.

Bəyanatda bildirilir ki, həmsədrlərin müraciəti əsasında Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan mayın 12-də Brüsseldə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqların hazırkı mərhələsini müzakirə etmək məqsədi ilə həmsədrlərlə görüşmüşdür.

Həmsədrlər iyunun əvvəlində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla da görüşmək niyyətindədirlər.

BAKIDA AZƏRBAYCAN-SERBİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Mayın 13-də Bakı Biznes Mərkəzində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə ilk Azərbaycan-Serbiya biznes forumu keçirilmişdir.

Tədbirdə Azərbaycan və Serbiya tərəfdən hökumət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, enerji, əczaçılıq, neft və kimya, tikinti, nəqliyyat və digər sahələrdə

fəaliyyət göstərən 40-a yaxın iş adamı iştirak etmişdir.

Biznes forumda iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən layihələr, sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər, son illər qazanılmış nailiyyətlər barədə ətraflı danışmışdır. Bildirmişdir ki, dünyanı bürümüş iqtisadi və maliyyə böhranına baxmayaraq, ötən ilin yekunlarına görə ölkədə ümumu daxili məhsul (ÜDM) 9,3 faiz, sənaye istehsalı 12,8 faiz artmışdır. İqtisadi inkişaf templəri cari ilin ilk rübündə də saxlanılmış, bu dövrdə ÜDM 5,4 faiz, pərakəndə əmtəə dövriyyəsi 8,3 faiz, əhalinin nominal gəlirləri 6,5 yüksəlmişdir.

1995-ci ildən indiyədək Azərbaycan iqtisadiyyatına 70 milyard ABŞ dollarından artıq investisiya qoyulduğunu, bu sərmayələrin yarısının xarici şirkətlərin payına düşdüyünü qeyd edən N.Səfərov, Azərbaycanın investisiyalar üçün çox əlverişli ölkə olduğunu söyləmişdir. Həmçinin, Azərbaycanın mühüm beynəlxalq və regional layihələrin həyata keçirilməsində qabaqcıl mövqeyi nəzərə çarpdırılmış, bu sırada Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin mühüm rolu vurğulanmışdır. Azərbaycanın regionda lider mövqeyi faktlarla qonaqların diqqətinə çatdırılmışdır.

Biznes forumunun məqsədindən danışan nazir müavini bildirmişdir ki, ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq arzuolunan səviyyədə deyildir. Ötən il Azərbaycan ilə Serbiya arasında ticarət dövriyyəsi 1 milyon dollardan bir qədər çox olmuşdur. Lakin əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar vardır və onlardan mütləq istifadə etmək lazımdır.

Sonda N.Səfərov Serbiya şirkətlərinin Azərbaycanda fəaliyyətlərini qurmaq üçün münbit şəraitin olduğunu, işgüzar görüşlərin əhəmiyyətini vurğulamışdır.

Serbiyanın İqtisadiyyat və Regional İnkişaf Nazirliyinin nümayəndəsi, dövlət katibi Ciric Neboyja ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirmiş, hazırda isə iqtisadi əməkdaşlığın artırılmasının vacibliyini nəzərə çarpdırmışdır. İlk biznes forumunun daha çox tanışlıq xarakteri daşıdığını qeyd edən qonaq, iş adamları arasında ikinci görüşün cari ilin sentyabr-oktyabrında Belqradda keçirilməsinin nəzərdə tutulduğu barədə məlumat vermiş və iş adamlarını investisiya layihələrində birgə iştiraka dəvət etmişdir.

AZPROMO-nun prezidenti Adil Məmmədov Azərbaycanın biznes imkanları və investisiya mühiti, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev qurumun fəaliyyəti və həyata keçirdiyi layihələr, Serbiyanın Biznes Assosiasiyasının prezidenti Branislav Qrujiç ölkəsinin iqtisadi imkanları barədə təqdimatlar etmişlər.

Forum çərçivəsində keçirilmiş ikitərəfli görüşlərdə Azərbaycan və Serbiya iş əlaqələrinin genişləndirilməsi imkanları müzakirə olunmuşdur.

AZƏRBAYCAN MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN TƏMSİL OLUNDUĞU "SOFEX -2010" BEYNƏLXALQ SƏRGİSİ BAŞA ÇATMIŞDIR

Mayın 10-13-də İordaniya Haşimilər Krallığının Əmman şəhərində "SOFEX-2010" beynəlxalq sərgisi keçirilmişdir. Sərgidə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin

müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatlar da nümayiş etdirilmişdir.

Dörd gün davam edən sərgidə nazir Yavər Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Dünyanın inkişaf etmiş ölkələrindən 350-dən çox qabaqcıl şirkətin qatıldığı sərgidə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal edilən 55 adda müdafiə təyinatlı məmulatla təmsil olunmuşdur. Sərgilənən məmulatlar arasında atıcı silahlar, raket-artilleriya silahları, yaxın məsafəli döyüş vasitələri, müxtəlif növ döyüş sursatları və s. var idi.

Sərgidə təmsil olunan şirkətlər, sərgiyə qonaq qismində qatılan dövlət qurumları və şirkətlər Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal olunan məmulatları böyük maraqla qarşılamışlar. Ötən il İstanbulda keçirilən beynəlxalq sərgidə (IDEF-2009) olduğu kimi, bu sərgidə də "İstiqlal" tipli snayper tüfəngi və müxtəlif növ döyüş sursatları xarici ölkələrin nümayəndələrinin xüsusi marağına səbəb olmuşdur.

Tədbir çərçivəsində Müdafiə Sənayesi Nazirliyi ilə sərgiyə ev sahibliyi edən İordaniyanın, habelə sərgidə iştirak edən Türkiyənin şirkətləri arasında birgə əməkdaşlığa dair bir neçə müqavilə və niyyət protokolu imzalanmışdır.

Səfər zamanı nazir Yavər Camalovun İordaniyanın dövlət rəsmiləri, eləcə də sərgidə təmsil olunan xarici ölkə nümayəndələri ilə görüşləri olmuşdur.

BAKIDA İSLAM DÜNYASI UNİVERSİTETLƏRİ FEDERASİYASININ V BAŞ KONFRANSI KEÇİRİLMİŞDİR

Mayın 12-14-də "Gülüstan" sarayında Azərbaycan Dövlət İqtisad Universitetinin təşkilatçılığı ilə İslam Dünyası Universitetləri Federasiyasının (İDUF) V baş konfransı keçirilmişdir.

Müxtəlif ölkələrin (Azərbaycan, Türkiyə, İran, Malayziya, Misir, Pakistan, Səudiyyə Ərəbistanı, Küveyt və s.) universitetlərinin rektorlarının iştirak etdikləri konfransda çıxış edən təhsil naziri Misir Mərdanov müasir dünyada elmin, təhsilin mühüm rolundan danışmışdır.

Konfransın əhəmiyyətini vurğulayan nazir islam ölkələri universitetləri arasında əlaqələrin daha da genişləndirilməsinin, birgə elmi tədqiqatların vacibliyini diqqətə çatdırmış, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirmiş, uğurlar arzulamışdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, Milli Məclisin elm və təhsil komitəsinin sədri Şəmsəddin Hacıyev çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmin və təhsilin inkişafına daim böyük önəm verdiyini vurğulamış, bu sahə ilə bağlı Prezident sərəncamlarının əhəmiyyətindən danışmışdır.

Azərbaycanın Avropa təhsil məkanına - Bolonya prosesinə qoşulduğunu xatırladan Ş.Hacıyev təhsilimizin dünya təhsil sisteminə uğurla inteqrasiya olunduğunu söyləmişdir.

İSESKO baş direktorunun müavini Hadi Azizzadeh, Küveyt Universiteti rektorunun

müavini Najem Al-Najem və digər natiqlər islam ölkələri universitetlərində qazanılan təcrübə və nailiyyətlərdən bəhs etmiş, müvafiq sahə ilə bağlı fikir və mülahizələrini bildirmişlər.

Konfransda, həmçinin son üç il ərzində İslam Dünyası Universitetləri Federasiyasının təhsilin inkişafı üzrə həyata keçirdiyi layihələr, qarşıda duran vəzifələr barədə məlumat verilmiş, islam ölkələri universitetləri arasında əlaqələrin daha da genişləndirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Azərbaycan Dövlət İqtisad Universiteti ilə Səudiyyə Ərəbistanının Al-İmam Muhammad İbn Saud İslam Universiteti (İU) arasında əməkdaşlığa dair niyyət memorandumu imzalanmışdır.

Sənədi ADİU-nun rektoru, Milli Məclisin elm və təhsil komitəsinin sədri Şəmsəddin Hacıyev və İU-nun rektoru Sulaiman Abdullah Abalkhail imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ YAN KOHOUTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çexiya Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohoutun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Avropa İttifaqı-Azərbaycan əlaqələrinin, regional əməkdaşlığın dövlətlərimiz üçün qarşılıqlı maraq doğuran məsələlərdən olduğunu vurğulamışdır. Prezident İlham Əliyev ümidvar olduğunu bildirmişdir ki, Çexiya Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohoutun Azərbaycana səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi işinə xidmət edəcəkdir. Çexiya Respublikasının ölkəmizdə səfirliyinin açılmasının önəmini qeyd edən dövlətimizin başçısı bu hadisəni ikitərəfli münasibətlərimizin mühüm elementi kimi dəyərləndirmişdir.

Çexiya Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohout bu səfərin Çexiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərə dair məsələlərin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığını bildirmişdir. O, Azərbaycan ilə əlaqələrin Çexiya üçün strateji xarakter daşıdığını vurğulamışdır. Yan Kohout 2009-cu ildə Azərbaycanın dövlət başçısının Çexiya Respublikasına səfərinin ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsi işində xüsusi rolunu qeyd etmişdir.

BAŞ NAZİR ÇEXİYA XİN-İN BAŞÇISI İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 14-də Azərbaycanın Baş naziri Artur Rasizadə Çexiya Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohoutun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan-Çexiya münasibətlərinin son illər fəal inkişaf etdiyini deyən Azərbaycan hökumətinin başçısı əmin olduğunu bildirmişdir ki, Çexiya nümayəndə heyətinin budəfəki səfəri, aparılan danışıqlar siyasi, iqtisadi və humanitar sahələrdə ikitərəfli əlaqələrin genişlənməsinə böyük töhfə verəcəkdir. Bakıda Çexiya səfirliyinin açılması əməkdaşlığın dinamikasının yüksəlməsinə öz təsirini göstərəcəkdir.

Artur Rasizadə Çexiya nümayəndə heyətinin üzvlərinə Azərbaycanın iqtisadi uğurları, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat vermişdir.

Çexiya Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohout bildirmişdir ki, Azərbaycan onun ölkəsinin strateji tərəfdaşıdır. Ötən il Çexiyanın 6 ölkədə səfirliklərinin bağlanması barədə qərar qəbul edilməsinə baxmayaraq, Bakıda diplomatik nümayəndəliyin açılması Çexiya hökumətinin Azərbaycan ilə münasibətlərə mühüm əhəmiyyət verməsinin sübutudur.

XARİCİ İŞLƏR NAZİRİ ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 14-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Çexiya Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohout ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

E.Məmmədyarov bildirmişdir ki, görüşdə siyasi, iqtisadi, humanitar, energetika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunmuş, Azərbaycanın Çexiyada, Çexiyanın isə Azərbaycanda mədəniyyət günlərinin keçirilməsinə dair qərar qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə çexiyalı qonağa məlumat verilmiş, məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının mümkünlüyü vurğulanmışdır.

Y.Kohout qeyd etmişdir ki, Azərbaycan Çexiyanın Cənubi Qafqaz regionunda strateji tərəfdaşıdır. O, Çexiyanın Azərbaycanda səfirliyinin açılmasını buna misal gətirmiş və demişdir ki, bu addım ölkələrimiz arasında ikitərəfli münasibətləri daha da möhkəmləndirəcəkdir.

Çexiyanın Azərbaycan ilə iqtisadi sahədə əməkdaşlıqda, əsasən də enerji daşıyıcılarının nəqlində maraqlı olduğunu vurğulayan çexiyalı qonaq bildirmişdir ki, bu gün ölkəsinin istehlak etdiyi enerji resurslarının 25 faizi Azərbaycanın payına düşür. Çexiyada hər dördüncü maşın Azərbaycan benzini ilə hərəkət edir.

Çexiyanın həmçinin Azərbaycan sənayesinin inkişafında maraqlı olduğunu qeyd edən Y.Kohout demişdir: "Biz bərpa olunan enerji mənbələrinin istifadəsində və içməli suyun təmizlənməsi sahəsində təcrübəmizi Azərbaycan ilə bölüşə bilərik. Gələcəkdə elm və təhsil sahəsində də ikitərəfli münasibətləri inkişaf etdirmək istərdik".

Çexiya Baş nazirinin müavini, xarici işlər naziri Bakı-Praqa aviareysinin açılması barədə sazişin imzalanmasını yüksək qiymətləndirərək, bunun turizm sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini, habelə iki ölkənin vətəndaşları arasında əlaqələrin genişləndirilməsinə imkan yaradacağını qeyd etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunan Y.Kohout bildirmişdir

ki, Çexiya münaqişənin nizamlanması prosesinə öz töhfəsini verməyə hazırdır: Münaqişə beynəlxalq hüququn normaları və prinsipləri, o cümlədən ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ STRASBURQDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev Strasburqda Avropa Şurası Nazirlər Komitəsinin 120-ci sessiyası çərçivəsində bir sıra görüşlər keçirmişdir.

"Aqo" Qrupunun rəhbəri, səfir Stelian Stoyan ilə görüşdə ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin icrası ilə bağlı vəziyyət, parlament seçkilərinə hazırlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə olunmuşdur.

S.Stoyan Azərbaycan ilə sıx əməkdaşlıqdan məmnun olduğunu bildirmişdir.

Avropa Şurasının baş katibi Torbyorn Yaqland ilə görüşdə M.Məmmədquliyev Azərbaycanın Avropaya inteqrasiya istiqamətində gördüyü işlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat vermişdir.

Baş katib Dağlıq Qarabağ münaqişəsinin qısa müddətdə sülh yolu ilə həllini arzu etmiş, Azərbaycanın insan hüquqları, demokratiya və qanunun aliliyi istiqamətində islahatları davam etdirməsi siyasətini dəstəklədiyini vurğulamışdır. T.Yaqland qarşıdan gələn parlament seçkilərinin ədalətli və şəffaf keçirilməsi üçün Avropa Şurasının əməkdaşlığa hazır olduğunu demişdir.

Avropa İnsan Hüquqları Məhkəməsinin sədri Jan-Pol Kosta ilə görüşdə qanunun aliliyi istiqamətində Azərbaycanın həm Avropa Məhkəməsi, həm də Venesiya Komissiyası ilə yaxından əməkdaşlıq etdiyi qeyd olunmuşdur.

Avropa Şurasının Demokratiya və Siyasi Məsələlər baş direktoratlığının rəhbəri Jan-Lui Loran ilə keçirilmiş görüşün əsas müzakirə mövzusu qarşıdan gələn parlament seçkilərinə hazırlıq və AŞ-nın bununla bağlı fəaliyyət planı olmuşdur. M.Məmmədquliyev planda nəzərdə tutulmuş bir neçə tədbirin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitinin AŞ tərəfindən təmin edilməməsindən narahatlığını bildirmişdir.

Nazir müavininin Avropa Şurasının Təhsil, mədəniyyət və irs, gənclər və idman baş direktoratlığının rəhbəri xanım Qabriella Battaini-Draqoni ilə görüşdə isə Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa böyük önəm verdiyi vurğulanmışdır.

Q.Battaini-Draqoni mədəniyyətlərarası və dinlərarası dialoq sahəsində Azərbaycanın Avropa Şurasında nümunəvi dövlət olduğunu qeyd etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Ermənistan Respublikasının kütləvi informasiya vasitələrində yayılmış məlumatlara əsasən, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində 2010-cu il mayın

23-də qondarma "parlament seçkiləri"nin keçirilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bununla bağlı bir daha təkrar edir ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki tanınmamış separatçı rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında Ermənistan tərəfindən təşkil olunmuş qanunsuz qurumdan başqa bir şey deyildir. Qondarma "seçkilər" Ermənistanın anneksiya siyasətini ört-basdır etmək məqsədi ilə keçirilir və Azərbaycanın ərazilərinin davam etməkdə olan işğalının nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir.

Belə "seçkilər"in keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəalarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur, çünki sözügedən "seçkilər" Dağlıq Qarabağın əzəli azərbaycanlı əhalisi olmadan aparılır və beləliklə, heç bir hüquqi qüvvəyə malik deyildir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində keçirilən hər hansı seçkilər yalnız o vaxt ədalətli və azad qiymətləndirilə bilər ki, oradan qovulmuş azərbaycanlı əhali həmin seçkilərin keçirilməsində bütünlüklə, birbaşa və bərabər şəkildə bölgənin erməni əhalisi ilə bərabər qanuni və demokratik seçkilərdə iştirak etsinlər. Bu cür seçkilərin keçirilməsi yalnız erməni işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən çıxarılması, bölgədə həyatın normallaşdırılması, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoq və əməkdaşlığın bərpası üçün zəruri şəraitin yaradılmasından sonra mümkün olacaqdır.

Azərbaycan Respublikası erməni tərəfini heç bir perspektiv vəd etməyən qanunsuz addımlarından ibarət destruktiv fəaliyyətini dayandırmağa və bunun əvəzinə xoş məram nümayiş etdirərək münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tez və davamlı həllini tapmaq məqsədi ilə keçən il ərzində dinamik şəkildə inkişaf etmiş danışıqlar prosesində konstruktiv mövqe tutmağa çağırır.

Bakı, 14 may 2010-cu il.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA YUNİSEF-İN REGİONAL DİREKTORU STİVEN ALLEN İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 14-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Bakıda səfərdə olan YUNİSEF-in Mərkəzi, Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru Stiven Allen ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan Mehriban Əliyeva son illər Azərbaycan ilə YUNİSEF arasında sıx əlaqələrin və səmərəli əməkdaşlığın mövcud olduğunu bildirmişdir. Azərbaycanda qadın və uşaq hüquqlarının qorunması sahəsində böyük işlərin görüldüyünü vurğulayan Mehriban xanım Əliyeva bu sahədə YUNİSEF kimi təşkilatların dəstəyinin vacib olduğunu söyləmişdir.

Heydər Əliyev Fondu ilə YUNİSEF arasında işgüzar əlaqələrin qurulduğunu diqqətə çatdıran Mehriban Əliyeva, hər iki təşkilatın birgə layihələr həyata keçirdiyini qeyd etmişdir.

Azərbaycanın birinci xanımı bu görüşdən sonra ikitərəfli əməkdaşlığın daha da genişlə-

nəcəyinə ümidvar olduğunu söyləmişdir.

Bir neçə gündür Bakıda olduğunu deyən YUNİSEF-in Mərkəzi, Şərqi Avropa və MDB ölkələri üzrə regional direktoru Stiven Allen qeyd etmişdir ki, Heydər Əliyev Fondunun fəaliyyəti ilə daha yaxından tanış olmaq arzusundadır.

Görüşdə Fond ilə YUNİSEF arasında mövcud əlaqələr və görüləcək işlər müzakirə edilmişdir.

OMBUDSMAN VYANADA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova ATƏT-in "Gender bərabərliyinin təşviqi və qadınların ictimai-siyasi həyatda iştirakı" mövzusunda Vyanada keçirilmiş konfransında iştirak etmişdir.

Beynəlxalq konfrans çərçivəsində "ATƏT regionunda gender bərabərliyinin təşviqi: nailiyyətlər və mövcud çətinliklər", "Qadınların siyasi partiyaların üzvü kimi və seçkili vəzifələrdə rolunun gücləndirilməsi", həmçinin "Gender balansının təşviqi və qadınların ictimai həyatda iştirakı" mövzularında üç sessiya keçirilmişdir.

E.Süleymanova birinci sessiyada çıxış etmiş, iştirakçıları son illərdə Azərbaycanda insan hüquqları sahəsində aparılan islahatlar nəticəsində əldə olunmuş müsbət nəticələr barədə məlumatlandırmış, ölkəmizdə İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının həyata keçirildiyini bildirmişdir.

E.Süleymanova Beynəlxalq Ombudsmanlar İnstitutunun Baş katibi Peter Kostelka ilə görüşmüşdür.

Səfər çərçivəsində E.Süleymanova Böyük Vətən müharibəsində Qələbənin 65 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.

TƏHSİL NAZİRİ VƏ İRANIN AZAD İSLAM UNİVERSİTETİNİN REKTORU MÜVAFİQ SAHƏ ÜZRƏ MÜZAKİRƏLƏR APARMIŞLAR

Mayın 15-də Azərbaycanın təhsil naziri Misir Mərdanov İranın Azad İslam Universitetinin rektoru Abdullah Casbinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə M.Mərdanov Bakıda keçirilən İslam Dünyası Universitetləri Federasiyasının V baş konfransının əhəmiyyətini vurğulamış, belə yüksək səviyyəli tədbirin təşkilində İSESKO-nun mühüm rolu olduğunu bildirmişdir. Nazir, eyni zamanda, təhsil sahəsindəki əlaqələrimizdən danışmışdır.

Abdullah Casbi ölkələrimiz arasında ortaq mədəni əlaqələrin və səmərəli əməkdaşlığın mövcud olduğunu nəzərə çarpdırmışdır. Qonaq, eyni zamanda, qarşılıqlı təhsil əlaqələrinin inkişaf etdirilməsi istiqamətlərindən söhbət açmış, rəhbərlik etdiyi universitet barədə məlumat vermişdir.

Aparılan müzakirələrin əhəmiyyətli olacağını bildirən M.Mərdanov gələcəkdə ölkələrimizin təhsil sahəsində əlaqələrinin daha da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

İORDANİYA KRALI II ABDULLAHIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Mayın 15-də İordaniya Kralı II Abdullah Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Kral II Abdullahı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan İordaniya Kralı II Abdullahın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verdi.

İordaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İordaniya Kralı Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, bu səfərin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyi bildirilmişdir.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN VƏ İORDANİYANIN DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ OLMUŞDUR

Mayın 16-da təkbətək görüş başa çatandan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə da-

nışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Əlahəzrət!

Hörmətli dostlar!

Mən Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi görməkdən çox şadam. Ölkələrimiz arasında əlaqələrin inkişafından çox məmnunam. Bu əlaqələr ölkələrimiz arasında əsl qardaşlıq əlaqələridir. Əminəm ki, ölkəmizə Sizin səfəriniz ikitərəfli münasibətlərin gələcək inkişafında xüsusi rol oynayacaqdır. Biz ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət veririk. Gözəl siyasi təmaslarımız vardır, tez-tez qarşılıqlı səfərlərimiz baş tutur. İnanıram ki, bütün sahələrdə yaxşı irəliləyişin şahidi olacağıq.

Biz bütün ikitərəfli məsələləri geniş şəkildə müzakirə etdik və mövqelərimiz üst-üstə düşür. Eyni zamanda, regional inkişaf, əməkdaşlıq kimi məsələlər də müzakirə edildi. Əminəm ki, nümayəndə heyətlərimizin üzvləri öz vaxtlarını səmərəli keçirəcəklər ki, ikitərəfli əlaqələrin inkişafı üçün əlavə hansı işlərin görülməsi də müəyyən edilsin. Beynəlxalq təşkilatlar çərçivəsində bizə verdiyiniz dəstəyə görə olduqca minnətdarıq. Bu, bizim üçün çox vacibdir. Ümidvarıq ki, həm bizim üçün, həm də region üçün vacib olan dostluq, qardaşlıq əlaqələrimiz davam edəcəkdir.

Əlahəzrət, bir daha ölkəmizə xoş gəlmisiniz.

İordaniya Kralı II ABDULLAH səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Zati-aliləri!

Məni nümayəndə heyətimlə birgə Azərbaycana səfərə dəvət etdiyinizə görə, əziz qardaşım, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Siz də qeyd etdiniz ki, ikitərəfli münasibətlərimiz bütün səviyyələrdə olduqca güclüdür. Ümidvaram ki, bu səfər əvvəlki müzakirələrin nəticələri əsasında növbəti işləri görmək imkanını yaradacaqdır.

Bir daha qeyd edirəm ki, məlumat mübadiləsi, ölkələrimiz arasında təmaslar əla nümunədir. Bu işlərə rəhbərlik etdiyinizə, o cümlədən İordaniya tərəfi ilə əlaqələndirməni aparmaq üçün Azərbaycan hökumətinə verdiyiniz göstərişlərə görə Sizə minnətdarıq. Biz də İordaniyada əlaqələndirmə işlərini aparırıq. Bilirik ki, gələcəkdə görüləcək işlər çoxdur. Aramızda bir çox oxşarlıqlar vardır. Fikrimcə, biz bunlardan istifadə etməliyik. Ən vacib amil isə ondan ibarətdir ki, dövlətlərimiz arasında əlaqələrlə yanaşı, regional müstəvidə münasibətlər də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Siz və ölkəniz İordaniya üçün çox vacibsiniz. Üzləşdiyiniz çətinliklərə gəldikdə, biz hər zaman sizin tərəfinizdə olmuşuq.

Cənab Prezident, mən Sizdən şəxsən eşitmişəm ki, Siz də İordaniyaya eyni münasibət bəsləyirsiniz. İki tərəfin həmkarları arasında qurulmuş əlaqələrə əminik. Burada, Bakıda yenidən olmağımdan şərəf duyuram. Ümidvaram ki, təmaslarımız nəinki dövlət, o cümlədən şəxsi əlaqələr səviyyəsində davam edəcəkdir.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Mayın 16-da geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyev və İordaniya Kralı II Abdullah mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Əlahəzrət!

Hörmətli dostlar!

Hörmətli qonaqlar!

Əvvəlcə mən Əlahəzrəti ölkəmizdə salamlamaq istəyirəm. Çox şadam ki, bizim bu qədər yaxşı müzakirələrimiz oldu. Biz ikitərəfli münasibətlərə aid bir çox məsələləri əhatə etdik. Əlaqələrimiz çox yaxşıdır. Artıq bir neçə ildir ki, biz çox fəal əməkdaşlıq edirik və bu əməkdaşlığın yaxşı nəticələri vardır. Siyasi dialoqumuz çox fəal və dinamikdir. Biz mütəmadi olaraq görüşürük və dövlət liderlərinin qarşılıqlı səfərləri münasibətlərimizi daha da gücləndirir. Ümidvaram ki, biz gələn illər ərzində iqtisadi əməkdaşlığa daha çox diqqət yetirəcəyik. Çünki biz daha çox işlər görməliyik. İşgüzar dairələrimizin nümayəndələri arasında artıq ilkin təmaslar vardır. Lakin hesab edirəm ki, potensialımızdan daha geniş şəkildə istifadə etməliyik. Biz bu səfər çərçivəsində iqtisadi əməkdaşlığımızın praktiki aspektlərini, müxtəlif investisiya layihələrini müzakirə etdik və onları yaxın gələcəkdə həyata keçirmək niyyətindəyik.

Ölkələrimiz arasında möhkəm mədəni əlaqələr də vardır. Münasibətlərimizin uzun tarixi mövcuddur. İndi isə biz ikitərəfli məsələlərə aid gündəliyin daha da genişləndirilməsi üçün görüləsi işlər üzərində düşünməliyik.

Əlahəzrət!

Sizin və ölkənizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman açıq və birmənalı mövqeyinizə görə olduqca minnətdarıq. Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Azərbaycana verdiyiniz dəstəyə görə dərin minnətdarlığımızı bildiririk. Bu, bizim üçün çox vacib idi. Çünki Siz də bilirsiniz ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan torpaqları uzun illərdir Ermənistanın işğalı altındadır. Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beynəlxalq təşkilatlar torpaqlarımızın azad edilməsi ilə bağlı bir sıra qətnamələr qəbul ediblər. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, onlar hələ də yerinə yetirilməyib. İslam Konfransı Təşkilatı qətnamələr qəbul edib. Həmçinin ATƏT və Avropa Şurasının qərarları Azərbaycanın ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyir. Təəssüflər olsun ki, Ermənistan tərəfi həmin qətnamələrə məhəl qoymur. Torpaqlarımız artıq uzun illərdir ki, işğal altındadır. Biz məsələni sülh yolu ilə həll etməyə çalışırıq. Danışıqları konstruktiv tərzdə aparırıq və bu baxımdan Ermənistan tərəfindən də eyni yanaşmanı gözləyirik. Belə olarsa məsələ yaxın vaxtlarda həll edilə bilər.

Əlahəzrət!

Mən Sizə və hökumətinizə Azərbaycanı bu məsələdə daim dəstəklədiyinizə görə minnətdarlığımı bildirirəm. Biz isə öz növbəmizdə İordaniyaya beynəlxalq təşkilatlarda dəstəyimizi veririk. Ölkənizi dəstəkləməkdə davam edəcəyik. Xalqlarımız arasında münasibətlər çox yaxşıdır. Nümayəndə heyətlərimiz arasındakı münasibətlər də çox yaxşıdır. Fikrimcə, nümayəndə heyətlərinin üzvləri də bizdən, bizim münasibətlərdən yaxşı nümunə götürəcəklər və yaxşı əlaqələr yaradacaqlar.

Sizi ölkəmizdə qəbul etməkdən bir daha məmnun olduğumu bildirirəm. Mən Sizə və İordaniya xalqına sülh və rifah arzulayıram. Ümidvaram ki, ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətləri gələcəkdə də uğurla davam edəcəkdir.

* * *

İordaniya Kralı II ABDULLAH bəyanatla çıxış edərək dedi:

- Çox sağ olun, Zati-aliləri!

Xanımlar və cənablar!

Bakıda yenidən olmağımdan olduqca məmnunam. Ölkələrimiz arasında bu cür xüsusi münasibətlərdə irəliləyişi görməkdən çox şadam. Əminəm ki, bu gün apardığımız konstruktiv müzakirələr və bu səfər çərçivəsində imzalanacaq sənədlər əməkdaşlığımızı daha da gücləndirəcəkdir. İnanıram ki, biz nəqliyyat, kənd təsərrüfatı, enerji və xidmətlər sektorunda xüsusi əməkdaşlıq sahələrini müəyyən edə biləcəyik. Son bir neçə ildə bir sıra perspektivli imkanlar araşdırılıb. İnanıram ki, ikitərəfli münasibətlərimizin gələcəyi çox vədedicidir.

Zati-aliləri!

Digər beynəlxalq və regional, xüsusən də Yaxın Şərqdə hərtərəfli sülhün bərqərar olması üçün zəruri hesab edilən məsələlərlə bağlı Sizinlə müzakirələr aparmaqdan çox şad oldum. İsrail-Fələstin münaqişəsinin iki dövlət variantı əsasında həllinə yönələn səylərimizdə irəliləyişin əldə olunması hamı üçün təxirəsalınmaz xarakter daşıyır. Bu, İsrail dövləti ilə sülh və təhlükəsizlik şəraitində yanaşı yaşayan suveren və möhkəm Fələstin dövlətinin qurulmasına xidmət etməlidir. Bu münaqişənin həlli sabitliyin və təhlükəsizliyin bərpası üçün xüsusi əhəmiyyət kəsb edir. Biz bu məsələni Bakıda qardaşlarımızla müzakirə etdik.

Zənnimcə, ölkələrimiz arasında əməkdaşlıq genişdir. Biz beynəlxalq səviyyədə bir-birimizi hər zaman dəstəkləyirik. Zati-alilərinizin qeyd etdiyi kimi, bütün sahələrdə güclü əlaqələrimiz vardır. Mənim zati-aliləri ilə xeyli vaxtdır ki, sıx əlaqələrim mövcuddur. Uzun illərdir ki, bir-birimizi tanıyırıq. Aramızda olan bu münasibətlər hökumətlərimiz və xalqlarımız arasında olan əlaqələrdə də öz əksini tapıb. İnanıram ki, biz İordaniya ilə Azərbaycan arasında xüsusi münasibətlərimizi gələcəkdə daha da gücləndirəcəyik.

Zati-aliləri, Sizi burada və beynəlxalq tədbirlərdə görməkdən hər zaman məmnun oluram. Ölkənizə yenidən səfər etməyimdən çox şadam. Yaxın vaxtlarda Sizi yenidən görməyi səmimiyyətlə arzulayıram və dostluğumuz münasibətlərimizi bundan sonra daha da sıx edəcəkdir. Çox sağ olun və göstərilmiş çox səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin adından İordaniya Kralı II Abdullahın şərəfinə rəsmi nahar verilmişdir.

İORDANİYA KRALI II ABDULLAHIN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ

Mayın 16-da ölkəmizdə rəsmi səfərdə olan İordaniya Kralı II Abdullah onun üçün ayrılmış iqamətgahda Azərbaycanın Baş naziri Artur Rasizadəni qəbul etmişdir.

Bakıda aparılan danışıqlardan məmnun qaldığını söyləyən Kral II Abdullah demişdir ki, İordaniya Azərbaycan ilə münasibətlərə xüsusi önəm verir. Bu münasibətlər hər iki dövlətin başçıları arasında dostluq əlaqələrinə əsaslanır.

Ölkələrimiz arasında siyasi dialoqun fəal inkişaf etdiyini deyən Baş nazir Artur Rasizadə iqtisadi sahədə əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamışdır. O, ümidvar olduğunu bildirmişdir ki, İordaniya Kralının budəfəki səfəri qarşılıqlı surətdə faydalı işgüzar əlaqələrin genişlənməsinə töhfə verəcəkdir.

İORDANİYA KRALI II ABDULLAH AZƏRBAYCAN MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN ELEKTRON HESABLAYICI MAŞINLAR ZAVODUNDA İSTEHSAL EDİLMİŞ SİLAH-SURSAT VƏ HƏRBİ TEXNİKA İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda rəsmi səfərdə olan İordaniya Kralı II Abdullah mayın 16-da Müdafiə Sənayesi Nazirliyinin elektron hesablayıcı maşınlar zavodunda olmuşdur.

Müdafiə sənayesi naziri Yavər Camalov ali qonağı qarşıladı.

İordaniya Kralı əvvəlcə Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti haqqında qısa filmə baxdı.

Sonra Kral II Abdullah nazirliyin müxtəlif müəssisələrində istehsal olunan məhsulların sərgisi ilə tanış oldu. Ali qonağa məlumat verildi ki, aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə 20-dən artıq ölkənin 60-dək şirkəti ilə əməkdaşlıq yaradılmışdır.

İstehsalına artıq başlanılan silahlar sırasına əsasən döyüş sursatları, o cümlədən "Zəfər", "Zəfər K" və "İnam" tapançaları, minaatanlar, qumbaralar, minaaxtaranlar daxildir.

Məlumat verildi ki, zavodda istehsal olunan silah-sursat və hərbi texnika dünya standartlarına tam cavab verdiyi üçün son illər müəssisə öz məhsullarını beynəlxalq sərgilərdə də uğurla nümayiş etdirir. Sonuncu belə sərgi isə bu günlərdə İordaniyanın paytaxtı Əmman şəhərində təşkil olunmuşdur. Beynəlxalq sərgidə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal edilən 55 adda müdafiə təyinatlı məmulat ilə təmsil olunmuşdu.

Müəssisə ilə tanışlıq zamanı bildirildi ki, elektron hesablayıcı maşınlar zavodunda Pre-

zident İlham Əliyevin diqqət və qayğısı nəticəsində əsaslı yenidənqurma işləri aparılmışdır. Zavodda mexaniki emal, yığma, bərk xromlama və istehsalın texnoloji hazırlığı sexləri, ən müasir tələblərə cavab verən istehsal sahələri yaradılmışdır. Bu da müəssisədə yüksək beynəlxalq standartlara uyğun müdafiə təyinatlı texnikanın seriyalı istehsalını təmin etmişdir.

Zavodun sex və sahələrində istehsal prosesi, döyüş əməliyyatlarının aparılması üçün nəzərdə tutulmuş müxtəlif növ zirehli texnikanın iş prinsipləri ilə tanışlıq da Kral II Abdullahda böyük maraq doğurdu. İordaniya Kralı zirehli maşınların istehsalı sexində müxtəlif növ texnikaya baxdı.

Ali qonağa burada istehsal olunan "Matador" maşınının texniki göstəriciləri barədə məlumat verildi. Cənubi Afrika Respublikasının "Paramaunt qrup" şirkəti ilə müqaviləyə əsasən zavodda yığılan bu maşınlar dünya standartlarına cavab verir. Azərbaycan MDB məkanında bu zirehli texnikanı istehsal edən yeganə ölkədir.

SƏFƏR BAŞA ÇATDI

Mayın 16-da İordaniya Kralı II Abdullahın Azərbaycana rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞI ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ İMZALANMIŞDIR

Mayın 16-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və İordaniya Haşimilər Krallığı arasında iki müqavilənin imzalanma mərasimi keçirilmişdir.

"Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında beynəlxalq əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov və İordaniya tərəfdən xarici işlər naziri Nasir Cudeh imzalamışlar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və İordaniya Haşimilər Krallığının Ali Gənclər Şurası arasında gənclərlə iş sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən gənclər və idman naziri Azad Rəhimov və İordaniya tərəfdən xarici işlər naziri Nasir Cudeh imzalamışlar.

ABŞ MİLLİ MÜHARİBƏ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞDUR

Pentaqonun yüksək rütbəli zabitlərindən ibarət ABŞ Milli Müharibə Kollecinin nümayəndə heyəti Cənubi Qafqaza səfəri çərçivəsində Azərbaycan Diplomatik Akademiyasında (ADA) olmuşdur.

ADA-nın rektoru, səfir Hafiz Paşayev akademiya haqqında qonaqlara məlumat vermiş, ölkəmizin diplomatik missiyasının genişləndirilməsi, bu sahəyə gənclərin cəlb edilməsi, yüksək səviyyəli diplomatların və mülki qulluqçuların hazırlanmasından danışmışdır.

Ölkələrimiz arasında münasibətlərə toxunan H.Paşayev qeyd etmişdir ki, Azərbaycanda həyata keçirilən regional əhəmiyyətli enerji layihələri ABŞ-ın əvvəlki administrasiyasının dəstəyi ilə reallaşdırılmışdır.

Dağlıq Qarabağ münaqişəsinin həllini Azərbaycanın əsas problemi adlandıran ADA-nın rektoru demişdir ki, ABŞ Konqresindəki müəyyən qüvvələr Azərbaycan haqqında yanlış fikir formalaşdırmışdır. Bildirilmişdir ki, "Azadlığa Dəstək" Aktına 907-ci düzəliş Konqresdəki Azərbaycan əleyhinə qüvvələrin lobbiçilik səylərinin bir nümunəsidir. 907-ci düzəlişin ləğv olunmasının vacibliyini vurğulayan səfir Paşayev, bunun ABŞ-ın Azərbaycandakı imicini yüksəldəcəyini diqqətə çatdırmışdır.

Görüşün sonunda ABŞ Milli Müharibə Kollecinin nümayəndə heyəti ADA-nın müəllim və tələbələri ilə səmimi söhbət etmişdir.

ATƏT MƏKANINDA SÜLHÜN BƏRQƏRAR OLMASI ÜÇÜN QURUMA ÜZV ÖLKƏLƏR VƏ DİGƏR BEYNƏLXALQ TƏŞKİLATLARIN GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİ MEXANİZMLƏRİNİ HAZIRLAMAĞIN VAXTI ÇOXDAN ÇATMIŞDIR

Mayın 14-dən 16-dək Qazaxıstanın Almatı şəhərində TRANS-ASİYA Parlament Forumunun ilkin proqram layihəsi çərçivəsində "ATƏT-in Avrasiya ölçüsü" adlı forum keçirilmişdir.

Forumda Azərbaycanı Milli Məclis sədrinin müavini, ATƏT PA-dakı nümayəndə heyətimizin rəhbəri Bahar Muradovanın başçılığı ilə nümayəndə heyətinin üzvləri Eldar İbrahimov, Fəttah Heydərov və Rəbiyyət Aslanova təmsil etmişlər.

Forumun əhəmiyyəti, müzakirə olunan məsələlər barədə nümayəndə heyətinin üzvü, Milli Məclisin aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov məlumat vermişdir.

Sessiyada bir sıra məsələlər, o cümlədən iqtisadi inkişaf, ticarət resurslarının idarə edilməsi və ətraf mühitlə bağlı problemlər müzakirə olunmuşdur.

E.İbrahimov çıxış edərək 2009-cu ilin qlobal iqtisadi böhran üzündən bütün dünya ölkələri üçün sınaq ili olduğunu diqqətə çatdırmış, Azərbaycanın böhrana daha az məruz qaldığını və bunun səbəbləri barədə məlumat vermişdir. O demişdir ki, effektiv maliyyə və iqtisadi siyasətinə görə bu çətin ildə Azərbaycan iqtisadiyyatı nəinki böhranın təsirlərinə davam gətirmiş, hətta 9,3 faiz səviyyəsində artıma da nail olmuşdur. Bu, neft hasilatının artması, həm də xidmət sahəsi, kənd təsərrüfatı sahəsindəki davamlı artım hesabına təmin olunmuşdur. Regionun aparıcı iqtisadi mərkəzi kimi Azərbaycan siyasi və iqtisadi cəhətdən Avropa strukturlarına inteqrasiya etmişdir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır ki, Azərbaycanda çıxarılan qaz Ermənistan istisna olmaqla qonşu ölkələrin hamısına, həmçinin Türkiyə və Yunanıstana nəql olunur. Neftimiz dünyanın bir çox ölkələrinə ötürülür və bununla da Azərbaycan bütün ATƏT məkanında enerji təhlükəsizliyin təminatı məsələsinə öz töhfəsini vermiş olur.

Ölkəmiz beynəlxalq ticarətin genişlənməsinə və Dünya Ticarət Təşkilatına daxil olmağa böyük önəm verir. Hazırda bu haqda bəzi ölkələrlə razılıq protokolları imzalanmış, digər maraqlı dövlətlərlə də danışıqlar aparılır. 2009-cu ildə Azərbaycan dünyanın 137

ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. İldən-ilə bu şəbəkə genişlənir və beynəlxalq ticarət məhsullarının siyahısı böyüyür.

Hasilat sənayesində şəffaflıq təşəbbüsləri üzrə konfransın iştirakçısı olan Azərbaycan xarici neft şirkətləri ilə əməkdaşlıqda şəffaf və müsbət durum yaranmasına nail olmuşdur. Neft və qazın qənaətlə işlədilməsi məqsədi ilə, alternativ və bərpa olunan enerji mənbələri, Azərbaycanda bol olan külək və günəş enerjilərindən istifadə üzrə işlər aparılır.

E.İbrahimov Dağlıq Qarabağ münaqişəsi barədə də məsələ qaldırmış, ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərdən danışmışdır. O demişdir ki, Azərbaycanın uğurları ilə yanaşı, təbii ki, problemlər də mövcuddur. Onlardan ən əsası Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etdirilməsidir. Bildirilmişdir ki, işğal illərində nadir ağaclarla zəngin olan 20 min hektar meşə, zəngin flora və faunanın 30 növü məhv edilmişdir. Məqsədli yanğınlar nəticəsində 80 min hektar Azərbaycan torpaqları, o cümlədən yaşayış məntəqələri, qəbiristanlıq və tarixi obyektlər tam məhv olunmuşdur. Azərbaycanın işğal edilmiş torpaqlarında toksik axıntılar, sənaye müəssisələrinin zəhərli tullantıları sayəsində yerə, havaya və suya ziyan vurulur.

E.İbrahimov nümayəndə heyətimiz adından qeyd etmişdir ki, ATƏT məkanında sülhün bərqərar olması üçün ATƏT-ə üzv ölkələr və digər beynəlxalq təşkilatların götürdüyü öhdəliklərin yerinə yetirilməsi mexanizmlərini hazırlamağın vaxtı çoxdan gəlib çatmışdır.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan mayın 17-də Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına beynəlxalq hava limanında qardaş ölkənin hökumət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar ali qonağa və xanımına gül-çiçək dəstələri təqdim etdilər.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan mayın 17-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Ali qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini anmış, məzarı üstünə tər güllər düzmüşdür.

TÜRK ƏSGƏRLƏRİNİN XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mayın 17-də Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etdi.

Türkiyənin Baş naziri abidənin önünə əklil qoydu.

Ali qonaq Xatirə kitabına ürək sözlərini yazdı.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Mayın 17-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyənin Baş nazirinə raport verdi.

Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyənin Baş naziri Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişafından məmnunluq ifadə olundu. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsi baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Mayın 17-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, səfəriniz uğurlu olacaq. Biz indi təkbətək görüşdə çox geniş fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlərin bütün sahələri bir daha nəzərdən keçirildi. Bir daha gördük ki, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, xalqlarımız bir-biri ilə sıx əməkdaşlıq edir, bütün birgə təşəbbüslərimiz, layihələrimiz uğurla icra edilir. Əminəm ki, Sizin səfəriniz ikitərəfli əlaqələrin inkişafı üçün də çox vacib addım olacaq və səfərin çox gözəl nəticələri olacaqdır. Türkiyə və Azərbaycan - iki dost, qardaş ölkə həmişə olduğu kimi, uğurla əməkdaşlıq edirlər və qarşımızda duran bütün çağırışlara, bütün vəzifələrə birgə münasibət göstərirlər. Əminəm ki, bu gözəl ənənələr gələcəkdə də davam edəcək və xalqlarımız bir-birinə daha da yaxın olacaqlar.

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha salamlayıram, xoş gəlmisiniz.

* * *

Türkiyənin Baş naziri Rəcəb Tayyib ƏRDOĞAN səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Çox təşəkkür edirəm. Dəyərli qardaşımla Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətləri, bölgədəki vəziyyəti, dünyada gedən inkişaf proseslərini qiymətləndirmək fürsətimiz oldu. Bunları ən yaxın mənada dəyərləndirmək fürsətimiz olduğu üçün çox məmnunam. Nazir dostlarımız bir-birileri ilə ən azından görüşmək fürsəti tapa bildilər. Bu da bizim üçün gözəl bir fürsət oldu.

Türkiyə-Azərbaycan ayrılmaz iki qardaşdır. Bizlər bir ailənin iki üzvüyük. Təbii ki, ulu öndər Heydər Əliyevin ifadə etdiyi kimi, biz bir millət, iki dövlətik. Biz bu kəlamı hər zaman söyləyirik. Bu, təbii ki, sözdə deyil, əməldə də özünü göstərir və göstərəcəkdir. Biz bir-birimizə güc verməklə gələcəyini hazırlayan iki ölkəyik. İnanıram ki, birgə səylərimiz, çalışmalarımız bəhrəsini hər sahədə verir.

Azərbaycana hər səfərimdə ölkənizi daha da irəliləmiş, inkişaf etmiş görəndə sevinc içində oluram. Bu gəlişimdə də Azərbaycanın daha da inkişaf etdiyini və etməkdə olduğunu gördüm. Buna görə də çox şadam. Bu, bizləri sevindirir. Azərbaycanın inkişaf etməsi, zənginləşməsi bizim zənginliyimizdir. İnanıram ki, bizim zənginliyimiz də, eyni şəkildə Azərbaycanın zənginliyidir. Daxildəki rahatlığımız eyni şəkildə bir-birimizin rahatlığıdır. Mən də bu səbəbdən yenə də birlikdə olmağımızın sevincini yaşayıram. Təbii ki, qarşıda yenə beynəlxalq toplantılarımız vardır. Yenə də bir yerdə olacağıq. Bu səbəbdən çox təşəkkür edirəm. Xeyirli olsun deyirəm.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSI

Mayın 17-də geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Əziz qardaşım, bir daha Sizi Azərbaycanda səmimiyyətlə

salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Biz bu səfərə çox böyük önəm veririk. Çünki bu səfərin nəticələri iki ölkə arasında əlaqələrin inkişafı üçün çox önəmlidir. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr çox uğurla inkişaf edir. Bu əlaqələr dostluq-qardaşlıq əsasında qurulubdur. Bizim çox zəngin birgə tariximiz, ortaq dəyərlərimiz vardır. Bu gün Türkiyə ilə Azərbaycan arasında əlaqələr bu möhkəm təməl əsasında qurulur. Son iyirmi ilə yaxın müddətdə Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim yüksək səviyyədə olmuşdur. Bu gün bu gözəl ənənələr davam edir və bütün məsələlərdə əməkdaşlığımız yaxşı nəticələr verməkdədir.

Siyasi əlaqələr çox yüksək səviyyədədir. Baxmayaraq, iqtisadi sahədə hələ çox iş görülməlidir, ancaq onu da qeyd etməliyik ki, qarşılıqlı ticarət dövriyyəsi artır və ticarət dövriyyəsinin strukturu da müsbətdir. Energetika sahəsində aramızda olan əlaqələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün çox böyük əhəmiyyətə malikdir. Bizim birgə həyata keçirdiyimiz layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri bu gün Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyini təmin edir. Şübhə yoxdur ki, biz enerji sahəsində əməkdaşlığı gələcəkdə bu gözəl təməl əsasında daha da gücləndirəcəyik. Bunu etmək üçün bütün imkanlar vardır.

Bütün başqa sahələrdə də əlaqələrimiz bizi qane edir. Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk.

Keçən il Naxçıvanda türkdilli dövlətlərin başçılarının zirvə görüşünün keçirilməsi və o zirvə görüşünün nəticələri türk dünyasının birləşməsinə xidmət göstərmişdir. Bu gün Bakıda biz həyatımızda çox əlamətdar hadisə kimi yadda qalacaq gözəl mərasimdə iştirak edəcəyik. Biz türk dünyasının böyük oğlu, böyük öndər Mustafa Kamal Atatürkün abidəsinin açılışında bərabər iştirak edəcəyik. Bu abidənin açılışı böyük öndərin xatirəsinə verilən qiymətdir. Azərbaycan xalqının onun xatirəsinə göstərdiyi hörmətdir. Eyni zamanda, Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı, xalqlarımız arasında dostluq-qardaşlıq münasibətlərinin gücləndirilməsi üçün də bunun böyük əhəmiyyəti vardır.

Bu gün biz əlbəttə ki, regional məsələləri də geniş şəkildə müzakirə etdik. Xüsusilə bölgədə təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını bir daha müzakirə etdik. Mən hörmətli cənab Baş naziri danışıqların son vəziyyəti ilə bağlı məlumatlandırdım. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri uzun illərdir ki, pozulubdur. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Etnik təmizlə-

mə siyasəti nəticəsində bir milyon Azərbaycan vətəndaşı öz torpağında qaçqın-köçkün vəziyyətindədir. Bu, böyük ədalətsizlikdir. Beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından çıxarılmasına dair 4 qətnamə qəbul edibdir. Bu qətnamələr icrasız qalıbdır. İslam Konfransı Təşkilatı, ATƏT, Avropa Şurası, digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlar qəbul edibdir. Ancaq əfsuslar olsun ki, danışıqlar prosesində heç bir müsbət irəliləyiş yoxdur. Azərbaycan bütün dövrlərdə özünü danışıqlar prosesində konstruktiv aparır. Eyni yanaşmanı biz Ermənistan tərəfindən gözləyirik ki, işğala son qoyulsun, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıda bilsinlər və ondan sonra bölgədə genişmiqyaslı sülh yarana bilər.

Bir daha demək istəyirəm ki, bizim bugünkü görüşümüz həmişə olduğu kimi, dostluq-qardaşlıq şəraitində keçirilib. Nümayəndə heyətlərinin bütün üzvləri bir-biri ilə sıx əlaqədədirlər. Türkiyə-Azərbaycan əlaqələri möhkəm təməl üzərində qurulubdur. Bu əlaqələr sarsılmaz əlaqələrdir. Bu əlaqələrin inkişafı üçün biz bundan sonra da çalışacağıq. Hörmətli Baş nazirin, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın Azərbaycana bugünkü səfəri bu əlaqələrin inkişafı üçün də çox önəmli addım olacaqdır.

* * *

Türkiyənin Baş naziri Rəcəb Tayyib ƏRDOĞAN bəyanatla çıxış edərək dedi:

- Mən də çox təşəkkür edirəm. Xüsusilə də, Azərbaycana reallaşdırdığımız bu səfərdə yenə öz evimizdə, öz ailə şəraitimizdə ikitərəfli münasibətlərimizi istər təkbətək, istərsə də heyətlərarası görüşlər şəklində həyata keçirmiş olduq. Həmişəki kimi, həqiqətən, çox məhsuldar görüşlər oldu.

Bu müddət mənim üçün təbii ki, bir az uzun bir dövr idi. Uzun bir müddətdən sonra Bakıya belə bir səfər baş tutdu. Amma bundan sonra daha da tez-tez görüşlər olacaqdır. Çünki, iyun ayının 7-8-də hörmətli Prezidentinizi ölkəmizdə, İstanbulda qəbul edəcəyik. Daha sonra təbii ki, inşallah, yenə gələcəkdir. Biz yenə gələcəyik, nazirlərimiz gələcəklər. Təbii ki, aramızdakı əlaqələr fərqlidir. Siyasi, hərbi, ticari, iqtisadi, mədəni və bütün sahələrdə bu səfərlərin davamı mütləqdir. Əlaqələrimiz bundan sonra da eyni şəkildə, eyni qətiyyətlə davam edəcəkdir.

Təbii ki, bu gün keçirdiyimiz görüşlərdə, xüsusilə də hörmətli Prezidentlə ən önəmli addımlardan biri yüksək səviyyədə strateji əməkdaşlıq şurasının qurulması istiqamətində verdiyimiz qərardır. Dostlarımız indi bu istiqamətdə bütün səylərini səfərbər edərək fəaliyyətlərini davam etdirəcəklər. Arzu edirəm ki, İstanbul səfərində bunun imzalarını da birlikdə atmaq imkanımız olsun. Bu, təbii ki, çox geniş, hərtərəfli bir işdir və Türkiyə ilə Azərbaycan arasında gələcəyi əhatə edən ən mühüm addım olacaqdır. Bununla yanaşı xüsusilə, iqtisadi sahədə fərqli addımlar atmaqla aramızdakı mövcud münasibəti əldə etdiyimiz indiki nöqtədən daha da irəliyə aparmaq lazımdır. Bilirəm ki, dünyada hökm sürən iqtisadi böhrandan Azərbaycan da uğurla çıxan ölkələrdən biri olmuşdur. Vəziyyəti daha yaxşı qiymətləndirən ölkələrdən biri olmuşdur. Türkiyə də böhrandan ən az zərərlə çıxan ölkələrdən biri oldu. Bu həmrəyliyimizin bizi gələcəyə daha da qətiyyətlə aparacağına inanıram.

Hörmətli Prezident bizi Dağlıq Qarabağ mövzusunda məlumatlandırdı. Ötən dövr ərzində Azərbaycan münaqişənin həllinə konstruktiv yanaşmışdır və bu mövqeyini davam etdirir. Xüsusilə, Minsk qrupu həmsədrlərinin son təklifi Azərbaycan tərəfdən müsbət qarşılanarkən, Ermənistanın hələ də həmin məsələyə münasibət bildirməməsi Azərbaycanın bu işə konstruktiv yanaşmasını ortaya qoyur. Biz də nüvə təhlükəsizliyi ilə bağlı zirvə görüşündə bu mövzuda bəzi görüşlər keçirdik. Çox təəssüflər olsun ki, bu görüşlərdə eyni vəziyyəti gördük. Bu, təbii ki, bizim üçün də arzuolunmazdır. Arzu edərdik ki, orada konstruktiv yanaşmanı görək və bu konstruktiv yanaşma çərçivəsində gələcək daha yaxşı olsun. Biz təbii ki, bu qətiyyətli addımlarımızı eyni şəkildə davam etdirəcəyik. Amma düşünürəm ki, Minsk qrupu da bu dövr ərzində qətiyyətini ortaya qoymalıdır. Necə ki, mayın 12-13-də hörmətli Medvedevin Türkiyəyə səfərində də onunla bu mövzunu müzakirə etdik. Amerikada da istər hörmətli Obama ilə, istərsə də hörmətli Medvedevlə bu mövzunu müzakirə etmək imkanımız olmuşdu. Bundan bir həftə əvvəl də hörmətli Sarkozi ilə Fransada bu mövzunu müzakirə etdik. Biz bu mövzu ilə əlaqədar həssaslığımızı eyni şəkildə davam etdiririk, bundan sonra da davam etdirəcəyik. Çünki Azərbaycanın bu probleminə bizim əhəmiyyət verməməyimiz mümkün deyildir. Hər zaman bu işi yaxından izləməyə çalışacağıq.

Təbii, bu səfər çərçivəsində hörmətli Prezidentin tapşırığı və razılığı ilə inşası tamamlanan Atatürk abidəsinin açılışında birlikdə iştirak edəcəyik. Buna görə də şəxsən öz adımdan və millətim adından Prezidentə çox-çox təşəkkür edirəm. Həmin abidənin açılışı da həm səfərimizi, həm də Türkiyə-Azərbaycan birliyini daha da möhkəmlədən yeni bir addım olacaqdır. Bu arada təbii qazla əlaqədar mövzu dostlarımız tərəfindən yekun mərhələyə çatdırılmışdır. Amma istəyirik ki, bunu möhkəmləndirməyi hörmətli Prezidentin Türkiyəyə səfəri zamanı gerçəkləşdirək, Türkiyədə bu addımı atmış olaq. Mən bir daha şəxsən öz adımdan və bütün nümayəndə heyətim adından Sizə çox-çox təşəkkür edirəm. Sağ olun, var olun.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.

* * *

Duyğu GÜVƏNC (Türkiyə): Hörmətli Əliyev, əgər Ermənistan yenilənmiş Madrid sənədinə razılıq verərsə, Türkiyə və Azərbaycan eyni anda Ermənistanla sərhədləri açacaqmı? İkinci sualım isə budur ki, Azərbaycan qazını Nabukkoda görə biləcəyikmi?

Prezident İlham ƏLİYEV: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün uzun illərdir ki, səylər göstərilir. Azərbaycan bütün dövrlərdə məsələnin ədalətli, beynəlxalq hüquq normaları əsasında və sülh yolu ilə həllinin tərəfdarı olmuşdur. 1994-cü ildə atəşkəs rejimi bağlandı. Danışıqlar 16 ildir davam edir və deyə biləRəm ki, nəticəsiz davam edir. Buna baxmayaraq, Azərbaycan hələ də sülh prosesinə sadiqdir. O ki qaldı yenilənmiş Madrid prinsiplərinin əsasında verilən təklifə, bir daha demək istəyirəm ki, Azərbaycan tərəfi prinsip etibarilə, çox kiçik istisnalarla bu təklifi qəbul etdi. Biz eyni yanaşmanı Ermənistan tərəfindən də gözləyirik. Baxmayaraq ki, təklif rəsmən verilməndən sonra təxminən 6 ay vaxt keçibdir və Ermənistan tərəfindən müsbət cavab verilməyibdir. Biz bunu belə qəbul edirik ki, sadəcə olaraq Ermənistan tərəfi çalı-

şır ki, vaxtı uzatsın. Məsələnin həlli üçün önəmli addımlar atmasın və beləliklə, bu danışıqlar prosesini daimi prosesə çevirsin. Əlbəttə ki, biz buna heç cür razılıq verə bilmərik. Danışıqlar prosesinin müəyyən çərçivələri olmalıdır. Eyni zamanda, vaxt çərçivələri olmalıdır. Minsk qrupu 1992-ci ildə yaradılıbdır. İyirmi ilə yaxındır ki, danışıqlar gedir. Bütün dövrlərdə danışıqların həlledici məqamlarında Ermənistan tərəfi addımlar atıb ki, danışıqları pozsun. Əfsuslar olsun ki, bu gün də biz eyni mənzərəni müşahidə edirik.

Ona görə Ermənistan tərəfi öz mövqeyini bildirməlidir. Ya Rusiya, Fransa, Amerika tərəfindən verilmiş təklifə müsbət cavab verəcək və o təqdirdə biz məsələnin həllinə yaxınlaşacağıq. Ya da ki, mənfi cavab veriləcək və beləliklə, danışıqlar prosesi pozulacaq və Ermənistan ilə Azərbaycan arasında yeni dövr başlaya bilər. Əgər Ermənistan tərəfi verilən təklifə müsbət cavab verərsə və bunun əsasında Azərbaycan torpaqlarından Ermənistanın işğalçı qüvvələrinin çıxması prosesi başlanarsa, Azərbaycan təbii ki, Ermənistanla bütün sərhədləri açacaqdır. Bütün kommunikasiyalar açılacaqdır və beləliklə, bölgədə tammiqyaslı sülh və təhlükəsizlik tədbirləri təmin oluna bilər.

O ki qaldı, Azərbaycan qazının ixracına, bilirsiniz ki, bu gün Azərbaycan qazı mövcud olan və tikintisi nəzərdə tutulan kəmərlərin əsas mənbəyidir. Azərbaycan uzun illərdir ki, öz neft-qaz potensialını işə salıbdır və böyük kəşfiyyat işləri aparılıbdır. Bizim neft-qaz imkanlarımız çox genişdir. Bu gün Azərbaycan qazı müxtəlif istiqamətlərdə qonşu ölkələrə nəql edilir. Biz çalışırıq ki, bu coğrafiyanı genişləndirək. Əgər bizə məqbul şərtlər verilərsə, əlbəttə ki, biz istənilən qaz layihəsinə qoşula bilərik. Bu gün çox sevindirici hal ondan ibarətdir ki, keçən ay Türkiyə ilə Azərbaycan arasında qaz satışı və nəqli ilə bağlı bütün məsələlər öz həllini tapıbdır. Yəni prinsip etibarilə biz bütün məsələləri razılaşdırdıq. İndi konkret texniki işlər aparılır ki, artıq saziş imzalamaya hazırlansın.

Bizim enerji siyasətimiz həmişə çox açıq və aydın olmuşdur. Biz şaxələndirmə siyasətini təmin edirik. Yəni Azərbaycan ixracın şaxələndirilməsi işində öz rolunu oynayır. Bizim təbii ehtiyatlarımızı nəzərə alıb demək olar ki, növbəti onilliklər ərzində Azərbaycan çox etibarlı qaz ixrac edən ölkə kimi özünü dünyada daha da geniş mənada təqdim edəcəkdir.

Qənirə ATAŞOVA (ANS, Azərbaycan): Mənim sualım Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanadır. Türkiyə ilə Ermənistan arasında imzalanan protokolların ratifikasiyasının gələcəyi ilə bağlı konkret fikrinizi bilmək istərdim. Ümumiyyətlə, bildiyimiz kimi, protokollarda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konkret məsələ nəzərdə tutulmur. Bu, o deməkdirmi ki, münaqişənin nizamlanmasında ciddi irəliləyişə nail olunmayınca, protokollar ratifikasiya oluna bilər?

Rəcəb Tayyib ƏRDOĞAN: İsveçrədə Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi adlandırdığımız anlaşmaların imzalanması hazırda məhz Ermənistan tərəfindən dondurulmuş vəziyyətdədir. Bizdə isə bu iş bildiyiniz kimi, parlamentə həvalə edilmişdir. Ancaq bizim parlamentə həvalə edilmiş bu normallaşma prosesi istiqamətindəki protokolla əlaqədar çox açıq və dəqiq bir ifadəmiz vardır. O da nədir?! Dedik ki, bu Dağlıq Qarabağ mövzusu, rayonlar məsələsi Ermənistan-Azərbaycan arasındakı problem öz həllini tapmadan Türkiyə Böyük Millət Məclisindən müsbət bir qərarın çıxması mümkün deyildir. Bu, çox açıq və dəqiq surətdə göz qabağındadır. Bunu Minsk qrupu həmsədrlərinin üçünə də söylədik, izah etdik. Onlar bu istiqamətdə daha fəal olmalı və Ermənistana da bu işin əhəmiyyətini, önəmini izah etməlidirlər. Madrid məsələsini də bunun üçün fəal şəkildə gündəmə gətirdik. Digər məsələləri də gündəmə gətirdik. Amma Ermənistanın hələ də bu məsələdə həssaslığının olmadığını görürük. Bildiyiniz kimi, Soçi görüşündən sonra 4 ay vaxt keçməsinə baxmayaraq, hər hansı irəliləyiş yoxdur.

Seçil Özer (Türkiyə): Mənim cənab Ərdoğana bir sualım olacaq. Bu gün Tehranda tarixi bir addım atıldı. Uzun müddət Türkiyənin can atdığı bir məsələ idi. Nələr yaşandı və bu nöqtəyə gəlindi? Bir də məlum olduğu kimi, Qərb dövlətlərinin sanksiyaları ilə bağlı bəzi fəaliyyətləri vardır. Bu addım həmin sanksiya çalışmalarına son qoyacaqmı? Sizin bu mənada Qərb ölkələrinə, BMT-yə bir mesajınız varmı?

Rəcəb Tayyib ƏRDOĞAN: Çox təşəkkür edirəm. Əvvəlcə təbii ki, üç xarici işlər nazirinin, həqiqətən çox mühüm səyləri oldu. Xarici işlər nazirimiz Davudoğlu, Braziliya xarici işlər naziri Amorim və İran xarici işlər naziri Mottəki, İranın təbii, xüsusilə, uran ilə bağlı bu prosesə rəhbərlik edən naziri hörmətli Cəlilinin sədrliyi ilə, həqiqətən 18 saatlıq gərgin fəaliyyət göstərdilər. Mən Tehrana gecə saat bir radələrində enərkən toplantını yenicə bitirmişdilər və orada onlardan nəticələri aldıq.

Təbii ki, məsələ ilə bağlı birgə bəyanat yayımlandı. Bu bəyanatda istər Türkiyədə az zənginləşdirilmiş uranın təhlükəsizliyinin təminatı, yəni əminliklə Türkiyədə saxlanması, qalması və haradan gətirilməsi məsələləri əksini tapmışdır. Beynəlxalq Atom Enerji Agentliyi bu işin əlaqələndiricisi olacaqdır. Amma ABŞ, Rusiya, Fransa bu işdə öz yerlərini əhəmiyyətli şəkildə qoruyurlar. Burada məlum 120 kiloqramlıq yanacağın İrana verilməsi məsələsi vardır.

Ancaq bir ay ərzində İranın 1200 kiloqramlıq az zənginləşdirilmiş uranı Türkiyəyə təhvil verməsi və ondan sonra da bir il ərzində bu 120 kiloqramlıq yanacağın İrana verilməsi məsələsi vardır. Türkiyə bu 120 kiloqramlıq yanacaq haradan gəlibsə oraya təhvil verəcəkdir, bunu həyata keçirəcəkdir.

Təbii ki, burada Türkiyəyə olan inam çox mühüm əhəmiyyət kəsb edir. İranın Türkiyəyə etimadı çox əhəmiyyətlidir. Eyni şəkildə prosesi dəstəkləyən və bu prosesə faydası olan Braziliyanın mövqeyi çox mühümdür. Buradan Braziliyanın Prezidenti cənab Lulaya da çox təşəkkür edirəm. Çünki, biz prosesi necə yaxından izlədiksə, onlar da bizim qədər yaxından izlədilər. Beləliklə də bu anlaşma orada dünyaya bəyan edildi. İnanıram ki, hər hansı bir sıxıntıya uğramadan prosesi izləyən dünya ölkələri də bu işə lazım olan dəstəyi verəcəklər. Beləliklə, dünyada sülh hər hansı bir sıxıntıya düşməz. Bu mövzuda deyəcəyim bu qədərdir.

Sanksiyalara gəldikdə isə, əgər, bütün dünya ölkələri bu səylərə müsbət mövqedən yanaşarlarsa, sanksiyadan söhbət gedə bilməz. Türkiyə ilk mərhələdən etibarən öz səmimi niyyətini göstərmişdir. Bu məsələlərlə bağlı olaraq BMT-nin Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvlərinin hər biri ilə görüşlər keçirmişik. Mənim əsas gözlədiyim birgə bəyannamədən sonra sanksiyanın söhbət mövzusu olmamasıdır. İstər mən, istər xarici işlər nazirimiz, istər hörmətli Lula BMT Təhlükəsizlik Şurasının daimi üzvlərini və digərlərini tez bir zamanda məlumatlandırmağa başlayacağıq. Biz bu işə başlamışıq və bunu davam etdirəcəyik. Əsas məsələləri onsuz da bildirmişik. Bundan əlavə də

ikitərəfli görüşlərlə bu prosesi davam etdirəcəyik.

Ceyhun QULİYEV (Azərbaycan Televiziyası): Mənim sualım Türkiyənin Baş nazirinədir. Hörmətli cənab Baş nazir, bildiyiniz kimi, Bakı-Tbilisi-Qars dəmir yolu tikilməkdədir və Azərbaycan tərəfi məsələ qaldırmışdır ki, bu yol, eyni zamanda, Naxçıvana qədər də uzansın. Türkiyənin hazırda bu məsələ ilə bağlı mövqeyi necədir?

Rəcəb Tayyib ƏRDOĞAN: Planlaşdırdığımız kimi, qətiyyətli bir şəkildə bu fəaliyyəti davam etdiririk və etdirəcəyik. Bundan kimsə narahat olmasın. Çünki, Naxçıvanın bu problemini həll etmək bizim əsas vəzifəmizdir. Bildiyiniz kimi, iyunun 17-də hava yolu ilə daşınmalara başlayacağıq və böyük ehtimalla xarici işlər nazirlərimiz, inşallah, açılış mərasimində iştirak edəcəklər.

Türk Hava Yolları həftədə 3 dəfə İstanbuldan Naxçıvana səfərlər həyata keçirəcəkdir.

BAKIDA TÜRKİYƏ RESPUBLİKASININ BANİSİ MUSTAFA KAMAL ATATÜRKÜN ABİDƏSİ AÇILMIŞDIR

Mayın 17-də Bakının Nəsimi rayonunda, Türkiyənin Azərbaycandakı səfirliyinin qarşısında, Səməd Vurğun və Bakıxanov küçələrinin kəsişməsindəki parkda, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi açılmışdır.

Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etmişlər.

Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş parkda bu əlamətdar hadisə münasibətilə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm adamları, ictimaiyyətin nümayəndələri Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan abidənin ətrafında yaradılmış şəraitlə tanış oldular. Məlumat verildi ki, abidənin müəllifi Xalq Rəssamı, heykəltəraş Ömər Eldarovdur. Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün abidəsinin ucaldığı bu park bundan sonra paytaxt sakinlərinin ən maraqlı istirahət yerlərindən biri olacaqdır. Abidə və onun ətrafında yaradılmış şərait paytaxtın bu hissəsinə xüsusi yaraşıq verəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mərasimdə nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli Əminə xanım!

Əziz qonaqlar!

Hörmətli dostlar!

Sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Bakının mərkəzində türk dünyasının böyük oğlu, böyük öndər Mustafa Kamal Atatürkün abidəsinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Mən çox şadam ki, bizim üçün bu əlamətdar gündə mənim əziz dostum, qardaşım, Türkiyənin Baş naziri böyük heyətlə iştirak edir. Bu tarixi günü biz birlikdə qeyd edirik.

Böyük dövlət xadimi, böyük sərkərdə, böyük siyasətçi Mustafa Kamal Atatürk Azərbaycan xalqının qəlbində böyük iz buraxmışdır. Azərbaycan xalqı böyük öndərin xatirəsini həmişə öz qəlbində saxlayıb və bu gün də saxlayır.

Biz hamımız yaxşı bilirik ki, Mustafa Kamal Atatürk Azərbaycanı çox sevirdi, Azərbaycana xüsusi münasibət bəsləyirdi. Onun "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz" tarixi kəlamı bizim üçün həmişə olduğu kimi çox vacibdir. Bu bir yoldur, o bir yol göstərib. İki qardaş xalq bu yolda bərabər addımlayır.

Tarix belə gətirdi ki, müəyyən dövr ərzində bizi tarix və tarixi hadisələr ayırdı. Ancaq baxmayaraq ki, Azərbaycan müstəqil ölkə kimi yalnız 20 ilə yaxındır yaşayır, bundan əvvəlki dövrlərdə də bizim qəlbimiz, duyğularımız bir döyünürdü. Bir-birimizə olan dostluq, qardaşlıq münasibətlərini heç bir siyasi quruluş, yaxud da ki, siyasi təşəbbüs dəyişdirə bilməzdi. Təsadüfi deyildir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, müstəqilliyimizi ilk tanıyan qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər biz bütün dövrlərdə və bütün istiqamətlərdə birlikdə fəaliyyət göstəririk. Bizim aramızda dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir. Türkiyənin Baş nazirinin Azərbaycana bugünkü səfəri bunu bir daha təsdiqləyir.

Biz elə etməliyik ki, bundan sonrakı illərdə, əsrlər boyu həmişə bir yerdə olaq. Türk dünyasının böyük liderləri bizə bunu vəsiyyət etmişlər. XX əsrin əvvəllərində böyük Atatürkün məşhur kəlamları bu gün də öz aktuallığını saxlayır. XX əsrdə Azərbaycan xalqının böyük lideri Heydər Əliyevin kəlamları da bizim üçün həmişə yol göstərir. O demişdir ki, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Biz bu tarixi şəxsiyyətlərin sözlərinə sadiqik. Bu sadiqliyi ürəyimizdə saxlayırıq. Elə etməliyik ki, gələcək nəsillər də bu dostluq, qardaşlıq şəraitində yaşasınlar, daim bir-birinə kömək etsinlər, daim bir-birinin qayğıları ilə yaşasınlar. Bu iki tarixi ifadə sadəcə olaraq sözlər deyildir. Onun arxasında çox dərin məna dayanır. Bu tarixi kəlamlar bizim yolumuzu işıqlandırır. Bizim yolumuz həmişə açıq olmalıdır, nurlu olmalıdır. Bunu təmin etmək üçün biz həmişə bir yerdə olmalıyıq.

Bu gün Türkiyə və Azərbaycan arasında əlaqələr, bizim birgə nümayiş etdirdiyimiz birlik təkcə xalqlarımız, ölkələrimiz üçün deyil, bölgə üçün, dünya üçün önəmlidir. Türkiyə bu gün dünyada çox fəal və önəmli müsbət rol oynayır. Bölgədə gedən proseslərə Türkiyənin təsir imkanları artır. Türkiyə gündən-günə güclənir. Bu, bizi çox sevindirir. Çünki Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da o qədər də güclü olacaqdır.

Azərbaycan da, eyni zamanda, sürətlə inkişaf edir. Burada görülən tədbirlər, aparılan işlər bizi böyük dərəcədə gücləndirə bilmişdir. 1991-ci ildə müstəqilliyi bərpa edəndə Azərbaycanda vəziyyət çox ağır idi. Ölkə böhran içində idi. Ölkənin müstəqil həyatı əslində sual altında idi. Bu gün isə Azərbaycan ən dinamik inkişaf edən ölkədir. O ölkədir ki, öz maraqlarını qorumaqla bölgədə genişmiqyaslı əməkdaşlığın dərinləşməsi üçün

praktiki addımlar atır.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr çoxşaxəlidir, çox genişdir. Əlbəttə ki, bu əlaqələr çox möhkəm tarixi və mədəni köklər əsasında qurulubdur. Xalqlarımız arasındakı dostluq, qardaşlıq duyğuları bu əlaqələri möhkəmləndirir. Eyni zamanda, birgə həyata keçirdiyimiz layihələr, istər nəqliyyat, istər energetika, istər mədəniyyət sahələrində, istər humanitar sahədəki bütün addımlarımız bizi bir-birimizə daha da yaxın edir. Türkiyə-Azərbaycan əlaqələri regional əməkdaşlıq üçün başlıca şərtdir və bizim maraqlarımız nəzərə alınmadan bölgədə heç bir təşəbbüs reallaşa bilməz.

Türkiyə-Azərbaycan əlaqələri deyə bilərəm ki, türk dünyasının daha da sıx birləşməsi üçün həlledici rol oynayır. Keçən il Naxçıvanda keçirilmiş türkdilli dövlət başçılarının zirvə görüşü, görüşün nəticələri, əldə edilmiş qərarlar bir daha göstərdi ki, biz hamımız çalışmalıyıq və çalışırıq ki, türk dünyasını daha da sıx birləşdirək. Əgər buna nail olsaq, onda bizim gücümüz böyük dərəcədə artacaqdır. Bizim bütün imkanlarımız var - təbii sərvətlər, coğrafi vəziyyət, əhali. Türk dünyasının birliyi bizim gələcəyimizdir. Azərbaycan və Türkiyə öz üzərinə düşən rolunu şərəflə yerinə yetirir. Türk dünyasının birliyinin əsasını Türkiyə və Azərbaycan təşkil edir. Bu reallıqdır. Mən əminəm ki, bugünkü mərasim dostluğumuzu daha da böyük dərəcədə gücləndirəcəkdir.

Böyük Atatürkün abidəsinin Azərbaycanın paytaxtı Bakı şəhərinin mərkəzində ucaldılması bugünkü günü tariximizə bayram günü kimi yazacaqdır. Bu, Türkiyə-Azərbaycan dostluğunun bayramıdır, birliyin bayramıdır. Bu, böyük öndərin xatirəsinə Azərbaycan xalqının qəlbindəki duyğuların ifadəsidir.

Mən əminəm ki, bu gözəl, abad parkda Türkiyə və Azərbaycan vətəndaşları birlikdə gözəl günlər keçirəcəklər. Bakı sakinləri üçün də çox gözəl şərait yaradılıbdır, gəlib burada yaxşı istirahət edə bilərlər. Bu yerin seçilməsi də təsadüfi xarakter daşımır. Bu yerin seçilməsində deyə bilərəm ki, mənim də rolum olmuşdur. Burada biz bir neçə amili nəzərə aldıq. İlk növbədə bu, şəhərin mərkəzində, Bakının tarixi yerində olmalı idi. Eyni zamanda, mən çox şadam ki, bu abidə Türkiyə səfirliyinin yaxınlığında yerləşir. Bura qardaş Türkiyənin kiçik bir parçası kimi Bakı şəhərinin mərkəzindədir.

Mən bir daha sizin hamınızı, Azərbaycan və türk xalqlarını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Əziz qardaşıma mənim dəvətimi qəbul edib Bakıya səfər etdiyinə görə və bu gözəl mərasimdə iştirak etdiyinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi və bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, mən öz fəaliyyətimdə bundan sonra da Türkiyə-Azərbaycan əlaqələrinin yüksək səviyyədə saxlanması üçün əlimdən gələni əsirgəməyəcəyəm. Türkiyə-Azərbaycan birliyinin möhkəmləndirilməsi üçün öz səylərimi davam etdirəcəyəm və bütün işlərimdə çalışacağam ki, xalqlarımız bir-biri ilə daha da yaxından əməkdaşlıq etsinlər.

Bir daha, əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NİTQİ

- Çox dəyərli qardaşım, hörmətli Prezidentim!

Hörmətli Mehriban xanım!

Dəyərli qardaşlarım, xanımlar və bəylər!

Sizləri bu çox gözəl açılış mərasimində ən səmimi duyğularımla salamlayıram. Həqiqətən, bu gün dəyərli qardaşım bizlərə 17 mayı Türkiyə-Azərbaycan əlaqələri tarixinə yazılacaq şəkildə belə bir gözəl açılış mərasimini yaşatdı. Bu səfərim münasibətilə bunu daha mənalı etdilər. Bununla əlaqədar ona öz adımdan və millətim adından çox təşəkkür edirəm.

Böyük lider, cümhuriyyətimizin banisi Mustafa Kamal Atatürkün abidəsinin belə gözəl bir yerdə seçilib ucaldılması və xüsusilə də bu yeri hörmətli qardaşımın özünün seçməsi, özünün müəyyənləşdirməsi bizim üçün çox əhəmiyyətlidir. Hətta səfirlik binasının yerini müəyyənləşdirərkən orada da eyni həssaslığı göstərmişdi. Layihə hazırlanarkən orada əyrü-üyrü kiçik bir yer var idi. O zaman qardaşıma dedim ki, buranı nə edəcəyik? Həmin an bütün cavabdeh şəxsləri çağırdı, hamısını yanımıza topladıqdan sonra belə bir xətti çəkdi, bura belə olacaq dedi. Həqiqətən o xətt çəkilərək ona əsasən layihəyə hazırlıq işlərinə başlandı. Beləliklə, səfirlik binası da Bakının ən gözəl yerində inşa edildi. İndi də eyni vəziyyəti abidənin ucaldılması zamanı yaşadıq. Bununla əlaqədar məmnunluğumuzu sözlə ifadə etmək mümkün deyildir.

Türkiyə-Azərbaycan əlaqələrinin bənzərsiz mahiyyəti vardır. Təbii, qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" deyərkən ortaya qoyduğu həqiqət davam edir, bundan sonra da eynilə davam edəcəkdir. Bunu əminliklə söyləyə bilərəm ki, hansı siyasi iqtidar gəlirsə gəlsin, aramızdakı bu əlaqəni poza bilməz. Çünki bizim aramızdakı əlaqələr qurumların əlaqəsi deyildir. Bizim aramızdakı əlaqə millətlərin əlaqəsidir. Çünki biz bir millətik, iki ayrı dövlətik. Bunu dərindən anlamaq lazımdır. Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır.

Biz buraya İrandan gəldik. İrandan gəldikdən sonra qardaşımla təkbətək görüş keçirdik. Heyətlərarası görüşümüz oldu, mətbuata bəyanatla çıxış etdik. İndi Gürcüstana, oradan da Madridə gedəcəyəm, bu şəkildə dörd-beş gün ərzində dörd ölkədə olacağam. Görülən bu işlər nə üçündür? Artıq dünyada gündəmi müəyyənləşdirilən bir ölkə olmaqdan çıxıb, gündəm müəyyən edən bir ölkəyə çevrilmişik.

Eyni şəkildə, Azərbaycanla əlaqədar da bunları deyə bilərəm. On il, iyirmi il əvvələ getdikdə, necə bir Azərbaycan var idi, bu gün necə bir Azərbaycan vardır. Mən bir il əvvəlki Azərbaycanla indiki Azərbaycan arasındakı çox böyük fərqi görürəm. Bu qədər sürətlə inkişaf edən, bu qədər sürətlə dəyişən bir Azərbaycan vardır. Bunlar təbii ki, dünya üçün bir nümunədir. Liderlər buraya gəldiyi zaman Azərbaycanı tanımayacaqlar. Bunu dəyişdirən lider vardır. Bunu dəyişdirən kadrlar vardır. Bunu təbii ki, təqdirlə qeyd edəcəklər. Tarixi şəxsiyyətlər tarixdə qurub-yaratdıqları ilə qalırlar.

İndi tarix Azərbaycanda mərhum Heydər Əliyevi necə yad edirsə, inanıram ki, gələcəkdə İlham Əliyev qardaşımı belə yad edəcəkdir. Bu əsərlərlə yad edəcəkdir.

Bununla əlaqədar, mən şəxsən öz adımdan və millətim adından minnətdarlığımı təkrar ifadə edirəm. Sizi çox məşğul etmək istəmirəm, amma təkrar edirəm ki, Türkiyə-Azərbaycan əlaqələri hər ötən gün daha da güclənməkdədir, daha da güclənəcəkdir. Bundan heç kəsin şübhəsi, narahatçılığı olmasın. Kimsə dedi-qodulara inanmasın. Bizim aramızdakı birliyi, qardaşlığı dedi-qodular poza bilməz. Bu belə qəbul edilməlidir. Mən də eynilə İlham Əliyev qardaşım kimi "Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı" deyəcəyəm! "Yaşasın işıqlı gələcəyimiz!" deyəcəyəm! "Yaşasın Türkiyə və Azərbaycanın gələcəkdəki o güclü dünyanı formalaşdırması" deyəcəyəm! Sağ olun, var olun!

* * *

Azərbaycan dövlətinin başçısı və Türkiyənin Baş naziri abidənin üzərindən ağ örtüyü götürdülər.

Prezident İlham Əliyevin və Baş nazir Rəcəb Tayyib Ərdoğanın adından abidənin önünə əklillər qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan abidənin önündə xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN FİLARMONİYA BAĞINDA OLMUŞLAR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan mayın 17-də Bakının ən gözəl istirahət guşələrindən birində - Filarmoniya bağında olmuşlar.

Bağ ilə tanışlıq zamanı bildirildi ki, 1830-cu ildə İçərişəhər divarlarının əhatəsində salınan və uzun müddət qədim Bakının yeganə istirahət məkanı olan bu bağın maraqlı tarixi vardır.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən burada abadlıq və yenidənqurma işləri aparılmışdır. Yenidənqurma prosesi bağın orijinal üslubu saxlanılmaqla həyata keçirilmişdir.

Hazırda Filarmoniya bağı Bakının digər istirahət guşələri kimi paytaxt sakinlərinin maraqlı istirahət yerinə çevrilmişdir. Burada aparılan yenidənqurma işləri zamanı əsas diqqət ərazinin təkrarolunmaz koloritinin qorunub saxlanılmasına yönəldilmişdir. XIX əsr paytaxt memarlığına xas Qərb ənənələrinin Şərq üslubu ilə uzlaşdırılması bu bağın dizaynını daha da cəlbedici etmişdir.

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMLARI DƏNİZKƏNARI MİLLİ PARKI GƏZMİŞLƏR

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Türkiyənin Baş nazirinin xanımı Əminə Ərdoğan mayın 17-də Dənizkənarı Milli Parkda olmuşlar.

Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan Dənizkənarı Milli Park ilə tanış oldu. 1909-cu ildən Bakıda dənizkənarı bulvar kimi tanınan bu parkda Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq yenidənqurma işləri aparılmışdır. Görülən abadlıq işlərindən sonra parkın yaşıllıq zolağının ərazisi xeyli genişləndirilmişdir. Milli Parkda yeni ağaclar əkilmiş, çəmənliklər salınmışdır. Burada asfalt örtük götürülərək yerinə qırma-dekorativ daş döşənmiş, parkın müxtəlif guşələrində yüngül konstruksiyalı yığılıb-sökülən yeni kafelər quraşdırılmışdır. Bu gün Dənizkənarı Milli Park Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən çox sevdiyi istirahət guşələrindən biridir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞLAR

Mayın 17-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan Talassemiya Mərkəzində olmuş, müalicə ocağının fəaliyyəti və xəstələrin vəziyyəti ilə maraqlanmışlar.

Mərkəzin direktoru Azər Kərimov məlumat vermişdir ki, Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunan bu səhiyyə ocağı gün ərzində 30-40 xəstə qəbul edir. Azərbaycanda min nəfərə yaxın talassemiyalı xəstə vardır ki, onların da 60 faizi mərkəzdə daimi müalicə olunur.

Beynəlxalq standartlara tam cavab verən mərkəzin laboratoriyasında qan qrupunu avtomatik təyin edən aparat və digər lazımi avadanlıq quraşdırılmışdır. Burada donorlardan götürülən qan dərhal müayinə olunur.

Xanım Əminə Ərdoğan mərkəzin ikinci mərtəbəsində yerləşən transfuziya zalına, 12 otaqdan ibarət klinikaya, manipulyasiya otaqlarına və laboratoriyaya baxmışdır. Qeyd olunmuşdur ki, transfuziya zalında xəstələrə qanköçürmə əməliyyatı aparılır. Mehriban Əliyeva və Əminə Ərdoğan burada müalicə alan uşaqların səhhəti ilə maraqlanmış, onların valideynləri ilə söhbət etmişlər.

Bundan əvvəl övladlarını xaricdə çox çətinliklə müalicə etdirmək məcburiyyətində olduqlarını və bu mərkəz fəaliyyətə başladıqdan sonra problemin aradan qaldırıldığını deyən valideynlər göstərilən diqqət və qayğıya, ümumiyyətlə ölkədə səhiyyə sahəsində aparılan çox mühüm islahatlara görə dövlətimizin başçısı İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürlərini bildirmişlər.

Sonra Əminə Ərdoğan mərkəzin üçüncü mərtəbəsində yerləşən reanimasiya palatası, molekulyar diaqnostika laboratoriyası, sterilləşdirmə mərkəzi ilə tanış olmuşdur. Bildirilmişdir ki, burada regionda ilk dəfə olaraq sümük iliyinin köçürülməsi üçün əməliyyat otağı yaradılmışdır və bu prosesin tətbiqi istiqamətində geniş iş aparılır. Mərkəzdə xəs-

təliyin aşkar edilməsi üçün xüsusi poliklinika da fəaliyyət göstərir. Türkiyə Baş nazirinin xanımı mərkəzin beşinci mərtəbədə yerləşən konfrans zalına və yeməkxanaya da baxmışdır.

Əminə Ərdoğan ölkəmizdə irsi qan xəstəliyinin müalicəsi məqsədi ilə yaradılan Talassemiya Mərkəzinin fəaliyyətindən məmnun qaldığını bildirmişdir.

SƏFƏR BAŞA ÇATDI

Mayın 17-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Milli geyimli uşaqlar Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana gül-çiçək dəstəsi verdilər.

Türkiyə hökumətinin başçısını və xanımını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NAZİRLƏRİ ƏMƏKDAŞLIĞA DAİR YENİ PROTOKOL İMZALAMIŞLAR

Mayın 17-də Ankarada Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əməkdaşlığa dair yeni protokol imzalanmışdır. Sənədi Türkiyə tərəfindən nazir Ömər Dincər, Azərbaycan tərəfindən nazir Füzuli Ələkbərov imzalamışlar.

İmzalanma mərasimində çıxış edən Füzuli Ələkbərov bildirmişdir ki, ulu öndər Heydər Əliyevin müdrik kəlamı ilə tərifini almış "bir millət, iki dövlət" olan Türkiyə və Azərbaycan arasında çoxşaxəli əməkdaşlıq əmək və sosial müdafiə sahələrində də uğurla davam edir. Əhalinin sosial rifahının yüksəldilməsi Azərbaycan Prezidenti İlham Əliyevin böyük diqqət yetirdiyi sahələrdəndir. Xüsusilə, qardaş Türkiyənin bu sahədə zəngin təcrübəsindən faydalanmaq bizim üçün əhəmiyyətlidir. Nazirliklər arasında 1998-ci ildən davam edən əməkdaşlıq yeni layihə və proqramlarla davam edir.

Türkiyəli nazir Ömər Dincər də Azərbaycanla əməkdaşlığın möhkəm zəmin üzərində dərinləşdiyini və hər gün gücləndiyini demişdir. Bu gün imzalanan protokol da bu əməkdaşlığın möhkəmlənməsində növbəti addımdır. Nazirliklər arasında yaradılmış birgə komissiya hər il toplaşaraq, 1998-ci və 2004-cü illərdə imzalanmış protokolların müddəalarının yerinə yetirilməsinə nəzarət edir və yeni proqramları müzakirə edir. Bu-ilki toplantıda əməkdaşlıq məsələləri daha geniş şəkildə müzakirə olunmuş, hüquqi məsələlər gözdən keçirilmişdir.

Əməkdaşlığa dair protokolda miqrasiya, əməyin mühafizəsi, təcrübə və kadr mübadiləsi və digər sahələrdə konkret proqramların həyata keçirilməsi nəzərdə tutulur.

DÜNYA ƏRZAQ PROQRAMI AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN FƏALİYYƏTİNİN DAVAM ETDİRİLMƏSİNDƏ MARAQLIDIR

Dünya Ərzaq Proqramı Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinin davam etdirilməsində maraqlıdır.

Bu sözləri mayın 17-də BMT-nin Dünya Ərzaq Proqramının regional direktoru Dali Belqasmi Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənovla görüşündə bildirmişdir.

Əli Həsənov qonağın diqqətinə çatdırmışdır ki, Azərbaycanda vaxtilə 100-ə yaxın beynəlxalq humanitar təşkilat fəaliyyət göstərmişdir. Lakin fəaliyyətinin davamlılığı və göstərdiyi yardımın həcminə görə Dünya Ərzaq Proqramı liderdir. Qeyd edilmişdir ki, müxtəlif vaxtlarda Azərbaycanın dövlət başçılarının - ümummilli lider Heydər Əliyevin və İlham Əliyevin xahişi ilə təşkilat proqramın müddətini bir neçə dəfə uzatmışdır. Təşkilatın xətti ilə 1993-cü ilin axırlarından indiyədək məcburi köçkünlərə və əhalinin aztəminatlı təbəqəsinə 115 milyon dollarlıq, başqa sözlə, 165 min tona yaxın müxtəlif çeşiddə ərzaq paylanmışdır.

Xatırladılmışdır ki, qurumun Azərbaycandakı nümayəndəliyinin sabiq rəhbəri Şərif Amin Zaher dövlətimizin başçısının 2003-cü il 28 avqust tarixli Fərmanı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

Əli Həsənov regionda baş verən proseslər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun nəticələri barədə qonağa ətraflı məlumat vermiş, problemə beynəlxalq təşkilatların münasibətindən danışmışdır. O, vaxtilə ulu öndər Heydər Əliyevin, indi isə Azərbaycan Prezidenti İlham Əliyevin qaçqınların və məcburi köçkünlərin problemlərinə gündəlik diqqətini xüsusi qeyd etmiş, Dünya Ərzaq Proqramı Bakı ofisinin fəaliyyətindən razılığını bildirmişdir.

Dali Belqamsi qonaqpərvərliyə, təmsil etdiyi orqanın ünvanına deyilmiş xoş sözlərə və ətraflı məlumata görə minnətdarlığını bildirmiş, əməkdaşlıq sahəsində qazanılan uğurlarda Azərbaycan rəhbərliyinin rolunu xüsusi qeyd etmişdir. "Azərbaycan xalqının bəxti onda gətirmişdir ki, onun qismətinə belə dövlət başçıları düşmüşdür",- deyə o vurğulamışdır. Qonaq Azərbaycan hökumətinin qaçqınlar və məcburi köçkünlərlə bağlı gördüyü işləri, həyata keçirdiyi tədbirləri təqdir edərək bildirmişdir ki, bu işdə əlindən gələn köməyi əsirgəməyəcəkdir.

Görüşdə Dünya Ərzaq Proqramının Azərbaycandakı nümayəndəliyinin gələcək statusu, rolu və maliyyələşdirilməsi barədə fikir mübadiləsi aparılmışdır. Regional direktor bildirmişdir ki, Dünya Ərzaq Proqramı Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinin davam etdirilməsində maraqlıdır.

Görüşdə təşkilatın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fuad Hüseynov iştirak etmişdir.

BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİ AZƏRBAYCANDA DOZİMETRİK LABORATORİYA YARADACAQDIR

Mayın 17-də Beynəlxalq Atom Enerjisi Agentliyi baş direktorunun müavini Anna Maria Getto Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov ilə görüşmüşdür.

Görüşdə agentlik tərəfindən Azərbaycanda yaradılacaq dozimetrik laboratoriyanın inşası barədə fikir mübadiləsi aparılmışdır.

Ramiz Həsənov bu beynəlxalq qurumla əməkdaşlığın yüksək səviyyədə olduğunu demiş, buna nümunə olaraq cari ildə təşkilatın Azərbaycanda böyük bir laboratoriya inşa edəcəyini vurğulamışdır. Layihənin şərtlərinə uyğun olaraq Azərbaycan hökuməti laboratoriya üçün yer ayırmışdır. Laboratoriya Sumqayıt şəhərində Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin balansında fəaliyyət göstərəcəkdir.

Qonaq təşkilat tərəfindən yaradılacaq laboratoriyanın əhəmiyyətindən danışmış, bu sahədə Azərbaycana hər cür dəstəyin veriləcəyini qeyd etmişdir.

Dozimetrik laboratoriya vasitəsilə tibb müəssisələrində olan rentgen aparatları, sərhəd-keçid məntəqələrində məhsulların radioaktivlik səviyyəsini ölçən aparatlar, ümumiyyətlə, radiasiya sızması təhlükəsi olan avadanlıq yoxlanılacaqdır. Artıq laboratoriyada çalışacaq yerli mütəxəssislər də məlumdur. Cari ilin sentyabrında agentliyin ekspertləri onlara təlimlər keçəcəklər.

XARİCİ İŞLƏR NAZİRİ ÇİNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 17-də Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov tranzit yol ilə ölkəmizdən keçən Çin Xalq Respublikasının xarici işlər naziri Yang Jieçhi ilə görüşmüşdür.

Görüşdə tərəflər Azərbaycan ilə Çin arasında əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmışlar.

Regionda cərəyan edən proseslərə toxunan nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat vermiş, münaqişənin yalnız beynəlxalq hüquq norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının mümkünlüyünü qonağın nəzərinə çarpdırmışdır.

Çinin xarici işlər naziri ölkəsinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü daim və birmənalı olaraq dəstəklədiyini söyləmişdir.

Çin tərəfə tutduğu mövqeyə görə minnətdarlığını bildirən E.Məmmədyarov Azərbaycanın Tayvanı Çinin ayrılmaz bir hissəsi kimi tanıdığını diqqətə çatdırmışdır.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AMEA İLƏ İSPANİYANIN BASK ÖLKƏSİ UNİVERSİTETİ ARASINDA ELMİ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR

Mayın 17-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətində akademiyanın birinci vitse-prezidenti, akademik Arif Həşimov İspaniya Krallığının Bask Ölkəsi Universitetinin tətbiqi-riyaziyyat üzrə professoru Xavyer Landatla görüşmüşdür.

Akademik Arif Həşimov Azərbaycan ilə İspaniya arasında elmi əlaqələrin artıq üç ilə yaxın bir müddətdə davam etdiyini və bu münasibətlərin qurulması təşəbbüsünün İspaniya tərəfindən gəldiyini vurğulamışdır.

A.Həşimov demişdir ki, qarşılıqlı münasibətlərin inkişafı həm ölkəmiz, həm də İspaniya tərəfi üçün mühüm əhəmiyyət kəsb edir.

Bildirilmişdir ki, 2000-ci ildən ənənəvi olaraq keçirilən "Energetikanın texniki-fiziki problemləri" Beynəlxalq konfransı çərçivəsində ötən ilin sentyabrında İspaniyanın Bilbao şəhərində keçirilən tədbirin təşkilatçılarından olan Xavyer Landatın Bakıya səfərində məqsəd bu ilin sentyabrında İranın Təbriz şəhərində keçirilməsi nəzərdə tutulan konfransda qaldırılacaq problemləri müzakirə etməkdir.

Sonra AMEA ilə Bask Ölkəsi Universiteti arasında elmi əməkdaşlığa dair müqavilə imzalanmışdır.

Müqavilənin məqsədi hər iki ölkə arasında birgə tədqiqatların aparılmasını, elmi və təlabə kadrların hazırlanmasını, xüsusi proqram və layihələrin həyata keçirilməsini təşkil etməkdir.

Akademik A.Həşimov bu müqavilənin təkcə elmi araşdırmalar aparmaq deyil, Azərbaycan və ispan xalqları arasında münasibətlərin yaxınlaşması baxımından da böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırmışdır.

İspaniyalı qonaq təmsil etdiyi universitet ilə AMEA arasında əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini bildirmişdir. Onun sözlərinə görə, Azərbaycanı öyrənmək Avropa ölkələri üçün maraqlıdır. Xavyer Landat müqavilə çərçivəsində müxtəlif ölkələrdən, o cümlədən Avropa İttifaqı tərəfindən təqdim edilən layihələrin işlənəcəyini, Azərbaycandan olan gənc kadrların İspaniya universitetlərində və həmin ölkədən olan mütəxəssislərin AMEA-nın elmi-tədqiqat institutlarında tədqiqatlar aparacaqlarını bildirmişdir.

Müqavilədə gələcəkdə diplomların qarşılıqlı surətdə tanınması üçün dövlətlərarası sazişin imzalanması da nəzərdə tutulur.

AMEA İLƏ BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİ ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Beynəlxalq Atom Enerjisi Agentliyi (BAEA) baş direktorunun müavini, texniki əməkdaşlıq üzrə departamentin başçısı xanım Anna Maria Çettonun başçılıq etdiyi nümayəndə heyəti mayın 17-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) olmuşdur.

Görüşdə AMEA-nın prezidenti, akademik Mahmud Kərimov akademiyada elmin inkişafı üçün həyata keçirilən tədbirlərdən, qazanılan uğurlardan danışmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlığın səmərəli olduğunu vurğulayan akademik M.Kərimov BAEA-nın AMEA-ya lazımi texniki yardımlar göstərdiyini söyləmişdir. Qeyd etmişdir ki, BAEA-nın dəstəyi ilə azərbaycanlı alimlər müxtəlif treninqlərdə iştirak etmişlər.

AMEA-nın Radiasiya Problemləri İnstitutunun direktoru Adil Qəribov rəhbərlik etdiyi qurum tərəfindən reallaşdırılan layihələr barədə məlumat vermişdir.

Görüşdən məmnun qaldığını bildirən Anna Maria Çetto Beynəlxalq Atom Enerjisi Agentliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında əməkdaşlığın əhəmiyyətindən danışmışdır.

Sonra BAEA ilə AMEA arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Qonağa AMEA-nın Fəxri doktoru diplomu təqdim olunmuşdur.

ABŞ MÜDAFİƏ NAZİRLİYİNİN YÜKSƏK RÜTBƏLİ ZABİTLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ OLMUŞDUR

Mayın 17-də ABŞ Müdafiə Nazirliyinin yüksək rütbəli zabitlərindən ibarət Milli Müdafiə Kollecinin nümayəndə heyəti Cənubi Qafqaz ölkələrinə səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində olmuşdur.

Qonaqlara mərkəzin fəaliyyəti, dünyanın bir sıra araşdırma mərkəzləri ilə elmi-analitik münasibətləri və onlarla əməkdaşlıq çərçivəsində həyata keçirilmiş layihələr haqqında məlumat verilmişdir.

Sonra SAM-ın əməkdaşlarının və Milli Müdafiə Kollecinin nümayəndə heyətinin iştirakı ilə Azərbaycan-ABŞ münasibətləri, Azərbaycanın daxili və xarici siyasət prioritetləri mövzusunda "dəyirmi masa" keçirilmişdir.

Tədbirdə Azərbaycan-ABŞ münasibətlərinin hazırkı durumu, iki ölkə arasında siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Tərəflər son zamanlar Cənubi Qafqaz bölgəsində baş verən geosiyasi proseslər, Türkiyə-Ermənistan münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar mərhələsini müzakirə etmişlər.

Görüşdə həmçinin, hər iki qurum arasında elmi-tədqiqat sahəsində əməkdaşlığa dair regional əhəmiyyətli layihələr ətrafında fikir mübadiləsi aparılmışdır.

YAPONİYA-AZƏRBAYCAN İNVESTİSİYA FORUMU KEÇİRİLMİŞDİR

Mayın 17-də Tokio şəhərində Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının 6-cı iclası çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Yaponiya-Azərbaycan investisiya forumu keçirilmişdir.

Tədbirdə Azərbaycan və Yaponiya tərəfindən dövlət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, bankçılıq, turizm, ticarət, əczaçılıq, tikinti, sənaye, nəqliyyat və digər sahələrdə fəaliyyət göstərən 200-ə yaxın iş adamı iştirak etmişdir.

İnvestisiya forumunda Komissiyanın həmsədrləri - Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və "ITOCHU" Korporasiyasının prezidenti Akiro Yokota çıxış etmişlər.

Azərbaycanı təmsil edən dövlət rəsmiləri ölkəmizin iqtisadi potensialı, o cümlədən alternativ və bərpa olunan enerji resursları, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, turizm və digər sahələrin inkişaf perspektivləri, AZPROMO-nun prezidenti Adil Məmmədov isə Azərbaycanın biznes imkanları və investisiya mühiti ilə bağlı təqdimatlarla çıxış etmişlər.

Forumun rəsmi hissəsindən sonra iş adamları arasında görüşlər keçirilmişdir. Görüşlərdə sahibkarlar arasındakı mövcud əlaqələr və əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə edilmişdir.

TOKİODA AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ VƏ YAPONİYA-AZƏRBAYCAN İQTİSADİ KOMİTƏSİNİN VI BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 18-də Tokioda Azərbaycan ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının və Yaponiya-Azərbaycan iqtisadi komitəsinin VI birgə iclası keçirilmişdir.

Yüksək vəzifəli şəxslərdən ibarət Azərbaycan nümayəndə heyətinə Baş nazirin müavini, komissiyanın sədri Abid Şərifov rəhbərlik etmişdir.

İclasda Yaponiya hökumətinin səlahiyyətli şəxsləri və özəl sektorun nümayəndələri iştirak etmişlər.

Tərəflər iki ölkə arasında iqtisadi və ticarət münasibətləri barədə fikir mübadiləsi aparmışlar.

Baş nazirin müavini A.Şərifov ölkəmizdə mövcud iqtisadi vəziyyət, inkişaf perspektivləri barədə məlumat vermişdir. Fövqəladə hallar, kənd təsərrüfatı, turizm, nəqliyyat, səhiyyə, gənclərlə iş, əhalinin sosial müdafiəsi, ekologiya, standartlaşdırma sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı Azərbaycan tərəfini maraqlandıran təkliflər müzakirə edilmişdir. Həmçinin, alternativ və bərpa olunan enerji mənbələrinin istifadə edilməsi üzrə bir çox məsələlərə baxılmışdır. Yaponiya şirkətlərinin Azərbaycanın qeyri-neft sektoruna investisiya yatırmaq imkanları müzakirə edilmişdir.

Yekunda iclasın protokolu imzalanmışdır.

Komissiyanın iclası çərçivəsində İqtisadi İnkişaf Nazirliyinin Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu, Azərbaycanın Yaponiyadakı səfirliyinin yardımı ilə "Hazırkı iqtisadi vəziyyət və investisiya imkanları" mövzusunda forum da təşkil olunmuşdur.

Forumda Baş nazirin müavini Abid Şərifov çıxış etmişdir. Tədbirdə Azərbaycandan

30-dan çox şirkət və müəssisənin nümayəndələri, Yaponiyanın isə 100-ə yaxın özəl sektor təmsilçiləri iştirak etmişlər. Forumda Azərbaycanın iqtisadi inkişafı, investisiya mühiti və prioritet sahələrinə dair, həmçinin Transmilli Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsi barədə, ölkəmizin turizm potensialı haqqında, neft və qaz sənayesinin hazırkı durumu və gələcək inkişaf perspektivləri barədə, alternativ və bərpa olunan enerji imkanları ilə bağlı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə əlaqədar təqdimatlar keçirilmişdir.

BAKIDA NATO-NUN ALİ MÜLKİ FÖVQƏLADƏ PLANLAMA KOMİTƏSİNİN GENİŞ İCLASI KEÇİRİLİR

Mayın 18-də Bakıda 28 üzv və 22 tərəfdaş dövlətin daxil olduğu Avroatlantik Tərəfdaşlıq Şurası (ATŞ) formatında NATO-nun Ali Mülki Fövqəladə Planlama Komitəsinin geniş iclası öz işinə başlamışdır.

İclası açan NATO-nun əməliyyat planlaması üzrə baş katibinin müavini, səfir Maurits Yohems dəyərli əməkdaşlığa və geniş iclasın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirmişdir. Azərbaycanın 1992-ci ildən NATO ilə əməkdaşlıq etdiyini diqqətə çatdıran qonaq, ölkəmizin Şimali Atlantika Alyansının müxtəlif proqramlarında fəal iştirakını yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov iclas iştirakçılarını salamlamış, tədbirin Bakıda keçirilməsinə dair qəbul olunmuş qərara görə NATO-nun Siyasi və Ali Mülki Fövqəladə Planlama komitələrinə təşəkkürünü bildirmişdir. Qeyd etmişdir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasət prioritetləri arasında Avroatlantika strukturlarına inteqrasiya, bu qurumlarla qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi mühüm yer tutmuşdur.

Avroatlantika məkanında təhlükəsizlik və sabitliyin qorunub saxlanılmasında NATO-nun vacib rolunu nəzərə alaraq 1994-cü ilin mayında Azərbaycanın bu qurumun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulduğunu xatırladan Kəmaləddin Heydərov, həmin dövrdən keçən 16 il ərzində tərəflərin uğurla əməkdaşlıq etdiklərini vurğulamışdır. Nazir qeyd etmişdir ki, əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycanın dünya dövlətləri arasında layiqli yer tutması məqsədi daşıyan siyasi kursun ayrılmaz tərkib hissəsi kimi Avroatlantika strukturlarına inteqrasiya istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində son illər Azərbaycan ilə NATO arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində xeyli irəliləyişlərə nail olunmuşdur.

Son vaxtlar kataklizmlərin insanların həyat və fəaliyyətinə ciddi ziyan vurduğunu, onların planetimizin hər hansı hissəsində baş vermək ehtimalının mövcudluğunun bu sahədə birgə səylərin gücləndirilməsini zəruri etdiyini deyən general-leytenant Kəmaləddin Heydərov, təbii xarakterli fövqəladə halların bəzən nəinki bir dövlətin, hətta bütöv sivilizasiyanın məhvi ilə nəticələndiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, təbii kataklizmlərin və fövqəladə hadisələrin yaranma səbəblərinin vaxtında aşkar edilməsi və proqnozlaşdırılması, onların qarşısının alınması, nəticələrinin aradan qaldırılması məq-

sədi ilə bütün dünya alimlərinin, mütəxəssislərinin birgə və əlaqələndirilmiş fəaliyyətinin təmin edilməsi, xüsusilə bu istiqamətdə dövlətlərin imkanlarının birləşdirilməsi mühüm əhəmiyyətə malikdir.

K.Heydərov Azərbaycan dövlətinin bu istiqamətdə həyata keçirdiyi tədbirləri qonaqların diqqətinə çatdırmış, xüsusilə son illərdə Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının müasir standartlara çatdırılması məqsədi ilə mühüm işlər görüldüyünü vurğulamışdır. Bildirmişdir ki, ölkə ərazisində baş verə biləcək hər hansı fövqəladə hadisənin vaxtında xəbərdarlıq edilməsi, qarşısının alınması, nəticələrinin çevik və səmərəli şəkildə aradan qaldırılması üçün nazirliyin ölkənin bölgələrində bir neçə regional mərkəzi yaradılmış, qurumun texniki təchizatının beynəlxalq standartlara cavab verməsi üçün mühüm işlər görülmüşdür. Nazir həyata keçirilmiş tədbirləri faktların və rəqəmlərin dili ilə iclas iştirakçılarının diqqətinə çatdırmışdır.

Kəmaləddin Heydərov Azərbaycan FHN-in beynəlxalq xilasetmə tədbirlərinə də hər an hazır olduğunu vurğulamışdır. Bildirmişdir ki, bu məqsədlə nazirliyin tərkibində 300 nəfərdən ibarət beynəlxalq axtarış-xilasetmə dəstəsi yaradılmışdır. Hazırda həmin dəstənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində NATO və digər müvafiq qurumlarla məsləhətləşmələrimiz davam edir, - deyən nazir, FHN-in yaradıldığı gündən Şimali Atlantika Alyansı ilə mülki fövqəladə planlama sahəsində əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırmışdır. Vurğulamışdır ki, bu sahədə əməkdaşlığın əsas istiqamətini fövqəladə hallara hazırlıq sahəsində yerli imkanların artırılmasında NATO-nun ekspertiza yardımının əldə edilməsi, qurumun canlı təlimlərində komandamızın iştirakı, Şimali Atlantika Alyansının mənzil-qərargahında mütəmadi keçirilən tədbirlərə qatılmaq məsələləri təşkil etmişdir.

Bu iclasın mülki fövqəladə planlama sahəsində Azərbaycan ilə NATO, o cümlədən bu quruma üzv və tərəfdaş ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsinə töhfələr verəcəyinə əminliyini bildirən nazir Kəmaləddin Heydərov beynəlxalq tədbirin işinə uğurlar arzulamışdır.

İclas iştirakçıları bu yaxınlarda Kür çayının daşması nəticəsində Azərbaycanın bir neçə rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını əks etdirən videoçarxa baxmışlar.

Sonra müzakirələr başlanmışdır.

İSLAM KONFRANSI TƏŞKİLATI İLƏ ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN PRİORİTETLƏRİNDƏN BİRİDİR

Azərbaycan İslam sivilizasiyasının ayrılmaz hissəsidir. 1991-ci ildə postsovet məkanında müsəlman ölkələri arasından İslam Konfransı Təşkilatına (İKT) üzv olmaq üçün birinci məhz Azərbaycan müraciət etmişdir.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 18-də İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin Düşənbədə keçirilən 37-ci sessiyasında çıxışında demişdir.

Nazir vurğulamışdır ki, İKT ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir və bu məsələ strateji əhəmiyyət daşıyır.

Azərbaycanın İKT xarici işlər nazirlərinin 36-cı sessiyasından sonra təşkilatın üzvü olan dövlətlərlə əməkdaşlığını daha da möhkəmləndirdiyini bildirən E.Məmmədyarov ölkəmizin İKT-nin Onillik Fəaliyyət Proqramının yerinə yetirilməsinə xüsusi diqqət yetirdiyini demişdir.

Nazir Azərbaycanın yaxın keçmişdə hüquq mühafizə orqanları rəhbərlərinin Birinci İslam Konfransı, İKT mədəniyyət nazirlərinin 6-cı iclası, İslam Konfransı Təşkilatının yaradılmasının 40 illiyi münasibətilə İKT-nin Baş Katibliyi ilə birlikdə təşkil olunmuş sivilizasiyalararası dialoq konfransı kimi bir sıra mühüm tədbirlərə, nəhayət bu il aprelin 26-27-də Bakıda 35 ölkədən 250 nümayəndənin bir araya gəldiyi Dünya dini liderlərinin sammitinə ev sahibliyi etməsini iclas iştirakçılarının diqqətinə çatdırmışdır.

Bu yaxınlarda İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun regional ofisinin Bakıda təntənəli açılışının keçirilməsi qeyd olunmuşdur. Əminliklə bildirilmişdir ki, bu forum gənc nəslin mənəvi dəyərlərinin möhkəmlənməsinə, müsəlman icması üçün mühüm əhəmiyyət kəsb edən mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafına öz töhfəsini verəcəkdir.

Cari ilin iyununda Azərbaycanın İKT orqanlarının "İKT daxilində ticarətin inkişafına yardım üçün yol xəritəsi" və İslam İnkişaf Bankının sahibkarlar palatasının 35-ci iclaslarına ev sahibliyi edəcəyi də qeyd olunmuşdur.

Ermənistanın Azərbaycana hərbi təcavüzü barədə danışan E.Məmmədyarov İKT-nin bu təcavüzün nəticələrinin aradan qaldırılmasına verdiyi mühüm dəstəyə görə İslam dünyasına və İKT-nin baş katibinə xalqımızın dərin təşəkkürünü çatdırmışdır.

Nazir E.Məmmədyarov uranın zənginləşdirilməsi məsələsində Türkiyə, İran və Braziliya arasında əldə edilmiş razılığa dair səsləndirilmiş təbriklərə qoşulmuşdur.

Keçən il Azərbaycanın 2013-cü ildə İslam Konfransı Təşkilatının sammitinin Bakıda keçirilməsini təklif etdiyini deyən E.Məmmədyarov müsəlman ölkələrini bu təklifi dəstəkləməyə çağırmışdır.

İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN AVRASİYA REGİONAL MƏRKƏZİ BAKIDA FƏALİYYƏT GÖSTƏRƏCƏKDİR

Mayın 18-də İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin Düşənbədə öz işinə başlayan 37-ci sessiyasının açılış mərasimi çərçivəsində İslam Konfransı Gənclər Forumunun (İKGF) Avrasiya Regional Mərkəzinin yaradılması haqqında müqavilə imzalanmışdır.

Müqaviləni Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İKGF-nin baş katibi Elşad İsgəndərov imzalamışlar. İmzalanma mərasimində İKT-nin baş katibi Ekmələddin İhsanoğlu, İKT-yə üzv olan 57 dövlətin, eləcə də bu təşkilatda müşahidəçi statusunda olan bir çox beynəlxalq təşkilat və ölkələrin nümayəndələri iştirak etmişlər.

Baş qərargahı Bakı şəhərində yerləşəcək Avrasiya Regional Mərkəzi İKGF-nin proq-

ramlarının İKT-yə üzv MDB ölkələrində, həmçinin Mərkəzi və Şərqi Avropada, o cümlədən bu məkanda müsəlman azlıqları təmsil edən gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsini həyata keçirəcəkdir.

Mərkəz, İKT-nin Azərbaycanın ev sahibliyi edəcəyi ilk qurumu olacaqdır.

Sessiyanın ümumi iclasında çıxış edən Elmar Məmmədyarov İKGF təsis olunduqdan sonra qısa zaman ərzində uğurlar əldə etdiyini demiş, Forumun BMT-nin Sivilizasiyalararası Alyansı proqramında gənclərin rolunun gücləndirilməsi işindəki fəaliyyətini xüsusi vurğulamışdır. O, Azərbaycanın, fəaliyyət dairəsi 25-dən artiq ölkəni əhatə edəcək İKGF-nin Regional Mərkəzinə ev sahibliyi etməsini ölkəmizin İKT-yə göstərdiyi dəstəyin bariz nümunəsi olduğunu qeyd etmişdir.

Düşənbə sessiyasında İKT ölkələri xarici işlər nazirlərinin Azərbaycan hökumətinə İKGF-ə göstərdiyi dəstəyə, eləcə də Regional Mərkəzin Bakıda fəaliyyət göstərməsinə imkan yaratdığına görə minnətdarlıq ifadə edən xüsusi qətnaməsinin qəbul ediləcəyi gözlənilir.

TACİKİSTANDA SƏFƏRDƏ OLAN AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT RƏSMİLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Tacikistanın paytaxtı Düşənbədə keçirilən İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin 37-ci sessiyasında iştirak edən xarici işlər naziri Elmar Məmmədyarov bir sıra ölkələrin dövlət rəsmiləri ilə ikitərəfli görüşlər keçirmişdir.

E.Məmmədyarovun ilk görüşü Tacikistan Prezidenti Emoməli Rəhmon ilə olmuşdur.

Görüşdə Azərbaycan ilə Tacikistan arasında münasibətlərin yüksək səviyyədə olduğu vurğulanmış, əlaqələrin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır. Ölkələrimiz arasında əməkdaşlıq sahələrinin geniş potensialının mövcudluğunu qeyd edən tərəflər onlardan səmərəli istifadə olunmasının zəruriliyini bildirmişlər.

Bundan əlavə, E.Məmmədyarov Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayev, Mərakeş Krallığının xarici işlər və əməkdaşlıq üzrə dövlət katibi xanım Latifa Akharbach, Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammeh, Əfqanıstanın xarici işlər naziri Zalmai Rassoul, Oman Sultanlığının xarici işlər üzrə məsul naziri Yusuf bin Alavi bin Abdulla, Liviyanın xarici işlər üzrə dövlət naziri Mohammed Barrani, BƏƏ-nin xarici işlər naziri Şeyx Abdulla bin Zayed, Suriyanın xarici işlər naziri Valid Al-Muallim və Mavritaniyanın xarici işlər və əməkdaşlıq naziri xanım Naha Mint Muknass ilə ikitərəfli görüşlər keçirərək, ölkələrarası münasibətlərin cari vəziyyəti və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparmışdır.

AZƏRBAYCAN İLƏ ƏFQANISTAN ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Xarici işlər nazirinin müavini Araz Əzimovun rəhbərlik etdiyi Xarici İşlər, Müdafiə, Milli Təhlükəsizlik nazirliklərinin və Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) əməkdaşlarından ibarət nümayəndə heyəti mayın

16-dan 18-dək Əfqanıstanda səfərdə olmuşdur.

Səfər çərçivəsində keçirilmiş görüşlərdə ikitərəfli əlaqələrlə yanaşı, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin qorunmasında, bu dövlətin yenidən qurulmasında və inkişafında oynadığı rol, ölkəmizin Əfqanıstana qeyri-hərbi yardımı ilə bağlı mövcud vəziyyət və perspektivlər müzakirə olunmuşdur. Xüsusilə Əfqanıstan milli polisinin, əsgər və zabitlərinin Azərbaycanda təhsil alması, qısa və uzun müddətli təlim kursları keçmələrinin təmin edilməsi, Əfqanıstanın Xarici İşlər Nazirliyinin gənc diplomatlarının Azərbaycan Diplomatik Akademiyasında təhsilə cəlb edilməsi, minalardan təmizlənmə sahəsində Azərbaycan təcrübəsinin öyrənilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Eyni zamanda, Əfqanıstandan digər ölkələr vasitəsilə Azərbaycana yayılan narkotik maddələr qaçaqmalçılığının qarşısının alınması və bir sıra xüsusi əməkdaşlıq sahələri müzakirə olunmuşdur. Beynəlxalq səviyyədə hər iki ölkənin qarşılıqlı surətdə biri-birini dəstəklədiyinin qeyd olunduğu görüşdə, Əfqanıstan rəsmiləri Azərbaycanın 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü yerinə namizədliyini dəstəkləyəcəklərini bildirmişlər. Görüşdə əfqan rəsmiləri Azərbaycan əsgərlərinin çətin və ağır şəraitdə Əfqanıstanda xidmət edərək, dövlət əhəmiyyətli obyektlərin mühafizəsinin təmin olunmasında göstərdikləri nümunəvi xidmətə görə təşəkkür etmişlər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Əfqanıstanın dağ-mədən və nəqliyyat nazirləri, daxili işlər və müdafiə nazirlərinin müavinləri, Fransa və Türkiyənin Əfqanıstandakı səfirləri, Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (İSAF) Kabul bölgə komandanı, İSAF komandanlığı, NATO-nun ali mülki nümayəndəsi və Azərbaycanın İSAF tərkibində qulluq edən hərbçiləri ilə görüşlər keçirmişdir. Azərbaycan əsgərləri ilə görüşdə A.Əzimov onların yerləşdiyi düşərgədə yaradılmış Heydər Əliyev guşəsi ilə tanış olmuşdur.

RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNDƏ ATİB İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Mayın 19-da rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri Fatimə Aslanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Əli Abbasov hazırda türkiyəli iş adamlarının sərmayə qoyduqları əsas sahələrdən birinin də rabitə və informasiya texnologiyaları sektoru olduğunu diqqətə çatdırmışdır. Təxmini hesablamalara görə, türkiyəli biznesmenlərin 30 faizi Azərbaycanın İKT sektorunda fəaliyyət göstərir.

Fatimə Aslan demişdir ki, Azərbaycanda İKT sektorunun prioritet məsələ elan edilməsi, son illər bu istiqamətdə dövlət dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələrin sayının artması sahənin inkişafı üçün perspektivli imkanlar açır. Hazırda bütün dünyada, eləcə də Azərbaycanda informasiya texnologiyaları iqtisadi inkişafı stimullaşdıran əsas amillərdən biri kimi xarakterizə olunur.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏLAQƏLƏR DAHA DA GENİŞLƏNDİRİLƏCƏKDİR

Mayın 19-da Misir Ərəb Respublikasının (MƏR) Bakıdakı Mədəniyyət Mərkəzində MƏR-in Ali təhsil nazirinin birinci müavini Mohammed Jaber Abou Ali ölkəmizin tanınmış alimləri, ali məktəb rektorları ilə görüşmüşdür.

Görüşdə Mohammed Jaber Abou Ali Misir Ərəb Respublikası ilə Azərbaycanın təhsil sahəsində əlaqələrindən danışmışdır.

Elm və təhsil sahələrində əməkdaşlığın əhəmiyyətini vurğulayan misirli qonaq ölkələrimizin universitetləri arasında müəllim-tələbə mübadiləsinin genişləndirilməsinin vacibliyini bildirmiş, Azərbaycan Dövlət Neft Akademiyasının MƏR-in ali məktəblərinin birində filialının açılması ilə bağlı təklif irəli sürmüşdür. O eyni zamanda, azərbaycanlı alimlərin Misirdə tədqiqatlar aparması imkanlarından bəhs etmişdir.

Misir Ərəb Respublikasının Bakıdakı səfiri Sabir Əbdülqədir Mənsur xalqlarımızın dostluq münasibətlərindən söhbət açmışdır.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov, Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, akademik Siyavuş Qarayev, akademik Vasim Məmmədəliyev müasir dünyada elmin, təhsilin önəmli rolunu qeyd etmiş, bu sahələrdə əlaqələrimizin inkişafına əminliklərini vurğulamışlar.

Görüşdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunmuş, təkliflər verilmişdir.

İSLAM KONFRANSI TƏŞKİLATININ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASI XOCALI FACİƏSİNİ İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ CİNAYƏT KİMİ TANIMIŞDIR

Mayın 20-də Tacikistanın paytaxtı Düşənbədə keçirilən İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının (İKT XİNŞ) 37-ci sessiyasının yekun iclasında Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (İKGF) fəaliyyəti haqqında qətnamə qəbul edilmişdir. Qətnamədə xüsusi bəndlə İKT üzv dövlətləri, həmçinin İKT-yə bağlı beynəlxalq institutlar "Xocalıya ədalət" kampaniyasının fəaliyyətində aktiv iştiraka və faciənin həm beynəlxalq, həm də milli səviyyədə insanlığa qarşı törədilmiş cinayət kimi tanınmasına çağırılmışdır.

Bu haqda Düşənbədə İKT XİNŞ sessiyasına qatılan forumun nümayəndə heyətinin rəhbəri, İKGF baş katibi Elşad İsgəndərov bildirmişdir. Sənəddə Forumun fəaliyyətinə və xüsusilə İSESKO ilə birgə aparılan "İKT ölkələrində XX əsrdə törədilmiş humanitar faciələr" proqramının həyata keçirilməsinə yüksək qiymət verilmişdir. Qətnamə, həmçinin üzv dövlətləri İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Xocalı faciəsi haqqında dünya ictimaiyyətinin düzgün və obyektiv məlumatlandırılması məqsədini daşıyan "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyasına dəstək verməyə çağırır.

E.İsgəndərov sənədi şərh edərkən bildirmişdir ki, bu, BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilat olan İKT-yə üzv 57 dövlətin xarici siyasət idarələri rəhbərlərinin hadisənin miqyasının təyin edilməsi baxımından insanlığa qarşı törədilmiş cinayət ifadəsini

istifadə edərək, Xocalı faciəsinin xarakteri haqqında birmənalı olaraq mövqe bildirdikləri ilk qətnamədir. Qeyd olunan ifadə həm siyasi, həm də beynəlxalq-hüquqi tərkibə malikdir, beynəlxalq humanitar hüququn bir çox ciddi pozuntularını, o cümlədən genosid cinayətini əhatə edir.

İKGF-nin baş katibi qeyd etmişdir ki, sənədin konsensusla qəbul edilməsi, həmçinin buna qədər üzv ölkələrin XİN ekspertləri tərəfindən təsdiq edilməsi İKT-nin Xocalı faciəsinin həqiqi xarakteri haqqında əminliyinin güclənməsinin göstəricisidir. Bu sənəd Xocalı faciəsinə cari ilin yanvar ayında İKT Parlamentlər İttifaqı (İKT Pİ) tərəfindən verilən qiyməti təkrarlayır və ümumilikdə Xocalıdakı qətliamın İKT-yə üzv dövlətlərin parlamentləri tərəfindən insanlığa qarşı törədilmiş cinayət kimi tanınması, eləcə də tanınma haqda məsələnin beynəlxalq səviyyəyə qaldırılması üçün ciddi siyasi-hüquqi zəmin hazırlayır. 57 üzv dövlətin belə mövqeyinin formalaşmasında Forumun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyası böyük rol oynamışdır. Qətnamədə kampaniyanın fəaliyyətinə yüksək qiymət verilmiş və üzv dövlətlər onun həyata keçirilməsində aktiv iştirak etməyə çağırılmışdır.

Qeyd edək ki, "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyasına 2009-cu ildə beynəlxalq səviyyədə start verilmişdir. Hazırda kampaniyanın fəaliyyəti 35-dən artıq İKT və həmçinin Avropa və Latın Amerikası ölkələrini əhatə edir.

SƏNAYE VƏ ENERGETİKA NAZİRİ QAZAXISTANIN MANGİSTAU ƏYALƏTİNİN QUBERNATORU İLƏ GÖRÜŞMÜŞDÜR

Qazaxıstan Azərbaycan ilə enerji sahəsində daha sıx əməkdaşlıqda maraqlıdır.

Bunu ölkəmizdə səfərdə olan Qazaxıstanın Mangistau əyalətinin qubernatoru Krımbek Kuşırbayev mayın 20-də Azərbaycan-Qazaxıstan hökumətlərarası komissiyanın iqtisadi əməkdaşlıq üzrə həmsədri, sənaye və energetika naziri Natiq Əliyev ilə görüşündə bildirmişdir.

Qonaq sahilyanı ərazilərin istismarında, bu ərazilərdə infrastrukturun yaradılmasında, müxtəlif neft-qaz layihələrinin həyata keçirilməsində Azərbaycanın zəngin təcrübəsindən yararlanmaq niyyətində olduqlarını söyləmişdir. Gələcəkdə Qazaxıstan enerji resurslarını Avropa bazarlarına Azərbaycan vasitəsilə çıxarmaqda maraqlıdır.

Ölkəsi ilə Azərbaycan arasında əlaqələrin strateji tərəfdaşlıq çərçivəsində qurulduğunu deyən K.Kuşırbayev ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün daha böyük potensialın olduğunu söyləmişdir. Ümumiyyətlə, ölkələrimiz arasında əlaqələrin potensialı ikitərəfli ticarət dövriyyəsini 1 milyard ABŞ dollarına çatdırmağa imkan verir və biz bu istiqamətdə fəaliyyətimizi daha da genişləndirəcəyik.

Sənaye və energetika naziri Natiq Əliyev qarşılıqlı əlaqələrin inkişafından məmnunluğunu ifadə edərək ölkələrimiz arasında neft-qaz, maşınqayırma, kənd təsərrüfatı və digər sahələrdə sıx əməkdaşlığın qurulduğunu xatırlatmışdır. Bu əlaqələrin genişləndirilməsi üçün böyük potensial vardır. Son illər dünyanı bürümüş iqtisadi böhran şəraitində də Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli ticarət əlaqələri durmadan inkişaf etmişdir.

N.Əliyev Qazaxıstanın enerji resurslarının Avropa bazarlarına çatdırılması üçün Azərbaycanın hər cür kömək göstərməyə hazırlığını diqqətə çatdırmışdır. Avqustun sonları - sentyabrın əvvəllərində Aktauda azərbaycanlı sahibkarların iştirakı ilə keçirilməsi nəzərdə tutulan biznes forumun ikitərəfli əlaqələrin inkişafına böyük təkan verəcəyinə əminlik ifadə olunmuşdur.

AZƏRBAYCAN VƏ AVSTRİYANIN GÖMRÜK ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ İMKANLARI MÜZAKİRƏ EDİLMİŞDİR

Mayın 20-də Avstriyanın Federal Maliyyə Nazirliyində bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevlə nazirliyin dövlət katibi Raynhold Lopatka arasında görüş keçirilmişdir.

Avstriya Federal Maliyyə Nazirliyində gömrük sahəsinə rəhbərlik edən R.Lopatka görüş zamanı son illərdə Azərbaycanın iqtisadi güc və nüfuzunun artdığını məmnuniyyətlə qeyd etmişdir. Bildirilmişdir ki, maliyyə böhranı fonunda Avstriya bir neçə ölkədə diplomatik nümayəndəliyini bağlamaq məcburiyyətində qalsa da, gələn ay Bakı şəhərində Avstriya səfirliyi fəaliyyətə başlayacaqdır. Bu, Azərbaycana verilən önəmə bariz nümunədir. Eyni zamanda yaxın həftələrdə Avstriyanın iş adamlarından ibarət missiyanın Bakıya səfəri də Azərbaycana göstərilən marağın yüksək olduğunu göstərir.

Aydın Əliyev görüşə görə təşəkkür edərək bildirmişdir ki, son illərdə Azərbaycanın iqtisadiyyatı güclənir, xarici əlaqələr genişlənir və idxal-ixracın həcmi ildən-ilə yüksəlir. Belə olduğu təqdirdə gömrük sahəsində beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi, birgə seminarların əhəmiyyəti getdikcə artmaqdır. Məhz bu səbəbdən hazırda Bakı şəhərində Dünya Gömrük Təşkilatı potensialının gücləndirilməsi üzrə regional ofisin yaradılması istiqamətində iş gedir. A.Əliyev avstriyalı həmkarını həmin ofisin açılışında iştirak etmək üçün Bakıya səfərə dəvət etmişdir.

Görüşdə Azərbaycan və Avstriya arasında gömrük sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ REKTORU YENİ MAGİSTRLƏRLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 20-də xarici işlər nazirinin müavini, Azərbaycan Diplomatik Akademiyasının (ADA) rektoru Hafiz Paşayev diplomatiya və beynəlxalq münasibətlər üzrə yeni magistrlərlə görüşmüşdür.

Tələbələri akademiyanın magistraturasına daxil olmaları münasibətilə təbrik edən rektor, təhsil ocağının əsas tədris prinsipləri haqqında məlumat vermişdir.

ADA-nın 2010-2012-ci tədris illəri üzrə təhsil alacaq qrupu 25 azərbaycanlı və 10 xarici tələbədən ibarətdir. Xarici tələbələr Misir, İndoneziya, Macarıstan, Rumıniya, Tanzaniya, İran, Uqanda, Gürcüstan, Niderland kimi ölkələri təmsil edirlər. Bir qrup tələbəyə təhsillə bağlı güzəştlər də verilmişdir.

Akademiyanın tələbə qəbulu üzrə direktoru Cənis Austin 2010-2012-il tədris illəri üzrə qəbul prosesindən çox razı qaldıqlarını demişdir. C.Austin bildirmişdir ki, ADA-nın ye-

ni təhsil ocağı olmasına baxmayaraq, Azərbaycan və xarici ölkələrin ictimaiyyətinin akademiyaya göstərdiyi maraq onun nüfuzunun ildən-ilə sürətlə artmasının sübutudur. Dünya standartlarına cavab verən diplomatiya və beynəlxalq münasibətlər üzrə magistratura təhsilini təklif etməklə ADA istedadlı azərbaycanlı və dünyanın bir çox ölkələrinin mədəniyyətinin və tarixinin təmsilçiləri olan xarici tələbələri özünə cəlb etməkdə davam edir.

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏR ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜ PİSLƏYİR VƏ DÜNYA İCTİMAİYYƏTİNİ BU MƏSƏLƏYƏ DİQQƏT YETİRMƏYƏ ÇAĞIRIR

Mayın 20-də İslam Konfransı Təşkilatına (İKT) üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri və xarici işlər nazirləri Tacikistanın paytaxtında keçirilən İKT Xarici İşlər Nazirləri Şurasının 37-ci sessiyasının yekunlarına dair Düşənbə Bəyannaməsini qəbul etmişlər.

Bəyannamədə İslam dünyasının digər məsələləri ilə yanaşı, İKT-yə üzv dövlətlərin Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləməsi, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasına çağırış əksini tapmışdır.

Bundan əlavə, sessiya çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslamın mədəni və müqəddəs abidə və tikililərin dağıdılması və təhqir edilməsi" və "Azərbaycan Respublikasına iqtisadi yardım" qətnamələri qəbul olunmuşdur.

Qətnamələr Ermənistanın ölkəmizə qarşı təcavüzünü, Azərbaycan torpaqlarında İslamın tarixinə aid abidələrin dağıdılmasını pisləyir, Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması üçün Azərbaycan dövlətinə iqtisadi və texniki yardım edilməsini nəzərdə tutur və dünya ictimaiyyətini bu məsələlərə diqqət yetirməyə çağırır.

SƏHİYYƏ NAZİRİ DÜNYA SƏHİYYƏ ASSAMBLEYASININ 63-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Mayın 17-21-də Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev Cenevrə şəhərində keçirilmiş Dünya Səhiyyə Assambleyasının 63-cü sessiyasında iştirak etmişdir.

Səhiyyə naziri Belarus Respublikasının səhiyyə naziri Vasili Jarko, Daimi Komitədə tərəf müqabili olan Andorranın səhiyyə naziri Kristina Rodriges və Vaksinasiya və İmmunizasiya üzrə Qlobal Alyansın və Dünya Səhiyyə Təşkilatı (DST) Katibliyinin nümayəndələri ilə işçi görüşlər keçirmişdir.

Belarusun səhiyyə naziri ilə görüşdə ölkələrimiz arasında imzalanmış səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Sazişin yerinə yetirilməsi, habelə tibbi kadrların diplomdan sonrakı hazırlığı üzrə əlaqələrin davam etdirilməsi məsələləri müzakirə

olunmuşdur.

DST Avropa Regionu Daimi Komitəsində tərəf müqabilimiz Andorranın səhiyyə naziri və bu ölkənin digər səhiyyə rəsmiləri ilə görüşdə daimi komitədə birgə fəaliyyət planı və ölkələrimiz arasında səhiyyə sahəsində əlaqələrin yaradılması imkanlarının perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır.

Vaksinasiya və İmmunizasiya üzrə Qlobal Alyansın Katibliyi bu sahədə Alyansın apardığı proqram və layihələr haqqında hazırladığı hesabatı Azərbaycan tərəfinə təqdim etmişdir.

DST Katibliyinin nümayəndələri ilə görüşdə 2011-ci ilin sentyabrında DST Avropa Regionu növbəti sessiyasının keçirilməsi üzrə işçi qrupun Azərbaycana səfəri proqramı məsələləri də müzakirə edilmişdir.

Qeyd edək ki, 63-cü sessiyada da DST-nin Baş direktoru Marqaret Çan hesabat məruzəsi ilə çıxış etmişdir.

Baş direktor öz məruzəsində təşkilatın son illərdə qazandığı nailiyyətlərdən, yeni təzahür edən infeksion xəstəliklərə qarşı effektiv mübarizə metodlarının tətbiqindən, geniş masştablı immunizasiya tədbirlərindən, Minilliyin İnkişaf Məqsədlərində səhiyyəyə aid hədəflərin təyin olunmasından danışmışdır. Eyni zamanda, QİÇS-lə mübarizə metodlarından və antiretroviral müalicənin geniş tətbiq edilməsindən, digər beynəlxalq təşkilatlarla məhsuldar əməkdaşlığın nəticələrindən, bir sıra infeksiyaların tamamilə ləğv edilməsindən, habelə üzv ölkələrin səhiyyə və sosial sferaya maliyyə yatırımlarından və bunun müstəsna əhəmiyyətindən söz açmışdır.

Tədbirdə səhiyyənin texniki məsələləri, beynəlxalq tibbi-sanitar qaydaların həyata keçirilməsi, ictimai səhiyyə və innovasiyalar, infeksion xəstəliklərlə mübarizə, yeni doğulmuşların qidalanması, tibb personalının işlə təmin edilməsində beynəlxalq kodeks, virus hepatiti, vərəmlə mübarizə, poliomielitin aradan qaldırılması, qan məhsullarının təhlükəsizliyi və keyfiyyəti, səhiyyə sahəsində elmi tədqiqat işlərinin aparılmasında DST-nin rolu, tibbi kadrların hazırlanması, mühacirlərin sağlamlığı, dərmanların səmərəli istifadəsi və saxta tibbi məhsulların aradan qaldırılması və digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycanın Xarici İşlər Nazirliyi 2010-cu il mayın 20-də Avropa Parlamenti tərəfindən bu qurumun Bolqarıstandan olan üzvü Yevgeni Kirilovun məruzəsi əsasında "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələb" adlı qətnamənin qəbul edilməsini alqışlayır.

Avropa İttifaqının Avropa Qonşuluq siyasəti və "Şərq tərəfdaşlığı" kimi təşəbbüslərini dəstəkləyərək Avropa Parlamenti Cənubi Qafqaz ölkələrinin Avropaya inteqrasiyasını sürətləndirmək və Cənubi Qafqazı davamlı sülh, sabit və çiçəklənən regiona çevirmək istiqamətində Avropa İttifaqını daha fəal rol oynamağa çağırmışdır.

Bu vacib qətnamə haqlı olaraq regionda həll edilməmiş münaqişələri iqtisadi və sosial

inkişafa, Cənubi Qafqaz ölkələrində "Şərq tərəfdaşlığı"nın reallaşmasına maneə kimi qiymətləndirir və regionda sabitlik üçün münaqişələrin dinc yolla həllini zəruri hesab edir. Parlament Avropa İttifaqı tərəfindən Cənubi Qafqaz ölkələrinə münasibətdə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmətə istinad edərək, habelə "Şərq tərəfdaşlığı"nın məqsədlərindən biri - tərəfdaş ölkələrin dövlətçiliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsinə real dəstək verilməsinin olduğunu xatırladır. Bundan əlavə, region ölkələrinin suverenliyi və ərazi bütövlüyünə hörmətə münasibətdə hər hansı bir şərtin irəli sürülməsini yolverilməz hesab edir.

Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və onun ağır nəticələrinə dair Avropa Parlamentinin aydın və vahid mövqeyini müsbət dəyərləndirir. Beləliklə, qarşıdan gələn aylar ərzində münaqişənin həlli cəhdlərinin sürətləndirilməsinə, beynəlxalq səviyyədə əsası olmayan və zor gücünə yaradılmış status-kvonun qorunub saxlanılmasından imtina etməyə çağıraraq, Avropa Parlamenti bütün işğal olunmuş Azərbaycan torpaqlarından Ermənistanın silahlı qüvvələrinin çıxarılmasını tələb edir. Həmçinin Avropa parlamentariləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı və ya münaqişə ilə əlaqədar evlərini tərk edərək yüz minlərlə qaçqın və məcburi köçkünün didərgin qalmaları faktı və onların geri qayıtmaq haqları da daxil olmaqla, hüquqlarının inkar olunması ilə əlaqədar öz ciddi narahatlıqlarını bildirirlər. Avropalı deputatlar bu hüquqların birmənalı və qeyd-şərtsiz tanınmasına çağıraraq, onların təcili reallaşdırılmasını xüsusi qeyd edirlər.

Dağlıq Qarabağ bölgəsində təşkil olunacaq "parlament seçkilərini" nəzərə alaraq, Azərbaycanın Xarici İşlər Nazirliyi məmnuniyyətlə bildirir ki, Avropa İttifaqının separatçı ərazilərdə keçirilən seçkilərin təşkilini qeyri-konstitusion və qeyri-qanuni hesab etməsi ilə bağlı mövqeyi Avropa Parlamentinin bu qətnaməsində təsdiqlənir və məcburi köçkünlərin siyasi hüquqları müdafiə edilir.

Erməni tərəfinin bu qətnamənin qəbul edilməsinin qarşısının alınması ilə bağlı ümidsiz cəhdlərinə baxmayaraq, həmin sənəd Avropa Parlamentinin əsas siyasi qrupları tərəfindən güclü dəstək almışdır.

Azərbaycanın Xarici İşlər Nazirliyi inanır ki, Avropa Parlamentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu aydın mövqeyi və vaxtında atdığı addım Ermənistana münaqişənin həllinin uzadılmasına yönəlmiş siyasəti dayandırmağa və nəticədə, qətnamədə əks olunmuş prinsiplər əsasında, danışıqlarda konstruktiv mövqe tutmağa siqnaldır.

Bakı şəhəri, 21 may 2010-cu il

AZƏRBAYCAN BMT-NİN SESSİYASINDA GENİŞ TƏRKİBLİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ TƏMSİL OLUNMUŞDUR

Mayın 17-dən 21-dək BMT-nin Vyana bölməsində bu qurumun Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi komissiyasının 19-cu sessiyası keçirilmişdir.

BMT-yə üzv dövlətlərin hüquq mühafizə, gömrük, ədliyyə orqanlarının, beynəlxalq təşkilatların təmsilçilərinin iştirak etdikləri mötəbər forumda Azərbaycanı Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə Ali Məhkəmə, Respublika Prokurorluğu, Xarici İşlər Nazirliyi və DGK-nın

əməkdaşlarından ibarət geniş tərkibli nümayəndə heyəti təmsil edir.

Mədəni irsin qeyri-qanuni dövriyyəsinə həsr olunmuş sessiyanın açılışında BMT baş katibinin müavini, Narkotiklərə və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin icraçı direktoru Antonio Maria Kosta çıxış edərək, iştirakçı ölkələri XXI əsrin ədliyyə tələblərinə cavab verə bilmək üçün öz hüquq sistemi və tədris bazalarını möhkəmləndirməyə çağırmışdır. Eyni zamanda klassik fəaliyyət sahələri ilə yanaşı, yeni dövrə xas olan cinayətlərlə (ekologiya, internet, şəxsə aid fərdi məlumatlar və s.) sayıq mübarizənin vacibliyi qeyd edilmişdir.

Sessiya çərçivəsində Aydın Əliyev "Qaçaqmalçılığa qarşı mübarizə: təcrübə, imkanlar, inkişaf perspektivləri" mövzusunda interaktiv təqdimatla çıxış etmişdir. Təqdimat zamanı Azərbaycanda gömrük işinin təşkili, fəaliyyət istiqamətləri, qeyri-qanuni dövriyyəyə qarşı mübarizə, hüquqi və maddi-texniki bazanın təkmilləşdirilməsi sahəsində görülmüş işlər barədə ətraflı məlumat verilmişdir.

Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin daxili tələbatı ödəməklə yanaşı, həm də uğurlu beynəlxalq əməkdaşlıq etdiyi diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, 2003-cü ildə Azərbaycanda yaradılmış Dünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzi səmərəli fəaliyyət göstərir. Məhsuldar əməkdaşlığı nəzərə alaraq, Bakı şəhərində Dünya Gömrük Təşkilatı potensialının gücləndirilməsi üzrə regional ofisinin yaradılması istiqamətində iş gedir.

A.Əliyev sessiya iştirakçılarını Azərbaycanın Avstriyadakı səfirliyinin dəstəyi ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən BMT-nin Vyana bölməsində təşkil olunmuş "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" sərgisinə dəvət etmişdir.

KÜVEYT DÖVLƏTİNİN DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜLKİ MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLMUŞDUR

Mayın 21-də Küveyt Dövlətinin Daxili İşlər Nazirliyinin Mülki Müdafiə Komitəsinin sədri, general Yusif əl-Roudanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur.

Səfərdən əsas məqsəd bu sahədə müvafiq dövlət qurumları arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, gələcək əməkdaşlıq perspektivlərinə dair, habelə qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi olmuşdur.

Qonaqlar Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərovla görüşmüşlər.

Kəmaləddin Heydərov nazirliyin fəaliyyəti, habelə respublika ərazisində baş verən daşqınlar, təbii fəlakətlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində görülən tədbirlər barədə qonaqlara məlumat vermişdir.

Görüşdə hər iki ölkənin müvafiq qurumları arasında əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində qonaqlar Fövqəladə Hallar Nazirliyinin qurumlarının fəaliyyəti ilə tanış olmuşdur.

Yusif əl-Rouda Nazirliyin maddi-texniki imkanları və kadr hazırlığını yüksək qiymət-

ləndirmişdir.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ SƏDRİNİN MÜAVİNİ NEVZAT PAKTİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

Türkiyə Böyük Millət Məclisi (TBMM) sədrinin müavini Nevzat Paktilin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 23-də Azərbaycana səfərə gəlmişdir.

Nümayəndə heyətinə TBMM-in baş katibi Sadettin Kalkan, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Mustafa Kabakçı, eləcə də TBMM-in ATƏT PA və QİƏT PA-dakı nümayəndə heyətlərinin başçıları Alaatdin Böyükqaya və Kəmaləddin Göktaş və digər rəsmi şəxslər daxildirlər.

Səfərin əsas məqsədi Bakıda keçiriləcək "TBMM- 90 il, Parlament diplomatiyası - TürkPA" beynəlxalq konfransda və Türkdilli Ölkələrin Parlament Assambleyasının ofisinin rəsmi açılışında iştirak etməkdir.

Qardaş ölkənin deputatlarının Azərbaycanda bir sıra görüşləri də nəzərdə tutulmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ XANIM MOD DE BUR BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Avropa Şurası baş katibinin müavini xanım Mod De Bur Bukikkionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan cəmiyyətində qadınların rolu, müxtəlif hakimiyyət strukturlarında və ictimai təşkilatlarda qadınların iştirakı ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BMT baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı BMT baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin qaçqınların və məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını vurğulamışdır. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü qeyd edən dövlətimizin başçısı onların sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışmış və bu işlərin Azərbaycan dövlətinin siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğunu demişdir. Dövlətimizin başçısı Azərbaycan tərəfinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoymaqla bu ədalətsizliyin aradan qaldırılması istiqamətində səylərini bundan sonra da əsirgəməyəcəyini bildirmişdir.

BMT baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalin 2007-ci ildə ölkəmizə səfərini və həmin səfər zamanı keçirdiyi görüşlərdə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlı müzakirələri xatırlamışdır. Valter Kalin budəfəki səfəri zamanı həm Bakıda, həm də bölgələrdə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olduğunu, 2007-ci ildən bəri Azərbaycanda bu istiqamətdə çox böyük işlər görüldüyünü məmnunluqla qeyd etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ MİGİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də BMT Baş katibinin müavini xanım Aşa Rouz Migironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransında iştirak etmək üçün ölkəmizə səfər edən xanım Aşa Rouz Migiro BMT Baş katibi Pan Gi Munun salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, Baş katib Azərbaycanda əldə olunan iqtisadi tərəqqini maraqla izləyir. Xanım Aşa Rouz Migiro Azərbaycan Prezidentinin konfrans iştirakçılarına ünvanladığı müraciətə görə minnətdarlığını bildirdi. Bu gün Azərbaycanın birinci xanımı ilə görüşdüyünü və çox maraqlı müzakirələr apardıqlarını bildirən qonaq, Mehriban Əliyevanın və Azərbaycan hökumətinin uşaqların sağlamlığı istiqamətində gördüyü işlərdən məmnun qaldıqlarını vurğuladı.

Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı tədbirin Azərbaycanda və konfransda iştirak edən ölkələrdə ümumi vəziyyətin inkişafı işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev BMT-nin Baş katibi hələ Koreya Respublikasının xarici işlər naziri işləyərkən onunla keçirdiyi görüşü məmnunluqla xatırladı.

Dövlətimizin başçısı BMT Baş katibi Pan Gi Munun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş katibə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyası Dağıstan Respub-

likasının Prezidenti Maqomedsalam Maqomedov arasında görüş keçirilmişdir.

Daha sonra görüş geniş tərkibdə davam etdirilmişdir.

Dövlətimizin başçısı Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun ilk səfərini Azərbaycana etməsini yüksək qiymətləndirərək Azərbaycan ilə Dağıstanı çoxəsrlik tarixi, mədəni əlaqələrin birləşdirdiyini vurğulamışdır. Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, Dağıstan Respublikası Prezidentinin Azərbaycana səfəri xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq, müxtəlif sahələrdə, o cümlədən iqtisadi, regionda təhlükəsizliyin möhkəmləndirilməsi, sərmayə yatırımları və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi işinə xidmət edəcəkdir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bu münasibətlərin strateji xarakter daşıdığını demişdir. Dövlətimizin başçısı Dağıstan Respublikası Prezidentinin ölkəmizə səfərinin Rusiya-Azərbaycan münasibətlərinin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini vurğulamışdır.

Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov Dağıstan xalqının dərin hörmət və ehtiramını dövlətimizin başçısına çatdırmışdır. Maqomedsalam Maqomedov Azərbaycanda tolerantlığın qorunub saxlanılması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin Dağıstanda yüksək qiymətləndirildiyini demişdir. Dağıstan Respublikasının Prezidenti Rusiya-Azərbaycan münasibətlərinin və eləcə də xalqlarımız arasında mehriban dostluq və qardaşlıq əlaqələrinin qədim tarixə malik olduğunu vurğulayaraq bu ənənələrin qorunaraq gələcək nəsillərə ötürüləcəyinə əmin olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ABUL ĞEYTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Misir Ərəb Respublikasının xarici işlər naziri Əhməd Abul Ğeytin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulamışdır. Prezident İlham Əliyev Misirə rəsmi səfəri zamanı keçirdiyi görüşləri xatırlayaraq Azərbaycan ilə Misir arasında müxtəlif səviyyəli tədbirlərin əhəmiyyətini qeyd etmişdir. Dövlətimizin başçısı Misirin xarici işlər naziri Əhməd Abul Ğeytin ölkəmizə səfərinin əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacağına əminliyini bildirmişdir.

Xarici işlər naziri Əhməd Abul Ğeyt Misir Ərəb Respublikasının Prezidenti Hüsni Mübarəkin salamlarını və məktubunu dövlətimizin başçısına çatdırmışdır. Qonaq ölkəmizdə gedən sürətli inkişaf proseslərinin, sabitlik və əmin-amanlığın, yaradılmış müasir infrastrukturun, inşa olunan yeni obyektlərin onda böyük təəssürat doğurduğunu demişdir.

Dövlətimizin başçısı son illər ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafın əldə olunduğunu bildirərək paytaxtımızda və bölgələrdə mühüm layihələrin uğurla həyata

keçirildiyini diqqətə çatdırmışdır. Prezident İlham Əliyev ölkəmizin güclü və müasir bir dövlətə çevrilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini vurğulamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Misir dövlətinin başçısı Hüsni Mübarəkin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Misir Prezidentinə çatdırmağı xahiş etmişdir.

AVROPA ŞURASINA ÜZV DÖVLƏTLƏRİN GENDER BƏRABƏRLİYİNƏ HƏSR OLUNMUŞ VII KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransının açılışı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikası bu gün Avropa Şurası ilə ən müxtəlif sahələrdə qarşılıqlı faydalı münasibətlər quraraq səmərəli əməkdaşlıq həyata keçirir. Təşkilata üzv dövlətlərlə əlaqələrin genişləndirilməsi ölkələrimizin bir-birinə daha da yaxınlaşmasına və qarşıya çıxa biləcək problemlərin aradan qaldırılmasına əlverişli zəmin yaradır. Bu baxımdan son zamanlar respublikamızda Avropa Şurası səviyyəsində bir sıra beynəlxalq tədbirlərin ənənəvi xarakter alması təqdirəlayiqdir.

Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. Müstəqil Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Azərbaycan təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər.

Bununla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkünün əksəriyyətini təşkil edən qadınlarımızın ən kobud şəkildə pozulmuş əsas hüquqları hələ də bərpa olunmamışdır. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin və Avropa Şurasının Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlarının mövcud olmasına baxmayaraq, həmin insanların doğma yurdlarına qayıtması istiqamətində göstərilən səylər də hələlik nəticəsiz qalmışdır.

Gender bərabərliyinin faktiki surətdə əldə olunması, heç şübhə yoxdur ki, beynəlxalq və milli səviyyədə bir çox qurum və təsisatların uzunmüddətli birgə fəaliyyətinin gücləndirilməsini tələb edir. Əminəm ki, konfransınız bu məsələlər ətrafında geniş və səmərəli müzakirələr aparacaq, gələcək fəaliyyətinizdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

Dərin hörmətlə,

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 2010-cu il.

BAKIDA AVROPA ŞURASININ QADINLAR VƏ KİŞİLƏR ARASINDA BƏRABƏRLİK MƏSƏLƏLƏRİNƏ MƏSUL NAZİRLƏRİN VII KONFRANSI KEÇİRİLİR

Mayın 24-də Bakının "Gülüstan" sarayında Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda VII konfransı işə başlamışdır.

Avropa Şurasına üzv dövlətlərin müvafiq sahədə fəaliyyət göstərən qurumlarının rəhbərlərinin, xaricdən, o cümlədən ABŞ-dan, Vatikandan, Kanadadan, Yaponiyadan və Meksikadan dəvət olunmuş qonaqların, dövlət orqanlarının, Bakıdakı diplomatik korpusun, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçilərinin iştirak etdikləri tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Prezident İlham Əliyevin konfrans iştirakçılarına təbrik məktubunu oxudu.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban ƏLİYEVA açılış mərasimində çıxış edərək dedi:

- Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən öz nitqimi bu konfransın bütün iştirakçılarını və qonaqlarını salamlamaqla başlamaq istərdim. Çox məmnunam ki, Bakı müasir dünyada mühüm məsələlər və çağırışlara həsr olunmuş bir çox beynəlxalq görüş və konfranslara ev sahibliyi edir. Bu tədbir qlobal təcrübədən yararlanmaqda vacib fürsət olaraq, konstruktiv dialoq və birgə həll variantları üçün zəmin yaradır. Mən bu konfransı Bakıda keçirmək qərarını qəbul etdiyinə görə Avropa Şurasına minnətdarlığımı bildirirəm və inanıram ki, Azərbaycanın gender bərabərliyinə aid fəal mövqeyi və konkret strategiyası bu tədbirin məhz Bakıda keçirilməsinin əsas səbəblərindəndir.

Bu gün keçirilən konfrans olduqca böyük ictimai əhəmiyyətə malikdir. Gender və hüquqlar bərabərliyi hər hansı demokratik cəmiyyətin ən mühüm əsaslarından biridir. İyirminci əsrin ən böyük nailiyyətlərindən biri ondan ibarətdir ki, biz cəmiyyətdəki dəyərlər və etik qaydaları dəyişməyə müvəffəq olduq. Gender probleminin ciddiliyi müxtəlif ölkələrdə tam şəkildə qavranılır və yalan stereotiplərin aradan qaldırılması prosesi artıq başlanmışdır. 1960-70-ci illərdə insanların qadınlara münasibətində dünya miqyasında köklü dəyişikliklər baş verdi.

1975-ci ildən etibarən BMT-nin təşkilatçılığı ilə Mexiko, Kopenhagen, Nayrobi və Pekində qadınların statusuna həsr olunmuş dörd qlobal konfrans təşkil edilmişdir. Bu konfranslar çox uğurla keçmiş və beynəlxalq ictimaiyyətə cinslər arasında qeyri-bərabərliyin probleminə daha böyük diqqətin yetirilməsinə xidmət etmişdir.

Avropanın inkişaf etmiş bir sıra ölkələrində gender ayrı-seçkiliyinin aradan qaldırılması ilə bağlı uğurlu milli siyasətin formalaşdırılması və kişi ilə qadın arasında real sosial bərabərliyin bərqərar olunması sahəsində zəngin təcrübə vardır. Bu gün müasir Avropa cəmiyyətində qadınlar demək olar ki, bütün ictimai sahələrdə, o cümlədən ən mürək-

kəb, ənənəvi kişi peşələrində fəaliyyət göstərirlər. Onlar dünyada biznes, maliyyə işlərində və hərbi sahədə fəal rol oynayırlar. Qadınlar problemlərin həllinə xüsusi diqqət yetirərək, siyasətdə də iştirak edirlər.

Bütün bu müsbət dəyişikliklərə baxmayaraq, qarşımızda duran məsələlər hələ də çoxdur. Bir çox qətnamə və qərarlar hələ də yerinə yetirilməyib. Bir tərəfdən, gender bərabərliyi müasir Avropa cəmiyyətində mühüm əhəmiyyət kəsb edir, digər tərəfdən, əldə oluna biləcək tərəqqi daha da çox ola bilərdi.

Qadınların hüquqlarının qorunmasında Azərbaycan da bir çox nailiyyətlər əldə etmişdir. XX əsr Azərbaycan qadınının həyatında yeni dövrün başlanğıcı hesab edilə bilər. Məhz 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika olaraq qadınlara seçmək və seçilmək hüququnu vermişdir. Bu, bir çox digər Qərb ölkələrindən fərqli olaraq, əvvəl baş vermişdir. XX əsrin sonunda ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra qadınlar yeni imkanlar əldə etmişlər. Müasir Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınlar iştirak etməsin. Onlar idarəçilik, hüquq mühafizə və ədliyyə orqanlarında təmsil olunurlar. Onlar biznes fəaliyyəti ilə məşğul olur, siyasi və ictimai proseslərdə iştirak edirlər.

Qadınların siyasi və ictimai fəaliyyətində böyük nailiyyətlər əldə olunmuşdur. 2009-cu ildə bələdiyyə orqanlarına seçilən qadınların sayı 2004-cü ildəki göstəricilərlə müqayisədə 7 dəfə artmışdır. Hazırda qadınlar dövlət məmurları və elmi işçilərin demək olar ki, yarısını təşkil edirlər. Həkimlərin və məktəb müəllimlərinin əksəriyyəti qadınlardır. Ölkəmizdə hər beş ildən bir qadınların cəmiyyətdə rolu və mövqeyini müzakirə etmək məqsədi ilə ümumrespublika forumu keçirilir. Bütün bu nailiyyətlər müsbət və nikbin gələcəyə dəlalət edən göstəricidir.

Eyni zamanda, Azərbaycanda gender münasibətləri və qadınların ailə və cəmiyyətdə statusu ilə bağlı ciddi problemlər də vardır. Bütün bunlar dövlət və qeyri-hökumət qurumlarını narahat edən məsələdir. Yaxşı məlumdur ki, Azərbaycan öz müstəqilliyinin bərpasının ilk illərindən sonra qonşu Ermənistanın təcavüzünə məruz qalmışdır. Ərazimizin 20 faizinin işğalı nəticəsində bir milyon vətəndaşın, o cümlədən qadınların insan hüquqları kobud şəkildə pozulmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş soydaşlarımızın təxminən yarısı qadınlardır. Məcburi köçkünlərin təhsilə, tibbi yardıma çıxışı və normal həyat şəraitlərinin yaradılması nəinki dövlətin, o cümlədən beynəlxalq təşkilatların daim gündəliyində olmalıdır.

Bizi narahat edən digər problem məişət zorakılığıdır. Hətta ən inkişaf etmiş cəmiyyətlərdə qadınlar müxtəlif növ zorakılığa məruz qalırlar. Azərbaycan da istisna deyildir. Digər ölkələrdə olduğu kimi, bizim ölkədə də məişət zorakılığını müəyyən etmək çox çətin olur. Bununla belə, qadınlar və uşaqlara qarşı hər hansı zorakılıq hətta bir hadisə olsa belə, qəbuledilməzdir.

Qeyd etmək istəyirəm ki, ənənələrimiz və mentalitetimizdən istifadə edərək, bu cür davranışa rəvac vermək mənəviyyatsızlıqdır. Azərbaycan xalqının adət-ənənələrində qadına çox böyük hörmət və qayğı ilə yanaşılır. Ailə dəyərləri cəmiyyətimizin ən mühüm və qiymətli dəyərləri olmuş və olaraq qalır. Azərbaycanlılar üçün ana müqəddəs simadır.

Məişət zorakılığı haqqında qanun layihəsi Milli Məclisdə artıq oxunuşdan keçmişdir. Əminəm ki, bu qanun yaxın vaxtlarda qəbul olunacaqdır. Qanunvericilik sahəsinə gəldikdə, qeyd etmək istəyirəm ki, bəzən vətəndaşlara bərabər imkanların yaradılmasına yönəlmiş qanunlar kişi və qadın üçün eyni fürsətin olmasına zəmanət vermir. Bu, o deməkdir ki, vətəndaş hüquqlarına malik olmaq, məsələnin yalnız bir hissəsidir. Digər mühüm məsələ, onların necə həyata keçirilməsi ilə bağlıdır. Bu, işləyəcəyimiz əlavə bir sahədir.

Gender bərabərliyinin necə olması və ahəngdar formada təmin edilməsi ilə bağlı müxtəlif təklif və fikirlərimiz ola bilər. Cəmiyyətdə qadınlar və kişilər arasında hər hansı qeyri-bərabərliyin aradan qaldırılmasını yalnız bir platforma və ya tədbirlər planı sayəsində aradan qaldırmağı düşünmək sadəlövhlük olardı. Bütün tədqiqatçılar hesab edirlər ki, sivilizasiyanın inkişaf dövründən başlayaraq, qadınlar demək olar, bütün cəmiyyətlərdə dini mənsubiyyətdən və ya siyasi quruluşdan asılı olmayaraq, kişilərdən asılı vəziyyətdə olublar. Hazırda dünya öz inkişafının elə bir dövrünə qədəm qoyur ki, yekun məqsəd bu vəziyyətin dəyişməsindən ibarətdir. Vəziyyətin dəyişilməsində uğurlar bir çox - siyasi, ictimai, sosial, dini və mənəvi amillərdən asılıdır. Lakin yekun nəticədə hər şey bizdən, bu planetdə yaşayan kişilər və qadınlardan asılıdır.

Hələ XX əsrin əvvəllərində Simona de Bovuar yazırdı: "Kişinin fərdiləşməsi nə qədər güclü olarsa, kişinin həmin fərdiləşməyə ehtiyacı bir o qədər böyük olur və o, bir o qədər də tez öz qadınının fərdiləşmə və azadlıq hüququnu etiraf edəcəkdir". Kişinin əsl müstəqilliyi o vaxt təmin olunur ki, həmin azadlıq, müstəqillik və imkanlar qadında da olsun.

Əgər müasir cəmiyyətdə qadının vəziyyətini və taleyini əsasən onun ətrafında olan kişilər müəyyən edirsə, bilmək lazımdır ki, həmin kişilər qadınlardan tərbiyə alıblar. Bu, o deməkdir ki, məhz mənəvi dəyərlərin daşıyıcısı olan qadın öz yaradıcı potensialından istifadə edərək, bəşəriyyətə yeni gender bərabərliyi modelini təklif edəcəkdir.

Yekunda mən bu məsələdə göstərdiyi fəal mövqeyə və verdiyi töhfəyə görə hamıya təşəkkürümü bildirirəm. Mən sizə uğurlar arzulayıram və ümid edirəm ki, gözəl şəhərimizə səfərinizdən məmnun olacaqsınız.

Diqqətinizə görə minnətdaram.

* * *

Konfransda çıxış edən Avropa Şurasının baş katibinin müavini xanım Mod de Bur BUKİKKİO vurğulamışdır ki, real həyatda ən çox kişilər rəhbər vəzifələri tuturlar. Qadınlar isə ikinci dərəcəli rol oynayırlar. Çox hallarda qadınlar əhalinin zəif kateqoriyası kimi qiymətləndirilir.

Qadınlar və kişilər arasında bərabərliyin əslində insan hüquqlarının və demokratiyanın ən vacib şərtlərindən biri olduğunu diqqətə çatdıran Avropa Şurasının baş katibinin müavini bildirmişdir ki, gender bərabərliyi qadın və kişilər arasında imkanların bütün sahələrdə bərabər tətbiq olunmasından ibarətdir.

Son illər ən böyük bərabərsizliklərin aradan qaldırıldığını deyən Avropa Şurasının rəsmisi bildirmişdir ki, qadınlar çox vaxt öz hüquqlarından lazımı səviyyədə istifadə edə

bilmirlər. Bir sıra bərabərsizliklər əlbəttə ki, qadınların insan hüquqlarının müdafiə olunmasında öz əlamətlərini göstərir. Bəzən qadınlar müxtəlif proseslərdə qurbana çevrilirlər. Onlar həm ictimai, həm də siyasi proseslərdə işsizlik və ya digər çətinliklərlə üzləşirlər. Onlara kişilərlə müqayisədə eyni dəyərli iş üçün daha az məvacib ödənilir. Məhz buna görə də Avropa Şurası bu məsələləri təhlil etməklə bərabərliyi təmin etmək üçün bir sıra tədbirlər görür. Qadın və kişi arasında gender bərabərliyini təmin etmək üçün layihələrin həyata keçirilməsi çox vacibdir. Bu, strategiyanın əsasını təşkil edir.

Mod de Bur Bukikkio vurğulamışdır ki, qadınlara və kişilərə fərqli münasibət bəsləyərkən biz, həmçinin genderlə bağlı struktur stereotiplərin aradan qaldırılmasına nail olacağıq. Konkret tədbirlər görülməlidir ki, həm təhsildə, həm KİV-lərdə bu cür dəyişikliklərin həyata keçirilməsi, gender bərabərliyinin təmin edilməsi mümkün olsun.

Gender stereotiplərinə qarşı mübarizədə təhsilin rolundan danışan Avropa Şurasının baş katibinin müavini vurğulamışdır ki, cəmiyyətin hər bir üzvü bərabər təhsil imkanları, peşəkar fəaliyyət və həyat tərzi ilə təmin olunmalıdır.

Mod de Bur Bukikkio bildirmişdir ki, bu konfransında xüsusi qətnamənin və fəaliyyət planının hazırlanması gender bərabərliyini təmin etməyə imkan verəcəkdir.

* * *

Bakıda keçirilən konfransda iştirak etməkdən məmnun olduğunu bildirən BMT baş katibinin müavini xanım Aşa Rouz MİGİRO belə bir aktual mövzunun müzakirəsi üçün yaradılmış şəraitə və qonaqpərvərliyə görə Azərbaycan hökumətinə minnətdarlıq etmişdir.

Bakının həm qədim, həm də müasir şəhər olduğunu qeyd edən BMT baş katibinin müavini demişdir ki, Azərbaycan çox müsbət və çox perspektivli gələcəyi olan bir ölkədir. Bu, ölkənin bütün vətəndaşları üçün böyük imkanlar yaradacaqdır.

Qadınların həyatda, cəmiyyətdə çox vacib roluna toxunan xanım Aşa Rouz Migiro təmsil etdiyi təşkilatın gender bərabərliyi istiqamətindəki fəaliyyətindən söz açaraq demişdir ki, BMT bu prosesin həyata keçirilməsi üçün bir sıra layihələr icra edir.

Qadınların sülhün və inkişafın təmin olunmasında oynadığı rolu qeyd edən BMT baş katibinin müavini demişdir ki, bu konfrans problemləri müzakirə etmək və onların həll yollarını axtarmaq baxımından bizə geniş imkan yaranmışdır. Bəzi ölkələr ayrı-seçkilik yaradan qaydaları və qanunları dəyişmişdir. Biz bunu çox müsbət əlamət kimi qiymətləndiririk.

Xanım Aşa Rouz Migiro bir sıra ölkələrdə təhsil sahəsində aparılan müsbət dəyişikliklərin qadınların imkanlarını daha da genişləndirdiyini vurğulamış, ana ölümünün səviyyəsinin aşağı salınmasının vacibliyini vurğulamışdır. Bəzi istiqamətlərdə nailiyyətlər əldə olunsa da, görüləsi işlər hələ çoxdur. Bizim üçün çox vacib məsələ ondan ibarətdir ki, gender stereotipləri, həmçinin qadınlara və qızlara qarşı ayrı-seçkilik aradan qaldırılsın. Qərarların qəbul edilməsi prosesində qadınların iştirakını genişləndirməliyik.

Çıxışının sonunda BMT baş katibinin müavini demişdir ki, Avropa Şurası gender bərabərliyində olan çatışmazlıq mövzusunu irəli sürməklə çox vacib bir məsələyə müraciət etmişdir. Buna görə də düşünürəm ki, biz bərabərliyi təmin etməklə inkişafa, sülhə nail

olmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Bu konfrans isə həmin istiqamətdə çox vacib bir addımdır.

* * *

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Avropa Şurası baş katibinin müavini Mod de Bur Bukikkio və BMT baş katibinin müavini xanım Aşa Rouz Migiro xatirə şəkli çəkdirdilər.

* * *

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova konfransın sədri seçilmişdir.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndəsi Xose Mendes Bota çıxış edərək Azərbaycanda olmağından böyük şərəf duyduğunu, konfransın yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmişdir. O, təmsil etdiyi qurumda gender bərabərliyinin təmini sahəsində bir çox işlərin görüldüyünü demişdir.

Xose Mendes Bota qeyd etmişdir ki, bu yaxınlarda AŞPA-da qəbul edilən qərar qadınlarla kişilərin eyni hüquqa malik olması ilə bağlı boşluğu aradan qaldırmağa yönəlmişdir. AŞPA-da yaradılmış şəbəkənin isə əsas məqsədi qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılmasıdır.

Avropa Şurası Konqresinin Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Yan Mikkalef bildirmişdir ki, bu konfrans gender bərabərliyi məsələsində dialoq və qlobal təcrübə mübadiləsinə imkan yaradır. Müasir Avropa cəmiyyətində qadın bütün ictimai sahələrdə, siyasətdə və biznesdə iştirak edir. Lakin bu müsbət dəyişikliklərə baxmayaraq, hələ də gender bərabərliyi məsələsində boşluqlar vardır. Hələ bir sıra tövsiyə və qətnamələr yerinə yetirilməmişdir. Ona görə də gender bərabərliyi problemləri bir tərəfdən, müasir cəmiyyət üçün çox vacib məsələdir, digər tərəfdən isə, əldə olunmuş nailiyyətlərin daha da inkişaf etdirilməsinə ehtiyac vardır. Demokratik ölkədə gender bərabərliyi fundamental tələbdir. Bunu təmin etmək üçün stereotiplər aradan götürülməlidir.

Avropa Şurasının QHT-lər Konfransının nümayəndəsi Karin Nordmeyer müzakirə olunan mövzu ilə bağlı təmsil etdiyi qurumda görülən işlərdən danışmışdır. Qonaq vurğulamışdır ki, dünyada elə bir şərait yaradılmalıdır ki, qadınlar öz potensialından tam istifadə edə bilsinlər.

K.Nordmeyerin sözlərinə görə, bir çox ölkələrdə ayrı-seçkilik qanunvericiliklə qadağan olunmuşdur. Lakin qəbul edilən qərarların praktikada tam reallaşdırılması üçün birgə səyləri artırmaq vacibdir. Avropa Şurası ictimai həyatın bütün sahələrində qadın və kişilərin iştirakını balanslaşdırmaq üçün ayrı-seçkiliklə mübarizə aparmağa çalışır. Bugünkü konfransın əsas məqsədi də de-yure və de-fakto gender bərabərliyinin təmin olunması məsələlərini müzakirə etməkdir.

Sonra konfrans işini "De-fakto gender bərabərliyinə nail olmaq üçün müsbət tədbirlərin həyata keçirilməsi və gender amilinin daxil edilməsi" mövzusunun müzakirəsi ilə davam etdirmişdir. Çıxış edənlər Avropanın bir hissəsi kimi Azərbaycanın gender məsələ-

lərinə xüsusi diqqət ayırmasını yüksək qiymətləndirmişlər. Vurğulanmışdır ki, bu gün Azərbaycanda təhsil, məşğulluq və ailə sahəsində gender bərabərliyi geniş təbliğ edilir.

Natiqlər gender məsələlərində təkmilləşdirilmiş qanunvericilik bazasının formalaşdırılmasının vacibliyini vurğulamışlar.

"Gender stereotiplərinə qarşı mübarizədə təhsilin və medianın rolu" mövzusunda müzakirələr zamanı gender stereotipləri haqqında videoçarx nümayiş olunmuşdur.

Avropa Komissiyasının vətəndaşlıq və gender bərabərliyi komissiyasının beynəlxalq əlaqələr üzrə direktoru İzabel Romao belə əhəmiyyətli konfransı təşkil etdiyi üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir. O, qadınlar və kişilər arasında mövcud stereotiplərin ləğv olunmasında təhsilin rolundan danışmışdır. Qeyd edilmişdir ki, bu sahədə mövcud problemlər hələ məktəb illərində təhsildə olan boşluqlardan başlayır.

İrlandiyanın təhsil və elm departamentinin baş inspektoru Maurin Bohan gender stereotiplərinə qarşı mübarizədə təhsilin böyük rolunu vurğulamışdır. Bir sıra ölkələrin təcrübəsini misal gətirən M.Bohan bu sahədə təhsilə lazımi diqqətin ayrılmaması nəticəsində yaranan problemlərdən danışmışdır.

Hollandiyanı təmsil edən xanım Cok Hermes isə stereotiplərlə mübarizədə medianın rolu mövzusunda çıxış etmişdir. O, medianın bu məsələyə təsirinin çox güclü olduğunu söyləyərək mətbuatın həmin sahədə lazımi tədbirlərin həyata keçirməsinin vacibliyini qeyd etmişdir. KİV-lər ailə və qadın problemlərinin həllində də yaxından iştirak edən mühüm vasitələrdir. Televiziya və radio kanallarının, mətbuat orqanlarının monitorinqi göstərir ki, tamaşaçıların, oxucuların diqqətinə aktual problemlərin həllinə, o cümlədən gender stereotiplərinin aradan qaldırılmasına həsr olunmuş materiallar, reportajlar, verilişlər təqdim edilir. Bu baxımdan gender stereotiplərinə qarşı mübarizədə medianın rolu danılmazdır.

Konfrans işini bu mövzu üzrə müzakirələr ilə davam etdirmişdir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ MOD DE BUR BUKİKKİO İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva "De-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin 7-ci konfransında iştirak etmək üçün ölkəmizə gələn Avropa Şurasının Baş katibinin müavini Mod de Bur Bukikkio ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Mehriban Əliyeva beynəlxalq konfransda iştirak etmək üçün dəvəti qəbul etdiyinə görə Avropa Şurası baş katibinin müavininə minnətdarlığını bildirmişdir. Azərbaycanın birinci xanımı konfransın əhəmiyyətini qeyd etmiş, burada müzakirə olunacaq məsələlərin aktuallığını vurğulamışdır.

Mod de Bur Bukikkio Azərbaycanda olmasından məmnunluğunu ifadə edərək Bakıda keçirilən beynəlxalq tədbirin vacibliyindən danışmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BMT-NİN BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ MİGİRO İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin VII konfransında iştirak etmək üçün ölkəmizə gələn BMT baş katibinin müavini xanım Aşa Rouz Migiro ilə görüşmüşdür.

Görüşdə Bakıda keçirilən Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin VII konfransının əhəmiyyətindən danışıldı. Bildirildi ki, bu beynəlxalq tədbir dünyada gender bərabərliyinin təmin olunması ilə bağlı həyata keçirilən layihələrə dəstək verəcəkdir.

Mehriban Əliyeva BMT ilə Azərbaycan arasında yüksək münasibətlərin olduğunu bildirərək dedi ki, hazırda Heydər Əliyev Fondu BMT-nin bir çox strukturları ilə əməkdaşlıq əlaqələri həyata keçirir. Azərbaycanın birinci xanımı bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etdi.

BMT baş katibinin müavini xanım Aşa Rouz Migiro da ölkəmizdə olmaqdan məmnunluğunu bildirdi və konfransın keçirilməsinə verdiyi dəstəyə görə Azərbaycanın birinci xanımına təşəkkür etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikası öz beynəlxalq tərəfdaşlarının 2010-cu il mayın 23-də Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində keçirilmiş "parlament seçkiləri"nin davam etməkdə olan sülh prosesinə mənfi təsir edəcəyi ilə bağlı narahatlığını bölüşür.

Ermənistan Respublikası tərəfindən onun anneksiya siyasətini və Azərbaycan ərazilərinin işğalını ört-basdır etmək üçün növbəti cəhdi tam və qaçılmaz uğursuzluqla nəticələndi. Ermənistan tərəfi öz əməlləri ilə heç kəsi yox, yalnız öz ictimaiyyətini aldadır. Avropa Parlamentinin Avropa İttifaqının Cənubi Qafqaz üçün Strategiyasına ehtiyac ilə bağlı yenicə qəbul etdiyi məruzədə də qeyd edildiyi kimi, beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətdən yaxşı xəbərdardır.

Azərbaycan Respublikası Ermənistan tərəfinin yeritməyə çalışdığı fait accompli əsasında həlli heç zaman qəbul etməyəcəkdir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmalarının Azərbaycanın daxilində demokratiya və çiçəklənmənin faydalarından tam və bərabər şəkildə yararlanaraq, dinc yanaşı yaşayışı əsasında həll oluna bilər.

Azərbaycan bir daha Ermənistan tərəfini öz destruktiv siyasətini dayandırmağa və dəyərli vaxtını israf etmək əvəzinə münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə söykənən tez və davamlı həllini tapmaq məqsədilə xoş məramla danışıqlar aparmağa çağırır.

Bakı şəhəri, 24 may 2010-cu il.

DAĞISTAN PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDOVUN AZƏRBAYCANA SƏFƏRİ

Mayın 24-də Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov Azərbaycana səfərə gəlmişdir.

Heydər Əliyev adına Beynəlxalq hava limanında Dağıstan Respublikasının başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşılamışlar.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ EHTİRAM

Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 24-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi yad olunmuş, məzarı üstünə gül dəstələri düzülmüşdür.

1942-1948-ci illərdə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış böyük alim və görkəmli dövlət xadimi Əziz Əliyevin də xatirəsi yad olunmuş, məzarı üzərinə gül dəstələri qoyulmuşdur.

ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 24-də Şəhidlər xiyabanına gələrək, Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

Ali qonaq Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etmişdir.

DAĞISTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 24-də Milli Məclisdə olmuşdur.

Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov və digər rəsmi şəxslər qarşılamışlar.

Dağıstan Prezidenti Milli Məclisin iclas zalına baxmış, deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

Sonra Oqtay Əsədov ilə Maqomedsalam Maqomedov arasında təkbətək görüş olmuşdur. Daha sonra görüş geniş tərkibdə davam etdirilmişdir.

Oqtay Əsədov Maqomedsalam Maqomedovu Dağıstan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik etmişdir. Milli Məclisin sədri demişdir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası Dağıstan Respublikası arasında münasibətlər bütün sa-

hələrdə inkişaf edir. Xalqlarımız arasında çox qədim dostluq və qonşuluq münasibətləri vardır. Yüksək səviyyəli qarşılıqlı səfərlər əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açır.

Milli Məclisin sədri münasibətlərimizin genişlənməsində və möhkəmlənməsində parlamentlərin rolunu xüsusi qeyd etmiş, deputatlarımızın qarşılıqlı səfərlərinin, qanunvericilik sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin müsbət nəticələr verdiyini bildirmişdir.

Maqomedsalam Maqomedov səmimi sözlərə və təbrikə görə minnətdarlıq etmişdir.

Azərbaycan parlamentinin binasında aparılmış təmir-bərpa işlərini, yeni korpusun tikintisini yüksək qiymətləndirən qonaq demişdir ki, bu, həm də Azərbaycanın dinamik inkişafının bariz göstəricisidir.

Dağıstan Prezidenti də ölkələrimiz arasında əlaqələrin inkişafında parlamentlərin rolunu xüsusi vurğulamış və demişdir ki, deputatlarımızın dostluq münasibətləri həm siyasi, həm də ictimai baxımdan mühüm rol oynayır.

Maqomedsalam Maqomedov Dağıstanın Azərbaycan ilə əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsində maraqlı olduğunu bildirmişdir.

Ali qonaq münasibətlərin daha da inkişaf etdirilməsində, möhkəmləndirilməsində, eləcə də qanun yaradıcılığı işində Milli Məclisin rəhbərliyinə və deputatlara uğurlar arzulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ DAĞISTAN İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR

Azərbaycan və Dağıstan qarşılıqlı faydalı iqtisadi əməkdaşlığı genişləndirmək niyyətindədirlər.

Bu fikir Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə və Rusiya Federasiyasının Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun mayın 24-də Nazirlər Kabinetində keçirilmiş görüşündə səslənmişdir.

Azərbaycan hökumətinin başçısı qeyd etmişdir ki, xalqlarımızı möhkəm tarixi dostluq və qardaşlıq telləri birləşdirir, Azərbaycanda Dağıstanın uğurlarını həmişə sevinclə izləyirlər. Ümummilli lider Heydər Əliyev Rusiya Federasiyasının subyektlərindən biri olan, Azərbaycanın müxtəlif sahələrdə fəal əməkdaşlıq etdiyi Dağıstanla əlaqələrin genişləndirilməsi məsələlərinə həmişə böyük diqqətlə yanaşırdı.

Baş nazir qlobal maliyyə böhranı şəraitində Azərbaycan iqtisadiyyatının dinamik inkişafından söhbət açaraq qeyd etmişdir ki, keçən il ölkəmizdə ÜDM artımı 9,6 faiz olmuşdur, sosial sahədə çoxsaylı dövlət proqramları qəbul edilmiş, regionlarda müasir müalicə-diaqnostika mərkəzləri, yeni məktəblər tikilmiş, bir çox məktəblər isə təmir edilmişdir. O bildirmişdir ki, qeyri-neft sektorunun inkişafı və infrastruktur layihələri ölkə iqtisadiyyatının prioritet istiqamətləridir.

Artur Rasizadə Dağıstan nümayəndə heyətinin üzvlərinə Azərbaycanın əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də nizamlanmaması barədə məlumat vermişdir.

Prezident Maqomedsalam Maqomedov isə Dağıstan ərazisində dəniz neft yataqlarının işlənilməsində Azərbaycan neftçilərinin təcrübəsindən istifadə etməyin vacibliyini vurğulamışdır. O, həmçinin Azərbaycan-Dağıstan hökumətlərarası komissiyasının birinci iclasının keçirilməsinə hazırlıq işlərini, Samur çayı üzərində su elektrik stansiyası tikintisinə dair müştərək layihənin həyata keçirilməsini sürətləndirməyin zəruri olmasını qeyd etmişdir.

Dağıstan rəhbəri demişdir ki, Azərbaycan RF-nin bu subyektinin xarici ticarət dövriyyəsində mühüm yer tutur. Keçən il Azərbaycan ilə Dağıstan arasında əmtəə dövriyyəsinin həcmi 200 milyon dollar olmuşdur. Bu, Dağıstan üçün çox yüksək göstəricidir.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 24-də Heydər Əliyev Fondunda olmuşdur.

Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədləri və fəaliyyəti barədə məlumat verilmişdir.

Dağıstan Prezidenti ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış olmuşdur.

Fondla tanışlıq zamanı Dağıstan Prezidentinə məlumat verilmişdir ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, xalqımızın ümummilli lideri adını qazanmışdır. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.

Dağıstan Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, xarici ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdı.

Prezident Maqomedsalam Maqomedov Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Dağıstan Prezidentinə Fondun nəşri olan "Muğam aləmi" musiqi albomu hədiyyə edildi. Dağıstan Prezidenti də Fonda xatirə hədiyyəsi təqdim etdi.

Ali qonaq Fonddan zəngin təəssüratla ayrıldı.

DAĞISTAN PREZİDENTİ BAKININ GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 24-də paytaxtın görməli yerləri ilə tanış olmuşdur.

Gəzintiyə "Kiçik Karvansara" abidəsindəki təsviri və dekorativ-tətbiqi incəsənət mərkəzi - "İncəsənət bağı"ndan başlayan Dağıstan Prezidentinə mərkəz haqqında məlumat verilmişdir. Ali qonaq burada türk rəssamı xanım Günseli Katonun rəsm əsərlərinə tamaşa etmişdir.

Bakının rəmzi əzəmətli Qız qalası ilə tanışlıq zamanı bu qədim abidənin tarixi barədə Dağıstan Prezidentinə ətraflı məlumat verilmişdir.

Sonra Qız qalasının yaxınlığında yerləşən Sıratağlı dini-memarlıq kompleksinin ("Bazar Meydanı") ərazisindəki daş eksponatlarından ibarət ekspozisiyasının yenidən təşkili barədə danışılmış, bildirilmişdir ki, bu işlər müasir beynəlxalq tələblərə uyğun şəkildə həyata keçirilmişdir.

Qoşa qala qapısı meydanı ilə tanışlıq zamanı Dağıstan Prezidentinə Qala divarları, onun inşasının tarixi barədə geniş məlumat verilmişdir.

Sonda ali qonağın şərəfinə Filarmoniya bağında çay süfrəsi təşkil olunmuşdur.

Dağıstan Prezidenti Maqomedsalam Maqomedov İçərişəhərin Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

İçərişəhərlə tanışlıq ali qonaqda xoş təəssürat oyatmışdır.

AZƏRBAYCAN NAZİRLƏR KABİNETİNDƏ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Ərəb dünyası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və sülh yolu ilə həllinin tərəfdarıdır. Bu fikir mayın 24-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin ölkəmizdə rəsmi səfərdə olan Misir Ərəb Respublikasının xarici işlər naziri Əhməd Abul Ğeytin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə səslənmişdir.

Qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Baş nazir A.Rasizadə bildirmişdir ki, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından problem uzun illərdir ki, hələ də həllini tapa bilmir. Vurğulanmışdır ki, bu münaqişə sülh yolu ilə, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq normalar əsasında həll edilməlidir. Lakin, Ermənistan problemin həllini qeyri-müəyyən vaxta uzadarsa, Azərbaycan alternativ imkanlara əl atmağa məcbur olacaqdır.

Misirin xarici işlər naziri Əhməd Abul Ğeyt ərəb dünyasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin yanında olduğunu və bundan sonra da olacağını vurğulamışdır. Azərbaycan iqtisadiyyatının son illər yüksək sürətlə inkişaf etdiyini nəzərə çarpdıran qonaq, ölkəmizin Ermənistandan hər cəhətdən üstünlüyünü qeyd etmiş, Misirin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu

ilə həllinə tərəfdar olduğunu söyləmişdir.

Görüşdə Azərbaycan ilə Misir arasında ikitərəfli münasibətlərin, o cümlədən siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulanmış, belə qarşılıqlı səfərlərin əməkdaşlığın daha da genişlənməsinə töhfələr verəcəyi diqqətə çatdırılmışdır.

Tədbirdə, həmçinin tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ÜÇ SAZİŞ İMZALANMIŞDIR

Mayın 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Misirin xarici işlər naziri Əhməd Əbul Ğeyt ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

E.Məmmədyarov qeyd etmişdir ki, görüşdə ikitərəfli münasibətlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, regiondakı vəziyyət barədə müzakirələr aparılmışdır.

Misirli nazir vurğulamışdır ki, bu səfər onun ölkəsi ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinə imkan yaradacaqdır.

Bildirilmişdir ki, görüşdə Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında üç müqavilə imzalanmışdır.

"Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Misir Ərəb Respublikasının Milli Gənclər Şurası arasında Anlaşma Memorandumu"nu Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Misir tərəfindən xarici işlər naziri Əhməd Əbul Ğeyt imzalamışlar.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası və Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Tədqiqatlar İnstitutu arasında əməkdaşlıq haqqında Saziş"i isə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini, akademiyanın rektoru Hafiz Paşayev və Misir tərəfindən bu ölkənin Azərbaycandakı səfiri Sabir Əbdülqadir Mansur imzalamışlar.

BELÇİKA KRALLIĞI SENATININ FƏXRİ PREZİDENTİ, MÜDAFİƏ VƏ XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ SƏDRİ QUBA MƏZARLIĞINI ZİYARƏT ETMİŞ, ERMƏNİ VƏHŞİLİKLƏRİNDƏN DƏHŞƏTƏ GƏLDİYİNİ SÖYLƏMİŞDİR

Mayın 24-də Azərbaycan Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi, general-mayor Ramiz Nəcəfov ölkəmizdə səfərdə olan Belçika Krallığı Senatının fəxri prezidenti, Müdafiə və Xarici Əlaqələr Komissiyasının sədri xanım Anne Marie Lizinlə görüşmüşdür.

Ramiz Nəcəfov regionda vəziyyət və Müdafiə Nazirliyinin beynəlxalq hərbi əlaqələri

barədə qonağa məlumat vermişdir.

Səfəri çərçivəsində Quba məzarlığını ziyarət etdiyini və erməni vəhşiliklərindən dəhşətə gəldiyini bildirən belçikalı qonaq Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışacağını vurğulamışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ KEÇİRİLƏN QONDARMA "SEÇKİLƏR"LƏ BAĞLI BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Bernar Fasye (Fransa) və Robert Bradke (ABŞ) Azərbaycanın Dağlıq Qarabağ bölgəsində separatçı rejim tərəfindən mayın 23-də keçirilmiş qondarma "parlament seçkiləri" ilə bağlı birgə bəyanatla çıxış etmişlər.

Bəyanatda bildirilir ki, Dağlıq Qarabağ nə ATƏT-in Minsk qrupuna həmsədrlik edən üç ölkə, nə də digər ölkələr, o cümlədən Ermənistan tərəfindən müstəqil və suveren dövlət kimi tanınmamışdır.

Həmsədrlər hesab edirlər ki, bu prosedur münaqişənin sülh yolu ilə nizamlanmasına və Dağlıq Qarabağın yekun hüquqi statusunun müəyyənləşdirilməsinə təsir göstərməməlidir.

MDB ÖLKƏLƏRİ BAŞ PROKURORLARININ ƏLAQƏLƏNDİRMƏ ŞURASI AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR

Mayın 24-də Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan MDB ölkələri baş prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Valeri Yeroxin ilə görüşmüşdür.

Görüşdə Zakir Qaralov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə qanunçuluğun təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi, məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında köklü islahatların aparılması, o cümlədən müasir informasiya texnologiyalarının tətbiqi, prokurorluğun kadr korpusunun gənc mütəxəssislər hesabına komplektləşdirilməsi və qarşıda duran vəzifələr barədə qonağa ətraflı məlumat vermişdir. Zakir Qaralov cinayətkarlığa qarşı mübarizə sahəsində MDB ölkələri baş prokurorlarının Əlaqələndirmə Şurası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı faydalı əməkdaşlığın dinamik inkişaf etdiyini xüsusi vurğulamışdır.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Valeri Yeroxin təmsil etdiyi təşkilatın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini, bu cür görüşlərin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından faydalı olduğunu və MDB ölkələrinin baş prokurorlarının Əlaqələndirmə Şurası ilə Azərbaycan Prokurorluğu arasında əməkdaşlığın, həmçinin ikitərəfli qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinin zəruriliyini vurğulamışdır.

Görüşdə digər məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

Sonra qonaq Azərbaycan Prokurorluğunun Tarix muzeyi və Elm-Tədris Mərkəzi ilə tanış olmuşdur.

BAKIDA "TBMM - 90 İL, PARLAMENT DİPLOMATİYASI - TÜRKPA" BEYNƏLXALQ KONFRANSI KEÇİRİLMİŞDİR

Mayın 24-də Azərbaycan Respublikası Milli Məclisinin binasında "TBMM - 90 il, Parlament diplomatiyası - TürkPA" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin, Qazaxıstan parlamentinin deputatları, ATƏT-in Bakı ofisinin rəhbəri, eləcə də digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

TürkPA-nın baş katibi Ramil Həsənov tədbiri açaraq qonaqları salamlamış, türkdilli ölkələr arasında əlaqələrin tarixindən danışmışdır. O demişdir ki, Türkiyə-Azərbaycan və Türkiyə-Qazaxıstan parlamentlərarası dostluq əlaqələrinin inkişafı çərçivəsində qurulmuş TürkPA-nın əsas məqsədlərindən biri də eyni dilə, dinə və mədəniyyətə malik olan qardaş və dost ölkələr arasında siyasi, iqtisadi, sosial, humanitar, hüquq və digər sahələrdə əməkdaşlığın daha da genişlənməsinə, tarixi əlaqələrimizin daha möhkəmlənməsinə xidmət etməkdir. Təşkilat yarandığı gündən bir sıra önəmli addımlar atmış, mühüm tədbirlər keçirmişdir. Qardaş Türkiyə Böyük Millət Məclisinin 90 illik yubileyi ilə əlaqədar keçirilən konfrans buna parlaq misal ola bilər. TürkPA-ya üzv olan parlamentlərin qazandıqları uğurların ölkələrarası əlaqələrin inkişafında oynayacağı rol, qanunverici orqanların qarşılıqlı və sıx əlaqələr əsasında işləməsi və bu fəaliyyətlərin ölkələrimizin xalqlarına xidmət etməsi, bir çox sahələrdə dostluq qruplarının və beynəlxalq təşkilatlardakı qrupların birgə fəaliyyət göstərməsi parlament diplomatiyasının uğurlarındandır. Baş katib yaxın zamanlarda digər türkdilli ölkələrin parlamentlərinin də təşkilata üzv olacaqlarına ümidvar olduğunu bildirmişdir.

Sonra Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov qonaqları Milli Məclisin sədri və öz adından təbrik etmiş, konfransın əhəmiyyətindən danışmışdır. O demişdir ki, Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması ideyası hələ 1990-cı illərin ortalarında irəli sürülmüşdü. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə Antalyada keçirilmiş toplantıda belə bir qurumun yaradılmasının vacibliyini qeyd etmişdi. Bu gün biz ulu öndərimizin ideyalarının reallaşdığının canlı şahidləriyik. Biz birgə səylərlə TürkPA-nı yaratdıq və onun katibliyi Bakıda fəaliyyət göstərir.

Z.Əsgərov demişdir ki, son zamanlar beynəlxalq əlaqələrdə və dünya siyasət səhnəsində parlament diplomatiyasının rolu artır. TürkPA üzvü olan parlamentlərin bu sahədəki uğurları və bunun türk dünyasının əlaqələrinə təsiri adıçəkilən konfrans çərçivəsində müzakirə olunacaq məsələlərdən biridir. Ona görə də ümid edirik ki, bu konfrans həm müzakirə olunan məsələlərin aktuallığı, həm də birliyimizin, beynəlxalq əməkdaşlığımızın daha da möhkəmlənməsi baxımından çox uğurlu olacaqdır.

TBMM sədrinin müavini Nevzat Paktil çıxışında belə bir tədbirin təşkilinə görə TürkPA-nın fəliyyətdə olan sədrinə - Milli Məclisin sədri Oqtay Əsədova minnətdarlıq etmişdir. O demişdir ki, türkdilli ölkələr arasında birliyin, ortaq mədəniyyətin, iqtisadi,

siyasi əlaqələrin inkişafında mühüm rol oynayan TürkPA artıq beynəlxalq aləmdə nüfuz qazana bilmişdir. Azərbaycan, Türkiyə və Qazaxıstan parlamentləri bu təşkilat daxilində sıx əməkdaşlıq edərək bir sıra uğurlara imza atmışlar. Türkiyə dövləti bu uğurlara sevinir və təşkilata bundan sonra da ən yüksək səviyyədə dəstək verəcəkdir.

Sonra Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası işçi qrupunun və Atatürk Mərkəzinin sədri Nizami Cəfərov, TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Mustafa Kabakçı, Qazaxıstan parlamentinin deputatı Kılışbay Bisenov, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, TBMM-in QDİƏTPA-dakı nümayəndə heyətinin rəhbəri Kəmaləddin Göktaş, QDİƏTPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Asəf Hacıyev, TBMM-in ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Alaattin Böyükkaya, ATƏT-in Bakı ofisinin rəhbəri, səfir Əli Bilge Cankorel, Milli Məclisin deputatları Asim Mollazadə, Qənirə Paşayeva çıxış edərək tədbirin əhəmiyyətindən danışmışlar. Çıxışlarda qeyd olunmuşdur ki, beynəlxalq təşkilatlarda türkdilli ölkələrin deputatlarının birgə, məqsədyönlü fəaliyyəti ümumi, strateji hədəflərə nail olmaqda mühüm əhəmiyyət kəsb edir. Deputatlar birgə ortaq tarix, mədəniyyət və ədəbiyyat dərsliklərinin hazırlanması, diaspor təşkilatlarının birləşməsi, ortaq türk dilinin yaradılması təklifləri ilə çıxış etmişlər.

Tədbirdə TBMM-in 90 illik yubileyi ərəfəsində belə bir konfransın təşkili də yüksək qiymətləndirilmişdir. Bildirilmişdir ki, tədbirdə Türkiyə, Qazaxıstan və Azərbaycan deputatlarının birgə iştirak etmələri qarşılıqlı əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir və digər türkdilli dövlətlərin təşkilata üzv olmaları üçün zəmin yaradır.

MİLLİ MƏCLİSİN YENİ İNŞA OLUNMUŞ İNZİBATİ BİNASINDA TÜRKPA-NIN KATİBLİYİNƏ OFİS ÜÇÜN YER AYRILMASI BU QURUMA VERİLƏN BÖYÜK ƏHƏMİYYƏTİN BARİZ NÜMUNƏSİDİR

Mayın 24-də Milli Məclisin sədri Oqtay Əsədov "TBMM-90 il, Parlament Diplomatiyası - TürkPA" konfransının iştirakçıları ilə görüşmüşdür.

Milli Məclisin sədri qonaqları səmimi salamlayaraq Bakıda TürkPA-nın ilk beynəlxalq konfransının yüksək səviyyədə keçməsindən məmnunluğunu ifadə etmişdir. Bildirilmişdir ki, türkdilli ölkələrin dövlət başçılarının hələ vaxtilə Antalya görüşündə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev belə bir parlament qurumunun yaradılması barədə fikirlərini açıqlamışdır. Bu gün artıq bu ideya günümüzün reallığına çevrilmişdir. Böyük bir ərazini əhatə edən Türkdilli Dövlətlərin Parlament Assambleyasının yaradılması türk dünyasının beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir.

Türkdilli ölkələrin dövlət başçılarının görüşləri zamanı aparılan danışıqlar bu sahədə ciddi uğurlar qazanmağa zəmin yaradır. Milli Məclisin sədri türk dünyasının mühüm geostrateji məkana malik olduğunu vurğulayaraq, türk xalqlarının bir yerdə olmasının siyasi, iqtisadi və mənəvi baxımdan böyük əhəmiyyət daşıdığını qeyd etmişdir.

Diqqətə çatdırılmışdır ki, TürkPA Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına və ATƏT-ə müraciət edərək bu qurumların parlament assambleyalarında müşahidəçi qismində iştirak etmək istəyini bildirmişdir. Biz inanırıq ki, TürkPA tez bir zamanda nüfuzlu beynəlxalq qurumlarla əlaqələrini genişləndirərək böyük bir regionda nüfuz sahibi

olan təşkilata çevriləcəkdir.

Görüşdə konfrans iştirakçıları adından səmimi qəbul üçün minnətdarlığını bildirən TBMM-in sədr müavini, Türkiyə nümayəndə heyətinin rəhbəri Nevzat Paktil türk xalqlarının bir təşkilatda birləşməsini eyni kökdən olan ağacın budaqlarına bənzətmişdir. Bakı konfransının yüksək səviyyədə keçdiyini vurğulayan qonaq, TürkPA Katibliyinin fəaliyyətini təqdirəlayiq hesab etmişdir. Ümidvar olduğunu bildirmişdir ki, gələcəkdə digər türk dövlətləri də TürkPA-ya üzv olacaq və bu təşkilat türk xalqlarını düşündürən problemlərin müzakirəsində və həll edilməsində müsbət rol oynayacaqdır.

Qazaxıstan nümayəndə heyətinin rəhbəri Kılışbay Bisenov Qazaxıstan parlamentinin hər iki palata sədrlərinin salamlarını Oqtay Əsədova çatdırmışdır. Qonaq Azərbaycanda gördüyü inkişafdan məmnunluğunu ifadə etmiş, Milli Məclisin yeni inşa olunmuş inzibati binasında TürkPA-nın Katibliyinə ofis üçün yer ayrılmasını bu quruma verilən böyük əhəmiyyətin bariz nümunəsi kimi dəyərləndirmişdir.

Qazaxıstanlı deputat qeyd etmişdir ki, bugünkü konfrans və TürkPA-nın xətti ilə keçirilən digər tədbirlər türk xalqlarının birliyinin və dostluğunun daha möhkəm təməllər üzərində qurulması üçün atılan tarixi addımlardır. Biz qurumun gələcəyinə qəlbən inanırıq.

Tədbirdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdə Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Milli Məclisin mədəniyyət komitəsinin sədri Nizami Cəfərov, TürkPA-nın baş katibi Ramil Həsənov, Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıç və digər rəsmi şəxslər iştirak etmişlər.

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI DEMOKRATİK CƏMİYYƏTİN FORMALAŞMASINDA, İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINDA DA ÖZÜNÜ GÖSTƏRİR

Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Gender bərabərliyi üzrə komitəsinin sədri Mendes Bota mayın 24-də Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərovla görüşmüşdür.

Ziyafət Əsgərov ölkəmizdə gender bərabərliyi ilə bağlı görülən işlər barədə məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycanda kişi və qadın hüquqları Konstitusiyada təsbit olunduğu kimi bərabər qorunur. Milli Məclisdə gender bərabərliyi ilə bağlı beynəlxalq konvensiyalar təsdiq edilmiş, qanunlar qəbul olunmuşdur. Bu qanunların heç birində qadınlara məhdudiyyətlər qoyulmamışdır. Əksinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bəzi cinayətlərlə əlaqədar qadınlara yüngül cəzaların tətbiqi nəzərdə tutulmuşdur. Azərbaycan nadir ölkələrdəndir ki, hələ ötən əsrin əvvəllərində qadınlara seçmək və seçilmək hüququ verilmişdir. Ümumiyyətlə, Azərbaycan gender məsələləri ilə bağlı nümunəvi ölkələrdəndir. Dövlət orqanlarında qadınların sayı normaldır. Orta və ali məktəblərdə müəllimlərin yarısı qadınlardır.

Z.Əsgərov onu da qeyd etmişdir ki, bizim özümüzdən asılı olmayan səbəblərdən qadınlarımızın bir hissəsinin hüquqları pozulmuşdur və bu hallar bu gün də davam etməkdə-

dir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində on minlərlə Azərbaycan qadını məcburi köçkünə çevrilmişdir. Qadınların və uşaqların hüquqları kobud surətdə tapdalansa da, çox təəssüf ki, Avropadan gələn qonaqlar bu məsələdə əsasən susmağa üstünlük verirlər.

Ətraflı məlumata görə təşəkkür edən Mendes Bota Azərbaycana səfər etmələrindən məmnun olduqlarını bildirmişdir. Qonaq demişdir ki, 4 il əvvəl Azərbaycanda olmuşam, ötən müddətdə ölkəniz xeyli inkişaf etmişdir. Azərbaycanın iqtisadi inkişafı demokratik cəmiyyətin formalaşmasında, insan hüquq və azadlıqlarının qorunmasında da özünü göstərir. Bütün bunlar bizdə xoş təəssüratlar yaradır.

Daha sonra Ziyafət Əsgərov və deputat Qənirə Paşayeva nümayəndə heyəti üzvlərinin Azərbaycanda gender bərabərliyi ilə bağlı suallarını cavablandırmışlar.

AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ YÜKSƏK SƏVİYYƏDƏ QORUNMASI, BU SAHƏ İLƏ ƏLAQƏDAR QANUNLARIN QƏBULU, BEYNƏLXALQ KONVENSİYALARIN TƏSDİQİ TƏQDİRƏLAYİQDİR

Azərbaycanda məişət zorakılığına qarşı mübarizə və gender bərabərliyinin təmin olunması sahələrində əsaslı işlər görülmüşdür. Milli Məclisin insan alverinə qarşı mübarizə ilə bağlı Avropa Şurasının məlum konvensiyasını təsdiq etməsi artıq bu ölkənin insan hüquq və azadlıqlarının qorunmasına verdiyi yüksək qiymətin bariz nümunəsidir.

Bu fikirlər ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Gender bərabərliyi üzrə komitəsinin sədri Mendes Botanın mayın 24-də Milli Məclisin insan hüquqları və hüquq siyasəti və dövlət quruculuğu komitələrinin sədrləri Rəbiyyət Aslanova və Əli Hüseynovla keçirdiyi görüşdə səslənmişdir.

Rəbiyyət Aslanova ölkəmizdə gender bərabərliyi ilə bağlı görülən işlər barədə məlumat vermiş, bununla bağlı xüsusi qanunun qəbul edildiyini diqqətə çatdırmışdır. O bildirmişdir ki, Azərbaycanda kişi və qadın hüquqları Konstitusiya ilə qorunur.

"Məişət zorakılığına qarşı mübarizə haqqında" qanun layihəsi də hazırlanmışdır və bu günlərdə parlamentin müzakirəsinə çıxarılacaqdır. Bu qanun layihəsi hazırlanarkən 20-dən çox ölkənin təcrübəsi öyrənilmişdir.

Əli Hüseynov ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması, insan alverinə qarşı mübarizə sahəsində görülmüş işlər, qəbul olunmuş qanunlar barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, demokratik inkişaf yolunu seçən və Avropaya inteqrasiya edən Azərbaycan dövləti vətəndaşlarının bərabər hüquqlarının təmin olunmasında maraqlıdır.

Ətraflı məlumat və səmimi sözlərə görə təşəkkür edən Mendes Bota demişdir ki, Azərbaycan bu gün sürətlə inkişaf edir. Bu ölkədə insan hüquqlarının yüksək səviyyədə qorunması, insan hüquqları, gender bərabərliyi, məişət zorakılığına qarşı mübarizə və bu sahə ilə əlaqədar digər qanunların qəbulu, beynəlxalq konvensiyaların təsdiqi olduqca təqdirəlayiqdir.

Daha sonra görüşdə Azərbaycanda gender bərabərliyi, məişət zorakılığına qarşı qlobal mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ AVROPA ŞURASI İNSAN HÜQUQLARI VƏ HÜQUQİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə baş direktoru Filip Buoya mayın 24-də Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Ramiz Rzayev Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə qonağa ətraflı məlumat vermişdir.

Ali Məhkəmənin sədri İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə işgüzar əlaqələrdən, İnsan Hüquqları üzrə Avropa Konvensiyasının müddəalarının tətbiqindən, Avropa İttifaqının üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyindən bu ilin fevral ayında Avropa Şurası Nazirlər Komitəsində İsveçrə Konfedersiyasının sədrliyi ilə bu ölkənin İnterlaken şəhərində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin gələcəyinə dair keçirilən konfransın nəticələri barədə danışmışdır.

Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə baş direktoru Filip Buoya Avropa Məhkəməsinin presedent hüquqlarının ardıcıllığından, İnterlaken konfransında qəbul edilmiş Avropa və yerli səviyyələrdə tədbirlərə dair fəaliyyət planını əhatə edən Siyasi Bəyannamənin icrasından və əhəmiyyətindən, birgə treninq və konfransların keçirilməsi zərurətindən söz açmışdır.

Filip Buoya Azərbaycanda məhkəmələrin müstəqilliyi, səlahiyyətləri ilə əlaqədar yaradılan şəraitlə, məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərlə maraqlanmış, qarşılıqlı əlaqələrin davam etdiriləcəyini vurğulamışdır.

Ali Məhkəmənin yüksək statusuna uyğun inzibati binasını gəzən, məhkəmə tarixi muzeyi, hakimlərin iş şəraiti ilə tanış olan qonaq məmnun qaldığını bildirmişdir.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə orqanlarına xüsusi maraq və diqqət göstərdiyinə görə Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə baş direktoru Filip Buoyaya təşəkkürünü bildirmiş və işlərində uğurlar arzulamışdır.

AVROPA ŞURASI İLƏ AZƏRBAYCAN ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ DAVAM EDİR

Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda VII konfransda iştirak etmək məqsədilə Bakıda səfərdə olan Avropa Şurasının İnsan hüquqları və hüquqi məsələlər üzrə baş direktoru Filip Buaya mayın 24-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Ölkəmizin Avropa Şurası ilə səmərəli əməkdaşlığını qeyd edən nazir insan haqlarının etibarlı müdafiəsinə xidmət edən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılması, habelə ədliyyə sisteminin, o cümlədən penitensiar infrastrukturun müasirləşdirilməsi üzrə görülən kompleks işlərdən danışmış, hə-

yata keçirilən islahatlarda Avropa Şurasının fəal iştirakını və dəstəyini vurğulamışdır.

Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirən qonaq təmsil etdiyi qurumun Ədliyyə Nazirliyi ilə qurulmuş sıx əlaqələrindən məmnunluğunu ifadə etmiş, ölkəmizin məhkəmə-hüquq, habelə penitensiar sahələrində əldə etdiyi nailiyyətləri, hakimlərin və hakimliyə namizədlərin tədrisində Ədliyyə Akademiyasının rolunu təqdir etmiş, qarşılıqlı fəaliyyətin bundan sonra da uğurla davam etdirilməsində maraqlı olduqlarını söyləmişdir.

F.Buaya, həmçinin Avropa ədliyyə nazirlərinin 30-cu konfransının ədalət mühakiməsinin şəffaflığı və səmərəliliyinə, həbsxana islahatına həsr olunacağı və bu ilin noyabrında İstanbulda keçiriləcəyi barədə məlumat verərək, Azərbaycan nazirini tədbirə dəvət etmişdir.

Görüşdə əməkdaşlığın perspektivləri, məhkumların reabilitasiyası, inzibati ədliyyə, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin fəaliyyəti, insan alverinə qarşı mübarizə və s. məsələlər müzakirə olunmuşdur.

Tədbirdə Avropa Şurası Baş katibinin xüsusi nümayəndəsi Veronika Kotek iştirak etmişdir.

Sonra qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olmuşdur.

ŞƏRQ TƏRƏFDAŞLIĞI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN POLŞADA KEÇİRİLƏN QEYRİ-RƏSMİ İCLASINDA AZƏRBAYCAN DA TƏMSİL OLUNMUŞDUR

Mayın 24-də Polşanın Sopot şəhərində Şərq Tərəfdaşlığı xarici işlər nazirlərinin qeyri-rəsmi iclası keçirilmişdir.

Avropa İttifaqının üzvü olan ölkələrin və Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirləri səviyyəsində "27+6" formatında iclasa Polşanın xarici işlər naziri Radoslav Sikorski və hazırda Avropa İttifaqına sədrlik edən İspaniyanın xarici işlər naziri Migel Angel Moratinos sədrlik etmişlər.

Həmçinin Genişlənmə və Qonşuluq Siyasəti üzrə Avropa komissarıŞtefan Füle də iclasda iştirak etmişdir.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Avropa Komissiyasının 2009-cu il mayın 7-də Praqada keçirilmiş Şərq Tərəfdaşlığı zirvə görüşündən sonra ötən bir il ərzində Şərq Tərəfdaşlığının inkişaf etdirilməsi istiqamətində görülmüş işlər barədə iştirakçılara məlumat verilmiş, Şərq Tərəfdaşlığının həm ikitərəfli, həm də çoxtərəfli meyarları üzrə fəaliyyəti, çoxtərəfli meyar üzrə yaradılmış platformalar, panellər və təşəbbüslər yüksək qiymətləndirilmişdir.

İclas iştirakçıları növbəti illərdə Şərq Tərəfdaşlığının daha səmərəli şəkildə inkişaf etdirilməsi və genişləndirilməsi yolları barədə fikir mübadiləsi aparmış və Şərq Tərəfdaşlığı üçün maliyyə zərfinin artırılmasının əhəmiyyətini qeyd etmişlər. Viza rejiminin sadələşdirilməsi və liberallaşdırılması, nəqliyyat, fövqəladə halların aradan qaldırılması

və digər sahələrdə əməkdaşlığın yolları müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, artıq aidiyyəti sahələr üzrə layihələr tərtib olunmuşdur. Növbəti mərhələdə bu layihələrin həyata keçirilməsi planlaşdırılır.

Avropa Komissiyasının nümayəndəsi Avropa İttifaqının Ukrayna ilə Assosiasiya Sazişi üzrə danışıqlar prosesində əsaslı irəliləyişin qeydə alındığını, Moldova ilə bu danışıqların 2010-cu ilin fevralında başlandığını, mayın 10-da isə Aİ-nin Xarici Əlaqələr Şurası tərəfindən üç Cənubi Qafqaz ölkəsi ilə Assosiasiya Sazişləri üzrə danışıqlar üçün direktivlərin təsdiq olunduğunu və qısa müddət ərzində bu prosesin başlanacağını bildirmişdir.

Avropa İttifaqının üzvü olan ölkələrin nümayəndələri bir daha Şərq Tərəfdaşlığına dəstəyi davam etdirmək öhdəliklərini qeyd etmiş və bu təşəbbüsün Aİ üçün ən əsas prioritetlərdən biri olduğunu vurğulamışlar.

Polşa tərəfi yeni donor mənbələrinin cəlb edilməsi və Şərq Tərəfdaşlığı bölgəsində əməkdaşlığın daha da səmərəli olması üçün bu proqramın qeyri-rəsmi "Dostlar qrupu"nun yaradılması təşəbbüsü ilə çıxış etmişdir. "Dostlar qrupu"na ABŞ, Kanada, Yaponiya, İsveçrə, Norveç, Rusiya və Türkiyənin dəvət oluna biləcəyi qeyd edilmişdir.

Xarici işlər nazirləri 2011-ci ilin birinci yarısında keçiriləcək 2-ci Şərq Tərəfdaşlığı zirvə görüşü üçün konkret nailiyyətlərin əldə olunmasının vacibliyini vurğulamışlar.

BAKIDA AVROPA ŞURASININ QADINLAR VƏ KİŞİLƏR ARASINDA BƏRABƏRLİK MƏSƏLƏLƏRİNƏ MƏSUL NAZİRLƏRİNİN VII KONFRANSI BAŞA ÇATMIŞDIR

Bakının "Gülüstan" sarayında Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması" mövzusunda VII konfransı mayın 25-də işini başa çatdırmışdır.

Tədbirin ikinci günü əsas məruzəçi olan Milli Məclisin insan hüquqları komitəsinin sədri Rəbiyyət ASLANOVA Azərbaycanda gender bərabərliyi, qadın hüquqlarının qorunması sahəsində görülən işlər, qazanılan nailiyyətlər barədə danışmışdır.

Minilliyin İnkişaf Məqsədlərindən birinin gender bərabərliyinin təmin edilməsi ilə bağlı olduğunu diqqətə çatdıran Rəbiyyət Aslanova Bakıda keçirilən konfransın həmin məqsədə çatmaqda böyük rol oynayacağına əminliyini ifadə etmişdir. O demişdir ki, gender bərabərliyinin təmin olunmasında dövlətin rolu çox böyükdür. Dövlətin gender siyasətinə təsiri iqtisadi inkişaf, siyasi kurs və bir sıra digər amillərlə bağlıdır. Azərbaycanda qadın hüquqları və gender bərabərliyi ilə bağlı 142 sənəd imzalanmışdır. Azərbaycan insan və qadın hüquqlarına dair mövcud olan bütün əsas beynəlxalq sənədləri, o cümlədən qadınlara münasibətdə ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılmasına dair Konvensiyanı ratifikasiya etmişdir. "Gender bərabərliyinin təmin edilməsi haqqında" Qanun 2006-cı ildə, "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun layihəsi isə Milli Məclisin mayın 25-də keçirilən iclasında birinci oxunuşda qəbul edilmişdir. Bütün bunlar Azərbaycanda gender bərabərliyi sahəsində vəziyyətin de-yure tələb olunan səviyyədə olduğunu göstərir.

Bildirilmişdir ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin 2,9 milyonunu qadınlar təşkil edir, 475 mindən çox qadın isə dövlət sektorunda çalışır.

Ölkədə qadın hüquqlarının qorunmasında, gender bərabərliyinin təmin olunmasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın səyləri konfransda xüsusi qeyd olunmuşdur. Vurğulanmışdır ki, Azərbaycanda ailə, qadın hüquqlarının qorunması və gender bərabərliyinin təmin edilməsi kimi çox həssas bir sahənin monitorinqinin aparılmasında milli mexanizmlərin əlaqələndirilməsi dövlətin strateji məqsədlərindən biridir.

Bildirilmişdir ki, Azərbaycanda bir milyondan çox adamın qaçqın və məcburi köçkün şəraitində yaşaması gender bərabərliyinin real gerçəkliyə çevrilməsinə maneə yaradan ən böyük problemdir. Ermənistanın işğalçı siyasəti nəticəsində son illərdə Azərbaycan qadını miqyaslı təsirlərə məruz qalmışdır. 1951-ci ildə bütün dünyada qaçqınların sayı bir milyon idi. Bu gün təkcə Azərbaycanda Ermənistanın işğalçılıq siyasəti nəticəsində öz yurdlarından didərgin salınmış bir milyondan çox adam yaşayır.

Konfransda çıxış edən İspaniyanın Kişi və Qadın Komitəsinin sədri İzabel MARTİNES konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir.

O, qadınların cəmiyyətin bütün sahələrinə inteqrasiyasının inkişafın əsas göstəricisi olduğunu söyləmişdir. Qadınların iqtisadi sahədə, habelə idarəetmədə iştirakının artması inteqrasiyaya daha çox imkan verəcəkdir. Bu konfrans isə həmin istiqamətdə çox vacib bir addımdır.

Tədbirdə Danimarka, Vatikan, Yunanıstan, Hollandiya və Fransanın nümayəndələri çıxış edərək, Bakıda keçirilən beynəlxalq konfransın gender bərabərliyi ilə bağlı dünyanı düşündürən problemlərin həllində böyük əhəmiyyətini qeyd etmişlər.

Vurğulanmışdır ki, gender bərabərliyinin təmin olunması XX əsrin sonlarında yaranmasına baxmayaraq, beynəlxalq siyasətdə ön sıralara çıxan yeni formalardan biridir. Bu gün gender bərabərliyinin təmin olunması üçün əlavə vasitələrin yaranması beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Çıxış edənlər kişilər və qadınlar arasında de-fakto bərabərliyə nail olunması üçün siyasi iradənin ortaya qoyulmasının, iqtisadi, maliyyə resurslarının gender təyinatlı fəaliyyətə yönəldilməsinin, KİV-lərin, təhsil və maarifləndirmənin mühüm rolunu qeyd etmişlər.

Konfransda miqrant qadınların hüquqlarının qorunması üçün ciddi tədbirlərin görülməsinin vacibliyi vurğulanmışdır.

Qeyd olunmuşdur ki, qəbul edilən qərarların praktikada tam reallaşdırılması üçün birgə səyləri artırmaq vacibdir. Avropa Şurası ictimai həyatın bütün sahələrində qadın və kişilərin iştirakını balanslaşdırmaq üçün ayrı-seçkiliklə mübarizə aparmağa çalışır.

Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirən natiqlər, tədbirin gender bərabərliyi sahəsində görülən işləri müzakirə etmək və gələcək addımları müəyyənləşdirmək üçün əlavə imkanlar yaratdığını vurğulamışlar.

Tədbirin yekununda Avropa Şurası nazirləri tərəfindən qətnamə layihəsi, "De-yure və de-fakto gender bərabərliyinə nail olunmasına çağırış" adlı fəaliyyət planı layihəsi müzakirə edilərək qəbul edilmişdir. Növbəti konfransın Hollandiyada keçirilməsi qərara alınmışdır.

Qətnamə qəbul olunduqdan sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran HÜSEYNOVA bildirmişdir ki, dialoq olmadan gender bərabərsizliyi məsələləri həll edilə bilməz. İnanıram ki, burada müzakirə olunan məsələlər, qəbul olunan qərarlar və sənədlər növbəti konfransa qədər gender siyasətini həyata keçirən özünəməxsus "yol xəritəsi" olacaqdır.

Avropa Şurasının insan hüquqları və hüquq məsələləri üzrə baş katibi Filip BOİLLA konfransın səmərəli olduğunu vurğulamışdır. O, kişilərlə qadınlar arasında bərabərlik mövzusunun hər bir hökumətin prioritet məsələsinə çevrilməsinin vacibliyini qeyd etmişdir.

Azərbaycanın Baş nazirinin müavini Elçin ƏFƏNDİYEV konfransa yekun vuraraq, Azərbaycan hökuməti və Avropa Şurasının birgə təşkilatçılığı ilə belə bir əhəmiyyətli beynəlxalq toplantının Bakıda keçirilməsindən məmnunluğunu bildirmişdir. Baş nazirin müavini demişdir ki, Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciəti, toplantıda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın gender bərabərliyi ilə bağlı ətraflı çıxışı, tədbirə çox sayda xarici qonağın və beynəlxalq təşkilatların nümayəndələrinin qatılması bir daha bu məsələnin əhəmiyyətini təsdiq edir. Konfransda müzakirə edilən məsələlər və qəbul olunan sənədlər gender bərabərliyi sahəsində Avropa Şurası ilə əməkdaşlığın genişlənməsinə, təcrübə mübadiləsinə, qarşılıqlı fəaliyyətə əlavə imkanlar yaradır.

E.Əfəndiyev demişdir ki, təqribən 100 il əvvəl Şərqdə qadına seçib-seçilmək hüququ verən Azərbaycan üçün gender bərabərliyi anlayışı çox vacibdir. Bərabər hüquqlar və bərabər imkanlar ölkəmizin Konstitusiyası ilə də təsbit olunmuşdur. Baş nazirin müavini qadınlara qarşı zorakılıq hallarının aradan qaldırılmasına, qadın hüquqlarının qorunmasına yönələn siyasətin Avropa Şurasına üzv ölkələrdə daha geniş vüsət alacağına ümid etdiyini söyləmişdir.

Sonda konfransın uğurlu işi ilə bağlı Azərbaycan hökuməti və konfrans iştirakçıları adından Prezident İlham Əliyevə minnətdarlıq bildirilmişdir.

AZƏRBAYCANIN AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞI UĞURLA İNKİŞAF EDİR

Azərbaycanda səfərdə olan Avropa Şurasının Baş katibinin müavini xanım Mod De Bur Bukikkio mayın 25-də ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Ölkəmizin Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verdiyini bildirən nazir aparılmış islahatların insan haqlarının etibarlı müdafiəsinə yönəldiyini vurğulamışdır. F.Məmmədov yuvenal ədliyyənin inkişafı, bu sahədə hakimlərin və hakimliyə namizədlərin Ədliyyə Akademiyasında tədrisi barədə məlumat vermiş, Avropa ədliyyə nazirlərinin ötən il keçirilmiş məişət zorakılığı ilə mübarizəyə həsr olunmuş 29-cu

konfransında aparılmış faydalı fikir mübadiləsini xatırlatmışdır.

Azərbaycanın Avropa Şurasına qəbul olunduqdan sonra nəzərəçarpan nailiyyətlər əldə etdiyini bildirən qonaq Bakıya növbəti səfərindən məmnunluğunu ifadə etmiş, təmsil etdiyi qurumun ölkəmizlə müxtəlif istiqamətlərdə, xüsusilə ədliyyə sahəsində əlaqələrinin səmərəsini vurğulamışdır. Görüşdə "Avropanın uşaqlar üçün və uşaqlarla birgə qurulması" xüsusi proqramın həyata keçirilməsi, məişət zorakılığına qarşı Konvensiya layihəsinin, uşaq hüquqlarının təşviqi və zorakılıqdan müdafiə qaydalarının hazırlanması haqda məlumat verilmiş, faydalı fikir mübadiləsi aparılmışdır. Ölkəmizdə məhkəmə-hüquq sahəsində, o cümlədən penitensiar sistemdə aparılan islahatlar maraqla qarşılanaraq, qazanılmış yüksək nəticələr təqdir edilmişdir.

Görüşdə qarşılıqlı fəaliyyətin perspektivləri, o cümlədən inzibati məhkəmələrin yaradılması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tədris səfərlərinin təşkili, Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, habelə, insan alveri ilə mübarizə və s. məsələlər geniş müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ BELÇİKA KRALLIĞININ SENATORU, SENATIN FƏXRİ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 25-də Bakıda səfərdə olan Belçika Krallığının senatoru, Senatın fəxri sədri xanım Ann-Mari Lizini qəbul etmişdir.

Görüşdə regiondakı proseslər, Azərbaycan-Belçika münasibətlərinin vəziyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və problemin nizamlanma prosesinin hazırkı durumu, qondarma "Dağlıq Qarabağ Respublikası" parlamentinə keçirilən "seçkilərə" dünya ictimaiyyətinin reaksiyası, xüsusilə Avropa Parlamentinin qətnaməsi və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ BELÇİKA SENATORU İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 25-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycanda səfərdə olan Belçika Krallığının senatoru, Senatının fəxri sədri Ann-Mari Lizin ilə görüşmüşdür.

N.İbrahimov Azərbaycanın sürətli inkişafı, həyata keçirilən islahatlar, ölkəmizin regionda və dünyada möhkəmlənən mövqeyi, eləcə də Azərbaycan diasporunun yaranması, formalaşması, təşkilatlanması istiqamətində görülən işlər barədə ətraflı məlumat vermişdir. Belçikadakı Azərbaycan diasporunun inkişaf perspektivləri, onların yerli cəmiyyətə inteqrasiyasından danışmışdır. Komitənin sədri ölkəmiz haqqında daha ətraflı məlumatların, eləcə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin Belçika ictimaiyyətinə çatdırılmasında bu ölkədə yaşayan soydaşlarımızın yüksək fəallıq göstərmələrinin zəruriliyini qeyd etmişdir.

Xanım Ann-Mari Lizin Azərbaycanda müşahidə etdiyi iqtisadi inkişafı, böyük dəyişiklikləri yüksək qiymətləndirmişdir. Dağlıq Qarabağ münaqişəsi ilə yaxından maraqlandığını deyən senator vurğulamışdır ki, onun yaşadığı cəmiyyətdə Azərbaycan, xüsusilə

də Dağlıq Qarabağ həqiqətləri haqqında geniş təbliğatın aparılmasına ehtiyac vardır. Qonaq Azərbaycan mədəniyyətinin Belçikada daha geniş tanıdılması məqsədi ilə layihələrin həyata keçirilməsini məqsədəuyğun hesab etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

DAĞISTAN PREZİDENTİ AZƏRBAYCANIN ZAQATALA, ŞƏKİ VƏ QƏBƏLƏ RAYONLARINDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov mayın 25-də respublikamızın şimal-qərb bölgəsinə gəlmişdir.

Dağıstan Prezidentinin bölgəyə səfəri Zaqatala rayonundan başlamışdır. Zaqatala hava limanında Prezident Maqomedsalam Maqomedovu və onun rəhbərlik etdiyi nümayəndə heyətini rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə səmimiyyətlə qarşılamışdır. Qısamüddətli görüşdən sonra nümayəndə heyəti Şəkiyə yola düşmüşdür.

Şəki ilə tanışlıq bölgənin ən iri sənaye müəssisəsi olan "Şəki-İpək" Açıq Səhmdar Cəmiyyətindən başlamışdır. Şəhər icra hakimiyyətinin başçısı Murad Cabbarlı Prezident Maqomedsalam Maqomedovu müəssisənin həyətində mehribanlıqla qarşılamışdır. Sonra Dağıstan nümayəndə heyəti müəssisənin baramaaçan, pambıq sap əyirən, xalça toxuyan sexlərində istehsal prosesi ilə yaxından tanış olmuşlar. Qonaqlara məlumat verilmişdir ki, keçmiş SSRİ-nin ən qabaqcıl istehsalatlarından biri olan bu müəssisə ittifaq dağılandan sonra fəaliyyətini dayandırmışdı. 2002-ci ildə ümummilli lider Heydər Əliyevin Şəkiyə səfərindən sonra ulu öndərin diqqət və qayğısı sayəsində müəssisə fəaliyyətini yenidən bərpa etmişdir. Müəssisənin istehsal sexləri əsaslı şəkildə yenidən qurulmuş, müasir texnologiyalar tətbiq edilmiş, məhsuldar dəzgah və avadanlıq işə salınmış, işçilərin sosial müdafiəsini gücləndirmək üçün əlavə tədbirlər həyata keçirilmişdir.

Qonaqlara müəssisənin iqtisadi göstəriciləri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, 2009-cu ildə müəssisədə 24,5 ton xam ipək, 18,5 ton burulmuş ipək sap, 544 min kvadratmetr ipək parça, 44,9 min kvadratmetr pambıq parça, 217 min 600 bişmiş kəlağayı, 706 güllü kəlağayı, 405 saçaqlı şərf, 995 ton pambıq ipliyi, habelə 123,5 kvadratmetr təbii ipək xalça və digər məhsullar istehsal olunmuşdur. İstehsal olunan məhsulun ümumi dəyəri 3 milyon 708 min manat, satışın həcmi isə 2 milyon 649 min manat təşkil etmişdir. 2010-cu ilin birinci rübündə isə müəssisədə 1 milyon 570 min manatlıq məhsul istehsal edilmişdir. Hazırda müəssisədə 865 nəfər işçi çalışır.

Sonra qonaqlar çeşidlər zalında müəssisədə toxunan təbii ipək xalçalara, parça, kəlağayı və digər məhsullara baxmışlar. Dağıstan Prezidentinə müəssisədə toxunan ipək xalça hədiyyə edilmişdir. Prezident Maqomedsalam Maqomedov müəssisənin xatirə kitabına ürək sözlərini yazmışdır.

Daha sonra Dağıstan nümayəndə heyəti Xan sarayında olmuşdur. Qonaqlara məlumat verilmişdir ki, Şəki Xan sarayı XVIII əsrə aid olan dünya əhəmiyyətli nadir tarixi memarlıq abidəsidir. Şərq memarlığının nadir incisi hesab olunan bu saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan hacı Çələbi xanın nəvəsi Hüseyn xan Müştaqın döv-

ründə, təqribən 1761-1762-ci illərdə tikilmişdir. Üç yüz kvadratmetr ərazisi olan ikimərtəbəli sarayda 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvan vardır. Sarayın divar rəsmləri əsasən həndəsi və nəbati naxışlardan ibarətdir.

Prezident Maqomedsalam Maqomedov sarayın eyvanından Şəkinin qədim məhəllələrinin mənzərəsini seyr etmişdir. Şəki şəhər İcra hakimiyyətinin başçısı Murad Cabbarlı Dağıstan Prezidentinə Xan sarayının təsvir olunduğu rəsm əsəri hədiyyə etmişdir. Prezident Maqomedsalam Maqomedov isə sarayın rəhbərliyinə Dağıstanın tarixi abidələrindən bəhs edən kitab bağışlamışdır.

Sonra nümayəndə heyəti "Yuxarı karvansara" mehmanxana kompleksinə baş çəkmişdir. Məlumat verilmişdir ki, Şərq memarlığı üslubunda tikilmiş mehmanxana kompleksi şəhərin "Yuxarı baş" Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşir. Karvansara XVIII əsrin sonu-XIX əsrin əvvəllərində inşa edilmişdir. Ümumi sahəsi 6 min kvadratmetr olan kompleks 300-ə yaxın otaq və zirzəmidən ibarətdir. XVIII-XIX əsrlərdə Yaxın və Orta Şərq ölkələrindən gələn tacirlər əsasən bu karvansarada ticarətlə məşğul olurmuşlar. Hazırda bu abidə mehmanxana kimi fəaliyyət göstərir.

Qonaqlar karvansaranın həyətində çay süfrəsinə qonaq olmuşlar.

Prezident Maqomedsalam Maqomedov Azərbaycanın dilbər guşələrindən olan Zaqatalaya səfərindən, habelə qədim Şəki şəhəri ilə tanışlığından çox məmnun qaldığını bildirmişdir. Qeyd etmişdir ki, Şəkidə tarixi abidələrin qorunub saxlanmasına, sənətkarlığın inkişafına göstərilən diqqət xüsusilə ürəkaçandır. Qonaq Xan sarayının gözəlliyinə heyran qaldığını gizlətməmiş, bu abidənin çox cəlbedici və təkraredilməz olduğunu bildirmişdir. Nümayəndə heyətinin üzvləri Şəkidən xoş təəssüratla ayrıldıqlarını diqqətə çatdırmışlar.

Şəkiyə səfərini başa çatdıran Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedov həmin gün Qəbələyə gəlmişdir.

Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovu Qəbələ şəhərindəki "Qafqaz Resort" hotelinin qarşısında rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev və ictimaiyyət nümayəndələri qarşılamışlar.

Hoteldə nahar edəndən sonra Dağıstan Prezidenti və onu müşayiət edən nümayəndə heyəti "Gilan" piano fabrikinə gəlmiş, burada istehsal prosesi və hazır məhsullarla tanış olmuşdur. Ali qonağa məlumat verilmişdir ki, regionda analoqu olmayan və müasir avadanlıqla təchiz edilmiş fabrikdə ildə 1200-1500 piano istehsal etmək mümkündür. Prezident Maqomedsalam Maqomedov pianoların yığıldığı sexlərə, xüsusi avadanlıqla təchiz edilmiş kökləmə və sazlama otaqlarına baş çəkmişdir. Bu musiqi alətinin yalnız Avstriyada yetişdirilən şam ağacından hazırlandığı barədə qonağa məlumat verilmişdir. Qeyd olunmuşdur ki, 120 nəfərin çalışdığı bu fabrik fəaliyyət göstərdiyi ötən iki ay ərzində 35 piano istehsal etmişdir.

Sonra qonaqlar "Gilan Holdinq"in Qəbələ konserv zavodunun istehsal fəaliyyəti ilə yaxından tanış olmuşlar. Prezident Maqomedsalam Maqomedova məlumat verilmişdir ki, ən müasir texniki avadanlıqla təchiz olunmuş zavodda istehsal edilən təbii meyvə şirələri, müxtəlif mürəbbə və cemlər, turşular və pürelər Azərbaycan bazarına çıxarılmaqla yanaşı, Rusiya, Ukrayna və Belarusa, Baltikyanı respublikalara, Amerika və Avropa ölkələrinə də ixrac edilir. Qafqaz regionunda analoqu olmayan bu istehsal müəssisəsi

2007-ci ildən fəaliyyət göstərir. Ali qonaq on iki hektar ərazisi olan zavodun ayrı-ayrı istehsal sexlərini, məhsul saxlanılan anbarını, laboratoriyasını, sərgi salonunu gəzmiş, təbii meyvə şirələrinin dadına baxmışdır.

Dağıstanın rəhbəri "Qafqaz-Park" Gənclik Mərkəzində olmuş, turizm obyektində istirahət etmişdir. Qonaq regionda bənzəri olmayan istirahət mərkəzinin süni buz meydançasına baxmış, xüsusi qatarla 16 hektar ərazisi olan parkı gəzmişdir. Qonaqlara dörd tərəfi dağlar və meşələrlə əhatə olunmuş istirahət mərkəzində fəaliyyət göstərən iaşə obyektləri, üzgüçülük hovuzları, süni göllər, kafelər, uşaq əyləncə mərkəzləri barədə məlumat verilmişdir. Bildirilmişdir ki, 150 nəfərin çalışdığı "Qafqaz-Park" Gənclik Mərkəzində yerli və xarici turistlərin istirahəti üçün yüksək şərait yaradılmışdır.

Sonda "Fitnes" Sağlamlıq Mərkəzi ilə qısa tanışlıq olmuşdur. Qəbələ rayon ictimaiyyətinin nümayəndələri "Fitnes" Sağlamlıq Mərkəzinin həyətində Dağıstanın "Ləzginka" rəqs ansamblının konsertinə tamaşa etmişlər.

VİLNÜSDƏ İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ LİTVA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 26-da Vilnüsdə Azərbaycan və Litva Hökumətlərarası Komissiyanın birinci iclası keçirilmişdir. Komissiyaya Azərbaycan tərəfdən həmsədr vergilər naziri Fazil Məmmədov, Litva tərəfdən isə bu ölkənin xarici işlər naziri Audronyus Ajubalis başçılıq etmişdir.

İşgüzar və dostluq mühitində keçmiş iclasda Azərbaycan və Litva arasında iqtisadi, energetika, sənaye, kənd təsərrüfatı, gənclər və idman, mədəniyyət və turizm, nəqliyyat, rabitə və informasiya texnologiyaları sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

İki ölkə arasında müqavilə-hüquq bazasının inkişafının sürətləndirilməsinə qərar verilmişdir, yekun sənəd olaraq protokol imzalanmışdır.

İclasın yekununa dair mətbuat konfransında həmsədrlər Azərbaycan və Litva arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdirmək əzmində olduğunu qeyd etmişlər.

Litva xarici işlər naziri A.Ajubalis Dağlıq Qarabağda separatçı rejim tərəfindən keçirilən "parlament seçkiləri" barəsində Avropa İttifaqı və ATƏT tərəfindən verilən bəyanatları bütünlüklə dəstəklədiklərini bildirmişdir.

Hökumətlərarası Komissiyanın növbəti iclasının Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir.

AZƏRBAYCANIN DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏİSİ TÜRKİYƏ JANDARMA QÜVVƏLƏRİNİN QƏRARGAH RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 26-da Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı, general-leytenant Elçin Quliyev Türkiyə Jandarma Qüvvələrinin qərargah rəisi, general-polkovnik Mustafa Bıyıkın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Dövlət Sərhəd Xidməti ilə Türkiyə Jandarma Qüvvələri arasında-

kı əməkdaşlığın vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

İkitərəfli əlaqələrin səviyyəsi yüksək qiymətləndirilərək sərhədlərin təhlükəsizliyinin daha da möhkəmləndirilməsi məqsədi ilə mövcud əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanmışdır.

AZƏRBAYCANIN SƏHİYYƏ NAZİRLİYİ İLƏ VİŞNEVSKAYA-ROSTROPOVİÇ FONDU ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR

Mayın 26-da səhiyyə naziri Oqtay Şirəliyev Vişnevskaya-Rostropoviç Fondunun prezidenti Yelena Rostropoviç ilə görüşmüşdür.

Nazir ölkə başçısının səhiyyəyə göstərdiyi xüsusi diqqət və qayğısı nəticəsində görülən işlər, əldə olunan nailiyyətlər, son illər tikilib istifadəyə verilən çoxsaylı tibb ocaqları haqda qonağa məlumat vermişdir.

Eyni zamanda, Vişnevskaya-Rostropoviç Fondunun Azərbaycanda həyata keçirdiyi uğurlu proqramlardan danışmışdır. Bildirmişdir ki, Fondun Səhiyyə Nazirliyi ilə birgə təşkil etdiyi Milli İmmunlaşdırma Kampaniyası, həmçinin milli peyvənd təqviminə uyğun olaraq rutin peyvənd proqramı sayəsində ölkə ərazisində qızılca, parotit və məxmərək kimi xəstəliklərin göstəriciləri xeyli aşağı düşmüşdür.

Səmimi qarşılanmaya görə minnətdarlıq edən Yelena Rostropoviç rəhbərlik etdiyi Fondun hər zaman Azərbaycanda həyata keçirilən səhiyyə proqramlarına dəstək verməyə hazır olduğunu vurğulamışdır.

Görüşün sonunda Azərbaycan Səhiyyə Nazirliyi ilə Vişnevskaya-Rostropoviç Fondu arasında 2010-2012-ci illərdə birgə həyata keçiriləcək "Hamilə qadınların hepatit B və HİV-ə qarşı diaqnostikası və yeni doğulmuş uşaqların hepatit B-ə qarşı profilaktikası" və "Məktəbli uşaqlar arasında helmintlərə qarşı mübarizə" proqramlarının genişləndirilməsi ilə bağlı əməkdaşlıq müqaviləsi imzalanmışdır.

MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA MÜDAFİƏ NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

Mayın 27-də Moskvada Rusiyanın və Azərbaycanın müdafiə nazirləri Anatoli Serdyukovun və Səfər Əbiyevin işgüzar görüşü olmuşdur.

Görüşdə Rusiya və Azərbaycan arasında hərbi və hərbi-texniki əməkdaşlığın vəziyyəti və perspektivləri, habelə Qafqaz regionunda təhlükəsizliklə bağlı problemlər müzakirə olunmuşdur.

AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRİ TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN QƏRARGAH RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 27-də Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Jandarm Qüvvələrinin qərargah rəisi, general-polkovnik Mustafa Bıyık ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan nazir R.Usubov ölkəmizin dövlət müstəqilliyini əldə etdikdən sonra qazandığı ən böyük dəyərlər sırasında qardaş Türkiyə ilə əlaqələrin inkişafını önə çəkmiş, ümummilli lider Heydər Əliyevin bu sahədə misilsiz xidmətlərini, ulu öndərin "Bir millət, iki dövlət" siyasətinin bu gün ölkəmizin başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini xatırlatmışdır.

Nazir 1997-ci il oktyabrın 31-də dost və qardaş dövlətin Jandarm Baş Komandanlığının və Azərbaycan Daxili Qoşunlarının Baş İdarəsinin əməkdaşlığına dair hökumətlərarası protokolun imzalanmasından sonra bu sahədə xeyli iş görüldüyünü, əlaqələrin daha da inkişaf edərək yeni məzmun kəsb etdiyini, əməkdaşlığın geniş yayılmış formalarından səmərəli şəkildə istifadə edildiyini, bu istiqamətdə kadr hazırlığına böyük önəm verildiyini qeyd etmişdir.

Türkiyə Jandarm Qüvvələrinin qərargah rəisinin ölkəmizə səfərinin əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə, iki qardaş dövlətin müvafiq qurumlarının əməkdaşlığının potensial imkanlarından bundan sonra da səmərəli istifadə olunacağına əminliyini ifadə edən general-polkovnik R.Usubov, Azərbaycan Silahlı Qüvvələrinin, o cümlədən Daxili Qoşunların yüksək döyüş hazırlığına malik qurum, qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə qadir hərbi qüvvə kimi formalaşdığını vurğulamışdır.

General-polkovnik Mustafa Bıyık Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını, onun ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da əlindən gələni əsirgəməyəcəyini, qarşılıqlı əlaqələrin və əməkdaşlığın hər iki qardaş xalqın mənafelərinə xidmət edəcəyini bildirmişdir.

Mehribanlıq və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İQTİSADİ İNKİŞAF NAZİRLİYİNDƏ OLMUŞDUR

Azərbaycana səfərə gəlmiş Çin Xalq Respublikasının (ÇXR) kommersiya nazirinin müavini Fu Ziyingin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 27-də İqtisadi İnkişaf Nazirliyində olmuşdur.

Burada keçirilən görüşdə iqtisadi inkişaf naziri Şahin Mustafayev qonaqları salamlayaraq, Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində aparılan islahatlar və əldə olunmuş uğurlar barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci ildə Çin Xalq Respublikasına səfəri, eləcə də ölkələrimiz arasında rəsmi şəxslər və iş adamları səviyyəsində görüşlər ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafı istiqamətində zəruri hüquqi-normativ bazanın yaradıldığını, iqtisadi-ticarət münasibətlərinin genişləndiyini vurğulayan Şahin Mustafayev, mövcud potensialdan istifadə etməklə iki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək üçün real imkanların olduğunu bildirmişdir.

Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Fu Ziying son illərdə Azərbaycanın qazandığı iqtisadi uğurların ölkəsinin diqqət mərkəzində olduğunu xüsusi vurğu-

lamışdır. Qonaq Çin Xalq Respublikası ilə Azərbaycan arasında iqtisadi-ticarət əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Görüşün sonunda Çin Xalq Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında 20 milyon Çin yuanı (2,9 milyon ABŞ dolları) dəyərində qrant Sazişi imzalanmışdır.

Sənədi Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Fu Ziying və Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Şahin Mustafayev imzalamışlar.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMI MƏZUNLARININ BURAXILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Mayın 27-də Azərbaycan Diplomatik Akademiyanın (ADA) Xarici siyasət proqramı məzunlarının təntənəli buraxılış mərasimi keçirilmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarovun, dövlət və özəl qurumların təmsilçilərinin, xarici ölkə səfirlərinin iştirak etdiyi tədbirdə xarici işlər nazirinin müavini ADA-nın rektoru Hafiz Paşayev iştirakçıları 28 May - Respublika Günü münasibətilə təbrik etmişdir.

Nazir E.Məmmədyarov qeyd etmişdir ki, yeni nəsil diplomatların hazırlanması Azərbaycanın milli maraqlarının xaricdə daha peşəkarcasına müdafiə olunmasına təminat verəcəkdir.

Xarici siyasət proqramı diplomatlar və dövlət qulluqçuları üçün 6 aylıq təlim kursudur. Proqram zamanı iştirakçılar beynəlxalq münasibətlər və beynəlxalq hüquq, ictimai diplomatiya, konsulluq xidməti, beynəlxalq iqtisadiyyat və s. sahələr üzrə mühazirələr dinləmiş, danışıq aparma və debat qabiliyyətlərini inkişaf etdirmişlər. Tələbələrdən 14 nəfəri bir ay ərzində İspaniya, ABŞ, İngiltərə, Avstriya, Almaniya və Çexiyada fəaliyyət göstərən Azərbaycan səfirliklərində təcrübə keçəcəklər.

Mərasimin sonunda Xarici siyasət proqramı tələbələrinin hazırladıqları və Azərbaycanı təbliğ edən qısametrajlı sənədli filmlər nümayiş etdirilmiş və tələbələrə buraxılış sertifikatları təqdim olunmuşdur.

Son 4 ildə dövlət strukturlarının 120-yə yaxın əməkdaşı ADA-nın Xarici siyasət proqramının iştirakçısı olmuşdur.

SOFİYADA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 22-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Mayın 28-də Bolqarıstanın Sofiya şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının 22-ci iclası keçirilmişdir.

İclasda Bolqarıstanın xarici işlər naziri, Türkiyənin sənaye və ticarət naziri, digər QDİƏT üzv dövlətlərinin Xarici İşlər nazirliklərinin rəhbər vəzifəli məmurları, təşkilatın sahə dialoqu tərəfdaşı qismində İranın xarici işlər naziri, Bolqarıstanda akkreditə olunmuş ölkələrin səfirləri və digər yüksək səviyyəli qonaqlar iştirak etmişlər.

Azərbaycanı iclasda xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

M.Məmmədquliyev iclasda çıxış edərək Azərbaycanın QDİƏT-in perspektivlərindən və təşkilatdan çox şey gözləməsindən danışmışdır. Nazir müavini təşkilatın səmərəliliyinin artırılmasının, QDİƏT çərçivəsində əməkdaşlığın prioritet sahələr və konkret layihələr ətrafında cəmləşdirilməsinin vacibliyini vurğulamışdır. Bu, xüsusda, QDİƏT Daimi Beynəlxalq Katibliyinin işinin gücləndirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, M.Məmmədquliyev təşkilatda əsaslı hüquqi və institusional islahatların aparılmasının zəruriliyini vurğulamışdır. O, həmçinin, QDİƏT-in Avropa İttifaqı ilə əməkdaşlığının fəallaşdırılmasında Azərbaycanın maraqlı olduğunu diqqətə çatdırmışdır.

Nazir müavini QDİƏT çərçivəsində iqtisadi əməkdaşlığa maneə törədən problem və çağırışların həll edilməsinin əhəmiyyətini vurğulamış, xüsusilə regionda mövcud olan münaqişələr həll edilmədən və bölgədə sabitlik bərqərar olunmadan iqtisadi əməkdaşlığın səmərə verməyəcəyini qeyd etmişdir.

İclas çərçivəsində M.Məmmədquliyev Bolqarıstanın, Yunanıstanın və Albaniyanın xarici işlər nazirlərinin müavinləri ilə ikitərəfli görüşlər keçirmişdir.

Görüşlərdə ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı bir sıra aktual məsələlər müzakirə olunmuşdur.

BMT-NİN SİVİLİZASİYALARARASI ALYANSININ III QLOBAL FORUMUNDA ÇOXSAYLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyətinin qatıldığı BMT-nin Sivilizasiyalararası Alyansının III Qlobal Forumu öz işini başa çatdırmışdır.

Mayın 27-dən 29-dək Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Forumun işində 130 ölkədən, həmçinin beynəlxalq, regional və digər təşkilatlardan çoxsaylı nümayəndələr iştirak etmişlər.

On iki aktual mövzu üzrə keçirilmiş beynəlxalq tədbirdə Braziliya Federasiyasının Prezidenti Lula da Silva, BMT-nin baş katibi Pan Gi Mun, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, İspaniyanın xarici işlər naziri Migel Angel Moratinos, Sivilizasiyalararası Alyansın yüksək nümayəndəsi, Portuqaliyanın keçmiş Prezidenti Xorxe Sampayo və Qətər əmirinin xanımı Seyxa Moza bint Nasir əl-Misnəd və başqa rəsmi şəxslər çıxış etmişlər.

Azərbaycan nümayəndə heyətinin başçısı Hidayət Orucov "Nazirlərin görüşü" adlı əsas geniş iclasda çıxış etmiş, respublikamız barədə həqiqətləri və dövlətimizin başçısı İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərini toplantı iştirakçılarının diqqətinə çatdırmış, dünyada özgə torpaqlarını işğal edən təcavüzkar ölkələrə haqq qazandırmaq meyillərini tənqid etmişdir.

Beynəlxalq tədbirdə Sivilizasiyaların Alyansı Uğrunda Qlobal Gənclər Hərəkatının fəaliyyətini müəyyənləşdirən konsepsiya qəbul olunmuş və bu ilin oktyabrında Bakıda onun birinci konqresinin keçirilməsi qərarlaşdırılmışdır.

Sivilizasiyalararası Alyansın fəaliyyətinə maraq ildən-ilə artır, onun coğrafiyası və sıralarına qoşulan ölkələrin sayı çoxalır. Bu ildən ABŞ da Alyansın işinə qoşulmuşdur. Son iki ildə BMT-nin Sivilizasiyalararası Alyansının forumlarında respublikamızın iştirak təcrübəsinə əsasən, bu formatda əməkdaşlığı davam etdirmək və genişləndirmək zərurəti duyulur.

Nümayəndə heyəti səfər çərçivəsində bir sıra digər görüşlər də keçirərək, bugünkü Azərbaycanın reallıqları barədə Latın Amerikası və Karib dənizi hövzəsi, habelə digər ölkələrin nümayəndələri ilə fikir mübadiləsi aparmışdır.

Sivilizasiyalararası Alyansın III Qlobal Forumunun yekun sənədində mədəniyyətlərarası münasibətlərin daha da yaxşılaşdırılması, dünyada uzunmüddətli sülhə şərait yaratmaq üçün birgə əməkdaşlıq barədə ümumi razılıq əldə olunduğu qeyd edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN MƏRKƏZİ BANKININ SƏDRİ ÇJOU SYAOÇUANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Çin Xalq Respublikasının Mərkəzi Bankının sədri Çjou Syaoçuanı qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Çin Xalq Respublikası ilə əlaqələri bütün sahələrdə genişləndirmək niyyətində olduğunu bildirmişdir. Dünya maliyyə böhranına baxmayaraq ölkələrimizin yaxşı iqtisadi artım templəri nümayiş etdirdiyini qeyd edən Prezident İlham Əliyev iqtisadi əməkdaşlıq sahəsində birgə təşəbbüslər barədə qarşılıqlı fikir mübadiləsi aparmağın önəmini vurğulamışdır. Dövlətimizin başçısı Çin Xalq Respublikası Mərkəzi Bankının sədrinin Azərbaycana səfərinin ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi işinə xidmət edəcəyinə və uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etmişdir.

Çjou Syaoçuan yaxın vaxtlarda "Böyük iyirmiliyin" toplantısında müzakirə olunacaq beynəlxalq maliyyə sistemində aparılan islahatlarla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyini öyrənməyin səfərinin əsas məqsədlərindən biri olduğunu demişdir. Çin Xalq Respublikasının Mərkəzi Bankının sədri Çjou Syaoçuan ölkəmizə səfərinin səmərəli keçəcəyinə əmin olduğunu vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ-IN MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 31-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ-ın müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya üzrə köməkçisinin müavini xanım Selest Uolander ilə görüşmüşdür.

S.Uolander Azərbaycanın beynəlxalq antiterror əməliyyatlarına verdiyi töhfəsinin, habelə Əfqanıstanda sülhün və sabitliyin təmin olunması istiqamətində dəstəyinin ABŞ tərəfindən yüksək qiymətləndirildiyini vurğulamış və bu əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirmişdir.

E.Məmmədyarov Azərbaycanın ABŞ ilə müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini

qeyd etmişdir.

Nazir ölkəmizin Əfqanıstanda yalnız təhlükəsizlik sahəsinə deyil, həmçinin, humanitar, təhsil və əhalinin normal şəraitdə yaşamasına zəmin yaradan digər sahələrdə də töhfə verdiyini bildirmişdir.

Görüşdə birgə maraq doğuran ikitərəfli, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA FEDERATİV RESPUBLİKASININ BUNDESTAQININ DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 31-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Almaniya Federativ Respublikasının Bundestaqının deputatı Mixail Link ilə görüşmüşdür.

Görüşdə M.Link Azərbaycan ilə Almaniya arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edərək, əlaqələrin genişləndirilməsi üçün müxtəlif sahələrdə, xüsusən də qeyri-neft sektorunda geniş imkanların olduğunu bildirmişdir.

Almaniyalı qonaq Cənubi Qafqazın Avropa məkanı üçün xüsusi maraq kəsb etdiyini vurğulayaraq, regionda baş verən proseslərlə maraqlanmışdır.

Regionun ən uzunmüddətli Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir E.Məmmədyarov məsələnin beynəlxalq hüququn norma və prinsipləri əsasında, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğulamışdır.

Nazir cari il mayın 20-də Avropa Parlamentinin qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələb" adlı qətnaməsində Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək verildiyini almaniyalı deputatın diqqətinə çatdırmışdır.

Keçən il mayın 14-də Almaniya Federativ Respublikasının Bundestaqının Cənubi Qafqazla bağlı qəbul etdiyi qətnaməni xatırladan M.Link ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və münaqişənin yalnız dövlətin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həllini dəstəklədiyini qeyd etmişdir.

Görüşdə bir sıra ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılmışdır.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ABŞ-IN MÜDAFİƏ KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Mayın 31-də Azərbaycanın müdafiə naziri general-polkovnik Səfər Əbiyev ABŞ-ın müdafiə katibi köməkçisinin müavini xanım Seleste Vollander ilə görüşmüşdür.

ABŞ-ın Minsk qrupunun həmsədri kimi fəaliyyətini gücləndirməsinin vacibliyini önə çəkən müdafiə naziri regionda təhlükəsizlik məsələləri, Dağlıq Qarabağ münaqişəsinin mövcud vəziyyəti barədə də fikirlərini qonağın diqqətinə çatdırmışdır

Görüş zamanı ABŞ-Azərbaycan hərbi əməkdaşlığının inkişaf prioritetləri geniş müzakirə mövzusu olmuşdur.

MOSKVADA RUSİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI KOMİSSİYASININ İCLASI OLMUŞDUR

Mayın 31-də Rusiya Dövlət Dumasının Gerbli salonunda RF Federal Məclisinin və Azərbaycan Milli Məclisinin ikitərəfli əməkdaşlıq üzrə hökumətlərarası komissiyasının 9-cu iclası olmuşdur. İclasa komissiyanın həmsədrləri Svetlana Orlova və Valeh Ələsgərov sədrlik etmişlər.

Dostluq və qardaşlıq xarakteri daşıyan parlamentlərarası və dövlətlərarası əlaqələri yüksək qiymətləndirən rusiyalı həmsədr S.Orlova bildirmişdir ki, Rusiya-Azərbaycan münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çıxarmaq istiqamətində çox işlər görülür. O, ölkələrimizi beynəlxalq aləmdə daha sıx əməkdaşlığa və bir-birini dəstəkləməyə çağırmışdır.

V.Ələsgərov iki ölkə və parlament arasındakı qarşılıqlı fəaliyyətin yüksək səviyyəsini vurğulayaraq qeyd etmişdir ki, ölkələrimizin mövqelərinin beynəlxalq səviyyədə dəstəklənməsi qarşılıqlı olmalıdır. O demişdir: "Rusiya Azərbaycanın ağrılı problemlərini beynəlxalq səviyyədə dəstəkləyəcəyi təqdirdə, Azərbaycan Rusiyanın mövqeyini fəal dəstəkləyəcəyinə təminat verə bilər".

Azərbaycanın və Rusiyanın deputatları qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini, o cümlədən "Parlamentlərarası komissiyanın əvvəlki iclasının qərarlarının yerinə yetirilməsinin gedişi haqqında", "Ölkələrimiz arasında əməkdaşlığın normativ-hüquqi bazasının təkmilləşdirilməsi haqqında", "Rusiya Federasiyası və Azərbaycan Respublikasının hüquq mühafizə və miqrasiya sahələrində əməkdaşlığı haqqında" məsələləri, habelə komissiyanın növbəti iclasının mövzusunu müzakirə etmişlər.

Dağıstan Respublikası Xalq Məclisi sədrinin müavini Nasir Heydərov çıxışında demişdir: "Biz yaxın qonşularıq. Azərbaycanla Dağıstan arasında birbaşa əlaqələrin böyük əhəmiyyəti vardır". O, Dağıstan rəhbərinin bu yaxınlarda Azərbaycana səfərini xatırladaraq bildirmişdir ki, Dağıstan lideri Azərbaycanın inkişafına və tərəqqisinə heyran qalmışdır. Bu da heç şübhəsiz Prezident İlham Əliyevin xidmətidir.

Sonda yekun protokolu qəbul edilmişdir.

ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Mayın 31-də Milli Məclisin sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Federativ Respublikasının Əmək və Sosial Məsələlər Federal Nazirliyinin Parlamentar dövlət katibi Ralf Brauksipin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Milli Məclisin sədri demişdir ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Avropanın böyük dövlətlərindən biri hesab edilən Almaniya ilə əlaqələrə böyük önəm verir. Azərbaycan Prezidentinin Almaniyaya səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfələr vermişdir. Hökumət və parlament nümayəndələrinin qarşılıqlı səfərləri də münasibətlərimizin daha da genişlənməsində mühüm rol oynayır. Ümid edirik ki, sizin bu səfəriniz hər iki ölkənin müvafiq nazirlikləri, eləcə də digər qurumlar arasında əməkdaşlığın genişlənməsinə təkan verəcəkdir.

Bu gün Azərbaycan ilə Almaniya arasında iqtisadi-ticarət əlaqələri də yüksələn xətlə inkişaf edir. Bununla belə 650 milyon dollarlıq ticarət dövriyyəsi mövcud potensialı əks etdirmir. Ticarət dövriyyəsini daha da yüksəltmək üçün geniş imkanlar vardır.

Oqtay Əsədov Azərbaycan Milli Məclisi ilə Almaniya Bundestaqı arasında əlaqələrin səviyyəsindən razılığını ifadə etmiş və demişdir ki, Milli Məclisdə fəaliyyət göstərən Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunda 20-dən artıq deputat təmsil olunur. Almaniya Bundestaqında olan həmkarlarımıza Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı obyektiv mövqe nümayiş etdirdiklərinə görə təşəkkür edirik. Bu yaxınlarda Almaniya parlamentində qəbul olunan qətnamədə Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanın haqlı mövqeyi dəstəklənir.

Oqtay Əsədov vaxtilə Azərbaycanda çoxlu sayda almanın da yaşadığını qonaqların diqqətinə çatdırmış, keçən il Göygöl rayonunda Milli Məclisin dəstəyi ilə Alman Mədəniyyəti Günlərinin keçirildiyini və bu tədbirdə Almaniyadan gələn nümayəndə heyətinin də iştirak etdiyini bildirmişdir.

Milli Məclisin sədri Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nümayəndə heyətinə ətraflı məlumat vermiş və bildirmişdir ki, dinamik inkişaf yolunda olan Azərbaycan həm də Avropaya inteqrasiya olunur. Amma Ermənistanın Azərbaycana hərbi təcavüzü olmasaydı, bu inkişaf və inteqrasiya daha sürətli olardı.

Azərbaycanda onlara göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Ralf Brauksip əvvəlcə Milli Məclisin inzibati binası, parlamentin iclas zalı ilə tanışlıqdan sonra onda yaranan xoş təəssüratlarını diqqətə çatdırmışdır. Ölkəmizə səfər etməkdən məmnun olduğunu deyən qonaq, Almaniyanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirmişdir. O qeyd etmişdir ki, Almaniyanın işsizliyin aradan qaldırılması ilə bağlı böyük təcrübəsi vardır və ölkəsi bu təcrübəni Azərbaycanla paylaşmağa hazırdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏMƏK, MƏŞĞULLUQ VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR

Mayın 31-də Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərov ilə Almaniyanın Əmək və Sosial Məsələlər Federal Nazirliyinin Parlamentar dövlət katibi Ralf Brauksip arasında görüş olmuşdur.

Görüşdə iki dövlət arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığın inkişaf perspektivləri, habelə əmək qanunvericiliyinin tətbiqinə nəzarət edən orqanların fəaliyyəti, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

Son illərdə Azərbaycanda bu istiqamətdə əldə olunan uğurlardan danışan F.Ələkbərov iki ölkə arasında bütün sahələrdə, o cümlədən əmək, məşğulluq və sosial müdafiə sahəsində əlaqələrin genişləndiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər uğurla davam etdirilir. Son 5 ildə ölkədə 850 min yeni iş yeri açılmışdır. Bunun da 79 faizi regionların payına düşür. Hazırda ölkəmizdə işsizliyin səviyyəsi 6 faiz təşkil edir. Bütün bunlar

dövlətin bu sahəyə olan diqqət və qayğısının nəticəsidir.

Ralf Brauksip vurğulamışdır ki, Almaniya-Azərbaycan arasında bütün sahələrdə geniş əlaqələr qurulmuşdur. İstəyirik ki, əmək, məşğulluq və sosial müdafiə sahəsində əlaqələrimizi daha da inkişaf etdirək. Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən məmnunam. Dünyanı bürümüş maliyyə böhranına baxmayaraq, işsizlik səviyyəsi Azərbaycanda sabit qalmışdır. Əməkdaşlığımız bundan sonra da yüksələn xətlə davam edəcəkdir.

Görüşün sonunda iki ölkə arasında əmək və məşğulluq sahələrinə dair qanunvericilik bazasının təkmilləşdirilməsi, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlillər üçün peşə reabilitasiyası və məşğulluğun inkişafına dair proqramların həyata keçirilməsi, məşğulluğun inkişafı, işsiz və işaxtaran vətəndaşların sosial müdafiəsi və digər istiqamətlərdə əməkdaşlığın inkişafını nəzərdə tutan Protokol imzalanmışdır.

Bundan başqa, sənəddə Almaniya tərəfdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aidiyyəti strukturlarının kadr potensialının gücləndirilməsinə kömək göstərilməsi, hər iki tərəfin nazirlikləri və onların qurumlarının iştirakı ilə əmək və məşğulluq sahələrində məlumat və təcrübə mübadiləsinin həyata keçirilməsi öz əksini tapmışdır.

ÇİN XALQ RESPUBLİKASI İLƏ AZƏRBAYCANIN BANK SEKTORLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Çin Xalq Respublikasının (ÇXR) Mərkəzi Bankının sədri Çjou Syaoçuanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın və ÇXR-ın bank sektorları arasında əməkdaşlığın perspektivlərinin müzakirə olunduğu, qlobal maliyyə böhranının nəticələri və postkrizis dövrünün vəzifələri ətrafında fikir mübadiləsinin aparıldığı görüşdə Çjou Syaoçuan Çinin maliyyə sektorundakı islahatlar və davam edən makroiqtisadi stimul meyarları barədə məlumat vermişdir.

Azərbaycan ilə ÇXR arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Çjou Syaoçuan, ölkələrimizin bank sektorlarının əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşmüşdür.

Mərkəzi Bankın sədri Elman Rüstəmov Azərbaycan iqtisadiyyatının, o cümlədən bank sektorunun cari vəziyyəti, ölkədə həyata keçirilmiş antikrizis tədbirləri, bu işlərin böhrana qarşı nümayiş etdirdiyi dayanıqlığın əsas amilləri barədə məlumat vermişdir. Elman Rüstəmov hər iki ölkənin mərkəzi bankları və bütövlükdə bank sektorları arasında gələcək əməkdaşlığın tərəflər üçün böyük əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Görüşdə Azərbaycan Mərkəzi Bankı ilə Çin Mərkəzi Bankı arasında pul-məzənnə siyasəti, bank nəzarəti sahəsində, ixracın stimullaşdırılmasında Mərkəzi Bankın rolu, maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi kimi məsələlər üzrə perspektiv əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir.

Makroiqtisadi tənzimləmədə, xüsusən ölkənin beynəlxalq rəqabət qabiliyyətinin qorunmasında mühüm rol oynayan məzənnə siyasəti ətrafında maraqlı müzakirələr aparılmışdır. Hər iki dövlətin əhəmiyyətli valyuta ehtiyatlarına və stabil milli valyutalara malik olmasının ölkələrimiz arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə etibarlı zəmin yaratdığı bildirilmişdir.

Görüşün sonunda müzakirə edilən məsələlər ətrafında səmərəli əməkdaşlığın qurulması üçün qarşılıqlı səfərlər yolu ilə təcrübə mübadiləsinin genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

BAKIDA XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

İyunun 1-də yeni inşa olunmuş Bakı Sərgi Mərkəzində XVII Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.

Dövlətimizin başçısı əvvəlcə Bakı Sərgi Mərkəzinin açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.

Məlumat verildi ki, inşasına 2008-ci ildə başlanmış sərgi mərkəzi bütün beynəlxalq standartlara cavab verir. Tikinti-quraşdırma işlərinin gedişində burada 2000-dən çox inşaatçı, o cümlədən 500-ə yaxın əcnəbi mütəxəssis çalışmışdır. İşlərin ən yüksək sürətlə aparıldığı dövrdə obyektdə çalışan fəhlə və mühəndislərin sayı 3000 nəfərə bərabər olmuşdur.

Bakı Sərgi Mərkəzinin ümumi sahəsi 9 hektardır. Mərkəzin sərgi sahəsi 12.800 kvadratmetrdir. Mərkəzi binanın ümumi sahəsi 36.163 kvadratmetr, birinci mərtəbənin ümumi sahəsi 31.797 kvadratmetr, ikinci mərtəbənin sahəsi isə 4366 kvadratmetrdir. Kompleksin giriş hissəsində sahəsi 4480 kvadratmetr, hündürlüyü 12 metr olan holl yerləşir. Kompleksdə ofislər, məlumat və mətbuat bölmələri, iclas zalı, yardımçı və texniki otaqlar, sərgi salonlarına və restorana aparan keçidlər yaradılmışdır. Sərgi mərkəzi lazımi mühəndis qurğuları və sistemləri ilə təmin edilmişdir. Binanın tikintisində müasir inşaat materiallarından və konstruksiyalarından istifadə olunmuşdur. Ərazidə avtomobil dayanacaqları inşa olunmuş, ətrafda yaşıllıq salınmışdır.

Sərgi mərkəzinin ərazisində Yaponiyanın "Nichia" firmasının istehsalı olan fırlanan media qülləsi quraşdırılmışdır. Qüllə üçbucaq formasında elektron tablolu 3 piramidadan ibarətdir. Qüllənin ümumi hündürlüyü 37 metr, hər bir piramidanın çəkisi isə 70 ton təşkil edir. Bu konstruksiya ən müasir reklam məhsulunun yüksək səviyyədə nümayiş etdirilməsinə imkan verir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva XVII Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransının açılışında iştirak etdilər

Sərgi və konfransı açan ITE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud Bakı Sərgi Mərkəzinin istifadəyə verilməsi münasibətilə təbriklərini çatdırdı. "Bu, Azərbaycan Respublikasının həyata keçirdiyi tədbirlərin, bizim gördüyümüz və görə biləcəyimizi işlərin təntənəsidir", - deyən Endryu Vud sözü Prezident İlham Əliyevə verdi.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Xəzər neft-qaz sərgi və konfransının açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən bu ənənəvi sərgi bu il yeni sərgi salonunda keçirilir. Bu gün biz, eyni zamanda, bu yeni sərgi salonunun açılışını qeyd edirik. Mən hesab edirəm ki, bu, çox əlamətdar hadisədir - ilk sərgi məhz Xəzər neft-qaz sərgisidir. Çünki Xəzər neft-qaz sərgisi müasir Azərbaycanda keçirilən sərgilərin arasında xüsusi yerə malikdir. Birinci dəfə bu sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt hələ Azərbaycanda sərgi keçirmək istəyində olan şirkətlərin sayı çox deyildi. Azərbaycan yeni müstəqil dövlət idi. Azərbaycanın gələcəyi haqqında dünyada müxtəlif fikirlər dolaşırdı. Ona görə, bu sərginin 1994-cü ildə keçirilməsi, eyni zamanda, Azərbaycanın neft strategiyasının başlanmasına təsadüf etməsi çox əlamətdar hadisə olmuşdur. Ona görə mən hesab edirəm, bu, çox ədalətli haldır ki, bu möhtəşəm, gözəl Bakı Expo salonunda ilk sərgi məhz Xəzər neft-qaz sərgisidir.

1994-cü ildə Azərbaycan böyük işlərin astanasında idi. Ölkə iqtisadiyyatı o vaxt böyük çətinliklərlə üzləşmişdi. Ölkədə sabitlik yaradılması üçün addımlar atılırdı. Ancaq 1994-cü ildə Azərbaycanın, ümumiyyətlə gələcəyi haqqında birmənalı fikir yox idi: Azərbaycan hansı yollarla inkişaf edəcək? Azərbaycan iqtisadiyyatı nəyin hesabına formalaşacaq? Azərbaycan öz strateji inkişaf yolunu hansı istiqamətdə görür? Bütün bu suallar ölkə qarşısında durmuşdu. O illərdə edilən strateji seçim Azərbaycanın bugünkü uğurlu inkişafını təmin etdi. Çünki məhz o illərdə Azərbaycanın yeni neft strategiyasının başlanması, Azərbaycanın dünya birliyinə inteqrasiya etmək siyasətinin uğurla aparılması, ölkədə həyata keçirilən iqtisadi islahatlar, iqtisadiyyata cəlb edilən böyük həcmdə xarici investisiyalar - bütün bu amillər bugünkü inkişafı şərtləndirdi. Bu gün Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkədir.

Biz hamımız yaxşı bilirik ki, əgər 1994-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən o qətiyyətli addımlar atılmasaydı və "Əsrin kontraktı" imzalanmasaydı, bəlkə də Azərbaycanın inkişafı tam başqa istiqamətdə davam edərdi. "Əsrin kontraktı"nın imzalanması ilə Azərbaycan nəinki Xəzər hövzəsinin böyük, zəngin resurslarını dünya şirkətləri üçün açdı, eyni zamanda, Azərbaycanın uzunmüddətli və uğurlu inkişafını təmin etdi.

1994-cü ildə bizim planlarımız çox geniş idi. Biz bilirdik məqsədimiz nədir. Ancaq onu da bilirdik ki, bu məqsədə çatmaq üçün yolumuz hamar olmayacaqdır. Elə də oldu. Azərbaycan çox böyük sınaqlardan şərəflə çıxdı və qarşıda duran bütün vəzifələri uğurla həll etdi. İnvestisiyaların cəlb edilməsi, xarici şirkətlərlə uğurlu və qarşılıqlı maraqlar əsasında yaradılmış əlaqələr, hasilatın artırılması, Azərbaycanın iqtisadi inkişafının təmin edilməsi, neft kəmərlərinin tikintisi və təbii ehtiyatların bu kəmərlər vasitəsilə dünya və Avropa bazarlarına nəql edilməsi layihələri bugünkü Azərbaycanın reallıqlarını böyük dərəcədə əks etdirir.

Bu gün böyük sevinc hissi ilə deyə bilərik ki, artıq Azərbaycan iqtisadiyyatı neft amilindən o qədər də asılı deyildir. Halbuki, bundan sonra da uzun illər ərzində neft və qaz amili Azərbaycanın həm iqtisadi maraqlarını təmin edəcək, həm dünyadakı mövqelərimizi möhkəmləndirəcəkdir. Ümumiyyətlə, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün bu amil uzun illər öz rolunu oynayacaqdır. Ancaq bununla bərabər, bu gün Azərbaycanın qeyri-neft sektorunun inkişafı da çox sürətlə gedir. Buna təkan verən məhz neft siyasəti, neft strategiyası olmuşdur.

Neft strategiyasının uğurlu icrası Azərbaycanı dünyaya bir etibarlı tərəfdaş kimi təqdim etdi. Biz xarici şirkətlərlə artıq 16 ildir ki, uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq qarşılıqlı maraqlar əsasında qurulubdur və həm xarici tərəfdaşlara, həm də Azərbaycana böyük mənfəət gətiribdir. İşlərin əvvəlində isə bu planların reallaşması üçün bütün səylər göstərilmişdir. Ümid edirəm ki, Azərbaycanın bundan sonrakı inkişaf dövrü də uğurlu olacaqdır.

1994-cü ildə "Əsrin kontraktı"nın imzalanmasından sonra 1996-cı ildə "Şahdəniz" qaz yatağı üzrə kontrakt imzalanmışdır. O illərdə qaz amili, ümumiyyətlə, dünya neft və enerji siyasətində o qədər də mühüm yer tutmurdu. O layihəyə investisiyalar və kreditlər cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün dünya enerji siyasətində deyə bilərəm ki, bu yanaşmada müəyyən və böyük dərəcədə dəyişiklik edildi. Qaz amili daha da mühüm rol oynamağa başlamışdır və nəinki iqtisadi maraqları təmin edir, eyni zamanda, bəzi hallarda enerji təhlükəsizliyi məsələlərinə də məhz qaz amili çox mühüm təsir göstərir.

Azərbaycan isə o ölkədir ki, həm qaz, həm neft resursları kifayət qədər böyükdür. Bilirsiniz ki, Azərbaycan qədim neft diyarıdır. İlk dəfə sənaye üsulu ilə neft dünyada məhz Azərbaycanda hasil edilibdir. Dəniz yataqlarından neft ilk dəfə dünyada məhz Azərbaycanda hasil edilibdir. Bu yaxınlarda biz faşizm üzərində Qələbənin 65-ci ildönümünü qeyd edərkən, bir daha o illərə nəzər salarkən gördük ki, Azərbaycan nefti, Azərbaycan neftçilərinin gərgin zəhməti olmasaydı, o müharibənin nəticələri başqa ola bilərdi. Yəni, Azərbaycan qədim neft diyarı kimi dünyada özünü çoxdan təsdiq etmişdir.

Müstəqil ölkə, müstəqil Azərbaycan kimi biz özümüzü yenidən təsdiq və təqdim etməli idik. Biz bunu uğurla bacardıq. Bizim neft siyasətimiz çox açıqdır, aydındır və çox səmimidir. Bizim bütün öhdəliklərimiz, götürdüyümüz öhdəliklər yerinə yetirilir. Biz dünya enerji şirkətləri ilə etibarlı tərəfdaş kimi uğurla əməkdaşlıq edirik. Bu gün Azərbaycanın Dövlət Neft Şirkəti - SOCAR dünyanın aparıcı şirkətləri arasındadır və xarici şirkətlərlə uğurla əməkdaşlıq bizə də bu yeni, müasir təcrübəni gətirdi. Bu gün artıq Azərbaycan şirkətləri başqa ölkələrə böyük həcmdə investisiyalar qoyurlar. Bu gün Azərbaycan şirkətləri milyardlarla ölçülən investisiyalar qoyur və bu proses bundan sonra da davam etdiriləcəkdir.

1990-cı illərin ortalarında isə qarşımızda digər vəzifələr dururdu: hasilata başlamaq, "Azəri-Çıraq-Günəşli" yatağı üzrə işlərin sürətlə aparılmasına nail olmaq, neft kəmərlərini, ondan sonra qaz kəmərlərini yaratmaq. Bütün bu vəzifələr icra olundu. Bu gün Azərbaycanın neft və qaz hasilatı nəinki ölkə tələbatını ödəyir, eyni zamanda, bizim üçün çox böyük ixrac resursu da təşkil edir. Bu il Azərbaycanda neft hasilatı 52 milyon ton səviyyəsində gözlənilir. Qaz hasilatı təxminən 30 milyard kubmetrə bərabər olacaqdır ki, bu, Azərbaycanın daxili tələbatından 3 dəfə çoxdur.

Təbii ki, Azərbaycan enerji resurslarını neft və qaz kəmərləri ilə müxtəlif istiqamətlərə ixrac edir. İxrac coğrafiyamız ildən-ilə genişlənir və mən tam əminəm ki, biz yeni bazarlara da çıxacağıq. Çünki yeni bazarlarda Azərbaycanın təbii resurslarına ehtiyac vardır. Bizim də marağımız ondadır ki, neft-qaz potensialımızı maksimum dərəcədə realizə edə bilək. Bugünkü hasilat demək olar ki, ixrac imkanlarımızdan daha da çoxdur. Ancaq biz elə etməliyik ki, hasilatımızla daxili tələbat və ixrac imkanlarımız bərabərlik təşkil etsin. Buna nail olmaq üçün əlbəttə ki, bizə yeni bazarlar lazımdır. Yaxud da ki, mövcud olan bazarların genişləndirilməsi lazımdır. Azərbaycan hər iki istiqamətdə çox düşünülmüş, çox dəqiq və məqsədyönlü siyasət aparır. Məhz bu siyasətin nəticəsində bu gün Azərbaycan o ölkələrdəndir ki, heç bir istiqamətdən asılı deyildir. Bizim üç neft, dörd qaz kəmərimiz vardır. Onlar enerji şaxələndirilməsini tam şəkildə təmin edir və enerji resurslarımızın istənilən istiqamətdə ixracının artırılması üçün bütün imkanlar vardır. Bu gün Azərbaycanda verilən tapşırıqlar əsasında görülən texniki işlər qaz ixrac imkanlarımızı böyük dərəcədə artıracaqdır. Biz bu sahəyə böyük investisiyalar qoyuruq və bu investisiyalar özünü doğruldacaqdır. Çünki bu, Azərbaycanın uzunmüddətli, bundan sonra onilliklər ərzində uğurlu inkişafını təmin edəcəkdir.

İnvestisiyalara gəldikdə, Azərbaycan investisiyalar üçün çox məqbul, çox cəlbedici ölkədir. 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına 82 milyard dollar investisiya qoyulmuşdur. Onların, demək olar ki, yarısı neft-qaz sektoruna qoyulmuşdur. Əlbəttə ki, neft strategiyamızın ilk illərində investisiyalar daha çox neft-qaz sektoruna qoyulurdu. Bu, bəzi ekspertləri narahat edirdi ki, "Holland sindromu" yaşana bilər. Azərbaycan iqtisadiyyatı da birtərəfli qaydada inkişaf edə bilər.

Ancaq bizim düşünülmüş siyasətimiz və konkret addımlarımız göstərdi ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. Bu gün Azərbaycan iqtisadiyyatı şaxələndirilmiş iqtisadiyyatdır. Əgər ümumi investisiya portfelinin yarısı qeyri-neft sektoruna qoyulubsa, bu onu göstərir ki, Azərbaycanda qeyri-neft sektoru da çox cəlbedici bir sahədir. Qeyri-neft sektoruna qoyulan həm xarici, həm daxili investisiyalar, həm dövlət büdcəsindən, həm də özəl sektordan ayrılan vəsait yeni bir vəziyyət yaratdı. Bu gün Azərbaycan enerji, yəni neft-qaz amilindən daha da az asılı vəziyyətdədir və getdikcə bu asılılıq daha da azalacaqdır. Bizim iqtisadi nailiyyətlərimizin statistikası bunu əyani şəkildə göstərir. 2009-cu ilin rəqəmlərini götürsək, Azərbaycanda son illər ərzində aparılan işlərin elə bil ki, nümunəsini görərik.

Çünki 2009-cu ildə dünya üzrə neftin qiyməti 3-4 dəfə aşağı düşdü, iqtisadi və maliyyə böhranı, demək olar ki, bütün ölkələrə mənfi təsir göstərdi. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı keçən il 9 faizdən çox artmışdır. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi Azərbaycanın inkişafına mənfi təsir göstərməmişdir. Biz bütün sosial proqramları, bütün infrastruktur layihələri icra etdik. Biznes imkanları daha da səfərbər olundu və biz bu çətin vəziyyətdən çox uğurla çıxa bildik. Bu gün Azərbaycan iqtisadiyyatı 2010-cu ildə də yüksək templərlə inkişaf edir.

Bütün bu işlərin təməlində düşünülmüş iqtisadi siyasətlə bərabər, şübhəsiz ki, neft strategiyamız dayanır. Bir daha qayıdıram 15 il bundan əvvəlki dövrə. Əgər o illərdə o cəsarətli və məqsədyönlü, qabağa hesablanan addımlar atılmasaydı, bu gün Azərbaycanın vəziyyəti tam başqa ola bilərdi. Həm iqtisadi, eyni zamanda, siyasi vəziyyət də başqa

ola bilərdi. Çünki, sirr deyil ki, iqtisadi imkanlar məhdud olan yerdə siyasi təşəbbüsləri irəli sürmək, öz milli maraqlarını maksimum dərəcədə müdafiə etmək və öz prinsipial müstəqil siyasətini aparmaq çox çətin olur. Bu gün iqtisadi müstəqilliyimiz, böyük valyuta ehtiyatlarımız, iqtisadiyyatımızın uğurlu inkişafı bizə əlavə güc verir. O güc ki, bu gün bizə lazımdır. Çünki, biz hələ ki, gənc müstəqil dövlətik. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatı artıq öz keçid dövrünü başa vurdu. Biz artıq keçid iqtisadiyyatı ölkəsi deyilik. Biz inkişaf edən iqtisadiyyatıq və bunu mötəbər beynəlxalq maliyyə qurumları da görür, təsdiqləyir. Böhran ilində Azərbaycanın kredit reytinqinin artırılması özlüyündə bir göstəricidir.

Biz bütün bu imkanlardan istifadə edib gələcəyə baxmalıyıq, gələcək planlarımızı bu gün tutmalıyıq. Belə də edirik. Həm energetika sahəsində, neft-qaz sahəsində, həm də qeyri-neft sahəsində bizim uzunmüddətli strategiyamız, planlarımız, konkret addımlar paketi vardır. Biz öz siyasətimizi proqram üzrə qururuq. Buna görə, Azərbaycan həm böhrandan ən az itkilərlə çıxmış ölkədir, həm də siyasi sabitlik baxımından Azərbaycanda vəziyyət çox müsbətdir. Bu ümumi vəziyyət ölkəmizə investisiyaların axınını gücləndirir. Bu gün Azərbaycanda sərmayə təkcə neft-qaz sektoruna qoyulmur - turizm, infrastruktur, mehmanxanalar, sosial obyektlər, belə gözəl sərgi salonları. Bu sərgi salonu dünya miqyasında seçilən, gözəlliyi və funksional mahiyyəti ilə fərqlənən sərgi salonlarından biridir. Bu gün biz bu gözəl, möhtəşəm salonda bu tədbiri keçiririk. Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar Azərbaycan xalqına xidmət edir. Nə qədər çox vəsait qoyularsa, iqtisadiyyatımız o qədər də çox artacaq, iş yerləri açılacaq və insanların rifah halı yaxşılaşacaqdır.

Biz bundan sonra da öz siyasətimizi bu vaxta qədər apardığımız yollarla inkişaf etdirəcəyik. Ölkəmizin iqtisadi potensialının maksimum şaxələndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. O ki qaldı neft-qaz sektoruna, bu sahədə biz bu günə qədər bütün istədiyimiz məqsədlərə çata bilmişik. Neft kəmərləri, qaz kəmərləri, hasilat, investisiyalar, yeni bazarlara çıxış və bu gün biz daha da böyük investisiyaları gözləyirik. Bu yaxınlarda "Çıraq" yatağında yeni böyük layihə başlanmışdır. Ümid edirəm ki, biz yaxın zamanlarda böyük "Şahdəniz-2" layihəsinin başlanmasına da nail olacağıq. Bunu etmək üçün hesab edirəm ki, hazırda bütün imkanlar vardır. Əgər biz buna nail olsaq, növbəti illərdə Azərbaycanın neft-qaz sektoruna ancaq bu layihə üzrə ən azı 20 milyard dollar sərmayə qoyulacaqdır. Bu sərmayə özlüyündə, yəqin ki, buna bərabər həcmdə sərmayənin qeyri-neft sektoruna da yatırılmasına gətirib çıxaracaqdır.

Əziz dostlar, mən bu gözəl hadisə, ənənəvi sərgi və konfransın açılışı münasibətilə bir daha sizi təbrik etmək istəyirəm. Konfransın təşkilatçılarına öz minnətdarlığımı bildirmək istəyirəm ki, uzun illərdir Azərbaycanda bu gözəl, beynəlxalq tədbir keçirilir. Əminəm ki, artıq yaradılmış bu gözəl ənənə bundan sonra da davam edəcəkdir. Sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Kerolin Braun Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kameronun tədbirin iştirakçılarına təbrik məktubunu oxudu.

Gürcüstanın energetika nazirinin birinci müavini xanım Məryəm Valişvili sər-

gi-konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür etdi. O, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin sərgi və konfrans iştirakçılarına müraciətini çatdırdı.

Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Məhəmməd bin Dhayen əl-Həmli Bakıda keçirilən sərgi-konfransın əhəmiyyətini vurğulayaraq dedi ki, ölkəsi ilə Azərbaycan arasında münasibətlər güclüdür.

Məhəmməd bin Dhayen əl-Həmli dünyada neft hasilatının ən qədim mərkəzlərindən biri olan Azərbaycanda belə mühüm bir konfransda iştirak etmək üçün dəvət olunduğuna görə minnətdarlığını bildirdi. O, Azərbaycanın müxtəlif guşələrinə səfər etmək, xalqımızın mədəniyyətini və adət-ənənələrini daha yaxından öyrənmək arzusunu diqqətə çatdırdı.

Ölkəsi ilə Azərbaycan arasındakı əlaqələrin gələcəkdə daha da möhkəmlənməsini istədiyini diqqətə çatdıran nazir qeyd etdi ki, belə tədbirlər hökumət rəhbərləri, o cümlədən neft sənayesinin rəhbər işçilərinə vəziyyətlə yaxından tanış olmaq, fikir mübadiləsi aparmaq və qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün yeni imkanlar açır. Azərbaycan və BƏƏ bir çox oxşarlıqlara malikdir. Bizim eyni dinimiz var və hər ikimiz neft hasil edən ölkələrik. Biz ümumi platformadan çıxış edərək, xalqlarımızın rifahı üçün sənayemizi uzunmüddətli şəkildə inkişaf etdirmək niyyətindəyik.

Neft sənayesinə xüsusi diqqət yetirilməsinin zəruriliyini vurğulayan Məhəmməd bin Dhayen əl-Həmli dünya neft bazarında mövcud vəziyyəti təhlil edərək bildirdi ki, dünyada neftə olan tələbat artır. O, alternativ enerji mənbələrindən istifadə imkanlarının geniş şəkildə araşdırılmasının da əhəmiyyətini vurğuladı.

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Yusuf Yazar tədbirdə çıxış edərək bildirdi ki, neft-qaz sektorunda fəaliyyət göstərən ən böyük şirkətləri bir araya gətirən konfrans və sərgi Azərbaycanın iqtisadi inkişafının göstəricisidir.

Y.Yazar qeyd etdi ki, yaxın gələcəkdə də dünyanın enerji istehlakında əsas rol karbohidrogen ehtiyatlarının payına düşəcəkdir. Karbohidrogen ehtiyatlarının axtarışı, istehsalı, daşınması və dünya bazarına çıxarılması mühüm əhəmiyyətə malikdir. Qlobal iqtisadi böhranın təsirlərinin tədricən azaldığı və iqtisadi canlanmanın əlamətlərini açıq şəkildə görməyə başladığımız vaxtda Azərbaycanda belə bir sərgi və konfransın keçirilməsi çox əhəmiyyətlidir. Sərgi bu sektorda fəaliyyət göstərən şirkətlər arasındakı əlaqələrin və əməkdaşlığın inkişafına təkan verəcək və dünya karbohidrogen mənbələrinin daha səmərəli dəyərləndirilməsinə öz töhfəsini verəcəkdir.

Türkiyə-Azərbaycan əlaqələrinə də toxunan Y.Yazar dedi ki, Azərbaycan və Türkiyə arasındakı dostluq enerji sahəsindəki əlaqələrdən daha əvvəl mövcuddur.

Y.Yazar Türkiyənin dünya enerji sektorunda oynadığı rola diqqət çəkərək bildirdi ki, Azərbaycanla qurulan əlaqələr enerji sahəsində yaranan əməkdaşlığa da ciddi təkan verib. Ölkəsinin mühüm enerji dəhlizlərindən biri olduğunu bildirən Yusuf Yazar Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrinin bu sırada mühüm əhəmiyyət daşıdığını dedi. Türkiyə rəsmisi bildirdi ki, Azərbaycan ilə bütün sahələrdə qurulan əməkdaşlıq dostluğa və qardaşlığa xidmət edir.

ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Mor-

ninqstar Bakıda gördüyü dəyişikliklərdən məmnun qaldığını, yeni Sərgi Mərkəzinin istifadəyə verilməsini isə müsbət dəyişikliklərin rəmzi olduğunu diqqətə çatdırdı. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanın bugünkü inkişafa çatdığını vurğulayaraq, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğuladı və ABŞ-ın dövlət katibi xanım Hillari Klintonun Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu.

Norveç Krallığı Xarici İşlər Nazirliyinin Xəzər regionu və Orta Asiya energetika məsələləri ilə bağlı xüsusi məsləhətçisi xanım Elizabet Valaas çıxışında sərgi-konfransın əhəmiyyətini vurğuladı.

Ölkəsinin Azərbaycan ilə əlaqələrə böyük əhəmiyyət verdiyini deyən qonaq, artıq 20 ildir ki, ölkələrimiz arasında iqtisadi sahədə uğurlu əməkdaşlığın qurulduğunu söylədi. Norveçin ən nüfuzlu neft şirkəti "Statoyl" Azərbaycanın neft sektorunda ikinci ən böyük sərmayədardır.

Elizabet Valaas Azərbaycanın enerji təchizatı yollarının şaxələndirilməsi istiqamətində həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirdi. Artıq uzun illərdir ki, Norveç şirkətlərinin Azərbaycanda neft hasilatı ilə məşğul olduğunu deyən Valaas, ölkəsinin Azərbaycanın hasilat sənayesində şəffaflıq təşəbbüsünü alqışladığını söylədi. O, Norveçin və Azərbaycanın enerji sahəsində əməkdaşlığının bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Açılış mərasimindən sonra Prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.

Dövlətimizin başçısı əvvəlcə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) ekspozisiyasına baxdı.

Prezident İlham Əliyev Neft daşlarının 60 illiyini, "Əsrin müqaviləsi"ni, ARDNŞ-in axtarış-kəşfiyyat işlərini, neft və qaz hasilatını, emalını, qazmada nanotexnologiyaların tətbiqini, "Azərikimya" və "Azəriqaz" istehsalat birliklərinin fəaliyyətini əks etdirən stendlərə, Azərbaycanın təbii qaz təchizatının sxeminə baxdı. Dövlətimizin başçısına şirkətin sosial inkişaf, təhsil, ekologiya və digər sahələrdə həyata keçirdiyi layihələr barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev "bp-Azərbaycan", "Total", ENI, "Petkim", TPAO, RWE, "Statoil", "Gastech International Fz.Co", "Tekfen" şirkətlərinin ekspozisiyaları ilə tanış oldu.

Prezident İlham Əliyev sərgi ilə tanışlıqdan sonra Fəxri qonaqlar kitabını imzaladı, sərgi-konfransın işinə uğurlar arzuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmışdır.

BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞININ NÜMAYƏNDƏSİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

İyunun 1-də Milli Məclisin insan hüquqları komitəsinin sədri Rəbiyyət Aslanova ölkəmizdə səfərdə olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Regional Bürosunun direktor müavini Qilyermo Bettoççi ilə görüşmüşdür.

Qonağı səmimi salamlayan R.Aslanova ona Milli Məclisin fəaliyyəti, rəhbərlik etdiyi komitənin işi barədə ətraflı məlumat vermişdir.

Komitə sədri bildirmişdir ki, Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur. Ölkənin hər 9 vətəndaşından biri qaçqın və məcburi köçkün taleyi yaşayır. R.Aslanova qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, hüquqlarının qorunması üçün görülən işlərdən danışmışdır. Komitə sədri bundan sonra BMT-də qaçqın və məcburi köçkünlərlə bağlı hazırlanan sənəd və hesabatlarda azərbaycanlı qaçqınların taleyinin də ətraflı qeyd olunması ilə bağlı fikirlərini qonağın diqqətinə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrildikdən sonra dünyanın bir sıra dövlətlərindən ölkəmizə miqrantlar gəlir. Bunların arasında Əfqanıstan, Pakistan, İraqdan gələn insanlar vardır ki, Azərbaycan dövləti onlara kömək məqsədi ilə hər cür yardımlar edir.

Ətraflı məlumat üçün təşəkkür edən Qilyermo Bettoççi bildirmişdir ki, tutduğu vəzifəyə yeni təyin edilmişdir. O, demişdir ki, əsas işi Şərqi Avropa və Azərbaycanda qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə yaxından tanış olmaqdır. Fəaliyyətini qaçqın həyatı yaşayan insanların problemlərinin davamlı həllinin tapılmasına həsr edəcəyini vurğulayan Q.Bettoççi bu gəlişinin bölgəyə ilk səfəri olduğunu söyləmişdir. Qonaq demişdir ki, biz əlimizdən gələni etməliyik ki, gələcəyin vətəndaşları qaçqın və məcburi köçkün taleyi yaşamasınlar, uşaqlar çadır şəhərcikləri görməsinlər.

Görüşdə Azərbaycanda miqrasiya sahəsində əldə edilən uğurlar, qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri, qaçqın uşaqların təhsili və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ QAZAXISTANIN DÖVLƏT NEFT ŞİRKƏTLƏRİ ARASINDA UĞURLU ƏMƏKDAŞLIQ BUNDAN SONRA DA XALQLARIMIZIN RİFAHININ YÜKSƏLMƏSİNƏ XİDMƏT EDƏCƏKDİR

İyunun 1-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev 17-ci Beynəlxalq Xəzər neft və qaz, neftayırma və neft kimyası sərgi-konfransında iştirak etmək üçün Bakıda səfərdə olan Qazaxıstanın "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyətinin prezidenti Kairgəldi Kabıldinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Rövnəq Abdullayev rəhbərlik etdiyi qurum ilə "KazMunayQaz" arasında səmimi dostluq və əməkdaşlıq münasibətlərinin yüksək sürətlə inkişaf etdiyindən məmnunluğunu ifadə etmişdir. O, 2008-ci ilin noyabrında Bakıda bu şirkətlər arasında imzalanmış "Transxəzər layihəsinin reallaşdırılmasının əsas prinsipləri haqqında saziş" çərçivəsində işlərin qənaətbəxş getdiyini qeyd etmiş və əmin olduğunu bildirmişdir ki, iki qardaş ölkənin dövlət şirkətləri arasında uğurlu əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir.

Azərbaycanda həmişəki kimi yüksək qonaqpərvərliklə qarşılandığına görə təşəkkürünü bildirən K.Kabıldin ölkəmizdə gedən sosial-iqtisadi inkişafı yüksək qiymətləndirmişdir. O, Azərbaycanda olduğu kimi Qazaxıstanda da böyük inkişaf dövrü yaşandığını və neft sektorunda qazanılan nailiyyətlərin ölkənin ümumi iqtisadi yüksəlişində mühüm rol oynadığını demişdir. Qonaq Qazaxıstanın neft-qaz sənayesində müsbət tendensiyalar, əldə edilən uğurlar, işlənməkdə olan irimiqyaslı layihələr haqqında ətraflı məlumat vermişdir. Diqqətə çatdırılmışdır ki, Qazaxıstan neftçiləri dəniz yataqlarının işlənməsində azərbaycanlı həmkarlarının zəngin təcrübəsindən həmişə faydalanırlar.

Sonra "Transxəzər" layihəsinin reallaşdırılması istiqamətində görülən işləri müzakirə edən ARDNŞ və "KazMunayQaz" rəhbərliyinin təmsilçiləri bu işlərin daha da sürətləndirilməsi haqqında yekdil rəyə gəlmişlər.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ DİREKTORLAR ŞURASININ ÜZVÜ VERNER QRUBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Avropa Yenidənqurma və İnkişaf Bankının Direktorlar Şurasının üzvü Verner Qruberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstar ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-ABŞ enerji əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuş, həmçinin Xəzər regionunda həyata keçirilən enerji layihələri ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

BAKIDA TİCARİ-İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ AZƏRBAYCAN-BELARUS HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN VI İCLASI KEÇİRİLMİŞDİR

İyunun 2-də Nazirlər Kabinetində ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyanın altıncı iclası keçirilmişdir.

İclasda komissiyanın ötən il mayın 5-də Belarusun paytaxtı Minskdə keçirilmiş 5-ci iclasının Protokolunda nəzərdə tutulmuş məsələlərin həlli, iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri geniş müzakirə olunmuşdur.

Belarusun Azərbaycanın strateji tərəfdaşı olduğunu, iclasın dost ölkənin dövlət başçısı Aleksandr Lukaşenkonun ölkəmizə rəsmi səfəri ərəfəsinə təsadüf etdiyini xatırladan Baş nazirin birinci müavini, ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyanın həmsədri Yaqub Eyyubov son zamanlar respublikamızın iqtisadiyyatında əldə olunan uğurlar barədə məlumat vermişdir. Böyük iqtisadi potensiala malik respublikamızın sürətlə inkişaf etdiyini deyən Baş nazirin birinci müavini Azərbaycan ilə Belarus arasında mədəniyyət və humanitar sahələrlə yanaşı, ticarət və iqtisadi əməkdaşlıq istiqamətində də ildən-ilə irəliləyişlərin nəzərə çarpdığını söyləmişdir. Y.Eyyubov 2009-cu ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 1,5 dəfə artdığını xüsusi qeyd etmişdir.

Baş nazirin birinci müavini ölkələrimizin qarşılıqlı əlaqələrinin inkişafında prezidentlər İlham Əliyev və Aleksandr Lukaşenko arasında möhkəm dostluq münasibətlərinin böyük rolu olduğunu diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən il Belarusa rəsmi səfərindən sonra ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən 800 milyon ABŞ dolları həcmində müqavilə və kontraktlar imzalanaraq icrasına başlanılmışdır. Bildirilmişdir ki, ölkələrimiz arasında ticari-iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur və bu imkandan səmərəli istifadə etməklə əməkdaşlığı yeni inkişaf səviyyəsinə çatdırmaq mümkündür.

Belarusun Baş nazirinin müavini, ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyanın həmsədri Andrey Kobyakov ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoqun qurulduğunu söyləyərək, ikitərəfli ticari-iqtisadi əlaqələrin dinamik inkişaf etdiyini bildirmişdir. Azərbaycan və Belarus sahibkarlarının iki ölkənin iqtisadi-ticarət münasibətlərinin inkişafındakı rolunu yüksək qiymətləndirən Andrey Kobyakov bu amilin ölkələrimiz arasında ticarət dövriyyəsinin ildən-ilə yüksələn xətt üzrə inkişafına müsbət təsir göstərdiyini diqqətə çatdırmışdır. Qonaq iş adamları arasında qarşılıqlı əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

A.Kobyakov demişdir ki, ölkələrimiz ticari-iqtisadi münasibətləri daha fəal inkişaf etdirə bilərlər, çünki iqtisadiyyatlarımız bir-birini qarşılıqlı surətdə tamamlayır, aramızda rəqabət ziddiyyətləri yoxdur.

İclasda ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus hökumətlərarası komissiyanın 5-ci iclasının Protokolunda nəzərdə tutulan məsələlərin yerinə yetirilməsi vəziyyəti geniş müzakirə olunmuş, perspektiv planlar müəyyənləşdirilmişdir.

İclasda Gəncə avtomobil zavodu və Minsk avtomobil zavodu arasında Almaniyanın "Haller" şirkətinin iştirakı ilə kommunal texnikanın yeni modellərinin quraşdırılmasına dair Memorandum imzalanmışdır.

Sonda hökumətlərarası komissiyanın VI iclasının iqtisadi əlaqələrimizin geniş spektrini əhatə edən bir sıra məsələləri nəzərdə tutan Protokolu imzalanmışdır.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BÖYÜK BRİTANİYANIN QLAZQO UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ İMZALAMIŞDIR

İyunun 2-də Azərbaycan Diplomatik Akademiyası (ADA) Böyük Britaniyanın Qlazqo Universiteti ilə əməkdaşlığa dair saziş imzalamışdır.

Sazişə əsasən təhsil ocaqları tələbə və müəllim mübadiləsi, birgə araşdırmalar aparacaq, simpozium və mühazirələr təşkil edəcəklər.

Azərbaycanın xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev Qlazqo Universiteti ilə əməkdaşlığın qurulmasını əlamətdar hadisə adlandırmışdır.

H.Paşayev vurğulamışdır ki, dünyanın yüz ən yaxşı ali təhsil ocağı sırasında olan Qlazqo Universiteti ilə əməkdaşlığın yaradılması müsbət haldır. Hər il dünya ölkələrindən minlərlə tələbə qəbul edən bu universitet beynəlxalq münasibətlər, diplomatiya və sosial elmlər sahəsində təhsil alan gəncləri Azərbaycana göndərməyi planlaşdırır. ADA-da Xəzər dənizi hövzəsi və Qafqaz üzrə hazırlanmış proqrama xüsusi maraq göstərən Qlazqo Universiteti öz tələbələrini gələn ildən başlayaraq Bakıya göndərmək niyyətindədir. Onlar mükəmməl təhsil almaqla yanaşı, yerli reallıqlarla tanış olmaq imkanı qazanacaqlar. Eyni vaxtda, Qlazqo Universitetinə səfər edəcək azərbaycanlı tələbə və müəllimlər buradakı təcrübədən bəhrələnə biləcəklər.

Qlazqo Universitetinin Orta və Şərqi Avropa Araşdırmaları Departamentinin sədri David Smit isə bildirmişdir ki, bu, Qafqaz ölkələri arasında onların imzaladığı ilk əməkdaşlıq sazişidir. Sizin gözəl kurslarınız vardır. Bizim tələbələr üçün bu çox maraqlı olacaqdır. Əminəm ki, Avropa və Şimali Amerikadan olan tələbələrimiz ADA-da Qafqaz, Orta Asiya, Xəzəryanı ölkələr haqqında təhsil almaqdan çox şad olacaqlar.

Diplomatik Akademiya son iki ayda Türkiyənin Bilkənt və Orta Doğu Texniki Universiteti, Omanın Diplomatik İnstitutu ilə də elmi əməkdaşlıq haqqında razılığa gəlmişdir.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR

İyunun 2-də Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və Belarusun dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Belarus Prezidentinə gül dəstəsi təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Aleksandr Lukaşenko və Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol görüşü oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Belarus Prezidenti Aleksandr Lukaşenko iyunun 3-də Fəxri xiyabana gəlmişdir.

Belarus dövlətinin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla andı, ulu öndərin məzarı önünə əklil qoydu.

Ali qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad etdi, məzarı üzərinə gül dəstəsi düzdü.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycanda rəsmi səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko iyunun 3-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Aleksandr Lukaşenko "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Belarusun və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Aleksandr Lukaşenko Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyunun 3-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Belarus Prezidentinə raport verdi.

Belarusun və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Belarus Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Aleksandr Lukaşenkoya, Belarus nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səslərı altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

İyunun 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Sizi bir daha ürəkdən salamlamaq istəyirəm, Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər dövlətlərimiz arasında münasibətlərin daha fəal inkişafına xidmət edəcəkdir. Bizim münasibətlərimiz çox dinamik, müsbət inkişaf edir. Biz bir sıra müştərək layihələr üzərində işləyirik, özü də uğurla işləyirik. Nəzərdə tutduqlarımızın hamısını qısa müddətdə və keyfiyyətlə yerinə yetiririk. Buna görə də hesab edirəm ki, ölkəmizə Sizin səfəriniz ikitərəfli münasibətlərin inkişafına daha güclü təkan verəcəkdir. Çoxlu sənədlərin imzalanması planlaşdırılır, ölkələrimiz arasında hüquqi baza elə indi də kifayət qədər genişdir. Düşünürəm ki, nümayəndə heyətinin üzvləri də bu vaxtdan səmərəli istifadə edəcəklər. Mən bilirəm ki, ölkələrimizin hökumətlərinin üzvləri arasında fəal əlaqələr vardır. Bununla belə, həllini tələb edən məsələləri bir daha müzakirə etmək, məncə, faydalı olacaqdır. Düşünürəm ki, biz əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni yollar, yeni, çox perspektivli sahələr - energetika, kənd təsərrüfatı, tikinti, turizm, yüksək texnologiyalar sahələrində əməkdaşlıq üçün yollar müəyyən edəcəyik. Əminəm ki, nəticələr çox yaxşı olacaqdır.

Bu gün biz Sizinlə bərabər geniş gündəlikdəki ikitərəfli məsələləri, regional, beynəl-

xalq məsələləri artıq ətraflı nəzərdən keçirmişik. Bizim dostluğumuz, eləcə də münasibətlərimizin bu cür səmərəli və müsbət inkişaf etməsi məni çox sevindirir. Azərbaycanda Sizin gəlişinizə həmişə şadıq və mən əminəm ki, Sizin budəfəki səfəriniz uğurlu olacaq, yaxşı nəticələrlə yadda qalacaqdır. Bir daha xoş gəlmisiniz.

* * *

Belarus Prezidenti Aleksandr LUKAŞENKO səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

Əvvələn, mən hörmətli İlham Heydər oğlu, ölkənizdə bizim, o cümlədən həmkarlarımın da həmişə hiss etdiyimiz ənənəvi səmimi, dostcasına qəbula görə Sizə və bu müddətdə bizimlə işləyənlərin hamısına dərin təşəkkürümü bildirmək istəyirəm. Xalqlarımız arasında çoxillik sıx və mehriban əməkdaşlıq, qarşılıqlı yardım ənənələri indiki mürəkkəb şəraitdə, xüsusən son dövrlərdə nəinki davam edir, həm də getdikcə geniş vüsət alır. Bu gün ölkələrimiz dövlətçiliyin möhkəmləndirilməsi, öz qüdrətli dövlətinin yaradılması yolu ilə irəliləyirlər. Mən buraya son səfərimdən üç il sonra, burada, Bakıda və onun hüdudlarından kənarda baş verənləri gördükdə keçirdiyim hisslər barədə fikirlərimi, həsədimi gizlətmədən İlham Heydər oğluna demişəm. Hər yerdə tikinti gedir, kranlar işləyir. Xüsusən axşamlar, binalar işıqlandırılanda onların gözəlliyi diqqəti cəlb edir. Eyni zamanda, Sizin binalar bir-birindən gözəldir. Səmimi deyirəm, Sizin uğurlarınıza sevindim.

Siz bütün bu işləri yüksək bacarıqla görürsünüz. Mən İlham Heydər oğluna dedim ki, əgər ölkədə insanlar haqqında düşünən və öz xalqını sevən Prezident varsa, deməli, bu dövlətin perspektivləri çox böyükdür.

Belarus Prezidenti Aleksandr Lukaşenko bildirdi ki, dövlət başçıları və hökumətlər arasında olan fəal dialoqun nəticəsində son beş ildə iki ölkənin ticarət dövriyyəsinin həcmi bir neçə dəfə artmışdır. Bu sahədə potensialın daha böyük olduğunu deyən Belarus Prezidenti əlaqələrimizin müxtəlif istiqamətlərdə sürətlə inkişaf etdiyini və mühüm nəticələrin əldə olunduğunu bildirdi.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

İyunun 3-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko "Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə bəyannaməsi"ni imzaladılar.

"Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

"Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Belarus Respublikasının Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

"Azərbaycan Respublikası Hesablama Palatası və Belarus Respublikasının Dövlət Nəzarət Komitəsi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən Hesablama Palatasının sədri Heydər Əsədov, Belarus tərəfdən Dövlət Nəzarət Komitəsinin sədri Zenon Lomat imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında elm və texnologiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Belarus tərəfdən Dövlət Elm və Texnologiya Komitəsinin sədri İqor Voytov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında informasiyalaşdırma və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan tərəfdən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Belarus tərəfdən rabitə və informasiyalaşdırma naziri Nikolay Panteley imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Belarus tərəfdən xarici işlər naziri Sergey Martınov imzaladılar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyunun 3-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin adından Belarus Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə rəsmi ziyafət verilmişdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunan Prezident İlham ƏLİYEV əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edərək demişdir: "Bu gün səfər çərçivəsində ikitərəfli əməkdaşlığın əsas istiqamətlərini müəyyən edəcək bir neçə mühüm sənəd imzalanmışdır. Bizim yüksək səviyyədə görüşlərimiz müntəzəm xarakter daşıyır. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri isə bizim münasibətlərin dinamikasına dəlalət edə bilər. Son beş ildə dörd belə səfər olmuşdur. Bu fakt özü bizim ikitərəfli münasibətlərə nə qədər böyük əhəmiyyət verməyimizi göstərir. İqtisadi cəhətdən 2009-cu ilin böhran ili olmasına baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsinin artmasını müşahidə etmişik. Yəqin ki, bu, 2009-cu ildə nadir hadisələrdən biridir. Biz bu il də əmtəə dövriyyəsinin artdığını görürük".

Dövlətimizin başçısı Belarusun əldə etdiyi uğurların ölkəmizdə maraqla izlənildiyini

diqqətə çatdıraraq bildirmişdir: "Belarusda baş verən prosesləri biz Azərbaycanda böyük maraqla müşahidə edirik. Sizin uğurlarınıza sevinirik. Bütün bu uğurların əsasını Belarusun lideri, Prezident Aleksandr Qriqoryeviç Lukaşenkonun çox böyük əməyi təşkil edir. Onun rəhbərliyi altında Belarus inkişafda çox böyük uğurlar qazanmışdır".

Prezident İlham Əliyev Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin perspektivləri barədə danışaraq demişdir: "Biz Sizin əsl dostlarınız kimi, uğurlarınıza sevinirik. Öz tərəfimizdən çalışırıq ki, ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün nəzərdə tutduğumuz bütün sahələr dərin məzmun kəsb etsin. Əminəm ki, nəzərdə tutduqlarımıza nail olacağıq. Hər halda, münasibətlərimizin inkişafının tarixi, son illərdə bu münasibətlərin dinamik inkişafı bunu deməyə imkan verir".

* * *

Azərbaycan-Belarus münasibətləri ilə bağlı söylədiyi fikirlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Prezident Aleksandr LUKAŞENKO ötən səfərindən keçən dövrdə Bakıda çox böyük inkişaf proseslərinin şahidi olduğunu bildirərək dedi: "Mən sözümə ona görə bu məqamdan başlayıram ki, hətta dünən axşamdan xeyli keçmiş, son üç ildə olmadığım bu gözəl şəhərə daxil olarkən Bakının axşam mənzərəsinin gözəlliyinə heyran qaldım. Bunu hamı hiss etdi".

Belarus Prezidenti paytaxtımızda əldə edilən bütün bu inkişaf proseslərində, bütövlükdə Azərbaycanın qazandığı uğurlarda Prezident İlham Əliyevin böyük xidmətlərini qeyd edərək bildirdi: "Bu, Sizin torpağınızın hər kilometrində, hətta hər metrində görünür. Mən əminəm ki, yalnız nəinki bu işə, həm də öz xalqına vurğun insan, bu xalqın firavanlığını istəyən insan paytaxtda və bütün ölkədə bu cür quruculuq işləri apara, onun simasını bu cür dəyişə bilər".

Prezident Aleksandr Lukaşenko Azərbaycan xalqına firavanlıq və xoşbəxt gələcək arzulayaraq dedi: "Dünən axşam dəniz kənarında şən, mehriban gəncləri gördüm. Bütün azərbaycanlılar bu cür mehriban, xoşbəxt olacaqlar. Biz belaruslar sizə bunu arzulayırıq. Sizi əmin edə bilərəm ki, biz sizin hətta ən kiçik uğurunuza da sevinirik. Biz sizin uğurlarınızı həyəcanla izləyəcək və sizə həm də ona görə yalnız səadət arzulayacağıq ki, əgər siz güclü və xoşbəxt olsanız, biz də sizin etibarlı dostlarınız kimi güclü və xoşbəxt olacağıq".

PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ ALEKSANDR LUKAŞENKO BELARUSUN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞLƏR

İyunun 4-də Bakıda, Xətai rayonu ərazisində Belarusun Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmişlər.

Prezidentlər gilizi təmələ buraxdılar və beton qarışığı tökdülər.

Dövlət başçıları binanın layihəsi və maketi ilə tanış oldular.

Prezidentlər İlham Əliyevə və Aleksandr Lukaşenkoya məlumat verildi ki, ümumi sahəsi 1950 kvadratmetr olacaq səfirliyin üçmərtəbəli binası Qərb və Şərq memarlığının elementlərini özündə əks etdirəcəkdir. Konsulluq şöbəsi də burada yerləşəcəkdir. Binada konfrans zalları, müxtəlif xidməti otaqlar olacaqdır. Diplomatik missiyanın yerləşdiyi kompleksdə səfirliyin əməkdaşlarının yaşaması üçün 2160 kvadratmetrlik ərazidə dördmərtəbəli bina da inşa ediləcəkdir.

Sonra dövlət başçıları Gəncə avtomobil zavodunun istehsal etdiyi müxtəlif təyinatlı maşınlarla tanış oldular.

Bildirildi ki, 2006-cı ilin oktyabrında əldə olunmuş razılığa əsasən 2007-ci ilin martından Gəncə avtomobil zavodunda "Belarus" markalı avtomobillərin istehsalı həyata keçirilir. Bu, Azərbaycanda həm "Belarus" traktorları, həm də "MAZ" yük avtomobilləri, kommunal və inşaat texnikaları istehsal edən yeganə müəssisədir. Zavod respublikanın səkkiz regionunda yüksək keyfiyyətli servis xidməti də göstərir.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Belarus Prezidenti Aleksandr Lukaşenko iyunun 4-də onun üçün ayrılmış iqamətgahda ölkəmizin Baş naziri Artur Rasizadəni qəbul etmişdir.

Belarus dövlətinin başçısı Bakıda aparılmış danışıqlardan razı qaldığını bildirərək ticari-iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın işinin yüksək səmərəsini qeyd etmişdir. Tam gücü ilə işləyən müştərək müəssisələr, Belarus ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin ilbəil artması komissiyanın iclaslarında qəbul edilmiş qərarların həyata keçirilməsinə sübutdur.

Baş nazir Artur Rasizadə iqtisadi əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulamış və əmin olduğunu bildirmişdir ki, Belarus Prezidentinin bu səfəri hər iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı işgüzar əlaqələrin genişləndirilməsinə xidmət edəcəkdir.

Azərbaycan hökumətinin başçısı Azərbaycan alimlərinin Belarus iqtisadiyyatının uğurlarından bəhs edən əsərlərini Aleksandr Lukaşenkoya təqdim etmişdir.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO BAKI SLAVYAN UNİVERSİTETİNDƏ OLMUŞDUR

İyunun 4-də Bakı Slavyan Universitetində (BSU) Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya universitetin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilmişdir.

Universitetdə Belarus Prezidentini səmimiyyətlə qarşılamış, tələbələr ali qonağa gül-çiçək dəstələri təqdim etmişlər.

Sonra universitetin akt salonunda təntənəli mərasim keçirilmişdir. Tələbə xorunun ifasında "Haudeamus" tələbə himni səslənmişdir.

BSU-nun rektoru professor Kamal Abdullayev universitetin professor-müəllim heyəti

və tələbələri adından ali qonağı salamlayaraq bildirmişdir ki, ali məktəbin Elmi Şurası Prezident Aleksandr Lukaşenkonun Belarus ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsində, xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmlənməsində, ölkələrimiz arasında elm, təhsil və mədəniyyət sahələrində münasibətlərin genişləndirilməsində və dərinləşdirilməsində xidmətlərinə görə ona Bakı Slavyan Universitetinin fəxri doktoru diplomu verilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Rektor universitetdə Belarus dili və ədəbiyyatının tədrisi ilə bağlı planlar barədə məlumat vermişdir. Bildirmişdir ki, bu istiqamət universitetdə yeni yaradılır və "Belarusşünaslıq" ixtisasının açılması planlaşdırılır. Universitetdə yeni yaradılmış Belarus Dili və Mədəniyyəti Mərkəzi uğurla fəaliyyət göstərəcəkdir. Bu mərkəz həm tələbələrin və müəllimlərin, həm də Azərbaycanda yaşayan və işləyən belarusların ünsiyyət yerinə çevriləcəkdir. Rektor bu mərkəzin açılmasına fəal kömək göstərmiş Belarusun Azərbaycandakı səfirinə və Belarus Dövlət Pedaqoji Universitetinə təşəkkürünü bildirmişdir.

Sonra professor K.Abdullayev Belarus dövlətinin başçısına Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunu, mantiya və xatirə hədiyyələrini təqdim etmişdir.

BSU-nun tələbələrinin ifasında Belarus dilində şeirlər və mahnılar ifa olunmuşdur.

Mərasimdə çıxış edən Belarus Prezidenti Aleksandr Lukaşenko qeyd etmişdir ki, Bakı Slavyan Universitetinin yubiley ilində bu ali təhsil ocağının fəxri doktoru adına layiq görülməsini özü üçün böyük şərəf hesab edir. Belarus dövlətinin başçısı xüsusi vurğulamışdır ki, Belarus ilə Azərbaycan arasında sıx dostluq münasibətləri vardır və ölkələrimizi bağlayan cəhətlər çoxdur.

Keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Belarusun da Azərbaycan kimi müəyyən çətinliklərlə qarşılaşdığını qeyd edən A.Lukaşenko ölkəsinin öz iqtisadi inkişaf modelini müəyyən etdiyini və bu modelin gətirdiyi uğurlar barədə ətraflı danışmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Belarus xalqını daim dəstəklədiyini, buna görə də onun xatirəsinin bu ölkədə böyük hörmətlə anıldığını vurğulayan A.Lukaşenko həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə uğurla davam etdirildiyini bildirmişdir. Sonuncu dəfə üç il bundan əvvəl Azərbaycana səfərindən sonra ölkəmizin sürətli inkişafının şahidi olduğunu deyən Belarus Prezidenti xalqımıza inkişaf və rifah arzulamışdır.

Prezident Aleksandr Lukaşenko Belarus Dili və Mədəniyyəti Mərkəzinin yaradılmasına görə təşəkkürünü bildirərək vurğulamışdır ki, Azərbaycan dili və mədəniyyətinin təbliği məqsədilə Minskdə belə bir mərkəzin yaradılması xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin inkişafına mühüm töhfə olacaqdır.

Sonra Belarus Prezidenti BSU-nun tələbələri ilə xatirə şəkli çəkdirmişdir.

2009-cu ildə Bakıda təsis edilmiş Azərbaycan-Belarus Dostluq və Əməkdaşlıq Cəmiyyətinin üzvləri ilə görüşən Prezident Aleksandr Lukaşenko təşkilatın fəaliyyətini yüksək qiymətləndirilmişdir. Azərbaycan "Kitab" Cəmiyyətinin miniatür kitabları ali qonağa hədiyyə olunmuşdur.

Daha sonra Belarus dövlətinin başçısı və nümayəndə heyətinin üzvləri BSU-da yaradılmış Belarus Dili və Mədəniyyəti Mərkəzinin açılışında iştirak etmişlər. Buradakı şəraitlə tanış olduqdan sonra Aleksandr Lukaşenko Mərkəzin Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Belarus dövlətinin başçısı Mərkəzə Belarus Respublikası haqqında kitabları hədiyyə etmişdir.

SƏFƏR BAŞA ÇATDI

İyunun 4-də Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Belarus dövlətinin başçısını Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

BELARUS DÖVLƏT NƏZARƏT KOMİTƏSİNİN SƏDRİ AZƏRBAYCANIN HESABLAMA PALATASINDA OLMUŞDUR

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana rəsmi səfəri çərçivəsində bu ölkənin Dövlət Nəzarət Komitəsinin sədri Zenon Lomat Azərbaycan Respublikasının Hesablama Palatasında olmuşdur.

Qonaq əvvəlcə Hesablama Palatasının yeni binasında yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, beşmərtəbəli inzibati binada Hesablama Palatasının əməkdaşları üçün əlverişli iş şəraiti yaradılmışdır. Dövlətimizin başçısının paytaxtda qədim binaların təmiri və yenilərinin inşası zamanı milli arxitektura nümunələrindən istifadə edilməsi ilə bağlı göstərişlərinə əsasən, Hesablama Palatasının yeni inzibati binasının inşasında ənənəvi tikinti elementlərindən yüksək səviyyədə istifadə olunmuşdur. Bina müasir avadanlıqla da təmin edilmişdir.

Görüşdə Hesablama Palatasının fəaliyyətindən danışan qurumun sədri Heydər Əsədov bildirmişdir ki, 2001-ci ildən fəaliyyətdə olan palatanın yaradılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən dövlət idarəetmə, o cümlədən dövlət nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində əsası qoyulan və Prezident İlham Əliyevin davam etdirdiyi uğurlu siyasətin tərkib hissəsidir. Bu baxımdan HP ölkə üçün prinsipial əhəmiyyətli orqandır. Bu orqanın hüquqi statusu 1999-cu ildə qəbul edilən Hesablama Palatası haqqında qanunda əksini tapmışdır. 2001-ci ildə bu qanuna beynəlxalq standartlara uyğun mühüm dəyişikliklər və əlavələr edilmişdir. Qanunvericiliklə müəyyən edilən səlahiyyətlərlə daimi fəaliyyət göstərən Hesablama Palatası dövlət büdcə maliyyə nəzarət orqanı kimi Milli Məclisə hesabat verir.

Qurumun sədri onu da qeyd etmişdir ki, təşkilati və funksional müstəqilliyə malik olan palatanın statusu hüquq normalarının məcmusu olmaqla, dövlət hakimiyyət orqanları sistemində onun vəziyyətini xarakterizə edir. Hesablama Palatası dövlət maliyyə-büdcə nəzarəti həyata keçirmək üçün dövlət orqanları və təşkilatlarla sıx əlaqələr qurmuşdur. Palata ayrı-ayrı qurumların beynəlxalq və regional təşkilatlarına üzv olmuş, bir sıra müvafiq orqanlar ilə ikitərəfli əməkdaşlıq sayəsində kompleks işlər həyata keçirmişdir.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Belarus Dövlət Nəzarət Komitəsinin sədri Zenon Lomat bildirmişdir ki, ölkələrimizin müvafiq qurumları arasında geniş əla-

qələr qurulur. Belarus Prezidentinin Azərbaycana səfəri çərçivəsində hər iki ölkənin qurumları arasında imzalanan sənəd əməkdaşlıq əlaqələrinə mühüm töhfədir. Bu, həm də iki qurumun fəaliyyət strukturunun təkmilləşdirilməsinə, yeni məlumat və hesabat formalarının tərtibinə, zəruri məlumat bazasının formalaşdırılmasına, normativ-hüquqi bazanın inkişafına, beynəlxalq standartlara uyğun milli audit standartlarının hazırlanmasına, peşəkar kadr potensialının hazırlanmasına xidmət edəcəkdir.

Sonda qarşılıqlı surətdə hədiyyələr təqdim olunmuşdur.

MƏRKƏZİ BANK İLƏ AYİB ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

İyunun 3-də Mərkəzi Bankın sədri Elman Rüstəmov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Direktorlar Şurasının üzvləri ilə görüşmüşdür.

Görüşdə AYİB-in Direktorlar Şurasının üzvü və Azərbaycan üzrə nümayəndəsi Verner Qruber təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlıqdan məmnun olduğunu bildirmişdir. AYİB-in Azərbaycanın bank sektoru ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayan nümayəndə heyətinin üzvləri bu əlaqələrin gələcəkdə də davam etdiriləcəyini söyləmişlər.

E.Rüstəmov ölkəmizin Avropa Yenidənqurma və İnkişaf Bankı ilə ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək AYİB-in Azərbaycanın bank sistemində iştirakını da təqdirəlayiq hal kimi qiymətləndirmişdir.

AYİB-in ölkəmizə göstərdiyi dəstək və 2011-2013-cü illər üzrə ölkə strategiyasının hazırlanmasına dair fikir mübadiləsi aparılan görüşdə Azərbaycan ilə Avropa strukturları arasında iqtisadi əməkdaşlıq, o cümlədən respublikamızın maliyyə-bank sektorunun fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Görüşdə, həmçinin Azərbaycan Mərkəzi Bankı ilə AYİB arasında qarşılıqlı iqtisadi əməkdaşlığın və hər iki qurumun əlaqələrinin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə edilmişdir.

İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN NÖVBƏTİ İLLİK XEYRİYYƏ TƏDBİRİ KEÇİRİLMİŞDİR

İyunun 3-də "Hyatt Park" hotelində İngiltərə-Azərbaycan Cəmiyyətinin növbəti illik xeyriyyə tədbiri keçirilmişdir.

İngiltərə-Azərbaycan Cəmiyyəti Azərbaycan və Böyük Britaniya arasında mədəni, xeyriyyə və digər sahələri bir yerə toplayan təşkilatdır. Cəmiyyət 1997-ci ildə Azərbaycan-Böyük Britaniya arasında bütün sahələrdə əlaqələrin dəstəklənməsi və Azərbaycanda xeyriyyə təşəbbüslərinə yardım etmək, üzvləri Azərbaycanda baş verənlər barədə yaxından məlumatlandırmaq və britaniyalılarda Azərbaycan haqqında məlumatın artırılması üçün yaradılmışdır. Cəmiyyətin əsas məqsədi fond yaradılması nəticəsində bütün pulların Azərbaycanda xeyirli məqsədlər üçün istifadə olunmasıdır. Bu fondlar heç bir inzibati xərclərə xərclənmir. Cəmiyyət üzvləri Azərbaycanda fəaliyyət göstərən və ya marağı olan kiçik şirkət və fərdlərlə yanaşı, neft, bank, sığorta, mühəndislik, xidmət-

lər, kommunikasiya və digər sektorlardan olan 40-dan çox əsas Britaniya şirkətindən (Amec Services, BMİ, bp, Azərbaycan Beynəlxalq Bankı, KCA Deutag və ITE Group) ibarətdir.

Tədbirdə Azərbaycanın dövlət və siyasi xadimləri, Milli Məclisin deputatları, yerli və xarici şirkətlərin rəhbərləri iştirak etmişdir. Tədbirin təşkilatçıları cəmiyyətin həmsədrləri - professor Nərgiz Paşayeva və Lord Freyzer olmuşdur. Yığıncaqda cəmiyyətin həmsədri Lord Freyzer çıxış edərək indiyədək həyata keçirilmiş tədbirlər və layihələr haqqında danışmış, ölkələrimiz arasında humanitar və mədəni münasibətlərin dərinləşməsinə qurumun verdiyi töhfələri qeyd etmişdir.

Xanım Nərgiz Paşayeva bildirmişdir ki, Azərbaycan və İngiltərə arasında əlaqələr müsbət istiqamətdə və dostluq şəraitində inkişaf edir. O, İngiltərə-Azərbaycan Cəmiyyətinin də bu işə öz töhfəsini verdiyini söyləmişdir. Cəmiyyətin Azərbaycanda həyata keçirdiyi və keçirəcəyi bir neçə humanitar aksiya barədə də məlumat verən xanım Nərgiz Paşayeva bildirmişdir ki, 2008-ci ilin iyun ayında Bakıda keçirilən son tədbirdə yığılmış vəsait Ramana qəsəbəsində yerləşən əlillər evinin təmirinə, orada kompyuter otağının yaradılmasına, doğuş zamanı uşaq ölümlərini azaltmaq məqsədi ilə yaradılmış "HealthProm" ingilis xeyriyyə cəmiyyəti tərəfindən təklif olunan layihəyə, Saray qəsəbəsində 7 nömrəli internat məktəbinin təmirinə yönəldilmişdir.

Tədbirdə İngiltərə-Azərbaycan Cəmiyyətinin Britaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafında rolu yüksək qiymətləndirilmiş və cəmiyyətin təşkil etdiyi xeyriyyə və mədəni tədbirlərin təqdirəlayiq olması vurğulanmışdır. Xeyriyyə cəmiyyətinin humanitar fəaliyyəti tədbir zamanı fotostendlərlə nümayiş etdirilmişdir.

MİLLİ MƏCLİSİN SƏDRİ MOSKVADA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun başçılığı ilə nümayəndə heyəti Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovun dəvəti ilə Moskvada səfərdə olmuşdur.

İyunun 3-də Federasiya Şurasında Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun Rusiya Federasiya Şurasının sədri Sergey Mironov ilə görüşü keçirilmişdir.

Sergey Mironov görüşü açaraq Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulamış və demişdir ki, dövlətlərimizin başçılarının şəxsi münasibətləri və səmərəli əlaqələri ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi işinə böyük töhfə verir. S.Mironov hər iki ölkənin parlamentlərinin nümayəndələrinin həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətinin əhəmiyyətini vurğulayaraq, bu baxımdan, parlamentlərarası əlaqələrin daha da dərinləşdirilməsinin və inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırmışdır. Onun fikrincə, iki ölkənin parlamentlərarası əlaqələri uğurla inkişaf edir və bu, bütün sahələrdə Rusiya-Azərbaycan münasibətlərinə xas ümumi müsbət dinamikanı əks etdirir. Dövlət rəhbərlərinin və parlament sədrlərinin daimi dialoqu və mütəmadi səfərləri mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsinə öz konstruktiv töhfəsini verir. Rusiya parlamenti yuxarı palatasının rəhbəri xatırlatmışdır ki, Azərbaycanın Böyük Vətən Müharibəsi veteranlarının, hərbçilərinin və şəxsən Prezident İlham Əliyevin Böyük Qələbənin 65 illiyi münasibətilə Moskvada keçirilən təntənələrdə iştirakı Azər-

baycan və Rusiya xalqlarının qarşılıqlı münasibətlərinin dərin tarixi köklərə malik olmasına dəlalət edir. Sergey Mironov sonda bu il noyabrın 7-də Milli Məclisə seçkilərin keçirilməsində uğurlar arzulamışdır.

Oqtay Əsədov Azərbaycan və Rusiya parlamentlərinin qarşılıqlı səfərlərinin və görüşlərinin xüsusi əhəmiyyətini diqqətə çatdırmışdır. Onun fikrincə, bu, ikitərəfli münasibətlərin və əlaqələrin getdikcə dərinləşdirilməsinin və inkişaf etdirilməsinin ciddi amilidir. 20 il ərzində Rusiya ilə Azərbaycan arasında ikitərəfli əsasda qarşılıqlı münasibətlərin bütün istiqamətləri üzrə səmimi dostluq münasibətləri qurulmuş, qarşılıqlı anlaşma mövcuddur. O xatırlatmışdır ki, 2001-ci ildə Milli Məclis ilə Federasiya Şurası arasında saziş imzalanmış, 2003-cü ildə isə bir neçə gün əvvəl Moskvada 9-cu iclasını keçirmiş parlamentlərarası komissiya yaradılmışdır. Milli Məclisin sədri parlamentlərarası münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edərək bu səviyyədə və MDB Parlamentlərarası Assambleyası formatında, habelə beynəlxalq təşkilatlar formatında əlaqələrin əhəmiyyətini vurğulamışdır.

Oqtay Əsədov bildirmişdir ki, Azərbaycanda yaşayan müxtəlif xalqların və millətlərin nümayəndələrinin etnik, mədəni və dini özgürlüyünün, dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün çox iş görülür. O xatırlatmışdır ki, bu yaxınlarda Azərbaycanda Dünya Dini Liderlərinin sammiti keçirilmişdir. Tədbirdə Moskvanın və Bütün Rusiyanın patriarxı Kirill iştirak etmişdir. Azərbaycanda Birlik ölkələrinin bir neçə icması, habelə Rusiya İnformasiya-Mədəni Mərkəzi fəaliyyət göstərir. Ölkənin bütün ali məktəblərində rus sektorları var, bir çox orta təhsil müəssisələrində tədris rus dilindədir. Bu isə Azərbaycanda rus dilinə və mədəniyyətinə verilən əhəmiyyəti əks etdirir.

Milli Məclisin sədri Oqtay Əsədov vurğulamışdır ki, Rusiyada Heydər Əliyev Fondunun Leyla Əliyevanın rəhbərlik etdiyi nümayəndəliyi uğurla fəaliyyət göstərir. Nümayəndəlik ölkələrimizin gəncləri arasında münasibətlərin inkişaf etdirilməsi üçün çox iş görür. Bu yaxınlarda Moskvada Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) konfransı keçirilmişdir. Konfransda Azərbaycan və Rusiya gəncləri iştirak etmişlər. Oqtay Əsədov demişdir ki, Rusiyada nəşr olunan "Bakı" jurnalı da Azərbaycan xalqının zəngin tarixi və mədəni irsi, Azərbaycan reallıqları barədə Rusiya ictimaiyyətinə obyektiv informasiya verilməsi işinə xidmət edir.

Parlamentin sədri Oqtay Əsədov Ermənistan-Azərbaycan münaqişəsinin həlli perspektivlərinə toxunaraq bildirmişdir ki, bu münaqişə regionda inkişafı ləngidən başlıca amillərdəndir. O.Əsədov demişdir ki, Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədri kimi fəal səylərini yüksək qiymətləndirir və bundan sonra da münaqişənin ədalətli həllinə kömək edəcəyinə ümid bəsləyir.

Oqtay Əsədov rəsmi Bakının Rusiya parlamentinin bir neçə deputatının tanınmamış "Dağlıq Qarabağ Respublikası"nda keçirilən "parlament seçkilərinə" getməsinə münasibətini bir daha diqqətə çatdırmışdır. Sergey Mironov Rusiyanın prinsipial mövqeyini ifadə edərək vurğulamışdır ki, Rusiya "Dağlıq Qarabağ Respublikası" adlı heç bir dövlət qurumu tanımır və bundan sonra da tanımaq fikrində deyildir. O, Rusiya parlamentinin üzvlərinin bu seçkilərə getməsini isə özfəaliyyət və heç kimə lazım olmayan addım adlandırmışdır.

Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Boris Qrızlov iyunun 4-də Moskvada səfərdə olan Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovla görüşündə demişdir:

"Rusiyanın mövqeyi birmənalıdır və dəyişməzdir - Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dövlət Duması "Dağlıq Qarabağa" rəsmən heç bir deputat göndərməmişdir və Rusiya deputatlarının qondarma "seçkilərdə" iştirakı barədə rəhbərliyə heç bir məlumat verilməmişdir. Onlar yəqin bilirdilər ki, belə xahişlə mənə müraciət etsələr, rədd cavabı alacaqlar".

Boris Qrızlov Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin bütün sahələrdə yüksək səviyyədə olduğunu və dinamik xarakter daşıdığını vurğulamışdır. Onun sözlərinə görə, ölkələrimiz arasındakı münasibətlər dinamik inkişaf edir, ən yüksək səviyyədə müntəzəm görüşlər keçirilir. Dövlət başçılarımızın səmərəli əlaqələri münasibətlərimizin möhkəmlənməsi işinə böyük töhfə verir. Boris Qrızlov vurğulamışdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin mayın 9-da Böyük Qələbənin 65-ci ildönümü münasibətilə səfəri Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə xidmət etmişdir. Aşağı palatanın başçısı Qələbənin əldə edilməsinə layiqli töhfə vermiş Azərbaycan xalqının xidmətlərini xüsusi qeyd etmişdir. O, parlament nümayəndələrinin həm ikitərəfli əsasda, həm də beynəlxalq münasibətlər çərçivəsində qarşılıqlı fəaliyyətinin, o cümlədən Rusiya-Azərbaycan parlamentlərarası əlaqələrinin bundan sonra da dərinləşməsinin və inkişafının əhəmiyyətini xüsusi qeyd etmişdir. B.Qrızlov demişdir ki, ölkələrimizin parlamentlərarası əlaqələri uğurla inkişaf edir, bütün sahələrdə Rusiya-Azərbaycan münasibətlərinə xas olan ümumi müsbət dinamikanı bütövlükdə əks etdirir. Rusiya Dövlət Dumasının sədri qazandığı böyük iqtisadi nailiyyətlər münasibətilə Azərbaycanı təbrik etmiş, qarşıdan gələn parlament seçkilərində uğurlar arzulamışdır.

Oqtay Əsədov bildirmişdir ki, Azərbaycan və Rusiya strateji tərəfdaşdır və ölkələrimiz arasında heç bir problem yoxdur. O, ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi və inkişafında ciddi amil olan dövlət başçılarımızın qarşılıqlı səfər və görüşlərinin rolunu vurğulamış, parlamentlərarası əlaqələrin inkişafını yüksək qiymətləndirərək, bu yaxılanlarda Moskvada birgə komissiyanın 9-cu iclasının keçirildiyini xatırlatmışdır. Milli Məclisin sədri parlamentlərarası münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edərək, əlaqələrin bu səviyyədə, habelə MDB-nin Parlamentlərarası Assambleyası və digər beynəlxalq qurumlar formatında əhəmiyyətini vurğulamışdır.

O.Əsədov dünya maliyyə böhranına baxmayaraq, ölkəmizin inkişafından və iqtisadi nailiyyətlərindən söz açmış, diqqəti Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin etnik, dil, mədəni və dini özgürlüyünün, o cümlədən rus mədəniyyətinin və dilinin qorunmasına və inkişafına yönəltmişdir.

Oqtay Əsədov onu da bildirmişdir ki, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi Leyla Əliyevanın başçılığı ilə Moskvada səmərəli fəaliyyət göstərir. Nümayəndəlik gənclərimiz arasında münasibətlərin inkişafı istiqamətində çox işlər görür. Onun fikrincə, Rusiyada "Baku" jurnalının nəşri və yayılması da xalqımızın zəngin tarixi-mədəni irsi və müasir Azərbaycanın reallıqları barədə obyektiv informasiyanı Rusiya ictimaiyyətinə çatdırmaq işinə xidmət edir.

Diqqəti Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması perspektivlərinə cəlb edən Oqtay Əsədov qeyd etmişdir ki, münaqişənin həll olunmaması region ölkələrinin inkişafını ləngidən əsas amildir. O, ATƏT-in Minsk qrupunun həmsədri qismində Rusiyanın fəal səylərini vurğulayaraq ümidvar olduğunu bildirmişdir ki, Rusiya həmsədr ölkə kimi münaqişənin ədalətli həllinə və bütün regionda sabitliyin bərqərar olmasına dəstək göstərəcəkdir.

QƏTƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ BAŞA ÇATMIŞDIR

İyunun 1-dən 4-nə kimi Qətərdə Azərbaycan Mədəniyyəti Günləri keçirilmişdir. Bu məqsədlə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi 150 nəfərlik nümayəndə heyəti Qətərin paytaxtı Dohada səfərdə olmuşdur.

Mədəniyyət günləri çərçivəsində ilk tədbir Müstəqil Kollecdə keçirilmişdir. Qədim Musiqi Alətləri Ansamblı və Azərbaycan Dövlət Rəqs Ansamblının konserti böyük maraqla qarşılanmışdır.

Qətər Milli Opera Teatrında hər iki ölkənin mədəniyyət nazirləri, Azərbaycan parlamentinin deputatları, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri rəsmi açılış mərasimində Akademik Opera və Balet Teatrının quruluşunda "Leyli və Məcnun" operası nümayiş olunmuşdur.

Səfər çərçivəsində Qətərin mədəniyyət və irs naziri Həməd Əl-Kəvari Əbülfəs Qarayevlə görüşmüşdür. Görüşdə iki ölkə arasında mədəni əlaqələrin bugünkü vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparılmışdır. Azərbaycan klassiklərinin əsərlərinin ərəb dilinə tərcümə olunub yayılması ilə bağlı Qətərin mədəniyyət və irs naziri Həməd Əl-Kəvarinin təklifi Azərbaycan tərəfindən müsbət qarşılanmışdır. Görüşdə eləcə də ilin sonunda hər iki ölkə rəssamlarının əsərlərindən ibarət qaşılıqlı sərgi təşkil olunması qərara alınmışdır.

Azərbaycan Mədəniyyəti Günləri Qətər Milli Opera Teatrında böyük konsert proqramı ilə başa çatmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ KEÇİRDİKLƏRİ GÖRÜŞLƏ ƏLAQƏDAR AÇIQLAMA YAYMIŞLAR

ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Robert Bradke (ABŞ) və Bernar Fasye (Fransa) iyunun 4-də Venesiyada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə keçirdikləri görüşlə bağlı qısa açıqlama yaymışlar.

Açıqlamada bildirilir ki, görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırkı mərhələsi müzakirə olunmuşdur. Mayın 12-də Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan ilə Brüsseldə keçirilmiş görüşdə olduğu kimi, həmsədrlər sülh prosesinə yeni təkan vermək üçün yaxın gələcəkdə atacaqları addımları qiymətləndirmişlər.

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ NÜMAYƏNDƏ HEYƏTİ KAZANDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

İyunun 3-4-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində MDB iştirakçısı olan ölkələrin ibtidai istintaq orqanlarının təmsilçilərinin terrorizm xarakterli cinayətlərin istintaqı ilə əlaqədar beynəlxalq elmi-praktiki konfransı keçirilmişdir.

Konfransda Rusiya Federasiyası baş prokurorunun birinci müavini, RF Prokurorluğu yanında İstintaq Komitəsinin rəisi A.Bastrıkinin rəsmi dəvəti ilə Azərbaycan Respublikası prokurorluq orqanlarının nümayəndə heyəti iştirak etmişdir.

Konfransda RF baş prokurorunun müavini E.Valeyev, RF Prokurorluğu yanında İstintaq Komitəsinin rəis müavini Y.Nırkov, Tatarıstan Respublikasının Baş naziri İ.Xalikov və digər rəsmi şəxslərin, eləcə də MDB iştirakçısı olan ölkələrin baş prokurorlarının müavinləri, həmçinin hüquq mühafizə orqanlarının nümayəndələrinin məruzələri dinlənilmiş, terrorizm, separatizm və ekstremizm ilə mübarizə, terrorizmin maliyyələşdirilməsinin, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, terrorizm xarakterli cinayətlərin istintaq metodikası, tövsifi, mübarizə təcrübəsi üzrə müzakirələr aparılmış, Tatarıstan Respublikasının Daxili İşlər Nazirliyinin təlim mərkəzinin xüsusi təyinatlı dəstəsinin şərti terrorçuların dəf edilməsinə hazırlığı nümayiş etdirilmiş, hadisə yerinə baxış keçirilmiş və həmin istintaq hərəkətinin aparılmasının taktikası müzakirə olunmuşdur. Konfransın son günündə "dəyirmi masa" keçirilərək, MDB iştirakçısı olan ölkələrin birgə istintaq-əməliyyat qruplarının yaradılması və fəaliyyət qaydaları layihəsi müzakirə edilmiş, konfransa yekun vurulmuşdur.

Konfransda Azərbaycan nümayəndə heyəti adından respublika hərbi prokurorunun müavini, ədliyyə polkovniki Şəfahət İmranov "Terrorizm və separatizm - problem və həll yolları" mövzusunda çıxış edərək, hazırda RF-nın Şimali Qafqaz regionunda mövcud olan separatizm hərəkatını pisləmiş, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində separatçı erməni qüvvələrinin Ermənistan Respublikasının vətəndaşları ilə birgə ölkəmizdə törətdikləri terror aktlarına toxunaraq, məhkəmələrdə baxılmış müvafiq cinayət işlərindən misallar gətirmişdir. Ş.İmranov çıxışında Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş və hazırda nəzarətsiz qalmış ərazilərində terrorçu düşərgələrinin fəaliyyət göstərdiyini, narkotik vasitələrin qanunsuz dövriyyəsinin geniş yayılmasından əldə olunan vəsaitlərin terrorçuluğun maliyyələşdirilməsində istifadə olunduğunu konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Azərbaycan nümayəndəsinin çıxışı konfrans iştirakçılarının əksəriyyəti tərəfindən rəğbətlə qarşılanmış, problemlə bağlı əlavə informasiyaya görə təşəkkür bildirilmiş, separatizmlə terrorizmin eyni mənşəli olmaları qeyd edilmiş, onlara qarşı mübarizə metodları müzakirə olunmuşdur.

Azərbaycan Respublikası prokurorluq orqanlarının nümayəndələri konfrans çərçivəsində Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Tacikistanın nümayəndə heyətləri ilə işgüzar görüşlər keçirmiş, terrorizmə qarşı mübarizə və bu qəbildən olan cinayətlərin istintaq metodikası və istintaqın gedişində istifadə olunan müasir kriminalistik texniki vasitələrin əldə edilməsi və tətbiqi ilə bağlı fikir mübadiləsi aparmışlar. Eyni zamanda, Tatarıstan Respublikasının prokuroru K.Amirovun dəvəti ilə prokurorluğun, eləcə də RF Prokurorluğu yanında İstintaq Komitəsinin Tatarıstan Respublikası üzrə İstintaq İdarəsinin fəaliyyəti ilə tanışlıq olmuşdur.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI VAŞİNQTONDA SEMİNAR KEÇİRMİŞDİR

İyunun 4-5-də Azərbaycan Diplomatik Akademiyası (ADA) Vaşinqtonda "Fəlsəfə doktorlarının inkişafına dəstək proqramı" çərçivəsində ikigünlük seminar keçirmişdir.

Seminarda ABŞ və Kanadanın aparıcı universitetlərində çalışan azərbaycanlı fəlsəfə doktorları və burada təhsil alan fəlsəfə doktorluğuna namizədlər, habelə Con Hopkins və Corc Vaşinqton universitetləri, Atlantik Şurası, Vaşinqtonun aparıcı elm mərkəzlərinin mütəxəssisləri və professorları iştirak etmişlər.

Elmi müzakirə və məruzələr iqtisadiyyat, maliyyə, siyasi elmlər, beynəlxalq münasibətlərə aid mövzular ətrafında aparılmışdır.

Çıxış edənlər dünya neft bazarı, innovasiyalar, azad bazarda risklər, dini tolerantlıq və digər mövzular barədə öz elmi araşdırmalarını təqdim etmişlər.

Seminar Vaşinqtonun tarixi Dumbarton House villasında keçirilmişdir.

Seminarda Cons Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun sədri professor Frederik Star və ölkəmizin Los-Anceles şəhərində baş konsulu Elin Süleymanov arasında keçirilən debatda ABŞ-Azərbaycan strateji əməkdaşlığının yolları və potensialları araşdırılmışdır.

AZƏRBAYCAN VENESİYA KOMİSSİYASI İLƏ ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR

İtaliyada səfərdə olan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyunun 5-də Qanundan demokratiyaya doğru Avropa Komissiyasının (Venesiya Komissiyası) 20-ci ildönümünə həsr olunmuş mərasimdə çıxış etmişdir.

Nazir E.Məmmədyarov çıxışında Avropa qitəsində baş vermiş mühüm dəyişikliklər nəticəsində 1990-cı illərin ortalarında yaradılmış komissiyanın milli konstitusiyaların, qanunların ahənglilliyində və qəbulunda Avropa Şurasının standartlarına uyğunlaşdırılmasında həlledici rol oynadığını vurğulamışdır.

Azərbaycanın həmişə Venesiya Komissiyası ilə əməkdaşlığa böyük önəm verdiyini qeyd edən nazir qanunvericiliyimizin inkişafında bu qurumun dəyərli işinə görə minnətdarlığını bildirmişdir.

E.Məmmədyarov Venesiya Komissiyasının Avropa hüquqi məkanından kənara çıxaraq, zəngin təcrübəsi, şəffaflığı, yüksək nüfuzu və çox peşəkar heyəti ilə Latın Amerikası və Yaponiya kimi ölkələrə də çatmasını müsbət hal adlandırmışdır. Nazir vurğulamışdır ki, hazırda beynəlxalq səviyyədə tanınmış qurum kimi, Venesiya Komissiyası Avropa konstitusiya irsinin Avropanın daxilində və kənarında yayılmasına yardım etməsini müvəffəqiyyətlə davam edir, münaqişələrin qarşısının alınmasının və böhranların idarə olunmasının hüquqi aspektlərində nadir rol oynayır.

Münaqişələrin qitəmizin sabitliyinə və təhlükəsizliyinə təhdid olduğunu və Avropa Şurasının əsas prinsip və məqsədlərini sual altına qoyduğunu vurğulayan nazir, onların region ölkələri arasında normal münasibətləri, davamlı inkişafı və insan təhlükəsizliyini də təhlükəyə məruz qoyduğunu diqqətə çatdırmışdır.

E.Məmmədyarov vurğulamışdır ki, Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini qoruyur və məhz bunun əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində

aparılan danışıqları davam etdirmək niyyətindədir. Avropa dəyərlərinə sadiq olan Azərbaycan münaqişənin həlli prosesini, erməni qoşunlarının işğal etdiyi bütün Azərbaycan torpaqlarından çıxarılması, doğma torpaqlarından didərgin düşmüş, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ regionunda məskunlaşmış əhalinin geri qayıtması, Dağlıq Qarabağda erməni və azərbaycanlı icmalarının sülh içərisində birgə yaşamaları üçün demokratik standartlar əsasında əlverişli şəraitin yaradılmasında görür. Bütün bunlar hüquqi və demokratik proseslər çərçivəsində, erməni və azərbaycanlı icmalarının birbaşa və bərabər şəkildə iştirakı ilə Dağlıq Qarabağın Azərbaycanın daxilində özünüidarəetmə hüquqi statusunun müəyyən edilməsi üçün əlverişli şərait yarada bilər.

Azərbaycanın cəmiyyətin demokratikləşdirilməsi və insan hüquqlarının qorunması, dəstəklənməsi yolunda mühüm addımlar atan ölkə olduğunu qeyd edən E.Məmmədyarov bildirmişdir ki, ölkəmizdə aparılan islahatlar nəticəsində məhkəmə və qanun sahəsinin inkişaf etdirilməsində daha çox uğur əldə olunmuşdur. Yeni, xüsusən də gənc nəslin nümayəndələri olan hakimlər, yeni məhkəmə binaları, keçirilən treninq və seminarlar, müasir penitensiar xidmətlər və s. bu göstəricilərin yalnız bir hissəsidir.

Nazir vurğulamışdır ki, Avropa Şurasının, o cümlədən Venesiya Komissiyasının, Avropa İttifaqının və ATƏT kimi digər beynəlxalq tərəfdaşların dəstəyi ilə Ədliyyə Nazirliyi, Baş Prokurorluq və Azərbaycanın məhkəmə strukturları ilə bir sıra proqramlar da həyata keçirilməkdədir. Bu, insan hüquq və azadlıqlarına dəstək verir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Venesiyada ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradke (ABŞ), Bernar Fasiye (Fransa), İqor Popov (Rusiya) və təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının hazırkı vəziyyəti, yenilənmiş Madrid prinsipləri ilə bağlı müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİ ROBERT QEYTSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ölkəmizdə səfərdə olan ABŞ müdafiə naziri Robert Qeytsi qəbul etmişdir.

ABŞ müdafiə naziri Robert Qeyts Birləşmiş Ştatların Prezidenti Barak Obamanın məktubunu dövlətimizin başçısına çatdırmışdır. O qeyd etmişdir ki, ABŞ Prezidenti Barak Obama senator qismində ilk xarici səfərinin Azərbaycana etməsini məmnunluqla xatırlayır.

Dövlətimizin başçısı məktuba görə minnətdarlığını ABŞ Prezidentinə çatdırmağı xahiş etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında hərbi sahədə əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

İSLAM KONFRANSI TƏŞKİLATININ İCRAİYYƏ KOMİTƏSİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏVİYYƏSİNDƏ FÖVQƏLADƏ İCLASI KEÇİRİLMİŞDİR

İyunun 6-da İslam Konfransı Təşkilatının (İKT) bir sıra üzvlərinin təşəbbüsü ilə Səudiyyə Ərəbistanının Ciddə şəhərində İKT İcraiyyə Komitəsinin xarici işlər nazirləri səviyyəsində açıq tərkibli fövqəladə iclası keçirilmişdir.

İclasda insan tələfatı ilə nəticələnən "Azadlıq donanması" humanitar aksiya iştirakçılarına qarşı İsrailin keçirdiyi hərbi əməliyyat müzakirə olunmuşdur.

İKT üzvü olan dövlətlərin nümayəndələri çıxışlarında bu əməliyyatı qəti pisləmiş, BMT Təhlükəsizlik Şurasının 31 may və BMT İnsan Hüquqları Şurasının 2 iyun tarixli qətnamələrini yüksək qiymətləndirmişlər.

İclasda Azərbaycanın nümayəndə heyətinə rəhbərlik edən xarici işlər nazirinin müavini Vaqif Sadıqov çıxış edərək bu məsələyə dair ölkəmizin mövqeyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Sonda İKT İcraiyyə Komitəsinin iclasının yekunlarına dair birgə bəyanat qəbul olunmuşdur.

MÜDAFİƏ NAZİRİ ABŞ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Amerika Birləşmiş Ştatlarının müdafiə naziri Robert Qeyts iyunun 7-də müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ilə görüşmüşdür.

Müdafiə Nazirliyində təntənəli qarşılanma mərasimindən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilmişdir.

Keçirilən geniştərkibli görüşdə əsası 1997-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-ABŞ hərbi əməkdaşlığının tarixçəsinə qısa nəzər salan müdafiə naziri Səfər Əbiyev Azərbaycanda Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığa böyük önəm verildiyini vurğulamışdır.

Nazir bildirmişdir ki, ABŞ-Azərbaycan əməkdaşlığının müxtəlif istiqamətlər üzrə inkişaf prioritetləri iyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilən ABŞ müdafiə naziri Robert Qeyts ilə danışıqların müzakirə mövzusu olmuşdur.

Beynəlxalq terrorizmlə mübarizəyə və digər təhlükəsizlik proseslərinə verilən birgə töhfələrdən danışan nazir Səfər Əbiyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi səbəbindən Cənubi Qafqazda vəziyyətin mürəkkəb və gərgin olaraq qaldığını demişdir. O, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın rolunu yüksək qiymətləndirmiş və Azərbaycanın bu ölkədən daha fəal addımlar gözlədiyini qonağın diqqətinə çatdırmışdır.

Görüşdə Səfər Əbiyev 907-ci düzəlişin ABŞ-Azərbaycan əlaqələrinə mənfi təsir göstərdiyini xüsusi vurğulamışdır.

ABŞ-ın müdafiə naziri Robert Qeyts qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək qeyd etmişdir ki, Prezident Barak Obamanın Azərbaycan Prezidenti İlham Əliyevə məktubu, dövlət katibi Hillari Klintonun Bakıya gözlənilən səfəri

və özünün hazırda Bakıda olması ABŞ və Azərbaycanın strateji tərəfdaş ölkələr olduğunu göstərir. R.Qeyts vurğulamışdır ki, ölkəsinə qayıdandan sonra Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycan üçün nə qədər böyük əhəmiyyət daşıdığını ABŞ Prezidenti Barak Obamanın diqqətinə çatdıracaqdır. Bir sıra mühüm məsələlərə toxunan amerikalı nazir 907-ci düzəlişin birdəfəlik ləğv edilməsi istiqamətində səylərini əsirgəməyəcəyini demişdir.

Sonda Azərbaycanın müdafiə naziri Səfər Əbiyev ümidvar olduğunu bildirmişdir ki, ABŞ müdafiə nazirinin Azərbaycana səfəri ölkələrimiz arasında tərəfdaşlığın inkişafına öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını İstanbulun Atatürk Beynəlxalq hava limanında Türkiyənin dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, yüksək səviyyəli görüşlərin əhəmiyyəti qeyd edildi.

Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlığın regional əhəmiyyəti vurğulandı. Qeyd edildi ki, təbii qazla bağlı imzalanacaq sənədlər Azərbaycan ilə Türkiyə arasında energetika sahəsində uğurlu əməkdaşlıqda yeni bir mərhələ olacaqdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Aralıq dənizində baş verən son hadisələrlə bağlı Türkiyəyə tam dəstəyini ifadə edərək hadisə zamanı günahsız Türkiyə mülki vətəndaşlarının öldürülməsi ilə əlaqədar başsağlığı verdi. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu məsələdə Türkiyənin yanındadır.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olundu. İki ölkə arasında təbii qazla bağlı imzalanacaq sənədlərin Azərbaycan ilə Türkiyənin energetika sahəsində əməkdaşlığında yeni mərhələ olduğu bildirildi və bu sənədlərin əhəmiyyəti vurğulandı. Azərbaycan ilə Türkiyə arasında energetika sahəsində və bütün digər sahələrdə əməkdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Aralıq dənizində baş verən son hadisələrlə bağlı Türkiyəyə tam dəstəyini ifadə etdi, bu hadisə zamanı günahsız Türkiyə mülki vətəndaşlarının öldürülməsi ilə əlaqədar başsağlığını çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu məsələdə Türkiyənin yanındadır.

AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

İyunun 7-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan ilə Türkiyə arasında sənədlərin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Türkiyənin BOTAŞ şirkəti arasında təbii qazın satışı və nəqli sahəsində Anlaşma Memorandumunu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və BOTAŞ-ın idarə heyətinin sədri Fazil Şenel imzaladılar.

Azərbaycandan Türkiyəyə və Türkiyə ərazisindən təbii qazın satışı və nəqlinə dair Bəyannaməni, Azərbaycanın Sənaye və Energetika Nazirliyi ilə Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyi arasında təbii qazın satışı və nəqlinə dair Anlaşma Memorandumunu Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız imzaladılar.

İmzalanma mərasimi başa çatdıqdan sonra fotoşəkil çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAKEDONİYA PREZİDENTİ GYORGE İVANOVUN GÖRÜŞÜ

İyunun 7-də İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin və Makedoniya Prezidenti Gyorge İvanovun görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Makedoniya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdirildiyi bildirildi. Ölkələrimiz arasında müəyyən oxşar cəhətlərin olduğunu vurğulayan dövlət başçıları iqtisadiyyat, turizm və digər sahələrdə əməkdaşlığın faydalı olacağını və əlaqələri inkişaf etdirməyin məqsədəuyğunluğunu bildirdilər.

Makedoniya Prezidenti ölkəsinin Azərbaycan ilə enerji sahəsində əməkdaşlıq etmək arzusunda olduğunu bəyan etdi.

Görüşdə ölkələrimizin müəyyən məsələlərdə bir-birinə dəstək verdiyi də qeyd olundu.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İyunun 7-də İstanbulda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin zirvə toplantısında iştirak edən dövlət və hökumət başçıları gəmi ilə Bosfor boğazında gəzintiyə çıxmışlar.

Sonra "Dolmabaxça" sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından dövlət və hökumət başçılarının şərəfinə şam yeməyi verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev şam yeməyində iştirak etmişdir.

TÜRKİYƏ VƏ AZƏRBAYCANIN ENERJİ NAZİRLƏRİ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

İyunun 7-də İstanbuldakı "Çırağan" sarayında Türkiyə və Azərbaycan arasında enerji sazişinin imzalanma mərasimindən sonra Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız və Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev mətbuat konfransı keçirmişlər.

Taner Yıldız demişdir ki, ölkələrimiz arasında təbii qaz məsələsinin müzakirələri çərçivəsində 8 görüş keçirilmişdir. Qarşılıqlı şərtlər irəli sürülmüşdü və biz azərbaycanlı qardaşlarımızn irəli sürdüyü hər bir şərti böyük hörmətlə qarşılamışdıq. Müzakirələrin üç təməl nöqtəsi var idi. Birincisi, hazırda "Şahdəniz-2" adlandırdığımız layihənin qiymət mexanizmi ilə bağlı 2008-ci ilin aprelindən tənzimlənməli olan qiymətin razılaşdırılması idi. İkincisi, 2016-2017-ci ildə istifadəyə veriləcək "Şahdəniz-2" layihəsi ilə əlaqədardır. Bu təbii qazın da həcmi və qiyməti ilə bağlı razılıq əldə olunmuşdur. Üçüncü məsələ isə, tranzit tariflərinin müəyyən olunması idi. Azərbaycanlı qardaşlarımız Petkim firması nəzdində də bir şirkət quracaqlar və bu şirkətə də qaz verilməsi nəzərdə tutulur. Azərbaycan qazı Türkiyə və Avropanın təbii qaza olan ehtiyacının təmin olunması, Nabukko layihəsinin gələcəyi baxımından olduqca mühümdür. İmzaladığımız saziş bu istiqamətdə işimizə xidmət edir.

Azərbaycanın sənaye və energetika naziri Türkiyə ilə sazişin imzalanmasını tarixi hadisə adlandıraraq, bu addımın böyük neft və qaz ölkəsi olan Azərbaycanın qardaş Türkiyə ilə enerji bağlarını gücləndirdiyini demişdir. "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan layihələri təkcə Türkiyənin və Gürcüstanın deyil, bütün Xəzər və Qara dəniz ölkələrinin rifahının yüksəlməsinə xidmət etmişdir. İkinci nəhəng layihə olan Azərbycanın zəngin "Şahdəniz" yatağının işlənməsidir ki, bu layihənin həyata keçirilməsində də Türkiyə fəal iştirak edir. Bu layihədən əvvəl Azərbaycan Rusiyadan qaz idxal edirdi. Lakin "Şahdəniz" yatağının işlənməsi ölkəmizə təbii qaz ehtiyacını tam olaraq təmin etməklə yanaşı, qaz ixracatçısına çevrilməyimizə imkan vermişdir. Bu gün imzalanan saziş Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığı daha da gücləndirəcəkdir. Azərbaycan Türkiyənin iqtisadiyyatına böyük sərmayələr qoyur. Azərbaycan Dövlət Neft Şirkəti sahib olduğu Petkim şirkətini daha da inkişaf etdirmək istəyir və ona görə də təbii qazın bir hissəsinin bu şirkətə verilməsi də sazişin maddələrindən biridir.

İSTANBULDA ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN ÜÇÜNCÜ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR

İyunun 8-də İstanbulda, "Çırağan" sarayında Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü zirvə toplantısı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə toplantısında iştirak etmişdir.

Türkiyə Prezidenti Abdullah Gül və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını qarşıladılar.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü toplantısını quruma sədrlik edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev açdı. O dedi ki, ötən dövrdə Asiyada etimad məsələləri daha çox aktuallıq kəsb etməyə başlamışdır. Ətrafında 22 dövləti birləşdirən və böyük bir arealı əhatə edən təşkilatın ötən dövrdə fəaliyyəti uğurlu olmuşdur.

Nursultan Nazarbayev ölkəsinin və sədrlik etdiyi təşkilatın dünyada və bölgədə nüvə silahı olmayan məkanın yaradılmasına əhəmiyyət verdiyini deyərək bildirdi ki, dünyada sülh və təhlükəsizliyin bərqərar olması vacibdir. "Bu günün Asiyası dünyanın iqtisadi mərkəzinə çevrilir", - deyən Qazaxıstan Prezidenti onun təklifi ilə irəli sürülən "Asiya 20-liyi" ideyasının reallaşması ilə bu məsələnin daha çox aktuallıq kəsb edəcəyinə əminliyini bildirdi. Nursultan Nazarbayev Qırğızıstan və Əfqanıstanda siyasi sabitliyin bərpasının vacibliyini qeyd edərək ölkəsinin ATƏT-ə sədrliyi dövründə bu məqsədlərə nail olunmasına çalışacağını diqqətə çatdırdı.

Türkiyə Prezidenti Abdullah Gül Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü toplantısında iştirak edən dövlət və hökumət başçılarını salamladı. O dedi ki, Türkiyə sədrlik edəcəyi iki il ərzində təşkilatın daha mühüm uğurlar əldə etməsinə çalışacaqdır.

"Türkiyə dünyada etimad və təhlükəliliyin əldə olunmasına çalışır", - deyən Abdullah Gül bildirdi ki, bu niyyətə nail olmaq üçün ölkələr arasında dialoqun genişləndirilməsi, bu məsələdə sosial sferanın daha yaxından çıxış etməsi vacibdir. Türkiyə təşkilata sədrliyi dövründə Asiyada etibarlı dialoqun əldə edilməsinə nail olmağa, təşkilatın əhatə etdiyi coğrafiyada demokratiya, rifah üçün əlindən gələni etməyə hazırdır. Dünya maliyyə böhranının nəticələrinin aradan qaldırılması üçün qlobal yaxınlaşmağa ehtiyac olduğunu deyən Abdullah Gül qeyd etdi ki, bu sırada dünyada savaş ehtimallarının aradan qaldırılması da günümüzün vacib məsələsidir.

Zirvə toplantısında digər ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Əziz qardaşım Prezident Abdullah Gül!

Hörmətli dövlət başçıları!

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

Əvvəlcə mən Prezident Gülə səmimi qonaqpərvərliyə və bu zirvə görüşünün əla təşkil edildiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən, eyni zamanda, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin mühüm beynəlxalq foruma çevrilməsi istiqamətində göstərdiyi səylərə görə Qazaxıstan Prezidenti cənab Nursultan Nazarbayevə təşəkkürümü bildirirəm. Əminəm ki, bu təşkilatın gələcəyi çox perspektivli və parlaq olacaqdır.

Fürsətdən istifadə edərək, Aralıq dənizində günahsız mülki şəxslərin qətli ilə nəticələnən, humanitar yük gəmisinə edilən hücumla əlaqədar Azərbaycan xalqının türk qardaşlarımızla həmrəy olduğunu bildirmək istəyirəm. Biz bu hücumu qəti surətdə pisləyirik və Türkiyə ilə çiyin-çiyinə dayanırıq. Fürsətdən istifadə edərək mən, eyni zamanda, Azərbaycan xalqı adından türk qardaşlarımıza və qurban vermiş ailələrə dərin hüznlə başsağlığı verirəm.

Azərbaycan regional əməkdaşlıq işində öz rolunu oynayır. Biz tam əminik ki, regional əməkdaşlıq, regionda proqnozlaşdırma və birgə fəaliyyət mövcud riskləri azaldacaq və xalqlarımız üçün proqnozlaşdırılan gələcəyi qurmaqda yardım edəcəkdir.

Asiyada təhlükəsizlik tədbirləri dünyadakı qlobal təhlükəsizlik tədbirlərinin bir hissəsidir. Təhlükəsizlik tədbirlərinə kompleks yanaşma olmadan biz uğur əldə edə bilməyəcəyik. Terrorçuluğa qarşı mübarizə dünyada bütün terrorçu təşkilatlara qarşı olmalıdır. Yaxşı, yaxud pis terrorçu olmur. Buna görə terrorçuluğa qarşı səylərin birləşdirilməsi uğurun əsas ilkin şərtidir. Eyni zamanda, regional əməkdaşlıq və iqtisadi artım regionumuzda təhlükəsizlik tədbirlərinə böyük töhfə verəcəkdir. Bu səbəbdən, Azərbaycan regional əməkdaşlıq məsələlərində mühüm rol oynamağa çalışır.

Ölkəmizdə başlanılmış və uğurla həyata keçirilmiş müxtəlif layihələr olduqca geniş regional əməkdaşlıq üçün artıq möhkəm əsas yaradır. Mən xüsusən də enerji təhlükəsizliyinə aid olan layihələri qeyd etmək istəyirəm. Həmin layihələr ilk olaraq boru kəməri layihələri kimi başlandı, hazırda isə, bütün iştirakçılara fayda gətirən çox mühüm regional əməkdaşlıq nümunəsinə çevrilibdir.

Azərbaycan, həmçinin tarixi İpək Yolunun bərpasına töhfə verir və iştirak etdiyimiz dəmir yolu layihəsi Asiya ilə Avropanı birləşdirəcək və regionumuzda yaşayan xalqlara rifah gətirəcək olduqca geniş nəqliyyat qovşağını yaratmağa imkan verəcəkdir. Başqa sözlə desək, təhlükəsizlik səylərimizin birləşdirilməsini tələb edir, iqtisadi əməkdaşlıq və artım uğura aparan yol ola bilər.

Qeyd etmək istədiyim mühüm məsələlərdən biri də münaqişələrin həllinə olan münasibətdir. Azərbaycan Ermənistanın davamlı təcavüzünün qurbanıdır. Demək olar ki, iki onillik ərzində torpaqlarımız, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri Ermənistanın işğalı altındadır. Həmin işğal nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin iyirmi faizi Ermənistanın işğalı altındadır. Bu vəziyyət hələ də davam edir. Biz etnik təmizləmə siyasətinə məruz qalmışıq. Hazırda işğal olunmuş ərazilərdə heç bir yerli sakin yoxdur. Orada etnik təmizləmə aparılmışdır. Həmin yerlərdə bütün tikililər, o cümlədən binalar, evlər, məktəblər, ulu babaları-

mızın məzarları, məscidlərimiz və bütün tarixi irsimiz dağıdılıbdır. Biz beynəlxalq təşkilatların qərar və qətnamələrinin Ermənistan tərəfindən icrasını tələb edirik.

BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Lakin bu qətnamələr hələ də yerinə yetirilməyibdir. BMT-nin Baş Məclisinin qətnamələri, ATƏT-in qərarları, İslam Konfransı Təşkilatının qətnamələri, Avropa Şurası və Avropa Parlamentinin, eləcə də digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyib. Əgər beynəlxalq hüququn normaları işləmirsə, onda beynəlxalq ictimaiyyət üçün hansı durumdan söhbət gedə bilər? Əgər biz hamı tərəfindən qəbul olunmuş qətnamələri icra etmiriksə və bu vəziyyət davam edərsə, onda beynəlxalq münasibətlərin gələcəkdə necə təşkil olunacağı böyük sual doğurur. Öz əhəmiyyəti və ölçüsündən asılı olmayaraq, hər bir ölkə beynəlxalq hüquq normalarına əməl etməlidir. Beynəlxalq hüquq normaları bütün ölkələr tərəfindən əməl olunması üçün yaranıb. Biz beynəlxalq təşkilatların üzvüyük və onların qəbul etdiyi qərarlara hörmətlə yanaşmalıyıq. Əgər həmin qərarlar qəbul olunursa və icra edilmirsə, onda beynəlxalq təsisatlara olan etimad da azalacaqdır.

Biz öz ərazi bütövlüyümüzü dinc yolla bərpa etməyə çalışırıq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Ermənistan-Azərbaycan münaqişəsinin həlli Azərbaycanın ərazi bütövlüyünün bərpasına və ölkəmizdə erməni azlığına yüksək özünüidarəetmə və muxtariyyət statusunun verilməsinə əsaslanmalıdır.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan regionumuzda təhlükəsizlik tədbirlərinə verdiyi töhfəni gələcəkdə davam etdirəcəkdir. Biz öz səylərimizlə və hüdudlarımızdan kənarda qoyulan sərmayələrimizlə regionun iqtisadi inkişafına töhfəmizi davam etdirəcəyik. Daşıma və enerji infrastrukturuna aid layihələr xalqları və dövlətləri birləşdirəcəkdir. İstehlakçılar, hasilatçılar və tranzit ölkələrin maraqları arasında müvafiq tarazlıq olmalıdır. Yalnız bu halda bütün layihələr hamımızın rifahına xidmət edəcəkdir.

Sonda mən bir daha ev sahibi Türkiyəyə səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm və sammitin işinə uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

* * *

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Asiyada sülhün, təhlükəsizliyin qorunması üçün əməkdaşlığı nəzərdə tutan, bununla da dünyada qlobal sülhün və etimadın əldə olunmasını hədəfləyən çoxtərəfli təşkilatdır. Təşkilatın yaradılmasına dair təklifi Qazaxıstan Prezidenti Nursultan Nazarbayev BMT-nin 47-ci sessiyasında irəli sürmüşdür. Bundan əvvəlki zirvə görüşləri 2002-ci və 2006-cı illərdə Qazaxıstanın Almatı şəhərində keçirilmişdir. Azərbaycanın da təmsil olunduğu təşkilatın 22 üzvü vardır. Dövlət və hökumət başçılarının zirvə görüşü Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin ən ali orqanıdır. Dörd ildən bir keçirilən zirvə toplantılarında qurumun fəaliyyətinə yekun vurulur, gələcək planlar və qarşıda duran vəzifələr müəyyənləşdirilir, mövcud beynəlxalq münasibətlərə dair fikir mübadiləsi aparılır. Budəfəki zirvə görüşündə quruma sədrlik Türkiyəyə keçdi, habelə Vyetnam və İraq quruma daimi üzv qəbul edildilər.

Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları rəsmi foto çəkdirdilər.

Sonda zirvə görüşünün yekun bəyannaməsi qəbul olundu.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İyunun 8-də İstanbulda, "Çırağan" sarayında Türkiyə Prezidenti Abdullah Gülün adından zirvə görüşündə iştirak edən nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi nahar verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYANIN BAŞ NAZİRİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

İyunun 8-də İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiyanın Baş naziri Vladimir Putinin görüşü olmuşdur.

Rusiyanın Baş naziri Vladimir PUTİN Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- İlham Heydər oğlu, Sizi görməyimə, konfransın işi çərçivəsində sizinlə danışıqlar aparmağa, cari işlərimiz, ölkələrimizin iqtisadi, humanitar münasibətləri barədə söhbət etmək imkanına görə çox şadam. Bilirəm yəqin ki, bütövlükdə regiondakı vəziyyətlə bağlı məsələlərə də toxunacaqsınız. Biz həm ikitərəfli dövlətlərarası əlaqələrimizin inkişafında, həm də regionda vəziyyətin normallaşdırılması istiqamətində əlavə addımlar atmaq üçün hər bir imkandan istifadə etməyə çalışırıq. Buna görə bir daha demək istəyirəm ki, Sizi görməyə çox şadam.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Rusiya hökumətinin başçısına müraciətlə dedi:

- Sağ olun, Vladimir Vladimiroviç. Əminəm ki, görüşümüz həmişəki kimi çox konstruktiv və dostluq ruhunda keçəcəkdir. Bundan əvvəlki səmimi görüşümüzü xatırlayıram. Bu görüşlər həmişə münasibətlərimizin daha da inkişafına xidmət etmişdir. Bugünkü ikitərəfli görüşün gündəliyi çox genişdir. Təbii ki, burada iqtisadi əlaqələr, qarşılıqlı siyasi fəaliyyət, humanitar əməkdaşlıq, regional problemlər, münaqişənin nizamlanması məsələləri vardır. Biz ikitərəfli münasibətlərin bütün istiqamətləri üzrə çox konstruktiv, səmərəli iş aparırıq. İqtisadi əlaqələrə gəldikdə, bizdə əmtəə dövriyyəsinin artması müşahidə olunur. Bu, çox müsbət amildir. İkitərəfli münasibətlərin bütün başqa istiqamətlərində də tərəqqi görürük. Buna görə də mən əminəm ki, bu görüş də bizim dostluq, mehriban qonşuluq münasibətlərimizin daha fəal inkişafına xidmət edəcəkdir.

Vladimir PUTİN: Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ

İyunun 8-də İstanbulda, "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə İran arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu.

Dövlət başçıları siyasi, iqtisadi və energetika sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardılar.

Görüşdə Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN GÖRÜŞÜ

İyunun 8-də İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin görüşü olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Ukrayna Prezidentinə müraciətlə dedi:

- Gələcəkdə fəal, konstruktiv iş görüləcəyinə ümid edirəm. Ölkələrimiz arasında gözəl tarixi münasibətlər vardır. Bizim şəxsi münasibətlərimiz bundan sonra da mühüm rol oynayacaqdır. Bizim üçün Ukrayna ən yaxın dost və tərəfdaşdır. Mən əminəm ki, ən yaxın gələcəkdə biz əməkdaşlığımızın yaxşı nəticələrini görəcəyik.

Ukrayna Prezidenti Viktor YANUKOVİÇ Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

- Sizi görməyimə şadam. Hesab edirəm ki, Ukrayna ilə Azərbaycan arasında ənənəvi münasibətlər, Sizinlə şəxsi dostluq münasibətlərimiz ölkələrimizin münasibətlərinə yeni şərait yaradacaq, deyərdim ki, bu münasibətlərə dinamika verəcəkdir. Mən buraya Sizi böyük məmnuniyyətlə növbəti dəfə görmək, ikitərəfli ticari-iqtisadi əlaqələrimizi müzakirə etmək üçün gəlmişəm. Əlbəttə, 2009-cu ildə əmtəə dövriyyəsinin azalması bizim ölkələrin real potensialına uyğun deyildir. İndi bizim vəzifəmiz əmtəə dövriyyəsinin əvvəlki səviyyəsini bərpa etməkdir. Hazırda o, təxminən 1 milyard dollar səviyyəsindədir. Fikrimcə, biz ən yaxın vaxtlarda əmtəə dövriyyəsini ən azı iki dəfə artıra bilərik.

Hörmətli cənab Prezident, mən çox şadam ki, ölkənizin iqtisadiyyatı kifayət qədər davamlıdır və bu, son illərdə Sizdə yaranmış sabitliyin sayəsində mümkün olmuşdur. Mən razılıq hissi ilə qeyd etmişəm ki, hətta gərgin 2009-cu ildə də Sizdə ümumi daxili məhsulun artımı 9 faizdən çox olmuşdur. Bu, çox böyük nailiyyətdir. Faktiki olaraq, Siz qısa bir dövr ərzində adambaşına ümumi daxili məhsulun həcmini iki dəfə, hətta iki dəfədən çox artırmısınız. Əlbəttə, güman edirəm ki, Azərbaycan xalqı bunu hiss edir. Əminəm ki, bu, daxili siyasətdə bir sıra məsələlərin həllinə şərait yaradır, cəmiyyəti və insanları birləşdirir. Bu, çox yaxşı haldır. Son illərdə Ukraynada bu hal çatışmırdı. Biz Sizə yaxşı mənada həsəd aparırıq. Lakin zənnimcə, indi Ukraynada yeni dövr başlanmışdır və əlbəttə, bu dövr bizim ticari-iqtisadi münasibətlərimizdə, ölkələrimizin, xalqlarımızın münasibətlərində özünü müsbət cəhətdən göstərəcəkdir. Bu gün mən Sizi görməyə, əla təşkil edilmiş bu tədbirdə Sizi salamlamağa şadam. Ümid edirəm ki, ən yaxın vaxtlarda Sizi bir daha görəcəyəm, əlbəttə, bu dəfə artıq Ukraynada.

Prezident İlham ƏLİYEV xoş sözlərə görə təşəkkür edərək dedi:

- Ölkəmiz haqqında xoş sözlərinizə görə sağ olun, Viktor Fyodoroviç. Siz tamamilə haqlısınız. Böhranlı 2009-cu ildə biz yüksək nəticələr nümayiş etdirdik. Sevindirici haldır ki, biz buna o vaxta qədər yaradılmış baza əsasında nail olduq. Bizim iqtisadiyyatımız 20-25 faiz artmışdır. Bizim iqtisadiyyat sabitdir və hətta bu il kredit agentlikləri Azərbaycanın kredit reytinqini artırmışlar. Bu onu göstərir ki, biz iqtisadiyyatı şaxələndirməyə və davamlı artıma nail olmuşuq. Siz tamamilə haqlısınız ki, burada əsas amil sabitlik - həm siyasi sahədə, həm iqtisadiyyatda sabitlik və vəziyyətin proqnozlaşdırıla bilməsi, eləcə də investisiya imkanlarıdır. Ona görə də əlbəttə, çox istəyirik ki, ikitərəfli iqtisadi potensial tam bərpa olunsun. Biz buna çox ümid bəsləyirik.

Ukrayna bizim üçün yaxın dost və tərəfdaşdır, strateji tərəfdaşdır. Əvvəlki onilliklərdə biz uzun illər boyu birgə yaşamışıq. Müstəqil dövlətlər kimi də biz həmişə bir-birimizə kömək etmişik. Sizinlə bizi şəxsi dostluq münasibətləri bağlayır. Bu dostluq artıq neçə illərdir ki, davam edir. Əminəm ki, Sizin rəhbərliyiniz altında dost Ukrayna xalqı böyük uğurlar qazanacaqdır. Əminəm ki, Siz Ukrayna hökumətinə başçılıq edərkən olduğu kimi, həm sənayenin, həm də iqtisadiyyatın inkişafına nail olacaqsınız. Bunun üçün hər cür imkan, ən başlıcası isə siyasi əzmkarlıq vardır.

Mən Sizi yenidən görməyimə çox şadam. Əminəm ki, yaxın illərdə bu cür görüşlər həm Ukraynada, həm də Azərbaycanda çox olacaqdır və biz bu cür möhkəm baza əsasında, xalqlarımızın bir-birinə qarşılıqlı rəğbəti və meyli sayəsində dostluğa, qarşılıqlı maraqlara, xalqlarımıza fayda gətirən amillərə əsaslanan münasibətlər quracağıq. Sizi bir daha şəxsən öz adımdan yüksək Prezident vəzifəsinə seçilməyiniz, Ukrayna xalqının Sizə göstərdiyi etimad münasibətilə təbrik etmək istəyirəm. Bu, Sizə münasibətin və Sizə bəslənilən ümidin əsas göstəricisidir. Əminəm ki, bütün bu ümidlər doğrulacaqdır.

Viktor YANUKOVİÇ: Sağ olun.

BİRGƏ ŞAM YEMƏYİ

İyunun 8-də İstanbulun "Çırağan" sarayında dövlət və hökumət başçıları birgə şam etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev şam yeməyində iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 9-da başa çatmışdır.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜ PRİNSİPİNƏ UYĞUN HƏLL OLUNMALIDIR

İyunun 8-də Milli Məclisdə beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədr müavini Fiorello Proveranın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşlər.

Milli Məclisin komitə sədri Səməd Seyidov Azərbaycan parlamentinin və başçılıq etdiyi komitənin fəaliyyəti barədə qonaqlara ətraflı məlumat vermişdir. O, İtaliya və Azərbaycan parlamentləri arasında əlaqələrdən danışaraq qeyd etmişdir ki, həm Milli Məclisdə, həm də İtaliya qanunverici orqanında dostluq qrupları fəaliyyət göstərir. Deputatlarımız bu qruplar çərçivəsində və mötəbər beynəlxalq təşkilatlarda yaxından əməkdaşlıq edirlər. Söhbətdə qanun yaradıcılığı sahəsində təcrübə və informasiya mübadiləsinin, qarşılıqlı səfərlərin parlamentlər arasında əməkdaşlığın perspektivləri baxımından vacibliyi vurğulanmışdır. Bildirilmişdir ki, Azərbaycanın İtaliya ilə əməkdaşlığı çoxşaxəlidir. Ümumiyyətlə, ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar, sosial və digər sahələrdə möhkəm əlaqələr vardır.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun törətdiyi çətinliklərdən danışan komitə sədri bildirmişdir ki, məsələ ilə bağlı BMT-də, Avropa Şurasında qətnamələr qəbul edilmişdir. Eyni zamanda, problemin həlli ilə məşğul olan Minsk qrupunun məlum təklifləri vardır. Amma çox təəssüf ki, Ermənistan bu sənədlərə məhəl qoymayaraq öz təcavüzkar siyasətini davam etdirir.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədr müavini Fiorello Provera qonaqpərvərliyə görə təşəkkürünü bildirmiş, ölkəmizdə gedən inkişafdan, quruculuq işlərindən məmnunluğunu ifadə etmişdir. Qonaq Milli Məclisin yeni inzibati binasının dizaynı barədə xoş təəssüratlarını söyləmişdir.

Fiorello Provera Avropa Parlamentinin və İtaliyanın Azərbaycan ilə əməkdaşlığının bu günü və inkişaf perspektivləri barədə fikirlərini açıqlamışdır. O demişdir ki, bu gün ölkələrimiz arasında münasibətlər geniş spektrə malikdir. Parlamentlər səviyyəsində də əlaqələrimiz təqdirəlayiqdir. Ümumiyyətlə, İtaliya və Azərbaycan xalqları arasında oxşar xüsusiyyətlər çoxdur, mədəniyyətlərimiz bir-birinə yaxındır.

Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədr müavini Dağlıq Qarabağ problemindən söz açaraq məsələnin sülh yolu ilə tezliklə öz həllini tapacağına inamını ifadə etmişdir. Qonaq bildirmişdir ki, İtaliya Senatında bu ilin əvvəlində Cənubi Qafqaz bölgəsi üzrə qətnamə qəbul edilmişdir. Sənəddə göstərilir ki, bölgədə mövcud olan regional münaqişələr, o cümlədən Dağlıq Qarabağ münaqişəsi ölkələrin ərazi bütövlüyü prinsipinə uyğun olaraq həll edilməlidir.

Fikir mübadiləsi zamanı görüşdə iştirak edən deputatlar bildirmişlər ki, Avroatlantik məkana inteqrasiya bizim üçün prioritet məsələlərdəndir. Ölkəmizdə insan hüquqlarına böyük dəyər verilir, biz İtaliya ilə Avropa İttifaqının bir üzvü kimi əməkdaşlığın inkişafında maraqlıyıq. İtaliya parlamentində Cənubi Qafqazla bağlı qəbul olunmuş qətnamə Azərbaycanda yüksək qiymətləndirilir. Ümid edirik ki, İtaliya Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyəcəkdir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANDA DÖVLƏTİN, PARLAMENTİN VƏ DİNİN VƏHDƏT TƏŞKİL ETMƏSİ ÇOX MÜHÜM ƏHƏMİYYƏTƏ MALİKDİR

Azərbaycanda dövlətin, parlamentin və dinin vəhdət təşkil etməsi çox böyük və mühüm əhəmiyyətə malikdir. Bu amil, eləcə də ölkənizdəki dini dözümlülük, hamının bərabər

hüquqlu olması demokratiyanın yüksək inkişafından xəbər verir. Azərbaycan bununla da digər ölkələr üçün nümunə olmalıdır.

Bu sözləri ölkəmizdə səfərdə olan Avropa Parlamentinin xarici əlaqələr komitəsi sədrinin müavini Fiorello Provera iyunun 9-da Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə söyləmişdir.

Oqtay Əsədov demişdir ki, Avropaya inteqrasiya Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan bütün beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı və Avropa Parlamenti ilə sıx əməkdaşlıq edir.

Azərbaycan ilə Avropa Parlamenti arasında çox yaxşı münasibətlər vardır. Milli Məclisdə yaradılmış komissiya neçə ildir ki, Avropa İttifaqı və Parlamenti ilə səmərəli əməkdaşlıq edir. İkitərəfli əməkdaşlığımız "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində də davam edir. Bu əməkdaşlığımız çoxtərəfli də ola bilər, amma Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi buna imkan vermir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Avropa Parlamentində qəbul olunmuş sənəd Ermənistanın işğalçı olduğunu bir daha sübut edir.

O.Əsədov həmin sənədin mətninin hazırlanmasında və qəbulundakı roluna görə qonağa minnətdarlıq etmişdir. Bildirilmişdir ki, bu cür sənədlərin qəbulu təkcə Azərbaycanın haqlı mövqeyinin müdafiəsi deyil, həm də beynəlxalq hüquq normalarının və dövlətlərin ərazi bütövlüyü prinsipinin müdafiəsi baxımından olduqca vacibdir.

Oqtay Əsədov İtaliyaya səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlamış, İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun fəaliyyətini yüksək qiymətləndirmişdir. Bildirilmişdir ki, dostluq qrupları arasında əlaqələrin inkişafı digər sahələrdə də mövcud olan münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edir.

Azərbaycana səfər etməsindən şərəf duyduğunu vurğulayan Fiorello Provera demişdir ki, azərbaycanlı deputatlarla hələ Avropa Şurasından tanışdır. Azərbaycanın qərblə şərq arasında körpü olması, enerji təhlükəsizliyindəki rolu, geostrateji mövqeyi onun necə böyük əhəmiyyətə malik dövlət olduğunun göstəricisidir.

"Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışan qonaq vurğulamışdır ki, bu, həm də Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün zəmin yarada bilər.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşdə Azərbaycan-İtaliya parlamentlərarası işçi qrupunun sədri Azər Kərimli, İtaliyanın Azərbaycandakı səfiri Mario Corco Stefano Baldi və digər rəsmi şəxslər iştirak etmişlər.

AZƏRBAYCAN VƏ BƏƏ ARASINDA DİPLOMATİK PASPORTLARA MALİK OLAN ŞƏXSLƏRİN GİRİŞ VİZASINDAN AZAD EDİLMƏSİ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

İyunun 9-da Bakıda Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında diplomatik pasportlara malik olan şəxslərin vizadan azad edilməsi haqqında anlaşma memorandumu imzalanmışdır.

Sənədi Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və BƏƏ-nin xarici işlər nazirinin müavini Tariq Əl Haydan imzalamışlar.

İmzalanma mərasimindən sonra jurnalistlərin suallarını cavablandıran Xələf Xələfov Azərbaycan ilə BƏƏ arasında münasibətlərə toxunaraq, ölkələrimiz arasında əlaqələrin gündən-günə inkişaf etdiyini söyləmişdir. Nazir müavini demişdir ki, həmkarı ilə keçirdiyi görüşdə ikitərəfli münasibətlərin inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır. Biz siyasi məsləhətləşmələr və ikitərəfli əməkdaşlığın bütün istiqamətləri ilə bağlı, o cümlədən qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. Ölkələrimiz arasında əlaqələr gündən-günə inkişaf edir. Eyni zamanda, bu məsləhətləşmələr çərçivəsində əməkdaşlığın yeni istiqamətləri, yeni layihələr və perspektivlər geniş müzakirə olundu.

BƏƏ-nin xarici işlər nazirinin müavini Tariq Əl Haydan isə səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələri gücləndirmək məqsədi daşıdığını söyləmişdir. O demişdir ki, Azərbaycan ilə BƏƏ arasında əlaqələr sürətlə inkişaf edir. İki ölkə arasında indiyə qədər müxtəlif sahələrdə sazişlərin imzalandığını xatırladan qonaq, nümunə kimi ikiqat verginin aradan qaldırılması, sərmayələrin təşviqi və aviasiya xidməti sahəsində sazişləri göstərmişdir. Vurğulamışdır ki, bütün sazişlər iki ölkə arasında əlaqələri daha da inkişaf etdirməyə yönəlmişdir.

BƏƏ-nin xarici işlər nazirinin müavini diplomatik pasport sahiblərinin vizadan azad olunması haqqında sazişin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verəcəyini söyləmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İORDANİYADA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin nümayəndə heyəti iyunun 6-dan 9-dək İordaniyada səfərdə olmuşdur.

Nümayəndə heyətinə Polis Akademiyasının rəisi, polis general-mayoru R.Nağıyev rəhbərlik etmişdir. Səfər Azərbaycan-İordaniya Hökumətlərarası Müştərək Komissiyanın ilk iclasının yekun protokolunun müddəalarına əsasən həyata keçirilmişdir. Məqsəd İordaniyanın daxili işlər sistemi və polis orqanlarının fəaliyyəti ilə tanışlıq, habelə əməkdaşlıq baxımından qarşılıqlı maraq doğuran sahələrin müəyyən edilməsi olmuşdur.

İordaniyada Daxili İşlər Nazirliyinin vəzifə və funksiyaları ölkəmizdəkindən fərqlidir. İordaniya daxili işlər naziri və nazirliyin əksər idarə və bölmələrinin əməkdaşları mülki şəxslərdir. Polis xidməti isə bütövlükdə nazirliyin ictimai təhlükəsizlik departamenti tərəfindən həyata keçirilir. Yalnız inzibati baxımdan DİN-in tərkibində olan departament fəaliyyət baxımından müstəqildir və onun rəisi (general rütbəsindədir) ölkə başçısı tərəfindən təyin olunur.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri İordaniya Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik Departamentinin rəis müavini general-mayor M.Raqqadla keçirdiyi görüşdə ikitərəfli əməkdaşlıq istiqamətində müzakirə aparmışdır.

Bundan əlavə, Azərbaycan nümayəndə heyəti İordaniya Polis Akademiyasında, təlim idarəsində, Preventiv təhlükəsizlik xidmətində, partlayıcı maddələrin idarə edilməsi

mərkəzində, Cəraş şəhərinin Baş polis idarəsində, Kral II Abdullah İbn Hüseyn adına təlim şəhərciyində, Polis təlimi üzrə beynəlxalq mərkəzdə bir sıra görüşlər keçirərək ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmiş, onların fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Nümayəndə heyəti İordaniya Daxili İşlər Nazirliyi sistemi, eyni zamanda, polis orqanlarının fəaliyyəti, vəzifə və funksiyaları ilə tanış olmuşlar.

Nümayəndə heyətinin üzvləri Azərbaycan səfirliyində olmuş, əməkdaşlarla söhbət etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ FİORELLO PROVERANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Avropa Parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Proveranı qəbul etmişdir.

Dövlətimizin başçısı hazırkı dövrdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğunu demiş və ölkəmizin müvafiq strukturları ilə Avropa Parlamenti arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev bu yaxınlarda Avropa Parlamentinin Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılması ilə bağlı qəbul etdiyi qətnamənin əhəmiyyətini qeyd etmişdir.

Avropa Parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Provera Azərbaycan hökumətinin rəsmiləri və parlament üzvləri ilə aparılan qarşılıqlı fikir mübadiləsi və dialoqların artıq mütəmadi xarakter daşıdığını bildirmişdir. O, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 10-da xarici işlər naziri Elmar Məmmədyarov Avstriyanın Azərbaycana yeni təyin olunmuş səfiri xanım Silviya Mayer-Kaybiç ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən S.Mayer-Kaybiç ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etmişdir. Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayan səfir Avstriya-Azərbaycan əlaqələrinin dərinləşməsi istiqamətində çalışacağını bildirmişdir.

Nazir E.Məmmədyarov ölkəmizə səfir təyin olunması münasibətilə S.Mayer-Kaybiçi təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyunun 10-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədr müavini Fiorello Proveranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın müasir, dünyəvi və sürətlə inkişaf edən ölkə olduğunu qeyd edən qonaq bu inkişafın potensialının respublikamız üçün geniş perspektivlər yaratdığını və Avropa ölkələri ilə əlaqələrin gücləndirilməsi üçün əlavə imkanlar verdiyini qeyd etmişdir.

Nazir E.Məmmədyarov F.Proveranın Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirərək mayın 20-də Avropa Parlamentinin qəbul etdiyi "Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına tələb" qətnaməsində ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstək verilməsini yüksək qiymətləndirmişdir.

Nazir beynəlxalq aləmin Ermənistanın işğalçı siyasətinə son qoyulmasına və Dağlıq Qarabağ münaqişəsində status-kvonun saxlanılmasının mümkünsüzlüyünə dair çağırışların gücləndirilməsinin vacibliyini qonağın diqqətinə çatdırmışdır.

F.Provera isə XXI əsrdə güc tətbiq etməklə suveren dövlətlərin sərhədlərinin dəyişdirilməsi cəhdlərini yolverilməz hal kimi qiymətləndirmişdir.

Tərəflər enerji, ticarət və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN (BƏƏ) XARİCİ İŞLƏR NAZİRİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 10-da xarici işlər naziri Elmar Məmmədyarov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini Tariq Əl Haydanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaq hər iki ölkənin müvafiq qurumları arasında siyasi məsləhətləşmələrin ilk toplantısında iştirakından məmnunluğunu bildirmiş, BƏƏ ilə Azərbaycan arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmişdir.

Nazir E.Məmmədyarov körfəz dövlətləri ilə Azərbaycan arasındakı əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini vurğulamışdır. Nazir Azərbaycan ilə BƏƏ-nin enerji istehsalçısı olduqlarını nəzərə alaraq, bu sahədə təcrübə mübadiləsinə, xüsusilə enerji ehtiyatlarının düzgün istismarı, alternativ və bərpaolunan enerji mənbələrinin inkişafı və neft gəlirlərinin istifadə edilməsi təcrübəsinin öyrənilməsində xüsusi marağın olduğunu diqqətə çatdırmışdır.

Görüşdə tərəflər bir sıra ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparmışlar.

"STRATFOR" ARAŞDIRMALAR MƏRKƏZİNİN PREZİDENTİ CORC FRİDMAN AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA ÇIXIŞ ETMİŞDİR

Bakıda səfərdə olan ABŞ-ın tanınmış "Stratfor" araşdırmalar mərkəzinin prezidenti Corc Fridman iyunun 11-də Azərbaycan Diplomatik Akademiyasında (ADA) "ABŞ-ın Yaxın Şərq siyasəti" mövzusunda məruzə ilə çıxış etmişdir.

Corc Fridman dünyada mövcud olan qüvvə balansı və ABŞ-ın yeni geosiyasi məkanda

oynadığı roldan danışmış, Yaxın Şərqdə, Əfqanıstanda mövcud olan münaqişələr, onların yaranma tarixi və həlli yolları haqqında öz fikirlərini açıqlamışdır. Onun sözlərinə görə, ən uzunmüddətli münaqişə sayılan Yaxın Şərq probleminde tərəflər razılığa gəlməsə, xarici vasitəçilərin səyləri səmərəli olmayacaqdır.

Tədbirin sonunda C.Fridman ADA-nın müəllim və tələbə heyətinin, xarici səfirliklərin nümayəndələrinin və ekspertlərin suallarını cavablandırmışdır.

AZƏRBAYCAN ABŞ ÜÇÜN MÜHÜM ƏHƏMİYYƏT KƏSB EDƏN ÖLKƏDİR

Azərbaycan ABŞ üçün mühüm əhəmiyyət kəsb edir və etibarlı tərəfdaşdır. Azərbaycanın dinamik inkişafı, 2001-ci ildə baş vermiş məlum sentyabr hadisələrindən dərhal sonra antiterror koalisiyasına qoşulması, dünyadakı sülhpərvər missiyası, enerji təhlükəsizliyindəki rolu bu ölkənin əhəmiyyətini daha da artırır.

Bu sözləri, ölkəmizdə səfərdə olan ABŞ-ın tanınmış "Stratfor" araşdırmalar mərkəzinin prezidenti Corc Fridman iyunun 11-də Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərovla görüşdə söyləmişdir.

Z.Əsgərov qonağı və onun xanımını salamlamış, Milli Məclisin fəaliyyəti, beynəlxalq əlaqələri, ölkəmizdə həyata keçirilən islahatlar, insan hüquqlarının qorunması, demokratiyanın inkişafı barədə ətraflı məlumat vermişdir. O demişdir ki, Qərbə inteqrasiya, Avropa dəyərlərinin mənimsənilməsi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindəndir. Müstəqilliyimizi bərpa etdikdən sonra ABŞ-la əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Biz, qarşılıqlı maraq kəsb edən məsələlərdə eyni mövqedən çıxış edirik. Azərbaycan antiterror əməliyyatlarında, dünyada sülhün bərqərar olması işində hər zaman ABŞ-la eyni cəbhədədir. Amma Azərbaycanın özü də terrora, təcavüzə məruz qalmışdır. Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, bir milyondan çox insanımız doğma yurd-yuvalarından didərgin düşmüşdür. BMT Təhlükəsizlik Şurası, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, bəzi ölkələrin qanunverici orqanları bu münaqişə ilə bağlı beynəlxalq hüquqa əsaslanan çox mühüm qətnamə və qərarlar qəbul etmiş, Azərbaycanın haqlı mövqeyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmişlər. Əfsuslar olsun ki, Ermənistan bu sənədlərə və beynəlxalq hüquqa əhəmiyyət vermir, işğalçılıq siyasətini davam etdirir. Təəssüf doğuran digər məqam isə münaqişənin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin, o cümlədən Birləşmiş Ştatların buna göz yummasıdır. Biz çox istərdik ki, ABŞ bu məsələdə daha obyektiv mövqe nümayiş etdirsin.

Corc Fridman səmimi söhbətə və ətraflı məlumata görə minnətdarlıq etmişdir. O demişdir: "Səfərimin məqsədi Azərbaycan haqqında daha çox məlumat toplamaqdır. Mən Dağlıq Qarabağ münaqişəsi barədə çox az məlumata malik idim. Elə ilk gündən gördüklərim məndə çox müsbət təəssüratlar yaratmışdır. Azərbaycan həqiqətən də sürətlə inkişaf edən ölkədir. Dağlıq Qarabağ münaqişəsinin həllinin yubanması isə bu inkişafa çox ciddi maneədir. Düşünürəm ki, tezliklə bu problem ədalətli həllini tapmalıdır".

Sonra C.Fridman münaqişənin həlli ilə bağlı fikirlərini bölüşmüşdür.

Qonaq demişdir ki, Azərbaycan ABŞ üçün mühüm əhəmiyyət kəsb edən ölkədir. Azərbaycanın rolu təkcə Cənubi Qafqazda deyil, bütün dünyada artmaqdadır. Ermənistan isə

getdikcə öz nüfuzunu itirir və ABŞ üçün heç bir əhəmiyyət kəsb etmir.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ HİNDİSTAN ARASINDA HÜQUQİ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏLƏRİN LAYİHƏLƏRİ RAZILAŞDIRILMIŞDIR

İyunun 9-11-də Nyu-Dehlidə Azərbaycan və Hindistan nümayəndələri arasında görüş keçirilmişdir.

Görüşün məqsədi Azərbaycan və Hindistan arasında Cinayət İşləri üzrə Qarşılıqlı Hüquqi Yardım, Cinayətkarın qaytarılması (Extradition), Mülki və Kommersiya işləri üzrə Hüquqi Əməkdaşlıq haqqında müqavilələrin layihələrini razılaşdırmaq idi.

Danışıqlarda Hindistan tərəfinin nümayəndələrinə Hindistanın Xarici İşlər Nazirliyinin konsulluq idarəsinin rəisi P.M.Mina, Azərbaycan tərəfinin nümayəndələrinə isə Ədliyyə Nazirliyinin beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Z.Qafarov başçılıq etmişdir.

Danışıqların ikinci günü bütün layihələr tamamilə razılaşdırılmışdır. Hindistan tərəfi müqavilələrin imzalanması üçün Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovu cari ilin sentyabr-noyabr aylarında Hindistana dəvət etmişdir.

XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN AZƏRBAYCAN ÜZRƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 12-də xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin Azərbaycan üzrə yeni rezident-əlaqələndiricisi Fikret Akçura ilə görüşmüşdür.

Azərbaycanda BMT-nin rezident-əlaqələndiricisi təyin olunmasından məmnun olduğunu deyən qonaq təmsil etdiyi qurumla Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın mövcudluğunu qeyd etmişdir. Yeni rezident-əlaqələndirici BMT-nin müxtəlif proqramlarının uğurla və səmərəli həyata keçirilməsi istiqamətində çalışacağını bildirmişdir.

Nazir E.Məmmədyarov F.Akçuranı ölkəmizə BMT-nin rezident-əlaqələndiricisi təyin olunması münasibətilə təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ-IN SABİQ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri E.Məmmədyarov 2000-2003-cü illərdə ABŞ-ın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuş, hazırda Atlantik Şuranın Avrasiya ofisinin direktoru kimi fəaliyyət göstərən Ross Vilsonla görüşmüşdür.

R.Vilson onu qəbul etdiyi üçün nazirə təşəkkürünü bildirmiş, rəhbərlik etdiyi qurumun gördüyü işlər barədə məlumat vermişdir.

Regionda cərəyan edən proseslərdən söz açan nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunmuş, münaqişənin beynəlxalq hüquq norma və prinsipləri əsasında, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində

həll olunmasının mümkünlüyünü qonağın nəzərinə çatdırmışdır.

Görüş zamanı tərəflər Azərbaycan-ABŞ enerji əlaqələrinin cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə etmiş, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

XARİCİ İŞLƏR NAZİRİ PAKİSTANDA SƏFƏRDƏ OLMUŞDUR

İyunun 15-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Pakistanda səfərdə olmuşdur.

E.Məmmədyarov Pakistanın xarici işlər naziri Şah Mahmud Qureyşi və Senatın sədri Faruq Həmid Naek ilə görüşmüş, ölkəmizin Pakistandakı yeni səfirlik kompleksinin rəsmi açılış mərasimində iştirak etmişdir.

Pakistanın Xarici İşlər Nazirliyində keçirilən görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilmiş və mövcud əməkdaşlığın bütün sahələrdə geniş perspektivlərə malik olduğu diqqətə çatdırılmışdır. Görüşdə Azərbaycan və Pakistan arasında əlaqələrin dərin tarixi köklərə malik olması vurğulanmış, hər iki ölkənin rəhbərliyi tərəfindən bu əlaqələrə xüsusi diqqət yetirildiyi qeyd edilmiş, habelə müxtəlif məsələlərə münasibətdə iki ölkənin bir-birinə göstərdiyi qarşılıqlı dəstək yüksək qiymətləndirilmişdir.

Nazir M.Qureyşi Pakistan-Azərbaycan siyasi münasibətlərini yüksək qiymətləndirmiş, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini bildirmişdir. Pakistanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı dəstəklədiyini qeyd edən nazir, ölkəsinin bundan sonra da bu mövqedə qalacağını və bütün beynəlxalq təşkilatlarda məsələ ilə bağlı tələb olunan dəstəyin veriləcəyini vurğulamışdır. Nazir M.Qureyşi Azərbaycan tərəfinə Pakistanı Kəşmir məsələsində dəstəklədiyinə görə minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov Azərbaycan və Pakistan arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu və bundan səmərəli istifadənin ölkələrarası münasibətlərin dərinləşməsinə daha da təkan verəcəyini demişdir.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın ədalətli mövqeyinin Pakistan tərəfindən dəstəklənməsinin yüksək qiymətləndirildiyini vurğulamışdır.

E.Məmmədyarov Azərbaycan ilə Pakistanın bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini xüsusi vurğulayaraq, Azərbaycanın Kəşmir məsələsində BMT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinin tərəfdarı olduğunu da demişdir.

Söhbət zamanı ölkələr arasında iqtisadi əlaqələrin aşağı səviyyədə olması qeyd edilmiş, onun siyasi əlaqələr səviyyəsinə qaldırılması və bunun üçün hökumətlərarası komissiyanın işindən səmərəli istifadə olunmasının vacibliyi bildirilmişdir.

Görüşdə, həmçinin regionda baş verən proseslər, ikitərəfli və çoxtərəfli münasibətlərə dair qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir E.Məmmədyarov Pakistan Senatının sədri Faruq Həmid Naek ilə görüşmüşdür. Senatın sədri xalqlarımız arasında oxşarlıq olduğunu qeyd etmiş, ölkələrimizin münasibətlərinin getdikcə genişləndiyini və bu baxımdan Azərbaycan və Pakistan rəsmilərinin qarşılıqlı səfərlərinin böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Nazir E.Məmmədyarov parlamentlərarası əlaqələrin vacibliyini vurğulamış, deputatların qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd etmişdir. Keçən il Pakistanın Kəşmir vilayətində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 400 nəfərlik orta məktəb binasının açılışında Azərbaycan parlamentinin bir qrup deputatının iştirakı bu əlaqələrin vacibliyinin və intensivliyinin əyani sübutu kimi qiymətləndirilmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı və qayğısı ilə İslamabadın diplomatik şəhərciyində 2007-ci ildə inşasına başlanmış və 2009-cu ilin noyabrında istifadəyə verilmiş səfirlik kompleksinin rəsmi açılışında iştirak etmişdir.

E.Məmmədyarov rəmzi açılışı bildirən lenti kəsmiş, ümummilli lider Heydər Əliyevin səfirliyin foyesində ucaldılmış büstü önünə gül çələngi qoymuşdur.

Tədbirdə deputatlar, senatorlar, ölkənin tanınmış ziyalıları, dövlət və hökumət adamları, ölkədə fəaliyyət göstərən səfirlik və nümayəndəliklərin rəhbərləri, diplomatlar, ictimai xadimlər və mətbuat nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan ölkəmizin Pakistandakı səfiri Eynulla Mədətli, 15 İyun - Milli Qurtuluş Günündə - böyük lider Heydər Əliyevin yenidən hakimiyyətə gəldiyi gündə rəsmi açılış mərasiminin keçirilməsinin təsadüfi olmadığını ifadə etmişdir. Səfirlik kompleksinin Prezident İlham Əliyevin dəstəyi və qayğısı, xarici işlər nazirinin gündəlik diqqəti nəticəsində tikilərək başa çatdırıldığını vurğulayan səfir, kollektiv adından bu rahat iş və yaşayış şəraitinin yaradılmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov və Pakistanın xarici işlər nazirliyinin dövlət naziri, nazir müavini Novabzada Malik Amad Xan çıxış etmişlər.

Qeyd olunmuşdur ki, səfirlik kompleksi inzibati bina, iqamətgah, əməkdaşların yaşayış binası, qonaq evləri, mərasimlər salonu, idman otaqlarından və s. ibarətdir.

BAŞ NAZİR ÇXR KP MK SİYASİ BÜROSU DAİMİ KOMİTƏSİNİN ÜZVÜ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 16-da Baş nazir Artur Rasizadə ölkəmizdə səfərdə olan ÇXR KP MK Siyasi Bürosu Daimi Komitəsinin üzvü, KP Mərkəzi Komissiyasının intizam yoxlaması üzrə katibi Xı Qotsyanla görüşmüşdür.

Baş nazir nümayəndə heyətinin üzvləri ilə tanışlıqdan sonra demişdir ki, bu səfər ölkələrimizin bütün sahələrdə qarşılıqlı faydalı münasibətlərinin inkişafında yeni mərhələ olacaqdır. Mənim fikrimcə, bu gün Çinin və Çin dilinin öyrənilməsi işi gücləndirilməlidir. Bizdə bu sahədə artıq ilk addımlar atılmışdır. Bəzi ali məktəblərimizdə Çin dilinin öyrənildiyi qruplar vardır.

A.Rasizadə daha sonra Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsində dəyişməz mövqeyinə görə ÇXR rəhbərliyinə minnətdarlığını bildirmiş, ölkəmizin iqtisadiyyatının vəziyyəti haqqında qonaqlara məlumat vermişdir. Xüsusi vurğulanmışdır ki, ötən il dünyada baş verən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatında 9,3 faiz artım əldə edilmişdir. İnfrastrukturun inkişafı üçün çox böyük, beynəlxalq səviyyəli investisiya proqramları icra olunmuşdur və hazırda bu iş davam etdirilir. Əlbəttə, neft-qaz sənayesində, enerji ehtiyatlarının dünya bazarına çıxarılması sahəsində daha çox uğur qazanılmışdır. Lakin digər ölkələr kimi, Azərbaycanın da çətinlikləri vardır. Ən böyük problemimiz isə 20 ildən bəri davam edən Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmamasıdır. Baş nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti, onun doğurduğu fəsadlar, problemin nizamlanmasında Azərbaycan rəhbərliyinin mövqeyi, Ermənistan tərəfin qeyri-konstruktivliyi haqqında qonaqlara məlumat vermişdir.

Xı Qotsyan səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür etdikdən sonra ölkəsinin hökumət başçısının salamlarını Baş nazirə çatdıraraq demişdir ki, Azərbaycanın siyasi sabitliyini, iqtisadi inkişafını, xalqın rifahının yaxşılaşdırılması üçün görülən işləri, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsini yüksək qiymətləndiririk. Çin ilə Azərbaycanı ənənəvi tarixi dostluq birləşdirir. Hələ iki min il bundan əvvəl "Böyük İpək yolu" qədim Çin ilə Azərbaycanı əlaqələndirmişdir. Ölkələrimiz arasında diplomatik əlaqələr qurulduqdan sonra bu münasibətlər daha da inkişaf edir. Ali rəhbərlik səviyyəsində sıx əlaqələr mövcuddur, siyasi münasibətlərdə qarşılıqlı etimad hökm sürür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin mövqeyi ilə razılaşan qonaq vurğulamışdır ki, Çin Azərbaycanın ərazi bütövlüyünü, münaqişənin sülh yolu ilə həll etmək istəyini dəstəkləyir, məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə üstünlük verir.

Sonra Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası hökumətləri arasında texniki-iqtisadi əməkdaşlıq haqqında saziş imzalanmışdır. Sazişi Azərbaycan tərəfdən iqtisadi inkişaf naziri Şahin Mustafayev, Çin tərəfdən kommersiya nazirinin müavini Qao Xiçen imzalamışlar.

İmzalanma mərasimində Xı Qotsyan və Baş nazirin müavini Abid Şərifov iştirak etmişlər.

Sazişə əsasən ÇXR Azərbaycan Respublikasına 20 milyon yuan məbləğində əvəzsiz yardım ayıracaqdır.

MİLLİ MƏCLİSİN SƏDRİ ÇXR KP MK SİYASİ BÜROSU DAİMİ KOMİTƏSİNİN ÜZVÜ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Cənubi Qafqazın ən çox inkişaf etmiş ölkəsidir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan təkcə siyasi cəhətdən deyil, iqtisadi, mədəni və digər sahələrdə də sürətlə inkişaf etmişdir. Çin Xalq Respublikası bu cür inkişaf edən ölkə ilə əməkdaşlıqda maraqlıdır.

Bu sözləri Çin Kommunist Partiyası Siyasi Bürosu Daimi Komitəsinin üzvü, KP Mər-

kəzi Komissiyanın intizam yoxlaması üzrə katibi Xı Qotsyan iyunun 16-da Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşdə söyləmişdir.

Oqtay Əsədov qonaqları salamlayaraq demişdir ki, Azərbaycan ilə Çin arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Münasibətlərimizin daha da genişlənməsində dövlətlərimizin başçılarının xüsusi rolu vardır. Prezident İlham Əliyevin 2005-ci ildə Çinə səfəri zamanı imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Dünya qlobal maliyyə böhranına baxmayaraq, ticarət dövriyyəmiz 2009-cu ildə 659 milyon ABŞ dolları olmuşdur, bu ilin ilk 4 ayında isə bu rəqəm 357 milyon dollar təşkil etmişdir. Bu onu göstərir ki, hər iki dövlət sürətlə inkişaf edir və çox sağlam, normal münasibtələrə malikdirlər.

O.Əsədov dövlətlərarası əməkdaşlığın genişlənməsində parlamentlərin rolunu xüsusi qeyd etmiş, parlamentlərarası dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirmişdir. Milli Məclisin sədri çinli həmkarını Azərbaycana səfərə dəvət etmişdir.

Parlamentin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin qəbulu zamanı nümayiş etdirdiyi mövqeyə, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyinə görə Çin xalqına və hökumətinə minnətdarlıq etmiş, Azərbaycanın da Çinin ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdırmışdır.

Söhbət zamanı O.Əsədov hər iki ölkənin hakim partiyaları arasında da gözəl münasibətlər olduğunu vurğulamış, partiya funksionerlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətindən danışmışdır.

Xı Qotsyan göstərilən qonaqpərvərliyə görə, minnətdarlıq etmişdir. O demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişaf yolu keçmişdir. Prezident İlham Əliyevin rəhbərliyi altında çox mühüm işlər görülmüş, yüksək nailiyyətlər əldə olunmuşdur. Bunu Milli Məclisin binası ilə tanışlıq zamanı da görmək olur. Qonaq Azərbaycan parlamentində deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

O demişdir ki, Azərbaycan Çin üçün çox dəyərli və sərfəli tərəfdaşdır. Rəsmi Pekin münasibətlərimizin daha da inkişafına mühüm əhəmiyyət verir.

Xı Qotsyan Çinin ərazi bütövlüyünü dəstəklədiyinə görə Azərbaycan tərəfinə minnətdarlıq etmiş, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rəsmi Pekinin mövqeyinin dəyişmədiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmış, hökumət, parlament və hakim partiyaların nümayəndələri səviyyəsində qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi vurğulanmışdır.

MÜDAFİƏ NAZİRİ NATO BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 16-da Azərbaycanın müdafiə naziri general-polkovnik Səfər Əbiyev NATO baş katibinin xüsusi nümayəndəsi Robert Simons ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığı, regionda hərbi-siyasi vəziyyət və Dağlıq Qarabağ münaqişəsi barədə müzakirələr aparılmışdır.

AZƏRBAYCAN İLƏ NATO ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

İyunun 16-da Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri, general-leytenant Eldar Mahmudov ölkəmizdə işçi səfərdə olan NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmons ilə görüşmüşdür.

Eldar Mahmudov NATO ilə Fərdi Tərəfdaşlıq Əməliyyat Planının müvəffəqiyyətlə həyata keçirildiyini və ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini bildirmişdir. Nazir bu işdə Prezident İlham Əliyevin beynəlxalq strukturlar ilə əlaqələrin, ümumən tərəfdaşlıq münasibətlərinin daim inkişaf etdirilməsi, həmçinin NATO ilə əməkdaşlığın daha da intensivləşdirilməsi və Avroatlantik məkana inteqrasiyanın gücləndirilməsi üzrə qəbul etdiyi qərarların, verdiyi müvafiq göstərişlərin mühüm rol oynadığını qeyd etmişdir.

Azərbaycana səfəri çərçivəsində aparılan müzakirələrin nəticələrindən razı qaldığını söyləyən Robert Simmons, Azərbaycanın Fərdi Tərəfdaşlıq Əməliyyat Planının icrası, eləcə də təhlükəsizlik məsələləri üzrə Milli Təhlükəsizlik Nazirliyinin gördüyü işlərin mühüm əhəmiyyət kəsb etdiyini və bütün bunlar barədə təmsil olunduğu təşkilatın məlumatlı olduğunu, gələcək əməkdaşlıq üçün imkanların genişləndiyini vurğulamışdır.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə Azərbaycan ilə NATO arasında münasibətlərin ardıcıl inkişafı ilə bağlı digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN NATO-NUN SÜLHYARATMA MİSSİYASINDA FƏAL İŞTİRAK EDİR

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov iyunun 16-da NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Daxili işlər naziri ölkəmizin müstəqilliyini əldə etdiyi tarix üçün çox da böyük olmayan qısa zaman çərçivəsində, Ermənistanın təcavüzünə və torpaqlarımızın 20 faizdən çoxunun itirilməsinə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı və gördüyü tədbirlər nəticəsində əldə edilən uğurlardan, kriminogen durumun nəzarət altına alınmasından, həyata keçirilən hüquqi-demokratik islahatlardan danışmışdır.

Daha sonra nazir "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci ildə imzaladığı Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Daxili İşlər Nazirliyinin üzərinə düşən vəzifələr barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Avroatlantik məkanda təhlükəsizliyin vacibliyi prinsipindən çıxış edərək, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə sanksiyalaşdırılmış, NATO-nun rəhbərlik etdiyi sülhü dəstəkləmə əməliyyatlarında iştirak edir. Ölkəmiz NATO ilə tərəfdaşlı-

ğın gələcək inkişafını diqqətlə izləyir, ona öz töhfəsini verməyə çalışır.

Nazir bildirmişdir ki, 2007-ci ilin noyabrın 20-23-də Daxili Qoşunların hüquq mühafizə qurumuna transformasiya olunması ilə əlaqədar NATO Beynəlxalq Qərargahının təşəbbüsü ilə 12 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuş, DQ-nin imkanları, vəzifələri ilə maraqlanmış, eləcə də sülhməramlı Polisə Dəstək Bölüyünün yaradılması ilə bağlı görülən işlər barədə geniş məlumat əldə etmişlər. Səfər çərçivəsində müxtəlif ölkələrin müvafiq qurumlarının ekspertləri tərəfindən Daxili Qoşunların hüquq mühafizə qurumuna transformasiya olunması ilə bağlı məsləhət və tövsiyələr verilmişdir.

R.Usubov vurğulamışdır ki, 1997-ci il oktyabrın 31-də Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında Daxili Qoşunların şəxsi heyətinə Türkiyə Jandarması tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokolun müddəalarına əsasən, Jandarm Təşkilatının da imkanlarından geniş istifadə olunur. Türkiyə Jandarm Qüvvələrinin qiymətləndirmə sisteminə dair normativ-hüquqi aktlar, təlimatlar öyrənilərək araşdırılmış və Daxili Qoşunlarda aparılan qiymətləndirmə fəaliyyətini tənzimləyən təlimatların yeniləşdirilməsi üzrə müvafiq işlər həyata keçirilmişdir. Belə ki, hərbi qulluqçuların döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə son 13 ildə Türkiyə Respublikasının Silahlı Qüvvələrinin və Jandarm Təşkilatının müxtəlif təlim-tədris mərkəzlərində qoşunların xeyli hərbi qulluqçusu ixtisasartırma kurslarına cəlb olunmuş, hazırda 21 nəfər təhsilini davam etdirməkdədir. Birgə plana əsasən, 2010-2011-ci illərdə Türkiyə Silahlı Qüvvələrinin və Jandarm Təşkilatının müxtəlif təlim-tədris mərkəzlərində Daxili Qoşunlar üçün daha 22 kursun təşkili nəzərdə tutulmuşdur.

Robert Simmons ətraflı məlumata görə minnətdarlığını bildirmiş, ölkəmizin NATO-nun sülhyaratma missiyasında fəal iştirakını və təmsil etdiyi təşkilatla əməkdaşlığı genişləndirməsini qeyd etmiş, belə görüşlərin qarşılıqlı faydalı əlaqələrin inkişafına təkan verəcəyini vurğulamışdır.

AZƏRBAYCAN İLƏ VATİKAN ARASINDA ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏ DAVAM ETDİRİLƏCƏKDİR

İyunun 16-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Roma Papası yanında Mədəniyyət Şurasının ölkəmizdə səfərdə olan prezidenti, arxiyepiskop Canfranko Ravazi ilə görüşmüşdür.

Qonağı salamlayan Əbülfəs Qarayev xatırlatmışdır ki, Azərbaycan nümayəndə heyəti bu ilin aprelində Vatikanda olmuşdur. Səfər çərçivəsində ilk dəfə Vatikanda məşhur muğam ustası Alim Qasımovun konserti olmuşdur. Konsertdə Vatikanın rəsmi şəxsləri, habelə xarici ölkələrin səfirləri iştirak etmişlər. Konsertdən əvvəl cənab Ravazi təbrik nitqi söyləmiş, Azərbaycan nümayəndə heyətinin üzvlərini təqdim etmişdir.

Ə.Qarayev ümidvar olduğunu bildirmişdir ki, Roma Papası yanında Mədəniyyət Şurasının prezidentinin ölkəmizə ilk rəsmi səfəri Azərbaycan ilə Vatikan arasında mədəni əlaqələrin inkişafına təkan verəcəkdir.

Azərbaycana gəlməyindən şad olduğunu bildirən C.Ravazi qeyd etmişdir ki, Azərbaycan artistlərinin konserti Vatikanda böyük maraqla qarşılanmışdır.

O demişdir: "Vatikan ilə Azərbaycan arasında əməkdaşlığın perspektivlərinə gəldikdə isə əməkdaşlığın üç istiqamətini prioritet hesab edirik. Birincisi, Azərbaycanın nadir mədəniyyətidir. Əslində, Azərbaycan bütün dünyaya açıq olan yeganə müsəlman ölkəsidir. Biz onu bütün katolik dünyasına tanıtmaq niyyətindəyik və bu istiqamətdə ilk addımlar artıq atılmışdır.

İkincisi, akademik strukturlarla əməkdaşlıq etmək istəyirik. Heydər Əliyev Fondunda olmaq, onunla mədəni, ictimai və elm sahələrində bir neçə müştərək layihə həyata keçirmək niyyətindəyik. Əməkdaşlığımızın üçüncü sahəsi isə Vatikanın kitabxanası və muzeyidir. Vatikanın kitabxana fondları ilk dəfədir ki, Azərbaycan mütəxəssisləri üçün açıqdır. Bundan sonra Azərbaycan alimləri ölkələrinin tarixi və mədəniyyətinə dair Vatikanda saxlanılan materiallarla tanış ola biləcəklər. Kitabxanada işləmələri üçün Azərbaycan tələbələrinin təhsilini və təcrübə keçmələrini maliyyələşdirə bilərik.

Biz Azərbaycan ilə əməkdaşlığa maraq göstəririk, çünki o, çox açıq bir ölkədir. Mədəniyyət sahəsində ikitərəfli əməkdaşlığımız konfessiyalararası dialoqu da inkişaf etdirməyə imkan verəcəkdir. Dinlərarası dialoq üzrə yüksək səviyyəli bir neçə tədbir keçirdiyi üçün Azərbaycana xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, əlaqələrimizi yüksək səviyyədə davam etdirəcəyik".

AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ MƏRAKEŞ KRALLIĞINDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın rəhbərlik etdiyi nümayəndə heyəti Mərakeş Krallığında səfərdə olmuşdur.

Səfər çərçivəsində H.Hüseynova mərakeşli həmkarı, sosial inkişaf, ailə və həmrəylik naziri xanım Nuzha Skalli ilə görüşmüşdür. Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur. H.Hüseynova mərakeşli həmkarına ölkəmizdə ailə, qadın və uşaq problemləri üzrə bir sıra layihələrin həyata keçirildiyini, bu yaxınlarda Heydər Əliyev Fondu, Dövlət Komitəsi və BMT-nin müvafiq qurumu ilə birgə gender bərabərliyinə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi barədə məlumat vermiş, Azərbaycanda bu sahələrin dövlət qayğısı ilə əhatə olunduğunu vurğulamışdır.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və Mərakeş Krallığının Sosial İnkişaf, Ailə və Həmrəylik Nazirliyi arasında ailə, qadınların inkişafı və uşaqların müdafiəsi sahəsində əməkdaşlığa dair Memorandum imzalanmışdır.

Azərbaycan nümayəndə heyəti İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri ilə də görüşmüşdür. Qonaqlara İSESKO-nun fəaliyyəti ilə bağlı ətraflı məlumat verilmiş və Azərbaycan nümayəndə heyəti təşkilatın inzibati binası ilə yaxından tanış olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin "Pulkovo" hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.

SANKT-PETERBURQDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyunun 17-də Sankt-Peterburqda, "Konstantinovski" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Sankt-Peterburqda onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Səudiyyə Ərəbistanı Krallığı (SƏK) Şura Məclisinin sədri Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx iyunun 17-də Milli Məclisə gəlmişdir.

Səudiyyə Ərəbistanı parlamentinin sədri Milli Məclisin iclas salonuna baxmış, Heydər Əliyev Xatirə zalında olmuşdur. Burada qonağa ümummilli liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin, dövlət və hökumət üzvlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyev ilə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və xarici ölkə parlamentləri ilə əlaqələrin qurulmasında ulu öndərin xidmətləri barədə məlumat verilmişdir.

Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx Xatirə kitabına ürək sözlərini yazmışdır.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə SƏK Şura Məclisinin sədri Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx arasında görüş olmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədov onun dəvətini qəbul edib Azərbaycana səfərə gəldiyinə görə qonağa minnətdarlıq etmişdir. O.Əsədov ölkələrimiz arasında əlaqələrin qədim tarixindən danışmış, müstəqilliyimizi bərpa etdikdən sonra münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirmiş və bunu müsbət dəyərləndirmişdir. Milli Məclisin sədri demişdir ki, münasibətlərimizin belə yüksək səviyyəyə çatmasında dövlətlərimizin başçılarının müstəsna xidmətləri vardır. 1994-cü ildə ümummilli liderimiz Heydər Əliyevin, 2005-ci ildə isə Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfərləri münasibətlərimizin inkişafında yeni səhifə açmışdır. Dövlət başçılarının keçirdikləri səmərəli görüşlər, imzalanmış çoxsaylı sənədlər hər iki tərəfə fayda gətirmiş, əməkdaşlığın hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

O.Əsədov ikitərəfli əlaqələrin inkişafında parlamentlərin də rolunu qeyd etmiş, dostluq qruplarının qarşılıqlı səfərlərinin intensivləşdirilməsinin vacibliyini vurğulamışdır.

Azərbaycanda həyata keçirilən hüquqi, demokratik, iqtisadi islahatların müsbət nəticələri barədə ətraflı məlumat verən O.Əsədov demişdir ki, Ermənistanın hərbi təcavüzünün davam etməsi bu inkişafa ciddi əngəl törədir. Biz bu münaqişənin həllində nümayiş etdirdiyi həmrəyliyə, qaçqın və məcburi köçkünlərə etdiyi humanitar yardımlara, Azərbaycanın haqlı mövqeyini, ərazi bütövlüyünü daim dəstəklədiyinə görə, Səudiyyə Ərəbistanı Krallığının rəhbərliyinə və xalqına minnətdarlığımızı bildiririk. SƏK-in bu günədək Ermənistanla diplomatik əlaqələr qurmamasını da yüksək qiymətləndiririk.

Milli Məclisin sədri SƏK-in Azərbaycandakı keçmiş səfirinin ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirmiş və demişdir ki, səfirin Azərbaycanın "Şöhrət" ordeni ilə təltif olunması onun əməyinə verilmiş yüksək qiymətin bariz nümunəsidir.

Dəvətə və Azərbaycanda göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx demişdir ki, Şura Məclisinin sədri seçildikdən sonra 20-dən çox ölkəyə dəvət almışdır. Şura Məclisinin sədri kimi 4-cü xarici səfərimi Azərbaycana etdim və bundan çox məmnunam. İnanıram ki, bizim səfərlərimiz parlamentlərarası əlaqələrin, eləcə də digər sahələrdə münasibətlərimizin daha da genişlənməsində mühüm rol oynayacaqdır. SƏK Şura Məclisinin sədri qanunverici orqanların əməkdaşlığını, xüsusilə də dostluq qruplarının fəaliyyətini yüksək dəyərləndirmiş, Azərbaycan parlamentinə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Görüşdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi, qanunvericilik sahəsində təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

VATİKANIN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ, ARXİYEPİSKOP CANFRANKO RAVAZİ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ OLMUŞDUR

İyunun 17-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ölkəmizdə rəsmi səfərdə olan Vatikanın mədəniyyət üzrə Pontifik Şurasının prezidenti, arxiyepiskop Canfranko Ravazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olmuşdur.

Komitənin sədri Hidayət Orucov bildirmişdir ki, Azərbaycanda vətəndaşların dini etiqad azadlığı, insanların inanclarına hörmət və dövlət qayğısı Konstitusiyada və "Dini etiqad azadlığı haqqında" Qanunda öz əksini tapmışdır. Ölkəmizdə bütün dinlərə və onların mənsublarına bərabər yanaşılır. Tarixən etnik-dini tolerantlıq məkanı olan Azərbaycanda heç zaman milli və dini ayrı-seçkilik səbəbindən münaqişələr baş verməmişdir. Bu ənənənin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin xüsusilə böyük xidmətləri olmuşdur. Bu gün Prezident İlham Əliyev həmin siyasəti uğurla davam etdirir, respublika ərazisindəki xristian məbədləri planlı şəkildə təmir və bərpa olunur, yeniləri tikilir. Bir neçə il öncə Bakının mərkəzində Roma Katolik kilsəsi üçün xüsusi yer ayrılmış və Müqəddəs Məryəm kilsəsi inşa edilərək dindarların istifadəsinə verilmişdir. Kilsənin açılışında Prezident İlham Əliyev iştirak etmişdir.

Bakıya səfərindən məmnun qaldığını bildirən arxiyepiskop Canfranko Ravazi qeyd etmişdir ki, Azərbaycan bütün dünyaya açıq olan müsəlman ölkələrindən biridir. Biz onun tolerantlıq ənənələrini yüksək dəyərləndiririk və onu katolik dünyasına tanıtmaq istəyirik. Respublikanızda dinə hörmət və dövlət qayğısı, müxtəlif din mənsublarına münasibətdə dözümlülük digər ölkələr üçün, sözün həqiqi mənasında, örnək ola bilər.

Qonaq dinlərarası dialoq üzrə yüksək səviyyəli konfrans və dünya dinləri liderlərinin sammitinə ev sahibliyi edən Azərbaycanın beynəlxalq tədbirlər məkanı kimi də maraqlı ölkə olduğunu qeyd etmişdir.

Görüşdə Vatikanın mədəniyyət üzrə Pontifik Şurası prezidentinin Azərbaycana ilk rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına müsbət təsir edəcəyi vurğulanmışdır.

Görüşdə hər iki tərəfi maraqlandıran digər məsələlər də müzakirə olunmuşdur.

BAŞ NAZİR VATİKANIN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 17-də Baş nazir Artur Rasizadə Vatikanın mədəniyyət üzrə Pontifik Şurasının prezidenti, arxiyepiskop Canfranko Ravazi ilə görüşmüşdür.

A.Rasizadə Canfranko Ravazinin ölkəmizə rəsmi səfərinin Azərbaycan ilə Vatikan arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişafına təkan verəcəyinə əminliyini bildirmiş, son illər dövlətlərarası əlaqələrin fəallaşdığını xatırlatmışdır. Qeyd etmişdir ki, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri elmi mübadilə, mədəni əməkdaşlıq və sivilizasiyalararası dialoqun genişlənməsi istiqamətində müsbət haldır.

Baş nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonağa ətraflı məlumat vermiş, Vatikanın ümumən Cənubi Qafqazda sülh proseslərinə və əmin-amanlığın bərqərar olmasına səmərəli töhfələr verə biləcəyini vurğulamışdır.

Səmimi qəbula görə təşəkkür edən Canfranko Ravazi dini tolerantlığın yüksək olduğu ölkəmizə səfərindən məmnun qaldığını qeyd etmiş, Vatikanın zəngin mədəni dəyərlərə malik Azərbaycanla əlaqələrə böyük maraq göstərdiyini diqqətə çatdırmışdır. O, dinlərarası dialoq üzrə yüksək səviyyəli beynəlxalq tədbirlər keçirdiyi üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirmiş, ölkəmizdə xüsusən Heydər Əliyev Fondu ilə bir sıra elmi, mədəni, ictimai sahələrə aid müştərək layihələr həyata keçirmək niyyətlərindən danışmışdır. Xatırlatmışdır ki, artıq Vatikan kitabxanası Azərbaycan mütəxəssisləri üçün açıqdır və azərbaycanlı alimlər oradakı zəngin fondlarda öz ölkələrinin tarixinə və mədəniyyətinə dair materiallarla tanış ola bilərlər. Həmçinin azərbaycanlı tələbələrin tədris və təcrübə proseslərində iştirakı üçün də şərait yaradılması nəzərdə tutulmuşdur. Onun sözlərinə görə, belə qarşılıqlı elmi, mədəni əməkdaşlıq imkanları konfessiyalararası münasibətlərin inkişafına da xidmət edəcəkdir.

AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRİ NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 17-də fövqəladə hallar naziri Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmons ilə görüşmüşdür.

Görüşdə nazirlik ilə alyans arasında əməkdaşlığın vəziyyəti, birgə təlimlərin keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Alyans və onun qurumları ilə mülki fövqəladə planlaşdırma sahəsində nazirlik arasında əməkdaşlığın mövcud səviyyəsindən məmnunluğunu bildirən K.Heydərov bu əməkdaşlığın bundan sonra da davamlı olaraq inkişaf etdiriləcəyinə əminliyini diqqətə çatdırmışdır. Nazir bu istiqamətdə NATO-nun Təbii Fəlakətlərə Cavabvermənin Əlaqələndirilməsi üzrə Avroatlantik Mərkəzi ilə əməkdaşlığın daha da genişləndirilməsinin məqsədəuyğun olduğunu qeyd etmişdir.

OMBUDSMANLARIN VIII BAKI BEYNƏLXALQ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR

Azərbaycanda İnsan Hüquqları Günü və "Ekologiya ili" münasibətilə iyunun 17-də "Hyatt Regency-Naxçıvan" mehmanxanasında "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişmələrinin hüquqi və etik aspektləri" mövzusunda Ombudsmanların VIII Bakı Beynəlxalq konfransı işə başlamışdır.

YUNESKO-nun dəstəyi, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirlikləri ilə əməkdaşlıqda keçirilən tədbirdə Kanada, Tailand, Sloveniya, Ukrayna, Moldova, Rusiya Federasiyası və onun subyektlərinin ombudsmanları, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər iştirak edirlər.

Konfransın açılışında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova çıxış edərək tədbirin əhəmiyyətini vurğulamışdır. Müvəkkilin təşəbbüsü ilə və nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində Bakıda keçirilmiş əvvəlki yeddi konfransda 47 ölkə nümayəndələrinin iştirakı qeyd edilmişdir. Dünyada baş verən iqlim dəyişikliyinin aktual məsələlərdən olduğu, bu proseslər zamanı insan hüquqlarının, o cümlədən ekoloji hüquqların müdafiəsinin vacibliyi vurğulanmışdır.

E.Süleymanova Azərbaycan Prezidenti İlham Əliyevin ekoloji məsələlərə xüsusi əhəmiyyət verərək, 2010-cu ili ölkəmizdə "Ekologiya ili" elan etdiyini bildirmiş, əhalinin ekoloji təfəkküründə və ekoloji mədəniyyətinin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov Ermənistanın Azərbaycana qarşı uzun müddət davam edən təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, etnik təmizləmə siyasəti ilə üzləşən əhalimizin bir milyon nəfərinin öz doğma yurdunda qaçqına və məcburi köçkünə çevrildiyini, insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulduğunu vurğulamışdır. BMT-nin 1951-ci ildə qaçqınların statusu ilə bağlı qəbul etdiyi konvensiya hazırda problemlərin həllinə cavab vermir. Məcburi köçkünlərin hüquqlarını qorumaq məqsədi ilə konvensiyaya yenidən baxılmalıdır.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov son bir ildə Azərbaycanda keyfiyyətli sudan istifadə üçün 122 kənddə sutəmizləyicilərin quraşdırıldığını bildirmişdir. İlin sonunadək daha 62 kənddə belə qurğu quraşdırılacaqdır. 2012-ci ilədək davam edəcək proses nəticəsində Azərbaycanda bütün əhali emal olunmuş sudan istifadə edəcəkdir.

YUNESKO-nun Moskva bürosunun sosial və humanitar elmlər üzrə mütəxəssisi Alla Ampar təmsil etdiyi qurumun fəaliyyəti, Azərbaycan ombudsman təsisatı ilə əməkdaşlığı barədə məlumat vermiş, YUNESKO üçün ekologiyanın prioritet sahə olduğunu vurğulamışdır.

"Ətraf mühit və insan hüquqları: əsas beynəlxalq hüquqi aktlar və milli qanunvericilik" və "Ətraf mühit və insan hüquqlarının səmərəli təmini problemi" mövzularına həsr edilmiş birinci və ikinci iclaslarda məruzələr dinlənilmiş, fikir və təcrübə mübadiləsi aparılmışdır.

BAŞ NAZİR SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 18-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyxin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir A.Rasizadə Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında siyasi, mədəniyyət, təhsil sahələrində əlaqələrin çox yüksək səviyyədə olduğunu, belə qarşılıqlı səfərlərin əməkdaşlığın möhkəmləndirilməsi, əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini söyləmişdir. Dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyə-

yə çatmasında ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfərlərinin böyük əhəmiyyəti diqqətə çatdırılmışdır. İki ölkə arasında iqtisadi sahədə əlaqələrin möhkəmləndirilməsinin vacibliyi də vurğulanmışdır.

A.Rasizadə Azərbaycanın son illərdəki uğurları, həyata keçirilən iri regional layihələr haqqında, dövlətimizin xarici siyasətinin prioritet istiqamətləri barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, dünyanı bürümüş iqtisadi və maliyyə böhranı Azərbaycana cüzi təsir etmiş, 2009-cu ilin və cari ilin ötən beş ayının göstəriciləri müsbət olmuşdur. Ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyi nəzərə çarpdırılmışdır.

Qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Baş nazir demişdir ki, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından problem hələ də həllini tapmamışdır. Vurğulanmışdır ki, bu münaqişə sülh yolu ilə, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq normalar əsasında həll edilməlidir. A.Rasizadə Səudiyyə Ərəbistanı Krallığının Dağlıq Qarabağ probleminin həlli sahəsində Azərbaycanın ədalətli mövqeyini müdafiə etdiyinə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx ölkəsinin Azərbaycan ilə müxtəlif istiqamətlərdə əməkdaşlığa böyük əhəmiyyət verdiyini söyləmiş, əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini diqqətə çatdırmışdır. Azərbaycana ilk dəfə, Milli Məclisin sədri Oqtay Əsədovun dəvəti ilə gəldiyini söyləyən qonaq, burada gördüklərindən məmnunluğunu vurğulamışdır.

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfiri Tofiq Abdullayevin və Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri Fəhd bin Əli əl-Düşərinin də iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 18-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Elmar Məmmədyarov Səudiyyə Ərəbistanı Krallığının Şura Məclisinin sədri Abdullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyxin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirən tərəflər, onların inkişafı üçün geniş potensialın mövcudluğunu, bundan daha səmərəli istifadə edilməsinin vacibliyini qeyd etmişlər.

Regionda cərəyan edən proseslər barədə danışan E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi barədə qonaqlara ətraflı məlumat vermişdir. Nazir bu məsələdə Azərbaycanın ədalətli mövqeyinə daim dəstək verdiyinə görə Səudiyyə Ərəbistanı Krallığına minnətdarlığını bildirmişdir.

Ölkələrimiz arasında mövcud qanunvericilik bazasının genişləndirilməsinə tələbatın olduğunu deyən E.Məmmədyarov bu istiqamətdə səylərin artırılmasının vacibliyini vurğulamışdır.

Qonaq ölkəsinin hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana lazımı dəstək verməyə hazır olduğunu demişdir.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mövcud iqtisadi əlaqələrin siyasi əlaqələrin səviyyəsinə çatdırılmasının vacibliyindən danışan Abullah bin Məhəmməd bin İbrahim Al əş-Şeyx bu sahədə bir sıra işlərin həyata keçirilməsinə ehtiyac olduğunu vurğulamışdır.

Görüşdə ikitərəfli, regional və bir sıra maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

BAKIDA OMBUDSMANLARIN VIII BEYNƏLXALQ KONFRANSI DAVAM EDİR

İyunun 18-də "Yaxt klub"da "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişmələrinin hüquqi və etik aspektləri" mövzusunda Ombudsmanların VIII Bakı Beynəlxalq konfransı davam etmişdir. Tədbir Azərbaycanda İnsan Hüquqları Günü və "Ekologiya ili"nə həsr edilmişdir.

"Qlobal iqlim dəyişikliyinin hüquqi və etik aspektləri" mövzusuna həsr edilmiş üçüncü iclasda dinlənilən məruzələrdə iqlim dəyişikliyinin Azərbaycana təsiri, beynəlxalq-hüquqi və ölkədaxili problemlər, qaçqınların və məcburi köçkünlərin vəziyyəti, əhalinin sağlamlığının mühafizəsi, etik mədəniyyətin təbiətin ekologiyasına təsiri və s. məsələlər barədə danışılmışdır.

YUNESKO-nun dəstəyi, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar nazirlikləri ilə əməkdaşlıqda keçirilən tədbirdə Kanada, Tailand, Sloveniya, Ukrayna, Moldova, Rusiya Federasiyası və onun subyektlərinin ombudsmanları, həmçinin insan hüquqları sahəsində tanınmış beynəlxalq ekspertlər iştirak edirlər.

AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR BİRGƏ FƏALİYYƏTİN NƏTİCƏSİDİR

Azərbaycanda İnsan Hüquqları Günü və "Ekologiya ili" münasibətilə "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişmələrinin hüquqi və etik aspektləri" mövzusunda keçirilmiş Ombudsmanların VIII Bakı Beynəlxalq konfransının iştirakçıları iyunun 18-də Milli Məclisdə olmuşlar.

Konfrans iştirakçıları Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərovla görüşmüşlər.

Z.Əsgərov qonaqlara parlamentin fəaliyyəti, insan hüquqlarının müdafiəsi və ətraf mühitin mühafizəsi ilə bağlı qəbul olunmuş qanunlar barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Milli Məclis ətraf mühitin mühafizəsi ilə bağlı 10-dan çox qanun qəbul etmiş, bir neçə beynəlxalq konvensiyanı təsdiq etmişdir. 2010-cu il Azərbaycanda ekologiya ili elan edilmişdir və nəzərdə tutulmuş tədbirlər planı çərçivəsində xeyli işlər görülmüşdür. BMT-nin qəbul etdiyi müvafiq sənəddə qeyd edilmişdir ki, Azərbaycanda son 6 ildə ekoloji problemlərin həlli istiqamətində mühüm işlər görülmüş, yaşıllaşdırma

6 faiz artmışdır. Lakin ətraf mühitin mühafizəsi, təbii fəlakətlərin vurduğu ziyanın aradan qaldırılması ilə bağlı bütün dövlətlərin birgə fəaliyyət göstərməsi lazımdır.

Z.Əsgərov bildirmişdir ki, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində meşələr yandırılır, təbiətə ciddi ziyan vurulur, ermənilər tərəfindən Araz çayı çirkləndirilir. İşğal altında olan Zəngilan rayonu ərazisindəki Bəsitçay qoruğundakı təbii çinar meşəsi ermənilər tərəfindən məhv edilmişdir. Bu isə təkcə təbiətə deyil, bütövlükdə insanlığa zərbədir və insan hüquqlarının kobud şəkildə pozulmasıdır.

Ötən il Kopenhagendə keçirilmiş beynəlxalq konfransda ətraf mühitin mühafizəsi ilə bağlı yekun qərarın qəbul edilmədiyini xatırladan Z.Əsgərov ümid etdiyini bildirmişdir ki, bu ilin dekabrında Mexikoda keçiriləcək növbəti toplantıda hansısa yekdil qərar qəbul olunacaqdır.

Ombudsmanların da bu məsələyə diqqət ayırması çox güman ki, öz müsbət nəticəsini verəcəkdir.

Sonra Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova konfrans barədə ətraflı məlumat vermiş, müzakirə olunmuş məsələlərin əhəmiyyətindən danışmışdır. Rusiya Federasiyası Saratov vilayətinin ombudsmanı Nina Lukaşova Azərbaycanda insan hüquqlarının müdafiəsi və ətraf mühitin mühafizəsi sahəsində görülmüş işləri yüksək qiymətləndirmiş, azərbaycanlı həmkarı ilə əməkdaşlığın müsbət nəticələrindən söz açmışdır. O demişdir ki, Azərbaycanda bu sahələrdə əldə olunmuş nailiyyətlər dövlət, hökumət, parlament və ombudsmanın birgə fəaliyyətinin bariz nümunəsidir.

YUNESKO-nun Moskva bürosunun sosial və humanitar elmlər üzrə mütəxəssisi Alla Ampar göstərilən qonaqpərvərliyə və konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlıq etmişdir. O bildirmişdir ki, Azərbaycanın insan hüquqları, ətraf mühitin mühafizəsi sahəsində gördüyü işlər, qəbul olunmuş qanunlar, dövlət proqramları olduqca təqdirəlayiqdir və digər ölkələr üçün nümunə olmalıdır.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

OMBUDSMANLARIN BEYNƏLXALQ KONFRANSINDA BAKI BƏYANNAMƏSİ QƏBUL EDİLMİŞDİR

İyunun 19-da Azərbaycanda İnsan Hüquqları Günü və "Ekologiya ili" münasibətilə "İnsan hüquqları və ətraf mühit: iqlim dəyişmələrinin hüquqi və etik aspektləri" mövzusunda Ombudsmanların VIII Bakı Beynəlxalq konfransı basa çatmışdır. Konfransda Bakı bəyannaməsi qəbul edilmişdir.

Bəyannamədə ekoloji tarazlığın pozulması ilə bağlı insanı mümkün təhlükələrdən qoruyan yeni nəsil hüquqların (ekoloji hüquqlar toplusunun) formalaşması və təbliği, ekoloji hüquqların müdafiəsi sahəsində effektiv milli qanunvericilik aktlarının qəbul edilməsi, ekoloji hüquqların səmərəli müdafiəsi məqsədi ilə dövlət qurumları, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi, hərbi münaqişələr və konfliktlərin qarşısının alınması, onların dinc yolla həll olunması üçün proqramların hazırlanması və digər problemlərin həlli məsələləri əks olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ÖLKƏMİZDƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də BMT-nin ölkəmizdə yeni rezident-əlaqələndiricisi Fikrət Akçuranı qəbul etmişdir.

Dövlətimizin başçısı Fikrət Akçuranı BMT-nin Azərbaycanda rezident-əlaqələndiricisi kimi fəaliyyətə başlaması münasibətilə təbrik etmiş və ona işində uğurlar arzulamışdır. Azərbaycan ilə BMT arasında əlaqələrin sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirmişdir.

Fikrət Akçura demişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədiyi kimi, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir və qardaş Azərbaycanda BMT-nin rezident-əlaqələndiricisi vəzifəsinə təyin olunmasından qürur duyur. O, dövlətimizin başçısını əmin etmişdir ki, BMT ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra da genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.

Fikrət Akçura BMT-nin baş katibi Pan Gi Munun məktubunu Prezident İlham Əliyevə çatdırmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SİLVİA MAYER-KAYBİÇİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiçin etimadnaməsini qəbul etmişdir.

Silvia Mayer-Kaybiç fəxri qarovul dəstəsinin qarşısından keçmişdir.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etmişdir. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etmişdir.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın

bundan sonra da genişləndirilməsinin zəruriliyi vurğulanmışdır. Səfir qeyd etmişdir ki, ölkəsi ilə Azərbaycan arasında iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin inkişafı onun səfir kimi qarşısında duran ən əsas vəzifələrdəndir. Xanım Silvia Mayer-Kaybiç ölkəsinin Azərbaycanda səfirliyinin açılması üçün bütün lazımi tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

BAŞ NAZİR KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ FONDUN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

İyunun 22-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Bakıda səfərdə olan Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (IFAD) prezidenti Kanayo Nvanzeni qəbul etmişdir.

Görüş zamanı hər iki tərəf Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondla Azərbaycan arasında sıx əməkdaşlıq əlaqələrinin mövcud olduğunu məmnunluqla qeyd etmişdir. Son illər IFAD-ın Azərbaycan hökumətinin yaxından dəstəyi ilə respublikamızda kənd təsərrüfatının inkişafı, aqrar sektorda islahatların aparılması və torpaqların özəlləşdirilməsi istiqamətində iki böyük layihə işləyib həyata keçirdiyi vurğulanmışdır. Digər iki layihənin icrası isə uğurla davam etdirilir.

Azərbaycan hökumətinin IFAD ilə belə səmərəli əməkdaşlığına yüksək qiymət verən qonaq, ölkə rəhbərliyinə xüsusi minnətdarlığını ifadə edərək nəzərə çatdırmışdır ki, növbəti ildə bütün dünya üçün aktual olan yoxsulluğun aradan qaldırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində daha bir layihənin icrasına hazırlıq gedir. Yeni layihənin IFAD təşkilatı region ölkələri arasında ilk dəfə məhz Azərbaycanda həyata keçiriləcəkdir.

Görüşdə kənd təsərrüfatının aktual problemlərinə dair tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İFAD ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR

İyunun 22-də kənd təsərrüfatı naziri İsmət Abasov ölkəmizdə səfərdə olan Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (IFAD) prezidenti Kanayo Nvanze ilə görüşmüşdür.

Nazir İsmət Abasov bildirmişdir ki, Azərbaycan ilə IFAD arasında əməkdaşlıq 1997-ci ildə ölkədə təsərrüfatın özəlləşdirilməsi zamanı qurulmuşdur və bu əməkdaşlıq hazırda uğurla davam edir. IFAD ilə birgə Azərbaycanda bir sıra layihələrin həyata keçirildiyini xatırladan İ.Abasov bu layihələrin kənd yerlərində əhalinin rifahının yüksəlməsinə təsir göstərdiyini qeyd etmişdir.

Nazir, həmçinin hazırda ölkə rəhbərliyinin səyləri nəticəsində Azərbaycanda kənd təsərrüfatının böyük inkişaf yolu keçdiyini diqqətə çatdırmışdır.

K.Nvanze IFAD-ın Azərbaycanı digər ölkələrə nümunə göstərdiyini vurğulamış və ölkəmizlə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını demişdir. Qurum bu günədək Azərbaycanda ümumi məbləği 48,1 milyon ABŞ dolları olan dörd layihə və proqrama dəstək vermişdir. Bunlardan 40 minə yaxın ailə bəhrələnmişdir.

IFAD prezidenti İslam İnkişaf Bankı ilə birgə maliyyələşdiriləcək və ümumi dəyəri 100 milyon dollar olan kənd yerlərinin inkişafı ilə bağlı layihənin hazırlıq mərhələsində olduğunu da söyləmişdir.

BAKIDA İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-Cİ İLLİK TOPLANTISININ AÇILIŞ MƏRASİMİ OLMUŞDUR

İyunun 23-də Bakıda, "Gülüstan" sarayında İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısının açılış mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

İslam İnkişaf Bankı Qrupunun Bakıda keçirilən 35-ci illik toplantısında quruma üzv olan 56 ölkənin maliyyə, iqtisadiyyat və planlaşdırma nazirləri, regional və beynəlxalq maliyyə təşkilatlarının, inkişaf üzrə milli maliyyə təşkilatlarının, bankların, İslam Konfransı Təşkilatına üzv ölkələrin nümayəndələri və digər yüksək vəzifəli qonaqlar iştirak edir. Toplantıda əsasən Nigeriyanın İslam İnkişaf Bankının əsas kapitalındakı iştirak payını artırmaqla bağlı müraciətinə baxılması, 2010-cu ildə bankın xalis gəlirindən texniki yardım qrant əməliyyatlarına və təqaüd proqramına vəsait ayırması, bankın Müdirlər Şurasının 39-cu illik toplantısının Tacikistanda keçirilməsi ilə bağlı bu ölkənin dəvəti, 36-cı illik toplantının tarixinin və yerinin müəyyənləşdirilməsi məsələləri müzakirə olunacaqdır. Bundan əlavə, toplantı çərçivəsində bankın üzvü olan ölkələr üçün yeni layihələrin təsdiqi, bir sıra kredit sazişlərinin imzalanması nəzərdə tutulur.

Əvvəlcə rəsmi foto çəkdirildi.

Mərasimdə iştirak edən müdirlər, icraçı direktorlar və İslam İnkişaf Bankı Qrupunun idarə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundular.

İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısı müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

Toplantını İslam İnkişaf Bankı Müdirlər Şurasının sədri, Azərbaycanın iqtisadi inkişaf naziri Şahin MUSTAFAYEV açaraq dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident!

Hörmətli müdirlər və alternativ müdirlər!

Hörmətli nazirlər və səfirlər!

Hörmətli qonaqlar, qardaş və bacılar!

Böyük məmnunluqla sizi ikinci evinizdə - Bakı şəhərində, Azərbaycanda salamlayıram. Mən hər birinizə bu bir neçə günü xoş keçirməyi, iclaslarımıza isə uğurlu nəticələr arzulayıram. Eyni zamanda, ümid edirəm ki, iclaslar zamanı qəbul ediləcək qərarlar Cənubi Amerikada Surinam, Şimali Afrikada Mərakeş, Cənub-Şərqi Asiyada Bruney və İndoneziya arasında böyük bir ərazidə yerləşən bütün üzv ölkələr arasında əlaqələri daha da gücləndirəcəkdir.

Xanımlar və cənablar, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin açılış mərasimində iştirakı məclisimizə şərəf verir. Bütün iclas iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə açılış mərasimində iştirak etdiyinə görə dərin minnətdarlığımı bildirirəm. Möhtərəm cənab Prezidentin icazəsi ilə Müdirlər Şurasının sədri kimi öz çıxışımı diqqətinizə çatdırmaq istərdim.

İslam İnkişaf Bankının 35-ci illik toplantısında iştirak etdiyinə və göstərdiyi himayədarlığa görə, bank qrupunun müdirləri adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə dərin minnətdarlıq və təşəkkür etməkdən böyük şərəf hissi duyuram.

İslam İnkişaf Bankının Müdirlər Şurasının sədri olaraq, icazə verin hamımıza, Şuranın

iclasına Azərbaycanın ev sahibliyi etməsinə yaratdığınız imkana görə təşəkkürümüzü bildirim. Sizin iştirakınızdan şərəf duyur və hər birinizi ölkəmizdə ürəkdən salamlayıram. Ümid edirəm ki, təşkilati işlər ürəyinizcədir və geri qayıtdıqda bu vacib iclasdan, ölkəmiz və xalqımızla bağlı xoş xatirələr aparacaqsınız. Eyni zamanda, üzv ölkələrin sosial-iqtisadi inkişafına verdikləri tükənməz töhfələrinə görə bankın prezidenti hörmətli Əhməd Məhəmməd Əliyə, İcraçı Direktorlar Şurasına və bankın bütün heyətinə dərin minnətdarlığımı bildirirəm. Yüksək keyfiyyət standartlarının saxlanılması istiqamətində göstərdiyiniz səylər öz əksini beynəlxalq reytinq agentlikləri tərəfindən davamlı olaraq verilən ən yüksək reytinq dərəcəsində tapır.

Hörmətli müdirlər!

Xanımlar və cənablar!

Bankımızın 35-ci illik toplantısına qlobal səviyyədə sosial-iqtisadi inkişafa təsir etmiş maliyyə böhranının mənfi təsirlərindən sonra dünya iqtisadiyyatının bərpa olunduğu bir vaxtda yığışmışıq. Böhranın İslam İnkişaf Bankının bəzi üzv ölkələrinə təsir etməsinə baxmayaraq, ümumilikdə, üzv ölkələrdə iqtisadi sabitlik saxlanılmışdır. Bu baxımdan, mən böhrana qarşı üzv ölkələrin dəstəklənməsi istiqamətində görülmüş konstruktiv tədbirləri və İslam İnkişaf Bankının göstərdiyi müqaviməti yüksək qiymətləndirirəm.

Bu gün qonağı olduğunuz Azərbaycan qısa müddət ərzində həyatın bütün sahələrində aparılmış əsaslı islahatlar nəticəsində böyük inkişaf yolu keçmiş, iqtisadi artım templərinə görə dünyanın aparıcı dövlətlərindən birinə çevrilmişdir.

Belə ki, 2004-2009-cu illərdə Azərbaycanda ümumi daxili məhsul (ÜDM) 2,8 dəfə, xarici ticarət dövriyyəsi 2,8 dəfə, o cümlədən ixrac 3,9 dəfə, dövlət büdcəsinin gəlirləri 7 dəfə artmışdır. Təbii ki, ölkənin sürətlə artan iqtisadi imkanları əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə əlverişli zəmin yaratmışdır. Son 5 ildə 840 mindən çox yeni iş yeri açılmış, əhalinin gəlirləri 2 dəfə, orta aylıq əmək haqqı 3 dəfə artmış, yoxsulluğun səviyyəsi isə 4 dəfə azalaraq 11 faiz təşkil etmişdir. Ölkənin enerji və əsas məhsulları üzrə ərzaq təhlükəsizliyi təmin edilmişdir, ətraf mühitin qorunması üçün müvafiq dövlət proqramı həyata keçirilir. İri infrastruktur layihələri həyata keçirilmiş, çoxlu sayda sosial obyektlər, o cümlədən xəstəxanalar, məktəblər tikilib istifadəyə verilmişdir. Təkcə onu qeyd etmək istəyirəm ki, bu dövrdə 1800 yeni məktəb binası istifadəyə verilmişdir. Bu, ölkədəki məktəblərin 40 faizini təşkil edir.

Hətta qlobal maliyyə-iqtisadi böhranın ən yüksək həddə çatdığı 2009-cu ildə belə Azərbaycanda ÜDM 9,3 faiz artmış, dünya ticarətində durğunluq meyillərinə baxmayaraq, xarici ticarət dövriyyəsinin müsbət saldosu 8,6 milyard dollar təşkil etmiş, strateji valyuta ehtiyatlarımız artaraq xarici borcu 6 dəfə üstələmişdir. Bununla yanaşı, əhalinin gəlirləri 6,7 faiz, orta aylıq əmək haqqı isə 8,6 faiz artmışdır. Beləliklə, böhranın Azərbaycan iqtisadiyyatına mənfi təsiri demək olar ki, tam neytrallaşdırılmışdır.

Qeyd olunan uğurların təməli müasir Azərbaycan dövlətinin memarı, böyük siyasət korifeyi, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, qərgin əməyi, uzaqgörən islahatlar strategiyası ilə yaradılmışdır. Bu strategiyanın əsasını liberal bazar iqtisadiyyatına keçid, uğurlu neft strategiyası, qeyri-neft sektorunun dinamik yüksəlişi, əlverişli biznes mühitinin formalaşdırılması və sahibkarlığın inkişaf etdi-

rilməsi, ölkə iqtisadiyyatının şaxələndirilməsi, tam məşğulluq, gəlirlərin ədalətli bölüşdürülməsi, ətraf mühitin qorunması nəticəsində dayanıqlı iqtisadi inkişafa və əhalinin layiqli həyat səviyyəsinə nail olmaq təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyev strategiyasının inamla davam etdirilməsi, düşünülmüş, elmi əsaslara söykənən, praqmatik və qətiyyətli iqtisadi siyasətin həyata keçirilməsi sayəsində son illərdə sıçrayışlı inkişafa nail olunmuş, Azərbaycan regionun aparıcı güc mərkəzinə çevrilmişdir. Təsadüfi deyil ki, bu siyasətin həyata keçirilməsi nəticəsində əldə edilən uğurlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Nəzərinizə çatdırmaq istərdim ki, 2009-2010-cu illər üçün hazırlanmış "Qlobal rəqabətlilik hesabatında" Azərbaycan 18 pillə irəliləyərək 133 ölkə arasında 51-ci yerə, MDB ölkələri arasında isə 1-ci yerə yüksəlmişdir. Dünya Bankının hazırladığı "Doing Business" hesabatında Azərbaycan ötən il ən islahatçı ölkə elan olunmuş, bu il isə öz mövqelərini qoruyub saxlamışdır. Bu yaxınlarda isə "Fitch" beynəlxalq reytinq agentliyi ilk dəfə olaraq, Azərbaycana investisiya səviyyəli reytinq vermişdir.

Şahin Mustafayev Azərbaycanın əldə etdiyi iqtisadi uğurlardan danışarkən İslam İnkişaf Bankı ilə ölkəmizin həyata keçirdiyi əməkdaşlığın uğurlu olduğunu da diqqətə çatdırmışdır. Nazir bankın Bakıda keçirilən illik toplantısının islam ölkələrinin daha da inkişafına hərtərəfli töhfə verəcəyinə əminliyini ifadə etmişdir.

* * *

İslam İnkişaf Bankı Qrupunun prezidenti Əhməd MƏHƏMMƏD ƏLİ toplantıda çıxış etdi. O, bu tədbirin təşkilində verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Ölkəmizdə gördükləri qonaqpərvərliyi yüksək qiymətləndirən Əhməd Məhəmməd Əli Azərbaycan hökumətinə və xalqına da minnətdarlığını çatdırdı.

O, ölkəmizin böyük tarixə və yüksək mədəni dəyərlərə sahib olduğunu vurğulayaraq dedi:

- Bu tarix ulu babalarınız tərəfindən yazılmış və ölkənizin islam sivilizasiyasına verdiyi böyük töhfədən xəbər verir. Bizim islam sivilizasiyasının formalaşdırılmasında ölkəniz müsbət və konstruktiv rol oynamışdır. Peyğəmbərin bir çox davamçıları bu ruzili ölkə ilə - Azərbaycanla təmasda olmuşlar. Azərbaycan dünyaya bilik, rəhbərlik və nailiyyətlər sahələrində bir çox tanınmış mütəfəkkirlər, yazarlar və alimlər bəxş etmişdir. Onların arasında Qüdsü azad edən Səlahəddin İbn Əyyubun atası Nəcməddin əl-Əyyubini qeyd etmək olar. Azərbaycan "Kitab Təlxis əl-asar və əcaib əl-malik əl-qəhhar ("Abidələr" haqqında kitabın ixtisarı və qüdrətli şahın möcüzələri") əsərinin müəllifi olan məşhur coğrafiyaşünas Əbdürrəşid Saleh ibn-Nuri əl-Bakuvi, o cümlədən riyaziyyatçı Əl-Səmaval İbn Yəhya İbn Ayaş əl-Hasib və bir çox digər şəxslərin vətənidir. Bu bərəkətli ölkənin xalqına müraciət etmiş şair əl-Buhturi aşağıdakı misraları söyləmişdir: "Ey böyük Azərbaycan xalqı, zəfəriniz qüsursuz, nöqsansızdır. Xeyir işlərinizdə sizin ümumi sadiqliyinizin şahidi oldum və ulduzlu hilalınız düşmən qarşısında hər zaman səmalara qalxdı".

Beləliklə, Azərbaycan xalqının zəfər çaldığı anlar bizim qarşımızda Azərbaycan xalqının müdrikliyini, onun sadiqliyini nümayiş etdirdi. Xalqınız öz xoş təbiətinə, xasiyyətinə görə bütün müsəlman ümməti tərəfindən mehribanlıqla qarşılandı və özünü tam şəkildə ümmətimizin işlərinə ithaf etdi. Bu baxımdan mən əmirlərimizin yazılarına xüsusi olaraq istinad edirəm. Onların yazılarında sizin xalqınızın qonaqpərvərliyi qeyd edilmişdir.

Cənab Prezident, islam ölkələri bu gün mühüm bir tədbirə toplaşıb. Biz Sizin qurumlarınıza, Sizin rəhbərliyinizə İslam İnkişaf Bankı olaraq inanırıq. Biz bir bank kimi Sizin verdiyiniz dəstəyə dərin minnətdarlığımızı bildiririk. Burada iştirak edən bütün nümayəndə heyətləri olduqca gözəl, urbanistik inkişafın şahididirlər. Azərbaycanda bu dəyişiklikləri görürlər.

Cənab nazir bu gün səhər öz çıxışında bizə Azərbaycanın iqtisadiyyatı barədə bəzi rəqəmləri misal gətirdi. Bəli, son illər ərzində biz böyük dünya maliyyə böhranının şahidi olduq. Lakin həmin böhran bu ölkənin artım templərinə mane olmadı. Beləliklə, bütün bu nailiyyətlərə görə Sizin mərhum atanız Heydər Əliyevə bizim hamımız borcluyuq. Allah ona rəhmət etsin!

O, müasir Azərbaycanın əsaslarını qoydu. Mən belə deyərdim, o, müasir Azərbaycanın banisidir. O, öz müdrikliyi, öz bacarığı ilə müasir Azərbaycanı qura bildi. Sizin xidmətinizdə olan İslam İnkişaf Bankı göstərdiyiniz dəstəyə, diqqətə görə, mərhum atanızın, - Allah ona rəhmət etsin, - yolunu davam etdirdiyinizə görə Sizə minnətdardır.

Qurumumuz 1992-ci ildən etibarən Azərbaycan ilə sıx əməkdaşlıq edir. Həmin vaxtdan etibarən, ümumi məbləği 528 milyon ABŞ dolları olan 28 maliyyə əməliyyatı aparılmışdır. Bank Azərbaycan hökuməti ilə razılığa gələrək, ümumi məbləği 450 milyon dollar olan 11 layihəni əhatə edən üçillik işçi proqramını qəbul etmişdir. İslam İnkişaf Bankı davamlı inkişafın vacibliyini nəzərə alaraq, Azərbaycana dəstəyini əsirgəməyəcəkdir. Biz Dağlıq Qarabağdan olan məcburi köçkünlər və qaçqınların - bizim qardaşlarımızın çəkdiyi əziyyətlərə də bələdik. Biz bilirik ki, Azərbaycan işğaldan əziyyət çəkibdir. Biz bir qurum olaraq Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsini, Azərbaycanın ərazi bütövlüyünün bərpasını, beynəlxalq səviyyədə təsdiqlənmiş ərazisinin bərpasını istəyirik. Biz bilirik ki, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi mövcuddur. Bununla bağlı İslam Konfransı Təşkilatı dəfələrlə qətnamələr qəbul etmiş və həmin qətnamələrdə Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etmişdir.

İslam İnkişaf Bankının fəaliyyətindən danışan Əhməd Məhəmməd Əli bildirdi ki, son bir neçə ildə bank üzv ölkələrin inkişafına 7,5 milyard dollar vəsait ayırmışdır. Bu da həmin ölkələrdə dünya maliyyə böhranının fəsadlarının aradan qaldırılmasına yardım məqsədi daşıyır. Hazırda İslam İnkişaf Bankı qurumun üzvü olan ölkələrdə yoxsulluq problemlərinin həllinə diqqət göstərir, İslam İnvestisiya Bankının yaradılmasını dəstəkləyir.

Sonra İslam İnkişaf Bankının qruplarını təmsil edən nümayəndələr çıxış etdilər.

Afrika ölkələri qrupu adından çıxış edən Çad Respublikasının iqtisadiyyat və planlaşdırma naziri Məhəmməd ƏLI HƏSƏN Afrika qitəsinin sosial-iqtisadi inkişafı və dünya maliyyə böhranının aradan qaldırılması istiqamətində görülən işlər barədə danışdı. Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan hökuməti və xalqına yüksək qonaq-

pərvərliyə görə dərin təşəkkürünü bildirən Məhəmməd Əli Həsən tədbirin yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdırdı.

Ərəb ölkələri qrupu adından çıxış edən Suriyanın maliyyə naziri Məhəmməd ƏL-HÜSEYN bu cür mötəbər yığıncaqda iştirak etməkdən məmnunluğunu bildirdi. O, İslam İnkişaf Bankının 35 illik fəaliyyəti dövrünə nəzər saldı və qeyd etdi ki, bu müddətdə bank həm keyfiyyət, həm də kəmiyyət baxımından əsaslı inkişaf yolu keçmişdir.

Asiya ölkələri qrupu adından danışan Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr və investisiya naziri Elyar QƏNİYEV dünyada iqtisadi böhranın fəsadlarının hələ də qaldığı bir müddətdə İslam İnkişaf Bankının bu cür tədbirinin keçirilməsinin mühüm əhəmiyyət daşıdığını dedi. Bildirdi ki, 2009-cu il bir çox dövlətlər üçün iqtisadi cəhətdən sınaq dövrü olsa da, bəzi islam ölkələri kimi Özbəkistan da vəziyyətdən uğurla çıxmağa çalışır və bu məsələdə İslam İnkişaf Bankının rolu diqqətəlayiqdir.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısında nitq söylədi.

İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-Cİ İLLİK TOPLANTISININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Bismillahir-Rəhmanir-Rəhim!

Hörmətli İslam İnkişaf Bankının prezidenti doktor Əhməd Məhəmməd Əli!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İslam İnkişaf Bankının Müdirlər Şurasının illik toplantısının Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox əlamətdar bir hadisədir. Əminəm ki, bu toplantı uğurlu keçəcək və toplantının nəticələri bankın üzvü olan ölkələr arasında əməkdaşlığın dərinləşməsinə xidmət edəcək, eyni zamanda, bankın perspektivləri haqqında geniş fikir mübadiləsi aparılacaqdır.

İslam İnkişaf Bankı ilə Azərbaycan arasında əlaqələr çox uğurla və sürətlə inkişaf edir. Bu gün bu barədə burada artıq rəqəmlər göstərildi. Uzun illərdir ki, biz bu səmərəli əməkdaşlıqdan böyük mənfəət götürürük və Azərbaycanın uğurlu iqtisadi inkişafında İslam İnkişaf Bankının xidməti çox böyük olmuşdur. Əminəm ki, gələcək illərdə də bu əməkdaşlıq dərinləşəcək və ölkəmiz qarşısında duran iqtisadi və sosial məsələlərin həlli üçün biz uğurlu əməkdaşlığımızı davam etdirəcəyik.

Əməkdaşlığımızın gözəl perspektivləri vardır. Azərbaycan öz inkişaf dövrünü yaşayır və bankın xətti ilə Azərbaycanda həyata keçirilmiş layihələr özünü doğruldur. Ölkəmizin hərtərəfli inkişafını təmin etmək üçün biz gələcəkdə də iqtisadi islahatlarımızı davam etdirəcəyik. Bir sözlə, mən qeyd etmək istəyirəm ki, İslam İnkişaf Bankı ilə Azər-

baycan arasında bu günə qədərki əməkdaşlıq çox uğurlu olmuşdur. Biz bu əməkdaşlıqdan çox məmnunuq və ümid edirik ki, biz gələcəkdə də bu əməkdaşlığın dərinləşməsinə bərabər səylərimizi göstərəcəyik.

Hesab edirəm ki, bugünkü toplantı, eyni zamanda, bankın üzvü olan ölkələr arasında da əlaqələrin genişlənməsinə xidmət edəcək, islam həmrəyliyini gücləndirəcəkdir. Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini göstərir. Baxmayaraq ki, biz müstəqil ölkə kimi nisbətən gəncik, biz artıq İslam Konfransı Təşkilatının çox fəal üzvünə çevrilmişik. İslam Konfransı Təşkilatının xətti ilə Azərbaycanda çoxsaylı tədbirlər keçirilmişdir və o tədbirlərin çox gözəl nəticələri vardır. İslam həmrəyliyinin gücləndirilməsi bizim ümumi işimizdir. Biz bu həmrəyliyi bir-birimizə verdiyimiz siyasi dəstəklə gücləndirə bilərik. Aramızda olan iqtisadi əlaqələrin inkişafı sayəsində bu həmrəyliyi daha da gücləndirə bilərik. Belə imkanlar vardır və İslam Konfransı Təşkilatının üzvü olan ölkələr arasında iqtisadi sahədə əməkdaşlığın genişlənməsi hamımızın marağındadır. Azərbaycan öz tərəfindən bu istiqamətdə səylərini davam etdirəcəkdir. Nəinki iqtisadi və siyasi sahədə, eyni zamanda, bütün başqa sahələrdə - mədəniyyət, humanitar sahələrində əlaqələrimizi gücləndirməliyik.

Böyük iftixar hissi ilə deyə bilərəm ki, 2009-cu il Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan edilmişdi və bütün il boyu müxtəlif tədbirlər keçirilmişdi. Yəni, biz bütün istiqamətlərdə çalışırıq ki, müsəlman ölkələri arasında əməkdaşlığa öz töhfəmizi verək və bu səylərimizi davam etdirəcəyik.

Mən xüsusilə Azərbaycanın böyük dostu doktor Əhməd Məhəmməd Əlinin çıxışında səslənən fikirlərə öz münasibətimi bildirmək istəyirəm. Ona böyük minnətdarlığımı bildirmək istəyirəm ki, Azərbaycan dövləti və xalqı haqqında çox xoş sözlər ifadə edib, eyni zamanda, ölkəmiz üçün ən ağır, ən birinci problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildirib. Bu, çox qiymətli və dəyərli fikirlərdir. Bu, əsl dostluq əlamətidir. Mən bu fürsətdən istifadə edərək, bütün müsəlman bacı-qardaşlarımıza Azərbaycanın haqq işinə öz dəstəyini verdiklərinə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, ölkəmiz və bölgəmiz üçün böyük problemlər yaradır. Ermənistanın Azərbaycana əsassız torpaq iddiası nəticəsində Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazisinin 20 faizi hazırda Ermənistanın işğalçı qüvvələrinin işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu işğal nəticəsində zəbt edilmiş ərazilərdə demək olar ki, bütün binalar, infrastruktur dağıdılıbdır, muzeylərimiz talan edilibdir, eksponatlar oğurlanıbdır. Əcdadlarımızın qəbirləri, tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən dağıdılıbdır. İşğal edilmiş torpaqlar artıq ölü bölgəyə çevrilibdir. Bu ərazilərdə azərbaycanlılar əsrlər boyu yaşamışlar.

Ermənistanın işğalçı siyasəti bu gün də davam edir. Dağlıq Qarabağ və onun ətrafında yerləşən bölgələr uzun illərdir ki, işğal altında saxlanılır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün ola bilər və bizim mövqeyimizi, yəni haqq-ədalət mövqeyini dəstəkləyən beynəlxalq təşkilatların çoxsaylı qərarları və qətnamələri vardır. Bu gün hörmətli cənab Əh-

məd Məhəmməd Əli bu barədə öz fikirlərini bildirdi. BMT Təhlükəsizlik Şurası, yəni beynəlxalq müstəvidə ən ali orqan tərəfindən bu məsələ ilə bağlı dörd qətnamə qəbul edilmişdir. Bu qətnamələrdə birmənalı göstərilir ki, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın ərazilərindən qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr icrasız qalıbdır.

İslam Konfransı Təşkilatı dəfələrlə buna oxşar qətnamələr qəbul edibdir. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, bütün başqa beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyirlər. Ancaq Ermənistan bu beynəlxalq hüquq normalarına məhəl qoymur. Ermənistan beynəlxalq təşkilatların qərarları ilə hesablaşmır və bu siyasətə, bu işğalçı siyasətə son qoyulmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və işğaldan əziyyət çəkmiş bütün insanlar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar.

Bir də demək istəyirəm ki, ölkəmiz üçün bu, ən böyük və ən ağrılı problemdir və Azərbaycan dövlət müstəqilliyinə qovuşandan sonra bu problem bir nömrəli problem kimi qarşımızda dayanır.

Buna baxmayaraq, biz müstəqillik dövründə böyük və şərəfli yol keçə bilmişik. Azərbaycan müstəqilliyi əldə edəndə - 1991-ci ildə vəziyyətimiz çox ağır idi. Bir tərəfdən erməni işğalı, digər tərəfdən ölkə daxilində gedən xoşagəlməz proseslər, iqtisadi tənəzzül demək olar ki, ölkəni iflic vəziyyətinə salmışdı. Ancaq Azərbaycan xalqının iradəsi və böyük lider Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan o böhranlı vəziyyətdən şərəflə çıxa bilmişdir. 1990-cı illərin ortalarında sabitlik yaranmışdır, həm iqtisadi, həm siyasi sabitlik bərqərar olunmuşdur. Bu, bizə imkan verdi ki, sürətlə inkişaf edək. O gündən bu günə qədər Azərbaycanın hərtərəfli inkişafı ölkə qarşısında duran problemlərin həlli üçün bizə şərait yaratdı.

1995-2010-cu illərdə ölkə iqtisadiyyatına 80 milyard dollardan çox sərmayə qoyulmuşdur. Bu sərmayə nəticəsində ölkə iqtisadiyyatının müxtəlif sahələri inkişaf etməyə başlamışdır. Bu gün iqtisadi inkişafımızı göstərən bəzi rəqəmlər səsləndi. Azərbaycan son illər ərzində iqtisadi inkişaf baxımından, sözün əsl mənasında, ən sürətlə inkişaf edən ölkədir. Ümumi daxili məhsulun, sənaye istehsalının artımı, investisiyaların cəlb edilməsi və ən önəmlisi yoxsulluğun demək olar ki, 4 dəfədən çox aşağı düşməsi bizim əsas nəticələrimizdir. Bu onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Biz sadəcə olaraq 20 ilə yaxındır ki, bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Bundan əvvəl - Sovet İttifaqının tərkibində yaşadığımız dövrdə Azərbaycanda bazar iqtisadiyyatı yox idi. Ancaq buna baxmayaraq, artıq iqtisadiyyatımızın 85 faizi özəl sektorda formalaşır və özəl sektorun inkişafı bizim üçün prioritetdir. Biz özəl sektoru müxtəlif yollarla stimullaşdırmaq üçün tədbirlər görürük ki, Azərbaycanda güclü sahibkarlar sinfi yaransın. Artıq bunun nəticələrini görürük.

Biz çalışmışıq və çalışırıq ki, ölkə iqtisadiyyatının bütün sahələrini inkişaf etdirək. Qeyri-neft sektorunu inkişaf etdirək və bu istiqamətdə də böyük nailiyyətlər əldə edildi. Bunun ən gözəl göstəricisi ondan ibarətdir ki, həm iqtisadi və maliyyə böhranına, eyni zamanda, bildiyiniz kimi, dünyada neftin qiymətinin bir neçə dəfə aşağı düşməsinə baxmayaraq, keçən il Azərbaycan iqtisadiyyatı 9 faizdən çox artmışdır. Yəni, bu artım bu günə qədər görülən işlərin nəticəsidir. Artıq Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır, bir sektordan asılı deyildir. Azərbaycan investisiya qoyuluşu üçün də çox əlverişli ölkədir. Həm daxili, həm xarici investisiyalar Azərbaycanda dövlət səviyyəsində

qorunur və bu, bizə imkan verir ki, iqtisadiyyatımızı sürətlə inkişaf etdirək.

Biz beynəlxalq maliyyə qurumları ilə də sıx əməkdaşlıq edirik və bu əməkdaşlığın da gözəl nəticələri vardır. Ölkədə, ümumiyyətlə, iqtisadi və siyasi sabitlik mövcuddur. Hesab edirəm ki, uğurlarımızın əsas səbəbi məhz bundan ibarətdir. Çünki sabitlik olmayan yerdə iqtisadi inkişafdan, investisiyalardan söhbət gedə bilməz. Biz bunu yaxşı bilirik. Çünki müstəqilliyimizin qısa tarixində müxtəlif dövrlər olmuşdur və biz görürdük ki, sabitlik pozulanda bu, öz mənfi nəticələrini dərhal iqtisadi məsələlərdə də göstərir.

Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə baxır. Biz ölkə iqtisadiyyatının gücləndirilməsi sahəsində əldə edilmiş uğurlarla kifayətlənməyəcəyik. Qarşımızda böyük hədəflər var ki, Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına daxil edək. Bu istiqamətdə artıq gözəl nəticələr vardır. Bu gün rəqəmlər səsləndirildi. Rəqabət qabiliyyətliliyinə görə Azərbaycan MDB məkanında birinci, dünya miqyasında isə 51-ci yerdədir. Biz hələ bu yolun başlanğıcındayıq. İqtisadi islahatlarımızın davam etdirilməsi və böyük layihələrin icrası nəticəsində ölkədə əlavə imkanlar yaradılacaqdır.

Bir sözlə, iqtisadi sabitlik imkan verir ki, biz siyasi cəhətdən də müstəqil siyasətimizi cəsarətlə aparaq. Azərbaycan o ölkələrdəndir ki, müstəqil siyasət aparır. Bizim siyasətimiz Azərbaycan xalqının maraqlarına əsaslanır və eyni zamanda, bölgədə gedən proseslərə də müsbət təsir göstərir. Biz beynəlxalq və regional əməkdaşlıq işlərində çox fəal iştirak edirik. Azərbaycanın təşəbbüsü ilə bölgədə uğurla icra edilən nəhəng enerji layihələri bunun bariz nümunəsidir. Bizim təşəbbüsümüzlə müxtəlif istiqamətlərə neft-qaz kəmərləri çəkildi. Bu gün bu kəmərlər həm Azərbaycanın iqtisadi maraqlarını təmin edir, bölgənin inkişafına xidmət göstərir, bölgədə gedən əməkdaşlığı dərinləşdirir və bütövlükdə, qitənin enerji təhlükəsizliyinə də öz müsbət təsirini göstərir. Biz enerji resurslarımızdan çox uğurla və məharətlə istifadə edə bildik və əldə edilmiş gəlirləri qeyri-neft sektoruna yönəltdik. Məhz bunun nəticəsində biz ölkə iqtisadiyyatında şaxələndirmə meyillərini daha da gücləndirdik.

Biz, eyni zamanda, bütün maliyyə sistemimizdə şəffaflıq prinsiplərini tətbiq edirik və bu istiqamətdə də böyük nailiyyətlər əldə edilibdir. Azərbaycanın Dövlət Neft Fondu çox şəffaf bir qurumdur, Birləşmiş Millətlər Təşkilatı tərəfindən mükafatlandırılıb və hasilatda şəffaflıq təşəbbüsünün fəal üzvü kimi Azərbaycan bu sahədə də liderlik göstərir. Azərbaycanın enerji resursları hələ uzun illər bizə imkan verəcək ki, iqtisadiyyatımızı gücləndirək. Ancaq bizim əsas vəzifəmiz bu kapitalı insan kapitalına çevirməkdir. Bu məqsədlə Azərbaycanda sosial və humanitar sahələrdə çox böyük tədbirlər görülür.

Sosial sahənin gücləndirilməsi üçün konkret proqramlar icra edilir. Təhsil, səhiyyə, mədəniyyət, idman - bu sahələr bizim üçün prioritetdir. Gəlirlərin ədalətli bölüşdürülməsi bir tərəfdən cəmiyyətdə ədalət prinsiplərinin bərqərar olunmasını təsdiqləyir, digər tərəfdən bizə imkan verir ki, ölkə qarşısında duran vəzifələri daha da böyük səmərə ilə və keyfiyyətlə icra edək. Biz böyük infrastruktur layihələrini, xüsusilə nəqliyyat sektorunda layihələri icra edirik ki, onlar ölkəmizi gücləndirir və eyni zamanda, beynəlxalq məna daşıyır. Bizim təşəbbüsümüzlə çəkilən dəmir yolları, açılan dəhlizlər bölgə üçün böyük əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi nəticəsində Asiya ilə Avropa yeni dəmir yolu ilə birləşəcəkdir. Bu təşəbbüsü biz göstərmişik və ilkin maliyyə resurslarını biz səfərbər etmişik. Eyni zamanda, Şimal-Cənub dəhlizinin fəaliyyəti nəticəsində Azərbaycan bu baxımdan da öz imkanlarını genişləndirəcəkdir. Bi-

zim coğrafi vəziyyətimiz əlverişlidir. Ancaq infrastruktur layihələri olmadan bu coğrafi vəziyyət o qədər də böyük əhəmiyyət daşımır. Biz öz coğrafi vəziyyətimizdən uğurla istifadə etməliyik və edirik. Beləliklə, Azərbaycan öz tarixi missiyasını davam etdirəcəkdir. Tarixi İpək Yolu vaxtilə Azərbaycan ərazisindən keçmişdir. Biz bu gün müasir infrastruktur layihələri ilə, öz təşəbbüslərimizlə bu tarixi İpək Yolunu müxtəlif formalarda bərpa edirik.

Qarşımızda duran vəzifələr çoxdur. Bu günə qədər əldə edilmiş uğurlar bizi daha da ruhlandırır. Çünki iqtisadi cəhətdən möhkəm və sabit olan ölkə əlbəttə ki, siyasi çəkisini də artıracaqdır. Azərbaycanın bölgədəki rolu artır, dünyadakı mövqeləri möhkəmlənir. Biz beynəlxalq təşkilatlarda özümüzü çox etibarlı tərəfdaş kimi göstərə bilmişik. Qonşu dövlətlərlə bizim çox səmərəli, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlərimiz vardır. Bu da hər bir ölkə üçün çox vacibdir ki, onun qonşuluğunda da işlər yaxşı getsin.

Bizim gələcək planlarımız da aydındır. Biz öz işimizi proqram əsasında qururuq. 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair birinci proqramın uğurlu icrası bizə imkan verdi ki, artıq ölkəmizin iqtisadiyyatını böyük dərəcədə şaxələndirək. Bu gün biz ikinci dövlət proqramını icra edirik. 2009-2013-cü illəri əhatə edən bu proqramın nəticəsində əminəm ki, ölkə qarşısında duran əsas infrastruktur və sosial məsələlər öz həllini tapacaqdır. Bizim proqramlarımız çox konkret xarakter daşıyır. Onların icra mexanizmləri, konkret cədvəli və ən önəmlisi maliyyə resursları vardır. Bu, bizə deməyə imkan verir ki, ikinci proqram da uğurla icra ediləcəkdir.

Bununla bərabər, bir daha demək istəyirəm ki, biz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığımızı dərinləşdirəcəyik. Xüsusilə, İslam İnkişaf Bankı ilə əməkdaşlığımızın çox gözəl perspektivləri vardır. Biz bir daha İslam İnkişaf Bankının rəhbərliyinə böyük minnətdarlıq hissi ilə müraciət etmək istəyirik. Minnətdarlığımızı bildirmək istəyirik ki, bizə kömək göstərildi, xüsusilə ölkəmizin ağır illərində bu əməkdaşlıq, bu yardımlar, bu kreditlər çox böyük məna daşıyırdı. Bu gün də böyük məna daşıyır və mən heç şübhə etmirəm ki, biz bu uğurlu əməkdaşlığı gələcəkdə davam etdirəcəyik.

Bir daha demək istəyirəm ki, bugünkü toplantı ölkəmizin həyatında xüsusi yer tutur. Bir tərəfdən bizim üçün böyük şərəfdir ki, belə bir beynəlxalq tədbir Azərbaycanda keçirilir. Digər tərəfdən, mən bilirəm ki, qonaqlarımızın arasında Azərbaycanda ilk dəfə olanların sayı az deyildir. Bu da bizə, bizim hamımıza imkan yaradır ki, bir-birimizi daha da yaxşı tanıyaq, həm şəxsi əlaqələr yaradılsın, həm də nazirlər səviyyəsində əlaqələr daha da gücləndirilsin.

Azərbaycanın böyük tarixi, böyük mədəniyyəti vardır. Bu gün dostumuz doktor Əhməd Məhəmməd Əli Azərbaycanın tarixi haqqında çox dəyərli fikirlər söyləmişdir. Ancaq müstəqillik tariximiz o qədər də böyük deyildir. Ona görə bəzi hallarda Azərbaycan haqqında dünyada kifayət qədər məlumat yoxdur. Ancaq bu, müvəqqəti bir məsələdir. Vaxt keçdikcə Azərbaycanı tanıyanların sayı çox olacaqdır və ölkə haqqında dəqiq, qərəzsiz məlumat üstünlük təşkil edəcəkdir. Biz isə istəyirik ki, müsəlman aləmi arasında bu əməkdaşlığı daha da dərinləşdirək. Biz istəyirik ki, müsəlman ölkələri daim bir-birinə dəstək olsunlar. Bütün beynəlxalq təşkilatlarda bir-birimizin lehinə səsimizi ucaltmalıyıq. Biz bunu edirik, daha da böyük səviyyədə və daha da böyük miqyasda et-

məliyik. Çünki bizim gücümüz birliyimizdədir. Bizim amalımız da birdir. Biz istəyirik ki, dünyada sülh, əmin-amanlıq, ədalət olsun. Biz istəyirik işğalçılar işğal edilmiş bütün torpaqlardan çəkilsinlər. İşğaldan əziyyət çəkmiş bütün insanlar öz doğma torpaqlarına, tarixi torpaqlarına qayıtsınlar ki, nəhayət dünyada ədalət bərpa edilsin. Ancaq bu, asan məsələ deyildir. Əfsuslar olsun ki, ədalətsizliklər də kifayət qədər çoxdur. Biz birgə səylərimizlə bu ədalətsizliklərə qarşı mübarizə aparmalıyıq. Öz haqq səsimizi ucaltmalıyıq. Digər tərəfdən, gücümüzü, müştərək gücümüzü iqtisadi imkanlarla artırmalıyıq.

Bu niyyətlə mən sizə bir daha öz hörmətimi bildirmək istəyirəm, sizi bir daha Azərbaycanda salamlayıram. Əminəm ki, Azərbaycana səfəriniz uğurlu, yaddaqalan olacaqdır. Bütün nümayəndə heyətlərinin rəhbərlərinə müraciət edib, xahiş edirəm ki, mənim səmimi salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİXAEL ŞPİNDELEQQERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Avstriya Respublikasının xarici işlər naziri Mixael Şpindeleqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xarici işlər naziri Mixael Şpindeleqqer Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin salamlarını və məktubunu dövlətimizin başçısına çatdırmışdır.

Nazir Mixael Şpindeleqqer Bakıda gördüyü memarlıq abidələrinin və şəhərin gözəlliyinin onda çox böyük təəssürat yaratdığını bildirmişdir. Ölkəmizdə keçirdiyi görüşlərə toxunan Mixael Şpindeleqqer bu görüşlərin ikitərəfli münasibətlərimizə dair məsələlərin müzakirəsi baxımından səmərəli olduğunu qeyd etmişdir. O bildirmişdir ki, Avstriya şirkətləri Azərbaycana investisiya qoymaqda və ölkəmizlə daha çox ticarət mübadiləsinin həyata keçirilməsində maraqlıdırlar. Avstriyanın xarici işlər naziri ölkəmizlə yüksək səviyyədə əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirmişdir.

Prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə, investisiya qoyuluşu və müxtəlif layihələrin həyata keçirilməsi sahəsində əlaqələrin inkişafı üçün yaxşı potensialın mövcud olduğunu vurğulamış və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Dövlətimizin başçısı Avstriya Respublikasının Federal Prezidenti Haynts Fişerin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Avstriya Prezidentinə çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ SEYİD ŞƏMSƏDDİN HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də İran İslam Respublikasının iqtisadiyyat və maliyyə naziri Seyid Şəmsəddin Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirmişdir.

Seyid Şəmsəddin Hüseyni İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırmışdır. Qonaq İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısındakı çıxışına görə bütün həmkarları adından Prezident İlham Əliyevə təşəkkür etmişdir.

Dövlətimizin başçısı Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ FONDUNUN (İFAD) PREZİDENTİ KANAYO NUNZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondunun (İFAD) prezidenti Kanayo Nunzeni qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsinin ölkəmizin qarşısında duran prioritet məsələlərdən biri olduğunu qeyd etmiş və bu istiqamətdə əldə olunan uğurlardan danışmışdır.

Kanayo Nunze Azərbaycanın müstəqilliyini bərpa etdiyi qısa müddət ərzində böyük inkişafa nail olmasının önəmini vurğulayaraq bu münasibətlə dövlətimizin başçısını təbrik etmişdir.

Görüşdə Azərbaycan ilə BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond arasında əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

BAŞ NAZİR AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avstriya Azərbaycanla bütün sahələrdə əlaqələri intensivləşdirməkdə maraqlıdır. Bu fikir Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin ölkəmizdə səfərdə olan Avstriyanın Avropa və beynəlxalq işlər üzrə federal naziri Mixael Şpindeleqqerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə səslənmişdir.

Görüşdə Baş nazir A.Rasizadə Avstriyanın yüksək vəzifəli rəsmilərinin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin genişlənməsinə xidmət edəcəyini söyləmişdir. Təhsil, mədəniyyət sahələrində mövcud əlaqələrlə yanaşı, siyasi, iqtisadi və digər sahələrdə də əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulanmışdır. Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyini bildirən Baş nazir, ölkəmizin Avstriyanın bu sahədə böyük təcrübəsindən bəhrələnməkdə maraqlı olduğunu demişdir.

Avstriyanın Avropa və beynəlxalq işlər üzrə federal naziri Mixael Şpindeleqqer Baş nazir Artur Rasizadəyə Bakıda keçirdiyi görüşlər barədə danışmış, ölkəsinin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu nəzərə çarpdırmışdır. Bildirmişdir ki, Cənubi Qafqaz regionu Avstriya üçün prioritetdir və biz "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində əlaqələrimizi möhkəmləndirmək niyyətindəyik. Azərbaycanın regionda lider və coğrafi mövqeyi, həmçinin Avropa ilə Asiya arasında körpü olması bizim üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Avstriya Respublikasındakı səfiri Fuad İsmayılovun və Avstriyanın Azərbaycanda yeni təyin olunmuş səfiri xanım Silvia Mayer-Kaybiçin də iştirak etdikləri görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 23-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Avstriyanın Avropa və beynəlxalq işlər üzrə federal naziri Mixael Şpindeleqqer ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

Nazir E.Məmmədyarov bildirmişdir ki, görüşdə Azərbaycan ilə Avstriya arasında əlaqələrin mövcud vəziyyəti və perspektivləri, enerji sahəsində müxtəlif layihələr, xarici siyasət idarələri və diplomatik akademiyalar arasında əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, görüşdə qarşılıqlı olaraq hər iki ölkədə mədəniyyət günlərinin keçirilməsi barədə razılıq əldə olunmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə avstriyalı qonağa məlumat verilmiş, məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının mümkünlüyü vurğulanmışdır.

Avstriyanın Azərbaycanda səfirliyinin açılmasının ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə böyük imkanlar yaradacağını deyən E.Məmmədyarov qeyd etmişdir ki, ölkəmiz bu əməkdaşlığa hazırdır.

M.Şpindeleqqer Avstriya ilə Azərbaycan arasında həmişə xüsusi bir yaxınlığın olduğunu, amma bu gün keçirilən görüşdə daha dərin əməkdaşlığın perspektivlərinin müzakirə edildiyini demişdir. Avstriyalı nazir bildirmişdir ki, ölkələrimiz arasında iqtisadi münasibətlər prioritet təşkil edəcəkdir. O, azərbaycanlı həmkarını Vyanaya rəsmi səfərə dəvət etdiyini qeyd etmişdir.

İqtisadi əlaqələrin perspektivinə dair sualı cavablandıran E.Məmmədyarov Avstriyanın böyük enerji şirkəti olan "OMV"-nin Bakıda ofisini, ARDNŞ-nin isə Vyanada nümayəndəliyini açdığını demişdir. Nazir vurğulamışdır ki, gələn il Azərbaycanda iki ölkənin birgə layihəsi olan qış turizmi ilə bağlı obyekt istifadəyə veriləcəkdir.

Avstriyalı jurnalistin "Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllini mümkün sayırmı" sualını cavablandıran E.Məmmədyarov demişdir ki, xarici işlər naziri kimi bu məsələnin diplomatik yolla həll olunmasını arzulayıram. Bu, Azərbaycanın Xarici İşlər Nazirliyinin mövqeyidir.

AZƏRBAYCAN VƏ AVSTRİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SAZİŞ İMZALANMIŞDIR

İyunun 23-də Azərbaycanın xarici siyasət idarəsində "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Avstriya Respublikası Xarici İşlər Nazirliyi arasında diplomatik və xidməti pasportlara malik şəxslər üçün vizanın ləğv edilməsi haqqında Saziş" imzalanmışdır.

Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Avstriyanın Avropa və beynəlxalq işlər üzrə federal naziri Mixael Şpindeleqqer imzalamışlar.

AVSTRİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR

İyunun 23-də Avstriya Respublikasının Azərbaycan Respublikasında səfirliyinin rəsmi açılışı münasibətilə "Land mark" biznes mərkəzində tədbir keçirilmişdir.

Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasovun da iştirak etdiyi tədbirdə əvvəlcə Avstriyanın Bakıda səfərdə olan xarici işlər naziri Mixael Şpindeleqqer səfirliyin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Ə.Abbasov əlamətdar gün münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin ən xoş arzularını və təbriklərini çatdırmışdır. Nazir Azərbaycan-Avstriya hökumətlərarası komissiyanın sədri kimi, bu günü çoxdan gözlədiyini vurğulamış, Avstriyanın geniş tərkibli nümayəndə heyətinin Bakıya səfərini əlamətdar hadisə adlandırmışdır.

Ə.Abbasov bildirmişdir ki, Azərbaycan müstəqillik əldə edəndən sonra Avstriya ilə müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri qurulmuşdur. Avropanın enerji təminatında Avstriya Azərbaycanın strateji tərəfdaşıdır.

Nazir ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinə də toxunaraq Avstriyada Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının səhnələşdirildiyini xatırlatmışdır.

Mərasimdə çıxış edən Avstriyanın xarici işlər naziri M.Şpindeleqqer isə diplomatik nümayəndəliyin açılmasının ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişafına verdiyi xüsusi əhəmiyyətin bariz nümunəsi olduğunu bildirmişdir.

Ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini deyən M.Şpindeleqqer, avstriyalı iş adamlarının azərbaycanlı həmkarları ilə əməkdaşlıqda maraqlı olduqlarını vurğulamışdır. Səfirliyin açılmasının iki ölkənin əlaqələrinin inkişafına mühüm təsir göstərəcəyini deyən nazir bildirmişdir ki, Avstriya Azərbaycan ilə təkcə enerji sahəsində deyil, iqtisadiyyatın digər sahələrində də əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Vurğulanmışdır ki, Avstriyanın Bakıda səfirlik açmasında məqsəd Azərbaycan ilə siyasi, iqtisadi, mədəni, təhsil və turizm sahələrindəki ikitərəfli əlaqələri genişləndirmək və intensivləşdirməkdir.

Mərasimdə Azərbaycanın və Avstriyanın dövlət və hökumət rəsmiləri, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbirdə Avstriyadan gəlmiş "Minetti" kvartetinin ifasında Haydn, Şubert və Bethovenin əsərləri səsləndirilmişdir.

AVSTRİYA ŞİRKƏTLƏRİ ARDNŞ-İN HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ETMƏKDƏ MARAQLIDIRLAR

İyunun 23-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) baş ofisində qurumun rəhbərliyi Bakıda səfərdə olan Avstriyanın iqtisadiyyat və əmək məsələləri üzrə federal naziri Reinhold Mitterleherin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə qurumun sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov son illər Avstriya şirkətləri ilə ARDNŞ arasında işgüzar münasibətlərin yarandığını və bu əlaqələrin dövlətlərarası münasibətlərin inkişafına xidmət etdiyini vurğulamışdır. O, Azərbaycanda həyata keçirilən regional əhəmiyyətli neft-qaz layihələri haqqında qonaqlara ətraflı məlumat vermiş, qısa müddətdə ölkəmizdə şaxələndirilmiş ixrac neft və qaz kəmərləri sistemi yaradıldığını nəzərə çatdırmışdır.

Reinhold Mitterleher ölkəsinin Xəzər dənizi hövzəsində hasil olunan təbii qazın Avropaya nəql edilməsini nəzərdə tutan Nabukko qaz kəməri layihəsini dəstəklədiyini söyləmişdir.

Son illər "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələri çərçivəsində və ARDNŞ-in müstəqil işlədiyi yataqlarda görülən tədbirlər nəticəsində ölkəmizdə təbii qaz hasilatının yüksəldiyini qeyd edən ARDNŞ nümayəndələri, Azərbaycanın "Cənub dəhlizi" layihəsinə tərəfdar olduğunu xatırladaraq həmin layihə üzrə mövcud qaz kəmərləri variantlarının şirkətdə nəzərdən keçirildiyini bildirmişlər.

Sonra avstriyalı nazir başçılıq etdiyi nümayəndə heyətinə daxil olan şirkətlərin əməkdaşlarını ARDNŞ rəhbərliyinə təqdim etmişdir. "OMV", "Mbh CİS" "AG CİS", "Herz Armaturen GesmbH", "BHDT" və başqa şirkətlərin görüşdə iştirak edən təmsilçiləri fəaliyyət sahələri və əldə etdikləri uğurlar haqqında məlumat verərək ARDNŞ-in həyata keçirdiyi layihələrdə əməkdaşlıq etməkdə maraqlı olduqlarını nəzərə çarpdırmışlar.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

ADU-DA AVSTRİYA KİTABXANASININ AÇILMASI ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINA BÖYÜK TÖHFƏ VERƏCƏKDİR

İyunun 23-də Azərbaycan Dillər Universitetində (ADU) Avstriya kitabxanasının təntənəli açılış mərasimi keçirilmişdir.

Mərasimdə Avstriyanın xarici işlər naziri Mixael Şpindeleqqerin başçılıq etdiyi nümayəndə heyəti və bu ölkənin Azərbaycanda yeni təyin olunmuş səfiri Silvia Mayer Kaybiç iştirak etmişlər.

Açılışı bildirən lent kəsildikdən sonra kitabxanaya baxış keçirilmişdir.

Sonra universitetin alman dili fakültəsinin müəllim və tələbələri ilə görüş olmuşdur.

Görüşdə tərcümə fakültəsinin dekanı, dosent Vilayət Hacıyev, kafedra müdiri, dosent Sevinc Rzayeva ADU-da belə zəngin kitabxananın açılmasına verdiyi dəstəyə görə Avstriyanın xarici işlər naziri M.Şpindeleqqerə minnətdarlıqlarını bildirmişlər.

Nazir Mixael Şpindeleqqer çıxış edərək, ADU-da Avstriya kitabxanasının fəaliyyətə başlamasını ölkələrimiz arasında mövcud münasibətlərin daha da inkişaf etməsində mühüm rol oynayacağını bildirmişdir. Bu kitabxana vasitəsilə tələbə və müəllimlər Avstriya dövlətinin tarixi, mədəniyyəti, təhsil sistemi və digər sahələr barədə geniş məlumata malik olacaqlar.

Diplomat Azərbaycanda Avstriya səfirliyinin açılmasının da münasibətlərin möhkəmləndirilməsinə böyük töhfələr verəcəyini vurğulamışdır. M.Şpindeleqqer Avstriya ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərin, dostluğun möhkəmləndirilməsi, əməkdaşlığın bütün sahələri əhatə etməsi istiqamətində səylərin bundan sonra da ardıcıl şəkildə davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Nazir gələcəkdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq layihələrinin həyata keçiriləcəyinə ümidvar olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, gələcəkdə Azərbaycanda Avstriya universitetlərinin filiallarının açılması da nəzərdə tutulur. Qonaq, eyni zamanda, ADU-nun 2 tələbəsinin hazırda Avstriyanın Qratz Universitetində təhsilini davam etdirdiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, onların gələcəkdə Avropa əmək bazarında fəaliyyət göstərməsi üçün bütün imkanlar mövcuddur.

Tədbirdə avstriyalı nazirə xatirə hədiyyəsi təqdim edilmişdir.

Sonra M.Şpindeleqqer görüş iştirakçılarının suallarını cavablandırmışdır.

AZƏRBAYCAN YUNESKO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİTƏSİNİN 2010-2014-CÜ İLLƏR ÜZRƏ ÜZVÜ SEÇİLMİŞDİR

Azərbaycan YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2010-2014-cü illər üzrə üzvü seçilmişdir.

Hökumətlərarası Komitəyə seçkilər iyunun 24-də YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyasının iştirakçı dövlətlərinin Parisdə keçirilən Baş Assambleyasının 3-cü sessiyası zamanı keçirilmişdir.

Azərbaycanın namizədliyinin seçkilərdə dəstəklənməsinə nail olmaq məqsədi ilə YUNESKO üzrə Azərbaycanın Milli Komissiyası, ölkəmizin YUNESKO yanında Daimi Nümayəndəliyi və respublikamızın xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri tərəfindən müvafiq işlər aparılmışdır.

Komitə təşkilatın nüfuzlu qurumlarından biri hesab edilir. Ümumiyyətlə, qeyri-maddi mədəni irs nümunələrinin YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi məsələsi məhz həmin komitədə müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.

Azərbaycanın komitəyə üzv qəbul olunması dünyanın qeyri-maddi mədəni irsinin qo-

runması ilə bağlı məsələlərin müzakirəsində ölkəmizin əhəmiyyətli rol oynamasına, eləcə də Azərbaycanın mədəni irs nümunələrinin YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilməsi istiqamətində daha fəal iş aparılmasına şərait yaradacaqdır.

Qeyd edək ki, qurumun hökumətlərarası komitəsi 24 nümayəndədən ibarətdir.

Azərbaycan ilə yanaşı, komitəyə namizədliyini irəli sürən Ermənistan kifayət qədər səs toplaya bilmədiyi üçün seçkilərdə məğlub olmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ İRAQIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İraq Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Heydər Şiya Qubeyşi əl-Bərrak ilə görüşmüşdür.

Etimadnamənin surətini nazirə təqdim edən H.Şiya Qubeyşi əl-Bərrak ölkəmizdə səfir təyin olunmasından məmnunluğunu diqqətə çatdırmışdır.

Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu vurğulayan diplomat İraq-Azərbaycan əlaqələrinin genişləndirilməsi istiqamətində çalışacağını bildirmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanda səfir təyin olunması münasibətilə H.Şiya Qubeyşi əl-Bərrakı təbrik etmiş, ölkələrimiz arasında əlaqələrin intensivləşdirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin məqsədəmüvafiqliyini vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYA-AZƏRBAYCAN TİCARƏT PALATASININ ÜZVÜ VƏ AŞPA-NIN SABİQ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avstriya-Azərbaycan Ticarət Palatasının üzvü Qabriel Lanski və AŞPA-nın sabiq sədri, Beynəlxalq Sülh İnstitutunun direktoru Piter Şider ilə görüşmüşdür.

Görüşdə tərəflər Azərbaycan-Avstriya əlaqələrinin cari vəziyyətini və inkişaf perspektivlərini müzakirə etmiş, ölkəmizdə Avstriyanın səfirliyinin açılmasının iqtisadi, mədəni və digər sahələrdə münasibətlərin daha da inkişafına təkan verəcəyini vurğulamışlar. Azərbaycan ilə Avstriya arasında əlaqələrin inkişafı üçün geniş potensialın olduğu və bundan səmərəli istifadə edilməsinin məqsədəmüvafiqliyi bildirilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

GUAM ÖLKƏLƏRİNİN TURİZM ÜZRƏ QURUMLARI RƏHBƏRLƏRİNİN BEŞİNCİ İCLASINDA MÜHÜM QƏRARLAR QƏBUL EDİLMİŞDİR

İyunun 25-də Bakıda, "Hyatt Regency-Naxçıvan" mehmanxanasında Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat-GUAM-ın turizm üzrə qurum rəhbərləri səviyyəsində beşinci iclası keçirilmişdir.

Tədbirdə GUAM-ın baş katibi Valeri Çeçelaşvili, Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, nazirin müavini Teymur Mehdiyev, Yaponiyanın Azərbaycandakı səfiri Masamitsu Oki, Ukraynanın ölkəmizdəki müvəqqəti işlər vəkili Dmitri Bojok, Moldova Turizm Agentliyinin baş direktoru xanım Lyudmila Dumitraş, Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin turizm və kurortlar departamentinin direktoru Zaal Abazadze və digər rəsmi şəxslər iştirak etmişlər.

İclasda Yaponiya ilə GUAM-ın birgə turizm məhsullarının yaradılması, bu beynəlxalq təşkilatın turizm portalının təşkili, turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər, birgə turizm məhsulunun həyata keçirilməsi üzrə yol xəritəsinin və GUAM-ın bələdçi kitabçasının yaradılması, qurumun turizm üzrə növbəti iclasının yerinin və vaxtının təyin edilməsi və s. müzakirə edilmişdir.

İclası Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev açaraq tədbir iştirakçılarını salamlamış, müzakirəyə çıxarılmış məsələlərin GUAM regionunda turizm potensialından daha səmərəli istifadə edilməsinə təkan verəcəyinə əminliyini bildirmişdir. Qeyd etmişdir ki, GUAM ölkələrinin turizm sahəsinə cavabdeh olan rəhbərlərinin mütəmadi surətdə görüşmələri, işgüzar fikir mübadiləsi aparmaları olduqca təqdirəlayiq haldır. GUAM ölkələrinin bu gün dünya turizm bazarında yeni istiqamət kimi qəbul olunduğunu deyən Ə.Qarayev, yeni istiqamətlərin fəaliyyətinin əlaqələndirilməsini, regiona daha çox turist axınının təşkilini prioritet vəzifələrdən biri kimi səciyyələndirmişdir.

Azərbaycanın mədəniyyət və turizm naziri bugünkü tədbirin GUAM ölkələri tərəfindən hazırlanmış yeni layihəyə həsr olunduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, bu layihə Yaponiyadan turistlərin müteşəkkil surətdə GUAM ölkələrinə gətirilməsi, onlar üçün lazımi xidmətlərin səviyyəsinin təmin olunması ilə yanaşı, bu quruma daxil olan hər bir ölkənin mədəniyyəti, mətbəxi, adət-ənənələri və digər fəaliyyət sahələri ilə tanışlığın bir proqrama daxil edilməsini nəzərdə tutur. Bu gün Yaponiya əhalisinin dünya turizm bazarında ən cəlbedici turistlər hesab olunduğunu bildirən azərbaycanlı nazir, layihənin həyata keçirilməsində əsas məqsədin yaponiyalı turistlərin GUAM ölkələrinə cəlb olunması üçün xüsusi proqramın həyata keçirilməsindən ibarət olduğunu vurğulamışdır. Ə.Qarayev, eyni zamanda, yaponiyalı turistlərin bu regiona maraq göstərmələrinin GUAM ölkələri üçün çox vacib amil olduğunu bildirmişdir.

Əbülfəs Qarayev tədbir iştirakçılarının diqqətini son illərdə Azərbaycan dövlətinin, o cümlədən Prezident İlham Əliyevin ölkədə turizmin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərə yönəltmişdir. Bildirmişdir ki, bu ilin aprelində Prezident İlham Əliyev 2010-2014-cü illərdə ölkədə turizmin inkişafına dair Dövlət Proqramını təsdiq etmişdir. Bu proqramda və digər dövlət sənədlərində, o cümlədən regionların sosial-iqsadi inkişafına dair Dövlət Proqramında ölkədə yeni turizm infrastrukturlarının yaradılması, bu sahə üzrə kadr hazırlığı, yeni-yeni layihələrin həyata keçirilməsi və digər vacib məsələlər əksini tapmışdır. Hər il ölkəmizdə orta hesabla 50-yə yaxın otel və digər turizm obyektlərinin istifadəyə verildiyini deyən Ə.Qarayev, bu sahəni beynəlxalq səviyyəli kadrlarla təmin etmək məqsədi ilə 4 il əvvəl rəhbərlik etdiyi nazirliyin nəzdində fəaliyyətə başlamış Azərbaycan Turizm İnstitutunun bu günlərdə ilk buraxılışının olacağını diqqətə çatdırmışdır.

İclasda Gürcüstan İqtisadi İnkişaf Nazirliyinin turizm və kurortlar departamentinin direktoru Zaal Abazadze, Moldova Turizm Agentliyinin baş direktoru xanım Lyudmila Dumitraş, Ukraynanın ölkəmizdəki müvəqqəti işlər vəkili Dmitri Bojok, Yaponiyanın Azərbaycandakı səfiri Masamitsu Oki, GUAM-ın baş katibi Valeri Çeçelaşvili çıxış edərək GUAM məkanında turizmin inkişaf perspektivlərindən danışmış, bununla bağlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini, xüsusilə GUAM-ın Yaponiya ilə birgə layihəsinin əhəmiyyətini vurğulamışlar.

Tədbirin sonunda Bakı Bəyannaməsi, iclasın protokolu və GUAM-Yaponiya birgə turizm məhsulunun inkişaf etdirilməsi üzrə Fəaliyyət Planı qəbul edilmişdir.

AZƏRBAYCANIN MALİYYƏ NAZİRİ İRANLI VƏ QƏTƏRLİ HƏMKARLARI İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 25-də Azərbaycanın maliyyə naziri Samir Şərifov ölkəmizdə səfərdə olan İranın maliyyə naziri Seyid Şəmsəddin Hüseyni və Qətər Dövlətinin maliyyə naziri Yusif Hüseyn Kamal ilə görüşmüşdür.

Görüşlərdə ölkəmizdə aparılan iqtisadi islahatlar barədə danışılmış, qlobal maliyyə böhranının milli iqtisadiyyata təsirlərinin azaldılması istiqamətində həyata keçirilən siyasət nəticəsində Azərbaycanın dünyanı bürümüş iqtisadi sınaqdan uğurla çıxdığı qeyd olunmuşdur. Həmçinin, dövlət xərclərinin səmərəliliyinin və investisiyaların artırılması, qarşılıqlı iqtisadi münasibətlərin qurulması və istiqamətlərin müəyyənləşdirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, görüşlərdə Azərbaycan ilə İran və Qətər arasında maliyyə və bank sektorunda, sığorta və birja fəaliyyəti sahələrində qarşılıqlı əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsinin perspektivləri müzakirə olunmuşdur.

"AZƏRBAYCAN HAVA YOLLARI" QSC-NİN NÜMAYƏNDƏ HEYƏTİ ÇEXİYAYA SƏFƏR ETMİŞDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) vitse-prezidenti Eldar Hacıyevin başçılığı ilə qurumun nümayəndə heyəti iyunun 24-25-də Çexiyada səfərdə olmuşdur.

Azərbaycan nümayəndə heyətinin Çexiya hava xətlərinin prezidenti, Ruzne hava limanının rəisi M.Dvorjak, şirkətin vitse-prezidenti, baş maliyyə inspektoru və idarə heyətinin sədri, "Lukoyl"un və yerli turizm şirkətlərinin nümayəndələri ilə keçirdiyi görüşlərdə strateji əməkdaşlıq və tərəfdaşlığın inkişafı, habelə iki dövlət arasında birbaşa aviareysin açılması məsələləri müzakirə olunmuşdur.

Danışıqlarda Azərbaycanın Çexiyadakı səfiri Tahir Tahirzadə iştirak etmişdir.

Danışıqlar nəticəsində iyulun 15-dən "Azərbaycan Hava Yolları" QSC-də həftəlik Bakı-Praqa reysinin açılması barədə razılıq əldə edilmişdir.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDR DÖVLƏTLƏRİNİN PREZİDENTLƏRİ DAĞLIQ QARABAĞ ÜZRƏ BİRGƏ BƏYANAT VERMİŞLƏR

Hazırda Ermənistan və Azərbaycan prezidentləri daha bir addım atıb, Sülh sazişi layihəsinin hazırlanmasına başlamaq üçün Əsas prinsiplər üzərində işi başa çatdırmalıdırlar.

Bu sözlər ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri prezidentlərinin iyunun 25-26-da "Böyük səkkizliy"-in Kanadada keçirilən 36-cı zirvə toplantısı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdikləri birgə bəyanatda yer almışdır.

Barak Obama, Dmitri Medvedev və Nikolia Sarkozi Dağlıq Qarabağ münaqişəsinin həllinin Əsas prinsiplərini razılaşdırmağı başa çatdırmaqda Azərbaycan və Ermənistan prezidentlərinə dəstək göstərmək öhdəliklərini təsdiq edərək bildirmişlər: "Biz davamlı həll yolunun Helsinki Yekun Aktında və "səkkizlik qrupunun" 2009-cu il iyulun 10-da Akvildə keçirilən zirvə görüşündə qəbul olunmuş bəyanatla əlaqədar təklif etdiyimiz müddəalarda yer alan prinsiplərə əsaslanması faktının hər iki tərəfdən qəbul edilməsini alqışlayır və irəliyə doğru atılmış əhəmiyyətli addım kimi qiymətləndiririk".

Bəyanata əsasən, münaqişənin həlli yolları bəzi prinsiplərə, o cümlədən Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş ərazilərin qaytarılması, Dağlıq Qarabağın təhlükəsizliyini və özünüidarəçiliyini təmin edən keçid statusunun, Ermənistanla Dağlıq Qarabağ arasında dəhlizin, Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsi, bütün qaçqınların və məcburi köçkünlərin ata-baba yurdlarına qaytarılması hüququnun, beynəlxalq təhlükəsizliyin, o cümlədən sülhməramlı qüvvələrin əməliyyatının təmin edilməsi prinsiplərinə əsaslanmalıdır.

Dmitri Medvedev, Barak Obama və Nikolia Sarkozi xarici işlər nazirlərinə və vasitəçilərə ATƏT-in Almatıda nazirlər səviyyəsində keçiriləcək qeyri-rəsmi forumu çərçivəsində nəzərdə tutulmuş birgə görüşdə mövcud fikir ayrılıqlarını aradan qaldırmaqda münaqişə tərəflərinə fəal dəstək göstərməyi tapşırmışlar.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BELÇİKADA KEÇİRİLMİŞ GÖMRÜK ƏMƏKDAŞLIQ ŞURASININ NÖVBƏTİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

İyunun 24-26-da Dünya Gömrük Təşkilatının Belçika Krallığının Brüssel şəhərində yerləşən baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının sessiyası keçirilmişdir.

Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Sessiyanın işinə şuranın üzvləri, eləcə də 150-dən çox dövlətin gömrük xidmətinin nümayəndələri, müşahidəçi qismində bəzi beynəlxalq təşkilatların və özəl sektorun təmsilçiləri qatılmışlar.

Sessiyada Dünya Gömrük Təşkilatının (DGT) baş katibi Kunio Mikuriya hesabat məruzəsi ilə çıxış etmiş, Gömrük Əməkdaşlıq Şurasının ötən ilki sessiyasından keçən müddətdə DGT tərəfindən gerçəkləşdirilən tədbirlər barədə iclas iştirakçılarına ətraflı məlumat vermişdir.

Fransanın sabiq prezidenti, öz adını daşıyan fonda rəhbərlik edən Jak Şirak sessiyada çıxış edərək dərman preparatlarının qaçaqmalçılığı, saxta tibbi ləvazimatların, o cümlədən internet vasitəsilə dərmanların satışının təhlükəliliyi barədə danışmışdır. Eks-prezident tədbir iştirakçılarına, həmçinin rəhbərlik etdiyi fondun inkişaf etməkdə olan ölkələrə səhiyyə yardımının təşkili istiqamətində həyata keçirdiyi tədbirlər və ümumilikdə qurumun fəaliyyəti barədə məlumat vermişdir.

DGT-nin regional tədbirləri çərçivəsində Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti Avropa regional görüşündə iştirak etmişdir. İclasda çıxış edən DGK-nın sədri Aydın Əliyev ilk olaraq Bakıda DGT-nin potensialının gücləndirilməsi üzrə Avropa regional ofisinin tikintisinin hazırkı vəziyyəti ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat vermiş, eyni zamanda, bu il keçiriləcək seçkilərdə direktor vəzifəsinə namizədlər barədə fikirlərini söyləmiş, Avropa ölkələrinin DGT-də seçkili vəzifələrdə təmsil olunmamalarından təəssüfləndiyini bildirmişdir.

Sonra bir sıra beynəlxalq təşkilatlar və ölkələr arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Həmin gün DGT-nin potensialın gücləndirilməsi üzrə direktoru Lars Karlsonla görüş keçirilmişdir. Geniş tərkibdə baş tutan görüşdə Azərbaycan nümayəndə heyəti Bakıda DGT potensialının gücləndirilməsi üzrə Avropa regional ofisinin tikintisinin gedişi ilə bağlı L.Karlsona ətraflı məlumat vermiş, eyni zamanda qarşı tərəf regional ofisin rəhbərliyinə namizəd barədə fikirlərini bölüşmüşdür. Azərbaycan tərəfi son vaxtlar saxta dərmanlar mövzusunun prioritet məsələ olduğunu nəzərə alaraq DGT-nin bu problemlə bağlı konfrans təşkil etməsi təşəbbüsünü irəli sürmüş, ölkəmizin tədbirin Bakıda keçirilməsinə, təşkilati məsələlərin həlli istiqamətində müvafiq köməkliyin göstərilməsinə hazır olduğunu bildirmişdir.

Daha sonra sessiyada texniki məsələlər-komitələr üzrə təqdimatlar, malların mənşəyi, qiymətləndirmə ilə bağlı məsələlərin müzakirəsi davam etdirilmişdir.

Sessiyanın sonuncu günündə audit və maliyyə komitələrinin fəaliyyəti barədə məlumatlar dinlənilmiş, sonra seçkilər keçirilmişdir. DGT-nin sədri vəzifəsinə yenidən yekdilliklə Yeni Zelandiya Gömrük Xidmətinin rəhbəri Martin Dann seçilmişdir. Həmin gün DGT-nin baş katibi Kunio Mikuriyanın iştirakı ilə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Makedoniya Respublikası Gömrük İdarəsinin direktoru Vanco Karqov imzalamışlar.

Sessiya zamanı gömrük işinə dair fotosərgi təşkil olunmuş, müsabiqə keçirilmişdir. Final mərhələsində 30 ədəd fotoşəkil arasında Dövlət Gömrük Komitəsinin fəaliyyətindən bəhs edən fotoşəkil də nümayiş etdirilmiş, gizli səsvermə yolu ilə Fransa Gömrük Xidmətinin təqdim etdiyi fotoşəkil qalib elan olunmuşdur.

Sessiya çərçivəsində Türkiyə, Monqolustan, İsrail, Zambiya, Lüksemburq, İran İslam

Respublikası, Estoniya, Avstriya, Çin Xalq Respublikası, Finlandiya, Makedoniya, Gürcüstan və digər dövlətlərin gömrük xidməti rəhbərləri ilə ikitərəfli görüşlər keçirilmişdir. Görüşlərdə Azərbaycan və bu ölkələrin müvafiq orqanları arasında gömrük əməkdaşlığına dair məsələlər, qarşılıqlı əlaqələrin perspektivləri müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ PER STANÇİNANI QƏBUL ETMİŞDİR

İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Per Stançinanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

Səfir Per Stançina Azərbaycanda fəaliyyəti dövründə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə böyük inkişafın əldə olunduğunu vurğulamışdır. O, həmçinin bu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya birliyinin diqqətinin artdığını da qeyd etmişdir.

Dövlətimizin başçısı son illər ərzində ölkəmizin Almaniya ilə ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini, yüksək səviyyədə səmərəli görüşlərin keçirildiyini və güclü tərəfdaşlıq prinsiplərinə əsaslanan əlaqələrimizin bütün sahələrdə genişləndiyini vurğulamışdır. Prezident İlham Əliyev əmin olduğunu bildirmişdir ki, ölkələrimiz arasında münasibətlər bundan sonra da möhkəmlənəcəkdir.

Azərbaycan Prezidenti Per Stançinaya gələcək fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA PARLAMENTİNİN SƏDRİ JOZEFİNA TOPALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Albaniya parlamentinin sədri Jozefina Topallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkəmizə səfəri zamanı Azərbaycanda əldə edilən nailiyyətlərin və sürətli inkişaf prosesinin şahidi olduğunu deyən Albaniya parlamentinin sədri bu münasibətlə dövlətimizin başçısını təbrik etmişdir. Jozefina Topalli ölkəsinin Azərbaycan ilə siyasi əlaqələrin genişləndirilməsində maraqlı olduğunu bildirmiş və iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır. O, enerji, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu demişdir. Qonaq parlamentlərarası əməkdaşlığın genişləndirilməsini ikitərəfli münasibətlərimizin möhkəmlənməsi baxımından əhəmiyyətli olduğunu bildirmişdir.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsinin vacibliyini qeyd etmiş, siyasi, iqtisadi, mədəni sahələrdə, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizin perspektivlərinin müzakirə edilməsi baxımından Albaniya parlamenti sədrinin ölkəmizə səfərinin əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev hökumət və parlament üzvləri arasında əlaqələrin qurulmasının önəmli olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ, SURİYA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ SUFYAN ALAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Suriya Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri, Suriya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkəmizdə Suriya-Azərbaycan hökumətlərarası komissiyasının birinci iclasının keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirmişdir ki, bu tədbir ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacaqdır. Belə iclasların keçirilməsini ölkələrimiz arasında əlaqələrin inkişaf göstəricisi kimi qiymətləndirən Prezident İlham Əliyev iqtisadi sahədə yaxın zamanlarda praktiki nəticələrin əldə ediləcəyinə əmin olduğunu bildirmişdir. Suriya Prezidenti Bəşşar əl-Əsədin Azərbaycana rəsmi səfərini xatırlayan dövlətimizin başçısı hökumətlərarası komissiyasının yaradılmasını həmin səfərin uğurlu nəticələrindən biri kimi dəyərləndirmişdir. Prezident İlham Əliyev ölkəmizin Suriya ilə əlaqələrin çoxşaxəli olmasında, eləcə də siyasi, iqtisadi sahələrdə tərəfdaşlığımızın daha da möhkəmlənməsində maraqlı olduğunu vurğulamışdır.

Sufyan Alao Suriya Prezidenti Bəşşar əl-Əsədin və Suriya xalqının salamlarını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırmışdır. Qonaq rəhbərlik etdiyi nümayəndə heyətinin Suriya-Azərbaycan hökumətlərarası komissiyasının iclasının birinci günündə Prezident İlham Əliyev tərəfindən qəbul olunmasını onlar üçün böyük şərəf olduğunu bildirmişdir. O qeyd etmişdir ki, dost və qardaş Suriya ilə Azərbaycanın əlaqələrinin möhkəmlənməsi ölkələrimiz arasında olan hörmətin təzahürüdür.

Prezident İlham Əliyev Suriya Prezidenti Bəşşar əl-Əsədin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Suriya Prezidentinə çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDEH YUMKELLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da BMT-nin Sənayenin İnkişafı Təşkilatının baş direktoru Kandeh Yumkellanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Kandeh Yumkella bildirmişdir ki, ölkəmizə səfərinin əsas məqsədi Azərbaycan Respublikasının Prezidenti və hökumət üzvləri ilə rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında əməkdaşlığın perspektivlərinin müzakirə edilməsindən ibarətdir. O, qeyd etmişdir ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi strategiyasının uğurla həyata keçirilməsi nəticəsində qeyri-neft sektorunda böyük inkişafa nail olunmuşdur və BMT-nin Sənayenin İnkişafı Təşkilatı Azərbaycan ilə bu istiqamətdə əməkdaşlıqda maraqlıdır.

Dövlətimizin başçısı Azərbaycanın bütün digər sahələrdə olduğu kimi, iqtisadiyyat sahəsində də böyük uğurlar əldə etdiyini vurğulayaraq, qeyri-neft sektorunun ölkəmiz üçün prioritet sahə olduğunu qeyd etmişdir. 2013-cü ilədək Azərbaycanda ikinci regional inkişaf proqramının həyata keçiriləcəyini qeyd edən Prezident İlham Əliyev bunun çox mühüm infrastruktur layihələrinin reallaşdırılması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etmişdir. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sənayenin İnkişafı Təşkilatı ilə əməkdaşlığının gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN GDF SUEZ ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ, AVROQAZ-IN PREZİDENTİ JAN-FRANSUA SİRELLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Fransanın GDF SUEZ şirkətinin prezidenti və baş direktorunun müavini, AVROQAZ-ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Jan-Fransua Sirelli Azərbaycanda gördüyü inkişaf proseslərinin, ölkəmizdəki firavanlığın və sabitliyin onlarda çox böyük təəssürat yaratdığını bildirmişdir. Təmsil etdiyi şirkətin Avropada fəaliyyətindən danışan qonaq Azərbaycan ilə qaz sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu vurğulamışdır.

Dövlətimizin başçısı GDF SUEZ şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliyini ifadə etmişdir. Prezident İlham Əliyev GDF SUEZ şirkətinin prezidenti və baş direktorunun müavini, AVROQAZ-ın prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızla bağlı məsələlərin səmərəli şəkildə müzakirəsi üçün yaxşı imkan yaratdığını demişdir.

BAŞ NAZİR ALBANİYA PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan və Albaniya bütün sahələrdə əlaqələri genişləndirməkdə maraqlıdırlar.

Bu fikir iyunun 29-da Azərbaycanın Baş naziri Artur Rasizadənin ölkəmizdə səfərdə olan Albaniya parlamentinin sədri xanım Jozefina Topallinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə səslənmişdir.

Baş nazir Artur Rasizadə Albaniya parlamenti sədrinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafına töhfə verəcəyinə əmin olduğunu söyləmişdir. Bildirmişdir ki, Azərbaycan bütün ölkələrlə, o cümlədən Albaniya ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsində maraqlıdır. Eyni zamanda, Azərbaycanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığı inkişaf etdirmək üçün böyük imkanların mövcudluğunu diqqətə çatdırmışdır.

Görüşdə Baş nazir Artur Rasizadə ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunda da əldə edilən uğurlardan danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə geniş məlumat vermişdir.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Albaniya parlamentinin sədri xanım Jozefina Topalli gələcəkdə belə görüşlərin mütəmadi davam etməsinin zəruriliyini vurğulamışdır. Öz növbəsində Albaniyanın da Azərbaycan ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu bildirən parlament sədri iki ölkə arasında bir çox sahələrdə uğurlu əməkdaşlıq üçün perspektivlərin olduğunu nəzərə çarpdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilmişdir.

BAKIDA AZƏRBAYCAN-POLŞA İŞGÜZAR GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

İyunun 29-da Bakıda İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Polşanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə Azərbaycan-Polşa işgüzar görüşü keçirilmişdir.

Tədbirdə Azərbaycan və Polşa tərəfdən rəsmi şəxslərlə yanaşı, tikinti, sənaye, enerji, neft-kimya və digər sahələrdə fəaliyyət göstərən 20-dən çox iş adamı iştirak etmişdir.

Görüşdə Azərbaycanın iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov və Polşanın xarici işlər nazirinin müavini Pavel Voyçieçovski çıxış etmiş, ölkələrimiz arasında mövcud iqtisadi əlaqələr və əməkdaşlığın genişləndirilməsi imkanları barədə məlumat vermiş, əlaqələrin inkişafında biznes forumların, işgüzar görüşlərin əhəmiyyətini diqqətə çatdırmışlar.

Tədbirdə AZPROMO-nun vitse-prezidenti Rüfət Məmmədov Azərbaycanın iqtisadi imkanları barədə təqdimat etmiş, ölkəmizin biznes və investisiya mühiti haqqında iştirakçılara ətraflı məlumat vermişdir.

İş adamları arasında keçirilmiş ikitərəfli görüşlərdə iqtisadi əlaqələr və əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

AZƏRBAYCAN VƏ SURİYA ARASINDA İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN BİRİNCİ İCLASI İŞƏ BAŞLAMIŞDIR

İyunun 29-da Bakıda Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın ilk iclası işə başlamışdır.

Komissiyanın həmsədrləri Suriya tərəfdən neft və təbii sərvətlər naziri Sufyan Alao, Azərbaycan tərəfdən kənd təsərrüfatı naziri İsmət Abasovdur.

İsmət Abasov komissiyanın iclasını açaraq hər iki ölkənin əlaqələrinin tarixindən danışmış və xatırlatmışdır ki, bu əlaqələr sovetlər birliyi dövründən başlanır. Hələ o zaman ümummilli lider Heydər Əliyev Azərbaycanın rəhbəri, sonra isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən Suriya Prezidenti Hafiz Əsədlə dostluq əlaqələri saxlamış, Azərbaycan müstəqillik qazanandan sonra bu dostluq daha da möhkəmlənmişdir. Sevindirici haldır ki, bu gün həmin əlaqələr onların layiqli davamçıları - Azərbaycan Prezidenti İlham Əliyev və Suriya Prezidenti Bəşşar əl-Əsəd tərəfindən uğurla davam etdirilir. Əlaqələri inkişafında qarşılıqlı səfərlər zamanı imzalanmış sənədlər də mühüm

əhəmiyyət kəsb edir. Ekspertlərin hazırladığı və iclasımızın yekununda imzalayacağımız protokolda iqtisadi, elmi, texniki və mədəni sahələr üzrə əməkdaşlıq nəzərdə tutulmuşdur. Bu sənəd imzalandıqdan sonra əlaqələr daha da intensivləşəcəkdir.

Sufyan Alao Suriya Prezidentinin Bakıya ötən ilin iyulunda olmuş səfərini, səfər çərçivəsində iyirmiyə yaxın sənədin imzalandığını xatırlatmışdır. Həmsədr demişdir ki, artıq həmin sazişlər yerinə yetirilir və bir il ərzində xeyli iş görülmüşdür. Birgə komissiya isə müxtəlif sahələrdə əməkdaşlığa zəmin yaradır, əlaqələri inkişaf etdirib genişləndirir. Komissiyanın müzakirəsinə çıxarılmış məsələlər hər iki ölkənin marağını əks etdirir.

Natiq baytarlıq, bitki mühafizəsi, ikiqat vergitutmanın ləğvi sahəsində əldə olunmuş razılıqları və digər əməkdaşlıq sahələrini qeyd etdikdən sonra vurğulamışdır ki, neft və qazla bağlı anlaşma memorandumu da hazırlanmışdır. Bu sahədə Azərbaycan zəngin təcrübəyə malikdir və biz bu təcrübədən yararlanmaq istəyirik. Bu ilin martında ölkəmizin Neft və Təbii Ehtiyatlar Nazirliyi ilə Azərbaycanın Sənaye və Energetika Nazirliyi arasında imzalanmış protokolda ildə 1-1,5 milyard kubmetr Azərbaycan qazının Suriyaya nəql edilməsi barədə saziş imzalanmasına razılıq verilmişdir. Suriya bu sazişin imzalanmasında maraqlıdır və komissiyanın iclası çərçivəsində qazın qiyməti, mübadilə məsələləri barədə razılığa gəlmək niyyətindəyik. Yeri gəlmişkən, bu, Azərbaycana öz qazını Suriya vasitəsilə digər ərəb ölkələrinə nəql etmək imkanı verəcəkdir.

Sonra komissiya üzvləri müxtəlif sahələrdə tərəfdaşlıq imkanlarını araşdırmış, imzalanacaq protokolu maddə-maddə müzakirə etmişlər.

AZƏRBAYCAN VƏ POLŞA ODESSA-QDANSK NEFT KƏMƏRİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR

İyunun 29-da Azərbaycanın sənaye və energetika nazirinin müavini Natiq Abbasov ölkəmizdə səfərdə olan Polşanın xarici işlər nazirinin müavini Pavel Voytsexovskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə əsasən energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Hazırda Azərbaycan və Polşa Odessa-Brodı-Plotsk-Qdansk neft kəməri layihəsi çərçivəsində əməkdaşlıq edirlər. Görüşdə tərəflər bu istiqamətdə əlaqələrin intensivləşdirilməsinin, əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışlar.

Bundan başqa, tədbirdə Polşa nümayəndə heyəti tərəfindən "Yaşıl texnologiyanın tətbiqi" layihəsinin təqdimatı olmuşdur. Layihə neftlə çirklənmiş ərazilərin təmizlənməsi, ekoloji tarazlıq, alternativ bərpa olunan enerji mənbələrindən istifadə sahələrində Polşa təcrübəsinə əsaslanır.

FRANSANIN GDF SUEZ ŞİRKƏTİ "ŞAHDƏNİZ-2" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANDAN BÖYÜK HƏCMDƏ QAZIN AVROPAYA ÇATDIRILMASINDA İŞTİRAK ETMƏK NİYYƏTİNDƏDİR

İyunun 29-da Azərbaycanın sənaye və energetika nazirinin müavini Natiq Abbasov Fransanın GDF SUEZ şirkətinin prezidenti və baş direktorunun müavini, AVROQAZ-ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Jan-Fransua Sirelli bildirmişdir ki, şirkət Azərbaycandan da böyük həcmdə qaz almaqda maraqlıdır. GDF SUEZ şirkəti yaxın gələcəkdə həyata keçiriləcək "Şahdəniz-2" layihəsi çərçivəsində Azərbaycandan böyük həcmdə qazın Avropaya çatdırılmasında iştirak etmək niyyətindədir.

Qeyd etmək lazımdır ki, hazırda şirkət "Abşeron" perspektiv strukturunda kəşfiyyat və qazma işləri də aparır. Bu istiqamətdə şirkət tərəfindən 200 milyon ABŞ dolları məbləğində vəsaitin xərclənməsi nəzərdə tutulur.

FRANSADA FƏALİYYƏT GÖSTƏRƏN BÜTÜN NEFT VƏ QAZ ŞİRKƏTLƏRİ SON 20 İLDƏ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN GENİŞMİQYASLI ENERJİ LAYİHƏLƏRİNİ DİQQƏTLƏ İZLƏYİRLƏR

İyunun 29-da ARDNŞ-in baş ofisində qurumun prezidenti Rövnəq Abdullayev Fransanın GDF SUEZ şirkətinin prezidenti və baş direktorunun müavini, AVROQAZ-ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Rövnəq Abdullayev "Abşeron" strukturunun işlənilməsi layihəsi üzrə GDF SUEZ şirkəti ilə ARDNŞ arasında səmərəli əməkdaşlıq əlaqələrinin uğurla davam etdiyini vurğulamışdır.

Azərbaycana ilk dəfə səfər etməsinə baxmayaraq, ölkəmizin tarixi, mədəniyyəti və təbii sərvətləri haqqında ətraflı məlumata malik olduğunu qeyd edən Jan-Fransua Sirelli regionun ən böyük neft-qaz şirkətlərindən biri kimu yaxşı tanıdıqları ARDNŞ-də olmaqdan böyük məmnunluq duyduğunu dilə gətirmişdir. O, yalnız öz şirkətinin deyil, Fransada fəaliyyət göstərən bütün neft və qaz şirkətlərinin son 20 ildə Azərbaycanda həyata keçirilən genişmiqyaslı enerji layihələrini diqqətlə izlədiklərini söyləmişdir. GDF SUEZ şirkətinin prezidenti "Abşeron" strukturunun işlənilməsi layihəsi üzrə ARDNŞ və "Total" ilə uğurlu əməkdaşlıq imkanlarının daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Bildirmişdir ki, tezliklə "Abşeron" strukturundakı ilk kəşfiyyat quyusunda qazma işlərinə başlanılacaq və Fransa şirkətləri bu işlərin müvəffəqiyyətlə başa çatacağına böyük ümid bəsləyirlər.

Daha sonra görüşdə Avropada qaz biznesinin mövcud vəziyyəti və perspektivləri müzakirə olunmuşdur. ARDNŞ prezidenti Azərbaycan tərəfinin Xəzər hövzəsində hasil olunan təbii qazın Avropaya nəqlini nəzərdə tutan "Cənub dəhlizi" layihəsini dəstəklədiyini dəfələrlə bəyan etdiyini nəzərə çatdırmış və şaxələndirmə imkanlarının genişləndirilməsi çərçivəsində bu istiqamətdə bütün mümkün marşrutların azərbaycanlı ekspertlər tərəfindən diqqətlə nəzərdən keçirildiyini qeyd etmişdir.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN TƏBİİ QAZININ SURİYAYA NƏQL EDİLMƏSİ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Azərbaycan-Suriya hökumətlərarası komissiyasının birinci iclasında iştirak etmək üçün Bakıya gəlmiş Suriya Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri Sufyan

Alao iyunun 29-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) baş ofisində olmuşdur.

Qurumun prezidenti Rövnəq Abdullayev Suriya ilə Azərbaycan arasında son illər yüksək səviyyəli siyasi əlaqələr yarandığını və bu əlaqələrin bütün sahələrdə iki ölkənin inkişafına xidmət etdiyini vurğulamışdır.

Suriyalı nazir, ölkəsinin Azərbaycanla əməkdaşlığa həmişə böyük əhəmiyyət verdiyini söyləmişdir. Suriya tərəfdən həmsədri olduğu hökumətlərarası komissiyanın qarşısında duran başlıca məqsədin iki qardaş xalqın rifahına töhfələr verəcək qərarlar qəbul etməkdən ibarət olduğunu söyləyən Sufyan Alao ARDNŞ və "Syrian Petroleum Company" şirkəti arasında əməkdaşlıq üçün geniş imkanlar yarandığını xüsusi qeyd etmişdir. Nazir ölkəsinin Azərbaycan qazının alqı-satqısına dair müqavilənin tezliklə imzalanmasında maraqlı olduğunu nəzərə çatdırmışdır. O, həmçinin ARDNŞ ilə karbohidrogenlərin axtarışı, kəşfiyyatı və istismarı, neft məhsullarının tədarükü, habelə neft avadanlığının alqı-satqısı istiqamətləri üzrə əməkdaşlığa maraq göstərdiklərini ifadə etmişdir. Hazırda Suriyanın neft-qaz sektorunda vaxtilə Bakıda təhsil almış mütəxəssislərin üstünlük təşkil etdiyini qeyd edən Sufyan Alao mütəxəssislərin mübadiləsi, kadr hazırlığı sahələrində də əməkdaşlığa hazır olduqlarını bildirmişdir.

Görüşdə Azərbaycan təbii qazının Suriyaya nəql edilməsi perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirə aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ALMANİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

İyunun 29-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Almaniya Federativ Respublikasında səfərdə olmuşdur. Səfərin gedişində Azərbaycan XİN-in başçısı XDİ/XSİ fraksiyasının xarici siyasət məsələləri üzrə spikeri Filip Misfelder ilə işgüzar görüşü, sonra isə Bundestaqın deputatları ilə geniş tərkibdə görüşü olmuşdur.

Almaniya XİN-in binasında Azərbaycanın xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov ilə AFR-in xarici işlər naziri Gido Vestervelle arasında görüş olmuşdur. Görüşdə ikitərəfli münasibətlər, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edilmişdir. Avropada enerji təhlükəsizliyi məsələləri və Azərbaycan ilə Almaniya arasında əməkdaşlığın daha da genişləndirilməsinin mümkünlüyü də nəzərdən keçirilmişdir.

Azərbaycan nazirinin AFR Kanslerinin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə müşaviri Kristof Hoygen ilə görüşündə də qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

E.Məmmədyarov rəsmi səfər proqramının sonunda Almaniya xarici siyasət məsələləri üzrə cəmiyyətində mühazirə ilə çıxış etmişdir. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişlənməsi, Azərbaycan dövlətinin iqtisadi inkişaf sahəsində uğurları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mənbələri və ATƏT-in Minsk qrupu yaradılandan bəri sülh prosesinin gedişi barədə söhbət açmışdır. Nazir regional enerji nəqli layihələrinə, habelə dinamik inkişaf etməkdə olan qeyri-neft sektoruna xüsusi diqqət yetirmişdir.

XİN başçısının sözlərinə görə, Azərbaycan vasitəçilərin son təklifini əsas kimi qəbul etmişdir. Həmin təklifə görə aşağıdakı addımların mərhələlər üzrə həyata keçirilməsi nəzərdə tutulur: 1) erməni silahlı qüvvələrinin Azərbaycanın bütün işğal edilmiş ərazilərindən çıxarılması; 2) bütün məcburi köçkünlərin və qaçqınların əvvəlki yaşayış yerlərinə qaytarılması; 3) regionun bütün sakinlərinin - həm hazırda orada yaşayan ermənilərin, həm də Dağlıq Qarabağa qayıdacaq azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsi; 4) regionda bütün kommunikasiyaların bərpa edilməsi; 5) Dağlıq Qarabağ regionunun müvəqqəti statusunun hazırlanması; nəhayət, 6) bütün bu tədbirlər implementasiya edildikdən sonra Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın qəti statusunun müəyyən edilməsi məsələsinin həllinə yaxınlaşmaq mümkün olacaqdır. Nazir vurğulamışdır ki, sülh sazişinin bağlanması üçün erməni rəhbərliyinin siyasi iradəsi tələb olunur. Lakin təəssüf ki, bu rəhbərlik hələlik danışıqların gedişini uzadır və həmişə çalışır ki, artıq çoxdan razılaşdırılmış məsələlərə yenidən qayıtsın.

Azərbaycan XİN-in başçısı demişdir: "Bu halda təyini-müqəddərat məsələsi dövlətin ərazi bütövlüyünü poza bilməz və pozmamalıdır, mən dövlətlərin ərazi bütövlüyü çərçivəsində müxtəlif milli azlıqların uğurlu təyini-müqəddəratına aid minlərlə misal göstərə bilərəm. Götürək elə Rusiya Federasiyasını və ya Avropa İttifaqını. Bu cür misallar çoxdur".

Elmar Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin Torontoda qəbul edilmiş son bəyanatını yüksək qiymətləndirmiş və onun çox mühüm sənəd olmasını etiraf etmişdir. Nazir demişdir: "İşğal elə işğaldır və bunu hamı etiraf edir. Əgər biz Ermənistan tərəfin nə istədiyini bilsək, mənim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə nikbinliyim artar. Əgər Ermənistan Qarabağı ilhaq etmək istəyirsə, bu, olmayacaqdır. Əgər o, regionun müstəqilliyi məsələsində israrlı olmağı davam etdirərsə, mən onu da mümkün hesab etmirəm".

Sonra E.Məmmədyarov auditoriyadakıların suallarına cavab vermişdir. Nazir yeniləşdirilmiş Madrid prinsiplərinin qəbul edilməsində Ermənistan tərəfin qətiyyətsizlik göstərməsinin səbəbləri barədə sualın cavabında demişdir ki, o, Azərbaycan XİN-in rəhbəri kimi Ermənistan XİN-in bu cür davranışının səbəbləri barədə suala cavab axtara bilməz. Eyni zamanda o, əlavə etmişdir ki, vasitəçilərin təkliflərini tezliklə qəbul etmək və münaqişənin gerida qalması Ermənistanın özünün xeyrinədir.

E.Məmmədyarov Rusiya Prezidenti Dmitri Medvedevin danışıqlar prosesində rolunu yüksək qiymətləndirmişdir. Nazir demişdir: "O, sənədlərin redaktə olunmasında şəxsən iştirak edir, mühüm düzəlişlər edir, təkliflər verir. Onun şəxsi rolu həqiqətən çox böyükdür və biz bunu səmimi qiymətləndiririk".

E.Məmmədyarov ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin prezidentlərinin son bəyanatının mətnindəki fikir ayrılıqları barədə sualını cavablandıraraq xatırlatmışdır ki, bəyanatın rusca versiyasında onun ingiliscədən tərcümə olması qeyd edilmişdir. Deməli, ingiliscə orijinalı əsas götürmək lazımdır. Azərbaycan XİN başçısı demişdir: "Bununla belə, biz həmin anlaşılmazlığın nə üçün yaranmasını araşdırırıq".

"Məcburi köçkünlərin neçəsi öz evlərinə qayıtmağa hazır olacaqdır" sualına Məmmədyarov belə cavab vermişdir ki, həmin insanların əksəriyyəti kənd təsərrüfatı sektorunda çalışır. "Bu insanlar torpağa bağlıdır. Belə insanlar torpaqsız yaşaya bilmirlər. onlar qayıdacaqlar", - deyə vurğulayan nazir onu da demişdir ki, Azərbaycan ABŞ-ın tədqiqat institutları ilə birlikdə məcburi köçkünlərin reabilitasiyası yollarının öyrənilməsinə (yə-

ni onların bərpasına kömək edilməsinə) dair bir sıra müştərək layihələr həyata keçirmişdir. E.Məmmədyarov demişdir: "Biz onların əksəriyyəti üçün rahat, lakin hər halda müvəqqəti evlər tikmiş və onların əvvəlki yaşayış yerlərinə qayıtmasının mümkün olması üçün bu insanları həmin evlərdə məskunlaşdırmışıq".

E.Məmmədyarov həm hazırda Dağlıq Qarabağda yaşayan, həm də oraya qayıdacaq əhalinin təhlükəsizliyinin təmin edilməsindən söhbət açaraq qeyd etmişdir ki, bu məsələlər hər görüşdə müzakirə edilir. Bu da təəccüblü deyil. Nazir demişdir: "Erməni qüvvələri işğal edilmiş ərazilərdən çıxarılanda və azərbaycanlılar Dağlıq Qarabağa qayıtmağa başlayanda aydındır ki, sülhməramlı qüvvələrə ehtiyac olacaqdır. Lakin həmin qüvvələr sırasında həmsədr ölkələrin və sərhədyanı dövlətlərin nümayəndələri iştirak etməyəcəklər. ATƏT-in Minsk qrupu çərçivəsində bu barədə bir növ centlmen razılaşması çoxdan əldə edilmişdir".

Görüşün lap sonunda yaxın vaxtlara qədər özünü "Dağlıq Qarabağın AFR-dəki daimi nümayəndəsi" adlandıran Qayane Apinyan adlı birisi söz istəmişdir. Ən azı abır-həya xatirinə yekunlaşdırıcı sualı belə olmayan monoloqa oxşar uzun-uzadı və monoton çıxışın mahiyyəti yeganə bir tezisdən ibarət idi: "Dağlıq Qarabağ xalqı təhlükəsizlik istəyir".

Azərbaycan XİN-in başçısı bu çıxışa cavab olaraq madam Apinyana xatırlatmışdır ki, "Dağlıq Qarabağ xalqı" deyilən insanlar təkcə ermənilər deyil, həm də azərbaycanlılardır. Nazir vurğulamışdır: "Əgər iki xalq möhkəm və davamlı sülhə nail olmaq istəyirsə, kompromis, ilk növbədə legitim təmələ əsaslanmalıdır. Dağlıq Qarabağın erməni icması rəhbərliyinin 1988-1992-ci illərdəki birtərəfli hərəkətləri legitim bazaya əsaslanmırdı. Həm respublika qanunvericiliyi, həm də ittifaq qanunvericiliyi, özü də çoxsaylı epizodlarda pozulmuşdu. Buna görə də Dağlıq Qarabağın erməni icmasının bütün hərəkətlərinin heç bir hüquqi nəticəsi olmamışdır".

E.Məmmədyarovun sözlərinə görə, təsadüfi deyildir ki, Madrid prinsiplərində söhbət məhz regionun hüquqi statusunun müəyyən edilməsindən gedir. E.Məmmədyarov axırda demişdir: "Bugünkü status hüquqi status deyildir. Regionun hüquqi qüvvəyə malik olan hüquqi statusu yalnız orada hazırda yaşayanların və orada yaşamış, lakin zorla oradan qovulmuş insanların birgə səyi ilə təyin edilə bilər. Bu insanların öz iradəsini ifadə etməsi Kalaşnikov avtomatlarının lülələri altında deyil, etimad şəraitində, daxildən və xaricdən təzyiq göstərilmədən mümkündür. Bunun nə vaxt olacağını dəqiq söyləmək çətindir. Lakin bu, nə qədər tez olsa, bir o qədər yaxşıdır. Mən əsla şübhə etmirəm ki, vaxt gələcək, Qarabağ ermənilər Azərbaycan vətəndaşları adlandırılmağı özləri üçün böyük şərəf hesab edəcəklər".

Bununla da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Almaniyaya rəsmi səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov iyunun 30-da Azərbaycana işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Bolqarıstanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bolqarıstan Prezidentini və xanımı Zorka Pırvanovanı hava limanında Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev və digər rəsmi şəxslər qarşıladılar.

Bolqarıstanın birinci xanımına gül dəstəsi təqdim olundu.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT GEORGİ PIRVANOVUN GÖRÜŞÜ

İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı Zorka Pırvanova ilə birgə görüşü olmuşdur.

Dövlətimizin başçısı və xanımı Bolqarıstan Prezidentini və xanımını sarayın həyətində qarşıladılar.

Sonra birgə görüş oldu. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, energetika və digər sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Yüksək səviyyəli səfərlərin əhəmiyyətinə toxunuldu. Bolqarıstan Prezidentinin Azərbaycana işgüzar səfərinin əlaqələrimizin genişlənməsi baxımından önəmi qeyd olundu.

Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyunun 30-da Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pırvanovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Georgi Pırvanovu ölkəmizdə salamladı və bildirdi ki, bu səfər münasibətlərimizin daha da inkişaf etməsi üçün böyük əhəmiyyətə malikdir. "Biz artıq Sizinlə münasibətlərimizin gündəliyinə dair fikir mübadiləsi aparmışıq və həmin münasibətlərin necə dinamik inkişaf etməsini görürük", - deyən dövlətimizin başçısı əlaqələrimizin səviyyəsindən razı qaldığını bildirdi.

Dövlətimizin başçısı İlham Əliyev qeyd etdi ki, budəfəki səfər ikitərəfli münasibətlərin inkişafı və regional əməkdaşlıq üçün daha bir mühüm addım olacaqdır. Çünki müzakirə olunan və hələ müzakirə edəcəyimiz məsələlər mühüm regional məna kəsb edir. "Biz

ölkələrimizin və xalqlarımızın rifahı, habelə Azərbaycan ilə Avropa strukturları arasında münasibətlərin möhkəmlənməsi naminə ikitərəfli əməkdaşlıq potensialından tam şəkildə istifadə etmək üçün Sizinlə siyasi, iqtisadi, mədəni məsələlərə dair əməkdaşlığa hazırıq", - deyən Prezident İlham Əliyev Bolqarıstan Prezidentini bir daha ölkəmizdə salamladı və ona ən xoş arzularını bildirdi.

Bolqarıstan Prezidenti Georgi Pırvanov Prezident İlham Əliyevin münasibətlərin inkişafına verdiyi qiymətlə razı olduğunu dedi. Bildirdi ki, münasibətlərimiz çox səmimi və yaxşıdır. Son dövrlərdə isə müasir Avropa münasibətləri kontekstində əlaqələrin intensivliyi artır. "Nazirliklər, digər təsisatlar səviyyəsində münasibətlər çox fəal inkişaf edir. Lakin bu da çox vacibdir ki, dövlət başçılarının münasibətləri bütün sahələrdə əlaqələrin inkişafına təkan verir", - deyən Bolqarıstan dövlətinin başçısı bildirdi ki, bu əlaqələri və münasibətləri ikitərəfli planda praktiki addımlara çevirməyə nail oluruq.

O da qeyd olundu ki, Avropa İttifaqının üzvü kimi Bolqarıstanın mövqeyi bütövlükdə regiona, o cümlədən Azərbaycana münasibətdə Avropa siyasətinin formalaşmasında fəal olmaqdan ibarətdir.

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI

İyunun 30-da geniş tərkibdə görüşdən sonra prezidentlər İlham Əliyev və Georgi Pırvanov mətbuat üçün bəyanatlarla çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, Sizin səfəriniz Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Mən əminəm ki, səfərin nəticələri əlaqələrimizi daha da irəliyə aparacaqdır. Aramızda əlaqələr çox möhkəm zəmində qurulubdur. Biz müxtəlif sahələrdə çox uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq gündən-günə genişlənir və dərinləşir. Bizim siyasi əlaqələr yüksək səviyyədədir və qarşılıqlı səfərlər, xüsusilə yüksəksəviyyəli səfərlər bunu göstərir. Biz Sizinlə həm Azərbaycanda, həm Bolqarıstanda, digər ölkələrdə vaxtaşırı görüşürük, fikir mübadiləsi aparırıq. Çox şadam ki, bütün strukturlar, nazirliklər öz aralarında da çox səmərəli əlaqələr qura bilmişlər.

Bir sözlə, siyasi əlaqələrin möhkəm olması bizə imkan verir ki, müxtəlif sahələrdə əlaqələrin inkişafına da güclü təkan verək. Bu gün biz Sizinlə gündəliyimizin demək olar ki, bütün məsələlərini müzakirə etdik. Bir daha gördük ki, ikitərəfli gündəliyimiz çox genişdir və çoxmənalıdır. İqtisadi sahədə böyük potensialımız vardır. Ümid edirəm ki, gələcək illərdə bu potensial həyatda öz əksini tam şəkildə tapacaqdır. Qarşılıqlı investisiya layihələri, müştərək müəssisələrin yaradılması və birgə iqtisadi fəaliyyət əlaqələrimizi daha da gücləndirəcəkdir.

Biz bu gün Sizinlə energetika sektorundakı əlaqələrimizi geniş müzakirə etdik. Bu sahədə gözəl perspektivlər vardır və artıq konkret addımlar da atılıbdır. Keçən il Sofiyada

Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində memorandum imzalanmışdır və artıq işçi qrupu memorandumun əsasında bir neçə görüş keçirmişdir. Bu görüşlər çox ümidvericidir. Bu gün biz Sizinlə həmin məsələləri daha da geniş şəkildə müzakirə etdik. Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq, əminəm ki, çox uğurlu olacaq, həm ölkələrimizin maraqlarını təmin edəcək, eyni zamanda, regional əməkdaşlıq üçün də çox böyük töhfə verəcəkdir. Çünki Azərbaycan tərəfindən başlanmış və uğurla icra edilən neft-qaz layihələri bu gün artıq regional müstəviyə daxil edilibdir. Bu layihələrin regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün də çox böyük əhəmiyyəti vardır.

Azərbaycan öz enerji potensialını tam şəkildə reallaşdırmaq əzmindədir. Bunu etmək üçün bizə, əlbəttə ki, yeni istiqamətlər, yeni bazarlar lazımdır. Əminəm ki, istehlakçılar üçün də yeni mənbələr maraq doğurur. Beləliklə, bu sahədə maraqlarımız üst-üstə düşür. Əminəm ki, bu gün bizim tərəfimizdən verilən konkret tapşırıqlar bu sahədəki əməkdaşlığın reallaşmasına gətirib çıxaracaqdır. Beləliklə, Bolqarıstan ilə Azərbaycan arasında energetika sektorunda da çox uğurlu və uzunmüddətli əməkdaşlıq təmin ediləcəkdir.

Bu gün biz Sizinlə Azərbaycan ilə Avropa İttifaqı və Avropa strukturları arasında mövcud olan əlaqələri müzakirə etdik. Bolqarıstan Azərbaycan ilə Avropa qurumları arasında əməkdaşlığın dərinləşməsi işində müsbət rol oynayır. Biz bu rolu çox yüksək qiymətləndiririk. Biz ümid edirik ki, "Şərq tərəfdaşlığı" Proqramının icrası nəticəsində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr yeni səviyyəyə qalxacaqdır.

Bu yaxınlarda Avropa Parlamenti tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş qətnamə Azərbaycanda çox müsbət bir hal kimi qiymətləndirilir. Bu qətnamə çox ədalətlidir, münaqişənin mahiyyətini tam şəkildə açır və Azərbaycanın işğal edilmiş torpaqlarından işğalçı qüvvələrin çıxarılmasına dair konkret təkliflər orada öz əksini tapır. Bildiyiniz kimi, uzun illərdir ki, Azərbaycan torpaqları erməni işğalçılarının nəzarətindədir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Torpaqlarımızın iyirmi faizi uzun illərdir ki, işğal altındadır. Bu işğal nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın-köçkün vəziyyətində yaşayır. Biz istəyirik ki, məsələ beynəlxalq təşkilatların qətnamələri, qərarları əsasında və beynəlxalq hüquq normaları çərçivəsində tezliklə öz ədalətli həllini tapsın. Hər bir yeni qərar, xüsusilə Avropa Parlamenti tərəfindən qəbul edilmiş qətnamə və buna bənzər qətnamələr mövqeyimizi gücləndirir, bir sözlə, məsələnin ədalətli həllinə öz dəstəyini göstərir. Biz bu qətnamənin qəbul edilməsində Bolqarıstan nümayəndələrinin iştirakını da çox yüksək qiymətləndiririk.

Bir sözlə, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrdə Bolqarıstanın xüsusi yeri vardır. Biz həmişə, bütün dövrlərdə Bolqarıstandan dəstək almışıq. Bu dəstəyi bu gün də görürük və hiss edirik. Biz bu gün əməkdaşlığımızın müxtəlif sahələrini geniş şəkildə müzakirə etdik. Bir daha demək istəyirəm ki, müzakirə etdiyimiz bütün məsələlərdə mövqeyimiz üst-üstə düşür və bizim amalımız da birdir. Biz istəyirik ki, ikitərəfli əlaqələr sürətlə inkişaf etsin, regional əməkdaşlıq - Xəzər dənizi-Qara dəniz regionlarının əməkdaşlığı daha da uğurlu olsun. Bölgədə sülh, təhlükəsizlik təmin edilsin, bütün siyasi və iqtisadi proseslər müsbət istiqamətdə davam etsin və beləliklə, bu bölgədə vəziyyət, xüsusilə, təhlükəsizlik tədbirləri daha da gücləndirilsin.

Mən əminəm ki, səfəriniz çox uğurlu keçəcək və səfərinizin nəticələri Bolqarıstan-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcəkdir. Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram və bir daha Sizə "Xoş gəlmisiniz!" deyirəm.

* * *

Bolqarıstan Prezidenti Georgi PIRVANOV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əvvəlcə, mənə göndərdiyiniz dəvətə görə və göstərilmiş səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən keçirilmiş danışıqlardan çox razıyam. Sözün əsl mənasında, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri mövcud olmuşdur. İndi isə bizim belə bir imkanımız var ki, həmin o münasibətlərə yeni məna verək, yeni keyfiyyət gətirək. Hesab edirəm ki, bu münasibətlər Avropa İttifaqının üzvü olan dövlət ilə və Sizin regionun dövləti arasında nümunəvi münasibətlər kimi xidmət edə bilər.

Cənab Prezident, Siz burada müxtəlif Avropa təsisatları ilə münasibətlərimizə istinad etdiniz. Biz münasibətlərimizin inkişafı üçün müsbət rol oynamış bu amilləri qeyd etmək istəyirik. Hesab edirəm ki, biz ölkələrimiz arasında əmtəə dövriyyəsinin düzgün müsbət təhlilini apara və ölkələrimiz arasında əmtəə dövriyyəsinin yeni strukturunu nəzərdən keçirə biləcəyik. Biz bu baxımdan müvafiq nazirliklər və sahə qurumları arasında daha böyük əməkdaşlıq gözləyirik. Təbii ki, bugünkü danışıqlar sərmayə prosesinə təkan verə bilər. Bu, hər iki istiqamətdə sərmayə marağını daha da artıra bilər. Biz bu məsələləri də müzakirə etdik. Ümidvaram ki, bu məsələlər müvafiq təsisatların və nazirliklərin iş gündəliyinə salınacaqdır.

Mən, eyni zamanda, energetika sahəsində apardığımız danışıqları müsbət dəyərləndirirəm. Bu baxımdan əlaqələrimiz yaxşı inkişaf edir, müsbət nəticələrimiz vardır. Biz Bolqarıstana bir milyard kubmetr həcmində Azərbaycan qazının alınması imkanının yaradılmasından çox məmnunuq. Bu, çox müsbət bir haldır və bu sahədə əməkdaşlıq artıq gələn ildən başlayaraq baş tutacaqdır. Zənnimcə, bu, mənim ölkəmin enerji təhlükəsizliyinə mühüm töhfə olardı.

Eyni zamanda, biz fəal şəkildə işləyərək, qarışıq işçi qrupunun fəaliyyətini yüksək dəyərləndiririk. Burada Azərbaycandan sıxılmış qazın Bolqarıstan vasitəsilə Avropaya çıxarılması nəzərdə tutulur. Mən bunu xüsusilə qeyd edirəm, əgər birinci layihəmiz ikitərəfli xarakter daşıyırsa, sıxılmış qaz layihəsi artıq daha geniş regional əhəmiyyətə malik ola bilər. Hesab edirəm ki, bu, enerji daşıyıcıları mənbələrinin və daşınma yollarının şaxələndirilməsinə böyük töhfə verər. Bundan Azərbaycan da faydalana bilər. Beləliklə, Azərbaycan Avropanın enerji bazarına birbaşa çıxış əldə edəcəkdir.

Təfərrüatlara varmadan qeyd etmək istəyirəm ki, işçi qrupu çərçivəsində konkret məsələlər - daşınmanın həcmi, təbii qazın daşınma yolları müzakirə olunur. Qeyd etmək istəyirəm ki, müxtəlif qurumlar bu layihənin həyata keçirilməsində iştirak edir.

Mən xüsusi olaraq, Prezident İlham Əliyevin digər sahələrdə, o cümlədən təhlükəsizlik

sahəsində əməkdaşlığı qeyd etdiyini yüksək dəyərləndirirəm. Eyni zamanda, elm, təhsil, mədəniyyət sahələrində də əməkdaşlığımızı xüsusi qeyd etmək istəyirəm. Orada imkanlarımız vardır və yaxşı perspektivlər də mövcuddur.

Qeyd etmək istəyirəm ki, münasibətlərimiz get-gedə daha çox Avropa çalarlarını özündə əks etdirir. Bolqarıstan Avropa təsisatlarının iştirakçısı kimi regiona dair, xüsusən də dost Azərbaycana olan siyasətin formalaşdırılmasında iştirak edəcəkdir. Biz müxtəlif təşəbbüslərə, xüsusən də "Şərq tərəfdaşlığı" təşəbbüsünə daha böyük mənanın, məzmunun gətirilməsinə çalışacağıq. Biz bunu ona görə edirik ki, buradakı xalqlar da onların problemlərinin Avropanın diqqət mərkəzində olduğunu hiss etsinlər, xüsusən də enerji sahəsi baxımından.

Mən, eyni zamanda, qeyd etmək istəyirəm ki, biz Avropa təsisatları ilə birgə çalışaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Minsk qrupuna lazımi dəstəyi veririk. Biz istəyirik ki, bu münaqişə, cənab Prezidentin qeyd etdiyi kimi, tezliklə ədalətli şəkildə həll olunsun. Çünki bu münaqişəsinin həlli bütün Cənubi Qafqaz regionunun uğurlu inkişafına töhfə verərdi. Bugünkü kimi, biz Minsk qrupunun fəaliyyətinə və müxtəlif digər təsisatların işinə dəstək verəcəyik. Bundan sonra da bunu davam etdirəcəyik.

Yekunda mən şəxsən öz adımdan və nümayəndə heyəti adından məmnunluğumu bildirmək istəyirəm ki, razılaşdırdığımız bütün məsələlər yaxın gələcəkdə, görünən gələcəkdə baş tutacaqdır. Beləliklə, münasibətlərimizin yeni Avropa meyarı olacaqdır.

Çox sağ olun, cənab Prezident.

BOLQARISTAN PREZİDENTİNİN XANIMI BAKIDA MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanda səfərdə olan Bolqarıstan Prezidentinin xanımı Zorka Pırvanova iyunun 30-da Müasir İncəsənət Muzeyində olmuşdur.

Bolqarıstan Prezidentinin xanımı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etmişdir. Vurğulanmışdır ki, buradakı ekspozisiyanın əsasını XX əsrin ikinci yarısından bu günədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Bildirilmişdir ki, muzeyin beynəlxalq əlaqələri də genişlənir. Bu mədəniyyət ocağı 2011-ci ildə 47 ölkənin təmsilçisinin qatılacağı Avropa müasir incəsənət muzeylərinin müsabiqəsində iştirak etmək niyyətindədir.

Qonaq Azərbaycanın Xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil edilmiş bir çox fırça ustası və heykəltəraşların əsərləri ilə tanış olmuşdur.

Bolqarıstanın birinci xanımı muzeydə Mehriban Əliyevanın mayın sonlarında Bakıda

keçirilmiş "Qız qalası" Beynəlxalq incəsənət festivalına təqdim etdiyi əsərə maraqla tamaşa etmişdir. Mehriban xanım Əliyevanın əsərində bir sıra ölkələrin müxtəlif tarixi və mədəniyyət abidələri əks etdirilmişdir. Maketin üzərində isə mədəni irsin qorunmasına rəmzi çağırış mənasını daşıyan çətir qurulmuşdur. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu əsəri ilə bütün dünyanı mədəni irsin qorunmasına çağırmışdır.

Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan bu mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir.

Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunələri də nümayiş etdirilir.

Bolqarıstan Prezidentinin xanımı muzeyin kitabxanası ilə də tanış olmuşdur. Bildirilmişdir ki, burada incəsənət sahəsində 800-dək kitab toplanmışdır. Hətta, muzeyin kitabxanasından hər kəs abunə yazılmaqla istifadə edə bilər.

Qonaq muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.

Bolqarıstanın birinci xanımına xatirə hədiyyəsi təqdim olunmuşdur.

Bolqarıstanın birinci xanımı muzeyin əməkdaşlarına təşəkkürünü bildirərək, buradan zəngin təəssüratlarla ayrılmışdır.

BİRGƏ ŞAM YEMƏYİ

İyunun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanov və xanımı Zorka Pırvanova birgə şam etmişlər.

BAŞ NAZİR SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyunun 30-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Suriya Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri, Suriya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alaonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Suriyanın Azərbaycana dost və qardaş ölkə olduğunu diqqətə çatdıran Baş nazir Artur Rasizadə bildirmişdir ki, ölkələrimiz arasında əlaqələrin qədim tarixi var və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün hazırda böyük imkanlar mövcuddur. Son vaxtlar Suriya ilə bütün sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığın intensivləşdiyi, Bakıda keçirilmiş Suriya-Azərbaycan hökumətlərarası komissiyasının birinci iclasının buna əyani sübut olduğu nəzərə çarpdırılmışdır.

Suriyanın neft və mineral ehtiyatlar naziri, Suriya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alao özlərinə ikinci vətən hesab etdikləri Azərbaycanda ol-

duqlarından məmnunluğunu bildirmişdir. Ölkəsinin Azərbaycan ilə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu söyləyən qonaq, ötən ilin iyulunda Suriya Prezidenti Bəşşar əl-Əsədin Azərbaycana rəsmi səfərini və bu səfər çərçivəsində bir çox hökumətlərarası sazişlərin imzalandığını vurğulamışdır. Gələcəkdə bundan əvvəl əhatə olunmayan sahələr üzrə də yeni sazişlərin imzalanması nəzərdə tutulmuşdur.

Sufyan Alao Baş nazir Artur Rasizadəyə Azərbaycan Respublikası Dövlət Neft Şirkətində keçirdiyi görüş barədə məlumat vermiş, ölkəsinin Azərbaycan qazının Suriyaya nəqlində maraqlı olduğunu diqqətə çatdırmışdır.

Azərbaycan və Suriya özəl şirkətlərindən ibarət şuranın yaradılacağını bildirən qonaq demişdir ki, məqsəd ikitərəfli investisiya qoyuluşlarını təmin etməkdir. Yaxın gələcəkdə Suriyada və Azərbaycanda sənaye məhsullarının sərgisinin keçirilməsi, həmçinin təhsil sahəsində əməkdaşlıq, kadr mübadiləsi və s. nəzərdə tutulmuşdur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

ASTANADA TOLERANTLIQ VƏ AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏMƏSİ İLƏ ƏLAQƏDAR ATƏT-İN YÜKSƏK SƏVİYYƏLİ KONFRANSI BAŞA ÇATMIŞDIR

İyunun 29-30-da Astanada tolerantlıq və ayrı-seçkiliyə yol verilməməsi ilə əlaqədar ATƏT-in yüksək səviyyəli konfransı keçirilmişdir.

Konfransda ATƏT-in üzvü olan 56 ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndə heyətləri, ekspertlər iştirak etmişlər.

Tədbirdə Azərbaycanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucovun başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir.

Konfransı Qazaxıstanın Dövlət katibi, xarici işlər naziri Kanat Saudabayev açmış, dövlət başçısı Nursultan Nazarbayev məruzə etmişdir.

Tədbirdə tolerantlıq və ayrı-seçkiliyə yol verilməməsi, antisemitizm və rasizmlə mübarizə, bu işdə qanunverici, hüquq-mühafizə orqanları, həmçinin təhsil sisteminin, KİV-lərin rolu və digər məsələlər müzakirə edilmişdir.

ATƏT-in üzvü olan ölkələrin ekspertləri tolerantlıq və insan hüquqlarının qorunması üzrə etniklərarası və konfessiyalararası dialoq mexanizminin yaradılması sahəsində də təcrübə mübadiləsi aparmışlar.

Hidayət Orucov konfransdakı çıxışında bu sahədə Azərbaycanda olan vəziyyət haqqında danışmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunmuş, ölkə torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, 1 milyondan artıq qaçqın və məcburi köçkünün olduğunu bildirmişdir. BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunması ilə əlaqədar dörd qətnamə qəbul etsə də, Ermənistan tərəfi buna məhəl qoymur.

Hidayət Orucov demişdir: "Azərbaycan münaqişənin sülh yolu ilə həlli üçün nə lazımdırsa edir. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında bütün milli və dini abidələ-

ri, həmçinin maddi mədəniyyət abidələrini məhv etmişdir.

Bu mötəbər konfransda ermənilərin yalan və böhtanlarını bir daha eşitdik və bir daha əmin olduq ki, Ermənistan problemin həllində maraqlı deyildir".

Tədbirdə BMT-nin Sivilizasiyaların Alyansı üzrə nümayəndəsi Jorje Sampayo, Avropa Şurası Parlament Assambleyasının prezidenti Mövlud Çavuşoğlu, ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı Knut Vollebek, ATƏT-in rəsmi nümayəndələri - Endryu Beyker, Mario Maura, Adil Axmedov, Türkiyənin Dövlət naziri Mehmet Aydın və başqaları öz çıxışlarında dözümlülük və ayrı-seçkiliyə yol verilməməsi, antisemitizm, rasizm və digər bu kimi problemlərə öz münasibətlərini bildirmişlər.

BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA MƏRUZƏ İLƏ ÇIXIŞ ETMİŞDİR

Ölkəmizdə səfərdə olan BMT-nin Sənayenin İnkişafı Təşkilatının baş direktoru Kandeh Yumkella iyunun 30-da Azərbaycan Diplomatik Akademiyasında dünyanın inkişaf meyillərinə dair məruzə ilə çıxış etmişdir.

K.Yumkella məruzəsində dünyada enerjiyə olan tələbatın durmadan yüksəldiyini, Yer kürəsi, xüsusən də Afrika və Asiya qitələrinin əhalisinin sürətlə artdığını vurğulamışdır.

BMT rəsmisi qeyd etmişdir ki, 2030-cu ilədək dünya üzrə enerjiyə tələbat 40-45 faiz artacaqdır. Eyni zamanda, Afrika qitəsinin əhalisinin sayı indiki 1 milyarddan 1,3 milyardadək çoxalacaqdır.

Baş direktor yaranan yeni şəraitdə enerji resurslarından səmərəli istifadənin və su ehtiyatlarının düzgün paylanmasının ən vacib amillər olduğunu demişdir.

Azərbaycanın inkişafı barədə danışan K.Yumkella, ölkəmizin dünya enerji bazarına verdiyi töhfəni və rəsmi Bakının Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünə qoşulduğunu vurğulamışdır. Onun sözlərinə görə, Azərbaycanın bu nailiyyətlərindən digər ölkələr də faydalana bilər.

BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI VƏ SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTLƏRİ ARASINDA BİRGƏ KOMİSSİYANIN BİRİNCİ İCLASI BAŞA ÇATMIŞDIR

Bakıda Azərbaycan Respublikası Hökuməti və Suriya Ərəb Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın ilk iclası keçirilir.

İyunun 30-da komissiyanın yekun iclası olmuşdur.

Komissiyanın həmsədri, Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov məlumat vermişdir ki, dünənki iclasdan sonra ekspertlər protokol üzərində işləmişlər və sənəd imzalanmaq üçün hazırdır.

Suriya tərəfdən həmsədr, neft və təbii sərvətlər naziri Sufyan Alao bildirmişdir ki, nümayəndə heyətinin səfəri çox məhsuldar olmuşdur. Azərbaycan dövlətinin başçısı, sənaye və energetika, iqtisadi inkişaf nazirləri, ARDNŞ prezidenti ilə görüşlər onda böyük təəssürat oyatmışdır. O, qonaqpərvərliyə görə təşəkkür etmiş və gələn il Dəməşqdə, komissiyanın ikinci iclasında görüşəcəklərinə əmin olduğunu vurğulamışdır.

Protokolu Sufyan Alao və İsmət Abasov imzalamışlar.

Sənəddə ticarət-iqtisadi, kənd təsərrüfatı, sənaye və energetika, elektrik enerjisi sektoru və bərpa olunan enerji, nəqliyyat, rabitə və informasiya texnologiyaları, təhsil, elm, səhiyyə, mədəniyyət və turizm, bank sahəsində əməkdaşlığı nəzərdə tutan müddəalar vardır.

Sonra hər iki nazir yerli və xarici jurnalistlər üçün brifinq keçirmiş, mətbuat nümayəndələrinin əməkdaşlıq perspektivləri, o cümlədən qarşılıqlı ixrac-idxal əməliyyatları, qazın qiyməti, hava nəqliyyatı vasitəsilə əlaqə və s. barədə suallarına cavab vermişlər. Bildirilmişdir ki, hər iki hökumət arasında bitki karantini və mühafizəsi, baytarlıq, fövqəladə hallar, ticarət və iqtisadiyyat sahəsində əməkdaşlıq, ekstradisiya və cinayətkarların verilməsində hüquqi yardım haqqında sazişlər, ikiqat vergitutmanın aradan qaldırılması haqqında konvensiya, məskunlaşdırma və tikinti, ətraf mühitin mühafizəsi sahələrində əməkdaşlığa dair anlaşma memorandumları imzalanmağa hazırdır. Bakıda və Dəməşqdə təşkil olunacaq sərgilərdə hər iki ölkənin məhsulları nümayiş etdiriləcəkdir. Qaz müqaviləsi 20 il müddətinə bağlanacaq və bu yanacağın qiyməti neftin qiymətinə əsaslanacaqdır. Münasib vaxtda Bakı-Dəməşq hava marşrutu açılacaqdır.

Vurğulanmışdır ki, hər iki ölkədə əməkdaşlıq əlaqələrini ən yüksək səviyyəyə çatdırmaq barədə müştərək istək, siyasi iradə vardır.

Komissiyanın növbəti iclası gələn il Dəməşqdə keçiriləcəkdir.

AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏR YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYUR

Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanacaq yeni saziş ikitərəfli əlaqələrin inkişafında yeni mərhələ açacaq, əməkdaşlığımızı daha da genişləndirəcəkdir.

Bu fikir ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin iyulun 1-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə səslənmişdir.

Oqtay Əsədov Piter Semnebi ilə görüşlərini xatırlamış və onun ölkəmizə səfərlərinin Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafında faydalı olduğunu bildirmişdir. Milli Məclisin sədri demişdir ki, Avropaya inteqrasiya ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biridir.

Azərbaycan ilə Avropa İttifaqı arasında 11 il əvvəl imzalanmış saziş daha səmərəli əməkdaşlığa imkan yaratmışdır. Bu gün Azərbaycan Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində çox faydalı əməkdaşlıq edir. Münasibətlərimizi daha da genişləndirmək üçün yeni saziş imzalanacaqdır. Artıq bu istiqamətdə işlər gedir və sənədlər hazırlanır.

Oqtay Əsədov Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsini və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı səylərini yüksək qiymətləndirmişdir.

Piter Semnebi ətraflı məlumata görə minnətdarlıq etmiş və demişdir ki, həqiqətən də Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Azərbaycan yaxşı tərəfdaşdır. İmzalanacaq yeni saziş bizi daha da yaxınlaşdıracaq və Azərbaycanın Avropaya inteqrasiyasında mühüm rol oynayacaqdır.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişaf perspektivləri, qanun yaradıcılığı sahəsində əməkdaşlıq, qanunların Avropa standartlarına uyğunlaşdırılması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

STRASBURQDA "AZƏRBAYCAN GÖMRÜYÜ MƏDƏNİ VƏ DİNİ İRSİN KEŞİYİNDƏ" MÖVZUSUNDA SƏRGİ KEÇİRİLMİŞDİR

Fransanın Strasburq şəhərində Azərbaycan Xarici İşlər Nazirliyinin təşəbbüsü, eləcə də Mədəniyyət və Turizm Nazirliyinin və Avropa Şurası Parlament Assambleyası (AŞPA) rəhbərliyinin dəstəyi ilə "Azərbaycan gömrüyü mədəni və dini irsin keşiyində" mövzusunda sərgi, eyni zamanda "Azərbaycan gömrüyü mədəni irsin keşiyində" kitabının təqdimatı keçirilmişdir.

Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevin başçılığı ilə nümayəndə heyəti, həmçinin Xalq Rəssamı Ağəli İbrahimov, tanınmış bəstəkar, pianoçu Vüqar Camalzadə iştirak etmişlər.

AŞPA-ın əsas binasında keçirilən açılış mərasimində qurumun sədri Mövlud Çavuşoğlu, DGK-ın sədri Aydın Əliyev, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış etmişlər.

AŞPA-nın sədri Mövlud Çavuşoğlu sərgini Azərbaycanın müxtəlif mədəniyyətlərə malik olmasının göstəricisi kimi səciyyələndirmişdir: "Bu sərgi Azərbaycanın tarixini, mədəniyyətini, ölkədə yaşayan digər xalqların müxtəlifliyini göstərir. Azərbaycan xalqı respublikada yaşayan bütün etnik xalqların mədəniyyətinə hörmətlə yanaşır. Ölkədə mədəniyyətlərarası və dinlərarası harmoniya daim mövcud olmuşdur. Bunlar, həmçinin Avropa Şurasının da dəyərləridir. Avropada müxtəlif dinlər və mədəniyyətlər var və bu dəyərlər bizi bir yerə yığır. Uğur qazanmağımızın əsas açarı müxtəliflikdə bir olmaqdır və biz də bunu bu sərgidə görə bilərik".

DGK-ın sədri Aydın Əliyev çıxışında son illərdə müstəqil Azərbaycanın gömrük xidməti tərəfindən böyük miqdarda qədim əşyaların ölkəmizdən çıxarılmasının və onun sərhədlərindən tranzitlə qanunsuz keçirilməsi cəhdlərinin qarşısının alındığını qeyd etmişdir. Bildirmişdir ki, bugünki görüşümüzün məqsədi sizi xilas edilmiş şah əsərlərin bir qismi və bizim rəsm qalereyasının eksponatları ilə, Azərbaycan xalqının tarixi, mədəniyyəti və tolerantlığı ilə tanış etmək, diqqətinizi yer üzündə tarixi və mədəni sərvətlərə qəsd edilən nəzarətsiz ərazilərə cəlb etmək istəyidir.

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov belə bir sərgi-

nin keçirilməsini yüksək qiymətləndirmiş, tədbirin məqsədinin Azərbaycanda mədəni irsə və mədəni müxtəlifliyə verilən diqqət və qayğının, Azərbaycan hökumətinin bu sahədə həyata keçirdiyi siyasətin AŞ-da tanıtmaq olduğunu diqqətə çatdırmış, mərasimdə iştirak edən Avropa ölkələrinin parlament nümayəndələrinə öz dərin təşəkkürünü bildirmişdir.

Açılış mərasimində Makedoniyanın maliyyə naziri A.Miloşoşovski, AŞPA-nın sabiq prezidenti lord Terri Devis, AŞPA-nın baş direktorları Filip Boylat, Aleksandr Vladiçenko, informasiya departamentinin rəhbəri İvan Kaidjikov, müxtəlif ölkələrin parlament nümayəndələri və digər rəsmi şəxslər iştirak etmişlər.

İştirakçılar nümayiş etdirilmiş əsərləri böyük maraqla seyr etmişlər.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti bir sıra ikitərəfli görüşlər də keçirmişdir.

AŞPA-nın sədri Mövlud Çavuşoğlu və qurumun baş katibinin müavini V.Savitski ilə keçirilən görüşlərdə sərginin təşkilinə yaradılan şəraitə görə minnətdarlıq ifadə olunmuş, qarşı tərəf isə belə bir sərginin keçirilməsini mədəniyyətlərin təbliği baxımından yüksək qiymətləndirmişdir. AŞPA rəhbərliyi ilə görüşdə xüsusilə vurğulanmışdır ki, qurum yarandığı gündən belə bir yüksək səviyyəli sərgiyə ev sahibliyi etməmişdir.

İstər AŞPA rəhbərliyi, istərsə də bir sıra ölkələrin nümayəndə heyətləri ilə keçirilən görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YAYIMLARI BİRLİYİNİN PREZİDENTİ JAN POL FİLİPPO BAŞDA OLMAQLA AVROPA YAYIMLARI BİRLİYİ İDARƏ HEYƏTİNİN RƏHBƏRLİYİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo başda olmaqla Avropa Yayımları Birliyi idarə heyətinin rəhbərliyini qəbul etmişdir.

Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının iştirakçılarının Bakıya səfəri zamanı Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olduqlarını qeyd etmiş, Bakının gözəlliyinin və paytaxtda aparılan yenidənqurma işlərinin onlarda böyük təəssürat yaratdığını vurğulamış, şəhərimizin müxtəlif zəngin mədəniyyət ocaqları ilə tanış olduqlarını bildirmişdir.

Dövlətimizin başçısı Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətinə toxunaraq bu tədbirin müxtəlif ölkələrdən gələn nümayəndələrin Azərbaycanda əldə olunan nailiyyətlərlə yaxından tanış olması üçün yaxşı imkan yaratdığını bildirmişdir. Prezident İlham Əliyev Azərbaycanda bütün sahələrdə böyük uğurlara nail olunduğunu qeyd edərək mədəniyyət sahəsinin inkişafına da xüsusi diqqət yetirildiyini vurğulamışdır.

Görüşdə Avropa Yayımları Birliyinin Baş Assambleyasının 64-cü sessiyasının keçirilməsinin televiziya və radio sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilmişdir.

MİLLİ MƏCLİSİN SƏDRİ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Avropa Parlamentinin nümayəndə heyəti iyulun 2-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

Oqtay Əsədov bildirmişdir ki, Avropaya inteqrasiya Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindəndir. Ölkəmiz Avropa İttifaqı, onun strukturları, eləcə də Avropa Parlamenti ilə sıx əməkdaşlıq edir. Azərbaycan ilə Avropa İttifaqı arasındakı 11 illik əməkdaşlıq artıq yeni mərhələyə qədəm qoymuşdur. Ölkəmizlə bu mötəbər qurum arasında imzalanacaq assosiativ saziş münasibətlərimizin daha da genişlənməsi və dərinləşməsi üçün yeni imkanlar açacaqdır. Bu saziş təkcə siyasi münasibətlərin deyil, eləcə də bütün sahələrdə əlaqələrimizin inkişafına təkan verəcəkdir.

Milli Məclisin sədri bildirmişdir ki, Azərbaycan ilə Avropa İttifaqı arasında "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində də səmərəli əməkdaşlıq mövcuddur və biz bu münasibətlərin daha da genişlənməsində maraqlıyıq.

Avropa Parlamentində Rumıniyanı təmsil edən xanım deputat Norica Nikolai səmimi qəbul üçün minnətdarlığını bildirmiş, Bakıda olmaqdan məmnunluğunu ifadə etmişdir. O demişdir ki, nümayəndə heyətinin tərkibindəki Estoniya və Bolqarıstanı təmsil edən deputatların region dövlətləri arasında Azərbaycana xüsusi dost münasibətləri vardır. Xalqlarımız arasındakı dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün parlament diplomatiyasından səmərəli istifadə olunmalıdır.

Sonra görüşdə Milli Məclis ilə Avropa Parlamenti arasında münasibətlərin daha da inkişaf etdirilməsi, parlament diplomatiyası, Azərbaycanın Avropaya inteqrasiyası, "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ NİDERLANDDA MƏHKƏMƏ-HÜQUQ ORQANLARI ARASINDA QARŞILIQLI ƏLAQƏLƏRLƏ BAĞLI FİKİR MÜBADİLƏSİ APARMIŞDIR

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev cari il iyunun 28-dən iyulun 2-dək Niderland Krallığı Məhkəmə Şurasının sədri və ədliyyə nazirinin dəvəti ilə Haaqa şəhərində işgüzar səfərdə olmuşdur.

Səfər çərçivəsində Niderland Krallığının Məhkəmə Şurasının sədri Erik van der Emster və ədliyyə naziri Hirş Ballin ilə yanaşı, Ali Məhkəmənin sədri Gert Korstens, Dövlət Şurasının üzvü və Beynəlxalq Hüquq Əməkdaşlığı Məhkəməsinin İcraiyyə Şurasının sədri Martin Ostinq, Konstitusiya Hüququ üzrə Dövlət Komissiyasının sədri Vilhelmina Tomassen və BMT-in Beynəlxalq Ədalət Məhkəməsinin registrarı Filip Kuvrerlə görüşlər keçirilmişdir. Rəsmi görüşlər zamanı Azərbaycan Respublikasının Niderland Krallığındakı səfiri Fuad İsgəndərov da iştirak etmişdir.

Hər iki ölkənin məhkəmə-hüquq orqanları arasında qarşılıqlı əlaqələr, o cümlədən beynəlxalq məhkəmə presedentlərinin tətbiqi və digər məsələlərlə bağlı Niderland tərəfi ilə fikir mübadiləsi aparılmışdır. Fərhad Abdullayev iki ölkə arasında münasibətlərin

çoxşaxəli olduğunu vurğulamış və məhkəmə-hüquq orqanları arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin bu münasibətlərin təşviqinə töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində görülən işlər və məhkəmə-hüquq sistemi sahəsində həyata keçirilmiş islahatlar barəsində Niderland tərəfinə ətraflı məlumat verilmişdir.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ 4-CÜ BAKI ENERJİ YAY MƏKTƏBİ İŞƏ BAŞLAMIŞDIR

İyulun 3-də Azərbaycan Diplomatik Akademiyasının (ADA) 4-cü Bakı Enerji Yay Məktəbi işə başlamışdır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) və ExxonMobil-in dəstəyi ilə keçirilən yay məktəbində xarici ölkələrdən gəlmiş gənc diplomatlar, tələbələr dünyanın və Azərbaycanın enerji bazarında mövcud olan meyilləri, enerji bazarının hüquqi, iqtisadi və ekoloji aspektlərini, transmilli yerli və xarici neft şirkətlərinin fəaliyyət istiqamətlərini araşdıracaqlar.

İyulun 17-dək davam edəcək tədbirdə ADA-nın, ABŞ-ın Harvard, Rays və digər universitetlərinin, İsrailin, Britaniyanın, Fransanın tanınmış professorları mühazirə oxuyacaqlar. Bundan əlavə, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, sənaye və energetika naziri Natiq Əliyev, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov və başqaları çıxış edəcəklər. ARDNŞ, ExxonMobil, TOTAL, Schlumberger, Itochu, RWE və BP-nin mütəxəssisləri neft və qaz sənayesinin praktiki məqamları barədə öz təcrübələrini bölüşəcəklər.

Yay məktəbində Türkiyə, Polşa, Yunanıstan, Macarıstan, ABŞ, Malayziya, Mozambik və digər ölkələrdən 41 iştirakçı təhsil almaq hüququ qazanmışdır.

Azərbaycanın xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, proqramın böyük əhəmiyyəti ondadır ki, iştirakçılar burada bir-biri ilə ünsiyyətdə olacaq, aldıqları məlumatlardan və təcrübə mübadiləsindən gələcəkdə öz tədqiqat işlərində istifadə edəcəklər. Enerji siyasətinin müzakirəsi və əldə ediləcək nəticələr iştirakçıların diqqətini daha çox cəlb etmişdir. Onlar həm enerji problemlərini araşdıracaq, həm də Azərbaycanla bağlı məlumat əldə edəcəklər.

İştirakçılar Azərbaycanın tarixi və mədəniyyəti, neft sənayesinin keçmişi və bu günü ilə yaxından tanış olacaqlar.

Proqramın sonunda iştirakçılara sertifikat veriləcəkdir.

ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR

İyulun 4-də ABŞ-ın dövlət katibi xanım Hillari Klinton Azərbaycana rəsmi səfərə gəlmişdir.

Heydər Əliyev adına Beynəlxalq hava limanında Hillari Klintonu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşılamışlar.

ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

Azərbaycanda rəsmi səfərdə olan ABŞ-ın dövlət katibi xanım Hillari Klinton iyulun 4-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Hillari Klinton Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının məzarları üstünə tər çiçəklər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

Hillari Klinton Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr etmişdir.

Qonağa Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTONU QƏBUL ETMİŞDİR

İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ-ın dövlət katibi Hillari Klintonu qəbul etmişdir.

Dövlətimizin başçısı ABŞ-ın dövlət katibini qarşıladı.

Prezident İlham ƏLİYEV hörmətli qonağı salamlayaraq dedi:

- Xanım katib, Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Ümidvaram ki, görüşümüz çox uğurlu olacaqdır. İlk növbədə mən bu gün qeyd etdiyiniz Müstəqillik günü münasibətilə sizi təbrik etmək və Amerika xalqına ən xoş arzularımı çatdırmaq istərdim.

Biz sizin səfərinizə böyük əhəmiyyət verirk. Əminəm ki, səfəriniz tərəfdaşlığımızı daha da gücləndirəcəkdir. İkitərəfli münasibətlərimizin gündəliyi çox genişdir. Müxtəlif sahələrdə uğurlu əməkdaşlığımızın böyük tarixi vardır. Bir daha qeyd etmək istərdim ki, səfəriniz tərəfdaşlığımızı daha da gücləndirəcək və bu, region üçün çox önəmlidir. Biz müstəqilliyi əldə etdikdən sonra ABŞ ilə Azərbaycan arasındakı əlaqələr çox uğurla inkişaf edir. Biz iqtisadi sahədə sıx əməkdaşlıq edirik. Sülhməramlı əməliyyatlarda iştirak edirik. Terrorçuluğa qarşı mübarizə ilə bağlı məsələlərdə birgə fəaliyyət göstərirk. Enerji təhlükəsizliyi məsələləri daim gündəliyimizdədir.

Təbii ki, ABŞ ATƏT-in Minsk qrupuna həmsədr ölkələrdən biri kimi Dağlıq Qarabağ münaqişəsinin həllində bizimlə və digər ölkələrlə yaxından çalışır. Bu münaqişə bizim üçün ən böyük problem və regional təhlükəsizlik üçün əsas təhlükədir. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız işğal altındadır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası, ATƏT, Avropa Parlamenti, Avropa Şurası, İslam Konfransı Təşkilatı, bu təşkilatların hamısı vəziyyəti əks etdirən və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmasını tələb edən müxtəlif qətnamələr qəbul edib. Biz münaqişəni beynəlxalq hüquq çərçivəsində həll etmək istəyirik və bu münaqişənin həllinə mümkün qədər tez nail olmaq istəyirik. Çünki insanlarımız bundan əziyyət çəkirlər.

Əminəm ki, biz bu gün bu və digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, onların

nəticələri yaxşı olacaq və səfərinizdən sonra ölkələrimiz arasında əlaqələr uğurla inkişaf etməyə davam edəcəkdir. Bir daha xoş gəlmisiniz.

ABŞ-ın dövlət katibi Hillari KLİNTON təşəkkür edərək dedi:

- Çox sağ olun, cənab Prezident. Mən Bakıya, ölkənizə ilk səfərimdən məmnunluq və şərəf hissi duyuram. Xüsusilə xoş haldır ki, səfərim ölkəmizin Müstəqillik gününə təsadüf edir.

Bilirəm ki, iqtisadi və sosial inkişaf üçün möhkəm bünövrənin qurulmasında ölkəniz son 20 il ərzində çox çalışmışdır. Mən əlaqələrimizə çox sadiqəm. Son 18 ay ərzində aramızda mütəmadi və məzmunlu söhbətlərimiz olub. Qeyd etdiyiniz məsələlər bizim üçün vacibdir. Fikrimcə, çox əhəmiyyətli haldır ki, bizim hərtərəfli müzakirə aparmaq imkanımız vardır.

Məni burada - Xəzər dənizinin sahilində, gözəl bir gündə, ölkələrimiz arasında dostluq və tərəfdaşlıq ruhunda qəbul etdiyinizə görə bir daha minnətdarlığımı bildirirəm.

BİRGƏ NAHAR

İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ölkəmizdə səfərdə olan ABŞ-ın dövlət katibi Hillari Klinton birgə nahar etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD ALLAN HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Allan Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Allan Harrisin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu demişdir.

Səfər proqramının əhatəli olduğunu deyən Prezident İlham Əliyev bu səfərin Azərbaycan ilə daha yaxından tanış olmağa imkan yaradacağını bildirmişdir.

Devid Allan Harris Azərbaycanın Amerika yəhudiləri üçün çox əhəmiyyətli ölkə olduğunu vurğulayaraq demişdir ki, biz Azərbaycanın dostları kimi bu ölkənin ABŞ üçün siyasi, strateji və mədəni əhəmiyyətini dərk edirik. Bu səfər Birləşmiş Ştatların dövlət katibi Hillari Klintonun Azərbaycana səfərinin ardınca reallaşır. Bu səfərlər isə ABŞ ilə Azərbaycan arasında genişlənən əlaqələrin daha bir mühüm əlamətidir.

Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan-ABŞ münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir. Ölkələrimiz siyasi, iqtisadi, energetika və digər sahələrdə səmərəli əməkdaşlıq qurmuşlar. Azərbaycan və Birləşmiş Ştatlar antiterror əməliyyatlarında birgə fəaliyyət göstərirlər.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin regional əməkdaşlıq baxımından əhə-

miyyətini qeyd etmişdir.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuşdur. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzündən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ölkəmizin beynəlxalq hüquq prinsiplərinə əsaslanan mövqeyindən, münaqişənin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesindən danışmışdır.

Azərbaycan Prezidenti bildirmişdir ki, əsrlər boyu azərbaycanlılar və yəhudilər sülh və əmin-amanlıq şəraitində yaşamış, xalqlarımız arasında gözəl ünsiyyət mövcud olmuşdur. Azərbaycanda yaşayan yəhudilər ölkəmizin inkişafına öz töhfələrini verirlər. Bu isə əlaqələrimizi əks etdirən ən gözəl amillərdəndir.

ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON AZƏRBAYCAN GƏNCLƏR TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Ölkəmizdə səfərdə olan ABŞ-ın dövlət katibi Hillari Klinton iyulun 4-də İçərişəhərdəki Muğam klubda Azərbaycan gənclər təşkilatlarının nümayəndələri ilə görüşmüşdür.

ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON: "AZƏRBAYCANDA KİFAYƏT QƏDƏR TƏRƏQQİ ƏLDƏ OLUNMUŞDUR"

"Cənubi Qafqaz regionunun tərəqqisi üçün Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapmalıdır".

Bu sözləri ABŞ-ın dövlət katibi Hillari Klinton ölkəmizə rəsmi səfərinin yekunları ilə bağlı iyulun 4-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla birgə keçirdiyi mətbuat konfransında demişdir.

Ölkə rəsmiləri ilə apardığı danışıqların nəticələrindən razı qaldığını qeyd edən dövlət katibi Azərbaycanda kifayət qədər tərəqqinin əldə olunduğunu vurğulamışdır.

ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində həllinin tərəfdarı olduğunu bildirən Hillari Klinton demişdir ki, Birləşmiş Ştatlar məsələni birbaşa həll edə bilməz, amma dəstək göstərə bilər.

ABŞ, Rusiya və Fransa prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məlum bəyanatına toxunan dövlət katibi vurğulamışdır ki, problemin həlli yolları tezliklə tapılmalıdır və bu məsələdə tərəqqi də vardır.

Azadlığa Dəstək Aktına 907-ci düzəlişin aradan qaldırılmasına gəlincə, Hillari Klinton qeyd etmişdir ki, Prezident Barak Obama onun müvəqqəti aradan qaldırılması ilə məşğuldur. Amma tam aradan qaldırılması üçün də çalışacaqdır.

Dövlət katibi Azərbaycanın Əfqanıstan və İraqdakı əməliyyatlarda ABŞ-a yaxından dəstək göstərdiyini də vurğulamışdır.

Hillari Klinton Azərbaycanda cari ilin noyabrında keçiriləcək parlament seçkilərinə toxunaraq demişdir ki, ABŞ bu seçkiləri dəstəkləyir və əməkdaşlığa hazırdır.

Azərbaycan xalqının mehriban münasibətindən böyük məmnunluq duyduğunu vurğula-

yan dövlət katibi ölkəmizdə dinamik inkişafın şahidi olduğunu xüsusi qeyd etmişdir. Bildirmişdir ki, Azərbaycan ilə ABŞ arasında mədəniyyət, təhsil və ticarət sahələrində də əlaqələr geniş inkişaf etmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın həyata keçirdiyi böyük layihələrə ABŞ-ın dəstək verdiyini xüsusi qeyd etmişdir.

Nazir vurğulamışdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tam həll olunandan sonra Cənubi Qafqazın bütün ölkələri regional layihələrdə iştirak edə bilərlər.

ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İyulun 4-də ABŞ-ın dövlət katibi xanım Hillari Klintonun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

Heydər Əliyev adına Beynəlxalq hava limanında Hillari Klintonu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər yola salmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏNDİRİLMƏSİ NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də İran İslam Respublikasının mədəniyyət və islam maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Seyid Məhəmməd Hüseyni İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırmışdır.

Görüşdə Azərbaycan ilə İran arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın uğurla davam etdiyi vurğulanmış və bildirilmişdir ki, bu uğurlu əməkdaşlığın mənbəyi məhz xalqlar arasındakı dostluq və qardaşlıq əlaqələridir. Bu işdə mədəniyyətlə bağlı məsələlər xüsusi rol oynayır. Söhbət zamanı mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin hər iki ölkə üçün vacib məsələ olduğu qeyd edilmişdir.

Dövlətimizin başçısı Prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

GƏNCLƏR ENERJİ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MƏSƏLƏLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ 4-CÜ BAKI ENERJİ YAY MƏKTƏBİNDƏ MÜZAKİRƏ EDİRLƏR

5 iyul Azərbaycan Diplomatik Akademiyasının (ADA) 4-cü Bakı Enerji Yay Məktəbi iyulun 5-də "Crescent Beach" mehmanxanasında işə başlamışdır.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev Azərbaycanın enerji siyasətindən, son 16 ildə həyata keçirilən enerji layihələrindən, əldə olunan uğurlardan danışmışdır. Bildirmişdir ki, yay məktəbinin keçirilməsinin əsas məqsədi Azərbaycanı dünyaya yalnız neft ixrac edən ölkə kimi deyil, eyni zamanda, bu sahədə bilikləri ixrac edən dövlət kimi tanıtmaqdır.

H.Paşayev diqqətə çatdırmışdır ki, ölkəmiz keçmiş SSRİ məkanında da böyük həcmdə neft ixrac edən respublika olsa da, əldə edilən gəlirlərin yalnız 5 faizi Azərbaycana çatırdı.

Bu gün Azərbaycan neft-qaz, enerji resurslarının ixracı sahəsində çox böyük irəliləyişə nail olmuşdur. Ölkəmizin enerji siyasətinin prioritet istiqaməti isə enerji resurslarını şaxələndirməklə iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirməkdir.

Sonra müxtəlif mövzular ətrafında çıxışlar olmuş, müzakirələr aparılmışdır.

Yay məktəbində Türkiyə, Polşa, Yunanıstan, Macarıstan, ABŞ, Malayziya, Mozambik və digər ölkələrdən 41 iştirakçı təhsil almaq hüququ qazanmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) və "ExxonMobil"in dəstəyi ilə keçirilən yay məktəbində xarici ölkələrdən gəlmiş gənc diplomatlar, tələbələr dünyanın və Azərbaycanın enerji bazarında mövcud meyilləri, enerji bazarının hüquqi, iqtisadi və ekoloji aspektlərini, transmilli yerli və xarici neft şirkətlərinin fəaliyyət istiqamətlərini araşdıracaqlar.

İyulun 17-dək davam edəcək tədbirdə ADA-nın, ABŞ-ın Harvard, Rays və digər universitetlərinin, İsrailin, Böyük Britaniyanın, Fransanın tanınmış professorları mühazirə oxuyacaqlar.

ARDNŞ, "ExxonMobil", "TOTAL", "Schlumberger", "Itochu", "RWE" və "bp"-nin mütəxəssisləri neft və qaz sənayesinin praktiki məqamları barədə təcrübələrini bölüşəcəklər.

Proqramın sonunda iştirakçılara sertifikatlar veriləcəkdir.

NİDERLAND KRALLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Azərbaycanda səfərdə olan Niderland Krallığı Parlamentinin bir qrup deputatı iyulun 5-də Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin

üzvləri ilə görüşmüşdür.

Komitənin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qonaqları səmimiyyətlə salamlamış, Niderland milli futbol komandasının dünya çempionatında yarımfinala çıxması münasibətilə təbrik etmişdir.

S.Seyidov Milli Məclisin fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat vermiş, Niderland parlamenti ilə də ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin vacibliyini qeyd etmişdir. O demişdir ki, Niderland Krallığı hökuməti və parlamenti hər zaman Azərbaycanla bağlı məsələlərdə prinsipiallıq nümayiş etdirmiş və rəsmi Bakının haqlı mövqeyini ən yüksək səviyyələrdə müdafiə etmişdir. Azərbaycanda bu mövqe çox yüksək qiymətləndirilir.

S.Seyidov niderlandlı deputatlarla beynəlxalq tədbirlərdəki görüşlərini xatırlatmış, bəzi məsələlərdə eyni mövqedən çıxış etmələrini məmnunluqla qeyd etmişdir.

Niderland Krallığı parlament nümayəndə heyətinin rəhbəri Henk Jan Ormel göstərilən qonaqpərvərliyə və xoş sözlərə görə minnətdarlıq etmişdir. O demişdir ki, Niderland Krallığı Azərbaycanın Cənubi Qafqazdakı geostrateji mövqeyini, Avropa üçün əhəmiyyətini yaxşı başa düşür və rəsmi Bakı ilə əlaqələrin hərtərəfli inkişafında maraqlıdır. Səfərin əsas məqsədi həm parlamentlərarası, həm də digər sahələrdə münasibətlərin inkişafına dair fikir mübadiləsi aparmaqdır.

Görüşdə Azərbaycanda bu ilin noyabrında keçiriləcək parlament seçkilərinə hazırlıq, qanunvericilik sahəsində təcrübə mübadiləsi, əlaqələrin inkişafı baxımından qarşılıqlı səfərlərin təşkili, xalqlarımız arasında əlaqələrin möhkəmlənməsində parlament diplomatiyasının rolu və digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

NİDERLAND KRALLIĞI AZƏRBAYCANIN CƏNUBİ QAFQAZDAKI MÖVQEYİNİ YÜKSƏK DƏYƏRLƏNDİRİR VƏ DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNDƏ RƏSMİ BAKININ SİYASƏTİNİ DƏSTƏKLƏYİR

İyulun 5-də Milli Məclis sədrinin birinci müavini, təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Niderland Krallığı parlamentinin üzvləri ilə görüşmüşdür.

Ziyafət Əsgərov demişdir ki, Azərbaycan ilə Niderland arasında münasibətlərin inkişafı üçün belə səfərlərin böyük əhəmiyyəti vardır. İnanırıq ki, Niderland Krallığı parlamentinin deputatlarının bu səfəri münasibətlərimizin inkişafına təkan verəcəkdir.

Ölkəmizin demokratik dəyərlərə böyük önəm verdiyini qeyd edən Z.Əsgərov Milli Məclisin fəaliyyəti, ölkəmizdə həyata keçirilən islahatlar, vətəndaş cəmiyyətinin inkişafı, eləcə də bu inkişafa ciddi manea olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Azərbaycanın 20 faiz torpağı hələ də erməni silahlı qüvvələrinin işğalı altındadır, 1 milyondan artıq vətəndaş öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Ermənistan isə problemin sülh yolu ilə həlli istiqamətində atılan addımlara etinasız yanaşır. BMT Təhlükəsizlik Şurasının, BMT Baş Məclisinin, Avropa İttifaqının, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdiyi bütün qətnamə və qərarlara məhəl qoymur. Azərbaycan öz torpaqları-

nı hərbi yolla azad etmək iqtidarında olsa da, məsələnin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, ədalətli həllinə tərəfdardır.

Niderland Krallığı parlamentinin deputatı Henk Jan Ormel səmimi görüşə və ətraflı məlumata görə təşəkkür etmişdir. Qonaq Niderland Krallığının Azərbaycanın Cənubi Qafqazdakı geostrateji mövqeyini yüksək dəyərləndirmiş və demişdir ki, Niderland Dağlıq Qarabağ məsələsində Azərbaycanın ədalətli siyasətini dəstəkləyir.

Henk Jan Ormel bildirmişdir ki, bu səfər onlara Azərbaycan ilə hərtərəfli tanışlıq üçün geniş imkanlar açmışdır. Azərbaycandakı sürətli iqtisadi inkişafdan məmnun qaldıqlarını bildirən qonaq qeyd etmişdir ki, Niderland böyük demokratiya tarixinə malik olsa da, Azərbaycandan öyrənməli çox şey vardır.

Sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 5-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşmüşdür.

Nazir S.Əbiyev qeyd etmişdir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün əvvəlcə Ermənistan işğalçı qüvvələrini Azərbaycan torpaqlarından geri çəkməlidir. Bir sıra beynəlxalq təşkilatların qərar və qətnamələrinin də bunu tələb etdiyini xatırladan nazir münaqişənin digər həlli yolunun regionda ağır problemlər yaradacağını vurğulamışdır.

S.Əbiyev təcavüzkarın işğalçı siyasətini dayandırması üçün həmsədr ölkələrin daha təsirli tədbirlər görməsinin vacibliyini diqqətə çatdırmışdır.

AZƏRBAYCAN İLƏ İRAN ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞA DAİR PROTOKOL İMZALANMIŞDIR

İyulun 5-də Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan İranın mədəniyyət və islam maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığın vəziyyəti, perspektivləri müzakirə olunmuşdur.

Tədbirdə mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığa dair protokol imzalanmışdır. Sənədə əsasən, bu ilin sentyabrında İranda Azərbaycan Mədəniyyət Günləri keçiriləcəkdir. Sonra isə Azərbaycanda İran Mədəniyyət Günləri təşkil olunacaqdır.

Ə.Qarayev iranlı həmkarına Azərbaycan xalçası hədiyyə etmişdir.

İran nümayəndə heyətinin səfəri Beynəlxalq Muğam Mərkəzində bu ölkənin musiqi qrupunun konserti ilə yekunlaşacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU TONİ HEYVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da bp şirkətinin icraçı direktoru Toni Heyvordu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə bp şirkəti arasında uzunmüddətli əməkdaşlığın uğurlu olduğunu vurğulamış və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Toni Heyvord bp şirkətinin Azərbaycan hökuməti və ARDNŞ ilə uğurlu əməkdaşlığını bir daha qeyd edərək "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" neft və qaz, eləcə də Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərləri layihələrinin Azərbaycan, region və qlobal enerji bazarları üçün əhəmiyyətli olduğunu demişdir.

Görüşdə "Şahdəniz" yatağının tammiqyaslı işlənilməsinin Azərbaycan və bp üçün önəmli layihələrdən biri olduğu qeyd edilmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HEYDƏR ŞİYƏ QUBEYŞİ ƏL-BARRAKIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da İraq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Heydər Şiyə Qubeyşi Əl-Barrakın etimadnaməsini qəbul etmişdir.

Səfir Heydər Şiyə Qubeyşi Əl-Barrak fəxri qarovul dəstəsinin qarşısından keçmişdir.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etmişdir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etmişdir.

Söhbət zamanı Azərbaycan ilə İraq arasında ikitərəfli münasibətlər və onların perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR

ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradke (ABŞ), Bernar Fasye (Fransa) və İqor Popov (Rusiya) birgə bəyanatla çıxış etmişlər.

Həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində irəliləyişin olduğu barədə fikirlərini bölüşmüşlər.

Sənəddə ABŞ, Rusiya və Fransa prezidentlərinin birgə bəyanatının Dağlıq Qarabağ münaqişəsinin həllində əsas olduğu bildirilir.

Həmsədrlər sülh razılığı layihəsinin hazırlığına başlanması üçün tərəfləri konstruktiv güzəştlərə, növbəti addım atmağa, irəliyə doğru getməyə, eləcə də 1994-cü ildə imza-

lanmış atəşkəs rejiminə ciddi şəkildə riayət etməyə çağırmışlar.

Səfər çərçivəsində həmsədrlər, həmçinin işğal edilmiş ərazilərdə bu payızda həyata keçiriləcək missiyanın planını da təqdim etmişlər.

Bəyanatda artıq bu planın prinsipcə qəbul edildiyi bildirilir. Vasitəçilər ümid edirlər ki, iyulun 16-17-də Almatıda ATƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin qeyri-rəsmi sammitində Azərbaycanın və Ermənistanın xarici siyasət idarələri rəhbərlərinin görüşü keçiriləcəkdir.

NİDERLAND KRALLIĞI PARLAMENTİNİN ÜZVLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ OLMUŞLAR

Niderland Krallığı Parlamentinin xanım Mariko Petersin başçılıq etdiyi nümayəndə heyəti iyulun 6-da Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanma prosesinin hazırkı vəziyyəti, regionda həyata keçirilən layihələr və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏNDİRİLMƏSİ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 6-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan İran İslam Respublikasının mədəniyyət və islam maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə tərəflər ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmiş, xalqlarımız arasında dərin tarixi, mədəni və dini bağlılığın mövcudluğunu vurğulamışlar. Mədəniyyət, elm, incəsənət və digər sahələrdə əlaqələrin intensivləşdirilməsinin, mədəniyyət nümayəndələrinin qarşılıqlı səfərlərinin sayının artırılmasının zəruriliyi bildirilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

PENİTENSİAR XİDMƏTİN RƏİSİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLAN NARKOTİKLƏRƏ NƏZARƏT ÜZRƏ BEYNƏLXALQ KOMİTƏNİN BİRİNCİ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 6-da ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi, ədliyyə general-leytenantı Nazim Ələkbərov Azərbaycanda rəsmi səfərdə olan Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Komitənin (BMTNCİ) birinci vitse-prezidenti xanım Karola Lander və Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Şuranın (İNCB) əməkdaşı Darmen Zhumadil ilə görüşmüşdür.

Nazim Ələkbərov qonaqları salamlayaraq, narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə məhkum edilmiş və Penitensiar xidmətin tabeli qurumlarında cəza çəkən şəxslərin

sayı, saxlanma şəraiti, narkomaniyadan məcburi müalicə kurslarının keçirilməsi və penitensiar müəssisələrdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə barədə məlumat vermişdir.

N.Ələkbərov narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı Azərbaycan Respublikasının cinayət qanunvericiliyindən danışmış, qonşu dövlətlərdən narkotiklərin ölkəmizin ərazisindən keçirilməsi cəhdlərinin artdığını, Ermənistanın işğalı altında olan və hətta beynəlxalq təşkilatların da nəzarətindən kənarda qalmış Azərbaycan torpaqlarında narkotik maddələrin istehsalı üçün münbit şərait yarandığını qeyd etmişdir.

BMTNCİ-nin birinci vitse-prezidenti xanım Karola Lander təmsil etdiyi komitənin fəaliyyətinin əsas məqsədlərinin 1961-ci ildə qəbul edilmiş və 195 ölkənin qoşulduğu narkotiklərə nəzarət üzrə Konvensiyasının tələblərinə əməl edilməsinə, çatışmazlıqların aradan qaldırılmasında üzv dövlətlərin hökumətlərinə kömək göstərilməsindən və bu sahədə maarifləndirmə işinin həyata keçirilməsindən ibarət olduğunu bildirmişdir.

Karola Lander və Darmen Zhumadil mövcud vəziyyətlə tanış olduqdan sonra müvafiq nəticələrə əsaslanan texniki və hüquqi yardımla bağlı tövsiyələrin Azərbaycan tərəfinə təqdim olunacağını bildirmişlər.

Görüşdə qonaqları maraqlandıran suallar cavablandırılmış, fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Dövlətimizin başçısı qonağın ölkəmizə səfərinin məhsuldar və uğurlu olacağına ümidvar olduğunu bildirdi. Azərbaycanla Gürcüstanın bütün istiqamətlərdə fəal əməkdaşlıq etdiyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etdi.

Xarici işlər naziri Qriqol Vaşadze Azərbaycanla Gürcüstan arasında əlaqələrin, xüsusilə beynəlxalq təşkilatlarda, ölkələrimiz üçün aktual olan ərazi bütövlüyü məsələlərində əməkdaşlığın necə inkişaf etdirilməsi barədə Azərbaycan Prezidenti ilə müzakirələr aparmağın çox vacib olduğunu dedi.

Prezident İlham Əliyev əməkdaşlığımızı daha da genişləndirmək üçün daimi məsləhətləşmələrin önəmli olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN NEFT NAZİRİ SAMİH FEHMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Misirin neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Misir arasında ikitərəfli münasibətlərin uğurla inki-

şaf etdiyini bildirdi. Bu yaxınlarda Misirin xarici işlər nazirinin ölkəmizə səfəri zamanı səmərəli müzakirələr aparıldığını vurğulayan Prezident İlham Əliyev dost ölkələr olan Azərbaycanla Misir arasında əməkdaşlığı bütün sahələrdə daha da inkişaf etdirməyin zəruriliyini bildirdi. Misirin neft naziri Samih Fehminin ölkəmizə səfərinin enerji sahəsində əlaqələri inkişaf etdirmək üçün yaxşı fürsət yaratdığını qeyd edən Prezident İlham Əliyev qonağın Bakıda keçirəcəyi görüşlər zamanı birgə fəaliyyət üçün məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.

Misirin neft naziri Samih Fehmi ölkəmizə səfərinin yenicə başlamasına baxmayaraq, burada gördüklərindən təəssüratlandıqlarını vurğuladı. Ölkələrimiz arasında əlaqələri genişləndirmək üçün maraqlı planların olduğunu deyən Misirin neft naziri onların həyata keçiriləcəyinə əminliyini ifadə etdi.

XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 7-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə işgüzar səfərdə olan gürcüstanlı həmkarı Qriqol Vaşadze ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya münaqişələrinin hazırkı vəziyyəti, regionda cərəyan edən proseslər, Cənubi Qafqaz regionunda və Xəzər hövzəsində həyata keçirilən enerji və infrastruktur layihələri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN VƏ MİSİR NEFT-QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR

İyulun 7-də Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyində ölkəmizdə səfərdə olan Misir Ərəb Respublikasının neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olmuşdur.

Ölkələrimiz arasında əlaqələrin qədim tarixini diqqətə çatdıran sənaye və energetika naziri Natiq Əliyev demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər daha yüksək səviyyəyə qalxmışdır. Bildirmişdir ki, hazırda iqtisadi əlaqələrin daha da genişləndirilməsində Azərbaycan-Misir hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək komissiya fəal rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ilin may ayında Misirə rəsmi səfəri zamanı müxtəlif sahələri əhatə edən 12 sənədin imzalanması hazırda bizim əməkdaşlığımızın əsasını təşkil edir. Dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri iki dost, qardaş ölkə arasında hərtərəfli əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır.

Neft-qaz sahəsində əməkdaşlığa toxunan N.Əliyev demişdir ki, Misirdə bu sektor üzrə geniş infrastruktur vardır və əlaqələri genişləndirməyə böyük potensial mövcuddur. Xüsusən kəşfiyyat-qazma işlərinin aparılması, bir-birinin təcrübəsindən, infrastrukturdan istifadə və s. sahələrdə əməkdaşlıqda qarşılıqlı maraqların olduğunu vurğulayan nazir, artıq Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Misir şirkətləri ilə əlaqələr yaratdığını da bildirmişdir. Azərbaycan təbii və maye qazının nəqli sahəsində də əməkdaşlıq üçün böyük perspektivlərin olması, iki ölkənin qaz kəmərlərinin birləşdirilməsinin mümkünlüyü nəzərə çarpdırılmışdır.

Misirin neft naziri Samih Fehmi Prezident İlham Əliyev tərəfindən qəbul edildiyindən məmnunluğunu bildirmiş, dünyanı bürümüş maliyyə və iqtisadi böhrana baxmayaraq, son 5-6 ildə Azərbaycanda neft-qaz sənayesinin inkişaf sürətinə heyrətləndiyini vurğulamışdır. Diqqətə çatdırmışdır ki, neft-qaz sahəsində bir-birimizin biliyindən, təcrübəsindən, imkanlarından istifadə Azərbaycan və Misirin mənafeyinə xidmət edəcəkdir. Misir neft-qaz ixracı üçün böyük bir bazardır. Ölkədə bu sahə üzrə bütün infrastruktur vardır. Bizim boru kəmərlərimizdən Azərbaycan da istifadə edə bilər. Misirdə 50 dövlətin neft-qaz şirkətləri çalışır və biz Azərbaycan şirkətini də ölkəmizə dəvət edirik. Misir Azərbaycanın neft sahəsində bilik və təcrübəsindən istifadə etməyə hazırdır.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

MİSİRİN NEFT NAZİRİ YAXIN GƏLƏCƏKDƏ ÖLKƏSİNDƏ AZƏRBAYCAN NEFT ŞİRKƏTLƏRİNİN DƏ FƏALİYYƏT GÖSTƏRƏCƏYİNƏ ƏMİNLİYİNİ BİLDİRMİŞDİR

İyulun 7-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev Bakıda səfərdə olan Misirin neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Rövnəq Abdullayev iki ölkənin səmimi dostluq və əməkdaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyindən məmnunluğunu ifadə etmiş, Azərbaycan və Misirin neft sahəsində əlaqələrindən danışmışdır. ARDNŞ prezidenti qarşılıqlı maraq doğuran səfərlərin əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, belə görüşlər gələcək əməkdaşlığın daha yüksək səviyyədə qurulmasına geniş imkanlar açır. İki ölkənin mövcud əlaqələrindən danışan R.Abdullayev demişdir ki, Azərbaycan və Misir əsasən neft sahəsində əməkdaşlıq edir. Hər iki ölkədə neft-qaz sənayesinin sürətlə inkişaf etdiyini söyləyən ARDNŞ prezidenti onu da vurğulamışdır ki, Misir və Azərbaycan arasında qarşılıqlı maraqlar mövcuddur. İki dövlət neft və qazın hasilatı, geoloji kəşfiyyat işlərinin aparılması və digər sahələrdə əməkdaşlıq edə bilər. Bunun üçün lazımi potensial və imkanlar mövcuddur. ARDNŞ-in "SOCAR Trading" şirkətinin qısa zamanda Misirdə həyata keçirdiyi layihələrdən bəhs edən R.Abdullayev qarşılıqlı maraq doğuran məsələlərin həlli üçün işçi qrupunun yaradılmasını əhəmiyyətli saymışdır.

Səmimi görüş üçün təşəkkürünü bildirən Misirin neft naziri Samih Fehmi Azərbaycan neft sənayesinin qədim tarixinə yaxşı bələd olduqlarını, bu səfərin Azərbaycanla əlaqələrin genişləndirilməsində bir yol xəritəsi funksiyasını yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir. Ölkəsinin neft-qaz infrastrukturundan danışan S.Fehmi son 5 ildə Misirin neft hasilatını iki dəfə artırdığını və Azərbaycanın neft-qaz sənayesinin sürətlə inkişaf etdiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, təkcə ötən il Misirdə neft-qaz sahəsində 64 yeni yataq aşkar edilmişdir. Hazırda Misirdə 50 ölkənin neft və qaz sahəsində fəaliyyət göstərən şirkətinin işlədiyini qeyd edən S.Fehmi Azərbaycan şirkətlərinin yaxın gələcəkdə bu sıraya qoşulacağına əminliyini ifadə etmişdir.

Azərbaycan və ölkəmizin neft sənayesi, xüsusilə də ARDNŞ haqqında söylədiyi xoş sözlərə görə qonağa təşəkkürünü bildirən R.Abdullayev gələcək fəaliyyətlərində misirli qonaqlara uğurlar arzulamışdır.

BEYNƏLXALQ KONFRANSDA QƏBƏLƏ BƏYANNAMƏSİ QƏBUL OLUNMUŞDUR

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və BMT-nin Ətraf Mühit Proqramının birgə təşkilatçılığı ilə iyulun 7-də Qəbələ şəhərində "Bioloji müxtəliflik və minilliyin inkişaf məqsədlərinə nail olunması" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Şərqi Avropa və Mərkəzi Asiya regionundan 30-a yaxın ölkənin ekologiya və ətraf mühit üzrə nazir və nazir müavinlərinin iştirak etdiyi tədbir Biomüxtəliflik üzrə BMT Baş Assambleyasının növbəti sessiyasına hazırlıq məqsədi daşıyırdı.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov Azərbaycanda biomüxtəlifliyin qorunması və inkişaf etdirilməsi ilə bağlı görülən işlər barədə konfrans iştirakçılarına ətraflı məlumat vermişdir. Nazir bildirmişdir ki, 1992-ci ildə qəbul edilən Bioloji Müxtəliflik Konvensiyasını Azərbaycan 2000-ci ilin martında ratifikasiya etmiş və bu, ölkənin nadir və qiymətli bioloji müxtəliflik ehtiyatlarının qorunub saxlanılmasında əvəzsiz rol oynamışdır. Azərbaycan Bioloji Müxtəliflik Konvensiyasının məqsədlərinə çatmaq istiqamətində ən ciddi addımlar atmış ölkələr siyahısına daxildir. 2004-cü ildən etibarən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Avropa Şurasının Katibliyi arasında Zümrüd Şəbəkəsi pilot layihəsi həyata keçirilir. 2006-cı ildə "Azərbaycanda bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" təsdiq edilmişdir. 2003-cü ildə xüsusi mühafizə olunan təbiət əraziləri respublika ərazisinin 4,5 faizini təşkil edirdisə, hazırda bu rəqəm 10,1 faizə çatdırılmışdır. Son 3 il ərzində 32211 hektar ərazidə meşə bərpa işləri aparılmışdır.

BMT-nin Ətraf Mühit Proqramının Avropa bürosunun direktoru Kristof Buvye çıxışında bildirmişdir ki, konfransın məqsədi 2010-cu ilin sentyabr ayında Nyu-Yorkda təşkil olunacaq BMT-nin Baş Assambleyasına Avropa regionunun töhfəsinin verilməsidir. Onun sözlərinə görə, gələcək nəsillərin biomüxtəlifliyi qiymətləndirməsinə indidən zəmin yaratmaq lazımdır. Kristof Buvye 2010-cu ilin dünyada "Biomüxtəliflik ili" elan olunması ilə Azərbaycanda "Ekologiya ili" elan edilməsinin də üst-üstə düşməsini çox əlamətdar hadisə hesab etmişdir. Tədbirdə BMT-nin Yaşıl Təsərrüfat üzrə qrup rəhbəri Pavan Sudkevin və BMT-nin Biomüxtəliflik Konvensiyasının icraçı katibi Əhməd Coqlafın video müraciəti dinlənilmişdir.

Tədbirdə Şərqi Avropa və Mərkəzi Asiya regionunda biomüxtəlifliyin qorunması və idarə edilməsi ilə bağlı məsələlər müzakirə edilmiş, regional və ölkə səviyyəli biomüxtəliflik məsələləri araşdırılaraq prioritet mövzular təhlil edilmişdir. Konfrans çərçivəsində "Yaşıl iqtisadiyyat, ekosistemlərin iqtisadiyyatı və biomüxtəliflik", "Xüsusi mühafizə olunan təbiət əraziləri və ekoloji şəbəkələr, ətraf icmalarda yoxsulluğun azaldılması" və "Biomüxtəliflik Konvensiyasının 2010-cu ildən sonrakı məqsədləri və Strateji Planı: Avropa Regionu üzrə prioritetlər" mövzularında üç "dəyirmi masa" keçirilmişdir.

"Dəyirmi masa"larda aparılan müzakirələrin yekunu olaraq konfransın sonunda iştirakçı ölkələr arasında bioloji müxtəlifliyin qorunması ilə bağlı görüləcək yeni tədbirlərə böyük təkan verəcək Qəbələ Bəyannaməsi qəbul olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ KŞİŞTOF KRAYEVSKİNİ DİPLOMATİK FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kşiştof Krayevskini diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Kşiştof Krayevskinin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin bütün sahələrdə sürətlə inkişaf etdiyini vurğulamışdır. Prezident İlham Əliyev münasibətlərimizin inkişafında Polşanın keçmiş Prezidenti mərhum Lex Kaçinskinin xüsusi rolunu qeyd etmişdir. Dövlətimizin başçısı bildirmişdir ki, ölkələrimiz arasında münasibətlərin dinamik və müsbət istiqamətdə inkişaf etməsi dövlət başçılarının ikitərəfli əlaqələrə göstərdikləri diqqətin təzahürüdür. Münasibətlərimizin inkişafında səfirlərin rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev Kşiştof Krayevskinin əlaqələrimizin genişlənməsi üçün çox işlər gördüyünü vurğulamış, onun ölkəmizdəki bir çox proseslərdə fəal iştirak etdiyini bildirmişdir. Səfirə gələcək fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmlənməsində xüsusi xidmətlərinə görə Kşiştof Krayevskinin "Dostluq" ordeni ilə təltif edilməsi ilə bağlı Sərəncam imzaladığını demiş və ordeni ona təqdim etmişdir.

Səfir Kşiştof Krayevski Azərbaycanın "Dostluq" ordeninə layiq görülməsindən böyük şərəf hissi keçirdiyini vurğulamışdır. Bakıya gəldiyi ilk günü xatırlayan diplomat onun ölkəmizdəki fəaliyyətinə Azərbaycan Prezidentinin verdiyi yüksək qiymətdən təsirləndiyini demiş, bunun özü və ölkəsi üçün çox vacib və əhəmiyyətli olduğunu bildirmişdir. Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluğunu bildirən diplomat səfirliyin işinə şəxsən Azərbaycan Prezidentinin böyük dəstək verdiyini qeyd etmiş və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI PEŞƏ BAYRAMLARI GÜNÜ MÜNASİBƏTİLƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞLƏR

İyulun 9-da Azərbaycan Respublikasının diplomatik xidmətinin yaradılmasının 91-ci ili tamam olur. Məhz 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Katibliyinin yaradılmasına dair qərarın qəbul edilməsi dövlətimizin peşəkar diplomatik xidmətinin başlanğıcı hesab olunur. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə böyük önəm verən ulu öndər Heydər Əliyev diplomatiyamızın sağlam əsaslara söykənməsinə hər zaman diqqət və qayğı göstərmişdir.

Ümummilli liderin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı günü elan edilmişdir. Bu, Prezidentin Azərbaycan diplomatiyasına və diplomatlarına diqqət və qayğısının bariz nümunəsidir.

Peşə bayramları münasibətilə Xarici İşlər Nazirliyinin əməkdaşları iyulun 9-da Fəxri xiyabana gələrək, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider

Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə tər güllər düzülmüşdür.

Sonra Xarici İşlər Nazirliyinin əməkdaşları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoymuşlar.

AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ BMT ARASINDA 2011-2015-Cİ İLLƏR ÜÇÜN İNKİŞAFA YARDIM ÜZRƏ ÇƏRÇİVƏ SƏNƏDİ İMZALANMIŞDIR

İyulun 9-da Nazirlər Kabinetində Azərbaycan Respublikası hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında 2011-2015-ci illər üçün BMT-nin Azərbaycanda İnkişafa Yardım üzrə Çərçivə Sənədi imzalanmışdır.

Mərasimdə Baş nazirin müavini Abid Şərifov Azərbaycan ilə BMT arasında 1992-si ildən başlamış əlaqələrin hazırda yüksək səviyyədə, həm də ölkəmiz üçün çox faydalı olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, BMT-nin Azərbaycanda həyata keçirdiyi hərtərəfli layihələr, o cümlədən kadrların hazırlanması, yoxsulluğun azaldılması proqramı, qaçqın və məcburi köçkünlərə kömək, işğaldan azad olmuş bölgələrdə bərpa işlərinin başlanması, eləcə də Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) yaradılması və s. sahələrdə fəaliyyəti, əməyi respublika hökuməti tərəfindən yüksək dəyərləndirilir. ANAMA-nın fəaliyyəti nəticəsində minlərlə hektar ərazilərimiz minalardan təmizlənmiş və insanların istifadəsinə qaytarılmışdır. Bu da birinci növbədə orada yaşayan soydaşlarımızın təhlükəsizliyi, həmçinin yeni iş yerlərinin yaradılması deməkdir. Azərbaycan hökuməti gələcəkdə də BMT-nin respublikamızdakı fəaliyyətinə həmişə dəstək verəcəkdir.

BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Fikrət Akçura xoş sözlərə görə minnətdarlığını bildirmiş, ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladaraq, bir türk kimi qardaş Azərbaycan xalqının naminə fəaliyyət göstərəcəyini vurğulamışdır. F.Akçura müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın bütün sahələr üzrə sürətlə inkişaf etdiyini məmnunluqla diqqətə çatdırmış, imzalanacaq yeni sənədin əhəmiyyətindən danışmışdır. Sənəd "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın prioritetlərinə əsaslanır.

Sənədi Azərbaycan hökuməti adından Baş nazirin müavini Abid Şərifov, BMT adından qurumun ölkəmizdəki rezident əlaqələndiricisi Fikrət Akçura imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün iyulun 10-da Ukraynaya işgüzar səfərə gəlmişdir.

Azərbaycan dövlətinin başçısını Sevastopolun "Belbek" hava limanında Ukraynanın

yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

Milli geyimli qızlar Azərbaycan Prezidentinə duz-çörək və gül dəstəsi təqdim etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR

İyulun 10-da Yaltada, məşhur Livadiyski sarayında MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.

Prezident İlham Əliyev və digər dövlət başçıları Livadiyski sarayına gəldilər.

Ukrayna Prezidenti Viktor Yanukoviç Prezident İlham Əliyevi sarayın önündə ehtiramla qarşıladı.

MDB-nin üzvü olan dövlətlərin liderləri sarayın tarixi "Ağ zal"ında toplaşdılar. Burada 1945-ci ildə tarixi Yalta konfransı keçirilmişdir.

Görüşü açan Ukrayna Prezidenti Viktor Yanukoviç MDB çərçivəsində iqtisadi əməkdaşlığın sürətləndirilməsi mexanizmlərinin müzakirə edilməsini, nəqliyyat və turizm sahələrində birgə layihələrin həyata keçirilməsini təklif etmişdir. Üzv dövlətlər arasında ticarətin liberallaşdırılması məsələsinə xüsusi diqqət yetirilmişdir. Bundan əlavə, görüşdə azad ticarət zonasının yaradılması barədə saziş layihəsinin hazırlanmasına və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti görüşündə bu məsələyə baxılmasına dair razılıq əldə olunmuşdur.

Görüşdə humanitar sahədə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Rusiya Prezidenti Dmitri Medvedev qonaqlar adından Ukraynanın dövlət başçısını doğum günü münasibətilə təbrik etmiş, ona gələcək fəaliyyətində uğurlar arzulamışdır.

Dövlət başçılarının qeyri-rəsmi görüşlərinin keçirilməsi Birliyin təcrübəsində bir ənənəyə çevrilmişdir. İlk belə görüş 2000-ci il avqustun 18-də Yaltada olmuşdur. Belə qeyri-rəsmi görüşlərin gündəliyi olmur və hər hansı məsələlərə dair qərarlar qəbul edilməsi nəzərdə tutulmur. Yalnız təxirə salınması mümkün olmayan məsələlər istisna təşkil edir.

Bu qeyri-rəsmi görüşdə MDB-nin üzvü olan altı ökənin - Azərbaycan, Ukrayna, Rusiya, Belarus, Qazaxıstan və Ermənistanın prezidentləri, Birliyin icraçı katibi iştirak etmişlər.

Yalta görüşünün təşəbbüsçüsü Ukraynadır.

Görüşün sonunda dövlət başçıları xatirə şəkli çəkdirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR

İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya işgüzar səfəri başa çatmışdır.

Azərbaycan dövlətinin başçısını Sevastopolun "Belbek" hava limanında Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

MİLLİ MƏCLİSDƏ BÖYÜK BRİTANİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI QRUPUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

İyulun 10-da Milli Məclisdə Böyük Britaniya-Azərbaycan parlamentlərarası qrupun üzvləri ilə görüş olmuşdur.

Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Çingiz Əsədullayev qonaqlara ölkəmizdə həyata keçirilən siyasi-iqtisadi islahatlar, parlamentin fəaliyyəti barədə məlumat vermişdir. O, Böyük Britaniyada keçirilən seçkilərdən sonra ölkələrimiz arasında ikitərəfli əlaqələrdə böyük dəyişikliklərin olduğunu söyləmişdir. Ç.Əsədullayev seçkilərdən bir ay sonra Böyük Britaniya-Azərbaycan dostluq qrupunun formalaşmasını yüksək qiymətləndirərək demişdir ki, bu, parlamentlərimiz arasında yüksək səviyyədə olan əlaqələrin təzahürüdür.

Azərbaycanın iqtisadi inkişafı barədə məlumat verən Ç.Əsədullayev demişdir ki, müstəqilliyinin ilk illərindən müharibə şəraitində olan ölkəmizdə yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə köklü islahatların, dirçəlişin əsası qoyulmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Ç.Əsədullayev demişdir ki, Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır, 1 milyondan artıq insan isə qaçqın və köçkün düşmüşdür.

Bildirilmişdir ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra ölkəmizə böyük sərmayələr yatırılmışdır. Azərbaycan iqtisadiyyatının dinamik inkişafı ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə səbəb olmuşdur. Bu gün Azərbaycanın neft-qaz sektorunda Böyük Britaniyanın iştirak payı 50 faizdən artıqdır. Qeyri-neft sektorunda da əlaqələrin inkişafı üçün böyük perspektivlər vardır. Ümumiyyətlə, bu gün Azərbaycanda biznesin inkişafı üçün hər cür şərait yaradılmış, bu sahədə möhkəm qanunvericilik bazası formalaşmışdır.

Azərbaycana ilk səfərindən məmnun qaldığını söyləyən Böyük Britaniya-Azərbaycan parlamentlərarası qrupun rəhbəri Mark Fild parlament diplomatiyası, seçki prosesinə müşahidəçi missiyası və digər məsələlərə dair fikir mübadiləsi aparmışdır. Qonaq ölkələrimiz arasında ikitərəfli əlaqələri yüksək qiymətləndirərək əməkdaşlığın genişlənməsində parlamentlərarası qrupun böyük əhəmiyyətini vurğulamışdır. M.Fild demişdir ki, bu gün Böyük Britaniyada Azərbaycan ilə əlaqələrin daha da genişləndirilməsinə böyük əhəmiyyət verirlər. Lakin bu əlaqələr yalnız neft və qaz sahəsini əhatə etməməlidir. O, ölkəsinin maliyyə, humanitar və digər sahələrdə də əlaqələrin genişləndirilməsində maraqlı olduğunu söyləmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jeno Boroşu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına göstərdiyi səyləri yüksək qiymətləndirdi. Azərbaycan ilə Macarıstan arasında münasibətlərin inkişafının razılıq doğurduğunu vurğulayan Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Səfir Jeno Boroş Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkəmizin günbəgün sürətli inkişafının şahidi olduğunu dedi və əldə edilən bütün bu nailiyyətlərə görə dövlətimizin başçısını təbrik etdi. İki ölkə arasında əməkdaşlığa xidmət etməkdən məmnun olduğunu bildirən Jeno Boroş ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan və macar xalqlarının bir-birinə oxşar cəhətlərini müşahidə etdiyini də vurğuladı.

Macarıstana səfərini xatırlayan dövlətimizin başçısı münasibətlərimizin yaxşı səviyyədə olduğunu vurğulayaraq Macarıstan ilə sıx tərəfdaşlıq əlaqələrinin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Norveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yon Ramberqi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Norveç arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən danışıldı, ölkələrimiz arasında əməkdaşlığın perspektivləri haqqında söhbət aparıldı.

HEYDƏR ƏLİYEV FONDU İLƏ LİTVANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİ ARASINDA HUMANİTAR SAHƏDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

İyulun 12-də Heydər Əliyev Fondu ilə Litvanın Azərbaycandakı səfirliyi arasında humanitar sahədə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Sənədi Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Litvanın Azərbaycandakı səfiri Kestutis Kudzmanas imzalamışlar.

Qonağı Heydər Əliyev Fondunda səmimi salamlayan Mehriban Əliyeva mədəniyyət, təhsil, səhiyyə, hüquq sahələrini əhatə edən əməkdaşlığın rəsmiləşdirilməsindən məmnunluğunu bildirdi. Bununla ikitərəfli əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu deyən Heydər Əliyev Fondunun prezidenti sənədin gələcəkdə yeni birgə layihələrin həyata keçirilməsinə zəmin yaradacağına ümidvar olduğunu söylədi.

Mehriban Əliyeva qeyd etdi ki, Heydər Əliyev Fondu bu istiqamətdə əməkdaşlığa hazırdır.

Səfir Kestutis Kudzmanas Heydər Əliyev Fondunun fəaliyyəti ilə yaxından tanış olduğunu bildirərək, Fondun gördüyü işləri, reallaşdırdığı mühüm layihələri yüksək qiymətləndirdi.

Litva səfiri Fondun uşaqlarla bağlı çox mühüm layihələr həyata keçirdiyini deyərək, imzalanan memorandumun azərbaycanlı gənclər üçün yeni imkanlar açdığını söylədi. Belə ki, memorandum çərçivəsində bu il xüsusi istedada malik 20 azərbaycanlı gənc Litvanın aparıcı universitetlərində ödənişsiz əsaslarla təhsil almaq hüququ qazanacaqdır. Vurğulandı ki, Litva səfirliyi Heydər Əliyev Fondunu azərbaycanlı gənclərin bu ölkədə təhsil alması üçün ən yaxın tərəfdaşı hesab edir.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ KŞİŞTOF KRAYEVSKİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 12-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Polşanın Bakıdakı səfiri Kşiştof Krayevski ilə görüşmüşdür.

Mehriban Əliyeva ölkələrimiz arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə "Dostluq" ordeninə layiq görülmüş səfiri bu münasibətlə təbrik etdi. Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, K.Krayevskinin səfir postunda fəaliyyəti bu illər ərzində Azərbaycan ilə Polşa arasında əlaqələrin daha da yaxınlaşmasına töhfə vermişdir.

Mehriban Əliyeva ölkəmizdə diplomatik fəaliyyətini başa vuran K.Krayevskinin bundan sonra harada çalışmasından asılı olmayaraq, hər zaman Azərbaycanın dostu olaraq qalacağına ümidvar olduğunu bildirdi.

Xoş sözlərə görə Mehriban Əliyevaya təşəkkürünü bildirən səfir, Azərbaycanın onun üçün doğma ölkə olduğunu, burada çoxlu dostlar qazandığını söylədi.

Azərbaycandakı fəaliyyətinin zəngin olduğunu deyən səfir K.Krayevski hər zaman ölkələrimiz arasında əlaqələrin genişlənməsinə çalışdığını bildirdi. O dedi ki, səfirlik Fondla birlikdə Azərbaycanda "Şopen ili"ni keçirir. İkitərəfli əməkdaşlıq çərçivəsində isə Samux rayonunun Sarıqamış kəndində məktəb inşa olunmuşdur.

HEYDƏR ƏLİYEV FONDU FRANSA SƏFİRLİYİ İLƏ BİRGƏ LAYİHƏ REALLAŞDIRACAQDIR

İyulun 12-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Fransanın ölkəmizdəki səfiri Qabriel Keller ilə görüşmüşdür.

Mehriban Əliyeva Fransa Prezidentinin sərəncamına əsasən bu ölkənin "Şərəf Legionu" ordeni ilə təltif edilməsi ilə bağlı təşəkkürünü bildirərək, bu mükafatın onun üçün böyük şərəf olduğunu söylədi.

Heydər Əliyev Fondunun prezidenti qeyd etdi ki, Azərbaycan ilə Fransa arasında əlaqə-

lər çox möhkəmdir. Fond bu əlaqələrin, xüsusilə də mədəni sahədə əməkdaşlığın möhkəmlənməsinə töhfə verir.

Mehriban Əliyeva gələcəkdə daha geniş birgə layihələrin həyata keçiriləcəyinə və bunun iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Fransa-Azərbaycan əlaqələri ilə bağlı Mehriban Əliyevanın fikirlərini bölüşdüyünü deyən səfir Qabriel Keller, ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdırdı.

Görüşdə Bakıda Heydər Əliyev Fondu ilə birgə Fransa məktəbinin yaradılması məsələsi də müzakirə edildi. Layihə ölkələrimiz arasında ikitərəfli münasibətlərə öz töhfələrini verəcəkdir.

AZƏRBAYCAN İLƏ ABŞ STRATEJİ TƏRƏFDAŞDIR

İyulun 12-də Milli Məclis sədrinin birinci müavini, parlamentin təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov ABŞ müdafiə nazirinin köməkçisinin müavini xanım Seleste Vollanderin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Z.Əsgərov qonağa ölkəmizdə demokratiya, qanunun aliliyi və insan hüquqlarının təminatı sahəsində həyata keçirilən uğurlu islahatlar haqqında məlumat vermişdir.

Milli Məclis sədrinin birinci müavini demişdir ki, ABŞ müdafiə naziri Robert Qeytsin və dövlət katibi Hillari Klintonun Azərbaycana səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni bir mərhələnin başlanğıcıdır. Azərbaycan ilə ABŞ-ın strateji tərəfdaş olduğunu qeyd edən Z.Əsgərov 2001-ci ildə baş vermiş məlum sentyabr hadisələrindən dərhal sonra ümummilli lider Heydər Əliyevin terrorizmə qarşı mübarizədə ABŞ-ın yanında olduğunu bəyan etməsini xatırlatmışdır.

Ölkələrimiz arasındakı iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu deyən Z.Əsgərov bildirmişdir ki, Azərbaycan Avroatlantik məkanın enerji təhlükəsizliyinin təminatına əhəmiyyətli töhfələr verir.

Z.Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq demişdir ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamə və qərarlara məhəl qoymur. ABŞ-ın da həmsədr olduğu ATƏT-in Minsk qrupu münaqişənin həlli istiqamətində 20 ilə yaxın fəaliyyət göstərsə də, bu sahədə heç bir nəticə əldə edilməmişdir. Belə davam edərsə, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə işğaldan azad etmək hüququndan istifadə etmək məcburiyyətində qalacaqdır. "Əgər Dağlıq Qarabağda sülh olacaqsa, Qafqazda da sülh olacaqdır, Qafqazda sülh olacaqsa, dünyada da sülh olacaqdır", - deyə o vurğulamışdır.

Z.Əsgərov hər iki ölkənin parlamentləri arasında əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Ətraflı məlumata görə minnətdarlığını bildirən xanım Seleste Vollander səfərinin əsas məqsədinin hərbi sahədə ikitərəfli dövlətlərarası illik məsləhətləşmələrin aparılması olduğunu bildirmişdir. Müzakirə olunan məsələlər sırasında Azərbaycanın regional və qlobal təhlükəsizliyə verdiyi töhfələrin gücləndirilməsi, bu ölkənin dəniz təhlükəsizli-

yinin təkmilləşdirilməsi istiqamətində əməkdaşlıq, birgə hərbi təlimlərin təşkili xüsusi yer tutmuşdur.

S.Vollander Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticəsizliyindən təəssüfləndiyini bildirmişdir. Qonaq münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə də dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamışdır.

Görüşdə Azərbaycanın ABŞ-dakı səfiri Yaşar Əliyev iştirak etmişdir.

MƏRKƏZİ BANKLA USAID ARASINDA ƏMƏKDAŞLIĞIN GƏLƏCƏK İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

İyulun 12-də Mərkəzi Bankın sədri Elman Rüstəmov ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycan üzrə koordinator əvəzi Kit Simmonsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Mərkəzi Bankla USAID arasında mövcud əməkdaşlıq əlaqələrinin cari vəziyyəti və həyata keçirilən layihələr çərçivəsində görülmüş işlər müzakirə olunmuşdur.

Kit Simmons təmsil etdiyi qurumun ölkəmizlə, xüsusilə Mərkəzi Bankla əməkdaşlıqdan məmnun olduğunu bildirmiş, USAID-in Azərbaycanın bank sektoru ilə əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulamış, bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduqlarını qeyd etmişdir.

Elman Rüstəmov ölkəmizin USAID ilə ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, qurumun Azərbaycanın bank sisteminin inkişafında texniki yardımlar vasitəsilə yaxından iştirakını təqdirəlayiq hesab etdiyini vurğulamışdır.

Görüşdə, həmçinin, Azərbaycan Mərkəzi Bankı ilə USAID arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri müzakirə edilmişdir.

AZƏRBAYCAN İNFORMASİYA CƏMİYYƏTİNƏ HƏSR OLUNMUŞ FORUMDA TƏMSİL OLUNMUŞDUR

Azərbaycan rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə Rusiyanın Tver şəhərində keçirilmiş "İnformasiya cəmiyyəti" VII Tver sosial-iqtisadi forumunda iştirak etmişdir.

Tədbirdə Rusiyada informasiya cəmiyyətinin inkişafı və "elektron hökumət"in formalaşmasının cari vəziyyəti və inkişaf planları müzakirə olunmuşdur.

Forumun işində informasiya cəmiyyətinin inkişafı və "elektron hökumət"in formalaşması sahəsində təcrübə mübadiləsi aparmaq üçün beynəlxalq təşkilatların və bir sıra ölkələrin nümayəndələri iştirak etmişlər.

Forumda "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafı" mövzusunda çıxış edən E.Vəlizadə ölkədə informasiya cəmiyyətinin təşəkkül yolları, hökumət tərəfindən bu istiqamətdə görülən tədbirlər, eləcə də respublikada "elektron hökumət"in formalaşmasına dair qəbul olunmuş proqramlardan danışmışdır.

Forum çərçivəsində iştirakçılar sərgi ilə də tanış olmuşlar. Sərgidə informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyi, səhiyyə və əhalinin sosial müdafiəsi sistemləri, təhsil, elm, mədəniyyət, əhalinin həyat fəaliyyətinin təhlükəsizliyinin təmin olunması, eləcə də bir çox digər sahələrdə tətbiq imkanları nümayiş etdirilmişdir.

HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ FRANSADA AZƏRBAYCAN DİLİNDƏ NƏŞRLƏR HAZIRLANACAQDIR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunun (İNALCO) rektoru, professor Jak Löqran ilə görüşmüşdür.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonağın Azərbaycana bu səfərinin Fondla institut arasında əlaqələrə yeni impuls verəcəyinə və fəaliyyət sahəsini daha da genişləndirəcəyinə əminliyini ifadə etdi.

Mehriban Əliyeva qeyd etdi ki, Avropanın bu nüfuzlu institutunda Azərbaycan dili fakültəsinin açılması iki ölkə arasında münasibətlərdə yeni bir səhifədir. Azərbaycan dilinin tədrisi fransalı gənclər üçün ölkəmizin mədəniyyətini, tarixini, ümumilikdə, Azərbaycan xalqını daha dərindən öyrənməyə imkan yaradır.

Heydər Əliyev Fondunun prezidenti fakültədə təhsilin keyfiyyətinin yüksəldilməsinin vacibliyini vurğuladı.

Rəhbərlik etdiyi ali təhsil ocağında Azərbaycan dilinin incəliklərinin tədrisinə marağın ildən-ilə artdığını söyləyən Jak Löqran bildirdi ki, bu amilin geniş vüsət alması üçün daha çox əmək sərf etmək lazımdır. Təhsil ocağı üzərinə düşən bu vəzifə ilə bağlı daha çox çalışacaqdır.

Görüşdə Fransada Azərbaycan dilində nəşrlərin hazırlanması üçün Heydər Əliyev Fondu ilə birgə işçi qrupun yaradılması ilə bağlı müzakirələr aparıldı.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA TÜRKİYƏ TALASSEMİYA FEDERASİYASININ RƏHBƏRİ DURAN CANATAN İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva Türkiyə Talassemiya Federasiyasının və Ağ dəniz qan xəstəlikləri Fondunun rəhbəri Duran Canatan ilə görüşmüşdür.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun talassemiya xəstəliyi ilə bağlı eksperti təyin edilən Duran Canatanın xəstəliklə mübarizədə Fonda böyük dəstək göstərdiyini dedi.

Heydər Əliyev Fondunun talassemiyanın qarşısını almaq üçün həyata keçirdiyi proqramın artıq bir neçə ildir ki, icra olunduğunu qeyd edən Azərbaycanın birinci xanımı, bu sahədə görülən işlər, Bakıda Talassemiya Mərkəzi barədə danışdı. Fondun prezidenti dedi ki, problemin ciddiliyi nəzərə alınaraq doktor Duran Canatanın təcrübəsinə ehtiyac vardır.

Türkiyə Talassemiya Federasiyasının və Ağ dəniz qan xəstəlikləri Fondunun rəhbəri Heydər Əliyev Fondunun talassemiya ilə mübarizədə fəaliyyətinin önəmini vurğuladı.

Görüşdə talassemiyanın qarşısının alınması üçün preventiv tədbirlər - maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCANIN VƏ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN MÜAVİNLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

İyulun 12-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və Rusiyanın xarici işlər nazirinin müavini Qriqori Karasin arasında telefon danışığı olmuşdur.

Telefon danışığında qarşıdakı görüşlərə hazırlıq kontekstində ikitərəfli münasibətlərin bir sıra praktiki məsələləri müzakirə edilmişdir.

DÜNYA BANKININ NÜMAYƏNDƏLƏRİ ALİ MƏHKƏMƏDƏ OLMUŞLAR

İyulun 13-də ölkəmizdə səfərdə olan Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker və məsləhətçisi Kler Qreyer Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Ramiz Rzayev müasir informasiya texnologiyaları sahəsində Ali Məhkəmədə həyata keçirilən tədbirlərdən danışmışdır. Elektron kargüzarlığın, sənəd dövriyyəsinin və məlumatların elektron informasiya köşkü vasitəsilə alınmasının əhəmiyyətini qeyd edən Ali Məhkəmənin sədri elektron kitabxananın yaradılmasının zəruriliyini bildirmişdir.

Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker Ali Məhkəmədə yeni informasiya texnologiyalarının tətbiqindən razı qaldığını qeyd etmişdir. O vurğulamışdır ki, layihə çərçivəsində məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqi ilə bağlı sənədlərin və baxılacaq işlərin idarə olunmasında daha təkmil elektron sistemin yaradılmasını nəzərdə tutan yeni layihə hazırlanacaqdır.

Qonaqlar Ali Məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti, məhkəmə tarixi muzeyi və kitabxana ilə tanış olmuşlar.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət və qayğı göstərdiklərinə, həmçinin əhəmiyyətli görüşə görə Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Dekerə və məsləhətçisi Kler Qreyerə minnətdarlığını bildirmiş və gələcək işlərində uğurlar arzulamışdır.

BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ POLŞA DÖVLƏT VROTSLAV UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ İMZALANMIŞDIR

İyulun 13-də Polşa Dövlət Vrotslav (Wroclaw) Universitetinin rektoru, professor Roman Kolaczın rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Dövlət Universitetində (BDU) olmuşdur.

Görüşdə BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov bu ali məktəbdə təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır.

Rəhbərlik etdiyi universitetin 11 min tələbəsi olduğunu qeyd edən Roman Kolacz bildirmişdir ki, təhsil müəssisəsində əsasən geodeziya, kartoqrafiya, biologiya, biotexnologiya və s. ixtisaslar üzrə mütəxəssislər hazırlanır.

Görüşdə qərara alınmışdır ki, birgə qrant və layihələr, həmçinin nanotexnologiya, immunologiya, biotexnika sahələri üzrə əməkdaşlıq genişləndirilsin, tələbə, aspirant və müəllim mübadiləsi aparılsın.

Sonra Bakı Dövlət Universiteti ilə Polşa Dövlət Vrotslav Universiteti arasında əməkdaşlığa dair saziş imzalanmışdır.

NİDERLAND KRALLIĞININ KRAL SƏRHƏD XİDMƏTİNİN KOMANDANI AZƏRBAYCANDA SƏFƏRDƏDİR

İyulun 13-də Niderland Krallığının Kral Sərhəd Xidmətinin Komandanı, general-leytenant Dik Van Puttenin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlmişdir.

Nümayəndə heyəti səfər çərçivəsində Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin bazası və digər xidməti sahələrlə tanış olmuşlar.

Nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyevlə görüşmüşlər.

Tərəflər Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Niderland Kral Sərhəd Xidməti arasında əməkdaşlığın mövcud vəziyyətini müzakirə etmiş, əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Latviyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixails Popkovsu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Mixails Popkovsun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın genişlənməsinin razılıq doğurduğunu dedi və əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.

Azərbaycana gəldiyi vaxtları xatırlayan Mixails Popkovs bunun 2005-ci ilin sonuna, Latviya Prezidentinin ölkəmizə ilk rəsmi səfərindən sonraya təsadüf etdiyini bildirdi, ötən dövr ərzində respublikamızda sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğuladı. Ölkəmizin bu cür yüksək templərlə inkişaf etdiyini tarixdə nadir hadisə kimi qiy-

mətləndirən qonaq Azərbaycan Prezidentinin rəhbərliyi altında həyata keçirilən islahatların ölkədə yüksək iqtisadi artımın əldə olunmasındakı rolunu qeyd etdi və bunun şahidi olmasından məmnunluğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də İsveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hans Qunnar Adeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İsveç arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən danışıldı, ölkələrimiz arasında əməkdaşlığın gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.

MOLDOVALI QONAQLAR ALİ MƏHKƏMƏDƏ OLMUŞLAR

Azərbaycanda səfərdə olan Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulberenin başçılıq etdiyi nümayəndə heyəti iyulun 14-də Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Ali Məhkəmənin sədri Azərbaycanda Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrlə məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verildiyini bildirmişdir.

Ramiz Rzayev son illər respublikamızda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, eləcə də ədalət mühakiməsini həyata keçirmək, qanunun aliliyini təmin etmək məqsədi ilə Ali Məhkəmənin qarşısında duran vəzifələrdən danışmışdır.

Azərbaycanın MDB ölkələri ilə işgüzar əlaqələrinin inkişaf səviyyəsindən razılığını ifadə edən Ali Məhkəmənin sədri əmin olduğunu bildirmişdir ki, Moldova Konstitusiya Məhkəməsi sədrinin Azərbaycana səfəri iki ölkənin məhkəmə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edəcəkdir.

Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulbere ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirmiş, bu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Moldovalı qonaqlar Ali Məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, məhkəmə tarixi muzeyinə baxmış, hakimlərin iş şəraiti ilə tanış olmuşlar.

BAKIDA AZƏRBAYCAN VƏ MOLDOVA KONSTİTUSİYA MƏHKƏMƏLƏRİ ARASINDA QARŞILIQLI ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

İyulun 14-də Bakıda Azərbaycan Respublikası və Moldova Respublikası Konstitusiya məhkəmələri arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum imzalanmışdır.

Mərasimdən əvvəl Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulberenin başçılıq etdiyi nümayəndə heyətinin üzvləri və Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə güllər düzülmüşdür.

Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə gül çələngi qoymuşlar.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev rəhbərlik etdiyi qurum üçün əlamətdar bir vaxtda dəvəti qəbul etdikləri üçün Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulbereyə minnətdarlığını bildirmişdir. Diqqətə çatdırmışdır ki, on iki il əvvəl - 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin hakimləri təyin edilmiş, iyulun 18-də isə Azərbaycan Respublikası Prezidentinin imzaladığı Fərmanla bu qurum rəsmi fəaliyyətə başlamışdır.

Azərbaycan Konstitusiya Məhkəməsinin beynəlxalq əlaqələrindən danışan F.Abdullayev demişdir ki, fəaliyyətimiz dövründə kifayət qədər əməkdaşlıq əlaqələri qura bilmişik. Bir çox beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurasının Venesiya Komissiyası və xarici ölkələrin konstitusiya nəzarəti orqanları ilə əlaqələrimiz mövcuddur. Türkiyə, Belarus, Rusiya, Ukrayna, Almaniya və s. ölkələrin müvafiq qurumları ilə ikitərəfli əlaqələrimiz təcrübə mübadiləsinə, qəbul olunan qərarlarda hüquqi ideyaları tətbiq etməyə yaxından kömək edir.

F.Abdullayev Azərbaycan və Moldova arasında dostluq, tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulamış, iki ölkənin Konstitusiya məhkəmələri arasında imzalanacaq qarşılıqlı əməkdaşlıq haqqında Memorandumun hüquqi sahədə əlaqələrin möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini nəzərə çarpdırmışdır.

Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulbere xoş sözlərə görə təşəkkür etmiş, Azərbaycanın və Moldovanın rəsmiləri arasında keçirilən görüşlərin, qarşılıqlı səfərlərin ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, ölkəsinin Konstitusiya Məhkəməsi cari ilin fevralında fəaliyyətinin 15 illiyini qeyd etmişdir. Biz Azərbaycan Konstitusiya Məhkəməsinin nümayəndələri ilə beynəlxalq tədbirlərdə görüşür, əməkdaşlıq edir, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparırıq. İmzalanacaq sənəd isə əməkdaşlığımızı, münasibətlərimizi daha da möhkəmləndirəcəkdir.

Sonra Memorandumun imzalanması mərasimi olmuşdur. Sənədi Azərbaycan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulbere imzalamışlar.

Sonda hər iki ölkənin görüşdə iştirak edən hakimləri arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ İSVEÇ KRALLIĞININ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İsveç Krallığının Azərbaycandakı səfiri Hans Qunnar Aden ölkəmizdəki fəaliyyət müddətinin başa çatması ilə əlaqədar iyulun 14-də xarici işlər naziri Elmar Məmmədyarov ilə görüşmüşdür.

Görüşdə H.Q.Aden Azərbaycanda İsveç Krallığının səfiri olmasından məmnunluğunu ifadə edərək, ölkələrimiz arasında iqtisadiyyat, təhsil, mədəniyyət, humanitar və digər sahələrdə münasibətlərin daha da genişlənməsinə səy göstərdiyini demişdir.

Diplomat fəaliyyəti dövründə Azərbaycanın Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmiş və ölkəmizdən xoş xatirələrlə ayrıldığını vurğulamışdır.

Nazir E.Məmmədyarov səfirə xoş arzularını bildirmiş və gələcək işlərində uğurlar diləmişdir.

XARİCİ İŞLƏR NAZİRİ LATVİYANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 14-də xarici işlər naziri Elmar Məmmədyarov Latviyanın Azərbaycandakı səfiri Mixails Popkovs ilə ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşmüşdür.

Görüşdə M.Popkovs Azərbaycanda Latviyanın səfiri olmasından məmnunluğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələrimiz arasında bütün sahələrdə ikitərəfli münasibətlərin daha da genişlənməsi və inkişafı üçün səy göstərdiyini deyən diplomat, bu istiqamətdə Azərbaycanın Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Azərbaycandan xoş xatirələrlə ayrıldığını vurğulayan M.Popkovs Bakıda işlədiyi müddətdə ona göstərilən dəstək və diqqətə görə minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov diplomata xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər diləmişdir.

XARİCİ İŞLƏR NAZİRİ NORVEÇİN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyulun 14-də ölkəmizdə diplomatik fəaliyyətini başa vuran Norveç Krallığının səfiri Yon Ramberq ilə görüşmüşdür.

Görüşdə Y.Ramberq Azərbaycanda Norveç Krallığının səfiri olmasından məmnunluğunu vurğulamışdır. Fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi və inkişafı üçün səy göstərdiyini deyən səfir, bu istiqamətdə Azərbaycanın Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Nazir E.Məmmədyarov diplomata gələcək fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCAN-GÜRCÜSTAN SƏRHƏDİNİN RAZILAŞDIRILMAMIŞ SAHƏLƏRİ İLƏ BAĞLI MÜZAKİRƏLƏRDƏ İRƏLİLƏYİŞ ƏLDƏ OLUNMUŞDUR

İyulun 14-də xarici işlər nazirinin müavini, Azərbaycan-Gürcüstan sərhədinin Delimitasiya və Demarkasiyası üzrə Dövlət Komissiyasının sədri Xələf Xələfov ilə Gürcüstanın xarici işlər nazirinin müavini, Gürcüstanın Sərhədlərin Delimitasiyası üzrə Dövlət Komissiyasının sədri David Calaqaniya arasında məsləhətləşmələr aparılmışdır.

Azərbaycan-Gürcüstan dövlət sərhədinin razılaşdırılmamış sahələri və bununla əlaqədar ekspertlər səviyyəsində keçirilmiş görüşlərin nəticələri müzakirə edilmiş, göstərilən sahələrdə sərhəd xəttinin razılaşdırılmasında irəliləyiş qeydə alınmışdır.

Tərəflər dövlət komissiyalarının növbəti birgə iclasının bu ilin sentyabrında Azərbaycanda keçirilməsi barədə razılığa gəlmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PORTUQALİYANIN XARİCİ İŞLƏR NAZİRİ LUİS AMADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Portuqaliyanın xarici işlər naziri Luis Amadonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Portuqaliyanın xarici işlər nazirinin ölkəmizə səfəri zamanı ikitərəfli münasibətlərimizlə bağlı səmərəli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı bu səfərin Azərbaycan-Portuqaliya əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev Luis Amadonun ölkəmizə səfərinin eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Luis Amado Portuqaliya Prezidentinin və Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Portuqaliya Azərbaycana ikitərəfli münasibətlərdə, həm də Avropa İttifaqı ilə əməkdaşlıq sahəsində yaxşı tərəfdaş ola bilər.

Dövlətimizin başçısı Portuqaliya Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Portuqaliya Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

İyulun 15-də Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləziz Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Məhəmməd Uld Əbdüləzizi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Mavritaniya Prezidentinə və xanımına gül dəstələri təqdim etdilər.

Fəxri qarovul dəstəsinin önündən keçən Mavritaniyanın dövlət başçısı Azərbaycanda akkreditə olunmuş ərəb ölkələrinin səfirləri ilə görüşdü.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

İyulun 15-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Mavritaniya Prezidenti Məhəmməd Uld Əbdüləzizi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Mavritaniya Prezidentinə raport verdi.

Mavritaniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Mavritaniya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Məhəmməd Uld Əbdüləzizə, Mavritaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 15-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensial imkanların olduğu vurğulandı, bu səfərin əlaqələrin gələcək inkişafı baxımından önəmi qeyd edildi.

Görüşdə ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyulun 15-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Mavritaniya Prezidenti Məhəmməd Uld Əbdüləzizin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Mavritaniya Prezidentinin Azərbaycana bu ilk rəsmi səfəridir. Əminəm ki, səfər əlaqələrimizin inkişafında mühüm rol oynayacaqdır. Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər əlaqələrimizin gələcəyini müəyyən edəcəkdir.

Biz ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət veririk və hesab edirik ki, ikitərəfli formatda çox iş görmək olar. Bu gün biz bir neçə məsələ ətrafında sizinlə fikir mübadiləsi apardıq. Belə bir fikir var ki, biz bütün sahələrdə əlaqələrimizin sürətli inkişafına nail olmalıyıq. Bizim siyasi əlaqələrimiz müsbətdir. Əminəm ki, beynəlxalq təşkilatlarda bizim əməkdaşlığımız uğurla davam etdiriləcəkdir. Xüsusilə BMT-də və İslam Konfransı Təşkilatında bizim əməkdaşlığımızın böyük əhəmiyyəti vardır.

Siyasi və iqtisadi məsələlərin həllində qarşılıqlı maraqlar vardır. Bu gün biz iqtisadi sahədə müxtəlif aspektləri sizinlə müzakirə etdik. İnvestisiya layihələrini, birgə fəaliyyət, ticarətin genişlənməsi - bütün bu işlərdə biz çox sürətli inkişafa nail olmalıyıq. Mən hesab edirəm ki, sizin səfəriniz bizi münasibətlərimizin yeni mərhələsinə gətirəcəkdir. Çünki dövlət səviyyəli səfərlərin əlbəttə ki, böyük əhəmiyyəti vardır. Ən önəmlisi ondan ibarət olmalıdır ki, səfərdən sonra real nəticələr, real layihələr olsun ki, biz bu layihələri uğurla icra edək.

Mən əminəm ki, sizin səfəriniz çox uğurlu keçəcək və əlaqələrimizin inkişafı üçün yeni imkanlar açılacaqdır.

* * *

Mavritaniya Prezidenti Məhəmməd Uld ƏBDÜLƏZİZ səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri, cənab Prezident!

Məni rəsmi səfərə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Dost ölkədə olmaqdan fərəh duyuram. Öz adımdan və məni müşayiət edən nümayəndə heyəti adından Sizə öz minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, bu səfərim iki ölkə arasındakı əlaqələrin inkişafına mühüm töhfə verəcək və iki xalq arasındakı əlaqələr inkişaf edəcəkdir.

Biz Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etmək niyyətindəyik. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində, BMT, İslam Konfransı Təşkilatı çərçivəsində sizinlə əlaqələrimizin inkişafında maraqlıyıq.

İqtisadi əlaqələrin inkişaf etdirilməsi başlıca məsələdir. Bu əlaqələr ticarət, iqtisadiyyat və digər sahələri əhatə edir ki, bizim ölkəmizin bu istiqamətdə imkanları çoxdur. Sadəcə olaraq, bu imkanlardan səmərəli istifadə etmək lazımdır. Ölkəmizdə mədən ehtiyatları genişdir. Biz mədən ehtiyatlarının istismarında da məhz sizin təcrübədən istifadə et-

mək istərdik. Bilirik ki, ölkəniz böyük təcrübəyə malikdir və biz bu təcrübədən yararlanmaq niyyətindəyik. Qeyd etmək istərdim ki, ölkəmizdə qızıl, mis dəmir və digər faydalı qazıntı ehtiyatları vardır. Mən heyvandarlıq sahəsində olan imkanlarımızı da qeyd etmək istərdim. Çünki bu sahədə də əməkdaşlıq imkanları mümkündür. Eyni zamanda, balıq ehtiyatlarına görə regionda çox önəmli yer tutan ölkəmizdə balıq ovu böyük əhəmiyyət daşıyır və bu sahədə də əməkdaşlıq mümkündür.

Hesab edirəm ki, mənim bu səfərim çox əhəmiyyətli olacaq və məhz bunun nəticəsində də ölkələrimizin bir-birinə yaxınlaşması, iqtisadi sahədə əməkdaşlığın qaydasına düşməsi mümkün olacaqdır. Təbii ki, Azərbaycanın neft-qaz imkanları və bu sahədə olan təcrübəsi böyükdür. Biz məhz bu sahədə də Azərbaycanın təcrübəsindən və köməyindən yararlanmaq istərdik. Bütün bu məsələlər müxtəlif layihələrin həyata keçirilməsi ilə reallaşa bilər. Buna görə də ümid edirəm ki, məhz səfərimdən sonra bu sahədə müəyyən səmərəli addımlar atılacaq və səfər gələcəkdə yeni layihələrin həyata keçirilməsi, əlaqələrin inkişafı üçün bir ərəfə olacaqdır.

Təbii ki, hər iki ölkə arasında siyasi baxımdan iradənin mövcud olması iqtisadi əlaqələrin inkişafı üçün əsas yaradar, məhz bizim dostluq əlaqələrimizin inkişafına öz töhfəsini verər. Ölkələrimizin məsafə cəhətdən bir-birindən çox uzaq olmasına baxmayaraq mənə elə gəlir ki, əlaqələri inkişaf etdirmək olar. Bizim niyyətimiz məhz bundan ibarətdir.

Cənab Prezident, biz məhz iqtisadi sahədə əlaqələrimizin inkişaf etdirilməsi ilə bağlı sizinlə geniş fikir mübadiləsi apardıq. Mənə elə gəlir ki, məhz iki qardaş, dost xalqın mənafeyinə xidmət edən bu səfərim çox səmərəli olacaqdır.

Cənab Prezident, mən Sizi Mavritaniya İslam Respublikasına rəsmi səfərə dəvət edirəm. Təbii ki, burada iştirak edən nazirlərə, səfirlərə də öz minnətdarlığımı bildirirəm.

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

İyulun 15-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan-Mavritaniya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Mavritaniya Prezidenti Məhəmməd Uld Əbdüləziz Birgə bəyannaməni imzaladılar.

"Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Mavritaniya İslam Respublikası Ticarət, Ənənəvi Sənaye və Turizm Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Mavritaniyanın xarici işlər və əməkdaşlıq naziri xanım Naha Mint Hamdi Uld Muknass imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında bitkilərin karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Mavritaniya İslam Respublikası Kəndlərin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İsmət Abasov və Mavritaniyanın kəndlərin inkişafı naziri Brahim Uld Mbarek Uld Məhəmməd Əl Moktar imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev, Mavritaniyanın iqtisadi məsələlər və inkişaf naziri Sidi Uld Tah imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev, Mavritaniyanın xarici işlər və əməkdaşlıq naziri xanım Naha Mint Hamdi Uld Muknass imzaladılar.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin və xanımı Tekber Mint Melanin Uld Əhmədin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

İyulun 15-də Milli Məclis sədrinin birinci müavini, təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulberenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Z.Əsgərov demişdir ki, dost ölkələr olan Azərbaycan ilə Moldova arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Beynəlxalq təşkilatlar çərçivəsində də ölkələrimizin mövqeləri bütün məsələlərdə üst-üstə düşür.

Ziyafət Əsgərov Azərbaycan və Moldova Konstitusiya məhkəmələri arasında iyulun 14-də imzalanmış qarşılıqlı əməkdaşlıq haqqında Memorandumun hüquqi sahədə əlaqələrimizin möhkəmlənməsinə təkan verəcəyini demişdir.

Milli Məclis sədrinin birinci müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə qonaqlara ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılmasına dair BMT tərəfindən qəbul edilmiş qətnamələrin tələblərinə məhəl qoymur. Təəssüf ki, dünya birliyi bu məsələdə ikili standart nümayiş etdirərək, Ermənistana beynəlxalq hüququn norma və prinsiplərinə riayət etməkdə heç bir təzyiq göstərmir. Z.Əsgərov, həmçinin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyinə görə Moldova hökumətinə təşəkkürünü bildirmişdir.

Nümayəndə heyətinin rəhbəri, Moldova Konstitusiya Məhkəməsinin sədri Dumitru Pulbere səmimi görüşə və yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirmişdir. Azərbaycana səfərindən məmnunluğunu bildirən qonaq Moldova Konstitusiya Məhkəməsinin fəaliyyəti haqqında məlumat vermişdir. D.Pulbere Azərbaycan və Moldova Konstitusiya məhkəmələri arasında imzalanmış Memorandumun ikitərəfli əməkdaşlığın daha sürətlə inkişafına töhfə verəcəyini məmnunluqla vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ PORTUQALİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 15-də xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Portuqaliyanın xarici işlər naziri Luis Amado ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

E.Məmmədyarov bildirmişdir ki, bu səfər Azərbaycan ilə Portuqaliya arasında əməkdaşlığa böyük imkan yaradacaqdır. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə portuqaliyalı qonağa məlumat verilmiş, məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının mümkünlüyü vurğulanmışdır.

Bundan əlavə, görüşdə Azərbaycan ilə Portuqaliya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması, diplomatik və xüsusi pasportlara malik şəxslərin viza tələblərindən azad olunmaları haqqında iki sənəd imzalanmışdır.

Portuqaliyanın xarici işlər naziri qeyd etmişdir ki, region çox dinamik inkişaf yolundadır. Azərbaycan Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsündə fəal iştirak edir. Avropa İttifaqının üzvü kimi Portuqaliya Azərbaycan ilə əməkdaşlığa böyük önəm verir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Portuqaliyanın mövqeyinin Avropa İttifaqının mövqeyi ilə üst-üstə düşdüyünü vurğulayan L.Amado bildirmişdir: "Biz ATƏT-in Minsk qrupunun problemin həlli ilə bağlı gördüyü tədbirləri də dəstəkləyirik. Regionda sülhün və sabitliyin bərqərar olmasını istəyirik".

Nazir Elmar Məmmədyarov iyulun 16-17-də Almatıda keçiriləcək ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin qeyri-rəsmi görüşünə toxunaraq bildirmişdir ki, tədbir çərçivəsində ermənistanlı həmkarı Edvard Nalbandyan ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparacaqdır. ATƏT-in Minsk qrupu həmsədrlərinin də iştirak edəcəkləri görüşdə yenilənmiş Madrid prinsipləri ətrafında fikir mübadiləsi aparılacaqdır.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ PORTUQALİYA RESPUBLİKASI ARASINDA İKİ SƏNƏD İMZALANMIŞDIR

İyulun 15-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Portuqaliya Respublikası arasında iki sənədin imzalanması və paraflanması mərasimi keçirilmişdir.

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Portuqaliya Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Portuqaliyanın xarici işlər naziri Luis Amado imzalamışlar.

Nazirlər "Azərbaycan Respublikası Hökuməti və Portuqaliya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş"i paraflamışlar.

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 15-də xarici işlər naziri Elmar Məmmədyarov Polşanın ölkəmizdəki səfiri Kşiştof Krayevski ilə Azərbaycanda fəaliyyət müddətinin başa çatması ilə əlaqədar görüşmüşdür.

Səfir ölkəmizdə fəaliyyət göstərdiyi müddətdə Azərbaycan-Polşa əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə sürətlə inkişaf etdiyini qeyd etmişdir. Səfir vurğulamışdır ki, iki ölkə arasındakı münasibətlər qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır və hər iki xalqın mənafeyinə xidmət edir. O, səfir kimi işlədiyi dövrdə iki ölkə arasında əlaqələrin davamlı olaraq inkişaf etdiyini vurğulamış və gələcəkdə də genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

Nazir Elmar Məmmədyarov Azərbaycan və Polşa arasında ikitərəfli münasibətlərin səviyyəsini yüksək qiymətləndirərək səfirə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ MACARISTANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 15-də xarici işlər naziri Elmar Məmmədyarov Macarıstanın ölkəmizdəki səfiri Jeno Boroş ilə Azərbaycanda fəaliyyət müddətinin başa çatması ilə əlaqədar görüşmüşdür.

Görüş zamanı səfir Jeno Boroş Azərbaycanda Macarıstanın səfiri kimi çalışmasından məmnun olduğunu bildirmişdir. İşlədiyi dövrdə iki ölkə arasındakı münasibətlərin daha da genişlənməsi və inkişafı üçün səy göstərdiyini söyləyən səfir bu istiqamətdə XİN ilə faydalı əməkdaşlığı xüsusi vurğulamışdır. Azərbaycandan xoş xatirələrlə ayrıldığını deyən səfir fəaliyyəti zamanı göstərilən dəstək və diqqətə görə minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov səfir Jeno Boroşa xoş arzularını bildirmiş və gələcək işlərində müvəffəqiyyətlər arzulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Gürcüstana işgüzar səfərə gəlmişdir.

Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Batumi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Gürcüstan Prezidenti Mixail Saakaşvili və xanımı Sandra Elizabet Rulofs səmimiyyətlə qarşıladılar.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

İyulun 18-də Batumidə Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə ikitərəfli və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Onun dəvətini qəbul edib Gürcüstana işgüzar səfərə gəldiyinə görə dövlətimizin başçısına minnətdarlıq edən Mixail Saakaşvili bildirdi ki, ölkələrimiz arasında qarşıya qoyulan məqsədlərə nail olunub və bu səfər bütün sahələrdə əlaqələrin inkişafına imkan verəcəkdir.

Prezident İlham Əliyev onu Gürcüstana dəvət etdiyinə görə Mixail Saakaşviliyə təşəkkür etdi.

Dövlətimizin başçısı dedi ki, bu səfər bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Prezidenti vurğuladı ki, səfər çərçivəsində aparılan danışıqlar gələcək əməkdaşlığın inkişafına təkan verəcək, ikitərəfli münasibətlərin və hökumətlərarası komissiyanın fəaliyyətinə töhfə olacaqdır.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

İyulun 18-də Batumidə geniş tərkibdə görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları bəyanatlarla çıxış etdilər.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI

- Biz Azərbaycanın dövlət başçısını, qardaşımızı burada salamlamaq istəyirik. Bizim qurduğumuz uzunmüddətli əməkdaşlıq artıq Bakı və Batumi şəhərləri arasında da öz müsbət nəticəsini vermişdir. Bildiyiniz kimi, Bakıdan gəlmiş iş adamları Batumidə işləyir və eyni zamanda, Batuminin iş adamları Bakıda fəaliyyət göstərirlər. Batumi limanından çıxan gəmilər artıq yola düşmüşlər. Bu da Bakı ilə Tbilisi arasındakı əməkdaşlığın nəticəsidir. Bütün bunlar bizim qarşıya qoyduğumuz ümumi əməkdaşlıq proqramının bir hissəsidir.

Hazırda Bakıda çox müsbət dəyişikliklər baş verir və biz bu dəyişiklikləri görməkdən çox şadıq. Eyni zamanda, Batumidə də inkişaf prosesləri gedir. Çalışırıq ki, biz də hər

bir sahədə inkişafa nail olaq.

Bu gün biz danışıqlar apardıq və Batumidə Azərbaycan Dövlət Neft Şirkətinin ofisini açacağıq. Bu açılış tarixi bir binada baş verəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin razılığı ilə biz bu məqsədlə lazımi infrastruktur yaratmışıq və Batumidə bu ofisin uğurla fəaliyyət göstərəcəyinə tam əminik.

Cənab Prezident, biz Sizin bu səfərinizdən çox məmnunuq, məhz bu münasibətlə Sizə öz təbriklərimizi çatdırırıq. Bizim dostluğumuz uzunmüddətli bir dostluqdur, böyük tarixi vardır və bir çox sınaqlardan keçmişdir. Gürcüstan heç zaman yaddan çıxarmayacaq ki, enerji infrastrukturumuz partladılanda, gürcü xalqı qışın soyuğunda çətin şəraitdə qalanda Azərbaycan bizim ehtiyaclarımızı təmin etmək üçün köməyə gəldi. Mən tam əminəm ki, Gürcüstan xalqı Azərbaycanın bu yardımını heç vaxt yaddan çıxarmayacaqdır. Biz bu yardımı heç vaxt unutmayacağıq. Çünki bu kömək Gürcüstanın tarixində ən ağır bir vaxtda göstərilmişdir. O vaxt Azərbaycan çox mühüm bir qərarı qəbul etdi və həmin ağır vaxtlarda Gürcüstanın köməyinə gəldi. Bu, təkcə strateji tərəfdaşlığın nəticəsi deyil, bu, qardaşlıq rəmzidir. Hətta biz konfederativ münasibətlər qurmuşuq.

Bizim münasibətlərimiz normal münasibətlər çərçivəsindən daha genişdir. Tam əminik ki, biz bundan sonra da bir-birimizə yardım göstərəcəyik. Azərbaycan üçün hər hansı bir ağrılı məsələ, Gürcüstan üçün də ağrılı məsələdir və eyni zamanda, Gürcüstan üçün olan ağrılı məsələ, həmçinin Azərbaycan üçün ağrılı məsələdir.

Bu gün biz eyni zamanda, xüsusi vurğuladıq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun tam istismara verilməsi mütləqdir. Hesab edirik ki, Azərbaycanın da müvafiq qurumu - Dövlət Dəmir Yolu idarəsi bu işdə iştirak edə bilər. Eyni zamanda, biz qeyd etdik ki, Gürcüstanın təbii qaza olan tələbatının 70 faizi məhz Azərbaycan qazı hesabına təmin edilir. Bilirsiniz ki, sovet vaxtından qalmış avtomobil yolları da bundan sonra təmir ediləcəkdir. Beləliklə, biz bütün daşınma yollarını lazımi formaya gətirəcəyik ki, Çindən gələn yolun mümkün qədər qısa məsafədən - Azərbaycandan və Gürcüstandan keçərək Avropaya çıxışını təmin edək.

Bütün bunlar sıx münasibətlər nəticəsində mümkün olmuşdur. Ölkələrimiz aramızda heç bir problem yoxdur. Bizim münasibətlərimiz son illər ən yüksək səviyyəyə çatmışdır və biz bunu davam etdirməliyik. Təbii ki, bu münasibətlərin əsasını məhz Heydər Əliyev qoymuşdur. Biz bütün səylərimizlə çalışacağıq ki, əsrlər boyu xalqlarımızı bir-birinə bağlayan münasibətlər bundan sonra da inkişaf etsin. Heydər Əliyevin strateji baxışları nəticəsində bu münasibətlər daha da möhkəmlənmiş və İlham Əliyevin böyük səyləri sayəsində isə daha da güclənmişdir. Biz tam əminik ki, bu əlaqələr, bu münasibətlər daha da inkişaf edəcək, regionumuzda sabitliyə xidmət göstərəcəkdir.

Mən Sizi Gürcüstanda bir daha salamlayıram, Sizə xoş gəlmisiniz deyirəm. Siz Gürcüstanı yaxşı tanıyırsınız, burada özünüzü öz evinizdəki kimi hiss edin.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, hörmətli cənab Prezident, əziz dostum! İlk növbədə məni Gürcüstana dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən yenidən Batumidə olmağımdan çox məmnunam. Burada gördüyüm dəyişikliklər, inkişaf məni bir

dost kimi çox sevindirir. Bu, bilavasitə Sizin Prezident kimi fəaliyyətinizin nəticəsidir. Batumi gündən-günə gözəlləşir, abadlaşır, müasir binalar, mehmanxanalar tikilir, gözəl infrastruktur yaradılır. Mən iki il bundan əvvəl Batumidə olmuşam və müqayisə aparmaq üçün indi məndə kifayət qədər imkanlar vardır. Gördüklərim məni çox sevindirir. Çünki Sizin uğurunuz bizim də uğurumuzdur. Sizin fəaliyyətiniz nəticəsində Gürcüstan xarici sərmayələr üçün çox cəlbedici ölkəyə çevrilibdir. Gürcüstana milyardlarla vəsait yatırılır və xarici şirkətlər tərəfindən göstərilən etimad çox böyük əhəmiyyətə malikdir. Bu onu göstərir ki, Gürcüstanın uğurlu və sabit inkişafına böyük inam vardır.

Mən çox şadam ki, Gürcüstana investisiya qoyanların arasında Azərbaycan şirkətləri də vardır. Azərbaycan şirkətləri Gürcüstana böyük maraqla yanaşır, böyük həvəslə investisiyalar qoyurlar. Bu investisiyaların həcmi gündən-günə artır. Təbii ki, ilk investisiyalar energetika sektoruna qoyulubdur. Ancaq mən ümid edirəm ki, Azərbaycan şirkətləri başqa sahələrə də investisiyalar qoyacaqlar.

Bizim aramızda olan əlaqələr zəngin tarixə əsaslanır. Əsrlər boyu bizim xalqlarımız dostluq, qardaşlıq şəraitində yaşamışlar, bir-birinə kömək etmişlər və həmişə birlikdə olmuşlar. Bu tarixi yaddaş bugünkü gün üçün də çox vacibdir. Bu gün sürətlə inkişaf edən iki müstəqil dövlət - Gürcüstan və Azərbaycan öz aralarında bütün sahələrdə çox fəal əməkdaşlıq edirlər. Bizim əməkdaşlığımız çoxşaxəlidir, bütün sahələri əhatə edir və bayaq qeyd etdiyim kimi, möhkəm tarixi zəmin əsasında qurulubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqlarımız arasında mövcud olan ənənəvi dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirək, yeni məna ilə zənginləşdirək və beləliklə, Gürcüstan-Azərbaycan strateji əməkdaşlığının imkanlarından maksimum şəkildə istifadə edək.

Bizi birləşdirən böyük, nəhəng, dünya miqyaslı layihələr vardır. Biz bunları birlikdə icra etmişik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri bu gün nəinki Gürcüstanın və Azərbaycanın maraqlarını təmin edir, eyni zamanda, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verir. Bu layihələrin uğurlu icrası nəticəsində biz dəmir yolu layihələrinə başladıq. Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də elektrik enerjisi sahəsindəki əməkdaşlıqdır. Biz başqa sahələrdə də əməkdaşlığa çox böyük maraqla və həvəslə baxırıq. Əminəm ki, nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaqdır. Bunu deməyə əsas verən odur ki, biz bu günə qədər müəyyən etdiyimiz məsələləri birlikdə, güclü koordinasiya şəklində həll etmişik.

Bu gün bölgədə mövcud vəziyyət və ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olması diktə edir ki, biz irəliyə baxmalıyıq, yeni layihələri aşkar etməliyik, onları icra etməliyik və beləliklə, Gürcüstanla Azərbaycan arasında əlaqələri daha da möhkəmləndirməliyik.

Mən bir daha demək istəyirəm ki, qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam. Əminəm ki, Sizin rəhbərliyinizlə Gürcüstan bundan sonra da uğurla inkişaf etməyə davam edəcək və Sizin qoyduğunuz bütün vəzifələr uğurla icra ediləcəkdir. Sağ olun.

* * *

Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.

* * *

"RUSTAVİ-2" televiziya kanalının müxbiri: Bir qədər əvvəl sizin təkbətək və geniş tərkibdə görüşləriniz oldu. Siz konkret olaraq hansısa bir razılaşma əldə etdinizmi?

Prezident Mixail SAAKAŞVİLİ: Biz burada nəqliyyat dəhlizinin inkişafına zəmin yaradacaq dəmir yolu haqqında danışdıq və bildirdik ki, Çindən başlayıb Mərkəzi Asiyadan keçməklə Avropaya çıxışı daha da yaxşı şəkildə təmin edə bilərik. Biz burada əlaqələndirmə məsələsini qaldırdıq. Bütün bunların hamısı iqtisadiyyatımızın inkişafına, ölkələrimizə sərmayələrin qoyulmasına xidmət edəcəkdir.

Biz dəmir yolu xətti layihəsinin həyata keçirilməsində birgə işləyirik. Bu, çox böyük layihədir. Bu dəmir yolu bizim ölkələrin ərazisindən keçməklə Çindən Londona qədər uzana bilər. Bu, hətta Transsibir magistral xəttindən də uzun bir xətt ola bilər. Biz bunu həyata keçirəcəyik.

Eyni zamanda, 2012-ci ildə Bakıdan Batumiyə qədər avtomobil yolu layihəsinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu, Azərbaycandan Gürcüstan sərhədinə qədər dördzolaqlı avtomagistral yol olacaq və bundan sonra da davam edəcəkdir. Bu o deməkdir ki, Tbilisinin yanında yerləşən Rustavi şəhərindən çıxış daha da asanlaşacaqdır. Bu şəhərdən o şəhərə getmək üçün sadəcə 18 dəqiqə lazım olacaqdır. Bu avtomobil yolu ilə Azərbaycan sərhədinə çıxış daha da asanlaşacaq, hətta bu yoldan istifadə etməklə İstanbula da getmək mümkün olacaqdır. Bu avtomobil yolunun inşası nəticəsində dincəlmək, istirahət məqsədi ilə Batumiyə gələn azərbaycanlıların sayı da artacaqdır.

Azərbaycan şirkətlərindən biri Batumi şəhərində yüksək keyfiyyətli mehmanxana tikməyi qərara almışdır. Bu o deməkdir ki, mehmanxananın tikintisi zamanı yerli vətəndaşlarımızın bir çoxu işlə təmin olunacaq, eyni zamanda, şəhərimiz daha da gözəlləşəcəkdir. Yəni şəhərimizin gözəlləşdirilməsində bizim qonşularımız da iştirak edəcəklər.

Təbii ki, bu əməkdaşlığın əsası 1993-cü ildən sonra qoyulmuşdur. Mən Azərbaycanda gedən sürətli inkişafı və müsbət dəyişiklikləri xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan get-gedə çox mühüm regional mərkəzə çevrilir. Bu da özlüyündə çox vacib bir amildir. Nəinki Qafqaz regionu, həmçinin Avropa üçün də Azərbaycanın əhəmiyyəti gündən-günə artır. Azərbaycanın dünyada nüfuzu artır. Azərbaycan dövlətinin başçısının uzaqgörən siyasəti nəticəsində son illər bu ölkənin nüfuzu artmış, eyni zamanda Azərbaycanda bütün sahələrdə irəliyə doğru mühüm addımlar atılmışdır. Bütün bunlar bu ölkənin iqtisadiyyatının daha da şaxələndirilməsinə, inkişafına xidmət göstərmişdir. Biz Azərbaycandakı bu uğurları görürük və bu dəyişiklikləri müşahidə edirik. Bütün bunları əldə etmək o qədər də asan deyildir. Hamı bunu başa düşür ki, Azərbaycan çox mühüm strateji rola malikdir. Biz fərəh hissi keçiririk ki, Azərbaycan artıq qüdrətli bir ölkədir, onun nüfuzu get-gedə daha da artır.

Prezident İlham ƏLİYEV: Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bizim dəmir yolu sahəsində planlarımız reallaşır, energetika sahəsində birgə başladığımız və uğurla icra etdiyimiz layihələr bu gün artıq regional müstəvidən çıxıbdır. Gürcüstan-Azərbaycan strateji dostluğu və müttəfiqliyi artıq dünya miqyasında çox mühüm amilə çevrilibdir. Bizim əlaqələrimizin möhkəmlənməsi, yeni məsələlərin həlli nəticəsində bölgədə daha da proqnozlaşdırıla bilən vəziyyət yarana bilər. Biz bu əlaqələrə sadiqik. Bayaq

dost kimi çox sevindirir. Bu, bilavasitə Sizin Prezident kimi fəaliyyətinizin nəticəsidir. Batumi gündən-günə gözəlləşir, abadlaşır, müasir binalar, mehmanxanalar tikilir, gözəl infrastruktur yaradılır. Mən iki il bundan əvvəl Batumidə olmuşam və müqayisə aparmaq üçün indi məndə kifayət qədər imkanlar vardır. Gördüklərim məni çox sevindirir. Çünki Sizin uğurunuz bizim də uğurumuzdur. Sizin fəaliyyətiniz nəticəsində Gürcüstan xarici sərmayələr üçün çox cəlbedici ölkəyə çevrilibdir. Gürcüstana milyardlarla vəsait yatırılır və xarici şirkətlər tərəfindən göstərilən etimad çox böyük əhəmiyyətə malikdir. Bu onu göstərir ki, Gürcüstanın uğurlu və sabit inkişafına böyük inam vardır.

Mən çox şadam ki, Gürcüstana investisiya qoyanların arasında Azərbaycan şirkətləri də vardır. Azərbaycan şirkətləri Gürcüstana böyük maraqla yanaşır, böyük həvəslə investisiyalar qoyurlar. Bu investisiyaların həcmi gündən-günə artır. Təbii ki, ilk investisiyalar energetika sektoruna qoyulubdur. Ancaq mən ümid edirəm ki, Azərbaycan şirkətləri başqa sahələrə də investisiyalar qoyacaqlar.

Bizim aramızda olan əlaqələr zəngin tarixə əsaslanır. Əsrlər boyu bizim xalqlarımız dostluq, qardaşlıq şəraitində yaşamışlar, bir-birinə kömək etmişlər və həmişə birlikdə olmuşlar. Bu tarixi yaddaş bugünkü gün üçün də çox vacibdir. Bu gün sürətlə inkişaf edən iki müstəqil dövlət - Gürcüstan və Azərbaycan öz aralarında bütün sahələrdə çox fəal əməkdaşlıq edirlər. Bizim əməkdaşlığımız çoxşaxəlidir, bütün sahələri əhatə edir və bayaq qeyd etdiyim kimi, möhkəm tarixi zəmin əsasında qurulubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqlarımız arasında mövcud olan ənənəvi dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirək, yeni məna ilə zənginləşdirək və beləliklə, Gürcüstan-Azərbaycan strateji əməkdaşlığının imkanlarından maksimum şəkildə istifadə edək.

Bizi birləşdirən böyük, nəhəng, dünya miqyaslı layihələr vardır. Biz bunları birlikdə icra etmişik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri bu gün nəinki Gürcüstanın və Azərbaycanın maraqlarını təmin edir, eyni zamanda, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verir. Bu layihələrin uğurlu icrası nəticəsində biz dəmir yolu layihələrinə başladıq. Bu gün müzakirə etdiyimiz məsələlərdən biri də elektrik enerjisi sahəsindəki əməkdaşlıqdır. Biz başqa sahələrdə də əməkdaşlığa çox böyük maraqla və həvəslə baxırıq. Əminəm ki, nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaqdır. Bunu deməyə əsas verən odur ki, biz bu günə qədər müəyyən etdiyimiz məsələləri birlikdə, güclü koordinasiya şəklində həll etmişik.

Bu gün bölgədə mövcud vəziyyət və ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olması diktə edir ki, biz irəliyə baxmalıyıq, yeni layihələri aşkar etməliyik, onları icra etməliyik və beləliklə, Gürcüstanla Azərbaycan arasında əlaqələri daha da möhkəmləndirməliyik.

Mən bir daha demək istəyirəm ki, qardaş Gürcüstan torpağında olmağımdan çox məmnunam. Əminəm ki, Sizin rəhbərliyinizlə Gürcüstan bundan sonra da uğurla inkişaf etməyə davam edəcək və Sizin qoyduğunuz bütün vəzifələr uğurla icra ediləcəkdir. Sağ olun.

* * *

Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar.

* * *

"RUSTAVİ-2" televiziya kanalının müxbiri: Bir qədər əvvəl sizin təkbətək və geniş tərkibdə görüşləriniz oldu. Siz konkret olaraq hansısa bir razılaşma əldə etdinizmi?

Prezident Mixail SAAKAŞVİLİ: Biz burada nəqliyyat dəhlizinin inkişafına zəmin yaradacaq dəmir yolu haqqında danışdıq və bildirdik ki, Çindən başlayıb Mərkəzi Asiyadan keçməklə Avropaya çıxışı daha da yaxşı şəkildə təmin edə bilərik. Biz burada əlaqələndirmə məsələsini qaldırdıq. Bütün bunların hamısı iqtisadiyyatımızın inkişafına, ölkələrimizə sərmayələrin qoyulmasına xidmət edəcəkdir.

Biz dəmir yolu xətti layihəsinin həyata keçirilməsində birgə işləyirik. Bu, çox böyük layihədir. Bu dəmir yolu bizim ölkələrin ərazisindən keçməklə Çindən Londona qədər uzana bilər. Bu, hətta Transsibir magistral xəttindən də uzun bir xətt ola bilər. Biz bunu həyata keçirəcəyik.

Eyni zamanda, 2012-ci ildə Bakıdan Batumiyə qədər avtomobil yolu layihəsinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu, Azərbaycandan Gürcüstan sərhədinə qədər dördzolaqlı avtomagistral yol olacaq və bundan sonra da davam edəcəkdir. Bu o deməkdir ki, Tbilisinin yanında yerləşən Rustavi şəhərindən çıxış daha da asanlaşacaqdır. Bu şəhərdən o şəhərə getmək üçün sadəcə 18 dəqiqə lazım olacaqdır. Bu avtomobil yolu ilə Azərbaycan sərhədinə çıxış daha da asanlaşacaq, hətta bu yoldan istifadə etməklə İstanbula da getmək mümkün olacaqdır. Bu avtomobil yolunun inşası nəticəsində dincəlmək, istirahət məqsədi ilə Batumiyə gələn azərbaycanlıların sayı da artacaqdır.

Azərbaycan şirkətlərindən biri Batumi şəhərində yüksək keyfiyyətli mehmanxana tikməyi qərara almışdır. Bu o deməkdir ki, mehmanxananın tikintisi zamanı yerli vətəndaşlarımızın bir çoxu işlə təmin olunacaq, eyni zamanda, şəhərimiz daha da gözəlləşəcəkdir. Yəni şəhərimizin gözəlləşdirilməsində bizim qonşularımız da iştirak edəcəklər.

Təbii ki, bu əməkdaşlığın əsası 1993-cü ildən sonra qoyulmuşdur. Mən Azərbaycanda gedən sürətli inkişafı və müsbət dəyişiklikləri xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan get-gedə çox mühüm regional mərkəzə çevrilir. Bu da özlüyündə çox vacib bir amildir. Nəinki Qafqaz regionu, həmçinin Avropa üçün də Azərbaycanın əhəmiyyəti gündən-günə artır. Azərbaycanın dünyada nüfuzu artır. Azərbaycan dövlətinin başçısının uzaqgörən siyasəti nəticəsində son illər bu ölkənin nüfuzu artmış, eyni zamanda Azərbaycanda bütün sahələrdə irəliyə doğru mühüm addımlar atılmışdır. Bütün bunlar bu ölkənin iqtisadiyyatının daha da şaxələndirilməsinə, inkişafına xidmət göstərmişdir. Biz Azərbaycandakı bu uğurları görürük və bu dəyişiklikləri müşahidə edirik. Bütün bunları əldə etmək o qədər də asan deyildir. Hamı bunu başa düşür ki, Azərbaycan çox mühüm strateji rola malikdir. Biz fərəh hissi keçiririk ki, Azərbaycan artıq qüdrətli bir ölkədir, onun nüfuzu get-gedə daha da artır.

Prezident İlham ƏLİYEV: Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik. Bizim dəmir yolu sahəsində planlarımız reallaşır, energetika sahəsində birgə başladığımız və uğurla icra etdiyimiz layihələr bu gün artıq regional müstəvidən çıxıbdır. Gürcüstan-Azərbaycan strateji dostluğu və müttəfiqliyi artıq dünya miqyasında çox mühüm amilə çevrilibdir. Bizim əlaqələrimizin möhkəmlənməsi, yeni məsələlərin həlli nəticəsində bölgədə daha da proqnozlaşdırıla bilən vəziyyət yarana bilər. Biz bu əlaqələrə sadiqik. Bayaq

qeyd etdiyimiz kimi, biz bu əlaqələrimizi dərin tarixi köklərə bağlayırıq. Bu əlaqələr xalqlar arasında olan əlaqələrdir. Bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, tarix boyu gürcü və Azərbaycan xalqları dostluq, mehribanlıq şəraitində yaşamışlar, bir-birilərinə böyük rəğbətlə yanaşırlar. Xalqlar arasındakı münasibətlər də ikitərəfli münasibətlərə öz töhfəsini verir.

Əlbəttə ki, biz iqtisadi, sənaye, siyasi məsələləri çox ciddi şəkildə müzakirə edirik. Amma bununla bərabər humanitar sahədə əməkdaşlıq da böyük məna daşıyır. Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar bizim ölkələrimiz arasında körpü rolunu oynayır. Onlar bizim ölkələrimizin dəyərli vətəndaşlarıdırlar, öz vətənlərinə böyük məhəbbətlə yanaşırlar və öz vətənpərvərlik borcunu şərəflə yerinə yetirirlər. Yəni ki, bizim aramızdakı münasibətlər hansısa bir sahə ilə məhdudlaşmır. Bu əlaqələrin dərin tarixi kökləri vardır. Biz bugünkü reallıqlardan, imkanlardan səmərəli şəkildə istifadə edirik. Elə etməliyik ki, bundan sonrakı nəsillər də bu fikir və duyğularla yaşasınlar ki, Gürcüstan və Azərbaycan əbədi dostluq və qardaşlıq şəraitində yaşasınlar.

AZƏRBAYCAN TELEVİZİYASI-nın müxbiri: Mənim sualım Gürcüstan Prezidentinədir. Cənab Prezident, Siz Azərbaycanın ölkənizə investisiya qoyuluşunun Gürcüstan iqtisadiyyatının inkişafına verdiyi töhfəni necə qiymətləndirirsiniz? Sağ olun.

Mixail SAAKAŞVİLİ: Bizim üçün ən ağır vaxtlarda Azərbaycanın göstərdiyi yardım həlledici idi. Bu, yalnız yardım deyildi, bu, çox uğurlu bir yardım idi. Bu, bizim ikitərəfli əməkdaşlığımızı gücləndirdi. ARDNŞ-in Gürcüstandakı fəaliyyəti, bizim limanlarımızda apardığı işlər çox vacibdir. Dəmir yolu layihəsi də bizim üçün çox mühümdür. Bütün bunlar Azərbaycan şirkətləri ilə birgə həyata keçirilən məsələlərdir. Bildiyiniz kimi, burada turizm infrastrukturunda da Azərbaycan şirkəti işləyir. Bu da bizim üçün vacibdir. Bütün bunlar təkcə siyasi səviyyədə deyil, ayrı-ayrı insanlar, fərdlər arasında əlaqələrin, eyni zamanda, humanitar sahədə bizim işbirliyimizin, maraqlarımızın bir göstəricisidir. Bütün bunlar bir-birinə təbii yolla bağlı olan məsələlərdir. Bu da bizim daha da dərin inteqrasiyamıza xidmət edir. Biz Azərbaycanın həyata keçirdiyi strateji siyasətin praqmatik, düzgün nəticələrini görürük və bu siyasət uzaqgörən bir siyasətdir. Bunun nəticəsində biz praktiki olaraq, hər gün yaxşı nəticələr əldə edirik. Bu nəticələr hətta hökumətlərin maraqlarından da kənara çıxır. Çünki biz bir-birimizə dostcasına, mehribancasına yanaşırıq. Çalışırıq ki, bizi maraqlandıran məsələləri birgə həyata keçirək. Bütün bunların arxasında bizim birgə ideyalarımız durur. Bütün bunlar bu tarixi prosesin bir elementidir.

Mən bu mətbuat konfransına görə bütün iştirakçılara minnətdarlığımı bildirirəm. Mən cənab Prezidentə minnətdarlığımı bildirirəm ki, Gürcüstana səfər edibdir. Mən ümidvaram ki, bizim bu şəhərimiz Sizin xoşunuza gələcəkdir.

* * *

Mətbuat konfransı başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixail Saakaşvili Batumi şəhərində həyata keçirilən və gələcəkdə icrası nəzərdə tutulan infrastruktur layihələrinin eskizlərinə baxdılar. Bildirildi ki, son bir neçə ildə Batuminin abadlaşdırılması və quruculuq işlərinin aparılması məqsədi ilə şəhərdə bir sıra infrastruktur layihələri icra olunur. Bu da Batuminin inkişafına xidmət edir.

BİRGƏ İŞGÜZAR NAHAR

İyulun 18-də Batumidə Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Gürcüstan Prezidenti Mixail Saakaşvili və xanımı Sandra Elizabet Rulofs ilə birgə işgüzar nahar etmişlər.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİDƏ QONİO APSAR TARİX-MEMARLIQ MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs iyulun 18-də Batumidə Qonio Apsar tarix-memarlıq muzeyində olmuşlar.

Batuminin qədim abidələrindən olan, tarixi eramızdan əvvəl VIII-VII əsrlərə aid edilən Qonio Apsar qalası ilə tanışlıq zamanı məlumat verildi ki, erkən orta əsrlərdə bura romalıların yaşadığı şəhər - qala rolunu oynayırdı. Ərazisi 5 hektara yaxın olan bu qala romalılar üçün strateji siyasi və mədəni mərkəz idi. Orta əsrlərdə isə bu qala bizanslıların, daha sonra isə Osmanlı imperiyasının tərkibinə daxil olmuşdur. XIV əsrdə burada Gürcü knyazlığı yaradılmışdır.

1994-cü ildən muzey kimi fəaliyyət göstərən bu ərazidə müxtəlif vaxtlarda alimlərin iştirakı ilə geniş arxeoloji qazıntılar aparılmışdır.

Mehriban Əliyevin diqqətinə çatdırıldı ki, muzeyin ən maraqlı yerlərindən biri burada mövcud olan saxsı su kəmərinin qalıqlarıdır.

Muzeydə müxtəlif dövrlərə aid pul sikkələri, qızıl və gümüşdən hazırlanan bəzək əşyaları, qədim yunan və Roma dövrlərinə aid keramika nümunələri saxlanılır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİNİN GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva iyulun 18-də Batuminin görməli yerləri ilə tanış olmuşdur.

Şəhərin mərkəzindəki saat qülləsi ilə tanışlıq zamanı Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs məlumat verdi ki, bu saatı Batuminin hər yerindən görmək mümkündür.

Sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Batuminin tarixi hissəsində oldu.

Mehriban Əliyevaya Avropa meydanında Venesiya memarlığı üslubunda inşa olunan bina haqqında məlumat verildi. Qeyd olundu ki, son illərdə Batumidə geniş abadlıq-quruculuq işləri həyata keçirilir. Avropa meydanında aparılan yenidənqurma işləri də bunun bir tərkib hissəsidir.

Mehriban Əliyeva Batumidə həyata keçirilən infrastruktur layihələrinin eskizlərinə də baxdı.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİDƏ NOBEL QARDAŞLARININ TEXNİKİ MUZEYİNDƏ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Gürcüstan Prezidentinin xanımı Sandra Elizabet Rulofs iyulun 18-də Batumidə Nobel qardaşlarının Texniki Muzeyində olmuşlar.

Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda neft sənayesinin inkişafı qonşu Gürcüstanın da inkişafına təsir göstərmişdir. O dövrdə Bakıda neft hasilatı ilə məşğul olan Nobel qardaşları "qara qızıl"ı Batumi vasitəsilə Avropa bazarlarına çıxarmışlar. 1883-cü ildə Nobel qardaşları Batumidə bu məqsədlə neft terminalı da inşa etmişlər. Həmin dövrdə Bakı-Batumi dəmir yolunun çəkilməsi isə nobellərin neft biznesinin daha da inkişafına böyük töhfəsi olmuşdur.

Nobel qardaşlarının vaxtilə evi olmuş bu muzeydə neft maqnatlarının Batumidəki fəaliyyətini əks etdirən müxtəlif fotolar və əşyalar toplanmışdır. Muzeydə, həmçinin Balaxanıdakı neft mədənlərinin şəkilləri, Nobel qardaşlarının əlyazmaları da saxlanılır.

Mehriban Əliyeva muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

SƏFƏR BAŞA ÇATDI

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri başa çatmışdır.

Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Batumi hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Batumi hava limanında Gürcüstan Prezidenti Mixail Saakaşvili və xanımı Sandra Elizabet Rulofs yola saldılar.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ GÖRÜŞ

İyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevin Türkiyə Respublikasının enerji və təbii ehtiyatlar naziri Taner Yıldızın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olmuşdur.

Qonaqları Naxçıvanda salamlamaqdan məmnunluğunu ifadə edən Ali Məclisin sədri demişdir: "Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika və eyni zamanda Türkiyə ilə quru sərhədləri olan bir regiondur. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr Azərbaycanın müstəqilliyi illərində ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə daha da genişlənmiş, 1992-ci il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, 92 kilometrlik İqdır-Naxçıvan elektrik xətti çəkilmişdir.

Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan-Türkiyə əlaqələri dinamik xarakter almış, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri işə düşmüş, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə və digər iri layihələrin icrasına başlanmışdır. Bütün bunlar hər iki ölkənin iqtisadi imkanlarının genişlənməsinə və siyasi-iqtisadi əlaqələrinin inkişafına səbəb olmuşdur. İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdir ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soykök, milli və ortaq dəyərlər birləşdirir. Ona görə də iqtisadi və siyasi maraqlarımız daha möhkəm və uzunömürlüdür, eyni zamanda xalqlarımızın mənafeyinə xidmət edir. Qarşılıqlı əlaqələrimiz isə ilbəil genişlənir. Hər iki ölkənin dövlət başçılarının səyləri ilə indiki dövrdə bu əlaqələr daha da artır. Türkiyənin enerji və təbii ehtiyatlar nazirinin geniş bir heyətlə Naxçıvana gəlməsi də bu əlaqələrin bir nümunəsidir".

Ali Məclisin sədri bildirmişdir ki, qardaş Türkiyənin iştirakı ilə Naxçıvanda reallaşdırılan kommunikasiya və enerji layihələrindən sonra artıq yeni bir layihə də öz həllini tapır. Regionda daha bir enerji marşrutunun - İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi qarşılıqlı əlaqələrimizi daha da genişləndirəcək və qaz xəttinin imkanlarından hər iki ölkə səmərəli istifadə etməyə çalışacaqdır.

Türkiyə Respublikasının enerji və təbii ehtiyatlar naziri Taner Yıldız ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluğunu bildirərək demişdir: "Ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" adlandırdığı Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələri inkişafının yeni mərhələsini yaşayır. Hər iki ölkə arasında Naxçıvanla bağlı perspektiv layihələr böyük əhəmiyyət kəsb edir. Son illərdə Türkiyə ilə Naxçıvan arasında iqtisadi təmasların dərinləşməsi dinamik xarakter alıb. Naxçıvana elektrik xəttinin çəkilməsi, nəqliyyat magistrallarının birləşdirilməsi, nəqliyyat və hava reyslərinin açılması, kommunikasiya xidmətlərinin genişləndirilməsi strateji əməkdaşlığın təzahürü kimi qiymətləndirilə bilər".

Türkiyəli nazir bu layihələrin reallaşdırılmasına təşəbbüs göstərən və daim dəstək verən Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirmişdir. Qeyd olunmuşdur ki, hər iki ölkənin bərabər həyata keçirəcəyi bir çox layihələr vardır. Gələcəkdə Naxçıvan-Qars dəmir yolu xəttinin və qaz kəmərinin çəkilməsi isə Naxçıvanın yüksək inkişafı üçün impuls vermiş olacaq və bölgədə iqtisadi-strateji əhəmiyyət daşıyacaqdır.

TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASI ARASINDA QAZ BORU KƏMƏRİNİN TİKİNTİSİ BARƏDƏ NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Türkiyənin BOTAŞ şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz boru kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır.

Niyyət protokolunu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və Türkiyənin BOTAŞ şirkətinin İdarə Heyətinin sədri Fazil Şenel imzalamışlar.

Sənədin imzalanması mərasimi başa çatdıqdan sonra Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində regional əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, birgə razılaşmaya əsasən,

Azərbaycan qazının Türkiyənin İqdır vilayətindən Naxçıvana nəqli nəzərdə tutulur. Müqavilə imzalandıqdan sonra yaradılmış işçi qrupu layihənin texniki detallarını hazırlayacaqdır.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov demişdir: "Azərbaycan və Türkiyə dövlətlərinin rəhbərlərinin birgə səyi və himayəsi ilə Naxçıvan Muxtar Respublikasına təbii qaz xəttinin çəkilişi ilə əlaqədar ARDNŞ ilə qardaş ölkənin BOTAŞ şirkəti arasında niyyət protokolu imzalandı. Türkiyə-Azərbaycan birliyinin əsası türk dünyasının iki qüdrətli şəxsiyyəti - xalqlarımızın milli liderləri Mustafa Kamal Atatürk və ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. XX əsrin əvvəllərində milli lider Mustafa Kamal Atatürkün Türkiyə-Azərbaycan dostluğunun daha da möhkəmlənməsi üçün həyata keçirdiyi tədbirlər həmin əsrin sonunda ümummilli lider Heydər Əliyev tərəfindən davam və inkişaf etdirilmişdir. Bu gün bu siyasətin hər iki ölkənin rəhbərləri tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, belə bir razılıq əldə olunub".

Ali Məclisin sədri qaz xəttinin hər iki ölkə üçün xeyirli, uğurlu olmasını arzulamışdır.

Tədbirin sonunda jurnalistləri maraqlandıran suallara cavablar verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Ukraynanın xarici işlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Cənab Konstantin Qrişenko Ukrayna Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Ukrayna Prezidentinin bu yaxınlarda Azərbaycan Prezidenti ilə keçirdiyi görüşü məmnunluqla xatırladığını bildirdi. Konstantin Qrişenko qeyd etdi ki, Ukrayna dövlətinin başçısı Azərbaycan ilə əlaqələrin inkişafına və ikitərəfli münasibətlərimizlə bağlı bütün məsələlərə böyük önəm verir və bu məsələləri daim diqqət mərkəzində saxlamağı tapşırır.

Dövlətimizin başçısı Azərbaycanın Ukrayna ilə münasibətlərə böyük əhəmiyyət verdiyini və bunun ölkəmiz üçün önəmli xarakter daşıdığını vurğuladı. Azərbaycan Prezidenti ölkələrimiz arasında əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərdə əldə olunan müsbət nəticələrin gələcək inkişaf üçün yaxşı əsas yaratdığını qeyd etdi, iqtisadi, sənaye, energetika və bütün digər sahələrdə əlaqələrimizin genişləndirilməsi üçün böyük potensialın olduğunu nəzərə çatdırdı. Hazırkı mərhələdə münasibətlərimizin daha effektiv və dinamik xarakter daşımasının vacib olduğunu bildirən Prezident İlham Əliyev Ukraynanın Xarici İşlər nazirinin ölkəmizə səfərinin bu baxımdan önəmini vurğuladı.

Dövlətimizin başçısı Ukrayna Prezidenti Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ

İyulun 19-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə rəsmi səfərdə olan Ukraynanın xarici işlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir A.Rasizadə Azərbaycan ilə Ukraynanın strateji tərəfdaş olduqlarını, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əlaqələrin yüksək səviyyəsini diqqətə çatdırmış, belə qarşılıqlı səfərlərin əməkdaşlığın möhkəmləndirilməsi, əlaqələrin daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğulamışdır. Bildirilmişdir ki, məqsəd ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da inkişaf etdirilməsidir. Azərbaycan və Ukrayna arasında imzalanmış çoxsaylı sənədlər də məhz buna xidmət edir.

A.Rasizadə Azərbaycanın son illərdəki uğurları, həyata keçirilən dövlət proqramları, iri layihələr haqqında, dövlətimizin xarici siyasətinin prioritet istiqamətləri barədə də qonaqlara məlumat vermişdir.

Ukraynanın xarici işlər naziri Konstantin Qrişenko Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğuna görə məmnunluğunu bildirmiş, səfər çərçivəsində keçirdiyi görüşlərin ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyini söyləmişdir. Ukrayna Azərbaycan ilə bütün sahələrdə, o cümlədən iqtisadi, enerji təhlükəsizliyi, sənaye və digər sahələrdə əməkdaşlıq etməkdə maraqlıdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ UKRAYNALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 19-da xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Ukraynanın xarici işlər naziri Konstantin Qrişenko ilə görüşmüşdür.

Görüşdən sonra birgə mətbuat konfransı keçirən nazirlər müzakirə olunmuş məsələlər haqqında məlumat vermişlər.

E.Məmmədyarov bildirmişdir ki, bu səfər Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətləri yeni mərhələyə qaldırmağa imkan verəcəkdir. Görüşdə siyasi, iqtisadi, humanitar, energetika və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyi barədə ukraynalı qonağa məlumat verilmiş, məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının mümkünlüyü vurğulanmışdır.

Ölkəsinin Azərbaycan ilə iqtisadi sahədə əməkdaşlıqda, əsasən də enerji daşıyıcılarının nəqlində maraqlı olduğunu deyən K.Qrişenko vurğulamışdır ki, Azərbaycan ilə münasibətlər Ukrayna üçün mühüm əhəmiyyət kəsb edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan ukraynalı nazir qeyd etmişdir ki, Ukrayna bu məsələnin beynəlxalq hüququn normaları və prinsipləri, o cümlədən ölkələrin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır. Ukrayna Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasında maraqlıdır, bu, təkcə regional səviyyədə deyil, bir sıra qlobal məsələləri də həll etməyə imkan verəcəkdir.

BAKIDA 11-Cİ AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

İyulun 19-da "Park İNN-Azərbaycan" mehmanxanasında İqtisadi İnkişaf Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Alman-Azərbaycan İqtisadi Birliyinin (DAWF) təşkilatçılığı ilə 11-ci Azərbaycan-Almaniya biznes forumu keçirilmişdir.

Tədbirdə Azərbaycan və Almaniya tərəfdən hökumət rəsmiləri ilə yanaşı, kənd təsərrüfatı, qida sənayesi, alternativ enerji, maliyyə, neft-qaz, maşınqayırma, tikinti və digər sahələrdə fəaliyyət göstərən 50-ə yaxın iş adamı iştirak etmişdir.

Biznes forumun açılış mərasimində çıxış edən iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov, kənd təsərrüfatı nazirinin müavini Bəhram Əliyev, Almaniya Federativ Respublikası Federal İqtisadiyyat və Texnologiya Nazirliyinin şöbə rəhbəri Andreas Neuman, Almaniyanın Azərbaycandakı səfirinin daimi nümayəndəsi Peter Siqler, İİN-in Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımov ölkələrimiz arasında mövcud iqtisadi əlaqələr və əməkdaşlığın daha da inkişaf etdirilməsi imkanları, iş adamları arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti barədə danışmış, əlaqələrin inkişafında biznes forumların, işgüzar görüşlərin vacibliyini vurğulamışlar.

Tədbirdə AZPROMO-nun prezidenti Adil Məmmədov ölkəmizin investisiya mühiti və ixrac imkanları, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktorunun müavini Zaur Məmmədov qurumun fəaliyyəti və həyata keçirdiyi layihələr, DAWF İdarə Heyəti sədrinin müavini Aleksander Androviç isə təşkilatın Azərbaycanda fəaliyyəti barədə təqdimatlarla çıxış etmişlər.

Biznes forumu çərçivəsində tədbirdə iştirak edən Almaniya şirkətləri barədə ətraflı məlumatlar verilmiş, həmçinin iş adamları arasında ikitərəfli görüşlər keçirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİÇPAKDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Supaçay Paniçpakdini qəbul etmişdir.

Supaçay Paniçpakdi BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Azərbaycan Diplomatik Akademiyası ilə birlikdə Bakıda təşkil etdikləri Avropa və MDB üzrə növbəti XIX regional kursların keçirilməsinə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, təmsil etdiyi təşkilatın Azərbaycan Diplomatik Akademiyası ilə əməkdaşlığından məmnun olduğunu dedi. Regionun əhəmiyyətinin artdığı bir dövrdə Azərbaycanın bu regionda ən aparıcı ölkəyə çevrildiyini vurğulayan qonaq əldə olunan nailiyyətlərlə bağlı dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev Bakıda Avropa və MDB üzrə növbəti XIX regional kursların keçirilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı bu tədbirdə maraqlı müzakirələrin aparılacağına və tədbirin səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ENİ ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU PAULO SKARONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də İtaliyanın ENİ şirkətinin icraçı direktoru Paulo Skaroninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə İtaliyanın ENİ şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iyulun 20-də BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Paniçpakdi ilə görüşmüşdür.

Görüşdə BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Azərbaycan Diplomatik Akademiyası ilə birlikdə Bakıda təşkil etdikləri Avropa və MDB üzrə növbəti XIX regional kursların açılışında iştirak etmək üçün paytaxtımızda səfərdə olan baş katib ölkəmizin dinamik inkişafının şahidi olduğunu, xüsusilə qeyri-neft sektorunda böyük irəliləyişin nəzərə çarpdığını bildirmişdir.

Nazir E.Məmmədyarov ölkəmizdə bu sahədə mühüm işlərin görüldüyünü qeyd etmişdir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə qonağa məlumat vermiş, məsələnin yalnız beynəlxalq hüququn normalarına və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının mümkünlüyünü vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

ARDNŞ VƏ İTALİYANIN ENİ ŞİRKƏTİ ARASINDA MÜMKÜN ƏMƏKDAŞLIQ İMKANLARI MÜZAKİRƏ OLUNMUŞDUR

İyulun 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) baş ofisində qurumun rəhbərliyi İtaliyanın ENİ şirkətinin icraçı direktoru Paulo Skaroninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə qurumun sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov son dövrdə ENİ şirkəti ilə ARDNŞ arasında işgüzar münasibətlərin intensivləşdiyini, bu əlaqələrin Azərbaycan və İtaliya dövlətləri arasında münasibətlərin inkişafına xidmət etdiyini söyləmişdir. O, ENİ korporasiyasına daxil olan "Saipem" şirkətinin Azərbaycanda uzun müddətdir uğurla fəaliyyət göstərdiyini və ARDNŞ ilə səmərəli əməkdaşlıq etdiyini xüsusi vurğulamışdır. İyun ayında ENİ şirkətinin vitse-prezidenti Daniele De Covanninin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri çərçivəsində iki şirkəti maraqlandıran məsələlər haqqında ətraflı müzakirələrin aparıldığı qeyd olunmuşdur. ARDNŞ-in nümayəndələri bugünkü görüşün qarşılıqlı münasibətlərə yeni təkan verə-

cəyinə əmin olduqlarını söyləmişlər.

Tədbirdə bildirilmişdir ki, son illər "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" layihələri çərçivəsində və ARDNŞ-in müstəqil işlədiyi yataqlarda görülən tədbirlər nəticəsində ölkəmizdə neftin və təbii qazın hasilatı rekord səviyyədə yüksəlmişdir. Qonaqlara Azərbaycan neftinin və qazının dünya bazarlarına şaxələndirilmiş marşrutlar üzrə çıxarılmasına imkan verən ixrac neft və qaz kəmərləri sisteminin qısa müddətdə yaradıldığı və uğurla fəaliyyət göstərdiyi barədə də ətraflı məlumat verilmişdir.

Görüşdə Xəzər dənizində aparılan neft-qaz əməliyyatlarında ARDNŞ ilə ENİ şirkəti arasında mümkün əməkdaşlıq imkanları və tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARININ ƏMƏKDAŞLARINA "DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ" MEDALLARI TƏQDİM EDİLMİŞDİR

İyulun 21-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuş respublikanın diplomatik xidmət orqanlarının əməkdaşlarına medalları və təsdiqedici sənədləri təqdim etmişdir.

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmiş və hazırda Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində çalışan əməkdaşlara medallar və təsdiqedici sənədlər onların akkreditə olunduğu ölkələrdə verilmişdir.

MİLLİ MƏCLİS SƏDRİNİN MÜAVİNİ ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 21-də Milli Məclis sədrinin müavini Bahar Muradova ABŞ Milli Demokratiya İnstitutunun Avrasiya üzrə direktoru Laura Cuitin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan-ABŞ münasibətlərini yüksək qiymətləndirən Milli Məclis sədrinin müavini Bahar Muradova ölkələrimiz arasındakı əlaqələri genişləndirmək üçün daha yaxşı imkanların olduğunu qeyd etmişdir. Belə səfərlərin, aparılan müzakirələrin xüsusi əhəmiyyətini vurğulayan sədr müavini Milli Demokratiya İnstitutu ilə əməkdaşlıqdan da razılığını bildirmişdir.

Səmimi görüşə görə təşəkkürünü bildirən Laura Cuit son 15 ildə Azərbaycanda baş verən müsbət dəyişiklikləri müşahidə etməyin olduqca xoş olduğunu vurğulamışdır.

Azərbaycana səfərinin məqsədindən danışan qonaq bildirmişdir ki, ölkəmizdə olduqları müddətdə müvafiq dövlət strukturları, qeyri-hökumət təşkilatları və siyasi qurumlarla müxtəlif görüşlər keçirəcək, institut tərəfindən hazırlanan və 2010-cu ildə reallaşdırılması nəzərdə tutulan proqramlara dair fikir mübadiləsi aparacaqlar.

AZƏRBAYCAN PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ CENEVRƏYƏ SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti parlament spikerlərinin 3-cü dünya konfransında iştirak etmək üçün İsveçrənin Cenevrə şəhərində səfərdədir.

İyulun 19-da BMT-nin Cenevrədəki qərargahında bu təşkilatın Baş katibi Pan Gi Munun iştirakı ilə konfransın açılışı olmuşdur.

Tədbiri giriş sözü ilə açan Parlamentlərarası İttifaqın prezidenti Teo Den Qurirab konfransın əhəmiyyətindən və müzakirə olunacaq məsələlərdən danışmış, bunların həllində parlamentlərin rolunu xüsusi qeyd etmişdir.

BMT-nin Baş katibi Pan Gi Mun çıxış edərək konfrans iştirakçılarına uğurlar arzulamış, parlamentlərin BMT ilə əməkdaşlığının vacibliyini vurğulamışdır. Baş katib qeyd etmişdir ki, dünyamızın və zəmanəmizin təhlükələrdən xilas edilməsi, sabitliyin təmin olunması və milli münaqişələrin aradan qaldırılması, böhranlardan müdafiə və iqtisadi inkişafa nail olunması, eləcə də dünyanın silahsızlaşdırılması və nüvə təhlükəsindən qorunması işində parlamentlər fəaliyyətlərini gücləndirməli və öz töhfələrini verməlidirlər.

Sonra konfransın gündəliyi təsdiq olunmuş və müzakirələrə başlanmışdır.

İlk məruzə "Parlamentlər BMT ilə işlərini necə təşkil edirlər" mövzusunda olmuşdur.

Cənubi Afrika Respublikası parlamentinin sədri Maks Sisulu spikerlərin 2005-ci ildə keçirilmiş konfransından sonrakı inkişafa dair məruzə ilə çıxış etmiş, parlament spikerlərinin çıxışları dinlənilmişdir.

Tədbir çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov Ermənistan parlamentinin sədri Ovik Abramyanla görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparılmışdır.

İyulun 19-da Cenevrədə parlament sədrlərinin üçüncü dünya konfransı çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov Ermənistan parlamentinin sədri Ovik Abramyanla görüşmüşdür.

Görüşdə ATƏT-in Minsk qrupu həmsədrlərinin təklif etdiyi Madrid prinsipləri əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində parlamentlərin rolu məsələsi müzakirə olunmuşdur.

İyulun 20-də Qazaxıstan Senatının sədri Qasım Comərd Tokayev ilə görüşdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi məsələləri müzakirə edilmişdir. Qeyd olunmuşdur ki, tarixi köklərlə bir-birinə bağlı olan xalqlarımız ölkə başçılarının səyi və iradəsi sayəsində daha dərin münasibətlər çərçivəsində öz əlaqələrini yüksələn xətlə inkişaf etdirməkdədir.

Qazaxıstan Senatının sədri türkdilli xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsində TürkPA-nın fəaliyyətinə böyük inam bəslədiyini vurğulamış, bu qurumun Bakıda keçirilmiş tədbirlərinin yüksək səviyyədə təşkilinə görə Milli Məclisin sədrinə minnətdarlığını bildirmişdir. Q.Tokayev TürkPA-nın Qazaxıstanda nəzərdə tutulan növbəti

konfransının 2011-ci ilin martında keçirilməsinə dair Azərbaycan tərəfinin razılığını istəmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə toxunmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi barədə danışmışdır. O.Əsədov ümidvar olduğunu bildirmişdir ki, hazırda ATƏT-ə sədrlik edən Qazaxıstan münaqişənin ədalətli həllinə öz töhfəsini verəcəkdir.

Milli Məclisin sədri sonra Belarus Milli Məclisinin Respublika Şurasının sədri Anatoli Rubinov ilə görüşmüşdür. Hələ sovetlər dönəmindən möhkəm ikitərəfli əlaqələrimizin mövcudluğundan danışan Oqtay Əsədov qeyd etmişdir ki, ölkələrimiz müstəqillik əldə etdikdən sonra da bu ənənəyə sadiq qalmışdır. Bu gün dövlət başçılarımızın səyi ilə əlaqələrimiz daha da inkişaf etməkdədir. Ötən il Belarusa səfərini xatırladan Oqtay Əsədov, belə səfərlərin parlamentlərarası əlaqələrin inkişafında mühüm mərhələ açdığını söyləmişdir.

Anatoli Rubinov Belarus xalqına və dövlətinə göstərdiyi dəstəyə və köməyə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına minnətdarlığını bildirmişdir. O, Azərbaycanın Avronestdə Belarusa göstərdiyi dəstəyi xüsusilə vurğulamışdır.

Görüşdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, parlamentlərarası əlaqələr, iqtisadiyyat, ticarət, mədəniyyət və xüsusilə elm sahəsində əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

Milli Məclis sədrinin digər görüşü Lüksemburq Böyük Hersoqluğu Nümayəndələr Palatasının sədri Loran Mozar ilə olmuşdur. Oqtay Əsədov qeyd etmişdir ki, dövlətlərimiz və parlamentlərimiz arasında yaxşı ikitərəfli əlaqələr mövcuddur. Bildirilmişdir ki, yüksək səviyyədə təşkil edilən qarşılıqlı səfərlər bu əlaqələrin daha möhkəm xarakter almasında mühüm rol oynayır. Bu baxımdan Loran Mozarın Azərbaycana nəzərdə tutulan səfəri ikitərəfli və parlamentlərarası əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.

Oqtay Əsədovun Niderland Krallığı Senatının sədri Rene Van der Lindenlə görüşündə bir sıra qarşılıqlı maraq doğuran məsələlərə toxunulmuşdur. Qeyd olunmuşdur ki, Rene Van der Linden AŞPA-nın sədri olarkən həmişə ədalətli mövqe nümayiş etdirmiş, Azərbaycanın haqq işinə dəstək vermişdir.

Oqtay Əsədov Strasburqa səfərini və AŞPA-nın o zamankı sədri Rene Van der Lindenlə birgə keçirdiyi mətbuat konfransını xatırlatmışdır. Bildirilmişdir ki, həmin konfransda AŞPA sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı öz mövqeyini bildirmiş, Azərbaycanda və Ermənistanda səfərdə olarkən də həmin mövqeyində qalmışdır. Söhbət zamanı Niderland Senatında Azərbaycan parlamenti ilə dostluq qrupunun yaranması təqdirəlayiq hal kimi qeyd olunmuşdur.

Görüşdə münasibətlərimizin daha da dərinləşməsi, parlamentlərarası əlaqələrin möhkəmlənməsi, qarşılıqlı səfərlərin təşkil olunması, elm, mədəniyyət, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İyulun 21-də parlament spikerlərinin 3-cü dünya konfransda Milli Məclisin sədri Oqtay Əsədov çıxış etmişdir. Azərbaycan parlamenti adından konfrans iştirakçılarını salamlayan Oqtay Əsədov qeyd etmişdir ki, bu gün bəşəriyyət böyük sınaqlar qarşısındadır.

Dünyada maliyyə böhranı, terrorçuluq, separatizm, insan alveri, narkotiklərin qeyri-qanuni dövriyyəsi, iqlim dəyişikliyi, ərzaq və enerji təhlükəsizliyi və digər qlobal problemlər geniş vüsət almışdır. Bu problemləri yalnız dövlətlərin birgə səyləri ilə aradan qaldırmaq mümkündür. Oqtay Əsədov vurğulamışdır ki, dövlətlər arasında əməkdaşlığın zəruriliyi heç vaxt bu qədər dərindən hiss olunmamışdır.

Milli Məclisin sədri bildirmişdir ki, çağırışları dəf etmək üçün biz həm ölkələr olaraq fərdi, həm də dünya birliyi olaraq kollektiv məsuliyyət daşıyırıq. Demokratiyanın təmin edilməsi problemlərin həllində müstəsna əhəmiyyət daşıyır. Bəşəriyyətin ən dəyərli nailiyyətlərindən olan demokratiyanı parlamentsiz düşünmək mümkün deyil.

Oqtay Əsədov parlamentlərarası əməkdaşlığın və onun keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyasının əhəmiyyətini və rolunu xüsusi qeyd etmiş, konfransın yekununda qəbul olunacaq Bəyannamə layihəsinin Azərbaycan tərəfindən birmənalı dəstəkləndiyini bildirmişdir.

Milli Məclisin sədri Xorvatiya parlamentinin rəhbəri Luka Bebiç ilə də görüşmüşdür.

Görüşdə parlamentlərarası əlaqələrin inkişafı, ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, enerji təhlükəsizliyi, iqtisadiyyat, turizm, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafında parlamentlərimiz mühüm rol oynaya bilər.

Oqtay Əsədov bildirmişdir ki, Azərbaycan parlamentində Xorvatiya ilə dostluq qrupu fəaliyyət göstərir. Belə bir qrupun Xorvatiya parlamentində də olması əlaqələrimizin genişlənməsinə təkan verə bilər.

Söhbət zamanı Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar, bu təşkilatlarda ölkələrimizin təmsil olunması ilə bağlı fikir mübadiləsi aparılmış, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

Görüşdən sonra Milli Məclisin nümayəndə heyəti yenidən parlament sədrlərinin konfransına qatılmışdır.

Müzakirələrdən sonra parlament sədrlərinin 3-cü dünya konfransının Bəyannaməsi qəbul edilmiş və bununla da konfrans öz işini başa vurmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOTAL ŞİRKƏTİNİN TƏHQİQAT VƏ İSTEHSAL ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də TOTAL şirkətinin təhqiqat və istehsal üzrə prezidenti İv Lui Darrikarrerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə TOTAL şirkətinin Azərbaycanda fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA QİLAURİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Gürcüstanın Baş naziri Nika Qilaurini qəbul etmişdir.

Baş nazir Nika Qilauri Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyevin Gürcüstana son səfərinə toxunan Baş nazir bu səfər zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində qəbul edilən qərarların önəmini vurğuladı. O, ölkəmizə səfərinin əsas məqsədlərindən birinin həmin qərarların yerinə yetirilməsi ilə bağlı olduğunu qeyd etdi.

Batumidə danışıqların yekunları ilə bağlı hökumətə müvafiq tapşırıqlar verdiyini bildirən dövlətimizin başçısı Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının iclaslarında bu məsələlərin həllinin reallaşacağına ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN 6-CI İCLASI KEÇİRİLMİŞDİR

İyulun 23-də Azərbaycanın Baş naziri Artur Rasizadə ilə ölkəmizdə səfərdə olan Gürcüstan hökumətinin başçısı Nika Qilauri arasında görüşdən sonra Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyanın 6-cı iclası keçirilmişdir.

A.Rasizadə Azərbaycan ilə Gürcüstan arasında uğurla inkişaf edən əlaqələrdən bəhs edərək demişdir ki, hökumətlərarası iqtisadi komissiyanın işi qarşılıqlı faydalı əlaqələrin inkişafına sanballı töhfələr verir. İkitərəfli münasibətlərimiz digər ölkələrə də nümunə ola bilər. Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi ötən il 454,9 milyon ABŞ dolları təşkil etmişdir. Bu ilin yanvar-may aylarında bu rəqəm 175,4 milyon dollar olmuşdur. Vurğulanmışdır ki, ölkələrimiz arasında nəqliyyat dəhlizinin səmərəliliyinin artırılmasına böyük diqqət yetirilir.

Qlobal maliyyə böhranı şəraitində Azərbaycan iqtisadiyyatının dinamik inkişafından söhbət açan A.Rasizadə qeyd etmişdir ki, keçən il ölkəmizdə iqtisadiyyatın artımı 9,3 faiz olmuş, bundan əlavə sosial sahədə çoxsaylı dövlət proqramları qəbul edilmiş, regionlarda infrastruktur layihələri həyata keçirilmişdir.

Qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Artur Rasizadə bildirmişdir ki, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından problem hələ də həllini tapmamışdır.

Gürcüstanın Baş naziri Nika Qilauri ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan münasibətləri yüksək qiymətləndirmiş, siyasi, iqtisadi və humanitar sahələrdə bu əlaqələrin daha da dərinləşəcəyinə əmin olduğunu söyləmişdir. Qeyd olunmuşdur

ki, Azərbaycandan Gürcüstan iqtisadiyyatına qoyulan investisiyaların məbləği ildən-ilə artır. Bu gün Gürcüstanda Azərbaycan kapitalının iştirakı ilə 170-dək şirkət qeydiyyatdan keçmişdir.

İclasda ticarət, enerji, nəqliyyat, rabitə, humanitar, kənd təsərrüfatı, sərhəd və gömrük, ətraf mühitin mühafizəsi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Azərbaycan-Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 6-cı iclası başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi keçirilmişdir.

Azərbaycanın Baş naziri Artur Rasizadə və Gürcüstan hökumətinin başçısı Nika Qilauri Azərbaycan Respublikası ilə Gürcüstan arasında nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması haqqında Anlaşma Memorandumunu və iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyanın 6-cı iclasının yekun protokolunu imzaladılar.

* * *

İmzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında Artur Rasizadə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi barədə məlumat verərək demişdir ki, layihə həyata keçirilərkən əlavə işlərin yaranması ilə bağlı müəyyən ləngimələr olmuşdur. İlkin mərhələdə nəzərdə tutulan işlərin həcmi 200 milyon ABŞ dolları məbləğində nəzərdə tutulurdusa, əlavə işlərin yaranması ilə əlaqədar hazırda bu rəqəm artmışdır. Bununla belə, işlərə daha çox texnikanın, insan qüvvəsinin cəlb olunması ilə qısa zamanda bu layihənin yekunlaşmasına nail olunmağa qərar verilmişdir.

Əlavə yük axınını cəlb etmək, Azərbaycan ilə Gürcüstan arasında tranzit dəhlizinin rəqabətə davamlılığını artırmaq məqsədi ilə yaradılacaq işçi qrupunun məqsədi və fəaliyyəti ilə bağlı sualı cavablandıran A.Rasizadə demişdir ki, regionun iqtisadi imkanları artdıqca yükdaşımaların daha sürətli həyata keçirilməsi tələb olunur. Bu gün yüklərin sürətli daşınması məhsulun və istehsalçıların rəqabətə davamlılığının əsas faktorlarından biridir. Buna nail olmaq üçün yeni əlaqələndirici şuranın yaradılmasına ehtiyac var idi. Bu məsələnin həlli hər iki ölkə üçün böyük əhəmiyyətə malikdir.

N.Qilauri isə demişdir ki, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq əsasən energetika və nəqliyyat sahələrini əhatə edir. Bu gün Azərbaycan Dövlət Neft Şirkəti Gürcüstanda ən böyük sərmayə yatıran və ən çox vergi ödəyən şirkətlərdən biridir.

Gürcüstanın Baş naziri kənd təsərrüfatı sahəsində ikitərəfli əməkdaşlıq üçün yaxşı potensialın olduğunu da söyləmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ZƏFƏR ÇAĞLAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 28-də Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağ-

layanın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini bildirmişdir. Ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev bu əlaqələri daha da genişləndirmək üçün imkanların mövcudluğunu vurğulamışdır. Nazirlə birlikdə türkiyəli iş adamlarının da ölkəmizə səfər etməsinə toxunan dövlətimizin başçısı bunun yerli iş adamları ilə birgə fəaliyyət qurmaq və əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından önəmli olduğunu demişdir.

Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayan Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırmışdır. O, Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan böyük inkişaf proseslərinin bu gün uğurla davam etməsindən məmnun olduğunu bildirmişdir. Bir il əvvəl ölkəmizə səfərini xatırlayan Zəfər Çağlayan ötən dövr ərzində şəhərdə yeni-yeni gözəl binaların tikildiyinin, geniş yolların salındığının və Bakıda dünyanın heç bir ölkəsində olmayan yüksəlişin şahidi olduğunu qeyd etmişdir. 2009-cu ildə dünyada baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatının 9 faiz artdığını vurğulayan qonaq ölkəmizin inkişafından qürur duyduqlarını demiş və əldə edilən yüksək nailiyyətlərə görə dövlətimizin başçısını təbrik etmişdir.

Xoş sözlərə görə qonağa təşəkkür edən dövlətimizin başçısı ölkəmizdə böyük inkişaf proseslərinin getdiyini vurğulayaraq bildirmişdir ki, Azərbaycanın uğuru Türkiyənin, Türkiyənin uğuru isə Azərbaycanın uğurudur. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etmişdir.

BAŞ NAZİR TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 28-də Azərbaycanın Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Türkiyənin xarici ticarət üzrə dövlət naziri Zəfər Çağlayan ilə görüşmüşdür.

Artur Rasizadə qarşılıqlı səfərlərin siyasi-iqtisadi və humanitar sahələrdə yüksək səviyyədə olan ikitərəfli əlaqələrimizin inkişafına daha böyük təkan verəcəyinə əminliyini diqqətə çatdırmışdır.

Dövlətlərimiz arasında münasibətlərin səviyyəsindən məmnunluqla danışan Baş nazir A.Rasizadə Türkiyəni Azərbaycanın ən yaxın tərəfdaşı adlandıraraq qloballaşan dünyada hər iki ölkənin daha fəal əməkdaşlığını vacib saymışdır.

Türkiyənin xarici ticarət üzrə dövlət naziri Zəfər Çağlayan səmimi qəbula görə təşəkkürünü bildirərək ölkələrimizin sarsılmaz tellərlə bağlı olduğunu vurğulamışdır.

Ötən il Bakıya etdiyi səfərini xatırladan qonaq burada gördüyü inkişafın onu valeh etdiyini söyləmişdir. Bildirmişdir ki, dünyanı bürümüş iqtisadi və maliyyə böhranı şəraitində Azərbaycanın sürətli inkişafını görmək bizi sevindirir. Azərbaycanın Cənubi Qaf-

qazda ən güclü dövlət olmasını bütün dünya təsdiq edir.

Z.Çağlayan iqtisadi və ticarət sahələrində əməkdaşlığı daha da inkişaf etdirməkdə, habelə Türkiyə və Azərbaycan iş adamlarının üçüncü ölkələrdə birgə fəaliyyətində maraqlı olduqlarını nəzərə çarpdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İQTİSADİ İNKİŞAF NAZİRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycana səfərə gəlmiş Türkiyənin xarici ticarət üzrə dövlət naziri Zəfər Çağlayan iyulun 28-də Bakı Biznes Mərkəzində Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayevlə görüşmüşdür.

Görüşdə Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilmişdir.

Türkiyə nümayəndə heyəti mərkəzdə ölkəmizin sosial, mədəni və digər sahələrdəki inkişafını əks etdirən sərgi ilə tanış olmuşdur. Sərgidə Dövlət Neft Şirkəti, Bakı Metropoliteni, "Azərsu " Açıq Səhmdar Cəmiyyəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, Naxçıvan Muxtar Respublikası, bir sıra nazirliklər, Heydər Əliyev Fondu tərəfindən yaradılmış portal (www.azerbaijan.az) və digər sahələrlə bağlı guşələr vardır, həmin sahələrin inkişafını əks etdirən fotostendlər və maketlər nümayiş olunur.

İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 28-də rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əli Abbasov ölkələrimiz arasında informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulamış, bu istiqamətdə Türkiyə şirkətlərini maraqlandıracaq milli və beynəlxalq proqramlar barədə ətraflı məlumat vermişdir.

Nazir Azərbaycanda yaradılması nəzərdə tutulan regional innovasiya zonaları, Şərq-Qərb super informasiya magistralı, Azərbaycanın telekommunikasiya peykinin buraxılması layihələrini diqqətə çatdırmışdır.

Zəfər Çağlayan Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş böyük inkişaf proseslərinin bu gün uğurla davam etdirilməsindən məmnunluğunu bildirmişdir.

Qonaq Azərbaycanda informasiya-kommunikasiya sektorunda aparılan islahatları, son dövrlərdə həyata keçirilən layihələri yüksək qiymətləndirmişdir. Z.Çağlayan ölkələrimiz arasında İKT sahəsində işbirliyi qurulması üçün mümkün variantlar barədə də danışmışdır.

YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

İyulun 28-də YUNESKO-nun baş direktoru xanım İrina Bokova Azərbaycana səfərə gəlmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda hörmətli qonağı mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar YUNESKO-nun baş direktoruna gül dəstəsi təqdim etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 29-da YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı qəbul etmişlər.

YUNESKO-nun baş direktoru xanım İrina Bokovanı Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva qarşılamışdır.

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın YUNESKO-nun baş direktoru xanım İrina Bokova ilə görüşü olmuşdur.

Dövlətimizin başçısı YUNESKO-nun baş direktoru xanım İrina Bokovanın ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirmişdir. Xanım İrina Bokovanın YUNESKO-nun baş direktoru kimi ilk səfərlərindən birini ölkəmizə etməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev onu bu yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etmiş və fəaliyyətində uğurlar arzulamışdır. Son zamanlar həyata keçirilən birgə işlərə toxunan dövlətimizin başçısı bu müsbət meyillərin davam edəcəyinə, Azərbaycan ilə YUNESKO arasında fəal əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir.

Xanım İrina Bokova YUNESKO-nun baş direktoru kimi fəaliyyətinin əvvəlində ölkəmizə səfər etməsinin önəmini vurğulamışdır. YUNESKO ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlığın olduğunu qeyd edən İrina Bokova rəhbərlik etdiyi təşkilatda YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya hamının çox böyük hörmətlə yanaşdığını demişdir. O, Mehriban xanım Əliyevanın fəaliyyətinin mədəniyyət, musiqi, adət-ənənə, irs kimi ən əhəmiyyətli sahələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirmişdir.

Prezident İlham Əliyev YUNESKO ilə birgə həyata keçirilən layihələrin əhəmiyyətinə toxunaraq bu istiqamətdə mühüm planların olduğunu demişdir. Dövlətimizin başçısı YUNESKO-nun baş direktorunun ölkəmizə səfərinin əməkdaşlığımızın inkişafına yeni təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Sosialist İnternasionalının baş katibi Luis Ayalanı qəbul etmişdir.

Sosialist İnternasionalının baş katibi Luis Ayala Azərbaycana ilk dəfə 2007-ci ildə səfər etdiyini vurğulayaraq budəfəki səfəri zamanı o vaxtdan ötən dövr ərzində Bakı şəhərində, ölkəmizdə böyük inkişaf proseslərinin şahidi olduğunu demişdir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Sosialist İnternasionalı kimi mühüm təşkilatın rəhbərinin ölkəmizə səfərini yüksək qiymətləndirmiş və Azərbaycanın bu təşkilatla əməkdaşlığının bundan sonra da davam edəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə Sosialist İnternasionalı təşkilatı ilə ölkəmiz arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ TÜRKPA-NIN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 29-da Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) baş katibi Ramil Həsənov Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşlər.

Görüşdə "Azərbaycan Respublikası Hökuməti və TÜRKPA Katibliyi arasında yerləşmə haqqında" Sazişin qısa müddətdə imzalanması, Azərbaycan parlamentində təsdiqi və qüvvəyə minməsi, Milli Məclisdə katibliyin ofislə təmin olunması yüksək qiymətləndirilmişdir.

R.Həsənov TürkPA-nın beynəlxalq əlaqələrindən danışmış, ATƏT PA, AŞPA, NATO PA, Avropa Parlamenti, Cənubi Avropa Ölkələrinin Parlament Assambleyası, MDB PA, İKT PA, Beynəlxalq Parlamentlər Birliyi, Beynəlxalq Parlamentlərin Baş Katiblərinin Assosiasiyası, QDİƏT PA, Asiya Təhlükəsizlik və Əməkdaşlıq Şurası və digər beynəlxalq təşkilatlarla əlaqələr qurulduğunu, bəzi təşkilatlarda TürkPA-ya müşahidəçi statusunun verildiyini bildirmişdir.

Bildirilmişdir ki, avqustun sonunda TürkPA nümayəndə heyətinin Qırğızıstana səfəri nəzərdə tutulmuşdur. Keçiriləcək görüşlərdə bu ölkənin TürkPA-dakı fəaliyyəti, oktyabrın sonunda Qırğızıstanda parlament seçkilərində beynəlxalq müşahidəçi qismində TürkPA-nın iştirakı ilə bağlı danışıqlar aparılacaqdır. Sentyabrda isə TürkPA nümayəndə heyəti Türkmənistana gedəcəkdir. Bu səfər çərçivəsində Türkmənistan parlamentinin rəhbərliyinə Assambleyanın birillik fəaliyyəti ilə bağlı məlumat veriləcək, Türkmənistanın da yaxın gələcəkdə TürkPA-ya qoşulması məsələsi müzakirə olunacaqdır.

TürkPA-nın beynəlxalq təşkilat kimi, sentyabrın 12-də Türkiyədə keçiriləcək referendumda, noyabrın 7-də isə Azərbaycanda parlament seçkilərində beynəlxalq müşahidəçi statusu ilə iştirakı barədə də fikir mübadiləsi aparılmışdır.

Qeyd edilmişdir ki, TürkPA-nın növbəti ümumi sessiyası 2011-ci ilin martında Qazaxıstanın Astana şəhərində keçiriləcəkdir. Bu sessiyada 3 daimi komitə yaradılacaq, daimi

komitələrin sədrləri, müavinləri və üzvləri seçiləcək, komitə katibləri təyin olunacaq, TürkPA-nın 2011-2012-ci illər üçün fəaliyyət proqramı, Assambleyanın gerbi və atributları haqqında qərar qəbul olunacaqdır.

Baş katib xarici ölkələrə səfərləri zamanı Azərbaycanın diplomatik missiyaları tərəfindən Assambleyanın nümayəndə heyətinə hərtərəfli dəstəyinə görə Xarici İşlər Nazirliyinə minnətdarlığını bildirmişdir.

E.Məmmədyarov Azərbaycan hökuməti və Xarici İşlər Nazirliyi tərəfindən həm ölkə daxilində, həm Azərbaycan diplomatik missiyaları vasitəsilə ölkə xaricində TürkPA-nın fəaliyyətinə dəstək veriləcəyini bildirmişdir.

YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA BAKIDA MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Azərbaycanda səfərdə olan YUNESKO-nun baş direktoru xanım İrina Bokova iyulun 29-da Müasir İncəsənət Muzeyində olmuşlar.

YUNESKO-nun baş direktoru İrina Bokova Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etmişdir.

Qonağa məlumat verilmişdir ki, buradakı ekspozisiyanın əsasını XX əsrin ikinci yarısından bu günədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Bildirilmişdir ki, muzeyin beynəlxalq əlaqələri də genişlənir. Bu mədəniyyət ocağı 2011-ci ildə 47 ölkənin təmsilçisinin qatılacağı Avropa müasir incəsənət muzeylərinin müsabiqəsində iştirak etmək niyyətindədir.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil edilmiş bir çox fırça ustası və heykəltəraşın əsərləri ilə tanış olmuşdur.

YUNESKO-nun baş direktoru muzeydə Mehriban xanım Əliyevanın mayın sonlarında Bakıda keçirilmiş "Qız qalası" Beynəlxalq incəsənət festivalına təqdim etdiyi əsərə maraqla tamaşa etmişdir.

Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan bu mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir.

Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunəsi də nümayiş etdirilir.

İrina Bokova muzeyin kitabxanası ilə də tanış olmuşdur. Bildirilmişdir ki, burada incə-

sənət mövzusunda 800-dək kitab toplanmışdır. Muzeyin kitabxanasından hər kəs abunə yazılmaqla istifadə edə bilər.

Qonaq muzeyin xatirə kitabına ürək sözlərini yazmışdır.

İrina Bokovaya xatirə hədiyyəsi təqdim olunmuşdur.

YUNESKO-nun baş direktoru muzeyin əməkdaşlarına təşəkkürünü bildirərək, buradan zəngin təəssüratlarla ayrılmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ OLMUŞ, XALÇA MUZEYİ BİNASININ ESKİZİ İLƏ MARAQLANMIŞLAR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva və ölkəmizə səfərə gələn YUNESKO-nun baş direktoru xanım İrina Bokova iyulun 29-da Beynəlxalq Muğam Mərkəzi ilə tanış olmuşlar.

Mehriban xanım Əliyevaya və xanım İrina Bokovaya gül dəstələri təqdim olundu.

YUNESKO-nun baş direktoruna dənizkənarı Milli Parkda yerləşən Mərkəz haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu Mərkəzin inşası Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. 2005-ci ilin avqustunda Prezident İlham Əliyevin və ölkəmizin birinci xanımı Mehriban Əliyevanın, YUNESKO-nun sabiq baş direktoru Koişiro Matsuuranın iştirakı ilə təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun dünya qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Mərkəz ilə yaxından tanış olan qonaq burada Azərbaycanın görkəmli muğam ifaçılarının büstlərinə baxdı və ona milli musiqi alətləri barədə ətraflı məlumat verildi.

Xanım İrina Bokova və Mehriban xanım Əliyeva gənc xanəndələrin ifasında Azərbaycanın muğam, təsnif və xalq mahnılarını dinlədilər.

* * *

Sonra Mehriban xanım Əliyeva və xanım İrina Bokova Dənizkənarı Milli Parkın ərazisində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi binasının inşa olunduğu ərazıyə gəldilər. Mehriban xanım Əliyeva və İrina Bokova muzeyin maketi ilə tanış oldular, binanın layihəsinə baxdılar.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev tikinti işləri barədə məlumat verdi.

Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və YUNESKO-nun birgə layihəsi əsasında inşa olunan muzey binası ilk növbədə, milli memarlıq ənənələrinə görə

fərqlənəcəkdir.

Bildirildi ki, çox qeyri-adi bir forma - "bükülmüş xalça" muzeyin memarlıq quruluşunun əsasında dayanmaqla binanın orijinallığını təşkil edəcəkdir. Binanın inşasında məhz bu tikili üçün hazırlanan xüsusi avadanlıqdan istifadə olunur. Muzeyin ətrafında geniş yaşıllaşdırma işləri aparılacaqdır.

Binanın birinci mərtəbəsində qədim xalça və digər məişət əşyalarının yaşını müəyyən etmək üçün laboratoriya, xalçaların bərpası otaqları, ikinci mərtəbədə mərasimlər və audiovizual təqdimatlar salonu, xalça toxunan otaq, üçüncü mərtəbədə isə açıq və bağlı sərgi salonları olacaqdır. Eksponatların saxlanması üçün xüsusi yerlər, mərkəzi anbar da fəaliyyət göstərəcəkdir. Muzeydə 200 nəfər çalışacaqdır.

Qonağa "Venesiya şəhərciyi" adlanan ərazidə inşa olunacaq Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin eskiz layihəsi də göstərildi. Bildirildi ki, eskizin üst görünüşündə Azərbaycanın dövlət himninin notları əks olunmuşdur. Qeyd edildi ki, işçi layihəni bu ilin sonunadək başa çatdırmaq, gələn il isə inşaat işlərinə başlamaq nəzərdə tutulmuşdur. Muzey binasının inşası başa çatdıqdan sonra Milli Parkın bu ərazisi Beynəlxalq Muğam Mərkəzi və Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi ilə birgə "mədəniyyət üçbucağı"na çevriləcəkdir.

YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA: "AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQA NÜMUNƏDİR"

Ölkəmizdə səfərdə olan YUNESKO-nun baş direktoru xanım İrina Bokova iyulun 29-da YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının üzvləri ilə görüşmüşdür.

Komissiyanın sədri, xarici işlər naziri Elmar Məmmədyarov YUNESKO-nun baş direktorunu bu yüksək vəzifəyə seçilməsi münasibətilə görüşün iştirakçıları adından təbrik etmiş və ona fəaliyyətində uğurlar arzulamışdır.

Azərbaycanda YUNESKO ilə birgə həyata keçirilən layihələrin əhəmiyyətindən danışan E.Məmmədyarov bu mötəbər təşkilat ilə ölkəmiz arasında əməkdaşlığın inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi vurğulamışdır.

Bildirilmişdir ki, məhz bu uğurlu əməkdaşlığın sayəsində mədəni irsin mühafizəsi istiqamətində bir neçə mühüm layihə həyata keçirilmişdir.

Komissiyanın üzvü, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev demişdir ki, YUNESKO-nun baş direktorunun ölkəmizə səfəri Azərbaycan ilə təşkilat arasında əlaqələrin inkişafına yeni təkan verəcəkdir. Nazir bildirmişdir ki, gələn ilin aprelində Bakıda mədəniyyətlərarası dialoq üzrə yüksək səviyyəli forum keçiriləcəkdir. YUNESKO da bu forumun keçirilməsini dəstəkləyir.

Azərbaycanın ilk dəfə olaraq YUNESKO-nun qeyri-maddi irs komitəsinə üzv seçildiyini vurğulayan Ə.Qarayev, bunun ölkəmiz ilə təşkilat arasında əməkdaşlıqda yeni mərhələnin açdığını demişdir.

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, ekologiya və təbii sərvətlər

naziri Hüseynqulu Bağırov, gənclər və idman naziri Azad Rəhimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Nailə Vəlixanlı, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov təmsil etdikləri qurumların YUNESKO ilə əməkdaşlığının müxtəlif istiqamətlərindən danışmışlar.

Ölkəmizin mədəniyyətlərarası dialoqa nümunə olduğunu vurğulayan YUNESKO-nun baş direktoru İrina Bokova demişdir ki, son illər dinamik inkişaf edən Azərbaycan maddi və qeyri-maddi mədəni irsin qorunmasını əsas prioritet istiqamətlərdən biri kimi elan etmişdir.

Azərbaycanın YUNESKO-nun bütün orqanları və bölmələri ilə sıx əməkdaşlığından məmnunluğunu bildirən İ.Bokova rəsmi Bakının mədəni irs nümunələrinin YUNESKO-nun siyahısına daxil edilməsi üçün göstərilən səyləri yüksək qiymətləndirmiş, ölkəmizin təşkilatın bir çox konvensiyasına qoşulduğunu xatırlatmışdır.

Ölkəmiz ilə rəhbərlik etdiyi təşkilat arasındakı əməkdaşlığı yüksək qiymətləndirən İ.Bokova Azərbaycanın mədəni irsinin təbliğ olunmasında, inkişafında Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərindən danışmışdır. Baş direktor vurğulamışdır ki, birgə fəaliyyətin nəticəsində mədəni irsin qorunması istiqamətində mühüm uğurlar əldə olunmuşdur.

İ.Bokova bildirmişdir ki, cari ilin noyabrında Keniyada YUNESKO-nun qeyri-maddi irs üzrə komitəsinin iclası keçiriləcəkdir. İclasda Azərbaycan xalçasının qeyri-maddi irs siyahısına daxil edilməsi ilə bağlı Azərbaycan hökumətinin təklifi də müzakirə olunacaqdır: "Ümid edirəm ki, Azərbaycan xalçası da bu siyahıya daxil ediləcəkdir. Çünki ekspertlər sizin hökumətinizin təklifinə çox müsbət yanaşırlar".

YUNESKO-nun baş direktoru mədəni irsin qorunması məsələsində tutduğu fəal mövqeyə görə Azərbaycana minnətdarlığını bildirmişdir.

DGK-NİN SƏDRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

İyulun 29-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Azərbaycanda səfərdə olan Türkiyənin xarici ticarət məsələləri üzrə dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

A.Əliyev bildirmişdir ki, Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə, o cümlədən gömrük sahəsində əlaqələrimiz uğurla inkişaf edir. Cari ilin birinci yarısında Türkiyə Rusiyadan sonra ikinci idxalçı ölkədir. 2004-cü illə müqayisədə Türkiyədən idxal olunan məhsullar 4 dəfə artmışdır. 2005-ci illə müqayisədə isə 3 dəfə artmışdır. Türkiyə bazarı Azərbaycanda mühüm yer tutur.

Z.Çağlayan vurğulamışdır ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi və ticari əlaqələri daha da genişləndirmək niyyətindəyik. İki ölkə arasında xarici ticarət dövriyyəsinin 2,2 milyard dollar həcmində olduğunu bildirən dövlət naziri bunun kifayət etmədiyini və qısa vaxt ərzində 5 milyard dollara çatdırılmasının zəruriliyini bildirmişdir. Diqqətə

çatdırmışdır ki, Azərbaycanda gedən sürətli inkişafdan çox məmnunam. Bakı gündən-günə gözəlləşir. Bakını görəndə həqiqətən heyran qaldım. Ötən bir il içində küçələr, yollar yüksək səviyyədə təmir edilmiş, gözəl, müasir binalar tikilmişdir. Bu gün Bakı dünyanın ən modern şəhərlərindən birinə çevrilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU KEÇİRİLMİŞDİR

İyulun 29-da Bakı Biznes Mərkəzində iqtisadi inkişaf naziri Şahin Mustafayevin və Türkiyənin xarici ticarət məsələləri üzrə dövlət naziri Zəfər Çağlayanın iştirakı ilə Azərbaycan-Türkiyə biznes forumu keçirilmişdir.

Əvvəlcə Azərbaycan haqqında qısa film nümayiş etdirilmişdir.

Şahin Mustafayev 100-dən artıq iş adamından və rəsmi şəxslərindən ibarət Türkiyə nümayəndə heyətinin səfərinin ölkələrimiz arasında mövcud çoxşaxəli əməkdaşlığa yeni töhfə verəcəyinə əmin olduğunu bildirmişdir. Nazir demişdir ki, Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir, təkcə iqtisadi sahədə əməkdaşlığa dair 23 sənəd imzalanmışdır. Bu sənədlər əlaqələrimizin hüquqi təməlini təşkil edir.

İqtisadi əməkdaşlıq sahəsində görülmüş işlərdən danışan Ş.Mustafayev demişdir ki, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələri xüsusi əhəmiyyət kəsb edir. Bu layihələr təkcə ölkələrimizin yox, həm də Avropanın və digər regionların enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu yaxınlarda ARDNŞ ilə Türkiyənin Botaş şirkəti arasında imzalanmış müqavilə Azərbaycan qazının Türkiyəyə və Avropanın digər ölkələrinə satışını, Naxçıvana yeni qaz kəmərinin çəkilişini həyata keçirməyə imkan verir. Ölkələrimizin böyük tranzit potensialı vardır. Hazırda çəkilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yolu nəinki Türkiyə ilə Azərbaycanı, həm də Avropa ilə Asiyanı birləşdirəcəkdir. Bu gün 1000-dən çox Türkiyə şirkəti Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində uğurla fəaliyyət göstərir, 2002-ci ildən bəri bu şirkətlər tərəfindən iqtisadiyyatımıza davamlı sərmayə yatırılır.

Ş.Mustafayev Azərbaycanın xarici sərmayəçilər üçün cəlbediciliyini qeyd etmiş, bunun başlıca səbəbinin mövcud siyasi sabitlik, əlverişli biznes və investisiya mühiti olduğunu vurğulamış, beynəlxalq təşkilatlar tərəfində yüksək qiymətləndirilən iqtisadi islahatlar sayəsində qazanılmış uğurlardan danışmışdır. Məlumat vermişdir ki, hazırda Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir.

İqtisadi inkişaf naziri Ermənistanın blokadaya aldığı Naxçıvana Türkiyənin dəstəyini yüksək qiymətləndirmişdir.

Ş.Mustafayev bildirmişdir ki, son illər Azərbaycan iqtisadiyyatının sürətli inkişafı yeni istiqamətlər açmışdır və yüzlərlə Azərbaycan şirkəti xarici ölkələrdə, o cümlədən Türkiyədə çalışır və müxtəlif sahələrə sərmayələr yatırırlar. Buna misal olaraq ARDNŞ-in Türkiyənin neft-kimya sahəsində və Gürcüstandakı geniş fəaliyyətini göstərmək olar. Yeri gəlmişkən, ARDNŞ Gürcüstanda ən iri investor və ən iri vergi ödəyicisidir. Həm Azərbaycanın, həm də Türkiyənin artan iqtisadi potensialını nəzərə alaraq hesab edirəm

ki, bizə dost olan ölkələrə birgə sərmayə qoymağın, müştərək layihələr həyata keçirməyin, birgə investisiya fondlarının yaradılmasının zamanı çatmışdır. Qeyri-neft sektorunda, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması, saxlanması, daşınması, İKT, tranzit daşımaları, xidmət, turizm sahələrində əməkdaşlıq və qarşılıqlı səmərə üçün geniş imkanlar mövcuddur.

Türkiyənin dövlət naziri Zəfər Çağlayan iqtisadi əməkdaşlıq sahəsində böyük potensial olduğunu təsdiq etmişdir. Bildirmişdir ki, Azərbaycan ilə Türkiyə arasında illik ticarət dövriyyəsinin həcmini 5 milyard ABŞ dollarına çatdırmaq mümkündür.

Dövlət nazirinin sözlərinə görə, hazırda azərbaycanlı iş adamları Türkiyəyə 3 milyard dollardan çox sərmayə qoymuşlar. Bu rəqəmin bir neçə dəfə artacağı gözlənilir. Türk iş adamları isə Azərbaycana 6 milyard dollardan çox sərmayə qoymuşlar. Qonaq Azərbaycana səfəri çərçivəsində keçirdiyi görüşlərin çox məhsuldar olduğunu diqqətə çatdırmışdır.

Tədbirdə AZPROMO-nun prezidenti Adil Məmmədov, Azərbaycan-Türkiyə İşgüzar Şurasının rəhbəri Cengiz Gül, Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyinin nümayəndəsi Orxan Novruzov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının sədri Məmməd Musayev, Türkiyənin İxracatçılar Məclisi direktorunun müavini Bülent Aymen, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Əfqan İsayev və başqaları çıxış etmişlər.

Biznes forum çərçivəsində ikitərəfli görüşlər keçirilmişdir.

QƏBƏLƏ İKİNCİ BEYNƏLXALQ MUSİQİ FESTİVALININ TƏNTƏNƏLİ RƏSMİ AÇILIŞI OLMUŞDUR

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qəbələdə keçirilən İkinci Beynəlxalq musiqi festivalının iyulun 30-da təntənəli rəsmi açılışı olmuşdur.

Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan YUNESKO-nun baş direktoru xanım İrina Bokova mərasimdə iştirak etmişlər.

Mərasim iştirakçıları dövlətimizin başçısını, xanımını və YUNESKO-nun baş direktorunu hərarətlə qarşılamışlar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva festivalın açılışında çıxış etmişdir.

MEHRİBAN XANIM ƏLİYEVANIN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Hörmətli xanım baş direktor!

Əziz qonaqlar!

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Qəbələdə sizi səmimi qəlbdən salamla-

yıram. Qəbələ təkcə Azərbaycanın yox, dünyanın ən gözəl guşələrindən biridir. Qəbələnin zəngin tarixi və əsrarəngiz təbiəti vardır. Yeni eranın əvvəlində Qəbələ dünyanın ən qədim sivilizasiyalarından biri olan Qafqaz Albaniyasının paytaxtı idi. Əsrlər boyu burada müxtəlif dillərdə danışan, müxtəlif dinlərə, fərqli ənənələrə və mədəniyyətə malik olan insanlar yaşayıb. Təbii ki, hər bir dövr, hər bir mədəniyyət burada öz izini qoyub. Qəbələ torpağına qədəm qoyan hər bir insan tarixin nəfəsini, əsrlərin ruhunu duyub hiss edir. Zaman keçdikcə dövlətlər, sivilizasiyalar, xalqlar və millətlər yaranır və yox olurdu. Dəyişməyən, əbədi olan bu dağların möhtəşəmliyi, çay və bulaqların aramsız axarı və əsrlərin şahidi olan ağacların səmaya doğru ucalmasıdır. Qəbələnin füsunkar təbiətinin özü elə bil ki, təkrarsız bir musiqi əsəri yaradır və bizləri bu əsəri dinləməyə dəvət edir.

Bu gün dünya xəritəsində Qafqaz Albaniyası artıq yoxdur. Lakin Qəbələ bu gün yenə də paytaxtdır - mədəniyyət, musiqi paytaxtı. Qəbələ Beynəlxalq musiqi festivalı artıq gözəl bir ənənəyə çevrilib. Bu festival günləri bu səhnədə dahi Azərbaycan və dünya bəstəkarlarının əsərləri səslənəcəkdir. Gənc ifaçılarla yanaşı, dünya şöhrətli musiqiçilər bu səhnəyə çıxacaqlar. Kamera, klassik, folklor, caz musiqisi səslənəcək, bölgədə olan musiqi məktəblərinin şagirdləri ilə ustad dərsləri keçiriləcək, peşəkarlıq əməkdaşlığı yaranacaqdır. Bir sözlə, bütün bu günlər bizim hamımızı - həm tamaşaçıları, həm ifaçıları bir amil - musiqi birləşdirəcəkdir. Musiqinin dili tərcümə tələb etmir. Bu dil millətdən, dindən asılı olmayaraq hər kəs üçün aydındır.

Azərbaycan öz musiqi mədəniyyəti ilə hər zaman fərqlənir və Heydər Əliyev Fondu öz növbəsində, ölkəmizin musiqi irsinin qorunub saxlanması və təbliği yolunda bir sıra iri layihələr həyata keçirir. Mən bu sırada Beynəlxalq muğam festivalı, Mstislav Rostropoviç adına musiqi festivalı, Üzeyir Hacıbəyli, Dmitri Şostakoviç, Bülbül kimi dahi bəstəkarlar və ifaçıların yubileylərinə həsr olunmuş festivalları vurğulamaq istərdim. Qəbələ Beynəlxalq musiqi festivalı Azərbaycan və dünya musiqisinin, mədəni dəyərlərin qorunub saxlanmasında Heydər Əliyev Fondu tərəfindən atılan növbəti bir addımdır.

Bu gün mən xanım Bokovaya dərin minnətdarlığımı çatdırmaq istəyirəm. Xanım Bokova YUNESKO-nun baş direktoru vəzifəsində öz ilk səfərləri sırasında ölkəmizə gəlib və bu gün bizimlə Qəbələ festivalında iştirak edir. Azərbaycan ilə YUNESKO arasında çox sıx əməkdaşlıq mövcuddur. Son illər Heydər Əliyev Fondunun iştirakı və YUNESKO-nun dəstəyi ilə bir sıra iri layihələr artıq reallaşdırılıb. Mən bu sırada Beynəlxalq Muğam Mərkəzinin yaradılması, Beynəlxalq muğam festivalının keçirilməsi, mədəni və tarixi abidələrin bərpası, təhsil sahəsində olan layihələri vurğulamaq istərdim. Mən ümidvaram ki, xanım Bokovanın ölkəmizə səfəri bu əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.

Cənab Prezident, gərgin iş qrafikinizə baxmayaraq bu gün burada olduğunuza görə Sizə minnətdaram. Mən əminəm ki, Sizin dəstəyiniz festivalın bütün iştirakçıları, xüsusilə də gənc ifaçılar üçün həddindən artıq önəmlidir.

Festivalda iştirak etmək üçün dünyanın müxtəlif yerlərindən ölkəmizə gələn bütün qonaqları, istedadlı ifaçıları, musiqiçiləri səmimi qəlbdən salamlayıram və onlara təşəkkürümü bildirirəm. Bu musiqi bayramı ilk növbədə, sizin sayənizdə baş verir və mən sizin hamınıza Azərbaycana "Xoş gəlmisiniz" deyirəm.

Festivalın təşkilində əməyi olan hər bir insana, o cümlədən Heydər Əliyev Fondunun komandasına və yerli administrasiyaya dərin minnətdarlığımı bildirirəm. Bütün festival iştirakçılarına səmimi qəlbdən uğurlar arzulayıram və ümidvaram ki, möhtəşəm təbiət və dahi musiqinin qovuşması heç kimi biganə qoymayacaq və Qəbələ festivalı əsl gözəllik təntənəsinə çevriləcəkdir. Çox sağ olun.

YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVANIN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Xanım Mehriban Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

Bu beynəlxalq festival üçün möhtəşəm səhnə olan qədim Qəbələ şəhərində bu axşam keçirilən qala-konsertdə Sizinlə bir yerdə olduğumdan xüsusi məmnunluq duyuram. Dünyanın görkəmli virtuozlarının bir qisminin toplaşdığı bu festival yaxın və uzaq ellərdən gəlmiş musiqisevərlərin məşhur Azərbaycan musiqi mədəniyyətinin inciləri ilə tanış olması üçün müstəsna imkan yaradır.

İcazə verin, ilk növbədə, məni dərin hörmət və ehtiramla qəbul etmiş Prezident Əliyevə səmimi təşəkkür edim və məmnunluq hissi ilə bildirim ki, Siz YUNESKO-nun prioritetlərini ölkənizin inkişafının təməl daşına çevirməkdə uğur qazanmısınız. Çox sağ olun, cənab Prezident.

Mən həm də Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ən səmimi təşəkkürümü bildirmək istərdim. Sizi xoşməramlı səfirlər sırasında görmək bizim üçün, YUNESKO üçün şərəfdir. Lakin mən deyərdim ki, Sizin nailiyyətlərinizin miqyasını bir ad ilə əhatə etmək çətindir. Siz YUNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız. Çox sağ olun, Mehriban xanım. Mən bu sözləri Sizin gənclərin işinə, təhsil və dialoq işinə sədaqətinizi nəzərə alaraq deyirəm. Siz ölkənin hər yerində musiqi məktəbləri açmısınız, bütün uşaqların, o cümlədən yoxsul ailələrdən olan uşaqların musiqi təhsili almasına imkan yaratmısınız. Fikrimcə, biz tam əsasla deyə bilərik ki, əgər ölkənizin böyük mədəni irsi şifahi ədəbiyyatın müxtəlif nümunələrindən başlamış müasir musiqi sənətinə qədər - bütün dünyada bu cür nüfuz qazanmışdırsa, bu, xeyli dərəcədə şəxsən Sizin dəstəyiniz və prezidenti olduğunuz Heydər Əliyev Fondunun fəaliyyəti sayəsində mümkün olmuşdur.

Xanımlar və cənablar, Qəbələ festivalı çərçivəsində gənc musiqiçilər üçün ustad dərsləri təşkil edilir, ənənəvi, klassik, müasir musiqini və cazı əhatə edən proqram həyata keçirilir. Bu festival Azərbaycanın musiqi ruhunun və səxavətinin əksidir. İcazə verin, festivalın bədii direktorlarının xidmətlərini qeyd edim və London Kral Filarmonik Orkestrini, Yuri Başmeti, Boris Berezovskini və bir sıra digər görkəmli ifaçıları salamlayım, bu axşam öz dəyərli istedadını bizimlə bölüşdüklərinə görə onlara təşəkkür edim.

Qəbələ beynəlxalq mədəni görüşlər üçün ən münasib yerdir. Biz Qafqaz Albaniyasının qədim paytaxtının yanındayıq. Vaxtilə bura Asiyanın, ərəb dünyasının, Avropanın kəsişdiyi məkanlarda dinamik ticarət, təhsil və mədəniyyət mərkəzi, çiçəklənən region

olmuşdur. Xalqların və mədəniyyətlərin bu görüşünün əsas nəticəsi Azərbaycanın ustaddan şagirdə, nəsildən-nəslə keçən zəngin musiqi ənənələridir. YUNESKO belə hesab edir ki, bu ənənələrin bir qismi ümumdünya irsinin inciləridir, onların qorunub saxlanması və populyarlaşdırılması üçün bütün tədbirlər görülməlidir.

Belə nümunələrdən biri muğamdır. YUNESKO tərəfindən tərtib edilən bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilmiş bu janr fars, türk və ərəb ənənələri əsasında klassik poeziyanı və improvizasiyanı özündə birləşdirərək insanı vəcdə gətirən melodiyalar yaradır və nəticə etibarilə Azərbaycan ənənələrini təşkil edir. Bu siyahıya sizin ölkənin mədəni bənzərsizlik rəmzlərindən biri olan poeziyanı, dastanları, rəqsləri, vokal və instrumental musiqini birləşdirən Azərbaycan aşıq sənəti də daxildir. Digər tərəfdən, Yeni il bayramı - hər il martın 21-də Azərbaycanda, habelə Türkiyədə, Hindistanda, İranda qeyd edilən Novruz bayramı əfsanələr, rəvayətlər, rituallar, dünyanın mədəni dəyərlərini, ailələr və icmalar arasında həmrəyliyi inkişaf etdirən festivallarla bağlıdır.

Xanımlar və cənablar, özünüifadənin bütün bu formaları çoxəsrlik tarixə malikdir. Bu gün də mövcud olan həmin formalar qəlbimizin ən incə tellərinə toxunur, çox vaxt müasir meyillərin təsiri altında inkişaf edir. Bizim identikliyimizi formalaşdıran bu ənənələr varislik və mənsubluq hissləri doğurur. Əminəm ki, özünüifadənin çox zəngin musiqi formalarının, dünyanın digər mədəni ənənələrinin populyarlaşdırılması budəfəki festivala bənzər təşəbbüslər vasitəsilə qarşılıqlı anlaşmanın və dialoqun möhkəmlənməsinə imkan yaradacaqdır.

Biz sürətli sosial-iqtisadi dəyişikliklərlə səciyyələnən qloballaşma dövründə yaşayırıq və ənənəvi özünüifadə formalarının tükənməsindən, hətta itirilməsindən ehtiyat edirik. Bu özünüifadə formalarının populyarlaşdırılmasının ən yaxşı yolu isə festivalların, mədəni mübadilələrin və digər layihələrin köməyi ilə, habelə bu bədii formaların öyrənilməsi və onların gənc nəslə çatdırılması üçün şərait yaratmaq yolu ilə onlarla tanış olmaqdır.

Xanımlar və cənablar, bu festival bizim bu gün, 2010-cu ildə bayram etdiyimiz, Birləşmiş Millətlər Təşkilatı və YUNESKO tərəfindən keçirilən "Beynəlxalq mədəniyyətlərin yaxınlaşması ili"nin ruhuna tam uyğundur. Bu ideya mənə çox yaxındır ki, biz ölkələr çərçivəsində və onların arasında mədəniyyətlərarası dialoq vasitəsilə daha çox qarşılıqlı anlaşmaya, hörmətə və həmrəyliyə nail olmağa kömək edə bilərik. Müasir aləmdə əsl dünya mədəniyyəti yaratmaq üçün bu dəyərləri təbliğ etmək lazımdır. Biz bu il və sonrakı dövrdə qəlblərin və zəkaların görüşünü təşviq etmək üçün yeni kanallar və yollar açmağa çalışacağıq.

Başqa aləm kəşf etməyin saysız-hesabsız üsulları vardır. Lakin bu gün biz həmin məqsədə ən universal dil və mədəni dialoqun ən mükəmməl metaforası olan musiqinin köməyi ilə nail oluruq. Azərbaycan identikliyində dərin kökləri olan, hər birimizin qəlbində estetik duyğular oyadan musiqi, mənsubiyyətindən və əqidəsindən asılı olmayaraq bütün insanların yaxınlaşması üçün ən yaxşı vasitədir. Sizin əfsanəvi şairiniz Nizami Gəncəvi XII əsrdə məhəbbət haqqında özünün ölməz poeziyasında yazırdı: Gələcəyi görə bilmirik, hər bir insanın tale telləri adi gözlə görünən dünyanın hüdudlarından çox-çox uzağa aparır. Biz bu tellərin haraya apardığını görə bilmirik, kim deyə bilər ki,

bugünkü açar sabah qıfıla, bugünkü qıfıl isə açara çevrilməyəcəkdir. Qıfıl qorxudursa, açar dialoqdur. Mən istəyirəm ki, bu nüfuzlu beynəlxalq festival xalqların və mədəniyyətlərin müxtəlifliyinin rəmzi olsun, bu müxtəliflik sizin bəzən "Odlar yurdu" adlandırılan ölkənizi müxtəlif dövrlərin mədəni nailiyyətlərini nümayiş etdirmək üçün bir səhnəyə çevirsin.

Lakin festivala başlamazdan əvvəl istərdim ki, musiqi sərrafı, əsl insanpərvər və indicə qeyd etdiyim kimi YUNESKO-nun dostu olan xanım Mehriban Əliyevaya məhz bu bayram çərçivəsində bir daha xüsusi ehtiramımı bildirim.

Hörmətli xanımlar və cənablar, hörmətli xanım Əliyeva, icazə verin, Sizin bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşdırılması işinə sədaqətinizin, mədəniyyətlərarası dialoqun inkişafı naminə daim göstərdiyiniz səylərin, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfənizin, YUNESKO-nun ideallarına və məqsədlərinə sadiqliyinizin təsdiqlənməsi əlaməti olaraq YUNESKO-nun "Qızıl Motsart" medalını böyük məmnuniyyətlə Sizə təqdim edim.

İrina Bokova YUNESKO-nun "Qızıl Motsart" medalını Mehriban xanım Əliyevaya təqdim etdi.

* * *

İrina BOKOVA: Diqqətinizə görə çox sağ olun və mən YUNESKO-nun bu fəxri təltifi münasibətilə xanım Əliyevanı bir daha təbrik etmək istərdim. Diqqətinizə görə sağ olun, gecəniz xoş keçsin.

* * *

Mərasimdə Azərbaycan mədəniyyətinə həsr olunan videoçarx nümayiş etdirildi.

Sonra konsert proqramı oldu.

London Kral Filarmonik Orkestrinin Xalq Artisti Rauf Abdullayevin dirijorluğu ilə ifa etdiyi ilk əsər Azərbaycan klassik musiqisinin banisi Üzeyir Hacıbəylinin "Koroğlu" operasının üvertürası oldu.

Tanınmış musiqiçilər Yuri Başmet bəstəkar Bruçun əsərini, Dmitri Yablonski dahi bəstəkar Çaykovskinin violonçel və orkestr üçün noktürnü ifa etdilər. Gecədə Motsartın 40-cı simfoniyasından hissələr ifa olundu.

Tamaşaçılar Meksikadan dəvət edilən tanınmış tenor Emilio Ponsun, Böyük Britaniyadan gələn skripkaçı Xloe Hanslipin mükəmməl ifalarını da dinlədilər.

Xalq Artisti, professor Fərhad Bədəlbəylinin ifasında bəstəsi özünə aid olan fortepiano və orkestr üçün "Dəniz" və Tofiq Quliyevin "Qaytağı" əsərləri gecəyə xüsusi ovqat bəxş etdi.

Festivalın rəsmi açılış mərasiminə Azərbaycan musiqisinin fəxri, SSRİ-nin və Azərbaycanın Xalq Artisti Müslüm Maqomayevin "Azərbaycan" mahnısı yekun vurdu.

Açılış mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatdı.

AZƏRBAYCAN KOREYA RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIĞI YÜKSƏK QİYMƏTLƏNDİRİR

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) Koreya Respublikasının Azərbaycanda səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Nümayəndə heyətinə Koreyanın İqtisadiyyat və Bilik Nazirliyi, Elm və Texnologiya İnkişafı İnstitutu, Seul Universiteti, eləcə də bir sıra şirkətlərin əməkdaşları daxildir.

Görüşdə nazir Əli Abbasov Koreya nümayəndə heyətinin səfərinin iki ölkə arasında informasiya texnologiyaları sahəsi üzrə münasibətlərin möhkəmlənməsi və inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Ə.Abbasov bu gün Azərbaycanda müasir texnologiyaların inkişafına böyük diqqət yetirildiyini vurğulayaraq demişdir: "İnformasiya-kommunikasiya texnologiyaları sahəsi hökumət səviyyəsində ən prioritet istiqamətlərdən biri elan olunmuş və hazırda həyata keçirilən dövlət siyasəti çərçivəsində xammal iqtisadiyyatından yüksək texnologiyalar iqtisadiyyatına keçid üzrə geniş tədbirlər icra olunur". Qeyd edilmişdir ki, Azərbaycan özünün texnoloji inkişafı ilə seçilən Koreya Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir.

Qonaqlar Koreyanın Azərbaycanda reallaşdırılan bir çox layihələrdə fəal iştirak etdiyini söyləmiş, Azərbaycan hökuməti, xüsusən də RİTN-lə əməkdaşlığın uğurlu olacağına əminliklərini bildirmişlər.

Görüşdə "elektron hökumət" və "elektron təhsil" sisteminin qurulması məsələlərindən danışılmış, hər iki ölkədə informasiya texnologiyaları sahəsindəki vəziyyət, eləcə də əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

AVROPA GƏNCLƏR KARTI ASSOSİASİYASININ PREZİDENTİ BAKIDA SƏFƏRDƏ OLMUŞDUR

Avropa Gənclər Kartı Assosiasiyasının prezidenti Volfqanq Şık və direktoru Marcel Hagman Bakıda səfərdə olmuşdur.

Səfərin məqsədi Azərbaycanın Avropa Gənclər Kartı Assosiasiyasına üzv olması ilə bağlı danışıqların aparılması olmuşdur. Bu gün Avropada 30 yaşınadək olan gənclər kitabxana və muzeylərə getdikləri, bir çox dükanlarda alış-veriş zamanı onlara gənclər kartı vasitəsilə endirim edilir.

Səfər çərçivəsində qonaqlar gənclər və idman naziri Azad Rəhimov ilə görüşmüşlər. Görüş zamanı gənclər kartının Azərbaycana gətirilməsi, onun bu ölkədə istifadə üsulları müzakirə edilmişdir.

Eyni zamanda, qonaqlar bir sıra gənclər təşkilatları ilə də görüşlər keçirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ RAMİZ MEHDİYEV İLƏ RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN ARASINDA GÖRÜŞ KEÇİRİLMİŞDİR

Avqustun 2-də Prezident Sarayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ilə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin arasında görüş keçirilmişdir.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə bu ilin yanvarında Bakıda keçirilmiş Humanitar Forumdan sonrakı müddətdə iki ölkənin mövcud strukturları arasındakı əlaqələr müzakirə edilmiş, həmin Forumun gələcəkdə Beynəlxalq Humanitar Forum kimi mütəmadi surətdə təşkil olunması və keçirilməsi ilə bağlı iki ölkə prezidentlərinin təşəbbüsünə uyğun olaraq bəzi təşkilati məsələlər və onların həyata keçirilməsinin detalları haqqında fikir mübadiləsi aparılmışdır.

Müzakirələr zamanı Forumun hər il sentyabr ayında Bakı şəhərində, "Bakı Beynəlxalq Humanitar Forumu" adı ilə yaxın və uzaq xarici ölkələrdən dəvət olunmuş nüfuzlu elm, təhsil, mədəniyyət, incəsənət, ictimai-siyasi və digər nümayəndələrin iştirakı ilə keçirilməsi qərara alınmışdır.

Administrasiya rəhbərlərinin görüşündə Azərbaycan və Rusiya arasındakı ikitərəfli münasibətlərin digər aktual məsələləri də müzakirə olunmuş və qarşılıqlı maraq kəsb edən məsələlərlə bağlı ümumi razılığa gəlinmişdir. Xüsusən, iki ölkə arasında ictimai-siyasi, iqtisadi, mədəniyyət, informasiya və s. sahələrdə ikitərəfli və çoxtərəfli məsələlərlə bağlı birgə və ortaq maraqlardan çıxış edərək, səmərəli qarşılıqlı fəaliyyətin formalaşdırılması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ POTENSİAL VARDIR

Avqustun 2-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Moldovanın ölkəmizdə yeni təyin olunmuş səfiri İqor Bodyu ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən İ.Bodyu Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu bildirmişdir. Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu vurğulayan diplomat fəaliyyəti dövründə Azərbaycan-Moldova əlaqələrinin genişləndirilməsinə çalışacağını demişdir.

Nazir E.Məmmədyarov İ.Bodyunu yeni təyinatı münasibətilə təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

HƏŞTƏRXAN NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANDA SƏFƏRDƏDİR

Rusiyanın Həştərxan vilayəti hökuməti sədrinin müavini Tatyana Yusupovanın rəhbərliyi ilə meriya nümayəndələrindən, KİV-lərin rəhbərlərindən, həmçinin jurnalistlər arasında keçirilmiş "Xəzər arzusu" beynəlxalq müsabiqəsinin qaliblərindən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdədir.

4 günlük səfər çərçivəsində qonaqlar bir sıra dövlət strukturlarında görüşlər keçirəcək, Azərbaycanın görməli yerləri ilə tanış olacaqlar.

Avqustun 2-də Həştərxan vilayətinin nümayəndə heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmişdir.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunmuşdur.

Şəhidlər xiyabanına gələn qonaqlar Vətənimizin azadlığı uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsinə ehtiramlarını bildirmişlər.

Sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyində nümayəndə heyəti nazir Hüseynqulu Bağırovla görüşmüşdür. Görüşdə qonaqlara Azərbaycanda həyata keçirilən ekoloji layihələr haqqında ətraflı məlumat verilmiş, bildirilmişdir ki, bu sahədə əldə olunan nailiyyətlər ölkə iqtisadiyyatının inkişafı ilə əlaqədardır.

Nümayəndə heyətinin rəhbəri Tatyana Yusupova ölkələrimiz arasındakı dərin əlaqələrdən danışmış, qeyd etmişdir ki, belə görüşlər ətraf mühitin mühafizəsi, problemlərin birgə həlli məsələsində əməkdaşlığın genişləndirilməsinə təkan verir.

Tədbirdə, həmçinin iki ölkənin KİV-ləri arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

Nərimanov Rayon İcra Hakimiyyətində keçirilmiş görüşdə 2006-cı ildə qardaşlaşmış rayonlar elan olunmuş Bakının və Həştərxan vilayətinin Nərimanov rayonları arasında əməkdaşlıq əlaqələrinin əhəmiyyəti vurğulanmışdır. Nərimanov rayon İcra hakimiyyətinin başçısı Abdin Fərzəliyev qonaqlara rayon haqqında ətraflı məlumat vermiş, Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən layihələrdən danışmışdır.

Həştərxan vilayəti hökuməti sədrinin müavini Tatyana Yusupova Azərbaycanda gördükləri qonaqpərvərlikdən məmnunluqla danışmışdır. Bildirilmişdir ki, xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmlənməsi üçün böyük işlər görülmüşdür. Qeyd edilmişdir ki, Azərbaycan ilə Rusiya arasında müasir əlaqələrimiz ümummilli lider Heydər Əliyevin dövründə başlanmış və bu gün Prezident İlham Əliyev tərəfindən daha yüksək səviyyəyə qaldırılmışdır.

Görüşdə qardaşlaşmış rayonlar arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

TÜRKİYƏ AZƏRBAYCANDA İKT SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİ DƏSTƏKLƏYİR

Avqustun 3-də Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Türkiyənin nəqliyyat naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Əli Abbasov Türkiyə nümayəndə heyətinin səfərinin iki ölkə arasında informasiya texnologiyaları sahəsi üzrə münasibətlərin möhkəmlənməsi və inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Nazir Azərbaycanda yaradılması nəzərdə tutulan Regional İnnovasiya Zonaları, Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM), Azərbaycanın telekommunikasiya peykinin orbitə buraxılması layihələri barədə ətraflı məlumat vermişdir. Ə.Abbasov ölkələrimiz arasında mövcud əməkdaşlığın genişləndiyini, zəruri layihələrin həyata keçirilməsində Türkiyənin Azərbaycana dəstək olduğunu bildirmişdir. O, Azərbaycanın təşəbbüsü ilə reallaşması nəzərdə tutulan TASİM-in yaradılması üzrə beynəlxalq layihənin həyata keçirilməsində "Türktelekom"un da iştirakını qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə zəmanət yaratdığını vurğulamışdır.

Görüşdə BMT Baş Məclisinin 66-cı iclasında Azərbaycan hökuməti tərəfindən irəli sürülmüş TASİM-in yaradılması təşəbbüsü ilə bağlı qətnamənin qəbul edilməsi, bu il "Bakutel" sərgisi çərçivəsində bu layihə ilə bağlı konsorsiumun yaradılmasına dair memorandumun imzalanacağı barədə də məlumat verilmişdir.

Binəli Yıldırım Türkiyə və Azərbaycan arasında əməkdaşlıq perspektivləri barədə danışmış, informasiya-kommunikasiya texnologiyaları sahəsində zəruri işlərin görüləcəyini diqqətə çatdırmışdır.

İRAQ AZƏRBAYCAN İLƏ MÜNASİBƏTLƏRİN DAHA DA DƏRİNLƏŞMƏSİNDƏ MARAQLIDIR

Avqustun 4-də Milli Məclisin sədri Oqtay Əsədov İraqın Azərbaycanda yeni təyin olunmuş səfiri Heydər Şiyə Qubeyşi Əl-Barrak ilə görüşmüşdür.

Səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən sədr, ona bu işdə və dost İraq ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi, xalqlarımızın bir-birinə daha da yaxınlaşması istiqamətində fəaliyyətində uğurlar arzulamışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan İraq ilə əlaqələrin bundan sonrakı inkişafına da xüsusi önəm verir.

Azərbaycan ilk günlərdən ABŞ-ın rəhbərlik etdiyi beynəlxalq terrorizmlə mübarizə koalisiyasına qoşulmuş və İraqda sabitliyin və təhlükəsizliyin təmin edilməsi məqsədi ilə sülhməramlılarını bu ölkəyə göndərmişdir.

Oqtay Əsədov xüsusi qeyd etmişdir ki, Azərbaycan rəhbərliyi İraq ilə münasibətləri inkişaf etdirmək, Azərbaycan-İraq əməkdaşlığını genişləndirmək əzmindədir. Bu baxımdan ölkələrimiz arasında ticari, iqtisadi əlaqələrin də inkişaf etdirilməsi vacibdir. Belə bir inam ifadə olunmuşdur ki, İraq hökuməti ölkədə demokratiyanın inkişafına, iqtisadiyyatın gücləndirilməsinə, habelə suverenliyin və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə nail olacaqdır. Bildirilmişdir ki, bu işdə Azərbaycan İraqa daim dəstək verməyə hazırdır.

Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizin inkişaf etdirilməsindən bəhs edən sədr BMT və İKT çərçivəsində keçirilən tədbirlərdə İraqın Azərbaycanın mövqeyini dəstəklədiyini xüsusi qeyd etmişdir. BMT Baş Məclisinin 62-ci sessiyasında "İşğal olunmuş Azərbaycan ərazilərində vəziyyətə dair" Qətnamə layihəsi ilə əlaqədar keçirilmiş səsvermədə İraqın ölkəmizin mövqeyini dəstəkləməsi yüksək qiymətləndirilmiş

və buna görə sədr təşəkkürünü bildirmişdir.

Parlamentlərarası əlaqələrin inkişafında maraqlı olduğumuzu diqqətə çatdıran Oqtay Əsədov mədəniyyət sahəsində münasibətlərin dərinləşməsini təsdiq edən konkret tədbirlərdən söhbət açmışdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən İraqın Azərbaycana yeni təyin olunmuş səfiri Heydər Şiyə Qubeyşi Əl-Barrak ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da dərinləşməsində maraqlı olduqlarını diqqətə çatdırmışdır. Səfir öz ölkəsindəki ictimai-siyasi vəziyyət barədə məlumat vermişdir. İkitərəfli münasibətlər çərçivəsində iqtisadi, ticari əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanmışdır. Qeyd edilmişdir ki, Azərbaycan ilə İraq arasında birbaşa hava əlaqələrinin qurulması və gediş-gəlişin asanlaşdırılması bu baxımdan daha böyük töhfə verə bilər.

Səfir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir daha öz ölkəsinin rəsmi mövqeyini açıqlayaraq bildirmişdir ki, İraq bu məsələdə Azərbaycanın mövqeyini dəstəkləmiş və bundan sonra da dəstəkləyəcəkdir.

Səfir vurğulamışdır ki, xalqlarımız və dövlətlərimiz arasında tarixi köklərlə bir-birinə bağlı olan əlaqələrin daha da möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməyəcək və bu onun fəaliyyətində ən prioritet məsələ olacaqdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNDƏ HƏŞTƏRXAN VİLAYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Avqustun 4-də Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyində ölkəmizdə səfərdə olan Rusiyanın Həştərxan vilayəti hökuməti sədrinin müavini Tatyana Yusupovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Qonaqları səmimi salamlayan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev xalqlarımız arasında dərin köklərlə bağlı olan mədəni və dostluq əlaqələrinin möhkəmləndirilməsində belə görüşlərin əhəmiyyətindən danışmışdır.

Tatyana Yusupova səfər çərçivəsində keçirdikləri görüşlərdən, azərbaycanlıların qonaqpərvərliyindən danışmış, Bakı haqqında təəssüratlarını bölüşmüşdür.

Həştərxan vilayətində Azərbaycan xalqının şanlı oğlu Nəriman Nərimanov haqqında film çəkildiyini diqqətə çatdıran T.Yusupova, çəkilişlər başa çatdıqdan sonra bu ekran əsərinin hər iki ölkədə nümayiş olunacağını qeyd etmişdir.

Nümayəndə heyətinin başçısı avqustun 28-də böyük ədib, görkəmli siyasətçi və dövlət xadimi Nəriman Nərimanovun 140 illik yubileyi, oktyabrın 3-də isə abidəsinin açılış mərasimi çərçivəsində keçiriləcək tədbirlərdə iştirak etmək üçün Azərbaycandan musiqi kollektivlərinin Həştərxan vilayətinə ezam olunması ilə əlaqədar vilayətin qubernatoru A.Jilkinin rəsmi müraciət məktubunu nazir Ə.Qarayevə çatdırmışdır.

Görüşdə mədəniyyət sahəsində əməkdaşlıq çərçivəsində bu ilin sentyabrında Həştərxan vilayətinin mahnı və rəqs ansamblının Bakıda keçiriləcək konsertləri ilə bağlı təşkilati məsələlər müzakirə edilmişdir.

Nazir Ə.Qarayev Həştərxan vilayətinin turizm şirkətlərini ölkəmizin turizm potensialı ilə yaxından tanışlıq məqsədi ilə Azərbaycana dəvət etmişdir.

Görüşdə Azərbaycan-Rusiya əlaqələrinin daha da genişləndirilməsinin vacibliyi vurğulanmış, mədəniyyət və turizm sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN VƏ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Avqustun 6-da Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ilə Rusiyanın xarici siyasət idarəsinin rəhbəri Sergey Lavrov arasında telefon danışığı olmuşdur.

Nazirlər ikitərəfli münasibətlərin və regional vəziyyətin bir sıra aktual məsələlərini müzakirə etmişlər.

TÜRKDİLLİ ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ BODRUMDA MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR

Avqustun 6-da Türkiyənin Bodrum şəhərində qeyri-rəsmi görüş keçirən türkdilli ölkələrin xarici işlər nazirlərinin mətbuat konfransı olmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirmişdir ki, görüşdə türkiyəli həmkarı Əhməd Davudoğlu ilə Dağlıq Qarabağ məsələsini müzakirə etmişdir. E.Məmmədyarov demişdir ki, bu problemin həllində Türkiyə kimi gülcü dövlətin dəstəyi çox vacibdir və gələcəkdə də bu dəstəyin davam edəcəyinə inanırıq. Nazir əlavə etmişdir ki, mədəniyyəti və kökləri bir-birinə yaxın olan türkdilli dövlətlər problemləri də birlikdə həll etməlidirlər.

Əhməd Davudoğlu bu il İstanbulda Türk Dünyası Şurasının Baş Katibliyinin yaradılacağını, türkdilli ölkələrin sıx əməkdaşlığı üçün səylərin artırılacağını demişdir. Bundan əlavə, türkdilli ölkələrin xarici işlər nazirləri gələn ay rəsmi görüş də keçirəcəklər.

Qazaxıstanın xarici işlər naziri Kanat Saudabayev türkiyəli həmkarı ilə son bir ildə 12 dəfə görüşdüyünü xatırladaraq, türkdilli ölkələrin xarici işlər nazirlərinin görüşlərinin qardaşlıq tellərinin gücləndirilməsi üçün zəruri olduğunu vurğulamışdır.

Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev də türk dünyası ölkələrinin birliyinə olan inamı ifadə edərək, həmkarlarını toplantı üçün Tanrı dağlarına dəvət etmişdir.

İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTUNDA KOREYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 6-da AMEA İnformasiya Texnologiyaları İnstitutunda (İTİ) Koreya Respublikasının Bilik İqtisadiyyatı Nazirliyi və İnformasiya Texnologiyalarına Dəstək Milli Agentliyinin nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüş Azərbaycan və Koreya arasında elmi-texniki sahədə əməkdaşlıq əlaqələrinin inkişafı, bilik və təcrübə mübadiləsi məsələlərinə həsr olunmuşdur.

İTİ-nin direktoru, AMEA-nın müxbir üzvü, professor Rasim Əliquliyev ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdiyini, bu əlaqələrin yeni istiqamətlərinin müəyyənləşməsinin, inkişaf perspektivlərinin təyin olunmasının informasiya cəmiyyətinin formalaşmasında mühüm amillərdən olduğunu söyləmişdir.

Koreya Respublikasının İKT sahəsində dünyanın aparıcı ölkələrindən biri olduğunu qeyd edən direktor əlaqələrin daha da möhkəmləndirilməsi, Koreya təcrübəsinin öyrənilməsi, bilikli, yaradıcı gənc kadrların hazırlanması və s. məsələlərin Azərbaycanda elmi-texniki sahədə aparılan siyasətin başlıca məqsədlərindən olduğunu vurğulamışdır.

Azərbaycan elminin inkişafı, beynəlxalq səviyyədə layiqincə təmsil olunması və digər məqsədlərə xidmət edən müvafiq Dövlət Proqramlarının qəbul olunduğunu bildirən R.Əliquliyev elmi-texniki sahədə ölkələrimiz arasında əlaqələrin daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

İTİ-də prioritet elmi istiqamətlər üzrə aparılan tədqiqat işləri, elmi-innovasiya, tədris-innovasiya fəaliyyətinin təşkili haqqında Koreya nümayəndə heyətinə ətraflı məlumat verilmiş, Azərbaycan elminin dünya elminə inteqrasiyası prosesində mövcud problemlərə toxunulmuşdur.

Koreyalı qonaqlar Bilik İqtisadiyyatı Nazirliyi və İnformasiya Texnologiyalarına Dəstək Milli Agentliyində İKT-nin müxtəlif istiqamətlərini əhatə edən sahələr üzrə aparılan elmi araşdırmalar, həyata keçirilən layihələr haqqında məlumat vermişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİ JAN LUKAS İNAYAT VAN HOORNU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jan Lukas İnayat van Hoornu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Görüşdə ölkəmizlə Niderland Krallığı arasında əlaqələrin həm ikitərəfli münasibətlər səviyyəsində, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğu vurğulanmış, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunmuşdur.

Dövlətimizin başçısı səfirə gələcək fəaliyyətində uğurlar arzulamışdır.

AZƏRBAYCANIN DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ NİDERLAND KRALLIĞININ ƏDLİYYƏ NAZİRİ İLƏ GÖRÜŞ

Avqustun 9-da Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Arzu Rəhimov Niderland Krallığının Bakıda səfərdə olan ədliyyə naziri Ernst Xirş Ballin ilə görüşmüşdür.

Qonağa Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata ke-

çirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, Dövlət Miqrasiya Xidmətinin yaranma tarixi, fəaliyyəti, qısa müddət ərzində əldə etdiyi uğurlar barədə ətraflı məlumat verilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran faydalı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ NİDERLAND KRALLIĞI ARASINDA ƏMƏKDAŞLIQ DİNAMİK İNKİŞAFDADIR

Avqustun 9-da Azərbaycanın baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə baş prokuror ölkəmizin Avropa məkanına inteqrasiya proseslərinə fəal qoşulduğunu, Niderland Krallığı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dinamik inkişaf etdiyini, ölkələrimizin ədliyyə nazirlikləri arasında 2002-ci ildə imzalanmış Memorandumun qarşılıqlı münasibətlərin yeni müstəviyə qalxmasına xidmət göstərdiyini qeyd etmişdir. Zakir Qaralov son illər respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında əsaslı islahatların aparılması, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, eyni zamanda, Baş Prokurorluğun Dövlət İttihamının Müdafiəsi üzrə İdarəsinin fəaliyyəti və prokurorluq orqanlarının qarşısında duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

Respublikamızda aparılan məhkəmə-hüquq islahatları barədə məlumatlı olduğunu bildirən Ernst Xirş Ballin bu sahədə görülən işləri maraqla izlədiyini xüsusi vurğulamış, eyni zamanda, prokurorluq və ədliyyə sistemində aparılan islahatları insan hüquqlarının etibarlı təmin olunması baxımından təqdir etmişdir.

Görüşdə, həmçinin insan haqlarının qorunması, qanunvericiliyin təkmilləşdirilməsi və digər maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

NİDERLAND VƏ AZƏRBAYCAN ARASINDA HÜQUQİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Avqustun 9-da Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun dəvəti ilə Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Avqustun 9-da nazir Ernst Xirş Ballin Azərbaycanın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovla görüşmüşdür.

Azərbaycan ilə Niderlandın dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını qeyd edən nazir F.Məmmədov ölkələrimizin ədliyyə orqanları arasında 2002-ci ildə imzalanan Anlaşma Memorandumunun hüquqi sahədə əlaqələrin genişlənməsinə təkan verdiyini vurğulamış, qarşılıqlı münasibətlərin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu bildirmiş, ötən il Norveçdə keçirilmiş Avropa ədliyyə nazirlərinin 29-cu

konfransında səmimi ikitərəfli görüşləri məmnunluqla xatırlatmışdır.

Respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ədliyyə və məhkəmə islahatları barədə məlumat verilmiş, xarici dövlətlərlə və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın əhəmiyyəti vurğulanaraq niderlandlı hüquqşünasların bu işdə iştirakı qeyd edilmişdir.

Niderlandın ölkəmizlə hərtərəfli əməkdaşlığa böyük önəm verdiyini bildirən qonaq dünyada hökm sürən maliyyə böhranı şəraitində Azərbaycanın dinamik tərəqqisini, səfər zamanı bu inkişafın şahidi olduğunu vurğulamış, respublikamızda olmağından məmnun qalaraq, səfərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmişdir. Nazir E.X.Ballin ölkəmizdə məhkəmə və ədliyyə, o cümlədən penitensiar sistemdə aparılan islahatları və əldə olunmuş nailiyyətləri təqdir etmiş, Azərbaycana səfərinin hüquqi sahədə əlaqələrin inkişafına töhfə olacağını vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsi üçün dəstək verməyə hazır olduğunu söyləmişdir.

Görüşdə ədliyyənin müxtəlif istiqamətləri üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunmuş, inzibati ədliyyənin formalaşdırılması, Ədliyyə Akademiyasının fəaliyyəti, hakimlərin və hakimliyə namizədlərin treninqi, o cümlədən xaricə tədris səfərlərinin təşkili, QHT-lərlə əməkdaşlıq və penitensiar sistemdə islahatlar, habelə digər maraq kəsb edən mövzular üzrə faydalı fikir mübadiləsi aparılmışdır. Bu ilin sentyabrında Haaqada keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının 15-ci İllik Konfransının əhəmiyyəti və Azərbaycan ədliyyə nazirinin bu təşkilatın rəhbər orqanının - İcraiyyə Komitəsinin üzvü olduğu vurğulanmış, ölkəmizin nümayəndə heyətinin həmin tədbirdə iştirakı məsələsinə toxunulmuşdur.

Nümayəndə heyəti nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri, habelə Azərbaycan-Niderland münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olmuş, qonaqlara Azərbaycan dövləti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən DVD-lər, müasir ədliyyə fəaliyyətini və iki ölkə arasında hüquqi əlaqələri əks etdirən xüsusi jurnallar təqdim edilmişdir.

Elə həmin gün niderlandlı nazir ölkəmizin penitensiar sahədə aparılan islahatları ilə yaxından tanış olmaq üçün müasir, beynəlxalq standartlara uyğun inşa olunmuş yeni Bakı istintaq təcridxanasına baş çəkmişdir.

AZƏRBAYCAN İLƏ NİDERLAND ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

Avqustun 9-da Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Arzu Rəhimov ölkəmizdə səfərdə olan Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan ilə Niderland arasında dostluq əlaqələrinin inkişaf etdiyini qeyd edən xidmət rəisi Arzu Rəhimov 2009-cu ildə Niderlandın Repatriasiya və Deportasiya Xidmətinin dəvəti ilə bu ölkəyə səfərini və keçirilmiş faydalı görüşləri xatırladaraq, bunun dövlətlərimiz arasında miqrasiya sahəsində əməkdaşlığın qurulmasında və inkişaf etdirilməsində rolunu vurğulamışdır.

Arzu Rəhimov qeyd etmişdir ki, hazırda Azərbaycanda miqrasiya sahəsində qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə olunması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi üçün geniş imkanlar yaradılmışdır. Xidmət rəisi, həmçinin ölkəmizdə miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində qanuni əsaslarla yaşamaq və əmək fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurunun sadələşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi məqsədi ilə 2009-cu il iyulun 1-də "bir pəncərə" prinsipinin tətbiqi ilə uğurlu nəticələr əldə olunduğunu qonaqların diqqətinə çatdırmışdır.

Niderland nümayəndə heyətinin rəhbəri Ernst Xirş Ballin ölkələrimiz arasında qarşılıqlı iqtisadi, sosial və mədəni əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində atılan addımları, görülən işləri, miqrasiya sahəsində həyata keçirilən islahatları və əldə olunmuş nailiyyətləri yüksək dəyərləndirmişdir. Azərbaycanın regionda mövqeyinin möhkəmləndiyini vurğulayan qonaq, həmçinin Niderlandın ölkəmizlə miqrasiya sahəsində əlaqələrin inkişaf etdirilməsinə önəm verərək, konkret tədbirlər həyata keçirmək niyyətində olduğunu bildirmişdir. Ernst Xirş Ballin bu səfərinin mövcud əlaqələrin daha da inkişaf etdirilməsinə, o cümlədən miqrasiya sahəsində birgə əməkdaşlığa, qanunsuz miqrasiya hallarının aradan qaldırılması sahəsində irəliləyişin əldə edilməsinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu qeyd etmişdir.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunmuş, qanunsuz miqrasiyaya qarşı qarşılıqlı fəaliyyətin genişləndirilməsi və bu sahədə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sonda qonaqlar Xidmətin yeni inzibati binası ilə tanış olmuşlar.

AZƏRBAYCAN İLƏ NİDERLAND KRALLIĞI ARASINDA ƏLAQƏLƏR İNKİŞAF EDİR

Azərbaycanda səfərdə olan Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin rəhbərliyi ilə nümayəndə heyəti avqustun 10-da Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

Oqtay Əsədov qonaqları salamlamış, Azərbaycan Respublikasının Niderland Krallığı ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmişdir.

Milli Məclisin sədri demişdir ki, biz hər iki ölkənin ədliyyə nazirlikləri arasındakı əlaqələri yüksək qiymətləndiririk və dəstəkləyirik. İnanırıq ki, bu əlaqələr digər sahələrdə də əməkdaşlığımızın genişlənməsində mühüm rol oynayacaqdır.

Azərbaycan ilə Niderland arasında ikitərəfli əlaqələrin inkişafında dövlətlərimizin başçılarının rolunu xüsusi qeyd edən O.Əsədov demişdir ki, hökumət və parlament rəhbərlərinin, eləcə də ayrı-ayrı nazirlərin, deputatların qarşılıqlı səfərləri, keçirdikləri görüşlər əlaqələrimizi daha da möhkəmləndirir.

O.Əsədov Niderland Krallığı parlamentinin sədri Rene van der Lindenlə dostluq əlaqə-

lərindən, görüşlərindən danışmış və qeyd etmişdir ki, hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir. Bu qruplar təkcə parlamentlərarası əlaqələrin deyil, xalqlarımızın dostluq münasibətlərinin inkişafına töhfə verirlər.

Milli Məclisin sədri Rene van der Lindenin sentyabrın əvvəllərində Azərbaycana səfərə gələcəyini bildirmişdir.

Ernst Xirş Ballin ətraflı məlumata və xoş sözlərə görə minnətdarlıq edərək demişdir ki, Azərbaycanda çox mühüm və səmərəli görüşlər keçirmişdir. İki ölkənin ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair bir neçə il əvvəl imzalanmış memorandum hazırda daha geniş sahələri əhatə edir. Biz bu gün hüquq mühafizə, insan hüquqları, miqrasiya və digər sahələrdə uğurla əməkdaşlıq edirik. İnanırıq ki, bu səfərdən sonra əlaqələrimiz daha da genişlənəcəkdir.

Niderlandlı nazir ölkəsinin parlament sədrinin Bakıya nəzərdə tutulmuş səfərinin də hər iki tərəf üçün faydalı olacağına inamını ifadə etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ NİDERLANDIN ƏDLİYYƏ NAZİRLİYİ ARASINDA CİNAYƏT İŞLƏRİ ÜZRƏ QEYRİ-ƏMƏLİYYAT ƏMƏKDAŞLIĞINA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 10-da Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir Ramil Usubov qonağa nazirliyin funksiyası və fəaliyyət istiqamətləri, eləcə də müstəqilliyimizin ilk illərində hökm sürən gərgin ictimai-siyasi və kriminogen durum, vətəndaş müharibəsi astanasında olan ölkəmizin parçalanıb dağılmaq təhlükəsindən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində xilas olması barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin rəhbərliyi, hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının birgə fəaliyyəti, qətiyyətli tədbirlər nəticəsində 1995-ci ilin sonlarından başlayaraq sabitlik bərqərar olmuş, əməliyyat şəraiti tam nəzarətə götürülmüşdür.

Daxili işlər naziri əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayına görə ölkəmizin MDB məkanında sonuncu yerlərdən birini tutduğunu xatırladaraq bildirmişdir ki, kriminogen durumun nəzarətdə olması, sabitliyin dönməzliyinin təmin edilməsi ilk növbədə vətəndaşlarımızın, eləcə də əcnəbilərin təhlükəsizlik şəraitində yaşayıb fəaliyyət göstərməsinə, iqtisadiyyatımıza külli miqdarda xarici sərmayə yatırılmasına əlverişli şərait yaratmışdır.

Daha sonra ümummilli lider Heydər Əliyevin siyasi kursunun, o cümlədən hüquq mühafizə siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, beynəlxalq ekspertlərin müsbət rəylərini almış, Avropa standartlarına uyğun yeni qanunların, demokratik islahatların əsas məqsədinin insan hüquq və azadlıqlarının təmin edilməsi, ümumbəşəri dəyərlərin qorunmasından ibarət olduğu qonağın diqqətinə çatdırılmışdır.

Daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətdə üzləşdikləri problemlər barədə danışan nazir R.Usubov transmilli mütəşəkkil cinayətkarlığın qanunsuz miqrasiya, insan alveri, narkotiklərin qeyri-qanuni dövriyyəsi və digər bu kimi təhlükəli növləri ilə mübarizənin bütün dünya ölkələri üçün aktual olduğunu, getdikcə qlobal miqyas alan belə cinayətlərə qarşı dünya dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların birgə mübarizə aparmasının əhəmiyyətini vurğulamışdır.

Sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Niderland Krallığının Ədliyyə Nazirliyi arasında cinayət işləri üzrə qeyri-əməliyyat əməkdaşlığına dair anlaşma Memorandumu imzalanmışdır.

Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballin səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edərək Azərbaycanda bütün sahələrdə əldə olunan dinamik inkişafdan, böyük vüsətlə davam edən iqtisadi tərəqqidən məmnunluq duyduğunu bildirmiş, ölkəmizdə həyata keçirilən demokratik islahatlar prosesində polis orqanlarının bundan sonra da fəal iştirak edəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Moldova Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İqor Bodiunun etimadnaməsini qəbul etmişdir.

Səfir İqor Bodiu fəxri qarovul dəstəsinin qarşısından keçdi.

İqor Bodiu etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı yeni təyinatı münasibətilə səfiri təbrik etdi və ona diplomatik fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev İqor Bodiunun Azərbaycandakı diplomatik fəaliyyəti dövründə də ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu vurğulayan dövlətimizin başçısı ötən illər ərzində bu istiqamətdə mühüm işlərin görüldüyünü dedi və bu müsbət meylin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Səfir İqor Bodiu Moldova Respublikası rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycanın Moldova üçün həmişə dost ölkə olduğunu vurğulayan səfir ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı Moldova Respublikası rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Moldovanın rəhbərliyinə çatdırmağı xahiş etdi.

ABŞ İLƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 11-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev ABŞ-ın Oklohoma ştatının Milli Qvardiya Komandanının adyutantı, general Mayls Dirinqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ABŞ ilə Azərbaycan arasında hərbi əməkdaşlıq, regionda vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

Nazir Səfər Əbiyev bildirmişdir ki, ABŞ-Azərbaycan əlaqələri inkişaf edir və hər iki tərəf bu əməkdaşlığın davam etdirilməsinə tərəfdardır.

NƏQLİYYAT NAZİRLİYİ İLƏ DÜNYA BANKI ARASINDA AZƏRBAYCANIN YOL SEKTORUNA YARDIMIN ÜÇÜNCÜ MƏRHƏLƏSİ ÜZRƏ KREDİT SAZİŞLƏRİ İMZALANMIŞDIR

Avqustun 11-də Nəqliyyat Nazirliyində Dünya Bankı ilə "Azərbaycan Respublikası ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında Kredit Sazişi"nin və "Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi"nin imzalanması mərasimi keçirilmişdir.

Üçüncü Magistral Yol Layihəsinin maliyyələşdirilməsi məqsədi ilə Beynəlxalq İnkişaf Assosiasiyası üzrə 70 milyon, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı üzrə isə 171,6 milyon ABŞ dolları ekvivalentində kredit üzrə sazişləri Azərbaycanın nəqliyyat naziri Ziya Məmmədov və Dünya Bankının Azərbaycan üzrə meneceri Cozef Ouven imzalamışlar.

Uzunluğu 100 kilometr olan Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 2 zolaqdan 4 zolağadək genişləndirilməsini, bununla da onun təhlükəsizliyini və səmərəliliyini artırmaq, magistral yol şəbəkəsinin idarə edilməsini gücləndirmək, əhəmiyyətli turizm və istehsal potensialına malik olan dağlıq şimal regionlarında nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədini daşıyan layihənin dəyəri ümumilikdə 302 milyon ABŞ dollarıdır.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı tərəfindən ayrılacaq kredit güzəşt müddəti 4 il olmaqla 17 il müddətinə verilir. Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən ayrılacaq kreditin verilmə dövrü isə güzəşt müddəti 10 il olmaqla 20 ildir.

Bu layihə ilə Dünya Bankı Azərbaycanın yol sektoruna yardımının üçüncü mərhələsinə başlayır. Bu mərhələdə iki yanaşmadan istifadə olunacaqdır. Birinci yanaşma Azərbaycanın magistral yol şəbəkəsi və tranzit dəhlizlərinə, ikincisi isə regional inkişaf strategiyası çərçivəsində yerli yollara istiqamətlənəcəkdir.

NİDERLAND KRALLIĞININ ƏDLİYYƏ NAZİRİ ALİ MƏHKƏMƏNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Avqustun 12-də ölkəmizdə səfərdə olan Niderland Krallığının ədliyyə naziri Ernst Xirş Ballinin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri Ali Məhkəmənin sədri Ramiz

Rzayevlə görüşmüşlər.

Görüşdə Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə məlumat verən Ramiz Rzayev qeyd etmişdir ki, Azərbaycanda beynəlxalq hüququ aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin president hüququ öyrənilir və onlara istinad olunur. Qəbul edilən qərarlar Avropa standartlarına uyğunlaşdırılır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Azərbaycanla bağlı qəbul etdiyi qərarlara baxılır və onlar icra olunur.

Azərbaycan Respublikası və Niderland Krallığı arasında dostluq və əməkdaşlıq münasibətlərinin olduğunu məmnunluqla qeyd edən Ali Məhkəmənin sədri məhkəmə-hüquq sahəsində əlaqələrin inkişaf etdirilməsi, bu münasibətlərin daha da genişlənməsi üçün real imkanların mövcudluğunu vurğulamış, Azərbaycan Ədliyyə Nazirliyi ilə Niderland Krallığının Ədliyyə Nazirliyi arasında imzalanan sənədlərin hər iki ölkənin məhkəmə-hüquq sahəsinin inkişafında mühüm rol oynayacağını bildirmişdir.

Niderland Krallığının ədliyyə naziri Azərbaycanda məhkəmə sistemində aparılan islahatlara maraq göstərmiş, məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

Niderlandlı qonaqlar Ali Məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, hakimlərin iş şəraiti ilə tanış olmuş, məhkəmə tarixi muzeyinə baxmışlar. Niderland Krallığının Ədliyyə naziri xatirə kitabına ürək sözlərini yazmışdır.

Görüşün sonunda Ali Məhkəmənin sədri Azərbaycanın məhkəmə orqanlarına xüsusi maraq və diqqət göstərdiyinə, həmçinin əhəmiyyətli görüşə görə Niderland Krallığının ədliyyə nazirinə və nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirmiş, onlara işlərində uğurlar arzulamışdır.

NİDERLANDIN AZƏRBAYCANDAKI SƏFİRİNİN SƏLAHİYYƏT MÜDDƏTİ BAŞA ÇATMIŞDIR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov avqustun 13-də ölkəmizdə diplomatik fəaliyyətini başa vuran Niderland Krallığının səfiri Jan Lukas İnayat van Hoorn ilə görüşmüşdür.

Görüşdə Azərbaycanda fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi və inkişafı üçün səy göstərdiyini deyən səfir, bu istiqamətdə Azərbaycanın Xarici İşlər Nazirliyi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

Nazir E.Məmmədyarov diplomata xoş arzularını bildirmiş və gələcək fəaliyyətində uğurlar arzulamışdır.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Avqustun 16-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gül Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Abdullah Gülü hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar Türkiyə Prezidentinə gül dəstələri təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Abdullah Gül və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 16-da Fəxri xiyabana gəlmişdir.

Türkiyə dövlətinin başçısı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla andı, ulu öndərin məzarı önünə əklil qoydu.

Ali qonaq görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad etdi, məzarı üzərinə gül dəstəsi düzdü.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 16-da Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Abdullah Gül "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Abdullah Gül Azərbaycan paytaxtının mənzərəsini seyr etdi.

TÜRK ƏSGƏRLƏRİNİN XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 16-da Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etdi.

Türkiyə Prezidenti abidənin önünə əklil qoydu.

Ali qonaq xatirə kitabına ürək sözlərini yazdı.

Türkiyə Prezidenti dedi ki, türk əsgərləri bütün dövrlərdə öz soydaşlarının və din qardaşlarının təhlükəsizliyinə çalışmış, hər zaman onlara yardım etmişdir.

Dövlət başçısı bildirdi ki, Bakıdakı türk şəhidliyində uyuyan türk əsgərləri Vətənin azadlığı yolunda həlak olmuşlar. 1918-ci ildə Nuru Paşanın komandanlığı altında türk-Qafqaz İslam ordularının Azərbaycana gəlməsi buradakı soyqırımının qarşısının alınmasında mühüm rol oynamışdır.

Türkiyə Prezidenti Abdullah Gül daha sonra Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstandakı hərəkatı və ölkəmizdəki türk şəhid məzarlıqlarının yerləşdiyi əraziləri əks etdirən stendə baxdı.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Avqustun 16-da Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Abdullah Gülü qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Abdullah Gülə, Türkiyə nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞ

Avqustun 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirildi. Bu münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Yüksək səviyyədə qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlət başçıları Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin genişlənməsinə töhfəsini verəcəyini vurğuladılar.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Avqustun 16-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Sizin səfərinizin çox böyük əhəmiyyəti vardır. Biz bu gün artıq Sizinlə təkbətək görüşdə ikitərəfli münasibətlərin böyük hissəsini müzakirə etdik. Bir daha görürük ki, Türkiyə ilə Azərbaycan arasında dostluq-qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilibdir.

Mən əminəm ki, səfər zamanı çox səmərəli müzakirələr keçiriləcəkdir. Həm nümayəndə heyətlərinin üzvləri bir-biri ilə əlaqədə olacaqlar və həm də biz gələcək birgə fəaliyyət haqqında planlarımızı müəyyən edəcəyik.

Bir daha demək istəyirəm ki, bu əlaqələr müxtəlif sahələri əhatə edir. Əminəm ki, hər bir istiqamətdə gözəl nəticələr olacaqdır. Bir daha xoş gəlmisiniz!

* * *

Türkiyə Prezidenti Abdullah GÜL səmimi qəbula görə minnətdarlığını bildirərək dedi:

- Sağ olun. Təşəkkür edirəm.

Hörmətli qardaşım İlham Əliyevin dəvəti ilə bu səfəri həyata keçirməkdən böyük bir məmnunluq hissi duyuruq. Biz əslində öz vətənimizdə, ölkəmizdə, öz qardaşlarımızın arasındayıq. Azərbaycan ilə Türkiyə arasında dostluq-qardaşlıq münasibətləri, hamımızın bir millət olmaq ruhuna bağlılığımız hər şeydən əhəmiyyətlidir.

Bugünkü təkbətək görüşümüzdə bütün bunları nəzərdən keçirdik, məsləhətləşdik. Siyasi-iqtisadi məsələləri, regionla bağlı təhlükəsizlik məsələlərini Sizinlə bərabər müzakirə etmək çox faydalı oldu. Bu mövzularda Sizinlə artıq vaxtaşırı fikir mübadiləsi aparmışıq. Türkiyə ilə Azərbaycan arasında münasibətləri adi protokol münasibətlərindən kənar görürük. Tez-tez görüşməyimizin, vaxtaşırı müzakirələr aparmağımızın həm xalqlarımız üçün böyük faydası olacaq, həm də bütün bölgəmizdə hər kəs görəcəkdir ki, Türkiyə ilə Azərbaycan daim hər sahədə çiyin-çiyinədir. Bu baxımdan bu səfərin çox faydalı olacağına inanıram.

Belə isti avqust ayında bu səfəri həyata keçirdik. Qışda da Azərbaycana çox səfər etdik. Xəzərin küləkli, dalğalı olduğu vaxtlarda da yığıncaq keçirdik, görüşdük. Amma bugünkü görüşümüzün, nazirlərimizin öz aralarındakı görüşlərinin çox faydalı olacağına inanıram.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Avqustun 16-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Abdullah Gül "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN MƏTBUAT KONFRANSI

Avqustun 16-da sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün mətbuat konfransı olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Cənab Prezident, mən Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizin çox böyük əhəmiyyəti vardır. Mən şübhə etmirəm ki, səfər nəticəsində əldə edilmiş razılaşmalar Türkiyə ilə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətlərinin inkişafı üçün çox mühüm rol oynayacaqdır.

Bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixi keçmişi vardır. Əsrlər boyu xalqlarımız bir yerdə, dostluq-qardaşlıq şəraitində yaşamışlar, həmişə bir-birinə dəstək olmuşlar. Bu gün ölkələrimiz arasındakı əlaqələr ən yüksək səviyyədədir. Bu əlaqələrin xüsusi əhəmiyyəti vardır və əlaqələrimiz bütün sahələri əhatə edir. Siyasi, iqtisadi, mədəni sahələrdə - bütün sahələrdə aramızda çox ciddi iş birliyi, əməkdaşlıq aparılır və bütün istiqamətlərdə yaxşı nəticələr vardır.

Bu gün biz Sizinlə təkbətək görüşdə və nümayəndə heyətlərinin iştirakı ilə keçirdiyimiz görüşdə bütün bu məsələləri geniş müzakirə etdik, ikitərəfli münasibətlərimizi bir daha təhlil etdik, gələcək fəaliyyət haqqında fikir mübadiləsi apardıq və bir daha gördük ki, münasibətlərimiz, sözün əsl mənasında, qardaşlıq xarakteri daşıyır. Bu gün imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə böyük tarixi əhəmiyyətə malik olan bir sənəddir. Bu müqavilə gələcək fəaliyyətimizi müəyyən edir və bundan sonra, onilliklər ərzində Türkiyə ilə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətlərini müəyyən edəcəkdir.

Qeyd etdiyim kimi, əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Bu gün biz Sizinlə iqtisadi və siyasi sahədəki əməkdaşlığımızı müzakirə etdik. Bu yaxınlarda Türkiyə-Azərbaycan biznes forumunun keçirilməsi iqtisadi sahədə çox mühüm bir hadisə idi. Biz nəinki qarşılıqlı yatırımların həcmini artırıq, eyni zamanda, artıq üçüncü ölkələrdə birgə sərmayə qoyuluşu haqqında ciddi fikir mübadiləsi aparırıq və əminəm ki, bu sahədə yaxşı nəticələr ola bilər.

Neft-qaz sahəsindəki əməkdaşlığımızın böyük tarixi vardır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri uğurla fəaliyyət göstərir və gələcəkdə bu fəaliy-

yət daha da geniş olacaqdır. Bu gün bu mühüm layihələr yeni vəziyyətin yaranmasına gətirib çıxarıbdır. Həm bölgədəki vəziyyətə müsbət təsir göstərir, eyni zamanda, gələcək çoxtərəfli regional əməkdaşlıq üçün də mühüm şərt kimi mövcuddur.

Bu gün biz bərabər həyata keçirdiyimiz dəmir yolu layihəsi üzərində işləyirik. Bu yol da həm Türkiyəni Azərbaycanla, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu yolun tikintisi nəticəsində həm siyasi, həm iqtisadi maraqlarımız tam şəkildə təmin olunacaqdır. Buna bənzər digər layihələr mövcuddur, danışıqlar mövzusudur və əminəm ki, iki xalqın ortaya qoyduğu iradə sayəsində biz bütün məqsədlərimizə çatacağıq.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr türkdilli ölkələr arasındakı əlaqələrə ciddi təsir göstərir. Bu sahədə də fikirlərimiz üst-üstə düşür. Keçən il Naxçıvanda keçirdiyimiz zirvə görüşü və o görüş zamanı əldə edilmiş razılaşmalar artıq reallaşır. Yaxın zamanlarda Türkiyədə keçiriləcək növbəti zirvə görüşü də əminəm ki, çox uğurlu olacaq və beləliklə, türkdilli ölkələrin əməkdaşlığı daha da genişlənəcəkdir. Bütövlükdə türk dünyasının birləşməsi üçün Türkiyə-Azərbaycan əlaqələrinin xüsusi yeri vardır.

Biz bütün başqa sahələrdə qardaş, dost kimi əməkdaşlıq edirik, iş birliyi aparırıq. Bu, bizim strateji xəttimizdir. Dahi liderlərimiz bu yolu bizə göstəriblər. Böyük öndər Mustafa Kamal Atatürkün kəlamı yadıma düşür. O demişdir ki, Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir ki, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir. Bax, bu kəlamlar bizə yol göstərir və bu yolda biz çiyin-çiyinə irəliləyirik və böyük zirvələri fəth edirik. Mən əminəm və şübhə etmirəm ki, bundan sonrakı dövrdə də həmişə olduğu kimi, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edəcəkdir.

Müzakirə etdiyimiz məsələlər arasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də var idi. Bu barədə də biz çox geniş danışdıq və fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, uzun illər ərzində Azərbaycan torpaqları Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıbdır, qaçqın-köçkün vəziyyətində yaşayır. Azərbaycanlılara qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, bütün beynəlxalq hüquq normaları pozulmuşdur. Beynəlxalq təşkilatlar - BMT, Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, Avropa Parlamenti məsələnin həlli ilə bağlı çoxsaylı qətnamələr, qərarlar qəbul etmişdir və onların hamısı Azərbaycanın ərazi bütövlüyünün bərpasını qeyd-şərtsiz tələb edir. Əfsuslar olsun ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi məsələnin həlli üçün imkan yaratmır. Ancaq Azərbaycan bundan sonra da ərazi bütövlüyünün bərpası üçün bütün lazımi tədbirləri görəcək, öz siyasi və diplomatik səylərini artıracaqdır. Əminəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Fürsətdən istifadə edərək, Sizə və bütün qardaş türk xalqına Azərbaycana bu məsələ ilə bağlı daim dəstək verdiyinizə görə minnətdarlığımı, təşəkkürümü bir daha bildirmək istəyirəm.

Bir daha əziz qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Əminəm ki, səfəriniz çox uğurlu olacaqdır. Sağ olun.

* * *

Türkiyə Prezidenti Abdullah GÜL bəyanatla çıxış edərək dedi:

- Cənab Prezident, hörmətli qardaşım İlham Əliyev!

Hörmətli mətbuat nümayəndələri!

Qardaş Azərbaycana bu səfərimlə əlaqədar mənə, heyətdəki hörmətli nazirlərə, deputatlara və bütün heyət üzvlərinə göstərdiyiniz böyük qonaqpərvərliyə görə təşəkkür edirəm. Özümüzü evimizdə hiss edirik. Azərbaycana nə zaman gəlsək daim bu hissləri yaşamışıq və hər gəlişimizdə Azərbaycanın inkişaf etdiyini, gücləndiyini, daha da irəliyə parladığını görmək bizi xoşbəxt etməkdədir. Sizin də dediyiniz kimi, biz bir millətin ayrı-ayrı iki dövlətiyik. Bu iki ayrı dövlətin bir millət anlayışına uyğun şəkildə həmrəylik, əməkdaşlıq və qardaşlıq hissləri ilə dolu olması vacibdir. Biz də bu anlayış çərçivəsində daim və tez-tez görüşürük, ətraflı məsləhətləşirik və əməkdaşlıq edirik. Bu həmrəyliyimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bugünkü səfərimdə Sizinlə təkbətək və geniş tərkibdə görüşlərdə bütün bu məsələləri müzakirə etdik. İkitərəfli əlaqələrimiz siyasi, təhlükəsizlik, iqtisadi və mədəni sahələrdə get-gedə inkişaf etməkdədir. Bunları daha çox inkişaf etdirmək üçün bu gün bir çox tədbirləri də müzakirə etdik. Daha çox qarşılıqlı iş qurmaları, qarşılıqlı sərmayə qoymaları üçün şirkətlərimizi qarşılıqlı olaraq təşviq edirik. Azərbaycan şirkətlərinin Türkiyəyə qoyduqları sərmayələrdən böyük bir məmnuniyyət duyuruq. Türk şirkətlərinin də buradakı uğurları ilə qürur duyuruq.

Siyasi sahədəki əlaqələrimiz də mühüm əhəmiyyət kəsb edir. Bunu eyni qaydada davam etdirəcəyik. Bu gün imzaladığımız strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə bunun ən bariz nümunəsidir. Bu müqaviləyə müvafiq olaraq həmrəyliyimizi gücləndirərək inkişaf etdirəcəyik.

Qafqazın sabit və təhlükəsiz bir bölgə olması üçün həyata keçirilməli olan tədbirlər barədə bu gün yenə ətraflı müzakirələr apardıq. Dağlıq Qarabağ probleminin həlli, Azərbaycanın işğal altındakı torpaqlarında işğalın sona çatdırılması - bütün bunların Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını müzakirə etdik. Bunu müzakirə edərək, qısa müddət ərzində bu problemin həllinin zəruri olduğuna inanırıq. Milyonlarla köçkünün, qaçqının çox çətin şəraitdə yaşadığını bilirik. Əslində bütün dünya bu həqiqəti görməlidir. Uzun illərdir, 18 ildir ki, dünyada bu problemə kifayət qədər diqqət yetirilmədi. Ümid edirik ki, artıq bunun da zamanı gəlib çatmışdır və bütün bu məsələlər Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir.

Bu istiqamətdə fəaliyyətimizə və müzakirələrimizə davam edəcəyik. Çünki bu məsələni dondurulmuş şəkildə saxlamaq doğru deyildir. Dondurulmuş münaqişələr gözlənilmədən çox böyük problemə çevrilə bilər. BMT-nin müraciəti var, bir az əvvəl Sizin dediyiniz kimi, İslam Konfransı Təşkilatının, digər beynəlxalq təşkilatların hər zaman müraciətləri olmuşdur. Bütün bu müraciətləri nəzərə alaraq, dost ölkələr, region ölkələri, bu regionla tarixi əlaqələri olan bütün qonşu ölkələr problemin həlli istiqamətində son dərəcə fəal olmalı və kömək etməlidirlər. Ümid edirəm ki, əvvəlki illərdə bu istiqamətdəki görülən işlər yenə intensiv qaydada davam edəcəkdir.

Türkiyə bu istiqamətdə fəaliyyətinə davam edəcək, şübhəsiz ki, Azərbaycan ilə daim fikir mübadiləsi aparacaqdır. Hörmətli Prezident, dəyərli qardaşım İlham Əliyev ilə daim fikir mübadiləsi şəraitində bu məsələlərin həlli üçün fəal səylərimiz davam edəcəkdir. Mən bu münasibətlə bütün azərbaycanlı qardaşlarıma Türkiyənin daim Azərbayca-

nın yanında olduğunu, həmrəy olduğunu və olmaqda davam edəcəyini bir də buradan bəyan etmək istəyirəm. Türk xalqının bütün azərbaycanlı qardaşlarına olan sevgi və məhəbbət duyğularını burada bir daha bütün azərbaycanlı qardaşlarıma mətbuat nümayəndələri vasitəsilə bəyan etmək istəyirəm.

Bizə göstərilən qonaqpərvərlik və yaxın qardaşlıq münasibəti üçün bir daha təşəkkür edirəm.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.

* * *

Uğur Alıcı (TRT): Birinci sualım hər iki prezidentədir. İki ölkə arasında münasibətlər tarixi əlaqələrə bağlıdır. Bu çərçivədə viza rejiminin aradan qaldırılması məsələsi səfər zamanı müzakirə olundumu? Digər sualım isə Ermənistan ilə Azərbaycan arasındakı Dağlıq Qarabağ probleminin həllindəki son vəziyyətlə əlaqədardır. Ermənistanın nizamlanma prosesi ilə bağlı göstərdiyi diplomatik yol çözümsüzlüyə istiqamətlənibmi? Təşəkkür edirəm.

Prezident İlham ƏLİYEV: Bu gün görüş zamanı gündəlikdə olan bütün məsələlər müzakirə olundu və çox ciddi fikir mübadiləsi aparıldı. Qeyd etdiyim kimi, bütün məsələlər çox səmimi və qardaşlıq şəraitində müzakirə olundu. Türkiyə ilə Azərbaycan arasında çoxsaylı müqavilələrin olması aramızdakı əlaqələrin inkişafı üçün hüquqi zəmin yaradır. Beləliklə, deyə bilərəm ki, bütün sahələrdə aramızdakı əlaqələri hüquqi sənədlər tənzimləyir. Viza məsələsi də bu gün müzakirə olundu. Bu məsələnin həlli üçün Azərbaycan da daxili prosedurlar keçməlidir. Bu məsələlər daxildə bir daha müzakirə edilməlidir. Bildiyiniz kimi, Türkiyə bütün türkdilli ölkələrlə vizaların birtərəfli qaydada qaldırılması üçün praktiki addımlar atmışdır. Biz bu addıma görə çox minnətdarıq. Ümid edirəm ki, bütün daxili prosedurlar başa çatandan sonra Azərbaycan tərəfindən də buna bənzər addım atılacaqdır.

O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə, mən deyə bilərəm ki, biz artıq həlledici mərhələdəyik. Çünki son 5-6 il ərzində aparılan danışıqlar müəyyən təkliflərin hazırlanmasına gətirib çıxarmışdır. Bu təkliflər Minsk qrupu tərəfindən rəsmi şəkildə Ermənistana və Azərbaycana təqdim edilmişdir. Təkliflər balanslaşdırılmış mahiyyət daşıyır. Təkliflərin qəbul olunacağı təqdirdə məsələnin dinc yollarla və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli mümkün olacaqdır. Təkliflərin mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın işğala məruz qalmış bölgələrindən Ermənistanın işğalçı qüvvələri çıxarılır və Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıdırlar. Bununla bərabər, təhlükəsizliyin təmin olunması üçün bölgədə sülhməramlı qüvvələr yerləşdirilir. Ermənistanla Dağlıq Qarabağ arasında dəhlizin fəaliyyət göstərməsi və digər məsələlər nəzərdə tutulur. Yəni, məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan torpaqları işğal altından çıxır və beləliklə, Azərbaycanın ərazi bütövlüyünün bərpası nəzərdə tutulur.

O ki qaldı, Dağlıq Qarabağın son statusuna, bu, gələcəyin işidir. Azərbaycan tərəfi dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağın Azərbaycandan kənarda heç bir statusuna Azərbaycan heç vaxt öz razılığını verməyəcək və beynəlxalq hüquq normaları bu mövqeyi müdafiə edir. Əgər Ermənistan tərəfi konstruktivlik nümayiş etdirərsə və beynəlxalq normalara hörmətlə yanaşarsa, bütün beynəlxalq təşkilatların qətnamələrinə riayət edərsə və başqa ölkənin torpaqlarından öz işğalçı qüvvələrini çıxararsa, o zaman məsələ öz həllini tezliklə tapa biləcəkdir. O zaman Ermənistanla Azərbaycan arasında sülh yaranacaq, bütün kommunikasiyalar açılacaq və bölgəyə geniş mənada əməkdaşlıq gələcəkdir. Biz bunu arzulayırıq və Ermənistan tərəfindən konstruktiv addımları gözləyirik.

Abdullah GÜL: Bəli, hörmətli Prezident izah etdi, onun dediklərinə mən də eynilə qatılıram. Viza ilə bağlı məsələni təbii ki, müzakirə etdik. Hazırkı durumda Azərbaycanın bəzi mülahizələri vardır ki, bu məsələləri aidiyyatı qurumlarımız müzakirə edəcəklər və ümid edirəm ki, bu iş yaxın zamanlarda başa çatacaqdır.

Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı şübhəsiz ki, çox geniş müzakirələr apardıq, son vəziyyəti cənab Prezident ətraflı şəkildə izah etdi. Əminik ki, biz Qafqazı sabit əməkdaşlıq bölgəsinə çevirəcəyik. Bunun üçün də bu problem həll edilməlidir. Bu münaqişə 18 ildir bu qaydada davam etmişdir, bundan sonra belə davam etməməlidir. Bunun üçün mütləq görüşmək, müzakirə aparmaq, bəzən açıq, bəzən gizli diplomatik fəaliyyət göstərmək lazımdır. Şübhəsiz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Bunu hər kəs bilməlidir. Çünki BMT-nin tanıdığı sərhədlərin hər hansı şəkildə başqa bir ölkə tərəfindən işğalı nə beynəlxalq hüquq tərəfindən qəbul edilə, nə də hər hansı şəkildə müsbət qarşılana bilər. Bu baxımdan bu problemin həlli üçün hamımız hər cür kömək göstərməyə davam edəcəyik.

Sevinc İsgəndərova (Space TV): Mənim sualım Türkiyə Prezidenti cənab Abdullah Gülədir. Hörmətli cənab Prezident, bundan əvvəl mediada 2010-cu il sentyabrın 11-17-də NATO çərçivəsində Ermənistanda keçiriləcək təlimlərlə bağlı Türkiyə-Ermənistan sərhədinin açılması ehtimalı barədə məlumatlar getmişdi. Bu məsələyə münasibətinizi bildirməyi xahiş edirik. Təşəkkür edirəm.

Abdullah GÜL: Bu mövzunu bir az əvvəl də müzakirə etdik. Qafqazın sabitlik və əməkdaşlıq bölgəsinə çevrilməsi üçün bütün problemləri müzakirə etməyimiz, bunları sülh şəraitində həll etməyimiz vacibdir. Bütün bunlar bölgədə daha geniş əməkdaşlığa, bölgədə sərhədlərin açılmasına, yeni yolların çəkilməsinə, daha böyük iqtisadi fəaliyyətə imkan verəcəkdir. Bunun üçün hamımız birlikdə bu fəaliyyəti həyata keçiririk. Bəzən siz görürsünüz, açıq müzakirə edirik. Bəzən də sizin görmədiyiniz, - diplomatiya belədir, böyük problemlər, çox mühüm problemlər belə həll olunur - səssiz, amma qətiyyətli fəaliyyətlə həll olunur.

Ümid edirəm ki, bölgədəki bütün problemlər həll edilməndən sonra daha geniş əməkdaşlıq məkanı ortaya çıxacaqdır. O zaman mövcud yollardan əlavə yeni yollar, yeni dəmir yolları çəkiləcəkdir. Bu bölgə inanılmaz şəkildə çox cəlbedici əraziyə çevriləcəkdir və bölgədəki bütün xalqlar daha firavan yaşayacaq, daha xoşbəxt olacaqdır.

TÜRKİYƏ AZƏRBAYCANIN MARAQLARINA ZİDD ADDIMLAR ATMAYACAQ VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ƏDALƏTLİ HƏLLİ ÜÇÜN SƏYLƏRİNİ ƏSİRGƏMƏYƏCƏKDİR

Türkiyə Respublikasının Prezidenti Abdullah Gül avqustun 16-da Milli Məclisə gəlmişdir.

Ali qonağı parlamentin binası önündə Milli Məclisin sədri Oqtay Əsədov, sədrin müavinləri və digər rəsmi şəxslər qarşıladılar.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov və Türkiyə Prezidenti Abdullah Gül arasında görüş olmuşdur.

Parlamentin sədri Oqtay Əsədov dost və qardaş ölkənin dövlət başçısı Abdullah Gülün Azərbaycana rəsmi səfərə gəlməsindən məmnun qaldığını bildirmişdir. Milli Məclisin sədri demişdir ki, eyni dilə, dinə, mədəniyyətə, soykökə malik olan xalqlarımız arasında münasibətlər ən yüksək səviyyədədir. Bu cür səfərlər ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirir. Ölkələrimiz arasında 148 mühüm sənəd imzalanmışdır. Bu gün isə strateji əməkdaşlığa dair yeni bir sənəd imzaladıq. Bu sənədlər bizim ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsi və inkişaf etməsi üçün hüquqi baza yaratmışdır. Bu, eyni zamanda, Azərbaycan və Türkiyə parlamentlərarası dostluq qruplarının işinin daha da fəallaşmasına təkan verir. Azərbaycan və Türkiyə deputatları beynəlxalq təşkilatlar çərçivəsində də bir-birilərinə dəstək olurlar. Biz Strateji Əməkdaşlıq Şurasının yaradılması istiqamətində də işlərimizi davam etdiririk və düşünürəm ki, yaxın vaxtlarda məqsədimizə nail olacağıq. Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilmiş zirvə toplantısında qəbul olunmuş qərarlar buna geniş imkanlar yaradır. Ötən il yaratdığımız Türkdilli Ölkələrin Parlament Assambleyası da bu baxımdan mühüm əhəmiyyət kəsb edir və inanırıq ki, biz öz məqsədlərimizə çatacağıq.

Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş etdirdiyi mövqeyə görə Türkiyə Prezidentinə bir daha minnətdarlıq etmiş və bildirmişdir ki, xalqımız bu mövqeyi yüksək qiymətləndirir.

Türkiyə Prezidenti Abdullah Gül Azərbaycana hər gəlişində müşahidə etdiyi dinamik inkişafdan, müsbət dəyişikliklərdən qürur duyduğunu bildirmişdir. O demişdir ki, ölkələrimiz arasındakı qardaşlıq sözdə deyil, əməldə öz təsdiqini tapmışdır. Mən bura gəlməmişdən əvvəl Şəhidlər xiyabanını və Türk şəhidliyini ziyarət etdim. Burada Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda canlarından keçmiş insanlar dəfn olunublar. Bu, o deməkdir ki, Azərbaycan-Türkiyə qardaşlığını şəhid qanları birləşdirir. Bu isə bir daha sübut edir ki, qardaşlığımız daimidir, əbədidir, ölməzdir.

Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını vurğulayan Abdullah Gül ölkələrimizin parlamentləri arasında əlaqələri yüksək qiymətləndirmişdir. Ali qonaq bildirmişdir ki, parlamentlərarası dostluq qruplarının, ayrı-ayrı komitələrin birgə toplantılarının təşkili yüksək fayda verə bilər.

Oqtay Əsədov dostluq qruplarının və komitələrin birgə toplantılarının keçirilməsi üçün proqram hazırlandığını və bu məsələnin tezliklə həllini tapacağını bildirmişdir.

Abdullah Gül onu da qeyd etmişdir ki, Türkiyə Azərbaycanın maraqlarına zidd addımlar atmayacaq və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün səylərini əsirgəməyəcəkdir.

Sonda Türkiyə Prezidenti Milli Məclisin fəaliyyətinə uğurlar arzulamışdır.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 16-da onun üçün ayrılmış iqamətgahda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə görüşmüşdür.

Prezident Abdullah Gül və şeyxülislam Allahşükür Paşazadə mübarək Ramazan ayı münasibətilə təbriklərini çatdırmışlar.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuşdur

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Xəbər verdiyimiz kimi, avqustun 16-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Sizi, əziz cənab Prezident, Azərbaycanda bir daha ürəkdən salamlayıram. Sizə bir daha "Xoş gəlmisiniz" deyirəm. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu, dostun, qardaşın səfəridir. Şübhə yoxdur ki, bu səfər Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərə çox müsbət təsir göstərəcəkdir. Gələcək əməkdaşlığımızın genişləndirilməsi üçün bu səfərin çox böyük əhəmiyyəti vardır.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr xüsusi xarakter daşıyır. Bu, iki dost, qardaş xalq arasında olan münasibətlərdir. Əsrlər boyu xalqlarımız bir yerdə yaşamışlar, yaratmışlar, həmişə bir-birinə dəstək, dayaq olmuşlar. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil ölkə kimi ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr çox sürətlə inkişaf etmiş, demək olar ki, bütün sahələri əhatə etmiş və bu gün strateji müttəfiqlik səviyyəsinə qalxmışdır.

Bu illərdə həm siyasi, həm iqtisadi sahələrdə, mədəni sahədə, bütün sahələrdə çox gözəl nəticələr vardır. Biz beynəlxalq təşkilatlarda daim bir-birimizə dəstək oluruq. Bütün beynəlxalq təşkilatlarda daim bir mövqedən çıxış edirik. İstər BMT, istər İslam Konfransı Təşkilatı, digər təşkilatlarda həmişə, bütün zamanlarda Türkiyə və Azərbaycan vahid mövqedən çıxış etmişlər. Bölgədə gedən proseslərə də baxışlarımız eynidir, heç bir fikir ayrılığı yoxdur. Daim məsləhətləşmələr aparırıq və regional əməkdaşlığın dərinləşməsi üçün Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr həlledici rol oynayır. Məhz bizim irəli sürdüyümüz təşəbbüslər nəticəsində bu gün bölgədə tam yeni və müsbət vəziyyət yaranmışdır.

Regional əməkdaşlıq prosesləri müsbət istiqamətdə davam edir. Bizim tərəfimizdən irəli sürülmüş konkret layihələr öz bəhrəsini verir, bölgəyə rifah və təhlükəsizlik gətirir. Bunların içərisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin xüsusi yeri vardır. Məhz bu kəmər vasitəsilə bu gün bütün bölgədə əməkdaşlıq dərinləşir. Regional çərçivədə bu kəmərin tikintisində iştirak etmiş bütün ölkələr öz xeyrini götürürlər.

Bu kəmərin tikintisi nəticəsində bölgədə geosiyasi və geoiqtisadi vəziyyət müsbət istiqamətə doğru dəyişmişdir. Bunun ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəməri və digər layihələr dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndirdi. Bu gün bu, artıq mövcud reallıqdır. Bu reallıq bütün bölgədə gedən proseslərə müsbət təsir göstərir. Bizim - Türkiyə və Azərbaycanın təsir imkanları genişlənir. Mən əminəm ki, gələcək illərdə bizim mövqeyimiz daha da möhkəmlənəcəkdir. Bu, artıq bir yoldur, bir dəhlizdir. Bu dəhliz bizə yeni layihələri həyata keçirməyə imkan verir. Bu gün biz Sizinlə bu barədə geniş fikir mübadiləsi apardıq. Gələcək illərdə birgə fəaliyyətlə bağlı bütün planlar nəzərdə tutulub və qarşılıqlı addımlar atılacaqdır.

Mən çox şadam ki, strateji müttəfiqliyimiz, münasibətlərimiz bax, belə uğurla davam edir. Bu gün isə bu əlaqələrin gələcək inkişafı üçün çox mühüm və tarixi sənəd imzalanmışdır. Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmışdır. Bu müqavilənin həyata keçirilməsi nəticəsində, şübhə yoxdur ki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri daha da möhkəmlənəcəkdir. Bu müqavilənin çox böyük əhəmiyyəti vardır və əminəm ki, hamımız bu gözəl nəticələri görəcəyik.

Bu gün biz, eyni zamanda, türkdilli ölkələrin birgə fəaliyyəti haqqında da geniş fikir mübadiləsi apardıq. Bu məsələ ilə də bağlı mövqeyimiz üst-üstə düşür. Biz bütün məsələlərdə işlərimizi qarşılıqlı anlaşma əsasında qururuq.

Sizi, əziz qardaşım, Bakıda görmək bizim hamımız üçün böyük şərəfdir, böyük xoşbəxtlikdir. Biz Sizi Azərbaycanın böyük dostu kimi tanıyırıq. Əvvəlki vəzifədə çalışdığımız dövrdə Siz Azərbaycanda dəfələrlə olmusunuz. Prezident kimi bir neçə dəfə səfərə gəlmisiniz. Mənim Türkiyəyə səfərlərim də mütəmadi xarakter daşıyır. Belə də olmalıdır. Biz bir ailənin üzvləriyik. Bizim tariximiz münasibətlərimizin bugünkü və gələcək inkişafı üçün əsas şərtdir. Bu, böyük, möhkəm təməldir. Bizi birləşdirən tarix, mədəniyyət, din, dil, siyasi maraqlar - bütün bu amillər nadir vəziyyət yaradır. Hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünyada analoqu olmayan münasibətlərdir. Bu münasibətlər nəinki ölkələrimizi gücləndirir, eyni zamanda, bölgədə və dünyada gedən proseslərə də müsbət təsir göstərir.

Bir daha Sizi və Sizinlə bərabər Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı ürəkdən salamlayıram. Sizə və bütün türk xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ

- Hörmətli Prezident, dəyərli qardaşım İlham Əliyev!

Dəyərli qonaqlar!

Bu gün Azərbaycanda olmaqdan və bu rəsmi səfəri etməkdən böyük məmnunluq duyuram. Gəldiyimiz andan bəri mənə və heyətimə göstərilən yüksək dostluq, qardaşlıq və qonaqpərvərlik üçün Sizin şəxsinizdə bütün azərbaycanlı qardaşlarıma təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətləri sözlə ifadə olunandan daha da yüksəkdədir. Çünki hamımız bilirik ki, biz çox böyük bir millətin parçalarıyıq. Yəni, vahid bir millətin iki ayrı dövlətiyik. Bu mənada əlaqələrimiz də bir millətə sahib olan, kökü, dili, dini, soyu bir olan iki dövlətin münasibətlərinə aid edilə biləcək şəkildə olmalıdır.

Azərbaycan müstəqilliyini bərpa etdiyi andan etibarən Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər daim bu səviyyədə, bu anlayışda və ruhda davam etməkdədir. Əvvəlki illərdə də bütün türk gəncliyinin könlündə və qəlbində Bakı və Azərbaycan olmuşdur. Bəlkə o zaman bunları açıq ifadə edə, gedib-gələ bilmirdilər. Bu gün bunu bilirik ki, hər sahədə - siyasi, iqtisadi, mədəni, təhsil, təhlükəsizlik və müdafiə sahələrində, Silahlı Qüvvələrimizin birgə təhsili və bir-birilərinə köməyi sahəsində iki ölkə böyük bir həmrəylik içərisindədir. Beynəlxalq platformalarda daim iki ölkə sanki bir ölkə kimi hərəkət edir və hər ikisi bir-birini daim gözübağlı dəstəkləyir və dəstəkləməkdə də davam edəcəkdir.

Şübhəsiz ki, Azərbaycanın problemi Türkiyənin problemidir. Türkiyənin dərdi Azərbaycanın dərdi olacaqdır. Sizin uğurunuzla biz daim öyünəcəyik. Bizim uğurlarımız da sadəcə bizim üçün deyil, sizin üçün də qürur mənbəyi olacaqdır.

Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi sadəcə sizin məsələniz deyil, hamımızın məsələsidir. Bu barədə birgə müzakirələr aparır, birgə fəaliyyət göstəririk. Qafqazda sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olması, işğalın sona çatması üçün Türkiyə əlindən gələn bütün səyləri göstərməyə davam edəcəkdir.

Bakıya hər gəlişimdə şəhərin həqiqətən çox dəyişdiyini və sürətli bir yeniləşmə prosesi içərisində olduğunu görmüşəm. Bu səfər də eyni şəkildə oldu. Bu səfər çərçivəsində Sizin yay sarayında günorta toplantılar keçirdik, oradan Fəxri xiyabana, rəhmətlik atanız Heydər Əliyevin məzarını ziyarətə və Milli Məclisə görüşə gedərkən Bakıda gördüklərimiz həqiqətən bizi çox qürurlandırdı. İnşası başa çatmış binalar, yeni salınmış yollar Azərbaycandakı, Bakıdakı tərəqqi və inkişafı açıq-aydın göstərir. Bunun üçün başda Zati-aliləri olmaqla hamınızı təbrik etmək istəyirəm.

Bakının gündüzü gözəldir, amma gecəsi daha çox gözəldir. Qayıdanda təbii ki, bu gözəlliyi daha çox yaşayacağıq, hər tərəf aydınlıq olacaqdır. Bunlar sadəcə sizi deyil, təbii ki, bizi də qürurlandırır. Bütün qardaş respublikaların, böyük millətin bütün dövlətlərinin uğurları hamımız üçün qürur qaynağıdır.

Birlikdə böyük layihələr həyata keçirdik. Bunları bir zamanlar yuxu adlandıranlar, bunlar həyata keçməz deyənlər bu gün bunların iki ölkəni bir-birinə necə birləşdirdiyini heyrətlə görürlər. Enerji sahəsində neft-qaz kəmərləri, nəqliyyat sahəsində dəmir yolu, - artıq Naxçıvanla İğdırı birləşdiririk, - bütün bunlar çox böyük layihələrdir. Bakı-Tbilisi-Qars dəmir yolu sadəcə üç ölkəni bir-birinə bağlamır, əslində Orta Asiyanı, Çini İn-

giltərəyə bağlayır. "Mərmərə ray" xəttinin başa çatması ilə qatarlar birbaşa Bakıdan çıxacaq, La-Manş boğazını keçərək Londona yetişəcəkdir. Qazaxıstanın, Çinin bu layihəyə nə qədər böyük maraq göstərdiyini hamımız bilirik. Bunun təməlini birlikdə Qarsda atmışdıq, inşallah, 2012-ci ildə də açılışını hamımız birlikdə həyata keçirəcəyik. Avtomobil yolları, avtobanlar, bütün bunlar yenə də ölkələrimizi birləşdirməyə davam etməkdədir.

Sizin Türkiyədə, bizim burada qoyduğumuz sərmayələr hər kəsin gözünü qamaşdırır. Bütün bunlar hər kəsə bölgəni örnək göstərəcək fəaliyyətlərdir. Bunların hamısı ilə qürur duyuram. İnanıram ki, bu həmrəyliyimiz daha çox gözəl layihələrin ortaya çıxmasına səbəb olacaqdır.

Bu gün imzaladığımız strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə hər bir məsələdə həmrəy və bərabər olmağımızı nəzərdə tutur. Bu müqavilə bütün bölgə və dünya üçün çox önəmlidir. Bu müqavilədə nəzərdə tutulanlar sülh, sabitlik, əmin-amanlıq gətirəcəkdir və bunlardan da əlavə böyük iqtisadi dirçəlişə səbəb olacaqdır.

Mən bir daha türk xalqının bütün azərbaycanlı qardaşlarına sevgilərini və məhəbbətlərini ifadə edirəm. Ramazan bayramınız mübarək olsun! Bu gözəl, mübarək aylar sadəcə türk respublikalarına və islam ölkələrinə deyil, bütün insanlığa xeyir gətirsin.

Göstərdiyiniz yüksək qonaqpərvərliyə görə dostlarım və heyətim adından bir daha təşəkkür edirəm.

TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 17-də onun üçün ayrılmış iqamətgahda Baş nazir Artur Rasizadəni qəbul etmişdir.

Türkiyə Prezidenti Abdullah Gül qardaş ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu, Azərbaycanın sürətli inkişafından məmnunluğunu bildirərək, ikitərəfli münasibətlərin siyasi, təhlükəsizlik, iqtisadi və mədəni sahələrdə get-gedə inkişaf etdiyini söyləmişdir. Bu münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

Görüşdə Qafqazın sabitliyi və təhlükəsizliyi üçün Türkiyənin həyata keçirdiyi tədbirlər yüksək qiymətləndirilmişdir. Türkiyə Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyini, ölkəsinin bu məsələdə daim Azərbaycanın yanında olduğunu vurğulamışdır.

Baş nazir Artur Rasizadə əmin olduğunu bildirmişdir ki, Türkiyə Prezidentinin bu səfəri hər iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı işgüzar əlaqələrin genişləndirilməsinə xidmət edəcəkdir.

Qeyd olunmuşdur ki, səfər nəticəsində əldə edilmiş razılaşmalar Türkiyə ilə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətlərinin daha da inkişafı üçün çox mühüm rol oynayacaqdır.

TƏZƏPİR MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞLIQ

Avqustun 17-də Türkiyə Prezidenti Abdullah Gül Azərbaycana rəsmi səfəri çərçivəsində Təzəpir məscid kompleksində olmuşdur.

Ali qonağı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşıladı.

Prezident Abdullah Gül Təzəpir məscid kompleksi ilə tanış oldu. Məlumat verildi ki, Prezident İlham Əliyevin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanmış, burada onun ilkin görkəminə qaytarılması məqsədi ilə əzəli memarlığına xələl gətirməyən elementlərin əlavə edilməsi əksini tapmışdı. Məscidin bərpasında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq oriyentalistikasının nadir nümunələrindən istifadə olunmuşdur.

Təzəpir məscidinin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Yuxarı hissədə "La İlahə-İlləllah" kəlməsi 6 dəfə təkrar olunmuş günbəzin tən ortasında Qurani-Kərimdən "Nas", dairələrdə "Ayətül-kürsü", kiçik gümbəzlərdə isə "Həmd" surələri həkk edilmişdir.

Türkiyə dövlətinin başçısına 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu tərəfindən Bakının erməni-daşnak işğalından azad edilməsi, həmin Ordunun komandanı general Nuru paşanın sentyabrın 16-da - Qurban bayramı günü bu məscidə gələrək minbərdən yerli əhalini salamlaması haqqında da ətraflı məlumat verildi. Bildirildi ki, həmin çıxışında Bakının xilası münasibətilə yerli əhalini təbrik edən Nuru paşa həlak olmuş türk əsgərlərinin qanının azərbaycanlıların qanı ilə qarışmasının tarixi əhəmiyyətini vurğulamışdır.

Sonra Prezident Abdullah Gülə kompleksə daxil olan Bakı İslam Universitetinin tədris korpusu haqqında məlumat verildi. Bildirildi ki, korpusun hər mərtəbəsində 10 sinif otağı olmaqla 250 tələbənin təhsil alması üçün hər cür şərait yaradılmışdır.

Türkiyə Prezidenti kompleksdə Qafqaz Müsəlmanları İdarəsinin kitabxanası ilə tanış oldu. Kitabxanadakı 6 min nüsxə nadir əlyazma haqqında ali qonağa ətraflı məlumat verildi. Qeyd olundu ki, kitabxananın bir hissəsində dini verilişlərin hazırlanması üçün mini studiya yerləşir.

Prezident Abdullah Gül burada nümayiş olunan qədim kitablara, Təzəpir məscidi haqqında CD-lərə baxdı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Ali qonağa xatirə hədiyyələri təqdim olundu.

TÜRKİYƏ PREZİDENTİ "AZƏR-TÜRK BANK"IN BAKIDA YENİ BAŞ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Prezidenti Abdullah Gül avqustun 17-də "Azər-Türk Bank"ın Bakıda yeni baş inzibati binasının açılışında iştirak etmişdir.

"Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Mehmet Sami Acarözmen, bankın müşahidə şurasının sədri, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və Türki-

yənin Ziraat Bankının müşahidə şurasının sədri Müharrem Karslı ulu öndər Heydər Əliyevin xeyir-duası ilə 1995-ci ildə açılmış "Azər-Türk Bank"ın ölkələrimiz arasında iqtisadi münasibətlərin genişləndirilməsində mühüm rol oynadığını bildirmişlər.

"Azər-Türk Bank"ın respublikamızda dörd filialının fəaliyyət göstərməsi və yeni baş inzibati binasının açılışı Prezident İlham Əliyevin Azərbaycanda sahibkarlığın inkişafına hərtərəfli qayğısının əyani təzahürü kimi yüksək qiymətləndirilmişdir.

Prezident Abdullah Gül Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və səmərəli əməkdaşlığın yüksək səviyyədə olduğunu, "Azər-Türk Bank" və digər iqtisadi qurumların timsalında iqtisadi əlaqələrin durmadan genişləndiyini vurğulamışdır.

Bankın fəaliyyətini xüsusi qeyd edən Abdullah Gül demişdir: "Bu bank balığı tutub vermir, hər kəsə balıq tutmağı öyrədir. Yəni iş adamı, təşəbbüsçü, sahibkar formalaşdırır, onların sayını artırır".

Sonra rəmzi açılışı bildirən lent kəsilmişdir.

Türkiyə dövlətinin başçısı yeni inzibati binada yaradılmış iş şəraiti ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti "Aqrarkredit" Səhmdar Kredit Təşkilatı - Azərbaycan Respublikasının keçmiş Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı və Türkiyənin Ziraat Bankı Anonim Şirkəti tərəfindən 1995-ci ildə təsis edilmiş və həmin il iyulun 11-dən fəaliyyətə başlamışdır. Hazırda bankın nizamnamə kapitalı 10 milyon manatdır. Bankın dörd filialı vardır. Onlardan ikisi Bakıda, digərləri isə Gəncə və Naxçıvanda fəaliyyət göstərir.

Bildirilmişdir ki, ötən 15 ildə "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti Azərbaycanın bank sektorunda fəal mövqeyi ilə seçilmiş, ildən-ilə aktivlərini, kredit qoyuluşunu, mənfəətini və kapital ehtiyatlarını artıraraq müsbət inkişaf dinamikası nümayiş etdirmişdir.

Türkiyə dövlətinin başçısı "Azər-Türk Bank"ın əməkdaşlarına yeni uğurlar arzulamışdır.

Sonda mərasim iştirakçıları Prezident Abdullah Gül ilə xatirə şəkli çəkdirmişlər.

ZAQATALA BEYNƏLXALQ HAVA LİMANINDA QARŞILANMA

Türkiyə Prezidenti Abdullah Gül Azərbaycana rəsmi səfəri çərçivəsində avqustun 17-də respublikamızın şimal-qərb bölgəsində olmuşdur.

Türkiyə dövlətinin başçısının Azərbaycanın bu bölgəsinə səfəri Zaqataladan başlamışdır.

Zaqatala Beynəlxalq hava limanında Prezident Abdullah Gülü böyük səmimiyyətlə qarşıladılar.

Məlumat verildi ki, Zaqatala Beynəlxalq hava limanının təməli 2006-cı ildə qoyulmuşdur. Hava limanının ümumi torpaq sahəsi 70,2 hektar, uçuş-enmə zolağının uzunluğu isə 2200 metrdir. Hava limanında inşaat işlərini dövlət vəsaiti hesabına Türkiyənin "Zema" şirkəti və "AZVİRT" firması görmüşlər. Bu nəqliyyat terminalının tikintisinə 22 milyon manat vəsait xərclənmişdir. Dördmərtəbəli inzibati bina birinci dərəcəlidir və

saatda 120 sərnişinə xidmət göstərir. Ölkənin şimal-qərb bölgəsindəki bu müasir hava limanı 2008-ci ilin sentyabrında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. Hava limanında 120 nəfər işlə təmin edilmişdir.

Sonra ali qonaq və onu müşayiət edən nümayəndə heyəti Şəkiyə yola düşdü.

QAXDA YUNUS ƏMRƏ VƏ HACI TAPDIĞIN MƏZARLARINI ZİYARƏT

Avqustun 17-də Türkiyə Prezidenti Abdullah Gül Zaqataladan Şəkiyə gələrkən yolüstü Qax rayonunun Oncallı kəndindəki oğuz qəbiristanlığında şeyx Yunus Əmrə və onun mürşidi Hacı Tapdığın məzarlarını ziyarət etmişdir.

Prezident Abdullah Gül hər iki məzarın üzərinə gül dəstəsi qoydu.

Sonra qəbiristanlığı gəzən ali qonağa məlumat verildi ki, sufi şeirinin görkəmli nümayəndəsi olan Yunus Əmrə böyük türk xalqının yetirdiyi ən parlaq simalardan biridir. XIII-XIV əsrlərdə yaşayan Yunus Əmrənin yaradıcılığı türk şeirinin inkişafına çox böyük təsir göstərmişdir. Mənbələrdə göstərilir ki, övliyalıq məqamına yüksələrək həyatı əfsanələşən Yunus Əmrənin təkcə Anadoluda 10 müxtəlif ərazidə məzarı vardır. Belə ziyarət yerlərindən biri də Azərbaycanın Qax rayonu ərazisində, Oncallı kəndindəki oğuz qəbiristanlığıdır. Ömrünün böyük hissəsini Anadoluda keçirən şair islami dəyərləri yaşatmaq məqsədi ilə dünyanı gəzmiş, mənəvi rahatlığını Oncallı kəndində dövrünün ən mötəbər ruhani şəxsiyyətlərindən biri olan Hacı Tapdığa müridlik etməklə tapmışdır. Şeyx Yunus Əmrə və onun mürşidi Hacı Tapdığın məhz bu qəbiristanlıqda dəfn olunduğu ehtimal edilir. Onların məzarları sonradan müridləri tərəfindən abadlaşdırılmışdır. Yerdən bir metr hündürlüyündə çay daşından tikilmiş, hörgü ilə əhatələnmiş hər iki məzar müqəddəs sayılır və ziyarət edilir.

Anadolu türkcəsində yazan Yunus Əmrənin şeirlərinin dil xüsusiyyətləri Oğuz türklərinin məkanı olan Qax rayonu əhalisinin dil xüsusiyyətləri ilə eynilik təşkil edir. Şairin ədəbi və ictimai fəaliyyəti ilə əlaqədar mərkəzlərdən birinin XIII-XIV əsrlərdə Oncallı kəndində meydana gəlməsi, müqəddəs məkan kimi bu gün də yad edilməsi bir daha Azərbaycan türkləri ilə Anadolu türklərinin eyni mədəniyyətli qardaş xalq olduğunu sübut edir. Yunus Əmrənin və Hacı Tapdığın məzarları bu gün də yerli əhali tərəfindən müqəddəs bir məkan kimi qorunur və ziyarət edilir.

Sonra Türkiyə Prezidenti Abdullah Gül və onu müşayiət edən şəxslər Şəki şəhərinə gəlmişlər.

QƏDİM VƏ MÜASİR ŞƏKİ İLƏ TANIŞLIQ

Avqustun 17-də Şəkiyə gələn Türkiyə Prezidenti Abdullah Gül şəhər icra hakimiyyətinin binası qarşısında ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu, ulu öndərin xatirəsini ehtiramla yad etdi.

Sonra ali qonaq Şəkinin Orta Zəyzid kəndi ərazisində türk əsgərinin abidə kompleksini ziyarət etdi.

Prezident Abdullah Gül abidənin önünə gül dəstəsi qoydu.

Bildirildi ki, bu abidə XX əsrin əvvəllərində xalqımızı erməni qəsbkarlarından xilas etmək məqsədi ilə Azərbaycana gəlmiş türk ordusunun şəhid əsgərinin şərəfinə ucaldılmışdır. Abidənin ətrafında geniş abadlıq işləri görülmüş, 2002-ci ildə məzarüstü abidə kompleksi yaradılmışdır.

Türkiyə Prezidenti Abdullah Gül daha sonra Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycan və Dağıstandakı hərəkatı və ölkəmizdəki türk şəhid məzarlıqlarının yerləşdiyi stendə baxdı.

Qardaş ölkənin dövlət başçısı Şəkinin mərkəzi parkında xalq şairi Bəxtiyar Vahabzadənin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Məlumat verildi ki, XX əsr Azərbaycan poeziyasının ən parlaq simalarından biri olan Bəxtiyar Vahabzadə milli mədəniyyətimizin təbliği və ədəbi irsimizin dünyada tanıdılması sahəsində əvəzsiz xidmətlər göstərmişdir. Şair Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi işinə də böyük töhfələr vermişdir. Bəxtiyar Vahabzadənin vəfatının ildönümü ilə bağlı bu il qardaş Türkiyədə də silsilə anma tədbirləri keçirilmişdir.

Prezident Abdullah Gül parkda Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşdü, onlarla səmimi söhbət etdi. Türkiyə Prezidenti Azərbaycana səfərindən məmnun qaldığını, ölkələrimizin dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyini bildirdi. Diqqətə çatdırıldı ki, bu səfər Türkiyə-Azərbaycan münasibətlərinin inkişafına yeni töhfələr verəcəkdir.

Prezident Abdullah Gül XIX əsrin tarixi-memarlıq abidəsi olan Şəki Cümə məscidinə və burada fəaliyyət göstərən Şəki İslam Mədrəsəsinə də baş çəkdi. Ali qonağa məscid və mədrəsə barədə ətraflı məlumat verildi, ona xatirə hədiyyəsi təqdim olundu. Prezident Abdullah Gül məscidin həyətində mədrəsədə təhsil alan hafizlərlə xatirə şəkli çəkdirdi.

Şəki Xan sarayı ilə tanışlıq zamanı Türkiyə Prezidenti Abdullah Gülə məlumat verildi ki, XVIII əsrə aid olan bu nadir tarixi-memarlıq abidəsi şəhərin yuxarı hissəsində, "Yuxarı baş" Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşir. Şərq memarlığının nadir incisi hesab olunan bu saray Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi, "Müştaq" təxəllüsü ilə şeirlər yazan Hüseyn xanın dövründə, təqribən 1762-ci ildə tikilmişdir. İnşaat texnologiyasına görə Xan sarayının dünyada bənzəri yoxdur. Tikinti zamanı mismar və yapışqandan istifadə olunmamışdır. Hər kvadratmetr şəbəkə bir-birinə geydirilən 5 min hissədən ibarətdir. Saray 1300 metr uzunluğunda qala divarları ilə əhatə olunmuşdur. Üç yüz kvadratmetr ərazisi olan ikimərtəbəli sarayda 6 otaq, 4 dəhliz və 2 güzgülü eyvan vardır. Sarayda xalq təsviri sənətinin bir çox növləri, xüsusilə XVIII-XIX əsrlərə aid maraqlı divar rəsmləri diqqəti cəlb edir. Bu rəsmlər əsasən həndəsi, nəbati, habelə süjetli və quşların təsviri həkk olunmuş naxışlardan ibarətdir. Sarayın ikinci mərtəbəsinin divarlarında təsvir olunan döyüş və ov səhnələri xüsusilə maraq doğurur. Şəki Xan sarayı indiyədək 5 dəfə əsaslı bərpa edilmişdir.

Türkiyə dövlətinin başçısı sarayın eyvanından Şəkinin qədim məhəllələrini seyr etdi.

Prezident Abdullah Gülə Xan sarayının təsvir olunduğu rəsm əsəri hədiyyə edildi.

Ali qonaq Xan sarayının xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra Prezident Abdullah Gül XVIII əsrdə Şərq memarlığı üslubunda tikilmiş Yuxarı Karvansaray mehmanxana kompleksi ilə tanış oldu, Şəkinin tanınmış ziyalıları ilə görüşüb söhbət etdi.

Məlumat verildi ki, Şəki sənətkarlıq və ticarət şəhəri olduğundan XVIII-XIX əsrlərdə burada çoxlu sayda bazar və karvansaraylar tikilmişdir. Azərbaycana gələn tacir və səyyahların qaldıqları və əsasən ticarətlə məşğul olduqları bu karvansaraylar şəhər həyatında mühüm yer tuturdu. Şəhər karvansarayları həm də ticarət sazişlərinin bağlanılması üçün xüsusi yer hesab olunurdu. Əvvəllər Şəkidə 5 karvansaray binası mövcud olmuşdur. Onlardan yalnız ikisi - Yuxarı və Aşağı karvansaraylar indiyədək qalmışdır. Ümumi sahəsi 6 min kvadratmetr, hündürlüyü 14 metr olan kompleks 300-dən artıq otaq və zirzəmidən ibarətdir. Yuxarı Karvansaray öz ölçüləri və həcminə görə Azərbaycan ərazisində mövcud olan ən böyük karvansaray hesab edilir. Bu karvansaraya bir qayda olaraq Türkiyə, Rusiya və İrandan tacirlər gəlir, burada uzun müddət ticarətlə məşğul olurdular. Hazırda bu tarixi abidə mehmanxana kimi fəaliyyət göstərir.

Həmin gün Türkiyə Prezidenti Zaqatala şəhərinə qayıtdı.

SƏFƏR BAŞA ÇATDI

Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana ikigünlük rəsmi səfəri avqustun 17-də başa çatmışdır.

Zaqatala beynəlxalq hava limanında ali qonağı respublikamızın şimal-qərb bölgəsinə səfərdə müşayiət edən Baş nazirin müavini Abid Şərifov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

LİTVA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN HƏRTƏRƏFLİ İNKİŞAFINDA MARAQLIDIR

Litva Respublikası Milli Dirçəliş Partiyasının sədri, Litva Seyminin xarici əlaqələr komitəsinin və Litva-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Arunas Valinskasın rəhbərliyi ilə Bakıda səfərdə olan nümayəndə heyəti avqustun 16-da Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşmüşlər.

Komitənin sədri Səməd Seyidov qonaqlara Azərbaycan parlamentinin yaranma tarixi, fəaliyyəti, beynəlxalq əlaqələri barədə ətraflı məlumat vermişdir. O demişdir ki, dövlətlərimiz və xalqlarımız arasında yaxşı dostluq münasibətləri vardır. Deputatlarımız beynəlxalq təşkilatlarda qarşılıqlı maraq kəsb edən məsələlərdə eyni mövqedən çıxış edirlər. Bu da dostluq əlaqələrimizin inkişafında mühüm rol oynayır.

Arunas Valinskas demişdir ki, səfərin məqsədi ölkələrimiz, xalqlarımız, eləcə də parlamentlərimiz arasında əlaqələrin inkişafına dair fikir mübadiləsi aparmaqdır. Litva Azərbaycan ilə siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə münasibətlərin genişlənməsində maraqlıdır.

Tərəflər əlaqələrin daha da genişlənməsi və möhkəmlənməsi üçün qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyətindən danışmışlar.

Görüşdə Azərbaycan və Litva xalqlarının azadlıq mübarizəsinin nəticələri, müstəqillik illərində əldə olunmuş nailiyyətlər, eləcə də təbii fəlakətlərin aradan qaldırılması və digər məsələlərdə birgə əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ LİTVA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ ÇOX SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİRLƏR

Azərbaycan və Litva Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində çox səmərəli əməkdaşlıq edirlər. Bu da ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasında və münasibətlərimizin möhkəmlənməsində mühüm rol oynayır.

Bu fikirlər ölkəmizdə səfərdə olan Litva Respublikası Milli Dirçəliş Partiyasının sədri, Litva Seyminin xarici əlaqələr komitəsinin və Litva-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Arunas Valinskasın başçılığı ilə Bakıda səfərdə olan nümayəndə heyətinin avqustun 16-da Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri ilə görüşündə səslənmişdir.

Komitənin sədri Əli Hüseynov demişdir ki, Azərbaycan parlamenti Avrozonaya daxil olan bütün ölkələrin parlamentləri ilə sıx əməkdaşlıq edir. Litva ilə əlaqələrimiz isə xüsusi səciyyə daşıyır. Biz "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində, eləcə də qanunvericilik bazasının təkmilləşdirilməsi, Avropaya inteqrasiya sahəsində olduqca səmərəli əməkdaşlıq edirik. "Azərbaycan Respublikasının normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun hazırlanmasında litvalı həmkarlarımızın, ekspertlərin böyük xidmətləri olmuşdur.

Dövlətlərimizin başçılarının, parlamentlərimizin rəhbərlərinin, hökumət üzvlərinin, deputatlarımızın qarşılıqlı səfərləri, görüşləri bütün sahələrdə əlaqələrimizin inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır. İstərdik ki, bu əməkdaşlıq qeyri-hökumət təşkilatları, siyasi partiyalar arasında da inkişaf etdirilsin.

Arunas Valinskas demişdir ki, parlamentlərimiz "Twining" layihəsi çərçivəsində də səmərəli əməkdaşlıq edirlər. Biz əməkdaşlığımızın daha da genişlənməsinin tərəfdarıyıq və Bakıya səfərin əsas məqsədi də bununla əlaqədar fikir mübadiləsi aparmaqdır. Azərbaycan sürətlə inkişaf edir. Bu da diqqətdən kənarda qala bilməz. Biz Azərbaycanın Avropaya inteqrasiyasına hər cür kömək göstərməyə hazırıq.

Görüşdə hökumət, parlament, qeyri-hökumət təşkilatları nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili, Azərbaycanın Şengen zonasına daxil edilməsi və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN MÜSTƏQİLLİK İLLƏRİNDƏ SÜRƏTLİ İNKİŞAF YOLU KEÇMİŞDİR VƏ BU SAHƏDƏ UĞURLARINI DAVAM ETDİRİR

Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir və dünya maliyyə böhranından ən az əziyyət çəkən ölkələrdəndir.

Bu fikir ölkəmizdə səfərdə olan Litva Respublikası Milli Dirçəliş Partiyasının sədri, Litva Seyminin xarici əlaqələr komitəsinin və Litva-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Arunas Valinskasın başçılığı ilə Bakıda səfərdə olan nümayəndə heyətinin avqustun 16-da Milli Məclisin iqtisadi siyasət komitəsinin üzvləri ilə görüşündə səslənmişdir.

Komitənin sədri, akademik Ziyad Səmədzadə demişdir ki, ölkələrimiz çətin proseslərdən keçərək müstəqilliklərini bərpa etmişlər. Bu gün həm Azərbaycan, həm də Litva dünya miqyasında dinamik inkişaf edən ölkələr kimi xarakterizə olunurlar.

Z.Səmədzadə demişdir ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. Ölkəmizin karbohidrogen ehtiyatları Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərləri ilə Qərb bazalarına çatdırılır. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi siyasət nəticəsində ölkəmiz qlobal maliyyə böhranının mənfi təsirlərini minimum həddə endirmişdir. Komitə sədri bildirmişdir ki, hələ iki il əvvəl Prezident İlham Əliyev tərəfindən antiböhran tədbirlərin hazırlanması ilə bağlı müvafiq dövlət strukturlarına tapşırıqlar verilmiş və konkret addımlar atılmışdır. Həyata keçirilən qabaqlayıcı tədbirlər, qeyri-neft sektorunun inkişafı, sahibkarlara dövlət dəstəyi, onlara verilən güzəştli kreditlər və digər bu kimi addımlar iqtisadiyyatın davamlı artımını təmin etmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Z.Səmədzadə Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüquq normalarına zidd olaraq torpaqlarımızın hələ də işğal altında saxlandığını, bir milyondan artıq insanın öz doğma yurd-yuvalarından didərgin düşdüyünü bildirmişdir. Qeyd olunmuşdur ki, münaqişənin aradan qaldırılması Azərbaycanın daha sürətlə inkişaf yolunda ciddi maneədir.

Arunas Valinskas demişdir ki, həqiqətən də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişaf yolu keçmiş və bu sahədə uğurlarını davam etdirir. İki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə edən qonaq əlaqələrin daha geniş miqyas alması üçün Azərbaycan və Litvanın geniş potensiala malik olduğunu diqqətə çatdırmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ LİTVANIN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 16-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Litvanın mədəniyyət naziri Arunas Qelunasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Əbülfəs Qarayev qonaqları salamlayaraq bildirmişdir ki, Litva Azərbaycanın Baltikyanı bölgədə ən sıx əməkdaşlıq etdiyi ölkədir. Ölkələrimiz arasında mədəni əlaqələr də yüksələn xətlə inkişaf edir. Artıq 6 ildir ki, Litva ilə maraqlı layihələr həyata keçirilir. Gələn ilin aprelində iki ölkənin birgə "Küləyin yuxusu" layihəsinin həyata keçirilməsi planlaşdırılır. Bu layihə mədəniyyətlərarası dialoqun genişləndirilməsinə xidmət edəcəkdir.

Arunas Qelunas bu səfərin iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

Tədbirdə gələcəkdə həyata keçiriləcək birgə layihələrə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA HƏRBİ ƏMƏKDAŞLIĞIN İNKİŞAF DİNAMİKASI MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 17-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Türkiyə Müdafiə Nazirliyinin müdafiə sənayesi müşaviri Murad Bayar ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə barədə fikir mübadiləsi aparılmış, ölkələr arasında hərbi əməkdaşlığın inkişaf dinamikası müzakirə olunmuşdur.

AZƏRBAYCAN VƏ LİTVA PARLAMENTLƏRİ "TWİNNİNG" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİRLƏR

Azərbaycan və Litva parlamentləri "Twinning" layihəsi çərçivəsində səmərəli əməkdaşlıq edirlər. Avropaya inteqrasiya edən Azərbaycan bu yolda Litvanın təcrübəsini öyrənməkdə maraqlıdır.

Bu fikirlər ölkəmizdə səfərdə olan Litva Milli Dirçəliş Partiyasının sədri, Seymin xarici əlaqələr komitəsinin və Litva-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Arunas Valinskasın başçılıq etdiyi nümayəndə heyətinin avqustun 17-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşündə səslənmişdir.

Oqtay Əsədov demişdir ki, Azərbaycan-Litva əlaqələri yüksələn xətlə inkişaf edir. Bu işdə dövlətlərimizin başçılarının, hökumət və parlament rəhbərlərinin keçirdikləri görüşlər, aparılan danışıqlar mühüm rol oynamışdır. Ümid edirik ki, sizin bu səfəriniz parlamentlərimiz arasında münasibətlərin genişlənməsinə yeni töhfə verəcəkdir.

O.Əsədov qeyd etmişdir ki, Milli Məclis bütün Avropa ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq edir. Litva ilə əlaqələrimiz isə xüsusi səciyyə daşıyır. Azərbaycan qanunlarının Avropa standartlarına uyğunlaşdırılması və təkmilləşdirilməsi baxımından parlamentlərimizin aparatlarının əməkdaşları qarşılıqlı təcrübə keçirlər. Parlamentlərimizdəki dostluq qrupları da əlaqələrimizin inkişafında mühüm rol oynayırlar. İstərdik ki, parlamentlərarası əməkdaşlığımız daha da inkişaf etdirilsin.

Arunas Valinskas onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş, Azərbaycanda olmaqdan məmnun qaldıqlarını bildirmişdir. O demişdir ki, deputatlarımızın, parlamentlərimizin aparatlarının nümayəndələrinin "Twinning" layihəsi çərçivəsində əməkdaşlığı böyük səmərə verəcəkdir. Biz münasibətlərimizin daha da genişlənməsinin tərəfdarıyıq və Bakıya səfərin əsas məqsədi də bununla əlaqədar fikir mübadiləsi aparmaqdır. Azərbaycan iqtisadi cəhətdən də sürətlə inkişaf edir. Biz Azərbaycanın Avropaya inteqrasiyasına hər cür kömək göstərməyə hazırıq.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AVSTRİYADA "ZALZBURQ TRİLOQU ELMİ KONFRANS" KEÇİRİLMİŞDİR

Avqustun 20-dən 22-dək Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avstriyanın Avropa və Beynəlxalq əlaqələr üzrə federal Nazirliyinin təşkilatçılığı ilə Zalzburq şəhərində keçirilmiş "Zalzburq Triloqu elmi konfrans: XXI əsrdə etik bazar iqtisadiyyatları üçün birliklərin inşası. Avropadan, Qara dəniz və onun hüdudlarından kənardan keyfiyyətli artımın perspektivlərinə baxış" mövzusunda konfransda iştirak etmişdir.

Konfransda çıxış edən nazir Məmmədyarov Qara dəniz regionu dövlətlərinin iqtisadi vəziyyəti məsələlərinə toxunmuşdur. Azərbaycanın iqtisadiyyatı barədə iştirakçılara geniş məlumat verən E.Məmmədyarov tədbir iştirakçılarını ölkənin apardığı enerji siyasətilə tanış etmişdir.

Nazir Avropa İttifaqı dövlətlərinin enerji təhlükəsizliyi məsələsinə toxunaraq, bu sahədə Azərbaycanın verə biləcəyi töhfə barədə iştirakçıları məlumatlandırmışdır. Bununla yanaşı, nazir Qara dəniz regionunda davamlı inkişafın zəruriliyini bildirərək, daha praqmatik olmağın vacibliyini vurğulamışdır. İqtisadi inkişafın siyasi sabitlik nəticəsində labüd olduğunu deyən nazir həll olunmayan münaqişələrin regionun inkişafına böyük maneə olduğunu xüsusi qeyd etmişdir.

Daha sonra nazir E.Məmmədyarov yoxsulluğun aradan qaldırılması sahəsində Azərbaycanın apardığı siyasətə toxunaraq, bu sahədə səylərin artırılmasının zəruriliyini vurğulamışdır.

Səfər çərçivəsində nazir E.Məmmədyarov ukraynalı, gürcüstanlı və avstriyalı həmkarları, Avstriyanın sabiq federal kansleri Volfqanq Şussel və Şərqi Avropanın ən böyük neft və qaz şirkəti olan Avstriyanın OMV şirkətinin sədri və baş icraçı direktoru Volfqanq Rutternstorfer ilə görüşmüşdür.

Görüşlərdə ikitərəfli əlaqələr və əməkdaşlıq, onların perspektivləri və digər maraq doğuran məsələlər müzakirə edilmişdir.

MOSKVADA MDB DİNLƏRARASI ŞURASININ RƏYASƏT HEYƏTİNİN İCLASI KEÇİRİLİR

Avqustun 24-də Moskvada Rus Pravoslav Kilsəsinin iqamətgahında MDB Dinlərarası Şurasının Rəyasət Heyətinin iclası işə başlamışdır.

MDB Dinlərarası Şurasının həmsədri, Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə iclasda iştirak edir.

İclas çərçivəsində şeyxülislam Allahşükür Paşazadənin Moskva və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşü nəzərdə tutulmuşdur. Görüşdə ermənilər tərəfindən saxlanılan Azərbaycanın Milli Qəhrəmanı gizir Mübariz İbrahimovun meyitinin qaytarılması məsələsi müzakirə olunacaqdır.

AZƏRBAYCAN-RUSİYA SƏRHƏDİNDƏ VƏ XƏZƏR DƏNİZİ HÖVZƏSİNDƏ ƏMƏLİYYAT ŞƏRAİTİ VƏ ONUN İNKİŞAF MEYİLLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Avqustun 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı, general-leytenant Elçin Quliyevin və Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini - Sərhəd Xidmətinin rəhbəri, ordu generalı Vladimir Proniçevin rəhbərlik etdikləri nümayəndə heyətləri arasında Azərbaycanın "Samur" dövlət sərhədinin buraxılış məntəqəsində işçi görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan-Rusiya sərhədində və Xəzər dənizi hövzəsində əməliyyat şəraiti və onun inkişaf meyilləri müzakirə olunmuş, sərhəd xidmətləri arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır.

Tərəflər beynəlxalq terrorçuluğa, qanunsuz miqrasiyaya, qaçaqmalçılığa, dövlət sərhədində digər qanunsuz fəaliyyətə qarşı birgə mübarizə aparılmasının vacibliyini qeyd etmiş və bu istiqamətdə görülən işləri müsbət qiymətləndirmişlər.

AZƏRBAYCAN OMBUDSMANI MANİLADA KEÇİRİLMİŞ BEYNƏLXALQ REGİONAL KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Avqustun 24-25-də Filippinin paytaxtı Manila şəhərində Asiya Ombudsmanlar Assosiasiyasının və Filippin ombudsmanının təşkilatçılığı, Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə beynəlxalq konfrans keçirilmişdir. Toplantıda Azərbaycan, Pakistan, Yaponiya, Malayziya, Hindistan, Özbəkistan, Gürcüstan, Koreya Respublikası, Kanada və başqa ölkələrin ombudsmanları, eyni zamanda vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak etmişlər.

"Asiyada ombudsman institutunun gücləndirilməsi" mövzusuna həsr edilmiş tədbirdə qitə ombudsman institutunun konsepsiyası, fəaliyyəti, müstəqilliyi, məsuliyyətliliyi və s. məsələlər müzakirə olunmuşdur.

Konfransda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova insan hüquqlarının təmin olunmasında tətbiq olunan yeni mexanizmlər haqqında bir sıra təşəbbüs və təkliflər irəli sürmüşdür. Müvəkkilin "Ombudsmanın müstəqilliyi"nə həsr edilmiş çıxışı iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Konfrans iştirakçıları bu təkliflərdən faydalanacaqlarını vurğulamışlar.

Tədbirdə ombudsman təsisatlarının müstəqillik, hesabatlılıq, səlahiyyətlilik və effektivlik prinsipləri müzakirə edilmiş, bu təsisatların fəaliyyətinin əsas prinsipləri qəbul olunmuşdur.

Mərasimdə Ombudsman haqqında Konstitusiya Qanununun və ölkəmizdə İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının nüsxələri, müvəkkilin illik məruzələri, uşaq hüquqlarına həsr edilmiş kitablar sərgilənmişdir. Müxtəlif ölkələrin təmsilçiləri Azərbaycan ombudsmanının təcrübəsinə maraq göstərmiş, yaxından tanış olmuşlar.

AZƏRBAYCANLA MEKSİKA ARASINDA GƏNCLƏR SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ MÖVZUSU MÜZAKİRƏ EDİLMİŞDİR

Avqustun 24-28-də Meksikada Dünya Gənclər Konfransı keçirilmişdir. Azərbaycanın da təmsil olunduğu tədbirdə 110 ölkədən 3500 nəfər iştirak etmişdir. Məqsəd Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün hazırkı mərhələdə gənclər sahəsinin aparıcı prioritetlərini müəyyənləşdirmək, ölkələr arasında əlaqələri gücləndirmək olmuşdur.

Tədbirdə nümayəndə heyətinin rəhbəri - gənclər və idman nazirinin müavini İntiqam Babayev ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsində əldə edilmiş uğurlardan söz açmışdır. O, gənclərin ictimai həyatda artan fəallığı, işsizliyin azalması, təhsil sahəsində əldə edilmiş nəticələr, gənclərin beynəlxalq əməkdaşlığı məsələlərindən danışmış, Ermənistanın Azərbaycana təcavüzü haqqında iştirakçılara məlumat vermişdir.

İkitərəfli beynəlxalq əlaqələri genişləndirmək məqsədilə nazir müavini Meksika Gənclər İnstitutunun Baş direktoru xanım P.Hernendezlə görüşmüşdür. Görüş zamanı iki ölkə arasında gənclər siyasəti sahəsində əməkdaşlığa dair niyyət protokolunun imzalanması və gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir.

Forumda yoxsulluq, işsizlik, təhsil, texnologiya və innovasiya, sağlamlıq, gender bərabərliyi, davamlı inkişaf, beynəlxalq miqrasiya, qlobal əməkdaşlıq mövzuları da müzakirə edilmişdir.

AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ POTENSİAL VARDIR

Avqustun 31-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Almaniyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Herber Kvelli ilə görüşmüşdür.

Etimadnaməsinin surətini nazirə təqdim edən H.Kvelli Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu bildirmişdir. Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu vurğulayan diplomat fəaliyyəti dövründə Azərbaycan-Almaniya əlaqələrinin genişləndirilməsinə çalışacağını demişdir.

Nazir E.Məmmədyarov H.Kvellini yeni təyinatı münasibətilə təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

NİDERLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR

Xarici işlər naziri Elmar Məmmədyarov avqustun 31-də Niderland Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Aryen Uyterlinde ilə görüşmüşdür.

Etimadnamənin surətini nazirə təqdim edən A.Uyterlinde ölkəmizə səfir təyin olunmasından məmnun olduğunu qeyd etmişdir. Ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan səfir fəaliyyəti dövründə Niderland-Azərbaycan əla-

qələrinin dərinləşməsi istiqamətində çalışacağını bildirmişdir.

Elmar Məmmədyarov ölkəmizə səfir təyin olunması münasibətilə holland diplomatı təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

TBİLİSİDƏ "AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ARASINDA NƏQLİYYAT DƏHLİZİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI ÜZRƏ QARŞILIQLI ANLAŞMA HAQQINDA" MEMORANDUMA ƏSASƏN YARADILMIŞ ŞURANIN İCLASI KEÇİRİLMİŞDİR

Avqustun 31-də Gürcüstanın paytaxtı Tbilisidə "Azərbaycan Respublikası ilə Gürcüstan arasında nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması üzrə qarşılıqlı anlaşma haqqında" Memorandumа əsasən yaradılmış Şuranın iclası keçirilmişdir.

İclasda Gürcüstan tərəfindən Baş nazir N.Gilauri, energetika naziri A.Xetaquri, Gürcüstan Dəmir Yolunun rəisi İ.Ezuqbaia, Azərbaycan tərəfindən nəqliyyat naziri Z.Məmmədov, ARDNŞ-nin prezidenti R.Abdullayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri A.Əsgərov, "Azəryolservis" MMC-nin sədri C.Qurbanov, ARDNŞ-nin Sərmayələr İdarəsinin rəisi V.Əliyev iştirak etmişlər. İclasda, həmçinin Qazaxıstanın energetika nazirinin müavini, "Kaztransoil" şirkətinin və Batumi Neft Terminalının rəhbərlərindən ibarət qazax nümayəndə heyəti də iştirak etmişdir.

İclasda iki ölkə arasında tranzit dəhlizinin səmərəliliyinin artırılması və əlaqələndirilməsinin təmin edilməsinin əhəmiyyəti vurğulanmış, Xəzər və Qara dəniz sahillərindəki terminalların, Azərbaycan və Gürcüstan dəmir yollarının işinin effektivliyinin artırılması yolları müzakirə edilmiş, yükgöndərənlərlə, o cümlədən qazax şirkətləri ilə mövcud yükdaşıma müqavilələrinin icrası, onların yükgöndərən və tranzit ölkələrinin mənafelərinə uyğunluğu, nəqliyyat infrastrukturunun mövcud və perspektiv vəzifələri, nəql məsələlərinə olan baxış və münasibətlər, yeni nəql müqavilələrinə qazax tərəfinin baza baxışları və s. məsələlər müzakirə olunmuşdur.

Azərbaycan tərəfi tranzit daşımalarının uzunmüddətli müqavilələr çərçivəsində zəmanətli həyata keçirilməsinin əhəmiyyətini vurğulamış, bu halda nəql infrastrukturunun inkişafı, onlara sərmayə qoyuluşunun artacağını qeyd etmişdir.

Şuranın iclasında nəql məsələlərinə aid vacib qərarlar qəbul edilmiş və mütəmadi görüşlərin keçirilməsi qərara alınmışdır.

VERGİLƏR NAZİRLİYİNDƏ AVSTRİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

Sentyabrın 1-də Azərbaycan Respublikasının vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov ölkəmizdə səfərdə olan Avstriya Respublikasının Federal Maliyyə Nazirliyinin gömrük məsələləri üzrə dövlət katibi Raynhold Lopatkanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

F.Məmmədov nümayəndə heyətinin Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Avstriya ilə əlaqələrinin ildən-ilə möhkəmləndiyini qeyd edən nazir son illər Prezident İlham Əliyevin rəhbərliyi altında ölkə iqtisadiyyatının sürətlə inkişaf etdiyini və Azərbaycanın Avropa İttifaqına inteqrasiya istiqamətində Avropa dövlətləri ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulamışdır. Vergilər naziri dövlətlərimiz arasında mühüm sazişlərin, o cümlədən investisiyaların təşviqi, gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, digər sahələr üzrə çox vacib sənədlərin imzalandığını və təsdiq olunduğunu xatırlatmışdır. Bildirmişdir ki, ölkələrimizin vergi administrasiyaları Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) çərçivəsində də sıx əməkdaşlıq edirlər.

Raynhold Lopatka ölkəmizə səfərindən məmnunluğunu ifadə etmiş və Azərbaycan hökumətinin qısa müddətdə əldə etdiyi nailiyyətlərin təqdirəlayiq olduğunu söyləmişdir. Bildirmişdir ki, Avropa İttifaqına daxil olan bir çox ölkələr, o cümlədən Avstriya maliyyə böhranından böyük ziyan çəksə də, Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən uğurlu iqtisadi siyasət sayəsində o, bu böhranın fəsadlarına daha az məruz qalmışdır. Dövlət katibi bir çox Avropa ölkələrinin Azərbaycanın bu təcrübəsindən bəhrələnməsinin vacibliyini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN VƏ AVSTRİYA ARASINDA GÖMRÜK SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Sentyabrın 1-də Azərbaycanda səfərdə olan Avstriya Federal Maliyyə Nazirliyinin gömrük məsələləri üzrə dövlət katibi Raynhold Lopatkanın başçılıq etdiyi nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ilə görüşmüşdür.

Dövlət katibi Raynhold Lopatka əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilmiş, məzarı üzərinə gül dəstəsi düzülmüşdür.

Sonra qonaq Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anmış, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

Görüşdə DGK-nın sədri Aydın Əliyev Azərbaycanın gömrük xidmətinin tarixi barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, hazırda ölkədə 2007-2011-ci illəri əhatə edən "Gömrük xidmətlərinin inkişafı Proqramı" icra olunur. Azərbaycan və Avstriya arasında sıx əməkdaşlıq əlaqələrinin olduğunu bildirən A.Əliyev əlavə etmişdir ki, ölkələrimiz arasında hazırkı ticarət dövriyyəsi real əməkdaşlığı tam əks etdirmir. Bu əməkdaşlığı daha da inkişaf etdirməyə geniş potensial mövcuddur.

Raynhold Lopatka da öz növbəsində Avstriyanın Azərbaycan ilə bir çox sahədə əlaqələrin qurulmasında maraqlı olduğunu qeyd etmiş və bildirmişdir ki, maliyyə, gömrük və bu kimi sahələr Avstriya üçün prioritet sayılır. Azərbaycan gənc ölkədir və gömrük sistemi də gəncdir. Ancaq gənc olmasına baxmayaraq xeyli inkişaf etmişdir. Qonaq vurğulamışdır ki, Avstriyanın da gömrük sahəsində böyük təcrübəsi vardır. Bu baxımdan qarşılıqlı təcrübələrimizdən faydalanmaq niyyətindəyik. Biz Azərbaycanla, xüsusilə xid-

məti itlərin tətbiqi və onların istifadəsi sahəsində əməkdaşlıq edəcəyik. Bundan başqa, digər sahələr də nəzərdən keçiriləcəkdir.

Sonda Azərbaycan və Avstriya arasında "Gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı Anlaşma Memorandumu" imzalanmışdır.

İSTANBULDA KEÇİRİLMİŞ TOPLANTIDA ELMLƏR AKADEMİYALARININ CƏMİYYƏTDƏ ROLU MÜZAKİRƏ OLUNMUŞDUR

Sentyabrın 1-2-də Türkiyənin İstanbul şəhərində Şərqi və Orta Asiya elmlər akademiyalarının toplantısı keçirilmişdir.

Türkiyə Bilimlər Akademiyası (TÜBA) tərəfindən təşkil olunan toplantıda Türkiyə, Azərbaycan, Gürcüstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Pakistan və Əfqanıstan elmlər akademiyalarının nümayəndələri iştirak etmişlər.

Tədbirdə elmlər akademiyalarının fəaliyyəti, onların cəmiyyətdə rolu və s məsələlər müzakirə olunmuşdur.

Toplantıda AMEA-nın akademik-katibi, akademik Vaqif Fərzəliyev Azərbaycan Milli Elmlər Akademiyasının strukturu, fəaliyyəti və qarşısında duran vəzifələr haqqında məlumat vermişdir.

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ NAXÇIVANDA QISAMÜDDƏTLİ SƏFƏRDƏ OLMUŞDUR

Sentyabrın 2-də Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu İğdır vilayətinə səfərini başa çatdırdıqdan sonra Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna gəlmişdir.

Türkiyəli naziri və onu müşayiət edən şəxsləri Naxçıvan MR Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov və digər rəsmi şəxslər qarşılamışlar.

Türkiyə ilə Naxçıvan arasındakı gömrük-keçid məntəqəsinin əhəmiyyətindən danışan nazir keçid prosedurunun çox asan olduğunu bildirmişdir.

Əhməd Davudoğlu bəyan etmişdir ki, Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir. Son vaxtlar yerli və xarici mətbuatda Türkiyə-Ermənistan sərhədinin açılacağı haqqında dərc olunan yazılara münasibət bildirən nazir qeyd etmişdir ki, Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarını azad etməyincə sərhədlərin açılmasından söhbət gedə bilməz.

Rayon ərazisini gəzdikdən sonra gömrük-keçid məntəqəsi ilə tanış olan nazir Türkiyəyə qayıtmışdır.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev sentyabrın 2-də Azərbaycana rəsmi səfərə gəlmişdir.

Hər iki ölkənin dövlət bayraqlarının asıldığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev sentyabrın 2-də Fəxri xiyabana gəlmişdir.

Rusiya dövlətinin başçısı xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi, məzarı önünə əklil qoydu.

Dmitri Medvedev görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə tər güllər düzdü.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev sentyabrın 2-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və nümayəndə heyətinin üzvləri ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Azərbaycan övladlarının məzarlarını ziyarət etdilər.

Rusiyanın dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

Prezident Dmitri Medvedev Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Sentyabrın 2-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizə rəsmi səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və xanımı Svetlana Medvedevanın şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli Svetlana Vladimirovna!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Dmitri Anatolyeviç, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Sizin səfərinizə çox şadıq. Biz çox şadıq ki, son vaxtlar bu, Rusiya Prezidentinin Azərbaycana artıq üçüncü səfəridir. Mən də Rusiyada çox tez-tez oluram. Münasibətlərimizin bu cür dinamik inkişafı ölkələrimizin necə sıx qarşılıqlı fəaliyyət göstərməsinin əyani sübutudur. İkitərəfli məsələləri, regional problemləri müzakirə etmək, yetərincə geniş, bir çox sahələri əhatə edən münasibətlərimizin gündəliyinə nəzər salmaq üçün həmişə yaxşı səbəb vardır. Ən sevindirici hal isə budur ki, hər yeni görüşümüz, praktiki olaraq hər səfər münasibətlərimizdə yeni səhifə açır.

Münasibətlərimiz çox möhkəmdir, onlar xalqlarımızın çoxəsrlik dostluğuna əsaslanır. Bu, bizim üzərində dostluq, bərabərhüquqlu qonşuluq münasibətlərimizi qurduğumuz möhkəm təməldir. Biz çox fəal siyasi dialoq aparırıq. Biz regional məsələlərdə fəal qarşılıqlı fəaliyyət göstəririk. Demək olar ki, regional xarakterli bütün məsələlərə dair baxışlarımız üst-üstə düşür, biz vahid mövqedən çıxış edirik. Çox ümid edirik ki, münasibətlərimizdə mövcud olan müsbət meyillər möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizin səfəriniz çərçivəsində, hörmətli Dmitri Anatolyeviç, siyasi və iqtisadi xarakterli mühüm sənədlər imzalanacaqdır. Onlar gələcəkdə münasibətlərimizin möhkəmlənməsinə və bütün istiqamətlərdə inkişafına xidmət edəcəkdir. Biz çox şadıq ki, bu il iqtisadiyyatda böhranlı 2009-cu ilin mənfi meyillərini düzəldə bildik. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik. Əminəm ki, artım davamlı olacaq və ona gətirib çıxaracaqdır ki, iqtisadi münasibətlərimiz çox keyfiyyətli və çoxplanlı olacaqdır. Əmtəə dövriyyəsinin strukturu yaxşılaşır və bu gün biz qarşılıqlı ticarətin birmənalı şəkildə böyük artımına səbəb olacaq layihələr üzərində işləyirik.

Biz təhlükəsizlik, regional əməkdaşlıq məsələlərində birgə fəaliyyət göstəririk. Biz qonşuyuq. Biz dənizdə də, quruda da qonşuyuq. Rusiya və Azərbaycan iki Xəzəryanı ölkədir, iki Qafqaz ölkəsidir. Əlbəttə, regionumuzda baş verənlər bizi narahat edir və həyəcanlandırır. Biz regionumuzda potensial və mövcud riskləri azaltmaq üçün çox fəal, səmərəli və səmimi işləyirik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması da gündəliyimizin ayrılmaz hissəsidir. Mən, Dmitri Anatolyeviç, bu prosesdə fəal iştirakınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizin iştirakınızla Azərbaycan və Ermənistan rəhbərlərinin artıq altı görüşü keçirilmişdir. Moskvada münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, qətnamələr və beynəlxalq təşkilatların qərarları əsasında həllini müəyyən edən mühüm bəyannamə imzalanmışdır. Ümidvaram ki, Sizin fəal vasitəçilik missiyanız davam etdiriləcəkdir və biz müsbət nəticələrə nail olacağıq.

Bu gün humanitar sahədə də fəal qarşılıqlı münasibəti qeyd etmək istərdim. Zənnimcə, bu istiqamətdə ölkələrimiz arasında münasibətlər qonşular və əsrlər boyu yanaşı yaşayan xalqlar arasında münasibətlərə nümunə ola bilər. Bu il biz Bakıda çox mühüm və mötəbər Rusiya-Azərbaycan ictimai forumunu keçirdik və onu illik Bakı beynəlxalq humanitar forumuna çevirmək barədə qərar qəbul edilmişdir. Bildiyiniz kimi, Azərbaycanda rus dilinə, rus mədəniyyətinə çox qayğıkeş münasibət göstərilir. Ölkəmizdə təh-

silin rus dilində aparıldığı 300-dən çox məktəb vardır, sovet dönəmindəkindən də xeyli artıq dövri nəşrlər dərc olunur, Rusiya Mədəniyyət Mərkəzi, Rusiya Kitab Evi, MDU-nun filialı fəaliyyət göstərir. Bütün bunlar bizi zənginləşdirir. Bütün bunlar münasibətlərimizin mühüm amilidir. Siyasi münasibətlərimiz, iqtisadi əlaqələrimiz, mənafelərimizin uyğunluğu necə olursa-olsun, münasibətlərimiz humanitar tərkibsiz natamam olardı. Mənə çox xoşdur ki, Rusiyada da, Azərbaycanda da irsimizə çox qayğıkeş münasibət vardır. Rusiyadakı Azərbaycan icması və Azərbaycandakı rus icması dövlətlərimizin tamhüquqlu vətəndaşlarıdırlar. Onlar da ölkələrimiz və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi işinə böyük töhfə verirlər.

Dmitri Anatolyeviç, Svetlana Vladimirovna, bir daha Sizi Azərbaycanda səmimi qəlbdən salamlamaq və bu badəni Sizin sağlığınıza, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin bundan sonra da möhkəmlənməsi şərəfinə qaldırmaq istəyirəm.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli Mehriban Arif qızı!

Hörmətli dostlar, həmkarlar!

Sizin ölkəyə gəlmək mənim üçün həmişə çox xoşdur. Çünki bu, həmişə dostlarımızın, yaxın qonşularımızın və strateji tərəfdaşlarımızın yanına səfər etmək deməkdir. Bu səfər bir günə hazırlanmamışdır. Bu, xüsusi səfərdir, ona görə ki, münasibətlərimizin tarixində ilk dəfə həqiqətən çox mühüm saziş hazırlamışıq. İlham Heydər oğlu bilir ki, bu sazişin hazırlanması asan olmamışdır. Ona görə yox ki, biz mübahisə edirdik, hərçənd müzakirə edilməsi, diskussiyalar aparılması tələb edilən bəzi məsələlər həmişə vardır. Sadəcə olaraq ona görə ki, bu saziş mürəkkəb, mühüm sənəddir. Əgər həmin saziş bizim ölkəmiz üçün sərhədin müəyyənləşdirilməsi, bir sıra sərhədyanı məsələlərin tənzimlənməsi barədə ilk sənədlərdən biridirsə, Azərbaycan üçün bu qəbildən ümumiyyətlə ilk sənəddir. Ona görə də mənə belə gəlir ki, biz yaxşı çalışmışıq, sabah rəsmi imzalanma olacaqdır. Bizim dostluq münasibətlərimizin möhkəm normativ baza əsasında inkişaf etməsi, tərəfdaşlar arasında beynəlxalq hüquq normalarına əsaslanan münasibətlərə çevrilməsi üçün bu saziş çox vacibdir. Bu sənəd də beynəlxalq hüquq aktıdır. Bizim qarşılıqlı əlaqələrimizi möhkəmləndirən iqtisadi sazişlər də vardır. O cümlədən, sabah belə bir böyük sənəd, həmçinin bəzi başqa sənədlər imzalanacaqdır.

Bu, nəyə dəlalət edir? Ona dəlalət edir ki, dövlətlərimiz arasında münasibətlər ilbəil rəngarəng olur. Əlbəttə, Sizi ölkəmizdə, Moskvada görməyə həmişə çox şad oluruq. Biz beynəlxalq tədbirlərdə Sizinlə çox ünsiyyət saxlayırıq, müxtəlif görüşlər keçirirk. Lakin adətən bu cür böyük səfərlərin gedişində müəyyən kəmiyyət dəyişiklikləri üst-üstə yığılır və yeni keyfiyyət halına keçir. Buna görə də mən çox istərdim ki, Rusiya Prezidentinin və Rusiya nümayəndə heyətinin indiki səfəri bu cür kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi ilə əlamətdar olsun.

Siz gündəlikdəki bütün məsələləri dəqiq sadaladınız. Mən demək istəyirəm ki, əlbəttə, son illərdə biz iqtisadi münasibətlərin quruculuğu sahəsində irəliləmişik. Energetika sahəsində əməkdaşlıq bu münasibətlərin təməl daşıdır. Lakin mən istəməzdim ki, əmək-

daşlığımız təkcə energetika ilə məhdudlaşsın. Bizim ölkələr enerji istehsal edən iri ölkələrdir. Lakin indicə Sizinlə danışdığımız kimi, dövlətlərimizin qarşısında iqtisadiyyatlarımızı modernləşdirmək məsələsi durur, böhran isə, yeri gəlmişkən, göstərdi ki, hətta enerji tədarükçüləri olan böyük dövlətlər də bazardakı vəziyyətdən asılıdırlar. Buna görə də bizim vəzifəmiz ölkələrimizdə iqtisadi şəraiti, təsərrüfatçılıq şəraitini dəyişməkdir. Hesab edirəm ki, başqa sahələrdə əməkdaşlığı inkişaf etdirməklə bu məsələdə bir-birimizə kömək edə bilərik. Söhbət yüksək texnologiyalar, istehsal, infrastruktur və hətta turizm sahələrində kooperasiya və əməkdaşlıqdan gedir. Bütün bunlar bizim ümumi işimizin tərkib hissələridir.

Təhlükəsizlik məsələləri çox mühüm mövzudur. Siz tamamilə dəqiq dediniz ki, bizim dövlətlər - Qafqaz dövlətləri, Xəzər dövlətləri və dost dövlətlərdir. Biz gələcəyə məhz bu cür baxmalıyıq. Elə etməliyik ki, asayiş olsun, münaqişələrin yaranmasına yol verilməsin. Bizim regionda problemlər kifayət qədərdir - həm gizli, həm də aşkar problemlər vardır. Bizim vəzifəmiz bu cür təhdidlərə mümkün qədər çevik münasibət bildirməyə çalışmaqdır. Rusiya bu proseslərdə öz rolunu başa düşür. Hətta Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi kimi olduqca çətin problem də, Sizin haqlı olaraq dediyiniz kimi, beynəlxalq hüquq normaları və tərəflərin qarşılıqlı iradəsi əsasında həll edilə bilər. Son vaxtlar biz dəfələrlə görüşmüşük. Səmimi deyim ki, bu görüşlərin dinamikası məni qane edir. Əlbəttə, nəticələr hələ çox cüzidir. Lakin Siz bir məsələyə əsla şübhə etməyə bilərsiniz ki, Rusiya hədsiz çətin olan bu münaqişənin tənzimlənməsinə maksimum kömək etmək əzmindədir. Bunun üçün biz, şəxsən mən özüm də hər cür səy göstərmişik və bundan sonra da göstərəcəyik.

Humanitar sahədə dostluq əlaqələrimiz yəqin ki, ayrıca təhlil aparılmasını tələb edir. Siz ölkənizdə rus dilinə xüsusi qayğı göstərildiyini xatırlatdınız. Nə gizlədim, bu, əlbəttə, mənim üçün çox xoşdur. Mənə belə gəlir ki, bu, Azərbaycan üçün də çox vacibdir. Çünki biz yaxın ölkələrik, bizim tariximiz uzun müddət birlikdə davam etmişdir, indi də biz yanaşı inkişaf edirik və rus dili bu mənada, əlbəttə, müəyyən əhəmiyyət kəsb edir. Lakin bu, heç də o demək deyildir ki, Rusiya Azərbaycan dilinin inkişafı üçün heç nə etməməlidir. Siz bilirsiniz ki, bu yaxınlarda mən telekanalların verilişlərinin peyk vasitəsilə dost ölkələr üçün yayımlanması barədə qərar qəbul etmişəm. Rusiyada böyük Azərbaycan diasporu vardır və onun Azərbaycan dilində xəbərlərlə tanış ola, proqramlara, filmlərə baxa bilməsi, əlbəttə, çox vacibdir. Əlbəttə, onlar hamısı rusca danışırlar, lakin ana dilini də yadda saxlamaq lazımdır. Buna görə də bu cür yayım həyata keçiriləcəkdir. Mənə belə gəlir ki, bu da çox faydalıdır, böyük mübadilələr də öz yerində - məsələn, indicə Siz Ulyanovskdakı məktəb və mehriban əməkdaşlığa dair bir sıra başqa nümunələr barədə danışdınız. Bu, çox vacibdir. Yeri gəlmişkən, elə Rusiya üçün də. Ona görə ki, Rusiya çox mürəkkəb, çoxmillətli, çoxkonfessiyalı dövlətdir və ölkə daxilində vətəndaş sülhü və asayiş olması üçün biz qonşularımızla dostluq etməyi bacarmalıyıq.

Buna görə Sizin ölkəyə gəlişimiz bizi çox sevindirir. Dəvət üçün sağ olun. Əminəm ki, biz bu gün də, sabah da səmərəli danışıqlar aparacaq, dostcasına ünsiyyət saxlayacağıq. İndi isə Rusiya Federasiyasının Prezidenti kimi mənə bircə bu qalır ki, Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlunun sağlığına, onun xanımı, hörmətli Mehriban Arif qızının sağlığına, azərbaycanlı dostlarımızın hamısının sağlığına, sülh naminə və xalqlarımızın tərəqqisi naminə badə qaldırmağı təklif edim!

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Sentyabrın 3-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Rusiya Prezidenti Dmitri Medvedevi və xanımı Svetlana Medvedevanı səmimiyyətlə qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Rusiya Prezidentinə raport verdi.

Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Rusiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Dmitri Medvedevə, Rusiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

Sentyabrın 3-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV Rusiya Prezidentinə müraciət edərək dedi:

- Hörmətli Dmitri Anatolyeviç, bir daha Sizi Azərbaycanda salamlamaq istəyirəm. Xoş gəlmisiniz. Biz Sizi görməyə həmişə şadıq.

Bu, görüşmək, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmək üçün yaxşı imkandır. Münasibətlərimizin vəziyyəti bizi çox sevindirir. Bizim bir-birimizə tez-tez qonaq getməyimiz münasibətlərimizin yaxşı göstəricisidir.

Münasibətlərimizin gündəliyi çox genişdir. Biz müxtəlif istiqamətlərdə çox səmərəli işləyirik. Münasibətlərimiz səmimiliyi ilə fərqlənir. Bu, mehriban qonşular, dostlar, strateji tərəfdaşlar arasındakı münasibətlərdir.

Əminəm ki, ölkəmizə səfəriniz əlaqələrimizin gələcək inkişafı və uğurla irəliləməyimiz işində çox əhəmiyyətli olacaqdır. Xüsusən ona görə ki, müzakirə edilməli məsələlər və qəbul edilməli vacib qərarlar vardır.

Bir daha Sizi ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

Rusiya Prezidenti Dmitri MEDVEDEV təşəkkürünü bildirərək dedi:

- İlham Heydər oğlu, çox sağ olun! Xoş sözlərə, nümayəndə heyətimizin artıq dünən hiss etdiyi qonaqpərvərliyə görə çox sağ olun!

Həqiqətən, münasibətlərimiz mehriban qonşuluq, dostluq və strateji münasibətlərdir. Ümidvaram ki, bu səfər zamanı cari məsələləri, ikitərəfli münasibətlərimizi, regional gündəliyi, beynəlxalq məsələləri müzakirə edə biləcək və əlbəttə, Sizinlə yetərincə uzun müddət müzakirə etdiyimiz və komandalarımızın üzərində işlədiyi çox mühüm sənədləri imzalayacağıq. Odur ki, bu gün bu baxımdan çox əhəmiyyətli gündür.

Gələcəklə bağlı mən tamamilə razıyam ki, bizim həm burada, Azərbaycanda, həm də Rusiya Federasiyasında, digər yerlərdə, müxtəlif sammitlərdə müntəzəm görüşməyimiz, ünsiyyətdə olmağımız uzun illər üçün sıx, möhkəm və dostluq münasibətlərinin təminatıdır. Biz Rusiya-Azərbaycan münasibətlərini belə görürük.

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

Sentyabrın 3-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

Azərbaycan dövlətinin başçısı İlham ƏLİYEV görüş iştirakçılarına müraciətlə dedi:

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlamaq istəyirəm. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk.

Əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaqdır. Biz dünən də, bu gün də münasibətlərimizin çox geniş əhatə dairəsi barədə Sizinlə hərtərəfli fikir mübadiləsi apardıq, ikitərəfli xarakter daşıyan bütün məsələləri, regional problemləri ətraflı nəzərdən keçirdik.

Görürəm, Siz bir daha yəqin etdiniz ki, münasibətlərimiz təkcə ölkələrimiz üçün deyil, həm də regionda cərəyan edən proseslər üçün vacibdir.

Mən çox şadam ki, Sizinlə bərabər bu cür nüfuzlu nümayəndə heyəti - Rusiya Federasiyasının müxtəlif səviyyəli rəhbərləri gəlmişdir. Bu, həm də Sizin münasibətlərimizə verdiyiniz qiymətin göstəricisidir.

Bu münasibətlər bizim üçün çox əhəmiyyətli, çox qiymətlidir. Bu, strateji tərəfdaşlıq münasibətləri, dostlar arasında münasibətlərdir. Əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaq, imzalayacağımız sənədlər isə münasibətlərimizin daha da inkişaf etməsi üçün çox möhkəm baza yaradacaqdır.

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Xoş gəlmisiniz!

* * *

Rusiya Prezidenti Dmitri MEDVEDEV səmimi qəbul üçün minnətdarlığını bildirərək dedi:

- Bir daha sağ olun, hörmətli İlham Heydər oğlu, hörmətli azərbaycanlı həmkarlar.

Həqiqətən, biz sizinlə məhdud tərkibdə çox geniş fikir mübadiləsi apardıq. Bu, çox faydalı oldu.

Qeyd etmək istərdim ki, bu yeni məkan danışıqlar aparılması üçün çox rahat, çox münasibdir. Belə ki, Azərbaycan tərəfi danışıqların səmərəli keçməsi üçün hər cür şərait yaratmış və bunu çox gözəl etmişdir.

Mənə belə gəlir ki, ənənəyə görə bizim hökumətlərarası komissiyaların məşğul olduğu bəzi iqtisadi məsələləri indi geniş tərkibdə müzakirə etmək olar, həmin komissiyaların rəhbərləri buradadırlar.

Regional təhlükəsizliyin təmin edilməsi məsələləri ilə yanaşı, əməkdaşlığımızın iqtisadi komponentinə daha artıq diqqət yetirmək olar. Keçən il, böhranla əlaqədar, bizim ticarət dövriyyəsi üçün o qədər də sadə il olmamışdır - ticarət dövriyyəsi azalmışdır.

Bu il müsbət meyillər var, lakin əlbəttə, həmin meyilləri möhkəmlətmək üçün biz lazım olan hər işi görməliyik. Yeni layihələrə başlamaq, yeni təmas nöqtələri tapmaq barədə fikirləşməliyik. Yeri gəlmişkən, Sizinlə təkbətək görüş zamanı biz bəzi ideyaları müzakirə etdik. Zənnimcə, indi həmin ideyaları həmkarlarımızla da bölüşmək olar.

Bir daha çox sağ olun.

AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Sentyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə"ni imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Rusiyanın "Qazprom" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında təbii qazın alqı-satqısı üzrə müqaviləyə 4 saylı əlavə Saziş"i Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və "Qazprom" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə heyətinin sədri Aleksey Miller imzaladılar.

"Azərbaycan və Rusiya hökumətləri arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi haqqında Saziş"i ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov və Rusiyanın təbii ehtiyatlar və ekologiya naziri Yuri Trutnev imzaladılar.

"Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin keçid xəttinin izahatı haqqında Sənəd"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Rusiyanın xarici işlər naziri Sergey Lavrov imzaladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN MƏTBUAT KONFRANSI

Sentyabrın 3-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Dmitri Medvedevin mətbuat konfransı olmuşdur.

Azərbaycan Prezidenti İlham ƏLİYEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli Dmitri Anatolyeviç!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlərin tarixində çox əlamətdar gündür. Bu gün siyasi və iqtisadi xarakterli mühüm sənədlər - dövlət sərhədi haqqında, sərhədyanı Samur çayının su ehtiyatlarının bölünməsi və onlardan səmərəli istifadə edilməsi haqqında müqavilələr, habelə qaz sahəsində əməkdaşlıq sferasında kontrakta əlavə imzalanmışdır. Əminəm ki, onlar bizim münasibətlərin inkişafının çox mühüm istiqamətlərini uzun illər, qarşıdakı onilliklər üçün müəyyən edəcəkdir. Bütün bunlar bizim münasibətlərin dinamik və səmərəli inkişafının əyani göstəricisidir.

Biz münasibətlərimizi strateji tərəfdaşlar arasında, qonşular və mehriban dostlar arasında münasibətlər kimi səciyyələndiririk. Rusiya Prezidentinin bugünkü səfəri, imzalanmış sənədlər, habelə apardığımız fikir mübadiləsi və danışıqlar bizim münasibətlərin dinamik, səmərəli və müsbət inkişafına əyani sübutdur. Biz bu münasibətləri çox yüksək qiymətləndiririk. Əminəm ki, bütün istiqamətlər üzrə əlaqələrimizin gələcək inkişafı da bu günə qədər əldə edilənlər kimi səmərəli olacaqdır.

Ölkələrimiz arasında çox sıx siyasi qarşılıqlı əlaqə vardır, çox tez-tez görüşürük, əlaqə saxlayırıq. Rusiya Prezidentinin, böyük bir dövlətin Prezidentinin son üç ildə Azərbaycana üçüncü dəfə səfər etməsini xüsusi qiymətləndiririk. Mən də tez-tez Rusiyaya - Moskvaya və başqa şəhərlərə səfərlər edirəm. Bu, bir-birimizə olan qarşılıqlı marağa, eləcə də bizim münasibətlərin mövzusunun çox geniş olmasına dəlalət edir.

Bizim münasibətlər ayrıca bir sahədə əməkdaşlıqla məhdudlaşmır. Bu münasibətlər çoxşaxəlidir - siyasi əlaqələri, iqtisadi kooperasiyanı, müştərək layihələri əhatə edir. Energetika sahəsində, neft-qaz əməliyyatlarında, elektrik enerjisi satışı, nəqliyyat sahəsində əməkdaşlıq böyük bir blok təşkil edir. Biz regional və dünya miqyaslı layihələr üzərində birgə işləyirik. Şimal-Cənub nəqliyyat dəhlizi artıq bu gün öz potensialını göstərir və hazırda Rusiya və Azərbaycan həmin dəhlizin çox mühüm tərkib hissələridir. Biz Xəzərdə əməkdaşlıq edirik. Biz Qafqaz regionunda təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində əməkdaşlıq edirik. Ölkələrimiz arasında hərbi-texniki və humanitar sahələrdə əməkdaşlıq fəal inkişaf edir. Bu istiqamətlərin hər biri barəsində konkret faktlar və konkret layihələr əsasında çox danışmaq olar.

Dünən mən Rusiya Prezidentinin şərəfinə təntənəli ziyafət zamanı qeyd etmişdim ki, biz humanitar sahədə əməkdaşlığa xüsusi diqqət yetiririk. Bu sahədə bizim çox yaxşı nəticələrimiz vardır. Bu gün ikitərəfli əməkdaşlığımız artıq ikitərəfli formatı aşır və beynəlxalq humanitar layihəyə çevrilir. Bu il humanitar əməkdaşlıq sahəsində Bakıda

keçirilən Rusiya-Azərbaycan forumunun müsbət təcrübəsi artıq yaxşı nəticələr verir. Biz bu gün razılığa gəldik ki, Rusiya və Azərbaycanın himayəsi altında keçirilən bu forum gələn il artıq beynəlxalq statusa malik olacaqdır. Beləliklə, humanitar sahədə əməkdaşlığımız artıq bu gün ikitərəfli formatı aşır və gələcəkdə bu sahədə əməkdaşlıqda marağı olan ölkələrin və xalqların yaxınlaşması işinə xidmət edəcəkdir. Biz Azərbaycanda buna maraqlıyıq. Biz istəyirik ki, ölkəmizdə bütün xalqların nümayəndələri gələcəkdə də indiki kimi sülh, dostluq, qardaşlıq şəraitində yaşasınlar. Biz çox sevinirik ki, ölkələrimiz arasında humanitar əməkdaşlıq konkret real layihələrlə zənginləşir.

Başqa sözlə desək, münasibətlərimiz olduqca çoxşaxəli, çoxtərəflidir, praktiki olaraq bütün sahələri əhatə edir. Ən başlıcası isə, bu gün dövlət sərhədi haqqında müqavilə imzalandıqdan sonra münasibətlərimizdə həll edilməmiş hər hansı məsələ qalmır. Həmin müqavilənin bu gün Bakıda bu cür təntənəli şəraitdə imzalanması münasibətlərimizin, niyyətlərimizin səmimiliyinə daha bir sübutdur. Bu müqavilə ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm mərhələdir. Qarşıda bizi başqa işlər gözləyir. Bu gün biz münasibətlərimizin iqtisadi tərkib hissəsini necə zənginləşdirmək barədə, hansı yeni layihələri həyata keçirməyə hazırlaşmağımız, gələcəkdə fəaliyyətimizi necə əlaqələndirməyi planlaşdırmağımız barədə fikir mübadiləsi etdik. Energetika sahəsində artıq konkret addımlar nəzərdə tutulmuşdur.

Mən ilk növbədə, Rusiya Prezidenti Dmitri Anatolyeviç Medvedevə ölkəmizə səfər etdiyinə, bugünkü razılaşmalara gətirib çıxarmış müştərək işə görə bir daha təşəkkür etmək və əmin olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında münasibətlər gələcəkdə də dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq ruhunda inkişaf edəcəkdir.

Rusiya Prezidenti Dmitri MEDVEDEV bəyanatla çıxış edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli həmkarlar!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Bu gün müstəqil dövlətlər olan Rusiya ilə Azərbaycanın münasibətləri tarixində həqiqətən çox əlamətdar gündür. Bu gün biz ölkələrimiz arasında mövcud olan mürəkkəb məsələlərdən sonuncusunu qapadıq. Azərbaycan üçün bu, sərhədin müəyyən edilməsi barədə ilk saziş, ilk müqavilədir. Ona görə də bu, gələcək münasibətlərimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti indicə bu münasibətləri iki strateji tərəfdaşın səmimi dostluq münasibətləri kimi səciyyələndirdi. Təbii ki, mən bu fikrə tamamilə şərikəm. Münasibətlərimizin mahiyyətini kooperasiyamızın praktiki olaraq bütün sahələrində izləmək mümkündür. İndi mən həm iqtisadi əlaqələr barədə, həm təhlükəsizlik mövzularına dair əməkdaşlıq, regional, humanitar əlaqələr barədə danışa bilərdim. Lakin mən bu münasibətlərin xüsusi xarakterini hər şeydən yaxşı səciyyələndirən cəmi bir misal gətirəcəyəm.

Bildiyiniz kimi, bu il Rusiya Federasiyasına fəlakət üz vermişdir. Çoxlu yaşayış məntəqəsi yanmış, insanlar zərər çəkmiş, həlak olmuş, çoxlu evi alov bürümüşdü. Bu məqamda azərbaycanlı həmkarlarımız da bizə dost əlini uzatmış, bizim bir sıra yaşayış məntəqələrində yanğınların söndürülməsində iştirak etmişlər. Bu, həqiqətən çox vacibdir. Xüsusən ona görə ki, bu cür fəlakətlər adətən, gözlənilmədən baş verir və çox vaxt sü-

rəkli xarakter daşıyır. Hətta indi, payızda da yanğınlar tüğyan edir. Dünən bizim iki vilayət yanğından zərər çəkmişdir, yaşayış məntəqələrinə, insanlara ziyan dəymişdir. Əlbəttə, biz bunların hamısını hökmən bərpa edəcəyik. Lakin bir məqam xüsusilə vacibdir ki, bu cür çətin şəraitdə, - hətta inkişaf etmiş iqtisadi potensiala malik olan Rusiya kimi böyük ölkə də çətin vəziyyətə düşə bilər, - yaxın dostlar kömək əlini uzadır. İlham Heydər oğlu, görülmüş işlərə görə bir daha çox sağ olun.

O ki qaldı gələcəyə, düşünürəm ki, gələcəyimiz çox yaxşı olacaqdır. Bizim çox perspektivli layihələrimiz vardır. Bu gün sərhədyanı Samur çayının su ehtiyatlarından birgə istifadə edilməsi barədə də müqavilə imzalanmışdır. Bu ehtiyatlar bizim müştərək sərvətimizdir və biz sadəcə olaraq, onlardan daha yaxşı istifadə etməyin yolları barədə fikirləşməliyik.

Energetika sahəsində əməkdaşlıq, əlbəttə, ən mühüm istiqamətdir. Lakin bu, yeganə istiqamət deyildir. Biz razılığa gəldik ki, bu məsələyə bəlkə də ayrıca bir görüş, dövlət başçılarının ayrıca bir zirvə toplantısını həsr etmək, bütün istiqamətlərdə vəziyyəti ölçüb-biçmək lazımdır. Xüsusən ona görə ki, artıq əlaqələr vardır. Bu əlaqələr, o cümlədən qaz sferasında əməkdaşlıq sahəsində kifayət qədər fəal inkişaf etməyə başlamışdır. Neft, ticarət, elektrik energetikası sahələrində əməkdaşlıq da elə istiqamətlərdir ki, biz onlara həqiqətən daha artıq diqqət yetiririk.

Regional məsələlər həmişə gündəlikdədir. Biz bu barədə çox danışmışıq. Təbii ki, təhlükəsizliyin təmin edilməsi məsələləri barədə danışmışıq. Lakin ümid edirəm ki, mətbuat konfransının gedişində bu cür suallar veriləcəkdir. Çünki zənnimcə, bu, maraqlıdır. İndi təfərrüata varmayacağam.

Biz son zamanlar daha bir ümumi məkanda əldə edilmiş müsbət nə varsa hamısını qoruyub saxlamağın zəruri olmasından danışdıq. Bu, Xəzər məkanıdır. Ümid edirəm ki, irəlidə bu əməkdaşlığı dərinləşdirmək üçün imkanımız olacaqdır.

Humanitar sahə çox vacibdir. İndicə ikonaların verilməsi kimi rəmzi bir akt baş tutdu. Həmin ikonalar Azərbaycan ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilmişdir. Çox yaxşı haldır ki, bizim hüquq mühafizə idarələri arasında bu cür əməkdaşlıq inkişaf edir. Onu demək istərdim ki, Rusiyaya məxsus təbərrüklərin verilməsinə görə Azərbaycan tərəfinə bir daha təşəkkürümüzü bildiririk. Bu, dost jestidir və təbii ki, biz onu müvafiq şəkildə qiymətləndiririk.

Təhsil sahəsində mütəxəssislər, mədəniyyət xadimləri arasında ünsiyyəti davam etdirmək lazımdır. Məhz bu səbəbdən bu gün Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüsü - Azərbaycanda keçirilən foruma beynəlxalq xarakter vermək təşəbbüsünü mən tamamilə bəyənirəm. Mənə belə gəlir ki, bura həm ikitərəfli humanitar məsələlərin, həmçinin siyasi əlaqələrin inkişafı məsələlərinin müzakirəsi üçün, həm də beynəlxalq miqyasda yaxşı məkandır. Xüsusən ona görə ki, bu işdə marağı olan tərəflər vardır - bizim qonşularımız da bu forumda iştirak etməyə hazırdırlar. Mənə belə gəlir ki, bu, maraqlı olacaqdır. Hər halda, əgər azərbaycanlı dostlarımız çağırsalar, biz həmin forumda məmnuniyyətlə iştirak edəcəyik.

Beləliklə, bu, həqiqətən əlamətdar səfərdir. Həm formal baxımdan əlamətdardır, çünki ölkələrimiz arasında qarşıdakı onilliklər üçün əməkdaşlığın təməlini yaradan çox mü-

hüm sənəd imzalanmışdır. Həm də qeyri-formal mənada, şəxsi ünsiyyət baxımından əlamətdardır, çünki bu cür ünsiyyət olmadan mehriban münasibətləri inkişaf etdirmək mümkün deyildir. Biz çox görüşürük, çox ünsiyyət saxlayırıq. Bizim çox mehriban yoldaşlıq münasibətlərimiz vardır və ümid edirəm ki, bundan sonra da belə olacaqdır.

* * *

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

- Bu gün imzalanan əlavə sazişə görə, "Qazprom"un gələn il alacağı Azərbaycan qazının həcmi artırılmışdır. Eyni zamanda, məhz Azərbaycan qazı "Nabukko" boru kəmərinin başlıca doldurucusu kimi nəzərdən keçirilir. "Nabukko" isə "Cənub axını"nın bilavasitə rəqibidir. Bu iki məqam bir-biri üçün ziddiyyət təşkil etmirmi? Bir tərəfdən qaz sahəsində Rusiya-Azərbaycan münasibətləri möhkəmlənir, digər tərəfdən isə Azərbaycan rəqib layihədə iştirakdan imtina etmir. Ümumiyyətlə, qaz bütün layihələrə kifayət edəcəkmi? Sualım hər iki prezidentədir.

Prezident Dmitri MEDVEDEV: Bilirsiniz, biz iqtisadi maraqlarımıza diqqətlə yanaşmalıyıq. Biz anlamalıyıq ki, bir tərəfin və digər tərəfin mənafeləri mövcuddur. Bu maraqlar praqmatik xarakter daşıyır. Bu, ideal vəziyyətdə olan humanitar sahədə əlaqələr deyildir. Biz burada pul qazanırıq. Bu, normal haldır. Biz burada imkanlarımızı arzularımızla uyğunlaşdırmalıyıq. Bu, birincisi.

İkincisi, bu gün biz Azərbaycan Prezidenti ilə söhbət zamanı deyirdik ki, biz regionda sanballı oyunçularıq və maraqlarımız çox halda üst-üstə düşür. Çünki ölkələrimiz enerji ehtiyatlarının istehsalçıları və ixracçılarıdır. Buna görə də biz bir tərəfdən razılığa gəlməliyik, digər tərəfdən isə kooperativləşməliyik. Həmkarlarımızın imzaladığı qaz ticarətinin genişləndirilməsi haqqında müvafiq sənədlər bunu nümayiş etdirdi.

Üçüncüsü, ən müxtəlif layihələr mövcuddur. Burada Rusiyanın mövqeyi həmişə elə olmuşdur ki, biz hər hansı layihələrə mane ola bilmərik və olmamalıyıq, bu, tamamilə qeyri-təbii işdir. Mənə elə gəlir ki, biz sadəcə əməkdaşlığın ən maraqlı sahələrini ayırmalı, birgə layihələrin cəlbediciliyini nümayiş etdirməliyik. Gələcək layihələrə gəldikdə isə, necə deyərlər, qoy mənfəət gətirən, tərəfdaşlarımız üçün maraqlı layihələr qalib gəlsin. Heç kim heç kimi heç nəyə vadar etmir. Eyni zamanda, bu, iqtisadi cəhətdən səmərəli layihələr olmalıdır. Gələcək üçün enerji sahəsində münasibətlər qurarkən mən buna əsaslanardım.

Prezident İlham ƏLİYEV: Mən də öz növbəmdə demək istəyirəm ki, Azərbaycan artıq 2007-ci ildən öz qazını beynəlxalq bazarlara çıxarır və Azərbaycanda hasil edilən qazın həcmi ilbəil artır. Ehtiyatlarımız yetərincə çoxdur. Azərbaycanda yalnız təsdiq edilmiş qaz ehtiyatı 2 trilyon kubmetrdən çoxdur. Potensialı isə biz real şəkildə təxminən 5 trilyon kubmetr həcmində qiymətləndiririk.

Buna görə də qaz bizə bir çox onilliklər kifayət edəcəkdir. Qaz sahəsində əməkdaşlığımız açıq və səmimi xarakter daşıyır. Biz bu sahəyə dostlarımız və tərəfdaşlarımızla münasibətlərimizi möhkəmləndirmək imkanı kimi baxırıq. Rusiya ilə bu sahədə əməkdaşlığımıza gəldikdə isə, bildiyiniz kimi, bu əməkdaşlıq nisbətən yaxınlarda başlanmışdır. Birinci sənədlər yalnız ötən il imzalanmışdır, lakin artıq qısa vaxt kəsiyində biz bu gün imzaladığımız müqavilə ilə Azərbaycan qazının Rusiyaya ixracının həcmini mahiyyət-

cə 4 dəfə artırırıq. Bu, böyük gələcəyi olan qarşılıqlı surətdə faydalı layihədir. Layihənin əhəmiyyətli üstünlüklərindən biri də budur ki, Azərbaycan ilə Rusiya arasında tranzit ölkə yoxdur. Biz qonşuyuq və bizi hazırda genişlənən qaz kəməri sistemi birləşdirir. Bizim tərəfimizdən Azərbaycan qazının Rusiyaya nəqli imkanlarının genişləndirilməsinə sərmayələr qoyulur.

Xatırlatdığınız başqa layihələrə və rəqabətə gəldikdə isə, biz qaz sahəsində fəaliyyətimizi hansısa əsaslandırılmamış rəqabət imkanı kimi nəzərdən keçirməmişik. Bu halda biz siyasi motivlərə deyil, yalnız iqtisadi və praktik motivlərə əsaslanırıq. Bu gün Rusiya və Azərbaycan şirkətləri arasında qaz sahəsində mövcud olan şərtlər bizi razı salır və mən ümid edirəm ki, Rusiya tərəfini də qane edir. Buna görə də əgər bütün maraqlı tərəflər buna məhz iqtisadi məqsədyönlülük nöqteyi-nəzərindən baxsalar və bu layihələrin süni şəkildə siyasiləşdirilməsi minimum səviyyəyə endirilsə, əminəm ki, bütün maraqlı tərəflərin mənafeləri nəzərə alınacaqdır. Bir daha demək istəyirəm ki, biz Rusiya ilə energetika sahəsində ikitərəfli əməkdaşlığımızı uzunmüddətli və strateji əməkdaşlıq kimi nəzərdən keçiririk və bu, təkcə qaz sahəsini əhatə etmir. Bu, həm neft, həm elektroenergetika sahələrinə də aiddir. Gələcəkdə qarşılıqlı razılığa gəlsək, biz bütün energetika komponentləri üzrə Rusiyaya təbii ehtiyatların ixracını artırmaq niyyətindəyik.

- Sualım hörmətli Rusiya Prezidentinədir. Azərbaycan ictimaiyyəti Sizin Ermənistana bu yaxınlardakı səfərinizə və orada Gümrüdəki Rusiya hərbi bazası ilə bağlı müqavilə-yə dəyişikliklər haqqında imzalanmış protokola böyük maraq göstərir. Bu da aydın məsələdir. Siz bunu necə şərh edərdiniz?

Prezident Dmitri MEDVEDEV: Çox sağ olun. Təbii ki, mən səfərimin yekunlarını şərh edəcəyəm. Gizlətməyəcəyəm, biz Azərbaycan Prezidenti İlham Heydər oğlu ilə bu mövzunu müzakirə etmişik. Şübhəsiz ki, Rusiya üçün burada, Qafqazda sabitliyin qorunub saxlanması çox vacibdir. Rusiya Qafqaz ölkəsi, Xəzəryanı ölkədir. Biz ən yaxın qonşumuz və dostumuz Azərbaycan ilə münasibətlər quranda məhz buna əsaslanırıq.

Buna görə burada sülh və asayiş olması hamımızın marağına uyğundur. Mənim Ermənistana səfərim zamanı qəbul edilmiş qərara, yəni Ermənistanda Rusiyanın hərbi bazasının olması haqqında müvafiq sazişin qüvvədə olması müddətinin artırılması məsələsinə də məhz bu mövqedən baxmaq lazımdır. Burada hər hansı gizli və ya başqa mülahizələr yoxdur. Həmin baza sülhü və asayişi təmin etməyə, sabitliyi qoruyub saxlamağa, bu gün mövcud olan bütün mürəkkəbliklərin azalmasına xidmət edir və bağlanmış saziş çərçivəsində imkanlarımızı və səlahiyyətlərimizi həyata keçirərkən biz məhz bu mövqedən çıxış edəcəyik. Sazişdə heç bir prinsipial yenilik yoxdur, onun yalnız bir mənası var: həmin bazanın orada olacağı illərin sayı müəyyən qədər artırılır. Mən əminəm ki, biz mümkün olan bütün imkanları burada, Qafqazda, Cənubi Qafqazda ümumi vəziyyətin sağlamlaşdırılmasına yönəldəcəyik. Mən öz tabeliyimdə olanlara - həmin bazanın təminatı məsələləri ilə məşğul olan müvafiq nazirliklərin, idarələrin rəhbərlərinə də məhz bu cür təlimatlar verəcəyəm.

Biz Azərbaycan Prezidenti ilə bu barədə kifayət qədər ətraflı danışmışıq. Biz gələcəkdə də burada, bizim regionda təhlükəsizliyin təmin edilməsinə aid bütün məsələlər barədə fəaliyyətimizi, fikir mübadiləsini sıx əlaqələndirəcəyik.

- Sualım cənab Əliyevədir. Siz dediniz ki, Xəzəryanı problemlər həmişə Sizin diqqət mərkəzinizdədir. Xahiş edirəm deyin, Xəzəryanı dövlətlərin Tehran sammitində növbəti zirvə görüşünün Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın reallaşdırılması hansı mərhələdədir? Bu sammitin Bakıda çağırılmasına hər hansı maneələr varmı?

Prezident İlham ƏLİYEV: Biz həmin məsələni bu gün Dmitri Anatolyeviçlə müzakirə etmişik, sammitin Bakıda keçirilməsinə heç bir maneə yoxdur. Xəzər dənizinin delimitasiyası ilə əlaqədar məsələnin tənzimlənməsi barədə mövqelərimiz üst-üstə düşür. Bildiyiniz kimi, bizim milli sektorların ölkələrimiz arasında bölünməsi barədə müvafiq saziş imzalanmışdır. Hesab edirik ki, bu, çox yaxşı formatdır və Xəzər dənizinin statusu ilə bağlı məsələnin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün möhkəm zəmin ola bilər.

Bu gün biz sammitin keçirilməsinin təxmini vaxtını da müzakirə etmişik və tərəfdaşlarımızla, Xəzəryanı bölgədəki qonşularımızla müvafiq məsləhətləşmələrdən sonra həmin vaxtı konkret müəyyən edəcəyik. Mənim bildiyimə görə, bizim başa düşdüyümüz mənada məqsəd həmin sammitin keçirilməsini 2011-ci ilə təxirə salmamaqdan, onu ən yaxın aylarda, 2010-cu ildə Bakıda keçirməkdən ibarətdir.

- Mənim sualım hər iki prezidentədir. Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsi regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün çox böyük əngəl yaradır. Siz bu məsələnin tənzimlənməsinin perspektivlərini necə təsəvvür edirsiniz?

Prezident İlham ƏLİYEV: Bizim fikrimizcə, bu məsələ ən tez bir vaxtda tənzimlənməlidir. Çünki danışıqlar prosesi artıq neçə illərdir ki, davam edir. 1992-ci ildə bu məsələ ilə məşğul olan Minsk qrupu yaradılmışdır. 1994-cü ildən atəşkəs haqqında saziş bağlanmışdır. O vaxtdan atəşkəs rejimi mövcuddur. Lakin bütün bu illər ərzində münaqişənin tammiqyaslı tənzimlənməsinə təəssüf ki, nail ola bilməmişik. Azərbaycan əraziləri işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yeridilmiş, nəticədə Dağlıq Qarabağdan və Dağlıq Qarabağın ətrafındakı yeddi rayonun ərazisindən yüz minlərlə azərbaycanlı qovulmuşdur.

Beynəlxalq təşkilatların qətnamələri mövcuddur. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Həmin sənədlərdə işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması haqqında tələblər irəli sürülür. ATƏT-in Lissabon sammitinin qərarları, digər beynəlxalq təşkilatların qətnamələri mövcuddur.

Münaqişə həmin qərarlar və qətnamələr əsasında, beynəlxalq hüququn normaları və prinsipləri əsasında tənzimlənməlidir. Bu, Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Moskvada imzalanmış Birgə Bəyannaməsində də əks olunmuşdur.

Ərazi bütövlüyü prinsipinin xalqların öz müqəddəratını təyin etmək hüququ ilə əlaqələndirilməsi məsələsi, bizim fikrimizcə, həll edilə bilməyən məsələ deyildir. Xalqın təyini-müqəddərat hüququ ölkələrin ərazi bütövlüyünün pozulmasını nəzərdə tutmamalıdır və ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həyata keçirilə bilər. Buna görə də biz hesab edirik ki, məsələnin məhz beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq təşkilatların qətnamələri əsasında həllini tapmaq lazımdır. Azərbaycan torpaqları-

nın işğal edilməsinə son qoymaq, yüz minlərlə məcburi köçkünün öz əzəli torpaqlarına qayıtmasına və sülh şəraitində yaşamasına imkan yaratmaq lazımdır.

Ümid edirəm ki, erməni tərəfi konstruktiv yanaşma nümayiş etdirəcək və biz münaqişəni mənim dediyim prinsiplər əsasında tənzimləmək yolunu tapa biləcəyik.

Mən sizin sualınızdan istifadə edərək, Rusiya Prezidentinə bu prosesdə fəal iştirakına görə təşəkkür etmək istərdim. Dmitri Anatolyeviçin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında altı görüş keçirilmişdir. Bu fakt özlüyündə misilsiz xarakter daşıyır. Həmsədr ölkələrin liderləri tarixdə hələ heç vaxt bu cür fəallıq və ən başlıcası, effektivlik nümayiş etdirməmişlər.

Dmitri Anatolyeviçin iştirakı ilə tərəflərin yaxınlaşdırılması işində çox mühüm addımlar atılmışdır. Mən Rusiya Prezidentinə təşəkkür etmək, eyni zamanda, ümidvar olduğumu bildirmək istəyirəm ki, o, gələcəkdə də bu istiqamətdə səy göstərəcəkdir. Biz bu gün bu məsələni müzakirə etmişik. Mən tam əminəm və inanıram ki, Rusiya Prezidentinin şəxsi iştirakı çox müsbət rol oynayır və onun iştirakı ilə aparılan danışıqlar daha səmərəlidir.

Prezident Dmitri MEDVEDEV: Mən demək istəyirəm ki, həqiqətən, son illər Azərbaycan və Ermənistan prezidentləri arasında Rusiya Prezidentinin iştirakı ilə görüşlərin sayı hədsiz çox olmuşdur.

Bu yaxınlarda mən həmin mövzuda danışmışam. Mən demişəm ki, son vaxtlar görülən işlərə görə xəcalət çəkmirəm. Bu, dərin, düşünülmüş müzakirələrdir və biz belə prosesdə yetərincə çətinliklər olduğunu anlayırıq. İstənilən halda, bu səylər müəyyən nəticələr verir. Danışıqlar davam edir və düşünürəm ki, əlaqələrin intensivliyi azalmamalıdır. Rusiya Minsk qrupu çərçivəsində vəzifələrini, həm də bu mövzuda ünsiyyəti davam etdirən qonşu ölkə kimi mənəvi vəzifələrini yerinə yetirməyə hazırdır. Şəxsən mən gündəlikdə qalan ən mürəkkəb məsələləri müzakirə etməyə hazıram. Ümidvaram ki, ölkələrimizin xarici siyasət idarələrinin iştirakı və şəxsən bizim iştirakımızla bu cür məsləhətləşmələr davam etdiriləcəkdir.

Mən xoş sözlərə görə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə minnətdaram.

Rusiya öz vəzifələrini hökmən yerinə yetirəcək və zəruri nəticənin əldə edilməsinə hərtərəfli kömək göstərəcəkdir. Nəticə isə çox lazımdır. Bu nəticə regiona möhkəm sülh və təhlükəsizlik gətirməyə qadirdir. Heç şübhəsiz ki, Rusiya Federasiyası da bunda maraqlıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYADAN ÖLKƏMİZƏ QANUNSUZ GƏTİRİLMİŞ İKONALARI VƏ İNCƏSƏNƏT ƏSƏRLƏRİNİ PREZİDENT DMİTRİ MEDVEDEVƏ TƏQDİM ETMİŞDİR

Sentyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiyadan ölkəmizə qanunsuz gətirilmiş ikonaları və incəsənət əsərlərini Prezident Dmitri Medvedevə təqdim etmişdir.

Azərbaycan dövlətinin başçısı demişdir:

- Bu ikonaları Sizə təqdim etmək istəyirəm. Rusiyadan qanunsuz çıxarılmasına cəhd

göstərilmiş bu əsərləri Azərbaycan-Rusiya sərhədində bizim gömrük xidmətlərimiz aşkar və müsadirə etmişlər. Onları sərhəddən keçirmək istəyənlər isə məsuliyyətə cəlb olunmuşlar. Bu gün rus xalqının bu incəsənət əsərlərini Sizə - Rusiya Prezidentinə təqdim edirəm. Onlar Sizin ölkənizdə saxlanılmalıdır.

Rusiya Prezidenti Dmitri Medvedev Prezident İlham Əliyevə təşəkkürünü bildirərək demişdir:

- Çox sağ olun. Bu, həqiqətən, əsl dost hərəkətidir. Rusiya üçün ikiqat xoşdur ki, Azərbaycan bir tərəfdən cinayətkarları yaxalamışdır, digər tərəfdən isə bu əsərlər evə qayıdır. Biz hamımız bunu yüksək dəyərləndiririk. Bu, həqiqətən, əsl dostluq jestidir.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR

Sentyabrın 3-də Bakı Dövlət Universitetində Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevə BDU-nun fəxri doktoru adının verilməsinə həsr edilmiş mərasim keçirilmişdir.

BDU-nun rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov mərasimdə çıxış edərək, Rusiya Prezidenti Dmitri Medvedevin həyat və fəaliyyətinin əsas mərhələləri barədə məlumat vermişdir.

BDU-nun rektoru ölkələrimiz arasında dinamik inkişaf etməkdə olan münasibətlər barədə söhbət açaraq, təhsil sahəsində qədim tarixi köklərə malik olan Azərbaycan-Rusiya əməkdaşlığı üzərində ətraflı dayanmışdır. Azərbaycanın qocaman ali məktəbi, ilk rektoru professor Razumovski olmuş Bakı Universitetində Rusiyanın tanınmış alimləri mühazirələr oxumuşlar. Universitetin məzunları arasında dünya elminin fəxri sayılan görkəmli alimlər az olmamışdır. Onlardan biri də Nobel mükafatı laureatı Lev Landau olmuşdur. Azərbaycan alimlərinin çoxu Rusiyanın ali məktəblərində təhsil almış, Moskvanın və Sankt-Peterburqun elmi mərkəzlərində öz ixtisaslarını artırmışlar.

Son illərdə elm və təhsil sahəsində ikitərəfli münasibətlərin fəal inkişaf etdiyini söyləyən A.Məhərrəmov demişdir ki, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakıda filialının açılması buna əyani nümunədir. Bu filial Azərbaycan ali məktəbləri üçün nümunəyə çevrilmişdir. Bakı Dövlət Universiteti də Rusiyanın ali məktəbləri ilə sıx əməkdaşlıq edir. Hazırda BDU-da rus dilində təhsil uğurla həyata keçirilir. Azərbaycanda rus dilinin qorunub saxlanmasına yönəlmiş çoxsaylı tədbirlər görülür.

Akademik Abel Məhərrəmov Rusiya Prezidenti Dmitri Medvedevin bu səfərinin Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsi üçün əhəmiyyətini vurğulayaraq əmin olduğunu bildirmişdir ki, ATƏT-in Minsk qrupunun həmsədri olan dost dövlətin başçısı Azərbaycan üçün ən ağrılı problemin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində və beynəlxalq hüquq normaları əsasında tezliklə və ədalətli həll edilməsi üçün hər cür səy göstərəcəkdir.

Sonra Abel Məhərrəmov Rusiya Prezidentinin vahid humanitar məkanın möhkəmləndirilməsi işinə şəxsi töhfəsinə, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasın-

da elm və təhsil sahəsində əlaqələrin genişləndirilməsində, dostluq və qardaşlığın möhkəmləndirilməsində fəal iştirakına görə ona BDU-nun fəxri doktoru adı verilməsi barədə universitetin Böyük Elmi Şurasının qərarını elan etmişdir.

Dmitri Medvedevə BDU-nun fəxri doktoru mantiyası və diplomu təqdim edilmişdir.

Rusiya Prezidenti Dmitri Medvedev mərasimdə çıxış etmişdir. O, Azərbaycanın qocaman ali məktəbinin Elmi Şurasının üzvlərinə ona göstərdikləri etimada görə təşəkkür edərək demişdir:

"Burada olmaq və fəxri doktor dərəcəsini almaq mənim üçün çox xoşdur. Mən məmnunam ki, bu hadisə səfərim çərçivəsində baş vermişdir". Rusiya Prezidenti bu səfərinin əlamətdar olduğunu vurğulayaraq bildirmişdir ki, bu gün imzalanan sənədlər Rusiya-Azərbaycan münasibətlərində yeni mərhələ açır. Rusiya Prezidenti Azərbaycan və Rusiya münasibətlərinin çoxillik tarixə malik olduğunu və dostluq-qardaşlıq münasibətlərinə əsaslandığını söyləmişdir. Rusiya Prezidenti demişdir:

- Biz bundan sonra da maksimum sıx qarşılıqlı fəaliyyət göstərməli, bir-birimizi öyrənməliyik. Çünki ümumiyyətlə, öyrənmək heç vaxt gec və eyib deyildir. Uzun müddət birlikdə olduğumuza və indi çox yaxın tərəfdaşlar, dost ölkələr olduğumuza görə bir-birimizi əla tanıdığımızı düşünmək azdır.

Dilləri öyrənmək lazımdır. Yeri gəlmişkən, təkcə rus dilini deyil, Rusiyada Azərbaycan dilini də öyrənmək lazımdır. Xüsusən ona görə ki, Rusiyada çox böyük və güclü Azərbaycan diasporu vardır. Bununla məşğul olmaq lazımdır. Təhsil proqramları da lazımdır.

Yeri gəlmişkən, bu baxımdan Azərbaycanda hər şey çox yaxşı görünür, mən hətta deyərdim ki, hər şey əladır, çünki on minlərlə məktəbli, tələbə rus dilini öyrənir. Bu o deməkdir ki, biz həmişə eyni dalğada olacağıq. Gərək Rusiyada da buna oxşar proqramlar olsun.

Dünən mən bizim nümayəndə heyətinin buraya gəlişi münasibətilə təntənəli qəbulda ziyafətdəki çıxışımda dedim ki, biz bunun çox vacib olduğunu başa düşərək, Rusiya Federasiyasında Azərbaycan telekanallarından birinin pulsuz fəaliyyət göstərməsi barədə qərar qəbul etmişik - Azərbaycanın tarixi və müasir həyatı ilə maraqlananların hamısı üçün və əlbəttə, Moskvada yaşayan və işləyən Azərbaycan vətəndaşları üçün, ümumiyyətlə Moskvadakı Azərbaycan diasporu üçün.

Bu gün Rusiyada çoxlu sayda azərbaycanlı tələbənin təhsil aldığını deyən Dmitri Medvedev bunun dəyərsiz kapital olduğunu qeyd edərək vurğulamışdır ki, məhz bu insanlar gələcək əməkdaşlıq üçün əsas yaradacaqlar. Rusiya Prezidenti bir qədər əvvəl hər iki ölkənin tarixində çətin dövrün yaşandığını xatırladaraq, bunun artıq geridə qaldığını diqqətə çatdıraraq demişdir:

- Mən Rusiya Federasiyasının Prezidenti kimi son vaxtlar üç dəfə Azərbaycana gəlmişəm. Bu, ümumiyyətlə desək, Rusiya Prezidentinin Azərbaycana səfərlərinin misli görünməmiş tezliyi deməkdir. Mənə belə gəlir ki, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsi üçün bu, həqiqətən vacibdir.

İlham Heydər oğlu dəfələrlə bizim ölkədə - Moskvada, Peterburqda, başqa şəhərlərdə

olmuşdur. Bunlar həm rəsmi, həm də qeyri-rəsmi tədbirlər idi. Mən bunu çox yüksək qiymətləndirirəm. Ona görə ki, nə gizlədim, dövlətlərin liderləri arasında mehriban münasibətlərdən, əlbəttə, çox şey asılıdır.

Bu baxımdan, əsası sizin universitetin daha bir məzunu - müstəqil Azərbaycan dövlətinin banisi, Azərbaycanın sədaqətli oğlu kimi sevdiyimiz və qiymətləndirdiyimiz, mahiyyət etibarı ilə müəyyən, çox çətin dövrdə millətin birləşməsinə şərait yaratmış və onu keyfiyyətcə yeni səviyyəyə qaldırmış Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş ənənələr, əminəm ki, bizim fəaliyyətimiz sayəsində davam etdiriləcək və zənginləşəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunan Dmitri Medvedev Rusiyanın bu məsələdə öz vasitəçilik məsuliyyətini dərk etdiyini, son zamanlar Rusiya dövlət başçısının iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin birgə görüşlərinin keçirildiyini bildirmişdir. O vurğulamışdır ki, Rusiya bu problemin həllində maksimum dərəcədə maraqlıdır. Səmimi şəkildə tələbələrə müraciət edən ali qonaq ölkəmizdə elmlə məşğul olmaq üçün bütün şəraitin yaradıldığını söyləmişdir. Bildirmişdir ki, Bakı sürətlə gözəlləşir, eyni zamanda burada çox xoş ab-hava vardır. O, tələbələrə Azərbaycan-Rusiya münasibətlərinin tarixini öyrənməyi tövsiyə edərək demişdir ki, ölkələrimiz arasında gələcək münasibətlər məhz siz gənclərdən asılıdır.

Sonda Rusiya Prezidenti ona Bakı Dövlət Universitetinin fəxri doktoru adının verilməsi münasibətilə bir daha təşəkkürünü bildirmişdir.

HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

Sentyabrın 3-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunda Rusiya Prezidentinin xanımı Svetlana Medvedeva ilə görüşmüşdür.

Birinci xanımlar əvvəlcə Fondun fəaliyyəti, təhsil, elm, səhiyyə və digər sahələrdə həyata keçirdiyi layihələrdən bəhs edən filmə baxdılar.

Sonra Mehriban Əliyeva ilə Svetlana Medvedevanın görüşü oldu.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bildirdi ki, Fond Azərbaycanın tərəqqisinə yönələn, mədəniyyətimizin və ölkəmizin tarixinin geniş təbliği ilə bağlı görülən işləri dəstəkləyir. Azərbaycanın birinci xanımı dedi ki, rəhbərlik etdiyi qurum müxtəlif sahələri əhatə edən və cəmiyyəti düşündürən, ölkəmizin həqiqətlərinin dünyada təbliğ olunmasına yönələn genişmiqyaslı layihələr həyata keçirir. Fond bir sıra beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edir.

Heydər Əliyev Fondunun Rusiya Prezidentinin xanımının rəhbərlik etdiyi Sosial-Mədəni Təşəbbüslər Fondu kimi geniş xeyriyyəçilik və irimiqyaslı sosial və humanitar layihələr həyata keçirdiyini söyləyən Mehriban xanım dedi ki, biz bir yerdə əməkdaşlıq çərçivəsində çox şeyə nail ola bilərik.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirən Rusiyanın birinci xanımı Svetlana Medvedeva görülən işlərin təqdirəlayiq olduğunu söylədi. O, Fondun reallaşdırdığı layihələrin əhəmiyyətini xüsusi qeyd edərək, Heydər Əliyev Fonduna gələcək fəaliyyətində uğurlar arzuladı.

Rusiyanın birinci xanımı özünün rəhbərlik etdiyi Sosial-Mədəni Təşəbbüslər Fondunun fəaliyyəti haqqında məlumat verərək, qurumun bir sıra iri layihələr həyata keçirdiyini söylədi.

Görüşdə mədəni irsin qorunması sahəsində müzakirələr aparıldı. Birinci xanımlar Fondlar arasında əlaqələrin inkişafı ilə bağlı razılığa gəldilər. Xeyriyyəçilik missiyası ilə bərabər, ölkələrimizin mədəniyyətlərinin təbliğatına da böyük diqqət ayrılmasının vacibliyi vurğulandı.

Görüşdən sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Svetlana Medvedevaya xatirə hədiyyələri təqdim etdi.

Rusiyanın birinci xanımı Heydər Əliyev Fondundan zəngin təəssüratlarla ayrıldı.

AZƏRBAYCAN XALÇALARI RUSİYANIN BİRİNCİ XANIMINI VALEH ETMİŞDİR

Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və ölkəmizdə səfərdə olan Rusiya Prezidentinin xanımı Svetlana Medvedeva sentyabrın 3-də "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Sehrli ilmələr" qalereyasında olmuşlar.

Hörmətli qonaqlara gül dəstələri təqdim edilmişdir.

Müəssisə ilə tanış olan Rusiyanın birinci xanımına məlumat verilmişdir ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim sənətlərindən biridir. Qədim səyyahlar, salnaməçilər ölkəmizdə toxunan xalı-xalçanın yüksək keyfiyyəti, zəngin çeşniləri barədə yazılı məlumatlar vermiş, bütün Şərqdə məşhur olduğunu bildirmişlər. Azərbaycanın xalı və xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 1996-cı ildən fəaliyyətə başlamış, hazırda 350 nəfərin çalışdığı "Azər-İlmə"nin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya və Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafatlara və sertifikatlara layiq görülmüşdür. Müəssisədə iplər ancaq təbii rənglərlə boyanır, eskizlər milli naxış və çeşnilərdən götürülür. İşlədilən bütün xammal yerli məhsullardır.

Vurğulanmışdır ki, keçən il "Azər-İlmə" Avropanın Biznes Assambleyasının "United Europe" və "XXI əsrin liderləri" beynəlxalq imic proqramının "European Quality" nüfuzlu mükafatına da layiq görülmüşdür.

Azərbaycanın və Rusiyanın birinci xanımları qalereyanın açıq səma altında nümayiş etdirilən zəngin eksponatlarına baxdılar, boyama, toxuma prosesini maraqla izlədilər, xalçaçı qızlarla səmimi söhbət etdilər. Xanım Svetlana Medvedeva xalçaçı qızların köməyi ilə orijinal kompozisiyalı xalçaya bir neçə ilmə də vurdu və bunun çox çətin, incə peşə olduğunu söylədi.

Dövlət başçılarının xanımları xalçaçı qızlara işlərində uğurlar arzuladılar.

Rusiyanın birinci xanımı qədim xalçaların nümayiş olunduğu sərgiyə də baxdı. Burada yaşı yüz ildən çox olan xalılar da nümayiş etdirilir. Sərgi qonaqda böyük maraq oyatdı.

"Azərbaycan xalçası qalereyası"nda nümayiş olunan "Azərbaycanın tarixi xalçaçılıq məktəbləri" ipək xalı xəritəsi də yüksək bədii tərtibatı ilə qonağı məftun etdi.

Svetlana Medvedeva qalereyanın xatirə kitabına ürək sözlərini yazdı.

Hörmətli qonağa xatirə hədiyyəsi təqdim edildi.

MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və Rusiyanın birinci xanımı Svetlana Medvedeva sentyabrın 3-də Müasir İncəsənət Muzeyində olmuşlar.

Xanım Svetlana Medvedeva Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış muzeyin ekspozisiyasına tamaşa etdi.

Qonağa məlumat verilmişdir ki, buradakı ekspozisiyanın əsasını XX əsrin ikinci yarısından bu günədək Azərbaycanın ən yaxşı avanqard rəsm və heykəltəraşlıq əsərləri təşkil edir. Muzeydə Azərbaycanın adlı-sanlı və gənc, əsasən avanqard üslubda işləyən rəssam və heykəltəraşlarının 1000-dək işi toplanmışdır.

Bildirilmişdir ki, muzeyin beynəlxalq əlaqələri də genişlənir. Bu mədəniyyət ocağı 2011-ci ildə 47 ölkənin təmsilçisinin qatılacağı Avropa müasir incəsənət muzeylərinin müsabiqəsində iştirak etmək niyyətindədir.

Qonaq Azərbaycanın xalq rəssamları Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanovun, adları Azərbaycan mədəniyyəti xəzinəsinə daxil edilmiş bir çox fırça ustası və heykəltəraşın əsərləri ilə tanış oldu.

Rusiyanın birinci xanımı muzeydə Mehriban xanım Əliyevanın mayın sonlarında Bakıda keçirilmiş "Qız qalası" Beynəlxalq incəsənət festivalına təqdim etdiyi əsərinə maraqla tamaşa etdi. Mehriban xanım Əliyevanın əsərində bir sıra ölkələrin müxtəlif tarixi və mədəniyyət abidələri əks etdirilmişdir. Əsərin üzərində isə mədəni irsin qorunmasına rəmzi çağırış mənasını daşıyan çətir qurulmuşdur. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bu əsəri ilə bütün dünyanı mədəni irsin qorunmasına çağırmışdır.

Qərbi Avropa incəsənəti salonunda isə Pablo Pikasso, Salvador Dali, Mark Şaqal kimi dahi klassiklərin əsərləri nümayiş etdirilir.

Dizayn müəllifi tanınmış rəssam Altay Sadıqzadə olan bu mədəniyyət məbədində uşaq incəsənəti salonu, kitabxana, videosalon, restoran və art-kafe də fəaliyyət göstərir. Muzeydə 800-dək rəsm işi ilə yanaşı, 200-dən çox heykəltəraşlıq nümunəsi də nümayiş etdirilir.

Qonaq muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Rusiyanın birinci xanımına xatirə hədiyyəsi təqdim olundu. Xanım Svetlana Medvedeva da Mehriban xanım Əliyevaya hədiyyə təqdim etdi.

Rusiya Prezidentinin xanımı muzeyin əməkdaşlarına təşəkkürünü bildirərək, buradan zəngin təəssüratlarla ayrılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV XANIMLARI İLƏ BİRLİKDƏ "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNU GƏZMİŞ, DƏNİZKƏNARI MİLLİ PARKDA OLMUŞLAR

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Dmitri Medvedev xanımları ilə birlikdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu gəzmiş, Dənizkənarı Milli Parkda olmuşlar.

Ölkəmizdə rəsmi səfərdə olan Rusiya Prezidenti Dmitri Medvedevin və xanımı Svetlana Medvedevanın Bakı ilə tanışlığı Filarmoniya bağından başladı. Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əsaslı yenidənqurmadan sonra ötən il istifadəyə verilən bu bağın tarixi barədə Rusiyanın dövlət başçısına məlumat verdilər. Bildirildi ki, son illər Bakıda park və bağların yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bundan əsas məqsəd insanların mənalı istirahətini təşkil etməkdir.

Daha sonra qonaqlar İçərişəhəri gəzintiyə çıxdılar. Bildirildi ki, Azərbaycan tarixinin və mədəniyyətinin incisi olan İçərişəhər dünya mədəni irsinin nadir abidələrindəndir. Azərbaycan tarixinin canlı əfsanəsi olan İçərişəhər memarlıq kompleksi dünyada misilsiz abidələrdən biridir. Burada aparılan arxeoloji qazıntılar zamanı milli dövlətçilik tarixinin açılmamış səhifələri öyrənilmiş, Böyük İpək yolunun üstündə yerləşən qədim Bakının strateji əhəmiyyətini təsdiq edən tarixi faktlar aşkar olunmuşdur. Elə buna görə də 1985-ci ildən Dövlət Tarix-Memarlıq Qoruğu elan edilən İçərişəhər 2000-ci ildən YUNESKO-nun Dünya irs siyahısına daxil edilmişdir.

Rusiyanın dövlət başçısı və xanımı İçərişəhərdə milli mətbəximizin nümunəsi olan təndir çörəyinə qonaq oldular.

İçərişəhərin ən mühüm tarixi tikililərindən olan Karvansara da qonaqlarda böyük maraq doğurdu. Qeyd olundu ki, qədim Şərq həyatının ən mühüm atributlarından olan karvansara bu gün təyinatı üzrə istifadə olunmasa da, ulu tariximizin bir parçası kimi buraya gələn qonaqlarda maraq doğurur.

Qonaqlar Şirvanşahlar sarayında da oldular. Qeyd edildi ki, Şirvanşahlar saray kompleksi XV əsrin əvvəllərində tikilmişdir. Komplekse daxil olan abidələr İçərişəhərin ən yüksək yerində yerləşir. Qız qalası da sarayın yaxınlığındadır. Eradan əvvəl VII-VI əsrlərdə əsası qoyulan Qız qalası XII əsrdə bərpa edilmişdir. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan Qız qalası silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri bir tikilidən ibarətdir. Məscid-mədrəsə və XII əsrə aid bazar da burada yerləşir. Burada o dövrə aid qəbir daşları və totemlər saxlanılır.

Rusiya Prezidenti burada şəkil çəkdi. Sonra birlikdə şəkil çəkdirildi.

Prezident Dmitri Medvedev və xanımı İçərişəhərdə nümayiş olunan milli sənətkarlıq nümunələrinə də baxdılar.

Rusiya dövlətinin başçısının diqqətinə çatdırıldı ki, İçərişəhər ərazisində Azərbaycan

alimləri arxeoloji qazıntılar aparmış və Azərbaycan tarixinə dair bir çox qiymətli maddi-mədəniyyət nümunələri aşkar etmişlər. İndi Azərbaycan muzeylərinin ən qiymətli eksponatları olan bu tapıntılar tariximizin qədim dövrlərinin öyrənilməsi üçün geniş imkanlar açır.

Qonaqlar üzərində paytaxtımızın rəmzi olan qədim abidələrimizin əks olunduğu suvenirlərə də baxdılar.

Azərbaycan rəssamlarının çəkdiyi əsərlər də qonaqlarda maraq doğurdu. Rusiya Prezidenti və xanımı İçərişəhərdə yerləşən qalereyada qədim abidələrimizin əks olunduğu rəsm əsərlərinə tamaşa etdilər.

Qonaqlar çay süfrəsi arxasında İçərişəhərdən bəhs edən filmə baxdılar.

Rusiya Prezidentinə xatirə olaraq hədiyyə təqdim olundu.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Rusiya Prezidenti Dmitri Medvedev və xanımı Svetlana Medvedeva Dənizkənarı Milli Parkda gəzintiyə çıxdılar.

Bildirildi ki, son illər Bakıda aparılan yenidənqurma işləri Dənizkənarı Milli Parkda da geniş vüsət almışdır. Paytaxt sakinlərinin və Bakıya gələn qonaqların ən çox üz tutduğu məkanlardan biri olan bulvar son bir neçə ildə görkəmini tanınmaz dərəcədə dəyişmişdir. Yenidənqurma işləri zamanı milli üslubla beynəlxalq təcrübə peşəkarlıqla uzlaşdırılmışdır. Hazırda öz gözəlliyi ilə diqqəti çəkən Bakı bulvarı Azərbaycan paytaxtına xüsusi yaraşıq verir.

Azərbaycan paytaxtı ilə tanışlıq Rusiya dövlətinin başçısında və xanımında zəngin təəssürat doğurdu.

* * *

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin Azərbaycan Respublikasına rəsmi səfəri sentyabrın 3-də başa çatmışdır.

M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU V.SADOVNİÇİ BU ALİ MƏKTƏBİN BAKI FİLİALINDA OLMUŞDUR

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevi Azərbaycana rəsmi səfərində müşayiət edən nümayəndə heyətinin tərkibində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) rektoru, Rusiya Elmlər Akademiyasının vitse-prezidenti, akademik Viktor Sadovniçi də Bakıya gəlmişdir.

Viktor Sadovniçi sentyabrın 2-də MDU-nun Bakı filialında olmuş, bu ali məktəbin rektoru, professor Nərgiz Paşayeva ilə görüşmüşdür.

Professor N.Paşayeva filialın fəaliyyətindən danışmış, tələbələrin sayının artıq 263 nəfərə çatdığını qeyd etmiş və fəaliyyətində MDU-nun dəstəyini həmişə hiss etdiyini bildirmişdir. Bakı filialının rektoru belə görüşlərin vacibliyini xüsusi qeyd etmişdir.

Universitetlə filial arasında əməkdaşlığın perspektivlərindən danışan akademik Viktor

Sadovniçi Bakı filialının tələbələri üçün "XXI əsrin universiteti" adlı kitablar gətirdiyini, sentyabrın 1-də bu kitabdan MDU-nun bütün birinci kurs tələbələrinin də aldığını bildirmişdir.

Görüşdə Nərgiz Paşayeva fərqlənən tələbələr üçün xüsusi təqaüdün təsis edilməsini və onun "Lomonosov təqaüdü" adlandırılmasını təklif etmişdir.

MDU-nun Bakı filialının fəaliyyətini yüksək qiymətləndirən V.Sadovniçi burada həm təhsilin, həm də təşkilati məsələlərin ən müasir səviyyədə qurulduğunu vurğulamışdır.

ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLARI, DÜNYA İCTİMAİYYƏTİNİ, ELƏCƏ DƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİ CİDDİ NARAHAT ETMƏLİDİR

Sentyabrın 5-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov Müqəddəs Kitabımız - Qurani-Kərimin nazil olmasının 1400 illiyi münasibətilə İslam Konfransı Təşkilatına (İKT) üzv ölkələrin dini işlər nazirlərinin İstanbulda keçirilmiş toplantısında iştirak etmişdir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın himayədarlığı və iştirakı ilə keçirilən görüşdə İKT-nin baş katibi Ekmələddin İhsanoğlu, İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, İKT-yə üzv ölkələrin dini işlər nazirləri və digər rəsmi şəxsləri, eləcə də islam dünyasının nüfuzlu din xadimləri, tanınmış islamşünaslar və ilahiyyatçılar iştirak etmişlər.

Hidayət Orucov tədbirdə çıxış etmiş, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin islam dininə və Qurani-Kərimə yüksək münasibətini görüş iştirakçılarının diqqətinə çatdırmışdır.

Dövlət Komitəsinin sədri müqəddəs Kitabımızın müsəlmanların və islam dünyasının birliyi və həmrəyliyi baxımından böyük önəm daşıdığını qeyd etmişdir.

O bildirmişdir ki, elm və texnikanın sürətli inkişafına, qloballaşma prosesinin dərinləşməsinə baxmayaraq, hələ də müsəlmanlar arasında nifaq toxumu səpilir, məzhəb və təriqət ayrı-seçkiliyi yaşanır, islam dininin həmrəylik və humanizm ideyalarına kölgə salınır. İslam dünyasında mövcud münaqişələrin həlli istiqamətində səylər gücləndirilməli, təcavüzə məruz qalmış din qardaşlarımız müdafiə olunmalıdırlar. Bu, Qurani-Kərimin müsəlmanların üzərinə qoyduğu mənəvi borcdur. Təcavüzkar Ermənistan islam dünyasının tərkib hissəsi olan Azərbaycana qarşı dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparır. Bir milyondan artıq soydaşımız məcburi köçkün həyatı yaşayır, tarixi-dini abidələrimiz - məscidlər, ziyarətgahlar, türbələr və digər mədəniyyət nümunələrimiz erməni vandalizminin qurbanına çevrilmişdir. Bütün bunlar təkcə Azərbaycanı yox, bütün beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, xüsusilə də qardaş müsəlman ölkələrini narahat etməli və təxirəsalınmaz tədbirlər görülməlidir.

Komitə sədri Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə Qurani-Kərimin yüksək zövqlə, möhtəşəm poliqrafik icrada işıq üzü gördüyünü iştirakçıların diqqətinə çatdırıb.

Qurani-Kərimin Azərbaycanda buraxılmış nəşri görüş iştirakçılarında böyük maraq və heyrət doğurmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLANDIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ARJEN PETER UİJTERLİNDENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Arjen Peter Uijterlindenin etimadnaməsini qəbul etmişdir.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Arjen Peter Uijterlinde etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfir Arjen Peter Uijterlindenin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Niderland Krallığı arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan Respublikasının Niderland Krallığı ilə münasibətlərin inkişafında maraqlı olduğunu deyən Prezident İlham Əliyev bunun üçün yaxşı potensialın olduğunu qeyd etdi. Hər iki ölkədə tam həcmdə diplomatik nümayəndəliklərin fəaliyyət göstərməsinin önəmini vurğulayan dövlətimizin başçısı ikitərəfli layihələrə biznes ictimaiyyətinin də böyük maraq göstərdiyini dedi. Avropa İttifaqı-Azərbaycan münasibətlərinin ikitərəfli əlaqələrimizin tərkib hissələrindən biri olduğunu vurğulayan Prezident İlham Əliyev münasibətlərimizin bir çox sahələri əhatə edəcəyinə əminliyini ifadə etdi.

Səfir Arjen Peter Uijterlinde Niderland Kraliçası Ülyahəzrət Beatriksin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Arjen Peter Uijterlinde son illər ikitərəfli münasibətlərimizin inkişafında böyük tərəqqinin müşahidə olunduğunu, qarşılıqlı səfərlərin artdığını dedi.

Dövlətimizin başçısı Niderland Kraliçası Ülyahəzrət Beatriksin ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da ən xoş arzularını Kraliçaya və ölkəsinin liderlərinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Sentyabrın 6-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin cari vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır. İkitərəfli əməkdaşlığın intensivləşdiyini qeyd edən tərəflər bu xüsusda "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyətini vurğulamışlar.

Cənubi Qafqaz regionunda təhlükəsizlik, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan E.Məmmədyarov məsələnin həllinə dair danışıqlar prosesinin hazırkı vəziyyəti barədə qonağa məlumat vermişdir.

P.Semnebi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll ediləcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə Azərbaycan ilə Aİ arasında əməkdaşlığın cari vəziyyəti, regional sabitlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNİN REKTORU ƏLİ DOĞRAMACI İLƏ GÖRÜŞMÜŞDÜR

Sentyabrın 7-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Türkiyənin Bilkənd Universitetinin rektoru, professor Əli Doğramacı ilə görüşmüşdür.

Qonağı salamlayan Mehriban xanım Əliyeva Əli Doğramacını Fondda görməkdən şad olduğunu bildirdi. Mehriban xanım Əliyeva Əli Doğramacının bu səfərinin görkəmli musiqiçi Sərvər Qəniyevin vəfatı ilə əlaqədar baş tutmasından təəssüfləndiyini bildirərək, ustad sənətkarın dünyasını dəyişməsini həm Azərbaycan, həm də Türkiyə üçün böyük itki olduğunu dedi. Mehriban xanım bildirdi ki, Sərvər Qəniyevin həyatının böyük bir hissəsi Türkiyənin Bilkənd Universiteti ilə bağlı olmuşdur. Onun davamçısı, nəvəsi, gənc skripkaçı Elvin Qəniyevin Parisdə YUNESKO-nun qərargahında Heydər Əliyev

Fondunun təşkil etdiyi "Azərbaycanın xoşməramlı mələkləri" adlı konsertindəki çıxışını xatırlayan Mehriban Əliyeva Fondun bu istedadlı gəncə dəstək verdiyini qeyd etdi.

Azərbaycana gəldiyi üçün Əli Doğramacıya təşəkkürünü bildirən Mehriban xanım Əliyeva qonağın Fonda göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Qeyd etdi ki, atası İhsan Doğramacının xatirəsi Azərbaycan xalqı üçün əzizdir.

Əli Doğramacı Azərbaycana hər gəlişində ölkəmizin daha da gözəlləşdiyini və inkişaf etdiyini diqqətə çatdırdı. Azərbaycan və Türkiyənin həm xoş, həm də çətin günlərdə bir yerdə olduğunu deyən qonaq bildirdi ki, Sərvər Qəniyev Azərbaycanı dünyaya tanıdan görkəmli şəxsiyyətlərdən biridir.

Hörmətli qonaq qeyd etdi ki, S.Qəniyev Türkiyədə zəngin Azərbaycan mədəniyyətinin fəal təbliğatçısı kimi tanınmışdır. O eyni zamanda, yeni musiqiçilər nəslinin yetişməsinə böyük töhfələr vermişdir.

ABŞ-IN SABİQ MÜDAFİƏ NAZİRİ CƏNUBİ QAFQAZIN TARİXİNİ, MƏDƏNİYYƏTİNİ ÖYRƏNMƏK ÜÇÜN REGİONA SƏFƏR ETMİŞDİR

ABŞ-ın sabiq müdafiə naziri Vilyam Perri Cənubi Qafqazın tarixini, mədəniyyətini və adət-ənənələrini öyrənmək məqsədi ilə regiona səfərə gəlmişdir.

Sentyabrın 7-də Azərbaycan Diplomatik Akademiyasında (ADA) "Yenidənəqurmadan 25 il sonra postsovet ölkələrində baş verən dəyişikliklər" mövzusunda mühazirə oxuyan V.Perri ölkəmizdəki inkişafı xüsusi vurğulamışdır.

Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi və mədəni sahələrdə mübadilə aparılmalıdır, - deyən V.Perri ölkəmizdəki yeniliklərdən də danışmışdır. Onun sözlərinə görə, Azərbaycanda Diplomatik Akademiyanın yaradılması özü böyük uğurdur. Çünki elmi mərkəzlər, təhsil ocaqlarının inkişafı həmin dövlətin gələcəyindən xəbər verir.

Regionda baş verən proseslərə də münasibət bildirən sabiq müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunmuşdur. O, demişdir ki, Ermənistan ilə Azərbaycan arasında narazılıq uzun müddətdir ki, davam edir və danışıqlar aparılır. Bu problemlərin həlli vacibdir və biz bu prosesin sülh yolu ilə həllinin tərəfdarıyıq.

ADA-nın rektoru Hafiz Paşayev qeyd etmişdir ki, sovet imperiyası dağıldıqdan sonra Azərbaycan da keçmiş sovet respublikaları kimi çətinliklərlə üzləşmişdir. Müstəqilliyinin ilk illərində 20 Yanvar faciəsini və Dağlıq Qarabağ problemini yaşayan Azərbaycan bu gün dünyanın inkişaf etmiş ölkələri ilə bir sıradadır. V.Perri 1994-1997-ci illərdə ABŞ-ın müdafiə naziri vəzifəsində çalışmışdır. Hazırda Stanford Universitetinin professorudur.

HEYDƏR ƏLİYEV FONDU İLƏ ABŞ KONQRESİNİN KİTABXANASI ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUMUN İMZALANMASI İLƏ BAĞLI RAZILIQ ƏLDƏ OLUNMUŞDUR

Heydər Əliyev Fondu və ABŞ Konqresinin kitabxanası arasında əməkdaşlıq haqqında memorandum imzalanacaqdır.

Sentyabrın 7-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ilə ABŞ Konqresi kitabxanasının direktoru Ceyms Billinqtonun başçılıq etdiyi nümayəndə heyətinin görüşü zamanı bununla bağlı razılıq əldə olunmuşdur.

Heydər Əliyev Fondu ilə ABŞ Konqresinin kitabxanası arasında əməkdaşlıq çərçivəsində Azərbaycanda əlyazmaların rəqəmsal formata çevrilməsi üçün birgə işlər aparılacaqdır. Bu əlyazmalar dünya rəqəmsal kitabxanasının saytında yerləşdiriləcəkdir. Bundan sonra dünya ictimaiyyəti bu əlyazmalardan istifadə edə biləcəkdir.

İORDANİYA AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR

Əmmanda səfərdə olan Azərbaycanın mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev sentyabrın 7-də İordaniya Haşimilər Krallığı Mədəniyyət Nazirliyinin baş katibi Ciris Səmavi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İordaniya arasında mədəniyyət sahəsində əməkdaşlığın mövcud durumu və inkişaf perspektivləri, xüsusilə gələn ay Əmmanda keçiriləcək Azərbaycan Mədəniyyəti Günlərinə hazırlıq məsələləri ətraflı müzakirə olunmuşdur.

Səmavi Kral II Abdullahın müştərək tarixə və dini irsə malik olan Azərbaycan ilə İordaniya arasında əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırmışdır. İordaniya Haşimilər Krallığı Mədəniyyət Nazirliyinin baş katibi, həmçinin, iki dövlət arasında bir neçə sənədin və mədəni proqramların imzalandığını vurğulayaraq bildirmişdir ki, qarşılıqlı səfərlər, İordaniyanın Azərbaycandakı konfranslarda iştirakı bu əlaqələri daha da gücləndirmişdir.

Ciris Səmavi demişdir ki, incəsənət və mədəniyyət xalqlar arasında sülhün bərqərar olmasında əsas vasitədir. O, İordaniya Mədəniyyət Nazirliyinin musiqi, muzey, İordaniya ədəbiyyatının Azərbaycan dilinə tərcüməsi sahələrində Azərbaycanın təcrübəsindən yararlanmaq istədiyini nəzərə çarpdırmışdır.

Azərbaycanın mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev iki dövlət arasında bütün sahələrdə əlaqələrin getdikcə dərinləşdiyini vurğulayaraq, ölkəmizin ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu, xüsusilə mədəniyyət sahəsində müştərək layihələrin həyata keçirilməsinə mühüm əhəmiyyət verdiyini bildirmişdir.

Ə.Vəliyev demişdir ki, onun krallığa səfəri İordaniyada Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi üçün nəzərdə tutulan hazırlıq işləri ilə bağlıdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinin gedişi və eləcə də digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Niderland Krallığı Senatının sədri Rene Van der Lindeni qəbul etmişdir.

Dövlətimizin başçısı Rene Van der Linden ilə Strasburqda keçirdiyi görüşləri və sıx təmasları məmnunluqla xatırladığını dedi.

Rene Van der Linden ölkəmizə yenidən səfər etməsindən, dostluq münasibətlərimizin və çox yaxşı əlaqələrimizin olmasından məmnunluğunu bildirdi. Avropa Şurası Parlament Assambleyasının sədrliyindən sonra Azərbaycan-Niderland dostluq qrupuna rəhbərlik etdiyini vurğulayan qonaq Senatın sədri kimi də ölkəmizlə əlaqələrə böyük önəm verdiyini dedi.

Dövlətimizin başçısı Rene Van der Lindenin vaxtilə Azərbaycan-Niderland dostluq qrupuna sədrlik etməsini yüksək dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Niderland Krallığı arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. Əməkdaşlığımızın inkişafı üçün yaxşı potensialın olduğunu qeyd edən dövlətimizin başçısı Niderland Krallığı Senatının sədri Rene Van der Lindenin Azərbaycana bu səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

NİDERLAND KRALLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR

Azərbaycanda səfərdə olan Niderland Krallığı Senatının sədri Rene Van der Linden sentyabrın 8-də Milli Məclisə gəlmişdir.

Senatın sədri Milli Məclisin iclas zalı, yeni inzibati binası ilə tanış olmuş, deputatlar üçün yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

Sonra qonaq parlamentin binasındakı Heydər Əliyev Xatirə zalına baxmış, ulu öndərin həyat və fəaliyyətini, müxtəlif illərdə dünyanın nüfuzlu ictimai və siyasi xadimləri ilə görüşlərini, mötəbər beynəlxalq təşkilatlardakı çıxışlarını əks etdirən fotoları, eksponatları maraqla seyr etmişdir. Niderland Krallığı Senatının sədri fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

Daha sonra Rene Van der Linden Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

Oqtay Əsədov qonağı salamlamış və demişdir ki, Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında münasibətlər inkişaf edir. Belə yüksək səviyyəli səfərlər əlaqələrimizin möhkəmlənməsinə təkan verir.

Milli Məclisin sədri Rene Van der Linden ilə əvvəlki görüşlərini, onun AŞPA-ya sədrliyi dövründə Azərbaycana daim dəstək verdiyini məmnunluqla xatırlamışdır. Bildirmiş-

Bu gün biz yanacaq-energetika kompleksi ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Çox şadıq ki, biz bu sahədə artıq konkret nəticələr görürük və həm neft, həm də qaz sahələrində əməkdaşlığın genişlənəcəyinə ümid bəsləyirik. Əminəm ki, energetika, neft və qaz nəqli marşrutlarının şaxələndirilməsi həm istehsalçılar, həm də istehlakçılar üçün energetika təhlükəsizliyi tədbirlərinin möhkəmləndirilməsi ilə bağlı daha geniş regional kooperasiya bu sahədə əməkdaşlığımızın nə dərəcədə səmərəli və məhsuldar olmasından asılıdır. Bəzən energetika təhlükəsizliyindən danışarkən, əsasən, enerji resurslarını alan ölkələr nəzərdə tutulur. Lakin istehsalçı ölkələrin də enerji təhlükəsizliyinə, uzunmüddətli müqavilələrə, proqnozlaşdırıla bilən bazarlara ehtiyacı vardır və həmin ölkələr yalnız bu yolla uzunmüddətli sərmayə siyasətini qura bilərlər.

Biz həm də çox şadıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi genişlənir, artır. Artım potensialı daha çox perspektivlidir. Düşünürəm ki, 2010-cu il bu baxımdan münasibətlərimizin tarixində dönüş ili kimi qalacaqdır. Çünki Viktor Fyodoroviçin qeyd etdiyi kimi, əmtəə dövriyyəsinin faizlə deyil, dəfələrlə artması artıq münasibətlərimizin bugünkü reallığıdır.

Bu gün biz sənaye kompleksini, ticarəti, humanitar əməkdaşlığı, hərbi sənaye kompleksi sahəsində, aerokosmik sahədə əməkdaşlığı əhatə edən məsələləri də ətraflı nəzərdən keçirdik. Biz daha fəal əməkdaşlıq etmək və fəaliyyətimizin konkret məzmun kəsb etməsi üçün iqtisadiyyatlarımızın, müəssisələrimizin potensialından maksimum istifadə etməliyik. Bir daha demək istəyirəm, bunun üçün bütün ilkin şərait - həm rəhbərliyin şəxsi münasibətləri, həm də bu gün müşahidə etdiyimiz kimi, nümayəndə heyətlərimizin üzvlərinin konstruktiv işgüzar münasibətləri vardır. Siyasi münasibətlər yüksək səviyyədədir. Ən başlıcası, bundan sonra da bütün istiqamətlər üzrə fəal işləmək və əməkdaşlıq etmək arzusu vardır. Əminəm, müəssisələrimiz bir-birinin imkanları barədə nə qədər çox informasiyaya malik olsalar, biz əmtəə dövriyyəsini bir o qədər sürətlə artıra və onun strukturunu təkmilləşdirə bilərik ki, o, birtərəfli olmasın və təkcə enerji resurslarına istiqamətlənməsin. Viktor Fyodoroviçin qeyd etdiyi kimi, bizə də çox xoşdur ki, MDB ölkələri arasında Ukrayna bizim üçün əmtəə dövriyyəsinə görə ikinci yerdədir.

Təbii ki, humanitar əməkdaşlıq olmasa münasibətlərimiz heç vaxt dolğun olmayacaq və bizim bu məsələdə də fəxr etməyə haqqımız vardır. Bizim xalqlar arasında münasibətlər zəngin tarixə malikdir. Ölkələrimiz müstəqillik əldə etdiyi andan onların arasında həmişə xüsusi dostluq münasibətləri olmuşdu. Bu gün onlar strateji tərəfdaşların münasibətləri kimi səciyyələnir. Bizə çox xoşdur ki, ölkələrimizdə bir-birimizin mədəniyyətinə, dilinə çox qayğı ilə yanaşırlar. Azərbaycanda Ukrayna dili öyrənilir və bu müsbət proseslərin inkişaf etdirilməsinə böyük diqqət yetirilir. Azərbaycanda Ukraynanın böyük oğlu Taras Şevçenkoya, Lesya Ukrainkaya abidə qoyulmuşdur. Ukraynada Heydər Əliyevə abidə ucaldılmışdır. Bu gün mənə xəbər verildi ki, Kiyev şəhər soveti həmin abidənin yerləşdiyi parka Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir. Mən müasir Azərbaycan dövlətinin banisinin xatirəsinə bu cür yüksək münasibətə görə Azərbaycan xalqı adından, ilk növbədə Ukrayna Prezidentinə, eləcə də bu barədə qərar qəbul edənlərin hamısına bir daha təşəkkür etmək istərdim.

Bütün bu məqamlar da çox vacibdir, çünki onlar münasibətlərimizi daha da möhkəmləndirir, bizi daha da yaxınlaşdırır. Ukrayna bizə dost, qardaş ölkədir və mən əminəm ki, münasibətlərimizin gələcəyi məhz bu müstəvidə inkişaf edəcəkdir. Qonaqpərvərliyə görə ev sahiblərinə, çox hörmətli Viktor Fyodoroviçə bir daha təşəkkür etmək istəyirəm. Mən həm də burada jurnalistlərin qarşısında Viktor Fyodoroviçi istənilən münasib vaxtda Azərbaycana rəsmi səfərə gəlməyə rəsmən dəvət etmək istəyirəm ki, əlaqələrimiz daimi xarakter daşısın və biz bir-birimizi tez-tez görək. Sağ olun.

* * *

Sonra prezidentlər jurnalistlərin suallarını cavablandırdılar

- Hər vaxtınız xeyir, cənab prezidentlər. Siz energetika sahəsində əməkdaşlıq məsələlərinə artıq toxundunuz. Azərbaycanın Ukraynaya neft satışının, Avropaya və Rusiyaya neft tranzitinin həcmini nə vaxtdan başlayaraq artıracağı məlumdurmu? Konkret olaraq hansı həcmlərdən söhbət gedir? Çox sağ olun.

İlham ƏLİYEV: Biz Ukraynaya neft satışını artıq çoxaltmışıq və keçən illə müqayisədə bu amil, ümumiyyətlə, bizim əmtəə dövriyyəsinin artırılmasında da başlıca rol oynamışdır. Bu gün Prezidentlər Şurasında bizə məruzə edilən məlumata görə, bu il, hələ ki başa çatmayıb, Ukrayna bazarlarına bir milyon tondan çox Azərbaycan nefti göndərilmişdir. Biz gələcəkdə satışın həcmini artırmaq niyyətindəyik. Çünki biz Azərbaycanda neft hasilatının həcmini artırmağı planlaşdırırıq. Perspektivdə Xəzər dənizinin şərq sahilində yerləşən, bizə qonşu ölkələrin nefti Azərbaycan ərazisindən keçməklə Ukrayna bazarlarına nəql edilə bilər və bu layihə də Qara dəniz və Xəzər dənizi regionu ölkələrinin daha tam inteqrasiyasına şərait yaradacaqdır. Bu barədə artıq mən danışdım. Bununla da, biz enerji resursları ilə çox zəngin olan Xəzər dənizini Ukrayna bazarları ilə, Avropa bazarları ilə əlaqələndirəcək daha bir, çox etibarlı enerji dəhlizi yaradacağıq. Bu, energetika sahəsində hamıya fayda gətirəcək genişmiqyaslı əməkdaşlıq olacaqdır. Mən hesab edirəm ki, neft təchizatı ilə bağlı bu əməkdaşlıq ölkələrimiz arasında yanacaq-energetika sahəsində münasibətlərin bütün kompleksinin inkişafında lokomotiv rolunu oynamalıdır. Enerji blokunun digər istiqamətləri ilə əlaqədar olan layihələr də, - biz bu gün onların barəsində də ətraflı diskussiya aparmışıq, - müəyyən dərəcədə bu əməkdaşlığın nə qədər uğurlu olmasından asılı olacaqdır. Başqa sözlə desək, mən belə hesab edirəm ki, 2010-cu il bu baxımdan da dönüş ili olmuşdur və biz bunu uzunmüddətli əməkdaşlığın yalnız yaxşı başlanğıcı hesab edirik.

Viktor YANUKOVİÇ: Mən İlham Heydər oğlunun dediklərinə daha bir neçə söz əlavə etmək istərdim. Ukrayna üçün çox vacibdir ki, biz neft emalı zavodlarımız üçün neft alırıq və onların işləməsini təmin edirik, biz əlavə dəyər əldə edirik, iş yerləri açırıq. Bu, həm Ukrayna iqtisadiyyatı üçün, həm də sosial baxımdan çox böyük əhəmiyyətə malikdir. Ukraynanın sifarişi ilə alınan neft məhsullarının lap cüzi bir hissəsini yüngül neft məhsulları təşkil edir. Bizim sonrakı bütün addımlarımız Odessa-Brodı kəmərini neftlə doldurmağa və onu avers rejimində işə salmağa yönəldiləcəkdir. Biz hesab edirik ki, bu proqram bir neçə il ərzində təkcə neft deyil, enerji daşıyıcıları satışını da xeyli artırmağa şərait yaradacaqdır.

- Mənim sualım hər iki prezidentədir. Sizcə Azərbaycan ilə Ukrayna arasında qarşılıqlı sərmayələrin perspektivləri necədir?

Viktor YANUKOVİÇ: Mən çox qısa cavab verəcəyəm ki, müştərək layihələrimiz hər iki tərəfdən sərmayə resurslarının yatırılmasını nəzərdə tutur. Başqa sözlə, biz bu məsələlərə tərəfdaşlar kimi yanaşacağıq və hər bir ayrıca halda birgə qərarlar qəbul edəcəyik. Şübhəsiz ki, sərmayə layihələrimizi, ilk növbədə, yerli məhsul istehsalçılarının dəstəkləməsində çox maraqlıyıq. Məqsədimiz budur. Ölkələrimizin iqtisadiyyatlarının strukturu rəqib olmamağa, bir-birimizi tamamlamağa imkan verir.

İlham ƏLİYEV: Mən Viktor Fyodoroviçin dedikləri ilə razıyam. Həqiqətən, iqtisadiyyatlarımız rəqabət aparan deyil, bir-birini tamamlayandırlar. Eyni zamanda, ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyəsi qarşılıqlı sərmayələrin təşviq edilməsinin mühüm amilidir. Sərmayədarlar - istər dövlətin, istərsə də özəl sektorun nümayəndələri həmişə siyasi konyukturaya çox həssas reaksiya verirlər və ölkələr arasında uzunmüddətli möhkəm siyasi münasibətlər olduğunu görəndə, təbii ki, diqqətlərini məhz belə əlverişli siyasi iqlim olan tərəfə yönəldirlər. Yəni, bu, daha bir amildir.

Digər amil həm Ukraynada, həm də Azərbaycanda xarici sərmayədarlar üçün çox əlverişli mühitin yaradılmasıdır. Əminəm ki, bu sərmayə layihələrinin siyasi cəhətdən dəstəklənməsi daha çox şirkətləri Ukraynanı və Azərbaycanı sərmayə yatırımı üçün strateji məkan kimi nəzərdən keçirməyə təşviq edəcəkdir. Mənə çox xoşdur ki, Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR bu prosesi artıq başlamışdır. Qısa vaxt ərzində Ukraynaya təxminən 80 milyon dollar sərmayə qoyulmuşdur. Bu, bizim ilk addımlarımızdır. Biz sərmayələrimizin həcmini artırmaq niyyətindəyik. Əminəm ki, onlar yalnız artıq reallaşmaqda olan təşəbbüslər və layihələr çərçivəsində bir neçə dəfə çoxalacaqdır. Viktor Fyodoroviç ilə bir qədər əvvəl danışdığımız kimi, yanacaq-energetika, neft-qaz sektorunda genişmiqyaslı əməkdaşlığa dair planlarımızı nəzərə alsaq, bu sərmayələrin necə sürətlə artacağını təsəvvür etmək mümkündür.

Bu gün nümayəndə heyətimizin tərkibində sənaye, iqtisadiyyat, informasiya-kommunikasiya texnologiyalarına görə cavabdeh nazirliklərin rəhbərləri də vardır. Biz bu sahələri də yaddan çıxarmamalıyıq, bəlkə də əksinə, onlara daha çox diqqət yetirməliyik. Çünki biz bir ölkədən digər ölkəyə sərmayələrin sektorlar üzrə bərabər bölünməsində maraqlıyıq. Ən əsası isə onlar ölkələrimizdə mövcud olan planlara uyğun gəlməlidirlər. Onlar ölkələrimizdə mövcud olan iqtisadi, sərmayə proqramlarının əksinə yox, onlara uyğun olsun, bir çox sosial məsələlərin həllinə, iş yerlərinin açılmasına və milli istehsal müəssisələrinin yaradılmasına da kömək etsin. Odur ki, bu perspektivlərə nikbinliklə baxırıq və əminəm ki, yaxın vaxtlarda yaxşı nəticələr görəcəyik.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Oktyabrın 28-də Kiyevdə Ukrayna Prezidenti Viktor Yanukoviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Dövlət başçıları naharda çıxış etdilər.

Prezident İlham Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətini Ukraynada bir daha salamlayan Prezident Viktor Yanukoviç bildirdi ki, ölkələrimiz arasında daim inkişaf edən münasibətlərin bugünkü səviyyəsi nikbinlik doğurur. Bu məhsuldar əməkdaşlığın təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edən Viktor Yanukoviç vurğuladı ki, Ukrayna xalqı dahi insanın xatirəsini qəlbində yaşadacaq və Ukrayna iqtisadiyyatı üçün ağır günlərdə göstərdiyi dəstəyi həmişə xatırlayacaqdır. Prezident İlham Əliyevin bu kursu uğurla davam etdirdiyini qeyd edən Ukrayna dövlətinin başçısı bildirdi ki, ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə atılan hər bir addım bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Viktor Yanukoviçə gözəl Ukrayna torpağında göstərilən səmimi qəbula və qonaqpərverliyə görə minnətdarlıq edən Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında münasibətlərin tarixində inteqrasiya və əməkdaşlığın inkişafı üçün atılan ən vacib addımlardan biri kimi qalacaqdır.

Münasibətlərimiz genişləndikcə müzakirə olunan məsələlərin əhatə dairəsi daha da zənginləşəcək və əlaqələrin inkişafı üçün yeni sahələr əlavə olunacaqdır. Bunun üçün dövlət başçılarının siyasi iradəsi vardır. Biz biri-birimizə etimad göstəririk və bu, istənilən ölkələrin münasibətləri üçün çox vacibdir.

Prezident İlham Əliyev Prezident Viktor Yanukoviçə və Kiyev şəhərinin rəhbərliyinə Ukrayna paytaxtında parkların birinə ulu öndər Heydər Əliyevin adının verilməsi barədə qərara görə minnətdarlıq etdi. Dövlətimizin başçısı səfər çərçivəsində aparılan müzakirələrdən məmnun qaldığını bildirdi.

UKRAYNANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Kiyevdə Ukraynanın Baş naziri Nikolay Azarovu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında iqtisadi, o cümlədən energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Bu əlaqələrin genişləndirilməsi və ticarət dövriyyəsinin daha da artırılması üçün yaxşı potensialın mövcud olduğu vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində atılacaq əməli addımlar barədə fikir mübadiləsi aparıldı.

"NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT

Oktyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Kiyev şəhərindəki "Naməlum əsgər" abidəsini ziyarət etmişdir.

Ukrayna Prezidenti Viktor Yanukoviç Azərbaycan Prezidentini qarşıladı.

Prezidentlər İkinci Dünya müharibəsi veteranları ilə görüşüb söhbət etdilər.

Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev və Prezident Viktor Yanukoviç "Əbədi məşəl"in önünə əklil qoydular, 1941-1945-ci illərin Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini ehtiramla yad etdilər.

Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi dövlət başçılarının qarşısından keçdi.

Dövlət başçıları üç dəfə Sovet İttifaqı Qəhrəmanı İvan Kojedubun abidəsini də ziyarət edərək önünə gül dəstələri qoydular.

1930-CU İLLƏRDƏ ACLIQDAN HƏLAK OLANLARIN XATİRƏSİNƏ EHTİRAM

Oktyabrın 28-də Kiyevdə Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yanukoviç 1930-cu illərdə aclıqdan həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişlər.

Dövlət başçıları abidənin önünə ətrafına buğda sünbülü düzülmüş yanan şam qoydular, aclıq qurbanlarının xatirəsinə ehtiramlarını bildirdilər.

Prezidentlər Ukrayna paytaxtının hündür nöqtəsindən qədim Kiyevin mənzərəsini seyr etdilər.

Prezident Viktor Yanukoviç Ukrayna paytaxtında görülən işlər barədə Azərbaycan Prezidentinə məlumat verdi.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

Oktyabrın 28-də Prezident İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kiyevin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.

Dövlətimizin başçısına abidənin ətrafında aparılacaq abadlıq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, abidənin ətrafı yenidən qurulacaq, bura istirahət məkanına çevriləcəkdir.

Sonra Prezident İlham Əliyev Azərbaycanın Ukraynadakı səfirliyinin yerləşdiyi ərazyə gəldi. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, diplomatik nümayəndəliyimizin ərazisində də abadlıq və yenidənqurma işlərinin görülməsi planlaşdırılır.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfəri oktyabrın 28-də başa çatmışdır.

Borispol hava limanında Azərbaycan Prezidentini Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

MONQOLUSTANIN BAŞ DÖVLƏT GÖMRÜK İDARƏSİ İLƏ AZƏRBAYCAN DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLU İMZALANMIŞDIR

Oktyabrın 28-də Dövlət Gömrük Komitəsində (DGK) Monqolustan Baş Dövlət Gömrük İdarəsinin nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev tədbiri açaraq bildirmişdir ki, görüşdən məqsəd kadrların hazırlanması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi ilə bağlı birgə əməkdaşlıq Protokolunun imzalanmasıdır.

Azərbaycan ilə Monqolustan arasında dostluğun qədim tarixi kökləri olduğunu vurğulayan DGK-nın sədri sənədin imzalanması ilə əməkdaşlıq sahəsində yeni səhifə açılacağına əminliyini ifadə etmişdir.

A.Əliyev ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə qayıdışından sonra respublikada aparılan genişmiqyaslı sosial-iqtisadi islahatlar barədə qonağa ətraflı məlumat vermişdir. Son illər ölkənin gömrük xidməti sahəsində də xeyli iş görüldüyünü söyləyən DGK-nın sədri Azərbaycan iqtisadiyyatının inkişafında xüsusi çəkisi olan komitənin yeni informasiya texnologiyalarına və maddi-texniki bazaya malik olduğunu vurğulamışdır.

Azərbaycana gəlişindən məmnunluq duyduğunu bildirən Monqolustan Baş Dövlət Gömrük İdarəsinin sədri Derjye Tseveenjava ölkələrimiz arasında çoxillik dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin olduğunu vurğulamışdır. Azərbaycanda təhsil alan Monqolustan gənclərinin öz ölkəsinin iqtisadiyyatının inkişafında fəal rol oynadığını nəzərə çatdırmışdır.

Bildirilmişdir ki, Azərbaycanla Monqolustanın gömrük təşkilatları arasında yaranmış əlaqələrin inkişafı narkotik vasitələrin qeyri-qanuni daşınmasının və satışının qarşısının alınmasında müstəsna əhəmiyyət kəsb edəcəkdir. Azərbaycan qısa zaman kəsiyində iqtisadiyyatın bütün sahələrində mühüm irəliləyişlərə nail olmuşdur. Narkotiklərlə mübarizə, gömrük qurumlarının modernləşdirilməsi, qabaqcıl texnologiyalardan istifadə sahəsində Azərbaycanın böyük təcrübəsi örnək ola bilər.

Sonra Azərbaycan Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Dövlət Gömrük İdarəsi arasında kadrların hazırlanması və peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində əməkdaşlıq Protokolu imzalanmışdır.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə telefonla zəng etmişdir.

Dövlətimizin başçısı Abdullah Gülü ad günü və eləcə də Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə təbrik etmiş, ona cansağlığı, fəaliyyətində uğurlar, Türkiyə xalqına firavanlıq və əmin-amanlıq arzulamışdır.

Türkiyə Prezidenti təbriklərə və göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmiş, xalqımıza ən xoş arzularını çatdırmışdır.

Azərbaycan və Türkiyə prezidentləri ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə etmiş, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirmişlər.

ALI MƏHKƏMƏDƏ MDB MÜŞAHİDƏ MİSSİYASI QƏRARGAH RƏİSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

Milli Məclisə seçkilərlə əlaqədar ölkəmizdə səfərdə olan MDB müşahidə missiyasının qərargah rəisi Yevgeni Slabodanın başçılıq etdiyi nümayəndə heyətinin üzvləri oktyab-

nın 29-da Ali Məhkəmənin mülki kollegiyasının sədri Şəlalə Məmmədova ilə görüşmüşlər.

Görüşdə kollegiya sədri məhkəmə sisteminin müasirləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, qanunun aliliyinin təmin olunması sahəsində görülən işlər barədə məlumat vermiş, bütün bunların insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət etdiyini vurğulamışdır.

Kollegiya sədri bu il noyabrın 7-də Azərbaycanda Milli Məclisə seçkilərin demokratik keçiriləcəyinə əminliyini ifadə edərək demişdir ki, seçkilərlə bağlı məhkəmələrə müraciət edən seçicinin şikayətinə qanunvericiliyin tələblərinə müvafiq baxılır.

MDB müşahidə missiyasının qərargah rəisi Yevgeni Slaboda Milli Məclisə seçkiləri izləmək üçün Azərbaycana gəldiklərini bildirmiş, seçki ərəfəsində ciddi qanun pozuntularına rast gəlmədiklərini qeyd etmiş, bütün namizədlərə eyni şərait yaradıldığını müşahidə etdiklərini vurğulamışdır. Müşahidə missiyasının qərargah rəisi Mərkəzi Seçki Komissiyasının işinin də qənaətbəxş olduğunu söyləmişdir. Yevgeni Slaboda rəhbərlik etdiyi nümayəndə heyətinin Milli Məclisə seçkilərə hazırlıqla və seçkilərin nəticələri ilə bağlı hesabatlar hazırlayacağını nəzərə çatdırmışdır.

Səmərəli fikir mübadiləsi şəraitində keçən görüşdə insan hüquqlarının təmin olunması və Milli Məclisə keçiriləcək seçkilər ilə bağlı faydalı müzakirələr aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞUNDA MDB MÜŞAHİDƏ MİSSİYASI QƏRARGAHININ RƏHBƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Azərbaycanda keçiriləcək parlament seçkilərini izləmək üçün ölkəmizə səfəri çərçivəsində MDB müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Slobodanın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 29-da baş prokurorun birinci müavini Rüstəm Usubovla görüşmüşdür.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan hərtərəfli islahatlar, demokratik və tam şəffaf prosedurlar əsasında seçkilərin keçirilməsi üçün mütərəqqi qanunvericilik bazasının mövcud olması, ölkə vətəndaşlarının seçki hüquqlarının təmin edilməsi üçün bütün əsasların yaradılmasını xüsusi vurğulayan baş prokurorun birinci müavini Milli Məclisə keçiriləcək seçkilərlə bağlı prokurorluq orqanlarının üzərinə düşən vəzifələr barədə qonaqlara ətraflı məlumat vermişdir.

MDB ilə əməkdaşlığın daim yüksək səviyyədə olduğunu bildirən Yevgeni Sloboda müşahidə missiyası üçün lazımi şərait yaradıldığına görə təşəkkürünü bildirmiş, seçki zamanı yerli və beynəlxalq müşahidənin aparılmasının əhəmiyyətini qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuş və faydalı fikir mübadiləsi aparılmışdır.

TÜRKİYƏNİN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin 87 illiyi münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyi "Gülüstan" sarayında rəsmi qəbul təşkil etmişdir.

Tədbirdə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilmişdir.

Türkiyənin ölkəmizdəki səfiri Hulusi Kılıç qonaqları salamlayaraq, ulu öndər Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyənin istiqlal mübarizəsindən və ölkəsinin keçdiyi inkişaf yolundan danışmışdır. Səfir qeyd etmişdir ki, Türkiyə öz dinamik inkişaf yolunda siyasi, hərbi, iqtisadi, eləcə də demokratiya və insan haqları sahələrində böyük addımlar ataraq regionda və dünyada öz mövqeyini möhkəmləndirmişdir. Hazırda Türkiyə iqtisadi gücünə görə dünyada 17-ci, ordusuna görə isə NATO-nun ikinci ən güclü dövlətidir.

Azərbaycanın və Türkiyənin tarixinə qısa nəzər salan səfir qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyev ölkələrimiz arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsində misilsiz rol oynamışdır. Bildirmişdir ki, bu gün Türkiyə və Azərbaycan sıx birliyə nail olmuşlar, ölkələrimiz iqtisadi cəhətdən inkişaf etdikcə, gələcəyə daha inamla addımlayırlar. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan regionda lider dövlətə çevrilmişdir. Türkiyəli iş adamları da qardaş Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsi üçün səylərini əsirgəmirlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan H.Kılıç işğal olunmuş Azərbaycan ərazilərinin tezliklə geri qaytarılmasının zəruriliyini vurğulamışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin adından əlamətdar gün münasibətilə mərasim iştirakçılarını, bütün türk xalqını təbrik edən Baş nazirin müavini Abid Şərifov qardaş ölkəyə firavanlıq və uğurlar arzulamışdır. İki ölkə arasındakı mövcud münasibətlərdən danışan Baş nazirin müavini elm, təhsil, iqtisadiyyat, mədəniyyət və hərbi sahələrdə sıx əməkdaşlığın olduğunu demişdir. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə məhz Türkiyə olmuşdur. Ulu öndərlərin - Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları qardaş ölkələrimiz arasında hər zaman əsas prinsip olmuşdur.

İki ölkə arasında əlaqələrin daim inkişaf etdiyini diqqətə çatdıran Baş nazirin müavini bildirmişdir ki, biz qardaşlıq münasibətlərimizin gələcək nəsillər tərəfindən də davam etdirilməsi üçün öz səylərimizi əsirgəməməliyik.

Qəbulda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici dövlətlərin ölkəmizdəki səfirləri, türkiyəli iş adamları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ SANKT-PETERBURQDA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONQRESDƏ İŞTİRAK ETMİŞLƏR

Oktyabrın 29-da Tavriçeski sarayında "Həyat təhlükəsizliyi naminə yollarda təhlükəsizlik" mövzusunda üçüncü beynəlxalq konqres keçirilmişdir. Tədbirdə 16 ölkədən beynəlxalq təşkilatların, qanunverici və icraedici orqanların, MDB ölkələri dövlət yol polisinin nümayəndələri iştirak etmişlər.

Konqresi Rusiya Federasiya Şurasının sədri Sergey Mironov açaraq, müzakirə olunacaq mövzunun əhəmiyyətini iştirakçıların diqqətinə çatdırmışdır.

Mərasimdə Azərbaycanın daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov məruzə ilə çıxış etmişdir.

Konqres çərçivəsində keçirilən "Yol hərəkəti təhlükəsizliyi" mövzusunda "dəyirmi masa"da Azərbaycan Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov iştirak etmişdir.

Tədbirin yekununda qəbul edilmiş bəyannamədə yol hərəkəti təhlükəsizliyindəki problemlərin həlli və milli qanunvericiliyin təkmilləşdirilməsi sahəsində beynəlxalq parlamentlərarası əlaqələrin inkişafı üçün əsas istiqamətlər müəyyən edilmişdir.

MÜDAFİƏ NAZİRİ ÇİN XALQ RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR

Oktyabrın 25-29-da Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Çin Xalq Respublikasında səfərdə olmuşdur.

Səfər Əbiyev səfərin ilk günü Çin Xalq Azadlıq Ordusunun baş qərargah rəisi, general-polkovnik Çen Binde ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasındakı hərbi-siyasi münasibətlər, regiondakı vəziyyət müzakirə edilmişdir. Hərbi təhsil sahəsində əməkdaşlıq məsələləri barədə də fikir mübadiləsi aparılmışdır.

Səfər Əbiyev bildirmişdir ki, Çin Xalq Respublikası Azərbaycana dost ölkədir və Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Səfər Əbiyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərindən və mövcud durumundan danışmışdır. Azərbaycanın ərazi bütövlüyünü tanıdığına və dəstəyə görə təşəkkürünü bildirən S.Əbiyev Azərbaycanın da Tayvan problemi ilə bağlı Çinə dəstək olduğunu vurğulamışdır.

Çin Azadlıq Ordusunun baş qərargah rəisi Çen Binde qeyd etmişdir ki, Azərbaycan Asiya ilə Avropa arasında körpü rolunu oynayır və onun ölkəsi Azərbaycan dövlətinin və Prezidentinin həyata keçirdiyi islahatları təqdir edir.

Səfərin ikinci günü Azərbaycanın müdafiə naziri Çin Xalq Respublikasının "NORİNCO" və "POLİ" şirkətlərinin rəhbərliyi ilə görüşmüşdür. Nazir S.Əbiyevə şirkətlərin fəaliyyəti, istehsal etdiyi avadanlıq barədə ətraflı məlumat verilmişdir.

Azərbaycanın müdafiə nazirini ölkəsinə dəvət etmiş Çin Xalq Respublikası Dövlət Şurasının üzvü-müdafiə naziri, general-polkovnik Lyan Quanle ilə görüş xüsusilə əhəmiyyətli olmuşdur. Lyan Quanle bildirmişdir ki, bu səfər iki ölkənin silahlı qüvvələri arasında əməkdaşlığın genişlənməsinə xüsusi töhfələr verəcəkdir.

Nazir Səfər Əbiyev Azərbaycanın Çin Xalq Respublikası ilə geniş hərbi əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir. O demişdir: "Azərbaycan Respublikası terror, separatçı və ekstremist fəaliyyətlərlə hər zaman mübarizə aparır və bu sahədə bütün dövlətlərlə sıx əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdardır". S.Əbiyev bildirmişdir ki, Azərbaycan işğala məruz qalsa da, torpaqlar mütləq azad ediləcəkdir. Sülh danışıqları nəticə verməzsə, Azərbaycan öz ərazi bütövlüyünün bərpa edilməsi üçün bütün imkanlardan, o cümlədən ordunun gücündən istifadə edəcəkdir.

Daha sonra müdafiə naziri Səfər Əbiyev Çin Xalq Azadlıq Ordusunun Hərbi Hava Qüvvələrinin 24-cü diviziyasına baş çəkmiş və ona diviziyanın tarixi, imkanları və strukturu haqqında məlumat verilmişdir.

Səfərin sonuncu günü Azərbaycanın müdafiə naziri Çin Xalq Respublikasının Mərkəzi Hərbi Şurasının sədr müavini, general polkovnik Siyuy Tsayxou ilə görüşmüşdür. Görüşdə Çin ilə Azərbaycanın hərbi sahədə əməkdaşlığının perspektivləri müzakirə edilmişdir.

Nazir Səfər Əbiyev çinli həmkarına hərbi təhsil sahəsində Azərbaycana göstərdikləri dəstəyə görə minnətdarlığını bildirmişdir. Görüşdə Cənubi Qafqazda və Şərqi Asiyada regional təhlükəsizlik məsələləri, ölkələrimiz arasında hərbi və hərbi texniki əməkdaşlığın vəziyyəti və inkişaf perspektivləri müzakirə edilmişdir.

Bütün görüşlərdə Çin Xalq Respublikasının rəsmiləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bildirmişlər.

DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ KÜVEYTDƏ SƏFƏRDƏ OLMUŞDUR

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Hidayət Orucov oktyabrın 24-dən 29-dək Küveytdə səfərdə olmuşdur.

Küveyt Dövləti Baş nazirinin hüquq məsələləri üzrə müavini, ədliyyə, vəqflər və islam işləri naziri Raşid Abdel Mohsen Əl-Hamadın dəvəti ilə həyata keçirilən səfər zamanı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri H.Orucovu Küveyt Dövlətinin Baş naziri Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah qəbul etmişdir.

Görüşdə Baş nazir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Küveyt Dövlətinə və xalqına böyük rəğbət bəslədiyini bildiyini və bütün Küveyt xalqının həmin münasibətə görə təşəkkür etdiyini, bunu dərin hörmət və ehtiramla qəbul etdiyini vurğulamışdır.

Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah Azərbaycan Prezidenti İlham Əliyevin Küveyt Dövlətinə rəsmi səfəri zamanı ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm dostluq təməlinin qorunub saxlanıldığını və inkişaf etdiyini böyük məmnunluqla dilə gətirmişdir.

Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Sabahın, vəliəhd Şeyx Nəvaf Əl-Əhməd Əl-Caber Əl-Sabahın və Baş nazir olaraq şəxsən özünün Azərbaycan Prezidenti İlham Əliyevə böyük hörmət və ehtiram bəslədiklərini söyləmiş, Azərbaycanın sürətli inkişafına Küveyt xalqının da səmimi qəlbdən sevindiyini nəzərə çatdırmışdır.

Baş nazir Küveyt hökumətinin Azərbaycan ilə siyasi, iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsində maraqlı olduğunu xüsusi qeyd etmişdir.

Şeyx Nasir Əl-Məhəmməd Əl-Əhməd Əl-Sabah Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarının, dərin hörmət və ehtiramının çatdırılmasını xahiş etmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri H.Orucov təşəkkürünü bildirərək, Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Sabaha və vəliəhd Şeyx Nəvaf Əl-Əhməd Əl-Caber Əl-Sabaha və Baş nazirə Prezident İlham Əliyevin salamlarını çatdırmışdır.

Azərbaycanla Küveyti bir çox amillərin birləşdirdiyini, bunların arasında dini birliyin əhəmiyyətli rol oynadığını söyləyən H.Orucov Küveytdə keçirdiyi görüşlərdə iki ölkə arasında bu sahədə əməkdaşlığın inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsinin aparıldığını qeyd etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin islam dünyası ilə, o cümlədən, Küveytlə sıx əməkdaşlığa xüsusi diqqət yetirdiyi vurğulanmışdır.

H.Orucov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyinin Küveyt tərəfindən dəstəklənildiyi üçün Baş nazirə təşəkkürünü çatdırmışdır. Baş nazirə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, hərbi təcavüz, bunun nəticəsində bir milyondan artıq qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün həm iki tərəf arasında, həm də ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesi barəsində ətraflı məlumat verilmişdir.

Səfər çərçivəsində H. Orucovla Küveyt Dövləti Baş nazirinin hüquq məsələləri üzrə müavini, ədliyyə, vəqflər və islam işləri naziri Raşid Abdel Mohsen Əl-Hamad, nazirin din siyasəti üzrə müavini Adel Fəllah, Küveytin Vəqflər üzrə Dövlət Komitəsi sədrinin səlahiyyətlərini müvəqqəti icra edən xanım İman Humeyda, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının idarə heyətinin sədri Abdullah Mətuq və həmin təşkilatın baş direktoru Süleyman Şəmsəddin və eyni zamanda, Küveyt Millət Məclisinin Küveyt-Azərbaycan dostluq qrupunun sədri Vəlid Musaid Əl-Tabtabai arasında keçirilmiş görüşlərdə qurumlararası əməkdaşlığın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılmışdır.

H. Orucov Küveytin "Elmi Mərkəzi"ndə olmuş, "Məscid-Əl Kəbir"i ziyarət etmiş və buranın fəaliyyəti ilə yaxından tanış olmuşdur.

Səfər zamanı DQİDK sədri Küveytin aparıcı KİV-lərinin nümayəndələri ilə də görüşmüşdür.

Hidayət Orucovun səfəri Küveyt KİV-lərində, o cümlədən, aparıcı televiziya kanallarında geniş işıqlandırılmışdır.

"AZƏRBAYCAN RESPUBLİKASI VƏ ÇİN XALQ RESPUBLİKASI ARASINDA TƏSLİMETMƏ HAQQINDA MÜQAVİLƏ"NİN RATİFİKASİYA SƏNƏDLƏRİNİN MÜBADİLƏSİ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR

Noyabrın 1-də Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov Çinin ölkəmizdəki səfiri Çjan Yannyan ilə görüşmüşdür.

Görüşdə X.Xələfov Şanxayda keçirilmiş EXPO-2010 Dünya Sərgisinin yüksək səviyyədə təşkil olunduğunu demişdir. Nazir müavini sərgi çərçivəsində böyük uğurla keçirilmiş Azərbaycan günlərinin təşkilinə Çin tərəfinin lazımi şərait yaratdığına görə təşəkkürünü bildirmişdir.

Ç.Yannyan Azərbaycanın EXPO-2010 Dünya Sərgisində iştirakının bu tədbirin ümumi müvəffəqiyyətinə dəyərli töhfə olduğunu vurğulamışdır.

Görüşdə "Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında təslimetmə haqqında Müqavilə"nin ratifikasiya sənədlərinin mübadiləsi haqqında protokol imzalanmışdır. 2005-ci il martın 17-də imzalanmış bu Müqavilə onun müvafiq müddəalarına uyğun olaraq ratifikasiya sənədlərinin mübadiləsi tarixindən otuz gün sonra, yəni cari il dekabrın 1-dən qüvvəyə minəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-NİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ BU VƏZİFƏDƏ FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də bp-nin icraçı vitse-prezidenti Endi İnqlisi bu vəzifədə fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

Endi İnqlis bp ilə ölkəmiz arasında çox güclü tərəfdaşlığın mövcud olduğunu vurğulayaraq Azərbaycan Prezidentinin rəhbərliyi ilə müxtəlif layihələrdə, o cümlədən "Şahdəniz-2" yatağında işlərin uğurla getdiyini qeyd etdi. O, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə artıq bir milyard barreldən çox neftin nəql edildiyini vurğuladı. bp-nin icraçı vitse-prezidenti 2010-cu ili bp ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı çox böyük nailiyyətlərin əldə olunduğu il kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Endi İnqlisin bp-nin icraçı vitse-prezidenti vəzifəsində çalışdığı dövrdə bp ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi. Prezident İlham Əliyev 2010-cu ilin Azərbaycan ilə bp arasında əlaqələr baxımından çox uğurlu il olduğunu vurğulayaraq bu müddətdə böyük həcmli işlərin görüldüyünü məmnunluqla qeyd etdi və bunu ölkəmizlə bp arasında mövcud olan uzunmüddətli tərəfdaşlığın davamı kimi dəyərləndirdi. bp ilə Azərbaycan arasında bu il üçün razılaşdırılmış məsələlərə toxunan Prezident İlham Əliyev nəzərdə tutulan layihələrin gələcək onilliklər ərzində tərəfdaşlığımıza xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Əməkdaşlığımızın səviyyəsindən razılığını bildirən dövlətimizin başçısı bu münasibətlərin strateji əhəmiyyət daşıdığını və "Şahdəniz", "Şəfəq", "Asiman", "Azəri-Çıraq-Günəşli" və bir çox digər layihələr üzrə əməkdaşlığımızın uğurla həyata keçiriləcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ VECDİ GÖNÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün sahələrdə, o

cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyini vurğuladı. Türkiyənin milli müdafiə naziri Vecdi Gönülün rəhbərliyi ilə böyük nümayəndə heyətinin ölkəmizə səfərinə toxunan Prezident İlham Əliyev səfər zamanı bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılacağına ümidvar olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında müdafiə sahəsində əməkdaşlığın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Vecdi Gönül Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlığın daim dərinləşdiyini vurğulayaraq bu sahədə əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ƏFQANISTAN ÜZRƏ IV REGİONAL İQTİSADİ ƏMƏKDAŞLIQ KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov İstanbuldakı keçirilən Əfqanıstan üzrə IV Regional İqtisadi Əməkdaşlıq Konfransında iştirak etmişdir.

Konfransın açılışından əvvəl Elmar Məmmədyarov türkiyəli həmkarı Əhməd Davudoğlu ilə görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin nizama salınması, Türkiyə və Azərbaycanın beynəlxalq və regional əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Nazir Elmar Məmmədyarov noyabrın 3-də Əfqanıstana dair İstanbulda keçirilən IV Regional İqtisadi Əməkdaşlıq Konfransında (RECCA IV) çıxış etmişdir.

E.Məmmədyarov konfransın beynəlxalq və regional qüvvələrin Əfqanıstanla iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək üçün nadir bir imkan olduğunu vurğulamışdır. Bildirmişdir ki, beynəlxalq təcrübə Əfqanıstanda davamlı sülhün və sabitliyin bərqərar olması üçün hərbi yardımla kifayətlənməməyi, həm də qeyri-hərbi addımların atılmasının zəruriliyini göstərmişdir. Beynəlxalq ictimaiyyətin Əfqanıstanda sülh və sabitlik naminə səylərinin Azərbaycan tərəfindən tam dəstəkləndiyini vurğulayan E.Məmmədyarov ölkəmizin beynəlxalq sülhməramlı qüvvələrin əməliyyatlarına 2002-ci ildə qoşulduğunu, 2009-cu ildə isə Əfqanıstanda hərbçilərin sayını iki dəfə artırdığını xatırlatmışdır. Bununla yanaşı, qeyri-hərbi sahədə də Azərbaycan öz töhfəsini vermişdir.

Nazir diqqətə çatdırmışdır ki, müxtəlif sahələr üzrə əfqan mütəxəssislərin Azərbaycanda treninqlərə qatılması, ölkəmizdən iki həkimin və iki mühəndisin beynəlxalq sülhməramlı qüvvələrin Kabil Regional qərargahına ezam edilməsi, Əfqanıstanın Minalardan Təmizləmə Departamentinin 11 əməkdaşının ANAMA-da tədris kurslarında iştirakı, Əfqanıstanın Təhsil Nazirliyinin xahişinə əsasən ANAMA tərəfindən mina təhlükəsinə dair hazırlanmış və Azərbaycanın Təhsil Nazirliyinin dəstəyi ilə çap edilmiş 10 min 500 kitabçanın bu yaxınlarda Parvan bölgəsinə çatdırılması bunun bariz nümunəsidir. Keçən ilin mayında dörd əfqan diplomatı Azərbaycanın Diplomatik Akademiyasında (ADA)

təşkil olunmuş treninqlərə qatılmışdır. Bu ilin sentyabr-oktyabr aylarında isə Əfqanıstanın dövlət və qeyri-dövlət sektorunun 19 nümayəndəsi Bakıda ADA-nın Cenevrənin Təhlükəsizlik Siyasəti Mərkəzi ilə birgə hazırladığı "Yaxşı idarəetmə və qanunun aliliyi" kursunda iştirak etmişdir. Azərbaycan əfqanlar üçün digər sahələr üzrə də müxtəlif treninqləri keçirməyə hazırdır.

Azərbaycanın əlverişli coğrafi məkanında yerləşdiyini və mövcud nəqliyyat infrastrukturunun istifadəsinin ölkəni tranzit baxımından çox vacib məkana çevirdiyini qeyd edən nazir Azərbaycanın Əfqanıstana kommersiya yüklərinin daşınmasına da böyük töhfə verdiyini bildirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun tamamlanması yüklərin Əfqanıstana tez və təhlükəsiz şəraitdə çatdırılmasını fəallaşdıracaq və tənzimləyəcəkdir. Hazırda Bakıda tikilən yeni dəniz limanı Xəzər dənizi vasitəsilə Əfqanıstana daşınan yüklərin həcmini artıracaqdır.

Azərbaycanın Əfqanıstan iqtisadiyyatının sabit inkişafında maraqlı olduğunu deyən E.Məmmədyarov ölkəmizin Əfqanıstan hökumətinin bu sahədə mümkün təkliflərini nəzərdən keçirməyə hazır olduğunu qeyd etmişdir.

Sonda E.Məmmədyarov Əfqanıstan probleminə həm regional, həm də beynəlxalq miqyasda ən vacib məsələ kimi yanaşılmasının vacibliyini bir daha diqqətə çatdırmış, bu məsələnin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyətin birgə fəaliyyətinin, Əfqanıstan hökumətinin təhlükəsizlik, iqtisadi inkişaf və insanların həyat tərzinin yaxşılaşdırılması sahəsində səylərinin dəstəklənməsi vacibliyini vurğulamışdır.

BAŞ NAZİR TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 3-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Türkiyənin Azərbaycan üçün qardaş ölkə olduğunu deyən A.Rasizadə dövlətlərimiz arasında bütün sahələrdə, o cümlədən müdafiə sahəsində əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində ordu quruculuğu sahəsində Türkiyənin böyük dəstəyi olmuşdur və bu işlər indi də uğurla davam edir. Mən əminəm ki, sizin səfəriniz, aparacağımız danışıqlar bu sahədə əməkdaşlığı daha da gücləndirəcəkdir.

Baş nazir Azərbaycanın müdafiə sahəsinin gücləndirilməsinə böyük əhəmiyyət verdiyini vurğulamış, ölkənin hərbi qüdrətinin daha da möhkəmləndirilməsi istiqamətində işlərin davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Türkiyənin milli müdafiə naziri Vecdi Gönül Bakıda olmasından məmnunluğunu bildirərək, ölkəsinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan hökumətinin başçısına çatdırmışdır. Türkiyənin Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət verdiyini söyləyən V.Gönül ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlığın daim dərinləşdiyini nəzərə çarpdırmış, bu sahədə əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini ifadə etmişdir.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönül noyabrın 3-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyevlə görüşmüşdür.

Görüşdə Səfər Əbiyev bildirmişdir ki, Azərbaycan və Türkiyə tarix boyu bir-birinə arxa-dayaq olmaqla yanaşı, sınaq günlərində də birlikdə olmuşlar. O demişdir: "Azərbaycan erməni işğalına məruz qaldığı ilk vaxtlarda da biz bunu yaxından hiss etdik". Nazirin sözlərinə görə, təəssüf doğuran haldır ki, bir sıra beynəlxalq qurumlarda istər Azərbaycan xalqına, istərsə də Türkiyəyə qarşı yönəlmiş terrorçuluq fəaliyyəti özünün lazımi qiymətini almamışdır.

Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir S.Əbiyev Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinin nəticələrinin aradan qaldırılması və problemin danışıqlar yolu ilə həll edilməsinə dair proseslərin davam etdiyini vurğulamışdır. Sülh danışıqlarının nəticə vermədiyi halda, Azərbaycanın başqa imkanlardan istifadə edəcəyi istisna deyildir.

Müdafiə naziri S.Əbiyev bildirmişdir ki, ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əlaqələr inkişaf etməkdədir və gələcəkdə də həmin prinsiplər əməkdaşlığın prioritetlərini təşkil edəcəkdir. Nazir demişdir ki, bugünkü görüşlərimiz, apardığımız danışıqlar dostluq və əməkdaşlığımızın genişlənməsinə yeni töhfələr verəcəkdir.

Türkiyənin milli müdafiə naziri Vecdi Gönül, öz növbəsində, Azərbaycanla Türkiyənin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində geniş əməkdaşlığından söhbət açaraq bu əlaqələrin dərinləşdirilməsinin zəruriliyini vurğulamışdır.

AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 3-də Azərbaycanın müdafiə sənayesi naziri Yavər Camalov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir Yavər Camalov nazirliyin yaranması, fəaliyyəti və əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimiz arasında müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏİSİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 3-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi-Sərhəd Qoşunlarının komandanı general-leytenant Elçin Quliyev Bakıda səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Xidmətin aparatında keçirilən görüşdə qonaqlara Azərbaycan sərhəd təhlükəsizliyi sisteminin təşkili, əməliyyat şəraiti və mövcud təhdidlər, o cümlədən Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə edilməsi barədə məlumat verilmişdir.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə sərhəd təhlükəsizliyi sahəsində ikitərəfli əlaqələrin səviyyəsi yüksək qiymətləndirilmiş, gələcək hərbi-texniki əməkdaşlığın vəziyyəti və perspektivləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN BEYNƏLXALQ LAYİHƏ İDARƏETMƏ ASSOSİASİYASININ İSTANBULDA KEÇİRİLMİŞ 24-CÜ DÜNYA KONQRESİNDƏ TƏMSİL OLUNMUŞDUR

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Beynəlxalq Layihə İdarəetmə Assosiasiyasının (BLİA) noyabrın 1-dən 3-dək İstanbulda keçirilmiş 24-cü dünya konqresinin açılışında iştirak etmişdir.

Açılış mərasimində çıxış edən Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan son illər ölkənin iqtisadi inkişafı ilə əlaqədar dünyada nüfuzunun artdığını qeyd etmişdir. Baş nazir Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin idarə edilməsinin əhəmiyyətini vurğulamış, digər layihələr barədə ətraflı danışmışdır.

Nazir Ə.Abbasov Azərbaycanda həyata keçirilən mühüm layihələr, xüsusən "Transmilli Avrasiya Super İnformasiya Magistralı" (TASİM), "Regional innovasiya zonası" (RİZ) və "AzerSpace" layihələri barədə iştirakçılara məlumat vermişdir.

Əli Abbasov Türkiyənin nəqliyyat naziri Binəli Yıldırımla görüşmüş, həmçinin tədbir çərçivəsində təşkil edilən sərgidə qardaş ölkənin nəqliyyat və rabitə sahəsində fəaliyyət göstərən dövlət və özəl şirkətlərinin stendləri ilə tanış olmuşdur.

Nazir Ə.Abbasov səfər çərçivəsində BLİA-nın İdarə Heyətinin sədri Mayls Şepardla, həmçinin "Türktelekom", "Türksell", "Karel" və Türkiyənin digər aparıcı telekommunikasiya və informasiya texnologiyaları şirkətlərnin rəhbərləri ilə görüşmüşdür.

BAKIDA XƏZƏRDƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ DÖRDÜNCÜ İCLAS KEÇİRİLMİŞDİR

Noyabrın 3-4-də Bakıda Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişin razılaşdırılmasına dair dördüncü iclas keçirilmişdir.

Beş Xəzəryanı ölkənin xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilən iclasda müxtəlif dövlət orqanlarının Xəzərin təhlükəsizliyi sahəsində əməkdaşlığı məsələləri müzakirə olunmuşdur.

Xarici işlər nazirinin müavini Xələf Xələfov bildirmişdir ki, bundan əvvəlki üç görüş də Xəzəryanı ölkələrin xarici işlər nazirləri müavinlərinin və ekspertlərin iştirakı ilə Bakıda təşkil olunmuşdur. Bu görüşlərdə Xəzərdə təhlükəsizliyin təmin edilməsində Xəzəryanı ölkələrin müvafiq strukturlarının qarşılıqlı fəaliyyəti və əməkdaşlığına dair sa-

ziş layihəsi müzakirə edilmiş, onun müəyyən maddələri razılaşdırılmışdır. Sonuncu üçüncü görüşdə isə yeni irəliləyişlər əldə olunmuşdur.

Müzakirələrin konstruktiv və yüksək anlaşma şəraitində davam etdiyini qeyd edən nazir müavini demişdir: "Əminik ki, əldə olunacaq saziş Xəzərdə təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı baza yaradacaqdır".

X.Xələfov bildirmişdir ki, bugünkü görüşdə layihə qəbul olunacaqdır. Layihənin noyabrın 18-də Bakıda keçiriləcək Xəzəryanı ölkələrin sammitində müzakirə olunacağı gözlənilir.

İclasda Azərbaycan tərəfinin təhlükəsizliklə bağlı hazırladığı layihənin regionun gələcək inkişafına töhfə verəcəyi vurğulanmışdır. Bildirilmişdir ki, Xəzəryanı ölkələrin birgə əməkdaşlığı regionun təhlükəsizliyinə və sabitliyinə xidmət edəcəkdir.

XƏZƏR DƏNİZİNDƏ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN LAYİHƏSİ İLƏ BAĞLI ƏSAS MƏSƏLƏLƏR RAZILAŞDIRILMIŞDIR

Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişin layihəsi ilə bağlı əsas məsələlər razılaşdırılmışdır.

Bu sözləri Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov noyabrın 3-4-də Bakıda keçirilmiş Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişin razılaşdırılmasına dair dördüncü iclasın yekunlarına həsr olunmuş mətbuat konfransında səsləndirmişdir.

İkigünlük görüşün çox məhsuldar keçdiyini deyən X.Xələfov saziş layihəsinin razılaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə edildiyini diqqətə çatdırmışdır.

Nazir müavini əmin olduğunu bildirmişdir ki, noyabrın 9-10-da Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı işçi qrupun Tehranda keçiriləcək görüşünə qədər saziş layihəsinin tam şəkildə razılaşdırılması ilə bağlı ümumiləşdirilmiş nəticə əldə olunacaqdır. Qeyd etmişdir ki, layihənin imzalanması üçün hazırlıq işləri başa çatdırılsa, sənəd sammit zamanı imzalanacaqdır.

X.Xələfov bildirmişdir ki, təhlükəsizlik sahəsində əməkdaşlıq sazişi Xəzəryanı ölkələrin təhlükəsizliyi sahəsində əməkdaşlıq mexanizminin yaradılması istiqamətində ilk sənəddir. Sazişdə terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, insan alveri, çirkli pulların yuyulması və s. ilə mübarizə sahəsində əməkdaşlığı əks etdirən bir çox məsələlər öz əksini tapmışdır.

ASTANADA AZƏRBAYCAN-QAZAXISTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 4-də Astanada Azərbaycan-Qazaxıstan hökumətlərarası iqtisadi komissiyasının VII iclası keçirilmişdir.

Komissiyanın iclasında Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əməkdaşlığın inkişafına və möhkəmləndirilməsinə dair təkliflər irəli sürülmüşdür. Neft-qaz, kənd təsərrüfatı, nəqliyyat, turizm, səhiyyə, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunmuşdur.

İclasda tələbələrin Qazaxıstanda və Azərbaycanda təhsil alması üzrə kvota mübadiləsi razılaşdırılmışdır.

Müzakirələrin xeyli hissəsini dəniz daşımaları ilə bağlı saziş layihəsi təşkil etmişdir. Qeyd olunmuşdur ki, sazişin noyabrın 18-də Bakıda keçiriləcək Xəzəryanı ölkələrin sammitində imzalanması mümkündür.

İclasın yekunları ilə bağlı komissiyanın Qazaxıstan tərəfdən sədri, bu ölkənin neft və qaz naziri Sauat Mınbayev demişdir ki, "Transxəzər" layihəsi üzərində iş davam etdirilir. Layihə ilə bağlı bütün məsələlər həll olunmamışdır. Bu, Batumi və Qara dənizin digər limanlarına nəql ediləcək neftin nisbətindən asılıdır. Tərəflər prinsipləri müəyyənləşdirmişlər və müzakirələr davam edəcəkdir.

Hökumətlərarası komissiyanın sədri, sənaye və energetika naziri Natiq Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Qazaxıstanın Baş naziri Kərim Məsimov ilə də görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Avropa Parlamenti seçki müşahidə missiyasının üzvlərini qəbul etmişdir.

Görüşdə Azərbaycanda qarşıdan gələn Parlament seçkilərinə hazırlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva "Mədəni irs və musiqi" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün noyabrın 3-5-də Ankarada səfərdə olmuşdur.

Noyabrın 4-də Ankaranın Bilkənd Universitetində "Mədəni irs və musiqi" beynəlxalq konfransının açılışı oldu. Türkiyənin birinci xanımı Hayrünnisə Gül konfransa dəvət olunan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, həmçinin Latviya, Sloveniya və Makedoniya prezidentlərinin xanımları ilə görüşmüşdür.

Sonra Bilkənd Universitetinin Sakarya salonunda "Mədəni irs və musiqi" beynəlxalq konfransı işə başlamışdır. Tədbirə sədrlik edən Türkiyə Prezidentinin xanımı Hayrünnisə Gül konfransda iştirak edən Azərbaycan, Latviya, Sloveniya, Makedoniyanın birinci xanımlarını və digər qonaqları salamlamışdır. Bu konfransın bir-birimizi daha yaxşı tanımağa və dünyada sülhün bərqərar olmasına yardım etdiyini bildirən Hayrünnisə Gül

bildirmişdir ki, Ankara bir çox mədəniyyətlərin beşiyi olan Anadolunun köksündə yerləşir. Odur ki, bu cür mötəbər tədbirin bu şəhərdə keçirilməsi heç də təsadüfi deyil.

Mədəni irsin gələcək nəsillərə çatdırılması üçün qadınların üzərinə böyük vəzifələrin düşdüyünü deyən Türkiyənin birinci xanımı mədəniyyətlər arasında dialoqun əldə olunmasında mühüm vasitələrdən birinin də musiqi olduğunu diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Türkiyə öz mədəni irsini və musiqi dəyərlərini qorumaq üçün mühüm tədbirlər görür və bu sahədə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə çalışır.

Latviyanın birinci xanımı Lilita Zatlere çıxışında bildirmişdir ki, Latviyanın mədəni irsi bir çox mədəniyyətlərin qovuşmasından yaranmışdır. Mədəni irsin Baltik dəyərlərində ölkəsinin güclü mövqeyə malik olduğunu qeyd edən Lilita Zatlere Latviyada XIX əsrdən bu yana mahnı və rəqs festivallarının keçirildiyini və bu musiqi mərasimlərinin bir növ ümummilli bayrama çevrildiyini diqqətə çatdırmışdır. O demişdir ki, bu festivallar artıq Latviya mədəniyyətində bir ritual formasını almışdır və xalqın milli kimliyini göstərir.

Konfransda iştirak edən Makedoniyanın birinci xanımı Maya İvanova isə diqqəti həqiqi dəyərlərin əldə olunmasında mədəni irsin və musiqinin oynadığı rola çəkmişdir. Bildirmişdir ki, Makedoniya da müxtəlif mədəniyyətlərin qovuşuğunda yerləşir və təsadüfi deyildir ki, Makedoniya sənətlərin ölkəsi kimi tanınır. Maya İvanova çıxışına bu sözlərlə yekun vurmuşdur: Biz mədəni irsimizi qorumaqla Makedoniyanın təməl prinsiplərini qoruyuruq.

Beynəlxalq konfransın növbəti hissəsinə sədrlik edən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban ƏLİYEVA tədbirdə çıxış edərək demişdir:

- Əziz dostlar!

İlk növbədə, sizləri səmimi qəlbdən salamlayıram və sizə ən xoş arzu və diləklərimi çatdırıram.

Yenidən Türkiyə torpağında olmağımdan çox məmnunam. Qurucusu böyük şəxsiyyət İhsan bəy Doğramacı olan Bilkənd Universitetində olmağımdan ikiqat mutluluq duyuram.

Fürsətdən istifadə edərək qardaş türk xalqına sülh, rifah və xoşbəxtlik arzu edirəm.

İndi isə konfransımızın işçi dili ingilis dili olduğunu nəzərə alaraq, icazənizlə çıxışıma bu dildə davam edirəm.

Türkiyə, Latviya, Makedoniya və Sloveniyanın çox hörmətli birinci xanımları!

Hörmətli cənab Əli Doğramacı!

Hörmətli konfrans iştirakçıları və qonaqlar!

Xanımlar və cənablar!

Əvvəlcə, Sizin hamınızı salamlamaq və bu konfransın təşkilatçısı və təşəbbüskarı cənab Əli Doğramacıya bu cür mühüm beynəlxalq forumda iştirak etmək üçün yaradılmış imkana görə minnətdarlığımı bildirmək istərdim.

Mən, həmçinin bu gün keçirilən foruma verdiyi dəstəyinə və tədbirdə iştirakına görə birinci xanımlara təşəkkürümü bildirmək istəyirəm. Elm, təhsil və mədəniyyət sahələrinə aid müxtəlif humanitar layihələrdəki iştirakınız və sülh, əhəngdarlıq və qarşılıqlı anlaşma naminə ölkələrinizdə apardığınız fəaliyyət bu tədbirə şübhəsiz ki, böyük töhfə olacaqdır.

Hörmətli dostlar, növbəti iki gün ərzində biz burada mədəni irs, xüsusən də musiqi haqqında söhbət açacağıq. Musiqi müxtəlif xalqların və millətlərin, eləcə də bütün dünyanın mədəni zənginliyini təşkil edir. Humanitar və əxlaqi dəyərlərdən ibarət musiqi dialoq üçün nadir və universal vasitədir. Musiqi insan hisslərini, onun vurğunluğunu özündə cəmləşdirən incə və maraqlı daşıyıcıdır. Nəhayət, musiqi gözəllik və kamilliyə doğru insanın göstərdiyi daimi səylərin mücəssəməsidir.

Bu cür müzakirənin məhz burada, bütün ömrünü xeyirxahlıq, humanizm və kamillik kimi ülvi ideyalara həsr etmiş şəxs tərəfindən yaradılmış Bilkənd Universitetində təşkil olunması böyük rəmzi xarakter daşıyır. İhsan bəy görkəmli alim, həkim, maarifçi və xeyriyyəçi olub. Onun fəaliyyəti və nailiyyətləri beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib. O, bir çox medal və mükafatlarla, o cümlədən Azərbaycan Respublikasının "İstiqlal" və ən ali - "Heydər Əliyev" ordenləri ilə təltif olunub.

İhsan bəy İhsan Doğramacı Ailə Sağlamlığı Fondu adlı beynəlxalq qurumu və ya beynəlxalq münasibətlərdə sülh naminə mükafat kimi təltifləri təsis edib. Uzun illər ərzində İhsan bəy bir sıra nüfuzlu beynəlxalq təşkilatların üzvü və rəhbəri olub. Fransa, Hindistan, Azərbaycan və digər ölkələrdə o, Milli Elmlər Akademiyalarının fəxri üzvü olub.

Azərbaycan İhsan bəyin həyatında özünəməxsus yer tutur. O, ölkəmizin əsl dostu olub və Azərbaycana sevgi ilə yanaşırdı. Azərbaycan xalqı isə öz növbəsində, İhsan Doğramacının xeyirxah və şəfqətli işlərini dəyərləndirir, bu görkəmli şəxsiyyəti rəğbətlə yad edir.

İhsan bəy böyük müdriklik sahibi idi. Onun geniş dünyagörüşü var idi. O, əmin idi ki, müxtəlif dillərdə danışan və fərqli dinlərə mənsub olan, müxtəlif tarixi mədəni köklərə malik insanlar fərqlərin vahid daşıyıcıları kimi birləşməyə qadirdirlər və bir araya gəlməlidirlər. Onlar qlobal etika və humanizm kimi konsepsiyaya əsaslanan aləmi yarada bilərlər.

Hesab edirəm ki, bu gün keçirilən forum eyni ideyalara xidmət edəcəkdir. Beləliklə, bu tədbir həmin müstəsna şəxsiyyətin başladığı böyük işlərin davamı olacaqdır. Bu elm, təhsil və mədəniyyət mərkəzində həmin ənənələri davam etdirən hər bir şəxsə minnətdaram.

Hörmətli iştirakçılar, musiqi dili öz mahiyyəti ilə universal xarakter daşıyır. Onun tərcümə edilməsinə ehtiyac duyulmur və hamı musiqini anlayır. Musiqi hər kəsi emosiya və hisslərdən ibarət aləmə səfərbər edə biləcək bir fenomendir. Musiqi ifaçı ilə auditoriya arasında aparılan söhbətdir. Onun sayəsində insanlar sözlərdən və ya konkret dildən istifadə etmədən, öz hisslərini və təsəvvürünü izhar edir. Bu vasitə insanlara daxildə formalaşan hissləri və ideyaları çatdırmağa imkan yaradır. Musiqi ifaçı və dinləyicilərə rahatlıq gətirir. O, xoşbəxtlik, sülh və əhəngdarlıq gətirə bilər. Musiqi dillərin yardımçı

olmadığı məqamda fərqləri aradan qaldırır. Musiqi, həmçinin irsimizin nadir hissəsidir. O, xalqımızın tarixini, dinini, mədəni adət-ənənələrini özündə əks etdirir. Musiqi milli mənsubluğu qoruyub saxlayan genetik koddur.

Ölkəmizin tarixinə nəzər salsaq, görərik ki, Azərbaycan zəngin mədəni irsə malik olan qədim diyardır. Bu, ədəbiyyatımız, xalçalarımız, incəsənətimiz, memarlıq sənəti və musiqimizdə özünü büruzə verir. Azərbaycan 1991-ci idə öz müstəqilliyini bərpa edib, lakin ölkəmiz uzun illər ərzində müxtəlif imperiyaların tərkibində olub. Buna baxmayaraq, biz öz dilimizi, musiqimizi, ənənələrimizi, mədəniyyətimizi və özünəməxsusluğumuzu qoruyub saxlamışıq.

Bu gün biz mədəni irs konsepsiyasının geniş məna daşıdığı kifayət qədər mürəkkəb dünyada yaşayırıq. Hesab edilir ki, qloballaşma təbii qaydada mədəni oxşarlığa aparacaqdır. Bu, o deməkdir ki, qlobal norma və ideyalar milli mədəniyyətlərdən üstün olacaqdır. Əminəm ki, hər bir ölkənin mədəni irsi və adət-ənənələrini nəzərə alaraq, qlobal dünyaya qoşulmaq mümkündür. Uzun illər ərzində malik olduğumuz nadir mədəni irsin hər bir hissəsinin qoruyub saxlanılması ilə biz müasir dünyanın çağırışlarına hazır olmalıyıq və öhdəsindən gəlməliyik. Mədəni köklərimizə sadiq qalmaq üçün hər kəs bu və ya digər mühüm səbəblərə görə müəyyən fərqli məqamları dinləməyi bacarmalıdır. Dünya hər kəsi eyni etməli deyildir. Müxtəliflik bizi yalnız zənginləşdirə bilər. Biz bir-birimizə hörmət və dözümlülüklə yanaşmalıyıq. Bilik anlaşmanı təmin edir.

Zənnimcə, tamamilə aydın olmalıdır ki, bu gün dünyada mövcud olan bir çox problemlərin həllində məhz bu yanaşmadan istifadə etmək lazımdır.

Hörmətli dostlar, nitqimi nikbin fikirlə başa çatdırmaq istərdim. Bildiyiniz kimi, son bir neçə il ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanda bir sıra beynəlxalq musiqi festivalları keçirilib. 2009-cu ildə yeni Beynəlxalq Muğam Mərkəzimizdə ilk beynəlxalq muğam festivalı keçirilib. Muğam həvəskarları, ifaçıları, tədqiqatçıları və bir çox ölkələrdən gəlmiş qonaqlar həmin tədbirdə iştirak ediblər. Ən görkəmli həmvətənlərimizdən birinin xatirəsini yad etmək məqsədi ilə Bakıda hər il dekabr ayında Mstislav Rostropoviç festivalı keçirilir. 2010-cu ildə ikinci beynəlxalq musiqi festivalı ən gözəl bölgələrimizdən biri olan Qəbələdə uğurla keçirilib. Bu festivallarda musiqi milliyyəti, cinsi, yaşı və mənşəyindən asılı olmayaraq bütün insanları bir araya gətirdi.

Əminəm ki, qarşıdakı iki gün ərzində Şərqin və Qərbin gözəl musiqisi burada nadir və xüsusi mühit yaradacaqdır. O, qəlblərimizi oxşayacaq, əhval-ruhiyyəmizi qaldıracaq və hisslərimizi oyadacaqdır.

Diqqətinizə görə minnətdaram.

* * *

Konfransa sədrlik edən Azərbaycanın birinci xanımı sonra sözü Sloveniya Prezidentinin xanımı Barbara Mikliç Türkə verdi. O, mədəni dəyərləri ölkəsinin mühüm parçası adlandırdı. Qeyd etdi ki, mədəniyyət sloveniyalılar üçün, sözün həqiqi mənasında, industriyadır. "Musiqi və ədəbiyyat isə bizim milli kimliyimizi təşkil edir", - deyən Barbara Mikliç Türk vurğuladı ki, musiqi bütün dövrlərdə insanın inkişafında mühüm amil olmuşdur. Sloveniyada uşaqlar arasında mədəni dəyərlərin təbliğində musiqinin aparıcı rol oynadığını deyən Barbara Mikliç Türk ölkəsində bununla bağlı bir çox layihələrin

həyata keçirildiyini diqqətə çatdırdı.

Toplantıya sədrlik edən Mehriban xanım Əliyeva daha sonra sözü məşhur dirijor, bəstəkar və skripka ifaçısı Lorin Mazelə verdi.

L.Mazel də bu konfransın keçirilməsinə görə təşəkkürünü çatdırdı və tədbirin mövzusunun həyata keçirilməsində qadınların rolunun böyük olduğunu dedi.

Bilkənd Universitetinin İdarə Heyətinin sədri, professor Əli Doğramacı konfransda iştirak edən Türkiyə, Azərbaycan, Latviya, Sloveniya və Makedoniyanın birinci xanımlarına xatirə hədiyyələri təqdim etdi.

* * *

Daha sonra Azərbaycan, Latviya, Sloveniya və Makedoniyanın birinci xanımlarının şərəfinə nahar yeməyi verildi.

* * *

Noyabrın 4-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Azərbaycan xalqının və ulu öndər Heydər Əliyevin dostu olmuş, Bilkənd Universitetinin qurucusu və böyük alim İhsan Doğramacının məzarını ziyarət edərək önünə gül dəstəsi qoydu.

Mehriban Əliyeva xatirə kitabına ürək sözlərini yazdı.

İhsan Doğramacının oğlu Əli Doğramacı Mehriban xanıma Bilkənd Universitetinin ərazisində aparılan quruculuq işləri barədə məlumat verdi. Bildirdi ki, İhsan Doğramacının məzarı qarşısında maraqlı memarlıq üslubunda inşa olunmuş məscid mərhum alimin rəhbərliyi və şəxsi nəzarəti altında tikilib. İhsan Doğramacı bu məscidə atasının adını vermişdir.

Mehriban xanım Əliyeva böyük alim İhsan Doğramacının xatirəsinin Türkiyə və Azərbaycan xalqlarının qəlbində əbədi yaşayacağını bildirdi.

* * *

Azərbaycanın birinci xanımı Ankaraya səfəri çərçivəsində Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan ilə görüşmüşdür.

Görüşdə Mehriban Əliyevanın Türkiyəyə səfərindən məmnunluq ifadə edildi. Bilkənd Universitetində keçirilən konfransın ölkələrimizin mədəni dəyərlərinin inkişafı və təbliği baxımından vacib olduğu vurğulandı.

* * *

Noyabrın 4-də Bilkənd Universitetində Azərbaycanın Xalq Artisti Alim Qasımovun və qızı Əməkdar Artist Fərqanənin konserti olmuşdur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə birlikdə konsertə Latviya, Sloveniya və Makedoniyanın birinci xanımları da tamaşa etmişlər.

Alim Qasımov öz ifası ilə bir daha təsdiq etdi ki, Azərbaycan mədəniyyətinin vizit kartı olan muğam həm də xalqımızın malik olduğu milli mədəniyyətin koloriti, hər birimizin mənəvi zövqü və qidasıdır. Muğam həm də bütün azərbaycanlıların ana dilidir. İndi bütün dünyanı heyrətdə qoyan, yaxın-uzaq elləri yaxınlaşdıran ilahi muğamın sədası ölkə-

mizin hüdudlarını aşır, Azərbaycanı dünyada tanıdır. Bu dəfə də belə oldu. Növbəti dəfə Türkiyə səhnəsində öz ifaları ilə tamaşaçıları heyrətdə qoyan muğam ustadları muğamı yüksək səviyyədə təqdim etməklə salona Azərbaycan ruhunu gətirdilər. Bu ifadan da göründü ki, muğam sənətinin ölməzliyini təmin edən dərin məzmun və fəlsəfi məna onun malik olduğu xalqın özəlliyi ilə bağlıdır. Alim Qasımov da bu çıxışı ilə xalqımızın malik olduğu özəlliyi tamaşaçılara muğamın dili ilə çatdırdı. Mükafatları isə alqışlar oldu.

* * *

Noyabrın 4-də axşam Çankaya köşkündə Türkiyə Prezidentinin xanımı Hayrünnisə Gülün adından rəsmi ziyafət təşkil olundu.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimə dəvət olunan İhsan Doğramacının həyat yoldaşı Ayser Doğramacı ilə görüşdü. Daha sonra Türkiyə, Azərbaycan, Latviya, Sloveniya və Makedoniyanın birinci xanımları birgə şam etdilər.

* * *

Noyabrın 5-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə Türkiyə Prezidentinin xanımı Hayrünnisə Gülün görüşü oldu.

Görüşdə Mehriban xanımın Türkiyəyə səfərinin uğurla keçdiyi bildirildi. Qeyd olundu ki, Ankarada Bilkənd Universitetinin təşkilatçılığı ilə keçirilən "Mədəni irs və musiqi" beynəlxalq konfransı dünyada mədəni irsin qorunması işinə xidmət edir. Bu sahədə Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən layihələrin əhəmiyyətindən də danışıldı.

* * *

Noyabrın 5-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Türkiyəyə səfəri başa çatmışdır.

NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA İNKİŞAF EDİR

Noyabrın 5-də Ombudsman Aparatında NATO-nun Qafqaz üzrə siyasi əlaqələr və təhlükəsizlik siyasəti idarəsinin əlaqələndiricisi Zbiqnev Ribatski ilə görüş olmuşdur.

Z.Ribatski NATO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafını yüksək qiymətləndirmiş, "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində hərbi qulluqçular üçün kursların və təlimlərin hazırlanması və həyata keçirilməsi barədə məlumat vermişdir. Görüşdə, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən ingilis dilində nəşr olunmuş Silahlı Qüvvələrdə insan hüquqları və azadlıqları haqqında tədris vəsaitinin Azərbaycan dilinə tərcüməsi ilə bağlı müzakirələr aparılmışdır.

Ombudsman Elmira Süleymanova qonağa ölkəmizdə İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının uğurla icra olunması, bu sənədin təbliği və tətbiqi vəziyyəti barədə məlumat vermişdir. Müvəkkil ölkəmizin BMT-nin İşgəncələrə qarşı Konvensiyasının Fakültativ Protokoluna qoşulması ilə bağlı ombudsmanın Milli Preventiv Mexa-

nizm qismində müəyyən edildiyini və bu istiqamətdə fəaliyyət göstərdiyini söyləmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MƏRAKEŞDƏ SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanın xarici işlər nazirinin müavini Araz Əzimov noyabrın 3-dən 5-dək Mərakeş Krallığının Xarici İşlər və Əməkdaşlıq Nazirliyinin dövlət katibi xanım Lətifə Əxirbaşın dəvəti ilə bu ölkədə səfərdə olmuşdur.

Səfər çərçivəsində A.Əzimov L.Əxirbaş ilə yanaşı, Mərakeş parlamentinin sədri Abdul Vahid əl-Radi, Müşavirlər Palatası sədrinin birinci müavini M.Feyzi, dövlət naziri M.Lainserlə görüşmüşdür.

Görüşlərdə Azərbaycan ilə Mərakeş arasında əməkdaşlığın inkişaf perspektivləri, qarşılıqlı dəstək prinsipləri, əlaqələrin daha da möhkəmləndirilməsində iki ölkənin səfirliklərinin oynadığı rol müzakirə olunmuşdur.

Bundan əlavə, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ MDB-NİN MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 5-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Bakıda səfərdə olan MDB-nin İcraiyyə Komitəsinin sədri, icraçı katibi, eyni zamanda, Birliyin müşahidəçi missiyasının rəhbəri Sergey Lebedev ilə görüşmüşdür.

Rəhbərlik etdiyi missiyanın 352 müşahidəçidən ibarət olduğunu bildirən S.Lebedev Azərbaycanda parlament seçkilərinə hazırlıqların yüksək səviyyədə aparıldığını qeyd etmişdir. O, müxtəlif ölkələrdə müşahidə etdiyi seçkilərdə qazandığı təcrübə barədə danışmışdır.

E.Məmmədyarov ölkəmizdə parlament seçkilərinin müvəffəqiyyətlə nəticələnəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə bir sıra ikitərəfli, regional və qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ TÜRKPA-NIN MÜŞAHİDƏ MİSSİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 5-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov ölkəmizdə səfərdə olan Türkdilli ölkələrin Parlament Assambleyasının (TürkPA) beynəlxalq müşahidəçilər missiyasının nümayəndələri ilə görüşmüşdür.

Görüşdə tərəflər Azərbaycanda Milli Məclisə seçkilərdən öncə vəziyyət, görülən hazırlıq işləri və seçki günü müşahidəçilərin iş planları barədə ətraflı danışmışlar. Nazir E.Məmmədyarov parlament diplomatiyasının vacibliyini qeyd edərək TürkPA-nın bu xüsusda oynaya biləcəyi rolu qonaqların diqqətinə çatdırmışdır. Qonaqların Ermənis-

tan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar sualını cavablandırarkən E.Məmmədyarov münaqişənin həllinə dair aparılan danışıq prosesi və Azərbaycanın ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyi barədə ətraflı məlumat vermişdir.

Sonra tərəflər bir sıra ikitərəfli, regional və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

NİDERLANDDA AVROPA MƏTBUAT ŞURALARI ALYANSININ XII İLLİK TOPLANTISI KEÇİRİLMİŞDİR

Noyabrın 4-5-də Niderlandın paytaxtı Amsterdamda Avropa Mətbuat Şuraları Alyansının XII illik toplantısı keçirilmişdir.

Konfransı açan Niderland təhsil, mədəniyyət və elm naziri Marjan Hammersma medianın özünütənzimləməsini önəmli cəhət kimi vurğulamış, milli mətbuat şuralarının bu istiqamətdəki rolunu yüksək qiymətləndirmişdir. Toplantıda 30-dan çox ölkənin hesabatı dinlənilmiş, şuraların fəaliyyətindəki oxşar və fərqli cəhətlər nəzərdən keçirilmişdir.

Azərbaycan Mətbuat Şurasının sədri Ə.Amaşov rəhbərlik etdiyi qurumun gördüyü işlər barədə məlumat vermişdir.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 5-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Qazaxıstan Mərkəzi Seçki Komissiyasının sədri Kuandık Turqankulovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

M.Pənahov Azərbaycan və Qazaxıstan mərkəzi seçki komissiyaları arasında əməkdaşlıq barədə memorandumun mövcud olduğunu vurğulayaraq bildirmişdir ki, hər iki ölkənin ali seçki qurumları uzun illərdir qarşılıqlı faydalı əməkdaşlıq edir. M.Pənahov bildirmişdir ki, Azərbaycanda keçiriləcək seçkilərdə Qazaxıstan nümayəndə heyətinin də müşahidəçi qismində iştirakından məmnundur.

Qazaxıstanlı müşahidəçilər Azərbaycanda seçkiqabağı vəziyyətin sabit olduğunu, səsvermə prosesinin də qanunun tələblərinə uyğun, demokratik atmosferdə keçəcəyinə ümidvar olduğunu bildirmişlər.

Görüşdə iki ölkənin ali seçki qurumları arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA MDB MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 5-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MDB Müşahidə Missiyasının rəhbəri Sergey Lebedev ilə görüşmüşdür.

MSK-nın sədri seçkilərin müşahidə edilməsinə yüksək əhəmiyyət verdiyini, seçki prosesində aşkarlığın təmin edilməsindən ötrü bütün qanuni addımların atıldığını vurğulayaraq bildirmişdir ki, ümumilikdə 48 mindən çox müşahidəçi qeydə alınmış, 500 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır. Səsvermə günü bütün müşahidəçilərə seçki məntəqələrindəki prosesləri əvvəldən axıradək izləmələri üçün hərtərəfli şərait yaradılacaqdır.

MDB Müşahidə Missiyasının rəhbəri müşahidəçilər üçün yaradılmış şəraiti yüksək qiymətləndirdiklərini vurğulayaraq bildirmişdir ki, onun rəhbərlik etdiyi missiya müşahidə apararkən obyektivlik, tərəfsizlik prinsiplərini əsas tutur. Noyabrın 6-da missiyanın qısamüddətli müşahidəçiləri də Azərbaycana gəlir və səsvermə günü MDB Müşahidə Missiyasının 351 üzvü Azərbaycanın müxtəlif bölgələrində seçki məntəqələrində səsvermənin gedişini izləyəcəklər.

Qonaqlar səmimi qəbula görə təşəkkür etmiş, qarşıdan gələn seçkilərdə uğurlar arzulamışlar.

DAŞKƏNDDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ MİLLİ SƏRGİSİ AÇILMIŞDIR

Noyabrın 5-də Daşkənddə Azərbaycan Respublikasının Birinci Milli Sərgisi açılmışdır.

Açılış mərasimindən əvvəl iqtisadi inkişaf naziri Şahin Mustafayev başda olmaqla Azərbaycan nümayəndə heyəti Daşkəndin Mirabad rayonunun mərkəzindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin qarşısında ulu öndərin abidəsi önünə əklil və tər çiçək dəstələri qoymuşlar.

Sonra nümayəndələr "Uzekspomərkəz" sərgilər salonuna gəlmiş və burada açılış mərasimi keçirilmişdir. Mərasimdə Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr, investisiya və ticarət naziri Elyer Qəniyev, Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev, ölkəmizin Özbəkistandakı səfiri Namiq Abbasov, digər rəsmi şəxslər, KİV nümayəndələri iştirak etmişlər.

Elyer Qəniyev Özbəkistan hökuməti adından sərginin iştirakçılarını və qonaqları salamlamış, bu sərginin Özbəkistan-Azərbaycan münasibətlərinin inkişafında, əlaqələrimizin daha da dərinləşdirilməsində əlamətdar hadisə olacağına əmin olduğunu bildirmişdir. O demişdir ki, xalqlarımız və dövlətlərimiz arasında belə yüksək səviyyədə münasibətlər qurduqlarına görə biz öz liderlərimiz İslam Kərimov və Heydər Əliyevə minnətdar olmalıyıq. E.Qəniyev qeyd etmişdir ki, bu sərgi iqtisadi əlaqələrimizin daha da dərinləşdirilməsinə və xalqlarımızın daha da yaxınlaşmasına təkan verəcəkdir.

Şahin Mustafayev çıxışında bildirmişdir ki, Azərbaycanın Birinci Milli Sərgisinin məhz Özbəkistanda keçirilməsi təsadüfi deyildir. Belə ki, bizi dil, din, mədəniyyət və tarixi köklərimiz, həmçinin dinamik inkişaf edən siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrimizin dərinliyi birləşdirir. "Yeni dövrdə dostluq və qardaşlıq münasibətlərinin əsası Azərbaycanın ümummilli lideri Heydər Əliyev və Özbəkistanın dövlət başçısı İslam Kərimov tərəfindən qoyulmuşdur və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elə bu sərginin keçirilməsi ilə bağlı razılıq da Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin sentyabr ayında Özbəkistana rəsmi səfəri zamanı əldə edilmişdir", - deyə

nazir vurğulamışdır.

Nazir Azərbaycanın iqtisadi inkişafı haqqında geniş məlumat verərək demişdir ki, bu sərgidə ölkəmizin iqtisadi potensialını əks etdirən stendlər, o cümlədən sənaye, yanacaq-energetika, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, ekologiya, turizm, mədəniyyət, xalq tətbiqi sənəti, səhiyyə, təhsil, idman və digər sahələrə aid 170-dən artıq müəssisənin 1750 çeşiddə məhsulu nümayiş etdirilir.

Sonra sərgiyə baxış keçirilmişdir.

ÖZBƏKİSTANIN BAŞ NAZİRİ DAŞKƏNDDƏ KEÇİRİLƏN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ SƏRGİSİNDƏ OLMUŞDUR

Özbəkistanın Baş naziri Şavqat Mirziyayev noyabrın 5-də Daşkənddə keçirilən Azərbaycan Respublikasının milli sərgisində olmuş, ölkəmizin iqtisadi inkişaf naziri Şahin Mustafayevlə birlikdə sərgiyə baxış keçirmişlər.

Əvvəl Baş nazir Heydər Əliyev Fondunun stendinə yaxınlaşmış, ona Fondun gördüyü işlər haqqında məlumat verilmişdir. Sonra Şavqat Mirziyayev Azərbaycanda ixracın və İnvestisiyaların Təşviqi Fondu, Azərbaycan Dövlət Neft Şirkəti, milli musiqi alətləri, tətbiqi sənət nümunələri, həmçinin nəqliyyat infrastrukturu, turizm və digər sahələri əhatə edən stendlərə maraqla tamaşa etmişdir.

Sonra Baş nazir sərgi salonunun həyətində açıq havada maşınqayırma kompleksi və avtomobilqayırma sahələrinin məhsulları ilə də tanış olmuş, müvafiq strukturların nümayəndələrinə əməkdaşlıqla bağlı tapşırıqlar vermişdir.

Şavqat Mirziyayev demişdir: "Biz bir çox sahələrdə iş qurulması məqsədilə birgə müəssisələr yaratmağa hazırıq, təki istək olsun. Lazımdırsa, lap 20 birgə müəssisə yaradaq və onlara yaxından kömək edək".

Baş nazir əlaqələrin dərinləşdirilməsində hökumət strukturlarına və iş adamlarına uğurlar arzulamışdır.

AZƏRBAYCANIN İLK TELEKOMMUNİKASİYA PEYKİNİN ORBİTƏ ÇIXARILMASI BARƏDƏ FRANSA ŞİRKƏTİ İLƏ MÜQAVİLƏ İMZALANMIŞDIR

Noyabrın 5-də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzi (BƏHM) ilə Fransanın "Arianespace" şirkəti arasında ölkəmizin ilk telekommunikasiya peykinin bu şirkətin istehsalı olan "Ariane-SECA" raketdaşıyıcısı ilə orbitə çıxarılması barədə müqavilə imzalanmışdır. Sənədi BƏHM-in sədri Cəlil Cəfərov və "Arianespace" şirkətinin baş direktoru Jan-İv Le Qal imzalamışlar.

Mərasimdə çıxış edən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov sənədin imzalanmasını "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın icrasında növbəti mərhələ kimi qiymətləndirmişdir. Peykin orbitə çıxarılması üzrə şirkətin müəyyən olunması ilə bağlı tender komissiyası bir ildən artıqdır ki, müzakirələr aparmış və bu məsuliyyətli vəzifənin "Arianespace" şirkətinə

həvalə edilməsi barədə qərar qəbul etmişdir.

Bu sənəd ölkədə kosmik sənayenin yaradılması üzrə əsas fazanın başlanmasını əks etdirən Azərbaycanın milli peykinin 2012-ci ildə orbitə çıxarılması istiqamətində həyata keçirilən işlər çərçivəsində atılmış növbəti mühüm addımdır.

"Arianspace" şirkətinin baş direktoru Jan-İv Le Qal qurumun raketdaşıyıcılarının orbitə buraxılması sahəsində böyük təcrübəyə malik olduğunu və bugünkü hadisənin həm Azərbaycan, həm şirkət üçün əhəmiyyətini diqqətə çatdırmışdır. Bildirmişdir ki, 1980-ci ildə təsis edilmiş "Arianspace" şirkəti "Ariane-5" raketdaşıyıcısının istehsalı, istismarı və marketinqi ilə məşğuldur.

Ölkələrimiz arasında geniş iqtisadi əlaqələri qeyd edən Fransanın Azərbaycandakı səfiri Qabriel Keller demişdir ki, imzalanan sənəd ikitərəfli münasibətlərin inkişafına müsbət təsir edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ, MDB PA-NIN MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ƏLAQƏLƏNDİRİCİSİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini, MDB Parlamentlərarası Assambleyanın müşahidəçilər qrupunun əlaqələndiricisi Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanda keçiriləcək parlament seçkilərinə hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏSİNİ MÜZAKİRƏ ETMİŞLƏR

Noyabrın 6-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikasının xarici işlər naziri Edvard Nalbandyan Moskvada işçi görüş keçirmişlər.

Bu il oktyabrın 27-də Həştərxanda keçirilmiş üçtərəfli sammitin gedişində əldə edilmiş razılaşmalara uyğun olaraq görüşün gündəliyinə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair aktual məsələlər daxil edilmişdir.

PAKİSTANIN MİLLİ MENECMENT KOLLECİNİN DİNLƏYİCİLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞLAR

Noyabrın 6-da Pakistanın Milli Menecment Kollecində təhsil alan yüksək və orta rütbəli məmurlar Azərbaycan Diplomatik Akademiyasında (ADA) olmuşlar.

Pakistanlı qonaqlar təhsil ocağının fəaliyyəti və gələcək planları ilə tanış olmuşlar.

Akademiyanın professor heyəti ADA-da tədris, aparılan elmi araşdırmalar və onların əhəmiyyəti haqqında danışmışdır. Qonaqlara Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın 20 faizinin işğal altında olması barədə ətraflı məlumat verilmiş, bunun ölkəmizin xarici siyasətinə təsirindən bəhs edilmişdir.

Pakistanın Milli Menecment Kollecinin dekanı Rahat ul Ain ölkəmizlə bağlı təəssüratlarından, Azərbaycan iqtisadiyyatının sürətli inkişafından danışmışdır. Azərbaycan hökumətinin reallaşdırdığı təhsil təşəbbüslərinin əhəmiyyətini qeyd edən Rahat ul Ain vurğulamışdır ki, bu siyasət gələcəkdə də mövcud inkişafın davamına zəmin yaradacaqdır.

Həm azərbaycanlı professorlar, həm də pakistanlı qonaqlar ölkələrimiz arasında dostluq münasibətlərindən danışmış, bunun beynəlxalq qurumlarda faydalı əməkdaşlığa səbəb olduğunu vurğulamışlar.

Görüşdə bildirilmişdir ki, ADA pakistanlı tələbələrin burada təhsil alması üçün təqaüd verməyə hazırdır.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASININ MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MDB Parlamentlərarası Assambleyasının müşahidəçilər qrupunun əlaqələndiricisi, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan sədr M.Pənahov ölkənin seçkilərə tam hazır olduğunu bildirmiş və seçkiqabağı vəziyyət barədə məlumat vermişdir. O, Milli Məclisə seçkilərlə bağlı şəffaflığın təmin edildiyini söyləyərək 48 mindən çox yerli, 1029 nəfər beynəlxalq müşahidəçinin akkreditasiyadan keçdiyini, KİV-lərə informasiya toplamaq üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırmışdır. MSK sədri seçicilərin və aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsi, seçki məntəqələrinin hazırlıq səviyyəsi barədə qonaqları məlumatlandırmışdır.

S.Orlova artıq beşinci dəfədir ki, müşahidəçi kimi Azərbaycanda olduğunu qeyd etmiş və ölkənin seçki praktikasının ildən-ilə təkmilləşdiyini vurğulamışdır. O, Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı görülən işləri yüksək qiymətləndirmişdir.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Rusiya Federasiyası Mərkəzi Seçki Komissiyasının üzvü Yelena Dubrovinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Sədr M.Pənahov Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin müşahidə edilməsinə böyük əhəmiyyət verildiyini bildirmiş və rusiyalı həmkarlarının da Azərbaycanda keçirilən seçkilərdə müşahidəçilik etməsindən məmnun olduğunu bildirmişdir.

Y.Dubrovina Azərbaycanda seçkiqabağı vəziyyət barədə məlumat verilməsini xahiş etmişdir.

M.Pənahov Mərkəzi Seçki Komissiyasının seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlərdən ətraflı danışmış və seçki qurumlarının səsverməyə tam hazır olduğunu, seçicilərin aktiv seçki hüquqlarının reallaşdırılması üçün bütün şəraitin yaradıldığını söyləmişdir.

Görüşdə iki ölkənin ali seçki qurumlarının əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi də aparılmışdır.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA TÜRKPA NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisə keçirilən seçkilərdə müşahidə aparmaq üçün Azərbaycana gəlmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin rəhbəri Sarıaslan Kurşad Melih qardaş ölkədə seçkiləri müşahidəçilikdən məmnun olduqlarını söyləmiş, Azərbaycanın seçki sistemi, seçki qurumlarının təşkili prinsipləri və fəaliyyət istiqamətləri barədə məlumat verilməsini xahiş etmişdir.

MSK sədri qardaş ölkələrdən olan müşahidəçiləri salamlamaqdan şad olduğunu bildirmiş, qonaqlara Azərbaycandakı seçki sistemi, seçki institutlarının fəaliyyəti və Milli Məclisə seçkilərlə bağlı ətraflı məlumatlar vermişdir. Sədr M.Pənahov bildirmişdir ki, seçki məntəqələri səsverməyə tam hazırdır. Seçicilərin maarifləndirilməsi ilə bağlı mühüm işlər görülmüşdür. Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış səsvermə prosedurları və səsverməyə çağırış məzmunlu videoçarxlar ölkə telekanallarının efirində mütəmadi olaraq yayımlanır. Səsvermənin yeri və vaxtı barədə bildirişlər hazırlanaraq seçicilərə çatdırılmışdır. Səsvermə günü ilə bağlı müxtəlif məzmunlu plakatlar hazırlanaraq əhalinin sıx olduğu yerlərdə asılmışdır. Bu günədək 48 mindən çox müşahidəçi qeydə alınmış, 500 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır.

M.Pənahov seçki prosesinə hazırlıqla bağlı qonaqları maraqlandıran digər sualları da cavablandırmışdır.

DAŞKƏNDDƏ AZƏRBAYCAN MİLLİ SƏRGİSİ YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL OLUNMUŞDUR

Noyabrın 6-da Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev Daşkənddə keçirilən Azərbaycanın Milli Sərgisi çərçivəsində Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr, investisiya və ticarət naziri Elyer Qəniyevlə görüşmüşdür.

Elyer Qəniyev bildirmişdir ki, biz hələ də Azərbaycan Milli Sərgisinin təsiri altındayıq. Hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Həm məhsulların çeşidi, həm mədəni proqram, müğənnilərin canlı ifası buraya gələnlərdə xoş ovqat yaradırdı.

Baş nazirin müavini demişdir: "Mən bir daha bildirirəm ki, Daşkənddə belə möhtəşəm

Akademiyanın professor heyəti ADA-da tədris, aparılan elmi araşdırmalar və onların əhəmiyyəti haqqında danışmışdır. Qonaqlara Ermənistanın Azərbaycana təcavüzü, torpaqlarımızın 20 faizinin işğal altında olması barədə ətraflı məlumat verilmiş, bunun ölkəmizin xarici siyasətinə təsirindən bəhs edilmişdir.

Pakistanın Milli Menecment Kollecinin dekanı Rahat ul Ain ölkəmizlə bağlı təəssüratlarından, Azərbaycan iqtisadiyyatının sürətli inkişafından danışmışdır. Azərbaycan hökumətinin reallaşdırdığı təhsil təşəbbüslərinin əhəmiyyətini qeyd edən Rahat ul Ain vurğulamışdır ki, bu siyasət gələcəkdə də mövcud inkişafın davamına zəmin yaradacaqdır.

Həm azərbaycanlı professorlar, həm də pakistanlı qonaqlar ölkələrimiz arasında dostluq münasibətlərindən danışmış, bunun beynəlxalq qurumlarda faydalı əməkdaşlığa səbəb olduğunu vurğulamışlar.

Görüşdə bildirilmişdir ki, ADA pakistanlı tələbələrin burada təhsil alması üçün təqaüd verməyə hazırdır.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASININ MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MDB Parlamentlərarası Assambleyasının müşahidəçilər qrupunun əlaqələndiricisi, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan sədr M.Pənahov ölkənin seçkilərə tam hazır olduğunu bildirmiş və seçkiqabağı vəziyyət barədə məlumat vermişdir. O, Milli Məclisə seçkilərlə bağlı şəffaflığın təmin edildiyini söyləyərək 48 mindən çox yerli, 1029 nəfər beynəlxalq müşahidəçinin akkreditasiyadan keçdiyini, KİV-lərə informasiya toplamaq üçün bütün şəraitin yaradıldığını diqqətə çatdırmışdır. MSK sədri seçicilərin və aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsi, seçki məntəqələrinin hazırlıq səviyyəsi barədə qonaqları məlumatlandırmışdır.

S.Orlova artıq beşinci dəfədir ki, müşahidəçi kimi Azərbaycanda olduğunu qeyd etmiş və ölkənin seçki praktikasının ildən-ilə təkmilləşdiyini vurğulamışdır. O, Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı görülən işləri yüksək qiymətləndirmişdir.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Rusiya Federasiyası Mərkəzi Seçki Komissiyasının üzvü Yelena Dubrovinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Sədr M.Pənahov Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərin müşahidə edilməsinə böyük əhəmiyyət verildiyini bildirmiş və rusiyalı həmkarlarının da Azərbaycanda keçirilən seçkilərdə müşahidəçilik etməsindən məmnun olduğunu bildirmişdir.

Y.Dubrovina Azərbaycanda seçkiqabağı vəziyyət barədə məlumat verilməsini xahiş etmişdir.

M.Pənahov Mərkəzi Seçki Komissiyasının seçkilərin hazırlanıb keçirilməsi ilə bağlı həyata keçirdiyi tədbirlərdən ətraflı danışmış və seçki qurumlarının səsverməyə tam hazır olduğunu, seçicilərin aktiv seçki hüquqlarının reallaşdırılması üçün bütün şəraitin yaradıldığını söyləmişdir.

Görüşdə iki ölkənin ali seçki qurumlarının əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi də aparılmışdır.

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA TÜRKPA NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisə keçirilən seçkilərdə müşahidə aparmaq üçün Azərbaycana gəlmiş Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) nümayəndə heyətinin üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin rəhbəri Sanaslan Kurşad Melih qardaş ölkədə seçkiləri müşahidəçilikdən məmnun olduqlarını söyləmiş, Azərbaycanın seçki sistemi, seçki qurumlarının təşkili prinsipləri və fəaliyyət istiqamətləri barədə məlumat verilməsini xahiş etmişdir.

MSK sədri qardaş ölkələrdən olan müşahidəçiləri salamlamaqdan şad olduğunu bildirmiş, qonaqlara Azərbaycandakı seçki sistemi, seçki institutlarının fəaliyyəti və Milli Məclisə seçkilərlə bağlı ətraflı məlumatlar vermişdir. Sədr M.Pənahov bildirmişdir ki, seçki məntəqələri səsverməyə tam hazırdır. Seçicilərin maarifləndirilməsi ilə bağlı mühüm işlər görülmüşdür. Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış səsvermə prosedurları və səsverməyə çağırış məzmunlu videoçarxlar ölkə telekanallarının efirində mütəmadi olaraq yayımlanır. Səsvermənin yeri və vaxtı barədə bildirişlər hazırlanaraq seçicilərə çatdırılmışdır. Səsvermə günü ilə bağlı müxtəlif məzmunlu plakatlar hazırlanaraq əhalinin sıx olduğu yerlərdə asılmışdır. Bu günədək 48 mindən çox müşahidəçi qeydə alınmış, 500 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır.

M.Pənahov seçki prosesinə hazırlıqla bağlı qonaqları maraqlandıran digər sualları da cavablandırmışdır.

DAŞKƏNDDƏ AZƏRBAYCAN MİLLİ SƏRGİSİ YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL OLUNMUŞDUR

Noyabrın 6-da Azərbaycanın iqtisadi inkişaf naziri Şahin Mustafayev Daşkənddə keçirilən Azərbaycanın Milli Sərgisi çərçivəsində Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr, investisiya və ticarət naziri Elyer Qəniyevlə görüşmüşdür.

Elyer Qəniyev bildirmişdir ki, biz hələ də Azərbaycan Milli Sərgisinin təsiri altındayıq. Hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Həm məhsulların çeşidi, həm mədəni proqram, müğənnilərin canlı ifası buraya gələnlərdə xoş ovqat yaradırdı.

Baş nazirin müavini demişdir: "Mən bir daha bildirirəm ki, Daşkənddə belə möhtəşəm

bir sərginin keçirilməsi Özbəkistanın dövlət başçısı İslam Kərimov və Azərbaycan Prezidenti İlham Əliyevin çox müdrik qərarları idi. Biz qısa müddətdə bunu reallaşdıra bildik. Elə bilirəm ki, bu sərginin və dekabrın əvvəllərində Bakıda Özbəkistan Milli Sərgisinin keçirilməsi ölkələrimiz arasında əlaqələrin inkişafına yeni təkan verəcəkdir".

Şahin Mustafayev demişdir ki, sentyabrın sonunda Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda səfərdə olarkən Prezident İslam Kərimovla qarşılıqlı olaraq Daşkənddə və Bakıda belə sərgilərin keçirilməsi haqqında qərar qəbul etdikdən sonra, dövlət başçılarının tapşırığı ilə hər iki tərəf ən qısa müddətdə bu sərgini təşkil etməyə nail oldu. Yaxın qardaşlıq köməyinə görə minnətdarlığımızı bildiririk. Biz də o fikirdəyik ki, bu sərgi və Bakıda keçiriləcək Özbəkistan Milli Sərgisi ölkələrimizi daha da yaxınlaşdıracaqdır. İqtisadiyyatın bütün sahələrində əməkdaşlıq etmək üçün ölkələrimizin böyük imkanları vardır və əlbəttə, bundan səmərəli istifadə olunacaqdır. Buna hər iki ölkədə maraq vardır. Nazir demişdir ki, bizim köklərimiz, tariximiz, dilimiz, dinimiz, mədəniyyətimiz birdir və bir-birimizi anlamaq üçün bizə tərcüməçi lazım deyildir.

Sonra Ş.Mustafayev Azərbaycanın sosial-iqtisadi inkişafı haqqında geniş məlumat vermiş, müəssisələr arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində bir sıra sənədlər imzalanmışdır.

"KASPİ" TƏHSİL MƏRKƏZİ BAKIDA 3-CÜ BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ KEÇİRMİŞDİR

Noyabrın 6-da "Kaspi" Təhsil Mərkəzi Bakıda növbəti, 3-cü Beynəlxalq təhsil sərgisi keçirmişdir.

Gənclərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edən "Kaspi" Təhsil Şurasının sədri Sona Vəliyeva tədbiri açaraq beynəlxalq sərginin əhəmiyyətindən danışmışdır.

"Kaspi" Təhsil Mərkəzinin 100-dən artıq xarici təhsil müəssisəsi ilə əməkdaşlıq etdiyini xatırladan S.Vəliyeva bildirmişdir ki, azərbaycanlı gənclərə təhsildə dəstək vermək məqsədilə keçirilən bu sərgidə onlar Avropanın və Amerikanın 10 təhsil müəssisəsi barədə məlumat əldə edəcəklər.

Bundan əvvəl keçirilmiş sərgilərdə təmsil olunmuş xarici təhsil müəssisələrində 100-dək azərbaycanlı gəncin bakalavr və magistr pillələri üzrə təhsil almağa göndərildiyini qeyd edən S.Vəliyeva "Kaspi" Təhsil Mərkəzinin həmin gənclərə dəstək verdiyini söyləmişdir. O xatırlatmışdır ki, bu ilin oktyabrında ABŞ-ın 4 nüfuzlu universiteti ilə birgə keçirilmiş təhsil sərgisi də azərbaycanlı gənclərin həmin ölkədə təhsil almalarına şərait yaratmışdır.

Müasir dünyada təhsilin mühüm rolunu vurğulayan "Kaspi" Təhsil Şurasının sədri Sona Vəliyeva 3-cü Beynəlxalq təhsil sərgisinin də uğurlu nəticələr verəcəyinə əminliyini bildirmiş, gənclərə uğurlar arzulamışdır.

Sonra iştirakçılar sərgi ilə tanış olmuşlar.

Sərgidə INTO, CEG (Cambridge Education Group), Şeffild Universiteti, Şərqi İngiltərə Universiteti, Şimali Kiprdəki Yaxın Şərq Universiteti, Lankaster Universiteti, London

Şəhər Universiteti və digər nüfuzlu xarici təhsil müəssisələri barədə soraq kitabları, bukletlər və s. nümayiş etdirilmiş, ekspertlər tərəfindən qəbul şərtləri, təhsil proqramları barədə məlumat verilmişdir.

Bildirilmişdir ki, "Kaspi" Təhsil Mərkəzi 2007-ci ilin mayında təhsil sahəsinə yeniliklər gətirmək və beynəlxalq standartlara cavab verən təhsil sistemi yaratmaq məqsədi ilə qurulmuşdur. Mərkəzin əsas vəzifəsi gənclərdə maarifçi təfəkkürün inkişaf etdirilməsi, gələcək kadrların yetişdirilməsidir. "Kaspi" Təhsil Mərkəzi savadlı müəllim kollektivi, münbit dərs şəraiti, zəngin avadanlığa malik sinif otaqları ilə təmin olunmuşdur. Mərkəzdə dərslərin keyfiyyətinin artırılması məqsədilə xüsusi laboratoriyalar və kabinetlər abituriyentlərin istifadəsindədir. Bundan əlavə, mərkəzin minlərlə kitaba, DVD və CD-lərə malik zəngin kitabxana və oxu zalı da vardır. Mərkəzdə mütəmadi olaraq hər rüb sınaq imtahanları və hər ay valideyn iclası keçirilir.

Mərkəz daim inkişafdadır və uğurları ildən-ilə artır. 2008/2009-cu tədris ilində mərkəzdə təhsil alan abituriyentlərin 84 faizi ali məktəblərə daxil olmuş, 20 nəfər isə xaricdə təhsil almağa göndərilmişdir. 2009/2010-cu tədris ilində isə mərkəzin abituriyentlərinin 94 faizi tələbə adını qazanmışdır. Qəbul olanların 10 faizi 600-700, 40 faizi isə 500-550 bal toplamışlar. Bu il mərkəzin xarici dil kursunu bitirmiş 32 nəfər Avropanın nüfuzlu ali məktəblərinə göndərilmişdir.

2009/2010-cu tədris ilində "Kaspi" Təhsil Mərkəzi Azərbaycanda ilk dəfə olaraq "Abituriyent" adlı təqaüdlər təsis etmişdir. Bu layihənin məqsədi istedadlı tələbələrin üzə çıxarılması və onların təhsilə olan marağının artırılmasıdır. "Kaspi" təqaüdçüləri mərkəzin ikimərhələli qəbul və sınaq imtahanlarının nəticələrinə əsasən təyin olunurlar. Mərkəzi bitirən gənclərin əksəriyyəti ABŞ, Böyük Britaniya, İsveçrə, Rusiya və s. ölkələrin nüfuzlu universitetlərində təhsil alırlar.

Hazırda "Kaspi" Təhsil Mərkəzində xarici dillər, kompyuter kursları, 7-12 yaş arasında uşaqlar üçün xüsusi ingilis dili, TOEFL və DAAD proqramları, magistraturaya hazırlıq kursları fəaliyyət göstərir.

Diqqətə çatdırılmışdır ki, mərkəzdə yeni layihələr hazırlanır. Həmin layihələrin icrasına gələn ildən başlanılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedev Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etmək üçün MDB-dən 352 nəfərdən ibarət müşahidəçilər missiyasının ölkəmizə gəldiyini vurğulayaraq missiya üzvlərinin Azərbaycanın müxtəlif regionlarında üç mindən artıq məntəqədə seçkiyə hazırlıq məsələləri və seçki prosesinin gedişi ilə yaxından tanış olduqlarını bildirdi. Sergey Lebedev MDB müşahidəçilər missiyasının üzvlərinin Azərbaycanın şəhər və rayonlarının simasının necə dəyişdiyini və yerlərdə insanların yüksək əhval-ruhiyyədə olmalarını müşahidə etdiklərini qeyd etdi.

Dövlətimizin başçısı MDB dövlətlərindən olan müşahidəçilər missiyasının üzvlərinin həm seçkilərə hazırlıq prosesini, həm seçkilərin gedişini müşahidə etmələrindən, həmçinin onların Azərbaycanın regionlarında gedən inkişaf prosesləri ilə yaxından tanış olmalarından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev seçki prosesinin daha da təkmilləşdirilməsi, hər bir namizəd üçün bərabər şəraitin yaradılması və seçkilərin şəffaflığının təmin edilməsi ilə bağlı ölkəmizdə bütün lazımi addımların atıldığını bildirdi.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN PRESS-RELİZİ

2010-cu il noyabrın 7-də Azərbaycanda keçirilən parlament seçkiləri ilə əlaqədar ABŞ Dövlət Departamenti noyabrın 8-də açıqlama ilə çıxış etmişdir. Bu açıqlama Azərbaycanda təəccüb və təəssüf hissi ilə qarşılanmışdır. Belə ki, bu və ya digər ölkədə keçirilən seçkilərə qiymət verərkən Dövlət Departamentinin açıqlaması bir qayda olaraq həmin seçkilərə nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən verilən qiymətlərdən köklü surətdə fərqlənmir.

Dövlət Departamenti bəyan edir ki, Azərbaycanda noyabrın 7-də keçirilən "Parlament seçkiləri beynəlxalq standartlara uyğun keçirilməyib". Həmin açıqlamada ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Avropa Şurasının Parlament Assambleyasının, ATƏT-in Parlament Assambleyasının, Avropa Parlamentinin seçkiləri müşahidə missiyalarının gəldikləri nəticəyə istinad olunur. Lakin istinad olunan sənəddə Dövlət Departamentinin verdiyi nəticəyə oxşar qiymətləndirmə yoxdur.

Beynəlxalq təşkilatların yaydığı sənəddə bəzi nöqsanlarla bərabər vurğulanır ki, seçkilər dinc və debat şəraitində keçirilmiş, bütün müxalifət partiyalarının iştirakı ilə səciyyələnmiş və müşahidə missiyaları məntəqələrin 90 faizində səsvermə prosesini müsbət qiymətləndirmişlər. Bu da onu göstərir ki, seçkilər bütövlükdə əhalinin etimadını qazanmışdır.

Bununla yanaşı Azərbaycan Hökuməti qeyd etməyi özünə borc bilir ki, demokratik, ədalətli və şəffaf seçkilərin keçirilməsi dövlətin əsas hədəfidir və bu istiqamətdə görülmüş müsbət işləri təqdir etməklə bərabər, seçki prosesində müşahidə olunan bəzi nöqsanları Mərkəzi Seçki Komissiyası və müvafiq dövlət qurumları ciddi araşdıraraq, lazımi ölçü götürəcəkdir.

Bakı, 9 noyabr 2010-cu il.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 8-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları bürosunun direktoru Janes Lenarcic ilə görüşmüşdür.

Görüşdə noyabrın 7-də Azərbaycanda Milli Məclisə keçirilmiş seçkilər barədə söhbət olmuşdur. Nazir E.Məmmədyarov ATƏT-in Parlament Assambleyası, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları bürosunun noyabrın 8-də seçkilərin yekunlarına həsr edilmiş birgə bə-

yanatında bir sıra ziddiyyətli fikirlərin olduğunu J.Lenarcicin diqqətinə çatdırmışdır.

Sonra tərəflər Astanada keçiriləcək ATƏT-in zirvə sammiti və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN TİCARƏT NAZİRİ ŞƏFAƏDDİN MƏHƏMMƏD ƏL-SAFININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla İraq arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq etdiyini, bir-birinə daim qarşılıqlı dəstək verdiyini qeyd edən Prezident İlham Əliyev bu dəstəyin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi. İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı bu sahədə əlaqələrimizi inkişaf etdirmək üçün geniş imkanların olduğunu dedi və bu imkanlardan səmərəli istifadə etməyin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev iqtisadi sahədə əlaqələrimizin irəli aparılmasında qonağın ölkəmizə səfərinin mühüm rol oynayacağını dedi. Dövlətimizin başçısı İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin ölkəmizdə keçirəcəyi çoxsaylı görüşlər barədə məlumatlı olduğunu bildirərək, bu görüşlərin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.

İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safi İraq Prezidenti Cəlal Talabaninin və İraqın Baş naziri Nuri Əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevi Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər münasibətilə təbrik etdi. İraqın ticarət naziri Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın inkişafına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı İraq Prezidenti Cəlal Talabaninin və Baş nazir Nuri Əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraq Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

BAŞ NAZİR İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 10-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini bildirən Baş nazir Artur Rasizadə İraqın yüksək potensiala malik olduğunu və Azərbaycanın bu potensialın reallaşdırılmasında İraqa hər zaman dəstək verməyə hazır olduğunu bildirmişdir.

A.Rasizadə Azərbaycan və İraq arasında əməkdaşlıq haqqında imzalanan sənədi gələcəkdəki birgə uğurlarımızın təməli adlandırmışdır. İqtisadi sahədə əməkdaşlıq üçün ge-

niş imkanların olduğunu deyən Baş nazir Artur Rasizadə bu imkanlardan səmərəli istifadə etməyin zəruriliyini vurğulamışdır.

İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safi xoş sözlər üçün A.Rasizadəyə minnətdarlığını bildirmiş, İraqın Baş naziri Nuri Əl-Malikinin salamlarını yetirmişdir.

İraqın ticarət naziri Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın genişlənəcəyinə ümidvar olduğunu bildirmişdir. Qonaq Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə təşkil olduğunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ İRAQ ARASINDA BİRGƏ ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏD İMZALANMIŞDIR

Noyabrın 10-da Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazirin müavini Abid Şərifov Azərbaycan ilə İraq arasındakı tarixi, mədəni əlaqələrin dərin köklərə malik olduğunu diqqətə çatdırmışdır. Bakıda İraq konsulluğunun sovet dövründən fəaliyyət göstərdiyini bildirən A.Şərifov bir çox İraq vətəndaşının Azərbaycanın ali məktəblərini bitirdiyini vurğulamışdır.

İqtisadi münasibətlərə toxunan Baş nazirin müavini Azərbaycan ilə İraq arasında ticarət dövriyyəsinin hazırda 50-60 milyon dollar təşkil etdiyini və bu rəqəmin ölkələrimizin potensialını əks etdirmədiyini demişdir. Bildirmişdir ki, iqtisadi əlaqələrin genişləndirilməsi vacibdir və əməkdaşlıq haqqında imzalanacaq sənəd bu əməkdaşlığın möhkəmlənməsi üçün təməl olacaqdır. A.Şərifov yeni iş imkanlarının yaradılması üçün müvafiq işçi qrupunun yaradılmasının da məqsədəuyğun olacağını demişdir.

İraqın ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safi Azərbaycana səfərindən məmnunluğunu ifadə etmiş, ölkəmizin nailiyyətlərinə sevindiyini demişdir.

Qonaq İraqın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir. Bu səfərin əməkdaşlıq istiqamətində yeni yollar açacağını bildirən nümayəndə heyətinin başçısı İraqda sabitliyin bərqərar olunmasından sonrakı dövrdə dost ölkələrin, o cümlədən Azərbaycanın dəstəyinə ehtiyac olduğunu demişdir.

Şəfaəddin Məhəmməd Əl-Safi belə səfərlərdən sonra əməkdaşlığın müxtəlif sahələr üzrə daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir.

Sonra "Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Sənədi Azərbaycan tərəfdən ölkənin Baş nazirinin müavini Abid Şərifov, İraq tərəfdən isə ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safi imzalamışdır.

MÜDAFİƏ NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏ NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏLAQƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Noyabrın 11-də Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev NATO-nun Brunssumdakı Birləşmiş Qüvvələr Komandanlığının qərargah rəisi, general-polkovnik Jouk Lambertus Nerman ilə görüşmüşdür.

Görüşdə NATO ilə Azərbaycan arasında əlaqələr və Cənubi Qafqazda geosiyasi vəziyyət müzakirə olunmuşdur.

MİLLİ MƏCLİSİN SƏDRİ İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan İraqın ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 11-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

Nümayəndə heyətini Azərbaycanda görməkdən məmnunluq ifadə edən Oqtay Əsədov ölkələrimiz arasında əlaqələrin qədim tarixinin olduğunu bildirmişdir. O demişdir ki, xalqlarımız arasındakı yüksək mədəni və tarixi əlaqələr münasibətlərimizin hərtərəfli inkişafına öz töhfəsini verir. Bu gün Azərbaycan ilə İraq arasında siyasi münasibətlər yüksək səviyyədədir.

Milli Məclisin sədri demişdir ki, ölkəmiz beynəlxalq antiterror koalisiyasının üzvüdür və Azərbaycanın sülhməramlı qüvvələri İraqda xidmət etmişdir.

Oqtay Əsədov vurğulamışdır ki, İraqda bəzi terrorçu qüvvələrin törətdiyi terror aktları, bunun nəticəsində dinc vətəndaşların həlak olması Azərbaycan xalqını kədərləndirir. Terrorun acı nəticələrindən Azərbaycan xalqı yaxşı xəbərdardır. Ermənistan tərəfindən əraziləri işğala məruz qalan Azərbaycan xalqına qarşı ermənilər müxtəlif terror aktları törətmiş, soyqırımı həyata keçirmişlər.

Milli Məclisin sədri İraqda qanlı terror aktlarına tezliklə son qoyulacağına, bu ölkədə sabitliyin bərqərar olacağına əminliyini bildirmişdir.

Oqtay Əsədov Azərbaycan ilə İraq arasında ticarət əlaqələrinin mövcudluğuna diqqət çəkmiş və demişdir ki, ölkələrimizin ticarət dövriyyəsinin həcmi 47 milyon ABŞ dolları təşkil edir, amma bu mövcud potensialı əks etdirmir. Ümid edirik ki, ölkəmizə səfəriniz çərçivəsində imzalanan yeni sənədlər bu sahədə münasibətlərin daha intensiv xarakter almasına xidmət edəcəkdir.

İki ölkə arasında mədəni əlaqələrə toxunan O.Əsədov 2008-ci ildə İraq hökumətinin dəstəyi ilə Kərbəla şəhərində böyük Azərbaycan ədibi Məhəmməd Füzuli festivalının keçirildiyini xüsusi qeyd etmişdir.

Qarşılıqlı münasibətlərin inkişafında parlamentlərin də mühüm rol oynadığını vurğulayan O.Əsədov demişdir ki, noyabrın 7-də ölkəmizdə növbəti parlament seçkiləri keçirilmişdir. Parlamentin budəfəki tərkibində yenə də İraq dostluq qrupu fəaliyyət göstərəcəkdir.

Səmimi görüş üçün təşəkkürünü bildirən İraqın ticarət naziri yüksək səviyyədə keçirilən parlament seçkiləri və burada Yeni Azərbaycan Partiyasının təmsilçilərinin qazandı-

ğı qələbəyə görə təbriklərini çatdırmışdır. O, Azərbaycan sülhməramlı qüvvələrinin İraqda xidmət göstərməsini yüksək qiymətləndirdiklərini vurğulamış, bunu dost, qardaş Azərbaycan xalqının İraq xalqına dəstəyinin bariz nümunəsi kimi qiymətləndirmişdir.

Şəfaəddin Məhəmməd Əl-Safi ölkələrimiz arasında digər sahələrdə də əlaqələrin intensiv inkişaf etdiyini söyləmişdir.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

BAŞ NAZİRİN MÜAVİNİ KÜVEYTİN QADIN MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan ilə Küveyt arasında bugünkü əlaqələr bütün İslam dünyası ölkələri üçün gözəl nümunədir. Bu fikir noyabrın 11-də Baş nazirin müavini Elçin Əfəndiyevin Küveytin Qadın Məsələləri üzrə Dövlət Komitəsinin sədri Şeyxə Lətifə Əl-Fəhəd Əl-Savah ilə görüşündə səslənmişdir.

Görüşdə E.Əfəndiyev Azərbaycan ilə Küveyt arasında əlaqələrin möhkəmliyini diqqətə çatdıraraq, iki ölkənin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini söyləmişdir. O, beş il əvvəl Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradıldığını söyləyərək, bu sahədə Küveyt ilə qarşılıqlı əməkdaşlığın böyük fayda verə biləcəyini demişdir. Ümumiyyətlə, ölkədə ailə, qadın və uşaq problemlərinin həlli dövlətin diqqət və qayğısı ilə əhatə olunmuşdur.

Məlumat verilmişdir ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Ölkədə olan 1 milyondan artıq qaçqın və məcburi köçkünün əksəriyyətini isə məhz uşaqlar və qadınlar təşkil edirlər. Bu baxımdan ailə, qadın və uşaqlarla bağlı problemlərin həlli Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biridir.

Küveytin Qadın Məsələləri üzrə Dövlət Komitəsinin sədri Şeyxə Lətifə Əl-Fəhəd Əl-Savah ölkələrimiz arasında əlaqələrin getdikcə daha da möhkəmləndiyini söyləmişdir. O, səfəri çərçivəsində Azərbaycan ilə Küveyt arasında qadın problemlərinin həlli sahəsində sıx əlaqələrin yaranacağına əminliyini bildirmişdir.

Qonaq işğal altında olan Azərbaycan torpaqlarının tezliklə geri qaytarılacağına ümid etdiyini söyləmişdir. Bu məsələnin həllində İslam ölkələrinin həmrəyliyinin vacibliyi vurğulanmışdır. Komitənin sədri Azərbaycan ilə Küveyt arasında bugünkü əlaqələri bütün İslam dünyası ölkələri üçün gözəl nümunə adlandırmışdır.

XARİCİ İŞLƏR NAZİRİ İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 11-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov İraqın ticarət naziri Səfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir E.Məmmədyarov bu səfərin Azərbaycan ilə İraq arasındakı əlaqələri daha da genişləndirəcəyini bildirmişdir. Azərbaycanın İraqla yalnız neft sektorunda deyil, eyni zamanda qeyri-neft sektorunda da əməkdaşlığın genişləndirilməsində maraqlı olduğu qeyd edilmişdir.

İraqlı nazir Azərbaycanda keçirdiyi görüşlərdən məmnun qaldığını diqqətə çatdırmış-

dır. Qonaq Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsində ölkəsinin hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bildirmiş və iqtisadiyyat, ticarət, elm və digər sahələrdə əməkdaşlıqla bağlı imzalanmış müqavilənin ölkələrimiz arasındakı əlaqələrin inkişafına təkan verəcəyinə inandığını vurğulamışdır. Eyni zamanda, iki ölkənin iş adamları arasında İşçi Şuranın yaradılmasının da İraqla Azərbaycan arasındakı ticarət əlaqələrinin genişləndirilməsinə kömək göstərəcəyi qeyd olunmuşdur. Nazir Əl-Safi gənc iraqlı diplomatların Azərbaycan Diplomatik Akademiyasının təşkil etdiyi təlim kurslarında iştirak etmələrini və bununla ölkəmizi daha yaxından tanımaq imkanı qazanmalarını arzuladığını bildirmişdir. Bu kimi planların gələcəkdə Azərbaycanın İraqda səfirliyinin açılması ilə həyata keçiriləcəyinə ümid etdiyini söyləmişdir.

Nazir E.Məmmədyarov qeyd edilən məsələlərdə Xarici İşlər Nazirliyinin dəstəyini əsirgəməyəcəyini vurğulamışdır. Azərbaycan Respublikasının İraqda səfirliyinin açılması ilə bağlı Milli Məclisin qərar qəbul etdiyi qonağın diqqətinə çatdırılmışdır. Nazir səfirliyin yaxın zamanlarda açılacağına ümidvar olduğunu bildirmişdir.

Sonra tərəflər bir sıra ikitərəfli, regional və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA KÜVEYTİN QADIN MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 12-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Küveytin Qadın Məsələləri üzrə Dövlət Komitəsinin sədri Şeyxə Lətifə Əl-Fəhəd Əl-Savah ilə görüşmüşdür.

Görüşdə Küveytin Qadın Məsələləri üzrə Dövlət Komitəsinin sədri Şeyxə Lətifə Əl-Fəhəd Əl-Savah Azərbaycanda səfərdə olmasından məmnunluğunu bildirdi. Qonaq Azərbaycanın gözəl ölkə olduğunu vurğulayaraq, xalqımızın qonaqpərvərliyini xüsusi qeyd etdi.

Mehriban Əliyeva Şeyxə Lətifə Əl-Fəhəd Əl-Savahı Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi. Qonağın ölkəmizə ilk dəfədir ki, səfər etdiyini qeyd edən Mehriban xanım Əliyeva Küveytin Qadın Məsələləri üzrə Dövlət Komitəsinin sədrinin Azərbaycan və xalqımız barədə dediyi xoş sözlərə görə təşəkkür etdi.

AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMLƏRİ SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyada səfərdədir.

Səfər çərçivəsində nazir italiyalı həmkarı Ferruçio Fazio ilə görüşmüşdür. Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktoru, Prezident yanında Xüsusi Tibb Xidmətinin rəisi, akademik Cəmil Əliyevin də iştirak etdiyi görüşdə səhiyyə və tibb elmləri sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmləri sahəsində anlaşma memorandumu imzalanmışdır.

Noyabrın 12-də Oqtay Şirəliyev İtaliyanın onkologiya sahəsində aparıcı mərkəzi olan Regina Elena İnstitutunun fəaliyyəti ilə tanış olmuşdur.

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad noyabrın 17-də Azərbaycana rəsmi səfərə gəlmişdir.

Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidentini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Milli geyimli uşaqlar İran Prezidentinə gül dəstələri təqdim etdilər.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Mahmud Əhmədinejad və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycan Respublikasında rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad noyabrın 17-də Şəhidlər xiyabanını ziyarət etmişdir.

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidenti Mahmud Əhmədinejad və nümayəndə heyətinin üzvləri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət etdilər.

İran Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İranın və Azərbaycanın dövlət himnləri səsləndi.

Ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri haqqında məlumat verildi.

Prezident Mahmud Əhmədinejad Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Mahmud Əhmədinejad noyabrın 17-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə gül dəstəsi qoyulmuşdur.

RƏSMİ QARŞILANMA MƏRASİMİ

Noyabrın 17-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın rəsmi qarşılanma mərasimi olmuşdur.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Mahmud Əhmədinejadı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.

İranın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İran Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Mahmud Əhmədinejada, İran nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunularaq, İran Prezidentinin Azərbaycana rəsmi səfərinin də ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyi bildirildi.

Prezidentlər ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliklərini vurğuladılar.

GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR

Noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.

Qonaqları səmimi salamlayan Prezident İlham ƏLİYEV mübarək Qurban bayramı münasibətilə Prezident Mahmud Əhmədinejadı və İran xalqını təbrik edərək dedi:

- Bu bayram günlərində Azərbaycana səfəriniz xüsusi məna daşıyır. Bu, bir daha onu göstərir ki, Azərbaycan Sizin doğma eviniz, doğma vətəninizdir. Mən çox şadam ki, biz bu gün Sizinlə çox geniş fikir mübadiləsi apardıq, gündəliyimizin, demək olar ki, bütün məsələlərini əhatə etdik. Bir daha gördük və əmin olduq ki, İran ilə Azərbaycan arasındakı münasibətlər dostluq, qardaşlıq zəminində sürətlə inkişaf edir. Biz bütün sahələrdə yaxşı nəticələri görürük, siyasi əlaqələrimiz güclənir. İqtisadi, enerji, nəqliyyat sahələrində işlər yaxşı gedir. Yəni, bizim üçün vacib olan bütün sahələr diqqət mərkəzindədir.

Prezident İlham Əliyev İran Prezidentinin Azərbaycana rəsmi səfərinin yaxşı nəticələri olacağını vurğulayaraq bildirdi:

- Səfəriniz ikitərəfli əlaqələrə yeni güclü təkan verəcəkdir. Həmişə olduğu kimi, bundan sonra da İran ilə Azərbaycan arasında münasibətlər sürətlə inkişaf edəcək və iki qardaş xalqa uğurlar, xoşbəxtlik gətirəcəkdir.

Mübarək Qurban bayramı münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edən İran Prezidenti Mahmud ƏHMƏDİNEJAD belə xoş bir gündə Azərbaycana səfər etdiyindən məmnunluğunu ifadə edərək dedi:

- Aramızdakı münasibətlər qardaşlıq münasibətləridir. Öz evimizdə, qardaşlarımızın yanındayıq. Əminəm ki, İrana səfəriniz zamanı Siz də həmin hissləri keçirirsiniz. Biz iki dost və iki qardaş ölkəyik. Necə ki, Siz qeyd etdiniz, münasibətlərimiz çox səmimi münasibətlərdir. Əlaqələrimizin inkişafına heç bir maneə yoxdur. Çox səmərəli danışıqlar keçirdik, bütün müştərək mövzular barədə müzakirələr apardıq.

İran Prezidenti ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğulayaraq bildirdi:

- İkitərəfli əlaqələr mövzusu müştərəkdir. Regional və beynəlxalq münasibətlərdə də müştərəkik. İran xalqını müdafiə etdiyiniz şücaətli mövqeyinizə görə təşəkkür edirəm. Biz həmişə bir-birimizin yanındayıq və beynəlxalq təşkilatlarda, dünya birliyində bir-birimizin hüququnu qətiyyətlə müdafiə edəcəyik.

AZƏRBAYCAN İLƏ İRAN ARASINDA ENERJİ VƏ NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Noyabrın 17-də geniş tərkibdə danışıqlardan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın iştirakı ilə Azərbaycanla İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanma mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan tərəfdən xarici işlər naziri Elmar Məmmədyarov və İran tərəfdən xarici işlər naziri Mənuçehr Mottəki imzaladılar.

İRANDA İSTEHSAL OLUNAN AVADANLIQLA TANIŞLIQ

Noyabrın 17-də Azərbaycan ilə İran arasında enerji və nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasından sonra Prezident Mahmud Əhmədinejad İranda istehsal olunan sutəmizləyici qurğunu, cərəyan tuneli mikroskopunu və uşaqların eşitmə qabiliyyətini müəyyənləşdirən cihazı Prezident İlham Əliyevə təqdim etdi.

İran Prezidenti dedi ki, sutəmizləyici qurğu, cərəyan tuneli mikroskopu və uşaqların eşitmə qabiliyyətini müəyyənləşdirən cihaz İranda geniş tətbiq edilir.

Prezident Mahmud Əhmədinejad nümayiş etdirilən avadanlığın texniki-iqtisadi göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi. O bildirdi ki, bu avadanlıq Mərkəzi Asiya, ərəb, Afrika və Latın Amerikası ölkələrinə də ixrac edilir.

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad mətbuata bəyanatlarla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, mən Sizi ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Mən çox şadam ki, Siz Azərbaycana gözəl bayram günlərində səfər edirsiniz! Bu fürsətdən istifadə edərək Sizi və bütün qardaş İran xalqını, bütün dünya müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Səfərin çox gözəl nəticələri vardır. Biz bu gün Sizinlə həm təkbətək görüşdə, həm geniş tərkibdə görüşdə ikitərəfli əlaqələrimizin müxtəlif sahələrini geniş müzakirə etdik. Bir daha mövqeyimizi ifadə etdik ki, ikitərəfli münasibətlərin bundan sonra da inkişafı uğurla davam etməlidir. Biz bütün sahələrdə uğurlu əməkdaşlığımızın dərinləşməsi üçün səylərimizi qoymağa çalışırıq və buna nail oluruq.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Aramızda çox güclü siyasi dialoq aparılır. Biz Sizinlə mütəmadi qaydada həm İranda, həm Azərbaycanda, həm də başqa ölkələrdə görüşür, fikir mübadiləsi aparırıq. Xarici işlər nazirləri, digər nazirlər vaxtaşırı görüşürlər. Yəni, siyasi əlaqələrimizin inkişafı bütün başqa sahələrdə inkişafa səbəb olur və beləliklə, əlaqələrimiz daha da güclənir.

Beynəlxalq təşkilatlarda əməkdaşlığımızın çox böyük əhəmiyyəti vardır. Biz BMT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatında bütün dövrlərdə çox uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Bu dəstək gündən-günə güclənir. Bu gün

biz bununla bərabər iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün əlavə tədbirlərin görülməsi haqqında fikir mübadiləsi apardıq. Fikrimiz ondan ibarətdir ki, iqtisadi əlaqələrimizi daha da sürətlə inkişaf etdirməliyik. Bugünkü ticarət dövriyyəsinin səviyyəsi nə İran tərəfini, nə də bizi qane edir. Əminik ki, ölkələrimizdə mövcud olan potensial bizə imkan verəcək ki, yaxın zamanlarda ticarət dövriyyəsini bir neçə dəfə artıraq. Biz buna çalışırıq və müvafiq göstərişlər verilmişdir.

Əminəm ki, bu gün enerji və nəqliyyat sahəsində imzalanmış Anlaşma Memorandumunun icrası nəticəsində ticarət dövriyyəmiz də böyük dərəcədə artacaqdır. İmzalanmış memorandum çoxşaxəlidir. Orada bütün məsələlər, vacib, konkret layihələr əksini tapıb. Nəqliyyat sektorunda Şimal-Cənub dəhlizinin yaradılması və bu sahədə əlavə tədbirlərin görülməsi nəzərdə tutulur, birgə elektrik güclərinin yaradılması məsələləri öz əksini tapıb. Elektrik xətlərinin birləşdirilməsi, qaz sahəsində əməkdaşlıq, yəni, bütün enerji və nəqliyyat sektorunu əhatə edən məsələlər Anlaşma Memorandumunda göstərilibdir. Müvafiq tapşırıqlar verilibdir ki, biz tezliklə memorandumun icrasına başlayaq.

Enerji sektorunda əməkdaşlığın artıq gözəl tarixi vardır. Biz gələcəyə baxmalıyıq. Bu gün möhkəm təməl üzərində qurulmuş bu əlaqələr əlbəttə ki, inkişaf etməlidir. Yeni layihələr müzakirə olunur. Ümid edirəm ki, həm İran tərəfində, həm Azərbaycan tərəfində hazırda görülən işlər, qoyulan sərmayə gələcəkdə enerji sahəsində əməkdaşlığın daha da genişlənməsini təmin edəcəkdir.

Münasibətlərimizin çox böyük tarixi vardır. Xalqlarımız dost, qardaş xalqlardır. Əsrlər boyu xalqlarımız bir yerdə olmuşlar, bir yerdə yaşamışlar. Bizi bağlayan bu tarixi və mədəni əlaqələr bugünkü əlaqələrimizin möhkəm təməlidir. Biz münasibətlərimizi bu təməl üzərində qurmuşuq. Azərbaycan müstəqilliyə qovuşandan sonra ikitərəfli münasibətlərimiz çox sürətlə inkişaf etməyə başlamışdır. Münasibətlərimizin bugünkü səviyyəsi, məncə, ən yüksək səviyyədir. Biz bu səviyyənin qaldırılması üçün ardıcıllıqla praktiki addımlar atırıq. Biz qonşuyuq, dostuq, qardaşıq. Biz bu bölgədə vacib rola malikik. Bu gün İran ilə Azərbaycan arasındakı münasibətlər nəinki iki ölkə arasındakı münasibətlər kimi formallaşıbdır, eyni zamanda, münasibətlərimizin bölgədə gedən proseslərə mühüm təsiri vardır. İran-Azərbaycan münasibətləri bölgənin inkişafı üçün önəmli amilə çevrilibdir. Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün münasibətlərimizin xüsusi əhəmiyyəti vardır.

Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri bu gün geniş müzakirə olundu. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin son mərhələsi haqqında cənab Prezidentə məlumat verdim. Bir daha demək istəyirəm ki, Azərbaycan məsələnin tezliklə, beynəlxalq hüquq normaları əsasında həll olunmasının tərəfdarıdır. Bu münaqişə öz həllini Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı, ATƏT və digər beynəlxalq təşkilatların qətnamələri və qərarları əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində tapmalıdır. Bu, yeganə yoldur və Azərbaycan bu məqsədlərə çatmaq üçün səylərini davam etdirəcəkdir.

Bütün dünya artıq çoxdan bilir ki, Azərbaycan torpaqları uzun illərdir Ermənistan tərəfindən işğal edilib. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bu işğal və Ermənistan tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. İşğal edilmiş torpaqlarda

bütün infrastruktur dağıdılıb, bütün binalar yerlə-yeksan edilib. Tarixi abidələrimiz, əcdadlarımızın qəbirləri, müqəddəs yerlərimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıbdır. Bu, böyük ədalətsizlik və qəddarlıqdır.

Mən ümid edirəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün əlbəttə ki, biz daha da güclü olmalıyıq. Bu barədə bu gün fikir mübadiləsi aparılmışdır. Deyə bilərəm ki, bu gün biz bütövlükdə çox geniş fikir mübadiləsi apardıq. Həm regional məsələlər, ikitərəfli münasibətlər, həm də Xəzəryanı ölkələr arasındakı əlaqələr haqqında geniş fikir mübadiləsi aparılmışdır. Bu fikir mübadiləsi çox müsbət olmuşdur.

Mən bir daha, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bir daha demək istəyirəm ki, Sizin səfərinizə Azərbaycanda çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, səfərin çox gözəl və uğurlu nəticələri olacaqdır.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI

- Əziz qardaşım, hörmətli cənab Prezident!

Nazirlər, dövlət rəsmiləri, mətbuat nümayəndələri!

Mübarək Qurban bayramı münasibətilə sizi və dünya müsəlmanlarını bir daha təbrik edirəm. Böyük Allaha minnətdaram ki, ilin əziz günündə imkan yaratdı ki, biz bayramı qardaşlarımızla birgə keçirək. Necə ki, qardaşım hörmətli Prezident qeyd etdi - Azərbaycan və İran xalqları iki qardaş xalqdır. Bu qardaşlıq tarixin, mədəniyyətin, iki millətin dini inanclarının dərinliyindən əmələ gəlmişdir. Bu qardaşlıq birgünlük və keçici deyildir. Bunun dərin kökləri vardır və həmişə də olacaqdır.

Bu gün Azərbaycan-İran münasibətləri çox yaxşıdır. Azərbaycan-İran qardaşlıq əlaqələri bölgənin sabitliyi və təhlükəsizliyi üçün önəmlidir. Bölgədə sülhün qorunub saxlanılmasında, inkişafında iki ölkənin rolu əvəzsiz və böyükdür. Bu gün bizim müştərək baxışlarımız, yanaşmalarımız və müştərək proqramlarımız bölgədə sülhün bərqərar olmasına, bölgənin inkişafına və beynəlxalq aləmdə sabitliyə yönəlmişdir. Necə ki, mənim əziz qardaşım vurğuladı, ölkələrimizin potensialı mövcud əməkdaşlıqdan qat-qat çoxdur. Biz belə qərara gəlmişik ki, ikitərəfli əlaqələri - iqtisadi, investisiya, ticarət, nəqliyyat sahələrində imkan daxilində genişləndirək. Bu, iki millətin, bölgənin və bölgədəki sülhün və təhlükəsizliyin xeyrinədir.

Bölgə və Xəzər barədə baxışlarımız eynidir. Hər ikimiz bu fikirdəyik ki, Xəzər sülh və qardaşlıq dənizidir, hamı Xəzərin sərvətlərindən ədalətli şəkildə bəhrələnməlidir. Azərbaycan və İranın Xəzər dənizində rolu böyük və təyinedicidir. Azərbaycan Respublikasının möhtərəm Prezidentinin rəhbərliyi və təşəbbüsü ilə Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşü keçiriləcəkdir. İnanıram ki, Azərbaycan Prezidentinin bacarığı və digər dövlət başçılarının iştirakı ilə bu sahədə çox yaxşı qərarlar qəbul ediləcək, böyük addımlar atılacaqdır.

Beynəlxalq məsələlərdə baxışlarımız tamamilə müştərəkdir. Biz həmişə və bütün təşkilatlarda bir-birimizin yanında olacaq və bir-birimizi dəstəkləyəcəyik. Biz də Qarabağ məsələsi ilə bağlı bu fikirdəyik ki, bu problem danışıqlar və ədalət əsasında həll olunmalıdır, hamı gərək danışıqlara və ədalətə arxalansın. Biz var qüvvəmizlə bu problemin

danışıqlar, haqq-ədalət və beynəlxalq hüquq çərçivəsində qısa müddətdə həllinə yardımımızı göstərməyə hazırıq. Azərbaycanın təhlükəsizliyi və onun inkişafı İran üçün böyük əhəmiyyət daşıyır. Azərbaycanın inkişafını, təhlükəsizliyini özümüzün inkişaf və təhlükəsizliyi hesab edirik. Bütün beynəlxalq təşkilatlarda və dünya birliyində Azərbaycanın yanında olacağıq. Biz iki qardaş dövlətik. Bu qardaşlıq davam edəcək, zaman keçdikcə güclənəcək və dərinləşəcəkdir.

Bu gün Allahımıza şükür edirik ki, Azərbaycan qardaşım, hörmətli Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf mərhələsini yaşayır. Hər gün biz əziz Azərbaycanın inkişafı barəsində yeni-yeni xəbərlər əldə edirik və buna sevinirik. Düşünürəm ki, inkişaf naminə əməkdaşlığımız davam edəcəkdir. Təcrübəmizi paylaşacaq və hər iki millətin xeyrinə bütün imkanlardan istifadə edəcəyik.

Mənim səfərim evimə, qardaşlarımın yanına olan səfərdir. Biz elə hiss edirik ki, qardaşlarımızın arasındayıq və inanırıq ki, azərbaycanlı qardaşlarımız da İrana səfəri zamanı eyni hissləri keçirirlər. Ümidvarıq ki, bu hisslər hər gün dərinləşəcək və güclənəcəkdir. Biz çox səmərəli və faydalı müzakirələr apardıq. Aramızda heç bir fikir ayrılığı və anlaşılmazlıq yoxdur. Bütün ikitərəfli əlaqələr müstəvisində, eləcə də regional və beynəlxalq məsələlərdə fikirlərimiz üst-üstə düşür. Biz iqtisadi, mədəni məsələlərdən tutmuş siyasi, regional və beynəlxalq əməkdaşlığa dair bütün məsələləri diqqətlə nəzərdən keçirdik. Əməkdaşlığımız, gələcəkdə birgə işlərimiz üçün çox aydın konturlar cızıldı.

Çox səmimi və mehriban qarşılanmaya görə, əziz qardaşıma təşəkkürümü bildirirəm. İnanıram ki, bu səfər zamanı apardığımız danışıqlar və əldə etdiyimiz anlaşmalar həm ikitərəfli əlaqələrdə, həm regional çərçivədə, həm də beynəlxalq miqyasda iki millətin xeyrinə və mənafeyinə, dünyada sülhə və sabitliyə müsbət töhfəsini verəcəkdir.

Bir daha Azərbaycan Respublikasının Prezidentinə təşəkkürümü bildirirəm və onun əməkdaşlığımızın genişlənməsi üçün bütün təşəbbüslərini dəstəkləyirəm. Bir daha bayramınızı təbrik edirəm. Bu bayram Azərbaycan və İran xalqları, bütün dünya müsəlmanları və dünyanın müstəqil xalqları üçün xeyir-bərəkət, sağlamlıq, rifah gətirəcəkdir. Sizə və möhtərəm cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

BAŞ NAZİR İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Mahmud Əhmədinejad noyabrın 17-də Baş nazir Artur Rasizadə ilə görüşmüşdür.

Baş nazir Artur Rasizadə qardaş ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu vurğulamışdır.

İran Prezidenti Mahmud Əhmədinejad Qurban bayramı günlərində qardaş Azərbaycanda olmağından məmnunluğunu bildirmişdir.

Görüşdə İran ilə Azərbaycan arasında əlaqələrin inkişafı istiqamətində fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda rəsmi səfərdə olan İran Prezidenti Mahmud Əhmədinejad noyabrın 17-də xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşdür.

Görüşdə Azərbaycan-İran hökumətlərarası komissiyanın fəaliyyəti geniş müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycan-İran əlaqələri yüksələn xətlə inkişaf edir.

Həmçinin görüşdə ölkələrimiz arasında qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İRAN PREZİDENTİNİN XANIMI ƏZƏM ƏS-SƏADƏT FƏRƏHİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 17-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ölkəmizdə səfərdə olan İran Prezidentinin xanımı Əzəm əs-Səadət Fərəhi ilə görüşmüşdür.

Qonağı salamlayan Mehriban Əliyeva Əzəm əs-Səadət Fərəhini Heydər Əliyev Fondunda görməkdən şad olduğunu bildirdi.

Heydər Əliyev Fondu haqqında məlumat verən Azərbaycanın birinci xanımı dedi ki, 2004-cü ilin may ayında ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan Fondun məqsədi ulu öndərin zəngin irsini öyrənmək və təbliğ etmək, ümummilli liderin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdır. Bununla yanaşı, Fond təhsil, səhiyyə, mədəniyyət, elm sahələri ilə bağlı genişmiqyaslı layihələr də həyata keçirir.

Heydər Əliyev Fondunun prezidenti qonağın diqqətinə çatdırdı ki, Fond uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği işlərində də yaxından iştirak edir.

İran Prezidentinin xanımı Əzəm əs-Səadət Fərəhi Azərbaycana səfərindən məmnun olduğunu söyləyərək, doğma münasibətə və qonaqpərvərliyə görə Mehriban Əliyevaya təşəkkürünü bildirdi.

Qonaq Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə bu görüşün gələcək görüşlərin başlanğıcı olduğunu dedi. İran Prezidentinin xanımı Mehriban Əliyevanı Tehrana dəvət etdi.

Azərbaycanın birinci xanımı dəvətə görə Əzəm əs-Səadət Fərəhiyə minnətdarlığını bildirdi.

Mehriban Əliyeva ölkəmizə səfəri çərçivəsində paytaxtımızla yaxından tanışlığın Əzəm əs-Səadət Fərəhidə xoş təəssürat yaradacağına ümidvar olduğunu söylədi.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD TƏZƏPİR MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR

Noyabrın 18-də İran Prezidenti Mahmud Əhmədinejad Azərbaycana rəsmi səfəri çərçivəsində Təzəpir məscid kompleksində olmuşdur.

Ali qonağı Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşıladı.

Prezident Mahmud Əhmədinejad Təzəpir məscid kompleksi ilə tanış oldu. Məlumat verildi ki, Prezident İlham Əliyevin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanmış, burada onun ilkin görkəminə qaytarılması məqsədi ilə əzəli memarlığına xələl gətirməyən elementlərin əlavə edilməsi əksini tapmışdı. Məscidin bərpasında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq oriyentalistikasının nadir nümunələrindən istifadə olunmuşdur.

Təzəpir məscidinin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Yuxarı hissədə "La İlahə-İlləllah" kəlməsi 6 dəfə təkrar olunmuş günbəzin tən ortasında Qurani-Kərimdən "Nas", dairələrdə "Ayətül-kürsü", kiçik günbəzlərdə isə "Həmd" surələri həkk edilmişdir.

Sonra Prezident Mahmud Əhmədinejad kompleksdə Qafqaz Müsəlmanları İdarəsinin kitabxanası ilə tanış oldu. Kitabxanadakı 6 min nüsxə nadir əlyazması haqqında ali qonağa ətraflı məlumat verildi. Qeyd olundu ki, kitabxananın bir hissəsində dini verilişlərin hazırlanması üçün mini studiya yerləşir.

Prezident Mahmud Əhmədinejad burada nümayiş olunan qədim kitablara baxdı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Ali qonağa xatirə hədiyyələri təqdim olundu.

Sonra İran Prezidenti kompleksin konfrans zalında Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının üzvləri ilə görüşmüşdür.

Şeyxülislam Allahşükür Paşazadə ölkələrimiz arasındakı iqtisadi, siyasi, mədəni əlaqələrdən danışmış və Azərbaycan ilə İran münasibətlərinin yüksək səviyyədə olduğunu diqqətə çatdırmışdır.

İran Prezidenti Mahmud Əhmədinejad Qurban bayramı günlərində qardaş Azərbaycanda olmağından məmnunluğunu bildirmişdir.

İran Prezidenti vurğulamışdır ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri müxtəlif sahələrdə, o cümlədən siyasi və iqtisadi sahədə uğurla davam etdirilir.

Ali qonaq səfər çərçivəsində bir sıra səmərəli görüşlər keçirdiyini diqqətə çatdırmışdır.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdiməhəmmədov Bakıda keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün noyabrın 18-də Azərbaycana səfərə gəlmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan dövlətinin başçısını Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

Hava limanının ali qonaqlar üçün salonunda Prezident Qurbanqulu Berdiməhəmmədov və Baş nazirin birinci müavini Yaqub Eyyubov arasında qısa protokol söhbəti oldu.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Bakıda keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün noyabrın 18-də Azərbaycana səfərə gəlmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidentini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Bakıda keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün noyabrın 18-də Azərbaycana səfərə gəlmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rusiya Prezidentini Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN GÖRÜŞÜ

Noyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşmüşdür.

Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşıladı.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Türkmənistanın dövlət başçısını salamladı, onu Bakıda görməyindən məmnun olduğunu bildirərək dedi:

- Hörmətli cənab Prezident, Sizi salamlamağa şadam. Sizi Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram. Çox şadam ki, Siz bizə gəlmisiniz. Bu gün biz Xəzəryanı ölkələrin dövlət başçılarının görüşünü keçirəcəyik. Bu, ikitərəfli məsələləri bir daha mü-

zakirə etmək, regional problemlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan olacaqdır. Münasibətlərimizin necə inkişaf etməsindən çox razıyıq. Bu münasibətlər dostluğa, qardaşlığa, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, biz gələcəkdə də əməkdaşlığı eyni dərəcədə fəal surətdə inkişaf etdirəcəyik. Bizi xalqlarımızın ortaq soy-kökləri, müştərək tarixi, uzun əsrlər boyu qarşılıqlı əlaqələri bir-birimizə bağlayır. Çox sevindirici haldır ki, indi Türkmənistanın və Azərbaycanın müstəqil inkişaf etdiyi şəraitdə ölkələrimiz böyük uğurlar qazanmışdır. Ölkələrimiz uğurla inkişaf edir, onlar güclü iqtisadiyyata malik olan, özlərini təmin edə bilən ölkələrdir. Ümid edirik ki, biz ikitərəfli xarakter daşıyan məsələlərdə tərəqqi, inkişaf və qarşılıqlı fəaliyyət müşahidə edəcəyik. Sizi bir daha səmimi qəlbdən salamlayıram. Xoş gəlmisiniz.

Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, Türkmənistanın ünvanına söylədiyiniz səmimi sözlərə görə sağ olun. Bizi Xəzəryanı ölkələrin dövlət başçılarının bugünkü sammitində iştirak etmək üçün Sizin gözəl, cavanlaşan Bakı şəhərinə, gözəl ölkənizə dəvət etdiyinizə görə çox minnətdarıq. Biz həmişə deyirik ki, Xəzər sülh və mehriban qonşuluq dənizidir. Siz çox düzgün dediniz ki, mehriban qonşular kimi bizim çox qədim ənənələrimiz vardır, babalarımız, ulu babalarımız bizə çox yaxşı nəsihətlər vermişlər. Yəqin ki, bu gün əsas problem bütün bu mədəniyyəti, tarixi, milli xüsusiyyətləri böyüməkdə olan nəslə verməkdir. Ümumiyyətlə, Sizə həm də ona görə təşəkkürümü bildirmək istərdim ki, siyasi arenada mövqelərimiz eynidir, dünya siyasətində bir-birimizi başa düşürük, bu məsələlərdə qarşılıqlı anlaşma sayəsində beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyət göstəririk.

İkitərəfli münasibətlərimizə gəldikdə isə, ticari-iqtisadi münasibətlərdə, sahəvi məsələlərdə çox yaxşı meyillər vardır və əlbəttə, Sizin xatırlatdığınız kimi, sosial, humanitar məsələlərdə işlərimiz çox yaxşı gedir. Sevindirici haldır ki, ötən il bizdə, Türkmənistanda Azərbaycan Günləri çox yaxşı keçdi. Lap yaxın vaxtlarda isə Azərbaycanda Türkmənistan Günləri keçirilmişdir. Bizim hökumətlərarası komissiya bütün bu işlərə yaxşı təkan verir. Bir həftədən sonra hökumətlərarası komissiyanın növbəti iclası bizdə olacaqdır. Buna görə də düşünürəm ki, əgər hər hansı işçi məsələlər yaransa, komissiya onları artıq öz səviyyəsində həll edəcəkdir. Fürsətdən istifadə edib bütün Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik etmək istərdim. Qurban bayramı bizim üçün, bütün müsəlman xalqları üçün müqəddəs bayramdır. Azərbaycan xalqına ən xoş arzularımı bildirir, ona firavanlıq arzulayıram. Fürsətdən istifadə edib Sizi özünüz üçün münasib bir vaxtda qonaqpərvər Türkmənistana dəvət etmək istərdim. Sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun. Qardaş ölkədə yenidən olmaq dəvətindən məmnuniyyətlə istifadə edərəm. Sizdən də xahiş etmək istəyirəm ki, bütün qardaş Türkmənistan xalqına mənim ən xoş arzularımı - sülh, inkişaf, firavanlıq arzularımı çatdırasınız. Sizi və Sizin şəxsinizdə bütün qardaş Türkmənistan xalqını Qurban bayramı, bizim ümumi bayramımız münasibətilə təbrik edirəm. Bu bayram da xalqlarımızı birləşdirir və mənim üçün çox xoşdur ki, Siz Azərbaycana bu bayram günlərində gəlmisiniz. Bu, bizim aramızda və xalqlarımız arasında münasibətləri nümayiş etdirən yaxşı amildir.

Prezident Qurbanqulu BERDİMƏHƏMMƏDOV: Bu, gələcək üçün yaxşı müjdədir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ

Noyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi qarşıladı.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Qazaxıstanın dövlət başçısını salamlayaraq dedi:

- Hörmətli Nursultan Abışeviç!

Sizi Azərbaycanda salamlamağa çox şadam. Sağ olun ki, dəvətimizi qəbul edib ölkəmizə gəlmisiniz. Bu gün görüşmək üçün yaxşı səbəb vardır. Biz Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammitini keçiririk. Bu fürsətdən istifadə edib Sizinlə görüşməyə və ikitərəfli münasibətlərimizi, regional problemləri bir daha müzakirə etməyə çox şadam.

Münasibətlərimiz çox dinamik, uğurla, müsbət istiqamətdə inkişaf edir. İki qardaş ölkə beynəlxalq təşkilatlarda, regional formatda fəal qarşılıqlı əlaqə saxlayır, regionlarımız arasında iqtisadi əlaqələr inkişaf edir və ümumiyyətlə, böyük sənaye potensialımız vardır. Buna görə də, əlbəttə, iqtisadi gündəmdə olan məsələlərə bir daha nəzər salmağa, harada nəyi əlavə edə biləcəyimizə, hansı sahələrin müştərək layihələrlə hələ tam əhatə edilmədiyinə baxmağa ehtiyac vardır. Potensial həqiqətən çox böyükdür və ən başlıcası bizdə, Azərbaycanda ikitərəfli əlaqələrimizi xalqlarımızı həmişə bir-birinə bağlayan dostluq, mehriban qonşuluq, qardaşlıq ruhunda çox fəal inkişaf etdirmək arzusu güclüdür. Ölkələrimizin artıq müstəqil dövlətlər kimi inkişaf etdiyi dövrdə biz bütün inteqrasiya proseslərinin çox fəal, dinamik inkişafının şahidiyik. Buna görə Sizi bir daha salamlamaq istəyirəm. Xoş gəlmisiniz. Siz bizim əziz qonağımızsınız. Ümid edirəm ki, ölkəmizdə olmağınız, qısamüddətli də olsa faydalı və xoş olacaqdır.

Qazaxıstan Prezidenti Nursultan NAZARBAYEV təşəkkür edərək dedi:

- Sağ olun, İlham Heydər oğlu. Bakıda, Azərbaycanda olmaq mənə həmişə xoşdur. Təəssüf ki, həmişə vaxt azlıq edir və Sizin kimi, biz də ölkəni gəzməyə macal tapmırıq. Mənim keçənilki səfərimdən sonra münasibətlərimiz daha da fəallaşmışdır. Baxıram ki, əmtəə dövriyyəsi xeyli artmışdır. Bu il Qazaxıstan sizə təxminən bir milyon ton buğda göndərmişdir. Bu, əvvəlki illərdəkindən xeyli çoxdur. Bu mürəkkəb təsərrüfat ilində sizə bu qədər buğda lazım oldu. Bütün başqa məsələlər və razılaşmalar barəsində heç bir fikir ayrılığı yoxdur. Sadəcə olaraq, qarşılıqlı iqtisadi münasibətləri fəallaşdırmaq, ölkələrimiz arasında ticarəti, qarşılıqlı mədəni münasibətləri genişləndirmək lazımdır. İstanbul sammitindən sonra Xəzəryanı dövlətlərin başçılarının bu görüşü barədə razılığa gəlməyimiz də, görüşün gündəliyi də, hazırlanmış sənədlər də artıq ona dəlalət edir ki, bu görüş uğurlu olacaqdır. Hərçənd, biz qlobal məsələləri həll etmirik, buna baxmayaraq, Xəzər barədə Sizinlə bizim mövqelərimiz hələ Aşqabad görüşündən, Tehran görüşündən başlayaraq oxşar mövqelərdir. Bu gün qəbul edəcəyimiz sənədlər - ümumi bəyannamə və təhlükəsizliyə dair saziş də güclü inkişafa dəlalət edir. Fikrimcə, Azərbaycan tərəfi bunun üçün çox iş görmüşdür.

Biz dekabrın 1-də və 2-də keçiriləcək ATƏT-in sammitindəki hadisələri gözləyirik. Sizi orada gözləyirik. Bu, bizim gənc paytaxtımızda ilk dəfə keçirilən çox böyük tədbir olacaqdır. Ümumiyyətlə, indi hamımız bu məsələlər üzərində gərgin işləyirik, həyəcanlanırıq. Xəzər barədə mövqeləri təqribən bilirik. Bu barədə ümumi diskussiya mənim fikrimcə bir daha göstərəcəkdir ki, gələcəkdə Xəzərə dair ümumi konvensiya hazırlamaq, mövqelərimizi yaxınlaşdırmaq, bu məsələlərə dair konsensusa nail olmaq lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ

Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə görüşmüşdür.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevi qarşıladı.

Azərbaycan Prezidenti İlham ƏLİYEV Rusiyanın dövlət başçısını salamlayaraq dedi:

- Sizi Azərbaycanda yenidən görməyimə şadam. Sağ olun ki, dəvətimizi qəbul edib bizə gəlmisiniz. Siz Bakıda səfərdə olarkən razılaşmışdıq ki, bu ilin sonuna qədər Xəzəryanı ölkələrin sammitini keçirək. Mən çox şadam ki, biz bu məqsədi təmin etmişik və ümid edirəm ki, bugünkü diskussiyaların nəticələri yaxşı olacaqdır. Münasibətlərimizin gündəliyinə bir daha nəzər salmaq, daha nələr etmək, harada nəyi tamamlamaq lazım olduğunu müəyyənləşdirmək üçün də yaxşı imkan vardır. Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Son üç ayda artıq üçüncü dəfədir ki, görüşürük. Buna görə də əlbəttə, hər şeyi ətraflı müzakirə etməyə imkanımız olmuşdur. Amma hər halda həyat bir yerdə dayanmır, irəliyə doğru hərəkət edir. Buna görə də bu görüş məni çox sevindirir.

İkitərəfli planda işlərimiz yaxşı gedir, qarşılıqlı siyasi əlaqələr yüksək səviyyədədir, iqtisadiyyatda da böhrandan sonrakı dövrün çətinliklərini aradan qaldırırıq. Regional problemlərə gəldikdə isə, mən fürsətdən istifadə edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqlar prosesində fəal iştirakınıza görə bir daha təşəkkürümü bildirmək istərdim. Görüşlərin keçirilməsi barədə Sizin təşəbbüsünüz və şəxsən iştirakınız çox mühüm və müsbət rol oynayır. Ümid edirəm ki, biz bu prosesdə irəliləyişə və bölgəmizdə sülhü, təhlükəsizliyi təmin etməyə nail olacağıq. Bu, yalnız o halda mümkündür ki, münaqişə beynəlxalq hüququn norma və prinsipləri, beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında tənzimlənsin. Bu fikir Mayendorfda imzalanmış birgə bəyannamədə də əks olunmuşdur.

Sizi bir daha salamlamaq və ümid etdiyimi bildirmək istəyirəm ki, ölkələrimiz arasında fəal əlaqələr bundan sonra da davam edəcəkdir.

Rusiya Prezidenti Dmitri MEDVEDEV təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu, yenidən görüşmək imkanına görə mən də çox şadam. Məni Azərbaycana gəlməyə və sammitdə iştirak etməyə dəvət etdiyinizə görə sağ olun. Həqiqətən bu ideya nisbətən yaxın vaxtlarda, mənim Azərbaycana səfərim dövründə yaranmışdır. Yaxşıdır ki, həmkarlarımız buna razılıq vermişlər və bu gün görüşüb Xəzəryanı qarşılıqlı əlaqələr problemini müzakirə edəcəyik.

Bizim ikitərəfli münasibətlərə gəldikdə isə, Siz hər şeyi çox dəqiq ifadə etdiniz və əslində mənim əlavə ediləsi sözüm yoxdur. Əlaqələrimiz çox yaxşı inkişaf edir. Həm ən yüksək səviyyədə, həm hökumətlərimiz, ölkələrimizin ictimai strukturları arasında, biznes birliyi xətti üzrə. Ümumiyyətlə burada, necə deyərlər, heç nə icad etməyə ehtiyac yoxdur - sadəcə olaraq bu münasibətləri müntəzəm inkişaf etdirmək, ola bilsin ki, işgüzar əlaqələri intensivləşdirmək lazımdır. Mən onu nəzərdə tuturam ki, dövlətlərimiz həqiqətən artıq böhranlı şəraitdə inkişaf dövründən çıxmışlar. Eyni zamanda, keçən il baş vermiş hadisələr hər halda ikitərəfli əmtəə dövriyyəsinə təsir göstərir. Mən fikir vermişəm, bizim xəttimiz bir qədər zəifləyib və əlbəttə onun yenidən artması üçün hər şeyi etmək lazımdır.

Başqa məsələlər - təkcə Xəzəryanı deyil, həm də regional məsələlər üzrə qarşılıqlı fəaliyyətə gəldikdə isə əlbəttə, biz regionda təhlükəsizliyin təmin edilməsi üçün bundan sonra da bütün zəruri səylərimizi səfərbər etməyə hazırıq. Rusiya Dağlıq Qarabağ probleminin tənzimlənməsi baxımından Azərbaycan ilə Ermənistan arasında münasibətlərin inkişafı prosesinə bundan sonra da kömək edəcəkdir. Son vaxtlar burada müəyyən addımlar atılmışdır. Mən Sizinlə razıyam ki, bu münaqişənin həlli beynəlxalq hüquq müstəvisindədir və bütün istiqamətlər üzrə müvafiq iş aparılır. Biz bu prosesə indiyə qədər olduğu kimi yenə kömək etməyə hazırıq.

Dəvət üçün bir daha sağ olun.

BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşü keçirilmişdir.

Zirvə Görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Dmitri Medvedev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, İran Prezidenti Mahmud Əhmədinejad və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak etmişlər.

Zirvə Görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Dmitri Medvedev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, İran Prezidenti Mahmud Əhmədinejad və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak etmişlər.

Tədbirin iştirakçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə Görüşünü açaraq nitq söylədi.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli dövlət başçıları!

Hörmətli qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Bugünkü görüş çox əlamətdar hadisədir. Ölkələrimiz arasındakı dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafı üçün bu görüşün çox böyük əhəmiyyəti vardır. Ölkələrimizin xalqları əsrlər boyu bir yerdə yaşamışlar, yaratmışlar. Biz qonşuyuq, bizi dostluq, mehriban qonşuluq əlaqələri bağlayır. Mən çox şadam ki, bu gün bu əlaqələr daha da yüksək pilləyə qalxıbdır. Azərbaycan qonşuları ilə qarşılıqlı surətdə faydalı, işgüzar, dostluq münasibətləri qurubdur və bu münasibətlər getdikcə güclənir. Bugünkü Zirvə Görüşü regional əməkdaşlıq baxımından çox böyük əhəmiyyətə malikdir. Əminəm ki, görüşün çox gözəl nəticələri olacaqdır.

Bizi birləşdirən Xəzər dostluq, əməkdaşlıq dənizidir. Mən əminəm ki, Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti zirvə görüşü Xəzərdə sülhün, təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın dərinləşməsi üçün mühüm addım olacaqdır. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi istiqamətində çox fəal işlər gedir, ekspert qrupları işləyir. Ümid edirəm ki, gələcək dövrlərdə bu istiqamətdə əməli nəticələr əldə olunacaqdır. Bu günə qədər Xəzərin hüquqi statusunun müəyyən edilməməsi aramızda olan dostluq əlaqələrinə heç bir təsir göstərmədi. Münasibətlərimiz çoxşaxəlidir. Əlbəttə, biz çox istərdik ki, Xəzərin hüquqi statusu tezliklə öz həllini tapsın və bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Bununla bərabər, qeyd etməliyəm ki, hazırda Azərbaycan ilə Rusiya və Azərbaycan ilə Qazaxıstan, eyni zamanda, Rusiya ilə Qazaxıstan arasında Xəzərin sektorlara bölünməsi istiqamətində önəmli addımlar atılmışdır. Üç ölkə öz arasında bu məsələləri həll edibdir. Ümid edirəm ki, bu gözəl təcrübə gələcəkdə əsas kimi götürülə və Xəzər dənizinin hüquqi statusunun həll olunması işində hazırda mövcud hüquqi baza müsbət rolunu oynaya bilər.

Nəqliyyat sahəsində əməkdaşlıq dərinləşir. Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərinin iştirakçısıdır. Bununla bərabər, biz ölkəmizdə müasir nəqliyyat infrastrukturu yaradırıq. Bu məqsədlə həm avtomobil yollarının tikilməsi, dəniz nəqliyyatının inkişafı, dəmir yolu nəqliyyatının yenidən qurulması və həm də yeni dəmir yolu xətlərinin çəkilməsi məsələləri prioritet məna daşıyır. Bu yaxınlarda Bakıda yeni böyük ticarət limanının tikintisi başlanmışdır. Bu liman əslində bütün Xəzəryanı ölkələrin maraqlarına xidmət göstərəcəkdir. Birinci mərhələdə liman 10 milyon ton yükdaşıma-yükaşırma qabiliyyətinə malik olacaqdır. Sonuncu mərhələdə isə bu liman vasitəsilə 25 milyon ton yük nəql edilə bilər. Beləliklə, Azərbaycan bu limanı tikməklə ümumi işimizə töhfəsini vermiş olur.

Bununla bərabər, Bakıda yeni, müasir gəmiqayırma zavodunun tikintisi başlanmışdır. Ümid edirəm ki, tikintisi yaxın zamanlarda başa çatacaqdır və beləliklə, Xəzərdə istənilən həcmdə yükdaşıma məsələlərinin həlli üçün yeni, müasir infrastruktur yaradılacaqdır. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb dəhlizinin fəal iştirakçısıyıq və bundan sonra da çalışacağıq ki, nəqliyyat sistemlərinin birləşməsi üçün səylərimizi qoyaq.

Bu gün, eyni zamanda, Xəzərin enerji resursları haqqında çoxlu söz-söhbət gəzir. Xəzərin çox zəngin təbii ehtiyatları vardır. Bütün Xəzəryanı ölkələr enerji resursları baxımından çox zəngin ölkələrdir. Ölkələrimiz nəinki öz tələbatlarını ödəyir, eyni zamanda, dünyanın enerji təhlükəsizliyinə çox önəmli töhfə verirlər. Ölkələrimizdə hasil edilən neft və qaz demək olar ki, dünya enerji bazarında həlledici təsirə malikdir. Biz çalışırıq

ki, səylərimizi birləşdirək. Biz hamımız istehsalçıyıq və istehsalçıların maraqları əlbəttə ki, üst-üstə düşür. Biz enerji resursları sahəsində bir-birimizlə rəqabət aparmırıq, əksinə, uğurlu əməkdaşlıq edirik. Bu əməkdaşlıq ölkələrimizin bütün maraqlarına xidmət göstərir. Azərbaycan enerji resurslarının nəqli ilə bağlı çoxşaxəli fəaliyyət göstərir. Biz enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi verməyə çalışırıq. Azərbaycanın neft-qaz resurslarının dünya bazarlarına müxtəlif yollarla çatdırılması üçün bizdə müasir infrastruktur yaradılmışdır. Bu infrastruktur qonşu ölkələrin maraqlarının təmin edilməsi üçün də təqdim oluna bilər. Yəni, bir sözlə, biz tranzit imkanlarımızı qonşular üçün təqdim etməyə hazırıq.

Bu gün Xəzərin əməkdaşlıq dənizinə çevrilməsi üçün əlbəttə ki, iqtisadi əlaqələrin gücləndirilməsi çox böyük məna daşıyır. Bu sahədə aramızda olan iqtisadi əlaqələr güclənir. Təbii ki, böhran nəticəsində ticarət dövriyyəsi müəyyən dərəcədə aşağı düşübdür. Ancaq bu, müvəqqəti xarakter daşıyır. Əminəm ki, yaxın zamanlarda biz bütün sahələrdə uğurları bərpa edəcəyik.

Biz Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük proqramlar icra edirik. Deyə bilərəm ki, bu il Azərbaycanda "Ekologiya ili" elan edilibdir və çox böyük həcmdə ekoloji tədbirlər nəzərdə tutulur. Xüsusilə Xəzər dənizinin çirkab sulardan və neftlə çirklənmiş hissənin təmizlənməsi, müasir kanalizasiya sisteminin quraşdırılması ümumi işimizə töhfəmizdir. Ekoloji məsələlər həmişə zirvə görüşlərində xüsusi yer tutubdur. Bu gün də əlbəttə ki, biz bu məsələ ilə bağlı fikir mübadiləsi aparacağıq. Bir sözlə, biz Azərbaycanda çalışırıq ki, Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına töhfəmizi verək.

Biz Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün fəal çalışırıq. Bu gün imzalanacaq sənəd məhz bu məsələləri əhatə edəcəkdir. Xəzər sülh, əmin-amanlıq, sabitlik dənizidir və belə də qalmalıdır. Biz dənizdə təhlükəsizlik tədbirlərini öz gücümüz hesabına təmin edirik. Hesab edirəm ki, Xəzəryanı ölkələrin bu sahədəki əməkdaşlığı yüksək qiymətə malikdir. Bizim müvafiq dövlət qurumları bir-biri ilə həm ikitərəfli, həm çoxtərəfli formatda sıx əlaqədə olaraq Xəzərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün səylərini göstərirlər.

Əziz dostlar, mən hesab edirəm ki, ümumiyyətlə Xəzəryanı ölkələrin əməkdaşlığı yüksək qiymətə malikdir. Bir daha demək istəyirəm ki, hamımız dost ölkələrik, bir-birimizlə qonşuyuq, bu bölgədə yaşayırıq. Bizim müştərək tariximiz vardır, xalqlarımız bir-birinə çox bağlıdır. Bizi həm tarix bağlayır, həm də bugünkü maraqlar birləşdirir. Əminəm ki, bugünkü Zirvə Görüşü ölkələrimiz arasında nəinki Xəzər mövzusu ilə bağlı, bütün əlaqələrin inkişafına çox mühüm töhfə olacaqdır. Bir daha sizin hamınızı ürəkdən salamlayıram və zirvə görüşümüzə uğurlar arzulayıram.

* * *

Prezident Mahmud ƏHMƏDİNEJAD yüksək səviyyədə qonaqpərvərliyə görə dövlətimizin başçısı İlham Əliyevə dərin təşəkkürünü bildirdi. İran Prezidenti bəşər mədəniyyətinin inkişafına xüsusi töhfələr verən Xəzəryanı ölkələrin bundan sonra da səylərini birləşdirməsinin zəruriliyini vurğulayaraq dedi:

- Bizim bütün ümumi maraqlarımızı, o cümlədən Xəzər dənizinin hüquqi statusunun

müəyyən edilməsi, Xəzərdə təhlükəsizlik, narkotiklərin qanunsuz dövriyyəsinə və cinayətkarlığa qarşı mübarizə, iqtisadi, mədəni və elmi əməkdaşlığın inkişafı məsələlərini sizinlə birlikdə eyni dəyərlərə və əqidələrə əsaslanmaqla təmin edə bilərik. Tehran sammitində əldə edilmiş yaxşı razılaşmalardan bu günə qədər biz ətraf mühitin qorunması, təhlükəsizlik kimi sahələrdə, iqtisadi, elmi və mədəni sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində beş ölkənin əməkdaşlığının möhkəmlənməsini müşahidə edirik. Bu istiqamətlərdə əməkdaşlığın ardıcıl həyata keçirilməsi və yeni imkanların aşkar edilməsi hamımızın mənafeyinə uyğundur.

Gündəliyə müştərək gəmiçilik şirkətlərinin yaradılması, gömrük rüsumları ilə əlaqədar güzəştlər müəyyən edilməsi, ticarət mübadiləsinin artırılması, neft-kimya məhsullarının nəql edilməsi üzrə şəbəkələrin birləşdirilməsi, eləcə də turizm, mədəniyyət və idman sahələrində insanlar arasında əlaqələrin inkişaf etdirilməsi və genişlənməsi məsələlərinin daxil olunmasını təklif edirəm.

Prezident Mahmud Əhmədinejad qarşıda duran vəzifələrlə bağlı təkliflərini irəli sürərək bildirdi:

- Gələn il Xəzər dənizinin hüquqi statusunun razılaşdırılması üzrə işləri tamamilə və birdəfəlik yekunlaşdırmağı təklif edirəm. Bunun üçün bütün məsələlərin ədalətli və sabit razılaşdırılmasına nail olmağın daha güclü təminatı olan beştərəfli formatda iclasların keçirilməsi davam etdirilməlidir. İştirakçı ölkələrin potensiala, resurslara, milli valyutalara əsaslanan iqtisadi əməkdaşlığı beynəlxalq iqtisadi sistemlərin vurduğu zərərin dərəcəsini azaltmağa və yeni imkanlar yaratmağa qadirdir. Xəzərdə sabitlik və təhlükəsizlik üçün təhdid olan amillərə qarşı birgə mübarizə, əcnəbi oyunçuların çıxışlarının qarşısının alınması Xəzər dənizində və ölkələrimizdə təhlükəsizliyin və sülhün təmin edilməsinin ən mühüm elementidir. İran İslam Respublikası dəqiq işlənib hazırlanmış proqram əsasında bütün sahələrdə əməkdaşlığa hazırdır.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti, mənim qardaşım, zati-aliləri cənab İlham Əliyevə səmimi qəbul və qonaqpərvərlik üçün bir daha təşəkkür etmək istərdim. Ümid edirəm ki, iştirakçıların əməkdaşlığı və qarşılıqlı fəaliyyəti, görüşlər yaxşı nəticələr verəcəkdir.

Ulu Tanrıdan bütün xalqlara sülh və təhlükəsizlik, firavanlıq və sevinc diləyirəm. Diqqətinizə görə hamınıza təşəkkür edirəm.

* * *

Prezident Nursultan NAZARBAYEV tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. Qazaxıstan dövlətinin başçısı Xəzər dənizi ilə bağlı bütün məsələlərin tam və kompleks həllinə mühüm əhəmiyyət verdiyini vurğulayaraq dedi:

- Biz ilk növbədə Xəzərin hüquqi statusu ilə bağlı məsələləri tamamilə həll etməliyik. Bu su hövzəsinin nadirliyi təkcə xeyli miqdarda karbohidrogen ehtiyatları və nərə balığı növlərinin dünyada ən iri populyasiyası ilə şərtlənmir. Xəzər minilliklər boyu dostluq və sabitlik dənizi olmuş, sahillərində yaşayan xalqları birləşdirmişdir.

Xəzəryanı dövlətlərin sülh və mehriban qonşuluq şəraitində yaşamaq kimi ümumi səy-

ləri Azərbaycan Respublikasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının, Rusiya Federasiyasının və Türkmənistanın 2007-ci il oktyabrın 16-da Tehran zirvə görüşündə qəbul etdikləri Bəyannamədə əksini tapmışdır. Həmin sənədin imzalanması sahilyanı ölkələrin əməkdaşlığı tarixində əlamətdar hadisə olmuşdur. Bu sənəd geniş əhatəli əməkdaşlıq məsələləri üzrə qarşılıqlı fəaliyyətin dərinləşməsi və Xəzər hövzəsində təhlükəsizliyin möhkəmlənməsi üçün etibarlı əsas yaratmışdır.

Tehran zirvə görüşü Xəzərin problemlərinin bütün cəhətləri üzrə beştərəfli əməkdaşlığın fəallaşdırılması üçün böyük potensialı üzə çıxarmış və bütün dünya birliyinə sübut etmişdir ki, Xəzəryanı dövlətlərin mövcud məsələlərini yalnız qarşılıqlı anlaşma və konsensus əsasında konstruktiv ruhda dinc vasitələrlə həll etmək olar. Zirvə görüşləri arasındakı müddətdə 2008-ci ilin oktyabrında Həştərxanda böyük iş görülmüş, Xəzəryanı dövlətlərin birinci hökumətlərarası iqtisadi konfransı keçirilmiş, Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında saziş layihəsi, Xəzərin dəniz mühitinin mühafizəsinə dair Çərçivə Konvensiyasına əlavə protokollar hazırlanmışdır.

Yaxın günlərdə Qazaxıstanda Çərçivə Konvensiyasının razılığa gələn tərəflərinin üçüncü konfransı keçiriləcəkdir. Konfransda dörd əlavə protokolun ən azı ikisini imzalamaq nəzərdə tutulur.

Qazaxıstan dövlətinin başçısı Xəzərin hüquqi statusu ilə əlaqədar xüsusi işçi qrupunun fəaliyyətinin intensivləşdirilməsinin vacibliyini diqqətə çatdıraraq bildirdi:

- Biz razılaşmışdıq ki, dövlət başçıları ildə bir dəfə görüşəcəklər və belə görüşlər kifayət qədər səmərəli və faydalı olacaqdır. Bununla əlaqədar, xüsusi işçi qrupunun iclaslarının, onun qaydalarında nəzərdə tutulduğu kimi, ildə beş dəfədən az olmamaq şərti ilə keçirilməsini xarici işlər nazirliklərinə tapşırmağı təklif edirəm. Müvafiq razılaşmanı bugünkü birgə bəyanatda əks etdirmək lazımdır.

İran Prezidentinin təkliflərini dəstəkləmək istəyirəm. Qazaxıstan tərəfi Xəzərin hüquqi statusu probleminin bütün sahilyanı ölkələr üçün konsensus və qarşılıqlı fayda əsasında sürətlə həllini dəstəkləyir. Biz Xəzərdəki tərəfdaşlarımızın təklif etdikləri müxtəlif formatlı bütün görüşlərdə və tədbirlərdə iştirak etməyə hazırıq.

Hörmətli dövlət başçıları, Tehran görüşündə tərəfimizdən nərə balığı növlərinin ovlanması kvotalarının bölünməsi mexanizminə yenidən baxılmasının zəruriliyi barədə məsələ qaldırılmışdı.

Qazaxıstan Xəzər dənizinin bu nadir "sakinlər"inin sayının günbəgün azaldığını nəzərə alaraq, onların ovlanmasına ən azı beş il müddətinə müvəqqəti beştərəfli moratorium tətbiq olunmasını təklif edir. Belə qərar nərə balığı növlərinin populyasiyasını bərpa etməyə və gələcək nəsillər üçün saxlamağa imkan verəcəkdir. Özü də Xəzərin bioresurslarının istifadəsi, mühafizəsi və təkrar istehsalı, habelə beştərəfli müqavilənin imzalanması yolu ilə brakonyerlərə qarşı mübarizə sahələrində əməkdaşlığı elmi və hüquqi cəhətdən əsaslandırılmış şəklə salmaq lazımdır.

Prezident Nursultan Nazarbayev gündəlikdə duran məsələlərin müsbət həlli üçün tədbir iştirakçılarını səyləri daha da gücləndirməyə çağıraraq dedi:

- Hörmətli dostlar! Əminəm ki, bugünkü görüşdə səslənəcək təşəbbüs və təkliflər konkret sənədlərdə və əməli işdə əksini tapacaqdır. Səmərəli və konstruktiv qarşılıqlı

fəaliyyət, Xəzər sahili xalqları arasında dostluğun möhkəmlənməsi dövlətlərimizin regional əməkdaşlığını yeni zirvələrə yüksəldəcəkdir.

Burada, qardaş Azərbaycanın paytaxtında toplaşan bizim hamımızı ümumi bir məqsəd - Xəzər regionunda sabitliyə və təhlükəsizliyə nail olmaq və xalqlarımızın rifahını təmin etmək məqsədi birləşdirir.

Bu gün biz bu istiqamətdə daha bir addım atdıq.

Bu gün imzalanacaq bütün sənədlər - saziş və bəyanatımız bu istiqamətdə atılan daha bir mühüm addımdır.

Diqqətinizə görə minnətdaram!

* * *

Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkürünü çatdıran Rusiya Prezidenti Dmitri MEDVEDEV Bakı sammitinin müsbət nəticələrlə başa çatacağına əminliyini vurğuladı. Ötən zirvə görüşlərinin təcrübəsinə əsaslanan Rusiya dövlətinin başçısı gündəlikdəki məsələlərlə bağlı fikir mübadiləsinin mütəmadi xarakter daşımasının vacibliyini bildirdi və bu baxımdan Bakıda imzalanacaq sənədin mühüm əhəmiyyət kəsb edəcəyini diqqətə çatdıraraq dedi:

- Əlbəttə, bu cür zirvə görüşlərinin əsas mövzusu Xəzər dənizinin müasir geosiyasi reallıqlara cavab verən yeni hüquqi statusunun müəyyənləşdirilməsidir və biz sizinlə bu sahədə bəzi işlər görmüşük, bir sıra mühüm məsələlərə dair prinsipial razılığa gəlmişik.

Qarşıdakı irəliləyişimizə gəldikdə isə, hörmətli həmkarlarım, sizi əmin etmək istəyirəm ki, biz, - mən Rusiya Federasiyasını nəzərdə tuturam, - gələcək sazişimizin bütün vacib bəndləri üzrə razılıq əldə olunması, Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi üçün əlimizdən gələni edəcəyik. Söhbət bütün əsas məsələlərdən, o cümlədən dənizin dibinin və akvatoriyanın delimitasiyası, dənizdə hərbi fəaliyyət, habelə gəmiçilik və balıq ovu ilə bağlı ümumi qaydalardan gedir. Biz öz təkliflərimizi artıq irəli sürmüşük, qarşılıqlı təkliflərə, Qazaxıstan Prezidentinin dənizin akvatoriyasının delimitasiyası ilə bağlı təklif və təşəbbüslərinə əlavələr etmişik. Bu baxımdan, biz dialoq aparırıq. Hesab edirəm ki, bu gün "Xəzər beşliyi" əsas məsələnin - milli dəniz kəmərinin eni və rejimi ilə əlaqədar məsələnin həllinə yaxınlaşır, çünki bu, başlıca məsələdir. Məhz bu məsələ ilə əlaqədar biz qəti razılığa gəlməliyik. Mən əminəm ki, mövqelərimizdə hələlik müəyyən uyğunsuzluq olsa da, biz razılığa gələ bilərik. Əvvələn, ona görə ki, biz qonşuyuq, biz həqiqətən dostluq etməliyik, ikincisi, ona görə ki, Xəzər dənizində daha səmərəli təsərrüfatçılıqla məşğul olmalıyıq.

Prezident Dmitri Medvedev Xəzəryanı ölkələrin yeni konvensiya ilə bağlı danışıqlar prosesini sürətləndirməyin zəruriliyini qeyd etdi və yekun nəticəyə nail olunması üçün Rusiyanın səylərini əsirgəməyəcəyini vurğuladı:

- Bizim vəzifəmiz təkcə dənizi, akvatoriyanı, dənizin dibini bölməkdən ibarət deyildir. Bizim vəzifəmiz həm də nadir ekologiyanın qorunub saxlanmasının qayğısına qalmaq, dənizin təbii sərvətlərindən qənaətçiliklə istifadə etməkdir. Nursultan Abişeviç elə indicə bu barədə dedi və mən də razıyam ki, biz nadir bioloji tərkibin deqradasiyasına yol

verməməliyik. Gəlin düşünək, nə edə bilərik, üzərimizə hansı əlavə öhdəliklər götürə bilərik, çünki indi biz cari işlərimizdən deyil, ölkələrimizin vətəndaşlarının gələcək nəsilləri qarşısında məsuliyyətimizdən danışırıq.

Rusiya dövlətinin başçısı Xəzəryanı ölkələrin ticarət-iqtisadi əməkdaşlığının gücləndirilməsi ilə əlaqədar həmkarlarının söylədikləri fikirləri tam bölüşdüyünü bildirərək dedi:

- Rusiya əvvəlki kimi hesab edir ki, onların gələcək inkişafı üçün bizim hamımızı birləşdirə biləcək müvafiq regional qurum lazımdır. Biz ümid edirik ki, bu təklif indi masa arxasında əyləşmiş həmkarlarımız tərəfindən maraqla müzakirə olunacaqdır. Bu qurum nəinki regional inteqrasiya proseslərini fəallaşdıra, həm də gündəlikdəki ən müxtəlif məsələlərin həllini stimullaşdıra bilər.

İlham Heydər oğlu, bir daha görüşümüzün təşəbbüskarı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm və ümidvaram ki, belə görüşlər daha mütəmadi keçiriləcək və biz qarşımızda duran vəzifələri yerinə yetirə biləcəyik. Sağ olun!

* * *

Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü çatdıran Türkmənistan Prezidenti Qurbanqulu BERDİMƏHƏMMƏDOV ümumilikdə danışıqların konstruktiv xarakter daşıdığını söyləyərək dedi:

- Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın layihəsi üzərində konstruktiv iş aparılır. Bu gün tərəflər həmin sənədin müddəalarının əksəriyyəti barədə konsensusa nail oldular. Xəzər Dənizində Təhlükəsizlik Sahəsində Əməkdaşlıq haqqında Beştərəfli Sazişin layihəsi artıq razılaşdırılmışdır. Dəniz mühitinin qorunmasına dair Çərçivə Layihəsinin imzalanması da bizim birgə nailiyyətlərimiz sırasına aid edilməlidir.

Bu gün Xəzəryanı dövlətlərin ekspertləri həmin sənədə əlavə protokolların layihələrinin hazırlanması üzərində fəal iş aparırlar. Bütün bunlar ona dəlalət edir ki, səmərəli qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün böyük tərəfdaşlıq potensialı vardır və ölkələrimiz buna hazırdırlar.

Bununla əlaqədar, Türkmənistan Xəzərdə fəaliyyətin müxtəlif növlərinin hüquqi cəhətdən daha da tənzimlənməsinə yönəlmiş sazişlərin layihələrini işləyib hazırlamağa başlamağı təklif edir. Biz, məsələn, Xəzər dənizinin bioloji ehtiyatlarının qorunub saxlanması və onlardan səmərəli istifadə edilməsi haqqında saziş layihəsi hazırlamağa başlamağı zəruri hesab edirik. Həmin sazişin qəbul edilməsi bu sahədə fəaliyyət üçün möhkəm hüquqi təməl yaratmağa imkan verəcəkdir.

Daha konkret desək, bu, bioloji ehtiyatlardan istifadə edilməsi normalarını beştərəfli əsasda razılaşdırmağa, o cümlədən beynəlxalq hüquq normaları nəzərə alınmaqla nərə balığı növlərinin Xəzəryanı dövlətlər arasında bölünməsini və ov kvotalarının mənimsənilməsini təmin etməyə imkan verəcəkdir. Biz 2007-2008-ci illərdə Xəzər dənizinin bioloji su ehtiyatlarına dair komissiyada sədrlik etdiyimiz dövrdə bu barədə yeni metodikalar təklif etmişdik.

Fövqəladə hallar yarandıqda və ya onların yaranması təhlükəsi olduqda Xəzəryanı döv-

lətlərin hərəkətlərini əlaqələndirmək məqsədilə fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Sazişin layihəsinin işlənib hazırlanmasına başlamağı da məqsədəuyğun hesab edirik.

Prezident Qurbanqulu Berdiməhəmmədov Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ilə əlaqədar indiyədək həllini tapmayan məsələlərlə bağlı Türkmənistanın mövqeyini də diqqətə çatdıraraq dedi:

- Əvvələn, Xəzər dənizinin dibinin və təkinin bölünməsi problemi barədə. Bu problem müzakirə edilərkən Türkmənistan bunu əsas götürür ki, Xəzərdə delimitasiya beynəlxalq hüququn ümumtanınmış normalarına, qarşılıqlı hörmət və tərəfdaşların mənafelərinin nəzərə alınması prinsiplərinə əsaslanmalıdır.

Burada xüsusi vurğulamaq istərdim ki, biz Xəzərlə bağlı hər hansı həll edilməmiş məsələlərə siyasi rəng verilməsinin əleyhinəyik.

Məsələn, Xəzər dənizinin dibinin və təkinin bölünməsi dinc, diplomatik və hüquqi vasitələr və metodlarla həll edilməli olan hüquq problemidir.

İkincisi, Xəzər dənizinin dibi ilə boru kəmərlərinin çəkilməsi bizim üçün prinsipial məsələdir. Türkmənistan qəti əmindir ki, Xəzərdə sualtı boru kəməri çəkilməsi məsələsi yalnız dənizin dibinin həmin boru kəmərinin keçdiyi hissələrinin məxsus olduğu tərəflərin razılığı ilə həyata keçirilə bilər. Təbii ki, bu halda ən yüksək beynəlxalq ekoloji standartlara və normalara riayət ediləcəkdir.

Üçüncüsü, Xəzər akvatoriyasının bölünməsi məsələsi. Türkmənistanın qəti mövqeyi belədir ki, Xəzər dənizinin akvatoriyası daxili sulara, ərazi dənizinə və ümumi su məkanına bölünür.

Bu halda biz ərazi dənizinin eninin 20 dəniz mili qədər müəyyən edilməsinin tərəfdarıyıq. Ərazi dənizi müvafiq sahilyanı dövlətin tam suverenliyi altında olmalıdır. Ərazi dənizinin kənar xətti dövlət sərhədi olmalıdır.

Xəzərdə dayanıqlı sabitliyin və təhlükəsizliyin təmin edilməsinin başlıca məqsəd olduğunu vurğulayan Prezident Qurbanqulu Berdiməhəmmədov bu baxımdan Xəzəryanı ölkələrin dövlət başçılarına xüsusi minnətdarlığını bildirdi:

- Bununla əlaqədar, mən Azərbaycan Respublikasının, İran İslam Respublikasının, Qazaxıstan Respublikasının və Rusiya Federasiyasının burada iştirak edən hörmətli prezidentlərinə Xəzərdə konstruktiv tərəfdaşlığın inkişaf etdirilməsi işinə böyük şəxsi töhfələrinə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Bu gün bizim aramızda qapalı və ya naqolay mövzular yoxdur. Biz Xəzər problemlərinin bütün aspektləri barədə əsl dostlar və mehriban qonşular kimi, səmimi və məhrəmanə söhbət edirik. Bizim budəfəki sammitimiz bunu tamamilə təsdiqləyir.

Əminəm ki, bu sammit Xəzəryanı dövlətlərin dostluğunun və əməkdaşlığının inkişafında mühüm mərhələ olacaq, Xəzəri sülh və firavanlıq regionuna çevirmək üçün birgə əzmimizi daha da möhkəmləndirəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN SƏNƏDLƏRİ İMZALANMIŞDIR

Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşündən sonra sənədlərin imzalanması mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Dmitri Medvedev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, İran Prezidenti Mahmud Əhmədinejad və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair Sazişi və prezidentlərin birgə bəyanatını imzaladılar.

XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR

Noyabrın 18-də Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü Zirvə Görüşünün sənədlərinin imzalanmasından sonra prezidentlər mətbuata bəyanatla çıxış etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezidentlər!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bütün qonaqlarımızı Azərbaycanda bir daha salamlamaq, dəvətimizi qəbul edərək ölkəmizə gəldiklərinə görə həmkarlarıma təşəkkür etmək istəyirəm.

Əminəm ki, bu gün Xəzər hövzəsinin təbii ehtiyatlarından birgə istifadə edilməsi, Xəzərin ətraf mühitinin qorunması və bütövlükdə ölkələrimiz arasında qarşılıqlı faydalı dostluq münasibətlərinin inkişafı işində yeni mərhələ başlayır. Bu gün biz həm çoxtərəfli münasibətlərimizin, həm də Xəzərdə əməkdaşlığın gələcək inkişafına daha böyük təkan verəcəyinə əmin olduğum çox mühüm məsələlərin həllinə başlayırıq. Bizim ölkələri ümumi tarix, coğrafiya, iqtisadi maraqlar birləşdirir. Bu gün biz bunu çox konstruktiv və açıq diskussiyalar zamanı qeyd etmişik. Ölkələrimiz enerji ehtiyatları istehsalçılarıdır. Bizim ölkələrin ərazisindən çox mühüm nəqliyyat, kommunikasiya yolları keçir. Təbii ki, həm enerji siyasəti, həm nəqliyyat siyasəti, həm də bütövlükdə bizim regionda təhlükəsizlik və əməkdaşlıq məsələləri çox cəhətdən ölkələrimizin sıx qarşılıqlı fəaliyyətindən asılıdır.

Sammitimizin çox konstruktiv keçməsi məni sevindirir. Biz çox mühüm qərarlar qəbul edilməsinə nail olduq. Məsələn, təhlükəsizliyə dair indicə imzalanmış saziş bizim prioritetləri, Xəzərdə təhlükəsizliyi öz qüvvələrimizlə təmin etmək üçün əməkdaşlığımızın çərçivələrini çox dəqiq müəyyən edir. Xəzərdə təhlükəsizlik bizim ölkələrin təhlükəsizliyidir. Bir daha demək istəyirəm, ölkələrimizi çox sıx, yaxın münasibətlər birləşdirir. Bizim aramızda, istər ikitərəfli, istərsə də çoxtərəfli formatda həll edilə bilməyəcək heç bir problem yoxdur. Əksinə, bu əməkdaşlığı dərinləşdirmək və onu bütün sahələrdə genişləndirmək istəyi vardır. Bugünkü müzakirə və sammitin keçdiyi şərait ölkələrimiz arasında məhz bu cür dostcasına, mehriban qonşuluq münasibətlərinə parlaq sübutdur.

Təhlükəsizliyə dair saziş, habelə birgə bəyanat Xəzər hövzəsində əməkdaşlığın inkişafında növbəti mühüm mərhələdir. Bu, Xəzərə dair hazırda işlənib hazırlanma mərhələsində olan məsələlərin gələcəkdə razılaşdırılması işində çox mühüm addımdır. Xəzər dənizinin hüquqi statusuna dair bizim mümkün qədər tezliklə imzalamağa çalışdığımız saziş və diskussiyalar zamanı yaranmış konstruktivizm şəraiti, tərəflərin mövqelərinin başa düşülməsi və irəliləmək istəyi hələlik razılaşdırılmamış qalan məsələləri çox tezliklə razılaşdırmaq üçün əlbəttə, tamamilə nadir imkan yaradır.

Biz bildirdik ki, diskussiya apardığımız əsas məsələlərdən birinə, məhz Xəzər dənizinin hüquqi statusu məsələsinə dair mümkün qədər qısa müddətdə razılığa gəlmək bizim ümumi istəyimizdir. Bu məqsədlə konkret qərarlar qəbul edilmiş, işi intensivləşdirmək və növbəti sammitə mümkün qədər yaxşı nəticələrlə toplaşmaq üçün bizim qurumlara müvafiq tapşırıqlar verilmişdir.

Təhlükəsizliyə dair saziş, birgə bəyanat - müxtəlif nazirliklərin ekspertləri, nümayəndələri tərəfindən müəyyən müddət ərzində hazırlanmış, başqa sözlə desək, sammit ərəfəsində imzalanmağa hazır olan sənədlər idi.

Onu da qeyd etmək istərdim ki, diskussiya və konstruktiv fikir mübadiləsi prosesində əvvəlcədən hazırlanmamış məsələlərə dair qərar qəbul etmək zərurəti də yarandı. Bu, bir daha məhz konstruktivizmə, bizim qarşılıqlı əlaqələri möhkəmlətmək və müəyyən müddət gündəlikdə qalmış, bir iclasdan digərinə keçmiş və indiyə qədər həll edilməmiş qalan məsələləri həll etmək əzmində olmağımıza dəlalət edir. Buna görə də hesab edirəm ki, bu, həm Xəzər problemlərinə münasibətimizin, həm də bizim regionda təhlükəsizliyin, ekoloji təhlükəsizliyin, enerji, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi məsələlərinə çox mühüm töhfə vermək istəyimizin olduqca vacib göstəricisidir.

Mətbuat nümayəndələrinə məlumat vermək istərdim ki, biz Xəzər dənizində nərə balıqlarının müxtəlif növlərinin ovlanmasına 5 il müddətinə moratorium tətbiq edilməsi mexanizmini üç ay ərzində müzakirə edib təkliflər hazırlamaq barədə müvafiq idarələrə tapşırıq verilməsini qərara almışıq. Hesab edirəm ki, bu, ekoloji vəziyyəti xeyli yaxşılaşdırmağa və ümumi sərvətimiz olan nərə balıqlarının nadir növünü xilas etməyə imkan verəcək çox mühüm, fundamental qərardır.

Bundan əlavə, razılaşdırılmış qısa müddətdə hər bir ölkənin milli zonasının eni məsələsini müzakirə etmək və razılaşdırmaq barədə müvafiq idarələrə tapşırıq vermək qərara alınmışdır. Hesab edirəm ki, bu da münasibətlərin möhkəmlənməsi və Xəzər hövzəsinin delimitasiyası ilə əlaqədar bütün məsələlərin tənzimlənməsi işində çox mühüm addımdır. Bir daha xüsusi vurğulamaq istəyirəm ki, bu məsələlərə dair qərarlar qəbul edilməsi əvvəlcədən nəzərdə tutulmamışdı. Onlar məhz konstruktivizm ruhunun, xoş məramın, qarşılıqlı anlaşmanın və əməkdaşlığımızı möhkəmlətmək əzmimizin nəticəsində qəbul edilmişdir.

Buna görə də mən Bakı sammitinin yekunlarını çox yüksək qiymətləndirirəm. Mən prezident həmkarlarımın konstruktiv işinə, bugünkü görüşdə fəal iştirak etdiklərinə görə onlara təşəkkür etmək və ümid etdiyimi bildirmək istəyirəm ki, bizim müəyyən etdiyimiz və nəzərdə tutduğumuz bütün məsələlər müəyyən edilmiş müddətlərdə gerçəkləşəcək və növbəti sammitə də çox mühüm, münasibətlərimizin gələcək inkişafına kömək edəcək qərarlarla toplaşmağımıza imkan verəcəkdir.

Diqqətinizə görə sağ olun.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI

- Mərhəmətli və rəhmli Allahın adı ilə!

Hörmətli qardaşım cənab Prezident İlham Əliyevə qəbula və qonaqpərvərliyə, görüşümüzün yaxşı təşkilinə görə təşəkkür edirəm.

Demək istəyirəm ki, Xəzər regionunun üç spesifik xüsusiyyəti vardır. Birincisi, bu, mədəniyyət regionudur. Burada mədəni dəyərlər çoxdur. Bildiyiniz kimi, bizim regionda yetişmiş çoxsaylı mütəfəkkirlər, alimlər, şairlər, ədəbiyyatçılar yüksək mənəvi idealları təbliğ etmiş və yaymışlar. Bu regionun ikinci spesifik xüsusiyyəti onun sərvətidir. Burada bizim çox böyük təbii sərvətlərimiz vardır. Üçüncü məqam - mahiyyət etibarilə Qərb ilə Şərq arasında yerləşən Xəzər regionunun coğrafi və tarixi ümumiliyi, onun coğrafi mövqeyidir.

Xoşbəxtlikdən, beş Xəzəryanı dövlətin hamısı qarşılıqlı fəaliyyətin, inteqrasiyanın zəruri olmasını çox yaxşı başa düşür və biz möhkəm təmələ əsaslanan birgə əməkdaşlığın əsasını qoymuşuq. Biz Bakıda böyük əməkdaşlığın, böyük dostluğun, inteqrasiyanın əsasını qoyduq. Yüksək konstruktivlik və qarşılıqlı anlaşma ruhunda yaxşı qərarlar qəbul edildi və Xəzər dənizinin hüquqi statusunun hazırlanması işinin tezliklə başa çatdırılması yolu hamarlandı. Mən də bu işi tezliklə başa çatdırmaq çağırışına qoşuluram ki, beş ölkənin hamısı öz münasibətlərini, əməkdaşlığı planlaşdırmaqda davam edə bilsin.

Danışıqları çox yaxşı apardıq, hamı bu danışıqlara konstruktiv mövqedən yanaşır, qarşılıqlı anlaşma şəraitində diskussiyalarda iştirak edirdi və yaxşı nəticələr əldə olunmuşdur. Mən bütün məsələlərin razılaşdırılması işində sanballı addımlar atmış həmkarlarımın hamısını, möhtərəm prezidentləri təbrik edirəm. Buna görə mən təşəkkürümü bildirirəm və ümid edirəm ki, biz Xəzər dənizinin həqiqətən dostluq və sülh rəmzinə çevrilməsi üçün növbəti görüşü yaxın gələcəkdə yüksək səviyyədə keçirə biləcəyik.

Bu işə və əməkdaşlığa görə sizin hamınıza təşəkkür edirəm.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI

- Mən çox səmərəli və vacib olan bu zirvə görüşünün gözəl təşkilinə görə İlham Əliyevə və azərbaycanlı dostlara təşəkkürümü bildirmək istəyirəm.

Burada bütün həmkarlar artıq hər şeyi dedilər. Biz Xəzər məsələləri ilə 2002-ci ildə Aşqabadda keçirilən birinci Zirvə Görüşü zamanı ciddi məşğul olmağa başladıq. İkinci zirvə görüşü 2007-ci ildə Tehranda keçirilmişdir. Ekspertlərimiz səkkiz ildir bu məsələlərlə məşğul olurlar. Bugünkü görüşümüzü hazırlamaq üçün məhsuldar işləyən ekspertlərimizə təşəkkürümü bildirmək istəyirəm.

Həll etməli olduğumuz başlıca məsələ Xəzər dənizinin statusu, Konvensiyanın imzalanmasıdır. Bu, bütün proqramın canıdır. Hesab edirəm ki, bu gün biz məhz bu problemin həllinə çox yaxınlaşmışıq. Bu problem heç cür həll olunmurdu, çünki biz sahildə suveren ərazinin necə olacağı, hansı məsafədə balıq tutmalıyıq və sair məsələlərlə bağlı razılığa gələ bilmirdik. İkinci məsələ Xəzər dənizinin nadir bioresurslarının xilas edilməsi idi.

Siz imzaladığımız sənədləri gördünüz. Onlar çox mühüm sənədlərdir. Bütün istiqamətlərdə - gəmiçilik, brakonyerliklə mübarizə, burada silah satılmaması, cinayət törədilməməsi üçün, korrupsiya ilə mübarizə kimi bütün istiqamətlərdə hər şey qeyd olunmuşdur və bəyanatlarda da yer almışdır. Ancaq mən qeyd etmək istəyirəm ki, hamı Xəzəryanı iqtisadi əməkdaşlığa, yüklərin və enerji ehtiyatlarının Xəzər dənizi vasitəsilə daşınmasına yol açan Konvensiyanın imzalanmasının vacibliyi ilə razı idi. Eyni zamanda, biz hamımız razılaşdıq ki, - bu, İran Prezidenti, həmkarımız Əhmədinejadın təklifi idi, - bir il ərzində Konvensiyanı imzalamaq lazımdır. Növbəti sədrlik Rusiyaya verildiyi üçün mən ümid edirəm ki, bu tarixi hadisə gələn il Rusiya Federasiyasının ərazisində keçiriləcək yüksək səviyyədə görüşdə baş verəcəkdir. Özü də biz hamımız üç ay ərzində işləmək və bütün mövqeləri yaxınlaşdırmaq barədə razılığa gəlmişik. Çünki bəziləri deyirdi 38 dəniz mili, 25 dəniz mili, 10, 20 dəniz mili lazımdır. Biz ekspertlərimizdən 24-25 dəniz mili ətrafında iş aparmağı xahiş etmişik. Zənnimcə, bu, çox böyük ümumi razılıqdır.

Biz bilirik ki, Xəzərdə nərəkimilərin sistemsiz, kvotasız və brakonyerlər tərəfindən ovlanması üzündən bir vaxt elə vəziyyətə düşə bilərik ki, gələcək nəsillərə heç nə qalmaz. Bu gün çox mühüm qərar qəbul edilmişdir ki, nərəkimilərin ovuna 5 illik moratorium elan edilməsi məsələsini razılaşdıraq. Həmin dövr ərzində hər şeyi öyrənmək və baxmaq lazımdır. Bu, mühüm qərardır. Buna görə mən razıyam ki, çox yaxşı zirvə görüşü keçirilmişdir.

Mən Xəzəryanı dövlətlərin özlərinin bu məsələni həll etməsi və mövqelərini yaxınlaşdırması üçün çox böyük əzmkarlıq göstərən həmkarlarıma minnətdarlığımı bildirmək istəyirəm. Bu, bizim ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcəkdir.

RUSİYA PREZİDENT DMİTRİ MEDVEDEVİN BƏYANATI

- Mən də çıxışıma təşəkkür sözləri ilə başlamaq istərdim. Təşəkkür edirəm ki, Azərbaycan bizi bir neçə ay bundan əvvəl bəlkə də tamamilə hipotetik görünən sammitə toplamış və bu sammit tam konkret nəticələr vermişdir. Buna görə açıq demək istəyirəm, üçüncü Xəzər sammitinin nəticələrindən mən də çox razıyam.

İlham Heydər oğlunun indicə dediyi kimi, biz təkcə əvvəlcədən müəyyən edilmiş gündəlik çərçivəsində qalmadıq, gündəlik isə yaxşı tərtib edilmişdi: biz indicə Xəzərdə təhlükəsizlik sahəsində əməkdaşlığa dair Saziş imzaladıq. Bu Saziş çoxdan hazırlanırdı və şübhəsiz, fəaliyyətimizi əlaqələndirə bilməyimiz, bizim dənizdə sülh və qayda-qanun olması üçün çox mühüm sənəddir.

Lakin biz sammitin ilkin hazırlanmış gündəliyinin çərçivəsindən kənara çıxdıq və ən müxtəlif məsələləri, o cümlədən ən mürəkkəb məsələni - delimitasiya məsələsini məhz konstruktiv məcrada, dostcasına müzakirə edə bildik. Mənə belə gəlir ki, bu məsələdə də irəliləyişə nail olduq. İrəliləyiş nədən ibarətdir? Ondan ibarətdir ki, biz müvafiq idarələrə, su məkanı da daxil olmaqla təqribən 24-25 millik sərhəddən çıxış edərək milli zonanın eni məsələsini ən qısa müddətdə, yəni 3 ay ərzində müzakirə edib razılaşdırmaq və dövlət rəhbərləri tərəfindən bəyənilmək üçün müvafiq təkliflər hazırlamaq barədə tapşırıq verməyi qərara aldıq.

Əgər biz bu gün müəyyən edilmiş müddətdə irəliləyişə nail ola bilsək, bu o demək olacaqdır ki, biz Xəzərin statusu barədə tamdəyərli saziş imzalamağa yaxınlaşırıq. Bu gün isə biz söhbətimizə hamımızın mütləq mənada həmrəy olduğumuz ümumi bəyanatlardan başladıq, bildirdik ki, Xəzərə dair bütün sazişlər - suverenlik, müxtəlif ovlar aparılması, təhlükəsizlik barədə və digər sazişlər - bunlar hamısı bizim ümumi səlahiyyətimizə aiddir və bu məsələlərin müzakirəsində heç bir başqa dövlət iştirak edə bilməz.

Yəni, mən belə hesab edirəm ki, əsas məsələ - Xəzərin statusu məsələsi barədə biz irəliyə doğru yaxşı bir addım atdıq. İndi qalır bu tapşırıqları sona çatdırmaq. Bu halda biz çox qısa müddətdə həqiqətən çox yaxşı nəticəyə nail ola bilərik.

Bu nəticə bizə təkcə su məkanını bölmək, sərhədi delimitasiya etmək, suverenlik sərhədlərini müəyyən etmək xatirinə deyil, həm də sadəcə olaraq normal iqtisadi əməkdaşlıqla məşğul olmaq üçün lazımdır.

Bir müddət bundan əvvəl Rusiya Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatı ideyasını irəli sürmüşdür. Həmkarlarım bu məsələyə həmişə belə yanaşırlar: ümumiyyətlə, təşkilat pis şey deyil, lakin təşkilatı yaratmazdan əvvəl bütün məsələlər barəsində razılığa gəlmək lazımdır.

Əgər biz bunu edə bilsək, bu cür dövlətlərarası və ikitərəfli əməkdaşlığın həmin mərhələsi qat-qat yaxın və aydın olacaqdır. Yeri gəlmişkən, xatırladım ki, biz dəniz mühitinin qorunmasına dair Çərçivə Konvensiyasına protokolları da razılaşdırdıq. Lap yaxın vaxtlarda həmkarlarımız bu sənədlərin hamısını imzalayacaqlar. Beləliklə, mənim fikrimcə, sammit bu baxımdan uğurlu olmuşdur.

Həmkarlarımın irəli sürdüyü təkliflərə əsasən, bu görüşün hər bir iştirakçısının konstruktiv töhfəsini ayrıca qeyd etmək istərdim. Biz son zamanlar işimizdə yaranmış fasilələrin təkrarlanmasına yol vermədən ildə bir dəfə görüşmək barədə razılığa gəldik.

Üç ildə bir dəfə görüşmək yolverilməz dərəcədə azdır, bizim ekspertlər çox tez-tez görüşməlidirlər. Prezident Əhmədinejadın təklifinə əsasən biz razılaşdıq ki, bu cür görüşlər ildə azı beş dəfə keçirilməlidir. Şübhəsiz, bu, faydalıdır.

Bir daha demək istərdim ki, irəliləyiş göz qabağındadır. Şübhəsiz, bu, bizim hamımızı sevindirir. Bir daha bizim Xəzər sammitinin təşkilatçılarına və ayrıca olaraq Azərbaycan Prezidentinə təşəkkürümü bildirmək istərdim.

İlham Heydər oğlu, bir daha sağ olun ki, Siz bizim hamımızı bir yerə topladınız! Burada iştirak edənlərin hamısını Rusiya Federasiyasına dəvət etmək istərdim - ümid edirəm ki, bu çox mühüm məsələyə nöqtə qoymaq üçün. Hər şey bizdən asılıdır.

Sağ olun!

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Xanımlar və cənablar!

İlk növbədə, mən də Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyе-

və üçüncü Bakı sammitinin bu cür yaxşı hazırlanmasına və keçirilməsinə görə təşəkkür etmək istərdim. Fürsətdən istifadə edib sizin hamınızı müqəddəs Qurban bayramı münasibətilə təbrik etmək, ən xoş arzularımı bildirmək, xalqlara firavanlıq diləmək istərdim.

Bugünkü məsələlərə gəldikdə isə, biz həqiqətən çox məsələləri konstruktiv şəkildə müzakirə etdik. Lakin başlıca məsələdən - əlbəttə, Xəzərin hüquqi statusunu həll etmək və Xəzər dənizinin dibinin və təkinin delimitasiyası, akvatoriyanın bölünməsi və ekologiya problemlərindən çıxış etmək lazımdır.

Biz ticari-iqtisadi məsələlərimizi müzakirə etdik. Əsas məsələlər sırasında ekologiya məsələlərini qeyd etmək lazımdır, çünki həqiqətən Xəzərin özünəməxsus ekoloji sistemi vardır. Təkcə Xəzər dənizinin buxarından əmələ gələn yodu misal göstərmək kifayətdir. Başqa dənizlərdə yod yoxdur. Bu, məsələnin müalicəvi tərəfidir. Xəzər dənizinin özünəməxsus flora və faunası vardır. Bu məsələləri həll etmək, Xəzər dənizinin flora və faunasını qoruyub saxlamaq üçün Türkmənistan beynəlxalq təşkilatların, ilk növbədə Birləşmiş Millətlər Təşkilatının strukturlarının təcrübəsindən istifadə etməyi təklif edir.

Bizim ticari-iqtisadi əlaqələrimizə gəldikdə, bu sahədə mövcud meyilləri artıq xatırlatdıq. Bu gün bizim - yəni Türkmənistan, Azərbaycan və Rusiyanın dəmir yolu və bərə nəqliyyatı barədə yaxşı sazişi vardır. Bildiyiniz kimi, İranla və Qazaxıstanla yaxşı transkontinental dəmir yolu çəkirik. O, həm də Xəzər hövzəsinin bir hissəsidir. Yəni, bu da bizim gələcək ticari-iqtisadi münasibətlərimizin meyillərinə dəlalət edir. Bu gün biz dedik ki, əgər həmhüdud ölkələr etiraz etmirlərsə, sualtı boruların uzadılması məsələsini təklif etmək olar ki, onlardan ekoloji tarazlığı pozmadan Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının nəql olunması üçün istifadə edilsin.

Bütövlükdə, artıq deyildiyi kimi, mən də vurğulamaq istəyirəm ki, görüşümüz əsasən çox yaxşı qarşılıqlı anlaşma şəraitində keçdi. Ən başlıcası, mövqeyimiz belə olmuşdur və belə də olacaqdır: Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir.

Diqqətinizə görə təşəkkür edirəm!

* * *

Sonda Prezident İlham ƏLİYEV çıxış edərək dedi:

- Mən bu gün haqqında danışdığımız nəticələrin əldə edilməsinə çox böyük töhfə verdiklərinə görə hörmətli həmkarlarıma bir daha təşəkkür etmək istəyirəm.

Hamıya cansağlığı, firavanlıq arzulayıram. Burada iştirak edənlərin hamısına, mətbuat nümayəndələrinə fəal işlərinə görə təşəkkür edirəm və hamımıza qarşımızda duran bütün məqsədlərə nail olmaqda qətiyyət arzulamaq istəyirəm.

Bir daha sağ olun. Görüşənə qədər.

* * *

Bununla da Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilən üçüncü Zirvə Görüşü başa çatmışdır.

RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Noyabrın 18-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin Azərbaycana səfəri başa çatmışdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Rusiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Dmitri Medvedevi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Noyabrın 18-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfəri başa çatmışdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunda İran Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Mahmud Əhmədinejadı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Noyabrın 18-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri başa çatmışdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Qurbanqulu Berdiməhəmmədovu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola saldılar.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Noyabrın 19-da Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına səfəri başa çatmışdır.

Heydər Əliyev Beynəlxalq Aeroportunda Qazaxıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Nursultan Nazarbayevi Azərbaycanın Baş nazirinin müavini Abid Şərifov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRBAYCAN İLƏ LİVAN ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Noyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Livanın gənclər və idman naziri Əli Hüseyn Abdullah ilə görüşmüşdür.

Əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsinin zəruriliyini nəzərə çatdıran Baş nazir Artur Rasizadə, gənc nəslin sağlam böyüməsi naminə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında hökumətin gördüyü işlərdən, yaratdığı münbit şəraitdən, xüsusilə idmana göstərilən diqqət və qayğıdan qonağa söz açmışdır. Bunun nəticəsi olaraq Azərbaycan idmançılarının beynəlxalq yarışlarda yüksək nailiyyətlər əldə etmələri qeyd edilmişdir.

İki ölkə arasında əməkdaşlığın perspektivlərinə toxunan Artur Rasizadə iqtisadiyyat, ticarət, elm, təhsil, humanitar və digər sahələrdə də birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü nəzərə çatdırmışdır.

Əli Hüseyn Abdullah hər zaman Azərbaycanın beynəlxalq tədbirlərdə Livanı dəstəklədiyini minnətdarlıqla xatırlamışdır. Respublikamıza səfərindən məmnun qaldığını, burada müşahidə edilən iqtisadi inkişaf tempinin bütün region ölkələri üçün yaxşı nümunə olduğunu deyən qonaq səfər müddətində keçirdiyi görüşlər və apardığı danışıqlar barədə Baş nazirə ətraflı məlumat vermişdir. O, Azərbaycan dövlətinin gənclər və idman sahəsində gördüyü böyük işlərdən, yürütdüyü məqsədyönlü siyasətin nəticələrindən bəhrələnəcəklərinə, qarşılıqlı təcrübə mübadiləsindən faydalanacaqlarına əmin olduğunu vurğulamışdır.

Azərbaycan gənclər və idman naziri Azad Rəhimovun da iştirak etdiyi görüşdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

SANKT-PETERBURQDA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR

Sankt-Peterburqda MDB hökumət başçıları Şurasının növbəti iclası keçirilmişdir. İclasda Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov iştirak etmişdir.

İclasın gündəliyinə iqtisadi və humanitar sferalarda, təhlükəsizliyin təmin olunması sahəsində əməkdaşlığın bundan sonra da dərinləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində 20-dən çox sənəd layihəsi daxil edilmişdir. Sənədlərin əksəriyyəti iqtisadiyyat sahəsində qarşılıqlı fəaliyyətə və əməkdaşlığa həsr olunmuşdur.

Birlik ölkələrinin nümayəndələri azad ticarət zonasının, ət-süd məhsulları bazarının yaradılması və fəaliyyəti, Birlik ölkələrində ərzaq təhlükəsizliyinin artırılması, enerji ehtiyatlarının istehsalı və istehlakı ilə bağlı məsələləri müzakirə etmişlər. Hökumət başçıları MDB-nin 20 illik yubileyinə həsr olunmuş dövlətlərarası sərginin hazırlanması ilə əlaqədar məsələləri, 2002-ci il oktyabrın 7-də Moskvada Ümumrusiya Sərgi Mərkəzinin bazasında MDB daimi sərgisinin yaradılması haqqında qərarın yerinə yetirilməsinin gedişini nəzərdən keçirmişlər. MDB ölkələrinin 2003-2010-cu illərdə iqtisadi sahədə qarşılıqlı fəaliyyətinin inkişaf etdirilməsinə və səmərəliliyinin artırılmasına yönəldilmiş mühüm tədbirlər planının həyata keçirilməsinin gedişi barədə məlumat dinlənil-

mişdir. 2020-ci ilədək olan dövrdə MDB-nin iqtisadi inkişaf strategiyasının birinci mərhələsinin (2009-2011-ci illər) həyata keçirilməsinə dair tədbirlər planı, habelə MDB ölkələrinin 2020-ci ilədək olan dövrdə innovasiya əməkdaşlığına dair dövlətlərarası məqsədli proqramın ilkin layihəsinin hazırlığının gedişi müzakirə olunmuşdur.

Bundan əlavə, hökumət başçıları Şurasının iclasında MDB ölkələrinin 2011-2012-ci illərdə humanitar sahədə əməkdaşlığına dair prioritet tədbirlər Planı layihəsi nəzərdən keçirilmişdir. Layihəyə MDB ölkələri xalqlarının ənənəvi əlaqələrinin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məqsədilə humanitar sahədə çoxtərəfli qarşılıqlı fəaliyyətin əlaqələndirilməsinə yönəldilmiş 150-dən çox tədbir daxil olunmuşdur.

MDB Hökumət Başçıları Şurasının növbəti iclasının gündəliyinə büdcə-maliyyə xarakterli sənəd layihələri daxil edilmişdir.

Tədbirdə Rusiyanın Baş naziri Vladimir Putin çıxış edərək bildirmişdir ki, MDB-də azad ticarət zonası haqqında sazişin ilin sonunadək imzalanması realdır. Cari ilin 8 ayı ərzində MDB çərçivəsində əmtəə dövriyyəsi təxminən dörddə üç dəfə artmış, əmtəə dövriyyəsinin həcmi isə 120 milyon dolları keçmişdir. V.Putin demişdir: "Bu, yetərincə ciddi rəqəmdir və ticarət və sərmayə əlaqələrimizdə müvəqqəti tənəzzülün aradan qaldırıldığını göstərir".

LİVANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ TƏHSİL NAZİRLİYİNDƏ OLMUŞDUR

Noyabrın 19-da nazir Misir Mərdanov Livanın gənclər və idman naziri Əli Hüseyn Abdullah ilə görüşmüşdür.

Görüşdə M.Mərdanov Azərbaycan ilə Livan arasındakı əlaqələrin, o cümlədən təhsil sahəsindəki əməkdaşlığın əhəmiyyətindən danışmışdır.

Livanın gənclər və idman naziri Ə.H.Abdullah ölkəsinin təhsil sistemi, ali məktəbləri barədə məlumat vermiş, qarşılıqlı tələbə mübadiləsi məsələsinə toxunmuş, bu istiqamətdə əməkdaşlığın vacibliyini vurğulamışdır.

Azərbaycanın dinamik inkişaf etdiyini qeyd edən M.Mərdanov ölkəmizdə təhsil sahəsində qazanılan nailiyyətləri xatırlatmış, Prezident İlham Əliyevin qayğısı sayəsində son illərdə respublikamızda 2 mindən çox məktəb binasının inşa olunduğunu və əsaslı təmir edildiyini bildirmişdir.

Sonra geniş fikir mübadiləsi aparılmışdır.

LİVANLA AZƏRBAYCAN ARASINDA GƏNCLƏR SİYASƏTİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Noyabrın 19-da ölkəmizdə səfərdə olan Livanın gənclər və idman naziri Əli Hüseyn Abdullah gənclər və idman naziri Azad Rəhimovla görüşmüşdür.

Azad Rəhimov nazirliyin fəaliyyəti, Azərbaycanda gənclər siyasəti və idman sahəsinin inkişafı istiqamətində görülmüş işlər, əldə olunmuş nailiyyətlər haqqında qonağa məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycanda hazırda 11 Olimpiya kompleksi və gim-

nastika bazası tikilir. Ölkəmizdə rəsmi qeydiyyatdan keçmiş 200-dən çox gənclər təşkilatı fəaliyyət göstərir.

Əli Hüseyn Abdullah öz ölkəsində son dövrlərdə idmana və gənclər siyasətinə diqqətin daha da artdığını qeyd etmişdir. Azərbaycanda bu sahədə əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirən nazir Azərbaycanın təcrübəsindən yararlanmaq istədiyini vurğulamışdır.

Görüşdə iki ölkə arasında gənclər və idman sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyanın paytaxtı Lissabona gəlmişdir.

Lissabonun beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Portuqaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİSSABONDA BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ TÖHFƏ VERƏN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 20-də Portuqaliyanın paytaxtı Lissabonda NATO-nun zirvə toplantısı çərçivəsində Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (İSAF) töhfə verən ölkələrin dövlət və hökumət başçılarının iclası keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

Prezident İlham Əliyev iclas başlamazdan əvvəl dünya ölkələrinin liderləri ilə görüşdü.

NATO ölkələrinin dövlət və hökumət başçılarının, habelə Əfqanıstan Prezidenti Həmid Kərzainin, BMT-nin baş katibi Pan Gi Munun, Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun və digər beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdikləri iclasda çıxış edən NATO-nun baş katibi Anders Foq Rasmussen dedi ki, ötən illərdə Əfqanıstan böyük inkişaf yolu keçmiş, ölkədə geniş bərpa və quruculuq işləri aparılmış, təhlükəsizlik gücləndirilmiş, idarəçilik təsisatları möhkəmləndirilmişdir. Əfqanıstanın bu inkişafında iclasda iştirak edən tərəflərin hər birinin payı vardır.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın Şimali Atlantika Alyansı ilə əməkdaşlığı faydalıdır. Ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında fəal olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanın NATO-nun dünyada sülhyaratma əməliyyatlarında da yaxından iştirak etdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti sülhməramlı qüvvələrimizin NATO-nun Əfqanıstanda apardığı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatına hərbi və mülki sahədə töhfə verdiyini vurğuladı.

İclas başa çatdıqdan sonra Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə töhfə verən ölkələrin dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Daha sonra iclasda iştirak edən dövlət və hökumət başçıları birgə nahar etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak etdi.

AZƏRBAYCAN İLƏ PORTUQALİYA ARASINDA VİZALARIN LƏĞV OLUNMASI BARƏDƏ SAZİŞ İMZALANMIŞDIR

Lissabonda keçirilmiş NATO zirvə toplantısı çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Portuqaliyanın dövlət və xarici işlər naziri Luis Amadu ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Respublikası ilə Portuqaliya Respublikası arasında diplomatik, xidməti və xüsusi pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında saziş imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

NATO-nun zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Portuqaliyaya səfəri noyabrın 21-də başa çatmışdır.

Lissabonun beynəlxalq hava limanında Azərbaycan Prezidentini Portuqaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İSGƏNDƏRİYYƏ KİTABXANASI İLƏ ƏMƏKDAŞLIQ EDƏCƏKDİR

Ölkəmizdə səfərdə olan İsgəndəriyyə kitabxanasının direktoru İsmayıl Siracəddin noyabrın 20-də rəhbərlik etdiyi qurum ilə Azərbaycan Diplomatik Akademiyası (ADA) arasında əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

Görüşdə ADA-nın rektoru Hafiz Paşayev rəhbərlik etdiyi qurumun magistrlar və müxtəlif səviyyəli dövlət məmurları üçün təhsil proqramları həyata keçirdiyini demişdir.

H.Paşayev bildirmişdir ki, Akademiyanın yeni kitabxanasında ilkin olaraq yüz minədək kitab saxlanacaqdır. Müasir görünüşü və texnoloji təminatına görə isə Qafqazda ən böyük xarici dilli kitabxana olacaqdır. Kitabxanada işləyəcək mütəxəssislərin müvafiq təlim keçəcəyini və dünya kitabxanaları ilə yaxından əməkdaşlıq edəcəklərini vurğulayan rektor qeyd etmişdir ki, burada müasir texnologiyalardan istifadə olunacaqdır. İlk rəqəmsal kitabxana yaradılacaqdır.

ADA-nın genişlənmə planlarından, müasir kitabxana yaratmaq niyyətlərindən məmnun olduğunu deyən İ.Siracəddin dünyada müasir kitabxanaların istifadə etdiyi texnologiya-

lar, məlumatların arxivləşdirilməsi, kitabxanalar nəzdində araşdırma mərkəzlərinin yaradılması haqqında fikirləri ilə bölüşmüşdür.

Görüşdə İsgəndəriyyə kitabxanası ilə Azərbaycan Diplomatik Akademiyasının kitabxanası arasında əməkdaşlığa dair razılıq da əldə olunmuşdur.

Qonaqlar Akademiyanın yeni kitabxanası haqqında filmə də baxmışlar.

LİVANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ MOK-UN VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 20-də ölkəmizdə səfərdə olan Livanın gənclər və idman naziri Əli Hüseyn Abdullah Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə ilə görüşmüşdür.

Ç.Hüseynzadə MOK-un yaranma tarixi, fəaliyyəti, Azərbaycanda idman sahəsinin inkişafı istiqamətində görülmüş işlər, əldə olunmuş nailiyyətlər haqqında qonağa məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycanda idmanın inkişafına diqqət ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu qayğı hazırda MOK-un prezidenti, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xatırlatmışdır ki, Sinqapurda yeniyetmələr arasında Yay Olimpiya Oyunlarında 12 Azərbaycan idmançısı iştirak etmiş, onlardan 8-i ölkəmizə medalla dönmüşdür.

Livanlı nazir öz ölkəsində son dövrlərdə idmana diqqətin daha da artdığını qeyd etmişdir. Azərbaycanda bu sahədə əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirən nazir Azərbaycanın təcrübəsindən yararlanmaq istədiyini vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Noyabrın 22-də Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon söhbəti zamanı Azərbaycan Respublikası ilə Suriya Ərəb Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunmuşdur.

Azərbaycan və Suriya prezidentləri ikitərəfli münasibətlər və digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

MOSKVADA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

Noyabrın 22-də RF XİN-in İnformasiya və Mətbuat Departamenti Rusiyanın xarici işlər naziri S.Lavrovun, Azərbaycanın xarici işlər naziri E.Məmmədyarovun və Ermənistanın xarici işlər naziri E.Nalbandyanın işgüzar görüşü haqqında məlumat yaymışdır.

Məlumatda deyilir ki, üç ölkənin xarici siyasət idarəsinin başçıları Moskvada işgüzar görüş keçirmişlər. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aktual məsələlərin müzakirəsi davam etdirilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri, Almaniya hökumət koalisiyasına daxil olan Azad Demokrat Partiyasının fəxri sədri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri Hans-Ditrix Genşer ölkəmizdə gedən böyük inkişaf prosesləri barədə məlumatlı olduğunu və səfər müddətində Azərbaycanda sürətli iqtisadi inkişafın şahidi olduğunu dedi və bu inkişafın onda dərin təəssürat yaratdığını qeyd etdi. Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinə toxunan qonaq bu sahədə əldə edilən uğurların əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı son illər Azərbaycanda gedən sürətli iqtisadi inkişaf proseslərindən danışdı. Azərbaycan iqtisadiyyatının ən sürətlə artan iqtisadiyyat olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların önəmini qeyd etdi.

Görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, energetika sahəsi və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKUTEL-2010" BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR

Noyabrın 23-də Bakı Sərgi Mərkəzində "BakuTel-2010" XVI Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərgi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, XVI sərgidə dünyanın 15 ölkəsindən 115 şirkət iştirak edir. Yerli şirkətlərin ekspozisiyası sərginin ümumi ərazisinin təxminən 40 faizini tutur. Builki sərginin sahəsi ötənilki sərginin sahəsindən təxminən 30 faiz çoxdur. Sərginin daimi iştirakçılarının sayının 70 faizdən çox olması bu tədbirə marağın ilbəil artmasının göstəricisidir.

Dünyada baş verən iqlim dəyişiklikləri ilə bağlı problemlərin aktuallığı, həmçinin Azərbaycanda "Ekologiya ili" ilə əlaqədar olaraq builki sərgi "İKT və qlobal iqlim dəyişikliyi" devizi altında keçirilir.

Qeyd olundu ki, sərgi çərçivəsində konfrans, forum, seminar və təqdimatlar keçirilir. Builki sərgini fərqləndirən mühüm cəhətlərdən biri təqdim olunan yeni məhsul və xidmətlərin sayı ilə bağlıdır. Bununla əlaqədar ən yeni xarici və yerli informasiya avadanlığı, texnologiya və həll variantları nümunələri ilə tanış olmağa imkan verən "İnnovasiyalar ərazisi" layihəsi həyata keçirilir. Sərgidə proqram təminatı, naviqasiya sistemləri, simsiz texnologiyalar, intellektual sistemlər, müasir texnika və avadanlıq, digər yüksək texnologiyalı məhsullar nümayiş etdirilir.

Prezident İlham Əliyevə əvvəlcə "Aztelekom" və "Bakı Teleradio" İstehsalat birliklərinin pavilyonları təqdim olundu.

Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Prezident İlham Əliyevə "Regional innovasiya zonası" layihəsi barədə məlumat verdi. Qeyd edildi ki, bu layihənin yaradılmasından məqsəd kiçik və orta sahibkarlığın inkişafına dəstək vermək, İKT sahəsində insan resurslarını inkişaf etdirmək, xarici investisiyaları və qabaqcıl texnologiyaları cəlb etmək, İKT sahəsində ixrac potensialını gücləndirməkdir. Nazir bu layihə ilə bağlı görüləcək işlər barədə də dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, kompyuteri səslə idarəetmə sistemi olan "Dilmanc" ən son elmi-texniki yeniliklərə əsaslanır. "Dilmanc" layihəsi çərçivəsində nitqin tanınması, mətnlərin səsləndirilməsi və kompyuterin səslə idarə edilməsi sistemlərinin yaradılması üzrə işlər davam etdirilir. "Dilmanc"ın xüsusi cəhətlərindən biri də onun əlil insanlara kompyuterdən istifadə etmək imkanı yaratmasıdır.

Sonra Prezident İlham Əliyevə "Azərfon" şirkətinin yenilikləri təqdim olundu. 3G mobil televizor, kamera və sair avadanlıqların üstünlükləri dövlətimizin başçısının diqqətinə çatdırıldı.

Prezident İlham Əliyevə Sloveniyanın "Iskratel" şirkətinin Azərbaycandakı fəaliyyəti barədə məlumat verildi. Qeyd olundu ki, Azərbaycanda beş ildir fəaliyyət göstərən bu şirkət 2009-cu ildə ölkəmizdə nümayəndəliyini açmış və texnoloji servis mərkəzi yaratmışdır.

Çinin "Huawei" şirkətinin pavilyonu da zənginliyi ilə diqqəti cəlb edir. Prezident İlham Əliyevə məlumat verildi ki, bu iqtisadi qurum da Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları bazarının inkişafında yaxından iştirak edir. Qeyd olundu ki, bu şirkət sərginin baş sponsorudur.

Dövlətimizin başçısı Estoniyanın "BEST Solutions" şirkətinin fəaliyyəti ilə də tanış oldu. Bildirildi ki, bu şirkət Azərbaycanda "Elektron Hökumət" Dövlət İnformasiya Sisteminin yaradılmasında yaxından iştirak edir. Bu sistem dövlət qurumlarının elektron bazalarına tez və təhlükəsiz çıxışı təmin edir, kağız sənədlərinin həcmini azaldır, dövlət informasiya sistemində inteqrasiya imkanlarını genişləndirir, rəsmi orqanlarda qərarların qəbul edilməsi prosesinin sürətləndirilməsinə imkan yaradır.

Sonra Prezident İlham Əliyevə "Azedunet" Azərbaycan Təhsil Şəbəkəsi barədə məlu-

mat verildi. Bildirildi ki, bu layihə "2008-2012-ci illərdə Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində reallaşdırılır. Dövlətimizin başçısına "Təhsil" videoportalı barədə də məlumat verildi və internet vasitəsilə yayımlanan bir nümunəvi dərs təqdim olundu.

Prezident İlham Əliyev "Azercell" şirkətinin ölkəmizdəki yenilikləri ilə də tanış oldu. Dövlətimizin başçısına mobil telefonla ödəmə imkanları nümayiş etdirildi. Qeyd edildi ki, mobil telefonlar tezliklə operativ ödəmə imkanlarını daha da genişləndirəcəkdir. Prezident İlham Əliyevi 3.5G və 4G texnologiyalarının müqayisəli təhlili ilə tanış etdilər. Dövlətimizin başçısına "Azercell"in digər yenilikləri də təqdim olundu.

"Türk Telekom" da Azərbaycanın informasiya-kommunikasiya bazarının daha da inkişafı üçün dəstəyini əsirgəmir. Qeyd olundu ki, "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Malayziyanın "Measat" və ABŞ-ın aparıcı peyk istehsalçısı olan "Orbital" şirkətləri arasında müvafiq olaraq Malayziyaya məxsus orbital mövqedən birgə istifadəni və peykin istehsalını nəzərdə tutan əsas müqavilə imzalanmışdır. Prezident İlham Əliyevə bu istiqamətdə görüləcək işlər barədə də ətraflı məlumat verildi.

"Softline" şirkəti də 2006-cı ildən bəri Azərbaycanda fəaliyyətini genişləndirir. Dörd il ərzində iki min nəfər bu şirkətin hazırlıq kurslarında yüksək biliklərə yiyələnmişdir. Bu təlim kurslarına dövlət idarələri, kommersiya və digər qurumların əməkdaşları cəlb olunurlar.

"Delta Telekom" şirkəti də Azərbaycanda çoxşaxəli fəaliyyəti ilə fərqlənən iqtisadi qurumlardandır. Bildirildi ki, bu şirkət Azərbaycanda regionun ən böyük DATA mərkəzini tikmişdir. Respublikamızın əksər saytlarının internet resurslarının bu DATA mərkəzinə köçürülməsi işi daha da sürətləndirilir. Bildirildi ki, şirkət yeni internet kontent resurslarının yaradılması üzrə də konkret iş aparır. Ümumilikdə, "Delta Telekom" Azərbaycanın İKT sahəsində tranzit ölkəyə çevrilməsi üçün səyini əsirgəmir.

Sərgi ilə yaxından tanış olan Prezident İlham Əliyev "Evronyus" televiziyasına müsahibə verdi. Dövlətimizin başçısı ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı və sərgi barədə sualları cavablandırdı.

Daha sonra Prezident İlham Əliyevə Misirin məşhur İsgəndəriyyə kitabxanasının "Cultnat" strukturunun "Culturama" layihəsi təqdim edildi. Layihə çərçivəsində 9 interaktiv ekran vasitəsilə Misirin tarixi barədə xronoloji ardıcıllıqla materiallar nümayiş etdirildi. Qeyd olundu ki, bu layihə xarici ölkələrdə 16-cı dəfədir təqdim edilir.

Prezident İlham Əliyev Azərbaycanın rabitə və informasiya-kommunikasiya texnologiyaları bazarının daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU MİLLİ MƏCLİSİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Misir Ərəb Respublikasının İsgəndəriyyə kitabxanasının direktoru, senator İsmayıl Siracəddin noyabrın 23-də Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşmüşdür.

Oqtay Əsədov qonağı səmimi salamlayaraq onu Milli Məclisdə görməyindən məmnun olduğunu bildirmişdir. Milli Məclisin sədri demişdir ki, ölkələrimiz arasında dostluq əlaqələri sürətlə inkişaf edir. Bu əməkdaşlığın qədim tarixi kökləri vardır. Hələ keçmiş sovetlər dövründə Azərbaycan ilə Misir arasında mehriban dostluq əlaqələri olmuşdur. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə Misir Prezidenti Hüsni Mübarək arasındakı dostluq münasibətləri əməkdaşlığımızın inkişafı üçün yaxşı zəmin yaratmışdır. Bu gün bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

O.Əsədov Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ilə Misir Prezidentinin xanımı Syuzan Mübarəkin bir sıra humanitar sahələrdə əməkdaşlığının ölkələrimizin tərəqqisinə xidmət etdiyini vurğulamışdır. Bildirilmişdir ki, Azərbaycanın birinci xanımı İsgəndəriyyə kitabxanasının Qəyyumlar Şurasının Fəxri üzvü seçilmişdir.

Ölkələrimiz arasında bu günədək 48 sənəd imzalanmışdır. Hər iki ölkə neft və qaz hasil edən dövlətlər kimi dünya enerji bazarının tənzimlənməsində mühüm rol oynayır. İqtisadi münasibətlərimizin dərinləşməsi üçün geniş imkanlar mövcuddur.

Ölkələrimiz arasında parlamentlər səviyyəsində əməkdaşlıq da çox əhəmiyyətlidir. Hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımız müxtəlif beynəlxalq qurumlarda prinsipial məsələlərdə eyni mövqedən çıxış edirlər.

Söhbətdə tarixi qədim dövrlərə gedib çıxan mədəni əlaqələrimizin dinamik inkişafından söz açan O.Əsədov Misirin İsgəndəriyyə kitabxanası ilə Azərbaycan kitabxanaları arasında yaranan əməkdaşlığın əhəmiyyətini yüksək dəyərləndirmişdir. Qeyd edilmişdir ki, xalqımızın tarixi-mədəni, elmi-estetik irsinin qorunub saxlanmasında, cəmiyyətimizin intellektual potensialının yüksəlməsində kitabxanalar əvəzsiz rol oynayır. Bu gün müstəqil Azərbaycanda 12 mindən çox müxtəlif tipli kitabxana fəaliyyət göstərir. Ölkə rəhbərliyi bu sahəni daim diqqət mərkəzində saxlayır.

Milli Məclisin sədri Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində Misirin ölkəmizin mövqeyini müdafiə etməsini yüksək dəyərləndirmişdir. O, İsmayıl Siracəddinin səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına müsbət təsiri göstərəcəyinə inamını ifadə etmişdir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən qonaq Azərbaycanda gördüyü inkişafdan və səfər müddətində keçirdiyi görüşlərdən məmnun olduğunu bildirmişdir. O demişdir ki, Misir oxşar mədəniyyətə malik Azərbaycan ilə həyatın müxtəlif sahələrində əməkdaşlığın inkişafına böyük maraq göstərir. Ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar, mədəni sahələrdə mövcud olan əməkdaşlıq yüksələn xətlə inkişaf etməkdədir. Dövlətlərimizin başçıları arasında mövcud olan dostluq münasibətləri dövlətlərarası əlaqələrə də öz müsbət təsirini göstərir.

Bu gün Misirin müxtəlif dövlət qurumları ilə Azərbaycanın müvafiq strukturları arasında hər iki xalqın mənafeyinə xidmət edən əməkdaşlıq mövcuddur. Biz gələcəkdə də əlaqələrimizi dərinləşdirmək niyyətindəyik.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

BAKIDA REGİONAL RABİTƏ BİRLİYİNİN RABİTƏ ADMİNİSTRASİYALARI BAŞÇILARI ŞURASININ 43-CÜ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 23-də "Hyatt Regency-Naxçıvan" mehmanxanasında "Bakutel-2010" sərgisi çərçivəsində Regional Rabitə Birliyinin (RRB) Rabitə Administrasiyaları Başçıları Şurasının 43-cü iclası keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Azərbaycanda RRB-yə üzv dövlətlərlə əməkdaşlığa böyük əhəmiyyət verildiyini vurğulamış, bu əlaqələrin respublikada informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafına imkan yaratdığını qeyd etmişdir.

Beynəlxalq Elektrorabitə İttifaqı baş katibinin müavini Xoulin Çjao tədbirdə qəbul olunacaq qərarların əməkdaşlığın inkişafına və möhkəmləndirilməsinə töhfə verəcəyini diqqətə çatdırmışdır.

Tədbirdə rabitə administrasiyalarının Beynəlxalq Telekommunikasiya İttifaqının forumlarına hazırlıq istiqamətində qarşılıqlı fəaliyyəti, informasiya texnologiyaları və dövlət xidmətləri sistemlərinin inkişafı, RRB-nin daxili fəaliyyəti və digər vacib məsələlərə baxılmışdır. RRB-yə daxil olan ölkələrdə peyk rabitəsinin inkişafı, rəqəmsal yayımın vəziyyəti, yeni elektron rabitə xidmətləri, poçt xidmətlərinin inkişafı və bu sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

İclasda Rusiyanın Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyi ilə "İnterputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatı arasında saziş, həmçinin RRB ilə Panafrika Poçt İttifaqı arasında poçt sahəsində 2011-2016-cı illəri əhatə edən əməkdaşlıq proqramı imzalanmışdır.

Sonda iştirakçılar Azərbaycan hökumətinə və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, İQTİSADİYYAT NAZİRİ VALDEMAR PAVLYAKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Polşa Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Polşanın Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini bildirdi. Bakıda keçiriləcək Azərbaycan-Polşa hökumətlərarası birgə komissiyanın iclasına toxunan Prezident İlham Əliyev dedi ki, bu iclas münasibətlərimizin inkişaf etdirilməsi ilə bağlı qarşıda duran məsələlərə yenidən baxmaq üçün yaxşı fürsət yaradacaqdır. Dövlətimizin başçısı fəal əməkdaşlığımızın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu vurğuladı.

Polşa Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyak ölkəmizdə həyata keçirilən nəhəng tikinti-quruculuq işlərinə və əldə edilən dinamik inkişafa görə Prezident İlham Əliyevi təbrik etdi. O, Azərbaycan Prezidentinin Polşaya rəsmi səfərini və səfər zamanı onunla görüşünü məmnunluqla xatırladı. Valdemar Pavlyak Polşa-Azərbaycan hökumətlərarası birgə komissiyanın iclasının əməkdaşlığımızın daha da genişləndirilməsi işinə yeni təkan verəcəyini vurğuladı. İş adamlarının qarşılıqlı fəaliyyəti üçün lazım olan sahələrin müəyyən edilməsinin zəruriliyini qeyd edən qonaq Polşanın özəl biznes nümayəndələrinin Azərbaycanda böyük məmnuniyyətlə işləmək arzusunda olduqlarını dedi.

Polşa iş adamlarının Bakıda keçiriləcək biznes forumundan danışan Prezident İlham Əliyev həmin tədbirdə Azərbaycanda həyata keçiriləcək layihələrlə bağlı məlumatların da təqdim ediləcəyini və bunun polşalı iş adamları üçün çox maraqlı olacağını bildirdi.

BAŞ NAZİR POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan ilə Polşa arasında iqtisadi sahədə əlaqələrin yüksək səviyyəyə çatdırılması üçün böyük potensial vardır.

Bu fikir noyabrın 24-də Azərbaycanın Baş naziri Artur Rasizadə ilə Polşa Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakla görüşündə səslənmişdir.

A.Rasizadə son illər Polşa ilə Azərbaycan arasında siyasi və mədəni sahədə çox yaxşı əlaqələrin qurulduğunu diqqətə çatdıraraq, iqtisadi sahədə əməkdaşlığın yüksək səviyyəyə çatdırılması üçün böyük potensialın olduğunu bildirmişdir. Azərbaycan hökumətinin başçısı qarşılıqlı səfərlərin yüksək səviyyədə olan ikitərəfli əlaqələrin inkişafına böyük təkan verəcəyinə əminliyini diqqətə çatdırmışdır.

Ölkəmizin iqtisadi potensialı barədə danışan A.Rasizadə Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çıxarılmasına istiqamətləndirilmiş xəttin davam etdiriləcəyini söyləmişdir.

Qonaqları xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandıran Baş nazir demişdir ki, təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından problem hələ də həllini tapmamışdır.

Polşa Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyak Azərbaycanda sabit iqtisadi inkişafı xüsusi vurğulayaraq, Polşanın bütün sahələrdə ölkəmizlə əməkdaşlığın daha da dərinləşməsində maraqlı olduğunu söyləmişdir. V.Pavlyak ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğulamışdır. O, Polşanın iri enerji müəssisələrinin özəlləşdirilməsində Azərbaycan şirkətlərinin iştirakında maraqlı olduqlarını diqqətə çatdırmışdır.

XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycanda səfərdə olan Polşa Baş nazirinin müavini və iqtisadiyyat naziri Valdemar Pavlyak noyabrın 24-də xarici işlər naziri Elmar Məmmədyarovla görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Polşa arasında iqtisadi əməkdaşlığın inkişafı və regional məsələlər müzakirə olunmuşdur.

Nazir E.Məmmədyarov bu əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu, Xəzər dənizinin enerji resurslarının Avropaya nəqlinin prioritet təşkil etdiyini vurğulamış və bu məsələdə Avropa İttifaqının mövqeyinin mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. E.Məmmədyarov Azərbaycanın və Polşanın iş adamları arasında təmasların artırılmasının vacibliyini qeyd etmişdir.

Valdemar Pavlyak Azərbaycanın strateji mövqeyə malik olduğunu vurğulamış, Polşanın da ciddi tərəfdaşlarla əməkdaşlıq etmək istəyində olduğunu qeyd etmişdir. O, ölkələrimiz arasında biznes imkanlarının genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCANIN XARİCİ SİYASƏT İDARƏSİ İLƏ ARGENTİNANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ DİN MƏSƏLƏLƏRİ NAZİRLİYİ ARASINDA MEMORANDUM İMZALANMIŞDIR

Noyabrın 24-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Argentinanın xarici işlər, beynəlxalq ticarət və din məsələləri üzrə nazir müavini Alberto Pedro D'Alotto ilə görüşmüşdür.

Görüşdə Azərbaycana gəlişindən məmnunluğunu ifadə edən qonaq ölkəmizdə gedən inkişaf prosesinin əyani şahidi olduğunu demişdir. Bu il Argentinada Azərbaycan səfirliyinin açılmasını yüksək qiymətləndirən A.D'Alotto ölkəsinin də eyni addımı atmağa hazırlaşdığını söyləmişdir.

Azərbaycan ilə Argentina arasında əlaqələrin bir çox sahələrdə inkişafı üçün geniş potensialın olduğunu vurğulayan E.Məmmədyarov qarşılıqlı səfərlərin təşkili, iş adamları arasında münasibətlərin yaradılması üçün biznes forumların və digər tədbirlərin həyata keçirilməsinin zəruriliyindən danışmışdır. Nazir qeyd etmişdir ki, ölkəmizin xarici siyasətinin başlıca prioriteti Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasıdır.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesi barədə qonağa məlumat vermişdir.

A. D'Alotto ölkəsinin ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə dəstək verdiyini bildirmişdir.

Görüşdə "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Argentina Respublikasının Xarici İşlər, Beynəlxalq Ticarət və Din məsələləri üzrə Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Anlaşma Memorandumu" imzalanmışdır.

Sənədi Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Xələf Xələfov, Argentina tərəfdən isə A.D'Alotto imzalamışlar.

BAKIDA AZƏRBAYCAN-POLŞA BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Noyabrın 24-də Bakıda Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Polşa biznes forumu keçirilmişdir. Biznes

forum Polşanın baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakın Azərbaycana səfəri çərçivəsində təşkil olunmuşdur.

Tədbirdə hər iki ölkəni təmsil edən rəsmi şəxslərlə yanaşı, səhiyyə, maliyyə, turizm, təhsil, sənaye, kənd təsərrüfatı, tikinti, bərpa olunan enerji və sair sahələrdə fəaliyyət göstərən 30-a yaxın iş adamı iştirak etmişdir.

Forumun açılışında Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev və Valdemar Pavlyak ölkələrimiz arasında mövcud olan və tarixi köklərə söykənən siyasi və iqtisadi əlaqələrin intensivliyindən, inkişaf dinamikasından məmnunluqlarını ifadə etmişlər. Qeyd olunmuşdur ki, son bir ildə Azərbaycandan Polşaya ixrac edilən məhsulların həcmi iki dəfə artmışdır.

İqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərov tədbirin keçirilməsinin əsas məqsədinin mövcud iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi, bu zəmində iş adamları arasında əməkdaşlığın genişləndirilməsinə dəstək olduğunu bildirmişdir.

Məlumat verilmişdir ki, hazırda ölkələr arasında 93 milyon ABŞ dolları məbləğində ticarət dövriyyəsi vardır. Polşanın iqtisadiyyat nazirinin müavini Dariuş Boqdan bu rəqəmin hazırkı potensialı əks etdirmədiyini vurğulamışdır.

Daha sonra hər iki ölkə barədə film nümayiş etdirilmiş, tarixi inkişaf yolları və iqtisadi göstəricilər barədə təqdimatlar olmuşdur.

Biznes forum çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Polşanın İnformasiya və Xarici İnvestisiya Agentliyi (PALiLZ) arasında qarşılıqlı əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır. Sənədi AZPROMO-nun prezidenti Adil Məmmədov və PALiLZ-in prezidenti Slavomir Marjman imzalamışlar.

Həmçinin Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Polşa İşəgötürənlər Assosiasiyası arasında da qarşılıqlı əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır. Sənədi hər iki qurumun rəhbərləri - Məmməd Musayev və Andjey Malinovski imzalamışlar.

İmzalanma mərasimindən sonra Azərbaycanın sənaye və energetika naziri Natiq Əliyev jurnalistlərə müsahibəsində memorandumları qarşılıqlı əlaqələrin potensialının artırılması yolunda atılmış addım kimi qiymətləndirdiyini demişdir.

BAKIDA AZƏRBAYCAN-POLŞA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ 4-CÜ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 24-də Bakıda Azərbaycan-Polşa iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyasının 4-cü iclası keçirilmişdir.

Komissiyanın Azərbaycan tərəfdən həmsədri, sənaye və energetika naziri Natiq Əliyev ölkələrimiz arasında əməkdaşlığın vacibliyini vurğulayaraq, əlaqələrimizin əsasının enerji sektoru təşkil etdiyini söyləmişdir. Ölkələrimizin iqtisadi vəziyyəti, ikitərəfli ticarət münasibətlərimizdə daha böyük nailiyyətlər əldə etməyə imkan verir. Müxtəlif

sahələrdə əməkdaşlıq üçün potensial çox böyükdür.

N.Əliyev iki ölkə arasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, səhiyyə, nəqliyyat və s. sahələrdə əməkdaşlığın inkişaf etdirilə biləcəyini də vurğulamışdır.

Tədbirdə Azərbaycan tərəfi nəqliyyat əlaqələrinin, o cümlədən Varşava-Bakı aviareysinin açılması, dəmiryolu və avtomobil nəqliyyatı daşımalarının aktivləşdirilməsi barədə təkliflər vermişdir.

Polşa Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyak ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıqda maraqlı olduğunu söyləmişdir. Polşa Avropa İttifaqının üzvüdür və bu baxımdan Azərbaycan ilə əməkdaşlıq ölkələrimiz üçün faydalı ola bilər. Azərbaycan ilə enerji sahəsində əməkdaşlığa böyük əhəmiyyət verdiklərini deyən qonaq Odessa-Brodı-Plotsk-Qdansk ("Sarmatiya" layihəsi) neft kəməri layihəsini müasirləşdirməyi təklif etmişdir. O, kəmərin yaradılması ilə məşğul olan "Sarmatiya" konsorsiumunun fəaliyyətinə yenidən baxmağı və onun bu günün reallıqlarına uyğunlaşdırmağın vacibliyini söyləmişdir. Bu təkliflər layihənin effektivliyinin artırılmasına yönəlmişdir. Polşa bu layihəyə çox böyük əhəmiyyət verir.

"Sarmatiya" layihəsi Xəzər neftini Ukrayna vasitəsilə Avropa İttifaqı ölkələrinə çatdırmağı nəzərdə tutur. "Sarmatiya" konsorsiumunun pay sahiblərindən biri Azərbaycan Respublikası Dövlət Neft Şirkətidir.

V.Pavlyak ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən inşaat, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir. Bu yaxınlarda Polşada iri müəssisələrin özəlləşdirilməsinə başlanacaqdır. Biz Azərbaycan şirkətlərini də bu işdə yaxından iştirak etməyə, sərmayələr yatırmağa çağırırıq.

Sonda Azərbaycan-Polşa iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə komissiyasının 4-cü iclasının yekun protokolu imzalanmışdır.

ARDNŞ-İN PREZİDENTİ ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Almaniya ilə Azərbaycan arasında digər sahələrdə olduğu kimi enerji sektorunda da əlaqələrin inkişafı üçün böyük imkanlar mövcuddur. Bu fikir noyabrın 23-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (ARDNŞ) Almaniyanın keçmiş xarici işlər naziri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə səslənmişdir.

Görüşdə şirkətin prezidenti Rövnəq Abdullayev təcrübəli diplomat və siyasi xadimlə görüşdən məmnunluğunu ifadə etmişdir. Hans-Ditrix Genşer Azərbaycanın müstəqillik dövründə böyük uğurlar qazandığını söyləmiş və ölkədə gedən sürətli iqtisadi inkişafın şahidi olduğunu bildirmişdir. O qeyd etmişdir ki, Azərbaycanın götürdüyü inkişaf və tərəqqi kursu konstruktivliyi ilə beynəlxalq aləmdə dərin rəğbət doğurur. Almaniya ilə Azərbaycan arasında iqtisadi münasibətlərə toxunan qonaq digər sahələrdə olduğu kimi enerji sektorunda da əlaqələrin inkişafı üçün böyük imkanların mövcudluğunu söyləmişdir. O, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun vacib-

liyini xüsusi vurğulamışdır.

Azərbaycanda qazanılan uğurları yüksək qiymətləndirdiyinə görə Hans-Ditrix Genşerə minnətdarlığını bildirən Rövnəq Abdullayev ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş yeni neft strategiyası çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı işlərin müstəsna əhəmiyyət kəsb etdiyini nəzərə çatdırmışdır. O, Azərbaycanda həyata keçirilən enerji layihələri haqqında ətraflı söz açmış, qısa müddətdə yaradılmış etibarlı ixrac neft-qaz kəmərləri sisteminin təkcə ölkəmizin deyil, bütün Xəzər regionu ölkələrinin enerji resurslarının nəql edilməsində mühüm rol oynadığından danışmışdır. Bildirmişdir ki, hazırda uğurla davam etdirilən "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələri ilə yanaşı digər perspektivli struktur və yataqlarda da səmərəli iş aparılır. Bu da yaxın müddətdə həm davamlı neft və qaz ixracatçısı, həm də etibarlı tranzit ölkə kimi Azərbaycanın mövqelərini daha da gücləndirəcəkdir. Azərbaycan dəfələrlə ən yüksək səviyyədə bəyan etmişdir ki, Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət daşıyan "Cənub dəhlizi" layihəsini dəstəkləyir və enerji resurslarının şaxələndirilməsinin tərəfdarıdır.

KƏND TƏSƏRRÜFATI NAZİRİ ARGENTİNANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ DİN MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİNİN MÜAVİNİ ALBERTO PEDRO D'ALOTTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 24-də kənd təsərrüfatı naziri İsmət Abasov Argentinanın xarici işlər, beynəlxalq ticarət və din məsələləri üzrə nazirinin müavini Alberto Pedro D'Alottonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında aqrar sahədə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

İ.Abasov Prezident İlham Əliyev tərəfindən aqrar sahəyə göstərilən dövlət qayğısından, regionların sosial-iqtisadi inkişafından, əldə olunmuş uğurlardan, ölkədə yaradılmış əlverişli investisiya mühitindən söhbət açmışdır.

Argentinanın Türkiyə və Azərbaycandakı səfiri Armando Juan Jose Maffei ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasını, qida məhsullarının keyfiyyətinə nəzarət və sertifikatlaşdırma, yeni texnologiyaların tətbiqi sahəsində, fermer və kəndli sahibkarların təcrübə mübadiləsi istiqamətində əməkdaşlığın vacibliyini vurğulamışdır.

KİYEVDƏ GUAM ÖLKƏLƏRİNİN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏR ŞURASININ 20-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 23-24-də GUAM Katibliyinin mənzil-qərargahında GUAM-ın Milli Əlaqələndiricilər Şurasının (MƏŞ) 20-ci iclası keçirilmişdir.

İclasda xarici işlər nazirlərinin müavinləri Araz Əzimov (Azərbaycan), Oleksandr Qorin (Ukrayna), David Calaqaniya (Gürcüstan), Moldovanın Kiyevdəki səfiri İ.Stevile və

GUAM-ın Baş katibi Valeri Çeçelaşvili iştirak etmişlər.

MƏŞ təşkilatın fəaliyyəti, onun iştirakçısı olan dövlətlərin qarşılıqlı siyasi əlaqələri, parlamentlərarası və sahəvi əməkdaşlıq, GUAM-ın digər dövlətlər və təşkilatlarla münasibətləri məsələlərini müzakirə etmişdir.

Forum iştirakçıları MDB məkanında həlli uzanan münaqişələrə dair müntəzəm fikir mübadiləsini davam etdirmiş, BMT ilə GUAM arasında əməkdaşlığa dair qətnamə təklif edilməsi barədə Gürcüstanın təşəbbüsünü dəstəkləmiş, GUAM üzvü olan dövlətlərin digər beynəlxalq təşkilatların yanında diplomatik nümayəndəliklərinin qarşılıqlı fəaliyyət planlarının layihələrini razılaşdırmışlar.

Tərəflər GUAM-ın Xarici İşlər Nazirləri Şurası (XİNŞ) tərəfindən razılaşdırılmış 2011-2012-ci illər üçün sahəvi işçi qrupların əlaqələndirici ölkələrinin namizədliyinə dair təklifləri təsdiq olunmağa təqdim etmiş, GUAM-ın işçi orqanlarının sahəvi əməkdaşlığı və fəaliyyəti məsələlərini nəzərdən keçirmişlər.

MƏŞ razılığa gələn tərəflərin GUAM iştirakçısı olan dövlətlər arasında Sərbəst Ticarət zonası yaradılması haqqında 20 iyul 2002-ci il tarixli sazişin müddəalarının yerinə yetirilməsinə dair fəaliyyətini əlaqələndirən işçi orqanın fəaliyyət mexanizminin, Ümumdünya Ticarət Təşkilatının standartlarına uyğun olaraq GUAM üzvü olan dövlətlərin mallarının mənşə ölkəsinin müəyyən edilməsi qaydalarının layihəsini, "İnvestisiya forumu", təşkilatın İşgüzar şurasının növbəti iclasının və "GUAM-da ən yaxşı bank-2010" müsabiqənin keçirilməsi təşəbbüsünü dəstəkləmişdir.

İclasda bu il sentyabrın 24-dən 26-dək Tokioda keçirilmiş Ümumdünya Turizm sərgisində "GUAM-Yaponiya" turizm məhsulunu hazırlayanların birgə iştirakı, Yaponiya tərəfindən GUAM üçün turizm məsələlərinə və turizm üzrə işçi qrupun Yaponiyanın turizm agentlikləri və kütləvi informasiya vasitələri üçün informasiya və mətbuat turlarının təşkil edilməsi planlarına dair növbəti seminar hazırlanmasını müsbət qiymətləndirmişlər.

MƏŞ terrorizmə, mütəşəkkil cinayətkarlığa və narkotiklərin yayılmasına qarşı mübarizə üzrə işçi qrupun və onun işçi alt qruplarının səmərəli işini, o cümlədən cari ilin sentyabr-oktyabr aylarında GUAM iştirakçısı olan dövlətlərin hüquq mühafizə orqanlarının "Narkostop-2010" və "Perexvat-2010" birgə əməliyyatlarının keçirilməsini, "İnformasiya bülleteni"nin yaradılmasını və GUAM iştirakçısı olan dövlətlərdə cinayətkarlığın vəziyyəti barədə başlanmış informasiya mübadiləsini, təşkilatın iştirakçısı olan dövlətlərin hüquq mühafizə və digər səlahiyyətli orqanları arasında əməliyyat əməkdaşlığının möhkəmlənməsi üçün GUAM-ın Virtual Mərkəzinin mexanizmlərinin yaradılması niyyətini, GUAM Dövlətlərarası İnformasiya-Analitik Sisteminin milli seqmentlərinin modernləşdirilməsi üzrə GUAM-ABŞ Çərçivə Proqramı layihəsinin ikinci mərhələsinin başa çatmasını qeyd etmişdir.

Tərəflər Fövqəladə Hallar üzrə İşçi Qrupun (FHİQ) 2010-cu il üçün iş planının yerinə yetirilməsi haqqında hesabatı və İşçi Qrupun 2011-ci il üçün iş planını qəbul etmiş, Xarici İşlər Nazirləri Şurasına fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələlərinə dair birgə komissiya yaradılması haqqında qərar qəbul etməyi təklif etmişlər. MƏŞ fövqəladə halların qarşısının alınması sahəsində birgə GUAM-Yaponiya seminarının təşkil edilməsi, eləcə də "Şərq

tərəfdaşlığı" - "Təbii və texnogen fəlakətlərin qarşısının alınması, onlara hazır olmaq və reaksiya vermək" və "Sərhədlərin inteqrasiya olunmuş şəkildə idarə edilməsi" adlı "flaqman" təşəbbüslərin həyata keçirilməsində GUAM iştirakçısı olan dövlətlərin milli fövqəladə hallar orqanlarının və sərhəd idarələrinin iştirakının təmin edilməsi üzrə işləri qeyd etmişdir.

Forum iştirakçıları GUAM-ın ABŞ, Yaponiya, Vışeqrad qrupu ölkələri (Polşa, Macarıstan, Çexiya və Slovakiya) ilə, marağı olan Baltik və Skandinaviya ölkələri, beynəlxalq təşkilatlarla əməkdaşlığının perspektivlərini müzakirə etmişlər.

Noyabrın 24-də MƏŞ-in iclası çərçivəsində GUAM-ın rabitə kanalları üçün informasiyanın kriptoqrafik müdafiə qurğuları göndərilməsinə dair GUAM ilə bu qurğuların istehsalçı şirkəti arasında kontraktın imzalanma mərasimi də olmuşdur.

Bundan əlavə, tərəflər ATƏT-in sammiti çərçivəsində (Astana, 1-2 dekabr 2010-cu il) XİNŞ-in 13-cü iclasının müvafiq sənədlərinin layihələri ilə bağlı məsələləri də müzakirə etmiş və razılaşdırmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN BAŞ NAZİRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Türkmənistanın Baş nazirinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.

Baş nazirin müavini Xıdır Saparlıyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Türkmənistan Prezidentinin ölkələrimiz arasında münasibətlərin inkişafına böyük önəm verdiyini dedi, Hökumətlərarası Birgə Komissiyanın müəyyən edilmiş tapşırıqlar əsasında səmərəli və fəal işlədiyini vurğuladı. Qonaq Türkmənistan Prezidentinin komissiyanın daha məhsuldar işləməsi üçün əlavə tapşırıqlar verdiyini də bildirdi.

Dövlətimizin başçısı bu yaxınlarda Türkmənistan Prezidenti ilə Bakıda görüşdüyünü və səmərəli danışıqlar apardıqlarını xatırladı. Xəzəryanı ölkələrin dövlət başçılarının dənizdə qarşılıqlı fəaliyyət və ikitərəfli münasibətlər çərçivəsində keçirilən sammitini uğurlu tədbir kimi qiymətləndirən Prezident İlham Əliyev zirvə görüşündə yaxşı qərarlar qəbul olunduğunu qeyd etdi. Azərbaycan ilə Türkmənistan arasında münasibətlərin inkişafından razı qaldığını deyən dövlətimizin başçısı Türkmənistan Prezidenti ilə əlaqələrimizin inkişafına dair mühüm məsələləri müzakirə etdiklərini də diqqətə çatdırdı.

Dövlətimizin başçısı Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu

(Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

BAŞ NAZİR TÜRKMƏNİSTANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Azərbaycan-Türkmənistan Hökumətlərarası Komissiyanın iclasında iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Baş nazir qonaqlara Azərbaycanın son illər əldə etdiyi iqtisadi uğurlar barədə məlumat vermiş və bu uğurların ölkədə aparılan düzgün siyasətin qanunauyğun nəticəsi olduğunu bildirmişdir.

Azərbaycan ilə Türkmənistan arasında bir çox sahələrdə əlaqələrin son illər daha da genişləndiyini vurğulayan A.Rasizadə, bu əlaqələrin xüsusilə siyasi, iqtisadi, mədəni, elmi sahələrdə yüksələn xətlə inkişafda olduğunu diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, ölkələrimiz arasındakı əməkdaşlığın uğurlu nəticələri göz qabağındadır və onların daha yüksək səviyyəyə çatdırılması üçün böyük potensial vardır.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Xıdır Saparlıyev Bakının gözəlliyinə heyranlığını vurğulamışdır. O, iclasdan məhsuldar nəticələr əldə ediləcəyinə, tədbirin ölkələrimiz arasındakı əlaqələrin inkişafına təkan verəcəyinə əmin olduğunu bildirmişdir.

Artur Rasizadə Komissiyanın iclasının işinə uğurlar arzulamışdır.

BAKIDA AZƏRBAYCAN-TÜRKMƏNİSTAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 25-də Bakıda Azərbaycan-Türkmənistan Hökumətlərarası Birgə Komissiyasının ikinci iclası keçirilmişdir.

Komissiyanın həmsədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov ölkələrimiz arasındakı əlaqələrin son illərdə daha uğurlu inkişafından danışmışdır. Bildirmişdir ki, dövlətlərimizin başçılarının səyləri ölkələrimizin əməkdaşlıq əlaqələrini gücləndirmişdir. İndiyədək həyata keçirilən bütün tədbirlər, layihələr ölkələrimiz arasındakı münasibətləri daha da yaxınlaşdırır, inkişaf etdirir. Ticarət əlaqələrinin genişləndiyinə də toxunan Y.Eyyubov son bir ildə ölkələrimiz arasındakı ticarət dövriyyəsinin təxminən 7 dəfə artdığını bildirmişdir. Vurğulamışdır ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi onun Asiya və Avropa arasında tranzit ölkə kimi rolunu artırır.

Türkmənistan Baş nazirinin müavini Xıdır Saparlıyev Prezident Qurbanqulu Berdiməhəmmədovun salamlarını iclas iştirakçılarına çatdırmışdır. Qonaq Hökumətlərarası Birgə Komissiyanın müəyyən edilmiş tapşırıqlar əsasında səmərəli və fəal işlədiyini bil-

dirmişdir. Qeyd etmişdir ki, son illər neft, qaz, mədəniyyət, elm və s. sahələrdə dəfələrlə ortaq tədbirlər keçirilmişdir və bu ənənə davam etdiriləcəkdir. Humanitar sahədə, xüsusilə də elmi tədqiqatlar, dənizçilik işi sahələrində əməkdaşlığı genişləndirmək vacibdir. Türkmənistan dənizçilik işi sahəsində Azərbaycanın təcrübəsini öyrənməkdə maraqlıdır. Bu, Türkmənistanda aparılan gənclər siyasətinin bir hissəsi ola bilər. Qonaq ölkələrimizin özəl sektorlarının da əməkdaşlığa cəlb olunmasının məqsədəuyğunluğunu vurğulamışdır.

Sonda iclasın yekunlarına dair protokol imzalanmışdır.

AZƏRBAYCAN İLƏ FRANSA ARASINDA KONSTİTUSİYA ƏDALƏT MÜHAKİMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Noyabrın 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin binasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəvəti ilə Bakıda rəsmi səfərdə olan Paris Yuxarı İnstansiya Məhkəməsinin prokuror müavini xanım Fransauz Gilyon ilə görüşmüşdür.

Görüşdə 2010-cu il iyunun 22-də qəbul edilmiş və Azərbaycan Prezidentinin 2010-cu il 1 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun əsas prinsipləri və implementasiyası haqqında fikir mübadiləsi aparılmışdır.

F.Abdullayev Konstitusiya Məhkəməsinin qəbul etdiyi bir sıra qərarlarda Azərbaycan Respublikasının Konstitusiyasından, qanunvericiliyindən və tərəfdar çıxdığı beynəlxalq sənədlərdən irəli gələn gender bərabərliyi prinsipini daim tətbiq etməsi ilə bağlı qonaqlara məlumat vermişdir.

Xanım Fransauz Gilyon bu sahədə Fransa təcrübəsindən danışmışdır.

Görüşdə, həmçinin konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ ARGENTİNANIN DİPLOMATİK XİDMƏT İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR

Argentinanın xarici işlər, beynəlxalq ticarət və din məsələləri üzrə nazir müavini Alberto Pedro D'Alotto noyabrın 25-də Azərbaycan Diplomatik Akademiyasının (ADA) rektoru Hafiz Paşayev ilə görüşmüşdür.

Görüşdə H.Paşayev demişdir ki, Argentina elm, informasiya texnologiyaları və kənd təsərrüfatı sahələrində ciddi nailiyyətlərə imza atmışdır. Eyni zamanda, Argentina Cənubi Amerikada xüsusi nüfuza malikdir. Bu baxımdan burada Azərbaycan haqqında ətraflı məlumatların yayılması vacibdir.

A.D'Alotto Azərbaycanda gördüklərindən məmnun olduğunu, ölkəmizin siyasi və iqtisadi cəhətdən inamla inkişaf etdiyini vurğulamışdır.

Sonra ADA ilə Argentinanın Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Sənədə əsasən ADA ilə Argentinanın Diplomatik Xidmət İnstitutu arasında tələbə, tədqiqat və elmi mübadilələr həyata keçiriləcəkdir. Həmçinin Argentinanın universitetlərinin birində Azərbaycan mərkəzinin, ADA-da isə Latın Amerikası ilə bağlı araşdırmalar aparacaq mərkəzin açılması nəzərdə tutulmuşdur. Qərara alınmışdır ki, ADA-da təhsil alan argentinalı tələbələrə təqaüd verilsin.

ARGENTİNA ŞİRKƏTLƏRİ ARDNŞ İLƏ ƏMƏKDAŞLIQ QURMAQ NİYYƏTİNDƏDİRLƏR

Noyabrın 24-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətində (ARDNŞ) Argentina xarici işlər nazirinin müavini Alberto Pedronun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Görüşdə şirkətin emal üzrə vitse-prezidenti David Məmmədov Azərbaycanda neftçıxarmanın qədim tarixindən danışmış, qonaqlara son dövrdə ölkənin enerji sektorunda həyata keçirilən işlər və qazanılmış uğurlar barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yeni neft strategiyası ölkə iqtisadiyyatında əldə edilən nailiyyətlərin əsasını qoymuşdur. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə start götürən genişmiqyaslı işlərdən bəhs edən D.Məmmədov "Azəri-Çıraq-Günəşli" neft, "Şahdəniz" qaz-kondensat yataqlarının işlənməsi üzrə həyata keçirilən layihələrin rolunu xüsusi qeyd etmişdir. Dünyanın aparıcı neft-qaz şirkətləri ilə qurulan əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Cənubi Qafqaz qaz boru kəmərlərinin işə salınması, bununla da ölkənin və regionun enerji daşıyıcılarının müxtəlif istiqamətlərdə nəql edilməsinə imkan verən etibarlı ixrac-nəql sisteminin yaradılmasına güclü təkan olmuşdur.

D.Məmmədov hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən yeni neft strategiyasının ARDNŞ-in sürətlə inkişaf edərək dünyanın aparıcı enerji şirkətləri sırasına daxil olması ilə nəticələndiyini xüsusi vurğulamışdır. O, ARDNŞ-in artıq ən mürəkkəb neft-qaz əməliyyatlarının öhdəsindən layiqincə gəldiyini, habelə Azərbaycan hüdudlarını aşaraq bir sıra ölkələrin iqtisadiyyatına əsas sərmayədar rolunda çıxış etməsini məmnunluqla qeyd etmişdir.

Argentina xarici işlər nazirinin müavini A.Pedro səfər zamanı Azərbaycanda gördüyü inkişafdan, xüsusən ARDNŞ-in əldə etdiyi nailiyyətlərdən məmnun qaldığını bildirmişdir. O, ölkəsində fəaliyyət göstərən neft-qaz şirkətləri barədə ətraflı məlumat vermiş, yataqların istismarı və boru kəmərlərinin təchizatı sahəsində ixtisaslaşan Argentina şirkətlərinin ARDNŞ ilə əməkdaşlıq qurmaq istəklərini ifadə etmişdir.

AZƏRBAYCAN İLƏ POLŞA ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Noyabrın 25-də Azərbaycan səhiyyə naziri Oqtay Şirəliyev Polşanın səhiyyə nazirinin müavini A.Froncakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

O.Şirəliyev ölkələrimiz arasında bir çox sahələrdə olduğu kimi, səhiyyə sahəsində də sıx əməkdaşlığın mövcudluğundan, birgə layihələrin uğurundan söz açmışdır. Nazir ölkə başçısının səhiyyə sektoruna olan diqqət və qayğısı sayəsində son illər görülən işlər, aparılan islahatlar, əldə olunan nailiyyətlər, qoyulan investisiyalar nəticəsində istifadəyə verilmiş tibb müəssisələri haqqında qonağa məlumat vermişdir.

Görüşdə iki ölkə arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq, tərəflər arasında kadr hazırlığına dair məsələlər müzakirə edilmişdir.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən qonaq səhiyyənin bütün sahələrində əməkdaşlığa hazır olduqlarını qeyd etmişdir.

YUNESKO İLƏ AZƏRBAYCAN ARASINDA YENİ BİR MÜQAVİLƏ İMZALANMIŞDIR

Noyabrın 24-də YUNESKO-nun mənzil-qərargahında Azərbaycanda elmin inkişafı sahəsində həyata keçirilən islahatlara Yaponiya hökumətinin yardımı ilə bağlı YUNESKO ilə Azərbaycan arasında müqavilə imzalanmışdır.

Mərasimi açan YUNESKO baş direktorunun elmi işlər üzrə müavini xanım Qreçen Kalonji son vaxtlar YUNESKO-nun müxtəlif ölkələrin elmi müəssisələrinin inkişafına, gənc kadrların hazırlığına və bu sahədə həyata keçirilən islahatlara xüsusi diqqət yetirdiyini vurğulamış və elm ocaqlarının iqtisadiyyatın sürətli inkişafında böyük rol oynadığını bildirmişdir.

Direktor müavini Azərbaycanda elmi potensialı daha da inkişaf etdirməklə əlaqədar YUNESKO tərəfindən xüsusi layihənin hazırlandığını və bunun Azərbaycan elminə böyük töhfə olduğunu diqqətə çatdırmışdır.

Azərbaycanda elmi siyasət, texnologiya və innovasiya strategiyasının inkişafına dəstək vermək və bu sahələrdə gənc kadrların yetişdirilməsi ilə bağlı YUNESKO-nun layihəsini maliyyələşdirən Yaponiyanın qurum yanındakı daimi nümayəndəsinin müavini Hideaki Kuramitsua Yaponiyanın elmi kadrlar hazırlanması istiqamətində bir çox dövlətlərə əməli kömək göstərdiyini bildirmiş, ölkəsinin "İnam" Fondu tərəfindən ayrılmış maliyyə yardımının Azərbaycanda elmin inkişafı və kadr hazırlığı ilə bağlı layihənin həyata keçirilməsində mühüm əhəmiyyətini qeyd etmiş, sanballı gənc elmi kadrların yetişdirilməsi və onların gələcəkdə özündən əvvəlki nəsli ləyaqətlə təmsil edəcəklərinə əmin olduğunu bildirmişdir.

Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəsi səfir Eleonora Hüseynova Azərbaycan elminin inkişafına göstərdikləri qayğıya və yardıma görə təşkilatın rəhbərliyinə və Yaponiyanın "İnam" Fonduna təşəkkürünü bildirmiş və qeyd etmişdir ki, Azərbaycan elminin inkişafı ilə bağlı hökumət tərəfindən 2010-2015-ci illəri əhatə edən proqram hazırlanmışdır. Hazırda bu proqramın müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilir.

E.Hüseynova YUNESKO ilə yüksək səviyyədə çoxşaxəli əməkdaşlığın Azərbaycan cəmiyyəti üçün xüsusi rol oynadığını qeyd etmiş, yeni müqavilənin Azərbaycan elminə layiqli töhfə verəcəyinə əmin olduğunu bildirmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov Azərbaycan elminin idarə olunması və təkmilləşdirilməsi istiqamətində həyata keçən islahatlarla bağlı layihənin reallaşmasında YUNESKO ilə Azərbaycan arasında bağlanmış müqavilənin xüsusi əhəmiyyətini vurğulamış və qurumun ekspertlərinin bu işdə fəal iştirak edəcəklərinə əminliyini bildirmişdir.

Azərbaycan elminin inkişafı ilə bağlı yeni müqavilənin xüsusi rolundan danışan M.Kərimov 2009-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan elminin inkişafı üzrə milli strategiyaya dair Fərman imzalandığını, həmin strategiya üzrə Dövlət Proqramının qəbul olunduğunu xatırlatmış, artıq bu istiqamətdə müəyyən addımlar atıldığını, YUNESKO ekspertlərinin bu işə cəlb olunmasının onun səmərəsini artıracağına əminliyini bildirmişdir.

Sonda AMEA-ya yardımla bağlı müqavilənin imzalanma mərasimi olmuşdur. Müqaviləni YUNESKO baş direktorunun elmi işlər üzrə üavini Qreçen Kalonji və AMEA-nın prezidenti Mahmud Kərimov imzalamışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ MİLAN ROÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Monteneqronun xarici işlər naziri Milan Roçenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Monteneqronun xarici işlər naziri Milan Roçe ölkəmizə səfərinin Azərbaycanda "Ümid" yatağının açılması ilə eyni vaxta təsadüf etməsindən məmnunluğunu bildirdi. O, bunu Azərbaycan Prezidentinin, azərbaycanlı alim və tədqiqatçıların böyük uğuru kimi qiymətləndirərək hadisə münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Milan Roçe bu hadisənin Avropada və bütün dünya miqyasında əhəmiyyətini qeyd etdi.

Ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıq etməyə maraqlı olduğunu vurğulayan nazir bildirdi ki, səfərinin əsas məqsədi ikitərəfli münasibətləri inkişaf etdirməkdir.

Dövlətimizin başçısı xoş sözlərə görə Monteneqronun xarici işlər naziri Milan Roçeyə təşəkkürünü bildirdi. "Ümid" yatağında kəşfiyyat işlərinin uğurla başa çatmasına toxunan Prezident İlham Əliyev bu yataqda böyük qaz ehtiyatlarının olmasının əhəmiyyətini vurğuladı.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Böyük Britaniyanın Yorq Hersoqu, Şahzadə Endryunu qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı və bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ BELARUSDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarusda rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində nümayəndə heyəti Belarusun fövqəladə hallar naziri Ənvər Barievlə görüşmüşdür.

Görüşdə iki ölkənin müvafiq dövlət qurumları arasında əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində atılacaq addımlar barəsində geniş fikir mübadiləsi aparılmışdır.

Sonra Belarusun yeni yanğınsöndürmə texnologiyaları və xilasedicilərin təchizatı ilə tanış olan Azərbaycan nümayəndə heyətinə neft rezervuarlarında yanğınların söndürülməsi üçün tətbiq olunan yanğınsöndürmə vasitələri barədə məlumat verilmişdir.

Səfər çərçivəsində Kəmaləddin Heydərov Minskdə Belarus FHN-in Mühəndis-Komandirlər İnstitutunda təhsil alan azərbaycanlı müdavimlərlə görüşmüşdür. Səfərin yekunu olaraq Azərbaycan və Belarus Fövqəladə Hallar nazirlikləri arasında 2006-cı il oktyabrın 17-də Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsi üzrə 2011-2013-cü illər üçün kompleks tədbirlər planı imzalanmışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 26-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Aİ münasibətlərinin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan ilə Aİ arasında əməkdaşlığın intensivləşdiyini qeyd edən tərəflər "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyətini vurğulamışlar.

Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələsinə, xüsusilə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan E.Məmmədyarov problemin həllinə dair danışıqlar prosesi barədə qonağa məlumat vermişdir.

P.Semnebi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll ediləcəyinə ümidvar olduğunu demişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Noyabrın 26-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Monteneqronun xarici işlər naziri Milan Roçenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Monteneqro arasında bir sıra sahələrdə, o cümlədən iqtisadi və turizm sahələrində əməkdaşlıq üçün geniş imkanların mövcud olduğu qeyd edilmişdir.

E.Məmmədyarov iqtisadi və turizm sahələri ilə yanaşı mədəniyyət, təhsil sahələrində də ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsinin, təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulamışdır.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesi barədə qonağa məlumat vermişdir.

Ölkəmizdə sürətli inkişafın şahidi olduğunu qeyd edən M.Roçe Monteneqro ilə Azərbaycanın uğurlu əməkdaşlığına inandığını bildirmişdir.

Monteneqrolu nazir ölkələrimiz arasında görüşlərin və əlaqələrin davam etdirilməsinin tərəfdarı olduğunu vurğulamışdır. Həmçinin M.Roçe azərbaycanlı həmkarını Monteneqroya səfərə dəvət etmişdir. Dəvət məmnuniyyətlə qəbul olunmuşdur.

Nazirlər ölkələrimiz arasında əlaqələrin və əməkdaşlıq sahələrinin artırılması üçün hüquq müqavilə bazasının genişləndirilməsi barədə razılaşmışlar.

Sonda Azərbaycanın və Monteneqronun xarici işlər nazirləri "Azərbaycan Respublikası Hökuməti və Monteneqro Hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Monteneqronun Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol"u imzalamışlar.

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNDƏ MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Noyabrın 26-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizdə səfərdə olan Monteneqronun xarici işlər naziri Milan Roçe və onu müşayiət edən şəxslərlə görüşmüşdür.

Qonaqları salamlayan Ə.Qarayev iki ölkə arasında mədəni əlaqələrin inkişafı barədə söhbət açmışdır. Nazir, qeyd etmişdir ki, biz mədəniyyət sahəsində vahid mövqelərdən çıxış edirik. Məsələn, Monteneqronun və Bolqarıstanın mədəniyyət nazirlikləri ilə əldə edilmiş razılaşmaya görə qarşılıqlı mədəniyyət günləri keçiriləcəkdir. Bu tədbir çərçivəsində biz həmin ölkələrdə müştərək proqramlar nümayiş etdirmək istəyirik.

Nazir ölkəmizin mədəni həyatı və qarşıdakı planlar barədə qısaca məlumat verərək xatırlatmışdır ki, gələn il aprel ayında Bakıda ümumdünya mədəniyyət forumu keçiriləcəkdir. Azərbaycan hökumətinin, YUNESKO, İSESKO və Heydər Əliyev Fondunun himayəsi ilə keçiriləcək forumda min nəfərə yaxın qonağın iştirak edəcəyi gözlənilir.

Ə.Qarayev qeyd etmişdir ki, Monteneqronun çox böyük turizm potensialı vardır və biz onunla tərəfdaşlıq etməkdə maraqlıyıq. Bu sahədə müəyyən irəliləyişlər vardır. Hazırda Bakıdan Monteneqroya birbaşa reys açılması məsələsi müzakirə edilir.

Monteneqronun xarici işlər naziri Milan Roçe səmimi qəbula görə təşəkkürünü bildirmiş, Bakıda səfərdə olduğu müddətdə keçirilmiş görüşlər barədə məlumat vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin onu qəbul etdiyinə görə minnətdarlığını xüsusi

vurğulayan M.Roçe qeyd etmişdir ki, ölkələrimiz bütün sahələrdə əməkdaşlığa qarşılıqlı maraq göstərir.

Milan Roçe bildirmişdir ki, onun səfəri çərçivəsində iki ölkə arasında iqtisadi əməkdaşlıq layihəsi hazırlanmışdır. O, mədəniyyət və turizm sahəsində əməkdaşlığa dair layihə hazırlanmasını da təklif etmişdir.

YUNESKO-DA AZƏRBAYCANLA BAĞLI HƏQİQƏTLƏR SƏSLƏNDİRİLMİŞDİR

Noyabrın 24-26-da YUNESKO-nun mənzil-iqamətgahında Dünya Veteranlar Federasiyasının veteranlar və müharibə qurbanları ilə bağlı qanunvericilik üzrə yeddinci beynəlxalq konfransı keçirilmişdir.

Konfransda federasiyaya üzv olan 90-dan artıq ölkənin 200-ə yaxın nümayəndəsi iştirak etmişdir. Azərbaycanı beynəlxalq tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Nümayəndə heyətinə Respublika Veteranlar Şurası sədrinin birinci müavini Surxay Tağızadə və baş mütəxəssis, ehtiyatda olan polkovnik Kamal Əliyev daxil idilər.

Azərbaycan Prezidenti İlham Əliyevin federasiyanın 60 illiyi ilə əlaqədar ingilis dilində təbrik məktubu konfrans iştirakçıları arasında yayılmışdır.

Konfransda İkinci Dünya müharibəsində 700 min azərbaycanlının iştirak etdiyini, onların bir çoxunun Avropa dövlətlərinin alman faşizmi işğalından azad edilməsi uğrunda döyüşlərdə həmin ölkələrin vətəndaşları ilə çiyin-çiyinə vuruşduqlarını, Fransanın Müqavimət Hərəkatında fəal iştirak etmiş Əhmədiyyə Cəbrayılovun Armed Mişel adı ilə tanındığını və ölkənin ən yüksək mükafat hesab olunan "Cəngavər Legionu" ilə təltif edildiyini xatırlatmış Surxay Tağızadə respublikada veteranlar hərəkatına Veteranlar Şurasının rəhbərlik etdiyini, onun strukturunun respublika və regionların veteran təşkilatlarından ibarət olduğunu, hökumət tərəfindən veteranlara daim qayğı göstərildiyini, onların sosial, məişət və əmək məsələlərinin "Veteranlar haqqında" respublika qanunvericiliyi ilə tənzim edildiyini diqqətə çatdırmışdır.

S.Tağızadə Azərbaycanda veteranlar xəstəxanasının, pansionatlarının, qocalar evlərinin, reabilitasiya mərkəzlərinin fəaliyyət göstərdiyi barədə konfrans iştirakçılarına məlumat vermişdir.

Azərbaycanın ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuş S.Tağızadə "böyük imperiya" yaratmaq xülyasına düşmüş Ermənistanın ölkəmizə qarşı apardığı işğalçılıq siyasətindən, ərazilərimizin 20 faizini zəbt etməsindən, bir milyondan artıq azərbaycanlının silah gücünə öz doğma yurdlarından zorla çıxarılaraq qaçqın və məcburi köçkün vəziyyətinə salmalarından, dövlətin onlara xüsusi qayğı göstərərək müasir tipli qəsəbələr salmasından, BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərimizin heç bir şərt qoyulmadan dərhal azad edilməsi barədə dörd qətnaməsinə və digər beynəlxalq təşkilatların çağırışına Ermənistanın hakim dairələrinin məhəl qoymamasından, düşmən işğalından azad edilmiş ərazilərin minaların yerli əhali üçün təhlükə yaratmasından və onların təmizlənməsi problemindən söhbət açmışdır.

Azərbaycanlı veteranın çıxışı böyük maraqla qarşılanmışdır.

Konfransın gedişi zamanı Azərbaycan nümayəndə heyəti iştirakçılar arasında ingilis və fransız dillərində bəyanat yaymışlar. Bəyanatda deyilir: "Yeddinci beynəlxalq konfransın təşkilini və keçirilməsini biz Azərbaycan veteranları, müharibənin nə olduğunu yaxşı başa düşən Beynəlxalq Veteranlar Federasiyasının veteranlara və müharibə qurbanlarına göstərdiyi qayğının, dünyanın müxtəlif qitələrində gedən müharibələrin və faciələrin qarşısını almaq üçün həyata keçirdiyi davamlı tədbirlərin yeni addımı kimi qiymətləndiririk.

Azərbaycan Veteranlar Şurası müharibələrin, onların törətdiyi faciələrin qarşısının alınmasını xalqlar arasında dostluq və qardaşlığın möhkəmləndirilməsində görür və özünün bütün fəaliyyətini buna yönəldir. 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbənin 65 illiyi ilə əlaqədar keçirilmiş tədbirlərdə bu, özünü xüsusi göstərdi. Bunun tarixi kökləri vardır. Azərbaycan xalqı həmişə özünün suverenliyi, beynəlmiləlçiliyi və tolerantlığı ilə fərqlənmişdir. Azərbaycan Respublikası çoxmillətlidir. Ölkəmizdə bütün xalqlar milli mənsubiyyətlərindən, hansı dinə itaət etmələrindən asılı olmayaraq vahid bir ailədə dostluq və qardaşlıq şəraitində yaşayır və eyni hüquqlara malikdirlər.

Bununla bərabər, biz təəssüflə qeyd edirik ki, dünən faşizmə qarşı çiyin-çiyinə vuruşmuş iki qonşu dövlət - Ermənistan və Azərbaycan bu gün artıq 20 ilə yaxındır ki, müharibə vəziyyətində yaşayırlar. Azərbaycan torpaqlarının 20 faizi erməni işğalına məruz qalmış, 1 milyondan artıq azərbaycanlı öz tarixi yurdlarından qaçqın və köçkün düşmüş, minlərlə insan - ahıllar, qadınlar və uşaqlar həyatlarını itirmiş, şikəst edilmiş, əlil olmuşdur.

İşğal olunmuş torpaqların qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının hələ 1992-ci ildə qəbul etdiyi 4 qətnaməyə (30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874 və 12 noyabr 884 nömrəli) və başqa aparıcı beynəlxalq təşkilatların qərarlarına, bununla bağlı bütün dünya dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü tanımalarına və məsələnin sülh yolu ilə həll edilməsinə dair ATƏT-in Minsk qrupunun konkret təkliflərinə, Azərbaycan hökumətinin bu istiqamətdə apardığı ardıcıl fəaliyyətə baxmayaraq, keçən əsrin 80-ci illərində Ermənistan tərəfindən baş almış təcavüz bu gün də davam edir. İşğal edilmiş şəhərlər və kəndlər, maarif və mədəniyyət müəssisələri, tarixi və mənəvi dəyərlər dağıdılaraq məhv edilir. Atəşkəs barədə iki dövlət arasında bağlanmış müqavilə Ermənistan tərəfindən hər gün pozulur, müharibə qurbanlarının sayı artır.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktdır, işğalçı və işğal edilən ölkə məlumdur. Lakin təəssüflər olsun ki, bir sıra qüvvələr xalqların taleyini düşünməyərək, öz mənafeləri mövqelərindən hərəkət edir, işğalçı dövlətlə işğal olunan dövləti bərabərləşdirir və bu ədalətsiz münaqişənin illərlə uzanmasına səbəb olurlar. Azərbaycan və azərbaycanlılar bu gün də bu faciəni yaşayırlar.

Dünya Veteranlar Federasiyasının üzvü olaraq bu bəyanatı Sizə təqdim edir və xahiş edirik ki, onu Azərbaycan Respublikası Veteranlar Şurası rəyasət heyətinin rəsmi sənədi kimi qəbul edib müzakirə edəsiniz, öz qərarınızla yuxarıda adları çəkilən nüfuzlu beynəlxalq təşkilatların ədalətli səsinə qoşulasınız".

TÜRKDİLLİ XƏBƏR AGENTLİKLƏRİ BİRLİYİNİN MƏŞVƏRƏT TOPLANTISI KEÇİRİLMİŞDİR

Noyabrın 27-də İstanbulda Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA) məşvərət toplantısı keçirilmişdir.

Toplantını giriş sözü ilə açan TKA Baş Məclisinin sədri, AzərTAc-ın baş direktoru Aslan Aslanov bildirmişdir ki, son illər fəaliyyətini intensivləşdirmiş birliyin işində qardaş türkdilli informasiya agentliklərinin iştirakının daha da gücləndirilməsi zəruridir. Dövlətlərimizin başçıları türk dünyasının birliyinin möhkəmlənməsinə böyük diqqət yetirirlər. Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Baş katibliyi Bakıda yerləşən və əlaqələri gündən-günə güclənən bu qurumun fəaliyyəti TKA-ya üzv olan agentliklər tərəfindən daha fəal işıqlandırılmalıdır. Birliyin Baş Məclisinin Qazaxıstanda keçiriləcək növbəti iclasında daimi katibliyin yaradılması və üzvlük haqları məsələsi də gündəliyə salınmalıdır.

Aslan Aslanov təklif etmişdir ki, uzun illər TKA-nın tədbirlərində fəal iştirak etmiş Şimali Kiprin xəbər agentliyinin keçmiş baş direktoru Əmir Ərsoya təşəkkür məktubu hazırlansın.

Anadolu agentliyinin baş direktoru Hilmi Bengi bildirmişdir ki, türk dünyasının formalaşması konsepsiyasında mühüm rol oynayan TKA-nın fəaliyyəti AzərTAc-ın sədrliyi dövründə daha da güclənmişdir. Biz Baş Məclisin VII iclasının Bakıda keçirilməsinə qayğı göstərən və türk dünyasının birliyi üçün diqqətini əsirgəməyən Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürümüzü bildiririk.

Qazaxıstanın "Kazinform" agentliyinin baş direktoru Dauren Diyarov Baş Məclisin növbəti iclasına onun rəhbərlik etdiyi agentliyin ev sahibliyi etmək istədiyini bildirmişdir.

Toplantıda çıxış edən Şimali Kiprin TAK xəbər agentliyinin baş direktoru Pərihan Əziz, "Başinform" agentliyi baş direktorunun müavini Alik Şakirov, "Tatar-inform"un əməkdaşı Dinar Qalibov Baş Məclisin 2008-ci ilin may ayında Bakıda keçirilmiş iclasında TKA-ya tamhüquqlu üzv qəbul olduqlarından məmnunluqlarını bir daha diqqətə çatdırmış və təşkilatın fəaliyyətində daha fəal iştirak edəcəklərini bildirmişlər.

Sonra TKA-nın internet saytının fəaliyyəti ilə bağlı texniki heyətin hesabatı dinlənilmiş və müvafiq təkliflər verilmişdir.

ELEKTRON HÖKUMƏT SAHƏSİNDƏ AVSTRİYA TƏCRÜBƏSİ MARAQ DOĞURUR

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyası sədrinin müavini Vəfadar Misirovun rəhbərlik etdiyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşlarının daxil olduğu nümayəndə heyəti noyabrın 22-dən 26-dək Avstriyanın paytaxtı Vyana şəhərində səfərdə olmuşdur. Səfərin əsas məqsədi Avropa İttifaqında elektron hökumət sahəsində aparıcı mövqe tutan, sahə və əhalicə, həmçinin digər parametrlərinə görə ölkəmizlə oxşarlıqları olan Avstriyanın təcrübəsi ilə tanışlıq olmuşdur.

Avstriya Federal Kansler Aparatı, federal daxili işlər və maliyyə nazirliklərinin əməkdaşları tərəfindən "Rəqəmsal Avstriya" mövzusunda keçirilən təqdimatlar zamanı elektron hökumətin strukturu, hökumət orqanları arasında sənəd dövriyyəsi sistemi (ELAK), qanunların müxtəlif formatlarda elektron dərcinə xidmət edən Hüquq İnformasiya Sistemi (RİS), elektron vətəndaş kartı, vətəndaşlar və işgüzar dairələr üçün informasiya resursu olan www.help.gv.at ttp://www.help.gv.at portalı barədə məlumat verilmiş, qonaqları maraqlandıran suallar cavablandırılmışdır.

Səfər çərçivəsində qarşılıqlı təcrübə mübadiləsinin davam etdirilməsi imkanları müzakirə edilmişdir.

İSTANBULDA AVROPA ƏDLİYYƏ NAZİRLƏRİNİN 30-CU KONFRANSI KEÇİRİLMİŞDİR

Noyabrın 24-dən 26-dək İstanbulda Avropa Şurası və Türkiyə hökumətinin birgə təşkilatçılığı ilə Avropa ədliyyə nazirlərinin növbəti konfransı keçirilmişdir.

1961-ci ildən mütəmadi keçirilən bu mötəbər forum "Üçüncü minillikdə ədliyyənin müasirləşdirilməsi" mövzusuna həsr olunmuşdur.

Konfransda Azərbaycanı ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Tədbirdə şəffaf və səmərəli ədalət mühakiməsinin həyata keçirilməsi, bu zaman informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, habelə penitensiar sistemin islahatı, Avropada həbsxanalarla bağlı vəziyyət və digər aktual məsələlər müzakirə olunmuşdur.

300-ə yaxın nümayəndənin, o cümlədən Avropa ədliyyə nazirlərinin və nüfuzlu beynəlxalq təşkilatların yüksək vəzifəli rəsmilərinin iştirak etdiyi tədbirdə Avropa Şurası baş katibinin müavini Mod de Bur-Bukikkio, Türkiyənin ədliyyə naziri Sadullah Ergin giriş sözü ilə çıxış etmişlər.

Konfransın ilk sessiyasında çıxış edən Azərbaycanın ədliyyə naziri ədalət mühakiməsinin səmərəliliyinin əhəmiyyətini vurğulayaraq, ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan uğurlu islahatlardan, o cümlədən məhkəmə infrastrukturunun müasirləşdirilməsi, yeni məhkəmələrin yaradılması, qabaqcıl texnologiyaların tətbiqi, həmçinin hakimlərin sayının iki dəfə artırılması, hakimliyə namizədlərin ən şəffaf qaydalarla seçimi nəticəsində hakim korpusunun yarıyadək yeniləşməsi və digər işlərdən danışmışdır. Tədbir iştirakçılarının diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalına cəlb edilmişdir.

Növbəti sessiyada da ölkəmizin nümayəndə heyətinin rəhbəri tərəfindən çıxış edilərək, penitensiar sistemdə aparılan köklü islahatlar barədə məlumat verilmiş, məhkumların hüquqlarının etibarlı qorunmasına xüsusi önəm verən dövlətimizin güclü siyasi iradəsi, cəzaların icrasının humanistləşdirilməsi, çoxsaylı əfv və amnistiya aktlarının qəbulu, azadlıqdan məhrum edilmiş şəxslərin hüquq və imtiyazlarının xeyli genişləndirilməsi,

onların saxlanma şəraitinin və göstərilən tibb xidmətinin yaxşılaşdırılması, ictimai nəzarətin gücləndirilməsi, müasir penitensiar infrastrukturun yaradılması üzrə məqsədyönlü işlər diqqətə çatdırılmışdır.

Maraqla qarşılanmış çıxışların ingilis və rus dillərində mətnləri tədbir iştirakçıları arasında yayılmışdır.

Forumun yekununda müzakirə olunan məsələlərə dair 4 qətnamə qəbul olunmuşdur.

Konfrans zamanı Azərbaycanın ədliyyə naziri Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammarberqlə görüşmüş, insan hüquqlarının qorunması, Avropa Məhkəməsinin fəaliyyəti və digər məsələlər üzrə faydalı fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində, həmçinin bir sıra dövlətlərin ədliyyə nazirləri ilə işgüzar görüşlər keçirilərək əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İSPANİYA KRALLIĞI ARASINDA İDMAN SAHƏSİNDƏ MEMORANDUM İMZALANMIŞDIR

Gənclər və idman naziri Azad Rəhimovun noyabrın 24-26-da İspaniyaya səfəri çərçivəsində Azərbaycan Respublikası və İspaniya Krallığı arasında idman sahəsində memorandum imzalanmışdır.

Sənəddə idman qurğularının layihələşdirilməsi və inşası sahəsində əldə olunmuş təcrübəyə dair məlumatların mübadiləsinin təmin edilməsi, idmana aid elm və texnologiya sahəsində təcrübə mübadiləsinin aparılması, əlillər üçün idmanın dəstəklənməsi və təşviq olunması üzrə birgə proqramların işlənib hazırlanması, uşaq idmanının inkişafı, dopinqə qarşı mübarizə sahəsində əməkdaşlıq və s. mövzular öz əksini tapmışdır.

Səfər çərçivəsində Azad Rəhimov Madrid Elit İdmançıların Hazırlığı Mərkəzində, Dövlət Antidopinq Mərkəzinin Dopinq Nəzarəti Laboratoriyasında olmuş və həmin mərkəzlərin fəaliyyəti barədə geniş məlumat əldə etmişdir. Nümayəndə heyəti üçün Madridin Real klubunun stadionuna tanışlıq səfəri də təşkil edilmişdir.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QİƏT XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ TOPLANTISINDA ÇIXIŞ ETMİŞDİR

26 noyabr Yunanıstanın Saloniki şəhərində Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 23-cü toplantısı keçirilmişdir.

Azərbaycanı toplantıda nümayəndə heyətinin rəhbəri xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev təmsil etmişdir.

Toplantıda QİƏT-in işinin səmərəliliyinin artırılması kontekstində 2009-cu ilin may-oktyabr aylarında Azərbaycanın sədrliyi müddətində irəli sürülmüş "QİƏT fəaliyyətinin planlaşdırılması və icrasında QİƏT Daimi Beynəlxalq Katibliyinin status və imkanlarının artırılmasına dair sənəd" Şura tərəfindən təsdiqlənmişdir.

Tədbirdə "ABŞ hökuməti və QİƏT arasında elm və texnologiyalar sahəsində əməkdaşlıq haqqında Niyyət Memorandumu" imzalanmışdır.

Təşkilata sədrlik Yunanıstandan Rumıniyaya keçmişdir.

M.Məmmədquliyev toplantıda çıxış edərək QİƏT-in perspektivlərinin və Azərbaycanın təşkilatdan gözləntilərinin yüksək olduğunu bildirmişdir. QİƏT Daimi Beynəlxalq Katibliyinin işinin səmərəli qurulmasının əhəmiyyətini qeyd edən nazir müavini vurğulamışdır ki, təşkilat çərçivəsində iqtisadi əməkdaşlığa əsas manea törədən "dondurulmuş münaqişələr" həll edilmədən və regionda sabitlik bərqərar olmadan hərtərəfli iqtisadi əməkdaşlıq səmərəsiz olacaqdır.

Tədbir çərçivəsində Azərbaycan xarici işlər nazirinin müavininin Yunanıstanın xarici işlər nazirinin müavini ilə ikitərəfli görüşü keçirilmişdir. Görüşdə ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI VƏ FRANSA MİLLİ ARAŞDIRMALAR MƏRKƏZİ ARASINDA MÜQAVİLƏ İMZALANMIŞDIR

Noyabrın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Mahmud Kərimovun Fransaya səfəri çərçivəsində Fransa Milli Araşdırmalar Mərkəzi (FMAM) ilə AMEA arasında müqavilə imzalanmışdır.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya rəsmi səfəri zamanı bir çox sahələrlə yanaşı, AMEA ilə FMAM arasında əməkdaşlığa dair saziş imzalanmışdır.

Həmin dövrdən etibarən AMEA və FMAM Azərbaycanda bir sıra layihələri müştərək şəkildə həyata keçirmişlər.

Səfər zamanı M.Kərimov FMAM idarə heyətində qurumun direktoru ilə yeni layihələrin yerinə yetirilməsi sahəsində əməkdaşlığa dair müqavilə imzalamışdır. Layihələr ölkəmizdə mühüm əhəmiyyət kəsb edən geofizika və arxeologiya sahələrini əhatə edir. Müqaviləyə əsasən, bu layihələri Fransa tərəfi maliyyələşdirəcəkdir.

Qeyd olunmuşdur ki, FMAM-da bağlanmış müqavilə Azərbaycanda elmin inkişafı, milli kadrların yetişdirilməsi ilə bağlı dövlət proqramının yerinə yetirilməsində mühüm rol oynayacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞAL FONDUNUN PREZİDENTİ KREYQ KENNEDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedini qəbul etmişdir.

ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedi son illər Bakıda həyata keçirilən inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını bildirdi və bütün bu prosesləri Azərbaycanın təbii ehtiyatlarından səmərəli istifadə olunmasının nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı böyük inkişafın təkcə Bakıda deyil, regionlarda da getdiyini vurğuladı və səfərin bu proseslərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını qeyd etdi.

Görüşdə Azərbaycan ilə ABŞ-ın Alman Marşal Fondu arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ÖZBƏKİSTANIN BAŞ NAZİRİ, PARLAMENT SENATININ VƏ ALI MƏCLİSİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞ, HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ OLMUŞDUR

Noyabrın 30-da Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Özbəkistanın Baş naziri Şavqat Mirziyayev, parlamentin yuxarı palatası - Senatın sədri İlqizar Sabirov və parlamentin aşağı palatası - Ali Məclisin sədri Dilarom Taşmuxamçedova ilə görüşlər keçirilmiş, Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlığın indiki vəziyyəti, həmçinin hərbi sahədə əlaqələrin inkişafı məsələləri müzakirə olunmuşdur.

Səfər Əbiyev Azərbaycanın Özbəkistandakı səfirliyi yanındakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olmuş, ulu öndərin bu binanın qarşısındakı abidəsi önünə əklil qoymuşdur.

Namiq Abbasov qonağı buradakı Heydər Əliyev Muzeyi, Azərbaycanın Dövlətçilik Tarixi Muzeyi, o cümlədən Azərbaycan və Özbəkistanın Müştərək Tarixi Muzeyi ilə tanış etmiş, mərkəzdə yaradılan şərait haqqında məlumat vermişdir. Bildirilmişdir ki, burada təntənəli mərasimlər, eləcə də sərgi və konsert salonları, kitabxana yaradılmışdır.

ATƏT-İN ASTANADA KEÇİRİLƏCƏK ZİRVƏ GÖRÜŞÜNƏ HAZIRLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Qazaxıstanın dövlət katibi-xarici işlər naziri Kanat Saudabayev Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Astanada keçiriləcək Zirvə görüşü ərəfəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla telefon söhbəti olmuşdur.

Qazaxıstan və Azərbaycanın xarici işlər nazirləri telefon danışığı zamanı ATƏT-in Astanada keçiriləcək Zirvə görüşünə hazırlıq məsələlərini müzakirə etmiş, bu mühüm siyasi tədbirin yüksək səviyyədə başa çatacağına ümidvar olduqlarını bildirmişlər.

Nazirlər Zirvə görüşündə qəbul ediləcək qərarların əhəmiyyəti haqqında da söhbət açmışlar. Qeyd olunmuşdur ki, bu qərarlar nəinki ATƏT-in inkişaf perspektivlərini müəyyənləşdirəcək, həmçinin qurumun nüfuz dairəsində olan ərazilərdə təhlükəsizlik və əməkdaşlığın möhkəmləndirilməsinə səbəb olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QAZAXISTANA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da ATƏT-in sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanaya gəlmişdir.

Astananın Beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇ İLƏ GÖRÜŞÜ

Noyabrın 30-da Prezident İlham Əliyev Astanada ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviç ilə görüşmüşdür.

Görüşdə Azərbaycanda fikir azadlığı, jurnalistlərin fəaliyyəti və məsuliyyəti ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASTANADA ATƏT-İN VII SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR

Dekabrın 1-də Qazaxıstanın paytaxtı Astanada ATƏT-in VII sammiti işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

Sammitdə ümumilikdə 56 üzv və 12 tərəfdaş ölkənin dövlət və hökumət başçıları, nümayəndə heyətləri, həmçinin beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sammitin keçirildiyi "Müstəqillik" sarayında nümayəndə heyətlərinin rəhbərlərini, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Sammit başlamazdan əvvəl Prezident İlham Əliyev Almaniyanın federal kansleri Angela Merkel, Ukrayna Prezidenti Viktor Yanukoviç və Tacikistan Prezidenti Emoməli Rahmonla görüşdü.

Sammit iştirakçıları birgə foto çəkdirdilər.

ATƏT-in VII sammitini Qazaxıstan Prezidenti Nursultan Nazarbayev açdı. O bildirdi ki, bu gün dünya təhlükəsizliyin yeni formatına keçmişdir. Qazaxıstan Prezidenti nüvəsiz dünya ilə bağlı ümumi bəyannamənin qəbulunu dəstəkləməyə çağırdı. Nursultan Nazarbayev bu sammitdə Əfqanıstandakı vəziyyət, qeyri-qanuni miqrasiya, kütləvi qırğın silahlarının yayılması təhlükəsi, qlobal iqtisadi böhran və digər vacib məsələləri müzakirə etmək üçün gözəl imkan yarandığını diqqətə çatdırdı. Qeyd etdi ki, dünyanın çağırışlarına layiqincə cavab vermək üçün ATƏT-in institutlarının sayı artırılmalıdır.

Qurumun iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində gördüyü işlərə toxunan N.Nazarbayev Maastrix strategiyasına "Maastrix müsbət" sənədini əlavə etməyi təklif etdi. Daha bir təklif iqtisadi forumun yaradılması ilə bağlı oldu. Həmçinin silahsızlaşdırma üçün forumun yaradılması təklifi də səsləndi. Qazaxıstan Prezidenti dinlərarası dialoqun genişləndirilməsinin vacibliyini vurğulayaraq, sammit iştirakçılarını yeni onillikdə tolerantlıq sənədi üzərində işləməyə çağırdı.

ATƏT-in hazırkı sədri, Qazaxıstanın dövlət katibi və xarici işlər naziri Kanat Saudabayev qurumun əsas prinsiplərini dəstəklədiklərinə görə iştirakçı dövlətlərə minnətdarlıq etdi. Qazaxıstanın quruma sədrliyi dövründə görülən işlərdən danışan K.Saudabayev millətlərarası və dinlərarası dialoqun qurulmasına xüsusi diqqət yetirdi. Təşkilatın prioritetlərini sadalayan ATƏT-in hazırkı sədri onu da vurğuladı ki, uzunmüddətli münaqişələr üzrə görülən işlər nikbinlik üçün əsas yaradır. K.Saudabayev ATƏT-ə sədrliyin Litvaya keçəcəyini deyərək bildirdi ki, Qazaxıstan bundan sonra da ATƏT-in fəal işti-

rakçısı kimi qalacaqdır.

Sonra BMT-nin baş katibi Pan Gi Mun çıxış edərək bildirdi ki, indi dünyada sülhün və təhlükəsizliyin bərqərar olmasına daha çox ehtiyac vardır. Bunun üçün birgə əməkdaşlıq daha faydalıdır. "ATƏT regionunda uzun müddətdir ki, həll olunmayan münaqişələr mövcuddur. Onlar sülh və danışıqlar yolu ilə həllini gözləyir. Eyni zamanda, münaqişə bölgələrində yaşayan insanlar da haqlı olaraq bizdən kömək istəyirlər", - deyən BMT-nin baş katibi bütün beynəlxalq təşkilatların narahatlıq doğuran məsələlərin həllində eyni mövqedə durmasının və birgə əməkdaşlıq etməsinin mövcud problemlərin həllinə yol açacağına ümid bəslədiyini diqqətə çatdırdı. Pan Gi Mun BMT-ATƏT əməkdaşlığından razı qaldığını, hər iki qurumun dünyada mövcud olan münaqişələrin, qlobal təhlükələrin qarşısının alınmasında və həllində eyni mövqedən çıxış etdiyini bildirdi.

ATƏT Parlament Assambleyasının sədri Petros Eftimiou isə dedi ki, dünyada etimad məsələlərinin qloballaşdığı bir vaxtda ATƏT-in son 11 ildəki tarixində bu cür böyük tədbirin təşkil olunması mühüm hadisədir. O bildirdi ki, ATƏT-in ən vacib qurumlarından olan Parlament Assambleyası da təşkilata daxil olan bəzi ölkələrin ərazisində münaqişələrin olmasından narahatdır və ATƏT bütün problemlərin sülh yolu ilə həllinə çalışır.

ATƏT-in baş katibi Mark Perrin de Brişambo çıxışında bildirdi ki, ATƏT tarixi zərurətdən yaranmışdır və indiki sammit də bu qurumla əməkdaşlığa yeni regionların cəlb olunacağını göstərir. "Sammitdə qəbul olunacaq sənədlər qurumun fəaliyyətində yeni bir mərhələ olacaq", - deyən baş katib ümumi təhlükəsizliyin təmin edilməsində beynəlxalq təşkilatların birgə fəaliyyətinin zəruri olduğunu bildirdi.

Sonra sammitdə digər ölkələrin dövlət və hökumət başçıları çıxış etdilər. Onlar dünyada, həmçinin Avropada sülhün və təhlükəsizliyin təmin olunmasında, insan hüquqlarının müdafiəsində, terrorizmin və narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınmasında, münaqişələrin həllində ATƏT-in fəaliyyətinin vacibliyinə diqqət çəkdilər. Çıxışlarda münaqişələrin həllində ərazi bütövlüyü prinsipinin qorunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ və digər münaqişələrin sülh yolu ilə həllinə dair fikirlər səsləndi.

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in sammitində çıxış etdi.

PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

İlk öncə bu zirvə görüşünün əla təşkili, göstərilmiş səmimi qonaqpərvərlik və il ərzində ATƏT-ə sədrlik etdiyinə görə Prezident Nursultan Nazarbayev və bütün qazaxıstanlı dostlarımıza minnətdarlığımı bildirmək istəyirəm.

Mən diqqətinizi regionumuzdakı təhlükəsizlik məsələlərinə cəlb etmək istərdim. Ermənistan ilə Azərbaycan arasında hazırkı silahlı münaqişə beynəlxalq və regional sülh və sabitliyə əsas təhdid olaraq qalır. Ermənistan tərəfindən azərbaycanlılara qarşı apa-

rılmış etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, 1 milyon azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan nəinki Dağlıq Qarabağı, o cümlədən Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Ermənistan şəhər və kəndlərimizi, evlərimizi və müqəddəs yerlərimizi, ulu babalarımızın məzarlarını və məscidlərimizi dağıtmışdır. Onlar hərbi cinayətlər və Xocalıda soyqırımı törətmişlər və orada yüzlərlə mülki şəxs yalnız azərbaycanlı olduğuna görə Ermənistanın silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Xocalının günahsız qurbanları arasında 100-dən artıq uşaq olmuşdur.

Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. O, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış hissəsidir. Bu gün Ermənistan işğal edilmiş ərazilər üzərində nəzarəti saxlamaq və məcburi köçkünlərin öz evlərinə qayıdışına mane olmaq məqsədilə gücdən istifadə edir. Buna baxmayaraq, Azərbaycan hər zaman sülh danışıqlarına sadiq qalmış, qalır və yenə də ümid edir ki, onlar nəticə gətirəcəkdir. Münaqişənin həlli yalnız beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşma, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, ATƏT-in qərarlarının, Avropa Parlamenti, Avropa Şurası və digər beynəlxalq təşkilatların qətnamələrinin həyata keçirilməsinə əsaslanmalıdır. Lakin Ermənistan münaqişənin mümkün qədər tezliklə uzunmüddətli həllinə nail olmaq məqsədilə vicdanla danışıqlar aparmaq əvəzinə, gözlənilməz nəticələri ola biləcək münaqişənin eskalasiyasına üstünlük verir. Ermənistan daimi olaraq atəşkəs rejimini pozur, işğal olunmuş ərazilərdə hərbi təlimlər keçirir, işğal edilmiş şəhər və kəndlərimizin tarixi adlarını dəyişməyə cəhd göstərir. Ermənistan qeyri-qanuni olaraq mülki şəxsləri işğal edilmiş ərazilərə yerləşdirir, vəziyyəti dönməz və sülh prosesini mənasız etməyə çalışır.

Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə aparılan qeyri-qanuni fəaliyyət ATƏT-in faktaraşdırıcı missiyasının 2005-ci ildə regiona etdiyi səfərdən sonra hazırlanmış məruzədə əks olunub. Ermənistanın danışıqlar prosesindəki davranışı bizi belə qənaətə gətirir ki, Ermənistan sülh istəmir, işğal edilmiş əraziləri azad etmək fikrində deyil, sadəcə bacardığı qədər status-kvonu saxlamaq və danışıqlar prosesini müddətsiz etməyi arzulayır.

ATƏT-in Minsk qrupu 1992-ci ildə yaradılmışdır, danışıqlar təxminən 20 ildir ki, aparılır, lakin heç bir nəticə yoxdur.

Azərbaycan Praqa prosesi çərçivəsində son altı il ərzində Minsk qrupunun həmsədr ölkələri tərəfindən hazırlanmış təklifləri qiymətləndirir. Biz danışıqları davam etdirməyə, onları mümkün qədər tez yekunlaşdırmaq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanacaq həll variantına nail olmağa hazırıq.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik bildirildi.

Türkiyə Prezidenti dövlətimizin başçısını parlament seçkilərinin uğurla başa çatması münasibətilə təbrik etdi.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ NİDERLANDIN BAŞ NAZİRİ MARK RUTTENİN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Niderlandın Baş naziri Mark Ruttenin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Niderland arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə edildi, bu istiqamətdə müəyyən addımların atılmasına ehtiyac olduğu vurğulandı. Bildirildi ki, səfirliklərin açılması ölkələrimiz arasında əməkdaşlığa töhfə verir.

Görüşdə Azərbaycan ilə Niderland arasında əməkdaşlığın Azərbaycan-Avropa İttifaqı əlaqələri baxımından əhəmiyyəti vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ GEORGE PAPANDREUNUN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Yunanıstanın Baş naziri George Papandreunun görüşü olmuşdur.

Azərbaycan ilə Yunanıstan arasında əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsinin aparıldığı görüşdə ölkələrimizin müxtəlif sahələrdə, xüsusilə enerji sahəsində əməkdaşlığı üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə toxunuldu. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRALİYANIN XARİCİ İŞLƏR NAZİRİ KEVİN RADDIN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Avstraliyanın xarici işlər naziri Kevin Raddın görüşü olmuşdur.

Kevin Radd ölkəsinin Azərbaycan ilə həm ikitərəfli, həm də təhlükəsizlik, ekologiya və qlobal məsələlərdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu dedi. O, Avstraliyada Azərbaycan icmasının olduğunu bildirdi.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan Avstraliya ilə əməkdaşlığı inkişaf etdirə bilər. Azərbaycanın son illər bütün sahələrdəki inkişafından danışan dövlətimizin başçısı dedi ki, Avstraliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün hər cür şərait vardır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə toxunuldu. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MIXAIL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığa söykənən əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. İqtisadi sahədə, o cümlədən ölkələrimizin birgə həyata keçirdikləri enerji layihələri, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi ilə bağlı məsələlər müzakirə edildi.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Danilo Türkün görüşü olmuşdur.

İkitərəfli münasibətlərin geniş müzakirə olunduğu görüşdə qeyd edildi ki, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanlar vardır. Həyata keçirilmiş qarşılıqlı səfərlər əlaqələrimizin inkişafına töhfə vermişdir.

Sloveniya Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi ilə maraqlandı.

Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEYİN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, enerji sahəsində əməkdaşlığa dair məsələlər müzakirə olundu.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ NİK KLEQİN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Böyük Britaniya Baş nazirinin müavini Nik Kleqin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi, ölkələrimizin enerji sahəsində əlaqələrinin xüsusi əhəmiyyəti qeyd olundu. Bildirildi ki, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlər vardır.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlərin müzakirə olunduğu görüşdə Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRİYA PREZİDENTİ HAYNTS FİŞERİN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Avstriya Prezidenti Haynts Fişerin görüşü olmuşdur.

Avstriya Prezidenti qeyd etdi ki, ölkəsi Azərbaycan ilə siyasi, iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın inkişafında çox maraqlıdır.

Bu istiqamətdə müəyyən addımların atılmasının, o cümlədən Azərbaycanda çalışan Avstriya şirkətlərinin fəaliyyətinin genişləndirilməsinin vacibliyi vurğulandı.

Prezident Haynts Fişer bu baxımdan Avstriyanın müvafiq şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında əməkdaşlığın genişlənməsinin əhəmiyyətini qeyd etdi.

Avstriya Prezidenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi ilə maraqlandı.

Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyindən danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN GÖRÜŞÜ

Dekabrın 1-də Astanada Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Belarusun siyasi, iqtisadi və digər sahələrdə əlaqələrinin inkişafından, ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Dövlət başçıları birgə müəssisələrin yaradılmasına, enerji sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi apardılar.

NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARININ ŞƏRƏFİNƏ QƏBUL

Dekabrın 1-də Astanada Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən ATƏT-in VII sammitində iştirak edən nümayəndə heyətlərinin başçılarının şərəfinə qəbul təşkil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir.

ATƏT-İN ASTANA (QAZAXISTAN) SAMMİTİNDƏ ATƏT-İN HƏMSƏDRLƏRİ OLAN ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARININ, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ BƏYANATI

ATƏT-in Astanada (Qazaxıstan) keçirilən sammiti ilə əlaqədar ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndə heyətlərinin başçıları (Rusiya Federasiyasının Prezidenti D.Medvedev, Fransanın Baş naziri F.Fiyon və Amerika Birləşmiş Ştatlarının dövlət katibi H.Klinton), Azərbaycan Prezidenti İ.Əliyev və Ermənistan Prezidenti S.Sarkisyan razılığa gəldilər ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yönəlmiş daha qətiyyətli tədbirlər görmək vaxtı çatmışdır. Bununla əlaqədar onlar Azərbaycan, Ermənistan və Rusiya Federasiyası prezidentlərinin 2 noyabr 2008-ci il tarixli (Moskva) və 27 oktyabr 2010-cu il tarixli (Həştərxan) bəyanatlarına istinad etdilər. Onlar razılaşdılar ki, danışıqlar yolu ilə dinc tənzimləmə regionda sabitliyi və xalqların təhlükəsizliyini təmin edər və onların arasında barışığa nail olmaq üçün yeganə imkan olar.

Ermənistan və Azərbaycan prezidentləri Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn prinsipləri və normaları, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də prezidentlər D.Medvedev, N.Sarkozi və B.Obamanın 2009-cu il iyulun 10-da Akvillə və 2010-cu il iyunun 26-da Muskokada verdikləri bəyanatlar əsasında qəti tənzimləməyə çalışmaq öhdəliklərini təsdiq etdilər.

Üç həmsədr ölkə dinc tənzimləməyə nail olmaq üçün zəruri qərarlar qəbul edən Azərbaycan və Ermənistan prezidentlərini dəstəklədiklərini bildirdilər. Onlar Ermənistan və Azərbaycan rəhbərlərini səylərini Əsas Prinsiplərdə hələ qalan mübahisəli məsələlərin həlli üzərində yeni qüvvə ilə cəmləşdirməyə çağırdılar və öz həmsədrlərinə münaqişə tərəflərinin bu səylərini həyata keçirmələrinə kömək etmək üçün onlarla işi davam etdirməyi tapşırdılar. Onlar danışıqların keçdiyi atmosferi yaxşılaşdırmaq üçün tərəflərə müraciətlə onları atəşkəs rejiminin möhkəmlənməsinə və bütün sahələrdə etimad tədbirlərinin həyata keçirilməsinə yönəlmiş əlavə addımlar atmağa çağırdılar.

1 dekabr 2010-cu il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

ATƏT-in VII sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri dekabrın 2-də başa çatmışdır.

Astananın Beynəlxalq hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

ASTANADA GUAM ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 13-CÜ İCLASI KEÇİRİLMİŞDİR

Astanada ATƏT-in sammiti çərçivəsində Ukrayna xarici işlər naziri Konstantin Qrişenkonun sədrliyi ilə GUAM üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 13-cü iclası keçirilmişdir.

İclasda Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov, GUAM-ın Baş katibi Valeri Çeçelaşvili, Gürcüstan xarici işlər naziri Qriqol Vaşadze, Moldova xarici işlər və Avropaya inteqrasiya nazirinin müavini Andrey Popov, Ukrayna xarici işlər nazirinin müavini Pavel Klimkin iştirak etmişlər.

XİNŞ Təşkilatın 2010-cu ilin sonuna qədər Fəaliyyət Planının yerinə yetirilməsinin gedişi haqqında məlumatı nəzərə almış, BMT Baş Məclisinin 65-ci sessiyasının gündəliyinin 14-cü bəndi ("GUAM məkanında uzanan münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün doğurduğu nəticələr") çərçivəsində qarşılıqlı fəaliyyət və "BMT ilə GUAM arasında əməkdaşlıq" qətnaməsinin layihəsi barədə məsələləri müzakirə etmiş, GUAM üzvü olan dövlətlərin digər beynəlxalq təşkilatlar yanında diplomatik nümayəndəliklərinin 2010-2011-ci illər üçün qarşılıqlı fəaliyyət planlarının təsdiq olunması haqqında qərar qəbul etmişdir.

XİNŞ sahəvi əməkdaşlıq məsələlərini müzakirə etmiş, 2011-2012-ci illər üçün GUAM-ın sahəvi işçi qruplarının əlaqələndirici ölkələrinin təsdiq edilməsi, fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq məsələləri üzrə birgə komissiya yaradılması haqqında qərarlar qəbul etmişdir.

XİNŞ Təşkilatda sədrliyin keçməsi məsələsini müzakirə etmiş və növbəti müddət üçün GUAM-ın Baş katibinin təyin olunması haqqında qərar qəbul etmişdir.

XİNŞ-in növbəti iclasını 2011-ci ilin yanvar-fevral aylarında keçirmək planlaşdırılır.

BAŞ NAZİR DÜNYA POÇT İTTİFAQI BEYNƏLXALQ BÜROSUNUN BAŞ DİREKTORU EDUARD DAYAN İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 1-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə səfərdə olan Dünya Poçt İttifaqı Beynəlxalq bürosunun baş direktoru Eduard Dayan ilə görüşmüşdür.

Baş nazir Artur Rasizadə Eduard Dayanın son dəfə Azərbaycanda 2005-ci ildə olduğunu xatırlatmış, ötən beş ildə ölkənin, o cümlədən Bakının sürətlə inkişaf etdiyini diqqətə çatdırmışdır.

A.Rasizadə Dünya Bankı ilə imzalanmış sazişə əsasən, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərpoçt" MMC-nin poçt şəbəkəsində həyata keçirilən "Maliyyə xidmətlərinin inkişafı" layihəsinin əhəmiyyətini vurğulamış, Azərbaycan hökumətinin layihəyə böyük dəstək verdiyini bildirmişdir.

Dünya Poçt İttifaqı Beynəlxalq bürosunun baş direktoru Eduard Dayan Azərbaycanın son beş ildə hərtərəfli, sürətli inkişafının şahidi olmasından məmnunluğunu bildirmiş, ölkədə informasiya-kommunikasiya texnologiyaları (İKT), həmçinin poçt sahəsində

müsbət dəyişikliklərin olduğunu söyləmişdir.

Dünya Poçt İttifaqının fəaliyyəti barədə danışan qonaq demişdir ki, biz qlobal səviyyədə olan əsas problemləri, o cümlədən iqtisadiyyatların qloballaşdırılması, miqrasiya fenomeni, informasiya cəmiyyəti və s. nəzərdən keçirir, eyni zamanda, bu problemlərin həlli istiqamətində hansı xidmətləri təklif etmək barədə də düşünürük. O, İKT və poçt sektorunun inkişafı ilə bağlı fikirlərini diqqətə çatdırmışdır.

İORDANİYADA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR

İordaniya Haşimilər Krallığında Azərbaycan Mədəniyyət Günlərinin rəsmi açılışı olmuşdur.

Əmman şəhərində keçirilən təntənəli mərasimdə hər iki ölkənin mədəniyyət nazirləri, xarici ölkələrin səfirləri, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Mərasimə hər iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlanılmışdır.

İordaniyanın mədəniyyət naziri Nəbih Şakum Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsini ikitərəfli əlaqələrin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirmişdir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Azərbaycanın zəngin qədim mədəni irsinin olduğunu və müasir mədəni inkişafı özündə təcəssüm etdirdiyini diqqətə çatdırmış, müsəlman Şərqində ilk operanın məhz Azərbaycanda yarandığını qeyd etmişdir.

Qeyd edilmişdir ki, iki ölkə arasında əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyev ilə İordaniya Kralı II Abdullah arasındakı dostluq münasibətləri, qarşılıqlı səfərlər, həmçinin bu səfərlər zamanı imzalanan sənədlər mühüm rol oynayır.

Ə.Qarayev mədəni əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyini, bununla bağlı yaxın üç ildə əməkdaşlığa dair proqramın hazırlanacağını diqqətə çatdırmışdır.

Rəsmi hissədən sonra Azərbaycan incəsənət ustaları geniş konsert proqramı ilə çıxış etmişlər.

Mədəniyyəti günləri çərçivəsində İordaniyanın Əmman və Zarka şəhərlərində Azərbaycan incəsənət xadimlərinin iştirakı ilə konsert, foto və kitab sərgiləri keçiriləcəkdir.

AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA TİBB SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR

Dekabrın 2-də səhiyyə naziri Oqtay Şirəliyev Azərbaycanda səfərdə olan Türkiyənin müxtəlif dövlət qurumlarının təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Oqtay Şirəliyev iki ölkə arasında hər sahədə olduğu kimi, səhiyyə, tibb elmi və təhsili üzrə də əməkdaşlıq əlaqələrinin nümunəvi olduğunu vurğulamışdır.

Nazir hər iki ölkədə geniş miqyaslı səhiyyə islahatlarının həyata keçməsində bu sahədə

çalışan dövlət qulluqçularının böyük əməyi olduğunu bildirmişdir. Azərbaycanda dövlət qulluqçularına göstərilən qayğıdan, dövlət qulluğu məsələlərində əldə edilən uğurlardan danışmışdır.

O.Şirəliyev bildirmişdir ki, ölkədə səhiyyə problemlərinin həllində tək Səhiyyə Nazirliyi deyil, bütün dövlət qurumları birgə səy göstərir.

Türkiyə nümayəndə heyətinin rəhbəri Əli Gülər ölkələrimiz arasında əlaqələrin qırılmaz tellərlə bağlı olduğunu, səhiyyə sahəsində əməkdaşlığımızın bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini vurğulamışdır.

Qonaq dövlət qulluğu məsələlərində qarşılıqlı təcrübə mübadiləsinin hər iki tərəf üçün əhəmiyyətli olacağını demişdir.

İORDANİYADA AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİ KEÇİRİLMİŞDİR

Noyabrın 30-dan dekabrın 2-dək İordaniyada Azərbaycan Mədəniyyət günləri keçirilmişdir.

Günlərin uğurla təşkili istiqamətində həm İordaniya, həm də Azərbaycan tərəfindən lazımi tədbirlər görülmüşdür.

Noyabrın 29-da səfir E.Araslı İordaniya Mədəniyyət Nazirliyində qurumun baş katibi C.Səmavi ilə Azərbaycan Mədəniyyət günləri ilə əlaqədar birgə mətbuat konfransında iştirak etmişdir. Baş katib C.Səmavi Azərbaycan-İordaniya münasibətlərinin tarixindən, ölkələrimiz arasındakı mədəni əlaqələrin yüksək səviyyədə olmasından danışmışdır. Bu sahədə iki ölkə arasında 2006-cı ildə Kral II Abdullahın Azərbaycana səfəri zamanı imzalanmış sazişin əhəmiyyəti xüsusi vurğulanmışdır. Konfransda İordaniyada Azərbaycan Mədəniyyət günləri çərçivəsində keçiriləcək tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

Səfir E.Araslı ölkəmizin tarixindən, mədəniyyətindən bəhs etmiş, İordaniya-Azərbaycan əlaqələrinin inkişafında ölkələrimizin başçılarının xidmətlərindən və mədəni əlaqələrimizin inkişafı istiqamətində görülən işlərdən danışmışdır. Daha sonra yerli KİV nümayəndələrinin suallarını cavablandıran səfir, Azərbaycan Mədəniyyət günləri çərçivəsində paytaxt Əmman və Zərka şəhərlərində keçiriləcək tədbirlər, habelə incəsənət qrupları haqqında ətraflı məlumat vermişdir.

Noyabrın 30-da Azərbaycanın mədəniyyət və turizm naziri Ə.Qarayevin İordaniyanın turizm və tarixi abidələr naziri Z.Qussus ilə görüşü olmuşdur. Görüşdə Ə.Qarayev Azərbaycanda turizmin inkişafı üçün geniş potensialın olduğunu vurğulayaraq, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən yeni layihələr haqqında məlumat vermiş, Azərbaycan ilə İordaniya arasında turizm sahəsində əməkdaşlığın perspektivlərini həmkarı ilə müzakirə etmişdir. Görüşdə Bakı ilə Əmman arasında birbaşa təyyarə reysinin bərpası ilə əlaqədar danışıqların müsbət nəticələnəcəyinə inam ifadə edilmişdir. Eyni zamanda, nazir Ə.Qarayev İordaniya turizm şirkətlərini Bakıda keçirilən turizm sərgilərində iştirak etməyə dəvət etmişdir.

Daha sonra Ə.Qarayevlə İordaniyanın mədəniyyət naziri Nəbih Şəqam arasında görüş baş tutmuşdur. Görüşdə ölkələrimiz arasında mədəni əlaqələrin hazırkı səviyyəsi,

Azərbaycan tərəfinin təşəbbüsü ilə tərəflər arasında 3 illik əməkdaşlıq proqramının işlənib hazırlanması, habelə əməkdaşlığın perspektivləri müzakirə edilmişdir. Nazir Ə.Qarayev iordaniyalı həmkarını gələn ilin aprelində Bakıda keçirilməsi nəzərdə tutulan Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməyə dəvət etmiş və bildirmişdir ki, elə həmin səfər çərçivəsində üçillik protokol öz təsdiqini tapacaqdır.

Sonra İordaniya Milli Kitabxanası ilə M.F.Axundzadə adına Milli Kitabxana arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilmişdir. Azərbaycan tərəfdən M.F.Axundzadə adına Milli Kitabxananın direktoru K.Tahirov, İordaniya tərəfdən isə Milli Kitabxananın direktoru M.Təlhuni kitabxanalararası əməkdaşlığa dair Anlaşma Memorandumunu imzalamışlar. İordaniya Milli Kitabxanasına Azərbaycan mədəniyyətini, tarixini əks etdirən, habelə erməni terroruna, Qarabağa, ümummilli lider Heydər Əliyevə həsr olunmuş ərəb, ingilis, Azərbaycan və rus dillərində kitablar hədiyyə edilmişdir.

Elə həmin gün nazir Ə.Qarayev Şahzadə Haşim Bin əl-Hüseyn tərəfindən Kralın Divanında qəbul edilmişdir. Görüşdə Ə.Qarayev Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Kral II Abdullaha ünvanlanmış məktubu Şahzadə Haşim Bin əl-Hüseynə təqdim etmişdir. Görüşdə Şahzadə Kralın iki ölkə arasında əməkdaşlığın inkişafında son dərəcə maraqlı olduğunu söyləməklə, İordaniyada keçirilən Azərbaycan Mədəniyyət günlərinin iki ölkə arasında dostluq və əməkdaşlığın bariz nümunəsi olduğunu qeyd etmişdir.

Sonra İordaniyanın Kral Mədəniyyət Mərkəzində Azərbaycan Mədəniyyət günlərinin rəsmi açılışı olmuşdur. Əvvəlcə Mərkəzin sərgi salonunda "Azərbaycan ənənə və müasirliyin qovuşuğunda" adlı fotosərgi açılmışdır. Bu münasibətlə keçirilən mərasimdə hər iki ölkənin himni səslənmişdir. Tədbiri giriş sözü ilə açan hər iki ölkənin mədəniyyət nazirləri Nəbih Şəqam və Əbülfəs Qarayev Azərbaycan-İordaniya münasibətlərinin tarixindən, ölkələrimiz arasındakı mədəni əlaqələrin yüksək səviyyədə olmasından danışmışlar. İordaniyanın Mədəniyyət Nazirliyinin Azərbaycanın Əmmandakı səfirliyi ilə ciddi əməkdaşlıq etdiyini söyləyən iordaniyalı nazir əlaqələrin inkişafında səfirliyin mühüm rol oynadığını xüsusi vurğulamışdır.

Mədəniyyət və turizm naziri Ə.Qarayev ölkəmizin mədəniyyəti, incəsənəti, xalq musiqimiz, muğamımız, eləcə də işğal edilmiş torpaqlarımızda erməni vandalizmi nəticəsində dağıdılmış tarixi və mədəni abidələr haqqında məlumat vermişdir. Sonra bir saata qədər davam edən konsertdə Xalq Artisti Afaq Məlikovanın rəhbərliyi ilə Azərbaycan Dövlət rəqs ansamblı, Əməkdar Artist Məcnun Kərimovun rəhbərliyi ilə qədim musiqi alətləri ansamblı, xanəndələr İ.Əhmədov, V.Orucova, Əməkdar artistlər N.Hüseynova, E.Seyidcahan, T.Aslanov və digərlərinin ifalarında tamaşaçılara milli rəqslərimiz, xalq mahnıları və muğamlarımızdan nümunələr təqdim edilmişdir.

Tədbirdə İordaniyada akkreditə olunmuş xarici ölkə səfirləri, diplomatlar, İordaniya ictimai-siyasi elitasının tanınmış simaları, yerli KİV nümayəndələri, Azərbaycan, çeçen və çərkəz icmalarının üzvləri və digər rəsmi və qeyri-rəsmi şəxslər iştirak etmişlər.

Dekabrın 1-də Azərbaycanın Əmmandakı səfirliyində mədəniyyət və turizm naziri Ə.Qarayevlə səfir E.Araslının iştirakı ilə mətbuat konfransı keçirilmişdir. Konfransda Ə.Qarayev Azərbaycanın mədəniyyətindən, incəsənətindən, muğamından bəhs etmiş, işğal edilmiş torpaqlarımızda maddi-mədəni irsimizin ermənilər tərəfindən vəhşicəsinə

dağıdılmasından danışmışdır. Eyni zamanda, nazir YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş tarixi və mədəni abidələrimiz haqqında İordaniya ictimaiyyətini məlumatlandırmışdır. Sonra Ə.Qarayev və səfir E.Araslı yerli KİV nümayəndələrinin suallarını cavablandırmışlar. Tədbirdə İordaniya televiziyasının, "Ər-Ray", "Əl-Ğəd" kimi nüfuzlu qəzetlərin, "Petra" xəbər agentliyinin nümayəndələri iştirak etmişlər.

Həmin gün nazir Ə.Qarayev şahzadə Haşimin tövsiyəsi ilə İslam Mədəniyyəti muzeyində və emalatxanasında, islam irsinə məxsus miniatürlər hazırlayan mütəxəssislərin tədris mərkəzində olmuşdur.

Mədəniyyət günlərinin ikinci günü Zərka şəhərində Kral II Abdullah adına Mədəniyyət Mərkəzində növbəti konsert proqramı olmuşdur.

Mədəniyyət günləri çərçivəsində sonuncu konsert dekabrın 2-də Əmmanda Milli Mədəniyyət və İncəsənət Mərkəzində keçirilmişdir. Çıxışlardan öncə İordaniya Mədəniyyət Nazirliyinin baş katibi C.Səmavi nitq söyləyərək Mədəniyyət günlərində iştirak edən incəsənət ustalarına peşəkar çıxışlarına görə təşəkkür etmiş, bütövlükdə İordaniyada Azərbaycan mədəniyyətinin tanınması və təşviqində Mədəniyyət günlərinin xüsusi rol oynadığını qeyd etmişdir. Bir neçə gün ərzində davam edən tədbirlərlə yanaşı, İordaniyanın yerli KİV-lərində bu mövzuda dərc edilmiş yazıların İordaniya ictimaiyyətində Azərbaycanın mədəniyyəti, incəsənəti və adət-ənənələri haqqında məlumatları genişləndirdiyini söyləmişdir. Sonra incəsənət ustalarının çıxışları olmuşdur.

Ümumilikdə, Azərbaycan Mədəniyyəti günləri, Əmman və Zərka şəhərlərində keçirilmiş konsert proqramları və "Azərbaycan ənənə və müasirliyin qovuşuğunda" adlı fotosərgi İordaniya ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanmış, Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması istiqamətində növbəti uğurlu addım olmuşdur.

Mədəniyyət günləri ərzində rəsmi nümayəndə heyətinin mədəni proqramı da zəngin olmuş, İordaniya tərəfi onlar üçün Ölü dənizə, Qədim Cəraş və Petra şəhərlərinə ziyarətlər təşkil etmişdir.

MƏRKƏZİ BANKIN SƏDRİ DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 3-də Mərkəzi Bankın sədri Elman Rüstəmov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Əsəd Alamın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüş zamanı Dünya Bankı ilə Birgə İqtisadi Tədqiqatlar Proqramı (BİTP), İkinci Yüksək Səviyyəli Forumun mövzusu və formatı, Dünya Bankının Vaşinqton ofisində Azərbaycan günlərinin keçirilməsi planı müzakirə edilmişdir.

Əsəd Alam Azərbaycan Respublikası ilə əlaqələrin səviyyəsindən məmnunluğunu bildirmiş və ölkədə icra olunan proqramların iqtisadi inkişafda rolunu qeyd etmişdir. O, həmçinin, təmsil etdiyi təşkilatın Azərbaycanın maliyyə-bank sektorunda fəaliyyətini yüksək qiymətləndirmiş, bu sahədə dəstəyinə görə Mərkəzi Bankın sədrinə minnətdarlığını bildirmişdir.

Elman Rüstəmov BİTP-nin Tədqiqatlar və İnkişaf Mərkəzinin (TİM) potensialının möhkəmləndirilməsində Dünya Bankının rolunu xüsusi vurğulamışdır.

Görüşdə Mərkəzi Bank ilə Dünya Bankı arasında gələcək qarşılıqlı əməkdaşlıq məsələləri də müzakirə olunmuşdur.

BAKIDA ÖZBƏKİSTANIN İLK MİLLİ SƏRGİSİ AÇILMIŞDIR

Dekabrın 3-də Bakı Sərgi Mərkəzində Özbəkistan Respublikasının ilk Milli Sərgisi açılmışdır.

Açılış mərasimində Azərbaycan Baş nazirinin birinci müavini Yaqub Eyyubov çıxış edərək xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrindən danışaraq bildirmişdir ki, ölkələrimizdə keçirilən milli sərgilər prezidentlər İlham Əliyev və İslam Kərimovun təşəbbüsü və tapşırığı ilə təşkil edilir. Bu milli sərgilərin Azərbaycan ilə Özbəkistan arasında iqtisadi əməkdaşlığın artmasına təkan verəcəyini söyləyən Y.Eyyubov hazırkı ticarət dövriyyəsinin həcminin iqtisadi potensialımıza uyğun olmadığını vurğulayaraq demişdir ki, beynəlxalq iqtisadi böhrandan uğurla çıxan ölkələrimiz belə tədbirlərdən istifadə edərək, ticarət dövriyyəsini artırmalıdırlar.

Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr, investisiyalar və ticarət naziri Eliyor Qəniyev bu sərgilərin, iqtisadi cəhətdən uğurla inkişaf edən ölkələrimizin sahibkarlıq subyektləri arasında uzunmüddətli əməkdaşlığın təməlini qoyduğunu söyləmişdir. Özbəkistanda keçirilən Azərbaycanın birinci Milli Sərgisini xatırladan E.Qəniyev sərgi çərçivəsində bir sıra müqavilələrin imzalandığını xatırlatmışdır. Ölkələrimiz arasında əlaqələrin təkcə ticarətlə məhdudlaşmayacağını qeyd edən Özbəkistan Baş nazirinin müavini digər birgə layihələrin icrasının da nəzərdə tutulduğunu qeyd etmiş, yeni sazişlərin imzalanacağına əminliyini söyləmişdir.

Sonra iştirakçılar sərgi ilə yaxından tanış olmuşlar.

Dekabrın 3-də Azərbaycanın Baş naziri Artur Rasizadə Bakı Sərgi Mərkəzində Özbəkistanın Milli Sərgisi ilə tanış olmuşdur.

Özbəkistan Baş nazirinin müavini, xarici iqtisadi əlaqələr, investisiyalar və ticarət naziri Eliyor Qəniyev sərgidə nümayiş olunan məhsullar barədə Artur Rasizadəyə ətraflı məlumat vermişdir.

Sərgi ilə yaxından maraqlanan Baş nazir A.Rasizadə KİV nümayəndələrinə bildirmişdir ki, Özbəkistanda və Azərbaycanda keçirilən milli sərgilər ölkələrimiz arasında mövcud əlaqələri daha da inkişaf etdirəcəkdir. Sərgidən məmnun qaldığını söyləyən A.Rasizadə ölkələrimiz arasındakı münasibətlərin tarixi kökə söykəndiyini qeyd edərək, Özbəkistanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini birtərəfli mənada dəstəklədiyini demişdir. Baş nazir Azərbaycan və Özbəkistanın iqtisadi əlaqələri inkişaf etdirmək üçün real potensiallarının olduğunu bildirərək, bu əməkdaşlıqdan hər iki ölkənin faydalanacağını vurğulamışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MACARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 6-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Macarıstanın ölkəmizdə yeni təyin olunmuş səfiri Yolt Çutora ilə görüşmüşdür.

Etimadnamənin surətini nazirə təqdim edən Y.Çutora ölkəmizdə səfir təyin olunmasından məmnunluğunu ifadə etmişdir. Ölkələrimiz arasında bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayan səfir Macarıstan-Azərbaycan əlaqələrinin dərinləşməsi istiqamətində çalışacağını bildirmişdir.

Nazir E.Məmmədyarov ölkəmizdə səfir təyin olunması münasibətilə macarıstanlı diplomatı təbrik etmiş və işlərində müvəffəqiyyətlər arzulamışdır.

AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA DİPLOMATİK VƏ XİDMƏTİ PASPORTLARA MALİK ŞƏXSLƏR ÜÇÜN VİZALARIN LƏĞV EDİLMƏSİ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR

Dekabrın 7-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan İtaliyanın xarici işlər nazirinin müavini, senator Alfredo Mantikanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan ilə İtaliya arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən E.Məmmədyarov bunun həm ikitərəfli məsələlərdə, həm də beynəlxalq təşkilatlar çərçivəsində mövcud əməkdaşlıqda öz əyani təzahürünü tapdığını bildirmişdir. Azərbaycanın xarici işlər naziri ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu demişdir.

A.Mantika İtaliyanın Azərbaycan ilə yalnız neft sektorunda deyil, qeyri-neft sektorunda da əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulamışdır.

Görüşdə hər iki ölkənin parlamentləri arasında münasibətlərin intensivləşdirilməsinin vacibliyi qeyd olunmuşdur. Avropa İttifaqı çərçivəsində əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirən tərəflər xüsusda "Şərq tərəfdaşlığı" proqramının əhəmiyyətini vurğulamışlar.

Sonda Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov və onun italiyalı həmkarı A.Mantika "Azərbaycan Respublikası hökuməti və İtaliya Respublikasının hökuməti arasında diplomatik və xidməti pasportlara malik şəxslər üçün vizaların ləğv edilməsi haqqında Saziş" imzalamışlar.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏNİN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Dekabrın 7-də nazir Elmar Məmmədyarov İsveçrənin Azərbaycandakı səfiri Alain Quidetti ilə ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşmüşdür.

Görüşdə A.Quidetti ölkəmizdə İsveçrənin səfiri olmasından məmnun olduğunu vurğulamışdır. İşlədiyi dövrdə ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi və inkişafı üçün fəaliyyət göstərdiyini deyən diplomat bu istiqamətdə Azərbaycanın xarici siyasət idarəsi ilə faydalı əməkdaşlığını qeyd etmişdir.

E.Məmmədyarov diplomata gələcək işlərində müvəffəqiyyətlər diləmişdir.

SMPDK İLƏ ALMANİYA METROLOGİYA İNSTİTUTU ARASINDA NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR

Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (SMPDK) ilə Almaniya Metrologiya İnstitutu (PTB) arasında niyyət protokolu imzalanmışdır.

Protokolda tərəflərin metrologiya sahəsinin inkişafı ilə bağlı 2011-ci il üçün nəzərdə tutulmuş layihənin həyata keçirilməsinə təşəbbüsləri əks olunmuşdur.

Layihəyə əsasən, SMPDK-nın kalibrləmə laboratoriyalarında çalışan mütəxəssislər üçün təlimlərin keçirilməsi, keyfiyyət üzrə rəhbəredici sənədlərin hazırlanması və laboratoriyaların Avropa İttifaqı ölkələrində akkreditasiya məsələləri aktuallıq kəsb edir.

AZƏRBAYCANIN VƏ RUSİYANIN AUDİTORLAR PALATALARI ARASINDA ƏMƏKDAŞLIQ SAZİŞİ İMZALANMIŞDIR

Auditorlar Palatasının sədri Vahid Novruzovun rəhbərliyi ilə nümayəndə heyəti Moskva şəhərində Rusiya Auditorlar Palatasının 15 illiyinə həsr olunmuş yubiley tədbirində iştirak etmişdir.

Tədbirlər çərçivəsində Rusiya Auditorlar Palatasının müraciəti əsasında həmin qurum ilə Azərbaycan Respublikasının Auditorlar Palatası arasında əməkdaşlıq sazişi də imzalanmışdır.

Sənəddə Azərbaycan və Rusiya auditorları arasında peşəkar mübadilələrin aparılması üçün daha əlverişli şəraitin yaradılması, audit və mühasibat uçotu sahəsində qanunvericilik və normativ sənədlərin layihələri üzərində birgə tədqiqatların aparılması və informasiya mübadiləsi, bu məqsədlə zəruri hallarda işçi qruplarının yaradılması, müştərək tədbirlərin həyata keçirilməsi və beynəlxalq fəaliyyətdə qarşılıqlı dəstək göstərilməsi, habelə digər məsələlər nəzərdə tutulmuşdur.

Nümayəndə heyətinin çıxışlarında və müsahibələrində ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər barədə ətraflı məlumat verilmişdir.

BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR

Dekabrın 7-də Brüsseldə Avropa İttifaqı (Aİ)-Azərbaycan Əməkdaşlıq Şurasının 11-ci iclası keçirilmişdir.

İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Aİ nümayəndə heyətinə isə Macarıstanın Xarici İşlər Nazirliyinin dövlət katibi Jolt Nemet və Aİ-nin genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarŞtefan Füle başçılıq etmişlər.

İclasdan əvvəl J.Nemet, Ş.Füle və Cənubi Qafqaz ölkələrinin nümayəndə heyətlərinin başçılarının birgə işçi naharı olmuşdur.

Naharda Aİ ilə Cənubi Qafqaz ölkələri arasında münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri, "Şərq tərəfdaşlığı" təşəbbüsü çərçivəsində əməkdaşlıq, xüsusilə də Aİ ilə assosiasiya sazişləri üzrə danışıqlar prosesi, habelə regionda mövcud münaqişələrin nizamlanması ətrafında fikir mübadiləsi aparılmışdır.

İclasın gündəliyində isə əsasən Aİ-Azərbaycan Fəaliyyət Planının həyata keçirilməsi, "Şərq tərəfdaşlığı" təşəbbüsü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi, Aİ ilə ölkəmiz arasında enerji və nəqliyyat sahələri üzrə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Aİ-Azərbaycan münasibətlərinin Fəaliyyət Planında göstərildiyi kimi, ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət əsasında aparılmasının vacibliyi vurğulanmışdır.

Ölkəmizdə demokratiya, insan hüquqları və mətbuat azadlığının gücləndirilməsi istiqamətində görülmüş işlər və noyabrın 7-də Azərbaycan Milli Məclisinə keçirilmiş seçkilər də iclasda müzakirə olunmuşdur.

İclasda Aİ ilə ölkəmiz arasında enerji sahəsində əməkdaşlıq məsələsi də müzakirə olunmuş, Avropanın enerji təhlükəsizliyi və enerji daşıyıcılarının şaxələndirilməsində Azərbaycanın mühüm rolu vurğulanmışdır.

AZƏRBAYCAN HESABLAMA PALATASI İLƏ İSVEÇRƏ KONFEDERASİYASI HÖKUMƏTİ ARASINDA SAZİŞ İMZALANMIŞDIR

Dekabrın 8-də Azərbaycan Hesablama Palatası ilə İsveçrə Konfederasiyası Hökuməti arasında "Korporativ və Dövlət Sektorunda Hesabatlılıq Layihəsi" (CAPSAP) üzrə texniki yardım haqqında Saziş imzalanmışdır.

Tədbirdə maliyyə nazirinin birinci müavini İlqar Fətizadə, Nazirlər Kabinetinin şöbə müdiri Naib Fətəliyev, İsveçrə Konfederasiyasının ölkəmizdəki səfiri Alain Guidetti, Dünya Bankının layihə rəhbəri Jan Tyl və digər rəsmi şəxslər iştirak etmişlər.

Hesablama Palatasının sədri Heydər Əsədov layihə barədə məlumat verərək bildirmişdir ki, bu layihə vasitəsilə Hesablama Palatasının hüquqi bazasının möhkəmləndirilməsi və genişləndirilməsi, potensialının gücləndirilməsini həyata keçirəcəyik. Eləcə də peşəkar audit qurumları ilə, nəzarət orqanları ilə əlaqə saxlayaraq təşkilatın strukturunun təkmilləşdirilməsi, yeni, müasir audit yanaşması prinsiplərinin tətbiqi, kadrların bacarıqlarının artırılması üçün treninqlərin təşkili və s. məqsədlərə xidmət edəcəkdir. Layihənin gələcək prinsipləri isə daha genişdir.

Bu Sazişlə İsveçrə Konfederasiyasının Hökuməti layihənin həyata keçirilməsini Dünya Bankına həvalə edir. Sənəddə əməkdaşlığın əsas prinsipləri, sazişin dayandırılması və ona xitam verilməsi, layihənin icrası zamanı yarana biləcək mübahisələrin həlli və korrupsiyaya qarşı müddəalar da əksini tapmışdır.

Azərbaycan ilə İsveçrə Hökuməti arasında mövcud diplomatik əlaqələrin inkişafından danışan səfir Alain Guidetti ölkəmizin İsveçrə Hökuməti üçün prioritet ölkə olduğunu demişdir. Bildirmişdir ki, həyata keçirilən bu layihə bizim maliyyə sektorundakı əməkdaşlıq və inkişaf layihələrindən biridir. Məqsədimiz dövlət xərclərinin maliyyələşdirilməsində transparentliyin artırılmasıdır. Sazişdə İsveçrə Konfederasiyasının Hökuməti tərəfdən Azərbaycan Hökumətinə, son benefisiarı Hesablama Palatası olmaqla, "Korporativ və Dövlət Sektorunda Hesabatlılıq Layihəsi"nin "Dövlət sektorunda hesabatlılıq" komponentinin maliyyələşdirilməsi məqsədi ilə 2 milyon ABŞ dolları məbləğində qrant vəsaiti ayrılmışdır. Bu Qrantdan daxilolmalar layihənin "Dövlət sektorunda hesabatlılıq" komponentinə uyğun olaraq Hesablama Palatasının potensialının gücləndirilməsinə yönələcəkdir.

Bu sazişin davamı olaraq, Dünya Bankı ilə İsveçrə Konfederasiyasının Hökuməti arasında imzalanmış inzibati müqavilənin müddəalarına uyğun olaraq, layihənin həyata keçirilməsi həvalə edilən Dünya Bankı ilə Azərbaycan Hökuməti arasında, layihənin icrasını və qrantın istifadəsini tənzimləyən Qrant sazişinin bağlanması nəzərdə tutulmuşdur.

Sonra Azərbaycan Hökuməti adından Hesablama Palatasının sədri Heydər Əsədov, İsveçrə Konfederasiyası Hökuməti adından səfir Alain Guidetti saziş imzalamışlar.

AZƏRBAYCANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ STRASBURQDA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR

Avropa Şurasının idman üzrə Genişləndirilmiş Hissəvi Sazişi Katibliyi və Azərbaycan nümayəndəliyinin təşəbbüsü ilə idman və gənclər naziri Azad Rəhimov AŞ Nümayəndələr Komitəsinin 1101-ci iclasının gündəliyindəki AŞ-yə üzv ölkələrin idman nazirlərinin Bakıda keçirilmiş qeyri-rəsmi konfransı üzrə fikir mübadiləsi aparmaq məqsədi ilə dekabrın 8-də Strasburqda işgüzar səfərdə olmuşdur.

Nazir Nümayəndələr Komitəsində çıxış edərək Bakıda keçirilmiş konfrans, həmçinin toplantıda müzakirə olunmuş məsələlər, habelə idman oyunlarının nəticələrinin əvvəlcədən razılaşdırılmasının qarşısının alınması, idmançılara vizalar verilməsi, idman sahəsində Avropa əməkdaşlığı və digər məsələlərlə bağlı fikirlərini iclas iştirakçılarına çatdırmışdır.

A.Rəhimov səfər çərçivəsində AŞ baş katibinin müavini Mod de Bur Bukikio ilə görüşmüşdür. Görüşdə AŞ ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın getdikcə inkişaf etməsi razılıq hissi ilə qeyd edilmişdir. Nazir Bakıda keçirilmiş AŞ-yə üzv ölkələrin idman nazirlərinin qeyri-formal konfransı barədə məlumat vermişdir. Tərəflər konfransda müzakirə olunmuş və qəbul edilmiş qərarlar ətrafında fikir mübadiləsi aparmışlar.

Nazir AŞ-nin gənclər və idman üzrə direktoru R.Vaynqarterin müşayiəti ilə AŞ-nin gənclər mərkəzi ilə tanış olmuşdur. Direktor Azərbaycan Gənclər və İdman Nazirliyinin 2008-ci ildə azsaylı ölkələrlə birlikdə mərkəzin təmirinə 20 min avro könüllü yardımına görə minnətdarlığını bildirmişdir.

MOSKVADA MDB ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI OLMUŞDUR

Dekabrın 9-da Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) növbəti iclası olmuşdur. İclasda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov iştirak etmişdir.

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun sədrliyi ilə keçən iclasda 18-dək sənədin layihəsi müzakirə olunmuşdur.

Rusiyanın 2010-cu ildə MDB-də başa çatmaqda olan sədrliyi kontekstində beynəlxalq gündəliyin qarşılıqlı maraq doğuran mövzuları, Birlik məkanında çoxşaxəli qarşılıqlı fəaliyyətin aktual inkişafı məsələləri müəyyən edilmişdir.

Xarici siyasət idarələrinin başçıları hüquq mühafizə, sərhəd təhlükəsizliyinin təmin olunması və hərbi siyasət sahələrində, habelə humanitar sahədə kollektiv qarşılıqlı fəaliyyətin inkişafına əlavə təkan verməyi nəzərdə tutan sənədlərin layihələrini gözdən keçirmişlər.

Müzakirə olunan bir sıra orta və uzunmüddətli xarakterli çoxşaxəli proqram sənədləri imzalamaq üçün dövlət başçılarına təqdim etmək nəzərdə tutulur.

Rusiya XİN-in başçısı S.Lavrov iclasın yekunlarına əsasən bildirmişdir ki, MDB dövlət başçılarının 10 dekabr tarixli zirvə görüşündə sədrlik funksiyasının Birliyin hansı ölkəsinə veriləcəyi məsələsi müzakirə ediləcəkdir. Onun sözlərinə görə, müşavirənin başlıca vəzifəsi MDB ölkələrinin beynəlxalq inkişaf problemləri ilə bağlı qarşılıqlı fəaliyyət məsələlərinin müzakirəsi olmuşdur. Bu baxımdan Qazaxıstanın ATƏT-də başa çatmış sədrliyinə və Astana zirvə görüşünün yekunlarına yüksək qiymət verilmişdir. Nazirlər MDB Dövlət Başçıları Şurasına hazırlıq məsələlərinə xüsusi diqqət yetirmişlər. S.Lavrov demişdir: "Həmçinin liderlərin təsdiqinə veriləcək qərar layihələri müzakirə olunmuşdur".

Rusiya xarici siyasət idarəsinin başçısı vurğulamışdır: "Biz mütəşəkkil cinayətkarlığa, terrorizmə, narkotrafikə və insan alverinə qarşı mübarizə kimi sahələrdə əməkdaşlığa dair bir sıra layihələr hazırladıq, yaxın 5 ildə sərhəd əməkdaşlığı Proqramını həyata keçirmək üçün tədbirlər planını, hərbi əməkdaşlıq Konsepsiyasının layihəsini müzakirə etdik".

S.Lavrov onu da bildirmişdir ki, MDB XİNŞ formatında və bütövlükdə Birlik məkanında qarşılıqlı fəaliyyət öz bəhrəsini verir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA GƏLMİŞDİR

Dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskvaya gəlmişdir.

MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 hava limanında Azərbaycan Prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Dekabrın 10-da Rusiyanın paytaxtı Moskvada MDB Dövlət Başçıları Şurasının iclası keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.

Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev iclasda iştirak edən dövlət başçılarını Böyük Kreml sarayında qarşıladı.

Əvvəlcə Prezident Dmitri Medvedevin adından MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının şərəfinə işçi nahar verildi.

Sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi. Bu formatda keçirilən iclasın məqsədi gündəliyin özü, habelə onun bəzi məsələləri barədə fikir mübadiləsi aparmaq, müxtəlif yanaşmalar olan sənədlərlə bağlı cavab layihələrini müzakirə etməkdir. Bu, ilk növbədə MDB-nin səmərəliliyinin artırılması və onun inkişaf perspektivləri barədə məsələlərə aiddir.

Gündəliyə iqtisadi və humanitar sahələrdə əməkdaşlığa dair, eləcə də təhlükəsizliyin təmin olunmasında və Birliyin fəaliyyətinin digər istiqamətlərində inteqrasiya proseslərinin sürətləndirilməsinə yönəlmiş 20 sənəd daxil idi.

Məhdud tərkibdə iclas başa çatdıqdan sonra dövlət başçıları xatirə şəkli çəkdirdilər.

Sonra iclas öz işini geniş tərkibdə davam etdirdi.

MDB Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev iclası açaraq əmin olduğunu bildirdi ki, aparılan müzakirələr və əldə edilmiş razılaşmalar MDB-nin üzvü olan ölkələr arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət edəcəkdir.

Rusiya dövlətinin başçısı dedi ki, humanitar əməkdaşlıq üzrə ikiillik plan qəbul olunmuşdur.

Azad ticarət zonası haqqında müqavilə layihəsinin hazırlanmasının gedişi məsələsi də müzakirələrin əsas mövzusu idi. Bildirildi ki, cari ilin sonunadək bu sənədin layihəsinin razılaşdırılması, gələn ilin birinci yarısında isə onun qəbul edilməsi nəzərdə tutulur. Sənədin imzalanması MDB-nin üzvü olan dövlətlərin ərazilərində ticarətin tamamilə liberallaşdırılması üçün müqavilə bazasının yaradılmasına kömək edəcəkdir.

Bundan əlavə, iclasda MDB ölkələrində 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 65-ci ildönümü çərçivəsində və elm və innovasiyalar ili elan olunmuş 2010-cu ildə keçirilmiş tədbirlərin yekunları müzakirə olunmuşdur.

İclasda, həmçinin 2020-ci ilə qədər MDB çərçivəsində gənclərin beynəlxalq əməkdaşlıq strategiyası müzakirə olunmuşdur. Bu sənəd ilk dəfədir ki, hazırlanır.

İclasda ənənəvi olaraq cinayətkarlığa, terrorizmə və ekstremizmin digər zorakı təzahürlərinə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə, insan alverinə qarşı birgə mübarizə tədbirləri proqramlarının layihələrinə dair fikir mübadiləsi aparıldı.

Dövlət başçıları Birliyin üzvü olan dövlətlərin ATƏT çərçivəsində siyasi əməkdaşlıq sahəsində qarşılıqlı fəaliyyətinə dair qərar layihəsini də müzakirə etdilər.

Müzakirələrdən sonra iclasın yekun sənədləri imzalandı.

Daha sonra mətbuat konfransı keçirildi. Bildirildi ki, MDB-də sədrlik gələn ilin yanva-

rında Tacikistana keçəcəkdir. MDB Dövlət Başçıları Şurasının növbəti iclası isə 2011-ci ilin sentyabrında Düşənbədə keçiriləcəkdir.

Bununla da iclas işini yekunlaşdırdı.

SƏFƏR BAŞA ÇATDI

MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri dekabrın 10-da başa çatmışdır.

Vnukovo-2 hava limanında Azərbaycan Prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

BAKIDA AZƏRBAYCAN VƏ BELARUS XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Dekabrın 10-da Bakıda Azərbaycan və Belarus Xarici İşlər nazirlikləri arasında konsulluq məsələlərinə dair növbəti məsləhətləşmələr keçirilmişdir.

Belarus Xarici İşlər Nazirliyinin Baş Konsulluq İdarəsinin rəisi Aleksandr Ostrovskinin rəhbərlik etdiyi nümayəndə heyəti xarici işlər nazirinin müavini Nadir Hüseynov ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Belarus arasında konsulluq sahəsi üzrə əməkdaşlığın inkişafı, regional və digər məsələlər müzakirə olunmuşdur. N.Hüseynov konsulluq sahəsi üzrə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirmiş və sözügedən sahənin inkişaf etdirilməsi üçün ölkələrarası konsulluq məsləhətləşmələrinin keçirilməsinin vacibliyini vurğulamışdır.

Məsləhətləşmələr zamanı Azərbaycanda və Belarusda yaşayan hər iki ölkə vətəndaşlarının hüquqi vəziyyəti, onların qarşılaşdıqları çətinliklərin həlli yolları, xüsusilə Belarusda yaşayan Azərbaycan vətəndaşlarının vəziyyəti, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin iki ölkə ərazisində hüquqi vəziyyəti, bu ölkənin ərazisində daimi yaşayan vətəndaşlarımızın pensiya təminatı, vətəndaşlıq, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər, miqrasiya problemləri və readmissiya kimi vacib məsələlər müzakirə edilmişdir.

Müzakirələrdə Azərbaycan Respublikasının Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə nazirliklərinin, Dövlət Sosial Müdafiə Fondunun nümayəndələri iştirak etmiş, müzakirə olunan məsələlərə dair fikir və təkliflərini bildirmişlər.

Azərbaycan tərəfdən məsləhətləşmələrdə nümayəndə heyətinə Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəis əvəzi Mehriban Nəcəfova, Belarus nümayəndə heyətinə Aleksandr Ostrovski rəhbərlik etmişlər.

Məsləhətləşmələrin sonunda tərəflər arasında müzakirə olunan məsələlərə dair niyyət protokolu imzalanmışdır.

Hər iki ölkənin Xarici İşlər nazirliklərinin bundan əvvəlki konsulluq məsləhətləşmələri 2007-ci il dekabrın 18-19-da Minskdə keçirilmişdi.

AZƏRBAYCAN-RUMINİYA ƏLAQƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Rumıniya hökumətinin Etnoslararası Əlaqələr Departamenti müdirinin müavini, tanınmış iqtisadçı və ictimai xadim Necat Salehlə görüş olmuşdur.

Görüş "Azərbaycan-Rumıniya əlaqələri: reallıqlar və perspektivlər" mövzusuna həsr olunmuşdur.

DİA-nın Geostrateji Araşdırmalar Mərkəzinin direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əli Nuriyev tədbir iştirakçılarına Necat Salehin Azərbaycan-Rumıniya əlaqələrinin inkişafı və bütövlükdə türk dünyasının ortaq probleminin həlli yolunda göstərdiyi geniş və səmərəli fəaliyyətindən bəhs etmişdir.

Necat Saleh Azərbaycan-Rumıniya münasibətlərinin vəziyyəti, ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi, Rumıniyadakı etnik müxtəliflik və bu kontekstdə türklərin yeri, türkdilli xalqların diaspora fəaliyyəti və bu fəaliyyətin genişləndirilməsi istiqamətində atılmış addımlar, habelə dövlətlərarası münasibətlərin daha da genişləndirilməsi perspektivlərindən söhbət açmışdır.

Sonra mövzu ilə bağlı müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ALAİN QUİDETTİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alain Quidettini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı səfir Alain Quidettinin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin Azərbaycana, özünün isə İsveçrəyə səfərini xatırlayaraq bu səfərlərin önəmini qeyd etdi və həmin səfərlər zamanı əlaqələrimizin daha da inkişaf etdirilməsi ilə bağlı məhsuldar müzakirələrin aparıldığını bildirdi. İkitərəfli əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə isveçrəli diplomata təşəkkürünü bildirən dövlətimizin başçısı gələcək fəaliyyətində ona uğurlar arzuladı.

2008-ci ildə İsveçrə Konfederasiyasının Prezidenti Paskal Kuşpenin iştirakı ilə ölkəsinin Bakıdakı rəsmi nümayəndəliyinin açılışını xatırlayan diplomat Alain Quidetti ötən dörd ilin rəsmi nümayəndəlik üçün uğurlu və məhsuldar başlanğıc olduğunu dedi. O, ölkəmizdə fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda gedən inkişaf proseslərinin şahidi olmasından məmnun qaldığını bildirdi və bu inkişaf proseslərinin gələcəkdə də davam edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Avstriyanın OMV Şirkəti İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorferin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

OMV Şirkəti İcraiyyə Şurasının sədri Volfqanq Ruttenstorfer bu vəzifədə onu əvəz edəcək Gerhard Royssi dövlətimizin başçısına təqdim etdi.

Görüşdə Avstriyanın OMV Şirkətinin Azərbaycanın neft və qaz yataqlarının birgə işlənilməsində iştirakı imkanlarının, Azərbaycan Dövlət Neft Şirkəti ilə əməkdaşlığının, Nabukko layihəsinin həyata keçirilməsinin perspektivləri ilə bağlı məsələlər müzakirə edilmişdir.

TÜRKİYƏ, TÜRKMƏNİSTAN VƏ ÖZBƏKİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ İLƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR MÜZAKİRƏ OLUNMUŞDUR

Dekabrın 11-də Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Aşqabad şəhərində keçirilən və Türkmənistanın bitərəfliyinin 15 illiyinə həsr olunmuş "Türkmənistanın daimi bitərəfliyi - sülh, inkişaf və təhlükəsizlik naminə əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak etmişdir.

Nazir E.Məmmədyarov konfransda iştirakı çərçivəsində Türkiyə, Türkmənistan və Özbəkistanın xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirmişdir.

Görüşlərdə ikitərəfli münasibətlər, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR FRANSIZ AKTYORU JERAR DEPARDYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də məşhur fransız aktyoru Jerar Depardyeni qəbul etmişdir.

Jerar Depardye ölkəmizə səfərindən məmnunluğunu bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini vurğuladı.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin müasir Azərbaycanın dövlət quruculuğundakı müstəsna rolunu qeyd edərək ölkəmizin inkişafı üçün çox böyük işlər gördüyünü bildirdi.

Görüşdə Azərbaycanda kinematoqrafiyanın inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

LİTVA ATƏT-Ə SƏDRLİYİ DÖVRÜNDƏ DÖVLƏTLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI PRİNSİPLƏRİNƏ XÜSUSİ ÖNƏM VERƏCƏKDİR

Litva ATƏT-ə sədrliyi dövründə dövlətlərin ərazi bütövlüyünün qorunması prinsiplərinə xüsusi önəm verəcəkdir.

Bu sözləri Litva Seyminin xarici işlər komitəsinin sədri Emanuelis Zingeris dekabrın 13-də Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri ilə görüşündə söyləmişdir.

Milli Məclisin komitə sədri Əli Hüseynov demişdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Avropaya inteqrasiya edir. Bu gün Azərbaycan Avropanın iqtisadi, xüsusilə də enerji sahəsində tərəfdaşıdır. Qanunlarımızın Avropa standartlarına uyğunlaşdırılması əməkdaşlığımızın genişlənməsinin əsasını təşkil edir. Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində bir çox ölkələr, eləcə də Litva ilə sıx əməkdaşlıq edir, qanunvericilik bazamızı təkmilləşdirir, Avropa standartlarına uyğunlaşdırırıq. Litva parlamenti ilə Twinnig layihəsi çərçivəsində əməkdaşlığımız bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Biz bu layihə çərçivəsində artıq bir sıra tədbirlər keçirmişik. Düşünürük ki, əməkdaşlığımız öz bəhrəsini verəcəkdir.

Emanuelis Zingeris demişdir ki, biz Sovetlər dövründə oxşar tale yaşamışıq. Müstəqillik uğrunda mübarizəmiz də oxşar olmuşdur. Siz ötən il 20 Yanvar hadisəsinin 20-ci ildönümünü qeyd etmisiniz. Biz isə Litvada törədilmiş faciənin 20 illiyini gələn il yanvarın 13-də qeyd edəcəyik.

Qonaq demişdir ki, Litvada Azərbaycanın Qərbə inteqrasiyası, qanunlarını Avropa standartlarına uyğunlaşdırması yüksək qiymətləndirilir. O bildirmişdir ki, Azərbaycanın bugünkü uğurlarında ulu öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Azərbaycan xalqı dekabrın 12-də bu dahi şəxsiyyətinin vəfatının ildönümünü qeyd etmişdir. Litvadakı azərbaycanlılar da bununla əlaqədar mərasim keçirmişlər.

Emanuelis Zingeris bildirmişdir ki, Litva gələn ilin yanvarından ATƏT-ə sədrlik edəcəkdir. Biz bu beynəlxalq quruma rəhbərliyimiz dövründə dövlətlərin ərazi bütövlüyünün qorunması, bununla əlaqədar Helsinki aktının təmin olunması üçün səylərimizi artıracağıq. Düşünürük bu, müsbət nəticəsini verəcəkdir. ATƏT-ə sədrliyimiz dövründə Azərbaycanın Avropaya inteqrasiyasına da dəstək verəcəyik.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN-LİTVA ƏLAQƏLƏRİ STRATEJİ TƏRƏFDAŞLIQ SƏVİYYƏSİNƏ YÜKSƏLMİŞDİR

Ölkəmizdə səfərdə olan Litva Seyminin xarici işlər komitəsinin sədri Emanuelis Zingeris dekabrın 13-də Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüşmüşdür.

Komitənin sədri Səməd Seyidov demişdir ki, Azərbaycan ilə Litva arasında əlaqələr bütün sahələrdə, o cümlədən parlamentlərimiz arasında sürətlə inkişaf edir. Deputatla-

rımız beynəlxalq təşkilatlarda qarşılıqlı maraq kəsb edən məsələlərdə eyni mövqedən çıxış edirlər. Bu amillər, eləcə də Twinning layihəsi çərçivəsindəki səmərəli əməkdaşlığımız münasibətlərimizi strateji səviyyəyə yüksəltmişdir. Litva Avropa İttifaqının Azərbaycandakı təmsilçisidir və biz "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində bir sıra layihələr həyata keçirmişik.

Emanuelis Zingeris Azərbaycana səfərindən məmnunluğunu ifadə etmiş, ölkəmizin çox sürətlə inkişaf etdiyini bildirmiş, Bakının gündən-günə yeniləşən simasının bunun konkret göstəricilərindən biri olduğunu vurğulamışdır. Azərbaycanın sosial-iqtisadi tərəqqisini yüksək qiymətləndirən qonaq, bu sahədə ölkəmizin əldə etdiyi nailiyyətlərin nümunəvi xarakter daşıdığını bildirmişdir. Qlobal maliyyə-iqtisadi böhranın Azərbaycana təsirlərinin minimal xarakter daşımasını ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi siyasətin nəticəsi kimi dəyərləndirmişdir.

Görüşdə, deputatlarımızın beynəlxalq təşkilatlarda əməkdaşlığının perspektivləri, Litvanın ATƏT-ə sədrliyi dövründəki fəaliyyətinin əsas istiqamətləri, dövlətlərin ərazi bütövlüyünə hörmət prinsipi, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN LİTVA İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR

Litva Seyminin xarici işlər komitəsinin sədri Emanuelis Zingerisin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 13-də Milli Məclisin sədri Oqtay Əsədovla görüşmüşdür.

O.Əsədov Azərbaycanın Litva ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirmiş və müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini vurğulamışdır. Müstəqil Azərbaycanın Avroatlantik məkana inteqrasiyası Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.

Litva Seymi ilə birlikdə həyata keçirilən Twinning layihəsi Azərbaycan qanunvericiliyinin Avropa İttifaqına üzv ölkələrin qanunvericiliyinə uyğunlaşdırılmasında əhəmiyyətli rol oynayır. Biz parlamentlər səviyyəsində əlaqələrimizi yüksək dəyərləndirir və bunu təcrübə, informasiya mübadiləsi baxımından önəmli hesab edirik.

Azərbaycanın yerləşdiyi regionda dinamik inkişaf edən ölkə olduğunu vurğulayan O.Əsədov Dağlıq Qarabağ münaqişəsinin bölgənin ümumi tərəqqisinə və Avropa strukturlarına inteqrasiyasına böyük maneə törətdiyini qeyd etmişdir. Bildirmişdir ki, Azərbaycanın qısa müddət ərzində əldə etdiyi uğurları, hətta onun düşmənləri belə etiraf edirlər. Çox təəssüf ki, erməni siyasətçiləri öz işğalçılıq ambisiyalarından əl çəkmək istəmirlər. Bu isə öz növbəsində Avropa təhlükəsizlik arxitekturasını təhdid edir.

Biz Cənubi Qafqazdakı vəziyyətlə əlaqədar Almaniya və İtaliya parlamentlərində qəbul olunmuş qətnamələri ədalətli hesab edirik. Litva parlamentində də Dağlıq Qarabağla bağlı belə bir qətnamənin hazırlanmasını yüksək qiymətləndiririk. İnanırıq ki, Litva gələcəkdə də münaqişənin həllində Azərbaycanın ədalətli mövqeyini müdafiə edəcəkdir.

Qonaq Azərbaycanda keçirdiyi görüşlərdən məmnun qaldığını ifadə etmiş və bildirmişdir ki, bu görüşlərdə Twinning layihəsi çərçivəsində əldə edilmiş uğurlar və gələcək

planlar barədə geniş fikir mübadiləsi aparılmışdır. Litva Azərbaycana Avropa strukturlarına inteqrasiyası istiqamətində gələcəkdə də lazımi köməklik göstərmək niyyətindədir.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

PEKİNDƏ AZƏRBAYCAN XAM NEFTİNİN ÇİNƏ NƏQLİ ÜZRƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına (ÇXR) və Sinqapura səfər etmişdir.

ÇXR-ə səfər çərçivəsində Pekin şəhərində ARDNŞ ilə bu ölkənin "Zhen Rong" şirkəti arasında ikitərəfli əməkdaşlıq üzrə danışıqlar aparılmış, Azərbaycan xam neftinin bu ölkəyə nəqli üzrə Anlaşma Memorandumu imzalanmışdır.

Sinqapurda Tailandın PTT şirkətinin nümayəndələri ilə keçirilən görüş zamanı tərəflər ötən beş ildə aparılmış ikitərəfli əməkdaşlığın nəticələrini müzakirə etmiş, qarşıdakı dövr üçün perspektivləri dəyərləndirmişlər. Danışıqların yekunu kimi tərəflər arasında Sinqapur yaxınlığında PTT şirkətinə məxsus "üzən neft anbarı"nın birgə istifadəsi barədə Memorandum imzalanmışdır. Memorandumun həyata keçirilməsi Azərbaycan neftinin Asiya bazarına ixracının şaxələndirilməsinə imkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ JOLT ÇUTORANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jolt Çutoranın etimadnaməsini qəbul etmişdir.

Səfir Jolt Çutora fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini, əlaqələrimizin yüksək səviyyədə olduğunu bildirdi. Bu yaxınlarda Macarıstanın Baş nazirinin ölkəmizə səfərinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev əməkdaşlığımızın gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin istər ikitərəfli, istərsə də Avropa strukturları ilə əməkdaşlıq baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev səfirin fəaliyyətinin səmərəli olacağına və ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Səfir Jolt Çutora Macarıstan Prezidenti Pal Şmittin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizdə bir neçə dəfə olduğunu deyən macarıstanlı diplomat xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük qürur hissi ilə xatırladı. Səfir əlaqə-

lərimizin çox sürətlə inkişaf etdiyini dedi. Ölkəsinin Azərbaycan ilə energetika sahəsində əməkdaşlığa böyük əhəmiyyət verdiyini deyən diplomat Nabukko və AGRİ kimi layihələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Macarıstan Prezidenti Pal Şmittin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA "AZƏRBAYCAN MÜSTƏQİLLİKDƏN SONRA" KİTABININ TƏQDİMAT MƏRASİMİ OLMUŞDUR

Azərbaycan Diplomatik Akademiyasında (ADA) ABŞ-ın tanınmış Con Hopkins Universitetinin professoru, Orta Asiya və Qafqaz üzrə ekspert Svante Kornelin "Azərbaycan müstəqillikdən sonra" kitabının təqdimat mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan xarici işlər nazirinin müavini, ADA-nın rektoru Hafiz Paşayev qeyd etmişdir ki, Svante Kornel uzun müddətdir bizim region ilə bağlı araşdırmalar aparır. Onun ilk kitabı bütün Qafqazı əhatə etsə də, son tədqiqat işi sırf Azərbaycana həsr olunmuşdur.

Rektor Hafiz Paşayev bildirmişdir ki, ölkəmiz haqqında yazılan yeni kitab ABŞ-da Azərbaycanla maraqlanan siyasətçilər, tədqiqatçılar və geniş oxucu kütləsi üçün maraqlı mənbə olacaqdır.

Mərasimdə "Azərbaycan müstəqillikdən sonra" kitabının müəllifi Svatne Kornel çıxış edərək bildirmişdir ki, ümumiyyətlə, bugünkü tədbir onun kitabının ilk təqdimat mərasimidir. Müəllif tədbirin ADA-da keçirilməsinin onun üçün xüsusi önəm daşıdığını vurğulamışdır. O, Azərbaycanın müstəqillik yollarında inamla irəliləməsindən məmnun olduğunu bildirmişdir.

"Azərbaycan müstəqillikdən sonra" kitabında Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan cəmiyyəti, ölkəmizin iqtisadiyyatı, daxili siyasi prosesləri, xarici siyasəti barədə məlumatlar yer almışdır.

PARİSDƏ YUNESKO-NUN YARADILMASININ 65 İLLİYİ İLƏ BAĞLI MƏRASİM KEÇİRİLMİŞDİR

Dekabrın 14-də Parisdə YUNESKO-nun yaradılmasının 65 illiyi ilə bağlı yubiley mərasimi keçirilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva tədbirdə iştirak etmək üçün qurumun Parisdəki mənzil-qərargahına gəldi.

Mehriban xanım Əliyeva əvvəlcə YUNESKO-nun Yunanıstandan olan xoşməramlı səfiri Marianna Vardinoyannisin "Qadın fərdiliyi ilə bağlı problemlərin istiqamətində səylər" kitabının təqdimat mərasimində iştirak etdi.

YUNESKO-nun xoşməramlı səfirlərinin də qatıldığı tədbirdə təşkilatın baş direktoru İrina Bokova Azərbaycanın birinci xanımı, qurumun xoşməramlı səfiri Mehriban Əliyeva ilə görüşdü.

Sonra mərasim iştirakçıları birlikdə nahar etdilər. YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva naharda iştirak etdi.

Marianna Vardinoyannisin "Qadın fərdiliyi ilə bağlı problemlərin istiqamətində səylər" kitabının təqdimat mərasimində çıxış edən YUNESKO-nun baş direktoru İrina Bokova bütün qonaqları və xoşməramlı səfirləri salamladı. Azərbaycanın birinci xanımı, xoşməramlı səfir Mehriban Əliyevanın da iştirak etdiyi mərasimdə İrina Bokova bu kitabın məhz YUNESKO ailəsinin üzvü olan bir şəxs tərəfindən yazılmasını yüksək dəyərləndirdi. Bildirdi ki, qadınların cəmiyyətin həyatındakı roluna həsr olunan kitab YUNESKO dəyərlərinin təbliği baxımından da mühüm addımdır.

YUNESKO-nun xoşməramlı səfiri Marianna Vardinoyannis mərasimə gəldiklərinə görə hamıya təşəkkürlərini bildirdi. O dedi ki, qadınlar bəşər sivilizasiyasının inkişafında hər zaman mühüm rol oynayıblar və bu kitab da sivilizasiyanın yaranmasında, inkişafında zərif məxluqların iştirakına və əməyinə həsr olunmuşdur.

Qeyd olundu ki, qədim dövrlərdən bu günə qədər qadınların cəmiyyətdəki sosiomədəni fəaliyyətinin araşdırıldığı bu kitab YUNESKO irsinə dəyərli töhfədir.

* * *

Daha sonra YUNESKO-nun 65 illiyinə həsr olunan yubiley mərasimi keçirildi. Mərasim YUNESKO-nun fəaliyyətinə həsr olunan videofilmin nümayişi ilə başladı. Filmdə qurumun keçdiyi yola nəzər salındı, YUNESKO-nun həyatında baş verən hadisələr illər üzrə fotoşəkillər vasitəsilə diqqətə çatdırıldı.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq Artisti Firəngiz Əlizadənin fortepianoda ifası mərasim iştirakçıları tərəfindən maraqla qarşılandı.

Tədbirin aparıcısı qonaqları və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı salamladı. Digər aparıcı, Rusiyanın populyar müğənnisi Alsu da təbriklərə qoşuldu, mərasimdə keçmiş baş direktorlardan bəzilərinin iştirak etməsindən məmnun olduğunu dedi.

BMT-nin baş katibi Pan Gi Mun YUNESKO-nun 65 illiyi münasibətilə təbriklərini çatdırdı. O dedi ki, dünyada sülhün yaranmasına töhfə verən YUNESKO bu gün də öz ənənəsinə sadiq qalır, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun əldə olunmasında yaxından iştirak edir.

Tədbirə Tailanddan qatılan sənətçi öz rəqsi ilə təbriklərə qoşuldu.

Sonra 1974-1987-ci illərdə YUNESKO-nun baş direktoru vəzifəsində çalışmış Amadou-Mahtar Mbou çıxış etdi. O, YUNESKO-nun kollektivini və bu təşkilatın dəyərlərinin həyatda təsdiqini tapması uğrunda yorulmadan fəaliyyət göstərən hər bir kəsi təbrik etdi. Keçmiş baş direktor dünyada elm, təhsil və mədəniyyət məsələlərinin həllində iştirak edərək planetimizdə sülhün əldə olunmasına yardım göstərən YUNESKO-nun öz missiyasını bu gün də uğurla davam etdirdiyini bildirdi.

Sonra Kamerundan olan sənətçilər YUNESKO-nun yubiley mərasimində çıxış etdilər.

1987-1999-cu illərdə qurumun baş direktoru işləmiş Federiko Mayor da mürəkkəb dünyamızda YUNESKO dəyərlərinin hər zaman aktual olduğunu dedi. Bildirdi ki, dünyada

sülhün əldə olunmasına böyük töhfələr verən YUNESKO yarandığı gündən bu ali məqsəd uğrunda çalışmışdır.

Mərasimə Boliviyadan dəvət alan müğənni də öz maraqlı ifası ilə təbriklərə qoşuldu.

1999-2009-cu illərdə YUNESKO-nun baş direktoru olmuş Koişiro Matsuura çıxış edərək dedi ki, II Dünya müharibəsindən sonra yer üzündə sülhün əldə olunması üçün belə bir təşkilatın yaradılmasına ehtiyac var idi. YUNESKO-nun yaradılması ilə bu sahədə mövcud olan boşluq dolduruldu və onun fəaliyyəti bütün dövrlərdə sülh məqsədlərinə xidmət etdi. Koişiro Matsuura XXI əsrdə də YUNESKO-nun bu missiyasının davam etdiyini bildirdi.

Türkiyə, Yunanıstan və Kanadadan gələn musiqiçilərin də ifası maraqla qarşılandı.

"65 ildə YUNESKO bizim dünyanın bir parçasına çevrilmişdir", - deyən YUNESKO-nun baş konfransının sədri Devidson Həpbörn qurumun fəaliyyətində humanizm ideyalarının hər zaman hakim olacağını vurğuladı.

YUNESKO-nun icra şurasının sədri Eleanora Mitrofanova təşkilatın həyata keçirdiyi proqramlar sırasında əsas diqqəti təhsillə bağlı layihələrin icrasına yönəltdi.

Mərakeş və Livandan dəvət olunan musiqiçilər ərəb ritmləri ilə salona xüsusi ovqat gətirdilər.

Sonra YUNESKO-nun XXI əsrdəki fəaliyyətində prioritet elan etdiyi sahələrdən bəhs edən filmin nümayişi oldu.

Yubiley mərasiminə YUNESKO-nun baş direktoru İrina Bokova yekun vurdu. Baş direktor dedi ki, "YUNESKO dünyanın yaddaşıdır, bəşəriyyətin maddi-mədəni irsini qoruyan ən mötəbər təşkilatdır. Bu təşkilatın fəaliyyəti dünyada sülhün qorunmasının təməl prinsiplərini təşkil edir. YUNESKO-nun tarixinin böyük ideallara söykəndiyini deyən İrina Bokova bu dəyərlərin yaranmasında YUNESKO ailəsinin mühüm səylər göstərdiyini diqqətə çatdırdı. Qeyd etdi ki, dünyada təhsilin, elmin, mədəniyyətin qorunmasında və inkişafında yaxından iştirak edən YUNESKO bu yüzillikdə də həmin prinsiplərinə sadiq qalacaq, müxtəlif ölkələrdə və regionlarda mədəni irsin təbliğinə mühüm töhfələr verəcəkdir. Sonda baş direktor bir daha yubiley münasibətilə təbriklərini çatdırdı.

Qeyd edək ki, YUNESKO 1945-ci ilin noyabrında yaradılmışdır. Mərkəzi qərargahı Parisdə yerləşən təşkilata dünyanın müxtəlif bölgələrində yerləşən 67 büro və altbölmələr daxildir. Hazırda 191 ölkə bu təşkilatın üzvüdür. YUNESKO-nun əsas məqsədi irqindən, dilindən və dinindən asılı olmayaraq xalqların təhsil, elm və mədəniyyət sahələri üzrə əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə yardım etməkdir. YUNESKO bu məqsədlərini təşkilata üzv ölkələrdə qurulan Milli Komissiyalar vasitəsilə reallaşdırır.

Azərbaycan da BMT-nin ən mötəbər qurumlarından olan YUNESKO-nun fəal üzvlərindəndir. Azərbaycan-YUNESKO əməkdaşlığında ölkəmizin birinci xanımı Mehriban Əliyevanın böyük əməyi vardır. Məhz Mehriban xanımın xidmətləri sayəsində 2003-cü ildə muğam YUNESKO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına daxil edilmişdir. Bakıda Beynəlxalq Muğam Mərkəzi yaradılmışdır. 2004-cü

ildən YUNESKO-nun xoşməramlı səfiri olan Mehriban Əliyevanın YUNESKO dəyərlərinə sadiqliyinin nəticəsidir ki, bu gün ölkəmizin bir çox mədəniyyət abidələri bu qurumun maddi-mədəni irs siyahısına daxil edilmişdir. Müxtəlif vaxtlarda YUNESKO-nun baş direktorları ölkəmizə gəlmiş və Azərbaycanın tarixi, mədəniyyəti, milli dəyərləri ilə tanış olmaq imkanı qazanmışlar. Bir sözlə, Azərbaycan-YUNESKO əməkdaşlığı hazırda özünün inkişaf dövrünü yaşayır.

AZƏRBAYCAN VƏ LİTVA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Vergilər naziri, Azərbaycan və Litva arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası komissiyanın həmsədri Fazil Məmmədov dekabrın 15-də Bakıda səfərdə olan Litva Respublikası Seyminin Xarici işlər komitəsinin sədri Emanuelis Zingerisin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir bildirmişdir ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Avropa ölkələri ilə, eləcə də Litva ilə bir çox istiqamətlərdə əməkdaşlıq qurulmuşdur. İki ölkə arasında əlaqələrin inkişafı və möhkəmləndirilməsi məqsədi ilə "Azərbaycan və Litva arasında ikitərəfli əməkdaşlıq üzrə Hökumətlərarası komissiya"nın yaradılması, bu ilin may ayında Vilnüs şəhərində komissiyanın ilk iclasının keçirilməsi, imzalanan sazişlər əməkdaşlığın yeni keyfiyyət mərhələsinə qədəm qoymasına yardımçı olacaqdır. Azərbaycanın inkişaf strategiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin əsas uğurlarından biri də iqtisadiyyatımızın hərtərəfli inkişafı, xarici investisiyalar üçün açıq olması ilə bağlıdır.

Emanuelis Zingeris Azərbaycanın Litva üçün önəmli tərəfdaş olduğunu, son illərdə Azərbaycanla bir çox istiqamətlərdə əməkdaşlıq qurulduğunu bildirmişdir. Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiklərini vurğulayan E.Zingeris ölkələrimiz arasında gələcəkdə qarşılıqlı münasibətlərin daha da inkişaf etməsi, iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün böyük imkanlar olduğunu diqqətə çatdırmışdır. Qonaq ölkəmizin dinamik inkişafını, sosial-iqtisadi tərəqqisini, qlobal maliyyə böhranının Azərbaycana təsirinin minimal xarakter daşımasını yüksək dəyərləndirmiş, bütün bunları uğurlu iqtisadi siyasətin nəticəsi kimi qiymətləndirmişdir.

Fazil Məmmədov ölkəmiz haqqında xoş sözlərinə görə təşəkkürünü bildirmiş və bu səfərin ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə təkan verəcəyini vurğulamışdır. Azərbaycanın vergi sistemi və həyata keçirilən islahatlar barədə qonağa geniş məlumat verən nazir sahibkarlıq subyektləri arasında əlaqələrin genişləndirilməsi və qarşılıqlı investisiyaların cəlb edilməsini qarşıda duran prioritet məsələlər sırasında olduğunu qeyd etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ABŞ DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Dekabrın 15-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Hillari Klinton Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Telefon danışığı zamanı xanım Klinton "Wikileaks" saytı vasitəsilə Azərbaycan haqqında yayılan məlumatlarla bağlı dərin təəssüfünü bildirərək Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasını özünün mühüm strateji tərəfdaşı hesab etdiyini və Azərbaycan ilə münasibətlərini bundan sonra da inkişaf etdirmək əzmində olduğunu vurğulamışdır.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov dekabrın 14-dən 15-dək Koreya Respublikasında rəsmi səfərdə olmuşdur.

Dekabrın 14-də E. Məmmədyarov bu ölkənin xarici işlər və ticarət naziri Kim Sunq-Hvan ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında münasibətlər yüksək qiymətləndirilərək, əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu vurğulanmışdır.

E.Məmmədyarov Azərbaycan Respublikasının Şərqi Asiya regionunun inkişaf edən dövlətlərindən biri olan Koreya Respublikası ilə əlaqələrinin hərtərəfli genişləndirilməsinə xüsusi önəm verdiyini qeyd edərək bunun üçün həm dövlət nümayəndələrinin, həm də elm, mədəniyyət və iş adamlarının qarşılıqlı səfərlərinin intensivləşdirilməsinin zəruriliyini vurğulamışdır.

Nazir K.Sunq-Hvanı Azərbaycana səfərə dəvət etmişdir. Koreyalı nazir dəvəti qəbul etmişdir.

K.Sunq-Hvan ölkələrimiz arasında iqtisadi münasibətlərin yüksək sürətlə inkişaf etdiyini, bu əlaqələrin gələcəkdə daha da genişləndirilməsində ölkəsinin maraqlı olduğunu bildirmişdir. Koreyalı nazir Azərbaycanın 2011-2013-cü illərdə ölkəsi üçün prioritet tərəfdaş kimi müəyyən edildiyini vurğulamışdır.

Görüşdə E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıq prosesi barədə koreyalı nazirə ətraflı məlumat vermiş, ölkəmizin problemin həlli ilə bağlı mövqeyini bildirmişdir.

Koreyalı nazir son vaxtlar regionda cərəyan edən proseslər barədə ətraflı məlumat vermişdir.

Bundan əlavə, görüşdə humanitar sahədə də əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanmışdır. Azərbaycan Diplomatik Akademiyası ilə Koreya Respublikası Xarici İşlər və Milli Təhlükəsizlik İnstitutu arasında qarşılıqlı təcrübə mübadiləsinin zəruriliyi bildirilmişdir.

Tərəflər bir sıra regional və qlobal məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar.

Dekabrın 15-də E.Məmmədyarov bu ölkənin Baş naziri Kim Hvanq-Şik ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni və digər sahələri əhatə edən münasibətlərin cari vəziyyəti müzakirə olunmuşdur. Əlaqələrin daha da genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyi vurğulanmışdır.

E.Məmmədyarov Koreya Respublikasının iqtisadiyyatın bir sıra sahələrində əldə etdiyi qabaqcıl təcrübənin öyrənilməsinin zəruriliyini vurğulayaraq, Azərbaycanı 2011-2013-cü illərdə prioritet tərəfdaş kimi seçdiyinə görə Koreya tərəfinə təşəkkür etmişdir. Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair aparılan danışıqlar prosesi və bu problemin həlli ilə bağlı Azərbaycanın mövqeyi barədə Baş nazirə ətraflı məlumat vermişdir.

E.Məmmədyarov Azərbaycan-Koreya parlamentlərarası dostluq qrupunun sədri So Byong-Su və parlamentin xarici əlaqələr, ticarət və unifikasiya komitəsinin sədri Nam Kyung Pil ilə də görüşmüşdür.

Səfər çərçivəsində nazir Koreyanın "Yonhap" informasiya agentliyi, "Korean herald" qəzeti və "Arirang" televiziya kanalına müsahibə vermişdir.

DÖVLƏT TORPAQ VƏ XƏRİTƏÇƏKMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏDƏ SƏFƏRDƏ OLMUŞDUR

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin (DTXK) sədri Qərib Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdə olmuşdur.

Məqsəd "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında xəritəçilik sahəsində təhsil, texniki və elmi əməkdaşlıq haqqında" Sazişin müddəalarından irəli gələn işlərin müzakirəsi, Türkiyənin Xəritə Baş Komandanlığında (Harita Genel Komutanlığı) son illərdə tətbiq olunan yeni texnologiyalar ilə yaxından tanış olmaqdır.

DTXK ilə Xəritə Baş Komandanlığı arasında geodeziya və xəritəçəkmə sahəsində əməkdaşlıq 1995-ci ildən davam edir.

Ötən illər ərzində iki qurum arasında geodeziya və xəritəçəkmə sahəsinə aid olan razılaşdırılmış planlar əsasında çoxsaylı dövlət əhəmiyyətli işlər görülmüşdür.

AZƏRBAYCAN VƏ RUSİYA FEDERASİYASININ DAĞISTAN RESPUBLİKASI ARASINDA GƏNCLƏR SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUM İMZALANMIŞDIR

Dekabrın 20-də Rusiya Federasiyasının Dağıstan Respublikasında Azərbaycan Gəncləri Günləri keçirilmişdir.

Gənclər və idman naziri Azad Rəhimovun rəhbərliyi ilə istedadlı və yaradıcı gənclər Dərbənddə təşkil olunmuş müxtəlif tədbirlərdə iştirak etmişlər.

Azərbaycan nümayəndə heyəti həmyerlilərimizin sıx məskunlaşdığı Cemikəndə gəlmiş, burada ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan məktəbin fəaliyyəti ilə tanış olmuşdur.

Eyni zamanda, ulu öndər Heydər Əliyevin məktəbin ərazisindəki abidəsi ziyarət olunmuş, xatirəsi ehtiramla yad edilmişdir.

Məktəblə tanışlıq çərçivəsində nümayəndə heyəti Heydər Əliyev muzeyində də olmuşdur.

Səfərin ikinci günündə Dərbənd Tarixi Arxitektura Muzey-Qoruğuna ekskursiya təşkil edilmişdir.

Sonra Dərbənd Şəhər Administrasiyasında görüş keçirilmişdir.

Görüşdə Azərbaycan nümayəndə heyətinin üzvləri ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışmışlar. Eyni zamanda, Dağıstanda gənclər siyasəti sahəsində görülən işlər haqqında məlumat verilmişdir.

Görüşdə Azərbaycanın Gənclər və İdman Nazirliyi və Dağıstanın Gənclər Siyasəti Komitəsi arasında gənclər sahəsində qarşılıqlı əlaqələrin inkişafına dair memorandum imzalanmışdır.

Azərbaycan Gəncləri Günləri çərçivəsində gənc rəssamların sərgisi, ölkəmizin və Dağıstanın yaradıcı gənclərinin iştirakı ilə birgə konsert proqramı da təşkil olunmuşdur.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA XARİCDƏ TƏHSİL ALAN FƏLSƏFƏ DOKTORLARININ ÜÇÜNCÜ İLLİK SEMİNARI KEÇİRİLİR

Azərbaycan Diplomatik Akademiyasında (ADA) xaricdə təhsil alan fəlsəfə doktorlarının üçüncü illik seminarı keçirilir.

Seminarda xarici universitetlərdə sosial elmlərin müxtəlif sahələri üzrə elmi tədqiqatla məşğul olan 23 azərbaycanlı fəlsəfə doktorları və namizədlər iştirak edir. Onlar dünyanın 14 aparıcı universitetində təhsil alırlar.

Akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, xaricdə təhsil alan azərbaycanlı fəlsəfə doktorlarının ölkəyə qayıtması həm elmin, həm də təhsil sisteminin inkişafına ciddi töhfələr verəcəkdir.

Seminarda iştirak edən təhsil naziri Misir Mərdanov demişdir ki, Azərbaycanda elm və tədrisin dünya standartlarına çatdırılması ölkənin prioritet vəzifələrindən biridir.

Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev isə qeyd etmişdir ki, seminara qatılan doktorantlar müəyyən müddətdən sonra təkcə tədrisə deyil, elmin inkişafına da yardımçı olacaqlar. Fond indidən bu gənclərlə əməkdaşlıq qurmaqda maraqlıdır.

MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN GÖMRÜK XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ HÜQUQ MÜHAFİZƏ BÖLMƏLƏRİ BAŞÇILARI KOMİTƏSİNİN V İCLASI KEÇİRİLMİŞDİR

Rusiyanın Sankt-Peterburq şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin iclası keçirilmişdir.

İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi (DGK) sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir.

Tədbirə Estoniya, Litva və Latviya gömrük xidmətlərinin nümayəndələri müşahidəçi qismində qatılmışlar.

İclasın gündəliyinə 13 qərar layihəsinin müzakirəsi çıxarılmışdır. Bu qərar layihələri MDB-nin iştirakçı olan dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin Katibliyi tərəfindən hazırlanmış, iştirakçı dövlətlərin gömrük xidmətləri ilə razılaşdırılmış və gömrük hüquqpozmaları ilə mübarizə üzrə idarə rəislərinin qərargahının və ekspertlərinin birgə iclasında işlənilmişdir.

İclasda Rusiya Federasiyası Federal Gömrük Xidmətinin Qaçaqmalçılıqla Mübarizə Baş İdarəsi rəisinin birinci müavini Viktor Vakulenko iştirakçı dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin gömrük hüquqpozmaları ilə mübarizə üzrə idarə rəislərinin qərargahının rəhbəri, Rusiya Federasiyasının Federal Gömrük Xidməti Qaçaqmalçılıqla Mübarizə Baş İdarəsinin "M" xidməti rəisinin müavini Dmitri Kazmin isə MDB-nin iştirakçısı olan dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin məsul katibi vəzifəsinə təyin edilmişlər.

Səfər çərçivəsində "2011-2012-ci illər üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Rusiya Federasiyası Federal Gömrük Xidməti arasında gömrük hüquqpozmaları ilə mübarizə üzrə birgə fəaliyyət Plan"ı imzalanmışdır.

Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev və Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Nikita Nikitin imzalamışlar.

İclasdan bir gün əvvəl Sankt-Peterburqda MDB-nin iştirakçısı olan dövlətlərin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin gömrük hüquqpozmaları ilə mübarizə üzrə idarə rəislərinin qərargahının və ekspertlərinin birgə iclası da keçirilmişdir. Bu tədbirdə respublikamızı DGK Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin rəisi Güloğlan Muradlı və həmin qurumun məlumat və qeydiyyat bölməsinin rəisi Əzizağa Məcidov təmsil etmişlər.

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMI MƏZUNLARININ NÖVBƏTİ BURAXILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR

Azərbaycan Diplomatik Akademiyasının (ADA) Xarici Siyasət Proqramı üzrə bu ilin ikinci semestrində 19 orta rütbəli dövlət qulluqçusu treninqdən keçmişdir.

Kursların başa çatması münasibətilə keçirilən mərasimdə xarici işlər nazirinin müavini, ADA-nın rektoru, professor Hafiz Paşayev çıxış edərək bildirmişdir ki, Xarici Siyasət Proqramı yalnız dövlət məmurlarının biliklərinin artırılmasına xidmət etmir, eyni zamanda, onlar arasında peşəkar əməkdaşlığın yaranmasına da öz töhfəsini verir.

Sonra rektor Hafiz Paşayev treninq iştirakçılarına sertifikatlar və simvolik mükafatlar təqdim etmişdir.

ADA-nın Xarici Siyasət Proqramı mövcud qlobal siyasi və iqtisadi meyillər, ictimai diplomatiya, liderlik və kommunikasiya bacarıqlarının qurulması kimi sahələri əhatə etmişdir. Kurslara Prezident Administrasiyasının, Milli Məclisin, Mərkəzi Bankın, Xarici İşlər, Gənclər və İdman, Fövqəladə Hallar, İqtisadi İnkişaf, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Azərbaycan Televiziyası və Qlobal Fond təşkilatının əməkdaşları qatılmışlar.

BAKI DÖVLƏT UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ KOREYA RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR

Bakı Dövlət Universitetinin (BDU) rektoru Abel Məhərrəmovun rəhbərlik etdiyi nümayəndə heyəti Koreya Respublikasında səfərdə olmuşdur.

Koreya Fondunun dəvəti ilə reallaşan səfər zamanı nümayəndə heyəti Seul və Daejeon şəhərlərindəki dörd aparıcı ali təhsil ocağında olmuşdur.

Seul Milli Texnologiyalar Universiteti, Koreya Elm və Texnologiyalar İnstitutu, Pai Çai və Koreya politexnik universitetlərində olan Abel Məhərrəmov bir sıra ikitərəfli görüşlər keçirmişdir.

Görüşlərdə ali təhsil ocaqlarının rəhbərləri azərbaycanlı qonaqlara Koreya universitetlərinin fəaliyyəti haqqında məlumat vermiş, təqdimatlarla çıxış etmişlər.

Abel Məhərrəmov son illər ölkəmizin əldə etdiyi sosial-iqtisadi uğurlar, həyata keçirilən irimiqyaslı layihələr və bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də aparılan islahatlar barəsində koreyalı həmkarlarına ətraflı məlumat vermişdir. Azərbaycanın aparıcı ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin fəaliyyətindən danışaraq Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, təhsilimizin beynəlxalq təhsil sisteminə inteqrasiyası məqsədi ilə dünyanın bir sıra aparıcı ali təhsil ocaqlarının təcrübəsindən yararlanmağın vacibliyini qeyd etmişdir.

Görüşlər zamanı Bakı Dövlət Universiteti ilə Koreya ali təhsil ocaqları arasında qarşılıqlı əməkdaşlıq və tələbə-müəllim mübadiləsini özündə əks etdirən bir sıra sənədlər imzalanmışdır.

Nümayəndə heyəti səfər çərçivəsində Koreya universitetlərinin nəzdində fəaliyyət göstərən texnoparkların fəaliyyəti ilə yaxından tanış olmuşlar. Bildirilmişdir ki, universitetlərin nəzdində yerləşən texnoparklarda sənaye-texnologiya kompleksləri yaradılmışdır ki, bu da birbaşa təhsil prosesinin və sənayenin inkişafına yönəlmişdir. Texnoparklarda kitabxana, laboratoriya və bir sıra elmi-tədqiqat şöbələri yaradılmışdır. Məqsəd tələbələrin nəzəri biliklərini istehsal prosesinə yönəltməklə onların daha yaxşı mütəxəssis kimi yetişmələrinə nail olmaqdır.

Səfər zamanı Abel Məhərrəmov Koreyada təhsil alan azərbaycanlı tələbələrlə də görüş keçirmişdir. BDU-nun rektoru tələbələrin təhsili və qarşılaşdıqları problemlərlə maraqlanmışdır. Onların dinamik inkişaf edən ölkəmiz üçün yüksək səviyyəli mütəxəssis olmalarının vacibliyini bildirmişdir.

Tələbələr uzaq Koreyada təhsil almalarına baxmayaraq, hər zaman Azərbaycan dövlətinin dəstəyini hiss etdiklərini söyləmişlər.

Altı gün davam edən səfər zamanı Koreya ali təhsil ocaqlarının fəaliyyəti ilə yaxından tanış olan BDU-nun nümayəndə heyəti bu cür səfərlərin gələcəkdə də davam etdirilməyini bildirmişlər.

İSTANBULDA İƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR

İstanbuldakı "Çırağan" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin dövlət başçılarının XI Sammiti ərəfəsində xarici işlər nazirlərinin 19-cu toplantısı keçirilmişdir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov toplantıda iştirak etmişdir.

Toplantıda İƏT Nazirlər Şurasında sədrlik İrandan Türkiyəyə keçmişdir.

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu çıxışında bildirmişdir ki, xarici siyasət idarələrinin başçıları regional və qlobal məsələləri müzakirə edəcəklər. İƏT ölkələrinin 400 milyon əhalisi var və 8 milyon kvadratkilometr ərazini əhatə edir. Bu məkanda sabitlik və tərəqqinin təmin olunması əsas məqsədlərdən biridir. İqtisadi əlaqələrin möhkəmlənməsi üçün yeni layihələrin həyata keçirilməsinə də ehtiyac vardır. Dövlət başçılarının zirvə görüşündə İƏT Ticarət Sazişinin imzalanması gözlənilir.

İranın xarici işlər naziri Əli Əkbər Salihi, Əfqanıstanın xarici işlər naziri Zalmay Rəsul, Pakistanın xarici işlər naziri Şah Mahmud Qureyşi, Qazaxıstan xarici işlər nazirinin müavini Kayrat Sarıbay da toplantıda iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak etmək üçün dekabrın 22-də Türkiyə Respublikasına səfərə gəlmişdir.

İstanbulun Atatürk Beynəlxalq hava limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTANIN KEÇİD DÖVRÜ PREZİDENTİ ROZA OTUNBAYEVANIN GÖRÜŞÜ

Dekabrın 22-də İstanbulda, "Çırağan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğızıstanın keçid dövrü Prezidenti Roza Otunbayevanın görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ

Dekabrın 22-də İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Görüşdə ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin, o cümlədən enerji sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə danışıldı.

Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Dekabrın 22-də İstanbulda Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Ölkələrimiz arasında strateji tərəfdaşlığa söykənən dostluq münasibətlərinin uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafının perspektivləri barədə fikir mübadiləsi aparıldı.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak etmək üçün Türkiyədə səfərdə olan dövlət və hökumət başçılarının şərəfinə dekabrın 22-də İstanbulun "Dolmabaxça" sarayında Baş nazir Rəcəb Tayyib Ərdoğanın adından qəbul təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XI SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR

Dekabrın 23-də İstanbulda, "Çırağan" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

Türkiyə Prezidenti Abdullah Gül Azərbaycan Prezidentini, digər dövlət və hökumət başçılarını qarşıladı.

2009-cu ilin martında Tehranda keçirilmiş X Sammitdən sonra İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik edən İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad zirvə görüşünü açdı. O, quruma sədrliyin Türkiyəyə keçməsindən məmnun olduğunu dedi və bildirdi ki, ötən Tehran Zirvə görüşündən sonra üzv ölkələr arasında əlaqələr daha da dərinləşmiş və bu, iqtisadiyyatın müxtəlif sahələrini əhatə etmişdir. Daha çox diqqət çəkən məqam ölkələr arasında sərmayə yatırımlarının çoxalmasıdır.

İran Prezidenti əmin olduğunu bildirdi ki, İƏT iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək və inkişaf etdirmək üçün böyük potensiala malikdir.

İqtisadi Əməkdaşlıq Təşkilatında sədrlik İrandan Türkiyəyə keçdi.

Türkiyə Prezidenti Abdullah Gül İƏT-in XI Sammitində iştirak edən dövlət və hökumət başçılarını salamladı və təşkilata sədrlik etməkdən məmnun olduğunu bildirdi.

Türkiyə dövlətinin başçısı dedi ki, ölkəsi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına böyük diqqət göstərir. Bununla yanaşı, Türkiyə regionda iqtisadi əməkdaşlığın da dərinləşməsinə ciddi önəm verir. Bu sırada İƏT-in rolu əvəzolunmazdır. Həm ərazi, həm də əhali baxımından İƏT-in əhatə etdiyi region iqtisadi və ticari əməkdaşlıq sahəsində böyük potensiala sahibdir. Əsas diqqət çəkən məqamlardan biri də üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmini artırmaq və daha böyük nəticələrə nail olmaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısında çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab sədr, əziz qardaşım,

Hörmətli həmkarlar,

İlk növbədə, Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə və bizə göstərdiyi qonaqpərvərliyə görə əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Abdullah Gülə dərin minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Eyni zamanda, təşkilata ötən müddət ərzində rəhbərlik etmiş İran İslam Respublikasının Prezidenti, əziz qardaşım Mahmud Əhmədinejada uğurlu rəhbərliyə görə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətinə çox böyük önəm verir. Biz təşkilatda fəal iştirak edirik və təşkilatın güclənməsi çox müsbət haldır. Mən əminəm ki, gələcəkdə təşkilat dünya miqyasında getdikcə daha da önəmli rola malik olacaqdır. Bu rol artdıqca, əlbəttə ki, təşkilata üzv olan ölkələrin imkanları da genişlənəcəkdir.

Azərbaycan regional əməkdaşlıq məsələlərinə çox böyük əhəmiyyət verir. Biz regionda gedən proseslərin inkişafı üçün səylərimizi göstəririk. Konkret layihələrin icra edilməsi sahəsində - həm nəqliyyat, həm enerji sahəsində regionda yeni vəziyyət yaranmışdır və Azərbaycan çalışır ki, iqtisadi imkanlarını səfərbər edərək, bu genişmiqyaslı əməkdaşlığa daha da böyük töhfələr versin.

Ölkəmizdə iqtisadi proseslər müsbət istiqamətdə inkişaf edir. Son 7 il ərzində ölkəmizin ümumi daxili məhsulu təxminən 3 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır. Yoxsulluq isə 4 dəfə azalmışdır. Bu, bizə imkan verir ki, daha da böyük həcmdə maliyyə resurslarımızı ümumi məqsədlər üçün işə salaq. Beləliklə, regionda gedən iqtisadi əməkdaşlığa daha da güclü təkan veriləcəkdir. Hər bir ölkənin iqtisadi müstəqilliyini təmin etmək üçün, - xüsusilə indiki zəmanədə, - enerji təhlükəsizliyi məsələləri öz həllini tapmalıdır. Azərbaycan bu sahədə öz töhfəsini verir. Zəngin neft-qaz yataqlarımız nəinki ölkəmizin inkişafı, eyni zamanda, regional əməkdaşlıq üçün də müsbət rol oynayır. Azərbaycanın zəngin neft-qaz yataqları bizə imkan verir ki, təbii resurslarımızı qonşu dövlətlərə nəql edək. Bu gün ölkəmizdən dünya bazarlarına aparan yeddi neft və qaz kəməri vardır. Azərbaycan öz potensialını bu kəmərlər vasitəsilə realizə edir, eyni zamanda, bu, qonşu, qardaş, dost ölkələrin enerjiyə olan tələbatının müəyyən hissəsini ödəməyə imkan verir. Azərbaycan etibarlı tərəfdaşdır, öz öhdəliklərini həmişə yerinə yetirmişdir və

bundan sonra da yerinə yetirəcəkdir. Biz həm təchizatçı, həm də tranzit ölkə, etibarlı tərəfdaş kimi artıq uzun illərdir ki, özümüzü təsdiq etmişik. Əminəm ki, enerji təhlükəsizliyi məsələlərinin uğurla həll olunması nəticəsində hər bir ölkə daha da böyük inamla inkişaf edəcəkdir. Gələcəkdə dünyada enerji ilə bağlı məsələlər daha da ciddi müzakirə mövzusu olacaqdır. Bunu nəzərə alaraq, deyə bilərik ki, enerji təchizatçısı kimi Azərbaycan növbəti illərdə də öz müsbət rolunu oynamağa hazırdır.

Bununla bərabər nəqliyyat sektorunda gedən proseslərə Azərbaycan çox müsbət yanaşır. Bizim icra etdiyimiz layihələr bölgədə yeni nəqliyyat infrastrukturunun yaranmasına gətirib çıxarmışdır. Azərbaycan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmizin coğrafi vəziyyəti bizə imkan verir ki, hər istiqamətdə öz müsbət rolumuzu artıraq. Bu gün bölgədə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində yeni "Dəmir İpək yolu"nun bərpası mümkün olacaqdır.

Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Beləliklə, iqtisadi səmərə baxımından bu yolun çox böyük önəmi olacaqdır. Biz bu layihədə çox fəal iştirak edirik. Ümid edirik ki, bu yolun tikintisi yaxın zamanlarda başa çatacaq və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr də bu imkanlardan əlbəttə ki, istifadə edəcəklər.

Bütün bu uğurlu iqtisadi və infrastruktur layihələrinin icrası ilə bərabər, qeyd etməliyəm ki, bölgədə sabitlik, sülh, təhlükəsizlik təmin olunmalıdır. Əfsuslar olsun ki, bizim ölkələrimizdə mövcud olan, həllini gözləyən münaqişələr, problemlər, təhdidlər imkan vermir ki, istədiyimizə tam şəkildə nail ola bilək. Hər bir ölkənin uğurlu siyasi, yaxud da ki, iqtisadi inkişafı sabitlik şəraitində mümkündür. Azərbaycanda siyasi sabitlik artıq çoxdandır ki, bərqərar olunmuşdur. Ancaq həll olunmamış münaqişələr, Azərbaycan torpaqlarının 20 faizinin hələ də Ermənistanın işğalı altında qalması çox böyük regional təhlükə mənbəyidir. Azərbaycanlılara qarşı Azərbaycanın əzəli torpağı olan Qarabağda və ətraf bölgələrdə etnik təmizləmə siyasəti aparılmışdır, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır, torpaqlarımızın 20 faizi Ermənistanın işğalı altındadır və bu ədalətsizlik uzun illərdir ki, davam edir. Baxmayaraq ki, beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatı və onun Təhlükəsizlik Şurası məsələnin həlli ilə bağlı 4 qətnamə qəbul edib və o qətnamələrdə Ermənistan qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur, hələ də Ermənistan tərəfi bu beynəlxalq hüquq normalarına əməl etmir və işğalçı siyasətini davam etdirir. İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar buna bənzər qərarlarla çıxış etmişlər. Əlbəttə ki, bu, məsələnin ədalətli və hüquqi müstəvidə həll olunması üçün çox möhkəm zəmindir. Ancaq biz reallıqda hər hansı bir irəliləyiş görmürük və Azərbaycan uzun illərdir ki, bu işğaldan əziyyət çəkir. Biz bu vəziyyətlə əlbəttə ki, barışmayacağıq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz çalışırıq ki, bunu danışıqlar yolu ilə, sülh yolu ilə edək. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ölkələri tərəfindən tanınır, müzakirə mövzusu deyildir və heç vaxt olmayacaqdır.

Həll olunmamış münaqişələr digər tərəfdən iqtisadi inkişafımıza böyük əngəllər yarada bilmədi. Ancaq nəzərə alsaq ki, əgər bu münaqişə olmasaydı, əlbəttə, həm ölkəmizin inkişafı, həm regional əməkdaşlıq məsələləri daha da uğurla və sürətlə həll oluna bilərdi.

Mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatında bundan sonra da fəal iştirak edəcəkdir. Biz təşkilatın güclənməsinə töhfəmizi verməyə davam edəcəyik. Bu təşkilat artıq böyük beynəlxalq təşkilata çevrilibdir və əziz qardaşım, Türkiyənin Prezidenti Abdullah Gülün təklifinə də çox müsbət baxıram ki, təşkilatın Bankına əlavə üzvlərin qoşulması müsbət hal kimi qiymətləndirilir. Azərbaycan öz tərəfindən Banka tamhüquqlu üzv olmaq, səhmdar olmaq üçün bu dəvətdən istifadə edəcəkdir.

Bir daha əziz qardaşım, Prezident Abdullah Gülə yüksək qonaqpərvərliyə, Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə görə təşəkkürümü bildirirəm. Təşkilatımıza yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

* * *

Türkiyə Prezidenti Abdullah GÜL: - Hörmətli qardaşım, cənab İlham Əliyevə gözəl çıxışına və Azərbaycanın İƏT-ə töhfələrinə görə çox təşəkkür edirəm. Xüsusilə, açılış çıxışımda da müraciət etmişdim, İƏT İnkişaf və Ticarət Bankının ortaqları çoxalmalıdır, hamınızı dəvət etmişdim. Cənab Əliyev Banka ortaq olacaqlarını bəyan etdi. Bundan böyük bir məmnuniyyət duyduq. Ümid edirəm ki, digər üzv ölkələr də eyni addımı atacaqlar. Şəxsən qardaşım İlham Əliyevə bir daha təşəkkür edirəm.

* * *

Sammitdə iştirak edən digər dövlət və hökumət başçıları da İƏT-in fəaliyyətinin daha da gücləndirilməsi, üzv ölkələr arasında iqtisadi əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi barədə eyni mövqedə olduqlarını bəyan etdilər.

Sonra dövlət və hökumət başçıları sammitin markalarını imzaladılar.

Sammitin sonunda dövlət və hökumət başçıları rəsmi foto çəkdirdilər.

* * *

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının mükafatlarının təqdim edilməsi mərasimi oldu. Mükafatçılar arasında Azərbaycandan olan professor Elmira Ramazanova da vardır.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak edən dövlət və hökumət başçılarının şərəfinə dekabrın 23-də İstanbulda, "Çırağan" sarayında Türkiyə Prezidenti Abdullah Gülün adından nahar verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak etmişdir.

SƏFƏR BAŞA ÇATDI

İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri dekabrın 23-də başa çatmışdır.

İstanbulun Atatürk Beynəlxalq hava limanında dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.

TÜRKİYƏ, AZƏRBAYCAN VƏ İRAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜNDƏ BİRGƏ BƏYANAT QƏBUL EDİLMİŞDİR

Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlu, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və İran İslam Respublikasının xarici işlər nazirinin səlahiyyətlərini icra edən Əli Əkbər Salehi Cənubi Qafqaz məsələləri də daxil olmaqla ümumi maraq kəsb edən müxtəlif mövzuları müzakirə etmək üçün dekabrın 23-də İstanbulda görüşmüşlər.

Görüşdə Birgə bəyanat qəbul edilmişdir. Bəyanatda deyilir:

"Nazirlər,

Türkiyə, İran və Azərbaycan arasında dərin köklü ümumi tarix, irs, mədəniyyət və sivilizasiyaya əsaslanan güclü münasibətlərin qeydinə qalaraq;

Üç ölkə və onların xalqları arasındakı bənzərsiz əlaqələri vurğulayaraq;

Türkiyə, İran və Azərbaycan arasındakı dərinləşmiş əlaqələrin təkcə onlara yox, həmçinin bütövlükdə regiona xeyir gətirərək daha geniş sahələrdə dostluq münasibətlərini möhkəmləndirməyə imkanlar yaradacağına inanaraq;

Onların bütün sahələri əhatə edən əlaqələrindəki davamlı inkişafla bağlı məmnunluğunu bildirərək, iqtisadi artım və davamlı inkişafı sığortalayan sahələr də daxil olmaqla əməkdaşlığın möhkəmləndirilməsi üçün yeni yolların kəşfinə hazır olduqlarını vurğulayaraq;

Regional və qlobal səviyyələrdə sülhün və tərəqqinin təşviq edilməsi üçün ümumi istəyin və bu məqsədə nail olmaq üçün birgə fəaliyyətin aparılmasına onlarda güclü iradənin olduğunu təkrarlayaraq;

Regionda həll olunmamış münaqişələrin sülh yolu ilə həllinə nail olunmasının, davamlı və uzunmüddətli sülhün və sabitliyin əldə edilməsinə yönələcək bir mühit yaradacağını qəbul edərək;

Region və onun hüdudlarından kənarda sülhü və sabitliyi təhdid edən terrorizm, mütəşəkkil cinayətkarlıq, silah, narkotik maddələr və insan qaçaqmalçılığına, həmçinin xalqların tərəqqisinin təmin edilməsinə mane olan addımlara qarşı mübarizənin aparılması ilə bağlı onlarda böyük qətiyyətliliyin olduğunu qeyd edərək;

Bu çağırışlarla üzləşərkən müvəffəqiyyətin əldə edilməsi üçün birgə səylərin zəruriliyini etiraf edərək;

Üç ölkə arasında bütün səviyyələrdə məsləhətləşmələrin və əməkdaşlığın genişləndirilməsinin regional və qlobal sülhə, sabitliyə və tərəqqiyə nail olunmasına nəzərə çarpacaq müsbət təsir göstərəcəyinə əmin olaraq;

Razılaşmışlar:

Yuxarıda qeyd edilmiş mühüm məqsədlərə nail olunması üçün regionda həlli tapılmamış münaqişələrin ərazi bütövlüyü prinsipinə əsaslanaraq, sülh yolu ilə həllinə yönəlmiş əsasların yaradılması zəruridir.

Terrorizmə, mütəşəkkil cinayətkarlığa, silah, narkotik maddələr və insan qaçaqmalçılığına qarşı mübarizənin aparılması kimi ümumi maraq kəsb edən regional və qlobal məsələlərin müzakirə edilməsi məqsədilə Türkiyə, İran və Azərbaycan arasında xarici işlər nazirləri səviyyəsində mütəmadi əsaslarda məsləhətləşmələrin davam etdirilməsi.

Ticarət, investisiya, nəqliyyat, turizm, həmçinin ətraf mühit kimi sahələr daxil olmaqla, lakin bununla məhdudlaşmadan müştərək tərəqqiyə nail olunmasına yönəlmiş üçtərəfli səylərin artırılması məqsədilə birgə əməkdaşlıq planlarının inkişaf etdirilməsinin nəzərə alınması.

Nazirlər, həmçinin mütəmadi əsaslarda üçtərəfli görüşlərin keçirilməsinə razılaşmışlar. Növbəti görüşlər İran İslam Respublikasında keçiriləcəkdir".

AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA İDMAN VƏ GƏNCLƏR SİYASƏTİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR

Dekabrın 23-də gənclər və idman naziri Azad Rəhimov Azərbaycanda səfərdə olan Türkiyənin gənclər və idman direktorluğunun rəhbəri Yunus Akgülün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir qonaqlara Azərbaycanda idman sahəsində əldə olunmuş nailiyyətlər, uğurla həyata keçirilən gənclər siyasəti barədə məlumat vermişdir.

Bildirmişdir ki, 2010-cu ildə Azərbaycanda 50-yə yaxın beynəlxalq yarış keçirilmişdir. Cari il ərzində idmançılarımız 675 medal qazanmışlar.

Nazir ölkəmizdə GÜAM ölkələrinin Gənclər günlərinin keçirildiyini vurğulayaraq Türkiyədə Azərbaycan, Azərbaycanda isə Türkiyə Gəncləri günlərinin keçirilməsini, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində azərbaycanlı və türk gənclərinin iştirakı ilə Ağrıdağa yürüş təşkil olunmasını təklif etmişdir.

Görüşdə iki ölkə arasında gənclər üçün düşərgələrin təşkili də müzakirə olunmuşdur.

Yunus Akgül Türkiyədə idman və gənclər siyasəti sahəsində əldə olunmuş nailiyyətlər barədə məlumat vermişdir. O, səfərin ölkələrimiz arasında bu sahələrdəki əməkdaşlığın daha da genişləndirilməsinə öz töhvəsini verəcəyinə ümidvar olduğunu demişdir.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Dekabrın 24-də Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Rusiya Federasiyasının Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik etmiş, ona Prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Azərbaycan Prezidenti təbrikə və diqqətə görə Dmitri Medvedevə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları 2010-cu ili ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxı-

mından uğurlu il kimi dəyərləndirmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminliklərini bildirmişlər.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR

Dekabrın 24-də Gürcüstan Prezidenti Mixail Saakaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Gürcüstan Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevi ad günü münasibətilə təbrik etmiş, ona Prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

Azərbaycan Prezidenti təbrikə və diqqətə görə Mixail Saakaşviliyə minnətdarlığını bildirmişdir.

Telefon söhbəti zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər birimizdə böyük sevinc və səmimi duyğular oyadan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi ürəkdən salamlayır və ən xoş arzularımı yetirirəm.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və həmvətənlərimizin təşkilatlanması üçün geniş imkanlar yaradır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımız da ölkəmizin inkişafına, qarşıya çıxan problemlərin həllinə yaxından kömək göstərməyə çalışırlar. Bu köməyin səmərəli olması məhz həmvətənlərimizin möhkəm birliyi, mütəşəkkilliyi və yaxşı təşkilatlanması sayəsində mümkündür. Ona görə də Azərbaycan dövləti diaspor quruculuğu işinə böyük əhəmiyyət verir və bu prosesə hərtərəfli yardım göstərir. Sevindirici haldır ki, xaricdəki həmvətənlərimiz arasında azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərin kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycanın dünyaya təqdim olunmasına, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Düşünürəm ki, diaspor qurumlarımız bu sahədəki səylərini bundan sonra da artırmalı, intellektual potensialı ilə maddi resurslarını birləşdirməli, xarici ölkələrdəki diplomatik korpuslarımızla əlaqələrini genişləndirməlidirlər. Gələn il Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçiriləcəkdir. Əminəm ki, qurultayda diaspor təşkilatlarının fəaliyyəti dərindən təhlil olunacaq, qəbul edilən qərarlar soydaşlarımızın mütəşəkkilliyinin və təşkilati çevikliyinin gücləndirilməsinə təkan verəcəkdir.

Azərbaycan dövlətinin iqtisadi-siyasi, sosial-mədəni qüdrətinin artması və dinamik in-

kişafı bütün dünya azərbaycanlılarının arzusudur. Yola salmağa hazırlaşdığımız 2010-cu ildə bütün sahələrdə nəzərdə tutulmuş proqramlar uğurla icra edilmişdir. Ölkəmizdə yaradılmış güclü inkişaf potensialı, səmərəli idarəetmə sistemi dövlətimizin çətin sınaqlardan alnıaçıq çıxmasına imkan verir.

Hazırda respublikamızda sabit və sağlam ictimai-siyasi mühit hökm sürür. Cari ilin noyabrında keçirilmiş parlament seçkiləri ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun təntənəsini və xalqımızın bu kursa inamını, cəmiyyətimizin siyasi yetkinliyini və mütəşəkkilliyini bir daha nümayiş etdirdi.

Qazandığımız uğurlara baxmayaraq, hələ də müharibə şəraitində yaşadığımızı unutmamalıyıq. Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir.

Əziz bacı və qardaşlar!

Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımızın Vətən sevgisini, xalqımızın tarix və mədəniyyətinə hörmətini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir. Bu bayram münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və bütün işlərinizdə uğurlar arzulayıram!

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 dekabr 2010-cu il.

MOSKVA FİZİKA-TEXNİKİ İNSTİTUTUNUN NÜMAYƏNDƏLƏRİ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR

Dekabrın 24-də Moskva Fizika-Texniki İnstitutunun (MFTİ) birinci prorektoru, professor Timofey Kondranin və bu institutun ümumi və tətbiqi fizika fakültəsinin dekanı, professor Mixail Trunin Bakı Dövlət Universitetində (BDU) olmuşlar.

BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov ilə keçirilmiş görüşdə T.Kondranin təmsil etdiyi institutun Bakı Dövlət Universiteti ilə əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirmiş, MFTİ-də oxuyan azərbaycanlı tələbələrin sayının artırılmasının vacibliyini söyləmişdir.

Qonaqların fikirləri ilə həmrəy olduğunu vurğulayan akademik Abel Məhərrəmov

Moskva Fizika-Texniki İnstitutu ilə səmərəli və işlək əməkdaşlığın mümkünlüyünü vurğulayaraq, bu məsələyə daha çox diqqət ayıracağını bildirmişdir.

Sonra qonaqlar BDU-nun laboratoriyaları və elmi mərkəzləri ilə tanış olmuşlar.

AZƏRBAYCAN VƏ TOQO ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA RƏSMİ SƏNƏD İMZALANMIŞDIR

2010-cu il dekabrın 28-də Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyində Azərbaycan və Toqo arasında diplomatik əlaqələrin qurulması haqqında birgə rəsmi sənəd imzalanmışdır.

Rəsmi sənədi Azərbaycan Hökuməti adından ölkəmizin BMT yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyev, Toqo Hökuməti adından Toqonun BMT yanında daimi nümayəndəsi səfir Kodjo Menan imzalamışlar.

İmzalanma mərasimindən sonra səfirlər A.Mehdiyev və K.Menan iki ölkə arasında əlaqələrin inkişafı perspektivləri, mümkün əməkdaşlıq sahələri və maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparmışlar.

FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ RUSİYA FEDERASİYASINDA SƏFƏRDƏ OLMUŞDUR

Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin yaradılmasının 20 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək məqsədilə Rusiya fövqəladə hallar naziri Serqey Şoyqunun dəvəti ilə Azərbaycanın fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin nümayəndə heyəti Rusiyada səfərdə olmuşdur.

Təntənəli tədbirdə Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev, Rusiyanın bir sıra hökumət və dövlət nümayəndələri, habelə bəzi xarici ölkələrin müvafiq dövlət qurumlarının rəhbərləri iştirak etmişlər.

Tədbir çərçivəsində keçirilən ikitərəfli görüşlər zamanı müvafiq dövlət qurumları arasında mövcud əlaqələrin inkişaf etdirilməsi, gələcək əməkdaşlıq perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA YÖNƏLMİŞ XARİCİ SİYASƏT XƏTTİ KEÇƏN İL DƏ UĞURLA DAVAM ETDİRİLMİŞDİR

2010-cu ildə beynəlxalq münasibətlər müstəvisində inkişaf edən hadisələr getdikcə daha artmaqda olan qlobal problemlərin təsirinə məruz qalmışdır. Beynəlxalq sülh və təhlükəsizlik, həmçinin davamlı inkişafa qarşı yönələn qlobal problemlər, o cümlədən kütləvi qırğın silahlarının yayılmaması, terrorçuluqla mübarizə, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddələrin dövriyyəsi, enerji və ərzaq təhlükəsizliyinin təmin edilməsi, təbii fəlakətlər və iqlim dəyişiklikləri ilə bağlı kompleks məsələlərin həllinə əhəmiyyətli dərəcədə beynəlxalq səylər cəlb olunmuşdur.

Bu səylərə fəal şəkildə töhfə verən Azərbaycan maraqların nisbi balansını təmin etmək-

lə, ən mühüm ümummilli məsələmiz olan ölkənin ərazi bütövlüyünün bərpasında irəliləyişin əldə edilməsi, habelə dövlətimizin mövqeyinin və nüfuzunun gücləndirilməsi, beynəlxalq aləmdəki etimadının artması və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində apardığı xarici siyasət fəaliyyətini daha da gücləndirmişdir.

Keçən ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirilmişdir. İl ərzində davam etmiş danışıqlar 2009-cu ilin dekabrında ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təqdim edilmiş yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır.

Danışıqlarda Azərbaycan ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, işğalçı qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılması, yurdundan didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə qayıtması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının sülh şəraitində birgə yaşamasının təmin edilməsi, kommunikasiyaların bərpası və sonrakı mərhələdə hər iki icmanın iştirakı ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşdirilməsi mövqeyindən çıxış etmişdir.

Ötən il Rusiya Prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sarkisyan arasında yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda və oktyabrın 27-də Həştərxanda üç görüş keçirilmişdir. Son görüşün nəticəsində tərəflər ATƏT-in Minsk qrupu və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin vasitəçiliyi ilə hərbi əsir və girovların, həmçinin atəşkəs rejiminin pozulması nəticəsində həlak olmuş şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul etmişlər. Bunun nəticəsində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov və şəhid Fərid Əhmədovun cəsədlərinin Vətənə qaytarmaqla, torpağa tapşırılması mümkün olmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərin başçılarının keçən il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi və müvafiq hüquqi-siyasi qiymətləndirilməsinə nail olmaq istiqamətində həm ikitərəfli əsasda, həm də ATƏT, BMT, NATO, Avropa İttifaqı, Avropa Şurası və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində iş davam etdirilmişdir.

Keçən il noyabrın 19-20-də Lissabonda keçirilmiş NATO-nun Zirvə görüşünün yekun Bəyannaməsində region ölkələrinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi dəstəklənmiş, münaqişələrin məhz bu prinsipləri nəzərə almaqla həllinə çağırılmışdır.

Ötən il dekabrın 1-2-də Qazaxıstanın paytaxtında keçirilmiş ATƏT-in 7-ci Sammiti çərçivəsində qəbul edilmiş Astana Bəyannaməsində ATƏT məkanında həlli uzanan müna-

qişələrə BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktında təsbit olunmuş normalar öz əksini tapmışdır. Eyni zamanda, Sammit çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən qəbul olunmuş birgə bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin dövlət başçılarının 2009-cu ildə İtaliya və 2010-cu ildə Kanadada keçirilmiş G-8 Zirvə toplantıları çərçivəsində qəbul edilmiş prinsiplər əsasında həllinin vacibliyi bir daha vurğulanmışdır.

Ümumilikdə, 2010-cu ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüququn normaları və prinsipləri, bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirilmişdir. Bu da 2008-ci ildə Moskvada Rusiya, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən imzalanmış bəyanatda əks olunur.

Keçən il Avropa Parlamenti tərəfindən qəbul edilmiş "Avropa İttifaqının Cənubi Qafqaz üçün strategiya ehtiyacı" adlı qətnamədə Dağlıq Qarabağ, eləcə də onun ətrafındakı ərazilərin işğalı altında olması faktı təsdiq edilmiş, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılması, doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin tezliklə öz daimi yaşayış yerlərinə qayıtması hüququnun təmin edilməsi tələb olunmuşdur.

Azərbaycan tərəfi işğal altındakı torpaqlarda təbii sərvətlərin və mədəni irsin talan edilməsi, qeyri-qanuni məskunlaşma və mülkiyyət hüquqlarının pozulması ilə bağlı vəziyyətin araşdırılması və qiymətləndirilməsi məqsədi ilə işğal olunmuş ərazilərə ATƏT-in Minsk qrupunun həmsədrlərinin rəhbərliyi altında beynəlxalq qiymətləndirmə missiyasının səfərinin təşkilinə nail olmuşdur. Qiymətləndirmə missiyasının hesabatının 2011-ci ilin yanvarında yayılması planlaşdırılır.

Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsi, Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında məsələnin birdəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.

2010-cu ildə Azərbaycan mötəbər qlobal və regional təşkilatların işində fəal iştirakını və səmərəli əməkdaşlığını davam etdirmişdir. Ölkəmiz beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığın təminatında ən nüfuzlu beynəlxalq təşkilat olan BMT ilə əldə etdiyi yüksək əməkdaşlıq münasibətlərinin daha səmərəli irəliləyişi istiqamətində səylərini artırmışdır.

İl ərzində Azərbaycanın BMT və digər beynəlxalq təşkilatların seçki strukturlarında daha yaxşı təmsilçiliyinin təminatı üzrə iş aparılması diqqət mərkəzində olmuşdur. Ötən il Azərbaycan YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Komitəsinə və BMT-nin Avropa İqtisadi Komissiyası nəzdində Ətraf Mühit və Səhiyyə Nazirləri Şurasına üzv seçilmişdir.

Keçən il ölkəmiz digər mötəbər beynəlxalq qurum olan İslam Konfransı Təşkilatı (İKT) ilə də ənənəvi yüksək əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi önəm vermişdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması üzrə ölkəmizin ədalətli mövqeyi İKT-yə üzv olan bütün dövlətlər tərəfindən bir daha dəstəklənmiş və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi", həmçinin "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması" adlı qətnamələr yekdilliklə qəbul olunmuşdur.

İKT Xarici İşlər Nazirləri Şurasının 37-ci sessiyasında İslam Konfransı Gənclər Forumunun regional ofisinin Azərbaycanda yerləşməsinə dair Saziş imzalanmış, həmçinin il ərzində Bakıda İslam İnkişaf Bankının Direktorlar Şurasının illik toplantısı keçirilmişdir.

Eyni zamanda, Ərəb Dövlətləri Liqasının yüksək vəzifəli nümayəndə heyəti respublikamıza səfər etmiş və səfər çərçivəsində tərəflər arasında siyasi dialoqun intensivləşdirilməsinə və çoxşaxəli əməkdaşlığın inkişafına dair razılıq əldə olunmuşdur.

Dinlər və sivilizasiyalararası dialoqun təşviq edilməsində ənənəvi olaraq yüksək nüfuza malik Azərbaycan Respublikası 32 dövlətin dini liderlərinin və dini nümayəndələrinin iştirakı ilə Bakıda Dini Liderlərin Ümumdünya Sammitini keçirmişdir. Sammit çərçivəsində dini liderlər qloballaşma dövründə müasir cəmiyyət qarşısında duran problemlərin həllində dini dəyərlərin əhəmiyyəti və rolunu müzakirə etmiş, bu xüsusda birgə yanaşmaları müəyyən edərək, xalqlar, dinlər və sivilizasiyalar arası mədəniyyəti və dialoqu təşviq edən Bakı Bəyannaməsini qəbul etmişlər. Sammit çərçivəsində bütün Rusiyanın və Moskvanın patriarxı Kirilin vasitəçiliyi ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə və bütün ermənilərin katolikosu II Qaregin arasında görüş keçirilmişdir. Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə aparılan danışıqlara töhfə olaraq, birgə sənəd imzalamışlar.

Azərbaycanın xarici siyasət kursunda Avropa və Avroatlantik strukturları ilə əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin inkişafı prioritet sahələrdən birini təşkil etdiyindən, ölkəmiz bu istiqamətdə də uğurlu fəaliyyətini davam etdirmişdir.

Keçən il Avropa İttifaqı-Azərbaycan Assosiasiya Sazişi üzrə danışıqlara başlamaq üçün mandat təsdiq edilmiş və il ərzində iki plenar iclas keçirilmişdir. Aİ-nin yüksək səviyyəli rəsmilərinin ölkəmizə səfərləri olmuşdur. Aparılan danışıqların nəticəsində Aİ-Azərbaycan münasibətlərində yeni bir mərhələyə keçidin təzahürü olan Azərbaycan ilə Aİ arasında "Müasirləşmə üçün tərəfdaşlıq" sənədinin hazırlanmasına dair razılıq əldə edilmişdir.

Eyni zamanda, Aİ-Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində iki yeni - Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə və Məşğulluq, sosial məsələlər, ictimai sağlamlıq, təlim, təhsil və gənclər, mədəniyyət, informasiya cəmiyyəti və audiovizual siyasət, elm və texnologiya üzrə alt-komitələrin yaradılması haqqında Protokol imzalanmışdır. Bu alt-komitələr Avropa Qonşuluq Siyasətinin Fəaliyyət Planının

həyata keçirilməsinin sürətləndirilməsi və monitorinqi, Aİ-nin "Şərq tərəfdaşlığı" təşəbbüsünün məqsədlərinə səmərəli şəkildə nail olunması, həmçinin müvafiq sahələr üzrə ekspertlər səviyyəsində məlumat və müsbət təcrübələrin mübadiləsinə əsaslı töhfə vermək imkanı yaradacaqdır.

Azərbaycanın Avropa və Avroatlantik məkanlarının sülh və təhlükəsizliyini təmin edən ən nüfuzlu hərbi-siyasi təşkilatı NATO ilə də tərəfdaşlıq münasibətləri inkişaf etdirilmişdir. 2010-cu ildə NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının ikinci fazası rəsmi olaraq başa çatdırılmışdır. Bu çərçivədə nəzərdə tutulan tədbirlər Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən uğurla yerinə yetirilmişdir.

NATO ilə əməkdaşlıq mexanizmlərindən istifadə etməklə, Azərbaycan beynəlxalq təhlükəsizliyə töhfə vermək istiqamətində imkanlarını ardıcıl olaraq təkmilləşdirmiş və bu sahədə real addımlar atılmışdır. NATO-nun Texniki Təminat və Təchizat Agentliyinin (NAMSA) həyata keçirdiyi "Gürcüstan III Etimad Fondu" adlı layihə çərçivəsində Gürcüstan ordusunun mühəndis bölüyünün humanitar minatəmizləmə, döyüş ərazisinin təmizlənməsi və böyük həcmli sursatların məhv edilməsi üzrə təlimlərin keçirilməsi bu sahədə yüksək təcrübə və müasir təlim təsisatlarına malik Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə həvalə edilmişdir.

Çoxtərəfli beynəlxalq əməkdaşlıq münasibətlərimiz bir sıra regional təşkilatlar, o cümlədən AQEM, MDB, GUAM, QİƏT, İƏT və s. çərçivəsində də davamlı olaraq inkişaf etdirilmişdir. Regional təşkilatlarla qarşılıqlı öhdəlik, anlaşma və əməkdaşlıq ruhunda artan əməkdaşlığımızın gücləndirilməsi bu təsisatlar çərçivəsində ölkəmizin nüfuzunun artırılması və maraqlarının təminatı ilə yanaşı, beynəlxalq ictimai rəyin düzgün formalaşdırılması və istiqamətləndirilməsi baxımından da faydalı olmuşdur.

Hesabat ilində başlanmış regional layihələr sırasında sərhəd təhlükəsizliyinin səmərəli təminatı istiqamətində Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı "Cənubi Qafqaz ölkələrində inteqrə edilmiş sərhəd idarəetmə sistemlərinə dəstək" adlı layihənin icrası vacib əhəmiyyət kəsb etmişdir. Dövlət sərhədinin təhlükəsizliyi ilə bağlı tarixi və siyasi əhəmiyyətə malik olan Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında Müqavilə" də 2010-cu ildə imzalanmışdır. Tarixdə ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arazında dövlət sərhədlərinin müəyyən edilməsi beynəlxalq hüquqda öz təsbitini tapmışdır.

Regional məsələlərin müzakirəsi və ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə 2010-cu ildə İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Azərbaycan, Türkiyə və İranın xarici işlər nazirlərinin üçtərəfli görüşünün təşkil edilməsi təklifi irəli sürülmüşdür. 2011-ci ilin birinci rübündə növbəti üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulmuşdur.

Bütövlükdə, 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin xarici dövlətlərə dövlət, rəsmi və işgüzar səfərləri, habelə xarici dövlətlərin başçılarının Azərbaycana rəsmi səfərləri, Azərbaycan Respublikasının xarici ölkələrlə müxtəlif sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyalarının iclasları, o cümlədən digər səviyyələrdə rəsmi səfərlər mübadiləsi nəticəsində 50-yə yaxın dövlətlə 100-dək ikitərəfli beynəlxalq sə-

nəd imzalanmışdır.

Bakıda keçirilmiş III Xəzər Zirvə görüşündə ilk dəfə olaraq Xəzəryanı dövlətlər arasında təhlükəsizlik sahəsində sənədin imzalanması, Zirvə görüşü sənədləri qismində həm Birgə Bəyanatın, həm müqavilənin, həm də Protokol Qərarının qəbul edilməsi tədbirin yüksək əhəmiyyət və məhsuldarlığının göstəricisi olmuşdur.

Digər mühüm sənəd Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın dövlət və hökumət başçılarının Bakı Enerji Zirvə görüşündə imzalanmış Bakı Bəyannaməsi olmuşdur. Bəyannamə Azərbaycanın təbii qazının nəqlinin şaxələndirilməsi məqsədini daşımışdır.

Enerji siyasətinin xidmət etdiyi iqtisadi diplomatiyamızın əsas vəzifəsi əvvəlki illərdə olduğu kimi, keçən il də Azərbaycan Respublikasının dinamik və davamlı inkişafı istiqamətində ölkəmizin regional və beynəlxalq aləmdə artan nüfuzunun, milli maraqlarımıza cavab verən əlverişli mühitin təmin edilməsi olmuşdur. Azərbaycanın regionda aparıcı ölkə statusunun saxlanılmasına böyük önəm verilmişdir.

İl ərzində Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən dövlətimizin uğurlu xarici siyasət kursunun həyata keçirilməsinin vacib istiqamətlərindən biri də xarici ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının müdafiəsi, onlara göstərilən konsul xidmətinin səmərəliliyinin və intensivliyinin artırılması, ümumilikdə isə, bu istiqamətdə xarici dövlətlərlə diplomatik və konsulluq əlaqələrinin inkişafına təkan verilməsinə yönələn fəaliyyət təşkil etmişdir.

Milli maraqlarımızın təmin edilməsinə yönəlmiş ardıcıl xarici siyasət kursu çərçivəsində ikitərəfli əlaqələrin inkişafı dövlətimizin beynəlxalq səviyyədə nüfuzunun və mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Ötən il Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə, Almaniya, Estoniya, Türkiyə, Rusiya, Ukrayna, Portuqaliya, ABŞ, Gürcüstan və Özbəkistana dövlət, rəsmi və işgüzar səfərləri, Bolqarıstan, Belarus, Serbiya, Sloveniya, Türkiyə, Rusiya, Rumıniya, Macarıstan, İordaniya və Mavritaniyanın dövlət və hökumət başçılarının Azərbaycana səfərləri, birgə hökumətlərarası komissiyaların və işçi qruplarının iclasları, XİN-lərarası siyasi məsləhətləşmələr ikitərəfli əməkdaşlığın dərinləşməsini təmin etmişdir.

Azərbaycanın diplomatik nümayəndəliklərinin əhatə dairəsi də genişlənmiş və il ərzində Xorvatiya, Estoniya, Serbiya, Liviya və Argentinada Azərbaycanın səfirlikləri, Rusiyanın Yekaterinburq və Gürcüstanın Batumi şəhərlərində Azərbaycanın baş konsulluğu, həmçinin AlmaniyanınŞtutqart və ABŞ-ın Santa Fe şəhərlərində ölkəmizin fəxri konsulluqları açılmışdır. Eyni zamanda, keçən il Azərbaycanda Avstriya, Niderland Krallığı, Fələstin və İndoneziyanın səfirlikləri, Gəncə şəhərində isə Türkiyənin baş konsulluğu fəaliyyətə başlamışdır.

Bununla yanaşı, 2010-cu ildə Azərbaycan Respublikasının Cənubi Afrika Respublikası, İraq, Vyetnam və Braziliyada səfirliklərinin açılması barədə müvafiq qərarlar qəbul olunmuşdur.

Yola saldığımız ildə Azərbaycan Respublikası ilə Svazilend Krallığı, Marşal Adaları Respublikası, Sent Lusiya, Fici Respublikası və Qrenada arasında bu ölkələrlə imzalanmış Birgə Kommünikelər əsasında diplomatik əlaqələr qurulmuşdur.

Müasir dövrdə ölkələrarası münasibətlərin əvvəlki illərlə müqayisədə çox müxtəlif sahələri əhatə etdiyini nəzərə alsaq, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının həmsərhəd ölkələr başda olmaqla müxtəlif dövlət və onların regionları ilə çoxşaxəli əlaqələr qurması Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən olmuşdur.

Peşəkar kadrların hazırlanmasında Azərbaycan Diplomatik Akademiyasının (ADA) apardığı səmərəli fəaliyyət təqdirəlayiq olmuşdur. 2010-cu ildə ADA-nın Diplomatiya və Beynəlxalq Münasibətlər üzrə magistr proqramına 23 yerli və xarici tələbə qəbul olunmuşdur. Akademiyada icraedici qurumların nümayəndələri üçün təlim proqramları təşkil olunmaqla, 18 dövlət qurumundan iştirak edən 48 dövlət qulluqçusuna xaricdən dəvət olunan aparıcı mütəxəssislər tərəfindən təlimlər keçirilmiş və müvafiq peşə bilikləri ilə təcrübənin artırılması, eləcə də idarələrarası əməkdaşlıq və əlaqələndirmənin təkmilləşdirilməsi məqsədinə nail olunmuşdur.

Keçən il Azərbaycan diplomatiyası mürəkkəb və beynəlxalq münasibətlərdə ziddiyyət dolu dövrdən keçmişdir. Xarici siyasətimiz qarşıda duran strateji vəzifələri məqsədyönlü və ardıcıl şəkildə həyata keçirməklə, prioritet hesab olunan fəaliyyət istiqamətləri üzrə yüksək tempi aşağı salmadan dünyada baş verən dinamik, o cümlədən gözlənilməz dəyişikliklərin çağırışlarını kifayət qədər müvəffəqiyyətlə cavablandıra bilmişdir.

2011-ci ilin xarici siyasət prioritetlərinin ilk sıralarında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində yüksək səfərbərlik, Xəzəryanı bölgədə mehriban qonşuluq əlaqələrinin saxlanılması və yüksək etimadın qurulması, yüksələn fəal əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi, zəngin karbohidrogen ehtiyatlarının ixracı və nəqlində ən sabit və etibarlı ölkə qismində mövqeyimizin möhkəmləndirilməsi, sivilizasiyalararası dialoqa töhfə məqsədilə ölkənin unikal çoxmədəniyyətli xüsusiyyətləri və geosiyasi özəlliyindən səmərəli şəkildə istifadə olunması məsələləri yer almışdır.

Xarici siyasətimizin maraqlarına ənənələr və müasirlik, həmçinin prinsipiallıq və çevikliyin uzlaşdığı formul xidmət edəcəkdir.

PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

2010-cu il arxada qalır. 2010-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. Baxmayaraq ki, 2010-cu ildə dünyada iqtisadi və maliyyə böhranı hələ də davam edirdi, Azərbaycan 2010-cu ildə böyük uğurlara nail olmuşdur. Bizim iqtisadiyyatımız artmışdır, ölkədə bütün sosial proqramlar öz həllini tapmışdır, bütün infrastruktur layihələri icra edilmişdir, bir sözlə, 2010-cu ildə ölkə qarşısında duran bütün vəzifələr şərəflə yerinə yetirildi. İqtisadiyyatımız təxminən 5 faiz, əhalinin pul gəlirləri 12 faiz artmışdır, inflyasiya cəmi 5,7 faiz təşkil etmişdir. Ölkəmizə 15 milyard dollar sərmayə qoyulmuşdur, bizim valyuta ehtiyatlarımız 20 milyard dollardan 29 milyard dollara qalxmışdır. Bütün bunlar, bu nəticələr onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur, Azərbaycanın seçdiyi yol tərəqqi və inkişaf yoludur.

2010-cu ildə sosial sahədə böyük işlər görülmüşdür. 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb tikilmiş və təmir edilmişdir, 5 Olimpiya-İdman Mərkəzi tikilmişdir. Minimum əməkhaqqı və pensiyanın baza hissəsi qaldırılmışdır, ünvanlı sosial yardım proqramı uğurla icra edilir. Bu, onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və iqtisadiyyatımız tam şəkildə bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Ancaq bununla bərabər, güclü sosial siyasət bizim əsas vəzifəmizdir.

2010-cu ildə ölkəmizdə siyasi proseslər müsbət istiqamətdə inkişaf etmişdir. Azərbaycanda demokratiyanın inkişafı yolunda böyük və uğurlu addımlar atılmışdır. 2010-cu ildə Azərbaycanda parlament seçkiləri şəffaf, ədalətli şəkildə keçirilmişdir. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə öz əksini tapmışdır. Bu, onu göstərir ki, biz nəinki iqtisadi sahədə çox böyük uğurlara nail olmuşuq, eyni zamanda, siyasi islahatların aparılması işində Azərbaycan çox uğurla inkişaf edir. Bu, bizə imkan verir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkəmiz sözün əsl mənasında, müasir dövlətə çevrilsin və bu istiqamətdə atılmış addımlar bizi ruhlandırır.

Xarici siyasət sahəsində 2010-cu ildə böyük uğurlara nail olduq. Bizim dostlarımızın, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz həm ikitərəfli müstəvidə, həm regional formatda, həm çoxtərəfli formatda uğurlu xarici siyasət aparırıq. Beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz artıq oturuşmuş əlaqələrdir, qarşılıqlı hörmət, qarşılıqlı inam, qarşılıqlı maraqlar üzərində qurulmuş münasibətlərdir.

2010-cu ildə Avropa Parlamenti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox əhəmiyyətli və ədalətli qətnamə qəbul etmişdir. Beləliklə, münaqişənin həlli ilə bağlı gedən işlərdə bizim siyasi və diplomatik mövqelərimiz daha da möhkəmləndirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Bizim ərazi bütövlüyümüzün bərpası mütləq baş verməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağda yaşayan əhali və ora qayıdacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşayacaqlar və bu, məsələnin həlli üçün yeganə variantdır.

2010-cu ildə ölkəmizdə böyük infrastruktur layihələri icra edilmişdir. Nəqliyyat sektorunda, inşaat sektorunda, elektrik enerjisi güclərinin yaradılması işində böyük və önəmli addımlar atılmışdır. 2010-cu ildə Bakıda böyük gəmiqayırma zavodunun tikintisi başlanmışdır. Bakıda Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi başlanmışdır. Bu layihələr bölgədə gedən əməkdaşlıq proseslərinə çox güclü təkan verəcək, Azərbaycanın qeyri-neft sektorunun inkişafına çox müsbət təsir göstərəcək və ölkəmizin inkişafına xidmət edəcəkdir. Bütün bu layihələr böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Ancaq iqtisadi vəziyyətimiz imkan verir ki, biz bu layihələri öz gücümüzlə, öz pulumuzla icra edək.

2010-cu ildə Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi başa çatmışdır. Bu, ölkəmiz üçün tarixi bir hadisədir. Yeni böyük su kəməri Bakını təmiz, keyfiyyətli içməli su ilə təmin edəcək və Bakının demək olar ki, əsas problemlərindən biri olan su təchizatının yaxşılaşdırılmasına böyük töhfə verəcəkdir. Bu tarixi layihənin həyata keçirilməsi Azərbaycan xalqının, Azərbaycan dövlətinin böyük uğurudur və bir daha onu göstərir ki, bizim siyasətimiz insanların yaşayış səviyyəsinin qaldırılmasına, rifah halının yaxşılaşdırılmasına yönəldilibdir.

Bildiyiniz kimi, 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdir. Bu, sadəcə olaraq şüar naminə atılmış bir addım deyildi. Sözün əsl mənasında, biz 2010-cu ildə ekoloji məsələlərin həlli ilə çox ciddi məşğul olurduq. Mən əminəm ki, bundan sonrakı illərdə də bu məsələ daim diqqət mərkəzində olacaqdır. Təkcə bir il ərzində görülmüş işlər və irəli sürülmüş təşəbbüs nəticəsində Azərbaycanda 6 milyondan çox ağac əkilmişdir. Bu, tarixdə misli görünməmiş bir nəticədir. Biz ilin əvvəlində qarşıya hədəf qoymuşduq ki, 3 milyon ağac əkilsin. Ancaq 6 milyon ağacın əkilməsi onu göstərir ki, hər bir bölgədə, hər bir kənddə insanlar bizim təşəbbüsümüzə qoşularaq Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz töhfələrini vermişlər.

Əhalini, xüsusilə çaylar boyu yerləşən kəndlərdə yaşayan insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular tikilmişdir. Artıq o çaylar boyu yerləşən kəndlərdə yaşayan 300 min Azərbaycan vətəndaşı təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təchiz edilir.

2010-cu ildə bizim iqtisadiyyatımızın aparıcı sahəsi olan neft-qaz sektorunda da böyük uğurlar əldə edilmişdir. Ölkəmizdə 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmişdir. Biz dünyanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz töhfəmizi veririk. Azərbaycan çox etibarlı tərəfdaşdır və bizim neft-qaz resurslarımız ölkəmizi, ölkə iqtisadiyyatını gücləndirir, eyni zamanda, bizim beynəlxalq mövqelərimizi də gücləndirir. 2010-cu ildə Azərbaycanda böyük qaz yatağı kəşf edilmişdir. "Ümid" yatağı Azərbaycan neftçiləri tərəfindən kəşf edilmişdir və bu yataq bizim enerji potensialımıza böyük dəstək verəcəkdir. Artıq yatağın aşkarlanması dünyada böyük səs salıb və Azərbaycanın enerji potensialının dünya bazarlarına təqdim edilməsi üçün bu hadisənin böyük əhəmiyyəti olacaqdır.

Əziz dostlar, bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən dünyada yaşayan bütün soydaşlarımızı bu bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü, qüdrətli, müasir, azad Azərbaycan dövləti dayanır. Azərbaycan onların dayağıdır, onların arxasıdır.

Onlar da yaşadıqları ölkələrdə Azərbaycanı təmsil edirlər və ölkəmizin maraqlarının təmin edilməsinə gündəlik fəaliyyətləri ilə öz töhfələrini verirlər. Dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, Azərbaycan dövləti daim onlarla bərabərdir, onların fəaliyyətini izləyir, onların qayğıları ilə yaşayır. Dünyada mövcud olan Azərbaycan diaspor təşkilatları da öz səmərəli fəaliyyətləri ilə bizim gücümüzü artırırlar.

Əziz dostlar, 2010-cu ildə ölkəmizdə, ölkəmizin paytaxtında çox əlamətdar hadisə baş vermişdir. Bakıda Dövlət Bayrağı Meydanı yaradılmışdır və dünyanın ən böyük, ən hündür bayrağı Bakıda ucaldılmışdır. Bizim bayrağımız milli rəmzimizdir, dövlət rəmzimizdir, qürur mənbəyimizdir. Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda qaldırılmalıdır və qaldırılacaqdır. Şuşada, Xankəndidə bizim milli bayrağımız dalğalanmalıdır və dalğalanacaqdır. Bu günü biz hamımız yaxınlaşdırmalıyıq, bu günə biz hamımız nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan dövləti bundan sonra da ancaq və ancaq inkişaf və tərəqqi yolu ilə gedəcəkdir.

Bir daha sizi bu gözəl bayramlar münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİN SİYAHISI

25 yanvar	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
27-28 yanvar	İsveçrədə işgüzar səfərdə olmuşdur.
4-6 fevral	Almaniya Federativ Respublikasında işgüzar səfərdə olmuşdur.
6-8 aprel	Estoniyada dövlət səfərində olmuşdur.
8-9 may	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
7-9 iyun	Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur.
17 iyun	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
10-11 iyul	MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Ukraynada işgüzar səfərdə olmuşdur.
15-16 sentyabr	Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında iştirak etmək üçün Türkiyə Respublikasında səfərdə olmuşdur.
22-24 sentyabr	Nyu-Yorkda keçirilən BMT baş məclisinin 65-ci sessiyasında iştirak etmək üçün Amerika Saakaşvili Ştatlarında işgüzar səfərdə olmuşdur.
27-28 sentyabr	Özbəkistan Respublikasında rəsmi səfərdə olmuşdur.
27 oktyabr	Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.
27-28 oktyabr	Ukraynada rəsmi səfərdə olmuşdur.
19-21 noyabr	NATO-nun zirvə toplantısında iştirak etmək üçün Portuqaliyanın paytaxtı Lissabonda səfərdə olmuşdur.
30 noyabr-2 dekabr	ATƏT-in sammitində iştirak etmək üçün Qazaxıstanın paytaxtı Astanada səfərdə olmuşdur.
9-10 dekabr	MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskvada səfərdə olmuşdur.
22-23 dekabr	İqtisadi Əməkdaşlıq Təşkilatının XI Sammitində iştirak etmək üçün Türkiyə Respublikasında səfərdə olmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

Yanvar 2010

25 yanvar 2010

Prezident İlham Əliyev Soçinin "Adler" Beynəlxalq hava limanında Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşmüşdür.

Prezident İlham Əliyevin Soçidə Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə birgə görüşü olmuşdur.

27 yanvar 2010

Prezident İlham Əliyev Davosda Sloveniya Prezidenti Danilo Türkü ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda bp şirkətinin Baş icraçı direktoru Toni Heyvord ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda "Edisson" şirkətinin Baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda RWE şirkətinin Baş icraçı direktoru Yurgen Qrosman ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda "Chevron" korporasiyasının vitse-prezidenti Cey Prior ilə görüşmüşdür.

28 yanvar 2010

Prezident İlham Əliyev Davosda Latviya Respublikasının Prezidenti Valdis Zatlers ilə görüşü ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda İsveçrə Prezidenti xanım Doris Loyhardın görüşü ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda Polşa Prezidenti Lex Kaçinski ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda Böyük Britaniyanın York hersoqu, Şahzadə Endryu ilə görüşmüşdür.

Prezident İlham Əliyev Davosda İordaniya Kralı II Abdullah ilə görüşmüşdür.

Fevral 2010

5 fevral 2010

Prezident İlham Əliyev Münhendə Alman-Azərbaycan Forumunun üzvləri ilə görüşmüşdür.

Prezident İlham Əliyev Münhendə Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.

Prezident İlham Əliyev Münhendə ABŞ dövlət katibinin birinci müavini Ceyms Steynberq ilə görüşmüşdür.

6 fevral 2010

Prezident İlham Əliyev Münhendə İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəki ilə görüşmüşdür.

Aprel 2010

7 aprel 2010

Tallinndə Prezident İlham Əliyevin və Estoniya Prezidenti Toomas Hendrik İlvesin təkbətək görüşü olmuşdur.

Tallinndə Prezident İlham Əliyev ilə Estoniya Prezidenti Toomas Hendrik İlves arasında geniş tərkibdə görüş keçirilmişdir.

Prezident İlham Əliyev Tallinndə Estoniyanın Baş naziri Andrus Ansip ilə görüşmüşdür.

Prezident İlham Əliyev Tallinndə Estoniyanın sabiq Prezidenti Arnold Rütel ilə görüşmüşdür.

May 2010

9 may 2010

Prezident İlham Əliyev Moskvada Xorvatiya Respublikasının Prezidenti İvo Yosipoviç ilə görüşmüşdür.

13 may 2010

Bakıda Prezident İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin arasında geniş tərkibdə görüşü olmuşdur.

16 may 2010

Bakıda Prezident İlham Əliyevin və İordaniya Kralı II Abdullahın təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və İordaniya Kralı II Abdullahın arasında geniş tərkibdə görüşü olmuşdur.

17 may 2010

Bakıda Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın arasında geniş tərkibdə görüşü olmuşdur.

İyun 2010

3 iyun 2010

Bakıda Prezident İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun arasında geniş tərkibdə görüşü olmuşdur.

7 iyun 2010

Prezident İlham Əliyev İstanbulda Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Makedoniya Prezidenti Gyorge İvanov ilə görüşmüşdür.

8 iyun 2010

Prezident İlham Əliyev İstanbulda Rusiyanın Baş naziri Vladimir Putin ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Ukrayna Prezidenti Viktor Yanukoviç ilə görüşmüşdür.

17 iyun 2010

Prezident İlham Əliyev Sankt-Peterburqda Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşmüşdür.

30 iyun 2010

Bakıda Prezident İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun arasında geniş tərkibdə görüşü olmuşdur.

İyul 2010

15 iyul 2010

Bakıda Prezident İlham Əliyevin və Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləzizin arasında geniş tərkibdə görüşü olmuşdur.

16 iyul 2010

Batumidə Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü olmuşdur.

Batumidə Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin arasında geniş tərkibdə görüşü olmuşdur.

Avqust 2010

16 avqust 2010

Bakıda Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün arasında geniş tərkibdə görüşü olmuşdur.

Sentyabr 2010

3 sentyabr 2010

Bakıda Prezident İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin arasında geniş tərkibdə görüşü olmuşdur.

13 sentyabr 2010

Bakıda Prezident İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun görüşü olmuşdur.

14 sentyabr 2010

Bakıda Prezident İlham Əliyevin, Rumıniya Prezidenti Trayan Beseskunun, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Macarıstanın Baş naziri Viktor Orbanın dördtərəfli görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın görüşü olmuşdur.

15 sentyabr 2010

Prezident İlham Əliyev İstanbulda sarayında Türkiyə Prezidenti Abdullah Gül ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

16 sentyabr 2010

Prezident İlham Əliyev İstanbulda Qırğızıstanın keçid dövrü Prezidenti Roza Otunbayeva ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.

22 sentyabr 2010

Prezident İlham Əliyev Nyu-Yorkda Amerika Birləşmiş Ştatları dövlət katibinin Avrasiya energetika məsələləri üzrə nümayəndəsi Riçard Morninqstar ilə görüşmüşdür.

24 sentyabr 2010

Prezident İlham Əliyev Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obama ilə görüşmüşdür.

27 sentyabr 2010

Daşkənddə Prezident İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur.

Daşkənddə Prezident İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun arasında geniş tərkibdə görüşü olmuşdur.

Oktyabr 2010

27 oktyabr 2010

Prezident İlham Əliyevin Həştərxanda Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan ilə görüşü olmuşdur.

28 oktyabr 2010

Kiyevdə Prezident İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.

Noyabr 2010

17 noyabr 2010

Bakıda Prezident İlham Əliyevin və İran İslam Respublikası Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.

Bakıda Prezident İlham Əliyevin və İran İslam Respublikası Prezidenti Mahmud Əhmədinejadın arasında geniş tərkibdə görüşü olmuşdur.

18 noyabr 2010

Prezident İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşmüşdür.

Prezident İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.

Prezident İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə Görüşündə iştirak etmək üçün Bakıya səfərə gələn Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev ilə görüşmüşdür.

30 noyabr 2010

Prezident İlham Əliyev Astanada ATƏT-in KGV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviç ilə görüşmüşdür.

Dekabr 2010

1 dekabr 2010

Prezident İlham Əliyev Astanada Türkiyə Prezidenti Abdullah Gül ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Niderlandın Baş naziri Mark Rutten ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Yunanıstanın Baş naziri George Papandreu ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Avstraliyanın xarici işlər naziri Kevin Radd ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Avropa İttifaqının prezidenti Herman Van Rompey görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Sloveniya Prezidenti Danilo Türk ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Böyük Britaniya Baş nazirinin müavini Nik Kleqq ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Avstriya Prezidenti Haynts Fişer ilə görüşmüşdür.

Prezident İlham Əliyev Astanada Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşmüşdür.

22 dekabr 2010

Prezident İlham Əliyev İstanbulda Türkiyə Prezidenti Abdullah Gül ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

Prezident İlham Əliyev İstanbulda Qırğızıstanın keçid dövrü Prezidenti Roza Otunbayeva ilə görüşmüşdür.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

Yanvar 2010

15 yanvar 2010

Prezident İlham Əliyev ABŞ Prezidentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarn başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 yanvar 2010

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyənin təhsil naziri xanım Nimet Çubukçunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

23 yanvar 2010

Prezident İlham Əliyev Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.

Prezident İlham Əliyev Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan-Rusiya Forumunun iştirakçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

Fevral 2010

9 fevral 2010

Prezident İlham Əliyev İsrailin xarici işlər naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

10 fevral 2010

Prezident İlham Əliyev Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mark Beylinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladimir Curgusun etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Mali Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Brahima Kulibalinin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev AŞPA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Andres Herkeli və Debona Qrexi qəbul etmişdir.

15 fevral 2010

Prezident İlham Əliyev Qazaxıstanın dövlət katibi-xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Kanat Saudabayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Slovakiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yozef Miqaşın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Qırğızıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Raimkul Attakurovun etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev İspaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xuan Klos i Mateonun etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Qazaxıstana gedərkən yolüstü Bakıda dayanan İsrailin keçmiş Baş naziri Exud Olmerti qəbul etmişdir.

18 fevral 2010

Prezident İlham Əliyev Polşanın Milli Təhlükəsizlik Bürosunun rəhbəri Aleksandr Şçıqlonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 fevral 2010

Prezident İlham Əliyev ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Uilyam Börnsin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 fevral 2010

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

26 fevral 2010

Prezident İlham Əliyev BMT-nin rezident əlaqələndiricisi Bruno Puezanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

Mart 2010

2 mart 2010

Prezident İlham Əliyev Avropa Şurasının insan hüquqları üzrə komissarı Tomas Hammerberqi qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa Xalq Partiyasının prezidenti Vilfred Martinsi qəbul etmişdir.

Prezident İlham Əliyev İspaniya Krallığının xarici işlər və əməkdaşlıq naziri Migel Angel Moratinosun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

3 mart 2010

Prezident İlham Əliyev Rusiya Federasiyası Baş nazirinin birinci müavini İqor Şuvalovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Niderlandın Xarici İşlər Nazirliyinin Baş katibi, nazirin müavini Ed Kroninburqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Filippinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pedro O.Çanın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Rasselin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Liviyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saad Mustafa Mucbirin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Danimarkanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Egberg Mikkelsenin etimadnaməsini qəbul etmişdir.

9 mart 2010

Prezident İlham Əliyev İraqın ölkəmizdəki səfiri Ərşad Ömər İsmayılı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

10 mart 2010

Prezident İlham Əliyev Polşa Respublikasının Baş naziri Donald Tuskun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev RWE şirkətinin idarə heyətinin sədri Yurgen Qrosmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

11 mart 2010

Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

15 mart 2010

Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının sədri Joao Suareşin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Slovakiyanın xarici işlər naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

16 mart 2010

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Tomas Mirounun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

18 mart 2010

Prezident İlham Əliyev Rumıniyanın xarici işlər naziri Teodor Bakonskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 mart 2010

Prezident İlham Əliyev Sinqapurun xarici işlər naziri Corc Yonq-Bun Yeonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyə Respublikası Prezidenti Administrasiyasının Baş katibi Mustafa İseni qəbul etmişdir.

31 mart 2010

Prezident İlham Əliyev Vatikanın ölkəmizdəki apostol nunsisi Klaudio Qucerottini qəbul etmişdir.

Aprel 2010

2 aprel 2010

Prezident İlham Əliyev Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti Alişer Usmanovu qəbul etmişdir.

6 aprel 2010

Prezident İlham Əliyev Almaniya Bundestaqının üzvü, Ümumdünya Bərpa Olunan Enerji Şurasının həmsədri Hermann Şheeri qəbul etmişdir.

8 aprel 2010

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoang Çunng Hayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Mavritaniya İslam Respublikasının xarici işlər naziri xanım Naha Mint Muknassın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

9 aprel 2010

Prezident İlham Əliyev Avropa İttifaqının genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarıŞtefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Türkiyə xarici işlər nazirinin müavini Firudin Sinirlioğlunu qəbul etmişdir.

12 aprel 2010

Prezident İlham Əliyev Qambiyanın xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki qambiyalılar üzrə naziri Usman Cammehin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

15 aprel 2010

Prezident İlham Əliyev Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

16 aprel 2010

Prezident İlham Əliyev Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını qəbul etmişdir.

17 aprel 2010

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin siyasət üzrə müavini Mişel Flournoyun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 aprel 2010

Prezident İlham Əliyev Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

20 aprel 2010

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Amerika Birləşmiş Ştatlarından olan həmsədri Robert Bradkeni qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Rusiyalı həmsədri Yuri Merzlyakovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev Ukraynanın ölkəmizdəki səfiri Boris Klimçuku diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

22 aprel 2010

Prezident İlham Əliyev Pakistanın müdafiə katibi Səyid Əthar Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 aprel 2010

Prezident İlham Əliyev Moskvanın və Bütün Rusiyanın patriarxı Kirilli qəbul etmişdir.

26 aprel 2010

Prezident İlham Əliyev Küveytin islam işləri və vəqf nazirinin müavini Adel Abdulla Əl-Fələhi qəbul etmişdir.

Prezident İlham Əliyev bütün ermənilərin katolikosu II Qaregini qəbul etmişdir.

27 aprel 2010

Prezident İlham Əliyev Stavropol vilayətinin qubernatoru Valeri Qayevskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

28 aprel 2010

Prezident İlham Əliyev Koreya Respublikasının Milli Assambleyasının üzvü Sanq Dikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Əlcəzairin dini işlər və vəqflər naziri Buabdulla Qulamullanı qəbul etmişdir.

May 2010

3 may 2010

Prezident İlham Əliyev İran İslam Respublikasının daxili işlər naziri Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

5 may 2010

Prezident İlham Əliyev Belarus Respublikası Baş nazirinin müavini, Azərbaycan-Belarus hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq üzrə komissiyanın həmsədri Andrey Kobyokovu qəbul etmişdir.

11 may 2010

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Los-Anceles dairəsinin Gerifi Leroy Bakanı qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiya Federasiyasının müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.

12 may 2010

Prezident İlham Əliyev ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

14 may 2010

Prezident İlham Əliyev Çexiya Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Yan Kohoutun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 may 2010

Prezident İlham Əliyev Misir Ərəb Respublikasının xarici işlər naziri Əhməd Abul Ğeytin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev BMT Baş katibinin müavini xanım Aşa Rouz Migironun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev BMT Baş katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa Şurası Baş katibinin müavini xanım Mod De Bur Bukikionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

31 may 2010

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Mərkəzi Bankının sədri Çjou Syaoçuanı qəbul etmişdir.

İyun 2010

1 iyun 2010

Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi səfir Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

2 iyun 2010

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının Direktorlar Şurasının üzvü Verner Qruberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

6 iyun 2010

Prezident İlham Əliyev ABŞ müdafiə naziri Robert Qeytsi qəbul etmişdir.

10 iyun 2010

Prezident İlham Əliyev Avropa Parlamenti Xarici Əlaqələr Komitəsi sədrinin müavini Fiorello Proveranı qəbul etmişdir.

22 iyun 2010

Prezident İlham Əliyev BMT-nin ölkəmizdə yeni rezident-əlaqələndiricisi Fikrət Akçuranı qəbul etmişdir.

Prezident İlham Əliyev Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Silvia Mayer-Kaybiçin etimadnaməsini qəbul etmişdir.

23 iyun 2010

Prezident İlham Əliyev İran İslam Respublikasının iqtisadiyyat və maliyyə naziri Seyid Şəmsəddin Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev BMT-nin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondunun (IFAD) prezidenti Kanayo Nunzeni qəbul etmişdir.

28 iyun 2010

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Per Stançinanı fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul etmişdir.

29 iyun 2010

Prezident İlham Əliyev Fransanın GDF SUEZ şirkətinin prezidenti və Baş direktorunun müavini, AVROQAZ-ın prezidenti Jan-Fransua Sirellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev BMT-nin Sənayenin İnkişafı Təşkilatının Baş direktoru Kandeh Yumkellanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Suriya Ərəb Respublikasının neft və mineral ehtiyatlar naziri, Suriya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Sufyan Alaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev Albaniya parlamentinin sədri Jozefina Topallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

30 iyun 2010

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini qəbul etmişdir.

İyul 2010

2 iyul 2010

Prezident İlham Əliyev Avropa Yayımları Birliyinin prezidenti Jan Pol Filippo Başda olmaqla Avropa Yayımları Birliyi idarə heyətinin rəhbərliyini qəbul etmişdir.

4 iyul 2010

Prezident İlham Əliyev ABŞ-ın dövlət katibi Hillari Klintonu qəbul etmişdir.

Prezident İlham Əliyev Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Allan Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

5 iyul 2010

Prezident İlham Əliyev İran İslam Respublikasının mədəniyyət və islam maarifləndirilməsi naziri Seyid Məhəmməd Hüseyninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

6 iyul 2010

Prezident İlham Əliyev bp şirkətinin icraçı direktoru Toni Heyvordu qəbul etmişdir.

Prezident İlham Əliyev İraq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Heydər Şiyə Qubeyşi Əl-Barrakın etimadnaməsini qəbul etmişdir.

7 iyul 2010

Prezident İlham Əliyev Gürcüstanın xarici işlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.

Prezident İlham Əliyev Misirin neft naziri Samih Fehminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

9 iyul 2010

Prezident İlham Əliyev Polşa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kşiştof Krayevskini diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

12 iyul 2010

Prezident İlham Əliyev Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jeno Boroşu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev Norveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yon Ramberqi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

14 iyul 2010

Prezident İlham Əliyev Latviyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixails Popkovsu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev İsveçin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hans Qunnar Adeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

15 iyul 2010

Prezident İlham Əliyev Portuqaliyanın xarici işlər naziri Luis Amadonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 iyul 2010

Prezident İlham Əliyev Ukraynanın xarici işlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

20 iyul 2010

Prezident İlham Əliyev BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Supaçay Paniçpakdini qəbul etmişdir.

Prezident İlham Əliyev İtaliyanın ENI şirkətinin icraçı direktoru Paulo Skaroninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 iyul 2010

Prezident İlham Əliyev TOTAL şirkətinin təhqiqat və istehsal üzrə prezidenti İv Lui Darrikarrerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

23 iyul 2010

Prezident İlham Əliyev Gürcüstanın Baş naziri Nika Qilaurini qəbul etmişdir.

28 iyul 2010

Prezident İlham Əliyev Türkiyənin xarici ticarət məsələləri üzrə Dövlət naziri Zəfər Çağlayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

29 iyul 2010

Prezident İlham Əliyev Sosialist İnternasionalının Baş katibi Luis Ayalanı qəbul etmişdir.

Prezident İlham Əliyev YUNESKO-nun Baş direktoru xanım İrina Bokovanı qəbul etmişdir.

Avqust 2010

9 avqust 2010

Prezident İlham Əliyev Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Jan Lukas İnayat van Hoornu diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

31 avqust 2010

Prezident İlham Əliyev Müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.

Sentyabr 2010

6 sentyabr 2010

Prezident İlham Əliyev Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Arjen Peter Uijterlindenin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

7 sentyabr 2010

Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

8 sentyabr 2010

Prezident İlham Əliyev ABŞ dövlət katibinin Cənubi Qafqaz regionu üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.

Prezident İlham Əliyev Niderland Krallığı Senatının sədri Rene Van der Lindeni qəbul etmişdir.

13 sentyabr 2010

Prezident İlham Əliyev Dünya Bankının vitse-prezidenti Filip Le Uerunu qəbul etmişdir.

Prezident İlham Əliyev Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqanı qəbul etmişdir.

15 sentyabr 2010

Prezident İlham Əliyev MDB ölkələrinin Kəşfiyyat Xidmətləri və Təhlükəsizlik Orqanları Rəhbərləri Müşavirəsinin Bakıda keçirilən XI iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul etmişdir.

28 sentyabr 2010

Prezident İlham Əliyev İran İslam Respublikasının birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə müavini Əli Ağaməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

29 sentyabr 2010

Prezident İlham Əliyev Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hardiys Baumanisin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Herbert Kvellenin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Erling Şönsberqin etimadnaməsini qəbul etmişdir.

30 sentyabr 2010

Prezident İlham Əliyev Ukraynanın yanacaq və energetika naziri Yuri Boykonu qəbul etmişdir.

Prezident İlham Əliyev Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Masamitsu Okini diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Oktyabr 2010

4 oktyabr 2010

Prezident İlham Əliyev Bakıda yəhudi məktəbinin açılışı münasibətilə respublikamıza gələn yəhudi icmalarının nümayəndələrini qəbul etmişdir.

6 oktyabr 2010

Prezident İlham Əliyev Naxçıvanda ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərini, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradkeni (ABŞ), Bernar Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

7 oktyabr 2010

Prezident İlham Əliyev bp-nin icraçı direktoru Robert Dadlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

11 oktyabr 2010

Prezident İlham Əliyev İran İslam Respublikasının müdafiə naziri Əhməd Vəhidinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev İran İslam Respublikası xarici işlər nazirinin müavini, Prezidentin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mohammad Mehdi Axundzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

12 oktyabr 2010

Prezident İlham Əliyev İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Adel Mohammad Adailehin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qais Salim Ali Al Saidin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Venesuela Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Devid Nieves Velaskes Karaballonun etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Zambiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Patrik Nailobi Sinyinzanın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Mavritaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sidi Mohamed Ould Taleb Amarın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Bosniya və Herseqovina Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dragolyub Lyepoyanın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Enrike Qarsiya Amaralın etimadnaməsini qəbul etmişdir.

16 oktyabr 2010

Prezident İlham Əliyev Rusiya Federasiyası Olimpiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin üzvü Vitali Smirnovu və Atıcılıq üzrə Avropa Konfederasiyasının sədri Vladimir Lisini qəbul etmişdir.

Prezident İlham Əliyev ATƏT PA-nın vitse-prezidenti, Azərbaycanda parlament seçkiləri üzrə ATƏT-in müşahidəçi missiyasının rəhbəri Volfqanq Qrossrukun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

19 oktyabr 2010

Prezident İlham Əliyev ABŞ-ın maliyyə katibinin müavini Stüart Livinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

20 oktyabr 2010

Prezident İlham Əliyev Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri Devid Lidinqtonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

21 oktyabr 2010

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Azərbaycanda keçiriləcək parlament seçkilərinin müşahidə olunması üzrə Xüsusi Komitəsinin Seçkiqabağı Missiyasının rəhbəri Pol Villin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

26 oktyabr 2010

Prezident İlham Əliyev Fələstin Muxtariyyətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhimin etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixal Labendanın etimadnaməsini qəbul etmişdir.

Prezident İlham Əliyev Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Şusuke Vatanabenin etimadnaməsini qəbul etmişdir.

27 oktyabr 2010

Prezident İlham Əliyev Həştərxanda ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.

28 oktyabr 2010

Prezident İlham Əliyev Kiyevdə Ukraynanın Baş naziri Nikolay Azarovu qəbul etmişdir.

Noyabr 2010

2 noyabr 2010

Prezident İlham Əliyev bp-nin icraçı vitse-prezidenti Endi İnqlisi bu vəzifədə fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir.

Prezident İlham Əliyev Türkiyə Respublikasının milli müdafiə naziri Vecdi Gönülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

5 noyabr 2010

Prezident İlham Əliyev Avropa Parlamenti seçki müşahidə missiyasının üzvlərini qəbul etmişdir.

6 noyabr 2010

Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin müavini, MDB Parlamentlərarası Assambleyanın müşahidəçilər qrupunun əlaqələndiricisi Svetlana Orlovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

8 noyabr 2010

Prezident İlham Əliyev MDB İcraiyyə Komitəsinin icraçı katibi Sergey Lebedevi qəbul etmişdir.

10 noyabr 2010

Prezident İlham Əliyev İraq Respublikasının ticarət naziri Şəfaəddin Məhəmməd Əl-Safinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

22 noyabr 2010

Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

23 noyabr 2010

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının keçmiş xarici işlər naziri, Almaniya hökumət koalisiyasına daxil olan Azad Demokrat Partiyasının fəxri sədri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

24 noyabr 2010

Prezident İlham Əliyev Polşa Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat naziri Valdemar Pavlyakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

25 noyabr 2010

Prezident İlham Əliyev Türkmənistanın Baş nazirinin müavini Xıdır Saparlıyevi qəbul etmişdir.

26 noyabr 2010

Prezident İlham Əliyev Monteneqronun xarici işlər naziri Milan Roçenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Böyük Britaniyanın Yorq Hersoqu, Şahzadə Endryunu qəbul etmişdir.

29 noyabr 2010

Prezident İlham Əliyev ABŞ-ın Alman Marşal Fondunun prezidenti Kreyq Kennedini qəbul etmişdir.

Dekabr 2010

11 dekabr 2010

Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alain Quidettini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Prezident İlham Əliyev Avstriyanın OMV şirkəti icraiyyə şurasının sədri Volfqanq Ruttenstorferin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

13 dekabr 2010

Prezident İlham Əliyev məşhur fransız aktyoru Jerar Depardyeni qəbul etmişdir.

14 dekabr 2010

Prezident İlham Əliyev Macarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jolt Çutoranın etimadnaməsini qəbul etmişdir.

MÜNDƏRİCAT

AZƏRBAYCAN İLƏ SVAZİLEND ARASINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR 3

AZƏRBAYCANIN BMT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ DAĞLIQ QARABAĞDAKI VƏZİYYƏTLƏ BAĞLI QURUMUN BAŞ KATİBİNƏ MÜRACİƏT ETMİŞDİR 3

İRAN İLƏ AZƏRBAYCAN ARASINDA VİZA REJİMİ SADƏLƏŞDİRİLİR 3

AZƏRBAYCANIN XARİCDƏ BİR NEÇƏ NÜMAYƏNDƏLİYİ AÇILACAQDIR 4

AZƏRBAYCAN İLƏ QƏTƏR ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 4

AZƏRBAYCAN İLƏ QƏTƏR ARASINDA DİPLOMATİK VƏ XÜSUSİ PASPORTLARA MALİK ŞƏXSLƏRİN VİZA TƏLƏBLƏRİNDƏN AZAD OLUNMASI HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 4

GÜRCÜSTANIN BATUMİ ŞƏHƏRİNDƏ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KONFRANS KEÇİRİLMİŞDİR 4

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 6

XARİCİ İŞLƏR NAZİRİ RİÇARD MORNİNQSTARLA GÖRÜŞMÜŞDÜR 6

ABŞ-IN VƏ NORVEÇİN AZƏRBAYCANDAKI DİPLOMATLARI XARİCİ İŞLƏR NAZİRLİYİNƏ ÇAĞIRILARAQ, ONLARA RƏSMİ BAKININ NARAZILIĞI ÇATDIRILMIŞDIR 6

AZƏRBAYCAN İLƏ LİTVA ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 7

AZƏRBAYCAN VƏ VİLNÜS TEXNİKİ UNİVERSİTETLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 7

TƏHSİL SAHƏSİNDƏ AZƏRBAYCAN-LİTVA ƏMƏKDAŞLIĞI GENİŞLƏNƏCƏKDİR 8

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR 8

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 8

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TƏHSİL NAZİRİ XANIM NİMET ÇUBUKÇUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 8

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ QƏBUL ETMİŞDİR 9

PREZİDENT İLHAM ƏLİYEV HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN-RUSİYA FORUMUNUN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 9

AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI ÜÇÜN KİV-İN ÜZƏRİNƏ BÖYÜK VƏZİFƏ DÜŞÜR 17

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA RUSİYANIN TANINMIŞ TİBB XADİMLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 17

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 18

BAKIDA HUMANİTAR ƏMƏKDAŞLIQ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN – RUSİYA FORUMU İŞƏ BAŞLAMIŞDIR 18

AZƏRBAYCAN-RUSİYA FORUMU ÇƏRÇİVƏSİNDƏ QHT SEKSİYASININ İCLASI OLMUŞDUR 30
BERNDƏ AZƏRBAYCAN VƏ İSVEÇRƏ ARASINDA TİCARƏT VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN 4-CÜ İCLASI KEÇİRİLMİŞDİR 30
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİNİ QƏBUL ETMİŞDİR 32
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 32
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ OLMUŞDUR 32
SOÇİDƏ AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ 32
SƏFƏR BAŞA ÇATDI 33
AZƏRBAYCAN VƏ KÜVEYT ARASINDA QADIN, UŞAQ VƏ AİLƏ MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ SAZİŞ İMZALANMIŞDIR 33
LONDONDA "ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN ROLU" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR 34
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ 34
PREZİDENT İLHAM ƏLİYEVİN "CHEVRON" KORPORASİYASININ VİTSE-PREZİDENTİ CEY PRİOR İLƏ GÖRÜŞÜ 34
"EDİSSON" ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ 35
PREZİDENT İLHAM ƏLİYEVİN BP ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ 35
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RWE ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞÜ 35
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN GÖRÜŞÜ 36
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "THE WALL STREET JOURNAL"A MÜSAHİBƏ VERMİŞDİR 36
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏRİ 36
PREZİDENT İLHAM ƏLİYEV "QLOBAL ENERJİ MƏNZƏRƏSİ" MÖVZUSUNDA İCLASDA İŞTİRAK ETMİŞDİR 39
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN GÖRÜŞÜ 41
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ PREZİDENTİ DORİS LOYHARDIN GÖRÜŞÜ 42
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ LEX KAÇİNSKİNİN GÖRÜŞÜ OLMUŞDUR 42
PREZİDENT İLHAM ƏLİYEVİN ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞÜ 42
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ 43
AZƏRBAYCAN PREZİDENTİ "NEFT VƏ QAZ GEOSİYASƏTİ: YENİ SƏRHƏDLƏR" MÖVZUSUNDA SAMMİTDƏ İŞTİRAK ETMİŞDİR 43

LONDONDA AZƏRBAYCANIN İŞTİRAKI İLƏ ƏFQANISTANA DAİR BEYNƏLXALQ KONFRANS KEÇİRİLİR 43
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ LONDONDA ƏFQANISTANA DAİR BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR 44
AZƏRBAYCAN İLƏ GÜRCÜSTAN ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI VƏ DEMARKASİYASI ÜZRƏ EKSPERT QRUPUNUN GÖRÜŞÜ OLACAQDIR 45
İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN PARLAMENT İTTİFAQININ UQANDADA KEÇİRİLƏN VI KONFRANSINDA "XOCALIYA ƏDALƏT" BEYNƏLXALQ KAMPANİYASINA DƏSTƏK ÇƏRÇİVƏSİNDƏ XÜSUSİ QƏTNAMƏ QƏBUL EDİLMİŞDİR 45
BAŞ NAZİR OMAN SULTANLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ MƏSUL NAZİRİNİ QƏBUL ETMİŞDİR 45
MİLLİ MƏCLİSİN SƏDRİ İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 46
XARİCİ İŞLƏR NAZİRİ OMAN SULTANLIĞININ XARİCİ İŞLƏR ÜZRƏ MƏSUL NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 47
YANACAQ-ENERGETİKA SAHƏSİNDƏ AZƏRBAYCAN-RUMİNİYA ƏMƏKDAŞLIĞININ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 47
AZƏRBAYCANIN VƏ HOLLANDİYANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏLAQƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 48
AZƏRBAYCANDA İNDONEZİYANIN SƏFİRLİYİ AÇILACAQDIR 49
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA İŞGÜZAR SƏFƏRİ 49
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ALMANİYA KANSLERİ ANGELA MERKEL NAHAR ETMİŞLƏR 49
MƏTBUATA BİRGƏ BƏYANAT 49
KANSLER ANGELA MERKELİN BƏYANATI 50
PREZİDENT İLHAM ƏLİYEVİN BƏYANATI 50
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMAN-AZƏRBAYCAN FORUMUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ 51
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞÜ 51
PREZİDENT İLHAM ƏLİYEV MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSININ "TƏBİİ SƏRVƏTLƏRİN TƏHLÜKƏSİZLİYİ VƏ DƏYİŞƏN QLOBAL GÜC" MÖVZUSUNDA MÜZAKİRƏLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR 51
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 52
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STEYNBERQ İLƏ GÖRÜŞÜ 58
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRANIN XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİ İLƏ GÖRÜŞÜ 58
SƏFƏR BAŞA ÇATDI 58
BAKIDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN SƏHİYYƏ NAZİRLƏRİNİN BİRİNCİ İCLASI İŞƏ KEÇİRİLMİŞDİR 58
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN "EURONEWS" TELEKANALINA MÜSAHİBƏSİNİN GENİŞ VERSİYASININ ŞƏRHİ 60

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV NORVEÇİN ƏDLİYYƏ VƏ POLİS NAZİRİNİ QƏBUL ETMİŞDİR 69
ƏDLİYYƏ NAZİRİ NORVEÇİN ƏDLİYYƏ VƏ POLİS NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 70
NORVEÇ KRALLIĞININ ƏDLİYYƏ VƏ POLİS NAZİRİ AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİNDƏ OLMUŞDUR 70
AZƏRBAYCAN TƏŞKİLATLARI ABŞ KONQRESMENLƏRİ İLƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ DAİR VƏZİYYƏTİ MÜZAKİRƏ ETMİŞLƏR 71
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 72
XARİCİ İŞLƏR NAZİRİ İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN İLƏ GÖRÜŞMÜŞDÜR 72
BAKIDA İKT SAHƏSİ ÜZRƏ BİRİNCİ AZƏRBAYCAN-BELARUS BİZNES FORUMU KEÇİRİLMİŞDİR 73
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİNİ QƏBUL ETMİŞDİR 73
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MALİ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SERBİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 74
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KANADANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 74
XARİCİ İŞLƏR NAZİRİ MALİ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 75
XARİCİ İŞLƏR NAZİRİ SERBİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 75
XARİCİ İŞLƏR NAZİRİ KANADANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 76
İSRAİLİN XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMAN ARDNŞ-İN HƏYATA KEÇİRDİYİ REGİONAL ENERJİ LAYİHƏLƏRİNİN ƏHƏMİYYƏTİNİ VURĞULAMIŞDIR 76
AZƏRBAYCAN İLƏ İSRAİL ARASINDA XALQ DİPLOMATİYASI YÜKSƏK SƏVİYYƏDƏDİR 77
AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLUB 78
AZƏRBAYCAN İLƏ BELARUS ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 78
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ KANAT SAUDABAYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 78
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ YOZEF MİQAŞIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 79
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ RAİMKUL ATTAKUROVUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 79

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ XUAN KLOS İ MATEONUN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 80
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN KEÇMİŞ BAŞ NAZİRİ EXUD OLMERTİ QƏBUL ETMİŞDİR 80
MİLLİ MƏCLİSİN SƏDRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 80
XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 81
XARİCİ İŞLƏR NAZİRİ İSPANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 82
XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 82
XARİCİ İŞLƏR NAZİRİ QIRĞIZISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 83
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ KONQRESİ APARATININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 83
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA PREZİDENTİNİN SƏRƏNCAMI İLƏ "ŞƏRƏF LEGİONU" ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR 84
XARİCİ İŞLƏR NAZİRİ GUAM-IN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 84
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ ALEKSANDR ŞÇIQLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 84
AZƏRBAYCAN VƏ POLŞANIN XÜSUSİ XİDMƏT ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNİR 85
XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN MİLLİ TƏHLÜKƏSİZLİK BÜROSUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 85
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ UİLYAM BÖRNSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 86
AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ POLŞADA SƏFƏRDƏ OLMUŞDUR 86
AZƏRBAYCAN VƏ İRAN PARLAMENTLƏRİNİN SƏDRLƏRİ TEHRANDA GÖRÜŞMÜŞLƏR 87
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ İRANIN TƏHLÜKƏSİZLİK ÜZRƏ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 87
AZƏRBAYCANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİ İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 88
FÖVQƏLADƏ HALLAR NAZİRİ YUNANISTANDA SƏFƏRDƏ OLUB 88
AZƏRBAYCANIN HÖKUMƏT NÜMAYƏNDƏ HEYƏTİ MACARISTANDA SƏFƏRDƏ OLMUŞDUR 89
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 90
AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 90
AZƏRBAYCAN İSLAM ÖLKƏLƏRİ ŞƏBƏKƏSİNİN ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ QƏBUL EDİLMİŞDİR 91

BMT-NİN AZƏRBAYCANDAKI REZİDENT ƏLAQƏLƏNDİRİCİSİNİN FƏALİYYƏT MÜDDƏTİ BAŞA ÇATMIŞDIR 91
AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 92
AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ UKRAYNANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ VİKTOR YANUKOVİÇİN ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR.. 92
AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA İQTİSADİ ƏLAQƏLƏR İNKİŞAF EDİR 93
AZƏRBAYCAN AVROPA ŞURASININ İNSAN ALVERİNƏ QARŞI KONVENSİYASINA QOŞULMUŞDUR 93
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZANI FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR 93
AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ MOLDOVADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMERBERQİ QƏBUL ETMİŞDİR 94
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA XALQ PARTİYASININ PREZİDENTİ VİLFRED MARTİNSİ QƏBUL ETMİŞDİR 95
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ MİGEL ANGEL MORATİNOSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 95
XARİCİ İŞLƏR NAZİRİ İSPANİYANIN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FİLİPPİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 96
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRLANDİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 97
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİVİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 97
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DANİMARKANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 98
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İQOR ŞUVALOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 98
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLANDIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ KATİBİ, NAZİRİN MÜAVİNİ ED KRONİNBURQUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 98
BAŞ NAZİR RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 99
BAŞ NAZİR BEYNƏLXALQ VALYUTA FONDUNUN MİSSİYA NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 99
XARİCİ İŞLƏR NAZİRİ NİDERLANDIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN BAŞ KATİBİ, NAZİRİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 100

XARİCİ İŞLƏR NAZİRİ LİTVA SEYMİNİN XARİCİ İŞLƏR KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 100
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA YUNİSEF-İN AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN RƏHBƏRİ MARK HERVORDLA GÖRÜŞMÜŞDÜR 101
HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İTALİYANIN SAN RAFAELO FONDUNUN VİTSE-PREZİDENTİ MARİO KAL İLƏ GÖRÜŞMÜŞDÜR.... 101
NİDERLANDIN AZƏRBAYCANDA SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR 102
XARİCİ İŞLƏR NAZİRİ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 102
AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRLİYİ İLƏ AVROPA ŞURASI ARASINDA SIX VƏ İŞGÜZAR ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ YARADILMIŞDIR 103
AZƏRBAYCAN BMT-NİN QADINLARIN VƏZİYYƏTİ ÜZRƏ KOMİSSİYASININ 54-CÜ SESSİYASINDA TƏMSİL OLUNMUŞDUR..... 104
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLUB..... 105
AZƏRBAYCAN DÖVLƏTİ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINA XÜSUSİ ÖNƏM VERİR 105
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR..... 106
MƏRKƏZİ BANKIN SƏDRİ BVF MİSSİYASININ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 106
LİVİYA-AZƏRBAYCAN BİZNES FORUMU KEÇİRİLMİŞDİR 108
LONDONDA "BÖYÜK BRİTANİYA AZƏRBAYCANDA" TİCARƏT- İNVESTİSİYA FORUMU KEÇİRİLMİŞDİR..... 108
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏRŞAD ÖMƏR İSMAYILI DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR..... 109
XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA PARLAMENTİNİN MÜDAFİƏ KOMİTƏSİNİN SƏDR MÜAVİNİ, NATO PARLAMENT ASSAMBLEYASININ SİYASİ KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 110
XARİCİ İŞLƏR NAZİRİ ASİYADA QARŞILIQLI ƏLAQƏLƏR VƏ ETİMADYARATMA TƏDBİRLƏRİNƏ DAİR KONFRANSIN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR..... 110
TÜRKİYƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN SAHİL MÜHAFİZƏSİ KOMANDANININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANA SƏFƏRDƏ..... 110
AZƏRBAYCAN-LİVİYA MÜŞTƏRƏK KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 111
POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 112
POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK FƏXRİ XİYABANI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR..... 112
POLŞANIN BAŞ NAZİRİ DONALD TUSK BİBİHEYBƏT BUXTASINDA MÜHƏNDİS PAVEL POTOTSKİNİN MƏZARINI ZİYARƏT ETMİŞDİR..... 113
AZƏRBAYCAN VƏ POLŞA BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ 113
MİLLİ MƏCLİSİN SƏDRİ POLŞANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 114
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN BAŞ NAZİRİ DONALD TUSKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 115
HÖRMƏTLİ QONAĞIN ŞƏRƏFİNƏ 116

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 116
XARİCİ İŞLƏR NAZİRİ İRAQIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 116
ARDNŞ VƏ ALMANİYANIN "RWE DEA" ŞİRKƏTİ ARASINDA QARŞILIQLI ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 117
AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İNDONEZİYA, SİNQAPUR VƏ MALAYZİYADA SƏFƏRDƏ OLMUŞDUR 117
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOREYANIN TORPAQ, NƏQLİYYAT VƏ DƏNİZ İŞLƏRİ ÜZRƏ NAZİRİ ÇANQ CONQ HOANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 118
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR 118
XARİCİ İŞLƏR NAZİRİ İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 118
AZƏRBAYCAN NƏQLİYYAT NAZİRLİYİ İLƏ KOREYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ARASINDA BAKI BUXTASI ÜZƏRİNDƏN KÖRPÜNÜN LAYİHƏLƏNDİRİLMƏSİNƏ DAİR QRANT SAZİŞİ İMZALANMIŞDIR 119
BAKIDA XƏZƏRDƏ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ SAHƏSİNDƏ QARŞILIQLI FƏALİYYƏT HAQQINDA SAZİŞİN LAYİHƏSİ MÜZAKİRƏ OLUNUR 119
XARİCİ İŞLƏR NAZİRİ QAZAXISTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 120
BAKIDA "DEMOKRATİK CƏMİYYƏTDƏ MEDİA: BEYNƏLXALQ VƏ MİLLİ TƏCRÜBƏ" MÖVZUSUNDA KONFRANS KEÇİRİLMİŞDİR 120
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BOLONYA PROSESİNƏ QOŞULMUŞ ÖLKƏLƏRİN YUBİLEY KONFRANSINDA İŞTİRAK ETMİŞDİR 122
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 123
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 123
MİLLİ MƏCLİSİN SƏDRİ ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 124
MİLLİ MƏCLİSİN SƏDRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 125
XARİCİ İŞLƏR NAZİRİ ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ JOAO SUAREŞİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 125
XARİCİ İŞLƏR NAZİRİ SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 126
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-İN MİNSK QRUPUNUN FRANSADAN OLAN HƏMSƏDRİ İLƏ TELEFON DANIŞIĞI OLMUŞDUR 126
BAKIDA AZƏRBAYCAN-SLOVAKİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 127
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ TOMAS MİROUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 128
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ SİVİLİZASİYALAR ALYANSI KATİBLİYİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 129

DÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİNİN KONFRANSI KEÇİRİLMİŞDİR 129
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ TEODOR BAKONSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 130
BAŞ NAZİR RUMINİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 130
MİLLİ MƏCLİSİN SƏDRİ RUMINİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 131
XARİCİ İŞLƏR NAZİRİ RUMINİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 132
AZƏRBAYCAN VƏ FİCİ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA BİRGƏ RƏSMİ SƏNƏD İMZALANMIŞDIR 132
RUMINİYA YANACAQ-ENERGETİKA SAHƏSİNDƏ AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR 132
BAKIDA CƏNUBİ QAFQAZDAN KEÇMƏKLƏ ƏFQANISTANA AVTOMOBİLLƏ YÜK DAŞINMASININ İNKİŞAFI ÜZRƏ İŞÇİ QRUPUNUN İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 133
BAKIDA TRANSXƏZƏR SİSTEMİNİN YARADILMASI İLƏ BAĞLI MÜŞTƏRƏK İŞÇİ QRUPUNUN NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ CORC YONQ-BUN YEONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ PREZİDENTİ ADMİNİSTRASİYASININ BAŞ KATİBİ MUSTAFA İSENİ QƏBUL ETMİŞDİR 135
BAKIDA MÜASİR STANDARTLARA CAVAB VERƏN GƏMİQAYIRMA ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ OLMUŞDUR 135
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 136
SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ CORC YONQ-BUN YEONUN ÇIXIŞI 139
XARİCİ İŞLƏR NAZİRİ SİNQAPURUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 140
OMBUDSMAN BMT-NİN BEYNƏLXALQ ƏLAQƏLƏNDİRMƏ KOMİTƏSİNİN 23-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 140
MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 141
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MOSKVADA UKRAYNALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 142
AZƏRBAYCAN VƏ RUSİYA XİN BAŞÇILARI DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ YOLLARINI MÜZAKİRƏ ETMİŞLƏR 142
RUSİYA XARİCİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN XİN BAŞÇILARI İLƏ GÖRÜŞMÜŞDÜR 142
XARİCİ İŞLƏR NAZİRİNİN İRANA SƏFƏRİ 143
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 144
XARİCİ İŞLƏR NAZİRİ BELARUS RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 144
AZƏRBAYCAN VƏ BELARUS XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR APARILMIŞDIR 144
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN ÖLKƏMİZDƏKİ APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİ QƏBUL ETMİŞDİR 145
XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 145

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QILINCOYNATMA FEDERASİYASININ PREZİDENTİ ALİŞER USMANOVU QƏBUL ETMİŞDİR 146
AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİN ANKARAYA SƏFƏRİ 146
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA BUNDESTAQININ ÜZVÜ, ÜMUMDÜNYA BƏRPA OLUNAN ENERJİ ŞURASININ HƏMSƏDRİ HERMANN ŞHEERİ QƏBUL ETMİŞDİR 150
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ESTONİYAYA DÖVLƏT SƏFƏRİ 150
TALLİNNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN TƏKBƏTƏK GÖRÜŞÜ 151
AZƏRBAYCAN VƏ ESTONİYA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR 151
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 151
DÖVLƏT BAŞÇILARI MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 152
ESTONİYA PREZİDENTİ TOOMAS HENDRİK İLVESİN BƏYANATI 152
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 152
TALLİNNDƏ MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏ ABİDƏSİNİ ZİYARƏT 154
TALLİNNİN RATUŞASI İLƏ TANIŞLIQ 154
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN BAŞ NAZİRİ ANDRUS ANSİP İLƏ GÖRÜŞMÜŞDÜR 155
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ MÜHAZİRƏ İLƏ ÇIXIŞ ETMİŞDİR 155
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 156
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYADA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SƏRGİ MƏRKƏZİNDƏ OLMUŞDUR 161
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ESTONİYANIN SABİQ DÖVLƏT BAŞÇISI ARNOLD RÜTEL İLƏ GÖRÜŞMÜŞDÜR 161
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TALLİNNDƏ "BASTİON" QADIN GEYİMLƏRİ FABRİKİNDƏ OLMUŞDUR 161
ESTONİYA PREZİDENTİNİN XANIMININ ADINDAN AZƏRBAYCANIN BİRİNCİ XANIMININ ŞƏRƏFİNƏ NAHAR VERİLMİŞDİR 162
AZƏRBAYCANIN BİRİNCİ XANIMI TALLİNN ŞƏHƏRİNİN QƏDİM HİSSƏSİ İLƏ TANIŞ OLMUŞDUR 162
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ 162
SƏFƏR BAŞA ÇATDI 162
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VYETNAMIN BAŞ NAZİRİNİN MÜAVİNİ HOANG ÇUNNG HAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 163
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MAVRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM NAHA MİNT MUKNASSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 163
BAKIDA AZƏRBAYCAN-VYETNAM BİZNES FORUMU KEÇİRİLMİŞDİR 164

BAKIDA ARDNŞ İLƏ "PETROVİETNAM" ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 165
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ FİRUDIN SİNİRLİOĞLUNU QƏBUL ETMİŞDİR 166
BAŞ NAZİR VYETNAM NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 166
XARİCİ İŞLƏR NAZİRİ MAVRİTANİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 167
XARİCİ İŞLƏR NAZİRİ VYETNAMIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 167
XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR 168
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ USMAN CAMMEHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 168
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV POLŞA RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ OLMUŞDUR 169
AZƏRBAYCAN NATO İLƏ ƏMƏKDAŞLIĞA XÜSUSİ ÖNƏM VERİR 169
MİLLİ MƏCLİSİN DEPUTATLARI NATO PA ALT KOMİTƏSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞLƏR 170
XARİCİ İŞLƏR NAZİRİ QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 171
XARİCİ İŞLƏR NAZİRİ NATO PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 171
MÜDAFİƏ NAZİRİ NATO PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 172
XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA BUNDESTAQININ DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR 172
BUXARESTDƏ AZƏRBAYCAN, GÜRCÜSTAN VƏ RUMİNİYA ARASINDA "MAYELƏŞDİRİLMİŞ TƏBİİ QAZ VƏ ONUN NƏQLİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU" İMZALANMIŞDIR 173
TƏHSİL NAZİRİ QAMBİYANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ XARİCDƏKİ QAMBİYALILAR ÜZRƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 174
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ MÖVLUD ÇAVUŞOĞLUNU QƏBUL ETMİŞDİR 175
MİLLİ MƏCLİSİN SƏDRİ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 176
XARİCİ İŞLƏR NAZİRİ AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 176
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 177
BAKIDA "RUSİYA VƏ AZƏRBAYCAN: REGİONLARARASI ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK YOLU İLƏ STRATEJİ TƏRƏFDAŞLIĞI MÖHKƏMLƏNDİRMƏYƏ DOĞRU" MÖVZUSUNDA "DƏYİRMİ MASA" KEÇİRİLMİŞDİR 178

MİLLİ MƏCLİSİN SƏDRİ ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ YIĞINCAĞININ (ÜXNY) ÇİN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 180
ÇİN AZƏRBAYCAN TORPAQLARININ İŞĞALI FAKTINI QƏTİYYƏTLƏ PİSLƏYİR 181
ÇİN DÖVLƏTİ AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR . 181
XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI İLƏ GÖRÜŞMÜŞDÜR 182
XARİCİ İŞLƏR NAZİRİ AVROPA PARLAMENTİNDƏ FİNLANDİYANIN DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR 182
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA "AZƏRBAYCANDA 2010-CU İL PARLAMENT SEÇKİLƏRİ: DAHA DEMOKRATİK, DAHA ŞƏFFAF" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 183
İTALİYA DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ AZƏRBAYCANIN KONSTRUKTİV MÖVQEYİNİ DƏSTƏKLƏYİR 191
BAKIDA "AZƏRBAYCANDA 2010-CU İL PARLAMENT SEÇKİLƏRİ: DAHA DEMOKRATİK, DAHA ŞƏFFAF" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 192
AZƏRBAYCANIN DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN RƏİSİ MDB MİQRASİYA ORQANLARI RƏHBƏRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR ... 194
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN MÜDAFİƏ NAZİRİNİN SİYASƏT ÜZRƏ MÜAVİNİ MİŞEL FLOURNOYUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 194
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BAKININ ORTA MƏKTƏBLƏRİNDƏ İNTERAKTİV SEMİNARLARA BAŞLAMIŞDIR 194
BAŞ NAZİR POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİNİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 195
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ AHMƏD DAVUDOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 195
KÜVEYT DÖVLƏTİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ AZƏRBAYCANIN HAQLI MÖVQEYİNİ MÜDAFİƏ EDİR 195
VATİKANDA AZƏRBAYCANLA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MÜZAKİRƏ OLUNMUŞDUR 196
BMT-NİN CİNAYƏTKARLIQLA MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ 12-Cİ KONQRESİ KEÇİRİLMİŞDİR 197
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ BORİS KLİMÇUKU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 198
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN RUSİYALI HƏMSƏDRİ YURİ MERZLYAKOVU FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 198
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN ABŞ-DAN OLAN HƏMSƏDRİ ROBERT BRADKENİ QƏBUL ETMİŞDİR 198
İNDONEZİYA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR 199
BEYNƏLXALQ TƏŞKİLATLARDA BİRGƏ ƏMƏKDAŞLIQ HƏR İKİ ÖLKƏNİN NÜFUZUNUN ARTMASINA XİDMƏT EDİR 200

AZƏRBAYCAN İLƏ İNDONEZİYA ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN BÖYÜK İMKANLAR VARDIR 200
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 201
BAŞ NAZİR PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİ İLƏ GÖRÜŞMÜŞDÜR 201
MÜDAFİƏ NAZİRİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ SƏYİD ƏTHAR ƏLİ İLƏ GÖRÜŞMÜŞDÜR 202
XARİCİ İŞLƏR NAZİRİ İNDONEZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 202
XARİCİ İŞLƏR NAZİRİ UKRAYNANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 203
XARİCİ İŞLƏR NAZİRİ ALMANİYANIN BAVARİYA FEDERAL TORPAĞININ FEDERAL VƏ AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR ... 203
ARDNŞ VƏ BAVARİYA ŞİRKƏTLƏRİ ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 204
AZƏRBAYCAN İLƏ İNDONEZİYANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN MÖVCUD POTENSİALDAN İSTİFADƏ EDİLMƏLİDİR 204
SƏHİYYƏ NAZİRİ ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 205
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 205
MÜDAFİƏ SƏNAYESİ NAZİRİ PAKİSTANIN MÜDAFİƏ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR .. 206
"STANDART CHARTERED BANK" ARDNŞ İLƏ NEFT-QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIR 206
ARDNŞ-DƏ LİVİYANIN "TAMOİL" ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR 207
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLLİ QƏBUL ETMİŞDİR 207
BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN SAMMİTİ KEÇİRİLİR 209
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 210
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KÜVEYTİN İSLAM İŞLƏRİ VƏ VƏQF NAZİRİNİN MÜAVİNİ ADEL ABDULLA ƏL-FƏLƏHİ QƏBUL ETMİŞDİR 221
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÜTÜN ERMƏNİLƏRİN KATOLİKOSU II QAREGİNİ QƏBUL ETMİŞDİR 222
DÜNYA DİNİ LİDERLƏRİNİN BAKI SAMMİTİNİN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL TƏŞKİL OLUNMUŞDUR 222
BAKIDA RUSİYA VƏ QAFQAZ DİNİ LİDERLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 222
BAKIDA YUNESKO YANINDA DİN XADİMLƏRİNİN MƏŞVƏRƏT QRUPUNUN İLK İCLASI KEÇİRİLMİŞDİR 223
AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN OLUNMASI İRAN İSLAM RESPUBLİKASI ÜÇÜN BÖYÜK ƏHƏMİYYƏT KƏSB EDİR 224
NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ İRAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ 224

XARİCİ İŞLƏR NAZİRİ FRANSANIN XARİCİ İŞLƏR NAZİRLİYİNİN KONTİNENTAL AVROPA QAFQAZ İDARƏSİNİN RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 226
AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ XİN-DƏ OLMUŞLAR 226
DÖVLƏT STATİSTİKA KOMİTƏSİNDƏ AZƏRBAYCAN, ALMANİYA VƏ BOLQARISTAN ARASINDA ÜÇTƏRƏFLİ GÖRÜŞ KEÇİRİLMİŞDİR 226
BAKIDA AZƏRBAYCAN-İTALİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 227
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STAVROPOL VİLAYƏTİNİN QUBERNATORU VALERİ QAYEVSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 229
DÜNYA DİNİ LİDERLƏRİNİN BAKI SAMMİTİ YEKUN BƏYANNAMƏNİN QƏBUL OLUNMASI İLƏ BAŞA ÇATMIŞDIR 229
XARİCİ İŞLƏR NAZİRİ İRAN-AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 230
XARİCİ İŞLƏR NAZİRİ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİNİN KÖMƏKÇİSİ, MDB ÖLKƏLƏRİ İLƏ TEXNİKİ ƏMƏKDAŞLIQ ÜZRƏ MİSİR FONDUNUN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 230
AZƏRBAYCANLI DİPLOMAT NYU-YORK UNİVERSİTETİNDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI MÜHAZİRƏ OXUMUŞDUR 231
BAKIDA AZƏRBAYCAN-RUSİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 231
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ MİSİRİN MDB ÖLKƏLƏRİ İLƏ TEXNİKİ ƏMƏKDAŞLIQ FONDUNUN SƏDRİ SAMAH SETOHİ İLƏ GÖRÜŞMÜŞDÜR 233
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV KOREYA RESPUBLİKASININ MİLLİ ASSAMBLEYASININ ÜZVÜ SANQ DİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 233
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ƏLCƏZAİRİN DİNİ İŞLƏR VƏ VƏQFLƏR NAZİRİ BUABDULLA QULAMULLANI QƏBUL ETMİŞDİR 233
BAKIDA "AITF-2010" IX AZƏRBAYCAN BEYNƏLXALQ TURİZM VƏ SƏYAHƏTLƏR SƏRGİSİ İŞƏ BAŞLAMIŞDIR 234
ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ İLƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ YOLLARINI MÜZAKİRƏ ETMİŞDİR 236
AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ RUSİYA FEDERASİYASI STAVROPOL VİLAYƏTİ HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 236
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA PARİSDƏ YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA İLƏ GÖRÜŞMÜŞDÜR 237
KOREYA RESPUBLİKASININ ŞİRKƏTLƏRİ EKOLOJİ LAYİHƏLƏR, MAYE VƏ SIXILMIŞ QAZ, NEFT-KİMYA SAHƏLƏRİNDƏ ARDNŞ İLƏ ƏMƏKDAŞLIQDA MARAQLIDIRLAR 238
TÜRKİYƏNİN YILDIZ TEXNİKİ UNİVERSİTETİ İLƏ BAKI DÖVLƏT UNİVERSİTETİ ARASINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 238
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İTALİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 239
KOREYA RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ NƏQLİYYAT NAZİRLİYİNDƏ OLMUŞDUR 239
TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN NÜMAYƏNDƏLƏRİ TƏHSİL NAZİRLİYİNDƏ OLMUŞLAR 240

STAVROPOL VİLAYƏTİNİN QUBERNATORU BAKI SLAVYAN UNİVERSİTETİNDƏ OLMUŞDUR 240
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI TÜRKİYƏNİN APARICI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN TƏCRÜBƏSİNİ ÖYRƏNİR 241
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ BERLİNDƏ KEÇİRİLMİŞ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR 242
ATƏT NÜMAYƏNDƏLƏRİ DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ OLMUŞLAR 242
BERLİNDƏ "CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ: AZƏRBAYCANDAN BAXIŞ" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLMİŞDİR 243
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN DAXİLİ İŞLƏR NAZİRİ MUSTAFA MƏHƏMMƏD NƏCCARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 244
DAXİLİ İŞLƏR NAZİRİ İRANIN DAXİLİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 244
MİLLİ TƏHLÜKƏSİZLİK NAZİRİ İRANIN DAXİLİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 245
DAŞKƏNDDƏ ASİYA İNKİŞAF BANKI DİREKTORLAR ŞURASININ 43-CÜ İLLİK İCLASININ RƏSMİ AÇILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 246
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELARUS BAŞ NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-BELARUS HÖKUMƏTLƏRARASI TİCARƏT- İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ KOMİSSİYANIN HƏMSƏDRİ ANDREY KOBYOKOVU QƏBUL ETMİŞDİR 246
BAKIDA İKİNCİ BELARUS MİLLİ SƏRGİSİ KEÇİRİLİR 247
MİLLİ MƏCLİSİN SƏDRİ İTALİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 248
DAŞKƏNDDƏ KEÇİRİLƏN AİB DİREKTORLAR ŞURASININ 43-CÜ İLLİK İCLASI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANIN MALİYYƏ NAZİRİ BANKIN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 249
TƏL-ƏVİVDƏ "ÖN ASİYA: KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ VƏ REGİONAL MÜNAQİŞƏLƏR" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS KEÇİRİLİR 250
İSRAİL VƏ AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 250
"İSRAİL BİZİM EVİMİZDİR" PARTİYASI QONDARMA "ERMƏNİ SOYQIRIMI" MƏSƏLƏSİNİN KNESSETDƏ MÜZAKİRƏ EDİLMƏSİNİN ƏLEYHİNƏDİR 251
AZƏRBAYCAN-İSRAİL ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA DİASPOR TƏŞKİLATLARI MÜHÜM ROL OYNAYIR 251
İSRAİLİN HADERA ŞƏHƏRİNDƏ AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN XİYABANIN AÇILIŞI OLMUŞDUR 252
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR 254
İSTANBULDA AVRASİYA DÖVLƏTLƏRİ XIII İQTİSADİ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 254
OMAN DİPLOMATİK İNSTİTUTUNUN BAŞ DİREKTORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞDUR 256
TƏHSİL NAZİRİ NORVEÇİN XARİCİ İŞLƏR NAZİRLİYİNİN MDB ÖLKƏLƏRİ ÜZRƏ ŞÖBƏSİNİN DİREKTOR MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 256
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA İŞGÜZAR SƏFƏRİ 257
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVADA BÖYÜK QƏLƏBƏNİN 65 İLLİYİNƏ HƏSR OLUNMUŞ ŞƏNLİKLƏRDƏ İŞTİRAK ETMİŞDİR 257

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XORVATİYA PREZİDENTİ İVO YOSİPOVİÇİN GÖRÜŞÜ 259
SƏFƏR BAŞA ÇATDI 259
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOVU QƏBUL ETMİŞDİR 259
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKANI QƏBUL ETMİŞDİR 260
RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ-TEXNİKİ SAHƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 260
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏ PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 260
MİLLİ MƏCLİSİN SƏDRİ İSVEÇRƏ PARLAMENTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR .. 260
İSVEÇRƏLİ İŞ ADAMLARI AZƏRBAYCANIN ETİBARLI TƏRƏFDAŞ KİMİ TRANSADRİATİK QAZ BORU KƏMƏRİ LAYİHƏSİNDƏ İŞTİRAK ETMƏSİNDƏ MARAQLIDIRLAR 261
AZƏRBAYCAN İLƏ FİNLANDİYA ARASINDA GÖMRÜK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ YÜKSƏLƏN XƏTLƏ İNKİŞAF EDİR 262
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR .. 264
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 264
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 264
AQUPDK-DA YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU STİVEN ALLENLƏ GÖRÜŞ OLMUŞDUR 264
MİLLİ MƏCLİS SƏDRİNİN MÜAVİNİ YUNİSEF-İN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA, MDB ÖLKƏLƏRİ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 265
İSVEÇRƏ AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞIN DAHA DA İNKİŞAF ETDİRİLMƏSİNDƏ MARAQLIDIR 266
AZƏRBAYCAN İLƏ İSVEÇRƏ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 267
ARDNF-DƏ İSVEÇRƏ PARLAMENTİNİN İSVEÇRƏ-AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN ÜZVLƏRİ VƏ İŞ ADAMLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR 268
AZƏRBAYCANLA İSVEÇRƏ ARASINDA SƏHİYYƏ SAHƏSİNDƏ TƏCRÜBƏ MÜBADİLƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR 268
SERBİYA PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 268
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 269
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 269
RƏSMİ QARŞILANMA MƏRASİMİ 269
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SERBİYA PREZİDENTİ BORİS TADİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 270
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 270
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 271

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 272
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 274
SERBİYA PREZİDENTİ BORİS TADİÇİN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ 275
SERBİYA PREZİDENTİ BORİS TADİÇ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 275
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 276
SƏFƏR BAŞA ÇATDI 277
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA GÜRCÜSTANIN BİRİNCİ XANIMI SANDRA ELİZABET RULOFS İLƏ GÖRÜŞMÜŞDÜR 277
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN DOSTLUQ MÜNASİBƏTLƏRİ PARLAMENTLƏRİMİZ VƏ DEPUTATLARIMIZ ÜÇÜN DƏ ÖNƏMLİDİR 277
GÜRCÜSTAN PREZİDENTİNİN XANIMI SƏHİYYƏ NAZİRLİYİNDƏ OLMUŞDUR 278
YUNİSEF-İN REGİONAL DİREKTORU OMBUDSMAN APARATINDA OLMUŞDUR 279
TƏHSİL NAZİRLİYİ İLƏ YUNİSEF ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 279
YUNİSEF-İN REGİONAL DİREKTORU ƏDLİYYƏ NAZİRLİYİNDƏ OLMUŞDUR 280
ÇEXİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR 281
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BƏYANAT YAYMIŞLAR 281
BAKIDA AZƏRBAYCAN-SERBİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 281
AZƏRBAYCAN MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN TƏMSİL OLUNDUĞU "SOFEX -2010" BEYNƏLXALQ SƏRGİSİ BAŞA ÇATMIŞDIR 282
BAKIDA İSLAM DÜNYASI UNİVERSİTETLƏRİ FEDERASİYASININ V BAŞ KONFRANSI KEÇİRİLMİŞDİR 283
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ YAN KOHOUTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 284
BAŞ NAZİR ÇEXİYA XİN-İN BAŞÇISI İLƏ GÖRÜŞMÜŞDÜR 284
XARİCİ İŞLƏR NAZİRİ ÇEXİYANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 285
XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ STRASBURQDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 286
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 286
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA YUNİSEF-İN REGİONAL DİREKTORU STİVEN ALLEN İLƏ GÖRÜŞMÜŞDÜR 287
OMBUDSMAN VYANADA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 288
TƏHSİL NAZİRİ VƏ İRANIN AZAD İSLAM UNİVERSİTETİNİN REKTORU MÜVAFİQ SAHƏ ÜZRƏ MÜZAKİRƏLƏR APARMIŞLAR 288
İORDANİYA KRALI II ABDULLAHIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 289
RƏSMİ QARŞILANMA MƏRASİMİ 289
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ 289

AZƏRBAYCANIN VƏ İORDANİYANIN DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ OLMUŞDUR 289
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN MƏTBUAT ÜÇÜN BƏYANATLARI 291
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 293
İORDANİYA KRALI II ABDULLAHIN AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞÜ 293
İORDANİYA KRALI II ABDULLAH AZƏRBAYCAN MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN ELEKTRON HESABLAYICI MAŞINLAR ZAVODUNDA İSTEHSAL EDİLMİŞ SİLAH-SURSAT VƏ HƏRBİ TEXNİKA İLƏ TANIŞ OLMUŞDUR 293
SƏFƏR BAŞA ÇATDI 294
AZƏRBAYCAN RESPUBLİKASI VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞI ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏLƏRİ İMZALANMIŞDIR 294
ABŞ MİLLİ MÜHARİBƏ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞDUR 294
ATƏT MƏKANINDA SÜLHÜN BƏRQƏRAR OLMASI ÜÇÜN QURUMA ÜZV ÖLKƏLƏR VƏ DİGƏR BEYNƏLXALQ TƏŞKİLATLARIN GÖTÜRDÜYÜ ÖHDƏLİKLƏRİN YERİNƏ YETİRİLMƏSİ MEXANİZMLƏRİNİ HAZIRLAMAĞIN VAXTI ÇOXDAN ÇATMIŞDIR. 295
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 296
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 296
TÜRK ƏSGƏRLƏRİNİN XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT 297
RƏSMİ QARŞILANMA MƏRASİMİ 297
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN TƏKBƏTƏK GÖRÜŞÜ 297
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 298
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN MƏTBUAT KONFRANSI 299
BAKIDA TÜRKİYƏ RESPUBLİKASININ BANİSİ MUSTAFA KAMAL ATATÜRKÜN ABİDƏSİ AÇILMIŞDIR 304
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 304
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN NİTQİ 307
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN FİLARMONİYA BAĞINDA OLMUŞLAR 308
AZƏRBAYCAN PREZİDENTİNİN VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMLARI DƏNİZKƏNARI MİLLİ PARKI GƏZMİŞLƏR 309
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMI ƏMİNƏ ƏRDOĞAN TALASSEMİYA MƏRKƏZİNDƏ OLMUŞLAR 309
SƏFƏR BAŞA ÇATDI 310
TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NAZİRLƏRİ ƏMƏKDAŞLIĞA DAİR YENİ PROTOKOL İMZALAMIŞLAR 310
DÜNYA ƏRZAQ PROQRAMI AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİNİN FƏALİYYƏTİNİN DAVAM ETDİRİLMƏSİNDƏ MARAQLIDIR 311
BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİ AZƏRBAYCANDA DOZİMETRİK LABORATORİYA YARADACAQDIR 312

XARİCİ İŞLƏR NAZİRİ ÇİNİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 312
AMEA İLƏ İSPANİYANIN BASK ÖLKƏSİ UNİVERSİTETİ ARASINDA ELMİ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR 313
AMEA İLƏ BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİ ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 313
ABŞ MÜDAFİƏ NAZİRLİYİNİN YÜKSƏK RÜTBƏLİ ZABİTLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ OLMUŞDUR 314
YAPONİYA-AZƏRBAYCAN İNVESTİSİYA FORUMU KEÇİRİLMİŞDİR 314
TOKİODA AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ VƏ YAPONİYA- AZƏRBAYCAN İQTİSADİ KOMİTƏSİNİN VI BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR 315
BAKIDA NATO-NUN ALİ MÜLKİ FÖVQƏLADƏ PLANLAMA KOMİTƏSİNİN GENİŞ İCLASI KEÇİRİLİR 316
İSLAM KONFRANSI TƏŞKİLATI İLƏ ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN PRİORİTETLƏRİNDƏN BİRİDİR 317
İSLAM KONFRANSI GƏNCLƏR FORUMUNUN AVRASİYA REGİONAL MƏRKƏZİ BAKIDA FƏALİYYƏT GÖSTƏRƏCƏKDİR 318
TACİKİSTANDA SƏFƏRDƏ OLAN AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ BİR SIRA ÖLKƏLƏRİN DÖVLƏT RƏSMİLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 319
AZƏRBAYCAN İLƏ ƏFQANISTAN ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 319
RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNDƏ ATİB İDARƏ HEYƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 320
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏLAQƏLƏR DAHA DA GENİŞLƏNDİRİLƏCƏKDİR 321
İSLAM KONFRANSI TƏŞKİLATININ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASI XOCALI FACİƏSİNİ İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ CİNAYƏT KİMİ TANIMIŞDIR 321
SƏNAYE VƏ ENERGETİKA NAZİRİ QAZAXISTANIN MANGİSTAU ƏYALƏTİNİN QUBERNATORU İLƏ GÖRÜŞMÜŞDÜR 322
AZƏRBAYCAN VƏ AVSTRİYANIN GÖMRÜK ORQANLARI ARASINDA ƏMƏKDAŞLIQ İMKANLARI MÜZAKİRƏ EDİLMİŞDİR 323
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ REKTORU YENİ MAGİSTRLƏRLƏ GÖRÜŞMÜŞDÜR 323
İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏR ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜ PİSLƏYİR VƏ DÜNYA İCTİMAİYYƏTİNİ BU MƏSƏLƏYƏ DİQQƏT YETİRMƏYƏ ÇAĞIRIR 324
SƏHİYYƏ NAZİRİ DÜNYA SƏHİYYƏ ASSAMBLEYASININ 63-CÜ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 324
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 325
AZƏRBAYCAN BMT-NİN SESSİYASINDA GENİŞ TƏRKİBLİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ TƏMSİL OLUNMUŞDUR 326
KÜVEYT DÖVLƏTİNİN DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MÜLKİ MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLMUŞDUR 327
TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ SƏDRİNİN MÜAVİNİ NEVZAT PAKTİLİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI BAŞ KATİBİNİN

MÜAVİNİ XANIM MOD DE BUR BUKİKKİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MƏCBURİ KÖÇKÜNLƏRİN İNSAN HÜQUQLARI ÜZRƏ NÜMAYƏNDƏSİ VALTER KALİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 328
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ MİGİRONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 329
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 329
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD ABUL GEYTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 330
AVROPA ŞURASINA ÜZV DÖVLƏTLƏRİN GENDER BƏRABƏRLİYİNƏ HƏSR OLUNMUŞ VII KONFRANSININ İŞTİRAKÇILARINA 331
BAKIDA AVROPA ŞURASININ QADINLAR VƏ KİŞİLƏR ARASINDA BƏRABƏRLİK MƏSƏLƏLƏRİNƏ MƏSUL NAZİRLƏRİN VII KONFRANSI KEÇİRİLİR 332
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ MOD DE BUR BUKİKKİO İLƏ GÖRÜŞMÜŞDÜR 337
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BMT-NİN BAŞ KATİBİNİN MÜAVİNİ XANIM AŞA ROUZ MİGİRO İLƏ GÖRÜŞMÜŞDÜR 338
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 338
DAĞISTAN PREZİDENTİ MAQOMEDSALAM MAQOMEDOVUN AZƏRBAYCANA SƏFƏRİ 339
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ EHTİRAM 339
ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT 339
DAĞISTAN PREZİDENTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 339
AZƏRBAYCAN VƏ DAĞISTAN İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR 340
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 341
DAĞISTAN PREZİDENTİ BAKININ GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞ OLMUŞDUR 342
AZƏRBAYCAN NAZİRLƏR KABİNETİNDƏ MİSİRİN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 342
AZƏRBAYCAN İLƏ MİSİR ARASINDA ÜÇ SAZİŞ İMZALANMIŞDIR 343
BELÇİKA KRALLIĞI SENATININ FƏXRİ PREZİDENTİ, MÜDAFİƏ VƏ XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ SƏDRİ QUBA MƏZARLIĞINI ZİYARƏT ETMİŞ, ERMƏNİ VƏHŞİLİKLƏRİNDƏN DƏHŞƏTƏ GƏLDİYİNİ SÖYLƏMİŞDİR 343
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ KEÇİRİLƏN QONDARMA "SEÇKİLƏR"LƏ BAĞLI BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 344
MDB ÖLKƏLƏRİ BAŞ PROKURORLARININ ƏLAQƏLƏNDİRMƏ ŞURASI AZƏRBAYCANLA ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR 344
BAKIDA "TBMM - 90 İL, PARLAMENT DİPLOMATİYASI - TÜRKPA" BEYNƏLXALQ KONFRANSI KEÇİRİLMİŞDİR 345
MİLLİ MƏCLİSİN YENİ İNŞA OLUNMUŞ İNZİBATİ BİNASINDA TÜRKPA-NIN KATİBLİYİNƏ OFİS ÜÇÜN YER AYRILMASI BU QURUMA VERİLƏN BÖYÜK ƏHƏMİYYƏTİN BARİZ NÜMUNƏSİDİR 346

AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI DEMOKRATİK CƏMİYYƏTİN FORMALAŞMASINDA, İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASINDA DA ÖZÜNÜ GÖSTƏRİR 347
AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ YÜKSƏK SƏVİYYƏDƏ QORUNMASI, BU SAHƏ İLƏ ƏLAQƏDAR QANUNLARIN QƏBULU, BEYNƏLXALQ KONVENSİYALARIN TƏSDİQİ TƏQDİRƏLAYİQDİR 348
AZƏRBAYCANIN ALİ MƏHKƏMƏSİNİN SƏDRİ AVROPA ŞURASI İNSAN HÜQUQLARI VƏ HÜQUQİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 349
AVROPA ŞURASI İLƏ AZƏRBAYCAN ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ DAVAM EDİR 349
ŞƏRQ TƏRƏFDAŞLIĞI XARİCİ İŞLƏR NAZİRLƏRİNİN POLŞADA KEÇİRİLƏN QEYRİ-RƏSMİ İCLASINDA AZƏRBAYCAN DA TƏMSİL OLUNMUŞDUR 350
BAKIDA AVROPA ŞURASININ QADINLAR VƏ KİŞİLƏR ARASINDA BƏRABƏRLİK MƏSƏLƏLƏRİNƏ MƏSUL NAZİRLƏRİNİN VII KONFRANSI BAŞA ÇATMIŞDIR 351
AZƏRBAYCANIN AVROPA ŞURASI İLƏ ƏMƏKDAŞLIĞI UĞURLA İNKİŞAF EDİR 353
XARİCİ İŞLƏR NAZİRİ BELÇİKA KRALLIĞININ SENATORU, SENATIN FƏXRİ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 354
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ BELÇİKA SENATORU İLƏ GÖRÜŞMÜŞDÜR 354
DAĞISTAN PREZİDENTİ AZƏRBAYCANIN ZAQATALA, ŞƏKİ VƏ QƏBƏLƏ RAYONLARINDA SƏFƏRDƏ OLMUŞDUR 355
VİLNÜSDƏ İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ LİTVA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ BİRİNCİ İCLASI KEÇİRİLMİŞDİR 357
AZƏRBAYCANIN DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏİSİ TÜRKİYƏ JANDARMA QÜVVƏLƏRİNİN QƏRARGAH RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 357
AZƏRBAYCANIN SƏHİYYƏ NAZİRLİYİ İLƏ VİŞNEVSKAYA- ROSTROPOVİÇ FONDU ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR 358
MOSKVADA AZƏRBAYCAN VƏ RUSİYA MÜDAFİƏ NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR 358
AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRİ TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN QƏRARGAH RƏİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 358
ÇİN XALQ RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İQTİSADİ İNKİŞAF NAZİRLİYİNDƏ OLMUŞDUR 359
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMI MƏZUNLARININ BURAXILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 360
SOFİYADA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 22-Cİ İCLASI KEÇİRİLMİŞDİR 360
BMT-NİN SİVİLİZASİYALARARASI ALYANSININ III QLOBAL FORUMUNDA ÇOXSAYLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 361
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇİNİN MƏRKƏZİ BANKININ SƏDRİ ÇJOU SYAOÇUANI QƏBUL ETMİŞDİR 362
XARİCİ İŞLƏR NAZİRİ ABŞ-IN MÜDAFİƏ NAZİRİNİN RUSİYA, UKRAYNA VƏ AVRASİYA ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 362
XARİCİ İŞLƏR NAZİRİ ALMANİYA FEDERATİV RESPUBLİKASININ BUNDESTAQININ DEPUTATI İLƏ GÖRÜŞMÜŞDÜR 363

AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ABŞ-IN MÜDAFİƏ KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 363
MOSKVADA RUSİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI KOMİSSİYASININ İCLASI OLMUŞDUR 364
ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 364
AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏMƏK, MƏŞĞULLUQ VƏ SOSİAL MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR 365
ÇİN XALQ RESPUBLİKASI İLƏ AZƏRBAYCANIN BANK SEKTORLARI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 366
BAKIDA XVII BEYNƏLXALQ XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA, NEFT KİMYASI SƏRGİ VƏ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR 367
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 368
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 373
BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARLIĞININ NÜMAYƏNDƏSİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 374
AZƏRBAYCAN VƏ QAZAXISTANIN DÖVLƏT NEFT ŞİRKƏTLƏRİ ARASINDA UĞURLU ƏMƏKDAŞLIQ BUNDAN SONRA DA XALQLARIMIZIN RİFAHININ YÜKSƏLMƏSİNƏ XİDMƏT EDƏCƏKDİR 374
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ DİREKTORLAR ŞURASININ ÜZVÜ VERNER QRUBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 375
XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNİN AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ ELÇİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 375
BAKIDA TİCARİ-İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ AZƏRBAYCAN- BELARUS HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN VI İCLASI KEÇİRİLMİŞDİR 376
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI BÖYÜK BRİTANİYANIN QLAZQO UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ İMZALAMIŞDIR 377
BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR 377
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 378
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 378
RƏSMİ QARŞILANMA MƏRASİMİ 378
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 379
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 379
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 380
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 381
PREZİDENTLƏR İLHAM ƏLİYEV VƏ ALEKSANDR LUKAŞENKO BELARUSUN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ İNZİBATİ BİNASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞLƏR 382
BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 383
BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKO BAKI SLAVYAN UNİVERSİTETİNDƏ OLMUŞDUR 383

SƏFƏR BAŞA ÇATDI 385
BELARUS DÖVLƏT NƏZARƏT KOMİTƏSİNİN SƏDRİ AZƏRBAYCANIN HESABLAMA PALATASINDA OLMUŞDUR 385
MƏRKƏZİ BANK İLƏ AYİB ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 386
İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN NÖVBƏTİ İLLİK XEYRİYYƏ TƏDBİRİ KEÇİRİLMİŞDİR 386
MİLLİ MƏCLİSİN SƏDRİ MOSKVADA SƏFƏRDƏ OLMUŞDUR 387
QƏTƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ BAŞA ÇATMIŞDIR 390
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ KEÇİRDİKLƏRİ GÖRÜŞLƏ ƏLAQƏDAR AÇIQLAMA YAYMIŞLAR 390
AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUQ ORQANLARININ NÜMAYƏNDƏ HEYƏTİ KAZANDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 390
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI VAŞİNQTONDA SEMİNAR KEÇİRMİŞDİR 391
AZƏRBAYCAN VENESİYA KOMİSSİYASI İLƏ ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR 392
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 393
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİ ROBERT QEYTSİ QƏBUL ETMİŞDİR 393
İSLAM KONFRANSI TƏŞKİLATININ İCRAİYYƏ KOMİTƏSİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏVİYYƏSİNDƏ FÖVQƏLADƏ İCLASI KEÇİRİLMİŞDİR 394
MÜDAFİƏ NAZİRİ ABŞ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 394
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 395
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 395
AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ 396
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAKEDONİYA PREZİDENTİ GYORGE İVANOVUN GÖRÜŞÜ 396
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 397
TÜRKİYƏ VƏ AZƏRBAYCANIN ENERJİ NAZİRLƏRİ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 397
İSTANBULDA ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN ÜÇÜNCÜ ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 398
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 398
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYANIN BAŞ NAZİRİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN GÖRÜŞÜ 401
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN GÖRÜŞÜ 402

BİRGƏ ŞAM YEMƏYİ 403
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 403
DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜ PRİNSİPİNƏ UYĞUN HƏLL OLUNMALIDIR 403
AZƏRBAYCANDA DÖVLƏTİN, PARLAMENTİN VƏ DİNİN VƏHDƏT TƏŞKİL ETMƏSİ ÇOX MÜHÜM ƏHƏMİYYƏTƏ MALİKDİR 404
AZƏRBAYCAN VƏ BƏƏ ARASINDA DİPLOMATİK PASPORTLARA MALİK OLAN ŞƏXSLƏRİN GİRİŞ VİZASINDAN AZAD EDİLMƏSİ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 405
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İORDANİYADA SƏFƏRDƏ OLMUŞDUR 406
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ FİORELLO PROVERANI QƏBUL ETMİŞDİR 407
XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 407
XARİCİ İŞLƏR NAZİRİ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 407
XARİCİ İŞLƏR NAZİRİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN (BƏƏ) XARİCİ İŞLƏR NAZİRİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 408
"STRATFOR" ARAŞDIRMALAR MƏRKƏZİNİN PREZİDENTİ CORC FRİDMAN AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA ÇIXIŞ ETMİŞDİR 408
AZƏRBAYCAN ABŞ ÜÇÜN MÜHÜM ƏHƏMİYYƏT KƏSB EDƏN ÖLKƏDİR 409
AZƏRBAYCAN VƏ HİNDİSTAN ARASINDA HÜQUQİ ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏLƏRİN LAYİHƏLƏRİ RAZILAŞDIRILMIŞDIR 410
XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN AZƏRBAYCAN ÜZRƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ İLƏ GÖRÜŞMÜŞDÜR 410
XARİCİ İŞLƏR NAZİRİ ABŞ-IN SABİQ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 410
XARİCİ İŞLƏR NAZİRİ PAKİSTANDA SƏFƏRDƏ OLMUŞDUR 411
BAŞ NAZİR ÇXR KP MK SİYASİ BÜROSU DAİMİ KOMİTƏSİNİN ÜZVÜ İLƏ GÖRÜŞMÜŞDÜR 412
MİLLİ MƏCLİSİN SƏDRİ ÇXR KP MK SİYASİ BÜROSU DAİMİ KOMİTƏSİNİN ÜZVÜ İLƏ GÖRÜŞMÜŞDÜR 413
MÜDAFİƏ NAZİRİ NATO BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 414
AZƏRBAYCAN İLƏ NATO ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFI İLƏ BAĞLI MƏSƏLƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 415
AZƏRBAYCAN NATO-NUN SÜLHYARATMA MİSSİYASINDA FƏAL İŞTİRAK EDİR 415
AZƏRBAYCAN İLƏ VATİKAN ARASINDA ƏLAQƏLƏR YÜKSƏK SƏVİYYƏDƏ DAVAM ETDİRİLƏCƏKDİR 416
AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ MƏRAKEŞ KRALLIĞINDA SƏFƏRDƏ OLMUŞDUR 417
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ 418
SANKT-PETERBURQDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 418

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 418
SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ MİLLİ MƏCLİSDƏ OLMUŞDUR 418
VATİKANIN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ, ARXİYEPİSKOP CANFRANKO RAVAZİ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ OLMUŞDUR 420
BAŞ NAZİR VATİKANIN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 420
AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRİ NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 421
OMBUDSMANLARIN VIII BAKI BEYNƏLXALQ KONFRANSI İŞƏ BAŞLAMIŞDIR 421
BAŞ NAZİR SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 422
XARİCİ İŞLƏR NAZİRİ SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI ŞURA MƏCLİSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 423
BAKIDA OMBUDSMANLARIN VIII BEYNƏLXALQ KONFRANSI DAVAM EDİR 424
AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ ƏLDƏ OLUNMUŞ NAİLİYYƏTLƏR BİRGƏ FƏALİYYƏTİN NƏTİCƏSİDİR 424
OMBUDSMANLARIN BEYNƏLXALQ KONFRANSINDA BAKI BƏYANNAMƏSİ QƏBUL EDİLMİŞDİR 425
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ÖLKƏMİZDƏ YENİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURANI QƏBUL ETMİŞDİR 426
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ SİLVİA MAYER-KAYBİÇİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 426
BAŞ NAZİR KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ FONDUN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 426
AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İFAD ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR 427
BAKIDA İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-Cİ İLLİK TOPLANTISININ AÇILIŞ MƏRASİMİ OLMUŞDUR 427
İSLAM İNKİŞAF BANKI QRUPUNUN 35-Cİ İLLİK TOPLANTISININ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 432
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ MİXAEL ŞPİNDELEQGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 437
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN İQTİSADİYYAT VƏ MALİYYƏ NAZİRİ SEYİD ŞƏMSƏDDİN HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 437
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ FONDUNUN (İFAD) PREZİDENTİ KANAYO NUNZENİ QƏBUL ETMİŞDİR 438
BAŞ NAZİR AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 438
XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 439

AZƏRBAYCAN VƏ AVSTRİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SAZİŞ İMZALANMIŞDIR 440
AVSTRİYANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR 440
AVSTRİYA ŞİRKƏTLƏRİ ARDNŞ-İN HƏYATA KEÇİRDİYİ LAYİHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ETMƏKDƏ MARAQLIDIRLAR 441
ADU-DA AVSTRİYA KİTABXANASININ AÇILMASI ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRİN İNKİŞAFINA BÖYÜK TÖHFƏ VERƏCƏKDİR 441
AZƏRBAYCAN YUNESKO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİTƏSİNİN 2010-2014-CÜ İLLƏR ÜZRƏ ÜZVÜ SEÇİLMİŞDİR 442
XARİCİ İŞLƏR NAZİRİ İRAQIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 443
XARİCİ İŞLƏR NAZİRİ AVSTRİYA-AZƏRBAYCAN TİCARƏT PALATASININ ÜZVÜ VƏ AŞPA-NIN SABİQ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 443
GUAM ÖLKƏLƏRİNİN TURİZM ÜZRƏ QURUMLARI RƏHBƏRLƏRİNİN BEŞİNCİ İCLASINDA MÜHÜM QƏRARLAR QƏBUL EDİLMİŞDİR 443
AZƏRBAYCANIN MALİYYƏ NAZİRİ İRANLI VƏ QƏTƏRLİ HƏMKARLARI İLƏ GÖRÜŞMÜŞDÜR 445
"AZƏRBAYCAN HAVA YOLLARI" QSC-NİN NÜMAYƏNDƏ HEYƏTİ ÇEXİYAYA SƏFƏR ETMİŞDİR 445
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDR DÖVLƏTLƏRİNİN PREZİDENTLƏRİ DAĞLIQ QARABAĞ ÜZRƏ BİRGƏ BƏYANAT VERMİŞLƏR 446
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BELÇİKADA KEÇİRİLMİŞ GÖMRÜK ƏMƏKDAŞLIQ ŞURASININ NÖVBƏTİ SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 446
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ PER STANÇİNANI QƏBUL ETMİŞDİR 448
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALBANİYA PARLAMENTİNİN SƏDRİ JOZEFİNA TOPALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 448
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ, SURİYA-AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ SUFYAN ALAONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 449
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU KANDEH YUMKELLANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 449
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN GDF SUEZ ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ, AVROQAZ-IN PREZİDENTİ JAN-FRANSUA SİRELLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 450
BAŞ NAZİR ALBANİYA PARLAMENTİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 450
BAKIDA AZƏRBAYCAN-POLŞA İŞGÜZAR GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 451
AZƏRBAYCAN VƏ SURİYA ARASINDA İQTİSADİ, ELMİ, TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYANIN BİRİNCİ İCLASI İŞƏ BAŞLAMIŞDIR 451
AZƏRBAYCAN VƏ POLŞA ODESSA-QDANSK NEFT KƏMƏRİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIĞI GÜCLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR 452
FRANSANIN GDF SUEZ ŞİRKƏTİ "ŞAHDƏNİZ-2" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANDAN BÖYÜK HƏCMDƏ QAZIN AVROPAYA ÇATDIRILMASINDA İŞTİRAK ETMƏK NİYYƏTİNDƏDİR 452

FRANSADA FƏALİYYƏT GÖSTƏRƏN BÜTÜN NEFT VƏ QAZ ŞİRKƏTLƏRİ SON 20 İLDƏ AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN GENİŞMİQYASLI ENERJİ LAYİHƏLƏRİNİ DİQQƏTLƏ İZLƏYİRLƏR 453
AZƏRBAYCAN TƏBİİ QAZININ SURİYAYA NƏQL EDİLMƏSİ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 453
XARİCİ İŞLƏR NAZİRİ ALMANİYADA RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 454
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİ QƏBUL ETMİŞDİR 456
BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 457
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT GEORGİ PIRVANOVUN GÖRÜŞÜ 457
AZƏRBAYCAN VƏ BOLQARISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 457
DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 458
BOLQARISTAN PREZİDENTİNİN XANIMI BAKIDA MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR 461
BİRGƏ ŞAM YEMƏYİ 462
BAŞ NAZİR SURİYANIN NEFT VƏ MİNERAL EHTİYATLAR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 462
ASTANADA TOLERANTLIQ VƏ AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏMƏSİ İLƏ ƏLAQƏDAR ATƏT-İN YÜKSƏK SƏVİYYƏLİ KONFRANSI BAŞA ÇATMIŞDIR 463
BMT-NİN SƏNAYENİN İNKİŞAFI TƏŞKİLATININ BAŞ DİREKTORU AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA MƏRUZƏ İLƏ ÇIXIŞ ETMİŞDİR 464
BAKIDA AZƏRBAYCAN RESPUBLİKASI VƏ SURİYA ƏRƏB RESPUBLİKASI HÖKUMƏTLƏRİ ARASINDA BİRGƏ KOMİSSİYANIN BİRİNCİ İCLASI BAŞA ÇATMIŞDIR 464
AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏLAQƏLƏR YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYUR 465
STRASBURQDA "AZƏRBAYCAN GÖMRÜYÜ MƏDƏNİ VƏ DİNİ İRSİN KEŞİYİNDƏ" MÖVZUSUNDA SƏRGİ KEÇİRİLMİŞDİR 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YAYIMLARI BİRLİYİNİN PREZİDENTİ JAN POL FİLİPPO BAŞDA OLMAQLA AVROPA YAYIMLARI BİRLİYİ İDARƏ HEYƏTİNİN RƏHBƏRLİYİNİ QƏBUL ETMİŞDİR 467
MİLLİ MƏCLİSİN SƏDRİ AVROPA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 468
AZƏRBAYCAN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ NİDERLANDDA MƏHKƏMƏ-HÜQUQ ORQANLARI ARASINDA QARŞILIQLI ƏLAQƏLƏRLƏ BAĞLI FİKİR MÜBADİLƏSİ APARMIŞDIR 468
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ 4-CÜ BAKI ENERJİ YAY MƏKTƏBİ İŞƏ BAŞLAMIŞDIR 469
ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR 469
ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR 470
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTONU QƏBUL ETMİŞDİR 470

BİRGƏ NAHAR 471
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA YƏHUDİ KOMİTƏSİNİN İCRAÇI DİREKTORU DEVİD ALLAN HARRİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 471
ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON AZƏRBAYCAN GƏNCLƏR TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 472
ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON: "AZƏRBAYCANDA KİFAYƏT QƏDƏR TƏRƏQQİ ƏLDƏ OLUNMUŞDUR" 472
ABŞ-IN DÖVLƏT KATİBİ HİLLARİ KLİNTONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATMIŞDIR 473
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏNDİRİLMƏSİ NAZİRİ SEYİD MƏHƏMMƏD HÜSEYNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 473
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 473
GƏNCLƏR ENERJİ PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ MƏSƏLƏLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ 4-CÜ BAKI ENERJİ YAY MƏKTƏBİNDƏ MÜZAKİRƏ EDİRLƏR 474
NİDERLAND KRALLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 474
NİDERLAND KRALLIĞI AZƏRBAYCANIN CƏNUBİ QAFQAZDAKI MÖVQEYİNİ YÜKSƏK DƏYƏRLƏNDİRİR VƏ DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNDƏ RƏSMİ BAKININ SİYASƏTİNİ DƏSTƏKLƏYİR 475
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 476
AZƏRBAYCAN İLƏ İRAN ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞA DAİR PROTOKOL İMZALANMIŞDIR 476
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU TONİ HEYVORDU QƏBUL ETMİŞDİR 477
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HEYDƏR ŞİYƏ QUBEYŞİ ƏL-BARRAKIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 477
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ BİRGƏ BƏYANATLA ÇIXIŞ ETMİŞLƏR 477
NİDERLAND KRALLIĞI PARLAMENTİNİN ÜZVLƏRİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ OLMUŞLAR 478
XARİCİ İŞLƏR NAZİRİ İRANIN MƏDƏNİYYƏT VƏ İSLAM MAARİFLƏNDİRİLMƏSİ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 478
PENİTENSİAR XİDMƏTİN RƏİSİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLAN NARKOTİKLƏRƏ NƏZARƏT ÜZRƏ BEYNƏLXALQ KOMİTƏNİN BİRİNCİ VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 478
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZENİ QƏBUL ETMİŞDİR 479
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİSİRİN NEFT NAZİRİ SAMİH FEHMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 479
XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 480

AZƏRBAYCAN VƏ MİSİR NEFT-QAZ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRMƏK NİYYƏTİNDƏDİRLƏR 480
MİSİRİN NEFT NAZİRİ YAXIN GƏLƏCƏKDƏ ÖLKƏSİNDƏ AZƏRBAYCAN NEFT ŞİRKƏTLƏRİNİN DƏ FƏALİYYƏT GÖSTƏRƏCƏYİNƏ ƏMİNLİYİNİ BİLDİRMİŞDİR 481
BEYNƏLXALQ KONFRANSDA QƏBƏLƏ BƏYANNAMƏSİ QƏBUL OLUNMUŞDUR 482
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ KŞİŞTOF KRAYEVSKİNİ DİPLOMATİK FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 483
XARİCİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI PEŞƏ BAYRAMLARI GÜNÜ MÜNASİBƏTİLƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞLƏR 483
AZƏRBAYCAN HÖKUMƏTİ İLƏ BMT ARASINDA 2011-2015-Cİ İLLƏR ÜÇÜN İNKİŞAFA YARDIM ÜZRƏ ÇƏRÇİVƏ SƏNƏDİ İMZALANMIŞDIR 484
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ 484
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR 485
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 485
MİLLİ MƏCLİSDƏ BÖYÜK BRİTANİYA-AZƏRBAYCAN PARLAMENTLƏRARASI QRUPUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 486
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 486
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 487
HEYDƏR ƏLİYEV FONDU İLƏ LİTVANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİ ARASINDA HUMANİTAR SAHƏDƏ ƏMƏKDAŞLIĞA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 487
AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA POLŞANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ KŞİŞTOF KRAYEVSKİ İLƏ GÖRÜŞMÜŞDÜR 488
HEYDƏR ƏLİYEV FONDU FRANSA SƏFİRLİYİ İLƏ BİRGƏ LAYİHƏ REALLAŞDIRACAQDIR 488
AZƏRBAYCAN İLƏ ABŞ STRATEJİ TƏRƏFDAŞDIR 489
MƏRKƏZİ BANKLA USAID ARASINDA ƏMƏKDAŞLIĞIN GƏLƏCƏK İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 490
AZƏRBAYCAN İNFORMASİYA CƏMİYYƏTİNƏ HƏSR OLUNMUŞ FORUMDA TƏMSİL OLUNMUŞDUR 490
HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ FRANSADA AZƏRBAYCAN DİLİNDƏ NƏŞRLƏR HAZIRLANACAQDIR 491
AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA TÜRKİYƏ TALASSEMİYA FEDERASİYASININ RƏHBƏRİ DURAN CANATAN İLƏ GÖRÜŞMÜŞDÜR 491
AZƏRBAYCANIN VƏ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN MÜAVİNLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 492
DÜNYA BANKININ NÜMAYƏNDƏLƏRİ ALİ MƏHKƏMƏDƏ OLMUŞLAR 492

BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ POLŞA DÖVLƏT VROTSLAV UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR SAZİŞ İMZALANMIŞDIR 492
NİDERLAND KRALLIĞININ KRAL SƏRHƏD XİDMƏTİNİN KOMANDANI AZƏRBAYCANDA SƏFƏRDƏDİR 493
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR .. 493
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR .. 494
MOLDOVALI QONAQLAR ALİ MƏHKƏMƏDƏ OLMUŞLAR 494
BAKIDA AZƏRBAYCAN VƏ MOLDOVA KONSTİTUSİYA MƏHKƏMƏLƏRİ ARASINDA QARŞILIQLI ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 495
XARİCİ İŞLƏR NAZİRİ İSVEÇ KRALLIĞININ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 496
XARİCİ İŞLƏR NAZİRİ LATVİYANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 496
XARİCİ İŞLƏR NAZİRİ NORVEÇİN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 496
AZƏRBAYCAN-GÜRCÜSTAN SƏRHƏDİNİN RAZILAŞDIRILMAMIŞ SAHƏLƏRİ İLƏ BAĞLI MÜZAKİRƏLƏRDƏ İRƏLİLƏYİŞ ƏLDƏ OLUNMUŞDUR 497
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PORTUQALİYANIN XARİCİ İŞLƏR NAZİRİ LUİS AMADONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 497
MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 497
RƏSMİ QARŞILANMA MƏRASİMİ 498
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN TƏKBƏTƏK GÖRÜŞÜ 498
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MAVRİTANİYA PREZİDENTİ MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 498
SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ 500
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 501
MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 501
XARİCİ İŞLƏR NAZİRİ PORTUQALİYALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 502
AZƏRBAYCAN RESPUBLİKASI VƏ PORTUQALİYA RESPUBLİKASI ARASINDA İKİ SƏNƏD İMZALANMIŞDIR 502
XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 503
XARİCİ İŞLƏR NAZİRİ MACARISTANIN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 503
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ 503
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 503
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 504
DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 504
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI 504
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 505

BİRGƏ İŞGÜZAR NAHAR 509
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİDƏ QONİO APSAR TARİX-MEMARLIQ MUZEYİNDƏ OLMUŞDUR 509
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİNİN GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞ OLMUŞDUR 509
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA BATUMİDƏ NOBEL QARDAŞLARININ TEXNİKİ MUZEYİNDƏ OLMUŞDUR 510
SƏFƏR BAŞA ÇATDI 510
NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ GÖRÜŞ 510
TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NAXÇIVAN MUXTAR RESPUBLİKASI ARASINDA QAZ BORU KƏMƏRİNİN TİKİNTİSİ BARƏDƏ NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR 511
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 512
NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ 513
XARİCİ İŞLƏR NAZİRİ UKRAYNALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 513
BAKIDA 11-Cİ AZƏRBAYCAN-ALMANİYA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 514
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİÇPAKDİNİ QƏBUL ETMİŞDİR 514
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ENİ ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU PAULO SKARONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 515
XARİCİ İŞLƏR NAZİRİ BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 515
ARDNŞ VƏ İTALİYANIN ENİ ŞİRKƏTİ ARASINDA MÜMKÜN ƏMƏKDAŞLIQ İMKANLARI MÜZAKİRƏ OLUNMUŞDUR 515
AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARININ ƏMƏKDAŞLARINA "DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ" MEDALLARI TƏQDİM EDİLMİŞDİR 516
MİLLİ MƏCLİS SƏDRİNİN MÜAVİNİ ABŞ MİLLİ DEMOKRATİYA İNSTİTUTUNUN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 516
AZƏRBAYCAN PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ CENEVRƏYƏ SƏFƏRİ 517
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TOTAL ŞİRKƏTİNİN TƏHQİQAT VƏ İSTEHSAL ÜZRƏ PREZİDENTİ İV LUİ DARRİKARRERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 519
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ NİKA QİLAURİNİ QƏBUL ETMİŞDİR 520
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYANIN 6-CI İCLASI KEÇİRİLMİŞDİR 520
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ ZƏFƏR ÇAĞLAYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 521
BAŞ NAZİR TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 522
İQTİSADİ İNKİŞAF NAZİRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 523

İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 523
YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVANI QƏBUL ETMİŞDİR 524
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SOSİALİST İNTERNASİONALININ BAŞ KATİBİ LUİS AYALANI QƏBUL ETMİŞDİR 525
XARİCİ İŞLƏR NAZİRİ TÜRKPA-NIN BAŞ KATİBİ İLƏ GÖRÜŞMÜŞDÜR 525
YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA BAKIDA MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞ OLMUŞDUR 526
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA VƏ YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVA BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ OLMUŞ, XALÇA MUZEYİ BİNASININ ESKİZİ İLƏ MARAQLANMIŞLAR 527
YUNESKO-NUN BAŞ DİREKTORU İRİNA BOKOVA: "AZƏRBAYCAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQA NÜMUNƏDİR" 528
DGK-NİN SƏDRİ TÜRKİYƏNİN XARİCİ TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 529
AZƏRBAYCAN-TÜRKİYƏ BİZNES FORUMU KEÇİRİLMİŞDİR 530
QƏBƏLƏ İKİNCİ BEYNƏLXALQ MUSİQİ FESTİVALININ TƏNTƏNƏLİ RƏSMİ AÇILIŞI OLMUŞDUR 531
MEHRİBAN XANIM ƏLİYEVANIN ÇIXIŞI 531
YUNESKO-NUN BAŞ DİREKTORU XANIM İRİNA BOKOVANIN ÇIXIŞI 533
AZƏRBAYCAN KOREYA RESPUBLİKASI İLƏ ƏMƏKDAŞLIĞI YÜKSƏK QİYMƏTLƏNDİRİR 536
AVROPA GƏNCLƏR KARTI ASSOSİASİYASININ PREZİDENTİ BAKIDA SƏFƏRDƏ OLMUŞDUR 536
AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ RAMİZ MEHDİYEV İLƏ RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN ARASINDA GÖRÜŞ KEÇİRİLMİŞDİR 537
AZƏRBAYCAN İLƏ MOLDOVA ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ POTENSİAL VARDIR 537
HƏŞTƏRXAN NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANDA SƏFƏRDƏDİR 537
TÜRKİYƏ AZƏRBAYCANDA İKT SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİ DƏSTƏKLƏYİR 538
İRAQ AZƏRBAYCAN İLƏ MÜNASİBƏTLƏRİN DAHA DA DƏRİNLƏŞMƏSİNDƏ MARAQLIDIR 539
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNDƏ HƏŞTƏRXAN VİLAYƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 540
AZƏRBAYCAN VƏ RUSİYANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 541
TÜRKDİLLİ ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ BODRUMDA MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 541
İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTUNDA KOREYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 541

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞININ ÖLKƏMİZDƏKİ SƏFİRİ JAN LUKAS İNAYAT VAN HOORNU DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 542
AZƏRBAYCANIN DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ NİDERLAND KRALLIĞININ ƏDLİYYƏ NAZİRİ İLƏ GÖRÜŞ 542
AZƏRBAYCAN RESPUBLİKASI İLƏ NİDERLAND KRALLIĞI ARASINDA ƏMƏKDAŞLIQ DİNAMİK İNKİŞAFDADIR 543
NİDERLAND VƏ AZƏRBAYCAN ARASINDA HÜQUQİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 543
AZƏRBAYCAN İLƏ NİDERLAND ARASINDA MİQRASİYA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 544
AZƏRBAYCAN İLƏ NİDERLAND KRALLIĞI ARASINDA ƏLAQƏLƏR İNKİŞAF EDİR 545
AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏ NİDERLANDIN ƏDLİYYƏ NAZİRLİYİ ARASINDA CİNAYƏT İŞLƏRİ ÜZRƏ QEYRİ-ƏMƏLİYYAT ƏMƏKDAŞLIĞINA DAİR ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 546
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOLDOVANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 547
ABŞ İLƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 548
NƏQLİYYAT NAZİRLİYİ İLƏ DÜNYA BANKI ARASINDA AZƏRBAYCANIN YOL SEKTORUNA YARDIMIN ÜÇÜNCÜ MƏRHƏLƏSİ ÜZRƏ KREDİT SAZİŞLƏRİ İMZALANMIŞDIR 548
NİDERLAND KRALLIĞININ ƏDLİYYƏ NAZİRİ ALİ MƏHKƏMƏNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 548
NİDERLANDIN AZƏRBAYCANDAKI SƏFİRİNİN SƏLAHİYYƏT MÜDDƏTİ BAŞA ÇATMIŞDIR 549
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 550
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 550
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 550
TÜRK ƏSGƏRLƏRİNİN XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT 550
RƏSMİ QARŞILANMA MƏRASİMİ 551
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN TƏKBƏTƏK GÖRÜŞ 551
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 552
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 553
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN MƏTBUAT KONFRANSI 553
TÜRKİYƏ AZƏRBAYCANIN MARAQLARINA ZİDD ADDIMLAR ATMAYACAQ VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ƏDALƏTLİ HƏLLİ ÜÇÜN SƏYLƏRİNİ ƏSİRGƏMƏYƏCƏKDİR 557
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 559
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 559
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 559
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN NİTQİ 560
TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜL AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ İLƏ GÖRÜŞMÜŞDÜR 562

TƏZƏPİR MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞLIQ 563
TÜRKİYƏ PREZİDENTİ "AZƏR-TÜRK BANK"IN BAKIDA YENİ BAŞ İNZİBATİ BİNASININ AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR 563
QAXDA YUNUS ƏMRƏ VƏ HACI TAPDIĞIN MƏZARLARINI ZİYARƏT 565
QƏDİM VƏ MÜASİR ŞƏKİ İLƏ TANIŞLIQ 565
SƏFƏR BAŞA ÇATDI 567
LİTVA AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN HƏRTƏRƏFLİ İNKİŞAFINDA MARAQLIDIR . 567
AZƏRBAYCAN VƏ LİTVA AVROPA İTTİFAQININ "ŞƏRQ TƏRƏFDAŞLIĞI" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ ÇOX SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİRLƏR 568
AZƏRBAYCAN MÜSTƏQİLLİK İLLƏRİNDƏ SÜRƏTLİ İNKİŞAF YOLU KEÇMİŞDİR VƏ BU SAHƏDƏ UĞURLARINI DAVAM ETDİRİR 568
AZƏRBAYCAN VƏ LİTVANIN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 569
AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA HƏRBİ ƏMƏKDAŞLIĞIN İNKİŞAF DİNAMİKASI MÜZAKİRƏ OLUNMUŞDUR 570
AZƏRBAYCAN VƏ LİTVA PARLAMENTLƏRİ "TWİNNİNG" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİRLƏR 570
AVSTRİYADA "ZALZBURQ TRİLOQU ELMİ KONFRANS" KEÇİRİLMİŞDİR 571
MOSKVADA MDB DİNLƏRARASI ŞURASININ RƏYASƏT HEYƏTİNİN İCLASI KEÇİRİLİR 571
AZƏRBAYCAN-RUSİYA SƏRHƏDİNDƏ VƏ XƏZƏR DƏNİZİ HÖVZƏSİNDƏ ƏMƏLİYYAT ŞƏRAİTİ VƏ ONUN İNKİŞAF MEYİLLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR .. 572
AZƏRBAYCAN OMBUDSMANI MANİLADA KEÇİRİLMİŞ BEYNƏLXALQ REGİONAL KONFRANSDA İŞTİRAK ETMİŞDİR 572
AZƏRBAYCANLA MEKSİKA ARASINDA GƏNCLƏR SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ MÖVZUSU MÜZAKİRƏ EDİLMİŞDİR 573
AZƏRBAYCAN İLƏ ALMANİYA ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAFI ÜÇÜN GENİŞ POTENSİAL VARDIR 573
NİDERLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR 573
TBİLİSİDƏ "AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN ARASINDA NƏQLİYYAT DƏHLİZİNİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI ÜZRƏ QARŞILIQLI ANLAŞMA HAQQINDA" MEMORANDUMA ƏSASƏN YARADILMIŞ ŞURANIN İCLASI KEÇİRİLMİŞDİR 574
VERGİLƏR NAZİRLİYİNDƏ AVSTRİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ 574
AZƏRBAYCAN VƏ AVSTRİYA ARASINDA GÖMRÜK SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 575
İSTANBULDA KEÇİRİLMİŞ TOPLANTIDA ELMLƏR AKADEMİYALARININ CƏMİYYƏTDƏ ROLU MÜZAKİRƏ OLUNMUŞDUR 576
TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ NAXÇIVANDA QISAMÜDDƏTLİ SƏFƏRDƏ OLMUŞDUR 576
RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 576
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 577
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 577

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 577
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 577
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN NİTQİ 579
RƏSMİ QARŞILANMA MƏRASİMİ 581
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN TƏKBƏTƏK GÖRÜŞÜ 581
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 582
AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİ İMZALANMIŞDIR 583
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN MƏTBUAT KONFRANSI 584
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYADAN ÖLKƏMİZƏ QANUNSUZ GƏTİRİLMİŞ İKONALARI VƏ İNCƏSƏNƏT ƏSƏRLƏRİNİ PREZİDENT DMİTRİ MEDVEDEVƏ TƏQDİM ETMİŞDİR 590
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMİŞDİR 591
HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ 593
AZƏRBAYCAN XALÇALARI RUSİYANIN BİRİNCİ XANIMINI VALEH ETMİŞDİR 594
MÜASİR İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ 595
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEV XANIMLARI İLƏ BİRLİKDƏ "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNU GƏZMİŞ, DƏNİZKƏNARI MİLLİ PARKDA OLMUŞLAR 596
M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU V.SADOVNİÇİ BU ALİ MƏKTƏBİN BAKI FİLİALINDA OLMUŞDUR 597
ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜ BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLARI, DÜNYA İCTİMAİYYƏTİNİ, ELƏCƏ DƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİ CİDDİ NARAHAT ETMƏLİDİR 598
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLANDIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ARJEN PETER UİTERLİNDENİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 599
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 599
AZƏRBAYCAN İLƏ AVROPA İTTİFAQI ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 600
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 600
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNİN REKTORU ƏLİ DOĞRAMACI İLƏ GÖRÜŞMÜŞDÜR 600
ABŞ-IN SABİQ MÜDAFİƏ NAZİRİ CƏNUBİ QAFQAZIN TARİXİNİ, MƏDƏNİYYƏTİNİ ÖYRƏNMƏK ÜÇÜN REGİONA SƏFƏR ETMİŞDİR 601
HEYDƏR ƏLİYEV FONDU İLƏ ABŞ KONQRESİNİN KİTABXANASI ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUMUN İMZALANMASI İLƏ BAĞLI RAZILIQ ƏLDƏ OLUNMUŞDUR 601
İORDANİYA AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN DAHA DA GENİŞLƏNDİRİLMƏSİNDƏ MARAQLIDIR 602

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOVU QƏBUL ETMİŞDİR.. 602
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDENİ QƏBUL ETMİŞDİR.... 603
NİDERLAND KRALLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR.... 603
AZƏRBAYCAN-NİDERLAND PARLAMENTLƏRARASI ƏLAQƏLƏRİ İNKİŞAF EDİR.... 604
BAŞ NAZİR ARTUR RASİZADƏ NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞMÜŞDÜR.... 604
XARİCİ İŞLƏR NAZİRİ ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ REGİONU ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOV İLƏ GÖRÜŞMÜŞDÜR.... 605
XARİCİ İŞLƏR NAZİRİ NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR.... 605
NORVEÇİN SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR.... 606
LATVİYANIN SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNƏ TƏQDİM ETMİŞDİR.... 606
NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ RENE VAN DER LİNDEN TƏHSİL NAZİRLİYİNDƏ OLMUŞDUR.... 606
DÜNYA GÖMRÜK TƏŞKİLATININ NÜMAYƏNDƏSİ AZƏRBAYCANDADIR.... 607
NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞDUR.... 607
ARDNŞ-DƏ NİDERLAND KRALLIĞI SENATININ SƏDRİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR.. 607
XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI.... 608
AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ "MSPO" BEYNƏLXALQ MÜDAFİƏ MƏMULATLARI SƏRGİSİNDƏ İŞTİRAK ETMİŞDİR.... 609
ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ REGİONA SƏFƏRLƏRİNİN YEKUNU İLƏ BAĞLI BƏYANAT YAYMIŞLAR.... 609
BRÜSSELDƏ AZƏRBAYCAN-AVROPA İTTİFAQI ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN 11-Cİ İCLASI KEÇİRİLMİŞDİR.... 610
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BEYNƏLXALQ İŞƏGÖTÜRƏNLƏR TƏŞKİLATININ AVROPALI ÜZVLƏRİNİN İLLİK TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR. 611
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN SABİQ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQANI QƏBUL ETMİŞDİR.... 611
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ VİTSE-PREZİDENTİ FİLİP LE UERUNU QƏBUL ETMİŞDİR.... 612
AZƏRBAYCAN İLƏ LATVİYA ARASINDA DOSTLUQ MÜNASİBƏTLƏRİ YÜKSƏK SƏVİYYƏDƏ İNKİŞAF EDİR.... 612
DÜNYA BANKININ VİTSE-PREZİDENTİ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNDƏ OLMUŞDUR.... 612
RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKU AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR.... 613
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR.... 613
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞÜ.... 614

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ.... 614
DÖVLƏT BAŞÇILARI BİRGƏ ŞAM ETMİŞLƏR.... 614
DÖVLƏT BAŞÇILARI DƏNİZKƏNARI MİLLİ PARKDA, "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ FƏVVARƏLƏR MEYDANINDA OLMUŞLAR.... 614
MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRƏ GƏLMİŞDİR.... 615
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ GÖRÜŞÜ.... 615
AZƏRBAYCAN, GÜRCÜSTAN, RUMİNİYA VƏ MACARISTANIN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ DÖRDTƏRƏFLİ GÖRÜŞÜ.... 616
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI.... 616
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI.... 623
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RƏSMİ QƏBUL TƏŞKİL EDİLMİŞDİR.... 630
RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR.... 630
GÜRCÜSTAN PREZİDENTİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR.... 631
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM.... 631
GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR.... 631
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR.... 631
BAŞ NAZİR DÜNYA BANKININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR.... 632
MİLLİ MƏCLİSİN SƏDRİ LATVİYANIN SABİQ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR.... 632
LATVİYANIN SABİQ PREZİDENTİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA MƏRUZƏ İLƏ ÇIXIŞ ETMİŞDİR.... 633
ƏDLİYYƏ NAZİRİ DÜNYA BANKININ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR.... 633
MÜDAFİƏ NAZİRLİYİNDƏ KEÇİRİLƏN GÖRÜŞDƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN YARATDIĞI PROBLEMLƏR BARƏDƏ FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR.... 634
AZƏRBAYCAN VƏ LATVİYANIN MƏDƏNİYYƏT SAHƏSİNDƏ GƏLƏCƏK ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR.... 634
AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNDƏ AGRİ LAYİHƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ SƏNƏDLƏR İMZALANMIŞDIR.... 635
PREZİDENT İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİNİN KƏŞFİYYAT XİDMƏTLƏRİ VƏ TƏHLÜKƏSİZLİK ORQANLARI RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN BAKIDA KEÇİRİLƏN XI İCLASINDA İŞTİRAK EDƏN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR.... 636
AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ DÖVLƏT KOMİTƏSİNDƏ LATVİYANIN SABİQ PREZİDENTİ XANIM VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ OLMUŞDUR.... 637
MOSKVADA MDB BAŞ PROKURORLARININ ƏLAQƏLƏNDİRMƏ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR.... 638
BAKIDA MDB ÖLKƏLƏRİNİN TƏHLÜKƏSİZLİK ORQANLARI VƏ KƏŞFİYYAT XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ MÜŞAVİRƏSİNİN XI İCLASI KEÇİRİLMİŞDİR.... 638

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 640
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 640
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 640
AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ QURULMASI HAQQINDA BİRGƏ BƏYANNAMƏ İMZALANMIŞDIR 641
TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN BƏYANATI 641
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 642
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTANIN KEÇİD DÖVRÜ PREZİDENTİ ROZA OTUNBAYEVANIN GÖRÜŞÜ 645
DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ ŞAM YEMƏYİ 645
İSTANBULDA TÜRKDİLLİ ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN TOPLANTISI OLMUŞDUR 645
İSTANBULDA AZƏRBAYCAN, TÜRKİYƏ VƏ TÜRKMƏNİSTANIN ENERJİ NAZİRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR 646
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ 646
İSTANBULDA TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ X ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 647
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 648
TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI BİRGƏ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR 651
DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ NAHAR 651
SƏFƏR BAŞA ÇATDI 651
AZƏRBAYCAN DÖVLƏT MİQRASİYA XİDMƏTİ İLƏ BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATI ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 652
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI İLƏ BOLQAR MÜƏLLİMLƏR BİRLİYİ ARASINDA ƏMƏKDAŞLIĞA DAİR MÜQAVİLƏ İMZALANMIŞDIR 652
DİASPORLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ LATVİYANIN SABİQ PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 653
LATVİYANIN SABİQ PREZİDENTİ AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNDƏ OLMUŞDUR 653
AZƏRBAYCAN VƏ İRANIN SƏRHƏD XİDMƏTLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNDİRİLİR 654
PREZİDENT İLHAM ƏLİYEV "AZƏRBAYCAN YAŞIL DÜNYA NAMİNƏ" DEVİZİ ALTINDA KEÇİRİLƏN BEYNƏLXALQ EKOLOGİYA SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR 655
AZƏRBAYCANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞDƏ YENİ İNFRASTRUKTUR LAYİHƏLƏRİ İLƏ BAĞLI RAZILIQ ƏLDƏ EDİLMİŞDİR 656
MOSKVADA MDB İQTİSADİ ŞURASININ İCLASI OLMUŞDUR 657
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ İLƏ İTALİYANIN PERUCA UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR 658
AUDİTORLAR PALATASININ SƏDRİ İSTANBULDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETMİŞDİR 658

ASİYA İNKİŞAF BANKININ VİTSE-PREZİDENTİ AZƏRBAYCANDA SƏFƏRDƏ OLMUŞDUR 659
TÜRKPA-NIN YARADILMASI BÜTÜN TÜRK DÜNYASININ BİRLİYİNİN ƏSASINI QOYMUŞDUR 660
AZƏRBAYCAN İLƏ İSVEÇRƏ ARASINDA ƏMƏKDAŞLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 661
TÜRKPA-NIN YARADILMASI BÜTÜN TÜRK DÜNYASI BİRLİYİNİN DAHA DA MÖHKƏMLƏNMƏSİNƏ BÖYÜK TÖHFƏLƏR VERİR 661
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNDƏ QIRĞIZISTANIN GƏNCLƏR İŞLƏRİ ÜZRƏ NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 662
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 662
BAKIDA "DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRİN İNKİŞAF PROSESİNDƏ PARLAMENT DEMOKRATİYASI" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 663
AZƏRBAYCAN OMBUDSMANI AVROPA İTTİFAQININ MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 664
TÜRKPA-YA ÜZV ÖLKƏLƏRİN NÜFUZLU ALİ TƏHSİL OCAQLARI ARASINDA ƏMƏKDAŞLIQ QARŞILIQLI FAYDA GƏTİRƏCƏKDİR 665
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI CENEVRƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ MƏRKƏZİ İLƏ BİRGƏ "QANUNUN ROLU VƏ YAXŞI İDARƏÇİLİK" MÖVZUSUNDA KURSA BAŞLAMIŞDIR 665
AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ ŞÖBƏ MÜDİRİ ƏLİ HƏSƏNOV MOSKVADA RUSİYA DÖVLƏT HAKİMİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 666
AZƏRBAYCAN İLƏ MEKSİKA ARASINDA İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 667
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 668
GÖRÜŞDƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 668
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA İRANLI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR 669
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-A İŞGÜZAR SƏFƏRİ 669
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ DÖVLƏT KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTAR İLƏ GÖRÜŞÜ 669
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-A İŞGÜZAR SƏFƏRİ 670
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 670
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ABŞ PREZİDENTİ BARAK OBAMANIN GÖRÜŞÜ 674
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-A İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATMIŞDIR 674
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA ƏFQANISTANLI DİPLOMATLAR ÜÇÜN TRENİNQ KEÇİRİLMİŞDİR 675
DAŞKƏNDDƏ AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN 9-CU İCLASI KEÇİRİLMİŞDİR 675
AZƏRBAYCANIN RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ NYU-YORKDA MİNİLLİYİN İNKİŞAF MƏQSƏDLƏRİNƏ HƏSR OLUNMUŞ İCLASDA İŞTİRAK ETMİŞDİR 675

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ İLƏ BOLQARISTANIN ÖZƏLLƏŞDİRMƏ VƏ ÖZƏLLƏŞMƏDƏN SONRA NƏZARƏT AGENTLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 676
AZƏRBAYCAN ASİYA İNKİŞAF BANKI İLƏ UĞURLA ƏMƏKDAŞLIQ EDİR 677
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ NYU-YORKDA ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 678
XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV NYU-YORKDA BİR SIRA GÖRÜŞLƏR KEÇİRMİŞDİR 678
NYU-YORKDA GUAM-IN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 679
AZƏRBAYCAN-GÜRCÜSTAN SƏRHƏDİNİN DELİMİTASİYASI MÜZAKİRƏ OLUNMUŞDUR 679
MƏRAKEŞ KRALLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 679
AZƏRBAYCAN-İTALİYA MÜNASİBƏTLƏRİ SÜRƏTLƏ İNKİŞAF EDİR 681
İTALİYA AZƏRBAYCANIN MÖVQEYİNİ DƏSTƏKLƏYİR 681
İTALİYA SENATININ ÜZVLƏRİ AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINI YÜKSƏK QİYMƏTLƏNDİRİRLƏR 682
YUNİSEF-İN ƏLİLLƏRİN HÜQUQLARI ÜZRƏ EKSPERTİ OMBUDSMAN APARATINDA OLMUŞDUR 683
VYANADA BAEA-NIN BAŞ KONFRANSININ 54-CÜ SESSİYASI KEÇİRİLMİŞDİR 683
KONSTİTUSİYA MƏHKƏMƏSİNDƏ AVROPA ŞURASI VENESİYA KOMİSSİYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR 684
AZƏRBAYCAN VƏ TÜRKİYƏ ARASINDA DÖVLƏT QULLUĞU ÜZRƏ ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞLƏR KEÇİRİLMİŞDİR 685
ASİYA İNKİŞAF BANKININ NÜMAYƏNDƏLƏRİ DÖVLƏT NEFT FONDUNDA OLMUŞLAR 685
MİLLİ MƏCLİSƏ SEÇKİLƏRLƏ ƏLAQƏDAR ALİ MƏHKƏMƏDƏ VENESİYA KOMİSSİYASI İLƏ BİRLİKDƏ BEYNƏLXALQ KONFRANS KEÇİRİLMİŞDİR 686
AZƏRBAYCAN İSLAM KONFRANSI TƏŞKİLATININ NÖVBƏTİ SAMMİTİNİN BAKIDA KEÇİRİLMƏSİNİ TƏKLİF ETMİŞDİR 687
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖZBƏKİSTAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ 688
ÖZBƏKİSTAN PREZİDENTİNİN İQAMƏTGAHINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ 688
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ÖZBƏKİSTAN PREZİDENTİ İSLAM KƏRİMOVUN TƏKBƏTƏK GÖRÜŞÜ 688
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ 691
AZƏRBAYCAN-ÖZBƏKİSTAN SƏNƏDLƏRİ İMZALANMIŞDIR 695
DÖVLƏT BAŞÇILARININ MƏTBUAT ÜÇÜN BƏYANATLARI 696
PREZİDENT İLHAM ƏLİYEV ÖZBƏKİSTAN SENATININ BİNASI İLƏ TANIŞ OLMUŞDUR 699
MÜSTƏQİLLİK MEYDANI KOMPLEKSİ İLƏ TANIŞLIQ 699
FORUMLAR SARAYI İLƏ TANIŞLIQ 700
"HƏZRƏTİ-İMAM" MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞLIQ 700

DAŞKƏNDDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR 700
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 703
SƏFƏR BAŞA ÇATDI 703
MEHRİBAN ƏLİYEVA: AZƏRBAYCANDA MƏKTƏBƏQƏDƏR TƏHSİLİN İNKİŞAFINA BÖYÜK DİQQƏT YETİRİLİR 703
AZƏRBAYCAN İLƏ BMT-NİN ƏHALİ FONDU ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 706
BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ MOSKVA FİZİKA-TEXNİKİ İNSTİTUTU ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 706
TEHRANDA SƏFƏRDƏ OLAN AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BİR QRUPU İRANDA RƏSMİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 707
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN BİR QRUPU İRAN PREZİDENTİNİN MÜŞAVİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 708
TEHRANDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN RƏSMİ AÇILIŞI OLMUŞDUR 708
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN BİRİNCİ VİTSE-PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ ƏLİ AĞAMƏHƏMMƏDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 709
AZƏRBAYCAN İLƏ MƏRAKEŞ ARASINDA İQTİSADİ MÜNASİBƏTLƏRİN İNKİŞAFI ÜÇÜN GENİŞ POTENSİAL MÖVCUDDUR 709
AZƏRBAYCAN İLƏ ÇEXİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI HƏR İKİ TƏRƏF ÜÇÜN VACİBDİR 709
İQTİSADİ İNKİŞAFINA, REGİONDAKI ROLUNA GÖRƏ BAŞQALARINDAN ƏSASLI SÜRƏTDƏ FƏRQLƏNƏN AZƏRBAYCAN ÇEXİYA ÜÇÜN MÜHÜM ƏHƏMİYYƏT KƏSB EDƏN PRİORİTET ÖLKƏDİR 710
AZƏRBAYCANIN MÜKƏMMƏL SEÇKİ SİSTEMİ VARDIR 711
AZƏRBAYCAN ÇEXİYA ÜÇÜN MARAQLI VƏ ÖNƏMLİ ÖLKƏDİR 712
BAŞ NAZİR RUSİYA FEDERASİYASININ MİQRASİYA XİDMƏTİNİN DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 712
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA GÖRÜŞ 713
AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ TƏQDİRƏLAYİQ TƏCRÜBƏ QAZANILMIŞDIR 713
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ƏSİRLƏRİN QAYTARILMASI MƏSƏLƏSİNİ MÜZAKİRƏ ETMİŞDİR 714
AZƏRBAYCAN-KUBA İŞGÜZAR GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 714
BAKI SLAVYAN UNİVERSİTETİ İLƏ TÜRKİYƏNİN QAZİ UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 715
ANKARA UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR 716
ÖZBƏKİSTANIN "KAMOLOT" GƏNCLƏR İCTİMAİ HƏRƏKATININ NÜMAYƏNDƏ HEYƏTİ GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNDƏ OLMUŞLAR 716
BQXK İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIQ YÜKSƏK SƏVİYYƏDƏDİR 717
AZƏRBAYCAN İLƏ RUSİYA FEDERASİYASI ARASINDA HÜQUQİ ƏMƏKDAŞLIQ GENİŞLƏNİR 718

AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ RUSİYADA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 719
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 719
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 720
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇ KRALLIĞININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 720
AZƏRBAYCAN İLƏ İRAN ARASINDA İQTİSADİ SAHƏDƏ ƏMƏKDAŞLIQ DAİM İNKİŞAFDADIR 721
ÇEXİYA SÜRƏTLƏ İNKİŞAF EDƏN AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINDA MARAQLIDIR 721
RUSİYA FEDERAL MİQRASİYA XİDMƏTİNİN DİREKTORU KONSTANTİN ROMODANOVSKİ QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 722
BAKIDA MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN MİQRASİYA ORQANLARININ RƏHBƏRLƏRİ ŞURASININ 8-Cİ İCLASI KEÇİRİLMİŞDİR 723
AZƏRBAYCAN İLƏ ÇEXİYA ARASINDA ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN BÖYÜK İMKANLAR VARDIR 724
AZƏRBAYCAN İLƏ İRAN ARASINDA İQTİSADİ ƏLAQƏLƏRİN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 724
AZƏRBAYCANIN FÖVQƏLADƏ HALLAR NAZİRİ İRAN İSLAM RESPUBLİKASININ BİRİNCİ VİTSE-PREZİDENTİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 724
RUSİYA AZƏRBAYCAN İLƏ HÜQUQİ SAHƏDƏ ƏMƏKDAŞLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ XÜSUSİ ÖNƏM VERİR 725
PREZİDENT İLHAM ƏLİYEV BAKIDA "CASPİAN AGRO-2010" III BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ EMALI VƏ QABLAŞDIRMA SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR 725
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİ YURİ BOYKONU QƏBUL ETMİŞDİR 728
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ MASAMİTSU OKİNİ DİPLOMATİK FƏALİYYƏT MÜDDƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 728
DİPLOMATİK VƏ XİDMƏTİ PASPORTLARA MALİK AZƏRBAYCAN VƏTƏNDAŞLARI AVSTRİYA, BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ VƏ MİSİR DÖVLƏTLƏRİNİN ƏRAZİLƏRİNƏ VİZASIZ DAXİL OLA, TRANZİT QAYDADA KEÇƏ BİLƏRLƏR 728
İSTANBULDA KEÇİRİLƏN FORUMDA AZƏRBAYCANIN ENERJİ STRATEGİYASI DİQQƏT MƏRKƏZİNDƏ OLMUŞDUR 729
AZƏRBAYCANIN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ TƏBRİZDƏ RƏSMİ GÖRÜŞ KEÇİRMİŞDİR 730
AZƏRBAYCAN VƏ RUSİYANIN ELMİ İNSTİTUTLARI ARASINDA ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALANMIŞDIR 730
CENEVRƏDƏ DÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATINA ÜZV ÖLKƏLƏRİN RƏHBƏR ŞƏXSLƏRİNİN 48-Cİ İCLASINDA AZƏRBAYCAN DA TƏMSİL OLUNMUŞDUR 731
ADA-NIN REKTORU HAFİZ PAŞAYEV DİPLOMATİK TƏLİM ÜZRƏ BEYNƏLXALQ FORUMDA ÇIXIŞ ETMİŞDİR 731

AZƏRBAYCAN VƏ İSVEÇRƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİ BERNDƏ MƏSLƏHƏTLƏŞMƏLƏR APARMIŞLAR 732
AZƏRBAYCAN İLƏ BMT-NİN AVROPA İQTİSADİ KOMİSSİYASI ARASINDA ƏLAQƏLƏR İNKİŞAF EDİR 733
BRÜSSELDƏ AZƏRBAYCANIN ƏFQANISTANDA BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNİN KEÇİRDİYİ ƏMƏLİYYATA TÖHFƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 733
AZƏRBAYCAN ABŞ-A NOTA VERMİŞDİR 734
AZƏRBAYCANIN TƏHSİL NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ MƏDİNƏDƏKİ İSLAM UNİVERSİTETİNDƏ OLMUŞDUR 734
ASTANADA "ASİYA VƏ SAKİT OKEAN REGİONUNDA ƏTRAF MÜHİT VƏ İNKİŞAF" ADLI VI KONFRANS İŞİNİ BAŞA ÇATDIRMIŞDIR 735
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BAKIDA YƏHUDİ MƏKTƏBİNİN AÇILIŞI MÜNASİBƏTİLƏ RESPUBLİKAMIZA GƏLƏN YƏHUDİ İCMALARININ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 735
BAKININ XƏTAİ RAYONUNDA YƏHUDİ UŞAQLAR ÜÇÜN "XABAD-OR-AVNER" TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR 737
MOSKVADA MDB DÖVLƏTLƏRİNİN MƏDƏNİ ƏMƏKDAŞLIQ ŞURASININ YUBİLEY İCLASI KEÇİRİLMİŞDİR 739
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI ƏFQANISTAN VƏTƏNDAŞLARI ÜÇÜN KURS TƏŞKİL ETMİŞDİR 740
LİXTENŞTEYN KNYAZLIĞI AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN DAHA DA GENİŞLƏNMƏSİNDƏ MARAQLIDIR 740
YAPONİYANIN AZƏRBAYCANDAKI SƏFİRİNİN SƏLAHİYYƏT MÜDDƏTİ BAŞA ÇATMIŞDIR 741
MİLLİ MƏCLİSİN KOMİTƏ SƏDRLƏRİ LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞLƏR 741
ŞLOMO AMAR: "AZƏRBAYCAN O ÖLKƏLƏRDƏNDİR Kİ, BURADA YƏHUDİLƏR MİLLİ MƏNSUBİYYƏTLƏRİ İLƏ FƏXR EDİRLƏR" 742
AVROPA MÜHASİBAT VƏ AUDİTORLAR FEDERASİYASININ İCRAÇI DİREKTORU AUDİTORLAR PALATASINDA OLMUŞDUR 743
AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU İLƏ TÜRKİYƏNİN İSTANBUL UNİVERSİTETİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 743
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN DAĞLIQ QARABAĞ ƏTRAFINDAKI ƏRAZİLƏRDƏ QİYMƏTLƏNDİRİCİ MİSSİYASININ ÜZVLƏRİNİ, ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 744
ASTANADA "KAZENERJİ-2010" 5-Cİ AVRASİYA ENERGETİKA FORUMU KEÇİRİLİR 744
AZƏRBAYCAN VƏ QAZAXISTAN FÖVQƏLADƏ HALLAR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 745
BAKIDA MDB-YƏ ÜZV ÖLKƏLƏRİN TİKİNTİDƏ TEXNİKİ NORMALLAŞDIRMA, STANDARTLAŞMA VƏ SERTİFİKATLAŞDIRMA ÜZRƏ DÖVLƏTLƏRARASI ELMİ-TEXNİKİ KOMİSSİYASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 745
QƏBƏLƏDƏ MDB DÖVLƏTLƏRARASI HİDROMETEOROLOGİYA ŞURASININ 22-Cİ SESSİYASI BAŞA ÇATMIŞDIR 746

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ NƏZARƏT EDƏN YÜKSƏK VƏZİFƏLİ NÜMAYƏNDƏLƏRİN BİRİNCİ BEYNƏLXALQ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMİŞDİR..... 746

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-NİN İCRAÇI DİREKTORU ROBERT DADLININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 748

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ VLADİMİR PUTİN ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR..... 748

XARİCİ İŞLƏR NAZİRİ İORDANİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 749

KİYEVDƏ İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ AZƏRBAYCAN-UKRAYNA HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ VIII İCLASI KEÇİRİLMİŞDİR..... 749

AZƏRBAYCANIN DAXİLİ İŞLƏR NAZİRİ ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 750

HAVANADA İKT ÜZRƏ KUBA-AZƏRBAYCAN FORUMU KEÇİRİLMİŞDİR..... 750

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ NAZİRİ ƏHMƏD VƏHİDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 751

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, PREZİDENTİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİN BAŞÇILIQ ETDİYİ HEYƏTİ QƏBUL ETMİŞDİR..... 751

MÜDAFİƏ NAZİRİ İRANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 752

XARİCİ İŞLƏR NAZİRİ İRANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 752

BOSNİYA VƏ HERSEQOVİNANIN AZƏRBAYCANDA YENİ SƏFİRİ TƏYİN OLUNMUŞDUR..... 753

MEKSİKANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ TƏQDİM ETMİŞDİR..... 753

OMANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ TƏQDİM ETMİŞDİR..... 753

MAVRİTANİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ TƏQDİM ETMİŞDİR..... 754

VENESUELANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ TƏQDİM ETMİŞDİR..... 754

ZAMBİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ETİMADNAMƏSİNİN SURƏTİNİ TƏQDİM ETMİŞDİR..... 754

NƏQLİYYAT NAZİRİ LİTVALI HƏMKARI İLƏ GÖRÜŞMÜŞDÜR..... 755

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 755

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OMANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 756

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VENESUELANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 757

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ZAMBİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 757

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MAVRİTANİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 757

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOSNİYA VƏ HERSEQOVİNANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 758

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MEKSİKANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR..... 758

BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN MÜAVİNLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR..... 759

XƏZƏRYANI ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN MÜAVİNLƏRİ MƏTBUAT KONFRANSI KEÇİRMİŞLƏR..... 760

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ İRAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR..... 760

AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ İRANIN MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 761

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ KEÇMİŞ SOVET YƏHUDİLƏRİ MİLLİ KONFRANSININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 761

AZƏRBAYCAN RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ MEKSİKADA SƏFƏRDƏ OLMUŞDUR..... 762

ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ AZƏRBAYCANIN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNƏ SƏFƏR ETMİŞ QİYMƏTLƏNDİRİCİ MİSSİYA İLƏ BAĞLI BƏYANAT YAYMIŞDIR..... 762

DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ KEÇMİŞ SOVET YƏHUDİLƏRİ MİLLİ KONFRANSININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 763

ALMANİYA İLƏ HÜQUQİ ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNDƏ BİRGƏ TƏDBİRLƏR KEÇİRİLİR..... 764

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ İLƏ KOREYA RESPUBLİKASININ STRATEGİYA VƏ MALİYYƏ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR..... 764

HİNDİSTANIN PƏNCAB ŞTATININ NÜMAYƏNDƏ HEYƏTİ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİNDƏ OLMUŞDUR..... 765

ATƏT PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN MÜAVİNİ MİLLİ MƏCLİSİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 766

XARİCİ İŞLƏR NAZİRİ GÜRCÜSTANDA SƏFƏRDƏ OLMUŞDUR..... 766

ŞANXAY EXPO-2010 SƏRGİSİNDƏ AZƏRBAYCAN GÜNÜ KEÇİRİLMİŞDİR..... 768

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ ÜZRƏ ATƏT-İN MÜŞAHİDƏÇİ MİSSİYASININ RƏHBƏRİ VOLFQANQ QROSSRUKUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 769

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN FƏXRİ PREZİDENTİNİ VƏ ATICILIQ ÜZRƏ AVROPA KONFEDERASİYASININ SƏDRİNİ QƏBUL ETMİŞDİR..... 769

OMBUDSMAN ATƏT DTİHB-NİN SEÇKİLƏRİ MÜŞAHİDƏ MİSSİYASININ SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR..... 770

CİDDƏDƏ "AZƏRBAYCAN XIII İSLAM ZİRVƏ GÖRÜŞÜNÜ KEÇİRMƏYƏ HAZIRDIR" MÖVZUSUNDA TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR..... 770

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN MALİYYƏ KATİBİNİN MÜAVİNİ STÜART LİVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 771

ABŞ-IN MALİYYƏ KATİBİNİN MÜAVİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ OLMUŞDUR 771
STANDARTLAŞDIRMA, METROLOGİYA VƏ PATENT ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏLƏRİ ALMANİYA FEDERATİV RESPUBLİKASINDA İŞGÜZAR GÖRÜŞLƏR KEÇİRMİŞLƏR 771
ƏR-RIYADDA "AZƏRBAYCAN XIII İSLAM ZİRVƏ GÖRÜŞÜNÜ KEÇİRMƏYƏ HAZIRDIR" ADLI TƏQDİMAT KEÇİRİLMİŞDİR 772
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ DEVİD LİDİNQTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 773
XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN AZƏRBAYCANDA TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 774
XARİCİ İŞLƏR NAZİRİ FƏLƏSTİNİN AZƏRBAYCANDA TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 774
XARİCİ İŞLƏR NAZİRİ YAPONİYANIN AZƏRBAYCANDA TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 774
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ MDB MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ KRIMDA KEÇİRİLMİŞ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 775
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ ÖLKƏMİZDƏ KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNİN MÜŞAHİDƏ OLUNMASI ÜZRƏ XÜSUSİ KOMİTƏSİNİN SEÇKİQABAĞI MİSSİYASININ RƏHBƏRİ POL VİLLİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 776
MÜDAFİƏ NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏ ERMƏNİSTAN- AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ƏTRAFINDA FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR 776
XARİCİ İŞLƏR NAZİRİ BÖYÜK BRİTANİYANIN AVROPA MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 776
BAKIDA AZƏRBAYCAN VƏ AVSTRİYA RESPUBLİKALARI ARASINDA ƏMƏKDAŞLIQ ÜZRƏ QARIŞIQ KOMİSSİYASININ VI İCLASI KEÇİRİLMİŞDİR 777
NƏQLİYYAT NAZİRLİYİNDƏ BÖYÜK BRİTANİYANIN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 778
AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏLAQƏLƏRİN HƏRTƏRƏFLİ İNKİŞAFI ÜÇÜN MÖHKƏM HÜQUQİ BAZA VARDIR 778
BAKIDA III BEYNƏLXALQ BANK KONFRANSI KEÇİRİLMİŞDİR 779
İSTANBULDA DÜNYA TÜRK FORUMU KEÇİRİLMİŞDİR 780
AZƏRBAYCAN MƏRKƏZİ BANKI İLƏ AVSTRİYA MİLLİ BANKI ARASINDA ƏMƏKDAŞLIĞIN BEŞ İLİ TAMAM OLMUŞDUR 781
ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HAQLARI BÜROSUNUN AZƏRBAYCANDA KEÇİRİLƏCƏK PARLAMENT SEÇKİLƏRİNİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ MİLLİ MƏCLİSİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 782
EDİNBORO UNİVERSİTETİNİN REKTORU ADU-DA OLMUŞDUR 783
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ BÖYÜK BRİTANİYANIN ESSEKS UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALAMIŞDIR 783
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ MEKSİKADA KEÇİRİLƏN MİLLİ OLİMPİYA KOMİTƏLƏRİ ASSOSİASİYASININ XVII ASSAMBLEYASINDA İŞTİRAK ETMİŞDİR 783
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA MİLLİ TELEKOMPANİYASINA, BU ÖLKƏNİN "PROFİL-UKRAYNA" JURNALINA VƏ "DEN" QƏZETİNƏ MÜSAHİBƏSİ 784
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FƏLƏSTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 793
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 794
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 794
AZƏRBAYCAN VƏ RUSİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 795
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ 795
HƏŞTƏRXAN ŞƏHƏRİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİ AÇILMIŞDIR 795
HƏŞTƏRXANDA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 798
AZƏRBAYCAN RESPUBLİKASININ, ERMƏNİSTAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR 2010-CU İL 27 OKTYABR TARİXLİ BİRGƏ BƏYANATI 798
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 799
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HƏŞTƏRXAN KREMLİ VƏ ŞƏHƏRİN GÖRMƏLİ YERLƏRİ İLƏ TANIŞ OLMUŞDUR 799
AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA DÖVLƏT SƏRHƏDİ HAQQINDA MÜQAVİLƏYƏ ƏLAVƏ OLAN SƏNƏD İMZALANMIŞDIR 799
AZƏRBAYCAN PREZİDENTİNİN RUSİYAYA İŞGÜZAR SƏFƏRİ BAŞA ÇATDI 800
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA RƏSMİ SƏFƏRİ 800
RƏSMİ QARŞILANMA MƏRASİMİ 800
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN TƏKBƏTƏK GÖRÜŞÜ 800
AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ İKİNCİ İCLASI 801
SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 802
BİRGƏ MƏTBUAT KONFRANSI 802
UKRAYNA PREZİDENTİ VİKTOR YANUKOVİÇİN BƏYANATI 802
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 803
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 806
UKRAYNANIN BAŞ NAZİRİ İLƏ GÖRÜŞ 807
"NAMƏLUM ƏSGƏR" ABİDƏSİNİ ZİYARƏT 807
1930-CU İLLƏRDƏ ACLIQDAN HƏLAK OLANLARIN XATİRƏSİNƏ EHTİRAM 808
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT 808
SƏFƏR BAŞA ÇATDI 808
MONQOLUSTANIN BAŞ DÖVLƏT GÖMRÜK İDARƏSİ İLƏ AZƏRBAYCAN DÖVLƏT GÖMRÜK KOMİTƏSİ ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLU İMZALANMIŞDIR 808
AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 809

ALİ MƏHKƏMƏDƏ MDB MÜŞAHİDƏ MİSSİYASI QƏRARGAH RƏİSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR 809
AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞUNDA MDB MÜŞAHİDƏ MİSSİYASI QƏRARGAHININ RƏHBƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 810
TÜRKİYƏNİN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ 810
DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ SANKT- PETERBURQDA KEÇİRİLMİŞ BEYNƏLXALQ KONQRESDƏ İŞTİRAK ETMİŞLƏR 811
MÜDAFİƏ NAZİRİ ÇİN XALQ RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR 812
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ KÜVEYTDƏ SƏFƏRDƏ OLMUŞDUR 813
"AZƏRBAYCAN RESPUBLİKASI VƏ ÇİN XALQ RESPUBLİKASI ARASINDA TƏSLİMETMƏ HAQQINDA MÜQAVİLƏ"NİN RATİFİKASİYA SƏNƏDLƏRİNİN MÜBADİLƏSİ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR 814
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-NİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDİ İNQLİSİ BU VƏZİFƏDƏ FƏALİYYƏTİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ QƏBUL ETMİŞDİR 815
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ VECDİ GÖNÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 815
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ƏFQANISTAN ÜZRƏ IV REGİONAL İQTİSADİ ƏMƏKDAŞLIQ KONFRANSINDA İŞTİRAK ETMİŞDİR 816
BAŞ NAZİR TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 817
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 818
AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİ NAZİRİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 818
AZƏRBAYCANIN DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN RƏİSİ TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 818
AZƏRBAYCAN BEYNƏLXALQ LAYİHƏ İDARƏETMƏ ASSOSİASİYASININ İSTANBULDA KEÇİRİLMİŞ 24-CÜ DÜNYA KONQRESİNDƏ TƏMSİL OLUNMUŞDUR 819
BAKIDA XƏZƏRDƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ DÖRDÜNCÜ İCLAS KEÇİRİLMİŞDİR 819
XƏZƏR DƏNİZİNDƏ TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN LAYİHƏSİ İLƏ BAĞLI ƏSAS MƏSƏLƏLƏR RAZILAŞDIRILMIŞDIR 820
ASTANADA AZƏRBAYCAN-QAZAXISTAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ İCLASI KEÇİRİLMİŞDİR 820
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA PARLAMENTİ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 821
AZƏRBAYCANIN BİRİNCİ XANIMI, HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN TÜRKİYƏYƏ SƏFƏRİ 821
NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏMƏKDAŞLIQ UĞURLA İNKİŞAF EDİR 826
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MƏRAKEŞDƏ SƏFƏRDƏ OLMUŞDUR 827
XARİCİ İŞLƏR NAZİRİ MDB-NİN MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 827

XARİCİ İŞLƏR NAZİRİ TÜRKPA-NIN MÜŞAHİDƏ MİSSİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 827
NİDERLANDDA AVROPA MƏTBUAT ŞURALARI ALYANSININ XII İLLİK TOPLANTISI KEÇİRİLMİŞDİR 828
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR 828
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA MDB MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ OLMUŞDUR 828
DAŞKƏNDDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BİRİNCİ MİLLİ SƏRGİSİ AÇILMIŞDIR 829
ÖZBƏKİSTANIN BAŞ NAZİRİ DAŞKƏNDDƏ KEÇİRİLƏN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ SƏRGİSİNDƏ OLMUŞDUR 830
AZƏRBAYCANIN İLK TELEKOMMUNİKASİYA PEYKİNİN ORBİTƏ ÇIXARILMASI BARƏDƏ FRANSA ŞİRKƏTİ İLƏ MÜQAVİLƏ İMZALANMIŞDIR 830
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ, MDB PA-NIN MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ƏLAQƏLƏNDİRİCİSİ SVETLANA ORLOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 831
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİ MƏSƏLƏSİNİ MÜZAKİRƏ ETMİŞLƏR 831
PAKİSTANIN MİLLİ MENECMENT KOLLECİNİN DİNLƏYİCİLƏRİ AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA OLMUŞLAR 831
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASININ MÜŞAHİDƏÇİLƏR QRUPUNUN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 832
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ OLMUŞDUR 832
MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA TÜRKPA NÜMAYƏNDƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 833
DAŞKƏNDDƏ AZƏRBAYCAN MİLLİ SƏRGİSİ YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL OLUNMUŞDUR 833
"KASPİ" TƏHSİL MƏRKƏZİ BAKIDA 3-CÜ BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ KEÇİRMİŞDİR 834
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB İCRAİYYƏ KOMİTƏSİNİN İCRAÇI KATİBİ SERGEY LEBEDEVİ QƏBUL ETMİŞDİR 835
AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN PRESS-RELİZİ 836
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞMÜŞDÜR 836
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN TİCARƏT NAZİRİ ŞƏFAƏDDİN MƏHƏMMƏD ƏL-SAFININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 837
BAŞ NAZİR İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 837
AZƏRBAYCAN İLƏ İRAQ ARASINDA BİRGƏ ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏD İMZALANMIŞDIR 838
MÜDAFİƏ NAZİRLİYİNDƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏ NATO İLƏ AZƏRBAYCAN ARASINDA ƏLAQƏLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 839

MİLLİ MƏCLİSİN SƏDRİ İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 839
BAŞ NAZİRİN MÜAVİNİ KÜVEYTİN QADIN MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 840
XARİCİ İŞLƏR NAZİRİ İRAQIN TİCARƏT NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 840
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA KÜVEYTİN QADIN MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 841
AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMLƏRİ SAHƏSİNDƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 841
İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 842
ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM 842
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT 842
RƏSMİ QARŞILANMA MƏRASİMİ 843
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ .. 843
GENİŞ TƏRKİBDƏ DANIŞIQLAR 843
AZƏRBAYCAN İLƏ İRAN ARASINDA ENERJİ VƏ NƏQLİYYAT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 844
İRANDA İSTEHSAL OLUNAN AVADANLIQLA TANIŞLIQ 845
AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 845
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 845
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI 847
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 848
BAŞ NAZİR İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 848
XARİCİ İŞLƏR NAZİRİ İRAN PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 849
AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA İRAN PREZİDENTİNİN XANIMI ƏZƏM ƏS-SƏADƏT FƏRƏHİ İLƏ GÖRÜŞMÜŞDÜR 849
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD TƏZƏPİR MƏSCİD KOMPLEKSİ İLƏ TANIŞ OLMUŞDUR 850
TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 850
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 851
RUSİYA FEDERASİYASININ PREZİDENTİ DMİTRİ MEDVEDEV AZƏRBAYCANA SƏFƏRƏ GƏLMİŞDİR 851
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN GÖRÜŞÜ 851
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ 853
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN GÖRÜŞÜ 854
BAKIDA XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 855

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ 855
XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNÜN SƏNƏDLƏRİ İMZALANMIŞDIR 863
XƏZƏRYANI ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ ETMİŞLƏR 863
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 863
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN BƏYANATI 865
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI 865
RUSİYA PREZİDENT DMİTRİ MEDVEDEVİN BƏYANATI 866
TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN BƏYANATI 867
RUSİYA PREZİDENTİ DMİTRİ MEDVEDEVİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 869
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 869
TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDİMƏHƏMMƏDOVUN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 869
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 869
AZƏRBAYCAN İLƏ LİVAN ARASINDA ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 870
SANKT-PETERBURQDA MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLMİŞDİR 870
LİVANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ TƏHSİL NAZİRLİYİNDƏ OLMUŞDUR 871
LİVANLA AZƏRBAYCAN ARASINDA GƏNCLƏR SİYASƏTİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 871
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ 872
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİSSABONDA BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYƏ YARDIM QÜVVƏLƏRİNƏ TÖHFƏ VERƏN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ İCLASINDA İŞTİRAK ETMİŞDİR 872
AZƏRBAYCAN İLƏ PORTUQALİYA ARASINDA VİZALARIN LƏĞV OLUNMASI BARƏDƏ SAZİŞ İMZALANMIŞDIR 873
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN PORTUQALİYAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 873
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İSGƏNDƏRİYYƏ KİTABXANASI İLƏ ƏMƏKDAŞLIQ EDƏCƏKDİR 873
LİVANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ MOK-UN VİTSE-PREZİDENTİ İLƏ GÖRÜŞMÜŞDÜR 874
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 874
AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 874
MOSKVADA AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR 875

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 875
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKUTEL-2010" BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞ OLMUŞDUR 875
MİSİRİN İSGƏNDƏRİYYƏ KİTABXANASININ DİREKTORU MİLLİ MƏCLİSİN SƏDRİ İLƏ GÖRÜŞMÜŞDÜR 877
BAKIDA REGİONAL RABİTƏ BİRLİYİNİN RABİTƏ ADMİNİSTRASİYALARI BAŞÇILARI ŞURASININ 43-CÜ İCLASI KEÇİRİLMİŞDİR 879
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ, İQTİSADİYYAT NAZİRİ VALDEMAR PAVLYAKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 879
BAŞ NAZİR POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 880
XARİCİ İŞLƏR NAZİRİ POLŞANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 880
AZƏRBAYCANIN XARİCİ SİYASƏT İDARƏSİ İLƏ ARGENTİNANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ DİN MƏSƏLƏLƏRİ NAZİRLİYİ ARASINDA MEMORANDUM İMZALANMIŞDIR 881
BAKIDA AZƏRBAYCAN-POLŞA BİZNES FORUMU KEÇİRİLMİŞDİR 881
BAKIDA AZƏRBAYCAN-POLŞA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ 4-CÜ İCLASI KEÇİRİLMİŞDİR 882
ARDNŞ-İN PREZİDENTİ ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 883
KƏND TƏSƏRRÜFATI NAZİRİ ARGENTİNANIN XARİCİ İŞLƏR, BEYNƏLXALQ TİCARƏT VƏ DİN MƏSƏLƏLƏRİ ÜZRƏ NAZİRİNİN MÜAVİNİ ALBERTO PEDRO D'ALOTTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 884
KİYEVDƏ GUAM ÖLKƏLƏRİNİN MİLLİ ƏLAQƏLƏNDİRİCİLƏR ŞURASININ 20-Cİ İCLASI KEÇİRİLMİŞDİR 884
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKMƏNİSTANIN BAŞ NAZİRİNİN MÜAVİNİ XIDIR SAPARLIYEVİ QƏBUL ETMİŞDİR 886
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ VƏ ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 886
BAŞ NAZİR TÜRKMƏNİSTANIN BAŞ NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞMÜŞDÜR 887
BAKIDA AZƏRBAYCAN-TÜRKMƏNİSTAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 887
AZƏRBAYCAN İLƏ FRANSA ARASINDA KONSTİTUSİYA ƏDALƏT MÜHAKİMƏSİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 888
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASI İLƏ ARGENTİNANIN DİPLOMATİK XİDMƏT İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANMIŞDIR 888
ARGENTİNA ŞİRKƏTLƏRİ ARDNŞ İLƏ ƏMƏKDAŞLIQ QURMAQ NİYYƏTİNDƏDİRLƏR 889
AZƏRBAYCAN İLƏ POLŞA ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 889
YUNESKO İLƏ AZƏRBAYCAN ARASINDA YENİ BİR MÜQAVİLƏ İMZALANMIŞDIR 890

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ MİLAN ROÇENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 891
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN YORQ HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR 891
AZƏRBAYCAN FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ BELARUSDA SƏFƏRDƏ OLMUŞDUR 892
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞMÜŞDÜR 892
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 892
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNDƏ MONTENEQRONUN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 893
YUNESKO-DA AZƏRBAYCANLA BAĞLI HƏQİQƏTLƏR SƏSLƏNDİRİLMİŞDİR 894
TÜRKDİLLİ XƏBƏR AGENTLİKLƏRİ BİRLİYİNİN MƏŞVƏRƏT TOPLANTISI KEÇİRİLMİŞDİR 896
ELEKTRON HÖKUMƏT SAHƏSİNDƏ AVSTRİYA TƏCRÜBƏSİ MARAQ DOĞURUR 896
İSTANBULDA AVROPA ƏDLİYYƏ NAZİRLƏRİNİN 30-CU KONFRANSI KEÇİRİLMİŞDİR 897
AZƏRBAYCAN RESPUBLİKASI VƏ İSPANİYA KRALLIĞI ARASINDA İDMAN SAHƏSİNDƏ MEMORANDUM İMZALANMIŞDIR 898
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QİƏT XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ TOPLANTISINDA ÇIXIŞ ETMİŞDİR 898
AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI VƏ FRANSA MİLLİ ARAŞDIRMALAR MƏRKƏZİ ARASINDA MÜQAVİLƏ İMZALANMIŞDIR 899
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞAL FONDUNUN PREZİDENTİ KREYQ KENNEDİNİ QƏBUL ETMİŞDİR 899
AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ ÖZBƏKİSTANIN BAŞ NAZİRİ, PARLAMENT SENATININ VƏ ALI MƏCLİSİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞMÜŞ, HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ OLMUŞDUR 900
ATƏT-İN ASTANADA KEÇİRİLƏCƏK ZİRVƏ GÖRÜŞÜNƏ HAZIRLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 900
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN SAMMİTİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QAZAXISTANA SƏFƏRİ 900
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇ İLƏ GÖRÜŞÜ 901
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ASTANADA ATƏT-İN VII SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR 901
PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI 902
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 903
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ NİDERLANDIN BAŞ NAZİRİ MARK RUTTENİN GÖRÜŞÜ 904
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YUNANISTANIN BAŞ NAZİRİ GEORGE PAPANDREUNUN GÖRÜŞÜ 904

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRALİYANIN XARİCİ İŞLƏR NAZİRİ KEVİN RADDIN GÖRÜŞÜ 904
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MIXAIL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 905
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TÜRKÜN GÖRÜŞÜ 905
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEYİN GÖRÜŞÜ 905
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ NİK KLEQİN GÖRÜŞÜ 905
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ AVSTRİYA PREZİDENTİ HAYNTS FİŞERİN GÖRÜŞÜ 906
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN GÖRÜŞÜ 906
NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARININ ŞƏRƏFİNƏ QƏBUL 906
ATƏT-İN ASTANA (QAZAXISTAN) SAMMİTİNDƏ ATƏT-İN HƏMSƏDRLƏRİ OLAN ÖLKƏLƏRİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN BAŞÇILARININ, AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ BƏYANATI 907
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 907
ASTANADA GUAM ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 13-CÜ İCLASI KEÇİRİLMİŞDİR 908
BAŞ NAZİR DÜNYA POÇT İTTİFAQI BEYNƏLXALQ BÜROSUNUN BAŞ DİREKTORU EDUARD DAYAN İLƏ GÖRÜŞMÜŞDÜR 908
İORDANİYADA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR 909
AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA TİBB SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLMİŞDİR 909
İORDANİYADA AZƏRBAYCAN MƏDƏNİYYƏT GÜNLƏRİ KEÇİRİLMİŞDİR 910
MƏRKƏZİ BANKIN SƏDRİ DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU İLƏ GÖRÜŞMÜŞDÜR 912
BAKIDA ÖZBƏKİSTANIN İLK MİLLİ SƏRGİSİ AÇILMIŞDIR 913
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ MACARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 913
AZƏRBAYCAN İLƏ İTALİYA ARASINDA DİPLOMATİK VƏ XİDMƏTİ PASPORTLARA MALİK ŞƏXSLƏR ÜÇÜN VİZALARIN LƏĞV EDİLMƏSİ HAQQINDA SAZİŞ İMZALANMIŞDIR 914
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇRƏNİN SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 914
SMPDK İLƏ ALMANİYA METROLOGİYA İNSTİTUTU ARASINDA NİYYƏT PROTOKOLU İMZALANMIŞDIR 915
AZƏRBAYCANIN VƏ RUSİYANIN AUDİTORLAR PALATALARI ARASINDA ƏMƏKDAŞLIQ SAZİŞİ İMZALANMIŞDIR 915
BRÜSSELDƏ AVROPA İTTİFAQI-AZƏRBAYCAN ƏMƏKDAŞLIQ ŞURASININ İCLASI KEÇİRİLMİŞDİR 915
AZƏRBAYCAN HESABLAMA PALATASI İLƏ İSVEÇRƏ KONFEDERASİYASI HÖKUMƏTİ ARASINDA SAZİŞ İMZALANMIŞDIR 916

AZƏRBAYCANIN GƏNCLƏR VƏ İDMAN NAZİRİ STRASBURQDA İŞGÜZAR SƏFƏRDƏ OLMUŞDUR 917
MOSKVADA MDB ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI OLMUŞDUR 917
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA GƏLMİŞDİR 918
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMİŞDİR 918
SƏFƏR BAŞA ÇATDI 920
BAKIDA AZƏRBAYCAN VƏ BELARUS XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİNƏ DAİR NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 920
AZƏRBAYCAN-RUMINİYA ƏLAQƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 921
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏ KONFEDERASİYASININ ÖLKƏMİZDƏKİ SƏFİRİ ALAİN QUİDETTİNİ DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR QƏBUL ETMİŞDİR 921
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN OMV ŞİRKƏTİ İCRAİYYƏ ŞURASININ SƏDRİ VOLFQANQ RUTTENSTORFERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 922
TÜRKİYƏ, TÜRKMƏNİSTAN VƏ ÖZBƏKİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ İLƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR MÜZAKİRƏ OLUNMUŞDUR 922
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR FRANSIZ AKTYORU JERAR DEPARDYENİ QƏBUL ETMİŞDİR 922
LİTVA ATƏT-Ə SƏDRLİYİ DÖVRÜNDƏ DÖVLƏTLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜNÜN QORUNMASI PRİNSİPLƏRİNƏ XÜSUSİ ÖNƏM VERƏCƏKDİR 923
AZƏRBAYCAN-LİTVA ƏLAQƏLƏRİ STRATEJİ TƏRƏFDAŞLIQ SƏVİYYƏSİNƏ YÜKSƏLMİŞDİR 923
AZƏRBAYCAN LİTVA İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ÖNƏM VERİR 924
PEKİNDƏ AZƏRBAYCAN XAM NEFTİNİN ÇİNƏ NƏQLİ ÜZRƏ ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 925
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ JOLT ÇUTORANIN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR 925
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA "AZƏRBAYCAN MÜSTƏQİLLİKDƏN SONRA" KİTABININ TƏQDİMAT MƏRASİMİ OLMUŞDUR 926
PARİSDƏ YUNESKO-NUN YARADILMASININ 65 İLLİYİ İLƏ BAĞLI MƏRASİM KEÇİRİLMİŞDİR 926
AZƏRBAYCAN VƏ LİTVA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 929
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ ABŞ DÖVLƏT KATİBİ HİLLARİ KLİNTON ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 930
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ KOREYA RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR 930
DÖVLƏT TORPAQ VƏ XƏRİTƏÇƏKMƏ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏDƏ SƏFƏRDƏ OLMUŞDUR 931
AZƏRBAYCAN VƏ RUSİYA FEDERASİYASININ DAĞISTAN RESPUBLİKASI ARASINDA GƏNCLƏR SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUM İMZALANMIŞDIR 931

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASINDA XARİCDƏ TƏHSİL ALAN FƏLSƏFƏ DOKTORLARININ ÜÇÜNCÜ İLLİK SEMİNARI KEÇİRİLİR 932
MDB-NİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN GÖMRÜK XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ HÜQUQ MÜHAFİZƏ BÖLMƏLƏRİ BAŞÇILARI KOMİTƏSİNİN V İCLASI KEÇİRİLMİŞDİR 932
AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ XARİCİ SİYASƏT PROQRAMI MƏZUNLARININ NÖVBƏTİ BURAXILIŞ MƏRASİMİ KEÇİRİLMİŞDİR 933
BAKI DÖVLƏT UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ KOREYA RESPUBLİKASINDA SƏFƏRDƏ OLMUŞDUR 934
İSTANBULDA İƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN TOPLANTISI KEÇİRİLMİŞDİR 935
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 935
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QIRĞIZISTANIN KEÇİD DÖVRÜ PREZİDENTİ ROZA OTUNBAYEVANIN GÖRÜŞÜ 935
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ABDULLAH GÜLÜN GÖRÜŞÜ 935
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 936
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 936
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XI SAMMİTİNDƏ İŞTİRAK ETMİŞDİR 936
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 937
DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 939
SƏFƏR BAŞA ÇATDI 939
TÜRKİYƏ, AZƏRBAYCAN VƏ İRAN XARİCİ İŞLƏR NAZİRLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜNDƏ BİRGƏ BƏYANAT QƏBUL EDİLMİŞDİR 940
AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA İDMAN VƏ GƏNCLƏR SİYASƏTİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNMUŞDUR 941
AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 941
AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİ ARASINDA TELEFON DANIŞIĞI OLMUŞDUR 942
DÜNYA AZƏRBAYCANLILARINA 942
MOSKVA FİZİKA-TEXNİKİ İNSTİTUTUNUN NÜMAYƏNDƏLƏRİ BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ OLMUŞLAR 943
AZƏRBAYCAN VƏ TOQO ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN QURULMASI HAQQINDA RƏSMİ SƏNƏD İMZALANMIŞDIR 944
FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ RUSİYA FEDERASİYASINDA SƏFƏRDƏ OLMUŞDUR 944
AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFINA YÖNƏLMİŞ XARİCİ SİYASƏT XƏTTİ KEÇƏN İL DƏ UĞURLA DAVAM ETDİRİLMİŞDİR 944
PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ 950

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİN SİYAHISI 954
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 955
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2010-CU İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 961

cool print
T.: 994 12 - 496 79 95

Yığılmağa verilmişdir : 12.02.2013
Çapa imzalanmışdır : 23.05.2013
Format : 70x100 1/16
Fiziki ç.v. : 64,5
Tirajı : 500